AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FƏLSƏFƏ VƏ SOSİOLOGİYA İNSTİTUTU

FAİQ ƏLƏKBƏRLİ

# AZƏRBAYCAN TÜRK FƏLSƏFİ VƏ İCTİMAİ FİKİR TARİXİ (XIX-XX ƏSRLƏR)

## 3 CİLDDƏ

## II CİLD

## (Birinci kitab)

AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun Elmi Şurasının 24.10.2023-cü il tarixli, 06 saylı iclasının qərarı ilə çapa məsləhət görülmüşdür

**"Elm və təhsil"**

**BAKI-2023**

**Elmi redaktorlar:** **Rafail Əhmədli**
*professor, fəlsəfə elmləri doktoru*
**Zeynəddin Şabanov**
*dosent, fəlsəfə üzrə fəlsəfə doktoru*

**Rəyçilər:** **Əlikram Tağıyev**
*professor, fəlsəfə elmləri doktoru*
**Sakit Hüseynov**
*professor, fəlsəfə elmləri doktoru*
**Müstəqil Ağayev**
*dosent, fəlsəfə üzrə fəlsəfə doktoru,*
*Qabaqcıl Maarif Xadimi*

**Faiq Ələkbərli. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər).Üç cilddə, II cild (Birinci kitab).Bakı, "Elm və təhsil", 2023, 800 s. (Tamamlanmış və əlavələrlə yenidən işlənilmiş ikinci nəşri)**

AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi, dosent, fəlsəfə üzrə fəlsəfə doktoru Faiq Ələkbərlinin (Qəzənfəroğlu) "Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər)" adlı əsərinin ikinci cildində XX əsr Quzey Azərbaycan Türk fəlsəfi fikrinin inkişaf yollarından və bu fəlsəfi fikrin tanınmış Azərbaycan Türk mütəfəkkirlərinin dünyagörüşlərindən bəhs olunur. Müəllif burada Quzey Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixinin inkişaf yollarını üç istiqamətdə təhlil etmişdir: 1) Milli-demokratik və siyasi-fəlsəfi ideya cərəyanları: türkçülük/azərbaycançılıq, çağdaşlıq və islamçılıq (Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə, M.B.Məhəmmədzadə, Ü.Hacıbəyli, Ə.Topçubaşı, N.Yusifbəyli və b.); 2) Marksizm-leninizm ideologiyası: milli təmayülçülük və beynəlmiləlçilik (N.Nərimanov, S.M.Əfəndiyev, R.Axundov, H.Hüseynov, C.Nağıyev və b.); 3) Milli maarifçilik fəlsəfəsi: realizm və romantizm (C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, M.Ə.Sabir, H.Cavid, A.Şaiq, A.Səhhət, M.Hadi və b.).

Kitabın II cildinin I kitabında milli-demokratik və siyasi-fəlsəfi ideya cərəyanları: türkçülük/azərbaycançılıq, çağdaşlıq və islamçılığın nümayəndələrindən (Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə, Ə.Topçubaşı, Ə.Müznib, F.b.Köçərli, M.B.Məhəmmədzadə, Ü.Hacıbəyli, N.Yusifbəyli, A.İldırım və b.) bəhs olunmuşdur.

Kitab Azərbaycan Türk fəlsəfəsi, mədəniyyəti, ədəbiyyatı və tarixi ilə maraqlananlar, eləcə də Azərbaycan Türk fəlsəfəsinin ÜmumTürk fəlsəfəsində yerini araşdıranlar və geniş oxucu kütləsinin faydalanması üçün nəzərdə tutulmuşdur.

**ISBN: 978-9952-81-76-0-7**

**Təkmilləşdirilmiş təkrar nəşr**
**© Faiq Ələkbərli, 2020**
**© Faiq Ələkbərli, 2023**

# İÇİNDƏKİLƏR

**Ön söz**......................................................................................5

**I FƏSİL XX əsr Quzey Azərbaycanda ictimai-siyasi və mədəni mühit (icmal)**

1.1. 1901-1920-ci illər Quzey Azərbaycanda sosial-siyasi və mədəni mühit..............................................................31
1.2. 1920-1991-ci illər Quzey Azərbaycanda sosial-siyasi və mədəni mühit..............................................................61

**II FƏSİL Quzey Azərbaycan Türk mütəfəkkirlərinin fəlsəfi və ictimai-siyasi fikrinin inkişaf yolları**

2.1. Milli-demokratik və siyasi-fəlsəfi ideya cərəyanları: türkçülük/azərbaycançılıq, müasirlik və islamçılıq (ümumi baxış və əsas nümayəndələri)..........................................97
**Əli bəy Hüseynzadə.....................................................193**
**Əhməd bəy Ağaoğlu....................................................235**
**Məhəmməd Əmin Rəsulzadə........................................297**
**Əlimərdan bəy Topçubaşı.............................................371**
**Mirzə Bala Məhəmmədzadə..........................................399**
**Nəsib bəy Yusifbəyli.....................................................427**
**Firidun bəy Köçərli.......................................................449**
**Yusif Vəzir Çəmənzəminli............................................485**
**Üzeyir bəy Hacıbəyli.....................................................515**

**Abdulla Sur...............................................................539**
**Haşım bəy Vəzirov.......................................................561**
**Əlabbas Müznib............................................................583**
**Yusif Ziya Talıbzadə....................................................605**
**Ümgülsüm Sadıqzadə...................................................627**
**Seyid Hüseyn Sadıqzadə..............................................647**
**Almas İldırım...............................................................669**
**Ceyhun Hacıbəyli.........................................................687**
**Hüseyn Baykara............................................................705**
**Əhməd Cəfəroğlu..........................................................727**
**Süleyman Təkinər.........................................................749**

**Nəticə**...........................................................................767
**Qaynaqlar**.....................................................................775

# ÖN SÖZ

XX əsr Azərbaycan Türk fəlsəfi və ictimai-siyasi fikir tarixini yazmağın asan olduğu qədər çətin tərəfləri də kifayət qədərdir. Çünki Azərbaycan türkləri bir əsr ərzində siyasi müstəqillik və siyasi ideologiyalar (islamçılıq, türkçülük, azərbaycançılıq, sosial-demokratizm, marksizm-leninizm, liberalizm və b.) baxımından çox ziddiyyətli dövrünü yaşamış, əlifbasından tutmuş dilinin adına qədər ümummilli məsələlərdə çox ciddi dəyişikliklərlə üzbəüz qalmışdır. Minillər boyu əsasən azad, hürr yaşamış Azərbaycan türklərinin bir qisminin (Quzey Azərbaycanın) çar Rusiyasının işğalına məruz qalıb "müstəmləkə xalq" siyasətinin qurbanına çevrilməsi onun fəlsəfəsinə, tarixinə, mədəniyyətinə, dövlətçilik ənənələrinə böyük zərbə olmuşdur. Çar Rusiyası, Sovet Rusiyası ideoloqları Quzey Azərbaycan türklərini, bütövlükdə Qafqaz türklərini daim işğal altında tutmaq üçün yalnız torpaqlarını deyil, milli-mənəvi ruhunu da assimilyasiya etmə prosesinə başlamışdır. Bununla da, ən azı son iki əsrdə həmin imperiyanın ideoloqları Qafqaz türkləri arasında "parçala və hökm sür!" siyasətinə uyğun olaraq Rusiya təfəkkürlü, rusdilli xalqlar formalaşdırmağa çalışmışlar.

Son iki əsrdə Çarlıq-Sovet ideoloqlarının rus təfəkkürlü, rusdilli görmək istədiyi xalqlardan biri də Quzey Azərbaycan türkləri olmuşdur. Çünki Quzey Azərbaycan türkləri Qafqaz türkləri arasında xüsusi çəkiyə sahib olub Türkmənçay müqaviləsini (1828, 10 fevral) qətiyyən qəbul etməmiş, daima milli azadlıq davası aparmış və özünü hazırda "İran" adlanan ölkədə (əslində Turan torpaqlarının mərkəzi qismində) yaşayan Türk xalqlarından, özəlliklə Güney Azərbaycan türklərindən heç bir zaman ayrı hesab etməmişlər. Məhz Quzey Azərbaycan türklərinin bu təbii hiss və haqlarını yaxşı bildikləri üçün də, imperiya ideoloqları işğal etdikləri Qafqazda türklərə və türklüyə qarşı amansız bir savaş açmış, onları qeyri-türklər (Türk olmayanlarla) və qeyri-türklüklə (Türk dünyagörüşünə yad olanlarla) əvəz etməyə çalışmışdır.

Şübhəsiz, onlar üçün bu yolda da əsas məqsəd, ilk növbədə Türklüyü istər milliyyət, istərsə də mədəniyyət, dünyagörüş anlamında vəhşilik, barbarlıq kimi qələmə vermək, İslam dininin xurafat və mövhumatdan uzağa getməməsinə çalışmaq, bununla paralel olaraq xristianlaşdırma, ruslaşdırma təbliğatını gücləndirməklə Quzey Azərbaycan türklərinin milli şüurunda assimilyasiya prosesi aparmaq olmuşdur. Çarlıqla sovet ideoloqları türklük və islamlığı Qafqazda, o cümlədən Quzey Azərbaycanda (yeri gəlmişkən, burada coğrafi anlamda nəzərdə tutduğumuz Quzey Azərbaycan indiki Azərbaycan Respublikası ilə eyniləşdirilməməlidir. Əslində burada nəzərdə tutulan Quzey Azərbaycan Dərbənddən Naxçıvana, ya da İrəvana, Astaradan Tiflisə qədərki bir coğrafiyanı əhatə edir) təhrif olunmuş şəkildə təqdim etməklə rus təfəkkürlü, rusdilli xalq yaratmaq niyyəti güdmüşdür.

Bu proses Çarlıq Rusiyası dövründə başlamış və Sovet Rusiyası dövründə isə davam etdirilmişdir. Belə ki, Çarlıq dövründə Quzey Azərbaycan türklərini əvvəlcə "tatar" adlandırıb onun dilinin, ədəbiyyatının, tarixinin "yaranma"sının "qayğısı"na qalan rus ideoloqlar "rus-tatar məktəbləri"ndə xeyli dərəcədə rusdilli ziyalı kütlənin formalaşmasına nail ola bilmişdir.[1] Artıq XIX əsrin ikinci yarısından başlayaraq "Rus-tatar məktəbləri"nin, Çarlıq universitetlərinin məzunlarının xeyli bir qismi özünü və təmsil olunduğu cəmiyyətin gələcəyini "Böyük Rusiya"da görməyə başlamışdır. "Böyük Rusiya" mədəniyyətinin təsiri altında formalaşan rusdilli, rus təfəkkürlü ziyalıların böyük qısmi də Azərbaycan Atəbəyləri, Elxanilər, Baharlılar, Bayandırlılar, Səfəvilər, Əfşarlar dövründəki vahid dövlət və milli mənsubiyyət bütünlüyünü bir kənara qoyub, bunun yerinə Rusiyaya münasibətdə bağlılıq hisslərini təbliğ edirdilər. Məhz bunun nəticəsi olaraq XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan Türk ziyalılarından bir qismində (M.Əzizbəyov, S.M.Əfəndiyev, N.Nərimanov, Ə.Qarayev, R.Axundov və b.) nə olursa olsun "Böyük Rusiya" ilə bir yerdə olmaq, ondan ay-

[1] Şeyxzamanlı Nağı. Azərbaycan istiqlal mücadiləsi xatirələri. Bakı, "Azərbaycan" nəşriyyatı, 1997, s.27-28

rılmamaq düşüncəsi var idi.[2]

Doğrudur, çar Rusiyası dövründə bu proses imperiyanı bürüyən inqilablarla, daha sonra da onun dağılması ilə (1917) yarımçıq qaldı və Qafqaz türkləri, o cümlədən Quzey Azərbaycan türkləri Qacarlarla Osmanlılara münasibətdə təbii milli-dini hisslərini əsasən saxlaya bilmişdilər. Hər halda XIX əsrin sonu, XX əsrin əvvəllərində Quzey Azərbaycan türklərinin, onun ziyalılarının çoxunun (Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə, H.Cavid, M.Hadi və b.) əsas fəaliyyət dairəsi və dünyagörüşü Bakı, Gəncə, Tiflisdən sonra ya Tehran və Təbriz, ya da İstanbulla bağlı olmuşdur. Cəmi iki ilə yaxın ömür sürən Azərbaycan Cümhuriyyəti də Türk dünyagörüşünün, Türkçülük şüurunun məhsulu idi. Bu o qədər təbii idi ki, Azərbaycan Cümhuriyyətinin qurucusu, milli ideoloq, mütəfəkkir Məhəmməd Əmin Rəsulzadənin təbrincə desək, 1828-ci il işğalından sonra yenidən "istiqlalın dadı"nı görmüş Quzey Azərbaycan türkləri üçün "istiqlal fikri ölməmişdir".[3] Bu anlamda Sovet Rusiyasının 71 illik müstəmləkəçilik dövründə Quzey Azərbaycan türklərinin apardığı Milli azadlıq hərəkatında, iki illik müstəqilliyin ayrıca dəyəri və yeri var idi.

Ancaq onu da unutmaq olmaz ki, Sovet Rusiyasının 71 illik müstəmləkəçiliyi çar Rusiyasının müstəmləkəçiliyindən daha ağrılı, sərt olmuşdu. Sadəcə, Sovet-Rus ideoloqları Quzey Azərbaycan türkləri ilə bağlı Çarlıq Rusiyasının yarımçıq qoymağa məcbur olduğu rusdilli, rus təfəkkürlü xalq formalaşdırmaq siyasətini geniş miqyasda bir qədər gec, yəni 27 aprel işğalından dərhal sonra deyil, əsasən 1930-cu illərin ortalarından etibarən başladı. Buna səbəb də aşağıda daha geniş şəkildə qeyd etdiyimiz kimi, marksist-leninçi Stalin prinsiplərinin tam formalaşmaması və nisbi müstəqilliyin fəlsəfə sahəsində də hökm sürməsi idi. Əslində bu "nisbi müstəqillik" daha çox marksizm-leninizmin təbliğində "sağ və sol opportu-

---

[2] Ələkbərov F.Q. Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış. I hissə. Bakı, "Təknur", 2011, s.310-313

[3] Rəsulzadə M.Ə. Əsrimizin Siyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı, Gənclik, 1991, s.54-55, 110-111

nistlər"in olması, Sovet proletariatının mahiyyətinin tam dəqiqləşməməsi, milli mədəniyyətlə sosialist-rus mədəniyyət arasındakı ziddiyyətlərin hələ də qalması idi. Ona görə də, repressiyayaqədərki dövrdə (1920-1936) "nisbi müstəqillik"dən istifadə edən fəlsəfəçilər də fəlsəfənin əsas problemlərində, eyni zamanda sosial fəlsəfəyə (cəmiyyət, millət, şəxsiyyət, etnos və s.) aid məsələlərdə istər-istəməz fərqli mülahizələrlə çıxış edirdilər. Repressiyayaqədərki dövrdə kosmopolitizmə yuvarlanma da, "köhnə" və "yeni" nəsil arasında gedən mübarizə də məhz "nisbi müstəqillik" dövrünün məhsulları idi. Bizcə, Sovet Rusiyasında, o cümlədən Quzey Azərbaycanda az-çox özünəməxsus, fərqli fəlsəfi mülahizələrin 1920-1936-cı illər arasında ortaya çıxmasının kökünü məhz "nisbi müstəqillik"lə izah etmək olar. Ancaq repressiyanın sərtləşməsi və Stalin prinsiplərinin gerçəkləşməsi ilə bütün imperiyada, o cümlədən Quzey Azərbaycanda da fəlsəfi ehkamlar qətiləşdi.

İlk dövrlərdə Quzey Azərbaycanda türklüyün üstünə əsaslı şəkildə gedə bilməyən Sovet Rusiyasının çox keçmədən Çarlıqdan da sərt formada türksüzləşdirmə siyasətinə başlaması gözlənilən idi. Sovet-Rus ideoloqlarının türksüzləşdirmə siyasətinin əsasında minilliklər boyu Türk dünyagörüşünün daşıyıcısı olan, üstəlik əsas nüvədən zorla ayrı yaşamağa məcbur edilən Qafqaz türklərinin, Quzey Azərbaycan türklərinin milli varlığının üstündən xətt çəkilib yeni rusdilli, rus təfəkkürlü "xalq" yaratmaq idi.[4] Guya, Çarlıq Rusiyasının işğalından sonra, xüsusilə də XIX əsrin ikinci yarısında formalaşan "Azərbaycanlı" adlı "xalq" Türk dilində danışsa da Türk deyilmiş, sadəcə "türkdilli" imiş, üstəlik bu "türkdilli xalq" yarı Qafqazdillidən, yarı İrandillidən ibarət olub XI əsrdə Səlcuqların Orta Asiyadan Azərbaycana hərbi yürüşləri nəticəsində zorla türkləşiblərmiş! Sovet-Rus ideoloqları iddia edirdilər ki, Cümhuriyyətə qədər və Cümhuriyyət dövründə türklükdən və islamlıqdan yazanlar isə ya siyasi cəhətdən zəif olanlar, ya da Türkiyənin casusları, agentləri rolunda çıxış edənlər olublar.

Bütün bunlarla yanaşı rusdilli, rus təfəkkürlü etmək istədikləri

[4] Azərbaycan tarixi. Yeddi clddə, IV cild (XIX əsr). Bakı, "Elm", 2007, s.331-332

xalqın tarixinin, ədəbiyyatının, fəlsəfəsinin yazılması da lazım idi ki, o zaman mümkün olduğu qədər onu Türk kimliyindən, Türk dünyagörüşündən uzaq tutmağa çalışan Sovet-Rus ideoloqları ağılasığmaz, reallığa qətiyyən uyğun gəlməyən mülahizələri, uydurmaları həmin sahələrə aid kitablarda gerçəklik kimi qələmə vermişlər. Məsələn, Sovetlər Birliyi dövründə yazılmış üç cildlik "Azərbaycan tarixi"ndə Babək, Şah İsmayıl, Füzuli, Nəsimi və digər böyük şəxsiyyətlərin milli kimlikləri "azərbaycanlı", dilləri "azərbaycan dili" kimi təqdim olunur, eyni zamanda I Şah Abbas Səfəvi, Nadir şah Əfşar, Ağa Məhəmməd şah Qacar "iranlı" adlandırılıb düşmən elan edilir, Azərbaycan Cümhuriyyətinin qurucusu, dövlət başçısı Məhəmməd Əmin Rəsulzadə və digər Cümhuriyyət liderlərinə hər cür böhtanlar atılırdı.[5]

Burada əsas məqsəd Quzey Azərbaycan xalqında, onun ictimai-fəlsəfi fikrində türklük şüurunu tamamilə sıradan çıxarıb, onun yerinə Sovet Rusiyası imperiyasının maraqlarına tamamilə cavab verən rusdilli, rus təfəkkürlü bir xalq formalaşdırmaq idi. Bu baxımdan Sovet-Rus ideoloqları Cümhuriyyət liderlərinin, xüsusilə də onun qurucusu M.Ə.Rəsulzadənin yeni Türk dövlətinə verdiyi "Azərbaycan" adını tamamilə fərqli bir qəlibə salıb bir tərəfdən Türk dünyagörüşündən, Türk kimliyindən (Türk xalqlarından) ayrırır, digər tərəfdən isə onu Rusiyaya daha yaxınlaşdırıb daimi bir vasallıq, müstəmləkəçilik halına gətirməyə çalışırdılar. Bunun üçün də yalnız Türk təfəkkürlü, Türk kimlikli insanları repressiya etməklə, ya da ölkədən didərgin salmağa nail olmaqla kifayətlənmir, eyni zamanda rusdilli orta məktəblərin (ali məktəblərdə də eynilə), ya da bölmələrin sayını sürətlə çoxaldır, rus təfəkkürlü ziyalılara qayğı göstərirdilər. Sovet-Rus ideoloqları elə bir şərait yaradırdılar ki, Quzey Azərbaycan xalqının, onun qabaqcıl insanlarının dünyagörüşü ancaq Sovet-Rus siyasəti, Sovet-Rus mədəniyyəti ilə bağlı olsun, özlərini ruslara daima borclu hiss etsinlər.

Bu məqsədlə də xüsusilə Əfşarlar, Qacarlar "iranlı", "persia" adı altında Azərbaycan türklərinə düşmən elan edilib Çarlıq Rusiyasının

[5] Azərbaycan tarixi. Üç cilddə. 3-cü cild. Bakı, "Elm" nəşr., 1973, s.29-30, 151-172

Qafqazı, o cümlədən Güney Qafqazı və Quzey Azərbaycanı işğal etməsini isə "tərəqqipərvər" Çarlığa birləşdirmə adlandırıb bayram günü kimi qeyd olunmasına cəhdlər göstərilmişdir.Ən geniş yayılmış fikirlərdən biri də o idi ki, Quzey Azərbaycanın Çarlıq tərəfindən işğal olunub Qacarlar dövlətinin tərkbində qalmaması böyük "uğur" imiş. Sovet ideolqlarının apardığı təbliğata görə, Çarlıq işğalı olmasaydı o zaman Quzey Azərbaycan xalqı da Güney Azərbaycan xalqı kimi təhsildən, mədəniyyətdən uzaq qalacaq, bununla da yalnız "tərəqqipərvər", qabaqcıl Rusiyanın deyil, eyni zamanda Avropa mədəniyyətindən də faydalana bilməyəcəkdi.[6]

Şübhəsiz, bütün bunların fonunda nəinki milli, hər hansı bir obyektiv tarixçiliyin, ədəbiyyatın, dilçiliyin, fəlsəfənin yazılmasından söhbət gedə bilməzdi. Xüsusilə də, repressiya dövründən (1930-cu illərin ortalarından) başlayaraq, hətta, ən azacıq obyektiv və milli ruhlu mülahizələr, baxışlar belə qəbuledilməz olmuşdur. Bu baxımdan "Böyük Rusiya" tərəfdarlarının çoxunun (N.Nərimanov, Ə.Qarayev, S.M.Əfəndiyev, R.Axundov və b.) belə rasional, ya da qeyri-rasional bütün varlıqları ilə marksizm-leninizmə bağlı olmalarına baxmayaraq repressiya olunmalarının əsas səbəbi dünyagörüşcə yarımçıq sovetləşib-ruslaşıb, digər anlamla da yarımçıq türklük şüurunda qalmaları idi. Sovet-Rus ideoloqları üçün türklük şüurundan, Türk dünyagörüşündən tamamilə uzaqlaşmayanlarla sovetləşdirmə, ruslaşdırma siyasətini həyata keçirmək qüsurlu idi və bunun üçün də türksüz "Azərbaycan"nın bəyanından sonra yeni, acımasız bir mərhələ başlamışdır.

Qeyd edək ki, Azərbaycan xalqının fəlsəfə və ictimai fikir tarixinin yazılması prosesi də məhz türksüz "Azərbaycan"nın rəsmi tətbiqindən sonra (1936) başlamışdır. Belə olduğu təqdirdə, obyektiv bir milli fəlsəfə və ictimai fikir tarixinin (eləcə də, tarix, ədəbiyyat, mədəniyyət, dilçilik və b.) yazılması mümkün deyildi. Bu məsələ ilə bağlı, hələ, 2014-cü ildə nəşr olunmuş "Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış (II hissə)" kitabımızda da bəzi ay-

---

[6] Ələkbərli F.Q. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). I hissə. Bakı, "Elm və təhsil", 2018, s.41-42

dınlaşdırmalar aparmışdıq: “1940-1950-ci illərdə hər hansı bir Azərbaycan Türk mütəfəkkirinin milliliyə azacıq meyilliliyi belə Mərkəzçiliyə qarşı çıxış kimi qiymətləndirilirdi. Bu dövrdə milli mədəniyyət və dinlə bağlı irəli sürülən əsas mülahizələrdə zərdüştilik Azərbaycanda fəlsəfi fikrin rüşeymi kimi göstərildiyi halda, “Kitabi-Dədə Qorqud”a tarixi, fəlsəfi və elmi ədəbiyyat kimi lazımi qiyməti verilmir, üstəlik feodalizmin qalığı kimi tənqid olunurdu. Buna səbəb də, “Kitabi-Dədə Qorqud”un “Avesta”dan fərqli olaraq, birmənalı şəkildə Türk mədəni irsinə aid olması idi. Bu baxımdan ziyalıların əksəriyyəti milli mədəniyyətə və ədəbiyyata ya müraciət etmir, ya da yalnız tənqid yazmaqla məşğul olurdular. Çox az saylı mütəfəkkirlər isə özlərində cəsarət taparaq milli mədəniyyət və milli özünəməxsusluğu önə çəkirdilər. Belə mütəfəkkirlərdən biri olan akademik Heydər Hüseynovun materialist filosof olmasına baxmayaraq, “Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən” (1949) əsərində Şeyx Şamil hərəkatını müsbət qiymətləndirməsi, eləcə də çar Rusiyasını bir qayda olaraq, işğalçı kimi qələm verməsi son nəticədə onun təqiblərə və təzyiqlərə məruz qalmasına səbəb olmuşdur.[7] Bundan “nəticə” çıxardan digər Azərbaycan filosofları (M.Qasımov, M.Ağamirov, F.Q.Köçərli və b.) və ədəbiyyatçıları (M.Rəfili, Ə.Nazim. və b.) əsərlərində islamçılığı və türkçülüyü tənqid etməklə yanaşı, “böyük qardaşın” – rusların Çar Rusiyasının və Sovet Rusiyasının timsalında Azərbaycanı işğal etməsinə haqq qazandırır, bir çox Azərbaycan Türk mütəfəkkirlərinin rus ictimai fikrindən ilham aldığını yazırdılar”.[8]

Bütün bunların nəticəsi olaraq 1966-cı ildə nəşr olunan “Azərbaycan fəlsəfəsinin tarixinə dair oçerklər” kitabında da iddia olunurdu ki, Azərbaycan xalqının əcdadları soykökcə Türk olmayan midiyalılar, albanlar, kaspilər olublar. Xüsusilə, burada midiyalılar Azərbaycan xalqının əsas əcdadı kimi göstərilir və bu prizmadan çıxış edən müəlliflərə görə Azərbaycan xalqının qədim dövrdə və

---

[7] Hüseynov Heydər. Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən. Bakı, “Şərq-Qərb”, 2007, s.107

[8] Ələkbərov F.Q. Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış (II hissə). Bakı, Elm və təhsil, 2014, s.188-189

erkən orta əsrlərdə dini-mənəvi dünyagörüşünün öyrənilməsində Azərbaycandan olan "midiyalı" Zərdüştün adı ilə bağlı zərdüştilik və onun müqəddəs kitabı "Avesta" mühüm yer tutmuşdur.[9] Burada o da göstərilir ki, ümumiyyətlə qədim Midiyada dini dünyagörüş üç mərhələdən keçmişdir: 1) zərdüştəqədərki politeizm, devaizm; 2) zorastrizm, monoteizm Zaratustrı; 3) mazdayasna. Onların iddiasına görə Raqa və Atropatenadan olan maqlar tərəfindən qələmə alınmış "Avesta" qədim Azərbaycan xalqı – midiyalılar arasında geniş yayılmışdır.[10] Bu kitabın müəlliflərinə görə ilk orta əsrlərdə meydana çıxmış maniliklə məzdəkizmin baniləri, yəni uyğun olaraq Mani və Məzdək də mənşəcə "iranlı" olmuşlar. Belə ki, guya Maninin anası "İran" mənşəli arşakilər sülaləsindən, Məzdəkin atası isə suriyalı Bəmdad olmuşdur.[11]

Bütün bunlarda əsas məqsəd türksüzləşdirmə siyasəti çərçivəsində etnik mənşəcə irandilli midiyalı, ya da qafqazdilli alban, ancaq danışdığı dilə görə türkdilli elan edilmiş "Azərbaycan xalqı"nın buna uyğun olaraq tarix, fəlsəfə tarixi, ədəbiyyat tarixi, dilçilik tarixi, mədəniyyət tarixini ortaya qoymaq idi. Üstəlik, həmin "Azərbaycan xalqı"nın bir millət kimi formalaşmasının XIX əsrin ikinci yarısına aid edilməsi də təsadüfi olmamışdı. Hər halda Quzey Azərbaycan türklərinin varlığının bütün vasitələrlə inkarı fonunda, guya türklərin buraya "gəlmə" olması, üstəlik "gəlmə" türklərin dünyagörüşcə vəhşi, barbar olub "mədəni", "yerli" qafqazdilli, irandilli xalqları türkləşdirməsi mülahizələri məhz türksüz "Azərbaycan milləti"nin formalaşmasına hesablanmışdı. Bu cür əsassız, uydurma mülahizələrlə, yəni Azərbaycan xalqının Türk olmamasını, sadəcə, zorla türkləşdirilib hazırda Türk dillərindən birində danışmasını, bu xalqın daim imperiyaların işğalı altında olmasını təbliğ etməklə yanaşı, yalnız XVIII əsrdən etibarən əvvəlcə xanlıqlar, daha sonra da Çarlığın işğalı dövründə Avropa millətçiliyinin təsiri ilə millət kimi formalaşmasını əsaslandırmağa ça-

[9]Очерк по истории Азербайджанской философии.I том. Баку, Изд-во Ан Аз-ССР,1966, s.20
[10] Yenə orada, s.23
[11] Yenə orada, s.31-35

lışmışlar.

Bu uydurma Avropa-Sovet tarixçiliyinə görə Orta çağda zorla türkləşdirilmiş, etnik mənşəcə irandilli və qafqazdilli olmuş Azərbaycan xalqına münasibətdə Türk dövlətləri (Səlçuqlar, Qaraqoyunlular, Ağqoyunlular, Əfşarlar, müəyyən qədər də Səfəvilər və b.), xüsusilə də Osmanlılar, Əfşarlar, Qacarlar hər zaman yad, düşmən və imperialist mövqe tutmuşlar. Guya, Çarlıq Rusiyası da məhz bu imperialist Türk dövlətləri, xüsusilə də Qacarlarla müharibələr nəticəsində Güney Qafqazı, o cümlədən Quzey Azərbaycanı işğal etməklə Azərbaycan xalqını "İran" və Osmanlı zülmündən xilas etmişdir. Bu baxımdan Çarlıq ideoloqları yuxarıda da yazdığımız kimi, imperiya siyasətini pərdələmək üçün Quzey Azərbaycan xalqını etnik mənşəcə türklərdən ayırıb türkdilli elan edir və həmin türkdilli xalqın da əslində qafqazdilli ya da irandilli olub, vaxtilə Səlcuq türkləri tərəfindən zorla türkləşdiyini təbliğ edirdilər.

Beləliklə, yalnız 1960-cı illərdə nəşr olunan "Azərbaycan tarixi" üç cildiliyində deyil, eyni zamanada "Azərbaycan ədəbiyyat tarixi", "Azərbaycan fəlsəfəsi tarixi" kitablarında da antitürk təbliğatı aparılmış, Quzey Azərbaycan xalqının Türk dövlətlərinin (Səfəvilər, Əşralar, Qacarlar) sözdə "müstəmləkəçi"liyindən qurtulub əvvəlcə xanlıqlara parçalanmasını və daha sonra da çar Rusiyası tərəfindən işğal olunmasını faciə deyil, mütərəqqi, tərəqqipərvər hadisə kimi əsalandırmağa, izah etməyə çalışmışlar. Əsil həqiqəti isə ondan ibarətdir ki, quzeyli-güneyli Azərbaycan xalqı nəinki həmin Türk dövlətlərinin müstəmləkəsi olub, tam əksinə sözükeçən Türk dövlətlərinin özbəöz qurucuları idi. O zaman mümkün deyil ki, həmin dövlətlərin qurucusu və əsas nüvəsi olan Azərbaycan türkləri özü özünün müstəmləkəçisi olsun! Şübhəsiz, bu Sovet-Rus imperiya təfəkkürünün məhsulu olub, Quzey Azərbaycan xalqını mümkün olduğu qədər öz Türk kökündən, Türk dünyagörüşündən uzaq tutmaq və ruspərəst, rusdilli formaya salmağa xidmət etmişdir.

Sovet-Rus ideoloqları bu işi həyata keçirmək üçün də, son iki əsrdə daha çox Quzey Azərbaycan xalqının öz içindən antitürk ruhlu məmurlar, alimlər, müəllimlər təbəqəsi formalaşdırmağa çalışmış və xey-

li dərəcədə də bu məsələdə işlər görmüşlər. Xüsusilə də, XX əsrin ikinci yarısında bu proses bütün sahələrdə, o cümlədən də tarix, fəlsəfə tarixi, dilçilik tarixi, ədəbiyyat tarixi, mədəniyyət tarixi, siyasət tarixi sahələrində aparılmışdır. Bundan fəlsəfəçilər, filosoflar, fəlsəfə tarixçiləri də kənarda qala bilməzdilər ki, bu baxımdan onlar yalnız "Azərbaycan fəlsəfəsinin tarixinə dair oçerklər" kitabında deyil, bu sahəyə aid digər yüzlərlə monoqrafiya və kitablarında da eyni antitürk, antiislam ideyaları fonunda fəlsəfəçiliklə, fəlsəfə tarixçiliyi ilə məşğul olmuşlar. Belə ki, marksist-leninçi fəlsəfəçilər Azərbaycan Türk xalqının mütəfəkkirlərini bir tərəfdən mümkün olduğu qədər Türk kimliyindən, Türk fəlsəfəsindən, Türkçülük şüurundan uzaq tutmağa, digər tərəfdən isə onların dünyagörşündə materialist elementlər tapmağa çalışmışlar.

Beləliklə, Sovetlər Birliyi dövründə Quzey Azərbaycan xalqının fəlsəfi fikir tarixinin saxtalaşdırılması prosesi getmiş, bu da daha çox türksüzləşdirmə siyasətinin fonunda həyata keçirilmişdir. Sovet-Rus ideoloqları bir tərəfdən imperiya siyasətinə hesablanmış Türk kimliyindən, Türklük şüurundan uzaq, daha çox qarışıq-mələz (irandilli, qafqazdilli, türkdilli) bir Azərbaycan xalqı formalaşdırmağa çalışarkən, digər tərəfdən həmin xalqın tarixinin, fəlsəfə tarixinin, ədəbiyyat tarixinin, mədəniyyət tarixinin də buna uyğun olaraq yazılmasına siyasi-ideoloji nəzarəti həyata keçirmişlər. Bunun da nəticəsində Sovetlər Birliyi dövründə, xüsusilə də represiyya dövründən sonrakı Quzey Azərbaycan xalqının tanınmış ictimai-siyasi xadimlərinin, qabqacıl fikir adamlarının əksəri könüllü, ya da məcburi olaraq təbii Türk nüvəsini bir kənara qoyaraq, daha çox naməlum, ya da qarışıq (irandilli, qafqazdilli, türkdilli) formada irəli sürülən "Azərbaycan xalqı", "Azərbaycan dili", "azərbaycanlı", "Azərbaycan milləti" anlayışları əsasında tarixçilik, dilçilik, fəlsəfəçilik, ədəbiyyatçılıqla məşğul olmuşlar. Xüsusilə də, akademik sahədə yazılmış "Azərbaycan tarixi", "Azərbaycan fəlsəfəsi tarixi", "Azərbaycan dili tarixi", "Azərbaycan ədəbiyyatı tarixi" kitablarında Türk nüvəsi uzaq tutulmuş, hətta türklüyü heç bir mənada şübhə doğurmayan Azərbaycan Türk mütəfəkkirləri (Nəsimi,

Nəimi, Füzuli, A.A.Bakıxanov, F.Köçərli, N.Nərimanov, H.Cavid və b.), hökmdarları (Şəmsəddin Eldəgiz, Qara Yusif, Uzun Həsən, Şah İsmayıl və b.) belə Türk kimliyi deyil "azərbaycanlı" kimliyi adı altında verilmiş, onların dili də Türk dili deyil "Azərbaycan dili" olaraq təqdim edilmiş, fəlsəfi irsləri də Türk fəlsəfəsi deyil "Azərbaycan fəlsəfəsi" kimi xarakterizə olunmuşdur.

Quzey Azərbaycan xalqı müstəqilliyini bərpa etdikdən sonra (1991) bu məsələlərlə bağlı müsbət yöndə müəyyən qədər dəyişikliklər baş vermişdi. Belə ki, müstəqilliyimizin bərpası ərəfəsində və ilk illərində Türk nüvəsinə doğru müəyyən addımlar atılmışdır. Ancaq bütün bunlar ardıcıl olmamış və əsası Çarlıq Rusiyası ilə Sovet Rusiyası dövründə qoyulmuş yad ideoloji metodologiyalar öz izini sürdürməyə davam etmişdir. Bu baxımdan istər "Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış. II hissə" (2014),[12] istərsə də "Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi. XIX-XX əsrlər. I hissə" (2018)[13] adlı kitablarımızın nəşrlərindən sonra üzləşdiyimiz bəzi hadisələr bizi nəinki təəccübləndirmiş, tam əksinə tutduğumuz milli yolun doğruluğunu bir daha təsdiq etmişdi.

Milli yol, milli metod dediyimiz, hər bir məqaləmizdən tutmuş kitablarımızadək, yerli konfranslardan tutmuş beynəlxalq konfranslaradək Azərbaycan xalqının, Azərbaycan türklərinin keçmiş dövlətçilik əzəmətini bərpa etmək üçün vahid milli tarixi, milli ədəbiyyatı, xüsusilə də milli fəlsəfəni (milli fəlsəfə tarixini) və bu kimi milli-mənəvi dəyərlərimizi ortaya qoymaqdır. Başqa sözlə, milli yolumuz Qərb-Avropa və Rusiyanın siyasi-ideoloji metodologiyalarından mümkün qədər uzaq durmaqla Azərbaycan Türk milli konsepsiyasını, Azərbaycan Türk milli metodologiyasını daha da təkmilləşdirmək və natamamlıq kompleksindən qurtulmaqdır. Çünki milli konsepsiyadan hərəkət etməyən bir toplum üçün natamamlıq kompleksi davam edir və bu davam etdikcə Avropaya, ABŞ-a,

---

[12] Ələkbərov F.Q. Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış (II hissə). Bakı, "Elm və təhsil", 2014, s.5-14

[13] Ələkbərli F.Q. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). I hissə. Bakı, "Elm və təhsil", 2018

Rusiya Federasiyasına, Çinə, Səudiyyə Ərəbistanına və başqalarına inteqrasiya olmaq daha çox ön planda olur. Şübhəsiz, zaman zaman inteqrasiya istiqamətləri də dövrün məcburi geosiyasi şərtləri altında yer dəyişdirir. Məhz belə bir şəraitdə daha dayanıqlı olmaq və gələcəyə doğru daha ümidli getmək üçün milli metodologiyadan, milli konsepsiyadan, bir sözlə milli fəlsəfədən, milli şüurdan çıxış etmək son dərəcə önəmlidir.

Milli fəlsəfə, milli fəlsəfə tarixi məsələsi ilə bağlı onu da nəzərə almaq lazımdır ki, Azərbaycan Cümhuriyyəti adlı dövlət qurulana qədər (1918), Cümhuriyyət dövrü (1918-1920) və Azərbaycan SSR-nin ilk dövründə (1920-1936) Azərbaycan xalqı və onun mütəfəkkirləri Türk milli kimliyi ilə tanınmışlar. Azərbaycan Cümhuriyyəti adlı dövlətin quruluşundan sonra Türk milli kimliyi ilə yanaşı, Azərbaycan türkləri, Azərbaycan türkü, Azərbaycan xalqı, Azərbaycan Türk ədəbiyyatı, Azərbaycan Türk mədəniyyəti və bu kimi digər anlayışlar meydana gəlmişdir. Ancaq 1936-cı ildən sonra, yəni repressiya dövrünün (1937-1938) başlaması ilə Türk milli kimliyi qadağan edilmiş, bu da öz əksini bütün sahələrdə, o cümlədən ədəbiyyat, mədəniyyət, tarix, fəlsəfə, dil və digərlərində tapmışdır. Biz isə, milli fəlsəfə, milli fəlsəfə tarixi nəzər nöqtəsindən çıxış edərək bu kitabda yalnız Azərbaycan Türk mütəfəkkirlərinin fəlsəfi və ictimai fikrini qələmə almışıq.

Ona görə də, böyük dövlətlərimizin (Səfəvilər, Əfşarlar və b.) kiçik bir qismində müstəqilliyimizi bərpa etdikdən sonra (1991) milli konsepsiyanın formalaşması istiqamətində azərbaycançılıq və türkçülük ideyalarının ifrat şəkildə qarşı-qarşıya qoyulması, xüsusilə də milli dilin adının və milli kimliyin necə adlandırılması, "Azərbaycan" və "İran" anlayışlarının fərqli izahları, bu coğrafiyadakı tarixi şəxsiyyətlərə və mütəfəkkirlərə sahiblənmələr, qədim dövr və orta əsrlərdəki dövlətlərə yanaşmalar, "gəlmə" və "yerli" xalqlar məsələsi birmənalı olmamışdır. Buna səbəb də odur ki, azərbaycançılıq və türkçülük ideyalarını eyniləşdirənlər üçün önəmli olan böyük dövlətlərimizin mərkəzi olmuş "tarixi-coğrafi Azərbaycan"ın, Azərbaycan türklərinin birliyi vacib olduğu halda,

onlar arasında ziddiyyət axtaranlara görə isə “Rusiya Azərbaycanı”, “İran Azərbaycanı”, “Qərb Azərbaycanı” ideyaları daha çox keçərlidir.

Fikrimizcə, burada önəmli olan Azərbaycan Türk xalqının təxminən iki əsr bundan əvvəlki siyasi, iqtisadi, mədəni, fəlsəfi, çoğrafi sahələrdəki birliyini, bütünlüyünü, dövlətçiliyini yenidən bərpa etməkdir. Bunun üçün də, öncə şüurlarımıza zorla yeridilmiş yad ideya və metodlardan, dünyagörüşlərdən qurtulub daima bir-birinin eyniliyi olmuş Azərbaycan və Türk ideyalarının sintezindən çıxış etmək, yəni bu anlayışların istər hərfi, istərsə fəlsəfi anlamda yenidən bütünləşməsinə çalışmaqdır. Çünki son əsrlərdə, Azərbaycan və Türk sintezinin əleyhdarlarının şüurlarımıza yeritdiyi əsas zərərli ideyalardan biri də, əsasən “Azərbaycan” anlayışını irandillilik (avropamərkəzçilik) əsasında izah etmək, eyni zamanda böyük dövlətlərimizin mərkəzi olan “tarixi-coğrafi Azərbaycan”da qeyri-türk etnosları, etnik qrupları onun nüvəsini təşkil edən sözdə “gəlmə”, “barbar” türklərə qarşı qoymaq olmuşdur.

Azərbaycan və Türklük ideyalarını qarşı-qarşıya qoymaq üçün öncə, “Azərbaycan” anlayışı Türk dillərində deyil, Hind-Avropa dillərində izah olunur, üstəlik Hind-Avropa mənşəli, eyni zamanda Qafqazdilli xalqlar və etnoslar bu bölgənin yerli, yaxud da daha qədimdən gəlmiş “yerli”, türklər isə onlardan çox sonra gəlmiş “vəhşi”, “barbar” xalqlar kimi qələmə verilmişdir. Burada ən zərərli ideyalardan biri də odur ki, guya, “yerli” və “”mədəni” qafqazdililəri, ya da daha qədimdən “yerli” olmuş irandilliləri (hind-avropalıları) çox sonralar buraya gəlmiş “barbar”, “vəhşi” Türk xalqları zorla türkləşdiriblər. Başqa sözlə, Qərb, Rusiya tarixçiliyi ən azı iki əsrdən çoxdur dünyaya sübut etməyə çalışır ki, guya, Azərbaycana, Xorasana, Anadoluya, İraqa, Suriyaya orta əsrlərin başlarından etibarən əvvəlcə az-az, daha sonra kütləvi şəkildə köç edən “gəlmə”, “barbar” türklər bu coğrafiyada zorla türkləşdirmə siyasəti aparıblar, yəni qafqazdilliləri, irandilliləri, ərəbdilliləri zorla türkşləşdirib, Türk dilində danışmağa məcbur ediblər.

Şübhəsiz, Qərb və Rusiya ideoloqları, eyni zamanda onların

təsiri altında olanlar tərəfindən Türk xalqlarının bu coğrafiyalara, o cümlədən Azərbaycana "gəlmə" olması ideyasının aparılması Türk olmayan digər xalqlarda və etnoslarda türklərə qarşı nifrət hissinin aşılanmasına xidmət etmişdir və edir də.[14] Xüsusilə də, "gəlmə", "barbar" Türk xalqlarının, onların hökmdarlarının qan içən, başkəsən, vəhşi obrazlarda qələmə verilərək, zorla türkləşdirmə siyasətindən eninə-boluna bəhs olunması, Türk xalqlarına qarşı nifrəti durmadan artırmışdır.[15] Çünki Qərb, Rusiya, Çin və başqa konsepsiyalarda adətən Qafqazdilli, İrandilli (hind-avropalılar), Samidilli xalqlar Türk xalqlarına nisbətdə daha mədəni, sivil xalqlar və etnoslar kimi təqdim olunur ki, bunun fonunda həmin xalqlar onları "zorla" türkləşdirmiş "gəlmə", "barbar" türklərdən hər bir fürsətdə intiqam almağa çalışırlar.

Deməli, son iki əsrdir ən azından Qərb və Rusiya qeyri-türk xalqların (qafqazdilli, irandilli, samidilli) himayəçisinə çevrilərək onları "gəlmə" və "vəhşi" Türk xalqların əsarətindən qurtaracağına əsasən inandıra bilmişdir. Hər halda, Qərb və Rusiyanın bu sahədə apardığı hərbi-siyasi oyunların nəticəsi olaraq 1925-ci ildə Qacar Türk dövlətinin devrilərək onun yerinə irançı Pəhləvilərin gətirilməsi, eyni zamanda keçmiş Səfəvilərin ərazisinin bir qismində Gürcüstan (qafqazdilli) və Ermənistan (irandilli, ya da ariyançı) dövlətlərinin yaradılması təsadüfi olmamışdır. Buna paralel olaraq da, XX əsrin əvvəllərində Osmanlı dövlətinin ərazisində ərəbdilli Suriya, İraq, Misir dövlətlərinin meydana çxması və indi də Kürdüstan (irandilli) projesinin ortaya atılması ilk növbədə, türksüzləşdirmə siyasəti ilə bağlıdır.

Həqiqət odur ki, "gəlmə" və "barbar" hesab olunan Türk xalqları əslində yaşadıqları çoğrafiyaların yerli əhalisi olub, üstəlik heç bir zaman zorla türkləşdirmə siyasəti aparmamış, tam əksinə son əsrlərdə Qərb dövlətləri və Rusiyanın birbaşa iştirakı ilə Türk xalqları arasında türksüzləşdirmə prosesi həyata keçirilmiş, bunun nəticəsində də onlarla münaqişə ocaqları yaranmışdır. Son iki əsrdə bi-

[14] Elçibəy Əbülfəz. Bütöv Azərbaycan yolunda., Bakı, "Nurlar", 2004, s.64-72
[15] Cavid Hüseyn. Əsərləri. Beş cilddə. II cild. Bakı, "Lider" nəşr., 2005, s.70

zi daha çox maraqlandıran bölgədə, yəni vaxtilə Qəznəvilər, Səlcuqlar, Elxanilər, Baharlılar, Bayandurlular, Səfəvilər, Əfşarlar, Qacarlar və başqa Türk dövlətlərinin hakim olduqları coğrafiyalarda Ermənistan, Gürcüstan kimi dövlətlərin ortaya çıxması, üstəlik digər qondarma "dövlət"ciklərin qurulması istiqamətində də işlərinin görülməsi, yenə də türksüzləşdirmə siyasəti ilə bağlıdır. Bu o deməkdir ki, Qərb və Rusiya Sami xalqlar arasında, xüsusilə ərəbdillilərin yaşadığı coğrafiyalarda xeyli dərəcədə türksüzləşdirmə siyasətini uğurla həyata keçirdikdən sonra, indi daha çox irandillilərin, qismən də qafqazdillilərin azlıq olaraq yaşadıqları çoğrafiyalarda türksüzləşdirmə siyasətini aparmaqdadır. Bu məsələdə Qərb dövlətləri ilə Rusiya Federasiyasının maraqları bəzi hallarda üst-üstə düşməsədə, ancaq prinsip etibarilə türksüzləşdirmə siyasətində ortaq mövqe tutmaqdadırlar. Çünki onları daha çox narahat edən başlıca məsələ Türk xalqlarının ərəbdilli, irandilli, rusdilli, qafqazdilli xalqlarla birgə yaşadıqları çoğrafiyalarda indiyə qədər aparılmış və aparılmaqda olan türksüzləşdirməyə baxmayaraq, əsas güc olaraq yenidən toparlanıb dünyada super güclərdən birinə çevrilməsi potensialıdır.

Biz də, zərrə qədər şübhə etmirik ki, Türk xalqlarının dünyada yeni bir gücə çevrilməsi yolunda tarixi dövlətlərimizin mərkəzi olan "tarixi-coğrafi Azərbaycan"ın, Azərbaycan türklərinin, ümumilikdə bu coğrafiyadakı Türk xalqlarının önündə çox ciddi bir missiya dayanmaqdadır. Bu missiya da ondan ibarətdir ki, Sovet Rusiyasının müstəmləkəçiliyindən qurtularaq tarixi dövlətlərimizin məkəzi olan  Azərbaycanın kiçik bir hissəsində, yəni Azərbaycanın quzeyində milli müstəqilliyini bərpa etmiş Azərbaycan türkləri, Azərbaycan xalqı, onun tarixən və dövlətçilik baxımından ayrılmaz hissəsi olan Azərbaycanın güneyində və digər ərazilərində də dövlətçiliyini bərpa etməlidir. Doğrudur, Azərbaycanın quzeyində müsətqilliyimizi bərpa etmək bizə çox baha başa gəlmişdir ki (hər halda doğma torpaqlarımızın hesabına yanı başımızda dünyanın tanıdığı Hind-Avropa mənşəli bir Ermənistan olduğu halda, Rusiyanın, Fransanın, İran İslam Respublikasının və digər ölkələrin dəstəyi ilə

Qarabağda daha bir erməni dövləti yaradılmağa çalışılmışdır. Ancaq 2020-ci ilin payızında gerçəkləşən II Qarabağ müharibəsi, ya da 44 günlük Vətən müharibəsi, eləcə də 2023-cü ilin 19-20 sentyabrında həyata keçirilən antiterror hərbi əməliyyatı ilə qondarma erməni rejimi tamamilə məhv edilmişdir. Bundan sonra da həmin qondarma rejim dünya qarşısında qeyri-qanuni fəaliyyətinə xitam verdiyini bəyan etmişdir), Azərbaycanınn güneyində də yenə Hind-Avropa mənşəli xalqları, xüsusilə də kürdləri bir maşa kimi türksüzləşdirmə, o cümlədən azərbaycansızlaşdırma siyasətini həyata keçirmək yolunda istifadə etməyə çalışırlar. Bu məqsədlə də, Azərbaycanın güneyində (Urmiya və ətrafında) sürətlə kürdləşdirmə, erməniləşdirmə prosesi həyata keçirilməkdədir.

Bütün hallarda, Azərbaycan türklərinin yaşadığı böyük bir arealda  tarixi, hüquqi varlığımızı yenidən ortaya qoymaq üçün iki önəmli ideya vardır: Azərbaycanlıq və Türklük. Son iki-üç əsrdə Qərb və Rusiya ideoloqları tərəfindən ya Qordi düyünü kimi dolaşdırılan (Azərbaycanizm), ya da nifrət obyektinə çevrilən (Türklük) daha çox bu ideyalardır. Bu baxımdan indiyə qədər müəllifi olduğumuz bir çox məqalə və kitablarda da əsasən Azərbaycanizm və Türklük ideyalarına aydınlıq gətirməyə çalışmağımız, əsil mahiyyəti ortaya qoymaq istəyimiz təsadüfi olmamışdır.

Hazırda Böyük Azərbaycanımızın yalnız kiçik bir hissəsində müstəqilliyimizi bərpa etmişik ki, bu, milli hədəfə çatmaq uğrunda mübarizəmizin ilk addımlarından biridir. Şübhəsiz, Azərbaycanımızın vaxtilə çar Rusiyası və Sovet Rusiyasının işğalı altına qalan, sonralar daha çox Quzey Azərbaycan kimi adlandırılan hissəsinin tamamilə olmasa da, böyük qismində müstəqil dövlətçiliyin bərpası çox mühüm bir hadisədir. Bütün hallarda müstəqil dövlətimizi Bütöv Azərbaycanmızın və Türk dövlətçiliyimizin çox kiçik bir ərazisində bərpa etməyimizin özü də, mühüm bir faktdır. Belə ki, Azərbaycan türkləri ona qohum olan digər Oğuz-Qıpçaq boyları ilə birlikdə ən azından XIX əsrə qədər, bu bölgədə böyük dövlətlərə və geniş çoğrafiyalara sahib olmuşdur. Ancaq XVIII əsrin ikinci yarı-

sında baş verən parçalanmalar, yəni Türk dövlətlərinin yerini xanlıqların tutması, üstəlik Ağa Məhəmməd şah Qacarın yeni böyük Türk dövlətini qurmaq yolunda mübarizəsinin 1797-ci ilin iyununda Şuşada ona olan sui-qəsd nətiscəsində yarımçıq qalması və Azərbaycanın önəmli bir qisminin çar Rusiyası tərəfindən işğalı bugünkü yarımçıqlığımızın, natamamlığımızın əsasını qoymuşdur.

Bizcə, bu yarımçıqlıq kompleksinin əsas mahiyyətini bir tərəfdən Türk dövlətçiliyinin zəifləməsi, digər tərəfdən isə onu təmsil edən Qacarlar Türk dövlətinin Ağqoyunlular, Qaraqoyunlular, Səfəvilər və başqa Türk dövlətlərindən fərqli olaraq Avropanın iki güclü imperiyası: Böyük Britaniya və Çar Rusiyası (sonralar azçox Fransa, Almaniya və başqa Avropa dövlətlərinin də Qacarlara münasibətdə mənfi mövqeyi olub) tərəfindən daima təhdid təşkil etməsi olmuşdur. Məhz bu zəifliyin və təhdidlərin nəticəsi olaraq Qacarlar Türk dövləti həm Azərbaycanın bir hissəsinin işğalı ilə barışdı, həm də irançılıq (aryançılıq) və şiəçilik (fars zərdüştizmi) ideolojilərinin qurbanı oldu. Bir tərəfdən irançılıq, digər tərəfdən İslam dininin burada əslində şiəçilik adı altında fars zərdüştizminə tabe etdirilməsi ilk növbədə, Azərbaycanlıq və Türklük ideyalarına ciddi zərbə vurmuşdu. Belə ki, Türk mahiyyətli Azərbaycanla Türklük anlayışlarına qarşı yeni bir "Xaçlı yürüşü" başlandı ki, bunun da başında Çar Rusiyası və Böyük Britaniyanın dayanması heç kəsə sirr deyil. Sadəcə, Çar Rusiyası öz maraqlarını burada həyat keçirmək üçün bir, Böyük Britaniya isə digər bir yol seçmişdi. Onlarla yanaşı bu bölgədə aktiv rol oynamaq istəyən Fransa, Almaniya və digər ölkələrdə Azərbaycanizm və Türklük məsələlərində eyni oyunları, ancaq bir qədər fərqli şəkildə həyata keçiriblər və keçirməyə də davam edirlər.

Bütövlükdə, ən azı son iki əsrdir Bötöv Azərbaycanın da var olduğu bu bölgədə Azərbaycansızlaşdırma (ən azından Türk olmayan Azərbaycan ideyasını formalaşdırmaq və Azərbaycan coğrafiyasını kiçiltmək anlamında) və Türksüzləşdirmə siyasəti aparılır ki, bunun ən çox zərər çəkəni də Azərbaycan türkləri olmuşlar və bu gün də çox şey dəyişməmişdir. Hər halda son iki əsrdə böyük döv-

lətçilyi əlindən alınan, ərazicə müxtəlif yerlərə parçalanan, ana dilində məktəbə gedə bilməyən, yaxud da getdiyi halda ana dilini mövcud qanunlara əsasən "Türk dili" deyil "Azərbaycan dili" anlayışı altında öyrədilən, milli kimliyinə Türk deməsi ya zorla qadağa qoyulan, ya da hər hansısa formada bunu ifadə etməkdə problem yaşayan məhz Türklər, xüsusilə də Azərbaycan türklərinin olması bir gerçəklikdir.

Azərbaycan türkləri sahibi olduğu dövlətlərdə (Kuti, Subar, Turukkum, Midiya, Masagetlər, Xəzərlər, Sacilər, Azərbaycan Atabəyləri, Elxanilər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar, Qacarlar və b.) heç bir mədəni, siyasi, irqi ayrı-seçkilik etmədiyi halda, ancaq son əsrlərdə bunun ən acı təcrübəsini yaşamaqdadır. Ən maraqlı məsələ odur ki, bu günün özündə də Azərbaycan türkləri ən azı iki bir-birinə zidd həyat yaşamaqdadır. Belə ki, tarixi Kuti, Turrukkum Manna, Midiya, Səfəvilər, Əfşarlar, Qacarlar dövlətlərinin ərazisində bu gün qeyri-qanuni hakimiyyət sürən sözdə "İran İslam" rejimi türkləri, o cümlədən Güney Azərbaycan türklərini az qala bütün milli haqlardan məhrum etmişdir. İrançı, "şiə"çi Molla-Fars rejimində yalnız öz dilini və milli kimliyini inkar edən türklər siyasi və dini hakimiyyətdə yer tuturlar. Ancaq Türk dilini, Türk kimliyini və Azərbaycan türklüyü ideyasını yaşatmaq istəyənlərə qarşı isə çox amansızcasına rəftar edilir. İrançı, "şiə"çi mollaların bu cür əməllərinə isə əksər Qərb dövlətləri göz yumurlar, çünki onların bir çoxu belə bir şəraiti özləri hazırlamışlar. Ona görə də, bu bölgədə gedən azərbaycansızlaşdırma və türksüzləşdirmə siyasətində də irançı, "şiə"çi molla rejimi qədər əksər Qərb dövlətləri də maraqlıdırlar.

Yeri gəlmişkən, ancaq böyük Türk dövlətlərinin, o cümlədən Bütöv Azərbaycanın kiçik bir hissəsində müstəqilliyini əldə etmiş Azərbaycan Cümhuriyyətində isə Qərb dövlətləri və onun buradakı əlaltıları Azərbaycan türklüyünün ön planda olmaması üçün əllərindən gələni edirlər. Artıq heç kəsə sirr deyil ki, Azərbaycan Cümhuriyyətində Türk dilinin Azərbaycan dili adlandırılması, Türk kimliyinin arxa plana keçirilməsi və digər məsələlərdə Qərb dövlət-

ləri, o cümlədən Rusiya Federasiyası və "İran İslam" rejimi mühüm rol oynamışdır, bu rolu oynamağa da davam edirlər.

Bu baxımdan son illərdə nəşr olunan kitablarımızın ("Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış. II hissə" (2014), "Turan sivilizasiyasına giriş: Turan məfkurəsi və tanrıçılıq" (2017), "Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi. XIX-XX əsrlər. I hissə" (2018)) elmi ictimaiyyətdə geniş əks-səda doğurmasını təbii hal hesab edirik. Çünki həmin kitablarda Qərb və Rusiya metodologiyası ilə daban dabana zidd olan məsələlər vardır. Azərbaycan Respublikasının elmi ictimaiyyəti də xeyli dərəcədə Qərb və Rusiya metodologiyasının təsirindən tamamilə qurtula bilmədiyi üçün mənfi yöndən "monolitləşmiş", stereotipləşmiş yad ideyalardan kənara çıxmaqda çətinlik çəkir. Üstəlik, Qərb və Rusiya metodologiyasının nüvəsindən kənara çıxmağa çalışanlar, ya da çıxanlar antiazərbaycan, antitürk qüvvələr tərəfindən müxtəlif üsullarla sözdə "ağıllandırmağ"a məcbur edilirlər.

Burada çox incə məsələ odur ki, yad ideyaların təsiri altında formalaşmış stereotipləri bilərəkdən ya da bilməyərəkdən, imperialistlərdən daha çox müstəmləkəçiliyin təsirinə məruz qalmış bəzi tarixçilər, filoloqlar, fəlsəfəçilər, politoloqlar və başqaları müdafiə edirlər. Belələri üçün "monolitləşmiş", stereotipləşmiş yad ideyalar az qala doqmatik xarakter daşıyır və ondan kənara çıxmaq mümkünsüz hesab olunur. Hətta, bəzən vaxtilə imperiya maraqları naminə çar Rusiyasının, Sovet Rusiyasının ideoloqları uydurduqları tarixçilikdən, fəlsəfəçilikdən, siyasətçilikdən imtina etdikləri halda, ancaq Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və digər postsovet məkanına aid türksoylu ölkələrin bəzi tarixçiləri, filoloqları, fəlsəfəçiləri, politoloqları həmin uydurmaları hələ də müdafiə etməyə çalışırlar. Bu cür mövqedən çıxış edənlər yalnız "yuxarı"dan (xüsusilə də istər dövlətdə mühüm vəzifə tutanlardan, istərsə də akademik titulu ünvanı daşıyanlardan) milli konsepsiya ilə bağlı hər hansı fikirlər, mülahizələr səslənəndə, yaxud da məqalələr yazılanda dərhal ona uyğun adaptasiya olurlar. Daha sonra da "yuxarı"dan ortaya atılmış həmin fikirlərin, məqalələrin

ətrafında müzakirlər aparılır, məqalələr yazılır.

Ancaq milli konsepsiya ilə bağlı eyni müddəalar "aşağı"dan səsləndə isə ya qulaqardına vurulur, ya da tənqid atəşinə tutulur. Üstəlik, Qərb və Rusiya metodologiyalarından tamamilə uzaqlaşıb Azərbaycan Türk dünyagörüşünə, Türkçülük şüuruna əsaslanan milli konsepsiyanın təkmilləşdirilməsi istiqamətində iş aparanlara qarşı elmi ictimaiyyət daxilində mənfi rəy formalaşdırılmağa və gözdən salınmağa çalışılır. Halbuki milli konsepsiya ilə bağlı eyni müddəalar bu və yad digər formada "yuxarı"dan da səsləndilir, yaxud da qələmə alınır. Belə olduğu təqdirdə, "yuxarı"dan milli konsepsiya ilə bağlı irəli sürülmüş fikirləri çox vaxt "aşağı"dan irəli sürülmüş fikirlərlə uzlaşdırmaq əvəzinə, bir çox hallarda kənara çıxmalara yol vermək, xüsusilə də Qərb və Rusiya metodlarını davam etdirmək qətiyyən doğru deyildir.

Bizim artıq bir metodologiyamız olmalıdır: Türk yolu, Türk metodologiyası. Xüsusilə də, son illərdə Türk Dövlətləri arasında yalnız siyasi, iqtisadi, hərbi sahədə deyil, elm və mədəniyyət sahəsində də ortaya qoyulan iradə Türk metodologiyasını qaçınılmaz etmişdir. Bizcə, Türk Şurasının, ya da Türk Keneşinin 2021-ci ilin payızından etibarən Türk Dövlətləri Təşkilatına çevrilməsi də məhz Türk metodologiyasının yeganə doğru yol olmasını ortaya qoymaqdadır. Çox sevindirici haldır ki, Türk Dövlətləri Təşkilatında aparıcı rolu Azərbaycan və Türkiyə oynamaqdadır.

Bu anlamda Azərbaycanın milli konsepsiyası da ilk növbədə, Azərbaycanizm və Türklüyün bütünlük fəlsəfəsindən, yəni Türk metodologiyasından keçir. Azərbaycanizm və Türklüyün bütünlük fəlsəfəsi (Azərbaycan Türk fəlsəfəsi) isə milli azlıqlara, etnoslara, etnik qruplara münasibətdə yüzillər boyu hökm sürən Türk dünyagörüşündəki ədalətlilik, insanlıq, sosial bərabərlıik ideyalarının davamıdır. Bütün bunlar da, ilk növbədə, milli fəlsəfənin dərki ilə bağlıdır. Çünki milli fəlsəfəni dərk etmədən, yəni Türk fəlsəfəsini, Türk dünyagörüşünü anlamadan azərbaycanlığımızı, islamlığımızı və insanlığımızı sözün həqiqi mənasında ortaya qoymaq çox çətin

məsələdir. Deməli, Azərbaycan türkləri üçün ən başlıca vəzifə ilk növbədə türklüyünü, onunla yanaşı azərbaycanlığını, islamlığını və insanlığını dərk etməkdir. Fikrimizcə, hazırda milli fəlsəfəmizin əsasını da bu dörd ideya təşkil edir. Məhz bu dörd ideyanın hər biri də hərfi mənasından tutmuş siyasi-ideoloji və fəlsəfi izahlarına qədər milli konsepsiya əsasında ortaya qoyulmalıdır. Bir sözlə, bu məfhumları milli konsepsiya çərçivəsində elə bir şəkildə sistemləşdirilməlidir ki, oxşar və fərqli cəhətlərindən asılı olmayaraq tarixi Azərbaycan Türk dövlətçiliyinin bərpası (Azərbaycan Atəbəyləri, Elxanilər, Baharlılar, Bayandurlular, Səfəvilər, Əfşarlar, Qacarlar dövründə olduğu kimi) işinə xidmət etmiş olsun.

Beləliklə, milli konsepsiyamızın dörd təməl ideyası vardır: Türk(lük), Azərbaycan(lılıq), İslam(lıq) və İnsan(lıq). Şübhəsiz, bu dörd ideyanın hər birinin milli konsepsiyada mühüm əhəmiyyəti vardır. Sadəcə, burada önəmli olan həmin ideyaların həm ayrı-ayrılıqda, həm də bir yerdə oxşar və fərqli cəhətlərindən asılı olmayaraq bir bütün kimi dərk edilməsi ilə bağlıdır. Deməli, əsas problem bir tərəfdən anlayışların hərfi mənadan tutmuş siyasi-ideoloji, ya da fəlsəfi yozumuna qədər müxtəlif bir-birinə zidd qütblərdə düyünlənməsindən, digər tərəfdən isə həmin "düyünlərin" fərqli prizmalardan açılmasından, yəni "kələfin ucu"nun (Qordi düyünü kimi) müxtəlif istiqamətlərdə tapılmasından ibarətdir. Son iki əsrdə "kələfin ucu"nu itirən ya da itirdilən Azərbaycan türkləri bu dörd ideyaya münasibətdə sözün həqiqi mənasında, yetərli ortaq bir məxrəcə hələlik, gələ bilməyiblər. Ancaq o da bir həqiqətdir ki, bu ideyalarla bağlı iki əsrə yaxındır ayrı-ayrılıqda, yaxud da onların üst-üstə düşən və düşməyən tərəfləri ilə əlaqədar xeyli dərəcə də ciddi elmi-fəlsəfi, siyasi-ideoloji mülahizələr irəli sürülmüş, bununla bağlı yüzlərlə məqalə və kitablar yazılmışdır və yazılmağa da davam edir. Bu ideyaların ayrı-ayrılıqda və bir yerdə izahları ilə bağlı daha çox milli konsepsiyanın əsas hədəflərinə yaxınlaşan Türk aydınları Cəmaləddin Əfqani, Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə, Cavad Heyət, Məhəmmədtağı Zehtabi və başqaları olmuşdur. Əgər XIX əsrdə C.Əfqani və H.Zərdabi mil-

li fəlsəfi təfəkkürün ifadəsində ön plana çıxmışdırlarsa, XX əsrdə Ə.Hüseynzadə və M.Ə.Rəsulzadə onların milli konsepsiya ilə bağlı düşüncələrini daha da mükəmmələşdirməyə çalışmışlar. Məhz onların sayəsində də, milli konsepsiyamızın dörd təməl ideya üzrərində öz əksini tapmasının əsası qoyulmuşdur.

Bir az da dəqiqləşdirsək görərik ki, C.Əfqani ilə H.Zərdabi İslamlıq, Türklük, İnsanlıq, Çağdaşlıqla bağlı düşüncələrini yeni təfəkkürə uyğun ortaya qoyduğu halda, Ə.Hüseynzadə və M.Ə.Rəsulzadə bunu bir az da irəli apararaq həm türklüyü digər ideyalardan önə keçirmiş, həm də ona milli fəlsəfi dərklə uzlaşan təriflər verməyə çalışmışlar. Başqa sözlə, türklüyün ancaq bir milli kimlik deyil, həm də bir fəlsəfə, dünyagörüş olmasını ortaya qoymağa çalışmışlar. Əslində türklüyə bu cür baxış islamlıq və insanlıqla yanaşı Türk dünyagörüşünün mövcudluğunu da ortaya qoyur ki, bu da bütün Türk xalqları üçün vaxtilə var olub sonralar unutdurulmağa çalışılan vahid milli fəlsəfi təfəkkürün yenidən təşəkkülünə hesablanmışdır. Bizcə, burada ümumi anlamda Türklük (Turan fəlsəfəsi) daha çox fəlsəfi, dünyagörüş xarakter daşıdığı halda (Ə.b.Hüseynzadənin formulu), xüsusi anlamda isə yalnız fəlsəfi təfəkkürü deyil, milli-məhəlli kimliyi (Azərbaycan türklüyü, Türkiyə Türklüyü, Tatarıstan türklüyü, Türküstan türklüyü və b.) də özündə əks etdirmişdir (M.Ə.Rəsulzadənin formulu).

Milli-məhəlli türklük ideyasının ən bariz örnəklərindən biri Azərbaycan türklüyü ideyasıdır ki, bunu bəlli bir dövrə qədər (xüsusilə də I Dünya müharibəsi dövrünə qədər) bir çoxları Qafqaz türklüyü kimi başa düşmüşlər. Təsadüfi deyil ki, Ə.Hüseynzadənin də milli konsepsiyasında məhz dörd ideyadan biri Azərbaycan türklüyü deyil, Qafqaz türklüyü idi: 1) Qafqazlıyız, 2) İslamız, 3) Türküz, 4) İnsanız. Sadəcə, Əli bəy Hüseynzadənin milli metodologiyasında, ya da milli fəlsəfəsində hər şey ümumidən xüsusiyə doğru hərəkət etdiyi üçün, Türklük, İslamlıq, İnsanlıq kimi Qafqazlılıq da bundan xali olmamışdır. Yəni Hüseynzadənin burada nəzərdə tutduğu "Qafqazlıyız" anlayışı yalnız Azərbaycan türklərini deyil, bütün Qafqaz türklərini (yəni Azərbaycan türkləri ilə yanaşı

noqayları, karaimləri, qaraçayları, balkarları, kumıkları və başqlarını) öz içinə alan bir dəyər idi.

M.Ə.Rəsulzadə isə Ə.Hüseynzadədən fərqli olaraq, bir qədər də konkretliyə vararaq Qafqaz türklüyünü deyil, ümumtürklük içində Azərbaycan türklüyünü müdafiə etmişdir. Buradakı Azərbaycan türklüyü isə yalnız Çar Rusiyasının işğalı altında olan Quzey Azərbaycan türklüyü (Borçalı, Dərbənd, İrəvan, Quba, Gəncə, Naxçıvan, Lənkəran, Bakı, Qazax, Şəki, Qarabağ türkləri və başqaları) ilə məhdudlaşmır və Qacarlar dövlətinin tərkibində olan Azərbaycan türklüyünü (Miyanə, Təbriz, Tehran, Ərdəbil, Qum, Qaşqay, Həmədan, Mərənd, Zəncan, Xoy, Urmu, Soyuqbulaq, Şəbüstər türklərini və başqlarını) də özündə birləşdirirdi. Məhz Rəsulzadənin düşüncələrinin məhsulu olaraq da 1-ci Dünya müharibəsi dövründə Qafqaz türklüyünün yerini Azərbaycan türklüyü tutmağa başlayır. Bununla da bir tərəfdən milli-məhəlli türklüyün inkişafının vacibliyi, digər tərəfdən isə onun ən bariz örnəyi kimi Azərbaycan türklüyünün milli fəlsəfi dərki ortaya çıxırdı. Buradakı milli-məhəlli türklüyün adının Azərbaycan türklüyü kimi ifadəsi, keçmişdəki (Kuti, Subar, Turukku, Manna, Midiya, Səlcuq, Ağqoyunlu, Qaraqoyunlu, Səfəvilər, Əfşarlar, Qacarlar və b.) eyniliyin yenidən canlanmasından başqa bir şey deyildir. Bunu dəfələrlə ifadə edən Rəsulzadənin fəlsəfəsində də dörd ideya bu cür şəkillənmişdir: 1) Türklük, 2) İnsanlıq, 3) İslamlıq, 4) Azərbaycanlıq. Bizcə, buradakı türklük əgər milli-məhəlli xarakter kəsb edərsə Azərbaycan türklüyü, ancaq ümumi xarakter daşıdığı halda Türk birliyi kimi ifadə olunmalıdır. Belə olduğu təqdirdə, milli konsepsiyamızın əsas mahiyyətini aşağıdakı dördlük təşkil etməlidir: 1) Türklük (Azərbaycan türklüyü), 2) Turançılıq-Türkçülük (Türk fəlsəfəsi), 3) İslamlıq, 4) İnsanlıq.

Beləliklə, biz türklüyü iki anlamda dərk etməliyik: Birincisi, Türklük milli-məhəlli xarakter daşıyır və Azərbaycan türklüyünü özündə ifadə edir. Bu halda da türklük və azərbaycanlılıq bir-birinin eyniliyidir. 1918-ci ildə qurulan Türk Cümhuriyyətinə "Azərbaycan" adı verilərkən də məhz bu eynilikdən çıxış edilmişdir.

Doğrudur, o zaman "Azərbaycan" sözü hərfi mənada daha çox "odlar yurdu" kimi başa düşülmüşdür. Ancaq çox maraqlıdır ki, bu zaman türklüklə üst-üst düşən əsas məsələ kimi "tarixi-çoğrafi Azərbaycan"da əsasən Oğuz, qismən də Qıpçaq Türk boylarının vahid millət kimi eyni dilə, mədəniyyətə, ədəbiyyata, adət-ənənələrə, tarixə, fəlsəfəyə sahib olması mühüm rol oynamışdır. Bu baxımdan "Azərbaycan" anlayışının farsca "odlar yurdu" kimi uydurulmuş izahı belə, heç bir məna kəsb etməmişdir və bu gün də etmir. Çünki "Azərbaycan Cümhuriyyəti" adıyla yanaşı ortaya çıxan Oğuzustan, Xəzəristan (Xəzərbaycan) adları da əslində bir-birinin eyniyyətdir. Bu zaman "Azərbaycan" istilahı hərfi mənada da "odlar yurdu" deyil, elə Oğuzlar ölkəsi, Xəzərlər ölkəsi, Türklərin yurdu (Türk yurdu) deməkdir.

İkincisi, Türklük-Turançılıq ümum türklüyü (Türk fəlsəfəsini, Türk dünyagörüşünü) ifadə edir və Türk xalqlarının ortaq tarixə, fəlsəfəyə, ədəbiyyata, dünyagörüşə sahiblənməsinə əsaslanır. Bu halda isə türklük Azərbaycan türkçülüyü (azərbaycanlılıq) ilə yanaşı digər milli-məhəlli Türk ideyalarını (Türkiyə türklüyü, Qazaxıstan türklüyü, Tatarıstan türklüyü, Uyğurustan türklüyü, Krım türklüyü, Özbəkistan türklüyü, Başqırdıstan türklüyü və b.) özündə ifadə edir. Bu prizmadan yanaşsaq, Türk dünyagörüşünün, Türk fəlsəfəsinin son əsrdə yalnız Türkiyə türklərinin boyununa biçilməsi, buna uyğun olaraq da Türk mədəniyyəti, Türk dili, Türk fəlsəfəsi, Türk tarixi dedikdə, ancaq Türkiyə türklüyünü başa düşmək kökündən yanlışdır. Türkiyə türklüyü milli-məhəlli türklük ideyalarından yalnız biri olub, ümum türklüyün sadəcə bir parçasıdır. Yəni Türkiyə türklüyü digər milli-məhəlli türklük ideyalarından (Azərbaycan türklüyü, Qırğızıstan türklüyü, Uyğurustan türklüyü, Tatarıstan türklüyü, Başqırdıstan türklüyü, Krım türklüyü və b.) biri olub, sadəcə son əsrdə, xüsusilə Türkiyə Cümhuriyyətinn qurucusu, cümhurbaşqanı Mustafa Kamal Atatürkün sayəsində öz müstəqilliyini qoruyub saxlaması və türklüyün ümid qalası kimi mövcudluğuna görə ön plana çıxmışdır.

Beləliklə, burada ifadə etmək istədiyimiz əsas məsələ odur ki,

milli konsepsiyamızın təməl ideyalarını doğru-dürüst mənimsəmədikcə daima problemlər içində yaşamalı olacağıq. Başqa sözlə, çar Rusiyası dövründə Azərbaycan türklərinin nədən "tatar", Sovet Rusiyası dövründə "azərbaycanlı", Pəhləvilərlə İran İslam rejimlərində "persiyalı", "iranlı" və buna uyğun olaraq dilinin də "tatar dili", "Azərbaycan dili", "azəri dili" adlandırılmasının əsil mahiyyətini ortaya qoymadan milli konsepsiyadan, milli fəlsəfədən, milli metodologiyadan danışmaq mənasızdır. Əslində fasiləsiz olaraq milli kimliyinin və milli dilinin "tatar", "azərbaycanlı", "iranlı", "azəri", "persiyalı" olmadığını müdafiə etməklə məşğul olmağın özü belə həmin milləti ölgünləşdirir, qut(ruh)suzlaşdırır, özgələşdirir.

Bu baxımdan bugünkü Azərbaycan Respublikasında dilimizin adının Azərbaycan dili deyil, Türk dili adlandırılması, siyasi anlamda azərbaycanlı olmaqla yanaşı Türk kimliyimizin ifadə edilməsi tələblərinin irəli sürülməsinin milliyyətçilik, ya da millətçiliklə aşağı-yuxarı heç bir əlaqəsi yoxdur. Bu, ilk növbədə Türk dünyagörüşünə, Türk tarixinə, Türk fəlsəfəsinə, Türk ədəbiyyatına, Türk dövlətçiliyinə bağlılıqdan irəli gələn zərurətdir. Çünki dövlətimizin adı ilə (Azərbaycan) dilimizi, ədəbiyyatımızı, tariximizi, dövlətçiliyimizi məhdudlaşdırmaqla əslində özümüz öz əlimizlə düşmənlərimizə əsaslı bəhanələr vermiş oluruq. Hər halda dövlətin adı ilə bağlı olan anlayışlarla bir milləti, onun dilini, ədəbiyyatını ancaq müəyyən bir çərçivədə ifadə etmək mümkündürsə, ancaq hər hansı bir ideya, dünyagörüş əsasında isə onun sərhədləri daha da genişlənir. Bu anlamda "Azərbaycan" ideyası daha çox tarixi-coğrafi Azərbaycanı və burada yaşayan türk, qeyri-türk bütün etnosları vahid mədəniyyət, dövlətçilik çatısı altında bütünləşdirdiyi halda, ancaq onu Türk dünyagörüşündən, Türk dövlətçilik ənənələrindən uzaq tutmaq əsas nüvədən məhrum etmək deməkdir.

Türk dünyagörüşünə əsaslanmayan, yəni milli nüvəsi Türklükdən uzaq tutulan "Azərbaycan" ideyası isə o deməkdir ki, onun ən yaxşı halda varlığı təqribən 100 il civarındadır. Onsuz da, bunu anti Azərbaycan, anti Türk düşmənləri hər fürsətdə dilə gətirirlər, yazırlar. Belə olduğu təqdirdə, dilimizin Türk dili, ədəbiyyatımızın Türk

ədəbiyyatı, fəlsəfi fikrimizin Türk fəlsəfi fikir tarixi adlandırılmasının qəti əleyhinə olub yeri gəldi gəlmədi, anlamı oldu, ya da olmadı hər şeyi yalnız "Azərbaycan" anlayışı çəçivəsində görmək doğru deyildir. Bir şey unutmaq olmaz ki, təqribən 100 il öncə "Azərbaycan" ideyasını ortaya atıb onu bir Türk dövlətinin rəsmi adı halına gətirənlər üçün başlıca qayə Azərbaycan türklərini, o cümlədən də digər etnosları vahid bir çatı (mədəni, dil, adət-ənənə, iqtisadi, tarixi, ədəbiyyat və s.) altında tutmaq olmuşdur. Ancaq bütün hallarda ilk dəfə siyasi məfkurə kimi ortaya atılan "Azərbaycan" ideyasının da əsas canı, qanı, ruhu bir sözlə, hər şeyi Türk dünyagörüşü, Türklük/Turançılıq fəlsəfəsi idi. Bu qətiyyən dəyişə bilməz, heç bir zaman dəyişməyəcək də!

Hazırda əsasən, quzeyli-güneyli Azərbaycan Türk aydınları olaraq əsil həqiqətləri ortaya qoymaq, daha sonra da doğru olanları gerçəkləşdimək yerinə milli iradəsizliyimizdən, yarımçıq milli təfəkkürümüzdən dolayı ya müdafiə olunmaqla, ya da susmaqla kifayətlənirik. Halbuki milli konsepsiyamızın çox vacib olan ilk iki ideyasını, yəni türklüyümüzü və azərbaycanlığımızı heç olmasa müəyyən bir dərəcədə anlamış olsaq, o zaman daima müdafiə olunmağın millətin böyüməsi və inkişafı yolunda ciddi əngəl olduğunu daha dərindən dərk etmiş olarıq. Milli konsepsiyanın milli fəlsəfi dərki dedikdə də, ilk növbədə türklüyün və azərbaycanlılığın bütünlüyü məsələsinin hansı şəkildə təqdim olunması anlaşılmalıdır. Burada da ən önəmlisi dövrün şərtlərinə uyğun olaraq milli konsepsiya ilə bağlı olan ideyaları zor-xoş marginallaşdırmaq deyil, bəlkə də əksinə milli nüvə ətrafında daha da zənginləşdirməkdir. Hər halda son illərdə dünyada, o cümlədən Türk Dünyası daxilində baş verən proseslər milli konsepsiyanın vacibliyini bir daha ortaya qoymaqdadır. Şübhəsiz, milli konsepsiyanın dördayaqlı çatı (türklük, azərbaycanlılıq, islamlıq, insanlıq) üzərində qurulması və inkişafı da əsas qayə təşkil etməkdədir.

# I FƏSİL

# XX ƏSRDƏ QUZEY AZƏRBAYCANDA İCTİMAİ-SİYASİ VƏMƏDƏNİ MÜHİT (İCMAL)

## 1.1. XX əsrin əvvəllərində (1901-1920) Quzey Azərbaycanda sosial-siyasi və mədəni mühit

Quzey Azərbaycan xalqının fəlsəfəsinin inkişaf yollarını və başlıca xüsusiyyətlərini doğru, obyektiv şəkildə anlamaq, bu dövrün fəlsəfi problemlərini və inkişaf yollarını müəyyənləşdirmək tanınmış mütəfəkkirlərin təmsil olunduğu dini-fəlsəfi (idealist), ateist-marksist (materialist) təlimlərin, o cümlədən maarifçi, milli-demokrat və sosial-demokrat yönlü siyasi-ideoloji, sosial-fəlsəfi cərəyanların mahiyyətini aşkar etmək üçün, sosial-siyasi və mədəni mühitin ümumi mənzərəsinə diqqət yetirmək zəruridir.

XX əsrin əvvəllərində Quzey Azərbaycanda sosial-siyasi vəziyyət belə idi ki, 1813 (Gülüstan) və 1828-ci illərdə (Türkmənçay) Qacarlar dövləti ilə bağladığı sülh müqavilələri əsasında Bütöv Azərbaycanın quzey ərazilərini Dərbənddən Astaraya, İrəvandan-Naxçıvandan Bakıya qədər işğal altında saxlayan çar Rusiyası mütləqiyyətçi idarəetmə sisteminə uyğun olaraq ölkəmizi üç quberniya (Bakı, Yelizavaetpol və İrəvan) və bir dairə (Zaqatala) şəklində idarə edirdi. Heç bir zaman çar Rusiyasının müstəmləkəçiliyi ilə razılaşmayan Quzey Azərbaycan türkləri də milli haqlarının bərpası uğrunda mübarizəni yeni bir mərhələyə daşımağa başlamışdılar. XX əsrin əvvəllərində Quzey Azərbaycan türkləri milli azadlıqlarını yenidən əldə etmək üçün bir neçə istiqamətdə iş aparırdılar: 1) Milli kapital ya da milli iqtisadiyyatın formalaşması, 2) Milli haqlar ugrunda mübarizə və Dövlət Dumasında Türk millət (Güney Qafqaz, o cümlədən Quzey Azərbaycan) vəkillərinin təmsilçiliyi, 3) Milli təşkilatlar və partiyaların yaranması, 4) Milli mətbuatın yenidən canlanması, 5) Milli məktəblərin çoxalması fonunda Türk di-

lində tədrisin inkişafı, 6) Milli ədəbiyyatın yeni mərhələyə qədəm qoyması və milli fəlsəfi fikrin təcəssümü.

Ötən 80-90 il ərzində çarizmin apardığı "parçala və hökm sür!" siyasətinin, eləcə də real şərtlərin nəticəsi olmalı idi ki, XX əsrin ilk illərində Türk ziyalılarından bir qismi Quzey Azərbaycanın gələcəyini konstitusiyalı ya da sosial-demokrat (marksist) Rusiyayla, digər bir qismi isə "İslam birliyi" ya da "Türk birliyi" inancıyla Osmanlıyla birləşməkdə görürdülər. Xüsusilə də, 1905-ci il I Rusiya inqilabına qədər və inqilab illərində (1905-1907) Quzey Azərbaycan Türk ziyalılarının qabaqcılları arasında İslamçılıqla Türkçülük (Osmanlıyla birləşmə) və sosial-demokratizmlə liberal-demokratizm (Rusiyayla birgəliyə davam) ideyaları daha geniş yayılmışdır. Bu anlamda XX əsrin ilk on illiyində Quzey Azərbaycan türklərinin oyanışı, inkişafı məsələsi böyük ölçüdə iki istiqamətli idi. Türk aydınlarından bir qismi xalqın yeniləşməsində ana prinsip kimi İslamçılıqla Türkçülüyü götürüb üzünü Osmanlı İmperiyasına tutduğu halda, digər bir qismi isə sosial-demokratizmi ya da liberal-demokratizmi qəbul edərək Rusiyanın tərkibində qalmağa üstünlük verirdilər. Həmin dövrdə ziyalılar arasında Qacarlarla birləşmək ya da müstəqillik ideyalarının tərəfdarları yetərincə deyildi.

Quzey Azərbaycanda milli fəlsəfi fikir aşağı-yuxarı məhz bu ideyaların əsaslandırılması, həmin ideyalar arasında oxşarlıqlar və ziddiyyətlərin ortaya çıxarılmasıyla bağlı olmuşdur. Hər halda Azərbaycan milli ideyasının (Azərbaycan türkçülüyünün) və onun bariz təcəssümü olan Azərbaycan Cümhuriyyətinin yaranmasında Türkçülüklə İslamçılıq qədər olmasa da, sosial-demokratizmlə liberal-demokratizm ideyalarının da bəlli rolu olmuşdur. Milli fəlsəfi fikrin mahiyyəti, inkişaf yolları da məhz bir-birinə zidd görünən, ancaq bir çox hallarda da həmin ziddiyyətlərin bütünlüyündə öz ifadəsini tapmışdır. Bu anlamda Azərbaycanda fəlsəfi fikrin inkişafındakı təzadları, o cümlədən həmin təzadlı düşüncələrin müəlliflərini əsasən, anlamaq çətin deyildir. Bizim məqsədimiz, Türk aydınlarını təzadlı, bir-birinə zidd olan düşüncələrinə, yəni sosial-demokrat, liberal-demokrat, milli-demokrat, islamçı, türkçü, poziti-

vist və başqa bir cərəyana aid olmasından, bunlar arasında yer dəyişdirmələrindən asılı olmayaraq ana prinsipə, yəni sözün həqiqi mənasında daima Azərbaycan türklərinin maraqlarına, milli mənafeyinə sadiq qalmalarıdır. Başqa sözlə, önəmli olan daxildən və kənardan qaynaqlanmasından asılı olmayaraq hər hansı bir ideyaya tapınan Azərbaycan Türk ziyalısının həmin ideyadan öz millətinin maraq və mənafeyi naminə xidmət etməsidir. Çünki həmin ideyalar fəlsəfi və ictimai fikrə də çox ciddi təsir göstərmişdir. Hər halda milli kapitaldan tutmuş milli təşkilatların yaranması, ya da milli mətbuatdan tutmuş Türk dilinin öz varlığını hansı formada ortaya qoyması biri-birilə bu və ya digər dərəcədə bağlı olmuşdur. Burada həmin məsələlərin (milli kapital, milli mətbuat, milli təşkilatlar) geniş izahına varmadan əsasən fəlsəfi və sosial-siyasi fikrə öz təsirini göstərmiş mühüm məqamlara nəzər yetirəcəyik.

XX əsrin əvvəllərində sosial-siyasi və mədəni proseslərin gedişinə ən ciddi təsir edən amillərdən birincisi, milli iqisadiyyatın inkişafı və onun fonunda milli kapitalın xeyli dərəcə də özünü göstərməsi idi. İqtisadiyyatda, özəlliklə neft sənayesində milli sərmayənin formalaşması heç də asan baş vermirdi. Bakının neft sənayesində özünə yer edənlər arasında yalnız işğalçı rus deyil, eyni zamanda ingilis, yəhudi, alman, isveç, erməni mənşəli neft maqnatları da var idi.[16] 1-ci Dünya müharibəsi (1914-1918) ərəfəsində Abşeron-Bakı neft mədənlərində bütün Rusiya neftinin 80 faizə yaxını hasil edilirdi ki, onun 65 faizə qədəri altı əcnəbi zavodun payına düşürdü.[17] 1914-cü ildə Azərbaycanda neft sənayesi əsasən üç beynəlxalq inhisar – "Şell", "Nobel qardaşları" və "Rus baş neft şirkəti" ("Oyl") şirkətinin əlində idi. Onlar "Rusiya imperiyasında neft sənayesinin bütün səhmdar kapitallarını 86 faizini və hasil edilən neftin 60 faizini öz nəzarəti altında saxlayırdı".[18] Bakı neftində Türk kapitalını H.Z.Tağıyev, M.Nağıyev, M.Muxtarov təmsil edirdilər ki, 167 neft sənaye müəssisəsindən 49-u, yəni 29,3%-i onların

[16]Azərbaycan tarixi. Yeddi cilddə, V cild (1900-1920-ci illər). Bakı: Elm, 2008, s.27-28
[17] Yenə orada, s.32-33
[18]Azərbaycan Kommunist Partiyasının oçerkləri. I cild, Bakı: Azərnəşr, 1986, s.219

himayəsində idi. Ancaq sayca çox görünsə də, neftin ümumi istehsal həcmində vəziyyət əcnəbi şirkətlərin xeyrinə dəyişirdi.[19]

XIX əsrin sonundan başlayaraq Quzey Azərbaycanda iqtisadiyyatın xeyli dərəcədə yüksəlişi, xüsusilə neft sənayesinin inkişafı demoqrafik artıma, şəhərlərin inkişafına öz təsirini göstərdi. Rusiya isə çalışırdı ki, iri və böyük şəhərlərdə yerli Türk əhalisinin sayı çoxalmasın, bu məqsədlə də qeyri-türklərin müxtəlif yollarla saylarını artırmağa çalışırdılar. Bunun da nəticəsində "Şəhər əsasnaməsi"nə uyğun olaraq şəhərin özünüidarə orqanlarında əsas yeri türklər deyil ruslar, ermənilər və başqa yad millətlərin nümayəndələri tuturdular. 1900-cu ildə çarın verdiyi fərmana görə, Şəhər Dumasında yerlərin 50 %-ni türklər tutmalı olsalar da, buna əməl olunmurdu.

Çarlıq Rusiyasının 1897-ci ildə əhalini siyahıya alması məlumatına görə, Quzey Azərbaycanda (Zaqatala dairəsi nəzərə alınmamaqla) 1.805.788 nəfər yaşayırmış. Bu statistik məlumata şübhə ilə yanaşan M.H.Baharlı yazırdı ki, əhalinin bəzi üzvləri yaylaqda olmaları, yaxud da əsgərlikdən, vergidən yayınmaq kimi məsələlərə görə siyahıyaalınmada iştirak etməyiblər. Bu səbəbdən Baharlı 1897-ci ildə Quzey Azərbaycan əhalisinin sayının 2.150.000 nəfər, 1917-ci ildə isə 2.861.862 nəfər olduğunu irəli sürmüşdür.[20] Baharlı yazır: "Milli tərkibinə görə isə Azərbaycan əhalisi aşağıdakı qaydada bölünür: 1 milyon 9522 min, yaxıd 68,2% müsəlman xalqları: Türklər - 1 milyon 696 min; tatlar - təxminən 70 min; avarlar - təxminən 50 min; ləzgilər - təxminən 50 min; kürdlər - təxminən 20 min; Dağıstanın xırda xalqları - təxminən 16 min; ermənilər - 622 min, yaxud 21,7%; ruslar və ukraynalılar - 214,9 min, yaxud 7,5%;…".[21] Bu stastik məlumatlar da bir daha təsdiq edir ki, hətta çarizmin əli ilə baş verən süni şəkildə köçürmələr belə Quzey Azərbaycan türklərinin dominantlığına təsir edə bilməmişdir.

---

[19] Baykara Hüseyn. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.42
[20] Vəliyev (Baharlı) Məhəmməd Həsən. Azərbaycan (Fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk). Bakı, "Azərbaycan" nəşriyyatı, 1993, s.14-15
[21] Yenə orada, s.15

XX əsrin əvvəllərində Yaponiya ilə müharibədə (1903-1904) məğlubiyyətlə yanaşı dünya iqtisadi böhranından (1901-1903) qurtula bilməməsi, milli azadlıq və fəhlə hərəkatlarının genişlənməsi Çarlığı çətin vəziyyətə salmışdı. 1905-ci il yanvarın 9-da II Nikolayın minlərlə adamların ona ünvanlanmış şikayətləri dinləmək əvəzinə güllə-borana tutması problemi həll edə bilməzdi.[22] Çarlıq inqilabi hərəkatın qarşısını almaq, əhalinin diqqətini başqa istiqamətə yönəltmək üçün millətlərarası qırğından istifadə etdi. Çarlıq Rusiyası Quzey Azərbaycanda inqilabi-marksist və milli-demokratik cərəyanların güclənməsindən ehtiyat edərək Güney Qafqaz bölgəsində erməni-müsəlman münaqişəsinə (1905-1906-cı illər) rəvac verdi. Bundan ən çox Quzey Azərbaycan türkləri, bütövlükdə bu coğrafiyada yaşayan bütün müsəlmanlar əziyyət çəkdilər.[23]

1905-ci il fevralın 18-də çar II Nikolayın məcbur olaraq Dövlət Duması layihəsinin hazırlanmasına dair bəyanat verməsi Quzey Azərbaycanda da milli qüvvələri hərəkətə gətirdi. Türk ziyalılarından Ə.Topçubaşı, Ə.Ağayev, F.Vəzirov və başqaları 1905-ci lin martın 15-də H.Tağıyevin evində toplaşaraq "Ümummilli haqq istəyi" layihəsini hazırladılar. Bu layihənin əsas məzmunu Rusiyada yaşayan müsəlmanlara da ruslarla eyni siyasi, hüquqi, mədəni, dini və iqtisadi haqların tanınmasından ibarət idi.

I Rusiya inqilabı özünün pik nöqtəsinə isə 1905-ci ilin payızında çatdı. İmperiyanı bürüyən xalq hərəkatından, inqilabın alovlanmasından təşvişə düşən çar Rusiyası 17 oktyabr Manifesti ilə bütün xalqlara söz, mətbuat, yığıncaq və digər azadlıqlar verməyi vəd etdi. II Nikolayın Dumaya seçkilər keçirilməsi haqqında 1905-ci il 11 dekabr fərmanına uyğun Quzey Azərbaycanda da I Dumaya seçkilər keçirildi. 1906-ci ilin aprelində işə başlayan I Dövlət Dumasına Azərbaycan türklərindən Ə.Topçubaşı, İ.Ziyadxanlı, X.Bahadurov, Ə.Haqverdiyev deputat seçildilər. Ə.Topçubaşı isə çar Rusiyasının bütün bölgələrindən I Dövlət Dumasına seçilən müsəlman millət vəkillərindən formalaşan "Müsəlman fraksiya-

---

[22] Baykara Hüseyn. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.101
[23] Məmmədov İsmayıl. Azərbaycan tarixi. Dərslik, Bakı, Adiloğlu, 2005, s.327

sı"nın rəhbəri oldu.[24] 1906-cı ilin iyulunda I Duma buraxıldı və 1907-ci ilin əvvəllərində II Dumaya seçkilər keçirildi; Dumaya bu dəfə F.Xoylu, M.Şahtaxtlı, X.Xasməmmədov və başqaları deputat seçildilər. Ə.Topçubaşı Vıborq bəyannaməsinə imza atdığına görə millət vəkilli seçilə bilmədiyi halda, ancaq "Müsəlman fraksiyası"nın lideri olaraq qalmaqda idi.[25] III Dumaya seçkilər zamanı isə Quzey Qafqaz, Mərkəzi Asiya, Sibir xalqları seçki hüququndan əsasən məhrum edildilər və Güney Qafqaz müsəlmanlarından yalnız X.Xasməmmədov və İ.B.Heydərov deputat seçilə bildilər.[26] 1912-ci ildə IV Dumaya seçkilərdə isə Güney Qafqazdan yalnız Məmməd Yusif Cəfərov deputat seçildi. "Əsarətdə yaşayan türklərin I Dumada 46 millət vəkili vardı. II Dumada bu sayı mühafizə etmişdilər. III Dumada seçki qanununun türklər və sol partiyalar əleyhinə azaldılması üzündən türklərin millət vəkilərinin sayı 10, IV Dumada isə 7 nəfər olmuşdu".[27]

I Rusiya inqilabına qədər (1905) və inqilab illərində Quzey Azərbaycanın **siyasi-ideoloji** vəziyyət olduqca mürəkkəb və ziddiyyətli olmuşdu. Ötən əsrin əvvəllərində, özəlliklə birinci Rusiya inqilabından sonra (1905) Quzey Azərbaycan türkləri siyasi-ideoloji həyatda əsasən, üç istiqamətdə iş aparırdılar:

1. Milli maarifçilik (realistlər, romantiklər),
2. Milli-demokratizm (islamçılıq, türkçülük, müasirlikvə b.),
3. Sosial-demoktariya ya da marksizm (milli inqilabçılar, menşevizm, bolşevizm, sosialist inqilabçılar).

İlk növbədə Quzey Azərbaycanda **milli maarifçilik** cərəyanı geniş yayılmışdı. Azərbaycan Türk ziyalılarından bir qismi mövcud problemlərə tənqidi yanaşdıqları üçün realizmin (C.Məmmədquluzadə, M.Ə.Sabir və b.), digər bir qismi (M.Hadi, A.Səhhət, H.Ca-

[24] Devlet Nadir. Rusya Türklerinin milli mücadile tarihi (1905-1917). Ankara, TTK yayınları, 2014, s.147
[25] Yenə orada, s.149
[26] Yenə orada, s.151
[27] Baykara Hüseyn. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.118

vid və b.) isə utopik düşüncələrinə görə romantizmin nümayəndələri hesab edilirdilər. Maarifpərvər ziyalılar milli-demokratizmlə sosial-demokratizm arasında tərəddüd edirdilər. Çünki onların hər iki cərəyanla bağlı bir sıra məsələlərə baxışlarında fikirləri üst-üstə düşürdü. Bu baxımdan sonralar maarifpərvər ziyalılardan xeyli bir qismi milli-demokratik, bəziləri isə marksizmə (xüsusilə bolşevizmə) üz tutdular.

**Milli-demokratik cərəyan** milli-dini ənənələr əsasında yaranmış, Türk millətinin həyatında həlledici rola malik olmuşdur. Çünki milli-demokratik cərəyanın başlıca qaynağı, mənbəyi Azərbaycan xalqı özü, onun XIX əsrdə yetişdirdiyi aydınlarının elmi-fəlsəfi əsərləri və görüşləri olmuşdur. I Rusiya inqilabına qədər (1905) milli-demokratik cərəyanın müəllifləri əsasən, "Kaspi" qəzeti ətrafında toplaşaraq müasir ruhlu islamçılıq, türkçülük ideyalarını yayır, belə bir mürəkkəb şəraitdə hələlik siyasi təşkilat, partiya yarada bilmirdilər. "XIX əsrin axırlarında – XX əsrin əvvəllərində Azərbaycan burjuaziyasının hələ öz siyasi partiyası yox idi və yerli panislamistlər öz ideoloqları Əhməd bəy Ağayev və Əlimərdan bəy Topçubaşov başda olmaqla milyonçu H.Z.Tağıyev tərəfindən alınan "Kaspi" qəzeti ətrafında toplaşıb, onun səhifələrində öz baxışlarını təbliğ edirdilər".[28]

I Rusiya inqilabının başlamasından sonra milli-demokratizmin təmsilçiləri (Ə.Topçubaşı, Ə.Ağaoğlu, H.Vəzirov və b.), 1905-ci ilin avqustun 15-də Nijni Novqorodda keçirilən Rusiya Müsəlmanlarının I qurultayının da qərarı ilə "Rusiya Müsəlmanları İttifaqı"nın yaranmasında fəal iştirak etmişlər. 1906-cı il yanvarın 15-25-də Sankt-Peterburqda keçirilən II qurultayda partiyanın sədri (Ə.Topçubaşı) ilə yanaşı, onun nizamnaməsi, proqramı qəbul edildi ki, burada məhkəmə, siyasi məqsədlər, fəhlə məsələləri, məhəli muxtariyyət, dini qaydalar, dövlət quruluşu kimi məsələlər öz əksini tapmışdır.[29]Konstitusiyalı monraxiya tərəfdarı olan bu partiya,

---

[28]Azərbaycan Kommunist Partiyasının oçerkləri. I cild,Bakı: Azərnəşr, 1986, s.40

[29] Devlet Nadir. Rusya Türklerinin milli mücadile tarihi (1905-1917). Ankara, TTK yayınları, 2014, s.133-136

müsəlman vəkillərinin sayının artması, qadınların seçkilərdə iştirak etməsi və müsəlmanların-türklərin hüquq və azadlıqları uğrunda mübarizə aparırdı. 1906-cı il avqustun 16-23-də Nijni-Novqorodda keçirilən III qurultayda isə quruma rəhbərlik etmək üçün daimi yeri Bakı olan Mərkəzi Komitə yaradıldı. Qurultayda siyasi problemlərlə yanaşı, türklər yaşayan bölgələrdə yeni tipli məktəblərin yaradılması, ibtidai icbari təhsilə keçilməsi, təhsilin ana dilində aparılması, milli kadrların hazırlanması üçün Bakıda, Kazanda, Baxçasarayda pedaqoji institutların açılması qərara alındı.[30] Bu qurultayın təsirilə sonralar türklərin yaşadığı bölgələrdə məktəblər şəbəkəsi genişləndi, milli mətbuat çoxaldı. Ancaq I Rusiya inqilabının məğlubiyyəti (1907) nəticəsində partiya öz fəaliyyətini dayandırmalı oldu. Polyak alim Tadeuş Svyatoçovski hesab edir ki, bütün hallarda I Rusiya inqilabı ilə Quzey Azərbaycanda milli oyanışın təməli qoyulmuş və bu proses 1-ci Dünya müharibəsi başlayana qədər davam etmişdir.[31]

Bu dövrdə milli-demokratizmin liberal xəttinə meyil göstərən Türk aydınları Ə.Topçubaşı, İ.Hacınski, İ.Hacıyev, K.Səfərəliyev və başqaları olmuşlar. Onlar çar Rusiyasında yaranmış Konstitusion Demokratlar Partiyasına (kadetlərə) rəğbət bəslədikləri üçün 1905-ci ilin dekabrın 5-də bu qurumun Bakı şöbəsini təşkil etdilər.

1905-ci ildə Gəncədə yaranan Türk sosial-federalist "Qeyrət"in proqramında federasiya çərçivəsində müsəlman əhalisinə muxtariyyət verilməklə yanaşı, bəzən Qafqazın Rusiyadan ayrılması da tələb olunurdu. Üç il fəaliyyət göstərən və sonra fəaliyyəti imperiya tərəfindən qadağan olunan "Qeyrət"in liderləri N.Yusifbəyli, Ə.Rəfibəyli və A.Xasməmmədov idilər. 1917-ci ildə "Qeyrət!" "Türk Ədəmi-Mərkəziyyət" Partiyası kimi bərpa olundu.[32]

Güney Qafqazda ermənilərlə rusların Türk-Müsəlman əhalisinə qarşı törətdikləri qırğınının qarşısının alınmasında Əhməd bəy

---

[30]Yenə orada, , s.137-145

[31] Svyatoçovski Tadeuş. Müslüman cemaetten ulusal kimliğe. Rus Azerbaycanı 1905-1920. İstanbul, Bağlam yayınları, 1998, s.65-67

[32]Azərbaycan tarixi.Yeddi cilddə, V cild (1900-1920-ci illər).Bakı: Elm, 2008,s.153-154

Ağaoğlunun 1906-cı ilin yayında yaratdığı "Difai" də mühüm rol oynamışdır. "Difai" Türk əhalini erməni daşnaklarının silahlı dəstələrinin qırğınından müdafiə etmək məqsədilə yaranmışdı.[33]

Milli-demokratik cərəyanın təmsilçilərinin 1911-ci ildə yenidən öz milli partiyalarını –"Müsavat"ı yaratmaları, nəinki çar rejimini, eyni zamanda bolşeviklərin gözlənilən hiddətinə səbəb olmuşdu. "Müsavat" milli təşkilat olaraq qurulsa da, ilk dövrlərdə islamçılıq məfkurəsi üstünlük təşkil edirdi. ""Müsavat"ın ilk proqramı islami xarakter daşımış, partiyanın sonrakı fəaliyyəti dövründə işlənib hazırlanmış, dolğunlaşmış, Azərbaycanın istiqlalı və müstəqilliyinə xidmətə yönəldilmişdir".[34] "Müsavat"ı yaradanların əksəriyyəti keçmiş "hümmət"çilər idi və buraya əski "difai"çilər də qoşulmuşdu. Keçmiş "hümmət"çilər (M.Ə.Rəsuloğlu, A.Kazımzadə, Tağı Nağıoğlu, M.Ə.Rəsulzadə və b.) vaxtilə marksistlərin təsiri və təzyiqi altında "Hümmət"i tamamilə milliləşdirə bilməsələr də, orada yarımçıq qoyduqları işi "Müsavat"da davam etdirməyə başladılar. Çox keçmədən də, "Müsavat" yalnız keçmiş "hümmət"çilərin deyil, bütün milli-demokratik qüvvələrin daşıyıcısı olan insanların üzlərinə öz qapılarını açmışdı.[35]

1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi ilə bağlı verilən ümum aministiyadan istifadə edərək Bakıya dönən milli ruhlu mühacirlər, xüsusilə də M.Ə.Rəsulzadə kimi tanınmış fikir adamı mətbuatda, ictimai yığıncaqlarda fəal təbliğat işlərinə başladı. 1915-ci ilin oktyabrında ilk sayı çıxan "Açıq söz" qəzetinin baş redaktoru kimi M.Ə.Rəsulzadə qəzetin əsas şüarını türkçülük, müasirlik, islamçılıq kimi müəyyənləşdirmişdi: ""Açıq söz" ilk dəfə olaraq o vaxta qədər Qafqaziya müsəlmanı və yaxud tatar deyilən xalqın türk olduğunu sərhaət və israrla meydana atmış və bu xüsusda hərb senzoru ilə mübarizə etmək zərurətində qalmışdı".[36]

---

[33] Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.120-122; Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992, s.39-40

[34] Yaqublu N. Azərbaycan milli istiqlal mübarizəsi və M.Ə.Rəsulzadə.Bakı:2001, s.29

[35] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992, s.40-43; Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.184

[36] Resulzade M.E. Azerbaycan Cümhuriyeti. İstanbul: 1990, s.17

Beləliklə, 1910-cu illərdə sosial-siyasi və elmi-mədəni hadisələr özünəməxsusluğu ilə fərqlənir, milli aydınlarımızın gördüyü böyük işlər sayəsində, xalqımız çar Rusiyasında, Quzey Azərbaycanda və bütövlükdə dünyada baş verən hadisələrə hərtərəfli şəkildə baxmağa başlayırdılar. Quzey Azərbaycan türkləri ictimai-siyasi həyatda mövcud olan cərəyanları müqayisə edə bilir, onların (milli-demokrat, sosial-demokrat, menşevik, bolşevik, ittihadçılıq və b.) hansı maraqlara xidmət etdiklərini zaman-zaman görür və anlayırdılar. Quzey Azərbaycan xalqını istiqlala aparan yolun əsas yolçuları milli-demokratik cərəyan ətrafında toplaşanlar idi. Xüsusilə, "Müsavat"ın tutduğu milli ideya nəticəsində 1910-cu illərdə Quzey Azərbaycan xalqı qurtuluş yolunu əsasən bəlirləmiş, Milli isqtiqlala doğru yol almışdı.

I Dünya müharibəsinin (1914-1918) başlanması ilə Quzey Azərbaycanın sosial-siyasi həyatında hadisələr yeni bir aşamaya keçməyə başladı. Çar Rusiyasının bu dövrdə apardığı bu və ya başqa islahatlar, eyni zamanda marksist-leninçi və milli-demokratik cərəyanların güclənməsi nəticəsində yeni mətbu orqanların, ayrı-ayrı cəmiyyətlərin yaranması Azərbaycanın ictimai-siyasi həyatında çox mühüm amillər idi. Bu amillərin nəticəsində Azərbaycanda milli ruhlu ziyalıların sayı artır və onların timsalında Milli azadlıq ideyası vüsətlənirdi. Bütün bunlar ilk növbədə, ötən əsrin ilk on illiyində meydana çıxmış milli-demokratik cərəyanın davamı kimi özünü büruzə verir və Milli azadlıq ideyasının gerçəkləşməsinə aparırdı. Bu dövrdə artıq milli-demokratik cərəyan nəinki marksizm qədər geniş yayılmış, hətta bir çox hallarda onu qabaqlamağı da bacarmışdır. Bunun nəticəsi olaraq, Azərbaycan xalqı seçim qarşısında qalarkən marksist bolşeviklərə deyil, məhz milli-demokratik qüvvələrə etimad göstərib Azərbaycan Cümhuriyyətinin yaranmasının əsas mənbəyi kimi çıxış etmişdir.

I Rusiya inqilabına qədər və inqilabdan sonra Azərbaycanda ən geniş yayılan ideyalardan biri **sosial-demokratizm ya da marksizm** idi. Azərbaycanda marksistlərin əsas dayağı fəhlələr olsa da, ancaq bu fəhlələrin böyük əksəriyyəti türk-müsəlman de-

yildilər. Quzey Azərbaycanın müxtəlif şəhərlərində keçirilən nümayiş və tətillərin əsas iştirakçıları da çar Rusiyasının müxtəlif bölgələrindən buraya işləməyə gələn, ya da gətirilən fəhlələr idilər. Bu anlamda Quzey Azərbaycanda ilk dövrlərdə marksizmi yayanlar, marksist dərnək yaradanlar əsasən rus, yəhudi, gürcü və başqa yad millətlərin nümayəndələri olub Azərbaycan türkləri də yavaş-yavaş bu prosesə cəlb edilmişdir.[37] 1901-ci ilin yazında RSDFP-nin Bakı Komitəsi yaradılanda da, onun üzvlərinin hamısı əcnəbi xalqların nümayəndələri idilər. 1901-ci ildə Bakıda "İskra" qəzetinin agentlərindən ibarət qrup təşkil olundu ki, onların arasında da bir nəfər olsun belə Türk yox idi.[38]

Quzey Azərbaycan türkləri arasında ilk sosial-demokratlar kimi S.M.Əfəndiyev, A.Axundov, M.Q.Mövsümov, M.Ə.Əzizbəyovun adları çəkilir ki, onlarda nadir hallarda RSDFP Bakı Komitəsinin tərkibinə seçilirdilər. Sosial-demokratizmin bəzi müddəalarına rəğbət bəsləyən, ancaq bu partiyanın sıralarına daxil olmaq istəməyən M.Ə.Rəsulzadə, M.A.Mirqasımov, M.Hacınski, A.Kazımzadə və başqaları da var idi. Onlar 1902-ci ildə Rəsulzadənin başçılığı ilə əvvəlcə Azərbaycanda ilk gizli təşkilat olan "Müsəlman Gənclik Təşkilatı", daha sonra 1904-cü ilin oktyabrında üzvlərinin hamısı müsəlmanlardan ibarət olan sosial-demokrat yönlü "Hümmət"i yaratdılar. M.Ə.Rəsulzadə 1903-1904-cü illərdə nəşr etdirdiyi jurnala da "Hümmət" ya da "Himmət" adını vermişdi.[39]

H.Baykara yazır ki, bir müddət RSDFP Bakı Komiətsinin nəzdində fəaliyyət göstərən "Hümmət", I Rusiya inqilabından sonra yarımmüstəqil partiyaya çevrilib.[40] Ancaq "Hümmət"i yaradanların əksəriyyətindən fərqli olaraq bəzi "hümmət"çilər, o cümlədən M.Məmmədyarov, X.Səfərəliyev və başqaları RSDFP Bakı Komitəsinin (b) təsiri altında idilər. RSDFP Bakı Komitəsinin bu quruma aktiv müdaxiləsi, bəzi hallarda zorla özlərinə müttəfiq etmək istək-

---

[37]Azərbaycan Kommunist Partiyasının oçerkləri. I cild, Bakı: Azərnəşr, 1986, s.43
[38]Azərbaycan tarixi. Yeddi cilddə, V cild (1900-1920-ci illər). Bakı: Elm, 2008, s.112
[39] Rəsulzadə M.Ə. Stalinlə ixtilal xatirələri. Bakı, Elm və təhsil, 2011, s.16-17
[40] Baykara Hüseyn. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.71

ləri nəticəsində "Hümmət" daxilindəki narazılıq genişləndi və 1907-ci ilin sonlarında onun fəaliyyəti dayandırıldı.[41]

1905-ci ilin axırlarında müsəlman-eser partiyası kimi yaranan sosial-demokrat yönlü "ittifaqçı"ların fəal xadimləri R.Şərifzadə, M.Cuvarlinski, R.Məlikov və başqaları olmuşdu. "İttifaq"çılar öz işlərini Rusiyanın "İnqilabçı sosialistlər" (eserlər) Partiyası ilə əlaqləndirirdilər. "İttifaqçıların öz işində ifrat opportunist olduqlarını qeyd etməmək olmaz… Belə bir hal ittifaqçıların qoçuların tapdağı altında inləyən kütlələrin gözündə nüfuzdan salmaq üçün kifayət idi: "İttifaq"ın əvvəllərindəki müvəffəqiyyəti milli ədavət zamanı puça çıxdı və artıq 1906-cı ilin axırlarına yaxın həmin təşkilat demək olar ki, öz-özünə ölüb getdi".[42]

Beləliklə, I Dünya müharibəsi ərəfəsində və müharibə illərində (1914-1918) sosial-demokratizm, xüsusilə də, onun marksizm-leninizm (bolşevizm) qanadı Quzey Azərbaycanda yayıldığı ilk dönəmlərdən fərqli olaraq xalq arasında öz nüfuzunu xeyli dərəcədə itirmişdi. Ona görə də, bu dövrdə RSDFP Bakı təşkilatının rəhbər mərkəzini, daha sonra RSDFP birləşmiş Bakı Komitəsini yalnız əcənəbi millətlərin nümayəndələri təşkil edirdilər. Bunun nəticəsi olaraq 1912-ci ilin payızında IV Dövlət Dumasına seçkilərdə Bakı bolşevikləri menşeviklər və ermənilərin "Spesifklər" partiyası ilə birlikdə seçkiyə qatılmışdılar.[43]

1917-ci ildə çar Rusiyasında baş verən fevral burjua inqilabından sonra Petroqrada qurulmuş Müvəqqəti hökumətin qərarı ilə Güney Qafqazda hakimiyyət yeni yaradılmış orqana - Xüsusi Güney Qafqaz Komitəsinə verildi. Çox keçmədi ki, 1917-ci ilin martın 17-də Azərbaycanın bir qrup ziyalıları yığışaraq Bakı müsəlman ictimai təşkilatları və kooperativlərinin nümayəndələrindən ibarət büro yaratdılar. Bakı Şəhər Dumasının həyətində keçirilən qurultayında Rusiyadakı Müvəqqəti Hökumətə etimad göstərilməsi barədə

---

[41] Rüstəmov Yusif. Siyasi-Hüquqi təlimlər tarixi. Bakı: "Azərbaycan Universiteti" nəşriyyatı, 2000, s.32

[42] Əfəndiyev S.M.Seçilmiş əsərləri. İki cilddə. 2-ci cild. Bakı. Azərnəşr, 1990, s.361

[43] Azərbaycan Kommunist Partiyasının oçerkləri. I cild, Bakı: Azərnəşr, 1986, s.233

qərar qəbul edildi. 1917-ci il martın 27-də bu büro Bakıda Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsi ilə əvəz olundu. Müvəqqəti Komitənin sədri M.H.Hacınski, müavini M.Ə.Rəsulzadə seçildi. Martın axırlarında yaradlımış Bakı Fəhlə və Hərbçi Deputatları Soveti isə solçu inqilabi qüvvələrin orqanına çevrildi. Bununla da Rusiyada olduğu kimi, Quzey Azərbaycanda da ikihakimiyyətlilik yarandı.

Azsaylı azərbaycanlı-türk bolşeviklər burjua inqilabından istifadə edərək on illik fasilədən sonra, 1917-ci ilin martın 3-də "Hümmət"in fəaliyyətini bərpa etdilər. Onun Müvəqqəti Komitəsinin sədri N.Nərimanov, üzvləri isə M.Əzizbəyov, M.N.İsrafilbəyov, H.Sultanov və başqaları seçildi. "Onlar bolşevik mövqeyində dayandığını elan etsələr də, "Hümmət"in əyalətlərdəki komitələri menşeviklərə meyil göstərirdilər".[44] Bolşevizmin Quzey Azərbaycanda xeyli zəifləməsinin nəticəsi idi ki, 1917-ci il iyulun 26-da Petroqradda bolşeviklər partiyasının VI qurultayında iştirak edən Ağababa Yusifzadə "Hümmət"ə kömək edilməsini xahiş etmişdi. Bu baxımdan "Hümmət" demək olar ki, RSDF(b)P-dən asılı vəziyyətdə idi və tərəfdarları barmaqla sayılırdı.[45]

Fevral burjua inqilabından sonra milli qüvvələrin önündə gedən "Müsavat"la, Gəncədə "Türk-Ədəm-Mərkəziyyət" Partiyasının eyni xətt yürütməsi 1917-ci il aprelin 15-20-si arasında Bakıda keçirilən Qafqaz müsəlmanlarının I qurultayında meydana çıxdı. "Qurultayda Gəncədə Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi "Türk Ədəmi-Mərkəziyyət"lə "Müsəlman Demokratik Partiya-Müsavat"ın qiyabi olaraq birləşdirilməsi razılığına gəlindi".[46]

1917-ci il mayında Moskvada keçirilən Ümumrusiya Müsəlmanlarının I qurultayı da göstərdi ki, azsaylı azərbaycanlı-türk bolşeviklər deyil, milli-demokratik ideyaların çoxsaylı təmsilçiləri doğru yol tutublar. Qurultayda iki əsas təklif səsləndi. Birinci təkli-

[44] Azərbaycan tarixi. Yeddi cilddə, V cild (1900-1920-ci illər). Bakı: Elm, 2001, s.298
[45] Yenə orada, s.384
[46] Azərbaycan tarixi: Ali məktəblər üçün dərslik /Z.M.Bünyadovun və Y.B.Yusifovun redaktəsi ilə. Bakı: Azərnəşr, 1994, s.56

fi irəli sürən M.Ə.Rəsulzadəyə görə Rusiya Xalq Cümhuriyyəti kimi federativ şəkildə idarə olunmalı, qeyri-rus millətlərə – Azərbaycan, Türküstan, Tatarıstan, Başqırdıstan, Qırğızıstan və başqa türk ellərinə milli-məhəlli muxtariyyət verilməlidir. Bu fikrin əleyhinə çıxış edən Əhməd Salihov isə Rusiyanın unitarlığını qorumaqla milli-mədəni muxtariyyət ideyasını təklif edirdi. Rəsulzadənin irəli sürdüyü təklif qurultay iştirakçıları tərəfindən qəbul olunub.[47]

Azərbaycanın öncə muxtariyyəti daha sonra da Milli istiqlalını irəli sürmüş milli-demokratik cərəyana (türkçülük, islamçılıq və yenilikçilik) arxalanan "Müsavat" və "Türk Ədəmi-Mərkəziyyət"in 1917-ci ilin iyununda birləşməsi Quzey Azərbaycan türklərinin taleyində mühüm rol oynadı. Xüsusilə də, 1917-ci ilin oktyabrın 26-dan 31-ə qədər Bakıda təntənəli surətdə keçirilən "Türk Ədəmi-Mərkəziyyət Partiyası– Müsavat"ın I qurultayında elan olunan proqram milli bir proqram idi.[48]

1917-ci il oktyabrın 25-də bolşeviklərin Petroqradda hakimiyyəti ələ almasından sonra, Bakıdakı bolşevik-daşnak ünsürləri fəallaşdı. 1917-ci ilin noyabrın 2-də bolşeviklər öz tərəfdarları ilə "Bakı Sovet"inin iclasını çağıraraq Bakıda Sovet hakimiyyətinin qurulduğunu bəyan etdilər və sədri də erməni mənşəli Stepan Şaumyan oldu.[49] Sovet hakimiyyətini elan etmiş qurumun tərkibinə "Müsavat"dan 22 deputat daxil edilmişdi. Meneşevik və eserlərdən fərqli olaraq, müsavatçılar başda Rəsulzadə olmaqla ilk dövrlərdə bolşeviklərin hakimiyyətinə ciddi etiraz etmirdilər. Xüsusilə Leninin bütün xalqların öz müqəddəratını təyin edə bilməsi ilə bağlı verdiyi bəyannaməni müsavatçılar müsbət dəyərləndirirdilər. Ona görə də eser-menşevik blokunun Sovetdən birgə çıxmaları ilə bağlı təklifini "Müsavat" müzakirə edərək qəbul etməmişdi.[50]

Ancaq 1917-ci ilin dekabrın 12-13-də bolşeviklərlə müsavatçılar arasında münasibətlərin gərginləşməsi ilə Bakı Sovetinə yeni

---

[47]Azərbaycan tarixi. Yeddi cilddə, V cild (1900-1920-ci illər). Bakı: Elm, 2008, s.303
[48] Yenə orada, s.309-310
[49] Yenə orada, s.315
[50] Yenə orada, s.315-316

seçkilər keçirildi. Bolşeviklərin iradəsi altında keçirilən seçkilər nəticəsində yeni İcraiyyə Komitəsinə 6 nəfər bolşevik, 5 daşnak, 4 sol eser, 3 sağ eser, 2 müsavatçı daxil oldu. Dekabrın 18-də Lenin Saumyanı Qafqaziya işləri üzrə xüsusi komissar təyin etdi.[51] Bolşeviklərin ikibaşlı oyun oynadığını xüsusilə də, Türküstanda türk-müsəlman əhaliyə qarşı onların qırğın törətmələrinə etiraz olaraq "Müsavat"ın rəhbərliyi Bakı Sovetindəki deputatlarını geri çağırdılar.

1917-ci il noyabrın 11-də RSFSR XKS-inə tabe olmaq istəməyən gürcü menşeviklər, türk müsavatçılar, erməni daşnaklar və sağ eserlərin nümayəndələri Tiflisdə keçirdikləri müşavirədə Rusiya bolşevik hökumətinin hakimiyyətini tanımaqdan imtina etdilər və "Müstəqil Zaqafqaziya hökuməti" yaratmaq haqqında qərar qəbul etdilər. Bununla da Xüsusi Cənubi Qafqaz Komitəsinin yerinə, Güney Qafqazı idarə etmək üçün noyabrın 15-də Tiflisdə Y.P.Gegeçkorinin sədrlik etdiyi Zaqafqaziya Komissarlığı yaradıldı.

1917-ci il dekabrın 5-də Zaqafqaziya Komissarlığı ilə Osmanlı arasında imzalanmış Ərzincan müqaviləsinə əsasən rus qoşunları Qafqaz cəbhəsindən geri çəkilməyə başladı. 1918-ci ilin fevralın əvvəllərində Tiflisdə, Güney Qafqazdan Ümumrusiya Müəssisələr Məclisinə seçilmiş deputatların yığıncağında Zaqafqaziyanın ali hakimiyyəti orqanı olan Zaqafqaziya Seymi (parlamenti) açıldı və bu bölgədə əsas güc mərkəzinə çevrildi. Fevralın 23-də öz işinə başlayan Seymdə əsasən üç partiyanın - Müsavat (Azərbaycan türkləri), Daşnaksutyun (ermənilər) və Sosial-Demokrat (gürcülər) nümayəndələri təmsil olunurdular. Seymdəki 44 millət vəkilindən ibarət Müsəlman-Türk fraksiyasının rəhbəri M.Ə.Rəsulzadə idi.

Bu dövrdə Osmanlı gürcü və ermənilərin Seymdə apardığı siyasəti qəbul etməyərək onlara qarşı müharibə elan etdi. Müharibə 8 gündən artıq çəkmədi və Osmanlının qələbəsi ilə yekunlaşdı. Müsəlman Türk fraksiyasının təkidilə Zaqafqaziya Seymi aprel ayının 22-də ölkənin suverenliyini elan etdi.

---

[51] Yenə orada, s.317-318

1918-ci ilin mart hadisələri zamanı "Bakının və ətraf rayonların İnqilabi Müdafiə Komitəsinə başçılıq edən Şaumyan"[52] hələ, 1917-ci ilin dekabrında Leninin imzaladığı "Türkiyə ərazisində Ermənistana muxtariyyət verilməsi" dekretinə nail olmuşdu.[53] Şaumyanın davam etdirdiyi antiazərbaycan, antitürk siyasəti isə Lenin 1918-ci ildə ona göndərdiyi teleqramda belə ifadə etmişdi: "Sizin möhkəm və qəti siyasətiniz bizi sevindirir".[54] 1918-ci il martın 15-də Şaumyan Bakı Sovetinin iclasında açıq şəkildə bəyan etdi ki, Bakı Soveti Cənubi Qafqazda vətəndaş müharibəsinin başlıca istehkamına çevrilməlidir. Soyqırım ərəfəsində "Daşnaksutyun" Partiyası və Erməni Milli Şurası Bakı Sovetinin tərəfinə keçdi. 30-31 martda təkcə Bakıda 12 mindən çox türk-müsəlman əhali rus-erməni hərbi birləşmələri tərəfindən soyqırıma məruz qaldı. Üstəlik, rus-erməni hərbi birləşmələri Quzey Azərbaycanın Şamaxı, Quba, Lənkəran, Kürdəmir, Salyan və başqa qəzalarında da on minlərlə türk-müsəlman əhalini qətlə yetirdilər. "Uzun müddət menşeviklərə qarşı mübarizə aparan bolşeviklərin menşevik və eserlərlə, hətta kadet və daşnaklarla mart günlərində birləşməsi dini və milli zəmində baş verdi".[55] Maraqlıdır ki, sovet tarixşünasları, alimləri mart soyqırımını ciddi-cəhdlə vətəndaş müharibəsi kimi qələmə verərək, bunun məsuliyyətini Müsavat Partiyasının üstünə atırdılar. Ancaq danılmaz faktlar da sübut edir ki, mart hadisələri zamanı rus bolşevikləri və erməni daşnakları birlikdə Quzey Azərbaycan türklərinə qarşı soyqırım həyata keçiriblər.[56]

1918-ci il 30-31 mart türk-müsəlman soyqırımından sonra, bolşevik-daşnakların rəhbərlik etdiyi Bakı Soveti aprelin 1-də keçirilən "sülh kofnransı"ndan sonra Bakıda hakimiyyət tamamilə ələ

---

[52]Большевики в борьбе за победу социалистической революции в Азербайджане. Документы и материалы 1917-1918 гг., Баку: Азернешр, 1957, s.327

[53]Насиров Т. Борьба за власть в Азербайджане (1917-1920). Баку, 1993, s.22

[54] Quliyev C. Lenin və Azərbaycanda sovet hakimiyyətinin qələbəsi və möhkəmlənməsi uğrunda mübarizə. Bakı: Azərnəşr, 1957, s.26

[55] Azərbaycan tarixi. Yeddi cilddə, V cild (1900-1920-ci illər). Bakı: Elm, 2008, s.328

[56] Topçubaşı Ə.M. Azərbaycan Cümhuriyyətinin yaradılması. Bakı, 2013. s.47

keçirdi.[57] Bakı Soveti erməni (daşnak) və rus (bolşevik) siyasi mətbu orqanları və təşkilatları istisna olmaqla, bütün qəzet və jurnalların, milli şuraların fəaliyyətinə qadağan qoydu. Aprelin 25-də S.Şaumyanın sədrliyi ilə Bakı Xalq Komissarları Soveti (BXKS) yaradıldı və onun rəhbərliyinə əsasən erməni daşnakları və rus bolşeviklər daxil idilər. Bu anlamda daşnak Ermənistanın liderlərindən Xatisov BXKS-ni "erməni sovet hökuməti" adlandırmışdı. Üstəlik, BXKS özünü Sovet Rusiyasının ayrılmaz tərkib hissəsi hesab edir və Azərbaycana nəinki müstəqillik, heç muxtariyyətin də verilməsi ideyasını qəbul etmək istəmirdi.

Bu kimi qəbuledilməz hadisələr Zaqafqaziya Federativ Demokratik Respublikasının da dağılmasına səbəb oldu. 26 may 2018-ci ildə Gürcüstan Zaqafqaziya Respublikasının tərkibindən çıxdıqdan sonra, mayın 27-də türk-müsəlman millət vəkillərinin fövqəladə iclası keçirildi və iclas Quzey Azərbaycanın idarə olunması vəzifəsini öz üzərinə götürərək, Azərbaycan Milli Şurasını elan etdi. Əslində Azərbaycan Milli Şurası Seymdə iştirak edən 44 millət vəkilindən ibarət olduğu üçün, onların yaratdıqları Milli Şuranı həm də yeni yaranmış Azərbaycan Cümhuriyyətinin ilk parlamenti idi. Milli Şuranın ilk toplantısında Azərbaycan Milli Şurasının Rəyasət Heyəti və sədri seçildi. Seymdə Azərbaycanı təmsil edən əksər partiyalar – "Müsavat", Müsəlman Sosialist Bloku, Müsəlman Sosial-Demokrat-Menşeviklər və "Hümmət" M.Ə.Rəsulzadənin Milli Şuraya sədr seçilməsinin lehinə səs veriblər.[58]

Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də dünyaya elan edilən Azərbaycan İstiqlalı Bəyannaməsində deyilirdi: "1. Bu gündən etibarən Azərbaycan xəlqi hakimiyyət həqqinə malik olduğu kibi, Cənubi-Şərqi Zaqafqaziyadan ibarət olan Azərbaycan dəxi kamiləl-hüquq müstəqil bir dövlətdir. 2. Müstəqil Azərbaycan dövlətinin şəkli-idarəsi Xəlq Cümhuriyyəti olaraq təqərrür ediyor…".[59]

---

[57]Azərbaycan tarixi. Yeddi cilddə, V cild (1900-1920-ci illər). Bakı: Elm, 2008, s.330
[58] Yaqublu Nəsiman. Məmməd Əmin Rəsulzadə. Bakı: Gənclik, 1991, s.79
[59] Azərbaycan Respublikası Dövlət Arxivi: f.894, s.10, iş. 12, v.1-2

Cümhuriyyətin varlığı yalnız Quzey Azərbaycan türkləri üçün deyil, bütün Türk dünyası, müsəlman Şərqi üçün böyük əhəmiyyət kəsb edirdi. Eyni zamanda, Cümhuriyyətin qurulması çar Rusiyasında baş verən inqilabların nəticəsi deyil, millətin özünün ortaya qoyduğu milli ideyasının qanunauyğun sonluğu idi.

Azərbaycanın istiqlalı mayın 30-da dünya dövlətlərinə bəyan edildikdən sonra Cümhuriyyətin ilk hökumətini təşkil etmək Fətəli xan Xoyskiyə tapşırıldı. Cümhuriyyətin dövlət quruluşu parlamentli respublika idi. Müvəqqəti hökumət ilk gündən öz proqramında elan etmişdir ki, hökumət başlıca olaraq işçi və kəndli kimi əkinçi insanlara istinad etməli və Azərbaycan azadlıq ölkəsi olmalıdır. "Burada bir sinif digər sinfə hakim deyildi. İnsan nə varına görə haqlı, nə də yoxsulluğuna görə haqsız görünürdü".[60]

Azərbaycan milli hökuməti dayaqlarını möhkəmlətmək üçün Osmanlı ilə 4 iyunda hərbi müqavilə bağldı. Müqaviləni Azərbaycan tərəfindən Milli Şuranın sədri M.Ə.Rəsulzadə, xarici işlər naziri M.H.Hacınski, Osmanlı tərəfindən xarici işlər naziri Xəlil bəy və Qafqaz cəbhəsinin baş komandanı Vehib paşa imzaladılar. Həmin müqavilə əsasında Nuru Paşanının başçılığı ilə Qafqaz İslam Ordusu Azərbaycana yardıma göndərildi. Ancaq Gəncədə Nuru paşa ilə Azərbaycan hökuməti arasında narazılığın yaranması böhrana səbəb oldu. "Belə bir tarixi-siyasi və hərbi şəraitdə Nuru paşanın müşaviri, əslən azərbaycanlı, XX əsrin görkəmli fikir və siyasət adamı Əhməd bəy Ağaoğlunun vasitəçiliyi ilə aparılan gərgin danışıqlardan sonra Milli Şuranın buraxılması və bütün hakimiyyətin Fətəli Xan Xoyskinin rəhbərliyi ilə yenidən təşkil edilən Müvəqqəti Milli Hökumətə verilməsi şərti ilə müvafiq razılığa gəlmək mümkün olur".[61]

1918-ci ilin iyunun 17-də F.Xoyskinin başçılığı ilə Gəncədə yaranan 2. hökumət iyunda milli dövlət bayrağı (24 iyun), milli or-

---

[60] Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991, s.40

[61] Mərdanov M.C; Quliyev Ə.Q. Azərbaycan Respublikasının dövlət rəmzləri. Bakı: Çaşıoğlu, 2001, s.49

dunun yaranması (26 iyun),Türk dilinin dövlət dili olması (27 iyun) kimi ümummilli məsələlərlə bağlı mühüm qərarlar qəbul etdi.

Qafqaz İslam Ordusunun qarşısında duran əsas məsələ isə Bakı quberniyasını və Bakı şəhərini BXKS-nin işğalçı ordusunun əlindən azad etmək idi. Nuru paşanın başçılığı ilə Qafqaz İslam Ordusu BXKS-nin birləşmiş hərbi qüvvələrini Göyçay yaxınlığında ağır məğlubiyyətə uğradaraq, iyulun 20-də Bakıya doğru istiqamət aldı. Bu məğlubiyyətdən sonra BXKS 1918-ci il iyulun 31-də süqut etdi və avqustun 1-də Bakıda eser-daşnak-menşevik ittifaqı əsasında "Sentrokaspi və Sovetin Müvəqqəti İcraiyyə Komitəsinin Rəyasət Heyəti Diktaturası" adlı mürtəce hökumət təşkil olundu. Ancaq Qafqaz İslam Ordusu əsasən eserlər və ermənilərdən ibarət olan bu hökumətin də Bakıda uzun müddət məskunlaşması ilə razılaşa bilməzdi. "Sentyabrın 14-dən 15-nə keçən gecə türk qoşunları sürətli hücumla Bakıya girdilər… Sentyabrın 15-i günü Qafqaz Müsəlman ordusunun komandanı general-leytenant Nuru Paşa Gəncəyə - Azad Azərbaycan hökumətinin başçılarına xoş xəbərli teleqram göndərdi".[62] Sentyabrın 17-də Azərbaycan Cümhuriyyətinin milli hökuməti Gəncədən Bakıya köçürüldü.

1918-ci il sentyabrın 23-də Tələt paşa ilə Almaniya arasında gizli protokol imzalandı. Həmin protokola əsasən, "Türkiyə qoşunları Azərbaycandan çıxır, Almaniya isə Azərbaycanın istiqlalını Rusiya tərəfindən tanınmasını təmin edirdi. Lakin sonrakı vəziyyət Almaniyanı bu prosesi təmin etməsinə imkan yaratmadı. Məlum oldu ki, Almaniya, Avstriya-Macarıstan və Osmanlı dövləti ilə Bolqarıstan məğlub olmuş, hadisələrin istiqaməti dəyişmiş və Azərbaycan üçün yeni bir imtahan dövrü başlamışdı".[63] 1918-ci il oktyabrın 30-da Lemnos adasının Mudros (Mondros) limanında imzalanan müqavilənin 11-ci maddəsində göstərilirdi ki, Osmanlı Türk ordusu Qafqazda və Güney Azərbaycanda olan ordularını geri çağırmalıdır. Bu müqaviləyə görə Güney Qafqaz Böyük Britaniya-

[62] Yaqublu Nəsiman. Məmməd Əmin Rəsulzadə. Bakı: Gənclik, 1991, s.88
[63] Mehmetzade M.B. İstiklalın diplomatik cebhesi // Azerbaycan, Ankara, 1955, №12 (36), s.17-18

nın nüfuz dairəsi elan olunur və Bakıya ingilis qoşunları yeridilirdi. "Meydana gələn yeni vəziyyətlə əlaqədar olaraq Azərbaycan hökumətinin nümayəndələri İranda olan və müttəfiqləri təmsil edən ingilis generalı Tomson ilə vəziyyəti aydınlaşdırmaq üçün Ənzəlidə görüşsələr də, o, Azərbaycan adında bir hökumət tanımadığını söylədi və danışıq aparmağa razılıq vermədi. Bu hadisə Azərbaycanın siyasi tarixində yeni bir dövrün başlanğıcı oldu".[64]

1918-ci il noyabrında ingilislərin Bakıya gəlməsi ərəfəsində Azərbaycan Milli Şurası fəaliyyətini bərpa edərək Azərbaycan Parlamentinin yaradılması ilə bağlı qərar qəbul etdi. Bu qərara görə, hazırda "Ümumazərbaycan Müəssisələr Məclisini çağırmaq mümkün olmadığından qərara alındı ki, Milli Şura dövlət qanunvericilik orqanına - Azərbaycan parlamentinə çevrilsin".[65] Həmin qanuna görə, ölkə əhalsinin milli tərkibinə müvafiq olaraq Azərbaycanda yaşayan bütün millətlərin nümayəndələri daxil olmaqla, parlamentdə 120 millət vəkili təmsil olunmalı idi. Noyabrın 29-da Milli Şura "Bütün Azərbaycan əhalsinə" adlı müraciət yaydı: "Bu ayın 19-da qəbul etdiyi qanunnaməyə görə Şurayi-Milli dekabrın 3-nə qədər 120 əzalıq bir Məclisi-Məbusan halına gələcəkdir. Bu məclisə azlıqda qalan millətlərdən nümayəndələr cəlb olunduğu kimi, məmləkətin vilayətlərindən də vəkillər çağırılmışdır. Bu surətlə yığılacaq məbusan irəlidə ümumi intixab üsulu ilə Azərbaycan Məclisi Müəssisanı yığışıncaya qədər yurdumuzun sahibi olacaq, onun müqəddəratını həll, hökumətini təşkil və mənafeyini müdafiə edəcək".[66]

Qeyd edək ki, erməni daşnakları, rus bolşevikləri və başqa siyasi, ictimai qruplar bütün vasitələrlə general Tomsona təsir edərək ya Azərbaycan parlamentinin reallaşmasına imkan vermək istəmir, ya da onların da maraqlarının burada da təmin olunması tələblərini irəli sürürdülər. "Parlamentə Azərbaycanda yaşayan milli azlıqların nümayəndələri də daxil edilməli idi və yalnız bu şərtlərə əməl edildikdən sonra parlamentin çağırılmasına icazə verilirdi. Sonrakı da-

---

[64] Baykara Hüseyn. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.246
[65] Məmmədov İsmayıl. Azərbaycan tarixi. Dərslik, Bakı, Adiloğlu, 2005, s.347
[66] Azərbaycan Respublikası Dövlət Arxivi: f.895, s.3, iş. 187, v.1-2

nışıqlar üçün Milli Şuranın M.Ə.Rəsulzadə, M.Y.Cəfərov və Ə.C.Pepinovdan ibarət nümayəndə heyəti seçildi”.[67]

1918-ci il dekabrın 7-də H.Z.Tağıyevin Nəcib Qızlar Gimnaziyasını binasında Azərbaycan Cümhuriyyəti parlamentinin ilk təsis iclası oldu. İclası giriş sözü ilə açan Azərbaycan Milli Şurasının sədri M.Ə.Rəsulzadə “bir kərə yüksələn bayraq, bir daha enməz” şüuarını səsləndirdi.[68] Parlamentin ilk iclasında bitərəf Ə.M.Topçubaşı parlamentin sədri, “Müsavat”ın üzvü H.b.Ağayev isə onun müavini seçildi. Parlamentin ilk iclasında F.Xoyski Müvəqqəti hökumətin istefa verdiyini və hakimiyyətin bütövlükdə, parlamentə verildiyini bəyan etdi. Yeni, sayca üçüncü hökumətin təşkil edilməsi də F.Xoyskiyə həvalə olundu və 1918-ci il dekabrın 26-da yeni hökumət kabinəsinin tərkibi elan edildi. Bu arada, general Tomsonla danışıqlar aparan Azərbaycan hökuməti sonda istəyinə çatdı və general Tomson onu yeganə qanini hökumət kimi tanıdı.[69]

Parlamentin işində 10 fraksiya iştirak edirdi ki, bu fraksiyalar arasında üstünlük “Müsavat”ın əlində idi. Parlamentdə “Bitərəflər”, “Əhrar”, “İttihad, “Hümmət” və Müsəlman Sosialist blokunun üzvlərindən ibarət olan sosialistlər fraksiyası, “Daşnaksutyun”, bundan başqa erməni icması və “Milli azlıqlar” fraksiyalarının nümayəndələri var idi. Azərbaycan parlamenti fəaliyyət göstərdiyi 17 ay müddətində 270-dən çox qanun layihəsini müzakirəyə çıxararaq, 230-a yaxın qanun qəbul etmişdir. Bu qanunlar arasında ən mühümləri – “Azərbaycan Cümhuriyyətinin Müəssisələr Məclisinə seçkilər haqqında Əsasnaməsi”, “Azərbaycan vətəndaşlığı haqqında qanun”, “Mətbuat haqqında nizamnamə”, bələdiyyələrin yaradılması, Xəzər Dəniz Gəmiçiliyinin, Dövlət sərhəd qoşunlarının yaradılmasıdır.

N.Yusifbəylinin başçılığı ilə 1919-cu ilin aprelin 14-də fəaliyyətə başlayan 4-cü hökumətin proqramına Azərbaycanın dövlət müstəqillyinin dünyanın aparıcı ölkələri tərəfindən tanıdılması, ölkənin ərazi bütövlüyünün təmin olunması, qonşu dövlətlərlə əmək-

---

[67] Əfəndiyev Elçin. Məmməd Əmin Rəsulzadə (oçerk). Bakı: Şərq-Qərb, 1994,s.16
[68] Nəsibzadə Nəsib. Azərbaycan Demokratik Respublikası. Bakı: Elm, 1990, s.92
[69] Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.247-248

daşlıqların yaradılması, milli təhlükəsizliyin gücləndirilməsi, ordunun inkişafı, təhsil müəssisələrinin yaradılması daxil idi.

N.Yusifbəylinin 22 dekabr 1919-cu ildə təşkil etdiyi sayca 5-ci hökumətin əsas vəzifəsi Millətlər Cəmiyyətində Azərbaycanın müstəqilliyinə nail olmaq və Sovet Rusiyasının işğalçılıq siyasətinin qarşısının alınması idi. Bu baxımdan Versal sülh konfransında başlıca olaraq Almaniya ilə sülh nizamlanması nəzərdə tutulsa da, əvvəldən böyük dövlətlərin liderləri "rus məsələsini" müzakirəyə başladılar.[70] Həmin müzakirələrin nəticəsi olaraq 1920-ci ilin yanvarında Azərbaycan və Gürcüstan dövlətləri müttəfiq dövlətlərin (Antanta) Ali Şurasının 1920-ci ilin yanvarın 11-də keçirilən iclasında de-fakto tanındılar.[71] Paris sülh konfransında iştirak edən Azərbaycan nümayəndə heyətinin başçısı Ə.Topçubaşının istər Versaldan göndərdiyi məktublardan, istərsə də hələ İstanbulda ayrı-ayrı dövlətlərin nümayəndələri ilə keçirdiyi görüşlərdən aydın olur ki, Azərbaycanın müstəqil bir dövlət kimi tanıdılması çox çətin bir proses olmuşdur.[72]

Azərbaycanın müstəqilliyi Antanta tərəfindən tanındığı bir zaman başının üstünü Sovet Rusiyası təhlükəsi almışdı. 1920-ci ilin yanvarın 2-də RSFSR xarici işlər komissarı G.V.Çiçerin Azərbaycan xarici işlər naziri F.Xoyskiyə ilk nota göndərərək, Denikinə qarşı müharibəyə qoşulmağı tələb etdi. Xoyski yanvarın 14-də cavab notası göndərərək bildirdi ki, vətəndaş müharibəsi Rusiyanın daxili işidir. Yanvarın 19-da "Antanta"nın Azərbaycana ordu yox, yalnız hərbi sursat yardımı etmək haqqında qərarı ilə bağlı məlumatı əldə edən Rusiya Azərbaycana qarşı diplomatik təzyiqləri gücləndirdi. Yanvarnı 23-də Azərbaycana ikinci nota göndərən Çiçerin bildirirdi ki, Azərbaycanın Rusiyanın daxili işinə qarışmaması Denikinə qarşı mübarizədən imtina etmək deməkdir. Xoyski isə cavabında deyirdi ki, Rusiya Azərbaycanın müstəqilliyini tanıdıq-

---

[70] Topçubaşov Ə. Paris məktubları, Bakı, Azərnəşr, 1998, s.53-54

[71] Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920). Bakı: Azərnəşr, 1993, s.96

[72]Топчибашев Е.М. Дипломатические беседы в Стамбуле. Баку: Эргюн, 1994

dan sonra bu məsələlərə rəsmi Bakı baxa bilər. Əslində Rusiyanın 1920-ci ilin martınadək Azərbaycana göndərdiyi notalar Cümhuriyyətə qarşı hazırlanan müdaxiləni pərdələmək məqsədi güdürdü.

Sovet Rusiyası Azərbaycana hərbi müdaxilə etmək üçün ölkə daxilində "beşinci kolon"un – yerli bolşeviklərin güclənməsinə diqqəti artırırdı. Çox təəssüf ki, azsaylı azərbaycanlı-türk bolşeviklər də Azərbaycan Cümhuriyyətinin Sovet Rusiyası tərəfindən işğalında yaxından iştirak etdilər. 1919-cu ilin sonlarına qədər ayrı-ayrılıqda fəaliyyət göstərərək xalq arasında ciddi nüfuza malik olmayan eserlər, bolşeviklər, menşeviklər ruslar tərəfindən bir araya gətirildi. 1920-ci ilin fevralın 11-12-də Bakıda RK(b)P-nin Bakı Komitəsi, "Hümmət", "Ədalət" və başqa sol yönlü təşkilatlar I qurultay keçirərək Azərbaycan Kommunist Partiyası (AKP) adı altında birləşdilər. Sovet Rusiyasının siyasətinin daşıyıcısı olan AK(b)P "Azərbaycanda dövlət çevrilişi xəttini əsas götürdü. Yerli bolşeviklər milli hökumətə qarşı fəal təbliğat aparırdılar. Ancaq aydın idi ki, Azərbaycan kommunistləri öz qüvvələri ilə dövlət çevirilişi etmək iqtidarında deyildilər. Onlar daha çox Rusiyanın təcavüzünə ümid bəsləyirdilər".[73]

1920-ci ilin aprelin 1-də N.Yusifbəylinin başçılıq etdiyi 5-ci hök umət hökumət istefa verdi və yeni hökumətin təşkili M.H.Hacınskiyə tapşırıldı. Hacınski kommunistlər də daxil olmaqla sol qüvvələrdən ibarət koalsiyon hökumət yaratmaq istəsə də, bolşeviklər bundan imtina etdi. Yeni hökuməti yarada bilməyən və hökumətin təşkili üçün əsas vaxt itirdikdən sonra, aprelin 22-də bu barədə Hacınski parlamentə məlumat verdi. Sovet Rusiyası Cümhuriyyəti devirmək üçün diplomatik təzyiqlərlə yanaşı, yerli bolşeviklərlə erməni daşnaklarından və Türkiyəyə yardım bəhanəsindən istifadə etdi. AK(b)P-ni birmənalı şəkildə öz əlində saxlayan Sovet Rusiyası martın ortalarında ermənilərin əli ilə Qarabağda yerli türklərin qırğınına rəvac verdi. Martın 22-də Moskvanın razılığı ilə erməni hərbi dəstələri Xankəndində yerləşən qarnizona, Qazax və Gəncə qəzalarına basqın etdilər. Azərbaycan hökuməti məcbur qa-

[73]Məmmədov İsmayıl. Azərbaycan tarixi. Dərslik, Bakı, Adiloğlu, 2005, s.350

lıb milli ordunu təcili Dağıstan sərhədindən və Bakıdan Qarabağda baş verən erməni qiyamını yatırmağa yönəltdi. Bununla da cümhuriyyətin Sovet Rusiyası ilə quzey sərhədi müdafiəsiz qaldı.

Sovet Rusiyası təbliğat vasitəsilə Ankaranı da inandıra bildi ki, XI ordu Bakıdan keçərək "Antanta"ya qarşı vuruşan Türkiyənin yardımına gedəcək. XI ordunun tərkibindəki müsəlman hissələrinə Xəlil paşa və başqa türk zabitləri rəhbərlik edirdilər. Qafqaz cəbhəsi İnqilabi Şurası S.Q.Orconikidzenin başçılığı ilə 21 və 23 aprel tarixində XI orduya aprelin 27-də Azərbaycan Cümhuriyyətinin sərhədini keçib bütün ərazini tutmaq əmrini vermişdi. Həmin əmrə əsasən də aprelin 26-dan 27-nə keçən gecə Levandovskinin başçılığı ilə XI ordu hissələri Quzey Azərbaycanın Yalama-Xaçmaz tərəfdən dövlət sərhədlərini keçmişdi. Bu o demək idi ki, Azərbaycan Cümhuriyyəti 27 aprel tarixində işğala məruz qalmış, XI ordu aprelin 28-də isə zirehli qatarla Bakıya daxil olmuşdur. "Beləliklə, bolşeviklər məhz 28 apreli Azərbaycanda Sovet hakimiyyətinin yaradılması günü elan edərək "28 Aprel inqilabı" olaraq dünya ictimaiyyətinə yaydılar. Yəni 27 aprel işğalı yox, yalan və saxta bir təqvim yaratdılar – 28 Aprel inqilabı".[74]

Sovet Rusiyasının XI ordusu dövlət sərhədlərini pozub Bakıya üz tutmasından maksimim yararlanmağa çalışan Azərbaycan Türk bolşevikləri RKP (b) Qafqaz Diyarı Komitəsinin Bakı bürosu və AK(b)P adından hakimiyyəti təhvil vermək haqqında parlamentə ultimatum vermişdi. M.Ə.Rəsulzadə və bir neçə millət vəkilinin kəskin şəkildə etirazlarına baxmayaraq, Parlament aprelin 27-də keçirilən son iclasında səs çoxluğu ilə hakimiyyətin Azərbaycan Türk kommunistlərinə verilməsi şərtilə 6 maddədən ibarət qərar qəbul etdi. Bu qərarda deyilirdi ki, milli hökumət Azərbaycan Cümhuriyyətinin tam müstəqilliyinin qorunub saxlanılması, yeni yaranan hökumətin müvəqqəti orqan olması, hökumət idarələrindəki köhnə qulluqçuların tutduğu vəzifələrində qalması, hökumət və parlament üzvlərinin həyat və mülkiyyətlərinin toxunulmazlığının

[74] Yaqublu Nəsiman. Azərbaycan Milli Azadlıq Hərəkatı Ensiklopediyası, Bakı, Qanun nəşr. 2018, s.17-18

təmin edilməsi, Milli ordunun saxlanılması, siyasi partiyaların sərbəst şəkildə fəaliyyət göstərməsi, XI ordunun dəmiryolu ilə birbaşa Türkiyənin yardımına getməsi şərtlərlə hakimiyyəti Azərbaycan Türk bolşeviklərinə təslim edir.

**Mədəni mühit.** XX əsrin əvvəllərində Quzey Azərbaycanın mədəni mühitində aktuallıq kəsb edən problemlərdən mətbuat, məktəb, dil, din və digər məsələləri göstərmək olar.

Bu dövrdə ilk növbədə, milli məktəblərin yaranması yeni nəslin yetişməsində mühüm rol oynadı. 1914-cü ildə Bakıda 12 rus-tatar məktəbi (3-ü qadınlar üçün) var idi ki, burada təhsil alan 2.482 şagirdən 299 nəfəri qız idi. Eyni məktəblər Şuşa, Şamaxı (1906), Nuxa, Dərbənd (1907), Lənkəran (1911), Salyan (1912) və başqa yerlərdə fəaliyyət göstərirdi. 1912-ci ildə verilmiş məktəb əsasnaməsinə görə şəhər məktəbləri yuxarı ibtidai məktəblərə çevrildi. 1914-cü ildə Gəncədə, 1916-cı ildə Bakıda müəllimlər seminariysı fəaliyyətə başladı. 1915-ci il yanvarın 1-də Bakı və Gəncə quberniyalarında Xalq Təhsili Nazirliyinin sərəncamında 103 şəhər və 609 ibtidai kənd məktəbi var idi. Bu məktəblərdə 46.530 şagird təhsil alırdı ki, onlardan 1.427 nəfəri qız (28,3 faiz) və 15.776-sı (34 faizi) azərbaycanlı-türk idi.[75] Azərbaycanda bu cür məktəblərin açılması əhalinin maariflənməsi və bunun da məntiqi nəticəsi olaraq öz milli kimliyini dərk etməsi istiqamətində mühüm təsir göstərdi. Halbuki çar Rusiyası bütün vasitələrlə milli məktəblərin yaranmasının qarşısını almağa çalışmışdı.

XX əsrin əvvəllərində Quzey Azərbaycanda məktəblərin, müəllimlərin qarşısında duran vəzifələr mətbuatda və müvafiq toplantılarda müzakirə olunurdu. Xüsusilə, inqilab illərində müəllimlərin 1906-cı ilin avqustunda Bakıda I qurultayının keçirilməsi Azərbaycanın mədəni mühitində çox bir mühüm hadisə oldu. H.Zərdabinin sədrliyi altında keçirilən qurultay hər bir kəsin pulsuz təhsil alması prinsipini əsas götürərək, xalq məktəbinin konkret inkişaf proqramını qəbul etdi. 1907-ci ilin avqustunda Bakıda keçirilmiş II Azərbaycan müəllimlər qurultayında isə ərəb əlifbasının çətinliyi

---

[75]Azərbaycan tarixi. Yeddi cilddə, V cild (1900-1920-ci illər). Bakı: Elm, 2008, s.210

və onun dəyişdirilməsi problemi qaldırıldı. Ancaq qurultay iştirakçılarının çoxu bu layihəni qəbul etmədilər.[76]

XX əsrin əvvəllərində Azərbaycan ictimai həyatında mədəni-maarif cəmiyyətlər olan "Müsəlman xeyriyyə cəmiyyəti", "Nicat", "Nəşri-maarif", "Səadət", "Qeyrət", "Səfa" və başqaları da milli oyanışda mühüm rol oynamışlar. "Nəşri-maarif", Bakı müsəlman maarif cəmiyyəti "Nicat"ın fəaliyyətlərində kitabxanaların təşkilinə, ana idilində qəzet və kitab nəşrinə lazımi fikir verirdi. "Səadət" və "Səfa" maarifçi cəmiyyətləri isə müsəlmanların maariflənməsində, uşaqların təhsilində mühüm rol oynayırdılar.[77]

Milli mətbuatın durumuna gəlincə, 1890-cı illərdə və XX əsrin ilk illərində Quzey Azərbaycanda yalnız rus dilində qəzetlər – "Kaspi", "Bakinski vedemosti", "Baku" və başqa mətbu orqanlar nəşr olunurdu. "Bu qəzetlərin burjua ideya istiqamətli olmasına baxmayaraq, onlarda Azərbaycanın sosial-iqtisadi və mədəni həyatının bəzi məsələlərinə qabaqcıl nöqteyi-nəzərlə yanaşan məqalələr də nəşr olunurdu".[78] Türk dilində mətbuatın yenidən nəşrinə çar Rusiyası yalnız 1903-cü ildə icazə verdi ki, bu da Tiflisdə M.Şahtaxtlı tərəfindən təsis edilən "Şərqi-Rus" qəzeti idi. 1905-ci ilin yanvarında "Şərqi-Rus" qəzeti bağlandıqdan sonra bu qəzetin mətbəəsini Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadə alaraq "Qeyrət" nəşriyyatı adlandırmış və 1906-cı ildə Tiflisdə "Molla Nəsrəddin" satirik jurnalının təməlini qoymuşlar.

XX əsrin əvvəllərində elmi-fəlsəfi və tənqidi-publisistik ədəbiyyatın inkişafında maarifçi-demokratik ədiblərdən C.Məmmədquluzadənin "Poçt qutusu", "Ölüllər", Sabirin "Hop-hopnamə"si (1912), N.Nərimanovun "Nadir şah", Ə.Haqverdiyevin "Pəri cadu", "Ağa Məhəmməd şah Qacar", "Xəyalat", "Cəhənnəm məktub-

[76]Yenə orada, s.219

[77] Yenə orada, s.222-223

[78] Azərbaycan tarixi: Ali məktəblər üçün dərslik /Z.M.Bünyadovun və Y.B.Yusifovun redaktəsi ilə. Bakı: Azərnəşr, 1994, s.618

ları", M.S.Ordubadinin "Bədbəxt miylonçu" romanı, Əli Qəmküsarın, N.Vəzirovun feleytonları mühüm rol oynamışdır.[79]

Azərbaycanlı-Türk sosial-demokratlar "Hümmət", "Dəvət-Qoç", "Bakinski raboçi", "Təkamül", "Yoldaş" və başqa mətbu orqanlarında, milli-demokratik ideyaların (türkçülük, islamçılıq və müasirçilik) daşıyıcıları isə "Həyat", "İrşad", "Yeni irşad", "Kaspi", "Tərəqqi" və digər qəzetlərdə fikirlərini təbliğ edirdilər. "Başda Əlimərdan bəy Topçubaşı, Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə və bilavasitə Azərbaycan mətbuatının ağsaqqalı və yaradıcısı Həsən bəy Zərdabi olmaq üzrə, Qərbi Avropa mədəniyyəti məktəbi keçmiş milli açıqfikirli ziyallıların yaratdıqları milli mətbuatda dəxi gənc Rəsulzadə də iştirak etməyə başladı".[80]

Milli demokratik və romantik ədəbiyyatın formalaşmasında "Füyuzat" jurnalı və "Həyat", "İrşad" qəzetlərində məqalələrlə çıxış edən Ə.Ağaoğlu, Ə.Hüseynzadə, M.Hadi, H.Cavid. A.Səhhət, A.Şaiq, A.Divanbəyoğlu və başqaları mühüm rol oynamışlar. Bakıda nəşr olunan "Kaspi", "Həyat" qəzetlərinə və "Füyuzat" jurnalına redaktorluq edən Ə.Hüseynzadə 1900-ci illərdə yazdığı əsərlərində, o cümlədən 1906-cı ildə yazdığı "Türklər kimdir və kimlərdən ibarətdir" silsilə məqalələrində türkçülük və islamçılıq ideyalarını təbliğ etmişdir. Ə.Ağaoğlu 1908-ci ilin əvvəllərində "Kaspi"də nəşr olunan "Materializmin təntənəsi və əsassızlığı" məqaləsində fəlsəfədə materializm cərəyanının əsassızlığını sübut etməyə çalışırdı. İslamçılığın və türkçülüyün inkişafında müstəsna xidmətlər göstərən Ağaoğlu "Həyat", "Kaspi" və başqa qəzetlərdə xalqın milli şüurunun oyanması, milli özünüdərk istiqamətlərində məqalələr yazır və ilk islami ehkamlara əməl olunmasını vacib sayırdı.[81]

Bu dövrdə romantizmin nümayəndələrindən M.Hadinin dərin, əhatəli fəlsəfi məqalələri, "Şükufeyi-hikmət", "Firdovsi-ilhamat" və digər əsərləri işıq üzü görmüşdü. Milli-demokratik və ro-

---

[79]Paşayev Mir Cəlal. Azərbaycanda ədəbi məktəblər (1905-1917). Bakı, "Ziya-Nurlan" NPM, 2004, s.35-36

[80] Rəsulzadə M.Ə. Əsərləri (1903-1909). Beş cilddə, I cild. Bakı: Azərnəşr, 1992, s.6

[81] Əhmədli Rafail. Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsi: türkçülük, müasirlik, islamçılıq. "Elm" nəşriyyatı, Bakı, 2007, s.151-157

mantik ruhlu Hüseyn Cavidin "Ana" (1913), "Maral" (1912), "Şeyx Sənan" (1914), "Şeyda" əsərlərilə yanaşı, fəlsəfənin cəmiyyətin həyatında rolundan, Qərb filosoflarından bəhs edən "Müharibə və ədəbiyyat", "Həsbi-hal" başlıqlı məqalələri də nəşr olunmuşdu. Romantizmin digər nümayəndəsi A.Səhhət dil, millət, vətən anlayışları ilə bağlı dəyərli fikirlər söyləmişdir.

Bu dövrdə M.Ə.Rəsulzadə azsaylı mütəfəkkirlərdən idi ki, ictimai-fəlsəfi fikirdə materializmlə idealizm, sosial-demokrat cərəyanı ilə İslam dini arasında oxşar cəhətlər tapmağa çalışıb. Onun milli məsələyə dair mülahizələri 1914-1917-ci illərdə yayınlanan "Milli dirilik", "Dirilik nədir?", "Məktəb və mədrəsə", "Getdiyimiz yol", "Bizim ehtiyaclarımız" və başqa məqalələrində şərh olunub.

Ümumiyyətlə, 1914-1917-ci illərdə "Şəlalə", "Dirilik", "Məktəb" kimi məcmuələrdə fəlsəfi və ictimai fikrə aid dəyərli, maraqlı məsələlər qaldırılırdı. Bu jurnallarda fəlsəfəyə aid bir çox məsələlər müzakirə olunaraq Platon, Aristotel, Sokrat, Kant, Dekart, İbn Rüşd, İbn Sina, Fərabi, Mahmud Şəbüstəri, Bekon, Helvetsi, O.Kont, Nitsşe, Eynşteyn, Şopenhauer və başqa dünya mütəfəkkirlərindən sitatlar gətirilərək, şərhlər verilirdi. Məsələn, "Şəlalə"də "Fəlsəfeyi-cədilə nasıl zühur etdi", "Fəlsəfənin ruhi-əqvama təsiri" və bu kimi yazılar dərc olunub. "Şəlalə" jurnalına verdiyi "Fəlsəfeyi-müsbətə və əfkari-fənniyyədə yeni inqilablar" adlı məqalədə Ə.M.Rüfətov yazırdı ki, "bugünkü bilik aləmində hakim mövqe qazanmış fəlsəfə" pozitivizm və Maxın fəlsəfəsidir.[82]

"Şəlalə", "Məktəb", "Dirilik", "Yeni Füyuzat" kimi jurnallarda subyektiv-idealist empriokritisizm fəlsəfəsi, pozitivizm fəlsəfəsi, Maxın fəlsəfəsi ilə bağlı məqaləələr nəşr olunurdu. Bu məqalələrdə Leninin 1909-cu ildə nəşr olunan "Materializm və empriokritizm" fəlsəfi əsəri idealist mövqedən kəskin şəkildə tənqid olunurudu. "Avropa maxistlərindən və onların rus ardıcıllarından sonra yerli burjua ideoloqları dialektik materializm dünyagörüşü üzərinə hücumlar üçün empriokritisizmdən istifadə edirdilər. Mürtəce bur-

---

[82] Rüfətov Ə.M. Fəlsəfeyi-müsbətə və əfkari-fənniyyədə yeni inqilablar."Şəlalə" jur., 1914, №7

jua ideologiyasının nümayəndələri onu marksizm fəlsəfəsinə qarşı qoyur, fəlsəfənin partiyalılığı prinspi üzərinə quduzcasına hücum çəkirdilər”.[83] Marksist -leninçilərin həyəcanlanması və təşvişə düşməsi səbəbsiz deyildi. Çünki həmin jurnallarda (“Şəlalə”, “Məktəb”, “Dirilik”, “Yeni Füyuzat”) marksizmin, o cümlədən Lenin ideyalarının nöqsanlı cəhətləri aşkara çıxarılır və tənqid edilirdi. Bu isə yerli müsəlman əhalisi, xüsusilə türklər arasında marksist-leninçilərin saylarının azalmasına səbəb olurdu.

Marksizm-leninizmin Azərbaycandakı nümayəndələri idealist mövqeli müəlliflərin yazdıqlarını cavabsız qoymurdular. Azərbaycanlı sosial-demokratlar (S.M.Əfəndiyev, Ə.C.Axundov, M.Əzizbəyov, M.B.Axundov, D.X.Bünyadzadə, A.H.Rəsulzadə, H.H.Sultanov və b.) marksist-leninçi baxışlarını “Qudok”, “Bakinskiye raboçi”, “Bakinskiye vesti”, “Bakinski proletari”, “Volya”, “Bakı həyatı”, “Naşa jizn” və başqa qəzet-jurnallarda ifadə edirdilər.[84] Məsələn, “Bakinskiye vesti” qəzetində, Leninin “Materializm və empriokritisizm” fəlsəfi əsəri materialist mövqedən yüksək dəyərləndirilir, maxizm fəlsəfəsi isə tənqid olunurdu. Cəmiyyətin həyatında və inkişafında həlledici qüvvə kimi sinfi mübarizəni irəli sürən marksistlərə görə, fəhlə və kəndlilərin partiyası-sosial-demokrat öz fəaliyyətini cəmiyyətin tarixi gedişi ilə uzlaşdırmalı, onun istiqamətini və mənafeyini hər şeydən üstün tutmalıdırlar.

**Cümhuriyyət dövründə mədəni mühitə** qısaca nəzər salsaq görərik ki, Xalq Maarif Nazirliyinin təsis edilməsindən sonra bütün ibtidai məktəblərdə təhsil Türk dilində aparılmağa başlamışdır. İbtidai sinif müəllimləri hazırlamaq üçün Bakı, Gəncə, Qazax və başqa şəhərlərdə xüsusi pedaqoji kurslar təşkil olunaraq həmin kurslarda dərs demək üçün Osmanlıdan 50 müəllim dəvət edilmişdir. Əgər Cümhuriyyət qurulan ərəfədə əhalinin 6 %-i savadlı idisə, rusların işğalına qədər savadlı insanları sayı 10 %-ə çatdı. Artıq Azərbaycanda 637 ibtidai, 23 orta ixtisas və bir ali məktəb, yəni 1919-cu

---

[83]Azərbaycan Kommunist Partiyasının oçerkləri. I cild, Bakı: Azərnəşr, 1986, s.200
[84]Paşayev Mir Cəlal, Hüseynov Firudin. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, “Maarif”, 1982, s.18-23

ilin noyabrın 15-də fəaliyyətə başlayan Bakı Dövlət Universiteti mövcud idi. Qeyd edək ki, parlament BDU-nun yaradılması haqqında qanun layihəsi müzakirə olunan zaman bəzi millət vəkilləri universitetin açılması üçün elmi kadrların azlığını, dərslərin rus dilində aparılmasının doğru olmamasını iddia edərək buna qarşı çıxmışlar. Ancaq M.Ə.Rəsulzadə bu fikirləri qəbul etməyərək müstəqil dövlətin universitetinin olmasını, çox keçmədən də dərslərin türk dilində aparıla biləcəyini əsaslandırmışdır.[85]

Bu dövrdə "Türk ocağı", "Müsəlman Şərqini öyrənən cəmiyyət", "Qurtuluş", "Yaşıl qələm" cəmiyyətləri təsis olundu. 1919-cu ilin dekabrın 7-də "İstiqlal" muzeyinin açılışı oldu və Türk dilində böyük kitabxana yaradıldı. Azərbaycan Cümhuriyyəti Azərbaycan xalqının tarixi, siyasi və mənəvi-psixoloji həyatında, ədəbi-bədii fikir nümunələrində silinməz izlər buraxmışdır.

Cümhuriyyət illərində Bakı, Gəncə, Şuşa, İrəvan, Tiflis və başqa şəhərlərdə 90-a yaxın qəzet-jurnallar ("İstiqlal", "Azərbaycan", "Müsəlmanlıq", "Qurtuluş", "Övraqi-Nəfisə", "Mədəniyyət", "Gənclər yurdu", "Şeypur", "Zənbur", "Müsavat", "Bəsirət" və b.) nəşr olunurdu. M.Ə.Rəsulzadə, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Hadi, H.Cavid, M.B.Məmmədzadə, Seyid Hüseyn, H.Ağayev, Əmin Abid, Ə.Cavad, Ü.Hacıbəyli, C.Cabbarlı, A.Şaiq, F.b.Köçərli, Ə.Müznib və başqa mütəfəkkirlərimiz mətbuatda nəşr olunan məqalələrində və ayrıca qələmə aldıqları əsərlərində milli şüurun, milli fəlsəfənin inkişafına xidmət edirdilər.[86] Azərbaycan Cümhuriyyətində milli ənənələrin, ictimai ideyaların, fəlsəfi fikrin, xalqın öz ruhundan doğan milli hərəkatın qanuni yekunu kimi ortaya çıxırdı.

Cümhuriyyət dövründə marksizm-leninizm tərəfdarlarından S.M.Əfəndiyev, S.A.Ağamalıoğlu, Ə.C.Axundov, R.Axundov, Ə.Qarayev, D.X.Bünyadzadə, H.H.Sultanov və başqaları isə sosial-demokratizmi, ya da marksizm-leninizmi təbliğ edirdilər.

---

[85] Azərbaycan tarixi. Yeddi cilddə, V cild (1900-1920-ci illər). Bakı: Elm, 2008, s.530
[86] AXC Ensiklopediyası. İki cilddə. I cild. Bakı, "Lider nəşriyyatı", 2004, s.78-80

## 1.2. 1920-1991-ci illərdə Quzey Azərbaycanda sosial-siyasi və mədəni mühit

Sovet Rusiyası XI ordusunun 1920-ci ilin 27 aprel işğalından bir gün sonrası, yəni 28 apreldə azsaylı türk bolşeviklər Müvəqqəti Hərbi-İnqilab Komitəsinin adından "müstəqil" Azərbaycan Sovet Sosialist Respublikasının (Azərbaycan SSR) yaradıldığını bəyan etdilər. Hərbi-İnqilab Komitəsi də öz növbəsində Azərbaycan SSR Xalq Komissarları Sovetini təşkil etdi ki, sədri də həmin vaxt Azərbaycanda olmamasına baxmayaraq, Sovet Rusiyasının diktəsi altında Nəriman Nərimanov oldu.[87] Əslində ilk dövrlərdə Nərimanovun ön plana çıxarılması Sovet Rusiyasının imperiya maraqlarına tam cavab verirdi. Rus bolşeviklərinin əsas məqsədi ilk dövrlərdə marksizm-leninizmə sadiq N.Nərimanovu formal olaraq hökumətin rəhbəri edib işğalçılıq niyyətlərini pərdələmək idi. Bu anlamda "müstəqil" Sovet Azərbaycanının yaranmasından az sonra rus bolşeviklərin Cümhuriyyət parlamentinin, hökumətinin bütün qərar və fərmanlarını ləğv etməyə başlayaraq bir sıra dekretlər, o cümlədən fəhlə-kəndli milisinin, yerlərdə qəza, mahal və kənd inqilab komitələrinin, Xalq Məhkəməsinin, Fövqalədə Komissiya və Ali İnqilabi Tribunalının yaradılması, vicdan azadlığı bəyan edilməsi,[88] bütün xan, bəy, vəqf torpaqları müsadirə edilərək, heç bir ödənişsiz olaraq kəndlilərin istifadəsinə verilməsi,[89] milli ordu, milli donanmanın ləğv edilməsi təsadüfi deyildi. Sovet Rusiyası milli istiqlalı, milli şüuru, bir sözlə Cümhuriyyəti və onun bütün milli ideyalarını məhv etmək üçün işğalçılıq siyasəti aparırdı.

Sovet Rusiyası işağlçılıq siyasətini pərdələmək üçün Azərbaycan SSR-ni tanıdığını ilk günlərdən rəsmən elan etmişdi ki, rus bolşeviklərin nəzərində Sovet Azərbaycanın mövcudluğu Yaxın və Orta Şərq regionlarındakı ictimai-siyasi vəziyyətə təsir etmək üçün

[87]Azərbaycan Kommunist Partiyasının oçerkləri. I cild. Bakı: Azərnəşr, 1986, s.463
[88]Azərbaycan tarixi. Üç cilddə. 3-cü cild. Bakı, "Elm" nəşriyyatı, 1973, s.247-249
[89] Yenə orada, s.250

mühüm təbliğat amili idi. Məhz bu siyasətin bir parçası olaraq 1920-ci il sentyabrın 1-7-də Bakıda Şərq xalqlarının I qurultayı keçirildi.[90] Qurultay öz qarşısında Şərqdə sözdə imperializmə qarşı mübarizədə milli-azadlıq hərəkatlarına yardım etmək məqsədi qoysa da, əslində Rusiya özü imperialist siyasət yürüdür və bu yolda sözdə müstəqil Sovet Azərbaycanın varlığından sui-istifadə edirdi.

Bu baxımdan Azərbaycanın sovetləşdirilməsi məsələsinə xüsusi diqqət yetirən Sovet Rusiyası 1921-ci il mayın 6-da Bakıda Azərbaycan SSR-in birinci Sovetlər qurultayını da təşkil etdi. Qurultayda Azərbaycan SSR-nin ilk konstitusiyası qəbul edilərək sözdə də olsa, bütün zəhmətkeşlərə dövlət hakimiyyət orqanlarına nümayəndə seçmək və seçilmək, eləcə də söz, mətbuat, vicdan azadlığı hüquqları verildi.[91] Eyni zamanda, ləğv edilən Azərbaycan Hərbi-İnqilab Komitəsinin yerinə ali qanunverici, sərəncamverici, nəzarətedici orqan olan Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi yaradıldı. Sovetlər qurultayı və Azərbaycan MİK qarşısında məsuliyyət daşıyan ali icraedici hakimiyyət orqanı - Azərbaycan SSR XKS yenidən təşkil edilərək sədri yenə də N.Nərimanov oldu. "Beləliklə, Azərbaycanda "sovet milli dövlət quruculuğunun" üçüncü mərhələsinə keçilməsi başa çatdı. XX əsrdə Azərbaycan xalqının tarixində ilk respublika ADR idi, ikincisi isə Azərbaycan SSR oldu. Azərbaycan bütün müsəlman aləmində yeni tipli ilk dövlət - Sovet Respublikası oldu".[92]

Ancaq real mənzərə belə idi ki, Azərbaycan SSR-nin formal müstəqilliyi elə yarandığı ilk vaxtlardan əlindən alınmağa başlanmışdı. Belə ki, 1920-ci il sentyabrın 30-da Moskvada Azərbaycan SSR və RSFSR arasında əsil beynəlxalq müqavilə deyil, zahirən ona oxşar yarımçıq "müqavilə" bağlanmışdı.[93] Bu addımlarla Rusiya hərbi cəhətdən de-fakto işğal etdiyi Azərbaycanı de-yure

---

[90] Yenə orada, s.271-272

[91] Məmmədov İ. Azərbaycan tarixi. Dərslik, Bakı, Adiloğlu, 2005, s.358

[92] Azərbaycan tarixi. Yeddi cilddə, VI cild (aprel 1920 - iyun 1941). Bakı: Elm, 2008, s.165

[93] Yenə orada, s.66

özündən asılı vəziyyətə salırdı. Bunun nəticəsi olaraq, 1920-ci il oktyabrın 16-23-də AK(b)P-nin Bakıda keçirilmiş qurultayının qəbul etdiyi qətnamədə də qeyd olunurdu ki, AK(b)P RK(b)P-nin ayrılmaz hissəsidir.[94] 1920-ci ilin noyabrında Bakıya gələn Stalin Azərbaycan kommunistlərinin birgə iclasında açıq şəkildə Azərbaycanın müstəqilliyi məsələsinə nöqtə qoydu. "Həmin iclasda Sovet Azərbaycanının müstəqilliyi haqqında məsələ barədə Stalin açıq demişdi: "Mən Azərbaycanın müstəqilliyinə tərəfdar deyiləm. Kommunistlərin bir hissəsinin digərindən müstəqilliyi ola bilməz"".[95]

Ancaq ilk dövrlərdə Azərbaycanın müstəqilliyini tamamilə inkar etmək mümkün deyildi, çünki Ermənistan və Gürcüstan hələ "sovet"ləşdirilməmişdir. Stalinin planına görə, hər üç ölkə Sovet Rusiyasının işğalından sonra birləşdirilb müstəqilliklərinə son verilməli idi. Doğrudan da, Ermənistanın (1920-ci il 29 noyabr) və Gürcüstanın (1921-ci il 25 fevral) sözdə sovetləşdirilməsindən sonra Stalinin üç Güney Qafqaz ölkəsini vahid dövlətdə birləşdirmək planı həyata keçirilməyə başladı. Belə ki, 1921-ci il noyabrın 3-də RK (b)P MK Qafqaz bürosunun, noyabrın 29-da isə RK (b)P MK-nin Siyasi bürosunun Zaqafqaziya Federasiyasının yaradılması haqqında qərar qəbul etməsi bu məsələni köklü şəkildə həll etmişdi. Zaqafqaziya kommunistlərinin 1922-ci il fevralın 18-22-də Tiflisdə keçirilən I qurultayında Zaqafqaziya kommunist təşkilatlarının vahid partiya rəhbərliyində birləşdirilməsi "bütün Zaqafqaziyanın idarə olunmasının Mərkəzin əlində cəmləşdirilməsi" məqsədini güdürdü".[96] Çünki bu qurultayın yekununda Zaqafqaziya Sovet respublikalarının RSFSR ilə bağladıqları sazişə görə, üç respublika "könüllü" şəkildə beynəlxalq münasibətlərdə öz mənafeyini təmsil və müdafiə etməyi RSFSR-ə tapşırırdı.

1922-ci ilin yayından kommunizm ideyaları zəminində Rusiya imperiyasını yeni formada bərpa etməyi həyata keçirməyə baş-

---

[94]Məmmədov İ. Azərbaycan tarixi. Dərslik, Bakı, Adiloğlu, 2005, s.356
[95] Azərbaycan tarixi. 7 cilddə. VI cild (aprel 1920 - iyun 1941). Bakı: Elm, 2008, s.56
[96]Yenə orada,s.176

ladılar. İ.V.Stalinin tezislərinə görə, sovet respublikaları "muxtariyyətləşdirmə" yolu ilə birləşdirilməli idi. 1922-ci il sentyabrın 11-də AK(b)P MK-nin Rəyasət Heyətinin bu məsələ ilə bağlı Moskvaya göndərdiyi komissiyası (S.Ağamalıoğlu, S.M.Kirov, R.Axundov, A.Mirzoyan və b.) Sovet Azərbaycanının geniş muxtariyyət əsasında Ümumrusiya federasiyasına birləşməsini zəruri saydı.[97] Beləliklə, 1922-ci il dekabrında Zaqafqaziya Sovet Respublikalarının Federativ Respublikası (ZSRFR) yaranması, Zaqafqaziya Sovetlərinin 1-ci qurultayında ali orqan olan Zaqafqaziya MİK-nin seçilməsi ilə Azərbaycan SSR formal müstəqillikdən də məhrum oldu. Bunu, 1922-ci il dekabrın 30-da Moskvada SSRİ-nin birinci Sovetlər qurultayında 4 respublika - RSFSR, Ukrayna, Belorusiya və ZSFSR əsasında SSRİ-nin yaradılması bir daha sübut etdi.

Sovet Rusiyası Azərbaycan SSR-ni bütün sahələrdə müstəqillikdən məhrum edib özünə tabe etməklə paralel olaraq ruslaşdırma və erməniləşdirmə siyasətini aparır, türkləri mühüm vəzifələrə yaxın buraxmırdı. Bu anlamda Moskvadan Bakıya göndərilmiş bolşevik emissarları - Kirov, Mikoyan, Kaminski, Sarkis, Mirzoyan, Orconikidze və başqa əcnəbilər Azərbaycanda ağalıq edirdilər. S.Kirov və Q.Orconikidze 1920-ci il mayın 2-də Leninə ünvanladıqları məktubda yazsalar da ki, "kommunistlər yalnız müsəlmanlardan ibarət olan Azərbaycan və Bakı inqilab komitiələrini yaratdılar",[98] əslində isə respublika ilk günlərdən onların özləri, eyni zamanda Pankratov, Levandovski, Kaminski, Sarkis, Mikoyan və başqaları tərəfindən idarə edilirdi. AK(b)P-nin birinci katibləri ilk dövrlərdə Q.N.Kaminski (1920-1921), S.M.Kirov (1921-1926), L.Mirzoyan (1926-1929), N.Gikalo (1929-1930), V.Polonski (1930-1933), R.Rubenov (1933) kimi qeyri-azərbaycanlılar olmuşdu. "1929-cu ildən 1934-cü ilədək qısa bir dövrdə, M.G.Bağırov birinci katib təsdiq edilənə qədər üç birinci katibi - N.Gikalo, V.Polonski və Rubeni (Rubenovu) Mərkəz kənar şəxslərdən təyin etmiş-

[97] ARDSPİHA. f.1, s.74,i.128, v.175
[98] Azərbaycan Kommunist Partiyasının oçerkləri. I cild, Bakı: Azərnəşr, 1986, s.464

di”.[99] Yalnız 1933-cü ilin dekabrndan etibarən AKP MK-nin 1-ci katibi azərbaycanlı-türk Mir Cəfər Bağırov oldu.

Sovet Rusiyasının Quzey Azərbaycanda apardığı imperializm siyasətinə etiraz edən N.Nərimanov 1921-ci ilin fevralında Leninə məktubunda yazırdı ki, yerlərdən ona göndərilən “bütün məruzələrdə Sovet Rusiyasının müstəmləkə siyasətindən danışırlar”.[100] Moskvanın Azərbaycanda mənfur siyasətinin həyata keçirilməsində daha çox fərqlənən Orconikidzeni müstəmləkəçi adlandıran N.Nərimanov Zaqafqaziya kommunistlərinin II qurultayında (1923 mart) onunla bağlı RK(b)P MK-ya yazırdı: “İndi Orconikidze Zaqafqaziyada Mərkəzin açıq müstəmləkə siyasəti yeridən nümayəndəsi kimi məşhurdur”.[101]

Bununla da N.Nərimanov gec də olsa, həddən artıq etibar etdiyi Sovet Rusiyası tərəfindən Azərbaycanın müstəmləkəyə çevrildiyini etiraf edirdi. Hər halda Nərimanov başda olmaqla milli mənafeyi qorumağa çalışanlara ölkədə imkan verilmir, onlara “millətçi” damğası vurulurdu. Üstəlik, Sovet Rusiyası imperiya siyasətini həyata keçirmək üçün azərbaycanlı kommunistlər arasında ciddi ixtilafda yaratmışdı. Belə ki, N.Nərimanov başda olmaqla “sağlar” və yaxud millətçi-təmayülçülər adlandırlan bir qrupun (Mövsüm Qədirli, Tağı Şahbazi, Ağababa Yusifzadə, Əhməd Əhmədov, Əmən Qazızadə, Bağı Cəfərzadə, Yusif Məlikov və b.) fikrincə, bolşevik ideyaları Azərbaycana təlqin edilərkən yerli şərait, milli adət-ənənələr, məişət xüsusiyyətləri nəzərə alınmalı, sərt hərəkətlər edilməməli idi. “Sağlar” Rusiya təcrübəsinin kor-koranə Azərbaycana tətbiq edilməsinin əleyhinə çıxır, Türk dilinin - dövlət dili kimi inkişaf etdirməyi, milli kadrları irəli çəkməyi tələb edirdilər. Nərimanov və onun həmfikirləri partiyanın elan olunmuş milli siyasət prinsiplərini təhrif edənlərə qarşı çıxırdılar. N.Nərimanovun bu məsələ üzrə baxışları, etirazları, onun 1923-cü ilin dekabrında RK(b)P MK-ya şəxsən İ.V.Stalinə, L.D.Trotskiyə, K.B.Radekə

[99] Azərbaycan tarixi. 7 cilddə, VI cild (aprel 1920 - iyun 1941). Bakı: Elm, 2008, s.29
[100] Yenə orada, s.30
[101] Yenə orada, s.31

göndərdiyi "Ucqarlarda inqilabımızın tarixinə dair" məktubunda şərh olunmuşdu.

Sarkis, Lominadize, Yeqorov, Mikoyan və onlara qoşulan R.Axundov, M.D.Hüseynov, Ə.Qarayev, H.Cəbiyevdən ibarət "sollar" adlandırılan qrup Rusiya təcrübəsini Azərbaycanda zorla həyata keçirməyi, milli adət-ənənələrə məhəl verməməyi, milli kadrlara inanmamağı, Bakını qəzalara qarşı qoymağı təklif edirdilər. "Solların" ən zərərli təkliflərindən biri Bakını Azərbaycandan ayırmaq idi. Kirov, Mirzoyan və Serebrovski Bakı haqqında deyirdilər ki, Bakı Türk şəhəri deyil, beynəlmiləl proletar şəhəridir, ona görə də birbaşa Rusiyanın ərazisinə qatılmalıdır. Bununla da Mərkəzin maraqlarına cavab verən "sol" qrup N.Nərimanovun Azərbaycandan uzaqlaşdırılmasına nail oldular. 1922-ci il aprelin 28-də II Sovetlər qurultayında N.Nərimanovun hakimiyyətdən uzaqlaşdırılması əsasən həll edildi. Qurultay Azərbaycan MİK sədrliyinə S.Ağamalıoğlunu, XKS sədrliyinə isə Q.Musabəyovu təsdiq etdi.[102]

Mərkəz üçün Nərimanovdan sonra az da olsa, bir əngəl kimi Əyyub Xanbudaqovun millətçi-təmayülçü qrupu qalmışdı. Belə ki, Xanbudaqov 1924-cü ilin martında Mərkəzi Komitədə çıxış edərək, RK(b)P XII qurultayının qərarlarına uyğun surətdə AK(b)P tərəfindən respublikada iqtisadi və mədəni geriliyi aradan qaldırmaq üçün aparılan işləri səhv adlandırırdı. Ə.Xanbudaqov və onun tərəfdarları azərbaycanlı fəhlə kadrları işlə təmin etməyi, onların əmək haqqının qaldırılmasını və başqa millətlərdən olanların Bakıya axınının qarşısını almağa çağırırdı. Xanbudaqovçuluq adını almış bu hərəkat təqibə məruz qaldı, Ə.Xanbudaqovun özü isə Azərbaycan rəhbərliyindən kənarlaşdırıldı.[103] Üstəlik, bu kimi milli çıxışların qarşısını almaq üçün Moskva Azərbaycan Kommunist Partiyasını "təmizləmək" qərarına gəldi. "ÜİK(b)P MK-nın 25 iyul 1925-ci il tarixli qətnaməsi ilə AKP-ni yenidən təşkil etmək, yəni mərkəzi, şəhər, qəza və kənd partiya komitələrinin bütün üzvlərini kənarlaşdırıb onları Moskvadan təyin olunmuş şəxslərlə əvəzləmək

[102] Azərbaycan tarixi. Üç cilddə. 3-cü cild. Bakı, "Elm" nəşriyyatı, 1973, s.297
[103] Yenə orada, s.329

haqqında qərar qəbul edildi".[104] Bununla da "sollar" qrupu "sağlar" - millətçi-təmayülçülər üzərində ciddi qələbə əldə etdilər.

Sovet Rusiyasının 27 aprel işğalından dərhal sonra Azərbaycanda Sovet Rusiyası işğalçılığına qarşı Milli Müqavimət hərəkatı baş qaldırmışdı. Sovet Rusiyasının ağalığına qarşı ilk güclü milli azadlıq mücadiləsi 1920-ci ilin mayında Gəncədə başladı. Gəncədəki milli davanın əsas zərbə qüvvəsini Milli ordunun bölmələri təşkil edir və başçıları generallar Cavad bəy Şıxlınski, Məmməd Mirzə Qacar və polkovnik Cahangir bəy Kazımbəyov idi. Azərbaycan-Sovet Ruisyası arasındakı bu müharibədə şəhərin erməni əhalisinin XI ordunun tərəfini saxlamasına baxmayaraq, ilk günlərdə böyük qələbələr əldə edildi. Hətta, Gəncədə Milli ordunun qələbələrindən qorxuya düşən rus bolşevik ordusu Azərbaycan xalqına belə müraciət etdilər.[105] Ancaq onların bu müraciəti saxtakarlıqdan başqa bir şey deyildi, vaxt qazanıb öz sıralarını gücləndirməklə Milli orduya qarşı hücuma keçməyi planlaşdırırdılar. Doğrudan da, mayın 28-də əkshücuma keçən rus ordusunun diviziyaları mayın 31-də şəhəri tam nəzarət altına aldılar. Bu fürsədən sui-istifadə edən ermənilər və ruslar üç gün şəhəri qarət etdilər. Gəncə müharibəsində 13 mindən çox Azərbaycan türkü qətlə yetirildi. Milli ordunun 6 generalı, o cümlədən general-mayor C.Şıxlınski, M.M.Qacar öldürüldü, 76 nəfər zabit və əsgər "Nargin" adasına aparılaraq güllələndi. Ə.Şıxlınski yazırdı: "Bu hadisələrdən sonra Bakıda olan bütün zabitləri, o cümlədən S.Mehmandarovu və məni Moskvaya göndərmək qərarına gəldilər".[106]

Sovet Rusiyasının ağalığına qarşı başlamış Milli Müqavimət hərəkatına 1920-ci il iyunun əvvəllərində Bərdə, Tərtər, Ağdam, Xankəndi və Şuşanı ruslardan təmizləyərək özünü "Qarabağın hakimi" elan etmiş Türk generalı Nuru paşa başçılıq edirdi. Ancaq çox keçmədən işğalçı ordu hücuma keçərək iyunun 15-dək Milli ordunun əlində olan ərazilərinin tamamını yenidən işğal et-

[104] Rəsulzadə M.Ə. Azərbaycanda Milli Hərəkat. Bakı: "Elm", 2009, s.38
[105] Azərbaycan tarixi. Üç cilddə. 3-cü cild. Bakı, "Elm" nəşriyyatı, 1973, s.256
[106] Şıxlınski Əlağa. Xatirələrim. Bakı, Azərnəşr, 1984, s.191

di.[107] Ümumiyyətlə, 1920-1924-cü illər arasında Cavanşir qəzasında, Qəbələdə, Xaçmazda, Kürdəmirdə, Qubada, Naxçıvanda və başqa yerlərdə Sovet Rusiyasının ağalığına qarşı 60-dan çox etiraz hadisəsi olmuşdu. Bu dövrdə baş qaldıran Milli azadlıq üsyanlarının məğlub olmasının başlıca səbəblərini ilk növbədə qeyri-mütəşəkkilik, əlaqəsizlik, vahid rəhbərliyin müəyyənləşməməsi, üsyan rəhbərləri arasında fikir ayrılıqlarının olması, beynəlxalq şəraitin əlverişsizliyi və Sovet Rusiyasının güclənməsində axtarmaq lazım gəlir. Xüsusilə də, Sovet Rusiyasının hərbi hissələrindəki say çoxluğu, hərbi silah və sursatlarla tam şəkildə təmin olunması, eyni zamanda Azərbaycanda məskunlaşmış erməni və rusların XI orduya hərətərəfli yardım göstərməsi milli müqavimətin yatırılmasında mühüm rol oynadı.

Sovet rejiminə qarşı mübarizə Bakıda da özünü büruzə verdi. 27 aprel işğalından sonra fəaliyyətini rəsmən dayandırdığını elan edən İttihad Partiyası çox keçmədi ki, gizli fəaliyyətə keçərək "Vətən və ya ölüm", "Mərkəzi İttihad" və "Quranın əmin-amanlığı" qruplarını yaratdı.[108] İttihadçılar Azərbaycanda sovet hakimiyyətini devirmək üçün gizli plan-üsyan hazırlamışdılar. Ancaq tezliklə partiyanın sədri Qarabəy Qarabəyov və 155 nəfər partiya üzvü həbs edildi. 1921-ci il 23 yanvar tarixli AK(b)P Siyasi bürosunun iclasının qərarı ilə Qara Qarabəyov, Həsən Həsənov və Əlibəy Aşurbəyov Moskvaya (Butırski həbsxanasına), yerdə qalan ittihadçıların əksəriyyətini isə Xolmoqor, Nijni Novqorod və Ryazanın həbs düşərgələrinə göndərdilər.

1920-ci ilin sonu, 1921-ci ilin əvvələrində "İttihad" və "Müsavat" partiyalarının sağ qalan və həbsdə olmayan üzvləri əsasında yaranan "Azərbaycan milli müdafiəyi-İslam" Partiyası "Din üçün ölümə hazır ol", "Ya ölüm, ya vətən" şüarları ilə fəaliyyətini gücləndirdi. "1921-ci il iyul ayının əvvəllərində Azərbaycanda So-

[107] Azərbaycan tarixi. Yeddi cilddə. VI cild. Bakı: Elm, 2008, s.45
[108] Bünyadov Ziya. Qırmızı terror. Bakı, Azərnəşr, 1993, s.8

vet hakimiyyət orqanları "Azərbaycan milli müdafieyi-İslam" firqəsi adlı iri gizli əksinqilabi təşkilatı aşkara çıxarıb ləğv etdilər".[109]

Milli Müqavimət hərəkatının aparıcı, ideoloji istiqamətverici qüvvəsi olan "Müsavat" da fəaliyyətini gücləndirmişdi. "Müsavat" Partiyası "İstiqlal" qəzetini qeyri-leqal şəkildə yayırdı. Bu qəzetin 1923-cü ilin avqustunadək on doqquz sayı işıq üzü görmüşdü. Maraqlıdır ki, "Müsavat"ın rəsmən özünü buraxması haqında məlumat 1923-cü ilin avqustun 14-də "Bakinski Raboçi" qəzetində yayıldı. Həmin qəzetin "Müsavat buraxıldı" sərlövhəli məqaləsində müsavatçıların "sollar" qrupunun adından (Əbdülvahab Məmmədzadə, Sadıq Quluzadə, Ələkbər Salmanzadə, Həmid Qarayev, Novruz Ağayev, Seyid Hüseyn Sadıqov, Nəriman bəy Nərimanbəyli, Kərbəlayı Vəli Mikayılov, Cəfər Cabbarzadə, Rəhim Vəkilov, Əliağa Əlizadə, Əliövsər Nəcəfov, Məmməd Seyid Axundzadə) "Müsavatçıların Bəyannnaməsi" başlığında dərc olunmuşdu.[110] Bu hadisədən sonra müsavatçıların kütləvi həbsinə başlandı ki, onlardan bir qismi (M.B.Məhəmmədzadə, H.Baykara və b.) ölkəni tərk etməyə məcbur oldular.

Quzey Azərbaycanın Sovet Rusiyasının XI ordusu tərəfindən 27 aprel işğalından ən çox Ermənistan, qismən də Gürcüstan yararlandı. Belə ki, 29 noyabr 1920-ci ildə Ermənistanı "sovet"ləşdirən Sovet Rusiyası ermənilərin Naxçıvan, Zənəgəzur və Qarabağa olan iddialarını gerçəkləşdirmək üçün bəzi addımlar atdı. AK(b)P MK siyasi və təşkilat bürolarının 1920-ci il 30 noyabrında keçirilmiş birgə iclasının qəbul etdiyi qərara görə Naxçıvan, Zəngəzur və Qarabağın dağlıq hissəsi Ermənistan SSR-yə verildi. Bu məsələ ilə bağlı 7 cildliik "Azərbaycan tarixi"inin 6-cı cildində yazılır: "Qərarda da, N.N.Nərimanovun çıxışında da, 1920-ci il dekabrın 1-də Bakı Sovetinin iclasında onun elan etdiyi bəyannamədə də Naxçıvan haqqında məsələ qaldırılmamışdı. Lakin ertəsi gün qəzetlərdə dərc olunmuş bəyannaməyə aşağıdakı fikir əlavə edilmişdi: "Zəngəzur və Naxçıvan qəzalarının ərazisi Sovet Ermənistanı-

---

[109] Azərbaycan tarixi. Üç cilddə. 3-cü cild. Bakı, "Elm" nəşriyyatı, 1973, s.281
[110] Bünyadov Ziya. Qırmızı terror. Bakı, Azərnəşr, 1993, s.41-42

nın ayrılmaz hissəsidir"".[111]Ancaq sənədlərdə N.Nərimanovun Bakı Sovetinin 1920-ci il 1 dekabr tarixli iclasındakı çıxışında Sovet Azərbaycanı tərəfindən Naxçıvan və Zəngəzurun Sovet Ermənistanın ərazisi kimi elan olunması öz əksini tapmışdır: "Sovet Azərbaycanı bəyan edir ki... Zəngəzur və Naxçıvan uyezdləri Sovet Ermənistanın ayrılmaz ərazisi elan olunur, Dağlıq Qarabağın zəhmətkeş kəndlilərinə isə tam öz müqəddəratını təyinetmə hüququ verilir".[112] Məhz Azərbaycan SSR-nin rəhbərliyinin qəbuledilməz bu addımından sonra 1920-ci il dekabrın 2-də RSFSR ilə Sovet Ermənistanı arasında bağlanmış müqavilənin "üçüncü maddəsində göstərilirdi ki, Rusiya sovet hökuməti Ermənistanın 1920-ci il oktyabrın 23-nə kimi sahib olduğu aşağıdakı ərazilərini - İrəvan quberniyasının, Qars vilayəti hissəsinin, Zənəgəzur qəzasının, Qazax qəzası hissəsinin, Tiflis quberniyası hissəsinin "Sovet Erməni Respublikasının" tərkibinə daxil olduğunu mübahisəsiz təsdiq edir".[113]

Göründüyü kimi, N.Nərimanovun imzası ilə dərc edilmiş bəyannamədən, eləcə də Sovet Rusiyası ilə bağlanmış müqavilədən sonra ermənilər Zəngəzurun və Naxçıvanın Ermənistana birləşdirilməsini sürətləndirmişlər. Ermənilər Naxçıvan məsələsində istəklərinə əsasən nail ola bilməsələr də, ancaq 1929-cu ildə Zəngəzurun qərb hissəsində Ermənistana bağlı Mehri rayonunu yaratmaqla Naxçıvanı Azərbaycandan ayrı salmağı bacardılar.

Azərbaycandan ayrı salınan Naxçıvanın taleyində isə Türkiyə həlledici rol oynadı. Naxçıvanı "Türk qapısı" adlandıran Atatürk Türkiyəsinin danışıqlarda Azərbaycanı müdafiə etməsi Naxçıvan məsələsinnin taleyini həll etdi. Belə ki, Türkiyə öz qoşunlarını Naxçıvandan o şərtlə çəkməyə razı oldu ki, Rusiya Naxçıvanın Azərbaycanın tərkib hissəsi kimi olması ilə razılaşsın. Buna uyğun olaraq 1921-ci il martın 16-da Rusiya ilə Türkiyə arasında Moskvada dostluq müqaviləsi imzalandı. Müqavilənin 3-cü maddəsinə görə, Naxçıvan Azərbaycanın tərkibində qalırdı və Azərbaycan onu

---

[111] Yenə orada, s.193
[112] ARPİİSSA, fond 276, siyahı 3, i. 87, vərəqələr 221-225
[113]Azərbaycan tarixi. Yeddi cilddə, VI cild. Bakı: Elm, 2008, s.63

üçüncü dövlətə güzəştə getməməli idi. Moskva müqaviləsinin şərtlərini daha da konkretləşdirmək məqsədilə 1921-ci ilin sentyabr-oktyabr aylarında Türkiyənin Qars şəhərində konfrans çağırıldı. 1921-ci il 13 oktyabr Qars müqaviləsinin 5-ci maddəsi və üçüncü əlavəsi Naxçıvan məsələsinə həsr olunmuşdu. Burada onun sərhədləri və gələcək statusları qəti şəkildə müəyyənləşdirildi. Müqavilənin ən əhəmiyyətli cəhətlərindən biri də onun müddətsiz imzalanması idi. 1923-cü il dekabrın 31-də Azərbaycan SSR MİK Naxçıvan diyarının Azərbaycan SSR tərkibində Naxçıvan MSSR-ə çevrilməsi haqında qərar qəbul etdi. 1924-ci il yanvarın 8-də Zaqafqaziya MİK Naxçıvan diyarının Azərbaycan SSR tərkibində Naxçıvan MSSR elan etdi.[114]

Eyni zamanda, Ermənistan Dağlıq Qarabağ iddialarından da əl çəkmirdi. 1921-ci il iyunun 19-da Ermənistan SSR XKS sədri A.Myansikovun bəyanatı ilə "Dağlıq Qarabağ" Ermənistanın ayrılmaz tərkib hissəsi elan edildi. Ermənistan SSR-nin Dağlıq Qarabağda fövqalədə nümayəndəsi təyin olunmuş Mravyan N.Nərimanovun etirazları sayəsində iyunun 27-də geri çağırıldı.[115] 1921-ci il iyunun 27-də AK(b)P MK özünün siyasi və təşkilati bürolarının birgə iclasında Ermənistanın Qarabağın yuxarı hissəsinə iddialarını rədd etdi. Ancaq RK(b)P-nin Qafqaz bürosu 1921-ci il 4 iyul tarixli plenumunda Dağlıq Qarabağın Ermənistan SSR-nin tərkibinə daxil edilməsi haqqında qərar çıxardı. Bu ədalətsiz qərara plenumda iştirak edən N.Nərimanov qəti etiraz etdi. RK(b)P Qafqaz bürosu tərəfindən 1921-ci il iyulun 5-də Dağlıq Qarabağa Azərbaycan SSR-nin tərkibində inzibati mərkəzi Şuşa şəhəri olmaqla geniş vilayət muxtariyyəti statusu verildi. Bu qərar 1923-cü il iyunun 27-də RK(b)P Cənubi Qafqaz Ölkə Komitəsinin plenumunda təsdiq olundu. Azərbaycan MİK-i 1923-cü il 7 iyul tarixli qərarı ilə Azərbaycan SSR-nin tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) yaradıldığnı elan etdi.

---

[114]Azərbaycan tarixi. Yeddi cilddə, VI cild (aprel 1920 - iyun 1941). Bakı: Elm, 2008, s.198

[115] Yenə orada, s.206-207

Azərbaycan SSR-nin formal müstəqilliyini qəsb etməklə, Milli Müqavimət hərəkatını boğmaqla yanaşı, onun torpaqlarını Ermənistana, Gürcüstana və Dağıstana hədiyyə edən Sovet Rusiyası iqtisadi sahədə də tam ağalıq edirdi. Əvvəlcə Azərbaycanda hərbi kommunizm siyasətinə uyğun olaraq ərzaq sapalağı tətbiq edən, ancaq bu uğursuzluğundan sonra onu qismən aradan qaldırıb, onun əvəzinə könüllü yığılan çanaq vergisini həyata keçirən Sovet Rusiyası yalnız 1922-ci ilin yazından etibarən çanaq vergisini ərzaq vergisi ilə əvəz etdi. Beləliklə, Sovet Azərbaycanında da əməli olaraq Yeni İqtisadi Siyasətə (YİS) keçən Sovet Rusiyasının bu planı ərzaq vergisinin tətbiqini, ticarət azadlığını, icarə sistemini, müştərək müəssisələrinin yaradılmasını, xarici konssesiyaya yol verilməsini, kooperasiya, bank və kredit şəbəkəsinin yaradılmasını nəzərdə tutrdu. YİS dövründə xüsusi diqqət yetirilən sahə neft sənayesi idi. YİS nəticəsində 1925-ci ildə Azərbaycan iqtisadiyyatında müəyyən canlanma baş verdi ki, ancaq bu, uzun sürmədi. 1930-cu illərin ortalarına kimi nəzərdə tutulmuş YİS-in 1926-cı ildən tədricən ləğvinə başlandı.

1920-ci illərin ikinci yarısından başlayaraq Azərbaycanda da xalq təsərrüfatını bütün sahələrinin sosialistcəsinə yenidən qurulmasına başlandı. Sənayeləşdirmə, kollektivləşdirmə, mədəni quruculuq, idarəçilikdə sərt mərkəzləşmə, kommunist partiyasının ağalığının bərqarar edilməsi yenidənqurmanın başlıca istiqamətləri idi. “1926-cı il fevralın 3-də Q.Musabəyov (sədr), H.Sultanov, D.Bünyadzadə və başqalarından ibarət Sənayeləşdirmə Komissiyası yaradıldı”.[116] Mərkəz fərdi kəndli təsərrüfatlarının kollektivləşdirilməsinə 1933-cü ilədək vaxt versə də, Azərbaycan rəhbərliyi elliklə kollektivləşdirməni 1930-cu ilin yazına kimi başa çatdırmağı qərara aldı. Buna görə də 1928-ci ilin ortalarından başlayaraq bütün SSRİ-də olduğu kimi, Azərbaycanda da kolxoz təşkili süni “sürətləndirilir”, hətta açıq zorakılıq tətbiq etmək hallarına yol verilir-

[116]Məmmədov İsmayıl. Azərbaycan tarixi. Dərslik, Bakı, Adiloğlu, 2005, s.363

di.[117] Respublikada yüz minlərlə "qolçomaq", varlı kəndli ailələri məhv edilir, ya da sürgünə göndərilirdi.

Kolxoz quruculuğundakı əyintilər, özbaşınalıqlar kəndlilərin narazılığına səbəb olurdu. 1930-cu ilin əvvəllərində kollektivləşdirməyə qarşı Şəki-Zaqatala mahalında, Naxçıvanda, Xızı dairəsində, Şəmkirin Bitdili kəndində, Cəbrayıl qəzasının Sirik kəndində üsyanlar baş verdi. Samux, Qazax, Qarabağ, Goranboy, Tovuz bölgələrində kollektivləşdirməyə qarşı qaçaq dəstələri də mübarizə aparırdı. Ancaq hökumət qüvvələri hərbi gücdən yararlanmaqla qaçaq hərəkatını çox amansızlıqla məhv edirdi. "Rəsmi dairələr üsyançıların hamısına "bandit", "silahlı qolçomaq dəstələri" və buna bənzər ad qoyub, hökumət möhkəm silahlanmış müntəzəm ordu hissələrinin gücü ilə bu narazılıq üsyanlarını qan içində boğub, sağ qalanları isə "hərbi əsir" adı ilə DSİ-nin (QPU), Fövqəladə Üçlüklərin sərəncamına verdi".[118]

Rus bolşeviklər bütün kəndli çıxışlarını, üsyanları və qaçaq hərəkatlarını "müsavatçılıq" kimi qiymətləndirir və onlara amansız divan tuturdular. Bunun nəticəsində 1930-1931-ci illərdə minlərlə Azərbaycan türkü bolşevik zülmündən qurtulmaq üçün Güney Azərbaycana və Türkiyəyə üz tutdular. Çünki kolxozlar əmək düşərgələrini xatırladır, Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə ziddiyyət təşkil edirdi. Bununla da 1930-ci illərin ortalarından başlanan sosialistcəsinə yenidənqurmaların başlıca nəticəsi olaraq Azərbaycanda da Stalin modelli totalitar sosializm cəmiyyəti quruldu. Xüsusi mülkiyyət tamamilə ləğv olundu və ictimai mülkiyyət yarandı. Kapitalistlər, "qolçomaq"lar, ortabablar, tacirlərin sıradan çıxarılması ilə guya, sosializm cəmiyyətinin qurulması əsasən başa çatdı. Başqa sözlə, heç kimin özününkü saymadığı mülkiyyətsizliyin yaranması və bazar iqtisadiyyatına son qoyulması fonunda kütlələrdə zorən bərabərçilik psixologiyası formalaşdırılmağa başlandı. Sosialistcəsinə yenidənqurmanın başlıca siyasi nəticəsi isə sərt

---

[117] Azərbaycan tarixi. Yeddi cilddə, VI cild. Bakı: Elm, 2000, s.287-288

[118] Bünyadov Ziya. Qırmızı terror. Bakı, Azərnəşr, 1993, s.22

mərkəzləşdirilmiş yarı avtoritar, yarı totalitar imperiyanın yaradılması oldu.

Bütün bunlar 1936-cı il dekabrın 5-də qəbul olunmuş SSRİ-nin yeni konstitusiyasında təsbit olunması ilə Azərbaycanın da daxil olduğu ZSFSR ləğv olundu və Azərbaycan SSR birbaşa SSRİ-nin tərkibinə daxil edildi. SSRİ konstitusiya əsasında 1937-ci il martın 10-da Azərbaycan SSR-də də yeni konstitusiya qəbul olundu.

Azərbaycanda avtoritar rejim açıqfikirli, istedadlı, qabaqcıl ziyalılara, partiya və dövlət xadimlərinə qarşı kütləvi repressiyalar (lat. "represio" - əzilmə, təzyiq göstərilmə) başladı. Cəza orqanlarında işləyən Sumbatov-Topuridze, Qriqoryan, Markaryan, Malyan və başqa ermənilərin vasitəsilə on minlərlə azərbaycanlı məhv edildi və ya sürgünə göndərildi. 1937-ci ildə R.Axundov, Ə.Qarayev, S.M.Əfəndiyev, Q.Musabəyov, Q.Vəzirov, D.Bünyadzadə kimi partiya xadimləri güllələndilər. Onlar xalqa "xəyanətdə", "əksinqilabi" və "casusluq" fəaliyyətində günahlandırılırdılar. Elə həmin il Şamaxıda başda H.Sultanov olmaqla bir qrup kommunist və bitərəf mühakimə olundu. 1937-ci ildə Azərbaycanın minlərlə ziyalısı, o cümlədən H.Cavid, M.Müşfiq, Ə.Nəzmi, Ə.Cavad, T.Şahbazi, S.Mümtaz, S.Hüseyn, B.Talıblı, Ə.Razi, B.Çobanzadə və başqaları xarici dövlətlərə, xüsusilə də Türkiyəyə casusluqda, millətçilikdə, pantürkizmdə günahlandırılaraq repressiya edildilər. "1934-1938-ci illərdə Azərbaycanda 27.458 nəfər repressiyaya məruz qalmışdı ki, onların arasında din xadimləri də az deyildi".[119] Repressiya illərində Azərbaycanın 51 rayonundan 31-nin Xalq Daxili İşlər Komissarlığı rayon şöbələrinin rəisi erməni idi.

Bu dövrün ən faciəli hadisələrindən biri də azərbaycanlıların Qərbi Azərbaycandan kütləvi surətdə qovulması idi. 1937-1938-ci illərdə on minlərlə azərbaycanlı ermənilərin təqibləri və təhqirləri nəticəsində öz ata-baba yurdlarını tərk etməyə məcbur oldular. Üstəlik, belə bir şəraitdə, Sovet Rusiyası və onun tərkibində

[119] Azərbaycan tarixi. Yeddi cilddə. VI cild (aprel 1920 - iyun 1941). Bakı: Elm, 2000, s.357-358

zorla olan digər dövlətlər, o cümlədən Azərbaycan SSR II Dünya müharibəsi (1939-1945) ilə üz-üzə qaldı. II Dünya müharibəsi dövründə Azərbaycan özünün sərvətləri, Qərb-Şərq arasındakı əlverişli coğrafi mövqeyinə görə Almaniyanın işğalçılıq planında xüsusi yer tuturdu. Rozenberqin "Qafqazın idarə olunması planı"na görə, ilk vaxtlar Azərbaycanda "Komissarllıq" adlanan idarə forması yaradılmalı və o, iqamətgahı Tiflisdə yerləşən Qafqaz reyxkomissarlığına tabe olmalı idi. SSRİ üzərində qələbədən sonra Almaniya Türk xalqları yaşayan ərazilərdə "Böyük Türküstan" dövlətinin yaradılmasını planlaşdırırdı. II Dünya müharibəsi illərində Almaniyanın Qafqazla bağlı "Edelveys" planına görə, Bakı 1942-ci ilin sentyabrın 25-dək tutulmalı idi.

ABŞ və İngiltərənin Qafqazla bağlı "Vilvet" planıına görə, Sovet ordusu Qafqazdan çıxarılıb Stalinqrada aparılmalı, Qafqazda isə almanlara qarşı ingilis-amerikan qüvvələri vuruşmalı idi. Onlar bu üsulla Qafqazı SSRİ-dən ayırmaq istəyirdilər. Sovet rəhbərliyi də müharibə dövründə Qafqazın bütün türk-müsəlman əhalisinin, o cümlədən azərbaycanlıların zorla Mərkəzi Asiya və Qazaxıstana köçürülməsi nəzərdə tutmuşdu. Ancaq M.C.Bağırovun gətirdiyi tutarlı dəlillilərlə Stalini bu fikrindən daşındırdığı iddia olunur.

Müharibənin ilk günlərindən azərbaycanlıar da SSRİ-nin tərkibindəki digər xalqlar kimi, Almaniyaya qarşı müharibəyə cəlb olundu. 1941-ci ildə azərbaycanlılardan ibarət 77-ci, 402-ci və 223-cü, 1942-ci ildə 416-cı və 271-ci milli atıcı diviziyaları yaradıldı. Bu diviziyalar müharibədə qazandıqları uğurlara görə ali hərbi mükafatlara layiq görülmüşlər. Ümumiyyətlə, müharibəyə getmiş 640 min nəfər azərbaycanlıdan 300 mindən çoxu həlak olmuşdu.

1945-ci il mayın 8-də Almaniya danışıqsız təslim oldu və 9 may SSRİ tarixinə Qələbə günü kimi daxil oldu. II Dünya müharibəsi isə sentyabrın 2-də Yaponiyanın təslim olması ilə başa çatdı. SSRİ və müttəfiqləri müharibədən qələbə ilə çıxdılar.

2-ci Dünya müharibəsindən sonrakı dövrdə Mərkəzdə bütün siyasi hakimiyyət Stalinin, respublikalarda isə 1-ci katiblərin əlində idi. Sosializmin bir ölkə çərçivəsindən çıxıb dünya sisteminə

çevrilməsi, nüvə silahının əldə edilməsi bütün SSRİ-də olduğu kimi, Azərbaycanda totalitar rejimin güclənməsinə səbəb oldu.

II Dünya müharibəsi ərəfəsində və müharibə illərində sovet ideologiya maşını əsas diqqəti hitlerizmə yönəldərək ucqarlardakı milli məsələni ört-basdır etməyə çalışmasına baxmayaraq, həmin dövrdə Azərbaycanın azadlığa qovuşması üçün "İldırım" təşkilatı yaranmış və onun üzvləri Gülhüseyn Abudllayev, İsmixan Rəhimov, Hacı Zeynalov, Kamal Əliyev, Aydın Vahidov və başqaları bu quruma rəhbərlik üçün Səməd Vurğuna müraciət etmişlər.[120] Bu baş tutmasa da, milli qüvvələrin 1950-ci illərin ortalarında Bakı və Sumqayıt şəhərlərində yaydığı vərəqələrdə Azərbaycanın Rusiyanın ağalığından qurtarmağın vaxtının gəlib çatdığı bildirlirdi. O da qeyd olunurdu ki, ermənilər və ruslar Azərbaycandan qovulmalı, onun milli dili (türk) və əlifbası (latın) bərpa olunmalı, ana dili rəsmi dövlət dili kimi bütün idarələrdə işlədilməlidir. Hətta bəzi vərəqələrdə "Millətçi Gənclər Təşkilatı", "İldırım" təşkilatı adından Azərbaycanın Türkiyə ilə birləşməsi belə təklif olunurdu.

II Dünya müharibəsindən sonra da ermənilərin Azərbaycan torpaqlarına qarşı iddiaları davam etməkdə idi. Sovet hökumətində yüksək vəzifə tutan A.Mikoyanın himayəsilə "Qarabağ Komitəsi" yaradıldı. 1945-ci ilin payızında Ermənistan rəhbərliyi Mərkəz qarşısında Dağlıq Qarabağın Azərbaycandan alınıb, onlara verilməsi məsələsini qaldırdı. Azərbaycan KP MK-nın I katibi M.C.Bağırov əhalisinin əksəriyyəti azərbaycanlılardan ibarət olan Şuşa rayonunu çıxmaqla Yuxarı Qarabağın Ermənistana verilməsinə bu şərtlə razılıq verdi ki, müxtəlif dövrlərdə Ermənistana, Rusiyaya və Gürcüstana verilmiş tarixi torpaqlarımız geri qaytarılsın. Ancaq "Mərkəz" və ermənilər Bağırovun bu təklifini qəbul etmədilər. Bunun əvəzində "Mərkəz" ermənilərin xeyrinə digər tədbirlər həyata keçirdi. SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr və 1948-ci il 10 mart tarixli "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi

---

[120] Həsənli Cəmil. Azərbaycanda milli məsələ: siyasi rəhbərlik və ziyalılar (1954-1959). Bakı, Adiloğlu, 2008, s.307-308

haqqında" qərarları azərbaycanlıların indi Ermənistan adlandırılan ərazidəki (Qərbi Azərbaycandan) dədə-baba torpaqlarından qovulmasının növbəti mərhələsinin başlanğıcı oldu. Bu qərarların həyata keçirilməsi nəticəsində Qərbi Azərbaycanda yaşayan 150 mindən çox azərbaycanlı doğma yurdlarından zorla çıxarıldı.

1953-cü il martın 5-də Stalinin vəfatından sonra Sov.İKP MK-nın birinci katibi N.Xuruşov inzibati-amirlik idarə sistemini, o cümlədən şəxsiyyətə pərəstişi kəskin tənqid edərək Stalinin yaxın adamlarını vəzifədən uzaqlaşdırdı. Mərkəzdəki dəyişikliklərə uyğun olaraq, 1953-cü ilin iyulunda vəzifəsindən azad edilən M.C.Bağırov, hakimiyyətdə olduğu dövrdə respublikada baş verən qanunsuzluqlara görə 1956-cı ilin aprelində SSRİ Ali Məhkəməsinin hərbi kollegiyası tərəfindən ölüm cəzasına məhkum edildi.

Ölkədə İslah-Əmək Düşərgələri Baş İdarəsi (QULAQ) ləğv edildi. Repressiyaya məruz qalmış minlərlə azərbaycanlıya, o cümlədən H.Cavidə, Ə.Cavada, M.Müşfiqə və başqalarına "bəraət" verildi, onların üzərindən "xalq düşməni" damğası götürüldü.

1954-cü ildə Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə təyin edilmiş İmam Mustafayevin dövründə milli sənayenini inkişaf etdirilməsi Bakıda azərbaycanlıların sayının xeyli artmasına səbəb oldu. Bakıda demoqrafik şəraitin belə dəyişməsi N.S.Xruşşovun Bakını Azərbaycanın tərkibindən çıxarıb birbaşa Moskvaya tabe etmək planını pozdu. Daha sonra İ.Mustafayev və Azərbaycan SSR Ali Sovetinin rəyasət heyətinin sədri Mirzə İbrahimov Azərbaycan dilinin (Azərbaycan türkcəsinin) rəsmi dövlət dili statusu hüququnu bərpa etməklə yanaşı, ədəbiyyat və incəsənətdə də milli mədəniyyətin formalaşmasına şərait yaratdılar.[121] İ.Mustafayev və M.İbrahimovdan sonra AKP rəhbərlərindən olmuş Vəli Axundovla Şıxəli Qurbanov dövlətin milliləşdirilməsinə doğru müəyyən işlər gördülər. Məsələn, AKP MK katibi Ş.Qurbanov 1960-cı illərdə Novruz-Bahar bayramının dövlət səviyyəsində qeyd edilməsinə nail olmuşdu. Bunun davamı olaraq 1960-cı illərdə milli-azadlıq uğrunda mübariz nəsil yetişməkdə idi. 1962-ci ildə Milli Azərbaycan Qərargahı yarandı ki, əsas

---

[121] Azərbaycan tarixi.Yeddi cilddə.VII cild (1941-2002-ci illər).Bakı:Elm, 2008, s.140

rəhbərləri Oqtay Rəfili (sədr) və Xudu Məmmədov (müavin) idilər. “Başlıca məqsəd rəhbər vəzifələrdə azərbaycanlıların olmasına, respublika büdcəsinə ayırmaların Moskvada deyil, Bakıda həll olunmasına çalışmaq, milli oyanışa xidmət etmək idi”.[122] 1964-cü ildə Azərbaycanın Rusiyanın tərkibinə “daxil olması”nın 150 illiyi “bayram” edilərkən Azərbaycan Türk tarixçilərindən Z.Bünyadov, M.Ə.İsmayılov və S.Əliyarov buna qarşı çıxdılar. Onlar haqlı olaraq deyirdilər ki, XIX əsrin əvvəllərində Azərbaycan Rusiyaya birləşməmişdir, onu çar Rusiyası hərbi qüvvə ilə işğal etmişdir.[123]

Bununla bağlı Ə.Daşdəmirov yazır ki, II Dünya müharibəsindən sonrakı dövr, yəni fəal inkişaf edən milli özünüdərk dövrü bərpa edilməlidir. Onun fikrincə, Azərbaycan dilinin, ənənələrinin və adətlərinin, respublikanın nüfuzu ilə eyniləşdirən hadisələrin etnosəfərbəredici rolunun güclənməsi ilə bağlı mənlik şüurunun inkişaf mərhələləri həmin məcrada xüsusilə əlamətdar görünür: “Məsələn, 50-ci illərin ikinci yarısı Azərbaycan tarixinə milli vətənpərvərlik əhval-ruhiyyəsinin, milli tarixə marağın fəal artması, onun 30-cu illərin təqibləri ilə bağlı faciəli səhifələrinin yenidən dərki, açıqlanması dövrü kimi daxil olmuşdur. Bu, açıq-aşkar azərbaycançılıq ideyasının – hər şeydən əvvəl milli dil ideyasının, onun respublikamızın Konstitusiyasında dövlət dili kimi təsbiti, milli-mədəni dəyərlərin üstünlüyü ideyası dövrü idi. 60-cı illərdə milli hissiyatımızın Novruz bayramını bərpa etmək hərəkatı ilə müşaiyət olunan yüksəlişi hələ də hamımızın yaddaşındadır. 70-ci illərdə milli ideyamız “əxlaqi təmizlik”, respublikanın iqtisadi yüksəlişi amalı ilə, onun siyasi-mədəni nüfuzunu artırmaq qayəsi ilə qidalanırdı”.[124]

1960-cı illərin əvvəllərində “Azərbaycan Dövlət Universitetinin azadfikirli tələbələrindən bir qrupu Əbülfəz Əliyevin rəhbərliyi ilə gizli siyasi mübarizəyə başlamışdılar. Onlar gizli özək təşkil edərək, üçlük qruplar yaradır və tələbə gəncləri azadlıq uğrunda mübariz ruh-

---

[122] Yenə orada, s.146

[123] Yenə orada, s.147

[124] Daşdəmirov Ə.F. Millət və cəmiyyət tarixin sərt dönəmlərində.Bakı, Elm, 2008, s.131

da tərbiyələndirməyə çalışırdılar”.[125] Azərbaycan Xalq Cəbhəsinin lideri, eks-prezident Əbulfəz Elçibəy özü də xatirələrində yazır ki, 1960-cı illərdə BDU-nun 2-3-cü kurslarında oxuyarkən tarixi-siyasi məsələlər onu daha çox özünə çəkibmiş: “Bir neçə tələbə yoldaşımla siyasi-milli yöndə qızğın mübahisələrə başladıq. Bizdə belə fikir yarandı ki, millətimiz qul halındadır, ölkəmiz isə müstəmləkədir”.[126] Tələbə və müəllim olarkən əsas düşmənin Sovetlər Birliyinin olması qənaətinə gələn Elçibəy yazır ki, imperiyanın əsil simasını açmaq üçün 1970-ci illərdə müəllim kimi işlədiyi BDU-da dərnəklər yaratmışdı. Onun mülahizəsinə görə, dərnəklərin məqsədi Azərbaycan tarixini, Azərbaycandakı inqilabi hərəkatları olduğu kimi tələbələrə çatdırmaq, eyni zamanda, Azərbaycanın müstəmləkə olduğunu və sosializm quruluşunun bir gün dağılacağını onlara başa salmaq imiş.[127]

Beləliklə, Ə.Elçibəy və onun digər məsləkdaşları (Malik Qarayev, Vasim Məmmədəliyev, Elxan Əzizov və b.) 1965-1975-ci illərdə milli bir proqram təşkil edərək “Müstəqil Azərbaycan” ideyası uğrunda mübarizə aparırmışlar. Elçibəy yazır: “1965-ci ildən 1975-ciilədək aşağı-yuxarı 200-dən çox həmfikir elsevəri proqram ətrafında, daha doğrusu, bu proqramda qoyulan məslək yolunda toplaya bilmişdik. 1970-1975-ci illərdə, necə deyərlər, “yuxarılara” əl atdıq. Malik bəy Ziya Bünyadovla, Alim bəy Tofiq Köçərli ilə, mən Xudu Məmmədov və Bəxtiyar Vahabzadə ilə, mən və Rafiq bəy Süleyman Əliyarovla, Abbas bəy Həsən Abdullayevlə çox ehtiyatla əlaqə saxlamalı, onlara yanaşmalı, təşkilat haqda heç bir söz demədən bu yurdsevər, elsevər insanlarla onların hörmətini uca tutmaqla, bir növ, böyük-kiçik münasibətində yaxın olmalıydıq”.[128] Elçibəy xatirələrində onu da yazır ki, həmin dövrdə milli məsələ ilə bağlı baxışlarını “Azərbaycanın birləşdirilməsi üzərində düşüncələr” adlı yazısında ifadə etmişdir: “Burada qarşımda iki yön qoymuşdum: birincisi, bacardıqca ərəb, fars, rus və Batı dillərindən

[125] Azərbaycan tarixi. Yeddi cilddə, VII cild. Bakı: Elm, 2008, s.146
[126] Elçibəy Əbülfəz. Deyirdim ki, bu quruluş dağılacaq. Bakı, Gənclik, 1992, s.8
[127] Yenə orada, s.35-36
[128] Elçibəy Əbüləfəz. Bütöv Azərbaycan yolunda. Bakı, “Nurlar”, 2004, s.213

gələn, dilimizin axarlığına, gözəlliyinə yara vuran, onu ağırlaşdıran sözlərdən, söz birləşmələrindən aralı durmaq; ikincisi, dilimizin gücünü ayrı-ayrı sözlərdən çox, sözlərin düzümündə, ayrı-ayrı sözlərin düşüncə düzümündə çevik yer dəyişməsi ilə deyişində olduğunu ya yaddaş, ya da göz önündə tutaraq yazmaq".[129] Deməli, Elçibəy və onun silahdaşları bu dövrdə müstəqillik və Azərbaycan türkcəsinin təmizliyi uğrunda da mübarizə aparmışlar. Bütün bunların nəticəsi olaraq Ə.Elçibəy həbs edilmiş, 1975-1977-ci illərdə məhbus həyatı yaşamışdır.[130]

Ə.Elçibəy onu da yazır ki, Azərbaycanın müstəqilliyini tələb edən bir ziyalı kimi, öncə həmin dövrdə Sovet Azərbaycanına rəhbərlik edən Heydər Əliyevin əleyhinə çıxışlar etsə də, sonralar onun güclü idrak sahibi, güclü şəxsiyyət kimi tanıyaraq, eləcə də bəzi çıxışlarını və siyasi manevrlər bacarığını görərək bir müddət də onu müdafiə etmişdi.[131] Elçibəy yazır: "Azərbaycanda iki şeyi görəndən sonra Əliyevə münasibətim dəyişməyə başladı. Birincisi, ilk dəfə olaraq bir neçə dilçi alimə bir yerdə dövlət mükafatı verdirdi. O mükafatın verilməsi bu demək idi ki, Azərbaycan dilçilərinin nüfuzu qalxır və onlar toxunulmaz olurlar. Axı millətin təfəkkürünü inkişaf etdirməyə dilçilər başlayırlar. Bu baxımdan mükafatın çox xeyri oldu. Mükafat verilən kimi dilimizin işlədilməsi genişlənməyə başladı… Bu, Heydər Əliyevin xidməti idi".[132]

Onun fikrincə, 1970-ci illərdə H.Əliyevin Azərbaycan xalqına ikinci xidməti Z.Bünyadovun "Azərbaycan Atabəylər dövləti" əsərinə dövlət mükafatı verdirməsi olub: "Bu da o deməkdi ki, vaxtilə Ziya Bünyadova "millətçi", "şovinist" deyə hər cür damğalar vururdular və indi o, alimi bütün hücumlardan qorudu, yəni siz ermənilər ki, həmişə Ziyaya "millətçi" deyirdiniz, indi alın – o, dövlət mükafatı laureatıdır. Vaxtilə Heydər Əliyev Ziya Bünyadovu tənqid etmişdi. Ermənilər bundan istifadə edib yazırıdlar ki, hətta Azərbaycan KP MK-nın birinci katibi belə onu tənqid edib və Ziyanı beləcə vururdular. Bu müka-

---

[129]Yenə orada, s.216

[130] Yenə orada, s.218

[131] Elçibəy Əbülfəz. Deyirdim ki, bu quruluş dağılacaq. Bakı, Gənclik, 1992, s.37

[132] Yenə orada, s.42

fatdan sonra isə ermənilər təzədən yazdılar ki, Heydər Əliyev millətçidir – o, millətçi Ziya Bünyadova dövlət mükafatı verdirib".[133] Elçibəyin fikrincə, bu onun göstəricisi idi ki, "hamı öz vətənini, millətini istəyir, ancaq sadəcə olaraq bunun müdafiə formalarını bilmir. Hərə bir cür, öz bacardığı kimi müdafiə edir. Bu, bir xətt idi".[134] O, yazırdı ki, H.Əliyev əvvəllər tənqid etdiyi adamların hamısını sonradan müdafiə etmək, Sosialist Əməyi Qəhrəmanı adı verməklə, "Azərbaycanda yeni bir millətçilik, bir düşmənçilik var" sözünü götürdü, ab-havanı yumşaltdı.[135]

Ə.Elçibəyin bu fikirlərindən belə nəticə çıxarmaq olar ki, 1969-cu ildə Heydər Əliyevin AKP MK-nın birinci katibi vəzifəsinə təyin olunması ilə 1970-ci illərdə Azərbaycanda milli məsələyə münasibət dövlət səviyyəsində də yeni bir mərhələyə qədəm qoymuşdu. "Heydər Əliyev böyük uzaqgörənliklə bütün dövlət hakimiyyəti orqanlarının işini xalqın iqtisadi, sosial-mədəni tərəqqisi və milli oyanış siyasətinin reallaşmasına yönəltdi".[136] Burada daha sonra qeyd olunur ki, H.Əliyev Azərbaycanın suveren hüquqlarının pozulmasına qarşı yönələn bütün cəhdlərin qarşısını vaxtında və qətiyyətlə almışdı: "Heydər Əliyevin rəhbərliyi altında fəaliyyət göstərən respublika Konstitusiya Komissiyasının hazırladığı yeni "Azərbaycan SSR Konstitusiyası" 1978-ci il aprelin 21-də qəbul edildi. Bu Konstitusiya mövcud olan dar imkanlar daxilində xalqın mənəvi sərvətlərinin, xüsusən dilinin qorunub saxlanılması və inkişaf etdirilməsi üçün hüquqi əsasları genişləndirdi. Ölkə rəhbərliyinin etirazına baxmayaraq H.Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan dili respublikada dövlət dili statusunu saxladı".[137]

Yeddi cildlik "Azərbaycan tarixi"ndə o da qeyd olunur ki, H.Əliyevin hakimiyyəti dövründə milli mənəvi sərvətlərin tədqiqi və təbliği, tarixi araşdırmaları geniş vüsət almışdı. Xüsusilə, Azərbaycan tarixinə və Azərbaycan dilinə aid qiymətli araşdırmalara yüksək döv-

---

[133] Yenə orada, s.42
[134] Yenə orada, s.42
[135] Yenə orada, s.43
[136] Azərbaycan tarixi.Yeddi cilddə,VII cild (1941-2002-ci illər). Bakı:Elm,2008, s.175
[137] Yenə orada, s.176

lət mükafatları verilməsi ziyalıları bu sahədə öz fəaliyyətlərini genişləndirməyə ruhlandırmışdı: "Heydər Əliyevin məqsədyönlü siyasi fəaliyyəti nəticəsində Azərbaycanda milli özünüdərk prosesi xeyli güclənmişdi. Yaradıcı ziyalılar üçün sərbəst düşüncə və iş şəraiti yaradılmışdı".[138] "Beləliklə, 70-ci illərdə və 80-ci illərin birinci yarısında Heydər Əliyevin çoxcəhətli partiya və dövlət idarəçiliyi səviyyəsində Azərbaycanın ictimai-siyasi həyatı olduqca zənginləşdi. İnsanların partiya və dövlət orqanlarının, ictimai təşkilatların işində fəallığı artdı. Partiya və dövlətin, yerli sovetlərin, həmkarlar ittifaqlarının, komsomolun, ziyalıların, yaradıcılıq təşkilatlarının əsas diqqəti respublikanın iqtisadi, sosial-mədəni tərəqqisi, xalqın milli oyanışına istiqamətləndirilmiş siyasətin reallaşdırılmasına yönəldildi və səmərəli nəticələr verdi".[139]

Doğrudan da, çox keçmədi ki, Azərbaycanda islamlığa və türklüyə qayıdışın yeni mərhələsinə qədəm qoyuldu. Artıq 1980-ci illərdə "islam və millətçilik prinsiplərinə əsaslanan" Azərbaycan millətçiliyindən bəhs olunurdu. Hətta, bir çox əcnəbi tədqiqatçılar (A.Benniqsen, E.Vimbuş və b.) yazırdılar ki, Sovet Şərqi xalqları, o cümlədən Azərbaycanda milli məsələyə dair elmi kommunizm nəzəriyyəsi öz əhəmiyyətini itirmş, marksizm bir dünyagörüş kimi aradan qalxmış və o, yalnız "idarəetmə formasının vasitəsi" kimi yaşamaqdadır.[140] Həmin dövrün fəlsəfəçiləri Azərbaycanda islamlığa və millətçiliyə əsaslanan "Azərbaycan millətçiliyi"nin olmasını inkar etsələr də, əslində dolyasıyıla milli məsələ ilə bağlı problemin olmasını təsdiq etmiş olurdular.[141]

Beləliklə, ikinci Dünya müharibəsindən sonra milli məsələ yenidən gündəmə gəlmiş və SSRİ dağılana qədər öz aktuallığını qoruyub saxlamışdır. Şübhəsiz, milli məsələnin Azərbaycan rəhbərliyi səviyyəsinə qədər yüksəlməsi onun müsbət həllində mühüm

---

[138] Yenə orada, s.178
[139] Yenə orada, s.180
[140] Rüstəmov M.Ə., Tağıyev Ə.M. Karl Marks və müasir ideoloji mübarizə. Bakı, Bilik, 1985, s.56
[141] Yenə orada, s.56

rol oynamışdı. Bunun da məntiqi nəticəsi olaraq 1980-ci illərin sonlarına doğru milli müstəqillik məsələsi ön plana çıxmış, 1988-ci ilin payızında tarixə "Milli Dirçəliş Günü" kimi düşmüş mühüm hadisələr baş vermişdir. Yüz minlərlə azərbaycanlıların, Azərbaycan türklərinin iştirakı ilə Bakıda Azadlıq meydanında (keçmiş Lenin meydanı) keçirlən mitinqlərdə əvvəlcə ermənilərin Dağlıq Qarabağla bağlı iddialarına etiraz edən xalq yavaş yavaş müstəqillik tələbləri ilə çıxış etmişlər. Bu proseslərin gedişində də Azərbaycan Xalq Cəbhəsi (AXC) və onun lideri Əbülfəz Elçibəy mühüm rol oynamışdır.[142]

1989-cu ilin avqustunda rəsmən təsis olunan AXC Milli Azadlıq hərəkatında öncüllüyü ələ alsa da, müstəqilliyin bərpasına (1991) qədər, hətta bərpasından sonra da bir müddət Azərbaycan hakimiyyətinin başında kommunist məfkurəli AKP MK-nin 1-ci katibləri Əbdürrəhman Vəzirov və Ayaz Mütəllibovun rejimləri mövcud olmuşlar. 1990-ci ilin 20 yanvarında Sovet qoşunlarının Bakıda dinc əhaliyə qarşı törətdiyi qırğınlardan sonra Əbdürrəhman Vəzirov Moskva tərəfindən hakimiyyətdən uzaqlaşdırılaraq onun yerinə digər kommunist Ayaz Mütəllibov gətirilmişdir. Ayaz Mütəllibov istər AKP MK-nin 1-ci katibi, istərsə də Azərbaycan Respublikasının prezidenti olduğu müddətdə Rusiyayanlı siyasət yürütmüşdür.

Ümumiyyətlə, bu dövrdə Azərbaycan Respublikası özünü 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Cümhuriyyətinin varisi elan etmiş, Ali Sovetə seçkilər keçirilmiş (1990, 30 sentyabr), əvvəlcə Naxçıvan MR Ali Məclisi, daha sonra Azərbaycan Ali Soveti "sovet sosialist" sözündən imtina edib üç boyalı ay-ulduzlu Azərbaycan bayrağını qəbul etmiş (uyğun olaraq 1990-cı il 17 noyabr və 1991-ci il 5 fevral), SSRİ-nin saxlanması üçün ümumittifaq referendumunda iştiraka cəhd göstərilmiş və demokratik qüvvələr, o cümlədən Naxçıvan MR Ali Məclisi bunu boykot et-

[142] Yaqublu Nəsiman. Azərbaycan Milli Azadlıq Hərəkatı Ensiklopediyası, Bakı, Qanun nəşr. 2018, s.11-15

mişdir (1991, 17 mart).[143] Əvvəlcə Ali Sovet və rəsmi Bakı "Suveren Dövlətlər İttifaqı" layihəsini bəyənsə də (1991, 26 iyun), çox keçmədən Ali Sovet dövlət müstəqilliyinin bərpası ilə bağlı "Azadlıq bəyannaməsi"ni qəbul etmiş (1991-ci il 30 avqust), eyni zamanda demokratik qüvvələrin boykotuna baxmayaraq prezident seçkiləri keçirilmiş və A.Mütəllibov prezident seçilmiş (1991-ci il 8 sentyabr), AKP 23-cü fövqəladə qurultayını çağırıb özünü buraxmış (1991-ci il 14 sentyabr), parlamentdəki Demokratik Blokun (Demblok) sayəsində 1991-ci lin 18 oktyabrında Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı imzalanmışdır.

Ancaq AXC-nin və xalqın ciddi təzyiqlərinin, Rusiyayanlı siyasət yürütməsinin, eyni zamanda Ermənistanla müharibədə baş verən uğursuzluqların, o cümlədən Xocalı faciəsinin nəticəsi olaraq A.Mütəllibov 1992-ci ilin martında dövlət başçısı vəzifəsindən uzaqlaşdırılmış və növbədənkənar prezident seçkilərinə qədər dövlət başçısı səlahiyyətlərini Ali Sovetin sədri Yaqub Məmmədov (1992-ci il 5 mart-18 may) icra etmişdir. Şuşanın süqutu ilə, 1992-ci il mayın 8-də erməni-rus hərbi birləşmələri tərəfindən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin işğalı başa çatmışdı. Bundan sonra fəallaşan Mütəllibovçular hakimiyyəti qeyri-qanuni yolla ələ keçirərək Ali Sovetin mayın 14-də keçirilən sessiyasında prezident seçkilərini ləğv etdiyini və A.Mütəllibovun vəzifəsinə qayıtdığını bəyan etmişdir. Mayın 15-də AXC qərargahında mitinq keçirilib A.Mütəllibovdan prezident iqamətgahını tərk etmək tələb olundu və o, gizlicə Rusiyaya-Moskvaya qaçmağa məcbur oldu.[144]Mayın 18-də Ali Sovetin növbəti sessiyasında Y.Məmmədov istefa verdikdən sonra İsa Qəmbər həm Ali Sovetin sədri seçilmiş, həm də prezident seçkilərinə qədər dövlət başçısı səlahiyyətlərini daşımışdır. Həmin dövrdə Ali Sovetin Milli Şurası "Milli Məclis" adlandırılaraq parlamentin səlahiyyətləri ona verilmişdir. 1992-ci ilin iyu-

---

[143] Azərbaycan tarixi. Yeddi cilddə, VII cild (1941-2002-ci illər). Bakı: Elm, 2008, s.279-282

[144]Yenə orada, s.305-306

nun 7-də keçirilən prezident seçkilərinin nəticəsi olaraq Əbülfəz Elçibəy ölkənin dövlət başçısı seçilmişdir.

Ə.Elçibəy hakimiyyətinin ilk aylarında Sovet-Rus qoşunlarının ölkədən çıxarılmasına, milli valyutanın təsisinə, təhsildə test üsulunun tətbiqinə, Türk dilinin (Azərbaycan) dövlət dili adlandırılmasına, cəbhədə müəyyən irəliləyişlərə nail olsa da,[145] bu proses uzun çəkməmişdir. Belə ki, 1993-cü ilin yazından etibarən cəbhədə ciddi itkilərin olması, xüsusilə də aprelin əvvəllərində Kəlbəcərin işğalından sonra polkovnik Surət Hüseynovun iyunda Gəncə də hərbi qiyam qaldırması nəticəsində ölkə və hakimiyyət daxilndə ciddi böhranlar yaşanmış, bundan çıxış yolunu Ə.Elçibəy həmin dövrdə Naxçıvan MR Ali Məclisinin sədri, Yeni Azərbaycan Partiyasının (YAP) sədri, tanınmış siyasətçi, dövlət xadimi Heydər Əliyevi Bakıya dəvət etməkdə görmüşdür.[146] 9 iyunda Bakıya gələn H.Əliyev qiyamçıların başçısı S.Hüseynovla danışıqlar aparsa da, onlar Ə.Elçibəyin istefası tələbindən geri çəkilməmişlər. 15 iyun 1993-cü ildə Azərbaycan Respublikası Milli Məclisi H.Əliyevi Ali Sovetin sədri seçmişdi. Hərbi qiyamçılar Bakıya doğru istiqamət aldıqları bir zamanda Ə.Elçibəy gözlənilmədən iyunun 17-dən 18-nə keçən gecə Naxçıvan MR Ordubad rayonunun Kələki kəndinə üz tutumuş, bundan sonra ölkənin idarə olunması, yəni prezident səlahiyyətlərinin həyata keçirilməsi Ali Sovetin sədri kimi Heydər Əliyevin üzərinə düşmüşdür (1993-cü il 24 iyun).[147]

Çox keçmədən də referendum nəticəsində (1993-cü il 29 avqust) Ə.Elçibəyin prezidentlik səlahiyyətinə son verilmiş, 1993-cü ilin oktyabrın 3-də keçirilən növbədənkənar prezident seçkiləri nəticəsində Heydər Əliyev ölkənin yeni dövlət başçısı seçilmişdir. H.Əliyev dövlət başçısı seçildikdən sonra ilk növbədə, ölkədaxilində sabitliyin yaranmasına çalışmış, ölkə daxilindəki bütün separatçı qüvvələri zərərsizləşdirmişdir. 1994-cü ilin mayın 8-də Ermənistanla Azərbaycan arasında Bişkek protokolu, yəni atəşkəs imzalan-

[145] Yenə orada, s.313-314
[146] Yenə orada, s.322
[147] Yenə orada, s.323

mış (Bu vaxta qədər Azərbaycan Respublikasının yalnız "Dağlıq Qarabağ" adlanan keçmiş muxtar vilayətinin ərazisi deyil, eyni zamanda 7 rayonu, yəni Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı da rus-erməni hərbi birləşmələri tərəfindən işğal olunmuşdur. Həmin torpaqların işğaldan dərhal azad olunması ilə bağlı BMT TŞ tərəfindən dörd qətnamə qəbul etmişdir), daha sonra həmin ilin payızında "Əsrin müqaviləsi" adlana Beynəlxalq neft kontraktı bağlanmış, 1995-ci ilin martında isə parlament seçikləri ilə yanaşı referendum da keçirilmiş və yeni Konstitusiya qəbul olunmuşdur. Qeyd edək ki, referendumun nəticələrindən biri kimi dövlət dilinin adı (Türk dili) yenidən dəyişdirilərək "Azərbaycan dili" kimi təsbit olunmuşdur. 1998-ci ildə ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilən H.Əliyev 2003-cü ilin dekabrın 12-də vəfat etmişdir.

2003-cü ilin payızında keçirilən prezident seçkilərinin nəticəsi olaraq İlham Əliyev Azərbaycan Respublikasının dövlət başçısı vəzifəsinə seçilmişdir.

**Sovet Azərbaycanında mədəni mühit.** Sovet Rusiyası 27 aprel işğalından dərhal sonra savadsızlıqla mübarizə adı altında özünə sadiq kadrlar yetişdirməklə yanaşı, əlifba məsələsinə də xüsusi diqqət yetirmişdir. Ərəb qrafikasından latın qrafikasına keçməklə bağlı Yeni Türk Əlifbası Daimi Komitəsi yaradıldı ki, onun sədri S.Ağamalıoğlu, üzvləri Ə.Pepinov, S.M.Əfəndiyev, F.Ağayev, V.Xuluflu idi. 1923-cü il oktyabrın 20-də Azərbaycan SSR MİK-in qəbul etdiyi "Yeni Azərbaycan əlifbasının dövlət əlifbası kimi tanınması haqqında" dekretə uyğun olaraq, bütün idarə və təşkilatlara kargüzarlığı həm əski, həm də yeni əlifbada aparmaq barədə göstəriş verildi. 1925-ci ilin martında IV Ümumazərbaycan Sovetlər qurultayı yeni əlifbanı həyata keçirmək üçün bir sıra direktivlər qəbul etdi.[148] 1926-cı il fevralın 26-dan martın 5-dək Bakıda keçirilən I Ümumittifaq Türkoloji qurultayında Türk xalqlarının latın əlifbasına keçməsi təqdir olundu.

---

[148] Azərbaycan tarixi. 7 clddə, VI cild (aprel 1920- iyun 1941).Bakı: Elm, 2008,s.230

Azərbaycanda sovet hakimiyyətini devirmək və onu Türkiyəyə birləşdirmək məqsədini qarşıya qoymuş "Gənc Azəri" gənclər təşkilatı milətin keçmişinə qarşı yönəldilmiş tədbir kimi yeni əlifbanın tətbiqini boykot edirdilər. 1930-cu ildə Nuxa-Zaqatala rayonunda yeni əlifba və kollektivləşməyə qarşı açıq çıxışlar baş verdi. 1928-ci ildə Türkiyə Cümhuriyyəti də latın qrafikasına keçdiyi üçün, Sovet rəhbərliyi Azərbaycanla Türkiyənin mənəvi-siyasi əlaqələrinin güclənməsi və digər səbəblərə görə, 1939-cu ildə Azərbaycanda latın əlifbasını ləğv edərək, kiril qrafikasını qəbul etdi. 1940-cı il yanvarın 1-dən kril əlifbası qüvvəyə mindi.[149]

1920-1930-cu illərdə Azərbaycanda həyata keçirilən "mədəni inqilab"ın məqsədi insanların şüurlarını kommunist ideologiyasına uyğun formalaşdırmaq, eyni zamanda milli-dini dəyərlərə qarşı mübarizə və ateizmin təbliği idi. Bunun üçün ilk günlərdən məktəblərdə dini etiqadların təlimi və ayinlərin icrasını qadağan edən bolşeviklər 1924-cü ildə din əleyhinə komissiya yaratmaqla yanaşı, bütün ölkə üzrə Allahsızlar Cəmiyyəti təşkil etdilər. Bununla da din əleyhinə hücum gücləndi, yüzlərcə məscid bağlandı, hətta Qurani-Kərimi zərərli bir kitab kimi qadağan edildi. 1929-cu ildə 120 məscid məktəb üçün istifadəyə verildiyi halda, 400 məscid tamamilə bağlandı.[150] "Allahsızlar cəmiyyəti"nin işini sürətləndirmək üçün, AK(b)P 1929-cu ilin aprelində keçirilən plenumu dinə qarşı mübarizə, çadranın və papağın atılması ilə bağlı məsələni müzakirə etdi. Bir qədər sonra "Allahsızlar cəmiyyəti" "Mübariz Allahsızlar İttiifaqı"na çevrildi.

Bu azmış kimi, 1930-cu illərdə Novruz bayramı da yasaq edildi və tar, kamança, dastanlar keçmişin qalığı kimi tənqid olundu. "1930-1931-ci illərdə başqa respublikalarda olduğu kimi, Azərbaycanda da mədəni yürüşün yeni formaları –"mədəni estefeta", "mədəni hücum" meydana çıxmağa başladı".[151]

---

[149] Yenə orada, s.346-347

[150] Yenə orada, s.356

[151] Azərbaycan tarixi. Üç cilddə. 3-cü cild. Bakı, "Elm" nəşriyyatı, 1973, s.435

1920-ci il 27 aprel işğalından sonra Azərbaycan elmi-fəlsəfi ədəbiyyatında ən çox nəşr olunan V.İ.Lenin, K.Marks və F.Engelsin əsərləri idi. 1933-1940-cı illərdə Azərbaycan Türk dilində Marks və Engelsin 23 əsəri, V.İ.Leninin isə 77 əsəri böyük tirajla nəşr olunmuşdu. Eyni zamanda S.Ağamalıoğlu, M.Quliyev, M.S.Ordubadi, V. Xuluflu və başqalarının islamçılıq, türkçülük ideyalarına qarşı çevrilmiş kitabçaları çap edilmişdi. “1924-cü ildə Bakıda təşkil olunan, öz ətrafında qabaqcıl fəhlələri, sonralar isə kənd fəallarını da toplayan Allahsızlar cəmiyyəti din əleyhinə aparılan təbliğat sahəsində böyük iş görürdü”.[152] Ateizmin təbliğatını gücləndirmək məqsədi ilə 1924-cü ildə M.F.Axundovun “Kəmalüddövlə məktubları” əsəri çap edildi. 1930-cu ildə isə fransız filosofu L.Dejanın “Həqiqət və ya gerçək sistem” adlı əsəri C.Nağıyevin tərcüməsində ilk dəfə rus dilində işıq üzü gördü.

Ateizm və kommunist ideologiyasının təbliğində kütləvi informasiya vasitələri mühüm rol oynayırdı. 1920-1930-cu illərdə bir çox qəzet və jurnallar nəşr edilirdi (“Kommunist”, “Bakinski raboçi”, “Yeni fikir”, “Molla Nəsirəddin”, “Maarif və Mədəniyyət”, “İnqilab və mədəniyyət”, “Şərq qadını”, “Yeni məktəb”, “Kommunist tərbiyəçisi”, “Gənc işçi”, “Qızıl qələm”, “Qızıl gənclik”, “Zəhmət” və b.). 1924-cü ildə Bakıda ilk radio qurğusu quraşdırılmış, 1926-cı ilin noyabrında isə radiostansiya fəaliyyət başlamışdı.

Azərbaycanda milli ədəbiyyatın inkişafında bütün mədəni irsin rolunu inkar edən “proleatar mədəniyyət” mənfi rol oynayırdı. Hətta Nizami Gəncəviyə, M.Ə.Sabirə heykəl qoyulması “fəhlə işinə” xəyanət kimi dəyərləndirilirdi. N.Nərimanovun 1923-cü ildə yazdığı “Ucqarlarda inqilabımızın tarixinə dair” məktubları dövrün ictimai-siyasi mənzərəsini öyrənmək baxımından çox vacibdir.

Bu dövrdə milli-demokratik ideyaları daha çox H.Cavid, Ə.Cavad, A.İldırım, M.Müşfiq və başqaları təbliğ edirdilər. H.Cavidin orijinal, ictimai-fəlsəfi “Peyğəmbər” (1923), “Topal Teymur” (1925), “Səyavuş” əsərlərində sətiraltı da olsa Türk dünyasını birliyə çağırır və Cümhuriyyətin nisgilini ifadə edirdi. Ə.Cavad “Göy-

[152]Yenə orada, s.454

göl", "Kür", "Səsli qız" kimi əsərlərində Sovet quruluşunun insanlara zülm, fəlakət, mütilik gətirdiyini yazırdı.

1923-cü ildə "Azərbaycanı öyrənən cəmiyyət" yaradıldı ki, onun üç bölməsi var idi: tarixi-etnoqrafiya, iqtisad və elmi-təbiiyyat. 1925-ci ildə türkoloji bölmə də yarandı. Bu cəmiyyət 1929-cu ildə Dövlət Elmi-Tədqiqat İnstitutuna, 1932-ci ildə SSRİ Elmlər Akademiyasının Cənubi Qafqaz filialının Azərbaycan şöbəsinə, nəhayət 1935-ci ildə isə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialına çevrildi.

II Dünya müharibəsi illərində Azərbaycan mədəniyyəti müharibənin tələblərinə uyğunlaşdırılırdı ki, bu işdə aparıcı rolu Marksizim-Leninizm İnstitutunun Azərbaycan filialı, SSRİ Elmlər Akademiyası Azərbaycan filialı, Partiya Tarix İnstitutu oynayırdı. Partiya Tarix İnstitutu "Heydər Hüseynovun "Faşizmin irq nəzəriyyəsi", "Faşist cəlladlarının "fəlsəfəsi"", "Faşizm elmin düşmənidir" və İsmayıl Hüseynovun "Nasional-sosialistlər kimdirlər?", "Faşizmin ideologiyası", "İrq nəzəriyyəsi və şərq xalqları" kitablarını və habelə başqa yerli müəlliflərin əsərlərini nəşr etmişdi ki, bu da hitlerçi quldur dəstəsinin yırtıcı ideologiyasını və siyasətini ifşa etmək, onların vəhşiliyini bütün iyrəncliyi ilə açıb göstərmək işinə kömək edirdi".[153]

1945-ci ilin martın 7-də Azərbaycan SSR Elmlər Akademiyası yaradıldı. Dörd şöbəyə bölünən akademiyanın birinci heyəti 15 həqiqi üzvdən (onlardan 12 nəfəri azərbaycanlı idi) ibarət olaraq təsdiq edildi.[154] 1944-cü ildə Cənubi Qafqaz Müsəlmanlarının Ruhani İdarəsi yaradıldı. Onun ilk sədri Şeyxülislam Ağa Əlizadə seçildi.

Müharibədən sonrakı dövrdə Azərbaycan xalqının tarixinin saxtalaşdırılması, xalqın soykökünün öyrənilməsində qəsdən dolaşıqlıq yaradılması, Quzey Azəraycanın Rusiya tərəfindən işğal edilməsi, Azərbaycan Cümhuriyyəti tarixinin və başqa tarixi prosesl ə-

---

[153] Bağırzadə Ə. Azərbaycan ziyalıları Böyük Vətən Müharibəsi illərində, Bakı, Azərnəşr, 1970, s.79

[154] Yenə orada, s.366

rin ciddi təhrif olunması ən yüksək mərhələyə çatdı. 1949-cu ildə "XIX əsr Azərbaycanda ictimai və fəlsəfi fikir tarixindən" fəlsəfi əsərində Şeyx Şamil hərəkatını Rusiyanın müstəmləkəçilik siyasətinə qarşı mübarizə kimi qiymətləndirməsi bəhanə edilərək fəlsəfəçi alim Heydər Hüseynova verilmiş "Stalin" mükafatı geri alındı. Azərbaycanın erkən orta əsrlər dövrünə aid qiymatli səlnamə olan "Kitabi-Dədə Qorqud" dastanı feodal münasibətlərini təbliğ etməkdə ittiham olundu.

II Dünya müharibəsindən sonrakı dövrdə də bütün SSRİ ərazisində, o cümlədən Azərbaycanda təhsil sahəsində qarşıya qoyulan birinci dərəcəli vəzifə əhalinin şüuruna kommunist ideologiyasını - sovet cəmiyyətinin ən ideal, ədalətli cəmiyyət olması haqqında ideyanı yeritməkdən ibarət idi.

Bu məqsədlə 1950-ci illərdə "Azərbaycan tarixi", "Azərbaycan fəlsəfəsi tarixi", "Azərbaycan ədəbiyyatı tarixi" və s. kimi vacib sahələrlə bağlı proyektlər hazırlandı və 1960-cı illərdən etibarən həyata keçirildi. Belə ki, 1960-1970-ci illərdə həmin sahələrə aid kitablar nəşr olundu, hətta 1970-ci illərdə əvvəlcə "yaşıl", daha sonra "qırmızı" Azərbaycan Sovet Enskilopediyaları nəşr olundu.

**Mühacirət dövrü.** 1920-ci il aprelin ortalarında Zaqafqaziya Respublikalarının əməkdaşlığı ilə bağlı təşkil olunan konfransında iştirak etmək üçün Tiflisə getmiş Azərbaycan Cümhuriyyətinin liderlərinin biri qrupu, o cümlədən H.Ağayev, F.Xoyski, Mustafa Vəkilov, Şəfi Rüstəmbəyli, Nağı Şeyxzamanlı 27 aprel işğalından sonra vətənə qayıda bilmədilər. Onlar Tiflisdə Azərbaycan Qurtuluş Komitəsini təşkil edərək parlamentin sədr müavini H.Ağayevin imzası ilə etiraz bəyannaməsi yaydılar.[155] Çox keçmədən bolşevik-daşnak terrorçuları F.Xoyski və H.Ağayevi Gürcüstanda-Tiflisdə, N.Yusifbəylini Kürdəmirdə qətlə yetirdilər. Gürcüstan zorla sovetləşəndən sonra azərbaycanlı mühacirlər Türkiyəyə üz tutaraq burada məskunlaşdılar.[156]

---

[155] Azərbaycan tarixi. Yeddi cilddə. VI cild (aprel 1920 - iyun 1941). Bakı: Elm, 2008, s.80-81

[156] Yenə orada, s.81

1919-cu ildə Paris sülh konfransına getmiş nümayəndə heyətinin üzvləri Ə.Topçubaşı, C.Hacıbəyli, A.Ataməlibəyov, Ə.Şeyxülislamov isə Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalını beynəlxalq aləmə çatdırmaq üçün 1920-ci il sentyabrın 8-də Millətlər Cəmiyyətinə müraciət də etdilər. "Millətlər Cəmiyyəti Ali Məclisinin Azərbaycan millətinə və onun haqlı tələblərinə mənəvi himayə göstərəcəyinə ümid edirik".[157]

Parisdə olan siyasi mühacirlər, xüsusilə Ə.Topçubaşı Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün ardıcıl olaraq çalışmışdır. O, 1920-ci ilin noyabrında Cenevrədə Millətlər Cəmiyyətində, 1922-ci ildə London, Genuya, 1923-cü ildə Lozanna kofnranslarında çıxış edərək, Azərbaycan milli hüquqlarının pozulması və dövlət müstəqilliyinə olan təcavüzü aşkarlamağa nail olmuşdu. Ə.Topçubaşı Parisdə və Avropanın başqa yerlərində yerləşən bütün mühacirləri bir Mərkəzdə birləşdirmək mövqeyini, Qafqaz Konfederasiyası ideyasını dəstəkləyirdi.[158]

M.Ə.Rəsulzadənin 1922-ci ildə Moskva əsarətindən qurtulub Türkiyəyə gəlməsindən sonra onun rəhbərliyi ilə əvvəlcə Müsavatın xarici Bürosu təşkil olundu. O, 1924-cü ildə İstanbulda fəaliyyət göstərən Azərbaycan Milli Mərkəzini yaratdı. Azərbaycan mühacirləri Avropada fəaliyyət göstərmək məqsədilə 1924-cü ildə Azərbaycan İstiqlal Komitəsini də təsis etdilər. Mühacirlər müstəqillik ideyalarını yaymaq üçün M.Ə.Rəsulzadənin başçılığı ilə Türkiyədə müxtəlif vaxtlarda "Yeni Qafqasiya" (1923-1925), "Azəri-Türk" (1928), "Odlu Yurd" (1929-1931), məcmuələrini nəşr etdirmişdilər. 1923-1925-ci illərdə İstanbulda Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti", "Əsrimizin Səyavuşu", "İstiqlal məfkurəsi və gənclik" əsərləri çap olundu. Onun "Azərbaycan Cümhuriyyəti" kitabı Sovet Rusiyasında geniş rezonansa səbəb oldu. Stalin 1923-cü ilin sentyabrında Azərbaycandakı kommunistlərə "R.Zadənin mürtəce kitabçası barədə" adlı məktub yazaraq Rəsulzadəni ifşa etməyə səslədi. "Stalin M.Ə.Rəsulzadəni "reneqatçılıq"da (o, əvvəl bolşe-

---

157 Yenə orada, s.82
158 Yenə orada, s.83-84

vik olub), "Türkiyə xalqının mənafeyinə xəyanətkarlıqda" (o və onun partiyası Türkiyə xalqınaköməyə gedən Qızıl ordunun Azərbaycana gəlməsinə müqavimət göstərirdilər...), "Azərbaycan xalqının mənafeyinə..." və başqa sahələrdə - cəmi altı tezisə uyğun "Rəsulzadəyə hücuma keçməyə, onu ittiham etməyə" çağırırdı".[159]

1931-ci ilin sonlarında Sovet Rusiyasının təzyiqi nəticəsində mühacirlər Türkiyəni tərk etdilər. Almaniyaya gələn M.Ə.Rəsulzadə, M.B.Məhəmmədzadə Berlində əvvəlcə "İstiqlal" (1932-1934) qəzetini, 1934-cü ildən etibarən isə "Qurtuluş" (1934-1938) jurnalını nəşr etdirdilər.

1930-cu illərdə Polşada mövcud olan "Prometey" təşkilatı Sovetlər Birliyindəki rus olmayan millətləri birləşdirirdi. "Prometey" təşkilatında ilk vaxtlar aşağıdakı xalqları təmsil edən partiyalar toplaşmışdı: gürcü sosialistlər, azarbaycanlıların "Müsavat" Partiyası, Krım tatarlarının "Milli firqəsi", türküstanlıların "Milli Türküstan Birliyi" və müxtəlif Quzey Qafqaz və tatar qrupları. "Prometey" təşkilatının Parisdə "Prometey" jurnalı çap olunurdu.

1938-ci ildə Varşavada Müsavat Partiyasını 3-cü qurultayı keçirildi və yeni proqramı qəbul edildi.

İkinci Dünya müharibəsi başlanandan az sonra, yəni 1941-ci il dekabrın 22-də Hitler türküstanlı, gürcü və qafqaziyalı müsəlman legionlarının yaradılması əmrini vermişdi. Qafqasiyalı müsəlman legionu sonradan azərbaycanlı və quzey qafqasiyalı legionu olmaq üzrə iki yerə ayrılmış, 1942-ci il baharın sonlarında Volqa tatarlarının da regionu təşkil edilmişdi. Azərbaycan legionunda "Bozqurd", "Aslan" kimi batalyonlar olmaqla yanaşı, "Azərbaycan" və "Hücum" adlı qəzetləri də var idi. Həmin dövrdə Rəsulzadə Hitlerin "Şərq nazirliyi" tərəfindən Almaniyaya dəvət olunub.[160]

Stalinqrad cəbhəsində Sovet ordusuna ağır məğlubiyyətdən sonra Almaniya hökuməti bəzi güzəştləri nəticəsində 1943-cü ilin yazında Berlində Milli Azərbaycan Komitəsi və azad türk diviziyası yaradıldı. Bu komitənin başlıca vəzifəsi milli Azərbaycan dava-

---

[159] Yenə orada, s.84

[160] Patrik fon Z.M. Camali Haç ile Kızıl yıldız arasında. Ankara: 1984, s.109

sını alman hökumətinə qəbul etdirmək idi. Hitlerin planı belə idi ki, müharibədən sonra Bakı birbaşa Berlinə tabe olunacaq, Azərbaycan xanlıqlar dövründə olduğu kimi əyalətlərə bölünəcək, başda isə almanlar oturacaq. M.Ə.Rəsulzadə hitlerçilərin bu fikri ilə bimənalı olaraq razılaşmır, ona görə də ciddi mübarizə aparıb Azərbaycana müstəqil bir dövlət hüququ qazandırmaq istəyirdi.[161] Rəsulzadənin antifaşist çıxışları, onun Almaniyanı tərk etməyə məcbur etdi.

Ancaq azərbaycanlı mühacirlərdən bir qismi yenə də Almaniyaya inanır və faşistlərlə əməkdaşlıq edirdilər. Bu baxımdan 1943-cü il noyabrın 6-da Berlində keçirilən Milli qurultayında Almaniyanın qələbəsi nəticəsində Azərbaycanın da istiqlal qazanacağına ümid ifadə olunurdu. 1943-cü ilin payızında Berlində mühacir Azərbaycan hökuməti və parlamenti yaradıldı ki, onun başında Ə.Fətəlibəyli-Düdənginski dururdu. Almaniya bu mühacir hökuməti tanıdı və o, 1944-cü ilin qışınadək fəaliyyət göstərdi.

Azərbaycan Milli legionu Fransanın cənubunda almanlarla birlikdə müttəfiqlərin qoşunlarına qarşı vuruşlarda məğlub olaraq İtaliyanın şimalına çəkildi. Müharibə başa çatdıqdan sonra Milli legionun hisələri bitərəf ölkələrin ərazilərinə köçürülərək ləğv edildi. Onların çox hissəsi Türkiyədə məskunlaşdı, vətənə qayıdanlar isə uzun müddət təqiblərə məruz qaldı.

1947-ci ilin sonlarında Türkiyəyə qayıtmasına icazə verilən M.Ə.Rəsulzadə 1949-cu il fevralın 1-dən etibarən “Azərbaycan Kültür Dərnəyi”ni qurdu. O, 1952-ci ildə Münhendə Ümumqafqaz Konfransının keçirilməsinə nail oldu. Konfransda çıxış edən Rəsulzadə təklif edirdi ki, “Qafqaz Mərkəzi” yaradılsın və Sovet imperiyasına qarşı mübarizə Birləşmiş Konfederativ Qafqasiya formuləsində davam etdirilsin. 1953-cü ildə isə o, hələ 1924-cü ildə təməli qoyulmuş Azərbaycan Milli Mərkəzini bərpa etdi. 1955-ci ilin 6 martında M.Ə.Rəsulzadə Ankarda vəfat etdikdən sonra “Müsavat”ın başqanı M.B.Məhəmmədzadə oldu.

1952-ci ilin 8 fevralında Ankarada Azərbaycan Milliyyətçilər Dərnəyi yaradılıb. Əsas məqsədləri mühacirlərə maddi və mənəvi

[161] Yaqublu N. Məmməd Əmin Rəsulzadə. Bakı: Gənclik, 1991, s.224

yardım göstərmək, azərbaycanlı tələbələrə imkan daxilində maddi dəstək vermək, Türk milliyyətçiliyi əleyhinə fəaliyyətdə olan cərəyanlara mətbu yolla cavab vermək olmuşdur.

Dərnəyin on bir qurucu üzvü (Əhməd Ulusoy, Çingiz Göygöl, Əli Daşkənd, Hidayət Turanlı, İsa Köçər, İskəndər Xoyxan, Qədir Dilcan, Məmməd Altunbay, Nağı Hacıbayramlı və b.) arasında Həsən bəy Zərdabinin oğlu Səfvət bəy Zərdabi və Nəsib bəy Yusifbəylinin oğlu oğlu Niyazi Kürdəmir də olub. Dərnəyin Nizamnaməsinin 2-ci maddəsində onun yaradılmasının məqsədləri açıqlanaraq bunlar yazılıb: 1) Böyük Türk aləminin bir parçasını təşkil edən Azərbaycanın tarixini, kültürünü, iqtisadiyyatını incələmək və yaymaq; 2) Vətən, hürriyyət və milli müqəddəsat əsaslarına dayanan Azəri Türk milliyyətçiliyini işləmək və Türk əxlaq, adət və gələnəklərinə uyğun yaşamağı təlqin etmək; 3) Azərbaycanlı mühacirlərə mənəvi yardım etmək və onların Türk camiəsinin əxlaq və fəzilət sahibi olan milliyyətçi fərdi olaraq yetişməsinə və yaşamasına yardım etmək; 4) Möhtac azərbaycanlılara və maddi durumları səbəbi ilə təhsillərinə davam edə bilməyən azərbaycanlı tələbələrə dərnəyin imkanları daxilində yardım etmək və yatılı məktəblərə yerləşdirilmələrinə çalışmaq; 5) Azərbaycan Türk milliyyətçiliyi əleyhindəki cərəyanlarla fikir və mətbuat yoluyla mücadilə etmək; 6) Fəaliyyəti və məqsədi daxilində qəzet, məcmuə, kitab, risalə çıxarmaq və toplantılar tərtib etmək.[162]

1960-1990-cı illərdə mühacirətdə olan Azərbaycan mütəfəkkirlərindən Əhməd Cəfəroğlu, Hüseyn Baykara, Nağı Şeyxzamanlı, Əbdülvahab Yurdsevər, Kərim Odər, Azər Aran, Məmməd Sadıq Aran, Məhəmməd Kəngərli, Əhməd Qaraca, Çingiz Göygöl, Süleyman Təkinər, Kərim Yaycılı, Həmid Ataman, Feyzi Aküzüm, Cəmil Ünal və başqalarının ədəbi-mədəni və fəlsəfi irsinin tədqiqinə böyük ehtiyac vardır. Çünki Azərbaycanın mühacir aydınları bütün həyat və yaradıcılıqları boyu əsas mübarizə kimi Azərbaycan mədəniyyətini, Azərbaycan tarixini, Azərbaycan fəlsəfəsini, xüsusilə

[162]Əhməd Dilqəm. Mühacirələrin dönüşü (yeni fotoloar və sənədlər). I cild. Bakı, TEAS Press nəşriyyatı, 2017, s.87-88

Azərbaycan Milli İdeyasını Türk aləmində və dünyada təbliğ etmişlər. Ümumiyyətlə, mühacir Azərbaycan mütəfəkkirlərinin dünyagörüşləri geniş və çoxaspektli olmuşdur. Buna səbəb də, onların bütün sahələrdə (mədəni, fəlsəfi, siyasi və s.) Azərbaycan Milli İdeyasını yaşatmaq və onu son məqsədə – Milli İstiqlala çatdırmaq istəyi olmuşdur. Bu mənada, mühacir Azərbaycan Türk mütəfəkkirlərinin dünyagörüşündəki çoxaspektlilik başa düşüləndir.

Qeyd edək ki, mühacir aydınlarımızın yaradıcılıqlarında yer verdikləri mədəni, fəlsəfi, dini, tarixi, iqtisadi məsələlər Azərbaycan Milli İdeyası ilə uzlaşdırılmışdır. Yəni onlar müxtəlif sahələrin tədqiqatçıları olsalar da, bütövlükdə həmin yaradıcılıq sahələrini Azərbaycanın Milli Azadlıq mübarizəsi ilə əlaqləndirməyə çalışmışlar. Xüsusilə, Azərbaycanın Milli İstiqlalının zorla əlindən alınıb, onun yerini Sovet Rusiyası müstəmləkəçiliyi ilə əvəz olunmasını heç bir şəkildə qəbul edə bilməyən mühacir aydınlarımız müxtəlif aspektlərdən bu tarixi hadisələrin mahiyyətini və mənasını dünya ictimaiyyətinin diqqətinə çatdırmışlar. Bu zaman mühacir aydınlarımız bir tərəfdən Azərbaycan türklərinin qədim mədəniyyətə, tarixə, ədəbiyyata, fələfəyə malik bir millət kimi azad yaşamağa haqqı olduğunu isbat etməyə çalışmış, digər tərəfdən isə SSRİ kommunizminin saxta mahiyyətini ifşa etməyə çalışmışlar.

Xüsusilə, bu dönəmdə əsas diqqət yetirilən məsələlərdən biri Azərbaycan xalqının mədəni, tarixi, ədəbi, fəlsəfi, dini sahələrdə əldə etdiyi uğurlar və həmin uğurların nümayəndələrinin həyat və yaradıcılıqları geniş şəkildə tədqiq olunmuşdur. Mühacir aydınlarımızın bir çox əsərlərində ifadə etməyə çalışdıqları əsas məsələ də, məhz Azərbaycan xalqının dini-fəlsəfi və ədəbi-mədəni dünyagörüşünün Türk mədəniyyəti, o cümlədən İslami Şərqi mədəniyyətində mühüm rol oynaması idi. Bu baxımdan ziyalılarımızın qədim türklərin mifoloji və dini dünyagörüşü, eləcə də Türk xalqlarını ortaq mədəniyyəti sahəsində apardığı araşdırmalar daha çox diqqəti cəlb edir. Milli ədəbiyyatımızın və fəlsəfəmizin nümayəndələrinin tanıdılmasında M.Ə.Rəsulzadə, Ə.Cəfəroğlu, Ə.Yurdsevər, Kərim Odər, Hilal Münşi və başqaları mühüm rol oynamışlar.

Fikrimizcə, bu dövrdə Azərbaycan Milli İdeyasını siyasi-ideoloji və fəlsəfi yöndən araşdıranlar isə M.Ə.Rəsulzadə, Hüseyn Baykara, Əhməd Cəfəroğlu, Almas İldırım, Nağı Şeyxzamanlı, Çingiz Göygöl, Süleyman Təkinər, Ceyhun Hacıbəyli və başqaları olmuşlar. Şübhəsiz, onların arasında M.Ə.Rəsulzadə, H.Baykara, M.B.Məmmədzadə, Ə.Cəfəroğlu və C.Hacıbəyli Azərbaycan Milli İstiqlal tarixinə, Milli İdeya məfkurəsinin yaranmasına və formalaşmasına həsr etdikləri əsərləri ilə diqqəti daha çox cəlb etmişlər. Bu mühacirlərimiz, Azərbaycan Milli İstiqlalını tarixi nümunələrlə yanaşı, eyni zamanda Milli İdeologiyanın meydana çıxması və formalaşması açısından da ifadə etməyə çalışmışlar. Məhəmməd Kəngərli, Çingiz Göygöl, Süleyman Təkinər və başqa mühacirlərimiz isə yaradıcılqlarında əsas diqqəti SSRİ sosializminin və kommunizminin saxta mahiyyətinə yönəltmişlər.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra (1991) mühacir aydınlarımızın Vətənə dönüşü problemi öz həllini tapmaqla yanaşı, onların bir qismi milli-demokratik dövlət quruculuğu uğrunda yeni mərhələdə də iştirak etməyə başladılar.

# II FƏSİL

# QUZEY AZƏRBAYCAN TÜRK MÜTƏFƏKKİRLƏRİNİN FƏLSƏFİ VƏ İCTİMAİ-SİYASİ FİKRİNİN İNKİŞAF YOLLARI

## 2.1. Milli-demokratik və siyasi-fəlsəfi ideya cərəyanları: türkçülük/azərbaycançılıq, müasirlik və islamçılıq (ümumi baxış və əsas nümayəndələri)

XX əsrin sonu, XX əsrin əvvəllərində başlanan yeniləşmə hərəkatı nəticəsində, konkret olaraq müsəlmanların birləşməyəcəyi təqdirdə məhv olacağı məsələsinin gündəmə gəlməsi ilə bir çox müsəlman ölkələrində, o cümlədən Quzey Azərbaycanda da türkçülük (çox keçmədən ümumtürkçülüklə yanaşı Azərbaycan türkçülüyü də ortaya çıxmışdı), islamçılıq və müasirlik ideyaları geniş yayılmışdı.

XX əsrin əvvəllərində milli fəlsəfəmizin əsas ideyaları Hüseyn Baykaranın təbrincə desək, əsasən "avropalaşmaq, türkləşmək və islamlaşmaq"la bağlı olmuşdur.[163] Bizcə də, XX əsrdə milli-demokratik və siyasi-fəlsəfi ideya cərəyanlarından türkçülük, müasirlik və islamçılığa münasibətdə Quzey Azərbaycan Türk mütəfəkkirləri üç istiqamətə: 1) türkçülük öncüllüyündə türkçülük, müasirlik və islamçılıq, 2) islamçılıq öncüllüyündə İslamçılıq, türkçülük və müasirlik, 3) müasirlik öncüllüyündə müasirlik, türkçülük və islamçılıq, meyilli olmuşlar. Doğrudur, bu bölgü nisbidir, çünki müəyyən bir mərhələdə islamçılığı, ya da türkçülüyü öndə görən bəzi mütəfəkkirlərimiz uyğun olaraq daha sonra türkçülüyə, yaxud da islamçılığa daha çox meyil ediblər. Eyni sözləri, müasirlik haqqında da demək olar.

Türk fəlsəfi fikir tariximizdə ulusal ideyalardan biri və birincisi əsasən **turkçülük** (burada türkçülük Türk dünyagörüşü, Türk mədəniyyəti, Türk fəlsəfəsi anlamındadır) olmuşdur. Bu baxımdan tədqiq

---

[165]Baykara Hüseyn.Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992,s.119

etdiyimiz dövrdə Quzey Azərbaycan xalqının əsas milli ideyasının türkçülük olması nə qədər təbiidirsə, bununla yanaşı ona münasibətdə Sovetlər Birliyi işğalından bir müddət sonra, özəlliklə 1930-cu illərin sonlarından etibarən, eləcə də hazırda müstəqil Azərbaycan Respublikasında birmənalı baxışın olmamasının da səbəbləri vardır. Bu baxımdan biz, araşdırdığımız dövrdə Azərbaycan Cümhuriyyətinin yaranmasında və inkişafında türkçülüyün oynadığı əvəzsiz rolu yalnız indiki zamanın şərtlərinə görə deyil, Türk dünyagörüşü çərçivəsində dəyərləndirmişik. XX əsrin əvvəllərində Çarlıq Rusiyasından azad olmaq istəyən bütün xalqlar kimi Azərbaycan türklərinin də məhz milli özünütəyindən – türkçülükdən çıxış etməkdən başqa bir yolu yox idi. Çünki türkçülük Çarlıq Rusiyasının müstəmləkəsi halına gətirilmiş Qafqaz, ya da Quzey Azərbaycan türklərinin yeni bir dövlət qurmağının əsas xətti idi. Ən azı ona görə ki, Qafqaz türklərinin, o cümlədən Quzey Azərbaycan türklərinin böyük əksəriyyəti islamlığa bağlı olmaq, cüzi bir qismi marksizmə rəğbət göstərməklə yanaşı, ilk növbədə özlərini Türk kimi dərk edib Türk mədəniyyətinə, Türk dünyagörüşünə aid edirdilər. Eyni zamanda, yalnız Qafqaz türkləri deyil, çar Rusiyasının müsəlman əhalisinin böyük əksəriyyəti də Türk-Tatar xalqları adlanan böyük Türk milləti, yaxud da Türk-Turan irqi sayılırdı.

Xüsusilə də, islamlığın nisbətən özünü doğrultmadığı, "İslam birliyi" ideyasının perspektivsizliyi dövründə Türk xalqlarında türkçülüyün aparıcı yer tutması başa düşülən idi. Doğrudur, ilk dövrlərdə türkçülük ideyası da ümumi xarakter daşımış, bəzi Türk ideoloqlar bunun əsasında vahid Türk dövlətinin-Turan imperiyasını dirçəltmək haqqında mülahizələr belə yürütmüş, hətta Ənvər paşa kimi hərbi sərkərdələr silah gücünə bunu reallaşdırmağa çalışmışlar. Bütün bunlara baxmayaraq, fikrimizcə, türkçülük islamlıqdan fərqli olaraq Türk xalqlarında milli ideyaların formalaşmasında əsas rol oynamışdır.[164]

Yeni dövrdə Türkçülüyün dirçəlişinə, qısaca nəzər yetirsək görərik ki, iki mərhələdən: 1) mədəni türkçülük (dil, ədəbiyyat, tarix və

---

[164] Ələkbərov F.Q. Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış (II hissə). Bakı, "Elm və təhsil", 2014, s.50-51

s. sahələrdə türkçülük; Türk dünyagörüşü); 2) siyasi-ideoloji türkçülük (Türk xalqlarının birliyi, milli-məhəlli türkçülük və s.), keçmişdir.

Türkçülüyün ilk mərhələsi olan mədəni türkçülüyə, yəni Türk dünyagörüşünə qayıdışın başlıca səbəb XVIII əsrdən başlayaraq müsəlman dövlətlərinin, o cümlədən Osmanlı və Səfəvilər kimi Türk imperiyalarının Avropa dövlətləri ilə müqayisədə elm, təhsil, texnoloji və başqa sahələrdə geri qalması, get-gedə tənəzzülə uğraması idi. XIX əsrdən etibarən Türk aydınları bundan çıxış yolu axtarmağa başlamış və belə nəticəyə gəlmişlər ki, tənəzzüldən qurtulmaq üçün yalnız Avropa mədəniyyətini, texnologiyasını təqlid yetərli ola bilməz. Bu baxımdan, onlar bir millət üçün vacib olan soykök, dil, mədəniyyət, adət-ənənələr və tarix sahələrini tədqiq etməyə başlamış, bununla da mədəni türkçülüyə (Türk fəlsəfəsinə, Türk dünyagörüşünə) qayıdışın əsasını qoymuşlar. Əslində Türklük şüuruna qayıdışın tərəfdarı olan ilk aydınlar sistemli şəkildə deyil, daha çox pərakəndə halda Türk dili, Türk ədəbiyyatı, Türk mədəniyyəti, Türk törəsi sahəsində müəyyən işlər görüblər. Ancaq bütün Türk coğrafiyasında bir-birindən xəbərsiz, sistemsiz şəkildə ortaya çıxan türkçülük şüuruna dönüş çox keçmədən ümum Türk mədəniyyətinin, Türk dünyagörüşünün dirilişini hədəfləmişdir. Bu baxımdan ümumiyyətlə, türklüyü və türkçülüyü də bir-birindən fərqləndirmək lazımdır. Türklük daha çox sadəcə şəxsi kimliyini, danışdığı dili, tapındığı adət-ənənələri türk olaraq qəbul edib bununla kifayətlənməkdirsə (Türk kimliyi), türkçülük millətdə milli ruh, mili düşüncə, milli özünüdərk uğrunda mübarizə aparmaq, bir sözlə onu yenidən bir təlim, sistemli məfkurə (türkçülük fəlsəfəsi, Türk dünyagörüşü) halına gətirməkdir. Bunu, vaxtilə Azərbaycan Cümhuriyyətinin qurucusu, milli ideoloq M.Ə.Rəsulzadə belə ifadə etmişdi: "Türklüklə türkçülük arasında böyük fərq vardır. O fərq nədir? …Millətdə milli ruh, milli düşüncə, milli özünütanıma, milli şəxsiyyət lazımdır. Biz millətə bunu verməyə çalışırız".[165] Rəsulzadənin ifadə etdiyi türkçülük birmənalı olaraq Türk fəlsəfəsi, Türk dünyagörüşü idi.

---

[165] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). I cild. Bakı, "Azərbaycan" nəşriyyatı, 1998, s.260

Mədəni türkçülük XIX əsrin ikinci yarısından başlayaraq, eyni vaxtda Osmanlı, Azərbaycan, Krım, Türküstan, Uyğurustan, Tatarıstan və başqa Türk ellərində yaşayan aydınlarımızın – İ.Şinasi, Əhməd Vefik Paşa, M.Cəlalləddin Paşa, Süleyman Paşa, Şeyx Süleyman Əfəndi, Ə.Cevdət, Ə.Mithəd, A.A.Bakıxanov, M.F.Axundzadə, N.Kamal, H.Zərdabi, Ş.Mərcani, İ.Qaspıralı və başqalarının mədəni-fəlsəfi irsində özünü büruzə vermişdi. İlk dövrlərdə türkçülüyün önə çıxmasında əsas problem dini-ideoloji amillər olmuşdur. Bu mənada ilk siyasi türkçülərdən Yusuf Akçura doğru yazırdı ki, XIX əsrin ikinci yarısında türkçülükləri aydın, şüurlu olan Osmanlı Türk ziyalıları (Ə.Vefik, M.Cəlaləddin, Süleyman Paşa və b.) belə siyasətdə türkçülüyə deyil, "İslam birliyi" və "Osmanlı milliyyəti"nə önəm vermişlər. Ən yaxşı halda bu dövrdə türkçülük həmin anlayışlarla qarışmış şəkildə olmuşdur.[166] XX əsrin əvvəllərinə qədər Qafqazda, o cümlədən Quzey Azərbaycanda da türkçülük daha çox mədəni xarakter daşımış və onun əsas təmsilçiləri A.A.Bakıxanov, S.Ə.Şirvani, H.Zərdabi, M.T.Sidqi, N.Vəzirov və başqaları olmuşlar.

XX əsrin əvvəllərində, xüsusilə 1900-1910-cu illərdə bütün Türk dünyasında, o cümlədən Quzey Azərbaycanda türkçülük ikinci mərhələyə – siyasi-ideoloji türkçülüyə qədəm qoymuşdu. Artıq XIX əsrin ikinci yarısından fərqli olaraq, XX əsrin əvvəllərində türkçülüyün davamçıları bu ideya uğrunda Türkiyədə, Azərbaycanda, Krımda, Tatarıstanda, Türküstanda və başqa Türk ellərində, eləcə də Türk coğrafiyasından kənardakı ölkələrdə (Misir, Fransa və b.) mübarizə aparır, onu bütün türklərin vahid ideya xətti kimi qəbul edirdilər. Məsələn, Hilmi Tunalı, Ə.Hüseynzadə, Y.Akçura, H.S.Ayvazov, Ə.Ağaoğlu, Ziya Gökalp və başqaları türkçülüyü İstanbulda, Bakıda, Kazanda, Baxçasarayda, Buxarada, Səmərqənddə, Təbrizdə, Tehranda, Qahirədə, Budapeştdə, Vyanada, Parisdə və başqa şəhərlərdə eyni istək, eyni prinspiallıqla müdafiə etmişlər. Bu mənada siyasi-ideoloji türkçülük ən azı bütün Türk xalqlarının mənəvi-ideoloji birliyini hədəfləmişdi. Ancaq burada onu da qeyd

[166] Akçura Yusif. Türkçülüyün tarixi. Bakı, "Qanun" nəşriyyatı, 2010, s.80

etmək istərdik ki, siyasi-ideoloji türkçülük iki istiqamətdə: 1) vahid Turan-Türk dövlətini arzulayan utopik özəkçilərə; 2) ayrı-ayrı müstəqil Türk dövlətlərinin yaranmasından sonra Türk Federasiyasını müdafiə edən milli-məhəlli federalist türkçülər şəklində meydana çıxmışdır.

Vahid Türk dövləti şüurundan milli-məhəlli türkçülüyə keçid isə o zaman baş verdi ki, Osmanlı və Qacarlar dövlətləri ya tamamilə süqut etdi, ya da hakimiyyətə Türk şüuruna sahib olmayanlar gətirildi. Hər iki Türk dövlətinin bu aqibəti yaşamasından sonra türkçülükdə yeni bir dönəmin başlanğıcı oldu. Bir çox türkçülər utopik-özəkçilik türkçülükdən (Türk birliyi-Turan birliyi) uzaqlaşaraq, milli-məhəlli türkçülüyə meyil göstərdilər. Bununla da Türk dünyasında milli-məhəlli yeni Türk dövlətləri (Türkiyə, Azərbaycan, Tatarıstan, Qazaxıstan, Özbəkistan və b.) meydana çıxmış oldu.

Bugünkü Azərbaycan Respublikasının sələfi olan Azərbaycan Cümhuriyyətinin yaranmasında da türkçülüyün milli-məhəlli forması olan Azərbaycan türkçülüyü mühüm rol oynamışdır ki, bunu da yalnız Azərbaycan və Türkiyənin alimləri deyil, rus, polyak, gürcü, amerikan və başqa xalqların mütəfəkkirləri dəfələrlə ifadə etmişlər. Hər daim mövcud olmuş türkçülük yeni dövrdə siyasi-ideoloji bir ideya kimi, Quzey Azərbaycan xalqının həyatında mühüm rol oynamış, yeni bir Türk dövlətinin yaranmasında həlledici faktor olmuşdur. Böyük mütəfəkkir, dövlət xadimi M.Ə.Rəsulzadənin təbrincə desək, Azərbaycan türkçülüyün isə mütərəqqi türkçülük olub, türk və qeyri-türk bütün etnoslarla bərabər yaşamağın mümkünlüyünü ifadə etmişdir.[167]

27 aprel faciəsindən sonra türklük bir müddət Quzey Azərbaycanda Sovet proletariatizminə, marksizm-leninizm ideyalarına uyğunlaşdırılmağa çalışılmış, ancaq həm bunun mümkünsüzlüyü, həm də repressiya illərində (1937-1938) Stalin prinsiplərinin qətiləşməsi ilə türklüyə, o cümlədən Azərbaycan türklüyünə rəsmən qadağan qoyulmuşdur. Türklüyün yenidən dirçəlişi SSRİ-nin dağılması ərəfəsi ilə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra (1991) önə çıxmış və bu proses davam etməkdədir. Buna qədər isə

---

[167] Rəsulzadə M.Ə. Əsərləri. Beş cilddə, III cild. Bakı: "Elm", 2012, s.172

Azərbaycan türklüyü daha çox mühacirətdə yaşamağa məcbur olan aydınlarımız tərəfindən yaşadılmış, təbliğ olunmuşdur.

Türkçülük öncüllüyündə türkçülük, müasirlik və islamçılıq "üçlü" düsturunun Quzey Azərbaycandan olan əsas nümayəndələri Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, N.Yusifbəyli, F.b.Köçərli,Ümgülsüm, M.B.Məhəmmədzadə, Əmin Abid, M.Ə.Rəsuloğlu, Abdulla Sur, Ü.Hacıbəyli, A.Kazımzadə, Almas İldırım, N.Şeyxzamanlı, Ə.Müznib, Seyid Hüseyn, Ə.Fətəlibəyli-Düdənginski, Ə.Yurdsevər, M.Kəngərli, T.Atəşli, A.Baycan, S.R.Rəfioğlu və başqaları olmuşlar (Kitabda Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, F.b.Köçərli, M.B.Məhəmmədzadə, A.İldırım, Ü.Hacıbəyli, N.Yusifbəyli, Ümgülsüm, A.Sur, Ə.Müznib, S.Hüseyn haqqında ayrıca bəhs olunmuşdur).

Novxanı kəndində anadan olan **Məhəmməd Əli Rəsulzadə-Rəsuloğlu (1882-1982)** gənc yaşlarında sosial-demokratizmə meyil göstəmiş, əmisi oğlu M.Ə.Rəsulzadə ilə birlikdə 1903-cü ildə "Türk gənc inqilabçılar dərnəyi"ni yaratmışdır. Qafqazda ilk müsəlman sosial-demokrat "Hümmət" təşkilatını quranlardan biri olan Rəsuloğlu həmin dövrdə Bakıda fəaliyyət göstərən İ.V.Stalinlə Rəsulzadənin ilk görüşünü də təşkil etmişdir.[168] Həmin görüşdə onlarla birgə əməkdaşlıq etmək istəyən Stalin, Vışınski kimi bolşeviklərlə sonuna qədər yollarının bir olmayacağını yaxşı anlayan əmioğulları bu məsələdə milli mövqe tutublar. Bunu, Rəsuloğlu da yazdığı xatirələrində təsdiqləmişdir: "O tarixlərdə çar rejimini devirmək üçün Qafqazda çalışan inqilabçı sosialistlər, bolşeviklər və menşeviklərlə təmas halında idik. Bu partiyaların üçü də bizi öz tərəflərinə çəkməyə çalışırdı, amma biz əsla yanaşmırdıq. Günlərin bir günü Stalin məni və Məhəmməd Əmin bəyi dəvət etdi və onlarla ittifaq etməmizi istədi. Biz ona bolşevik nəzəriyyə və ruhunun məmləkətimizin ruh və yaşayış tərzinə uyğunlaşmayacağını söyləyərək təklifini rədd etdik".[169]

---

[168] Rəsulzadə M.Ə. Stalinlə ixtilal xatirələri. Bakı, Elm və təhsil, 2011, s.17-18
[169] Resuloğlu M.E. Müsavat Partisinin kuruluşu//Müsavat, Münhen, 1962, №4, s.9

"Təkamül", "Yoldaş" kimi qəzetlərə yazdığı məqalələrində Rəsuloğlunun millət, milliyyət, sosial-demokratiya aid baxışları əmisi oğlu Rəsulzadədən çox da fərqlənmirdi. "Hümmət"in fəaliyyəti Çarlıq tərəfindən qadağan olduqdan sonra (1907) əksər "hümmətçilər", o cümlədən M.Ə.Rəsulzadə Qacarlar dövlətinə gedərək buradakı məşrutiyyət hərəkatına qoşulduqları halda, Bakıda qalan Rəsuloğlunun ən böyük xidmətlərindən biri də 1911-ci ilin oktyabrında Tağı Nağıoğlu və Abbasqulu Kazımzadə ilə birlikdə "Müsavat"ı yaratmasıdır.[170] M.Ə.Rəsulzadənin tövsiyəsi ilə yeni bir partiyanın yaranması barədə məlumat alan çar rejiminin polisləri 1912-ci ildə Rəsuloğlunun evində axtarış aparmışdır.[171] O, 1915-1917-ci illərdə "Açıq söz" və digər qəzetlərdə türkçülük və islamçlıq ideyalarını (milli demokratiya) təbliğ etmişdir.

Cümhuriyyəti dövründə Parlamentin deputatı olmaqla yanaşı M.Ə.Rəsuloğlu, 1919-cu ildə hökumət mətbəəsinə müdir təyin olunmuş və "Müsavat"ın Bakı Komitəsinin üzvü seçilmişdir. 27 aprel işğalından sonra digər hökumət və parlament üzvlərinin əksəriyyəti kimi Rəsuloğlu da həbs edilib, 1920-ci ilin noyabrında Rəsulzadə ilə birlikdə Moskvaya aparılmışdır. İki ilə yaxın müddətdə Moskvada Millətlər Komissarlığının nəzdindəki kooperativ təşkilatda işləməli olan Rəsuloğlu A.Kazımzadə ilə birlikdə 1922-ci ilin sonlarında Qacarlara, oradan da İstanbula üz tutmuşdur. 1923-1930-cu illərdə M.Ə.Rəsulzadə ilə birlikdə Azərbaycan Milli Mərkəzində çalışan Rəsuloğlu İstanbulda "Yeni Kafkasya", "Azeri-Türk", "Odlu Yurd" məcmuələri, daha sonra da Ə.Cəfəroğlunun nəşr etdiyi "Azərbaycan Yurd bilgisi" ilə əməkdaşlıq etmişdir.

Rəsuloğlu 1950-ci illərdə Ankaradakı "Azərbaycan", 1960-cı illərdə isə Almaniyadakı "Müsavat" jurnalına məqalələr yazmışdır. Onun hekayələri, şeirləri və uşaqlara aid nağılları da vardır. O, 1982-ci ilin fevralında İstanbulda vəfat etmişdir.[172]

---

[170] Yenə orada, s.9-10

[171] Yenə orada, s.11

[172] Əhməd Dilqəm. Mühacirələrin dönüşü (yeni fotoloar və sənədlər). I cild. Bakı, TEAS Press nəşriyyatı, 2017, s.44-45

***

1882-ci ildə Bakının Maştağa kəndində anadan olan **Abbasqulu Kazımzadə (1882-1947)** ilk təhsilini mollaxanada alıb, sonralar üçüncü “Rus-Tatar” məktəbində davam etdirib. İlk müsəlman sosial-demokrat təşkilatı “Hümmət”in fəallarından olan A.Kazımzadə 1911-ci ilin payızında “Müsavat”ın yaranmasında yaxından iştirak etmişdir. 1918-1920-ci illərdə Milli Şuranın və Parlamentin üzvü olan Kazımzadənin rəhbərliyi ilə 1918-ci il oktyabrında “Türk ocağı” adlı mədəni-maarif cəmiyyəti yaradılıb.

Cümhuriyyətin süqutundan sonra Lahıcda həbs edilərək Moskvaya Butırka həbsxanasına göndərilən Kazımzadə M.Ə.Rəsuloğlu ilə birlikdə Qacarlara, oradan da İstanbula üz tutmuşdur. İstanbulda M.Ə.Rəsulzadənin rəhbərlik etdiyi milli təşkilat, jurnal-qəzetlərdə çalışan Kazımzadə 1930-cu illərdə Almaniyada yaşamış, “İstiqlal” və “Qurtuluş” jurnallarında “Abbas Eldəniz” imzası ilə məqalələr yazmışdır. 2. Dünya müharibəsi başlayanda Türkiyəyə qayıdan Kazımzadə 1947-ci ildə İstanbulda vəfat etmişdir.[173]

***

1898-ci ildə Bakıda anadan olan **Əmin Abid-Gültəkin (1898-1937)** 1919-1926-cı illərdə Türkiyədə təhsil alıb. 1927-ci ildə Bakıya dönən Gültəkin Sovetlərin işğalçılıq siyasətini qınayan milli ruhlu əsərlər yazmışdır. Onun əsas əsərləri aşağıdakılardır: “Azərbaycan türklərinin ədəbiyyat tarixi”, “Türk ədəbiyyatında bayatı-mani növü”, “Bayatının Türk xalqları ədəbiyyatında yeri” və s.

Əmin Abid daha çox türkçülük və müasirləşmək ideyalarının tərəfdarı olub, hətta 1918-ci ildə yaranan Türk dövlətinə “Azərbaycan” adının verilməsinin əleyhinə çıxmışdır. Ona görə 1918-ci ildə Güney Qafqaz Seymində təmsil olunan türklərin gürcülər və ermənilərdən fərqli olaraq, ölkələrinə verdikləri “Azərbaycan Cümhuriyyəti” adı Türk xalqının adına uyğun olmamışdır: “Seymdə bulunmuş Türk üzvlər də hökümətimizə “Azərbaycan” adını verərək həman-həman “kəbirən-səğirən” üsulunda bir mühakimədə bulun-

[173]Əhməd Dilqəm. Mühacirələrin dönüşü (yeni fotoloar və sənədlər). I cild. Bakı, TEAS Press nəşriyyatı, 2017, s.31

muşlardır".[174] O, yazırdı ki, yeni Türk dövlətinə Azərbaycan adı verildikdən sonra, "Azərbaycan", "Azərbaycanlı", "Azəri" anlayışları ətrafında qəribə təhlillər aparılmış, əsassız olaraq onların türkləşdirilməsi baş vermişdir. Abidə görə bu baxımdan Y.V.Çəmənzəminlinin Zərdüştü türk zənn edib, azərbaycanlıları da atəşpərəst olaraq qələmə alması, üstəlik "azəri" sözünü türklüyə aid etməsi kökündən yanlışdır: "Bu vaxta qədər yapılan tədqiqlər əsasında: birisi qədim qədim dövrlərdən zamanımıza; o biri zamanımızdan əski əsrlərə doğru yürüyən iki hərəkət xətti hiss edilməkdədir. Yalnız "Azərbaycan" kəlməsi ətrafında dönüb dolanan hər iki xəttin gəlib dayandığı bir nəticə nöqtəsi var: qurduğumuz dövlətin həqiqi adı "Azərbaycan" və bu dövlətin hakim olduğu yerlərdə oturan türklər (quzey-batı "İran"da yaşayan türklər kibi) "azəri"dir; azərilər də atəşpərəstlik sistemi ilə əlaqədardır".[175]

Ə.Abid yazırdı ki, bu gün "azəri" kəlməsi Azərbaycanda yaşayan bir fərdə elm olmuşsa da, bu kəlmə ancaq son on il içində bu mənada qullanmağa başlamışdır; daha əvvəllər bir azərbaycanlıya azəri deyildiyi görülməmişdir.[176] Onun fikrincə, "Azərbaycan" adlanan bu coğrafiyanın adı əslində Dədə Qorqud boylarından da göründüyü kimi, Oğuz türklərinin adıyla bağlı Oğuz Eli olmuşdur. Sadəcə, iranlılıq və islamlılığın təsiri nəticəsində Oğuz türkləri özlərini, vətənlərini "müsəlman", "azəri", "Azərbaycan" adlandırıb, hətta uşaqlarının isimlərini də müsəlmanlaşdırıb, iranlılaşdırıblar.[177]

Abid nə qədər "kommunizm"ə uyğunlaşmağa çalışsa da, onu da etiraf edirdi ki, vaxtilə iranlılaşan, müsəlmanlaşan Azərbaycan türkləri indi də ruslaşdırılır. Bu baxımdan o, bir tərəfdən rus bolşevizmini nəzərdə tutaraq bolşeviklərin rəngini tökdüyü qandan aldığını, dünyaya yeni bir vəhşət saldığını yazmış,[178] digər tərəfdən dövrün şərtləri altında "sovetləşmə"nin ilk dövrlərində Ə.Hüseynzadə, Z.Gökalp fəlsə-

---

[174] Abid Əmin. Azərbaycan türklərinin ədəbiyyatı tarixi. Bakı, Elm və təhsil, 2016, s.32
[175] Yenə orada, s.29
[176] Abid Əmin (Gültəkin). Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007, s.21
[177] Abid Əmin. Azərbaycan türklərinin ədəbiyyatı tarixi.Bakı,Elm və təhsil,2016, s.38-39
[178] Abid Əmin (Gültəkin). Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007, s.9

fəsinə əsaslanan bütün Türk xalqlarını birləşdirən türkçülüyü-turançılığı təniqd etmiş, milli-məhəlli türklüyü müdafiə etmişdir.[179]

O, Azərbaycan Türk mütəfəkkirlərinin yaradıcılıqlarını və ədəbi cərəyanları tədqiq edərkən yazırdı ki, son dövrdə ədəbi cərəyanlar başlıca iki görüş tərzi üzərində irəliləmişdir: "Birisi Xətayi və Füzulidən uzanıb ta Vaqif, A.Ağa Qüdsi, Seyid Əzim xəttində davam edən sxolastik zövqi idi... İkinci ədəbi zövq hərəkatı isə bu köhnə cərəyanın axıntısı yanında Mirzə Fətəlidən sonra Həsən bəy Zərdabidə xüsusi bir qiymət olaraq bugünkü səhnə ədəbiyyatımızı yaradan həyat görüş tərzidir".[180] Sonuncu görüş tərzini müdafiə edən Ə.Abidin fikrincə, artıq yeni həyat görüşü tərzi dünyada özünə yer tapmaqdadır. Həyat görüşü tərzi dedikdə, daha çox "sovetləşmə"ni nəzərdə tutan Abid yaxşı dərk edirdi ki, ancaq Sovet-Rus imperiyasının məqsədi tamamilə başqadır. Bu anlamda imperiyanın "sovetləşmə" siyasətinə uyğunlaşa bilməyən Abid 1937-ci ildə repressiyadan yan qaça bilməmişdir.

***

1908-ci ildə Bakıda anadan olan **Mikayıl Müşfiq (1908-1938)** 1920-1927-ci illərdə əvvəlcə Bakı darülmüəllimində, sonra 12 nömrəli II dərəcəli məktəbdə təhsil almış, 1927-1931-ci illərdə Azərbaycan Dövlət Universitetinin dil və ədəbiyyat fakültəsini bitirərək Bakı məktəblərində müəllimlik etmişdir. Eyni zamanda, 1930-ci illərdə Azərnəşrdə redaktor vəzifəsində çalışıb. O, 1938-ci ilin yanvarında repressiya qurbanı olmuşdur.

Rus kommunizminə, onun proletkultçuluq nəzəriyyəsinə uyğunlaşa bilməyən Müşfiq milliliyin əleyhinə olanlara qarşı şeirilə, sənətilə mübarizə aparmışdır. O dövrdə tarı, kamançanı milli mədəniyyətdən uzaqlaşdıranlara, yadlaşdıranlara, "oxuma tar" deyənlərə cavab olaraq Müşfiq yazırdı:

*Oxu, tar, oxu, tar!..*
*Səsindən ən lətif, şeirlər dinləyim.*
*Oxu, tar, bir qadar!...*

[179] Yenə orada, s.79
[180] Yenə orada, s.102

*Nəğməni su kimi alışan ruhuma çiləyim.*[181]

Doğrudur, Müşfiq də dövrünün tələblərinə uyğun olaraq bəzi əsərlərində sosializm quruluşunu, proletar mədəniyyətini öymək istəmişdir: "Mən sosialist şura vətənimə, əməkçi xalqıma, qəlbimin, beynimin qarşığından bir çox bədiələr vermək üçün çırpınıram".[182] Ancaq onun həmin şeirlərində sovetlərə qarşı səmimilikdən, etibardan daha çox inamsızlıq, qeyri-səmimilik hiss olunur. Bunu, Müşfiq özü də etiraf edərək yazırdı ki, "mədəni hücumda sinfi ziddiyyətlər də meydana çıxarılmalıydı. Amma o şeirdə bunlar yoxdu".[183] Başqa sözlə, Müşfiq də Cavid, Cavad və digər milli ruhlu şəxsiyyətlər kimi "proletar" mədəniyyətinə, sosializmə uyuşa bilməmişdir:

*Unutmadıq ikibaşlı qartal çarı,*
*Çəkdi bizi gah aşağı, gah yuxarı.*[184]

***

1875-ci ildə Gəncədə anadan olan **Həsən bəy Ağayev (1875-1920)** Moskva Universitetinin Tibb fakültəsini bitirmiş, daha sonra Vətənə qayıdaraq həkimlik etmiş, eyni zamanda "Həyat", "İrşad", "Tərəqqi" və digər qəzetlərdə həm tibbə, həm də ictimai-siyasi məsələlərə dair məqalələr yazmışdır.[185] Qısa bir müddət Güney Azərbaycanda da yaşayan[186] Həsən bəy 1907-ci ilin martından noyabrına qədər "Nicat" maarif cəmiyyətinin rəhbəri olub, Azərbaycan müəllimlərinin 1-ci və ikinci qurultaylarında fəal iştirak etmişdir. Ağayevin hazırladığı 2-ci qurultayın proqramında Türk dili və hesab kitabları, Türk əlifbasında dəyişikliklər, Türk kitab dilinin işlənib hazırlanması və digər məsələlər olmuşdur.

O, 1911-1912-ci illərdə Gəncədə "Yujnı Kavkaz" ("Güney Qafqaz") qəzetinin redaktoru, 1918-ci ildə isə "Türk sözü" qəzetinin naşiri olmuşdur. 1910-cu illərdə Gəncədə fəaliyyət

---

[181] Müşfiq Mikayıl. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2004, s.121
[182] Müşfiq Mikayıl. Əsərləri. Üç cilddə, üçüncü cild. Bakı, "Səda", 2004, s.121
[183] Yenə orada, s.115
[184] Müşfiq Mikayıl. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2004, s.104
[185] Tahirzadə Ədalət. Həsən bəy Ağayev // Fikir və əməl böyüklərimiz. Bakı, "Nurlar" NPM, 2014, s.216
[186] Hüseynov Rafael. Millətin zərrəsi. Bakı, "Azərbaycan", 2001, s.224-225

göstərən "Nəşri-Maarif" cəmiyyətinin rəhbərlərindən olan Ağayev 1917-ci ildə Çarlığın süqutundan sonra Gəncədə Nəsib bəy Yusifbəylinin rəhbərliyi altında "Türk Ədəmi-Mərkəziyyət firqəsi"nin əsasını qoyanlardan biri olan Ağayev bu partiya "Müsavat"la birləşəndən sonra birləmiş qurumun Mərkəzi Komitəsinin üzvü seçilmişdir. Eyni zamanda, o, "Müsəlman fraksiyasının" üzvü kimi Zaqafqaziya Seymi sədrinin baş müşaviri, Seym Rəyasət Heyətinin üzvü olmuşdu.[187]

1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan Milli Şurasının iclasında Azərbaycanın İstiqlal Bəyannaməsi qəbul edilərkən H.b. Ağayev Milli Şuranın sədri M.Ə.Rəsulzadənin müavini olmuşdur. O, 1918-ci ilin 7 dekabrında Parlament sədrinin müavini seçilmiş, sədr Ə.b.Topçubaşı Bakıda olmadığına görə 2 fevral 1920-ci ilədək onun vəzifəsini icra etmişdir. [188] Cümhuriyyətin süqutundan sonra Tiflisə getməyə məcbur olan Ağayev 19 iyul 1920-ci ildə Tiflisdə erməni muzdlu qatili tərəfindən şəhid edilmişdir.

"Həyat"da daha çox tibbə aid məqalələr yazan Ağayev "İrşad"da isə ictimai-siyasi məsələlərə də diqqət yetirmişdir. Məsələn, o, "Yevropa hökumətlərinin üsuli-idarəsi" sislilə yazılarında Fransa, İsveçrə, İngiltərə və digər Avropa ölkələrinin idarəetmə sistemlərinin üstünlüklərindən, mütərəqqi yönlərindən bəhs etməklə yanaşı, çar Rusiyasının yönətimini isə tənqid etmişdir. Hətta, Ağayev "Təəccüblü bir qətnamə" məqaləsində çarlığın ideoloqlarını ikiüzlülükdə, ruslaşdırma siyasəti aparmaqda ittiham edərək yazırdı: "Rusiya vətənçilərinin nə dərəcədə dargöz olduqları hamının məlumudur: özümüz ağa, dilimiz ağa, məzhəbimiz ağa din. Bu vətənçilər söz ilə, qəzetələr ilə (misal, "Yakor"), yığıncaqlarla və qeyri vasitələr ilə rus millətindən olmayanları həmişə əsarətdə tutmaq səyindədirlər. "Rusiya ancaq ruslar üçündür" deyə hamısı ruslaşdırmaq fikrindədirlər və cürbəcür siyasi ixtiyaratdan Rusiyanın qeyri tayfalarını məhrum

---

[187] Tahirzadə Ədalət. Həsən bəy Ağayev // Fikir və əməl böyüklərimiz. Bakı, "Nurlar" NPM, 2014, s.232-235

[188] Mehmetzade M.B.Doktor Hasan bey. "Azeri Türk", 1 agustos 1928, sayı 13, s.1-3

edib bunları zəlalət və əsarətdə saxlamaq bu vətənçilərin ümdə və dəruni-qəlbdə bəslənmiş məqsudlarıdır”.[189] Ağayev yenə “İrşad”da yazdığı “Silk-sinif-firqə” silsilə məqalələrində “Silk”, “sinif”, “firqə” anlayışlarını izah etməyə çalışmışdır ki, tədqiqatçılara görə o, burada sosial-demokrat kimi çıxış etmişdir.[190]

1910-cu illərdə milli-demokrat cərəyanına qoşulan Ağayev 1917-ci il fevral burjua iniqlabından sonra yaranan Zaqafqaziya Seymindəki çıxışlarında “Müsavat”ın mövqeyini müdafiə edərək milli-məhəlli muxtariyyət ideyasını müdafiə etmişdi. O, deyirdi ki, 1917-ci il fevral burjua inqilabı demokratik respublikanın qurulması və istismar olunan ayrı-ayrı xalqların milli-ərazi və mədəni-milli muxtariyyət əsasında öz müqəddəratını təyin etmək hüququnun tanınması ilə inqilabi proletariatın və kəndlilərin köləlikdən qurtulması ilə eyni zamanda başa çatmalıdır; velikorus olmayan bütün xalqların və bütün əməkçi xalq kütlələrinin arzuları belədir. Artıq mərkəzçilik prinsipi məğlubiyyətə uğramış, öz yerini perferiyalara, yəni qoşma cümhuriyyətlərə vermişdi.[191]

Ağayev Parlament sədrinin vəzifəsini icra etdiyi dövrdəki çxışlarında da milli ruhu, türkçülüyü ilə seçilmişdi. O, Azərbaycan Cümhuriyyətinin qurluşunun 1-ci ildönümü ilə bağlı Parlamentdə çıxış edib, ötən bir ildə Azərbaycan türklərinin böyük uğurlara nail olduğunu demişdi: “Azərbaycan xalqı bir il ərzində Azərbaycan istiqlalını daha möhkəmləndirmək və işləmək ilə bərabər, çalışıb səy eləyiblər ki, inqilabi-kəbir (fevral burjua inqilabı-F.Ə.) sayəsində qazanılan hürriyyət səmərələri möhkəmləşsin və Azərbaycanda yaşayan türk, rus, erməni, yəhudi və qeyri-millətlər məsud olsunlar. Əminəm ki, bu yolda Azərbaycan Parlamanı və gələcəkdə Məclisi-Müəssisan daha fəaliyyətli bir surətdə işləyəcəkdir”.[192]

---

[189] Təbib H.A. Təəccüblü bir qətnamə. “İrşad” qəzeti, 26.02.1906, sayı 54.

[190] Tahirzadə Ədalət. Həsən bəy Ağayev // Fikir və əməl böyüklərimiz. Bakı, “Nurlar” NPM, 2014, s.222-223, 225

[191]Zaqafqaziya Seyminin Müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları.1918-ci il. Bakı,“Adiloğlu”, 2006, s.204

[192] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). I cild. Bakı, “Azərbaycan” nəşriyyatı, 1998, s.626-627

***

1893-cü ildə Nuxa qəzasının Aydınqışlaq kəndində doğulan **Şəfi bəy Rüstəmbəyli (1893-1960)** 1911-ci ildə Kiyev Universitetinin hüquq fakültəsində ali təhsil alıb. Zaqafqaziya Seyminin Müsəlman fraksiyasının fəal üzvlərindən olan Şəfi bəy 1918-ci il sentyabrın 15-də "Azərbaycan" qəzetinin (rus dilində) redaktoru, parlamentin deputatı olmaqla yanaşı, Cümhuriyyətin Daxili İşlər Nazirliyinin dəftərxana müdiri, 1920-ci il martın əvvəllərindən isə nazir müavini vəzifəsini icra edib. 27 aprel işğalından sonra Tiflisə köçən Rüstəmbəyli 1921-ci ilin fevralında Gürcüstanın da Sovetlər tərəfindən işğalından sonra İstanbula yerləşib. 1920-ci illərin sonu, 1930-cu illərin başlarında Azərbaycan Milli Mərkəzinin daxilində intriqalar yaratmağa çalışan Rüstəmbəyli, bu məqsədlə "Yıxılan bütlər"i yazmışdır. O, 1960-cı ildə İstanbulda dünyasını dəyişib.

***

1873-cü ildə Gəncədə anadan olan **Xəlil bəy Xasməmmədov (1873-1945)** Moskva Universitetinin hüquq fakültəsini (1895) bitirib Yekaterinodar və Gəncə dairə məhkəmələrində işləmişdir. 1907-ci ildə Gəncə quberniyasından 2-ci Dövlət Dumasına deputat seçilən Xasməmmədov Dumanın milli-dini bərabərlik komissiyasının, Dumanın ikinci şöbəsinin və beş komissiyasının üzvü olmuşdur. 3-cü Dövlət Dumasında (1907–1912) isə Azərbaycan türklərini təmsil edən yeganə deputat Xasməmmədov olmuşdur.[193]

1913-1917-ci illərdə Gəncə şəhər bələdiyyə rəisi işləyən Xasməmmədov Fevral burjua inqilabından (1917) sonra Gəncədə "Türk Ədəmi-Mərkəziyyət"in qurucularından biri olmuşdur. "Müsavat"ın 1-ci qurultayında (Bakı, 1917, 26-31 oktyabr) MK-nin üzvü seçilən Xasməmmədov Yelizavetpol Qəza İcraiyyə Komitəsinin sədri, Zaqafqaziya komissarlığında Dövlət nəzarəti komissarı, Zaqafqaziya seyminin, ZDFR-in süqutundan (1918, 26 may) sonra isə Milli Şuranın (1918, 27 may) üzvü olmuşdur. O, Cümhuriyyətin 1-ci hökumət kabinetində ədliyyə naziri, 2-ci kabinetində portfelsiz nazir, 1918 il 6 oktyabr kabinədaxili dəyişik-

[193] AXC Ensiklopediyası. II cild. Bakı, "Lider" nəşr., 2004, s.19

liklərdən sonra ədliyyə naziri, 3-cü kabinetində daxili işlər naziri, 5-ci kabinədə ədliyyə naziri vəzifələrində çalışmışdır. "Müsavat"Partiyasından Azərbaycan parlamentinin üzvü idi.

Xasməmmədov 1920-ci ilin aprelində Azərbaycan dövlətinin Türkiyədə səfiri təyin olunmuş, ancaq 27 aprel işğalından sonra istefa verməyə məcbur olmuşdur. O, Azərbaycan Milli Mərkəzinin (1924, İstanbul) Mərkəzi Komitəsinin və "Müsavat" Partiyası xarici bürosunun (İstanbul) üç nəfərdən (M.Ə.Rəsulzadə - sədr, M.B.Məmmədzadə - katib və Xəlil bəy Xasməmmədov - xəzinədar) ibarət rəyasət heyətinin üzvü idi. 1930-cu illərin əvvəlində Azərbaycan Milli Mərkəz daxilində ixtilaflar dərinləşəndə Xasməmmədov M.Vəkilov və Ş.Rüstəmbəyli ilə birlikdə Rəsulzadəyə qarşı müxalif mövqedə dayanıb. Müsavat Partiyasının 3-cü qurultayında (avqust 1936, Varşava) Xasməmmədov onun sıralarından xaric edilib. O, 1945-ci ildə İstanbulda vəfat edib.

***

Türkoloq, dilçi alim **Bəkir Çobanzadə** (1893-1937) Krım türklərindən olub, Tavriya quberniyasının Simferopol qəzasında anadan olmuş, ömrünün mühüm hissəsini Azərbaycanda yaşayaraq, Azərbaycan türklüyü ilə bağlamışdır. O, hələ Quzey Azərbaycana gəlməmişdən öncə, Bakıda nəşr olunan "Füyuzat" və digər qəzet-jurnallarla əməkdaşlıq etmiş, Türk dünyasının vahid mədəni birliyinə çalışmışdır. Məsələn, o, 1906-cı ildə "Füyuzat"a göndərdiyi bir məqaləsində yazırdı ki, bütün dünya yeni bir oyanış içindədir ki, Türk xalqları bu prosesdən kənarda qalmamalıdır.[194] Başqa bir məqaləsində isə, o, yazırdıki, son zamanlar milli oyanış içində olan Rusiya türkləri üçün vacib məsələlərdən biri osmanlı ləhcəsi əsasında ortaq Türk dilinin yaradılmasıdır.[195]

1920-ci illərdə milli ədəbi dilin qədim türkcə və yeni sözlər əsasında formalaşmasının tərəfdarlarından biri kimi Çobanzadə bu fikirini sübuta yetirmək üçün Bakıda bir sıra əsərlər və məqalələr yaz-

---

[194] Çobanzadə Bəkir. Nə kibi müəllimlərə möhtacız? "Füyuzat" №6, 1906, 29 dekabr

[195] Çobanzadə Bəkir. Türklər üçün şiveyi-ümumiyyənin düzumu, "Füyuzat", №9, 1907, 06 fevral

mışdır. Çobanzadəyə görə digər Türk dilləri kimi, Azərbaycan türkcəsi də Türk-Tatar dilinin bir parçası, bir budağı olub, onun əsas qaynaqları isə Orxon-Yenisey abidələri (7-8-ci əsrlər), "Kutadqu bilik", "Divani-lüğatit-türk" və başqaları olmuşdu.[196] Onun fikrincə, Türk dilinin Azərbaycan ləhcəsi XI əsrdə Oğuz-Qıpçaq ləhcəsindən əmələ gəlmişdir.[197] O, yazırdı ki, hazırda Türk dilinin formalaşması ilə bağlı üç cərəyan var: 1) Xalqın dilində yazmağa üstünlük verənlər ("mollanəsrəddinçi"lər və b.); 2) İstanbul ədəbi şivəsinə üstünlük verənlər (Ə.Hüseynzadə, H.Cavid və b.); 3) Orta mövqe tutanlar – xalqın canlı danışıq dili və klassik ədəbi dilin bütövlüyündən çıxış edənlər. B.Çobanzadənin fikrincə, bunlar arasında xalqın canlı danışıq dili və klassik ədəbi dilin bütövlüyündən çıxış edənlərin ədəbi dili istiqbala malikdir.[198] O, 1937-ci ildə repressiya qurbanı olmuşdur.

***

Gəncədə anadan olan **Nağı Şeyxzamanlı-Keykurun (1883-1967)** əvvəlcə "Difai"nin, daha sonra "Türk-Ədəmi Mərkəziyyət" Partiyasının üzvü olub. O, Cümhuriyyət dövründə Əksinqilabla mübarizə təşkilatının rəisi vəzifəsini tutmuşdur. 27 aprel işğalından sonra bir müddət Türkiyədə, daha sonra Almaniya və ABŞ-da yaşamışdır. 1967-ci ildə İstanbulda vəfat edən Keykurunun əsas əsərləri aşağıdakılardır: "Biz və onlar", "Dərdləşmə", "Azərbaycan istiqlal mücadiləsi xatirələri" və b.

Ümum Türkçülük, o cümlədən Azərbaycan türkçülüyü ideyasının təbliğatçısı olan Keykurunun fikrincə, Azərbaycan türkləri Çarlıq və Sovet Rusiyasının işğaçılıq siyasəti ilə heç vaxt razılaşmamış, daim onlara qarşı mübarizə aparmışdır. Ona görə Çarlığın Quzey Azərbaycanı işğal etməsində Türk Xanlıqlarının birləşə bilməməsi həlledici rol oynamışdır. O, yazırdı: "Azərbaycan xanlıqları vaxtında öz aralarında birlik yaratmamışlar, bu səbəbdən də rus imperializmi onları bir-bir işğal edə bilmişdir. Ancaq başlarına gələn bu fəlakətdən sonra bu xanlıqların xalqları ilə birlikdə ruslara

---

[196] Çobanzadə B. Seçilmiş əsərləri.Beş cilddə, V cild.Bakı, "Şərq-Qərb", 2007,s.66-67
[197] Yenə orada, s.83
[198] Yenə orada, s.76-77

qarşı amansız bir mücadiləyə girmişdilər. Dinləri, dilləri, adət və ənənələri bir olan fəlakətzədələr tez anlaşdılar və birləşdilər və bir varlıq olaraq ortaya çıxdılar".[199] O, yazırdı ki, Azərbaycan xalqının Türk olduğunu ruslar uzun müddət qəbul etməmiş, xalqımıza israrla tatar, dilimizə tatar dili demişlər: "Etirazlar qarşısında tatar kəlməsini götürdülər, lakin yenə türkcəyi qəbul etmədilər, vətəndaş və yaxud yerli dili düzəliş etdilər".[200] Bütün bunların böyük qurbanlar hesabına başa gəldiyini yazan Şeyxzamanlıya görə Milli Azərbaycan mücahidləri bir an olsun belə türklüklərini unutmamış, Azərbaycanın müstəqil olacağına inamlarını itirməmişlər.[201]

Şeyxzamanlının iddiasına görə, bu inamla da 1917-ci ilin sonlarında Gəncədə keçirilən Milli Komitənin yığıncağında N.Yusifbəyli təklif edib ki, Bakını düşməndən təmizləmək üçün Osmanlıya bir heyət göndərilməli, onlardan hərbi yardım istənməlidir. bü təklifi qəbul edən Milli Komitə də Türkiyəyə səlahiyyətli heyətin nümayəndəsi kimi Nağı Şeyxzamanlını, yəni onu göndərib.[202] O daha sonra yazır ki, səfər zamanı yolüstü Trabzondakı bir konfransda Osmanlının yardımı ilə Qafqazda ikinci bir Türk dövlətinin qurulmasını təklif edərkən Ömər Faiq Nemanzadə əvvəlcə buna qarşı çıxmış və Qafqazın Osmanlı tərəfindən tutularaq, öz ilhaqı altına almasını doğru saymışdır.[203] Ancaq sonralar Türk paşaları ilə söhbət edərkən Ömər Faiq də bildirib ki, Azərbaycan xalqı türklüklərini həqiqətən dərk etmiş bir xalqdır və istiqlala layiqdir.[204]

Yenə də onun iddiasına görə, Osmanlı paşaları (Tələt paşa, Ənvər paşa, Xəlil paşa və b.) ilə görüşdə demişdir ki, Qafqaz ruslar tərəfindən işğal olunarkən səkkiz xanlığın xalqı olan Azərbaycan türkləri Rusiya idarəçiliyinə qarşı gecəli-gündüzlü hər fədakarlığı gözə alaraq vuruşublar; bu vuruşmaların rus çarlığının devrilməsin-

---

[199] Şeyxzamanlı Nağı. Azərbaycan istiqlal mücadiləsi xatirələri. Bakı, "Azərbaycan" nəşriyyatı, 1997,s.11
[200] Yenə orada, s.27
[201] Yenə orada, s.48
[202] Yenə orada, s.58
[203] Yenə orada, s.65
[204] Yenə orada, s.70

də böyük rolu olmuşdur. Ancaq rus çarı I Pyotrun göstərişinə əsasən "İran" və Türkiyənin rus himayəsi altına düşməyincə Qafqazdan əsgər alınmaması əmr etməsi ilə milli ordu çatışmazlığı var: "Azərbaycan xalqı sizdən kömək gözləyir. Millətimiz müstəqil olmaq niyyətindədir. Siz qardaş əlinizi bizə uzadın, bizə yardım edin müstəqil olaq. Siz bizi çəkib öz tərəfinizə yıxmayın, ayaqda qalarıq".[205] Paşalar Qafqazda bir müsəlman dövləti yaranması fikrini müdafiə edərkən Keykurun deyib ki, dincə müsəlman olsalar da, Milli Türk hökuməti yaradılmasını istəyirlər.[206] Şeyxzamanlının bütün bu iddialarının nə dərəcədə gerçək olması mübahisəlidir. Çünki tarixdən bəllidir ki, Osmanlı Azərbaycan Cümhuriyyətinə yardımı 1918-ci ilin iyunun əvvəllərində Milli Şuranın sədri M.Ə.Rəsulzadə və xarici işlər naziri M.H.Hacınskinin Batumda Vehib paşa ilə apardığı danışıqlardan sonra etmişdir.

İslamlıq məsələsinə gəlincə, Şeyxzamanlı yazırdı ki, Milli İstiqlal uğrunda mübarizə aparılan dövrdə Gəncədə dindarlar "Məhəmmədi" firqəsi yaradıblar. Bununla da Azərbaycanın dini kəsiminin bir hissəsi Milli İstiqlala zidd yol tutmağa başlamışlar: "Əvvəlcə biz fikir vermədik, bizim partiyamız Türk "Ədəmi-Mərkəziyyət" firqəsi bütün milli məsələlərimizi öz proqramında əks etmişdi və çox qüvvətli idi. Bütün ziyalılar, tacirlər, ağıllı adamlar hamısı firqə tərəfində idilər. Ancaq sonralar baxdıq ki, mollalar işimizə maneçilik edirlər, əleyhimizə təbliğat aparırlar. Xalqa deyirlər ki, firqə lideri Nəsib bəy bir kitab çxarmış, ətrafına gəncləri toplamış və iddia edir ki, Qurani-Kərimi atın. O, köhnəlibdi. "Yeni kitab" (firqə proqramı) daha müqəddəsdir. Bunun üçün biz böyük bir xalq yığıncağı keçirdik, onların əleyhinə sübutlar gətirdik. Onların xalqın qarşısında məğlub etdik və xalq tərəfindən bəyənilmiş belə bir qərar çıxartdıq: Mollalar, xocalar məscidlərdə oturaraq nikah bağlayacaqlar, cənazə mərasimləri keçirəcəklər, xalqın anlamaq istədiyi dini məsələləri izah edəcəklər və qətiyyən dünyəvi işlərə qarışmayacaqlar. Dini işlərimizlə onlar, milli işlərimizlə yalnız biz əla-

---

[205] Yenə orada, s.69
[206] Yenə orada, s.69

qədar olacaq. Bu qərardan sonra da onlar bizim milli işlərimizə maneçilik etmədilər”.[207]

Şeyxzamanlıya görə hazırda müsəlman dünyasında birlik, qüvvə yoxdur və olmayacaq da. Onun fikrincə, dini birlik yaransa belə, bundan bir şey çıxmayacaq: “Allahıma inandığım kimi inanıram ki, Türkiyənin bir kəndində olan qeyrət, iman, vətənə bağlılıq müraciət edəcəyimiz İslam dünyasında yoxdur. Bu, boş işdir… Varlıq, qüvvə yalnız milli imandadır”.[208] Deməli, o, Türk birliyini “İslam birliyi”ndən üstün tutmuşdur.

Mühacirət dövründə də Azərbaycan Milli İdeyası uğrunda mübarizə apardıqlarını yazan Şeyxzamanlıya görə hər bir Azərbaycan türkünün ürəyi iki müqəddəs varlıq ilə doludur: “Birisi din duyğusu, digəri milli duyğu Azərilər bu iki müqədəds varlıqlarını sevimli milli bayraqlarında da əks etmişdilər. Azərbaycan bayrağı üçrənglidir: yaşıl rəng islamiyyəti təmsil edir. Qırmızı rəng və ayulduz müasirçiliyi təmsil edir. Üçüncü rəngi olan mavi isə soyunu təmsil edir. Hər bir azərinin fikri istiqlal duyğusu ildə doludur”.[209] Ancaq azərbaycanlılar özlərini digər türk toplumları kimi heç vaxt din təsiri altına salmamışlar: “Ənənələrini dinləri qədər müqəddəs saymışlar. Əsrlərcə çalışmanın sahəsində dinini, ənənələrini, adətlərini, məntiqini, insani duyğularını qanun şəklində ifadə edə bilən bir dövlət kimi layiq olmuşdur”.[210] O yazırdı ki, cəhalətpərəstlər dinə arxalanıb sünnilik, şiəlik deyə iki ayrı yola ayrıldıqları halda, Azərbaycan türkləri bu bayrağı qəbul etməmişdir.

Şeyxzamanlı 1963-cü ildə qələmə aldığı “Dərdləşmə” məqaləsində Azərbaycan mühacirətinin problemlərinə toxunmuşdur. O yazırdı ki, bəzi mühacirlər Azərbaycan Milli İdeyası uğrunda aparılan mübarizəni doğru qiymətləndirə bilmirlər. Belə ki, indiyə qədər Sovet Rusiyasına qarşı aparılan Milli Azadlıq Mübarizəsinin rolunu və yerini aşağı endirirlər. Halbuki Azərbaycan mühacirləri Və-

[207] Yenə orada, s.75
[208] Yenə orada, s.86
[209] Yenə orada, s.103
[210] Yenə orada, s.103

təndən ayrı düşdükləri ilk günlərdən etibarən daima Azərbaycanın azadlığı uğrunda mübarizə aparmışlar. Doğrudur, ilk illərdə Azərbaycan mühacirləri arasında pərakəndəlik olmuş və bir yerdə mübarizə aparmaqda çətinlik çəkmişlər. Ancaq bu çox uzun sürməmiş, Cümhuriyyətin qurucusu, milli ideoloq M.Ə.Rəsulzadənin Sovet Rusiyasını gizli yollarla tərk edərək İstanbula gəlməsi ilə vəziyyət yaxşılığa doğru dəyişmişdir. O, yazırdı: "Azərbaycan istiqlal mübarizəsinin böyük lideri Məhəmməd Əmin Rəsulzadənin İstanbula gəlişi yurddaşlarda böyük bir sevinc yaratmışdır. İlk iş olaraq yurddaşlar "Milli Komitə" adı altında birləşərək Əmin bəyi rəhbər seçdilər. İllərdən bəri özünü hiss etdirən boşluq Milli Komitənin nəşr etdiyi "Yeni Qafqasiya" məcmuəsi və bunun ardınca çıxan digər mətbuat orqanları tərəfindən doldurulmuş oldu".[211] Onun fikrincə, Rəsulzadənin yaratdığı milli birlik və bərabərlik hazırda da davam etməkdədir. Çünki Rəsulzadə Azərbaycanın bir gün Milli İstiqlala qovuşacağı inamını yazdığı məqalələrdə, kitablarda onlara aşılaya bilmişdir: "Azərbaycan Milli Mübarizəsinin böyük lideri mərhum Məhəmməd Əmin Rəsulzadənin qurduğu bu nəşr sistemi günümüzə qədər davam etməkdədir".[212]

***

İrəvanda anadan olan **Əkbərağa Şeyxülislamov (1891-1961)** orta təhsilini İrəvan gimnaziyasında başa vurduqdan sonra 1912-ci ildə Peterburq Yol Mühəndisliyi İnstitutuna daxil olmuşdur. 1918-ci ilin fevralında Zaqafqaziya seyminin üzvü seçilən Şeyxülislamov Zaqafqaziya hökumətində daxili işlər nazirinin müavini vəzifəsini icra etmişdir. Cümhuriyyət dövründə F.Xoyskinin təşkil etdiyi ilk kabinədə torpaq və əmək naziri vəzifəsini tutmuş, 1918-ci il dekabrın 7-də Bakıda açılmış Parlamentin deputatı olmuşdur. O, Ə.b.Topçubaşının rəhbərliyi altında Azərbaycan nümayəndəliyinin tərkibində Versal sülh konfransında iştirak etmək üçün Parisə yola düşmüşdür. 27 aprel işğalı səbəbindən Vətənə dönə bilməyən Şeyxülislamovun 2-ci Dünya müharibəsinə qədər Parisdə "Azər-

[211] Şeyxzamanlı Nağı. Xatirələrim. Bakı, "Vətən", 2004, s.170
[212] Yenə orada, s.174

baycan” (№ 2) jurnalında “Azərbaycan necə quruldu?” adlı əsəri dərc olunmuşdur. O, 1961-ci il martın 2-də Parisdə vəfat etmişdir.

***

1896-cı ildə Qazax mahalında anadan olan **Mustafa bəy Nadir oğlu Vəkilov (1896-1965)** 1912-ci ildə Moskva Universitetinin hüquq fakultəsinə daxil olmuşdur. Vəkilov 1917-ci il noyabrın 15-də yaranmış Zaqafqaziya Komissarlığında daxili işlər komissarı A.İ.Çxengelinin məsləhətçisi vəzifəsini icra edib, daha sonra Seymdə müsəlman fraksiyasının üzvlərindən biri olub. O, Cümhuriyyət dövründə Bakıda açılmış Parlamentin deputatı olmuş, 1919-cu ilin dekabrında “Müsavat”ın ikinci qurultayında MK-yə üzv seçilmişdir. Vəkilov N.b.Yusifbəylinin 23 dekabr 1919-cu ildə təşkil etdiyi ikinci hökumət kabinəsində Daxili İşlər nazirinin müavini vəzifəsini icra etməyə başlamışdır. 1920-ci il fevralın 18-də 23 yaşlı Vəkilov Daxili İşlər naziri təyin olunmuşdur. 27 aprel işağlından sonra Vəkilov Tiflisə getmiş, daha sonra Türkiyəyə mühacirət edərək İstanbulda fəaliyyət göstərən Azərbaycan Milli Mərkəzinin MK-nin üzvü seçilib. 1929-cu ildə Milli Mərkəzdən istefa verərək Polşaya yerləşmiş, daha sonra Almaniya, Fransa, İsveçrə kimi ölkələrdə fəaliyyət göstərmişdir. O, 1965-ci il noyabrın 1-də Ankarada vəfat etmişdir.

***

1898-ci ildə Bakı şəhərində anadan olan **Əbdülvahab Məmmədzadə-Yurdsevər (1898-1976)** 1911-ci ildə III Aleksandr adına şəhər gimnaziyasında orta təhsilini bitirdikdən sonra rus liseyinə qəbul olub. Burada rus dilini, mədrəsədə isə ərəb və fars dillərini öyrənib. O, 1916-cı ildə “Məhəmmədiyyə” adlı siyasi dərnəyə, 1917-ci ildə “Müsavat”a üzv olub. Cümhuriyyət dövründə Nazirlər Şurasının dəftərxanasında tərcüməçi kimi fəaliyyət göstərib. 27 aprel işğalından sonra gizli fəaliyyətə keçən “Müsavat”ın Bakı komitəsinin sədri və Milli Müqavimət Komitəsinin üzvü olub.[213] 1923-cü il iyunun 15-də həbs edilərək, əvvəlcə Quzey Qafqazın

[213]İbrahimli Xaləddin. Azərbaycan mühacirət tarixi. Bakı, ADPU nəşr., 2012, s.68

Vladiqafqaz şəhərinə sürgün edilib.[214] Cəza müddəti bitdikdən sonra 1926-cı ildə Bakıya qayıdıb. Çox keçməmiş yenidən həbs olunaraq Yaroslavl və Saratovda on bir il sürgün həyatı yaşayıb. Sürgündən sonra Yurdsevər bir müddət Daşkənddə qız məktəbində müəllimlik etsə də, qarşısına ölkədən qaçmağı məqsəd qoyub. Aşqabaddan "İran Pəhləviləri"nə keçdikdən sonra bir müddət Tehranda hərbi məktəbdə alman dili müəllimi kimi fəaliyyət göstərib. 1936-cı ildə Rəsuzladənin dəvəti ilə Varşavaya gedərək "Müsavat"ın III qurultayında iştirak etmişdir. 1939-cu ilə qədər Rəsulzadə ilə birlikdə Varşavada fəaliyyət göstərən Yurdsevər Polşa işğal olunduqdan sonra Türkiyəyə köçmüşdür. O, uzun müddət Ankarada Baş Nəşriyyat İdarəsində işləmişdir.[215]

M.B.Məmmədzadə dünyasını dəyişdikdən sonra mərkəzi İstanbulda olan Azərbaycan Milli Mərkəzinə rəhbərlik edib (1959-1976).[216] O, 1976-cı il oktyabrın 7-də Ankarada vəfat edib.

Onun əsas əsərləri aşağıdakılardır:"Mirzə Fətəli Axundzadənin həyatı və dram əsərləri" (Ankara, 1950), "Azərbaycan dram ədəbiyyatı" (Ankara, 1951), "Sabirin Azərbaycan ədəbiyyatındakı yeri" (Ankara, 1951), "Azərbaycan ədəbiyyatında Vidadi və Vaqifin yaradıcılığı" (Ankara, 1952), "Abbasqulu Ağa", "XIX əsr Azərbaycanındakı modern və realist ədəbi cərəyanlar", "Şah İsmayıl Xətai", "Azərbaycan istiqlal savaşından səhnələr"[217] və b. O, bu əsərlərində Azərbaycan Türk mütəfəkkirlərini bütün yönləri (mədəni, fəlsəfi, dini, ədəbi) ilə araşdırmış, onların dünyagörüşlərini və yaradıcılıqlarını geniş şəkildə tədqiqat obyektinə çevirmişdir.[218]

Yurdsevər bir çox milli mütəfəkkirlərimizin, o cümlədən M.F.Axundzadə, M.Ə.Sabir, C.Məmmədquluzadə və başqalarının irsini tədqiq etmişdir. O yazırdı ki, Cəlil Məmmədquluzadə "sinif, partiya, zümrə və mədəniyyəti fərqi gözləmədən bütün vətən öv-

---

214 Əhmədli Bədirxan.Azərbaycan mühacirət ədəbiyyatı.Bakı,Elm və təhsil,2017,s.272
215 Əhməd Dilqəm. Mühacirələrin dönüşü (yeni fotoloar və sənədlər). I cild. Bakı, TEAS Press nəşriyyatı, 2017, s.50
216 Əhmədli B.Azərbaycan mühacirət ədəbiyyatı. Bakı, Elm və təhsil, 2017, s.271
217 Yurdsever A.Azerbaycan İstiklal Savaşından Sahneler.Ankara,Gece Kitaplığı,2020
218 Cabbarlı Nikpur. Azərbaycan mühacirət nəsri. Bakı, Elm və təhsil, 2011, s.102-103

ladlarını birliyi və həmrəyliyi" tərəfdarı, "Azərbaycan ümumi-əfkarının liberal-demokrat qüvvələrin düşüncələrinin "tərcüman"ı olmuşdur. Ona görə Sabir isə idealist, islahatçı, türkçülüyə meyilli mili şair olmuşdur. O, yazırdı: "Sabir – insan vücudunun fani, fəqət insan ruhunun ölməz və əbədi olduğuna qanedir. Ona görə insan bədəni ilə deyil, ruhu ilə yaşar. Bədən bir ovuc torpaqdan ibarətdir və nəhayət, yenə torpağa tərk ediləcəkdir. Halbuki ruh bu dünyadan daha yüksək və daha məsud aləmlərdə yaşamağa və həm də bədii surətdə yaşamağa qadirdir. Böyləcə, Sabir materializm (madiyyətçilik) fəlsəfəsindən çox uzaqdır və tamamən idealistdir".[219]

Kommunizmi "Azərbaycan mühitinə və ümumiyyətlə Türk-İslam dünyasına tamamilə yabançı və zərərli bir doktrina" adlandıran Yurdsevər yazırdı ki, milli istiqlalı qəsb edən Sovet rejiminin ömrü uzun olmayacaqdır. O, buna əsas kimi Sovet istismarçılığını və bolşeviklərin saxta beynəlmilçiliyini göstərmişdir: "Sovetlər beynəlmiləlçilikdən bəhs etdikləri halda, tamamilə Rus hakimiyyət təmayüllərinə istinad edirlər. Bu təmayüllər xüsusilə Stalin dövründə bütün çılpaqlığı ilə ortaya çıxdı. Bu gün Sovet imperatorluğunun hüdud bölgələrində vaqe olan məhkum ölkələr, türklər də daxil olmaqla qeyri-rus ünsürlərlə məskunlaşmışlar. Bunlardan heç birinin rusluqla milli və tarixi bağlılıqları yoxdur".[220]

O yazırdı ki, SSRİ rəhbərliyi çarlıq müstəmləkə imperatorluğundan formalaşan bütün bu qeyri-rus ölkələri parça-parça edərək, çeşidli adlar altında müxtəlif bölgələrə qarışdırdıqan sonra, həm siyasi, iqtisadi və hərbi istismara tabe etməkdə, həm də milli varlıqlarını məhvə məruz qoyaraq tamamilə ruslaşdırmaqdadır. Beləliklə, sözdə müstəmləkəçiliyə müxalif olan Sovet hökuməti Çarlıq müstəmləkələrini haqlı göstərmək üçün bəzi doktrinalar uydurmuşdur. Yurdsevər yazır: "Sovet istismarçıları məhkum millətlərin fikir, din, hərəkat və təşəbbüs sərbəstliyini tanımadıqları kimi, ləhcə və əlifbalarını da ruslaşdırmaqdan geri qalmamışlar. Rus məh-

---

[219] Yurdsever A. Sabirin Azerbaycan Edebiyatındakı Yeri. Ankara, 1951, s.58

[220] Yurdsevər A. Sovet İstismarcılığı// Ankara, "Azerbaycan" dergisi, №10-11, 1956-cı il ocak-şubat, s.46

kumu millətlərdən heç biri öz milli tarix və ədəbiyyatlarını məktəblərində oxumayıblar və milli qəhrəmanlarının adlarını bilməyiblər. Hətta türk qövmləri belə türk olduqlarını söyləyə bilməzlər. Halbuki, Rus tarixi və ədəbiyyatı məhkum millətlərin məktəblərində bütün təfsilatı ilə məcburən oxudulmaqdadır. "Beynəlmiləlçi" Sovet məntiqinə görə, rus xalqı və məhkum millətlər Birinci Pyotr, Suvorov, Kutuzov və Aleksandr Nevski kimi rus tarixi simalarını milli qəhrəman olaraq anmalı və təqdir etməlidirlər. Bunun əksinə olaraq, Şimali Qafqazlılar Şeyx Şamillərini, azərbaycanlılar Cavad xanlarını, türküstanlılar Əmir Teymurlarını və digər milli qəhrəmanlarını dilə belə gətirə bilməzlər. Buna qarşı hərəkət edənlər partiyadan, işdən atılmaqda və ağır cəzalarla üzləşməkdədirlər".[221]

Yurdsevər daha sonra yazırdı ki, Sovet rejiminin əsarəti altında olan ölkələrdə milli tarix və ədəbiyyata dair bütün əsərlər kitabxanalardan yığışdırıldığı kimi, bu cür əsərlər evlərdə ələ keçirildiyi vaxtda bir günah dəlili olaraq ev sahibi əleyhinə qoyulmuşdur: "Sovet rejimi din və vicdan azadlığı tanımadığı üçün came və məscidlərin yüzdə doxsanını dağıtmış, dini etiqadlarını açıq bildirən partiyalı və partiyasızları şiddətlə təqib etmişdir. Bütün bunların fövqündə sovet idarəsi məhkum ölkələrin ətrafında qalın bir dəmir pərdə çəkərək azad dünya ilə və öz yaxın irqdaşları ilə hər cür milli, dini, ədəbi, mədəni, siyasi və iqtisadi bağlarını kəsmişdir".[222]

Ümumiyyətlə, Yurdsevər yaradıcılığında bir tərəfdən SSRİ-nin iç üzünü açıb göstərməyə çalışmış, digər tərəfdən isə Azərbaycan milli ideyasına uyğun olaraq milli mədəniyyəti təbliğ etmişdir.

***

1914-cü ildə Şuşada anadan olan **Məhəmməd Kəngərli (1914-2006)** Azərbaycan Dövlət Universitetinin tibb fakültəsini və Leninqrad Hərbi Akademiyasında təhsil almışdır. İkinci Dünya müharibəsi dövründə (1942) Krımda almanlara əsir düşmüş, əsirlik vaxtı M.Ə.Rəsulzadə ilə tanış olmuşdur. Müharibədən sonra Almaniyada yaradılan Azərbaycan Demokrat Birliyində çalışıb.

[221] Yenə orada, s.46
[222] Yenə orada, s.47

1952-ci ildə Türkiyəyə gələn Kəngərli Azərbaycan Kültür Dərnəyinin başqanı olub. O, 2006-cı ildə Ankarada vəfat edib.

Kəngərli bir çox məqalələrində SSRİ rejiminin mahiyyətini açmağa çalışmışdır. O, yazırdı ki, Azərbaycan türkləri tarix boyunca hürr və müstəqil yaşamağa öyrəşmiş bir millətdir. Onun milli varlığının ana prinsipi isə hər zaman milli azlıq təşkil edənlərə deyil, bilavasitə onların haqq və hüququnu çeynəməyə yönələn yırtıcı ruhlu müstəmləkəçilərə qarşı yönəlmişdir. Kəngərli hesab edirdi ki, 1920-ci ilin 27 aprelində Azərbaycan türklərinin Hürriyyət, İstiqlal və Milli hakimiyyət səsi xaincəsinə boğulmuşdu. Bu baxımdan həmin gün Kəngərli üçün qara bir günü idi: "Vətən, Millət, Milli hegemonluq eşqi, arzusu, qayəsi və həyəcanı ilə ritmik olaraq çırpınan və zəfərinin bəxtiyarlığı içərisində özünü məsud hiss edən gənc bir qəlbə, qana bulaşmış xain əllərlə zəhərli bir düşmən xəncərinin birdən-birə xaincəsinə saplandığı bir gün… 1918-ci ilin uğurlu bir may günündə, şimal basqınlarına qarşı bir əsr davam edən Milli Bağımsızlıq mücadilələrinin sonunda yüz minlərlə vətən fədaisi qəhrəmanların qanları ilə hər qarış torpağı sulanmış olan bu ölkəyə, qan haqqı olaraq tanınan səadət günəşinin, iki il sonra, yenə şimaldan gələrək aydınlıq səmalarını qaplayan qara buludların kölgəsində cəbrən solmağa məcbur edən qara bir gün".[223]

27 aprel günü mədəniyyət ocaqları söndürülmüş, Azərbaycan Türkü istiqlaldan məhrum edilmişdir. Ancaq harada, nə durumda olursa-olsun hər bir aydın milliyyətçi, istiqlalçı inanır ki, Azərbaycan türkünün qəlbini kin-küdrətlə dolduran, mədəni insanlıq anlayışına görə, qara bir ləkədən başqa bir şey olmayan bu günün sonu gələcəkdir. Elə bir gün gələcək ki, azərbaycanlılar Azərbaycan Cümhuriyyətinin şəhidlərini və qazilərini dərin saygı və hörmətlə, Sovet Rusiyası müstəmləkəçilərini isə nifrətlə yad edəcəkdir. Çünki 27 apreldə bolşeviklər öz torpaqlarında hürriyyət və barış içində yaşmaq istəyən bir millətə qəsd etmişdir. Kəngərli yazırdı: "Azəri türklərinin bütün təbii zənginliklərinə, şəxsi mülklərinə milli sər-

[223] Kəngərli Məhəmməd. Xaincəsinə boğulan bir səs.// Azərbaycan mühacirət irsi. Bakı, "Elm və Təhsil", 2011, s.156

vətlərinə, kültür, sənət, tarix və ədəbiyyatına yabançı bir elin qonduğu, tarixi milli abidələrin, mədrəsələrin, camelərin və dini ziyarətgahların yıxıldığı, türkcə tədrisatın ruscaya çevrildiyi, Türk böyükləri, şairləri yerinə rusların öyrədildiyi, Azəri münəvvərlərinin çeşidli bəhanələrlə topdan Sibir əsir düşərgələrinə sürüldüyü və kəndlilərin dövlət hesabına səhərdən axşama qədər qədər çalışmaya məcbur edildiyi milli, dini ənənələrin, örf və gələnəklərin ruslaşdırıldığı bir gün".[224]

Ona görə nə öz torpağımız, nə də bu torpağın yetişdirmiş olduğu Milli Azərbaycan gəncliyi Azərbaycan Milli İstiqlalı uğrunda mübarizə aparmış mücahidləri bir anda özlərindən ayrı görməyəcəkdir. Onların əziz ruhlarını istiqlal eşqi ilə dolu isti və səmimi bağırlarına basacaq, Azərbaycan Türk Milliyyətçiliyinin bir həqiqi örnəyi olaraq abidələşmiş Milli İstiqlal mücadiləsinin təməl daşı kimi daima mənəvi hüzurlarında əyiləcək və beləcə, şan-şərəflə dolu xatirələrini yaşadacaqdır. Kəngərli böyük üzaqgörənliklə qeyd edirdi ki, ikinci 28 May günü gerçəkləşəcəkdir: "Əlbəttə, o zaman, o gözəl gündə bu əziz və müqəddəs qurbanlarımızın, hürriyyət meydanlarının şərəfli mövqelərinə dikiləcək abidələri, İstiqlal günəşinin parlaq şüaları ilə aydınlanacaq, istisi ilə isinəcəkdir. Sarsılmaz bir iman, dərin bir güvənlə gözləməkdə olduğumuz Milli İstiqlal ülküsünün çox yaxın bir gələcəkdə gerçəkləşməsi ilə qara torpaqların altında əbədi istirahətgahlarında yatan İstiqlal şəhidlərinin mübarək cəsədləri, bu mənəvi milli varlıq məfhumunun işığı altında ruhən, gənc nəsil isə bu xoşbəxt günü mənən və maddətən yaşayacaqdır; biri ruhani, digəri isə maddi aləmdə dadmış olacaqdır".[225]

Kəngərliyə görə bu günün gənc nəslinə düşən tək, fəqət çox məsuliyyətli ideal Milli vəzifə vardır. Bu, Milli vəzifə ondan ibarətdir ki, hər bir gənc Azərbaycan Milli İstiqlal ideyasına bütün varlığı ilə sarılmalıdır: "Davanı mənimsəmək, ondan uzaqda qalmamaq, təklif və dəvət gözləməmək, ona ciddiyyət və səmimiyyətlə bağlanmaq, heç bir maddi mənfəət gözləmədən mücadiləyə qa-

[224] Yenə orada, s.157
[225] Yenə orada, s.159

tılmaq, onun ana prinsiplərinə sadiq qalmaq – qeydsiz-şərtsiz Milli İstiqlal hədəfini güdmək, bu ülvi, milli qayəni ziyanlı mahiyyətdə olan pozğun fəaliyyətlərə qarşı əli silahlı növbə gözləyən bir əsgər kimi durmaq deməkdir”.[226] Azərbaycanın rus-bolşevik istilasına cəbrən girdiyi gündən bəri həyatın ən təhlükəli və acı günlərini əzablarla yaşamış, hələ də yaşamaqda olan Azərbaycan Türk gəncliyi bu qorxunc hadisələrdən ibrət alaraq Milli hədəflərini, bütün enerjilərini doğru istiqamətdə inkişaf etdirməlidirlər. Belə ki, bütün Azərbaycan türkləri “İstiqlal, Hürriyyət və Milli Hegemonluq” şuarı altında birləşərək mənəviyyatının sapsağlam, Milli Davada səbatlı olduğunu bir kərə dünya ictimaiyyətinə çatdırmalıdır.

***

Milliyyətçi ruhlu ziyalılardan olan **Çingiz Göygöl** Vətəninin müstəqilliyi, mədəniyyət tarixi ilə bağlı çoxsaylı məqalələr yazmışdır. O, “Mühafizəsi lazım gələn milli ruh” məqaləsində yazırdı ki, XX əsrin ən bədbəxt insanları kommunist rejimi və diktaturası altında yaşayanlardır: “Bolşevik kommunist tələsinə düşən bu zavallılar, bir ovuc kommunist aristokratiyasının rifahı və səadəti və yenə bu güruhun hiylə və əməlləri üçün çalışmaqda və yüzdə-yüz istimar edilməkdədir. Dəmir Pərdə içərisində haqq və hüquqdan məhrum, atılmış bir əşya kimi qalmaqda, hər cür hürriyyətlər əllərindən alınmış, makinadan durmadan, dinlənmədən, yarı ac və yarı çılpaq Sovet imperialzminin çarxını çevirməkdədirlər. Bu zülm və işgəncəyə qarşı insan oğlunun, hər fürstədə mücadilə və mübarizəsi, qətliamların, yeraltı ölüm düşərgələri və Sibirə sürgünlərlə ört-basdır edilməkdədir. Fəqət bütün bu tədbir və məhvetmə siyasətləri, kommunist rejiminin heç bir surətlə qəbul edilməycəyini və Dəmir Pərdə içərisindəki insanların hürriyyətləri üçün mücadilə və mübarizədən kənarda qalmayacaqlarını göstərməkdədir”.[227]

Onun fikrincə, bü mücadilə və mübarizə müsəlmanlar, o cümlədən türklər arasında daha çox gözə çarpmaqdadır. Çünki

[226] Yenə orada, s.159
[227] Göygöl Çengiz. Mühafizası Lazım Gelen Milli Ruh// Ankara, “Mücahit” dergisi, №9, 1957 yıl, haziran-iyun, s.176

türklərin təbii yeraltı və yerüstü sərvətləri Rus şovinizmi tərəfindən istismar olunur. Üstəlik Azərbaycan təbii qaza və neftə malik olduğu halda, onun insanları bundan əziyyət çəkirlər. Göygöl yazırdı ki, bütün bunlar isə Azərbaycan türklərində ciddi etirazlar doğurmaqdadır: "Bir cümlə ilə Rusdan qeyri millətlərin torpaq və sərvətlərinin tənzimilə bütün istehsal kommunistlərin əmrindədir. Bu torpaq və sərvətlərin sahibləri isə kommunist köləsi olaraq, onun xidmət və əmrində haqq və hüquqdan məhrum istismar edilməkdədir. Bu əhval və şərait altında kosmopolit və internasional bir platforma içərisində qeyri rusların mənlik və varlıqlarının, ənənə və adətlərinin Rus Kommunist qaynar qazanında əriməsi üçün böyük qeyrət sərf edildiyi də inkar edilməz bir həqiqətdir. Türk və Müsəlman xalqlar üzərində bu təzyiq və qeyrət son həddini bulmaqdadır".[228]

O, yazırdı ki, Sovet ideoloqları Azərbaycan türklərinin tarixini, soykökünü və dilini saxtalaşdırmaq üçün bütün vasitələrə əl atır: "Azərbaycanlıların Türk olmayıb Alban nəslindən olduğu saxta tezisini isbat etmək üçün Sovet tarixçilərincə coşqun fəaliyyət göstərilməkdədir. Türk dili və fonetikasına heç bir şəkildə uymayan Rus hərflərinin qəbulu ilə kifayətlənməyən kommunistlər bütün elmi və ədəbi olan kəlmələrin də ruscada olanların eyni olması məcburiyyətini qoymuşlar. Bu məmləkətlərdə olan ərəbcə, farsca, türkcə dəyişikliklərin ruscada olanların dəyişdirilməsi məcburən təmin edilməkdədir. Bütün bunlara riayətsizlik kommunist əleyhdarlığı və siyasi günah sayılmaqdadır. Bütün bu tədbirlərdə tək qayə, Rus Kommunist diktaturası altında yaşayanların Kosmopolit Rus Kommunist qaynar qazan içərisində mənlik və varlıqlarını itirərək, fərdlərin bir Rus köləsi halına gəlmələrini saxlamaqdır".[229]

Rus kosmopolitizmi uğrunda atılan ciddi tədbirlər əhəmiyyətsiz sayılmayacaq dərəcədə təsirlərini göstərməkdədir və ona qarşı mübarizə aparmaq əsas məsələlərdən birinə çevrilmişdir. Göygöl yazırdı ki, Sovet diktaturasının müstəmləkəsinə çevrilmiş millətlərin üzərində həssaslıqla durmalı olduğu əsas məsələ də Rus

[228] Yenə orada, s.177-178
[229] Yenə orada, s.178

kosmopolitizminin təsirinin nəticəsiz qalmasını saxlamaqdır. Ona görə də, kommunistlərin iqtisadi, ictimai, kültürəl və başqa sahələrdə basqı, məhvetmə siyasətlərinə qarşı istilada olanlar ciddi və daimi şəkildə müqavimət göstərməlidirlər. O, yazırdı: "Əlbəttə bu amili əsaslandıran ruhun Milli Ruh olduğuna kimsə tərəddüd etməz. Bolşevik kommunistlərin üzərində həssaslıqla durduqları məhvedilməsi və tənəzzülə uğradılması üçün ən çox məşğul olduqları yenə Milli Ruhdur. Bu ruh, insanlara hürriyyət, millətlərə gələcək təmin edən ən mühüm ünsürdür. Bolşevik kommunistlərcə təqibə uğrayan insanlarda milli ruh və ən üstün vəsf olunandır. Milli ruhun insanlar içərsindən silinərək onun yerinə Kosmopolit Marksizm və Leninizm öndərləri yetişdirmək istənilməkdədir ki, bu öndərlərin insanlar arasında qardaşlıqda başqa sinfi ayrılıqları və mənfəət toxumları salmaq qayəsini güddüyünü, indiyə qədərki hadisələr bizə açıqlamaqdadır".[230]

İnsan oğlu həyatının bütün səhifələrində hakim olan ünsürün yalnız iqtisadi sahənin olmadığını artıq özü birbaşa görməkdədir. Belə ki, iqtisadi durumundan asılı olmyaraq insan oğlu daima irəliyə, daha mürəkkəb həyata qovuşmaq üçün çalışsa da, ancaq bunu sinfi mücadiləsinin təmin edə bilməyəcəyini təcrübələri ilə anlamışdır. Bu mənada, marksizm-leninizm fəlsəfəsinin də özünü doğrultmadığna inanan Göygöl yazırdı: "Marksizm və Leninizm fəlsəfəsinin məcazi şəkli olan dialektik fəlsəfənin qeyri qəbulu tətbiq olduğu, kommunistlərin dəyişən iqtisadi problemləri və hər gün bir az daha bu fəlsəfədən uzaqlaşmaları ilə təyin edilməkdədir. Kommunist ziqzaqının cızdığı yolun millətlərə və insanlığa rifah əvəzinə köləlik gətirdiyi də bu gün qırx illik təcrübə ilə çözülməkdədir. Bu gün millətlər üçün rifah və səadətin, milli varlıqların mövcudiyyəti ilə qəbul olduğu, əsrimizin əldə etdiyi bir nəticədir. Millətlər müştərək bir çox bağlarla biri-birilərinə bağlıdırlar. Fəqət bu bağlar ancaq millətlərin müştərək mənfəətlərinin tənzimi ilə yaxşı bir səhifə ərz edir. Əlbəttə, millətlərin ortaq mənfəətlərinin tənzimi və nəticə etibarilə insanlığın rifah və səadətinin təmini üçün, millətlə-

[230] Yenə orada, s.178-179

rin üstünlük iddialarını tərk edərək kin və qeyzdən uzaq bir zehniyyətlə aralarında iş birliyi qurmaları lazım gəlməkdədir. Bunun üçün də əxlaq və ruh sağlamlığının hər şeyin fövqündə millətlərdə təsis etməsi gərəkdir. Eqoizm, şovinizm və rasizmdən uzaq olaraq millətlərdə yerləşməsi lazım gələn bu üstün vəsfin yaranması və inkişafı üçün tək ünsürün də milli ruh olması fikri, bu gün dünənə nəzərən daha yaxşı özünü göstərməkdədir”.[231]

Göygöl hesab edirdi ki, millətlərin bir qazanda qaynadılaraq, insanlar arasında sinfi mücadiləsi fikri köpüklənərək və təkbaşına iqtisadi ümdələrə istiqbal bağlanaraq artıq insanlığa rifah təmin edilməyəcəyi həqiqət olaraq görünməkdədir. Bütün bunların əvəzində isə, milli ruhun və üstün əxlaqın insanları rifah və səadətlə təmin etməsi ideyası azad dünyaca qəbul edilməkdədir. O, yazırdı: “Bolşevik Kommunist istilası altındakı millətlərdə Milli Ruhun korladılmadığı da bizə göstərməkdədir ki, milli ruh insanlara istiqbal termini üçün mütəmadi bir çırpınma halındadır. Bu gün istila alıtndan qaçaraq xaricə mühacirət edənlərin, milli ruhun təzahürü halında, bütün həyat qayğısına rəğmən, kommunizm fikir və ideolojisi ilə mücadilə etdiklərini görməkdəyik. Macarıstanda axıdılan son qanlar da yenə Milli Ruhun şahlanan bir həyəcanınından başqa şey deyildi. Bütün təfərrüatı ilə görməkdəyik ki, bu gün qurtuluş üçün üzərində həssaslıqla durulması lazım gələn ünsürün milli ruh olduğu bütün çılpaqlığı ilə çözülməkdədir. Milli ruhun tənəzzülü və ortadan itməsi yalnız millətlərə deyil, ümumən insanlığa köləlik, hürriyyətsizlik, haqq və hüquqdan məhrumiyyət gətirir. Bu etibarla millətlərdə mövcud milli ruhun mühafizəsi insanlığın üzərində ciddiyyətlə durması lazım gələn bir məsələdir. Milli ruhun mövcudiyyəti ilə “Millətlərə istiqlal, insanlığa hürriyyət!” təmin edilə bilir. Milli ruhun mühafizəsi üçün bütün millətlərin müştərək qüvvə sərf etmələri zərurəti, bu gün dünəndən daha çox ehtiyac halındadır. Kommunistlər bu ruhun məhvi üçün hər gün bir az daha hiylə və aldatma yolları kəşf edərək insanlığı köləliyə sürükləməkdədir”.[232]

---

[231] Yenə orada, s.179
[232] Yenə orada, s.180

***

1913-cü ildə Qazaxda anadan olan **Hacı Həsənzadə ya da Alazan Baycan (1913-1989)** Qazax Müəllimlər Seminariyasını bitirdikdən sonra,[233] 1931-ci ildə Azərbaycan Dövlət Universitetinin Tibb fakültəsinə daxil olsa da 1933-cü ildə universiteti yarımçıq qoyaraq əvvəlcə "İran Pəhləviləri"nə, daha sonra isə Türkiyəyə üz tutub. Mühacirətdə "Alazan Baycan" ad, soyadını götürən H.Həsənzadə 1942-ci ildə Almaniyaya gedərək əvəvlcə Berlin Universitetində, daha sonra Frayburq Universitetində fəaliyyət göstərib. 1943-cü ildən 1947-ci ilədək əsir düşərgələrində həkim və tərcüməçi kimi fəaliyyət göstərib. [234] O, 1989-cu il noyabrın 8-də Frayburqda vəfat edib.

A.Baycanın yaradıcılığında əsas tənqid hədəfi rus işğalı, ruslaşdırma siyasəti, fars şovinizmi olmuşdur. "Könül sazından", "Ana dili", "Dilican yollarında", "Ruslaşma", "Bilməcə" adlı şeirlərində, "Azərbaycan satqınlarına", "Bitdili imamı", "Qızıl şeytan" poemalarında şair, rus və fars rejimlərinin xalqımıza, onun milli-mənəvi dəyərlərinə, dilinə düşmən münasibəti tənqid etmişdir. [235] Şeirlərində milli dil məsələsinə özəl yer verən Baycantürk sözlərinin əvəzinə əcnəbi kəlmələrdən istifadə etməyin əleyhinə olmuşdur.[236] O, "Ana dili" şeirində yazırdı:

*Ana dilin Türk dilidir,*
*Anlamlıdır, sevimlidir.*
*Oğuz dilli Azərbaycan,*
*Dilin gözəl rusdan, farsdan.*[237]

Baycan "Ruslaşma" şeirində yazırdı:

*Gəzdirmə adında "ov"u, "oviç"i,*
*Sənin soyun türkdür, türklüyündə qal!*

---

[233] Sultanlı Vaqif. Azərbaycan mühacirət ədəbiyyatı. Bakı, Şirvannəşr, 1998, s.29
[234] Əhməd, Dilqəm. "Əsir düşərgəsində bir həkim-tərcüməçi – Alazan Baycan". infonews.az. 2021-09-07
[235] Baycan Alazan. Əsərləri ("Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası" seriyası, V cild). Bakı, Elm və təhsil, 2021, s.5-14
[236] Yenə orada, s.31
[237] Yenə orada, s.82

*Erməni "yan", gürcü "idze", "şivili",*
*Sən də Türk oğlusan, öz kökündə qal!*
*Zorla ruslaşdırmaq rusun əməli,*
*Kəndisi millətçi, sinsi və kurnaz.*
*Atalar sözünü iyi bilməli:*
*Kökündən ayrılan ölür, yaşamaz.*
*Satılmışlar dersə hər şeyə "bəli",*
*Əlifbanı dəyişdi, "yox" de, "olmaz" de,*
*Nədən dəyişmədi gürcü, erməni?*
*Uydurma əlifba bizə uymaz de...*[238]

Baycan "Azərbaycan satqınlarına", "Bitdili imamı" poemalarında da ruslaşdırmanın əleyhinə çıxmış, rus bolşevizmini ifşa etməyə çalışmışdır. Onun fikrincə, Marks, Lenin və digər kommunistlər bilgisiz xalqları, o cümlədən Azərbaycan xalqını aldadıb əsir etmişdir. O, yazırdı:

*Yüzlərcə Lenin əsəri,*
*Hər şeyi də Lenin dedi,*
*Bunlara ağlım ermədi,*
*Bunları yazdı nə zaman,*
*Deyilmi bunlar,həp yalan?*

*Opium dedi Marks dinə,*
*Əgər din bir opium isə,*
*Onların opiumları nə?*
*Din deyilmi, Azərbaycan,*
*Dini ilə xalqı uyudan.*

*Deyilmi Lenin peyğəmbər?*
*Deyilmi Marks əkbər?*
*Deyilmi ruslar mələklər?*
*Marks, Lenin diyarından,*
*Səslər gəlir yandıq aman!*

*Rusların sinsi əməli,*

[238] Yenə orada, s.89

*Ruslaşdırmaq Türk dilini,*
*Fars da, Çin də ruslar kimi,*
*Onlar da türklərə düşman,*
*Yazıq sənə Azərbaycan.*[239]

Baycan "Ata və oğul" şeirində milli dəyərləri yaşatmağın önəmindən bəhs etmişdir. O, yazırdı:

*Ağıllı, ülkülü, bənzər birləşsə,*
*Yenər yağıları öz gücləriylə.*
*Geridə qalmanın özlü nədəni,*
*Bilgisiz, ülküsüz, yaşam düzəni.*

*Dəyərsizlər dəyərlini bəyənməz,*
*Dəyərli olmağı o heç düşünməz.*
*Biri becerikli, mutlu yaşarsa,*
*Dəyərsizlər çıxar oxla qarşıya,*
*Erdək olur o zavallı oxlara.*[240]

O, bir şeirində Güney Azərbaycanda İran Pəhləvilərinin etdiyi zülmlərdən bəhs etmişdir:

*O məndəbur Pəhləvi*
*Dilimizə düşmən olub.*
*O yolsuz oğru, tiryəki,*
*Bir yırtıcı sırtlan olub.*

*Neyləyək, yanar canımız,*
*Dost bulunmur yaman gündə.*
*Qonşumuz və qardaşımız*
*Dönüb, baxmır üzümüzə.*

*Bir deyil bizim yağımız,*
*Biri dinsiz, biri dindar,*
*Göylərə çıxdı ahımız,*
*Onlar bizi soyar, çapar.*

---

[239] Yenə orada, s.118-119
[240] Yenə orada, s.101

*İşimiz Allaha qaldı*
*Yardım edərsə o bizə,*
*Dərdlərdən gözüm yaşardı,*
*Tanrı acır hər gücsüzə.*[241]

O, "Bilməcə" şeirində Azərbaycanın bölünməsindən söz açaraq, bir gün yenidən bütövləşəcəyimizə ümid etmişdir:

*Kim böldü Azərbaycanı?*
*Bir ürək heç bölünürmü?*
*İngilismi, rusmu, farsmı?*
*Yurdumuzu kimlər böldü?*

*Kim dedi türklərə əcəm?*
*Yoxsul deyilmi bilgidən?*
*Tax ağzına dəmirdən gəm,*
*Ayırmasın türkü türkdən.*[242]

Baycan poemalarının birində də Azərbaycanın bütövləşməsi məsələsinə toxunmuşdur:

*Bölmək olmaz bir ürəyi,*
*Onlar qardaş, eyni dilli,*
*Bir gün onlar birləşməli,*
*O tay, bu tay Azərbaycan,*
*Qurtulmalı rusdan, farsdan!*

*Milyonlarla türk, azəri,*
*Rusun, farsın əsirləri,*
*Qıracaqdır zəncirləri,*
*Nə mutludur azadlıqdan*
*Ümid duyan haqlı insan.*[243]

A.Baycan "Məhəmməd Əmin Rəsulzadənin əziz ruhuna" başlıqlı şeirində yazırdı:

*Ölümsüz yaşayan, ey qutsal insan!*
*Özgürlük istədin ömür boyunca.*

---

[241] Yenə orada, s.35
[242] Yenə orada, s.102
[243] Yenə orada, s.120

*Unutmaz nəsillər səni heç bir an,*
*Anılacaq adın dünya durduqca!*

*İnsan haqqı və özgürlük istədin,*
*Qələmin tüfəngdi, süngüydü çara.*
*Haqq alınmaz, ancaq verilir dedin,*
*Verilməli yurdun Azərbaycana.*

*Qardaş yardımıyla bir dövlət qurdun,*
*Bağımsız və mutlu günlər yaşadı.*
*İç və dış savaşa sən qarşı durdun,*
*Yaşı iki ilə ulaşamadı.*

*Rusun orduları tez işğal etdi,*
*Qalmadı, nə yazıq, milli varlığın.*
*Kim unudar qanlı keçən keçmişi,*
*Endirildi ay-ulduzlu bayrağın.*

*Qalıntı dönəcək bir gün yurduna,*
*Ey böyük ülküçü, bənzərsiz öndər!*
*Yaparlar adına anıt Bakıda,*
*Ey Vətən uğrunda can verən əsgər!*[244]

***

1923-cü ildə Bakıda anadan olan **Teymur Mustafayev-Atəşli (1923-1976)** 1939-cu ildə Azərbaycan Dövlət Universitetinin Xarici Dillər fakültəsinin alman filologiyası şöbəsinə daxil olub. İkinci kursda olarkən səfərbərliyə cəlb olunaraq 2-ci Dünya müharibəsində iştirak etmək üçün Polşa cəbhəsinə göndərilib. 1942-ci ilin iyununda iki rus komissarını öldürərək əvvəlcədən razılaşdığı 20 əsgərlə birlikdə almanlar tərəfə keçərək burada Berlin Zabitlər Məktəbində xüsusi kurs keçib. Buranı leytenant rütbəsi ilə bitirdikdən sonra SS birliyinə təyinatı çıxıb və bir sıra

[244] Yenə orada, s.77

hərbi əməliyyatlarda iştirak edərək baş leytenant rütbəsi alıb.[245] 95 gün Stalinqrad döyüşlərində iştirak edən Atəşli Sovet ordusuna əsir düşsə də, əsirlikdən qurutularaq Almaniyaya aparılıb.

Türkiyənin himayəsi ilə 1949-cu il fevralında əvvəlcə İstanbula, daha sonra Adapazarına köçüb. İngilis, alman və rus dillərini bildiyinə görə xarici dil müəllimi və notariat qurumlarında, məhkəmələrdə andlı tərcüməçi kimi fəaliyyət göstərib. 1956-cı ildə "Hürriyyət" qəzetinin ardıcıl 45 sayında "Stalinqrad cəhənnəmində 95 gün çarpışan Türk" adlı döyüş xatirələri çap olunub.[246] O, 1976-cı ildə Sakaryada işlədiyi "Axşam Xəbərləri" qəzetinin mətbəəsində ürək tutmasından vəfat edib.[247] Türkiyədə "Hicran Səsləri", "Ana", "Rübailər" və "Qəzəl" adlı kitabları işıq üzü görüb.

T.Atəşlinin yaradıcılığında əsas istiqamətlərdən biri Sovet Rusiyasının işğalçılıq siyasəti, rus bolşevizminin ifşası və bütün bunların fonunda əsir xalqların milli azadlıq davası olmuşdur. O, "Qafqaz" şeirində Rusiyanın işğalçılıq siyasətinə qarşı Qafqaz xalqlarının milli müqavimət hərəkatlarını belə dəyərləndirmişdir:

*Pələnglər yuvası, vüqarlı Qafqaz!*
*Tökmə gözyaşını, sənə yaraşmaz.*
*Nədir bu köksündə yadlar at çapır?*
*Ötən, yetən səni quduz tək qapır.*
*Nə üçün qəlbinə oxlar dirənmiş?*
*Nə üçün üstünə buludlar enmiş?*
*Partlayır ürəyim, cavab ver mənə,*
*Böylə deyildin ki, nə olmuş sənə?*
*Neçin lal olmusan, neçin susursan?*
*Nə üçün çiyninə əyilmiş başın?*
*Coşdur hiddətini, nərildə üsyan!*
*Top kimi partlasın torpağın, daşın!*

---

[245] Atəşli Teymur. Seçilmiş əsərləri ("Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası" seriyası, IV cild). Bakı, Elm və təhsil, 2020, s.5

[246] Cabbarlı Nikpur. Azərbaycan mühacirət nəsri. Bakı, Elm və təhsil, 2011, s.9

[247] Cabbarlı Nikpur. XX əsr Azərbaycan mühacirət ədəbiyyatı (türkdilli örnəklər əsasında). Bakı, Elm və təhsil, 2017, s. 33

*Haray, Şamillərin gözündən iraq,*
*Gözəl Qafqaz olub yadlara tapdaq.*
*Didirlər ətini qart canavar tək,*
*Soyur el-obanı gündə min kələk.*
*İgidlər vətəndən düşüb aralı,*
*Saçından asılır dağlar maralı.*
*Döyür qapıları böhtan, iftira,*
*Vicdanlar geyinib kömürdən qara.*
*Vətən vətəndaşa həbsxanadır,*
*Qafqaz, sanki bu ad bir əfsanədir.*[248]

O, "Aç qoynunu Ana Vətən" şeirində də Qafqaz xalqlarını, o cümlədən Azərbaycan türklərini Sovetlər Birliyi imperiyasına qarşı mücadiləyə səsləmişdir. Atəşli yazırdı:

*Azəriyəm, Türk oğluyam, haqq sevən bir insanam,*
*Alnı açıq, qəlbi təmiz, Allah bilir, müsəlmanam.*
*Vətən deyib gəldim sənə, haqq deyirəm vətənimsən,*
*İlk günəşim burda doğub,baba yurdum,yuvam sənsən.*
*Bu torpaqda yatır mənim sənə şəhid babalarım,*
*O qəhrəman babalardan mən də sənə yadigarım.*
*Mən səninçün uğurluyam, çünki məndə Türk qanı var*
*Türk qanıyla coşan könül vətəninə sadiq olar.*[249]

O, "İstiqlal" şeirində yazırdı ki, istiqlal elə bir günəşdir, bahardır onsuz həyat yaşanmadığı, çiçəklər açmadığı kimi, kainat da cəhənnəmə çevrilir. Atəşli yazırdı:

*İstiqlal bir günəşdir, onsuz yaşanmaz həyat,*
*Dünya məhbəsdir onsuz, cəhənnəmdir kainat.*
*İstiqlal bir bahardır, onsuz çiçəklər açmaz,*
*Onsuz məhkumdur hər şey, səmalarda quş uçmaz…*
*İstiqlalsız bir könül viran olmuş xanədir,*
*Onsuz şərəf, səadət, hər bir şey əfsanədir.*
*İstiqlal, can istiqlal, şərəf və şan istiqlal,*
*Göydə günəş, sönsə də, sən yenə yan, istiqlal.*

---

[248] Atəşli Teymur. Seçilmiş əsərləri ("Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası" seriyası, IV cild). Bakı, Elm və təhsil, 2020, s.5
[249] Yenə orada, s.55

*Mən istiqlal aşiqi, yalnız sənə can dedim,*
*Qəlbimi məşəl etdim, istiqlalçün yan, dedim.*[250]

T.Atəşli "Görməyə gəldim" şeirini isə M.Ə.Rəsulzadənin qutlu məzarını ziyarət edərkən qələmə almışdır. O, yazırdı:

*Səndən ayrı düşdüm xeyli zamandır,*
*Özlədim mən səni görməyə gəldim.*
*Yaralı könlümə sənin əlinlə,*
*Şəfa məlhəmini sürməyə gəldim.*

*Aradım bulmadım, yalvardım: Aman,*
*Söyləyin nerdədir dərdimə dərman?*
*Dedilər o köçmüş, getmiş dünyadan,*
*Qəbrini qəlbimə hörməyə gəldim.*

*Dedilər, səninçin gözyaşı tökən,*
*Qəbrinin başında bir an diz çökən*
*Savab işləyərmiş, bunu duyarkən,*
*Mən də savabıma erməyə gəldim.*

*Möhtəşəm varlığın bir məzar olmuş,*
*Cənnəti andıran çəmənzar olmuş,*
*Qış və yaz gül açan bir gülzar olmuş,*
*Yerimi yanında sərməyə gəldim.*

*Ölüm… o, hicranın pərişan səsi,*
*Bəşərin ilk dərdi, ilk fəlsəfəsi,*
*Zamanla götürüb gedər hər kəsi,*
*Mən Sənə təsəlli verməyə gəldim.*

*Hər könüldə Sənin izini gördüm,*
*Hər ağızda, dildə sözünü gördüm,*
*Hər açan çiçəkdə üzünü gördüm,*
*Nədir bu hikmətin, sormağa gəldim…*

[250] Yenə orada, s.57

*Niyaz etdim, dedim: Ruhun şad olsun,*
*Qəbrin göydən enən nur ilə dolsun,*
*Əsir Azərbaycan haqqını bulsun,*
*Niyazım qəbulmu? Bilməyə gəldim...*[251]

Teymur Atəşli "Ustadıma" şeirini də M.Əmin Rəsulzadənin əziz ruhuna ithaf etmişdir. Həmin şeirini Rəsulzadənin vəfatının ikinci ildöğnümü ilə bağlı qələmə alan mühacir aydınımız yazırdı:

*Sinəsi nur saçan asiman idin,*
*Cahana sığmayan bir cahan idin,*
*Ey gözümdə günəş, könlümdə bahar,*
*Sən həyat qaynağı bir ümman idin.*
*Eşini tarixdə görən olmadı,*
*Çünki yetmiş illik ömürünü yalnız*
*Bir ülkü uğruna verən olmadı.*
*Həyata idrakla, imanla gəldin,*
*Həyatın ən dərin sirrini bildin.*
*Dedin: dönmək nədir, ölmək var ikən,*
*Şərəflə yaşadın, şərəflə öldün.*
*Ölümün cahanda ələm yaratdı,*
*Dünyamız ən böyük acını daddı.*
*Çünki hürr aləmin üfüqlərində*
*"Böyük bir istiqlal günəşi" batdı.*
*Keçdikcə nəsillər, keçdikcə dövran,*
*Səndən dərs alacaq ellər hər zaman.*
*Bir məktəb bəxş etdi hər günün bizə,*
*Əsərin olacaq hürr Azərbaycan!*[252]

O, "Azərbaycan" şeirini də "Böyük Ustadım Məhəmməd Əmin Rəsulzadəyə" deyə, milli ideoloqa ithaf etmiş, Azərbaycanla Onu bütövləşdirmişdir. Atəşli yazırdı:

*Heç bir yerdə görülməmiş, soraqlaşdım bu dünyanı*
*Azərbaycan, bir səndədir insanlığın can dərmanı.*
*Görməyənlər arzu edər o torpağı görəydim, ah,*
*Görən deyər o torpaqda min il ömür sürəydim, ah*

---

[251] Yenə orada, s.60-61
[252] Yenə orada, s.72

*Mən belə bir vətənimdən aralıyam, aman, dostlar,*
*Mənim dərdim çox böyükdür, yaralıyam, aman, dostlar*
*Könlümdə bir həsrətim var, qürbət eldə ölsəm əgər,*
*O torpaqdan tək bir ovuc məzarıma səpəydilər.*
*Ruhum şad olardı mənim, məzarım da sərinlərdi,*
*Çünki məni çox yaxmışdır annəm Azərbaycan dərdi.*[253]

O, Türk gəncliyinə ərmağan etdiyi "Hürriyyət" şeirində türklərin dünyaya hürr gəldiklərini və hürr yaşamaq haqqının da olduğunu ifadə etmişdir.

*Hürriyyət bağrımızdan yüksələn bir hilaldır,*
*Hürriyyət o... qanımdır, baxın, rəngi də aldır…*
*Hər varlıq bir fanidir, fəqət Hürriyyət ölməz,*
*Hürriyyət bir günəşdir, o torpağa gömülməz.*
*Gözlərdə sönsə belə, könüllərdə yanacaq,*
*Boğulduqca hürriyyət daha da canlanacaq.*
*Mən insanam, Hürriyyət insanlıq nişanımdır,*
*Onsuz insanlıq olmaz, o ən böyük şanımdır…*
*Vaz keçdim əkməyimdən, hər eşsiz nemətimdən,*
*Fəqət vaz keçməm əsla canım Hürriyyətimdən.*
*Vaz keçdim cananımdan, övladımdan, canımdan…*
*Allahım!.. Hürriyyətsiz buraxma məni bir an…*[254]

O, "Qəhr olsun kommunizm" şeirində kommunizmi iblisə bənzədib, millət və din düşməni adlandırmışdır. Atəşli yazırdı:

*Qəhr olsun kommunizm, o din düşməni illət,*
*Məlun bir iblisdir o, qorxunc üzünə lənət.*
*Milyonların qanından, kəmiyindən, ətindən,*
*Canavar kimi yeyib, bəslənən vəhşətdir o,*
*Sevinc duyar insanın hər bir fəlakətindən –*
*Röyalara girməsin, nə böyük dəhşətdir o…*
*Cəhənnəm dedikləri heçdir onun yanında,*
*Həyat düşmənidir o, yaınız ölüm var onda.*
*Dünyanı qana boğmaq ən böyük əməlidir,*
*Fəlakətə yol açan onun qanlı əlidir…*[255]

[253] Yenə orada, s.64
[254] Yenə orada, s.125-126

Atəşli "Mənim səsim" şeirində türklüyün elə insanlığın, azadlığın, ədalətliliyin özünün olmasını ifadə etmişdir:

*Azəriyəm, mən türklüyün ilk doğduğu diyardanam,*
*İnsanlığa hürriyyəti müjdələyən bahardanam.*
*Sehirli gözəllik ölkəsi Azərbaycan vətənimdir,*
*Tarixlərə dastan olan şərəf mənim, şan mənimdir.*
*Türk doğmuşam, Türk yaşaram, Türk olaraq ölməliyəm,*
*Zindan mənim haqqım deyil, mən ədalət görməliyəm.*
*Zəncir vurulmaz bu qola, ölməmişəm mən diriyəm,*
*Mən kimsəyə əsir olmam, çünki vətən əsiriyəm.*
*Türk vətəni düşmənlərə məzar olur, yar olamaz,*
*Şəhid yatan bir torpaqda zülmət gecə var olamaz.*[256]

O, Birləmiş Millətlərə ünvanladığı şeirində isə haqq-ədalət istəyən milyonlardan biri olduğunu yazırdı. Atəşli deyirdi ki, dünyaya insanlıq yolunda xidmət edən, ədalətliliyi öyrədən türklərin bu gün əsarət altında yaşaması qəbuledilməzdir:

*Yerimiz var dünyada, baxın biz də insanız –*
*Əsil TÜRK soyundanız, haqq tanır müslümanız...*
*Biz insanlıq yolunda hizmət etdik, bu suçmu?*
*Ədaləti dünyaya biz öyrətdik, bu suçmu?*
*Füzulilər doğurduq, Nəvailər böyütdük –*
*Ayrılmadıq biz haqdan, doğru ketdik, bu suçmu?*
*İnsanlığa, tarixə örnək olduq hər zaman,*
*İştə mükafatımız – zülüm, zəncir və zindan...*[257]

***

1905-ci ildə Gəncədə Rəfibəylilər ailəsində dünyaya gələn **Səlim Rəfiq Rəfioğlu** (1905-1980) 1927-ci ildə Gəncə Pedaqoji Texnikumunu bitirdikdən sonra əvvəlcə "İran Pəhləviləri"nə, daha sonra Türkiyəyə getmişdir. 1930-cu ildə İstanbul Universiteti Ədəbiyyat fakültəsinə daxil olan S.Rəfiq Türkiyə vətəndaşlığına

[255] Yenə orada, s.127
[256] Yenə orada, s.128
[257] Yenə orada, s.129-130

qəbul edilmişdır.[258] Təhsilini 1933-cü ildə tamamlayaraq İstanbul Universitetinin Ədəbiyyat fakültəsindən və Yüksək Müəllim Məktəbindən məzun olmuşdur[259] S.Rəfiq, 1934-cü ildə Antalya Liseyində ədəbiyyat müəllimi kimi vəzifəyə başlamışdır. Antalyadakı vəzifəsindən sonra Malatya, Bursa və İstanbulda müəllimlik edən Səlim Rəfiq 1962-ci ci ildə təqaüdə çıxmışdır. 1968-ci ildə Azərbaycanda olan S.Rəfiq 1980-ci ildə İstanbulda vəfat etmişdir.

Səlim Rəfiq Rəfioğlunun Türkiyə kitabxanalarında kitab halında altı əsəri vardır. Bunlardan üçü nəşr olunmuş, digər üçü isə makina ilə yazılmış və cildlənərək kitab halına gətirilmişdır: "Azərbaycan və Anadolu xalq hekayələrinin təhlili və müqayisəsi", "Füzuli", "Divan ədəbiyyatının məhəlli və ictimai motivləri", "Professor Bəkir Çobanzadəyə cavab", "Professor Əhməd Cəfəroğlunun əsərlərində görünən xətalar: Bir əlavə - bir düşüncə - bir cavab", "Azərbaycan ədəbiyyatı – Seçilmiş misralar" və b.

Onun ictimai-fəlsəfi fikri tarixi ilə bağlı olan əsəri "Füzuli"dir. "Füzuli" əsərinin mündəricatı aşağıdakı bölümləri əhatə edir: "Füzulinin həyatı", "Füzulinin elmi", "Füzulinin eşqı", "Füzulinin təsiri və şöhrəti", "Füzulinin biblioqrafiyası".

Füzulinin həyatı haqqında çox az məlumat olduğunu bildirən tədqiqatçı: "Əski qaynaqlar onu bu baxımından ihmal etmişdir. Bundan dolayı Füzulinin məsələn, şəcərəsi, ailəsi, çocuqluğu və gəncliyi haqqında demək olar ki, heç bir qeydə təsadüf edilməmişdır. Bunlar bizim üçün yalnız böyük bir itki deyil, eyni zamanda acı bir həqiqətdir" – qənaətinə gəlir.[260] Onun fikrincə, Füzulinin elmi heç də şairliyindən zəif olmamış, o yalnız şair deyil, həm də alim olmuşdur.[261] Bu anlamda Füzulinin elmini isbat edən düşüncələrini qələmə alan S.Rəfiq yazırdı ki, Füzuli zamanında filosofların sözlərinə etirazlarda bulunmuş, yeri gəldikcə öz fikir və

---

[258] Rəfioğlu Səlim Rəfiq. Füzuli ("Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası" seriyası, III cild). Bakı, Elm və təhsil, 2019, s.5-8
[259] Ataş, Hayri. Səlim Rəfiq Rəfioğlunun ədəbi-elmi irsi, Bakı, "Nurlar", 2018, s.17
[260] Rəfioğlu Səlim Rəfiq. Füzuli ("Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası" seriyası, III cild). Bakı, Elm və təhsil, 2019, s.33
[261] Yenə orada, s.146

mülahizələrini irəli sürmüşdür: "Görülüyor ki, Füzuli zamanında hükəmanın sözlərinə etirazda buluna biliyor və kəndində füqəhayı tənqid etmək qüdrətini görürdü. Hələ söz fənində, yəni nəzm və şeir bəhslərində deyiləcək yox. O, bunları elm alanındakı göstərdiyi sistemli çalışmaya borcludur".[262] Ona görə Füzuli biliyə, elmə çox əhəmiyyət vermişdir. O, yazırdı: "O, elmin önəmini bəlirtmək və bilgi lüzumunu təlqin etməklə qalmamış, eyni zamanda kəndisini də bu yola sövq etmiş və bu xüsusda mümkün olan hər şeyi yapmaqdan zərrə qədər çəkinməmişdir".[263]

***

1908-ci ildə Naxçıvanın Şərur rayonunun Düdəngə kəndində anadan olan **Əbdürrəhman Fətəlibəyli-Düdənginski (1908-1954)** 1940-1960-cı illərdə bolşevizmə qarşı bir tərəfdən ictimai-siyasi fəaliyyətlə məşğul olmuş, digər tərəfdən isə ideoloji-fəlsəfi savaş aparmışdı. 2-ci Dünya müharibəsi illərində yaranmış Azərbaycan Milli Birlik Məclisinin rəhbəri vəzifəsinə seçilən Düdənginski, Almaniyanın SSRİ üzərində qələbə əldə edəcəyi təqdirdə Azərbaycanın müstəqillik qazanacağına inanmışdı. O, yazırdı ki, "Milli Birliy"in yaranmasına başlıca səbəb Azərbaycan Sovet Rusiyası tərəfindən işğal olduqdan sonra digər millətlərlə müqayisədə ən çox təcavuzə uğraması, yəni milli mənsubiyyətinin, milli dili və tarixinin tamamilə saxtalaşdırılması olmuşdur: "Tarixin bəzi saxtakarlarının bu cür "səylərinə" görə Azəri türkləri Qafqazda yad xalq kimi hesab olunurdular və buna görə də, bütün xalqlar öz əsil adları ilə tanınanda bizə əmr olundu ki, "azərbaycanlı" adlanaq. Bütün xalqlar öz rəmzlərindən istifadə edə bildiyi halda, bizə əmr olunmuşdu ki, Türk rəmzi olan ulduz və ayparanı ləğv edək. Heç kimin ixtiyarı yox idi ki, "Türk" və "müstəqillik" sözündən istifadə etsin".[264]

Bu baxımdan Almaniyanın yardımı ilə Azərbaycanı yenidən azad etmək üçün əvvəlcə Azərbaycan Qərargahı, daha sonra Azər-

---

[262] Yenə orada, s.148
[263] Yenə orada, s.149
[264] Yaqublu Nəsiman. Əbdürrəhman Fətəlibəyli-Düdənginski. Bakı. "Abşeron-Nəşr" 2009, s.98

baycan Milli Birlik Məclisini yaratdıqlarını deyən Düdənginski yazır: "Qərargah öz işi ilə yanaşı, ilk siyasi tələblərini bildirdi: 1) Azərbaycan rəmzlərinin bərpası (burada Almaniyanın digər dövlətin rəmzini dəyişdirmək hüququ nəzərdə tutulurdu), 2) Milli adın bərpası (nəzərdə tutulurdu ki, "azərbaycanlı milləti" yoxdur "Azəri türkü" var. Və alman hakimiyyəti bizi "azərbaycanlı" adlandırmağa məcbur etməklə Stalinin siyasətini davam etdirir)".[265]

O, yazırdı ki, əsas məqsədlərindən biri azərbaycanlıları yenidən türklüyə qaytarmaq və onların rəmzlərini bərpa etmək idi. Bunun üçün Azərbaycanın milli maraqları müəyyənləşdirilməli və milli iradəsi nümayiş etdirilməli idi: "Bütün bunlar Azərbaycanın təşkilat və hissələrinin nümayəndələrinin iştirakı ilə qurultayın çağırılmasına gətirib çıxartdı ki, birləşək və dünyaya eşitdirək ki, biz Azəri türkləri vətənimizin müstəqilliyi uğrunda mübarizə aparırıq və öz qanımızla bir ağanın digəri ilə əvəz olunmasına imkan vermək fikrində deyilik".[266]

1943-cü il noyabrında "Milli Birliy"in təşəbbüsü ilə Milli Azərbaycan Qurultayı keçirilmiş, həmin qurultayda Düdənginski məruzə ilə çıxış edərək azərbaycanlıların çar valilərinə, bolşevik əsarətinə dözmədiyi kimi, hər hansı bir millətin hakimiyyətinə də dözməyəcəyini, Azərbaycanı azərbaycanlılar idarə etmiş və yenə onlar idarə edəcəkdir demişdir. O, daha sonra qeyd etmişdir ki, "Milli Birliy"in əsas məqsədi bolşevizmin məhvi və Azərbaycanın müstəqilliyidir. Azərbaycan müstəqillik əldə etdikdən sonra milli mədəniyyət və milli dil-Türk dili bərpa olunacaq, Milli Akademiya yarıdılacaq və sinfi mübarizəyə son veriləcəkdir: "Yeni Azərbaycanda daxili münaqişələrə, sinfi müharibələrə yer ola bilməz. Biz yol verə bilmərik ki, Yeni Azərbaycanda köhnə hadisələrin hesabı aparılsın. Biz xalqımızın gücünü bu cür dağıdıcı işə sərf edə bilmərik. Xalqın bütün enerjisi yaradıcı, mədəni işə istiqamətləndiriləcək. Tam sərbəstlik yaratmaq və işləmək imkanı bolşeviklərin dövründə kim olmasına baxmayaraq, hər bir azərbaycanlıya veriləcək.

---

[265] Yenə orada, s.100
[266] Yenə orada, s.101

Yeni Azərbaycanda bir-birilə mücadilə aparan siniflər ola bilməz. Vahid zəhmətkeş Azərbaycan xalqı olacaq. Biz Azərbaycanda yaşayan digər millətlərin zəhmətkeşlərinə qonaqpərvər münasibət bəsləyəcək, təki onlarda bizimlə çalışmaq həvəsi olsun".[267]

Dünyaya milli mənsubiyyətlərini "Azəri Türkü" kimi qələmə verən "Milli Birliy"in rəhbərləri başda Düdənginski olmaqla Almaniyadan Azərbaycanın müstəqilliyini tanıması tələbi ilə də çıxış etmişlər. O yazır: "Biz Azəri türkləri Alimaniyanı və alman xalqını tanıyırdıq və tanıyırıq. Bizim üçün onun dövlət idarəçilik formasının heç bir əhəmiyyəti yoxdur, bu alman xalqının daxili məsələsidir. Bu zaman Milli sosialist hakimiyyəti alman xalqını təmsil edirdi və hətta Milli sosialist nəzəriyyənin yaradıcısı filosof Reyxkansler A.Rozenberq bizi qəbul etdi. Müstəqilliyimizin imperiyanın dağılmasından 1-2 ay əvvəl qəbul olunması böyük əhəmiyyət daşımır. Əsas odur ki, bu Azərbaycan xalqının öz oğullarının qanı və fəaliyyəti hesabına əldə etdiyi dəyərli nailiyyətdir. Əgər Milli Sosialist Almaniyası Azərbaycanın müstəqilliyini tanıdısa, heç bir şübhə yoxdur ki, demokratik dövlətlər bəşəriyyətə bolşevizmə qarşı mübarizə ilə xidmət etmiş Azərbaycanı heç bir tərəddüsüz qəbul edəcəklər".[268] Dudənginski Milli Birliyin varlığını Azərbaycan milli idyeasının varlığı kimi qəbul edirdi: "Bizim üçün Milli Birlik hər şeydən üstündür, xüsusilə də: partiya, qrup, sinif, qohum, qəbilə maraqlarından. Çünki Milli Birlik müstəqillikdir. Bizim heç birimiz ayrı-ayrılıqda və yaxud partiya və qrup şəklində həmin şəraitdə heç nə edə bilməzdik, bütün gücümüzü birləşdirərək Vətənimizin bayrağını yüksəklərə qaldırdıq".[269] O, Azərbaycanın milli varlıq ideyasını belə ifadə edirdi: "İndiki görünməmiş müharibədə biz öz sevimli Azərbaycanımızın azadlığı və xalqımızın ölüm fəlakətindən xilas edilməsi uğrunda mübarizə edirik. Arzumuz Türk kültürümüzü, adət və ənənələrimizi mühafizə edə bilmək, Türk qanımızı

[267] Yenə orada, s.75
[268] Yenə orada, s.122
[269] Yenə orada, s.125

saxlamaqdan ibarətdir”.[270] Hətta, o, bu məqsədlə rəhbərlik etdiyi təşkilatın adından soydaşlarının əcnəbi qızlarla ailə qurulmasını qadağan etmişdir: “Türk qanı təmizliyini mühafizə etmək hər bir azəri türkünün müqəddəs borcudur”.[271]

Müharibədən sonra Münhendə yaşayan Düdənginski burada nəşr olunan “Azərbaycan” (1951) jurnalının və Azadlıq radiosunun “Azərbaycan” redaksiyasının (1953-1954) redaktoru olmuş, Azərbaycan Milli ideyasını müdafiə etmişdi: “İndi isə biz yalnız ona görə yaşayırıq ki, yenidən silahı əlimizə alaq və bütün xalqımızla birgə bolşevizmə qarşı azadlıq, müstəqillik, demokratiya və bütün Yer kürəsində əbədi sülh uğrunda mübarizə aparaq!”.[272]

Azərbaycan milli ideyası çərçivəsində Sovet Rusiyasının kommunizmini ifşa edən Düdənginski hesab edirdi ki, bu təlim rus, ukrayna və xüsusən türk-müsəlman gerçəkliyinə, tarix və ənənələrinə yad və yabançı ideyadır: “Ümumiyyətlə isə, kommunizmin heç bir xalqın gerçəkliyi ilə ümumi nöqtəsi mövcud deyil, çünki kommunizmin vətəni yoxdur. Kommunizm öz xalqının, vətəninin mənafeyini satmaq, dünya proletar inqilabı naminə milyonlarla həyatı qurban verməkdir”.[273] O, kommunizmə, stalinizmə qarşı mübarizə aparmalarını belə əsaslandırırdı: “Kommunizmin gücü onun amansızlığında, həyasızlığında, insanları alçaq hisslərə qaldırmağındadır. Odur ki, kommunizm bütün münasibətlərdə Qərb demokratiyasından güclüdür və bir müddətdən sonra o, qəddarlıqla Qərb demokratiyasını boğacaq. Zaman kommunizmin himayədarıdır. Vaxt onun xeyrinə işləyir, Qərb demokratiyasının yox”.[274]

Vaxtında kommunizmin əsil mahiyyətinin ifşa olunmasını vacib hesab edən Düdənginskinin fikrincə, Lenin, kommunizmin çürüklüyünü, kommunizmin utopiya olmasını anladıqdan sonra, hərbi kommunizmdən NEP-ə, yəni Yeni İqtisadi Siyasətə keçmiş-

---

[270] Cəfərli M.Ş. Azərbaycan legion ədəbiyyatı. Bakı, “QAPP-POLİQRAF”, 2005, s.29
[271] Yenə orada, s.29
[272] Yaqublu Nəsiman. Əbdürrəhman Fətəlibəyli-Düdənginski. Bakı. “Abşeron-Nəşr” 2009, s.125
[273] Yenə orada, s.84
[274] Yenə orada, s.89

dir: "Hərbi kommunizm dövründə Sovet hökuməti mütləq ölümə doğru gedirdi. Yeni iqtisadi siyasətə – NEP-ə keçməklə Lenin onu bu fəlakətdən qurtardı. Kommunizmin nəzəriyyəsi ilə azacıq tanış olanlar bilirlər ki, NEP-in kommunizmlə heç bir əlaqəsi yoxdur".[275]

Onun fikrincə, artıq dünyanın proletarlaşması ilə bağlı Marks nəzəriyyəsi öz qüvvəsini itirməkdədir. Çünki SSRİ-ni çıxmaq şərti ilə yerdə qalan dünya ölkələri proletarlaşmağa elə də meyil göstərmirlər. Düdənginski yazırdı: "Marks dövründəki proletarlara artıq rastlanmır. İndi proletar yox, getdikcə evlərə və bağçalara sahib olan işçilər var. Beləliklə, bu uzun müddət dövründə proletarlaşma, Sovet İttifaqını çıxmaqla, heç bir məmləkətdə görünməmişdi. Xüsusən bizim zamanımızda, müəssisələrin aksiyalarına sahib olan, demək ki, gəlirlərdə paydaş olan işçilərin sayı getdikcə artmaqdadır. Görünür ki, kapitalizm sosializmə əsla hamilə deyil və proletar inqilabını, yəni "qanlı toxumu" və xüsusən bu "qanlı toxumun qanlı meyvəsi" olan proletar diktatorluğunu gözləmək faydasızdır".[276]

Marksizmin dövlət nəzəriyyəsinə gəlincə, Düdənginski yazır: "Engelsə görə dövlət bir sinfin əlində o biri sinif üzərində hökmranlıq etmək üçün bir silahdır. Bu fikirdən aydındır ki, proletar diktatorluğu ictimai sinifləri aradan qaldırdıqdan sonra əlac tapmalıdır, sönüb getməlidir, çünki ona ehtiyac qalmır. Siniflər uzlaşdırıla bilməz, sinfi ziddiyyət olmadığı təqdirdə, onların meyvəsi olan dövlət də ola bilməz. Məlumdur ki, Sovet İttifaqında guya proletariata antaqonist olan burjua sinfi çoxdan bəri məhv edilmişdir".[277]

Stalin özü çıxışlarını birində bəyan etmişdir ki, artıq SSRİ-də bütün istismarçı siniflər məhv edilmiş, işçi və kəndli sinfi qalmışdır. Buna səbəb də, marksizmdən yan keçərək SSRİ-nin yaşamasına kömək edən dialektik materializm (diamat) olmuşdur. Düdənginski yazırdı: "Leninə görə Marks dialektikanı Hegeldən, materializm isə Feyerbaxdan aldı və onları birləşdirdi. Həm də sadəcə birləşdirmə ilə kifayətlənmədi, o onları "təsis" edərək birləşdirdi, beləliklə, dialektik

275 Yenə orada, s.163
276 Yenə orada, s.165
277 Yenə orada, s.125

materializm meydana çıxdı. Bu elm qısaca "diamat" adı altında məşhurdur: onun metodlarından istifadə edərək, çox fikirləşmədən böyük icadlar etmək mümkündür, bütün filosofların nəzəriyyələrini bir saniyədə kirli sabunla suya çevirmək zor bir iş deyil, onun yardımı ilə çap edərsə, marksizmdən də qaçılır, sonra təkrar-təkrar geri dönülür. Məsələn, dövrün taktikasına görə, Şeyx Şamili ən böyük demokrat deyə qəbul etmək, sonra isə onu İngiltərə və Türkiyənin agenti və xalq düşməni kimi damğalatmaq, filosof Heydər Hüseynova Stalin mükafatı verib sonra geri almaq, özünü də həbsə atmaq, Aleksandr Nevskinin məzarını qazıb cəsədini çıxarmaq, gereralsimus Suvorovu qan içici çar yaltağı göstərmək, sonra isə onların adına ordenlər təsis etmək, çar zabitlərinin rütbələrini çiyinlərindən kəsmək, sonra isə çar rütbələrini öz çiyinlərinə taxmaq; və ya kilsə sərvətləri olan kilsələri qapadıb bütün din xadimlərini güllələmək, dini xalqın "tiryəki" deyə adlandırmaq, 25 ildən sonra isə "Allahsızlar cəmiyyətini" dağıdaraq rus ortodoks kilsəsinin birinci sitayişkarı kimi panslavizm, panislamizm, pangermanizm və s. olmağa icazə verir".[278] O, daha sonra yazırdı: "Dialektik materializmdə əsas məsələ təfəkkürün (fikriyyatın) materiya ilə qarşılıqlı münasibətidir. Diamata görə materiya primat, təfəkkür isə predikatdır… Bunu Lenin "Materializm və empiriokritisizm" əsərində belə izah edir: "Təfəkkür materiyanın bir funksiyasıdır". Həqiqət isə bunun əksni göstərir. İnsan öz düşüncəsinin qüdrəti ilə təbiəti və iqtisadiyyatı dəyişdirir və onlardan istifadə edir. İctimai həyat keçmiş nəsillərin elmi, mənəvi və iqtisadi müvəffəqiyyətlərinin üzərində qurulur".[279]

Qeyd edək ki, SSRİ casuslarının əli ilə qətl edilmiş Əbdürrəhman bəyə həsr etdiyi yazısında M.Ə.Rəsulzadə onu Azərbaycan xalqının dəyərli övladlarından biri olaraq görmüşdür. Rəsulzadə öncə bildirmişdir ki, 2. Dünya müharibəsi dövründə almanların təklifi ilə Almaniyada olmuş, onlarla Azərbaycan-Almaniya məsələlərini müzakirə etmişdir. Ancaq müstəqil və milli Azərbaycanın məqsəd və məramını hitlerçi almanlara anlada bilmədiklərini deyən Rəsulzadəyə görə Adolf Hitler heç bir komitəni tanımadığını bəyan etmiş, ancaq "rabitə

[278] Yenə orada, s.168
[279] Yenə orada, s.169

heyətləri"nin qurulmasını əmr etmiş və "Azərbaycan rabitə heyətinin" başına da Düdənginki gətirilmişdir. Rəsulzadə dəfn mərasimindəkui çıxışında deyirdi ki, iş bu hala gəlincə, mayor Düdənginskiyə uğur diləyərək, milli ideyalara sadiq qalacağı müddətdə, onu mənən müdafiə edəcəyini bəyan etmişdir. Rəsulzadəyə görə, Düdənginski Milli Qurultay çağıraraq Milli Birlik Məclisini yaradarkən də milli ideyalara sadiq qalmışdır: "Mərhum hərarətli bir vətənsevər və atılqan bir mücahid idi. Bildiyimiz fəaliyyət sahəsinə hələ atılmadan, cəbhədə adı duyulmayan bir əsgər ikən, hadisələrin axarı ilə üzə çıxan hissiyyatı onun səmimi bir vətənsevər olduğunu göstərir... Qurtuluşu həyata keçiriləcək hürr və müstəqil vətəndə adları şan və şərəflə anılacaq qurbanlar arasında indi xatirəsini andığımız mərhum da olacaqdır".[280]

Bizcə, Rəsulzadənin Düdənginski haqqında dediyi dəyərli sözlər bu gün də öz aktuallığını qoruyub saxlamaqdadır.

***

1901-ci ildə Bakıda anadan olan **Kərim Odər (1901-1981)** Bakı Ticarət Liseyini bitirdikdən sonra, Cümhuriyyət dövründə XİN-də özəl Qələm müdirliyi vəzifəsində çalışıb. 27 aprel işğalından sonra K.Odər bir müddət XİN-də çalışmağa davam etsə də, ancaq bolşeviklərin terror rejimi ilə ölkəni idarə etdiklərini görüb Azərbaycanı tərk etmək məcburiyyətində qalıb; əvvəlcə Tiflisə oradan da Türkiyəyə köçüb. Osmanlı Bankında 7 ilə qədər işlədikdən sonra Mərkəzi Bankda işə qəbul edilib. Odər bir müddət "Müsavat"ın rəhbərliyində yer alıb, 1959-1981-ci illərdə isə Partiyanın üçüncü başqanı olub.1976-cı ildə Azərbaycan Milli Mərkəzinin başqanı Ə.Yurdsevərin vəfatından sonra oranın Başqanlığı da Odərə tapşırılıb.O, 1981-ci ilin 19 noyabrında vəfat edib.

Onun əsərləri "Azərbaycan", "Azərbaycan ekonomsi", "Milli Azərbaycan Cümhuriyyəti" və başqalarıdır. O, "Azərbaycan" dərgisinə də onlarla məqalələr yazmışdır. Bu əsərlərində Odərin əsas hədəfi Azərbaycan Türk mədəniyyəti, tarixi, iqtisadiyyatı və Milli İstiqlal ideyası olmuşdur. Məsələn, Odər "Milli Azərbaycan Cümhuriyyəti" əsərində yazırdı ki, milli-dini dəyərlərə əsaslanan bir dövləti müvəq-

---

[280] Yenə orada, s.228-232

qəti də olsa, zorla aradan qaldırmaq mümkündürsə, onu tarix səhnəsindən tamamilə silmək isə mümkün deyildir.[281]

***

Azərbaycan türklərindən olan **Feyzi Aküzüm (1922-1991)** Qarsda anadan olmuş, Ankara Universitetinin Ziraət fakültəsində təhsil almışdır. 1949-cu ildən Azərbaycan Kültür Dərnəyinin işlərində fəallıq göstərmiş, 1973-1990-cı illərdə həmin dərnəyin başqanı olmuşdur. O, 1991-ci ilin dekabrında Ankarada vəfat etmişdir. Aküzmün əsas əsərləri aşağıdakılardır: "Məhəmməd Əmin Rəsulzadəyə görə çeşidli cəbhələriylə Azərbaycan istiqlal mücadiləsi", "Rəsulzadə ilə 5 il", "Almas Yıldırımın hal tərcüməsi" və b. O, "Məhəmməd Əmin Rəsulzadəyə görə çeşidli cəbhələriylə Azərbaycan istiqlal mücadiləsi" əsərində Azərbaycan Milli İdeyası uğrunda mübarizədə baş verən fikir müxtəlifliklərini və Milli İstiqlalın əhəmiyyətini şərh etmişdir.[282]

***

1911-ci ildə Gəncədə anadan olan **Məhəmməd Altunbay (1911-1987)** Bakıda təyyarə məktəbini oxuyub, daha sonra Odessa Ali Hərbi Hava Məktəbinə daxil olmuşdur.Altunbay pilot olduğundan digər iki dostu Həsən və Cəlalla birlikdə 1939-cu ildə SSRİ-yə məxsus hərbi təyyarəni Türkiyəyə qaçırmağa qərar verib. İmperiya sərhədini keçən pilotları sərhədçilər atəşə tutduqları üçün məcburi şəkildə "İran" eniş ediblər. "İran" tərəfi onların istəklərinə baxmayaraq Türkiyəyə təhvil verməyib, 9 ay Təbriz həbsxanasında saxlayıb. Onlar "İran"dakı Türkiyə səfirliyinin yardımı ilə Tehrandan Bağdada qaça bilmiş, oradan da İstanbula (1941) gəlmişlər.O, 1953-1954-cü illərdə İstanbulda "Hürriyyət" və "Yeni səhər" qəzetlərində xatirələrini "Türk təyyarəçisi Məhəmməd Altunbay Rusiyadan necə qaçdı?", "Cəhənnəmdə gördüklərim" başlıqları ilə 8-9 ay ərzində yayımlayıb.[283] 1960-1963-cü illərdə Altunbay ABŞ-

[281] Odər Kərim. Milli Azərbaycan Cümhuriyyəti.// Azərbaycan mühacirət irsi. Bakı, "Elm və Təhsil", 2011,s.79-80

[282] Aküzüm Feyzi. Mehmet Emin Resulzadeye Göre Çeşitli Cebheleriyle Azerbaycan İstiklal Mücadilesi. Ankara, 1977

[283] Tahirli Abid. Məhəmməd Altunbayın həyatı və yaradıclığı. Bakı, "Xəzər Universiteti" nəşriyyatı, 2023, s.25

ın mərkəzi Avropada yerləşən Azadlıq radiostansiyasınnı Azərbaycan şöbəsi ilə əməkdaşlıq edib. O, 1963-cü ildə yenidən Türkiyəyə-İstanbula qayıdıb və burada da vəfat edib.

***

1911-ci ildə Qarabağda anadan olan **Məhəmməd Azər Aran (1911-1993)** orta məktəbi bitirdikdən sonra Türkiyəyə getmək qərarına gəlib. İstanbulda əsgəri tibb fakültəsini bitirən Azər Aran burada olarkən milli ideoloq M. Ə. Rəsulzadə ilə yaxından tanış olub. 1930-ci illərinn başlarında Rəsulzadə başda olmaqla bir çox siyasi mühacirlər Türkiyədən getmək məcburiyyətində qaldıqları üçün, Azər Aran və onun dostları Avropadan göndərilən "İstiqlal", "Qurtuluş" kimi mətbuat vasitələrini alıb lazımi ünvanlara çatdırıb, milli mətbuata xəbərlər və müxtəlif yazılar hazırlayıblar.

O, 1949-cu ildən fəaliyyət göstərən Azərbaycan Kültür Dərnəyinin işində də yaxından iştirak edib. Müsavat Partiyasının III başqanı Kərim Odərin 1981-ci ilin 19 noyabrında vəfatından sonra Müsavat Partiyasının IV başqanı olub. Azər Aran uzun illər çalışıb işini yürütdüyü Azərbaycan davasının ana Vətən Azərbaycanda qələbəsini görüb. On bir ilə yaxın başqanı olduğu Milli Müsavat Xalq Partiyasının 1992-ci ildə Azərbaycanda bərpası onu çox sevindirib. O, 1993-cü il aprelin 8-də Ankarada vəfat edib.

***

Naxçıvanın Yaycı kəndində anadan olan **Kərim Yaycılı (1913-1979)** 27 aprel işğalından sonra Türkiyəyə getmiş, burada hərbi təhsil aldıqdan sonra bir müddət orduda xidmət etmişdir. Sonralar Türkiyə Dövlət Konservatoriyasında və Dövlət teatrlarında çalışmışdır. İlk şeirləri 1934-cü ildən etibarən M.Ə.Rəsulzadənin Berlində nəşr etdirdiyi "Qurtuluş" jurnalında dərc olunub. Daha sonralar şeir və hekayələri Ankarada nəşr edilən "Azərbaycan" jurnalında çıxıb. Azərbaycan Milli Mərkəzinin və "Müsavat"ın üzvü olmuş, "Türk birliyi" adlı jurnal nəşr etmişdir.

***

1895-ci ildə dünyaya gələn **Mirzə Məmmədsadıq Axundzadə-Aran (1895-1971)** Parlamentin deputatı oımuş, 27 aprel

işğalından sonra Türkiyəyə mühacirət etmişdir. Azərbaycan Milli Mərkəzi İdarə Heyətinin üzvü olan Aran eyni zamanda, "Azəri Türk", "Yeşil yaprak", "Türk yolu", "Ergenekon" dərgilərinin naşiri, yaxud redaktoru olmuşdu. Sonralar jurnalistlik fəaliyyətini Türkiyənin nüfuzlu "Ulus" və "Cümhuriyyət" qəzetlərində davam etdirmiş, hətta 2. Dünya müharibəsindən əvvəl bu qəzetlərin "İran" müxbiri işləmişdir. M.S.Aran uzun müddət həm də Ankaradakı Türk Kültürlərini Araşdırma İnstitutunun əməkdaşı kimi çalışmış, Sənan təxəllüsü ilə milli ruhlu şeirlər yazmışdı.

1930-cu illərdə Məmməd Sadıq Aran Finlandiyada olarkən burada nəşr etdiyi "Yeni Turan" qəzetində turançılığı müdafiə etmişdir. Onun kitabını hazırlayaraq ön sözlərlə nəşr etdirən dəyərli müəlliflər Sevil Abbasoğlu/İrəvanlı və dosent, dr. Atilla Jorma yazırlar ki, M.S.Aranın 1931-1933 illərində yayımladığı "Yeni Turan qəzeti Finlandiyada öncə Tampere şəhərində, sonra Helsinkidə Türk və Fin dillərində işıq üzü görmüşdür. Hazırda Turançılıq məfkurəsini əsərlərində təbliğ edən, eyni zamanda onu yeni nəsillərə aşılayan elm adamı Atila Jorma yazır: ""Yeni Turan" iki dilde, Türk ve Fin dillerinde yayınlanıyordu. Gazetenin adına bakıldığında, dil bakımından Estonlar ve Macarlarla birlikte Finler de Fin-Oğur dil ailesine mensup olup Turanlıların bir kolunu oluşturuyordu. İlk Turancı fikirler esasında Fin araştırmacıları tarafından ortaya atılmışdı. Mehmet Sadık için bağımsızlık mücadelesi her şeyden önemli olmuştur. Gazetedeki yazılar da siyasi ağrılıklı idi. 30-lu yıllarda Latin alfabesiyle yazılan Türk dili İsmail Gaspıralının, Mehmet Emin Resulzadenin Türkçesiydi; nitekim bugün Mehmet Sadıkı okurken uyanan ilk izlenim "bu dil Hüseyin Cavidin Mikail Müşfikin Türkçesi" olmaktadır".[284]

Atilla Jorma daha sonra yazır ki, Məmməd Sadıq Aran "Yeni Turan" dərgisində nəşr olunan yazıları və digər əsərləri ilə böyük bir Türkçü aydın, Turançı dava adamı olsa da, ancaq Sovetlər Birliyi dönəmində Azərbaycanda unutdurulmağa çalışıl-

---

284 Aran Mehmet Sadık. Turan Yolunda (Hazırlayan və ön sözlərin müəllifləri: Sevil Abbasoğlu/İrevanlı, Atilla Jorma). İstanbul, Doğu Kütüphanesi, 2020, s.13

mışdır. Atilla Jorma yazır: "Mehmet Sadık Azerbaycanda sosyalist dönemde unutturulmuştu. Adından söz edilmiş olsaydı nasıl ki, Mehmet Hadiye romantik, Sabire realist diye yapay bir tasnif uyğulandıysa, Mehmet Sadık için de her halde romantik denilecekti. Elbette ki milli mefkureci şairler böyle süni tasnife sığmazlar. Mehmet Sadık Aran, Azerbaycan bağımsızlık mücadilesinin çilekeş bayraktarı olarak tarihte yerini almıştır".[285]

M.S.Aran 1942-ci ildə, "Sənan Azər" ləqəbi ilə Türkiyədə yayınladığı "İran Türkləri" kitabında isə Güney Azərbaycan, bütövlükdə bu bölgədəki türklüklə bağlı yazırdı ki, Pəhləvilər bu ölkədəki türklərin mövcudluğunu təkzib və tarixini təhrif edir, Türk toponimlərini, o cümlədən coğrafi adları farslaşdırır, uşaqlara Türk adları verməyi qadağan edir, Türk dilində məktəbləri qadağan edir və onlara məcburi farsca təhsil verir, özünü Türk kimi təqdim edənlərə cəza kəsir, Türkcə kitabları məhv edir.[286] O, yazırdı: "Biz İranda yaşayan Türklər əsrlərdən bəri İranın şərəfini qanımızla və canımızla qoruduq. Buna müqabil İrandan heç bir haqq istəmədik. İran hökuməti də bizə daim ögey oğul nəzəriylə baxdı və hələ də elədir. Sayımız 5 milyonu keçən bizlər bu gün İrandakı 60 min erməni qədər mədəni bir haqqa malik deyilik. Bu nədən belədir? Bunu biz yalnız özümüzə soruşmalıyıq. Biz daima şücaət və cəsarətimizi farsların kefi üçün sərf etdik və susduq. Susanlara isə heç bir yerdə pay verməzlər. Vətəndaşlar, haqqımızı istəmək zamanı gəlmişdi. Biz artıq miskin və pərişan halda yaşaya bilmərik. Bilməliyik ki, əsrimiz milliyyət əsridir. Milliyyət demək, mənlik deməkdir. Mənliyini idrak etməyən Tanrısını bulamaz. Biz köləlikdən qurtulmalıyız".[287] Aran 1945-1946-cı ildə Güney Azərbaycanda başlayan milli-azadlıq mübarizəsini obyektiv şəkildə işıqlandıran və bu məsələdə keçmiş SSRİ-nin, Böyük Britaniyanın

---

[285] Yenə orada, s.15

[286] Aran Mehmet Sadık/ Azer Senan. İran Türkleri. İstanbul, Cümhuriyet matbaası, 1942, s.17-18

[287] Yenə orada, s.20

və Pəhləvi rejiminin Azərbaycan xalqına qarşı çevrilmiş siyasətini açıqlayan silsilə məqalələrin də müəllifidir.

***

1899-cu ildə Şuşada anadan olan **Hilal Münşi (1899-1994)** Cümhuriyyət dövründə bir müddət Ziraət və Dövlət Əmlakı Nəzarətinin dəftərxanasında çalışıb. 1919-cu ildə hökumətin seçdiyi və parlamentin təsdiq etdiyi yüz tələbədən biri olub, dağ-mədən mühəndisliyi üzrə təhsil almaq üçün Berlin Universitetinə göndərilib.[288] 27 aprel işğalı səbəbilə vətənə dönməyərək Almaniyada qalıb mühacirlər içərisində fəal siyasi iş aparmış, 1924-cü ildə Almaniyada təhsil alan azərbaycanlı tələbələrin yaratdığı "Azərbaycan İstiqlal Komitəsi"nə sədrlik etmişdir.

Münşi "Müsavat"ın Berlin komitəsinə başçılıq etmiş, 1928-ci il mayın 28-də Berlində Azərbaycanın müstəqilliyinin elan olunmasının 10 illiyinin bayram edilməsinin əsas təşkilatçılarından olmuş, bu münasibətlə keçirilən iclasda "1918-ci il 28 mayın əhəmiyyəti" mövzusunda çıxış etmişdir. Onun 1930-cu ildə Berlində almanca "Azərbaycan Cümhuriyyəti" əsəri nəşr olunmuşdur.

1934-cü ildə Berlində H.Münşinin redaktorluğu ilə əsası qoyulan "Qurtuluş" jurnalı 1939-cu ilin sentyabrınadək fasiləsiz olaraq çıxmışdır. Mühacirətdə baş verən ixtilaflar dövründə M.Ə.Rəsulzadənin mövqeyini müdafiə etmişdir. İkinci Dünya müharibəsi başlayanda M.Ə.Rəsulzadə ilə birlikdə Berlində Milli Azərbaycan Komitəsini yaratmış, müharibədə əsir düşən azərbaycanlıları xilas etmişdir.[289] Munşi 1994-cü ildə Almaniyanın Quzey Rey Vestbaliyada - "Bad-Honneb"də dunyasını dəyişib.

Münşinin "Böyük Azəri", "Sovet "reform"ları və Avropa mətbuatı", "Sovetlərdə aclıq", "Sovetlər və Almaniya", "Sovetlərdə vəziyyət", "Sovetlər və Yaponiya", "Almaniya mətbuatında məsələlərimiz" və digər məqalələri vardır.

O, "Böyük Azəri" məqaləsini Əlimərdan bəy Topçubaşının vəfatı münasibətilə qələmə almışdır. Münşiyə görə Əlimərdan

---

[288] Yaqublu Nəsiman. Şuşa ziyalıları: unudulmuş irs. Bakı, AVE Print, 2022, s.62
[289] Yenə orada, s.63

bəyin yeri "yaşayan ölülər"in arasındadır, çünki o, 72 yaşının 50-dən çoxunu Azərbaycan uğrunda sərf etmişdir: "Azərbaycan intibah dövrünün ən böyuk şəxsiyyəti bulunan bu parlaq ulduz, istiqlal dövrünün ən məşhur rəhbərlərindən, milli mücadiləmizin ön sıralarında gedən mücahidlərindən biridir. 1918-də elan olunan və 1920-ci ilin yanvarında Əlimərdan bəyin fəaliyyəti sayəsində bütün mədəni dövlətlərcə tanınmış olan Azərbaycan istiqlalına Əlimərdan bəy tərəfindən artıq 1906-da Rusiya Dövlət Dumasında təməl daşı atılmaqda idi. Məlum olduğu uzrə Əlimərdan bəy tarixdə rus Dumasındakı Rusiya məhkumu millətlərini təmsil edən deputatlar tərəfindən qurulan "Muxtariyyətçilər Birliyi"nin rəis muavini idi. Əlimərdan bəyin o zamankı bu "muxtariyyətçiliyi" sanki "istiqlalçılığın" şubhəsiz, bir müqəddiməsi idi".[290]

Münşiyə görə öz milli varlığını tamamilə muhafizə etmək və zərrə qədər belə rus ruhuna qapılmamaq şərtilə birər türk tələbəsi üçün, hər hansı rus məktəbini bitirmək həqiqətən də böyuk bir hünər idi. Rus məktəbi türkü sadəcə məzun deyil, eyni zamanda rus ruhunun məhsulu olaraq buraxmaq istərdi: "Əlimərdan bəy rus məktəbinin məzunu olsa da, rus məktəbinin məhsulu deyildi. Milli ənənəyə bağlılığı da buradan gəlirdi. O, gənc tələbə ikən, rus müəssisəsindən aldığı maddi yardımdan imtina etdi, çunki ona bu yardımı edərək, buna muqabil rus ədəbiyyatı ilə rus tarixi təhsilində bulunmağı şərt qoşan rus müəssisəsinin Əlimərdan bəydən bəklədiyi vəzifənin nə olacağını mərhum kəskin zəkası ilə təxmin etmişdi. O, Rusiya tərəfindən Azərbaycanın şəxsən Türk "uçitellər" əli ilə ruslaşdırma siyasətinə alət olmaq istəmədi. O, Kotoşixinin "Domostroy" kimi səfsəfələrini (həqiqət ilə bəzədilmiş yalanlarını) "ədəbiyyat" deyə Türk çocuğuna təlqin edə bilməzdi. Onun xalis Türk vicdanı buna yol vermədi. Aldığı yardımdan əl çəkdi və hüququ oxudu. Yarım əsr millətinin və irqinin vəkili oldu".[291]

Münşi yazırdı ki, məmləkətimizin yetişdirdiyi Ə.Topçubaşı bu gun artıq Azərbaycan panteonundadır. O məsuddur, çünki

[290] Münşi Hilal. "Böyük Azəri". "Qurtuluş" jurnalı, Berlin, dekabr 1934, il: 1, sayı: 4
[291] Yenə orada

millətinə və irqinə qarşı insani və mədəni vəzifələrinin hamısını ifa edərək həyatının son dəqiqəsinə qədər millətə xidmətdə bulunmuşdur: “Fəqət onun bizə yüklədiyi son və müqəddəs bir vəzifə vardır ki, biz bu öndərimizin ruhunu bu vəzifəyə sədaqətlə xidmətdə bulunmaqla şad etmiş olacağız. Əlimərdan bəy inandığı, etimad etdiyi və mənsub olduğu Azərbaycan Milli Mərkəzi rəisləri ilə 14 temmuzda *(iyulda)* Brüsseldə Qafqaz Konfederasiyası əhdnaməsi deyilən tarixi bir akta imza atdı. Bununla o, yəni tariximizin qorxunc günlərində bizə unudulmaz xidmətlərdə bulunan bu sadiq millət oğlu, həqiqi Azəri milliyyətçilərinə xilasımızın Qafqaz Konfederasiyasında olduğunu vəsiyyət etmiş oldu və eyni zamanda, millətin ən təmiz və səlahiyyətdar şəxsiyyətləri ilə əlbir olduğunu açıqca elan etdi. Bu vəsiyyəti unutmaq Böyuk Azəriyə qarşı hörmətsizlikdir. Əlimərdan bəy yalnız fiziki cəhətdən ölmüşdür. Mənən o yaşayır və aramızdadır. O, bizə bir örnəkdir. Müstəqil Azərbaycan ona bir bəsit abidə deyil, Bakı atəşgahları kimi əbədi nur saçan bir abidəgah yapacaqdır”.[292]

Münşinin “Sovet “reform”ları və Avropa mətbuatı”, “Sovetlərdə aclıq”, “Sovetlər və Almaniya”, “Sovetlərdə vəziyyət”, “Sovetlər və Yaponiya” və bu kimi digər məqalələrində Sovet Rusiyasının əsil üzünü açıb göstərməyə, bolşevizmin mahiyyətini ifşa etməyə çalışmışdır. O, yazırdı ki, Sovet Rusiyası üçün “reform”a demək saxtakarlıqdan başqa bir şey deyildir. Onun fikrincə, Sovet qanuni-əsasının dediyi başqa, həyatın gedişi isə başqadır: “Bunun ən canlı dəlilini bu son Sovet konqresi təşkil edir. Mövcud qanuni-əsasiyə görə konqres hec olmasa iki ildə bir cağırılmalıdır, həqiqətdə isə son konqres bundan dörd il əvvəl vüqu bulmuşdu. Bu, bir növ qanuni-əsasinin yarım tətbiqi deməkdir. İştə bunun üçündür ki, indiki reformun da yarım reform olduğunu qəbul etmək lazım gəlir”.[293]

Münşi “Almaniya mətbuatında məsələlərimiz” məqaləsində isə alman qəzetlərinə istinadən yazırdı ki, Turk-tatar ellərinin Sovet

---

[292] Yenə orada
[293] Yaqublu Nəsiman. Şuşa ziyalıları: unudulmuş irs. Bakı, AVE Print, 2022, s.80

statistikasında saylarının 20 milyon miqdarında göstərilməsi yalandır, çünki burada Türk əhalisinin sayı həqiqətdə 30 milyonu keçmişdir. Onun fikrincə, Sovetlər milli Türk cümhuriyyətləri daxilində, Azərbaycanda olduğu kimi, yeni "millətlər" kəşfi surətilə türklərin sayını 30 milyondan 20 milyona endirməkdədir ki, bu cümhuriyyətlərdə yürüdülən parçalama, ruslaşdırma, müstəmləkələşdirmə və soyğunculuq siyasəti hər kəscə məlumdur. Münşi bir alman qəzetinə istinadən yazırdı: "Sovetlər Elm Akademisi "alim"lərinin fikrincə, guya əslən Türk-Tatar irqinə mənsub olmayan bu yeni "millətlər" indiyə qədər şu və ya bu Türk qövmi arasında yaşayaraq, kimsə tərəfindən kəşf olunmamışlardır və yanlışlıq yaparaq kəndilərini türk və tatar deyəədd edirlərmiş. Bu surətlə Moskva məsələn, sadəcə kiçik Azərbaycanda 1920-də vüqu bulan istiladan bu günə qədər "indilik" ancaq20 ədəd yeni "millət" kəşf etmişdir. Sovet "alim"lərindən başqa mövcudiyyətlərindən – tuhafdır ki– indiyə qədər dünyada kimsənin xəbəri olmayan uydurulan bu yeni "millətlər", sonradan bittəb dövlət içində yeni bir dövlət təşkil edərək, Moskva tərəfindən böyuk bir əcələ ilə təntənəlisurətdə "muxtar" cümhuriyyətlər şəklində meydana çıxarılıyorlar. Moskva bu oyunu bilaistisna bütün Türk-Tatar cümhuriyyətlərində oynamaqdadır. Bütün bu komedilərin şayani-diqqət bir cəhəti dəxi vardır: "kəşf olunan"yeni "millətlərin" həmən həpsi heç bir milli və müstəqil bir dilə, hars və ənənəyə malik olmadıqları kimi, xəlqiyyətcilik baxımından dəxi içində yaşadıqları kütlə və mühitin mənsub olduğu hars və mədəniyyət camiəsinə bilaqeydi-şərt intisab etmişlərdir, yəni, eyni mədəniyyət və harsın məhsulu bulunuyorlar. Lakin bütün bu həqiqətlər Sovet Akademisi "alim"lərini hec də əlaqədar edəməz, çünki onların əsl vəzifəsi, məlum olduğu vəchilə, min bir cür bəhanələr və hiylələr işləyərək, türk-tatarlar tərəfindən məskun məntəqələri və türk-tatar camiəsini parçalamaqdan ibarətdir".[294]

[294] Münşi Hilal. "Almaniya mətbuatında məsələlərimiz". "Qurtuluş" jurnalı, Berlin, 1936, son qanun, il: 3, sayı: 15

Münşi alman mətbuatına istinadən yazırdı ki, Turk-Tatar ölkələrinin 11-ci ordu tərəfindən zorla istila olunmasından əvvəl bu yerlərdə kommunizmin nə olduğunu kimsə bilməzdi. Bunun mübahisə doğurmayan bir həqiqət olduğunu deyən Münşiyə görə bu həqiqəti dolaysıyla Stalin özü də təsdiq etmişdir. O, yazırdı: "Azərbaycanda dünə qədər iş başında bulunan Ruhulla Axundov və Azərbaycan sovet hökumətinin naşiri-əfkari turkcə "Kommunist" qəzetinin sabiq baş mühərriri Həbib Cəbiyev kimi məruf *(məşhur)* və əski Azərbaycan kommunistləridir ki, bir zaman bundan əvvəl Bakıda böyuk bir ictimada kəndi firqə arkadaşları rusların uzərinə hücum edərək, rus kommunistlərini ələni *(aşkar)* surətdə "kolonizator"və "ekspluatator" (istismaredici) deyə adlandırmış və Həbib Cəbiyev isə – sözlərinə xususi bir sərahət vermək məqsədilə olacaqdır ki, müraciət etdiyi bir rus kommunistini mükəmməl surətdə belə tokatlamışdır! Moskva jarqonunda butun bu çeşid yoldaşlara "burjuazinin uşaqları", "firqənin ana xəttindən inhiraf edənlər – uklonistlər" (əyinticilər) və yaxud "milli əyinticilər" deyilməkdədir. "Doğru yoldan sapan bütün bu "uklonistlər" və "milli əyinticilər", həddi-zatında Moskva tərəfindən Türk-tatar cümhuriyyətlərində yürüdülən imha siyasəti nəticəsində inkisarı *(sınma)* xəyala uğrayan bir növ "nasyonal-bolşeviklər"dir ki, milliyyətçiliklə kommunizmin uyuşa bilməsinə cahil bir surətdə inanaraq, böylə bir düşüncə ilə meydana atılmış, Moskvanın Türk-Tatar ölkələrində yürütdüyü vəhşət və istismar siyasətini, G.P.U. terrorunu, süni surətdə vücuda gətirilmiş aclığı, Türk-Tatar ölkələrində maddi, mənəvi, mədəni və milli bütün dəyərlərin imhasını bir növ dayandırmağı çocuqcasına təsəvvür edirlər".[295]

Həmin məqalədə daha sonra yazılırdı ki, Azərbaycan Sovet Cumhuriyyətinin ilk "baş vəkili", dr. Nəriman Nərimanov Azərbaycan sovetləşdirildikdən az bir zaman sonra "milli təmayülçülük" də ittiham olunaraq, Moskvaya sürgün edilmişdir: "Moskvaya vürudundan bir az sonra "xəstələnən" və bilaxirə Sovet mətbuatının verdiyi məlumata görə, "səqtei-qəlbdən" *(ürək tutmasından)* "vəfat

[295] Yenə orada

edən" Dr. Nərimanov, butun Sovetlər miqyasında alınaraq ilk "uklonist" və ya "nasyonal-bolşevist" "şərəfini" qazanmış bir kommunistdir. Sovetlər Azərbaycanı "yoldaş" Nərimanovdan başqa Xanbudaqov, Ruhulla Axundov, Həbib Cəbiyev və digər bir cox məruf "milli əyintiçilər"ə malikdir. Butun bu uklonistlər vaxtilə Moskvanın hər hanki arzu və istəyini böyük bir iştiyaq və həvəslə və həm də korcasına yerinə yetirən kommunistlərdir ki, günün birində gözlərini açaraq, qızıl imperializm tərəfindən sadəcə kəndi millətlərinin cəlladı sifətilə qullanıldıqlarını kəşf etmişlərdir. Azərbaycanda olduğu kimi, Türküstan, İdil-Ural (Sultan Qaliyev), Krım və Quzey Qafqasiya dəxi kəndi mutəəddid Nərimanovlarına, Skripniklərinə və Gyillinglərinə malik bulunuyorlar".[296]

O, "Alman mətbuatında Azərbaycan" məqaləsində isə Sovet Rusiyasının bir tərəfdən Azərbaycanı necə sömürməsindən, digər tərəfdən isə kağız üzərində də olsa "müstəqilliy"indən bəhs etmişdir. Münşi yazırdı: "Azərbaycan, bununla birlikdə bütün digər "milli" cümhuriyyətlər Moskvaya imar *(emar – abad etmə)* üçün deyil, daima imha və istismar üçün lazım olmuşdur".[297]

***

1906-cı ilə Şuşada anadan olan **Cəmil Ağayev-Abay Dağlı (1906-1975)** əvvəlcə Azərbaycan Mərkəzi Partiya Məktəbinin müdavimi olub,[298] 1932-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Filologiya fakültəsində təhsil alıb. 1936-cı ildə buranı bitirdikdən sonra təyinatla Nuxaya göndərilib və burada 1940-cı ilin fevralına qədər Stalin adına pedməktəbdə Azərbaycan Türk dili və ədəbiyyatı müəllimi kimi fəaliyyət göstərib.[299] O, 1940-cı ildə Bakıya gəlib burada da müəllimi kimi işləyib. Daha sonra 1941-ci ildə səfərbərliyə cəlb olunaraq cəbhəyə göndərilib.[300]

---

[296] Yenə orada

[297] Yaqublu Nəsiman. Şuşa ziyalıları: unudulmuş irs. Bakı, AVE Print, 2022, s.118

[298] Cabbarlı Nikpur. Abay Dağlının mühacirət dövrü yaradıcılığı. Bakı, Elm nəşriyyatı, 2009, s.4

[299] Sultanlı Vaqif. Azərbaycan mühacirət ədəbiyyatı. Bakı, Şirvannəşr, 1998, s.52

[300] Tahirli Abid. "Abay Dağlının həyat və yaradıcılığı". Ulduz jurnalı,. Sayı 10. Oktyabr 2018, s.37

II Dünya müharibəsi illərində Azərbaycan legionunun mətbu orqanı olan "Azərbaycan" qəzetində şeirləri çap olunub.[301] 1947-ci ilin sonlarına qədər AFR-in Münhen şəhərində yaşayıb, burada olduğu müddətdə "Onlar türklərdi" memuar romanını yazıb.[302] Abay Dağlı 1947-ci ilin sonlarında Türkiyəyə mühacirət edib, 1989-cu ildə burada da dünyasını dəyişib.

Abay Dağlı Türkiyədə yaşadığı dövrdə "Əsir ruhlar" (1957), "Bir Mayıs gecəsi" (1960), "Füzuli" (1961, 1968), "Okullular" (1963), "Sakarya" (1965), "Atatürk" (1966), "Atamızın gəncliyi" (1967, 1973), "Sakarya çetəsi" (1969), "Ata anıları" (1974), "Albay" (1975), "Dədə Qorqud" (1977) və digər əsərlər yazıb.

1951-ci ildə Ankarada "Rəna" imza ilə çap etdirdiyi "Onlar türklərdi" kitabı Sibirə sürgün olunmuş türklərin mübarizəsi haqdadır. Abay Dağlı bu əsəri cəbhədə həlak olmuş bir soydaşının qanlı çantasından tapılmış yazılar əsasında işlədiyini qeyd edib. Əsərdə həmin naməlum yazıçının üslubunu saxlamağa çalışıb. Əsərin "Uzaq mənfalarda" adlı birinci hissəsində Sibirə sürgün edilən türklərin çəkdikləri əziyyət və bundan qurtulmaq üçün təşkil etdikləri qiyamlar haqqında danışılır. Əsərdə əsasən 3 nəfərin, Nadir, Kamran və Muradağanın mübarizəsi təsvir edilib. Nadir, azərbaycanlı şagirdlərə Türk uşaqları dediyi üçün həbs edilən müəllim, Kamran, rus zabitlərini şillələdiyi üçün həbs edilən hərbçi, Muradağa isə kolxoz əleyhdarı kimi yaxalanan və əsl adını gizlədən Qaçaq Qarabəkirdir. Bu üç nəfər düşərgədəki 95 dəstəni birləşdirib, qiyama qaldırırlar. Əsərin "Qanlı cəbhələrdə" adlı ikinci hissəsində Sovet hərb sistemi, Kremlin velikorus şovinizminə söykənən antitürk, antimüsəlman siyasəti əsas ifşa hədəfi kimi seçilib.[303]

---

[301] Əhmədli B. Azərbaycan mühacirət ədəbiyyatı.Bakı, Elm və təhsil, 2017, s.96

[302] Cabbarlı Nikpur. XX əsr Azərbaycan mühacirət ədəbiyyatı (türkdilli örnəklər əsasında). Bakı, Elm və təhsil, 2017, s.23

[303] Cabbarlı Nikpur. Abay Dağlının mühacirət dövrü yaradıcılığı. Bakı, Elm nəşriyyatı, 2009, s.41-43

Dağlı "İnanmıyorum" məqaləsində Stalnin ölümündən sonra (1953) Sovet Rusiyasının liberallaşmasına inananları tənqid etmişdir. O, yazırdı: "Yeni Sovet hökmdarı Malenkov taxta çıxarkən bir taqım liberal tədbirlər aldı. Mağazalarda mövcud bulunmayan malların fiyatını endirdi, 10 minlərlə mücrimi (dustağı) əfv edərək həbsxanalardan cıxardı (əfv qanunu məhkumların yüzdə doxsanını təşkil edən siyasi suçlulara şamil deyildi) və ən mühümü Stalinin "kapitalist və sosyalist sistemlərin sülh halında yaşaya biləcəklər" imkanı haqqındakı əskimiş "nəzəriyyəsini" meydana çıxararaq, kəndi "sülhpərvərliyinə" dair geniş propaqandaya girişdi. Sovet propaqandası iyi niyyət və hürr məmləkətlərlə əmtəə mübadiləsi hekayələri ilə hürr dünya insanlarının gərilmiş sinirlərini təskin etməyə çalışmaqdadır. Bəsit, safdil avropalı və amerikalıların Malenkovun hekayələrini ciddiyə aldıqlarında şaşılacaq bir şey yoxdur. Fəqət əsl şaşılacaq şey, Malenkova inananlar arasında, gərək kəndi xalqlarına və gərəksə bütün demokratik hürr dünyaya qarşı məsuliyyət dərxutə etmiş olan kimsələrin də bulunmasıdır".[304]

Dağlı yazırdı ki, bolşeviklər kəndi ənənələrinə sadiq olaraq, hər şeydə yalan söylüyorlar: "Onlar bu ənənələrinə kəndi şeflərinin cənazəsi başında belə sadiq qaldılar və bütün dünyaya Moskva radiosu vasitəsilə, Stalinin cənazəsi önündən, 72 saat zarfında, 5 milyon insanın keçmiş olduğunu elan etdilər. 72 saat zarfında 5 milyon kişi! Moskva radiosunun rəqəminə inanacaq olursaq, xalqın ikişər olaraq Stalinin cənazəsi önündən saatda 35 kilometr sürətlə qoşaraq keçmələri icab edir. Bolşeviklər zatən başqa dürlu yapamazlar, çünki onlar yalan içində doğulmuş, yalan sistemi içində tərbiyə almış və böyümuşlərdir".[305]

Dağlıya görə Sovet rəhbərliyinin bugünkü kadrları, əsas etibarilə bolşeviklərin karyerist-idarəçilər məktəbində yetişmiş yeni nəsildən mütəşəkkildir. O, yazırdı: "Sovet sistemi xüsusi okullarda

---

[304] Dağlı Abay. "İnanmıyorum" //"Birleşik Kafkasya" dergisi, Münhen, eylül (sentyabr) 1953, 3-cu il, sayı: 9 (26).
[305] Yenə orada

idarə elmini təhsil etmiş olan profesyonel-idarəçilər tipi yetişdirmişdir. Bu elmin əsası şudur: 1) Partiya və rejimə sədaqət; 2) Amirlərə kor-koranə itaət; 3) Bütün insani hisslərdən məhrum, haqq və mərhəmət məfhumlarından ari, sərt xarakterli idarəçi-məmur, makinə insanın imalı.

Sovet məmuru tərbiyə görmuş bir heyvan kimi, yalnız amirlərinin əmrini və əmrin infazını bilməkdədir. O, "öz babanı öldur" əmrini alsa, bilatərəddüd öldürəcək, məsum birinə "dayaq at" desələr, dərhal atacaqdır. Bu okulun məzunlarında, Oktyabr ixtilalını yapan əski ixtilalçı bolşeviklərdə və ya heç olmasa bir qismində bulunan məfkurədən heç bir əsər yoxdur. İdeoloji, bugünkü sovet idarəçilərinə, ancaq bir demaqoji silahı olaraq xidmət edir. Ağızdan əskik olmayan sosyalizm uğrunda mücadilə sözləri yalnız xalq üçündür, həqiqətdə isə bu parola, bolşevik iqtidarının qüvvətlənməsi, şəxsi müvəffəqiyyət,böyuk-kiçik sovet idarələrinin sandalyası üçün mücadilə deməkdir. Malenkov, bu gün məmləkətə hakim olan bu yeni karyerist-idarəçilər nəslinin ən tipik bir müməssilidir. Onlar iqtidarı, qorxunc 1937-38-ci illərdə zəbt etdilər. O illərdə, səbrsizliklə iqtidarı əllərinə keçirmək istəyən gənc bolşeviklər, "xalq düşmənləri" ilə mücadilə parolu altında, milyonlarla məsum vətəndaşları imha etməklə bərabər, uzun zamandan bəri sıcaq sandalyalarda oturan xocaları əski bolşevik müməssillərinə də əzici bir zərbə endirdilər".[306]

O, yazırdı ki, Sovet professional idarəçiləri sosializm quruluşu haqqındakı hər növ utopik ideyalardan çox uzaqda bulunur və fantastik kommunist cənnəti xüsusunda da heç bir xəyala qapılmırlar: "Onlar, realist insanlar kimi, yalnız kəndilərini düşünüyor və dünya nemətlərinin yalnız onlar üçün – mümtaz yarı ilahlar qrupu üçün – yaradılmış olduğunu sanıyorlar. Sovetlər Birliyinin laaletayin bir şəhərinə gedəcək olursanız dərhal gözünüzə iki aləm – əfəndilər və kölələr aləmi – carpar. İyi bəsli, təmiz və gözəl geyinmiş, kəndi həyatlarından məmnun sovet zadəganları lüks avtomobillərdə gəziyor, onlar üçün xususi olaraq

[306] Yenə orada

yapılmış köşklərdə və ya böyuk apartmanlarda oturuyorlar. Onlar bir taqım bürokratik nizamlar və qanunlarla, kəndilərini xalqdan tamamilə ayırmışlar və xalqa, proletar bayramları münasibətilə, tribunların önündən keçən səssiz, asıq sürətli nümayişçilər kütləsinə basma qəlib partiya şüarlarını söyləyərək, ildə ancaq 2-3 dəfə görünüyorlar. Başqa bir zaman onları görmək bəsit bir fani üçün imkansız bir şeydir. Moskva zadəganları böylə dursun, fəqət hər hansı bir bölgə şefinin lüks burosuna girmək, təhəqqüqü qeyri-mümkün bir xəyaldır. Digər tərəfdən, pəjmürdə qiyafətli, yarı ac, məzlum və məchul gələcəyin qarşısında aclıqdan, soyuqdan və qorxudan titrəyən bir kütlə vardır. Bu kütlənin həyatı o qədər bəsit, o qədər yeknəsəq və yaşama qayğısı ilə o qədər yüklüdür ki, buna səfalət ismi vermək belə çoxdur".[307]

Onun fikrincə, Batı dünyası, Sovetlər Birliyində bolşevizmin öz-özlüyündən süquta uğrayacağına boşuna ümid bağlayır, bolşevik şefləri arasındakı ixtilaf dedi-qodularına boşuna sevinir: "Məsələ onların şəxsiyyətlərində deyil, fəqət sistemdədir. Hökumət başqanının təbəddülü ilə məmləkət içərisində heç bir dəyişiklik olmayacaq, Kremlin güruhunun içindəki heç bir anlaşmazlıq və intriqa iç darbəyi intac etdirməyəcəkdir. Şeflər bir-birini imha edə bilir, fəqət sistem qalacaq və yeni şeflər yetişdirəcəkdir. Əsl məsələ, eyni zamanda həm qüvvətli, həm zəif olan sistemdə və rejimdədir. Qüvvəti bundadır ki, o, rejimin sarsılmazlığı, hər növ mücadilənin qəddaranə bir surətdə basdırıldığı və Kremlin qanlı əli gərək suçluları, gərək suçsuzları eyni tərzdə cəzalandırdığı üçün rejimlə mücadilənin nəticəsiz olduğu fikrini əsir millətlərə aşılamağa müvəffəq olmuşdur. O kəza, xalqın arasında dal budaq salmış casusluq ağı ilə də qüvvətlidir. Fəqət o, eyni zamanda, xalq əleyhdarı rejimi olduğu və xalqların hürriyyətə yaradıcı əməyə və nəşəli həyata qarşı olan təbii təmayüllərinə ayqırı olduğu üçün, zəifdir. Qısaca, rejimin qüvvəti sistemdədir, zəifliyi kəza sistemdədir. Daha qəti ifadə ilə, rejimin qüvvəti onun

[307] Yenə orada

zəifindədir”. [308] Dağlıya görə milyonlarca insanların əsarətdən qurtarılması üçün, Kremlin diktatorlarının hürriyyətdən məhrum edilmələri lazımdır. Bunun üçün də davayı, Böyuk İskəndərin “kor duyum” davasını həll etdiyi kimi həll etmək gərəkdir.

O, “Hürriyyət mələyinə” şeirini II Dunya savaşında Qafqazın istiqlalı üçün ümid bəslədiyi günlərdə yazmışdır:

*Hürr səmalarda uçub, zövqlə həyəcanə gəlir,*
*Onu seyr etmək üçün cansızımız canə gəlir.*
*Açılırkən qanadı, nur kimi bir ruh uçuyor,*
*Elbrus nəşələnir, Qaf dağı tuğyanə gəlir.*
*Süzülüb göydən enər, köksümüz üstündə yeri,*
*Bir həyat təcri kimi dünyaya mərdanə gəlir.*
*İştə canan deyərək, canını gördukcə onun,*
*Sevinir cümlə cahan, baxtımız imanə gəlir.*
*Sığınıb kölgəsinə, gülərsə məhkum vətənim,*
*O dağılmış yuvanın hər şeyi mizanə gəlir.*
*Biz işıq aşiqiyiz, Ay ilə Yıldız işığı,*
*Azərin Bay Canına, cana və cananə gəlir.*
*Gəl, gəl ey nazlı mələk, dünyaya elan edəlim:*
*O gözəllər gözəli bax, necə şahanə gəlir.*[309]

O, “Türk öz türkcəçiliyi və rus bölgəçiliyi” məqaləsində yazırdı ki, böyuk millətlər sırasında bu gün bizim də ümumi bir yazı dilimiz gəlişməkdədir: “Vaxtıyla məhkum Türk ellərinin bir çox münəvvərləri yazıda və qonuşmada İstanbul şivəsini örnək alıyorlardı. Bu gün isə Türkiyə türkcəmiz bütün mühacir münəvvərlərimizi birləşdirmişdir. Türkiyə türkcəmizə bəzən genəl türkcəmiz deyirik. Ana dilimizin bu gəlişmiş şəklinə ana türkcəmiz və ya böyuk atamızın şərəfinə ata türkcəsi də deyə biliriz. Ana yasa, ana vətən, ana türkcə. Bu müəzzəm sözlər qürurla birləşərək, türk ağzında sadəcə söylənməz, ümumi bir hayqırış olur. Biz bugün böylə bərabərcə hayqıra biliyorsaq, hər şeydən əvvəl dilimizin yeni

[308] Yenə orada
[309] Dağlı Abay. “Hürriyet Meleyine”. “Azerbaycan” aylık kültür dergisi, Ankara, aralık (dekabr) 1957, il: 6, sayı: 9 (69).

və gəlişmiş örnəyinə borcluyuz”. [310] O daha sonra yazırdı ki, Osmanlı səltənətindəki sadələşdirmə fəaliyyətindən sonra, Cümhuriyyət dövrümüzdə osmanlıcanın yerini həqiqi türkcəmiz aldı. Hətta, bir az daha irəli gedilərək, sadəcə türkcə deyil, oz türkcə deyildi. Rus məhkumu türklərdən bir qismi İkinci Dünya savaşında hürriyyətlərini seçərək, Türkiyəmizdəki bu gəlişməyi yaxından görə bildilər. Böyuk İ.Qaspiralımızın ülvi sözləri onların yaralı qəlblərində yaşıyordu. “Dildə birlik” sözlərinin artıq təhəqqüq etdiyinə inanaraq, eyni yolu təqib etməyə başladılar. Avropanın millətçi kamplarında ümumi (yəni qəbilələrarası) konfranslar bu ana türkcəmizlə verildi. Orada bir cox dərgi və qəzetələr yeni Türk əlifbamız və ana türkcəmizlə yayınlandı. Bu gün Türkiyədə, Avropada və Amerikada bulunan mültəci qardaşlarımız genə də eyni fəaliyyəti davam etdiriyorlar. Almaniyadakı “Dərgi”yi, Türkiyəmizdəki “Türküstanın səsi”, “Kırım”, “Azərbaycan” və “Mücahid” kimi dərgilərimizi lütfən alıb baxınız. Dünyanın hürr Türk münəvvərləri arasında həm yeni əlifbamız, həm də yeni ana türkcəmiz ümumi bir qüvvət olmuşdur. Dünya ölkələrində bir Türk dili və əlifbası qurultayı çağırılmadan bu hərəkat kəndikəndinə gəlişiyor. Böyuk Qaspıralı və Ziya Göyalplarımız bu müəzzəm gəlişməni görə bilsələrdi, həm sevinir, heyran olurlardı”.[311]

“Dillər ayrı-ayrı qollardan bir mərkəzə doğru gəlişiyor”– deyə vaxtiylə bir Sovet görüşu rəvacda idi deyən, Dağlıya görə Stalinin son illərində bu görüşə yeni bir istiqamət versələr də, fəqət iblisanə qayə genə də dəyişmədi: “Eyni görüş hakimiyyətində məsələni yalnız rus dilinə inhisar etdiriyor. Türklər üçün böylə bir məsələni qətiyyən qəbul etmiyorlardı. Kəndi geniş fəaliyyətləriylə bir ana ruscayı gəlişdirənlər deyirlərdi ki, dünyada Türk milləti mövcud olmadığı kimi, türkcə də mövcud deyildir. Adına Türkiyə deyilən o mürtəcelər məmləkətində osmanlıca qonuşuluyor. “Sovet cənnəti”ndə isə ayrı-ayrı Qaraçay, Türkmən, Özbək, Kırım, Kazan

[310] Dağlı Abay. “Türk Öz Türkceciliyi ve Rus Bölgeçiliyi”. “Mucahid” mecmuesi, eylül (sentyabr),1957, il: 3, sayı: 10.

[311] Yenə orada

və Azərbaycan millətləri və genə ayrı-ayrı qaraçayca, türkməncə, özbəkcə, tatarca və Azərbaycanca kimi dillər vardır. Millətimizi və dilimizi iştə böylə parçalayaraq, ləhcə fərqlərindən istifadə ilə biri-birinə zidd dil kuralları da uyduruyorlardı. Qayələri bu iki mərkəzdə birləşiyordu: 1) Türklərin biri-birlərini anlamalarına imkan verməmək; 2) Türk boylarını ayrı-ayrı yakalayıb ruslaşdırmaq. Bu ruslaşdırma qayəsi bilxassə əlifba məsələsində kəndini göstərdi. Latın əlifbasını qəbul etmiş olan (yəni heç deyilsə əlifba işində Ana Vətən Türkiyəmizlə birlik yapan) bütün Türk boylarına o əcaib Rus əlifbasını qəbul etdirdilər. Bəlkə göruyörmusunuz, əlifbanı birləşdirdik, – deyə genə də propaqanda yapacaqlardır. Fəqət məsələnin işüzü başqadır. Latın əlifbasını nədən dəyişdirdilər? Nədən rus əlifbasından uydurulmuş olan əlifbalar çox fərqlidir?..”.[312]

***

1890-cı ildə Şuşada anadan olan **Hüseyn Mirzəcamalbəyov (1890-1974)** 1913-cü ildə Moskva Kommersiya İnstitutunun iqtisad bölməsinə qəbul olunsa da, 1915-ci ildə təhsilini yarımçıq qoyub. Cümhuriyyət dövrundə Parlamentin Qanun layihələri şöbəsinin müdiri olaraq calışıb. 1919-cu ilin dekabrında sənətşunas alim Məhəmməd Ağaoğlu ilə birlikdə onun təşəbbüsü ilə İstiqlal Muzeyi yaradılıb. 27 aprel işğalından sonra o, bir müddət pedaqoji sahədə calışsa da, 1921-ci ildə Türkiyəyə mühacirət edib. “Müsavat”ın qərarı əsasında 1924-cü ildə yaradılan “Azəri Türk Gənclər Birliyi”ndə təmsil olunub. Ankarada nəşr olunan “Azərbaycan”, “Türk İzi” jurnallarında şeirlərini “Hüseyn Camal Yanar” təxəllüsü ilə nəşr etdirib.[313] O, 13 aprel 1974-cu ildə İstanbulda vəfat edib.

Mirzəcamalbəyov “Qafqazım” şeirində Qafqaz xalqlarının birliyindən, Sovet Rusiyasına qarşı mücadiləsindən bəhs etmişdir:

*Şeyxlər içində “Şamilin” məşhur,*
*Hər bir daşında xatırı purnur.*
*Onun dastanı indi də dildə,*

[312] Yenə orada.
[313] Yaqublu Nəsiman. Şuşa ziyalıları: unudulmuş irs.Bakı, AVE Print,2022, s.191-192

*Sevgi, sayğısı mövcuddur eldə.*
*Ləzgi, qumıqlar, kabarda Balkar,*
*Adı gələndə ayağa qalxar.*
*Avar, osetin, qaraçay, çeçen,*
*Noğay, inquşlar, hər olan keçən.*
*Salam verərək söyluyor rəhmət,*
*Böyuk Şamilə layiqdir hörmət.*
*Onu pəkala ruslar da tanır,*
*Eşsiz mücahid, qəhrəman sanır...*
*Əziz Qafqazım "Şamillə" dolu,*
*Aydın, açıqdır İstiqlal yolu.*
*Qəlbim söyluyor: Qurtuluş yaxın,*
*Bir gün "soveti" yıxacaq axın.*
*İnsan haqları olacaq üstün,*
*Dünya cənnətə dönəcək bütün...*
*Vətən sevgisi imandır, iman,*
*Gözəl Qafqaza Yanarı qurban.*[314]

O, "Türkün ülküsü" şeirində isə Türk əsgərinin igidliyindən, cəsurluğundan bəhs etmişdir:

*"Bulaşmaz bir qadın qanına əlim,*
*Namərdlik Türk üçün əzabdır, elim.*
*Uzaqlaş! Uzaqlaş! durma ey xanım.*
*Ananəm, ülkümlə çıxmalı canım..."*
*O böyuk şəhidi hər zaman anar,*
*Türklüyün, mərdliyin qurbanı (Yanar)!*[315]

Mirzəcamalbəyov M.Ə.Rəsulzadənin 70 illik yubileyi ilə bağlı yazdığı "Yurddaşım Rəsulzadə M.Əmin bəyin 70-ci doğum ili münasibətilə" şeirində tanınmış şəxsiyyətin milli həyat portretini çızmağa çalışmışdır. O, yazırdı:

*Əmin bəy! Yetmişə ulaştı yaşın!*
*Siyasi qayğıya bulaşdı başın.*

---

[314] Mirzecamalbeyov Hüseyin. "Kafkasım". "Turk İzi" dergisi, Ankara, ocak (yanvar) 1953, il: 2, say: 6.

[315] Mirzecamalbeyov Hüseyin. "Türkün ülküsü". "Turk İzi" dergisi, Ankara, şubat (fevral) 1953, il: 2, say: 7.

*"Müsavat" sevdası tükənməz səndə,*
*Sözunlə, yazınla calışdın sən də.*
*Tanırım mən səni doqquz yüz dörddən,*
*Hər nəbat bəllidir yapraqdan, kökdən.*
*O zaman bambaşqa bir halın vardı,*
*"Hümmətçi" işçilər dost idi, yardı.*
*"İşıqlar" arardın "Qaranlıq" yerdə,*
*Pyes də yazardın beş-altı pərdə.*
*İranda "Tərəqqi" müxbiri oldun,*
*"İnqilab" fikriylə boşaldın, doldun!*
*Qonuşma, yazmaya salmışdın həvəs,*
*Bu yolda yorulmaz, almazdın nəfəs.*
*"Qurultay" bəklərdin, ucalsın səsin,*
*"Qərarlar" yazardın atəşin, kəsin!*
*"Açıq söz" çıxardın, bəyəndi xalqın,*
*Milli dərd bəhsində danılmaz haqqın!..*
*Ağac bar verirkən əyilir başı,*
*Olğunsa insanlar dolunca yaşı!*
*Əzəmət, (mən)likdən olurlar uzaq,*
*(Kamil)ə nə yapar tənqidlər, tuzak?!*
*(Dil əhli) olmalı (nur arar kölgə),*
*Bu da bir fikirdir, söyləyən özgə.*
*Kölgələr yox olur işıq gəlincə,*
*Zülmət qeyb olur gün yüksəlincə.*
*Hər sənət, məsləkin bir əhli vardır,*
*Əhlinin əlində hər bir iş kardır.*
*"Böyüklü" nişanı: iş əhli bulmaq,*
*Hər kəsdən bu işi gərəkməz ummaq!*
*"Yanar"ın umacaq "tək şeyi" vardır:*
*"Birlikdir" – birliksiz əhvalı dardır.*
*Hər kəsə hörmətlə ağartdı saçı,*
*"Dərvişlik" yetişir, neylər o tacı?!*
*Təqdirkar olmaya çalışmış "Yanar",*

*Kimsənin haqqını danmamış "Yanar".*[316]

O, "Neylərəm" şeirində isə yazırdı:

*Cismin mənə yük olmuş,*
*"Dostsuz" canı neylərəm?*
*Bahar gəlmiş gül olmuş,*
*Gülüstanı neylərəm?*
*Ayrılıq bir dərd olmuş,*
*Bağ, bostanı neylərəm?*
*"Sonsuz aləm", yurd olmuş,*
*Bu dünyanı neylərəm?...*[317]

***

1891-ci ildə Göyçay qəzasının Zərdab kəndində anadan olan **Səfvət bəy Həsən bəy oğlu Məlikov (1891-1976)** Bakı real məktəbini bitirdikdən sonra 1915-ci ildə Riqa Politexnik İnstitutuna daxil olub. 1917-ci ildə bolşeviklərin inqilabından sonra təhsilini yarımçıq qoyub Bakıya geri dönmüşdür.[318] Əlimərdan bəy Topçubaşı Paris Sülh Konfransına gedən nümayəndə heyətinin tərkibində Səfvət bəyi özünə köməkçi – qələm müdiri götürmüşdür. 1919-cu il martın 9-da Ə.b.Topçubaşının Fətəli xan Xoyskiyə göndərdiyi məktubdan bəlli olur ki, Səfvət bəy Parisə yola düşməmiş, İstanbulda konsulluqda çalışmışdır. Səfvət bəy Cümhuriyyətin xaricə oxumağa göndərdiyi 100 tələbədən biri olmağa çalışmış, lakin konsulluqda işlədiyi üçün bu mümkün olmamışdır.[319]

1921-ci ildə Bakıya geri dönən Səfvət bəy Azərbaycan SSR Maarif komissarına məktub göndərərək xaricdə təhsil alması üçün hökumətdən yardım istəmişdir. Məlikovun məktubuna baxan Azərbaycan SSR Xalq Maarif Komissarlığının qərarına əsasən o,

---

[316] Mirzecamalbeyov Hüseyin. "Yurddaşım Resulzade M.Emin beyin 70. doğum ili münasibetile" . "Azerbaycan" Türk kültür dergisi, Ankara, ocak-şubat 1954, il: 3, sayı: 10-11 (22-23).

[317] Mirzecamalbəyov Hüseyin. "Neylerem". "Azerbaycan" Türk kultur dergisi, Ankara,1974, il : 23, sayı 212.

[318] Aşırlı Akif. Həsən bəy Zərdabinin mücahid oğlu. Bakı: Elm və təhsil, 2016, s.3-6.

[319] Mərdanov M., Tahirzadə Ə. Məlik-Zərdabi (Məlikzadə, Məlikov) Səfvət bəy Həsən bəy oğlu // 1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar. C. 5 M. Bakı: Təhsil, 2021, s. 325

təhsilini davam etdirmək məqsədilə 1923-cü ildə Almaniyaya gedərək burada ali mühəndis ixtisasına yiyələnmişdir.[320] 1927-ci ildə Almaniyadan Türkiyəyə gələn Səfvət bəy Azərbaycanda atası H. b. Zərdabiyə qarşı münasibətin hələ dəqiq aydınlaşmamasına görə burada qalmaq qərarına gəlmişdir.O, Türkiyə Mühəndislər Dərnəyinin qurucularından olmuş, Ankaranın ən məşhur binalarının layihələndirilməsində iştirak etmişdir.1950-ci illərdə yaranan "Milliyyətçi Azərbaycan Dərnəyi"nin qurucularından biri olan Səfvət bəy 1976-cı ildə Ankarada vəfat etmişdir.

O, "Azərbaycan istiqlalına gedən yollar" məqaləsində milli istiqlalın tarixindən və fəlsəfəsindən bəhs etmişdir.[321]

***

1990-cı ildən günümüzədək Azərbaycan Kültür Dərnəyinin başqanı olan **Cəmil Ünal** hələ, 1980-ci illərin sonuna doğru Azərbaycan türklərinin Milli İstiqlala qovuşacağına inanırdı. O, 1990-cı ildə qələmə aldığı "Yenidən doğuş" məqaləsində yazırdı ki, Azərbaycan türklərinin tək dayanağı İslamlıq və Türkülük şüurudur: "Hər kəs hürriyyət istəyir, istiqlal deyə hayqırır. İnsanca yaşamanın özləmini çəkən milyonlarca insan marksizmin, leninizmin, kommunizmin çöküşünü hayqırmaq istəyir. Basqı rejimi altındakı millətlər, öz kimliklərinə yenidən qovuşmaq istəyir. Türklük aləmi içərisində Azərbaycan olayların mərkəzi halına gəlmişdir".[322]

******

XIX əsrin sonu,XX əsrin əvvəllərində istər müsəlman ölkələrində, istərsə qeyri-müsəlman imperiyalarda bəzi müsəlman ziyalıları "üçlü" düsturun əsas prinsiplərindən birincisi kimi **islamlığı** görmüşlər. İslamlığa münasibətdə də iki əsas məsələ özünü qabarıq surətdə büruzə vermişdir. Bunlardan birincisi, "İslam birliyi" ideyasını əxlaqi-mənəvi dəyər kimi qəbul edib, onu milliliklə paralel şəkildə aparmaqdır. Yəni millilik və islamlığı bir-birindən fərq-

[320] Aşırlı Akif. Həsən bəy Zərdabinin mücahid oğlu. Bakı: Elm və təhsil, 2016, s.6-7
[321] Tahirli Abid. Azərbaycan mühacirət mətbuatı. 2-ci hissə. Bakı, "Ozan", 2003,s.133
[322] Ünal Cemil. Yeniden Doğuş// "Azerbaycan" Kültür Dergisi, №271, 1990-cı il, ocak-şübat

ləndirərək onlar arasındakı oxşar və fərqli cəhətləri görməyi bacarmaqla yanaşı, istənilən halda onların sintezindən çıxış etməkdir. İslamlığa münasibətdə ikinci önəmli məsələ, ondan siyasi ideologiya kimi istifadə olunmasıdır. Yəni bəzi millətlər, xüsusilə İslam Şərqinə aid bir çox xalqlar (ərəblər, farslar və b.) var ki, müstəqil varlıqlarına görə, ilk növbədə din faktoruna borcludurlar. Ancaq bu o demək deyil ki, bu ölkələrdə millilik faktoru nəzərə alınmır. Sadəcə, müsəlman inanclı bəzi millətlər, o cümlədən ərəblər, farslar bir çox səbəblərə görə "İslam birliyi" ideyasını dövlətin rəsmi ideyası kimi qəbul etsələr də, faktiki olaraq millilikdən – panərəbizmdən, panfarsizmdən çıxış edirlər. Ona görə də bu xalqlarda din ideyasının millilikdən üstünlüyü nisbi xarakter daşıyır.

Quzey Azərbaycanda da dinə münasibətdə hər iki hal özünü büruzə vermişdir. Çünki islamçılıq bir ideoloji təlim kimi XIX əsrin sonlarında bütün İslam-Türk dünyasında geniş yayılmışdı ki, bütün əksər Türk xalqları kimi Azərbaycan türklərinin də həyatında onun əhəmiyyəti anlaşılandır. Bu baxımdan Milli Azadlıq hərəkatının inkişafında yeni bir dönəmə daxil olan Azərbaycan türklərinin, onların aydınlarının əksəriyyətinin də, ilk olaraq "İslam birliyi" ideyasına müraciət etmələri də təbii idi. M.Ə.Rəsulzadə doğru yazırdı ki, Quzey Azərbaycan türkləri arasında başlanğıcda milli oyanış dini çərçivədə olmuş, dinin elmə zidd olmaması kimi mülahizələr irəli sürülmüş, bu mənada, XIX əsrdə Qafqaz türkləri milli varlıq kimi özünü hələ göstərə bilməmiş, daha çox ümmətçilik mənasında din və məzhəbçiliyə meyil etmişdir.[323]

XX əsrin əvvəllərində islamçılığı təbliğ edən bütün qüvvələrin hamısı Qərb və Sovet ədəbiyyatında "panislamistlər" adlandırılmış və bu dini-siyasi təlim "panislamizm" kimi qələmə verilmişdir. Xüsusilə, Sovet ədəbiyyatında Azərbaycan milli burjuaziyasının ideologiyasına mürtəce dini-siyasi təlim olan "panislamizm"in təsirindən bəhs olunmuşdu. Sovet müəllifləri iddia edirdilər ki, panislamistlər "İttihadi-İslam" proqramını həyata keçirmək üçün feodal keçmişi, köhnəliyi və patriarxal həyat tərzini ideallaşdırmış,

[323] Rəsulzadə M.Ə. Qafqaz türkləri. Bakı, Təknur, 2012, s.42

müsəlmanları keçmiş birliyə qayıtmağa çağırmış, bu yolda İslamı müsəlman xalqının dirçəlməsi və yeniləşməsi üçün yeganə vasitə hesab etmişlər. Onlara görə sultan Türkiyəsində yaranmış "panislamizm" İslam dininə itaət edən bütün xalqları vahid müsəlman dövləti halında birləşdirməyi təbliğ etmişdir.[324]

SSRİ ədəbiyyatında "İttihadi-İslam" və "panislamizm" anlayışlarına yalnız mürtəce məna verilərək, onun mütərəqqi mahiyyətinin gizlədilməsi Q.Mustafayevin "XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi" əsərində qismən etiraf edilmişdi. O yazırdı ki, "İttihadi-İslam" ideyasının yalnız "panislamizm" adı altında qələmə verilərək, burada əsas məqsədin "ümumdünya müsəlman siyasi birliyi"nin, "xilafət"in yaradılmasının olması ilə bağlı müddəalar heç də həqiqətə uyğun deyil.[325] Ona görə Sovet müəlliflərinin əsərlərində "İttihadi-İslam" və "panislamizm" anlayışları ikinci – dini-siyasi ideologiya mənasında işlənmişdir və işlənməkdədir. Buna əsas səbəb də "İttihadi-İslam"ın milli-dini birlik mahiyyətinin sosial-demokrat, sosializm əqidəsi ilə ziddiyyət təşkil etməsi olub.[326] Deməli, SSRİ ideoloqları "İttihadi-İslam" məsələsində mütərəqqi ruhlu islamçılarla ifrat mühafizəkarları qəsdən bir-birindən ayırmamış və bununla da, bütövlükdə islamçılığı mürtəce dini-siyasi ideologiya kimi qələmə vermişlər.

Maraqlıdır ki, hazırda da əksər ədəbiyyatda "panislamizm" adlandırılan islamçılığın ideya istiqamətləri vahid cərəyan kimi qələm verilir. Çağdaş tədqiqatçılardan Sevda Süleymanova, Altay Göyüşov hesab edirlər ki, "İslam birliyi"ndən çıxış edənlər panislamistlər, ittihadçılar, "ittihadi-islam"çılar olublar.[327]

Fikrimizcə, "panislamistlər" kimi ümumi bir ad altında verilən milli və mütərəqqi ziyalıları, əsasən keçmişi ideallaşdıran, hər

---

[324] Azərbaycan Kommunist Partiyasının oçerkləri. I cild, Bakı: Azərnəşr, 1986, s.40

[325] Mustafayev Qədim. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı, Maarif, 1973, s.143

[326] Yenə orada, s.144

[327] Süleymanova Sevda. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX əsrin sonu, XX əsrin əvvəlləri). Monoqrafiya, Bak ı: Azərbaycan Dövlət Kitab Palatası, 1999, s.49; Göyüşov Altay. Azərbaycanda ittihadçılıq. Bakı, "İrşad", 1997, s.16

cür yeniliyə qarşı olan mühafizəkarlardan, o cümlədən onların siyasi qanadı olan "ittihadçılar"dan hökmən fərqləndirmək lazımdır. Bu baxımdan M.Ə.Rəsulzadənin vaxtilə islamçılıq daxilindəki həmin ikiləşməni görməsi və qeyd etməsi çox zəruridir: "İslam bilginlərinin çoxu müsəlman dünyasını son çöküşdən bir yandan dinin köklü doqmalarına qayıtmaqla, o biri yandan da müsəlmanların siyasi birləşməsilə qorumağı düşünürdülər. Ancaq islamçılıq ideologiyasının bu dini-siyasi ikiüzlülüyü sonralar panislamizmdə iki axının ayrılmasının başlanğıcı oldu. Bir axın, xarici güclərlə savaşan, ancaq o gücləri andıran hər bir yeniləşməyə də qarşı çıxıb, hər hansı avropaçılığa savaş deyən ortodoksal – tutucu axındır. Yenidənqurucu, ikinci axın isə Avropa saldırısı ilə siyasi savaşmaqla ideologiya alanında çağın liberalizmini şəriətə uyğun uyğulamaq istəyirdi".[328] Ə.Ağaoğlu və Ə.Hüseynzadə də Türk-İslam dünyasının nicatı uğrunda mübarizə aparanları siyasi-ideoloji baxışlarına görə üç qrupa: 1) mühafizəkarlara; 2) ifrat tərəqqipərvərlərə; və 3) həmin iki xətt arasında orta mövqe tutan mötədil tərəqqipərvərlərə bölmüşlər.[329]

27 aprel işğalından (1920) Cümhuriyyətin bərpasına (1991) qədərki 71 illik dövrdə Quzey Azərbaycanda İslam dininin təbliğatı mənfi yöndə olmuş, bu ideyanı əsasən mühacirətdə yaşayan aydınlarımız yaşatmağa çalışmışlar.İslamçılıq öncüllüyündə türkçülük və müasirlik düsturunun Quzey Azərbaycandakı əsas nümayəndələri Y.Z.Talıbzadə, Qarabəy Qarabəyli, Hacı Zeynalabidin Tağıyev, S.M.Qənizadə, H.Vəzirov, Şeyxülislam Məhəmməd Pişnamazzadə, S.Eynullayev, Ə.M.Rüfətov və başqaları olmuşlar.

Türk dünyasının böyük şəxsiyyəti **Hacı Zeynalabdin Tağıyev (1838-1924)** XIX əsrin sonu, XX əsrin başlarında çağdaş ruhlu Türkçülük, İslamlığın təbliği və təşviqində miqyasagəlməz maddi dəstək göstərmiş, milli-dini demokratik ruhlu ictimai-siyasi təşkilatların ("Difai", "Müsavat", "Nicat", "Müsəlman xeyriyyə", "Nəşri-maarif" və b.), qəzet-jurnalların ("Həyat", "İrşad", "Füyuzat",

---

[328] Rəsulzadə M.Ə. Panturanizm. Qafqaz sorunu. Bakı, Təknur, 2012, s.44

[329] Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007, s.34; Ağaoğlu Əhməd. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007, s.332

"Yeni İrşad", "Açıq söz" və b.) yaranmasında müstəsna rol oynamışdır.[330] Onun milli-dini işlərindən biri, Türk dilində qəzetlərin qadağan oldğu bir dövrdə, 1895-ci ildə rusdilli "Kaspi" qəzetini mətbəəsi ilə birlikdə satın alması idi. Bundan sonra "Kaspi" qəzeti Azərbaycan tüklərinin milli ideyasının təbliğində aparıcı rol oynamışdır.[331]

N.Nərimanov 1900-cü ildə yazdığı "Hacı Zeynalabdin Tağıyevin əlli illik məişəti və cəmaətə xidmətləri" kitabsaçında göstərirdi ki, Tağıyevin millətə əsas xidmətləri arasında milli məktəblərin inşası olmuşdur.[332] Tağıyevdən hər cür maddi dəstək görmüş N.Nərimanov daha sonra yazırdı: "Onun cəm etdiyi milyonlardan insana və millətə mənafe yetişibdirmi? Hərgah yetişibsə, bu möhtərəm şəxsin xidmətlərinin əvəzində millət nə etməlidir? Təklifi nədir? Bu məsələni həll etmək bir adamın işi olmayıb, mərifətli müsəlmanlar bu barədə gərəkdir məşvərət edələr və məşvərət məqamında cənab Hacının millətə xidmətlərini qeyri-müsəlman milyonçuların işləri ilə (Bakıda xüsusən) bir tərəziyə qoyarlar. Həmin məqamda hörmətli Hacının millətə olan qeyrətinin qiyməti ariflər yanında birə beş artar. Böyük hünərdir, əzizim, insan öz sağlığında xeyriyyə cəmiyyətlərinə bu qədər xərc etsin! Bu qeyrətdə şəxslərin həyatı xarici millətlərin bizim barədə olan hörmətsiz fikrini puç etməyə səbəbdir. Mədəniyyətli millətlər bizə mədəniyyətdən üz döndərən, vəhşi, vətənin və millətin imdadına çatmayan deyirlər. Səbəb? Səbəb budur ki, Hacı kimi dövlətli müsəlmanlardan mini qara torpağa gedibdir və gedəcəkdir, amma Vətənə və Millətə Hacı edən xidmətlərin mindən birini etməyiblər".[333]

Müəllifi Yusif Talıbzadə olan "Sərvət və səxavətlə məşhur cənab H.Z.Tağıyevin tərcümey-halı" əsərində də qeyd olunur ki, milli məktəblər inşa etdirən Tağıyev bu zaman yalnız oğlanları de-

---

[330] Cabbarov Fərhad (tərtibçi). Müasirləri Hacı Zeynalabdin Tağıyev haqqında. Bakı, "Ziya" NPM, 2013, s.7-11

[331] Azərbaycan Kommunist Partiyasının oçerkləri. I cild,Bakı: Azərnəşr, 1986, s.40

[332] Cabbarov Fərhad (tərtibçi). Müasirləri Hacı Zeynalabdin Tağıyev haqqında. Bakı, "Ziya" NPM, 2013, s.24

[333] Yenə orada, s.31

yil qızları da düşünərək Nəcib Qızlar Gimnazyasını təsis etmişdir. Y.Talıbzadə yazırdı: "Həqiqətən, heç kimlə şərik olmadan, heç kimin ianəsi yetmədən bu ağır işləri öhdəyə götürmək böyük mərdlikdir. Doğrudan da, vətən səxavət və səadət qapısını açan, milləti əzizlik və şərfətə yetirməyə çalışan bu cənaba bənzər daha birisini müsəlmanlara yetirməyə illər, zaman lazımdır".[334] Y.Z.Talıbzadə Tağıyevə həsr etdiyi bir şeirində yazırdı:

*Tək millətinə olmayıb onun himayəti,*
*Hər millətə ziyadə keçibdir inayəti.*
*Çün eyləyibdir cümlə əlili o biniyaz,*
*Ol barədən alıb neçə dövlətdən imtiyaz.*
*Hər millət ol cənaba edir çox təşəkkürün,*
*Həmvarə lütfü mərhəmətinin təzkkürün.*[335]

Türk (Azərbaycan) tarixində ilk dəfə Quranı Azərbaycan türkcəsinə çevirdən Tağıyev, onu Yusif Ziyanın vasitəsilə 1907-ci ildə İstanbula 2.Sultan Əbdülhəmidə göndərmişdir.[336]

Milli aydınımız Hüseyn Cavid yazırdı ki, Tağıyev milli məktəblər açmaqla, milli mətbuata, milli təşkilatlara, milli teatrın inkişafına yardım etməklə mədəniyyət işıqları yandırmışdır. O, yazırdı:

*Elm əsasını qoyan, maarifin hamisi,*
*Elm əhlinə süd verən mehriban dayə yazdı.*
*Bir çox pullar sərf etdin elm, hünər yolunda,*
*Müdrik adı, şöhrəti qalxır səmayə yazdı.*
*Biliyin faydası var həm dünya, həm üqbada,*
*Biliklə əldə olar məqsəd və qayə yazdı.*[337]

Milli şairimiz Mirzə Ələkbər Sabir də Tağıyevin millət üçün etdiyi əməyi yüksək qiymətləndirmişdir. O, yazırdı:

*Elmə yollar açdın, ey millətpərvər*
*Hacı Zeynal Abdin, ey taci sər.*
*Vətənin qızların elmə bağladın,*
*Vətənə, ümmətə, millətə pərvər.*

---

[334] Yenə orada, s.50
[335] Yenə orada, s.173-174
[336] Yenə orada, s.66
[337] Yenə orada, s.176

*Müzəyyən eylədin kəlbi nadanı,*
*Mərhəmətli ata, muarif göstər.*
*İrana, Turana, Türkə, Tatara*
*Səxavət eylədin, oldun müzəffər.*
*Hər kə səni sevər, millətin canı.*[338]

Nağı Şeyxzamanlıya görə isə, Tağıyevin iki mühüm arzusu olmuşdur: varlı olmaq və milli qayəmizə xidmət etmək: "Hacı artıq zənginliyin son zirvəsinə yüksəlmiş və bununla da birinci qayəsinə çatmışdır. İkinci qayəsinə gəlincə, illik gəlirinin 25%-ni fəxri sədri olduğu Müsəlman Xeyriyyə Cəmiyyətinə və "Nəşri-Maarif" Cəmiyyətinə keçirmişdir. O, Bakıda çıxan və milli qayəmizə xidmət edən türkcə, rusca olan qəzet və jurnalların nəşrinə kömək etmişdir".[339]"Müsəlman Xeyriyyə Cəmiyyəti" 1-ci Dünya müharibəsi illərində Osmanlı türklərinə böyük yardımlar etmişdir.

Tağıyevin əsas xidmətlərindən biri də Türk dilində əsərlərin nəşrinə yardım etməsi olmuşdur. Məsələn, o, Həsən Əlqədari əl-Dağistani, Y.Talıbzadə, Əbdüssəlam Axundzadə, S.M.Qənizadə, S.Ə.Şirvani, N.Nərimanov və başqa ziyalıların əsərlərinin hamisi olmuşdur.[340] Milli teatrın yaranması və inkişafında da Tağıyevin maddi dəstəyi olmuşdur. Bakıda ilk teatr binası 1883-cü ildə başa çatmış, 1888-ci ilin oktyabrın 27-də ilk tamaşa səhnəyə qoyulmuşdur.[341] Türk ziyalılarından Ə.Topçubaşı, Ə.Ağayev, F.Vəzirov və başqaları 1905-ci lin martın 15-də məhz H.Z.Tağıyevin evində toplaşaraq "Ümummilli haqq istəyi" layihəsini hazırlamışlar.

1918-ci il dekabrın 7-də H.Z.Tağıyevin banisi olduğu Nəcib Qızlar Gimnaziyasını binasında Cümhuriyyət parlamentinin təsis iclası olmuşdur. Tağıyev Cümhuriyyətə hər cür maddi dəstək göstərmiş, onun büdcəsinin formalaşmasında böyük işlər görmüşdür.

---

[338] Yenə orada, s.178-179

[339]Keykurun Naki. Büyük Bir Hayirsever Hacı Zeynalabdin Takızade. "Azerbaycan", Ankara, mayıs 1957, sayı 14 (62),s.16-19

[340] Cabbarov Fərhad (tərtibçi). Müasirləri Hacı Zeynalabdin Tağıyev haqqında. Bakı, "Ziya" NPM, 2013, s.52

[341] Yenə orada, s.38

Milli ideoloq M.Ə.Rəsulzadə 1924-cü ildə "Yeni Qafqasiya" dərgisində H.Z.Tağıyevin vəfatı münasibətilə qələmə aldığı "Hacı Zeynalabidin" məqaləsində yazırdı ki, Hacı maddətən deyil, mənən də milyoner idi: "O, heyrət və həsənatı ilə məruf bir sima idi. Azərbaycan tərəqqi və irfan tarixində Hacının tutduğu mövqe bülənt, bu xüsusda göstərdiyi fədakarlıqlar mütənasibdir. O, millətin tərəqqi və təailisinə pək çox yardım etmişdir, pək çox yararlıqlar göstərmişdir. Müvərrix, Azərbaycan tərəqqiyyatını tədqiq edərkən burjuaziya dövrünün şəxsi amillərini ararkən, Tağıyev ismi üzərində istər istəməz, duracaq və yazacağı hər hansı fəsildə bu şəxsdən bəhs etmək lüzumunu hiss edəcəkdir. O görəcək ki, bu şəxsdə sadə əmələlikdən yetişərək cəmiyyətin ən yüksək zirvəsinə çıxmış, sərvəti ilə məhur olduğu kibi heyərət və həsənatı ilə də əfkarı-əmmadə böyük bir hörmət və mövqe əxz etmişdir".[342]

Tağıyevin Türk xalqlarının, o cümlədən Azərbaycan türklərinin milli oyanışına və birliyinə etdiyi maddi yardımlar olmasa idi, bu gün biz yalnız həmin dövrdə nəşr olunan qəzet-jurnallardan, maarifçi-xeyriyyəçi və siyasi təşkilatlardan deyil, bütövlükdə milli məfkurədən, milli Cümuriyyətdən də çox kasıb vəziyyətdə çıxa bilərdik. Tağıyevin türklük və islamlıq ideyalarının daşıyıcı olması, onun milyonlarının milli-mənəvi dəyərlərimizin inkişafına yönəltmiş və Türk xalqlarının toparlanması yolunda yaşıl işıq olmuşdur.

***

Şamaxıda anadan olan **Sultan Məcid Qənizadə (1866-1937)** 1883-cü ildə Tiflisdə Aleksandrovski müəllimlər institutunu bitirib, 1887-ci ildə Bakıda "Rus-Tatar" məktəbini açmışdır. 1905-1908-ci illərdə Qori şəhərində Zaqafqaziya müəllimlər seminariyasının Tatar şöbəsinin müfəttişi vəzifəsində işləmişdir. 1908-ci ildə Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəblərinin ikinci rayon müfəttişi vəzifəsinə təyin olunub, 1917-ci ilə kimi bu vəzifədə çalışmışdır. S.M.Qənizadə, 1917-ci ildə yaradılmış "İttihad" partiyasının fəal rəhbərlərindən biri olmuş, Cümhuriyyət dövründə

[342] Rəsulzadə M.Ə. Əsərləri (Mühacirət dövrü: Türkiyə, 1923-1931). II cild, Bakı, "Qanun" nəşriyyatı, 2021, s.139

Parlamentdə millət vəkili kimi fəaliyyət göstərmişdir. 27 aprel işğalından sonra Qənizadə Azərbaycan Xalq Maarif Komissarlığının müfəttişi, Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinin məsul katibi, Azərbaycan Elmi-Tədqiqat İnstitutu yanında Lüğət komissiyasının üzvü vəzifələrində çalışmışdır. O, 1937-ci ildə repressiya qurbanı olmuşdur.

Onun əsas əsərləri aşağıdakılardır: "Məktubati-Şeyda bəy Şirvani", "Allah xofu", "İstilahi-Türki", "Lüğəti-rusi və türki" və b.

İslamçılığa və türkçülüyə özünəməxsus münasibəti ilə seçilən Qənizadə hələ, 1880-ci illərin sonlarından Azərbaycan türklərinin maariflənməsi uğrunda mübarizəyə başlamış, Həbib bəy Mahmudbəyovla birlikdə, Bakıda "Rus-Tatar məktəbi" adlı yeni tipli ibtidai məktəbin əsasını qoymuşdur. İlk dövrlərdə Qənizadə də bir maarifçi kimi daha çox cəmiyyətin savadlanmasına çalışmışdır. Onun fikrincə, müəllimin əsil övladları öz uşaqları deyil, məhz şagirdləri olmalıdır. Eyni zamanda, müəllimin mal və dövləti dərs və təlimdir, qazancı isə millətinin rəğbətidir. Qənizadə yazırdı: "Müəllimin evi kitabxanadır, müəllimin nökəri məktəb mülazimidir, müəllimin təvabe və ətbari çocuq-şagirdlərdir, müəllimin müxəlləfatı qara-qura məktəb mizləridir, müəllimin sazı, nəğməsi məktəb şagirdlərinin sədasıdır, müəllimin istirahəti dəftərlər təsihihdir".[343]

Onun fikrincə, artıq mədəniyyət əsrində Sədinin, Hafizin qəzəliyyat yolu ilə getmək, zülf və şövqlə mədhiyyələr oxumaq deyil, dünyəvi elmlərə meyil etmək, cəmiyyəti maarifləndirəcək əsərlər yazmaq lazımdır. Qənizadəyə görə xurafat və mövhumatdan, cahillik və nadanlıqdan qurtulmağın ilk yolu məktəblərin yaranmasından və həmin məktəblərdə millətin övladlarına bilik vermək istəyən müəllimlərin olmasından başlayır. Onun fikrincə, müəllim millətini cəhalətindən qurtarmaq üçün hər şeyi gözə almalıdır: "Millətin cəhalətindən həzər edən müəllim öz balasına nifrin edən ata kimidir. Hünərli ustad xam dəmirdən səbirlə misri qılınc yapa bilərsə, yaxşı müəllim kəctəb millətdən xoşəxlaq cəmiyyət hazırlaya bilər".[344]

[343] Qənizadə Sultan Məcid. Seçilmiş əsərləri. Bakı, Avrasiya press, 2006, s.25
[344] Yenə orada, s.33

Müəllimin çox ağır məsuliyyət daşıdığını deyən Qənizadə, hətta müəllimliyi həccə getmək istəyən müsəlmanın vəzifəsindən də ağır vəzifə hesab etmişdir. Onun fikrincə, müəllim çox məsuliyyətli bir vəzifə daşıyır: "Müəllimliyə təklif olan şəxs həcc və zəkatə müstəti olmadıqda "kimləri öyrətdin və nə öyrətdin?" sorulub ondan tələb olacaqdır. İnsafən müəllimlik təklifi ağır təklifdirsə, müəllimlik şəni həm uca şəndir. Müəllimlik hər bir əsrdə ağır olubsa, bu əsrimizdə daha ağırraqdır! Əsrimiz bir əsrdir ki, gündüzlər qiraət, gecələr kitabət müəllimlər üçün din borcudur".[345]

Müsəlmanlar arasında məzhəblərarası mübarizəni, o cümlədən şiə-sünni məsələsini birmənalı şəkildə pisləyən Qənizadə açıq şəkildə yazırdı ki, bunu ortaya salanlar əsil müsəlman ola bilməzlər. Çünki müsəlmanların kitabı da, peyğəmbəri də birdir. Bu anlamda müsəlmanların sünni və şiə adları altında bir-birlərini öldürmələrini cəhalət adlandıran Qənizadə yazırdı: "Allahı sevirsinizsə, Ömər ilə Əli həzrətlərini rüsvay etməyəsiniz. Öz zamanlarında o cənablarından baş verən əməllər indi gah İslam və gah əcnəbi tarixçilərinin sərdəftəri olmuş ikən, sizin kibi cahillər bu kəsafəti-bəşəriyyə ilə onlar kibi ali cənabları müaxəzə etmək şayəstə deyil…. Ələlxüsus ki, indi dörd yüz ildir ki, bu bihudə məsələ söylənib-söylənib axır bir səmərə vermədiyi xud müzurr olduğun isbat edir".[346]

O, "Allah xofu" əsərinin mövzusunu real həyatdan götürüb təsvir etməklə yanaşı, cəmiyyətin problemlərinin həllində çıxış yolu kimi İslam dinini, konkret olaraq Quranı göstərmişdi. Ona görə insanlar Allahın qoyduğu şəriətlə getsə, cəmiyyət daxilində elm intişar tapsa insanlıq şərəfi və vicdan isməti də itməz: "Amma çifayda! Elm və şəriət hala o dərəcədə intişar tapmayıbdır ki, hamı insanlar insanlıq şərəfini anlayıb, vicdan ismətin saxlaya bilsinlər".[347]

O, İslamda qadın məsələsinə də xüsusi diqqət yetirmişdir. Onun fikrincə, İslam dünyasında neçə əsrlərdən bəri davam edən bu adətə son qoymaq lazımdır. Çünki qadınların azadlıqlarının

---

[345] Yenə orada, s.34
[346] Yenə orada, s.68
[347] Yenə orada, s.124

əlindən alınması son nəticədə millətin inkişafına zərbə vurmuşdur. Qənizadə yazırdı: "Filhəqiqə bəzi millətlər arasında qadın tayfası hürriyyət səmərəsində binəsib ikən, bəzi hüquqdan məhrum qalmışlar. Biz Qafqaziya müsəlmanlarının arasında qadın çağırdığımız mehriban canlar, analar və bacılar übudiyyət qeydlərində bağlanmaları zülm və fəzihətdir və bunca nagüvara adətlər şəri-Məhəmmədiyyə bərəks olduqda tədric ilə İslam millətlərinin arasından tərk olacağına etimad çoxdur".[348]

Ancaq o, kişilərlə qadınların tamamilə bərabərhüquqlu olması məsələsinə gəlincə, burada bir qədər fərqli mövqedən çıxış edirdi. Qənizadənin fikrincə, kişi ilə qadın arasında başlanğıcdan müəyyən fərq olduğu üçün, indi də bəzi məsələlərdə kişi qadından üstündür: "Dünyada hər bir zatın tərəqqisi üçün bir şərt mövcud ikən həmin tərəqqinin təkmili üçün həm bir dərəcə müəyyəndir. Hakəza qadın məsələsi hürriyyət və insaf üstündə bina tutduqda mədəniyyət aləmində bir dərəcəyəcə çatacağına həm etimad çoxdur, amma amerikalılar istətdiyi bərabərlik dərəcəsinəcən yox. Zira ki, ümumi insaniyyət üçün hürriyyət mütləqən mümkün olmadıqda, qadınla kişi arasında hər bir cəhətcə bərabərlik mümkün deyildir".[349]

Qənizadə Cümhuriyyəti dövründə də millət vəkili kimi, ən çox diqqəti "İslam birliyi"nə yönəltmiş və Türk-İslam məfkurəsinin sintezindən çıxış etmişdir. Bu baxımdan, 1917-1920-ci illərdə mövcud olan "İttihad" Partiyasının liderlərindən bir kimi Qənizadə hesab edirdi ki, İslam bayrağının ucalmasında Türk qövmləri müstəsna rol oynamışdır. O, parlamentdəki bir çox çıxışlarında deyirdi ki, "İslam birliyi" məsələsində aparıcı rol türklərə məxsusdur.

Azərbaycan Sovet Rusiyası tərəfindən işğal olunduqdan sonra da mədəni-maarif işlərini davam Qənizadə, ancaq SSRİ repressiyasından qurtula bilməmişdir. Belə ki, onun islamçılıq, türkçülüklə bağlı çıxışları 1937-ci ildə repressiya olunması ilə nəticələnmişdir. Beləliklə, ömrünün böyük bir hissəsini Azərbaycan xalqının maa-

[348] Yenə orada, s.80
[349] Yenə orada, s.80

riflənməsinə və savadlanmasına həsr edən Qənizadə bu yolda, sözün həqiqi mənasında şəhid olmuşdur.

***

1853-cü ildə Gəncə şəhərində anadan olan **Şeyxülislam Axund Molla Məhəmməd Əli oğlu Pişnamazzadə (1853-1937)** ilk təhsilini Gəncə mədrəsəsində almış, daha sonra ali ruhani dərəcə almaq üçün Təbrizə göndərilmişdir. Onun Təbrizdə Ayətullah Mirrzə Cavad Ağa Müctəhid, Ayətullah Mirzə Baqir Müctəhid və başqa alimlərdən dini dərslər aldığı qeyd olunur.[350] 1892-ci ildə Gəncə Cümə məscidinə baş molla təyin olunan Pişnamazzadə bir il sonra Tiflis Vilayət Ruhani Məclisinin üzvü seçilmiş, 1895-ci ildə isə Gəncə Vilayət Ruhani Məclisinin rəhbəri təyin olunmuşdur.[351] 1896-cı ildə Gəncədə "Məktəbül-Xeyriyyə"ni təsis edən Pişnamazzadə 1900-cü ildə Qacarlarla Osmanlının xeyrinə təbliğatda ittiham edilərək Türkistana sürgün olunub.[352] O, sürgündən qayıtdıqdan sonra bu dəfə qardaşı Axund Hüseyn Pişnamazzadənin rəhbəri olduğu "Mədrəseyi-Ruhaniyyə"də dərslər keçmişdir. Pişnamazzadənin sayəsində 1900-cu illərin sonlarına doğru Gəncə və Gəncə ətrafında "Üsuli-Cədid" tipli məktəblər açılmışdır. O, 1906-cı ildə ikinci dəfə Gəncə Vilayət Ruhani Məclisinin başçısı təyin olunmuşdu.

1905-1906-cı illərdə erməni-müsəlman münaqişəsi zamanı türk-müsəlman əhalinin müdafiəsində mühüm rol oynayan "Difai"-nin Şuşadan sonra Gəncədə əsas heyəti təsis edilib və partiyanin Gəncə komitəsinin rəhbəri M.Pişnamazzadə, onun müavini isə Ələkbər bəy Rəfibəyli olmuşdur.[353] Çarizm tərəfindən "Difai"nin Gəncə komitəsinin aradan qaldırılması üçün 1908-ci il iyunun 23-

---

[350]Mövlayi Adil. Qafqazda elm dünyasının ulduzları. Bakı, "Bahar", 2013, s.81

[351]Nurullayev Fuad. Şeyxülislamlıq zirvəsi: Hacı Allahşükür Paşazadə. Bakı, "Nurlar" NPM, 2014,s.75

[352] Əzizov Eldar. "Difai": XX əsrin əvvəllərində erməni-azərbaycanlı münaqişəsinin ilkin tarixi şərtləri və səbəbləri, Bakı, SBS, 2009, s.61

[353] Bağırova İrade. 20. Yüzyılın Başlarında Azerbaycanda Siyasi Partiler //Azerbaycan Düşünce Tarihi. 1 cild. 2 cilddə. Ankara, YTB yayınları, 2021, s.129; Ахмедов А.Азербайджанские тюрки в революции1905 г.Баку,Елм, 2002,с.289

dən 24-nə кeçən gecə Gəncədə kütləvi axtarışlar aparılıb.[354] Pişnamazzadə evində aşkarlanan sənədlərə və fəaliyyətinə görə 1908-ci ilin iyulunda bir il müddətinə Kazana sürgün olunub. O, sürgündə olduğu müddətdə Həştərxanda "Həmiyyət", "Günəş", "Burhani-tərəqqi" kimi qəzetlərdə məqalələrlə çıxış etmişdir.[355]

Bir illik Kazan sürgünündən qayıdıb öncə Gəncəyə, oradan da Tiflisə gələn Pişnamazzadə 1909-cu il iyun ayının 20-də Qafqaz Müsəlmanları Şiə Ruhani İdarəsinin üzvü seçilmişdi. Bu hadisədən az sonra Şeyxülislam Axund Məhəmmədhəsən Mövlazadə Şəkəvi tutduğu vəzifəsindən istefa verib, onun yerinə də Axund Molla Məhəmməd Pişnamazzadə müvvəqəti olaraq təyin edilmişdi.[356] Ancaq bu təyinatdan sonra da rus polis məmurları Pişnamazzadəni nəzarət altında saxlamağa davam etmişlər. Çarlıq jandarmiyasının 1912-ci ilin fevralında tərtib edilmiş məlumatların birində onun haqqında yazılmışdır: "O, Qafqaz diyarı hüdudlarında müsəlman üsuli-cədid məktəblərinin, kitabxana-qiraətxanaların və müxtəlif xeyriyyə cəmiyyətlərinin yaradılmasının təşəbbüsçüsüdür. Öz əsərlərində, məqalələrində və ictimai yerlərdə söylədiyi nitqlərində o, müsəlmanları birləşməyə və milli tayfa davalarına son qoymağa çağırırdı. Pişnamazzadə öz baxışlarına görə mütərəqqi müsəlman və eyni zamanda yüksək dərəcədə dindar, ciddi adamdır, müsəlman ruhaniləri arasında və cəmiyyətdə görkəmli mövqeyinə müvafiq olaraq qapalı, sadə və ayıq-sayıq həyat tərzi keçirir".[357]

1914-cü ildə Tiflisə gələn çar II Nikolay həm şiə müsəlmanlarının lideri Şeyxülislam vəzifəsini icra edən M.Pişnamazzadə ilə, həm də sünni müsəlmanlarının lideri Müfti Hüseyn Əfəndi Qayıbovla görüşmüş, onların çıxışlarını dinləmişdir. Bu hadisədən bir müddət sonra, 1915-ci ilin yanvarın 14-də Daxili İşlər İdarəsinin təqdimatına əsasən İmperator II Nikolay tərəfindən Məhəmməd

[354] ГИА АР: ф.62. оп.1, д.59, лл. 79, 87
[355]Nurullayev Fuad. Şeyxülislamlıq zirvəsi: Hacı Allahşükür Paşazadə. Bakı, "Nurlar" NPM, 2014,s.77
[356]Hüseynqulu Məmmədli. Qafqazda İslam və Şeyxülislamlar.Bakı,MBM,2005, s.116
[357] Əzizov Eldar. "Difai": XX əsrin əvvəllərində erməni-azərbaycanlı münaqişəsinin ilkin tarixi şərtləri və səbəbləri, Bakı, SBS, 2009, s.61

Pişnamazzadə Zaqafqaziya Şiə Ruhani İdarəsinin sədri və Zaqafqaziya şeyxülislamı vəzifəsinə rəsmən təsdiqləmişdir.[358]

O dövrdə belə bir fikir yayılmışdı ki, güya həmin vəzifəyə Ruhani İdarəsindən Molla Məhəmməd Axundzadə adlı şəxs təyin olunub. Milli ideoloq M.Ə. Rəsulzadə "İqbal"ın 13 fevral 1915-ci il tarixində dərc olunmuş "Şeyxülislamın təsdiqi münasibətilə" adlı məqaləsində həmin hadisəyə aydınlıq gətirərək yazırdı ki, İdareyi-ruhaniyyə əzasından Molla Məhəmməd Axundzadə adında birisi yoxdur və bu vəzifəyə təyin edən M.Pişnamazzadədir.[359]

1917-ci il fevral burjua inqilabından sonra təsis edilən Gəncə Müsəlman Milli Komitəsinin qərarı ilə beş nəfərlik icra heyəti yaranmışdı ki, onlardan biri də Pişnamazzadə olmuşdur.[360] Həmin dövrdə Gəncədə Pişnamazzadənin rəhbərliyilə "İttihadi-İslam" cəmiyyəti də fəaliyyət göstərirdi. 1918-ci ilin yanvarında Rusiyada Müsəlmanlıq partiyası ilə "İttihadi-İslam" cəmiyyəti birləşib, "İttihadi-İslam-Rusiyada Müsəlmanlıq" adlandı.[361]

1918-ci il mayın 28-də Azərbaycan Cümhuriyyəti yarandıqdan sonra Quzey Azərbaycan türk-müsəlman əhalisininin qabaqcıl adamları arasında iki fikir ortaya çıxmışdı: 1) Azərbaycan Cümhuriyyəti müstəqil bir dövlət kimi qalmalıdır, 2. Azərbaycan Cümhuriyyətinin müstəqilliyi ləğv olunmalı və Osmanlı dövlətinə birləşdirilməlidir. Bu mülahizələr arasında ikincini dəstəkləyən Şeyxülislam və onun yanında yer alanlar 1918-ci il iyulun 8-də Osmanlının baş naziri Tələt Paşaya ünvanladıqları məktubda yazırdılar: "*Səadətli Paşa həzrətləri! 1334-cü ilin (1918) may ayının axırında Osmanlı dövlətinin siyasətinə görə Cənubi Qafqaz Türkləri müstəqil bir Azərbaycan dövlətinin elan etmək məcburiyyətindəymişlər. Halbuki müstəqilliyin elanından əvvəl xalqımızın əhval-ruhiyyəsi haqqında Cənubi Qafqazın müxtəlif bölgələrindən imzalar toplayaraq nəinki Camal Paşa vasitəsilə sizə*

---

[358]Hüseynqulu Məmmədli. Qafqazda İslam və Şeyxülislamlar. Bakı, MBM, 2005, s.116; AXC Ensiklopediyası, 2 cilddə, 2-ci cild. Bakı, Lider Nəşriyyatı, 2004, s. 290

[359]Rəsulzadə M.Ə. Əsərləri (1915-1916).Beş cilddə, 3-cü cild.Bakı,"Elm", 2012, s.74

[360] Şeyxzamanlı Nağı. Xatirələrim. Bakı, "Vətən", 2004, s.32

[361] AXC Ensiklopediyası, 2 cilddə, 2-ci cild. Bakı, "Lider Nəşriyyatı", 2004, s. 72

*məktub təqdim etmiş, hətta teleqraf da göndərmişdik. Bununla bərabər sülh müzakirələrinin uzandığını və Bolşevik zülmünün artdığını görüb anlayaraq millətin nümayəndəsi olaraq özünün müsəlman və türk olduğunu qəbul edən xalqımızın öz türk qardaşlarına ilhaqdan başqa heç bir şeyi tanımayacağı kimi bunun üçün bütün mövcudiyyəti ilə hər şeyini fəda etməyə hazır olduğunu, əks halda anarxiyanın qarşısının heç bir halda alına bilməyəcəyini demək məcburiyyətində olduğumuzu Vəhib Paşa həzrətlərinə ikinci dəfə bir ərizə ilə demişdik. Lakin nədənsə hökumətə, daha doğrusu özünü hökumət elan etmiş olanlara etimadımız olmadığından, xalqı ilhaqa qarşı, müstəqil ola biləcəyinə inandırmaq təhlükəsinin olduğunu deməkdən özümüzü saxlaya bilmədik. Bu halda fərman sizindir. 8 iyul 1334 (1918)".*[362]

Bu hadisənin üstündən bir müddət keçdikdən sonra Müfti vəzifəsini icra edən Mustafa Əfəndizadə Tiflisdən Gəncəyə gəlib, 1918-ci il sentyabrın 1-də Müfti ilə Şeyxülislam könüllü olaraq "Məşixət-i" deyilən vahid orqanda birləşmək qərarına veriblər. Bununla da müsəlmanların dini işlərinin idarə edilməsində ikili sünni-şiə ruhani rəhbərliyi aradan qaldırılıb, Qafqaz müsəlmanlarının vahid idarəsi yaranmışdı. Şeyxülislam idarənin rəhbəri, ruhani başçısı, müfti isə onun müavini olub. Bununla bağlı 1918-ci ilin 30 oktyabrında Şeyxülislam Pişnamazzadənin imzası ilə hökumətə 367 nömrəli təkliflər məktubu ünvanlanıb: 1. Azərbaycan Cümhuriyyəti hüdudlarında "Məşixət-i İslamiyyə" adı altında ruhani idarəsi təsis edilsin və ona Osmanlıda mövcud olan Məşixət kimi tam müstəqillik verilsin; 2. 7 sentyabr tarixli 311 saylı təqdimatda göstərilən Məşixətin iki sədrindən, hər iki idarənin birləşdirilməsi məqsədi ilə birinə şeyxülislam, digərinə müstəşar, yaxud müşavir adı verilsin; 3.Şeyxülislam iclaslarda iştirak etmək hüququ ilə rəsmən Nazirlər Şurasının üzvü hesab edilsin; 4. Ruhani heyətin komplektləşdirilməsi üçün Məşixətin birbaşa sərəncamına kredit ayrılsın. Sadalanan və digər bu kimi dini məsələlərin həll edilməsi

[362]Azerbaycan Cümhuriyeti Osmanlı Arşiv Belgeleri, 1918-1920. Bakı, Teas Press, 2018, s.291

məqsədi ilə bizim də iştirakımızla fövqəladə yığıncaq çağırılsın.[363] Şeyxülislamın məktubuna hökumət tərəfindən uzun müddət cavab verilməyib, irəli sürülən təkliflər yalnız 1920-ci ilin martında hökumətin müzakirəsinə çıxarıldı ki, artıq bu vaxt Pişnamazzadə istefa vermiş və onun yerinə isə Ağa Əlizadə şeyxülislam təyin edilmişdi. Pişnamazzadə xəstəliyi ilə əlaqədar olaraq 1918-ci ilin 10 dekabrında şeyxülislamlıq vəzifəsindən istefa verib Gəncə Cümə məscidində axund kimi fəaliyyət göstərməyə başlamışdı.[364]

27 aprel işğalından sonra bir çox milli-dini ruhlu şəxsiyyətlər kimi M.Pişnamazzadə də bolşevik rusların təqibinə məruz qalıb həbs olunmuşdur. N.Nərimanov bu haqda məlumat alan kimi Şeyxülislamın azad olunmasına göstəriş versə də,[365] ancaq Pişnamazzadə bolşeviklər tərəfindən müxtəlif təqib və təzyiqlərə məruz qalmağa davam etmişdir. O, 1937-ci ildə 84 yaşında vəfat etmişdir.

***

**Qarabəy Qarabəyli (1873-1953)** Şəmkir alman-rus liseyini, daha sonra Tiflis Klassik gimnaziyasını bitirmiş və Moskva Universitetinin Tibb fakültəsinə daxil olmuşdur. 1901-ci ildə Bakıya qayıtdıqdan sonra o, "İttifaqi-müslimin" təşkilatının üzvü, "Difai" Partiyasının rəhbərlərindən olub. Həmin dövrdən Qarabəyli publisist fəaliyyətinə başlayaraq "Həyat", "İrşad", "Kaspi" və digər nəşrlərlə əməkdaşlıq edib. O, yazılarında müsəlman xalqlarının nicatını "İslam birliyi"ndə axtarmışdı: "Biz özümüz bir yol bulub, o yol ilə gedəcəyiz. Bizim başqalar ilə büğz və ədavətimiz yoxdur. Bizim özümüzə məxsus daha layiq, daha şanlı bir vəzifeyi-mücahidəmiz vardır ki, o vəzifə də zülməti-qəflətdə bulunan külliyyətiavam arasında nuri-maarifi əkməkdir".[366]

1906-cı ildə Qacarlara üz tutan, daha sonra 1908-ci ildə Osmanlının paytxatı İstanbula gedərək burada "Səadət" adlı təşkilat yaradan Qarabəyliyə həmin il hakimiyyətə gələn "Gənc türklər"

---

[363] Hüseynqulu Məmmədli. Qafqazda İslam və Şeyxülislamlar.Bakı,MBM,2005, s.121
[364] "Azərbaycan" qəzeti, 13 dekabr 1918-ci il, sayı 64
[365] Hüseynqulu Məmmədli. Qafqazda İslam və Şeyxülislamlar.Bakı,MBM,2005, s.123
[366] Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007, s.185

vəzifə təklif etsələr də o bundan imtina etmiş və 1911-ci ildə Bakıya gələrək hakimlik və publisistik fəaliyyətini davam etdirmişdir. Az sonra yenidən İstanbula gedən Qarabəyli 1917-ci il fevral burjua inqilabından sonra Bakıya qayıtmış və "Kaspi", "Yeni həyat" qəzetlərinin baş redaktoru olmuşdur.

Cümhuriyyət dövrü parlamentində millət vəkili olan Qarabəyli "İttihad"ın rəhbərliyinin xahişi ilə bu partiyaya daxil olmuş və 1919-cu ilin aprelində onun sədri seçilmişdir. Qarabəylinin Parlamentdəki çıxışlarından da hiss olunur ki, o, türkçülük və demokratiya ideyalarını əsasən, qəbul etməmişdi. Onun fikrincə, demokratiyanın mərkəzi sayılan Avropa həmişə islama qarşı olmuş və İslam dövlətlərini məhv etmək niyyəti güdmüşdür. Bu baxımdan Avropanın gözqamaşdıran demokratiyası aldadıcıdır.[367] Türkçülük məsələsinə gəlincə, Qarabəyli bu ideyanın tamamilə əleyhinə olmasa da, daha çox dini birliyi qəbul edir və İslam dinini müsəlmanların birləşdirici tək amili kimi önə çəkirdi. Bu baxımdan uzun müddət Azərbaycan hökumətinə qarşı müxalifətdə dayanan "İttihad" və onun lideri Qarabəyli yalnız son kabinetdə təmsil olunmuşdu. Qarabəyli son kabinetdə təmsil olunmalarını isə indiyə qədər öz dost və düşmənlərini yaxşı tanımamaları ilə izah etmişdi: "Bizim safdil olmağımıza, başqalarının haqqını əziz tutaraq, onların haqqını təcavüz etməmək gözəl xasiyyətdir. Mən öylə bir yol ilə getməliyəm ki, başqalarına öylə haqq verməliyik ki, məni məhv eyləməsin".[368]

Ümumilikdə "İttihad" və onun lideri Qarabəylinin tutduğu siyasi-ideoloji yol çox ziddiyyətli olmuşdur. Bu baxımdan "İttihad"ın və onun liderinin siyasi-ideoloji mövqeyi ilə bağlı M.Ə.Rəsulzadə yazırdı ki, "İttihad" Partiyası öz varlığını Rusiya münasibətləri içində təsəvvür edirdi: "Düşüncəsi "İttihadi-islam" sisteminə bağlı idi. Proqramı bu arada çox yol dəyişmişdir".[369] M.B.Məhəmmədzadə də yazır ki, 1917-ci ildə yaranan "İttihad" milliyyət,

---

[367] Hüseynov Ş. Mətbu irsimizdən səhifələr. Bakı, "Çənlibel" NPM, 2007, s.57-58

[368] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). II c. Bakı, "Azərbaycan"nəşriyyatı, 1998, s.651

[369] Resulzade M.E. Kafkasya türkleri. İstanbul, TDAV yayınları, 1993,s.75

istiqlal, demokratiya anlayışlarına əks olaraq, müsəlmanların parçalanmaması üçün Rusiyanın bütövlüyünü müdafiə etmişdir. İttihadçılar ən yaxşı halda Rusiya daxilində yaşayan müsəlmanlara milli-mədəni muxtariyyət verilməsini tələb etmişlər.[370] O yazırdı: “Onlar üçün “Müsavat”ın müdafiə etdiyi milliyyət, türklük, demokratiya və cümhuriyyət prinsipləri yabançı, hətta zərərli şeylər idi. Ta ilk gündən etibarən “Müsavat”ın dilə gətirdiyi prinsiplərə müxalif olan bu firqələrin Azərbaycan bayrağına sədaqətləri müvəqqəti və keçici bir zaman üçün idi. İslami beynəlmiləl şüarlarla proletar-marksist doktrinlərin azərbaycançılıq, milliyyətçilik və cümhuriyyətçilik prinsipləri ilə uzlaşmayacağı göz qabağındadır”.[371]

27 aprel işağlından sonra həbs edilib Arxangelskdəki Solovki həbs düşərgəsinə göndərilən Qarabəyli Nərimanovun xahişindən sonra Leninin müdaxiləsi nəticəsində 1923-cü ildə həbsdən azad edilmiş, hətta Moskvaya köçərək bir müddət Rusiya Fövqaladə Komissarlığının xəstəxanasında həkim işləmişdir. 1933-cü ildən etibarən Səmərqənddə həkim işləyən Qarabəyli 1937-ci ildə pantürkist, panislamist kimi həbs edilərək, 10 il müddətinə Kolimaya sürgün olunmuşdur. 1947-ci ildə Bakıya qayıdan, ancaq burada iş, qeydiyyat problemləri ilə üzləşdikdən sonra yenidən Səmərqəndə üz tutan Qarabəyli 1953-cü ildə burada da vəfat etmişdir.

***

Maxizmə (Max və Avenarius iddia edirdilər ki fəlsəfədə materializm və idealizmdən yüksəkdə dayanan üçüncü xətt yaradıblar) rəğbət bəsləyən **Əhməd Midhət Rüfətovun** fikrincə, təbiət və cəmiyyət Allah tərəfindən idarə olunur və burada obyektiv qanunauyğunluqlardan söhbət gedə bilməz. O, yazırdı: “Bəşəriyyətin istiqbalında, hökümətlərin və millətlərin təkamülündə bir məqsəd arayan, burada bir məqsəd və qayə olacağını təsdiq edir deməkdir. Bu kimi qayə təsəvvür edə bilmək üçün bu qayənin kainat və bəşərin fövqündə və onların iradəsindən müstəqil bir “mövcud” tərəfindən məzkur qayəyə doğru sövq edildiyini qəbul etmək lazımdır. Bu

[370] Məmmədzadə Mirzə Bala. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992, s.77
[371] Yenə orada, s.144

"mövcudat" bütün vəsfləri ilə... əhli-əqaidin "allah" dedikləri mövcudun eynidir".[372] Rüfətova görə bəşəriyyətin təkamülü üçün göstərilən qayə, ancaq ən cürətli mühərrirlərin xəyalına sığa bilər. Çünki böyük alimlərin, mütəfəkkirlərin vəzifəsi bəşəriyyətin ehtiyaclarına ən uyğun gələn həyat düsturlarını bulub və göstərməkdir. O, yazırdı: "İnsanların daima mühit və şərait ilə uyuşmaları sair heyvanlarda olduğu kimi, üzviyyəti dəgişməsi surətilə vüquə gəlmədi... insanlar özlərinə lazım olan şeyləri təbiətdən tədarük etməkdən isə, həmcinsindən yazında bulunan zəiflər hesabına keçinməyi daha qolay bildilər... Zəiflər sayəsində qəhrəman rolunu oynayanlar mövqelərini daha əmin bulundurmaq üçün yekdigərindən fərqli bir çox təbəqələr daha təşkil etdilər. Əsrlərcə müddət bu hüdudlar şirkəti zəifləri soyub soğana çevirdi. Bu andan siniflər arasındakı mülk və təssərrüf qovğası müntəzəm hökumətlərin təşkilinə yol açdı.... hökumətlər müqavilə nəticəsində meydana gəldi".[373]

***

XX əsrin əvvəllərində Pozitivizmə rəğbət bəsləyənlərdən olan **Sənətulla Eynullayev (1881-?)** Simbirsk quberniyasının Buin qəzasının Əski Yukal kəndində dünyaya gəlmişdir. Yaradıcılığa Simbirskdə başlamış, 1910-cu illərində Bakıya köçərək,"Məlumat" (1911), "Yeni İrşad" (1911-1912) qəzetlərinin redaksiyalarında işləmiş, "Səda" (1909-1911), "Açıq söz" (1915-1918) qəzetlərində məqalələr dərc etdirmişdir. Daha sonra müstəqil jurnalistlik fəaliyyəti də göstərmiş, 1912-ci il martın 6-da "İqbal" gündəlik qəzetinin nəşrinə başlamışdır. Qəzetin 459 nömrəsi çıxandan sonra hərbi qulluğa çağırılmış, naşirlik və mühərrirlik hüququnu Seyid Hüseynə vermişdir. Ordudan tərxis olunduqdan sonra M.Ə. Rəsulzadə ilə "İqbal", "Yeni iqbal" və "Açıq söz" qəzetlərində işləmiş və gündəlik redaktor vəzifəsini icra etmişdir.

O, Azərbaycan Cümhuriyyəti dövründə "Azərbaycan" qəzetinin redaksiyasında işləmiş, qəzetin aparıcı müəlliflərindən biri olmuşdur. Əsasən publisistika sahəsində çalışmışdır. İmperial-

[372] Rüfətov Ə.M. Tarix və həqiqət. "Şəlalə" jurnalı, 22 fevral, 1914-cü il, №8
[373] Yenə orada

ist ölkələrinin Balkan yarımadasında törətdikləri müharibələrin, Asiya və Afrika ölkələrini iqtisadi və siyasi asılılıqda saxlamaq cəhdinin, çarizmin köçürmə siyasətinin tənqidi, müsəlmanların iqtisadi və mədəni dirçəlişinin, ana dili, ədəbiyyat və maarifinin inkişafı uğrunda mübarizə Sənətulla Eynullayevin publisistik məqalələrinin əsas mövzuları idi. Rusiya müsəlmanlarının mədəni muxtariyyəti ideyasını ardıcıl surətdə təbliğ etmişdir.

S.Eynullayev daha çox O.Kontun, H.Spenserin ideyalarını təbliğ etmişdir. O, yazırdı: "Avropa və digər qitəati-mədəniyyənin fəlsəfeyi-elmiyyəsi, həqiqiyyun, əqliyyun, təkamiliyyun və madiyyun (realizm, rasionalizm, evolyusionizm, spiritualizm və materializm) və sairə kimi yekdigərinə müxalif olan birər məsləki-fəlsəfə təşkil ediyorlarsa da, bunların əsası... bilməməkdən ibarət və... bilməməkdən nəşət edən şeylərdir. Belə olmasa idi yek digərə müxalif yüzlərcə bir (izm) məsləki-fəlsəfi... meydana gəlməzdi: bunlardan bildiyi həqiqəti-müsbət (pozitivizm) olsa idi bir zaman surəti-qətiyyətdə qəbul edilər, ixtilafa məhəl qalmazdı".[374]

Ona görə ictimai inkişafın mənbəyi İslam dini və onun doğurduğu adət və ənənələrdir: "İnsanların maddi və mənəvi səadətləri yalnız islamiyyətlə təmin edilmişdir. Çünki maddi və və mənəvi müavizinəti həyatı tənzim edəcək ədaləti həqqaniyyət İslamın şəriəti əsasiyyəsindədir".[375] Eynullayev daha sonra yazırdı: "Bəşəriyyət, təbiətin xaricində bir ünsüri-müstəqil degil, bilaəks təbiətin içindəki əczai-mövcudatdan bir cüz olub, mənzumeyi-kainatın ahəngi... ümumi hərəkəti ilə bir nizamda hərəkət edir. Mənzumeyi-kainat isə bütün heyətilə günəşin təsirinə əsir olub, təvəllüd edəcəyi nə qədər əhvali-hadisat və təbəddülar var isə... günəşin təsiri ilə vücuda gəlir. Heyəti-kainat makinasının bir cizi olan küreyi-ərz bütün kütləsilə günəş təsirinə tabe olduğu kimi, onun üzərində yaşayan canlı ünsürün cümləsindən bir növü də ki, "bəşər" deyilməklə məlumdur doğrudan-doğruya kureyi-ərzdə vüqua gələn təhəvvülata uyğun olaraq hərəkət edir... Bunun üçün insanın maddiyyat və mə-

---

[374] Eynullayev S. Nidayi-ruh. "İqbal" qəzeti, 28 mart, 1912-ci il,№19

[375] Eynullayev S. İqbal. "İqbal" jurnalı, 6 mart, 1912-ci il,№1

nəviyyatı, hissiyyatı və əqliyyatı təbiət qüvvələri ilə bağlanmışdır. Təbiətdə qədər hadisat və təbəddülat vüqua gəlsə insanda da vaqe olur”.[376]

S.Eynullayev yazırdı ki, “sosializm... quru xəyal aləmindən çıxacaq şey olmadığından bəşəriyyətə hənüz bir şey verməmişdir”.[377] Ona görə sosializm gerçəkləşsə belə, bəşəriyyət indiki bəlalardan, böhranlardan qurtula bilməyəcəkdir. Eynullayev “Mərakeşdə qiyam” məqaləsində isə yazırdı ki, bəşəriyyətin artmasına nisbətən torpaq artmayıb, getdikcə sıxılır: “Buna görə də millətlər bir-birinə hücum edib, müharibə açmağa, onun torpağını almağa və kəndisinə (özünə) istila və istimlak etməyə məcbur olur”.[378]

***

Lənkəranda anadan olan **Səməd bəy Mehmandarov (1855-1931)** 16 yaşında Peterburqda yerləşən II Konstantinovka artilleriya məktəbində oxuyub. 1904-cü ildə general-mayor, 1908-ci ildə tam artilleriya generalı rütbəsi alan Mehmandarov, I Dünya müharibəsi illərində Vladiqafqazda yerləşən 21-ci piyada diviziyasının, ikinci Qafqaz ordu korpusunun komandanı olub. 1918-ci il noyabrın 1-də Azərbaycan Cumhuriyyəti Hökuməti Hərbi Nazirliyi bərpa etmək barədə qərar qəbul edərkən Mehmandarov Cümhuriyyət ordusun çağırılaraq, hərbi nazirin müavini olub. Onun peşəkarlığı, hərbi təşkilatçılıq qabiliyyəti, başlıcası isə Azərbaycanın müstəqilliyinə sədaqəti yeni şəraitdə də öz təsdiqini tapdığı üçün 1918-ci il dekabrın 25-də hərbi nazir təyin edilib.

27 aprel işğalından sonra bolşevik qüvvələr onu Gəncə üsyanının təşkilində günahkar bilərək, 1920-ci il iyunun 4-də Əlağa Şıxlinski ilə birlikdə həbs ediblər. Nəriman Nərimanovun işə qarışmasından sonra Mehmandarov bolşevik terrorundan xilas olsa da, Ə.Şıxlinski ilə bərabər bir il Moskvada yaşamaq məcburiyyətində qalıb. O, 1921-ci ilin yayında Bakıya qayıdaraq, Xalq Hərbiyyə və Bəhriyyə Komissarlığında işə düzəlmiş, 1924–1928 illərdə Birləş-

---

[376] Eynullayev S. “Dığdığeyi vüqaat musiqisi...”. “İqbal” qəzeti, 28 mart 1914, №612
[377] Eynullayev S.“Qafqazda kooperasiya işləri”.“Yeni İqbal”,6 noyabr,1913, №498
[378] Eynullayev S. “Mərakeşdə qiyam”. “İqbal” qəzeti, 12 mart, 1912-cü il, №28

miş Komandirlər məktəbində müəllim işləmişdir. 1928-ci ildə Mehmandarov səhhətinə görə hərbi xidmətdən tərxis olunmuş və ona fərdi dövlət təqaüdü verilməsi müəyyən edilmişdi.

Ömrünün son illərində İslam tarixi, İslam fəlsəfəsi ilə məşğul olan Mehmandarov, 12 fevral 1931-ci ildə Bakıda vəfat etmişdir.

*****

"Üçlü" düsturun əsas ayaqlarından olan **"müasirləşmək"** anlayışı ayrı-ayrı millətlərin həyatında müxtəlif şəkildə izah olunmuşdur. Belə ki, müasirləşməyi milliliyə və dinə qarşı qoyanlar da, onlar arasında ortaq nöqtələr tapmaq istəyənlər də, ondan imtina edənlər də olmuşdur. Əslində müasirləşmək, yeniləşmək hər zaman milliliyə və dinə münasibətdə özünü fərqli şəkildə büruzə vermişdir. Başqa sözlə, milli və dini şüurda yeniləşməyə, islahatlara cəhd yeniləşmək və müasirləşmək kimi yozulmuşdur. XIX-XX əsrlərdə milli-dini ideyalara əsas rəqib ideyalar kimi daha çox liberalizm, liberal-demokratizm, sosial-demokratizm olmuşdursa, indi daha çox modernizm, postmodernizm göstərilir.

"Müasirləşmək" anlayışı ilə bağlı qeyri-müəyyənliyə son qoymaq üçün, iki vacib məsələyə aydınlıq gətirilməlidir. Birincisi,"müasirlik" dedikdə, ona sinonim kimi avropalaşmaq, qərbləşmək anlayışlarından da istifadə olunur. Buradan belə nəticə çıxır ki, "müasirlik" ideyası avropalaşmaq, qərbləşmək, yəni Avropa və yaxud da Qərb mədəniyyətinə yiyələnmək anlayışı ilə bağlı olmuşdur. Bu zaman tədqiqatçılar fikirlərini əsaslandırmaq üçün Ə.Hüseynzadə, Z.Gökalp tərəfindən irəli sürülən "avropalaşmaq", "qərb mədəniyyətindənəm" istilahlarını nümunə gətirirlər. Halbuki onlar "avropalaşmaq", "qərb mədəniyyətindənəm" dedikdə, Qərbin-Avropanın bütün dəyərlərini olduğu kimi qəbul etməyi, yaxud da avropalıların hər hansı bir cərəyanını Türk-İslam dünyasına tətbiq etmək niyyəti güdməmişlər. Sadəcə, burada söhbət milli-dini dəyərlərə zidd olmayan, Qərbin-Avropanın qabaqcıl mədəniyyətinə yiyələnməkdən gedir.[379]

İkincisi, müasirləşmək xəttinin meydana çıxmasında ilk növbədə, Rus-Qərb-Xristian mədəniyyəti ilə Türk-Şərq-İslam mədəniyyəti,

[379] Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007, s.35

xüsusilə İslam dini arasında aparılan müqayisələr mühüm rol oynamışdır. Hələ, XIX əsrdən etibarən Azərbaycan Türk mütəfəkkirlərinin bəziləri radikal (M.F.Axundzadə və b.), digərləri loyal (A.A.Bakıxanov, H.Zərdabi və b.) formada müsəlman xalqlarının geridə qalmasının əsas səbəbini milli-dini ənənələrdə axtarmağa başladılar. Bununla da, Quzey Azərbaycanda müasirləşməyə münasibətdə iki xətt özünü büruzə vermişdir: 1) Avropa-Qərb mədəniyyəti ilə Türk-İslam-Şərq mədəniyyəti arasında sonuncunun üstünlüyünün saxlanılması şərti ilə, oxşar nöqtələrin tapılması; 2) Avropa-Qərb mədəniyyətinin ideallaşdırılması və Türk-İslam-Şərq mədəniyyətinin onun içində əridilməsi.

XX əsrin əvvəllərində Ə.Hüseynzadə, Ə.Ağaoğlu və Ə.Topçubaşının müasirləşmək-qərbləşmək-avropalaşmaqla bağlı bir-birinə yaxın və ziddiyyətli mülahizələrini Məhəmməd Əmin Rəsulzadə bir ideoloq kimi ümumiləşdirə bilmişdir. O, yazırdı: "Bayrağındakı məzmun, fikir surətilə müasir bir türk və islam siyasi mövcudluğuna qovuşmaq ümidilə…".[380] Fikrimizcə, burada qeyd edilən "müasir bir türk və islam" kəlməsi göstərir ki, müasirlik dedikdə, ilk növbədə milli və dini sahədə, yəni Türklüklə İslamda yeniləşmə, milli və bəşəri mədəniyyətin bütövlüyü – dünyəvilik (layiqlik) nəzərdə tutulur. Bunu, Rəsulzadənin bayrağın mənası ilə bağlı kitabda öz əksini tapmış xüsusi qeydi, açıqlaması da bir daha təsdiq edir: "Azərbaycan bayrağındakı mavi rəng – türklüyü, yaşıl rəng – müsəlmanlığı, al rəng də – təcəddüd (yeniləşmə – F.Ə.) və inqilab rəmzi olmaq həsbilə əsrliyi tərmiz edər ki, möhtərəm Ziya Gökalp bəyin "türk millətindənəm, islam ümmətindənəm, qərb mədəniyyətindənəm" – düsturunu ifadə etmiş olur".[381]

Rəsulzadə "qərb mədəniyyətindənəm" anlayışını yeniləşmə və inqilab kimi başa düşmüşdür. Bu anlayışlar da dünyəviliklə (layiqliklə), mədəniyyətlə bağlıdır. Bizcə də, mədəniyyət və müasirlik anlayışları bir-birini tamamlayırlar. Çünki yalnız müasirləşməyə meyilli millətlər mədəniyyət yarada bilirlər. Bu mənada, "müasirlik" ilk baxışda zəmanənin dəyərlərini və tələblərini əks etdirirsə, "mədəniyyət" anlayışı daha geniş məna kəsb edərək nəinki bu günün, həm də keçmi-

---

[380] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti.Bakı: Elm, 1990, s.97
[381] Yenə orada, s.97

şin və gələcəyin nişanəsidir. Eyni zamanda "mədəniyyət" anlayışında milli və dini dəyərlərlə yanaşı, Qərb-Avropa mədəniyyətinin mütərəqqi cəhətlərinin də öz əksini tapması mümkündür.

Beləliklə, bayrağımızdakı al boyanın "müasirlik" adı altında avropalaşmaq, qərbləşmək kimi deyil, milli və dini dəyərlərə zidd olmadan yeniləşmə və inqilab (islahatlar həyata keçirilməsi), yaxud da dünyəvilik (layiqlik) olaraq yozulması məqsədəuyğundur. Atatürkün təbrincə desək, dövlət daima güclü olmalıdır ki, din birliyi tərəfdarları "ümmətçilik" adı altında "qəza-cihad" ideyasına qapılmasınlar. Atatürkün fikrincə, bunu əvəzində toplumda və dövlətdə qəti şəkildə ağlın hakimiyyəti üstün olmalıdır.[382] Bu isə o deməkdir ki, milli və dini dəyərlər yaşatmaq üçün həmişə çağdaş ruhlu olmaq hər hansı millətin başlıca qayəsi olmalıdır. Yalnız çağdaş ruhlu milli və dini dəyərlərə sahib millət ayaq üstə qalıb, dünya durduqca var olar.

Müasirləşmək öncüllüyündə türkçülük və islamçılıq düsturuna meyil edənlər Ə.Topçubaşı, Ə.Ağaoğlu, F.b.Köçərli, Y.V.Çəmənzəminli, F.Xoylu, H.Minasazov və başqaları olmuşlar. Kitabda Ə.Topçubaşı, Ə.Ağaoğlu, F.b.Köçərli, Y.V.Çəmənzəminli haqqında ayrıca bəhs olunmuşdur.

1875-ci ildə Nuxada (Şəki) anadan olan **Fətəli xan Xoylu (1875-1920)** 1907-ci ildə II Dövlət dumasına deputatı seçilmiş, Kadetlərə rəğbət göstərmişdir. Fətəli xan Dövlət Dumasının iclaslarında "Müsəlman fraksiyası" adından çıxış edərək çar Rusiyasının əsarəti altında yaşayan müsəlmanların və türklərin milli haqq-hüquqlarını müdafiə etmiş, mütləqiyyətin imperiya ərazisində yürütdüyü mürtəce hakim millətçilik, eləcə də milli-dini ayrı-seçkilik siyasətinə qarşı çıxmışdır. Rusiyada milli-dini ayrı-seçkiliyə görə vətəndaşların siyasi və mülki hüquqlarını məhdudlaşdıran qanunların ləğvinə dair Dövlət Dumasına təqdim edilmiş qanun layihəsini imzalayan 173 deputatdan biri də F. X. Xoylu olmuşdur.[383]

O, II Rusiya inqilabından (1917) sonra Zaqafqaziya Komissarlığı (1917-1918) nəzdində xalq maarif komissarı, Zaqafqaziya

[382] Bayar Celal. Atatürkün Metodolojisi ve Günümüz. İstanbul, Kervan, 1978, s.69
[383] Səfərov Rafiq. Fətəli Xan Xoyski. "Şərq" qəzeti. 2017.- 23 noyabr. - № 214.-s.7

Demokratik Federativ Respublikasının (1918) ədliyyə naziri olmuşdur. Xoylu Cümhuriyyəti dövründə üç dəfə baş nazir, bundan başqa ədliyyə və xarici işlər naziri vəzifələrində çalışmışdır.

Fətəli xan Cümhuriyyət dövründə baş nazir kimi yeni yaranan dövlətin əsas problemlərini parlamentdə ifadə etmişdir. O deyirdi ki, milli dövlət təşəkkül tapana qədər, bir kənddən o biri kəndə getmək qorxulu imiş, heç kəsin irzi, namusu, canı, mali əmniyyətdə deyilmiş.[384] Üstəlik, Milli Şura bir tərəfdən Quzey Azərbaycanın şərq hissəsində S.Şaumyanın başçılıq etdiyi bolşevik-daşnaklara, digər tərəfdən Azərbaycanın qərb hissəsində İrəvan, Naxçıvan, Göyçə, Zəngəzur, Dərələyəzdə işğalçılıqla məşğul olan erməni Andranikin quldur qüvvələrinə qarşı mübarizə aparmalı idi. Bu baxımdan yeganə ümid yerlərinin Türkiyə olduğunu etiraf edən Xoylu deyirdi: "Daxili işlər böylə ikən Azərbaycan istiqlalı elan edilmişsə də, heç bir hökumət tərəfindən təsdiq edilməmişdi. O zaman bütün Azərbaycan tərəfindən seçilmiş Milli Şura bu hökuməti təyin edib idarə işlərini ona tapşırdı. Məni rəis seçərək idarəyə başladıq. Türkiyə ilə sülh əhdinaməsi tezliklə bağlandı. Bununla bərabər hökumət qanun və qayda barəsində aciz idi. Zira heç bir tədbir qüvvəmiz və silahımız yox idi. Aşkar hökumət təşkil etməyə məcbur idik, lakin bunu da edə bilməzdik. Ona görə bir qüvvəyə lüzum görürdük, sülh müzakirəsi vaxtı türklərdən bir qədər əskər almaq iltizam edildi… Bu təklif ilə başqasına müraciət etmək mümkün deyil idi. İstəsək də bir fayda olmaz idi. Türkiyə həm dindaşımız, həm də millətdaşımız idi".[385] Bu baxımdan, bir çox məsələlərə, o cümlədən İrəvanın ermənilərə güzəşt edilməsinə görə Milli Şuranı, Milli hökuməti tənqid edənlərə cavab olaraq Xoylu parlament kürsüsündən deyirdi ki, bu xüsusda çox sözlər ola bilər: "Fəqət vaxta baxıb tərəziyə qoyulmalıdır ki, bu işləri hansı hökumət və nə vaxt etmişdir? Tarixi, sabiqəsi, əskər və xəzinəsi olan hökumətmi? Yoxsa iki gündə təşkil olunmuş pulsuz və əskərsiz hökumətmi?".[386] Bu məsələ də o da

---

[384] Fətəli X.Xoyski. Həyat və fəaliyyəti (sənəd və materiallar), Bakı, "Azərbaycan", 1998, s.112

[385] Yenə orada, s.113

[386] Yenə orada, s.113

nəzərə alınmalıdır ki, Milli Şura İrəvan qəzasını (9 min kv.) ermənilərin Naxçıvan, Qarabağ və digər ərazilərimizdən iddialarından əl çəkməsi, müharibəni dayandırması və gələcəkdə konfederasiyanın bərpa olunması anlamında güzəştə getmişdir.

1918-ci il dekabrın 7-də Azərbaycan parlamentinin təsis iclasında da Xoylunun çıxışının əsas məzmunu o idi ki, Azərbaycan xalqı artıq milli bayrağı, milli ordusu, milli dili, milli demokratiyası olan müstəqil bir dövlətdir: "Qüvvəmiz qədər vəzifəmizi ifa etdik. Hələ çox şey edə bilməmişik, amma bunu cürətlə deyə bilərəm ki, hökumətin nöqsanları ilə bərabər yol göstərən işıqlı ulduzu bu şüar olmuşdur: Millətin Hüququ, İstiqlalı, Hürriyyəti".[387] Xoylu parlamentdəki çıxışlarında Azərbaycanda milli-dini ayrı-seçkiliyin olmamasını da dəfələrlə bəyan etmişdir. O deyirdi ki, Azərbaycandakı Türk milləti heç bir zaman bu Vətəni özlərinə tək övlad kimi görməyiblər. Bu baxımdan Azərbaycan Cümhuriyyəti türk, qeyri-türk bütün etniklər, etnoslar üçün Vətəndir və Milli İstiqlalı hər bir kəs qorumalıdır. O, deyirdi:"Hökumətin qabağında mühüm bir məsələ var isə də, o da istiqlaliyyət məsələsidir. Bizim birinci məsələmiz budur. Buna diqqət edəcəyiz. Sizlərdə buraya hər bir yerdən gəlmiş olduğunuz onu göstərir ki, bu istiqlaliyyət tək adamların dediyi olmayıb, bütün millətin xahişidir. Bir yerdə millətin xahişi olsa və o yerdə çalışsa, o millət azad olsa öz məqsədinə çatacaqdır".[388]

Xoylu 1920-ci il yanvarın 11-də Azərbaycan Cümhuriyyətini Paris sülh konfransının iştirakçı dövlətlərinin (Fransa, İngiltərə, ABŞ və b.) tanımasını böyük sevinclə qarşılamış və bununla bağlı parlamentdəki çıxışında demişdir: "Bu yalnız bizim üçün deyil, ümum Türk milləti və Türk aləmi üçün böyük bir bayramdır".[389]

27 aprel işğalından sonra Tiflisə gedən Xoylu 1920-ci ilin iyunun 19-da erməni terrorçuları tərəfindən şəhid edilmişdir.

***

[387] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqraifk hesabatlar). İki clddə, I cild. Bakı, "Azərbaycan"nəşriyyatı, 1998, s.38

[388] Fətəli x.Xoyski. Həyat və fəaliyyəti (sənəd və materiallar), Bakı, "Azərbaycan", 1998, s.129

[389] Yenə orada, s.140

Tiflis yaxınlığındakı Sərban kəndində (indiki Marneulidə) anadan olan **Hüseyn Minasazov (1881-1932)** 1899-cu ildə Qori Müəllimlər Seminariyasını bitirmiş, əvvəlcə Borçalının Xıllı, sonra isə Bakının Sabunçu kəndində müəllimlik etmişdir. 1903-cü ildə o, bir müddət "Kaspi" qəzetində korrektor işləmiş, orada məqalələrlə çıxış etmişdir. "Kaspi"də qısa müddət çalışan Minasazov Tiflisə qayıdaraq burada da publisistika ilə məşğul olmuşdur. Onun fəaliyyətində iki xətt: müəllimlik və publisistika, həmişə paralel getmişdir.[390] 1907-ci ildə Tiflisdə "Oqni" adlı rus dilində həftəlik ədəbi-bədii jurnalı təsis edən Minasazov yazırdı ki, əsas məqsədi yatmış şüurları oyatmaqdır. 1909-cu ilin dekabrında"Yejenedel-noye obozreniye" adlı qəzet onun rəhbərliyi ilə nəşrə başlasa da, onun da ömrü çox uzun olmamışdır. Minasazov 1913-cü ildə Cəlil Məmmədquluzadənin "Poçt qutusu" hekayəsini tərcümə edərək rus dilində nəşr etdirmişdir. Onun Mirzə Fətəli Axundovla bağlı yazdığı məqaləsi isə "Tiflisski listok" qəzetində işıq üzü görmüşdü.

27 aprel işğalından sonra Minasazov Gürcüstanda yaradılmış Müsəlman İşləri Şurasında çalışmışdır. Onun 1927-ci ildə Əbdür-rəhim bəy Haqverdiyevdən bəhs edən bir məqaləsi də çap edilmişdir.[391] 1920-ci illərin axırlarında Bakıya gələn Minasazov bir müddət Ali Sovetdə tərcüməçi işləyib, daha sonra elmi tədqiqat institutlarının birində çalışıb. Hətta, bir siyasi kitabçası da 1930-cu ildə işıq üzü görüb. O, 1932-ci il yanvarın 4-də vəfat edib.

---

[390]Xəlilzadə Flora. "Şərəfli ömür yolu". "Azərbaycan" qəzeti, 6 oktyabr 2011. s.7.
[391]Yenə orada.

## ƏLI BƏY HÜSEYNZADƏ (TURANİ)

**Həyat və yaradıcılığı.** Azərbaycan Türk mütəfəkkiri Əli bəy Hüseynzadə (1864-1940) Salyanda dünyaya gəlmiş, uşaq yaşlarından doğma Türk dili ilə yanaşı ərəb, fars dillərini daha sonra isə yunan, rus, alman, latın dillərini mükəmməl şəkildə mənimsəmişdir. Ana tərəfdən Qafqaz şeyxülislamı Şeyx Əhməd Səlyaninin nəvəsi olan Hüseynzadə ilk təhsilini Tiflisdəki Ruhani mədrəsəsində və Rus Gimnaziyasında (1875-1885) almışdır. 1885-ci ildə Peterburq Universitetinin Fizika-riyaziyyat fakültəsinə daxil olub oranı bitirdikdən sonra (1889) İstanbula üz tutmuşdur. İstanbulda Hərbi-Tibb məktəbində oxumuş (1890) və "Gənc türklər"ə qoşularaq "İttihad və Tərəqqi"nin qurucularından biri olmuşdur.[392] [393] 1895-ci ildə Hərbi-tibb məktəbini bitirən Hüseynzadə həkim köməkçisi kimi işə başlamış, Türk-Yunan müharibəsində (1897-1900) iştirak edib İstanbula döndükdən sonra tibbi əsərlər yazmışdır.

1903-cü ildə İstanbuldan Bakıya gəlməyə məcbur olan Hüseynzadə 1-ci Rusiya inqilabı (1905) nəticəsində müstəmləkə xalqlara verilmiş söz, mətbuat, mədəniyyət, vicdan kimi azadlıqlardan istifadə edərək "Həyat" qəzetini (1905-1906), "Füyuzat" jurnalını (1906-1907) nəşr etmiş, digər qəzetlərdə ("Kaspi", "İrşad", "Tərəqqi" və b.) elmi-publisistik yazılarla çıxış etmişdir.[394] 1908-1910-cu illərdə "Səadət" məktəbində pedaqoq kimi çalışan Hüseynzadə 1910-cu ilin ortalarında yenidən İstanbula dönüb Heydərpaşa hərbi xəstəxanasının Tibb fakültəsində (1910-1931) çalışmışdır.

1911-ci ildə təkrarən "İttihad və Tərəqqi"nin mərkəzi təşkilatına üzv seçilən, eyni zamanda "Türk yurdu" ocağının və jurnalının yaranmasında, inkişafında yaxından iştirak edən Hüseynzadə 1915-1917-ci illərdə "Turan" adlanan bir heyətlə Avropa ölkələrinə səfər

---

[392] Hüseynzadə Əli bəy."İttihad və tərəqqi" nasıl quruldu?//Azərbaycan mətbuat tarixi antologiyası (mühacirət dövrü). Üç cilddə,III cild. Bakı, "Elm və təhsil", 2013, s.13

[393] Turan Azər. Əli bəy Hüseynzadə (həyatı, mübarizəsi, yaradıcılığı və şəcərəsi). Bakı, "Letterpress", 2014, s.44-47

[394] Yenə orada, s.57-61

edərək Türk xalqlarının, xüsusilə də Rusiya türklərinin vəziyyətlərini onlar çatdırmağa çalışmışdır. Bu məqsədlə Berlində təşkil olunan "Türk xalqları konqresi" (1916), Stokholm Konqresi (1917) diqqəti daha çox cəlb etmişdir. 1918-ci ildə Ə.Ağaoğlu ilə birlikdə Nuri paşanın başçılıq etdiyi Qafqaz İslam Ordusu ilə birgə Gəncəyə gələn Ə.Hüseynzadə çox keçmədən İstanbula dönmüşdür. Ancaq 1-ci Dünya müharibəsinin nəticəsi olaraq Osmanlının məğlub ölkə kimi tanınması ilə (1918, 20 oktyabr Mudros müqaviləsi) onun da Antantanın başında duran ingilislər tərəfindən Maltaya sürgün olunması bir təsadüf nəticəsində baş tutmamışdır.

1925-ci ildə Bakıda keçirilən 1-ci Türkoloji qurultayda iştirak edib qayıtdıqdan  az sonra (1926) o, Mustafa Kamal Atatürkə sui-qəsddə ittiham olunan ittihadçılarla birlikdə həbs edilmişdir. Ancaq məhkəmə tərəfindən bəraət qazanan Ə.Hüseynzadə bu hadisədən sonra ümumiyyətlə, siyasi-ideoloji məsələlərdən uzaq durmuş və 1940-cı ilin martın 17-də İstanbulda vəfat etmişdir.

Onun əsas siyasi-ideoloji, elmi-fəlsəfi əsərləri "Türklər kimdir və kimlərdən ibarətdir?", "Siyasəti-fürusət", "Əbdi-Qlaf məhfəzə", "Qərbin iki dastanında Türk" və başqalarıdır.

**İctimai və siyasi-fəlsəfi görüşləri.** XX əsrin əvvəllərində Əhməd bəy Ağaoğlu siyasi-ideoloji "İslam millətçiliyi" ideyasına uyğun olaraq, əsasən İslam tarixini, İslam fəlsəfəsini, bir sözlə İslam mədəniyyətini tədqiq etdiyi halda, Əli bəy Hüseynzadə islamçılıqla müqayisədə türkçülüyün tarixinə, fəlsəfəsinə nisbətən çox önəm vermiş, siyasi türkçülüyə meyil göstərmişdir. Əslində bu mütəfəkkirlərin əsas məqsədləri bəllidir: İslam-Türk dünyasının qurtuluşu. Bu qurtuluş yolunda isə bir qədər fərqli taktikaların seçilməsi, fərqli mülahizələrin səslənməsi təbiidir. Hüseynzadənin təbrincə desək, eyni ideya uğrunda mübarizə aparan insanlar arasındakı fikir ixtilaflarının, ziddiyyətlərinin olması milli birliyin pozulmasına dəlalət edə bilməz. Əksinə fikir ixtilafları nəticəsində həqiqət meydana çıxar və millət də əsil həqiqətin arxasınca gedər. O, yazırdı: "Ələlxüsus, böyük bir inqilab dövrü olan bu günlərdə hər halda bir neçə gözlü olmaq zəruridir! Şəkk və şübhə yoxdur ki,

"İrşad" ilə "Həyat"ın fikirlərində çox ixtilaf olacaqdır. Məbada cəmaətimiz bu ixtilafi-əfkarı ittihadsızlığa, ittifaqsızlığa həml edə! Xeyr! Ancaq ixtilaflarının vücudilə həqiqət təcəlla və təzahür edə, müssadiməyi-əfkardan bariqəyi-həqiqət parlamaqda olduğu hər kəscə müsəlləmdir. Elm və həqiqətin ən böyük, ən şərəfli dostlarının belə hər zaman əfkar və arasında ixtilaf olmuşdur".[395] Digər tərəfdən bütün türklər, o cümlədən müsəlman türkləri üçün din və millət anlayışları demək olar ki, həmişə mühüm əhəmiyyət mahiyyət daşımışdır. Bu anlamda, həmin dövrdə milli-demokratik cəbhəni təmsil edən ziyalılarımızdan bir qisminin, Türk dünyasının nicatı üçün islamla çulğalaşmış siyasi türklüyə (Yusif Akçura, Əli bəy Hüseynzadə, M.Ə.Rəsulzadə və b.), digərlərinin türklüklə çulğalaşmış siyasi islamçılığa (Əhməd bəy Ağaoğlu, Qara Qarabəyli, S.M.Qənizadə və b.) üstünlük verməsi təbiidir.

Onun ictimai-siyasi görüşlərində islamla çulğalaşmış türkçülükdə iki yönü: 1) islamçılıq və türkçülüyün vəhdəti, yaxud da "islamlaşmaq, türkləşmək və avropalaşmaq" kimi qeyd edilən "üçlü" düsturu; 2) və "Osmanlı-İstanbul mərkəzli türkçülüyü" ideyasını fərqləndirmək lazım gəlir.

İslamçılıqla türkçülüyün vəhdəti məsələsinin özündə də iki: 1) onları mühafizəkarlıq (gerilikçi islamçılardan) və ifratçılıqdan (radikal qərbçilərdən) uzaq tutaraq çağdaş ruhunu ifadə etmək, 2) islamçılıq və türkçülüyün vəhdətini qoruyub saxlamaqla bir-birinə qarşı qoyulmasına yol verməmək kimi, vacib məqam var idi.

**Birincisi,** yəni islamçılıq və türkçülüyün vəhdəti ideyası ilə yanaşı ifrat mühafizəkarlarla ifrat tərəqqiçilərə qarşı olan Hüseynzadə mötədil tərəqqipərvər kimi, İslam dininin və türklüyün ruhunda daima yeniliyin, çağdaşlığın olmasını rəhbər tutmuşdur. Ona görə bu gün müsəlman xalqları digər inkişaf etmiş millətlərdən geri qalmışdır ki, Türk-İslam dünyasının qrutuluşu məsələsində üç firqə: 1) mühafizəkarlar; 2) ifrat tərəqqipərvərlər; 3) mötədil tərəqqipərvərlər, mövcuddur. İslamçılığa və türkçülüyə əngəl kimi gördü-

---

[395] Hüseynzadə Əli bəy. "İrşad" // Azərbaycan mətbuat tarixi antologiyası. İki cilddə, 1-ci cild. Bakı, "Elm və təhsil", 2010, s.83

yü ifrat mühafizəkarları və solçuları kəskin şəkildə tənqid edərək o, yazırdı ki, mühafizəkarlar hər növ təzə və yeni şeylərdən və işlərdən həzər edib insanları davamlı şəkildə bir nöqtədə saxlamaq xəyalındadırlar. Bunlar daima xalqın irəliləməsinə sədd çəkirlər.[396]

Onun fikrincə, 4-5 yüz ildən bəri avropalılar gözlərini gələcəyə doğru dikdiyi halda, İslam-Türk dünyası hələ də keçmişdən ayrıla bilmir. Halbuki keçmişi görmək, bilmək, yalnız istiqbalı, tərəqqiyi təyin üçün lazımdır, orada ilişib qalmaq üçün deyil. Bu keçmişpərəstliyin mötədil şəkli mühafizəkarlıq (köhnəpərvərlik), ifrat forması geriyəpərəstlikdir; məhz geriyəpərəstlərin üzündən müsəlmanlar 4-5 yüz il ərzində dünyada baş verən yeniliklərdən, dünyəvi elmlərdən xəbərsiz, nəsibsiz qalıblar.[397]O, yazırdı: "Bu mazipərəstlik, bu geriyəpərəstlik üzündən bizlər, biz şərqlilər, biz müsəlmanlar şu son dörd-beş yüz il zərfində cərəyan edən dünyada baş verən hadisələrdən xəbərsiz, nəsibsiz qaldıq. Binəsib və bixəbər qaldığımız üçün külliyyətli zərər və ziyanlara düçar olduq. Öylə şiddətlə düçar olduq ki, bütün aləmi-İslam, bütün məmaliki-vasiteyi-İslamiyan Fasdan Cavayə qədər, Kazandan Zəngibarə qədər fələcə uğramış kimi əzim bir cismi-atilə oxşayır!".[398]

Geriyəpərəstliyin zərərini çox yaxşı dərk edən Ə.Hüseynzadənin "Həyat" qəzetində dünyəvi, yoxsa dini elmlərlə bağlı "Bizə hansı elmlər lazımdır?" mövzusunda disskusiya təşkil etməsi təsadüfi olmamışdı. O, mühafizəkarlara üzünü tutaraq yazırdı ki, "elmi-əbdanla" (dünyəvi elmlərlə) "elmi-ədyanı" (dini elmləri) bir-birindən ayırmaq, dini elmlərlə yanaşı, riyaziyyat və təbiətşünaslıq kimi dünyəvi elmləri də öyrənmək lazımdır: "Axund həzrətləri, biz böylə zənn ediriz ki, bizə ülumun kaffəsi eyni dərəcədə lazımdır: həm ülumi-diniyyə, şəriyyə və ruhaniyyə, həm də riyaziyyat və təbiiyyat kimi ülumi-mücərrədə və cismaniyyə".[399]

---

[396] Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007, s.34
[397] Hüseynzadə Ə. Seçilmiş əsərləri. Iki  cilddə, 2-ci cild. Bakı, Çaşıoğlu, 2008, s.141
[398] Hüseynzadə Ə. Türklər kimdir və kimlərdən ibarətdir? Bakı, Mütərcim, 1997,s.129
[399] Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007, s.124

O, "Məcnun və Leylayi-İslam" məqaləsində də İslam dininin olmasa da, ancaq İslam dünyasında yaşayan müsəlman xalqlarının, xüsusilə də onun beyni-başı hesab edib "Türk təxti" adlandırdığı Osmanlının, onun ürəyi saydığı "İran"ın "xəstə"liyinin səbəblərini və müalicəsini göstərməyə çalışmışdır. Onun fikrincə, hazırda siyasi-İslamın beyni-başı olan "Türk təxti"ndə sultan II Əbdülhəmidin bütün əməklərinə baxmayaraq, İslam coğrafiyasının yalnız bədəni deyil, onun ruhu da xəstəlikdən əziyyət çəkir. Buna səbəb bir tərəfdən İslam dünyasının öz beyin-ruh sisteminin tənəzzülə doğru gedərək Qərb dünyasından gələn "zəhərli yellərə" yoluxmaqdırsa, digər tərəfdən Qərb missiyonerlərinin qeyri-müsəlman, ya da qeyri-türklər arasında apardığı təbliğatlardır.[400] Xüsusilə də, "ingilis mikrobları"nın[401] apardıqları antiislam siyasəti nəticəsində İslam dünyasının ruhu hesab olunan Ərəbistanda da "tıq", "taq" səslərini duymayan Hüseynzadə yazırdı: "Dəvəran və cövlani-dəmlə tərəfdən gələn hücum axın-axın bətinlərə daxil olaraq Kəbə və rövzeyi-mütəhhəreyi-dəli təvaf etdikdən sonra yenə yerlərinə övdət ediyorlardı. Əcəba bunlar zülali-zəmzəmə ilə qidai-ruh və bədən olan məarifi-islamiyyəni buradan hər tərəfə isal ediyorlarmı idi?.. Qahirədə, Nəcəfdə, Kərbəlada pərişan bir halda olsa da heç olmazsa mövcud olan mədaris və darülfünunun islamiyyədən buralarda, həkimi-dilgah Murad bəyin vaxtı ilə etdiyi dadü-fəryadlara rəğmən, nə bir nişanə, nə də bir əsər var idi...".[402]

Ə.Hüseynzadəyə görə yalnız Osmanlıda deyil Qacarlarda da müsəlman xalqları cəhalət, xurafat içindədirlər. Sadəcə, Osmanlıda bir müstəbid olub (II Əbdülhəmid) əsas hakimiyyət İstanbulun əlində cəmləşdiyi halda, Qacarlarda onlarla müstəbid vardır və Tehran hökumətinin əli çox vaxt digər yerlərə çatmır. İstanbul hökuməti din məsələsinə əsasən nəzarət etdiyi halda, Tehran hökuməti mollalar, müctəhidlər və seyidlərlə bacara bilmir. O, yazır: "Bu növ hö-

---

400 Hüseynzadə Əli bəy. Qırımızı qaranlıqlar içində yaşıl işıqlar. Bakı: Azərnəşr, 1996, s.151-153

401 Yenə orada, s.156

402 Yenə orada, s.156-157

kuməti-taliyyənin İran üçün ən təhlükəlisi seyid və molla hökumətidir. Osmanlı türkləri ələlümum qədimdən bəri tutduqları din və məzhəbdən ayrılmadıqları halda, İran mollaları iki də, bir də yeni məzhəblər ixtirasına qalxışaraq molla hökumətinin dəxi təəddüdünə çalışırlar".[403] Onun vaxtilə uzaqgörənliklə ifadə etdiyi bir durum olmalıdır ki, seyid və molla qılığındakıların "molla hökuməti" artıq "İran"da rəsmi olaraq 40 ildən çoxdur öz varlığını sürdürməkdədir.

Ona görə İslam coğrafiyasının ən ağrılı yeri olan "İran"da hind məzhəbləri buddizmlə brəhmənizm zərdüştliyə, xristianlıq maniliyə çevrilmiş, Yunan və Roma cümhuriyyətçiliyi də icmaya əsaslanan İslam Xilafətçiliyi diktaturasına dönüşmüşdür.[404] Onun fikrincə, bütün bunlara əsas səbəb Hind məzhəblərindən qaynaqlanan zərdüştlüyün, onun "xeyir və şər" nəzəriyyəsinin bu və ya digər formada xristianlığı, cümhuriyyətçiliyi, xilafətçiliyi-islamçılığı yavaş-yavaş içdən öz təsiri altına salmasıdır:"Əsasən, İrandan məzhəb iqtizası olaraq heç bir fərdin Avropada və sair biladi-mütəmədinədə təhsili-elmə getməyə haqqı yoxdur. Çünki Zərdüştün "pak və napak" nəzəriyyəsi bu gün mübaliğəyə uğrayaraq, bu nəzəriyyəyə görə bir qaç milyon müsəlmandan başqa məxluqüllah olan bir milyard yarım bəşəriyyətin qaffəsi əhli-kitabda daxil olduğu halda murdardır. Bakterologiya elminin "asepsi və antisepsi" nəzəriyyələrindən bixəbər olan İranın "pak və napak" fərziyyəsi şayani-heyrətdir: Bu fərziyyəyə görə qırx-əlli kəlin, qoturun, keçəlin girib çıxdığı hovuzun suyu pakədd olunduğu halda, təqdirxananın o mikrobsuz, rüsubsuz bərraq suları napak və murdar hesab olunuyor".[405]

Hüseynzadənin burada ifadə etdiyi əsas məsələ zərdüştlüyün İslam dini, xüsusilə də onun şiə məzhəbçiliyi daxilində yeni bir forma alaraq yaşamağa davam etməsi idi. Bizcə, irandilli xalqlar zərdüştlüyün şiəlik daxilində bu formada "İran"da davam etməsinə əsasən qarşı olmasalar da, ancaq eyni sözləri türklər və ərəblərlə bağlı demək doğru olmazdı. Çünki zərdüştlüyün şiəlik daxilində bu

---

[403] Yenə orada, s.159
[404] Yenə orada, s.160
[405] Yenə orada, s.161

cür təzahürü irandilli xalqların milli adət-ənənələrinə uyğundur, nəinki ərəblər və türklərin milli törələrinə. Bunu, o zaman yaxşı dərk edən Hüseynzadə hər kəsin anlayacağı bir şəkildə yazırdı: "Biz zatən şübhə etmiyorduq ki, bəzi iranilərdə İslama islamiyyət nəzərilə baxmağa istedad yoxdur. Çünki "Atavizm"ə (irsiyyəti-bəidə) icabatı ilə əfkar və mənəviyyatları ərəbin, türkün zərbeyi-islahlarına rəğmən fürsi qədim mədəniyyətindən xilas olmamışdır".[406]

Ə.Hüseynzadə hesab edirdi ki, hazırda İslam aləmində diri, canlı, mətin, nicatverici, ümidverici tək dövlət Osmanlı olub, "İran"ın ən azı yüz illik qəflət yuxusunda olduğu bir dövrdə xaricdən gələn bütün bəlalara təkbaşına cavab vermişdir: "Zatən İslamın bu üçüncü dövrü Türk dövrüdür. İslam türklüklə payidar oluyor, aləmi-İslamda Hinddən Misirə qədər İran da daxil olduğu halda nə qədər müstəqil və nimmüstəqil hökmdar varsa, həman cümləsi Türk nəslindəndir, içlərində bir fars yoxdur. Çünki hökm və idarə edə bilmək bir müddətdən bəri türklərə vergi olmuşdur".[407] Bu baxımdan İslam aləmində yeniliklə köhnəlik məsələsinin, hürriyyət və məşrutiyyət anlayışlarının bütün müsəlman xalqları, onların ziyalıları üçün oxşar mahiyyət daşıdığını iddia etmək doğru deyildir. Hüseynzadənin təbrincə desək, müsəlman xalqları olmasına baxmayaraq milli adət-ənənələrə, inqilabi yeniliklərə, dində islahatlara və digər məsələlərə farslar, türklər və ərəblərin baxışları fərqlidir.

Bu baxımdan özünü geriyəpərəstlərlə, diktatura tərəfdarları ilə hürriyyət aşiqləri, Konstitusiya tərəfdarları arasındakı mübarizədə sonuncuların yanında olduğunu bəyan etməklə yanaşı Hüseynzadə, İslam aləmində sonuncuların birincilər üzərində hansı yolla qalib gəlməsi məsələsində fikir ixtilaflarının olmasını da təbii qəbul edirdi.[408] O, yaxşı anlayırdı ki, hər daim Yer kürəsində və onun üzərindəki məxluqatda, bəşəriyyətdə dəyişikliklər iki yolla: 1) inqilab (dəyişiklik birdən birə baş verib, onun üzərində yeni keyfiyyətli

---

406 Yenə orada, s.181
407 Yenə orada, s.183
408 Hüseynzadə Ə. "Həyat"ın sənəyi-dövriyyəsi // Azərbaycan mətbuat tarixi antologiyası. İki cilddə, 1-ci cild. Bakı, "Elm və təhsil", 2010, s.100

bazis və üst qurum yaranır), və 2) təkamüllə (dəyişiklik təkamül yoluyla tədricilə baş verib yeni bazis və üstqurumları ortaya qoymuşdur) baş vermişdir. Bu baxımdan bəşəriyyət tarixində də iki böyük: 1) protestantlıq kimi dini inqilab, və 2) Fransada hüquqi-bəşərin elanı ilə siyasi inqilablar baş vermişdir. O, yazırdı: "Aləmi-İslam bu iki inqilabın heç birindən mütəəsir olmuyub, hali-sabiqində davam edib durdu. Vaqiən İslam məmləkətlərində ara-sıra yeni-yeni məzhəblər törədi. Lakin bu məzhəblərin törəməsi İslam üçün əslən və qətən inqilab sayılamaz. Çünki inqilab dini, yeni məzhəb çıxarmaqda deyil, bəlkə həqayiqi-əvvəliyyeyi-diniyyeyi əqəliyyətin əlindən xilas edib ümumin, külliyyəti-əhalinin mali etməklə olur. Protestantlıq böylə yapdı".[409]

Osmanlı türkləri inqilab məsələsində ingilislər kimi təkamül yolu tutduğu halda, ancaq "İran" xalqları haqqında eyni fikirləri söyləmək çətindir. O, yazırdı: "İran camaatı bir iki əsrdən bəri təkamül yolunda bir addım belə atmamış olduqlarından bu gün bəşəriyyətin ən geridə qalan bir üzvü bulunurlar. Şimdi ayılıb özlərini hər tərəfdən qayət hail dalğalara, girdablara məruz görüncə sələmi-təkamüli tədricən çıxmaqdan isə inqilab sıçrayış ilə nicat yolu aramağa məcbur oldular. Zatən, inqilabdan başqa da çarələri yoxdur. Çünki təkamül yolunu tutmaq artıq gecdir. İran mükəmməl bir inqilaba müvəffəq olmazsa, məhv olduğu gündür".[410] Onun fikrincə, "İran" inqilabı dini, siyasi və ictimai olmalıdır. Belə ki, dini inqilab İslam birliyini, siyasi inqilab məşrutiyyəti, ictimai inqilab isə sosial bərabərliyi və təkamül yolunu tutmağı təmin etməlidir.[411]

"İran"da baş verən inqilabda isə "ingilislərin barmağı"ndan çox Rusiya inqilabının təsiri və ictimai həddi-buluğa yetişmələri ilə bağlıdır. Sonuncu amildə iki vasitə: 1) iranlı tacirlərin daha çox Rusiya ilə ticarət etmələri, və 2) qövmiyyətlə bağlıdır. Belə ki, Ru-

[409] Hüseynzadə Ə. Qırımızı qaranlıqlar içində yaşıl işıqlar. Bakı: Azərnəşr, 1996,s.165
[410] Yenə orada, s.166
[411] Yenə orada, s.166-167

siya müsəlmanlarının bir qismi ilə yanaşı, "İran"ın Quzey Azərbaycan qitəsi də daxil omaqla çoxu türkdür.[412]

Beləliklə, Hüseynzadə belə bir qənaətə gəlirdi ki, inqilab məsələsində sağ tərəfdə durub mühafizəkarlıq edənlərə nisbətdə sol tərəfdəkilərə ümid daha çoxdur: "Sola! Çünki bu dəfə uçurum, girdab, girdabi-hail sağ tərəfdədir. Əlhəzər, mühafizəkar bəylərin, köhnə fikirli, ya fikirsiz ağaların, kavpərəst, dünyapərəst sərmayədarların, korpərəst, axirətpərəst, lakin yenə sərmayəpərəst mollaların, keşişlərin, kiçik əqilli, böyük hiyləli, mürvvətsiz, insafsız, vicdansız, münafiq, fitnəçi, provakator "bürokratların", "divanişinlərin", ümum əsarət və istibdad qullarının çəkdikləri, sürüklədikləri sağ tərəfdən! Uçurum oradadır!... Fərasət, zəka, ağıl, elm, tədbir, insaf, mürvvət, nicat, səlamət həp sol tərəfdədir!".[413] O, daha sonra yazırdı: "Sağ tərəfdə bir uçurum hazırlanmışdır ki, əjdaha kimi ağzını açıb bütün cəmaətləri, bütün qövm millətləri, dinləri ilə, dillərilə, elm və məarifləri ilə, sənətləri və kəsbü karları ilə bəl və nabüd etməyə amadədir!.. Sol tərəf isə Rusiya üçün, Rusiya imperatorluğu üçün, xeyr, bütün aləmi-bəşəriyyət üçün bir dövri-cəddid, bir səadəti-ümumiyyə dövri-cədidi ehzar eyliyor. Bu səadəti-ümumiyyə, bu dövri-cəddid həqiqi bir dövri-cəddid olacaqdır".[414]

Ancaq cəmiyyəti radikal dəyişikliklərə çağıran sol qüvvələri əvvəlcə təqdir edən Hüseynzadə ifrata varmalarından dolayı çox keçmədən də onları tənqid edirdi: "Solumuzda duranlar isə rəqiblərimizi kor-koranə təqlid edərək birdən-birə sıçramaq, özlərini qorxulu girdablara, uçurumlara atmaq istəyirlər! Hər iki tərəfdən əlhəzər! Birincilər (geriyəpərəst mühafizəkarlar-F.Ə.) İslam dininin ruhuna vaqif olmayaraq öz zövq və həvəslərinə müvafiq bir halətdə qaldığını xəyal edirlər. İkincilər (ifrat tərəqqiçilər-F.Ə.) isə zənn edirlər ki, İslamda mədəniyyətə, tərəqqi və təkamülə xidmət edəcək bir şey yoxdur. Avropa cəhətindən əsən bütün yellər, hətta zəhərli yellər belə şəfabəxşdir. Bunlar bütün bu maddiyunluğun (materia-

---

[412]Yenə orada, s.62

[413] Hüseynzadə Ə. Türklər kimdir və kimlərdən ibarətdir? Bakı, Mütərcim, 1997,s.192

[414] Yenə orada,s.192

lizmin), dəhriyunluğun (ateizmin), iştirakiyunluğun (sosializmin) mahiyyətlərinə özləri belə agah olmadan bu təriqəti-fəlsəfiyyələri nəşrə çalışıyorlar".[415] Bu baxımdan keçmişi ideallaşdıran mühafizəkarlar kimi, İslamı tərəqqiyə əngəl olaraq görən ifrat tərəqqiçilər də yanılırlar. "Müsəlmanlıqda günah yoxdur" deyən, Əli bəyə görə eyibi İslamın zatında deyil, müsəlmanların öz əməllərində axtarmaq lazımdır.[416]

Ə.Hüseynzadə ifrat mühafizəkarlar və ifrat tərəqqiçilərə münasibətdə Ə.Ağaoğlu ilə təxminən eyni mövqe tutmuş, özlərini ayrıca bir müstəqil xəttin tərəfdarı kimi qələmə vermişlər. Sadəcə, yuxarıdakı bölgüdə ziddiyyətli və mübahisə doğuran məqam odur ki, Ağaoğlu və Hüseynzadə ifrat mühafizəkarlar və tərəqqiçilər arasında orta mövqe tutanları ilk vaxtlarda fərqli anlayışlarla ("panislamistlər", "mötədil tərəqqipərvərlər") adlandırmışlar. Ağaoğlundan fərqli olaraq Hüseynzadə "panislamizm" deyil, "mötədil tərəqqipərvərlər" məfhumundan istifadə etmişdir.[417]

Ə.Hüseynzadə "mötədil tərəqqipərvərləri" milli birlik yaratmaqda ittiham edən marksist-leninçilərə, daşnaklara cavab olaraq qeyd edirdi ki, Rusiya müsəlmanlarının, ya da türklərinin guya, "panislamizm" ideyası ətrafında ittifaq edərək Rusiya və Avropa üçün böyük təhlükə olduğu haqqında yazdıqları böhtandan başqa bir şey deyildir. "Panislamizm" kəlməsini ortaya atanlar şərqlilər deyil, qərblilərdir – deyən Hüseynzadəyə görə İslam dünyası o qədər müttəfiqdir ki, "panislamizm" kimi bir əcnəbi kəlməsi icad edib yenidən ittihad və ittifaq etməyə əsla ehtiyacları yoxdur. Onun fikrincə, əslində qərbliləri qorxudan "İttihadi-İslam" deyil, İslam dünyasının qəflət yuxusundan oyanıb tərəqqiyə, maarifə üz tutmalarıdır.[418] Beləliklə, Ə.Hüseynzadə bir tərəfdən "panislamizm" və "pantürkizm" devizini əldə bayraq edərək guya, xristian dünyasını

---

[415] Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007, s.34

[416] Hüseynzadə Əli bəy. Ey qələm // Azərbaycan mətbuat tarixi antologiyası. İki clddə, 1-ci cild. Bakı, "Elm və təhsil", 2010, s.103

[417] Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007, s.34

[418] Yenə orada, s.73-74

(Rusiya və Avropanı) təhlükə gözlədiyini iddia edən xristian millətçilərə (rus, erməni və b.), digər tərəfdən milli-dini ideyaları sinfi mübarizənin əleyhinə olduğunu irəli sürən ifrat tərəqqiçilərə, yəni marksist-leninçilərə qarşı mübarizə aparmışdır.

Onun fikrincə, ifrat mühafizəkarlar və tərəqqiçilərlə mübarizədə öz təşkilatı və proqramı ilə çıxış etməli olan mötədil qüvvələr, o cümlədən "gənc türklər" "köhnə" türklərin, ifrat mühafizəkarların üç yanlışını: 1) sünniliyi şiəliyi ayrı-ayrı hesab edib məzhəbçiliklə islamiyyəti parçalamamalı, 2) xilafəti isə islamiyyətdən ayırmağı bacarmalı, 3) türklüyü yalnız osmanlılıqdan, Osmanlı sülaləsindən ibarət görməməli, təkrar etməməlidir. O, yazırdı: "Bizim isə aləmi-İslamda, ya aləmi-Ətrakdə (Türk aləmində-F.Ə.) əhəmiyyət verdiyimiz, rəbti-qəlb etdiyimiz, meylü-məhəbbət bağladığımız şey nə məzhəbdir, nə xilafətdir və nə də filan, ya filan sülaleyi-hökmdaridir. Bunların heç biri deyildir, bunu bir kərə anlamalıdır. Bizim sevdiyimiz, rəbti-qəlbi-məhəbbət etdiyimiz şey nərədə olursa-olsun ancaq dindaşlarımız və həmcinslərimiz olan millət və cəmaətdir. Əfradi-nasdən ibarət millət və cəmaətdir. Qurani-məciddən, əhadisi-nəbəviyyədən ayrılmayan hansı hökuməti-İslamiyyə, hansı sülaleyi-hökmdari olursa-olsun, ədalət, hürriyyət və qanuni-əsasi sayəsində müsəlmanlardan və müsəlmanlar miyanında türklərdən ibarət cəmaəti, milləti təriqi-tərəqqi və mədəniyyətə sövq edərsə, bizim də, meylü-məhəbbətimiz o tərəfə olur. Quru xilafət ünvanlarının, sülalə şöhrətlərinin təfriqeyi-məzhəb mübahisələrinin vəqti keçmişdir".[419] Belə bir mürəkkəb şəraitdə mötədil qüvvələr, o cümlədən "Gənc türklər" yalnız öz təşkilat və proqramı ilə hərəkət etməlidir. O, yazırdı: "Ancaq biz arzu edərdik ki, müsəlmanların özlərinə məxsus bir proqram və firqəsi olsun və o firqədə müsəlmanların və bilxassə Türk və Tatarların hər növ müsavat və hürriyyətləri ilə bərabər hüquqi-qövmiyyə, lisaniyyə və diniyyələrini təmin edən sair firqələrə iltihaq etsin. Bizim üçün nicat, hər növ hürriyyət və hüquqi-müsavat tələb edən firqələrlə birləşməkdədir".[420]

[419] Hüseynzadə Ə. Qırımızı qaranlıqlar içində yaşıl işıqlar. Bakı: Azərnəşr, 1996, s.59
[420] Yenə orada, s.80

O, haqlı olaraq hesab edirdi ki, "yeni türklər", mötədil tərəqqipərvər öz təşkilatlarını və proqramlarını ortaya qoymaq, onu gerçəkləşdirmək yolunda da özləri fədakar olmalı, yeni fədailər yetişdirməlidir. Fədailər isə yuxarı sçırayan murdarlıqlardan qorxmamalı, "türk qanlı, müsəlman etiqadlı, firəng fikirli, Avropa qiyafətli"[421] prinsiplərindən çıxış etməli, yeri gələndə ingilislər və amerikanlar kimi praqmatik, yaponlar kimi uzlaşdırıcı olmalıdırlar.

**İkincisi,** islamçılıqla türkçülüyün vəhdətindən çıxış edib onların bir-birinə qarşı qoyulmasına yol verməmək məsələsinə gəlincə, Hüseynzadə hələ, 1904-cü ilin noyabrında Misirdəki "Türk" qəzetinə göndərdiyi məqaləsində, bəzi istisnaları nəzərə almasaq, əsasən Akçuranın "Üç tərzi-siyasət"dəki ideyalar ilə razılaşmışdır. Belə ki, Hüseynzadə də Akçura kimi "osmanlı milləti" ideyasını rədd edərək, əsas diqqəti müasir ruhlu islamçılıq və türkçülük üzərində cəmləşdirmiş, yeni ideyanın onların bütövlüyü ətrafında yaranmasını vacib saymışdır. Sadəcə, burada Hüseynzadə Akçuranın "üçlü" proqramında islamçılıq və türkçülüyün vəhdəti halından kənara çıxarılaraq, ayrı-ayrılıqda götürülüb fərqli ideyalar kimi siyasiləşdirilməsinə etiraz etmişdir. O, yazırdı: "Süni olaraq ayrıca pantürkizm, panislamizm adları ilə məslək icadına nə lüzum vardır?".[422]

Hüseynzadə ilk dövrlərdə mədəni türkçülük və islamçılıqdan çıxış edərək, hər ikisinin bütövlüyündən çıxış etməyə çalışsa da, ancaq onu da yaxşı anlayırdı ki, türklərin həyatında türkçülüyun, turançılığın da özünəməxsus yeri və rolu vardır. Bu baxımdan Hüseynzadə siyasi cəhətdən İslamı və Türklüyü bütöv şəkildə gördüyünü ifadə etsə də, mədəni cəhətdən Türk millətinin islamlıqları qədər türklüklərini də sözün həqiqi mənasında dərk etmələrini vacib saymışdı: "Müsəlmanlar və özəlliklə türklər, hər yerdə olursa olsun, istər Osmanlıda, istər Türküstanda, istər Baykal gölü ətrafında, ya Qaraqorum civarında olsun, bir-birlərini tanıyacaq, sünnilik, şiəlik və daha bilməm nəlik adları ilə məzhəb təəssübünü azaldıb "Qurani-Kərimi" anlatmağa qeyrət edəcək, dinin əsasının Quran ol-

[421] Yenə orada, s.176
[422] Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007, s.30

duğunu biləcək olurlarsa, əl verməzmi?”.[423] Bir millət üçün hər şeydən əvvəl arzu ediləcək qüvvətdir ki, bir millətin qüvvət qazanması da eyni fikirli adamlar arasında mənəvi dəyərlərin inkişafı, qarşılıqlı sevginin artması ilə bağlıdır.

Deməli, 1-ci Rusiya inqilabına qədər (1905) “Məktubi-məxsus” yazısından da göründüyü kimi, Hüseynzadə əsasən türkçülüklə islamçılığın vəhdətindən çıxış etməklə yanaşı, bəzi hallarda türkçülüyü, hətta turançılığı bir qədər önə çəkmək hissi güclü olmuşdu:

*Sizlərsiz ey qövmi-macar, bizlərə ixfvan,*
*Əcdadımızın müştərəkən mənşəyi Turan!*
*Bir dindəyiz biz, həpimiz haqpərəstan;*
*Mümkünmü bizi ayırsın İncil ilə Quran?*[424]

Bu kimi milli yazılarına və şeirlərinə görə, ilk turançı hesab olunan Ə.Hüseynzadə, ancaq ilk dövrlərdə turançılığı şiddət və qətiyyətlə müdafiə etməmişdir. Bir çox müəlliflərin (Y. Akçura və b.) də təsdiqlədiyi kimi Hüseynzadədə türkçülük fəaliyyəti daha qabarıq şəkildə Rusiya-Yaponiya müharibəsi ərəfəsində və həmin dövrdə meydana çıxmışdır.[425] Bu dövrdən etibarən o, fasiləsiz olaraq “ümmət” və “millət” anlayışlarını bir-birindən fərqləndirmiş, sonuncu məfhuma elmi dəqiqlik, konkretlik gətirməyə çalışmışdır.[426]

Xüsusilə də, Hüseynzadə çağdaş ruhlu islamçılıq və türkçülüyün vəhdəti ideyasını və siyasi türklüyə keçidi “Həyat” (1905-1906) qəzetindəki məqalələrində davam etdirmiş, daha sonra “Füyuzat” jurnalında (1906-1907) “türk qanlı, müsəlman etiqadlı, firəng fikirli və Avropa qiyafətli bir fədai olalım” - deməklə, bütün Türk xalqlarının ortaq məfkurəsinə çevrilən “türkləşmək, islamlaşmaq və müasirləşmək” formulunun təməlini qoymuşdur.

Hüseynzadənin türkçülük baxışları onun Quzey Azərbaycanda olduğu dönəmdə “Həyat” qəzetində yazdığı məqalələrində türklərin etnoqrafiyasına, dilinə, mədəniyyətinə, qədim dini-fəlsəfi tə-

[423] Yenə orada, s.30
[424] Yenə orada, s.32
[425] Akçura Yusif. Türkçülüyün tarixi. Bakı, Qanun, 2010, s.208
[426] Balayev Aydın. Məmməd Əmin Rəsulzadə (1884-1955). Bakı, “Adiloğlu” nəşriyyatı, 2011, s.37

limlərinə, ümumilikdə Türk xalqlarının tarixinə həsr etdiyi yazılarda özünü ortaya qoymuşdur. Bu qəzetdəki yazılarında "tatar" adlı millətin olmadığını, kırımlıların, orenburqların, kazanlıların da digər türklər kimi türk oğlu türk olduğunu vurğulamaqla,[427] Hüseynzadə islamçılığın və türklüyün ayrı-ayrılıqda dərkini də vacib hesab etmişdir. O, yazırdı: "Müsəlmanız, onun üçün dünyanın hər nərəsində xeyirxahı bulunduğumuz din qardaşlarımız tərəqqi etsə biz o tərəqqiyi əz canü dil alqışlarız! Türküz, ona görə də türküz. Türkün hər yerdə tərəqqi və təkamül ilə məsud olmasını arzu ediriz".[428]

Hüseynzadə nə qədər milli-dini vəhdətdən çıxış etsə də, Türk xalqlarının daha çox türklük nüvəsində dirçəlməsini və birliyini vacib saymışdır. Bu anlamda onun "Türklər kimdir və kimlərdən ibarətdir?" əsəri Turançılığa, Türk-Turan mədəniyyətinə konseptual bir girişdir. Çünki bu əsərdə "əcdadımızın müştərək mənşəyi Turan"a işıq tutulmağa cəhd göstərilib, Türk xalqlarının Turan mədəniyyətində, Turan dil ailəsində yeri və rolu tədqiq olunmuşdur.

Onun turançılıqla bağlı milli işlərindən **birincisi**, Türk tarixindəki şəxsiyyətlərə baxışdır. Hüseynzadə üçün Osmanlı dövlətinin başçısı sultan Səlim və Səfəvilərin başçısı Şah İsmayıla münasibət əsil Türk bilgəsinin baxışıdır: "Şah İsmayıl heç bir zaman ümummüsəlman düşmənlərinə şikayət edəcək qədər bir zilli irtikab etməmiş idi. Hər iki hökmdar (Sultan Səlim və Şah İsmayıl nəzərdə tutulur) qılıncları ilə bütün Avropanı titrədir, bir qüvvət və sərvətə malik idilər".[429] Hüseynzadə çox haqlı olaraq "monqol-tatar" adı altında Türk tarixindən uzaq tutulan çingizililərə, teymurilərə sahib çıxırdı. O, yazırdı: "Çingiz fütuhatından sonra Türk əqvam və məmalikinin bir qismi bu cahangirin ordularında bulunan türk-moğol komandaları səhvən tatar namilə yad olunmağa başladı. Bu səhvə başlıca islavlar səbəb oldu. Çünki bunlar Çingiz qoşununun bir əksəriyyəti-əzimə etibarilə türk olduğunu anlamayıb ancaq əsgərin sərkərdələrini nəzri-etibara almış idilər. Halbuki fəth olunan ərazi-

[427] Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007, s.30-31
[428] Yenə orada, s.35
[429] Hüseynzadə Ə. Qırımızı qaranlıqlar içində yaşıl işıqlar. Bakı: Azərnəşr, 1996,s.186

nin əhaliyyi-turaniyyəsini zatən minəlqədəm türk, bu əraziyi fəth edən əsgərlər türk, bunları təqib edən mühacirlər türk, Çingizin özü türk, türkün bir qisminə, bir şivəsinə, bir dövr tarixinə namını verən oğlu Çığatay, yaxud özbək türklərinə nam verən digər oğlu Cuci kimi həp türk oğlu türk idilər. Çingiz ümuri-dövləti üçün moğalların deyil, uyğurların, yəni qədim türklərin xətt və lisanlarını qəbul etmiş olduğu da cümləcə məlum bir keyfiyyətdir”.[430]

Hüseynzadənin turançılıq fəlsəfəsində **ikinci məsələ,** Turan mədəniyyətinin nüvəsi olan türklərin qədim zamanlarda əsasən təbiətə, təbiət sirlərinə pərəstişdən ibarət bulunan “şamanizm”ə (əslində qamlığa) və tanrıçılığa inanmalarını izah etməkdir. Onun fikrincə, “şamanizm” bəzi Qamların ya da “şaman”ların şarlatanlığı sayəsində sonralar bütpərəstlik dərəcəsinə düşdüyü zamanlarda belə,[431] ancaq bu bütpərəstlik, həmin dövrlərdə bir o qədər qaba olmayıb Misir, yaxud da Yunan qədim məzhəbləri kimi xurafat səviyyəsinə enməmişdir.[432] O, türklərin ilkin inanclarında oda olan sitayişlərini şaman, ya da qamlarla bağlayıb, İranlıların gəlişindən sonra ortaya çıxan zərdüştilərin atəşpərəstliyə aid olmamasına diqqət çəkmişdir: “Nura pərəstiş guya İyzədə (Hörmüzə – F.Ə.) pərəstiş demək olduğundan Zərdüşt məzhəbinin başçıları tərəfindən axırda qaba bir atəşpərəstliyə çevrildi. Atəşpərəstlik isə zatən yuxarıda qeyd olunan şaman (əslində Qamlıq – F.Ə.) məzhəbində də var idi. Bir çox adətimiz bu dövrlərdən qalmadır. Məsələn, axır çərşənbələrdə atəş yandırıb üzərindən atılmamız və sairə”.[433]

O yazırdı ki, şamanizmdən sonra türklərin əsas dini-fəlsəfi təlimi “Göy Tanrı” olmuşdur. Bəzi “şaman”ların yanlış əməlləri nəticəsində “şamanizm” bütpərəstliyə çevrilsə də, ancaq “şaman” bütpərəstliyi uzun sürməmiş və Tanrıçılıq dini yaranmışdır: “Fəqət şu təəddüd ilahə ilə bərabər Türk oğuzlarda vəhdaniyyəti-rəbbaniyyə fikrinə bir meyil bulunduğuna sahibüssəma mənasına gələn və

---

[430] Hüseynzadə Ə. Türklər kimdir və kimlərdən ibarətdir? Bakı, Mütərcim, 1997,s.217
[431] Hüseynzadə Ə. Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2007, s. 54
[432] Yenə orada, s. 64
[433] Yenə orada, s. 55

ilahülilahə olması möhtəmil olan "Tanrı", yəni Gög Tanrı və yaxud sadəcə "Gög" denilən Allaha dəlalət ediyor. Qədim türklərin ruha etiqadları var idi. Orxon abidəsinə görə ruh bir quş şəklində təsəvvür olunuyordu. Movtayı dəfn etmək adəti dəxi talibi-diqqətdir".[434]

Hüseynzadənin də yazdığı kimi, bu gün türklərin, o cümlədən Azərbaycan türklərinin Yaz bayramında təbiət ünsürləri (od, su, torpaq və hava) ilə bağlı keçirdiyi mərasimlərin kökü, mənşəyi də zərdüştiliyə deyil, şamanizmə/qamlığa gedib çıxır.[435] Tanrıçılıqdan sonra isə İslam istisna olmaqla türklərin əksəriyyəti başqa dinlərə ciddi şəkildə meyil və istedad göstərməmiş, göstərənlər isə öz etnik mənşələrini belə unutmuşlar. Ancaq müsəlman türklər həm İslam aləminin mühüm bir istinadgahına çevrilmiş, həm də öz tayfa və milliyyətlərini qoruyub-saxlamışlar.[436] O, yazırdı: "Türk qəvaidi o qədər sadə, o qədər gözəl və məntiqə müvafiqdir ki, onunla ülfət edən türk heç bir vaxt anı tərk eləyib, ərəbin qəvaidini qəbul edəməyəcəyi aşkar idi. İştə bu növ səbəblərdəndir ki, türklər dini-mübini-İslamı öz ruh və mənəviyyatlarından nəban etmiş kimi bir şövqi-əzim ilə dərağuş edib onun qəvi bir nigəhbanı olmuş olduqları halda, əsla ərəbləşmədilər və qövmiyəti-nəcibəyi-əsliyyələri mühafizə edə bilib, ancaq o yolda tərəqqiyyata məzhər olmağa başladılar".[437]

Hüseynzadənin Turançılıq fəlsəfəsi ilə bağlı **üçüncü məsələ**, İslam dininə tapınmış türklərin həm müsəlman aləminin mühüm bir istinadgahına çevrilməsini, həm də öz tayfa və milliyyətlərini qoruyub-saxlamasını, bu zaman ərəblərdən (samilərdən) və iranlılardan (ariyanlardan) fərqliliklərini ifadə etməkdir. Ona görə buna birinci səbəb ərəblər kimi türklərin də böyük bir millət olub, eyni zamanda Ərəbistandan uzaq yaşamaları göstərilsə də, əsas ikinci səbəbdir ki, türklərin dilinin əsasını Turan dil ailəsi, ərəblərin dilini isə Sami dil ailəsi təşkil edir.[438] Bu məsələ ilə bağlı Azər Turan yazır: "Tarixən

---

434 Yenə orada, s. 64
435 Yenə orada, s. 55
436 Yenə orada, s.57
437 Hüseynzadə Ə. Türklər kimdir və kimlərdən ibarətdir? Bakı, Mütərcim,1997, s.226
438 Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2007, səh. 57

bir dində qərar tuta bilməyən türklərin etiqad dünyasında davamlı sabitlik islamiyyətin zühurundan sonra baş verdi. Başqa dinlərə meyil etməyən türklər milli kimliklərini, etnik yapılarını yalnız İslam dininin vasitəsilə qoruya bildilər, digər tərəfdən də islamlaşsalar da ərəbləşmədilər. İslamı qəbul edəndən sonra milliyyətlərini qoruya bilməyib ərəbləşən Şimali Afrika, Suriya və Mesopotomiya (Əlcəzirə) xalqlarından fərqli olaraq, türklərin öz milli varlığını qoruyub saxlaya bilməsinin tək səbəbini Hüseynzadə hər şeydən əvvəl, Türk dilinin qüdrətində görürdü. Əli bəyin qənaətinə görə, Turan və Saminin siyasi və məfkurəvi çarpışması öncə dil meydanında baş verib. Türk dilinin qaydası Sami dillərinin qaydasına o qədər zidd olub ki, Saminin qamusundan, lüğətindən götürdüyü gen-bol sözlərə rəğmən, Turanın ahəngi Saminin ahəngini həzm edə bilməyib”.[439]

Deməli, Hüseynzadə birmənalı şəkildə Turanın Ariyanlar və Samilərlə yanaşı, böyük bir əzəmətə malik olmasını ifadə etmişdir. Türklərlə farsların adət-ənənələri arasındakı fərqləri də otaya qoyan Turançılığın ideoloqu bildiridi ki, Qacarlarda yaşayan türklərin böyük qismi də məhz Turana bağlı Azərbaycan türkləridir. Əli bəy Hüseynzadə “Füyuzat” jurnalında “İran-Turan” məsələsinə aydınlıq gətirmək üçün yazırdı ki, Firdovsinin “Şahnamə”də “İran”ın tarixi və “İran”ı idarə edən sülalələrlə bağlı bəhs etdiyi əfsanələr qədim hind hekayələrindən götürülmüşdür: “Bu hekayələrin nəhayət, Hindistandan uzaqlaşdırılan Zərdüşt tərəfindən İrana gətirildiyi zənn olunuyor. Çünki Pişdadiyan əsatiri hökmdarlarının adları daha əvvəl qədim hind tarixində keçiyor”.[440]

Hüseynzadə bu bilgini tanınmış Türk alimi Şəmsəddin Saminin “Qamusi-Elam” əsərindən götürmüşdür. Samiyə görə Zərdüşt brəhmənlərin dinindən ayırılıb yeni məzhəb icad etdiyindən, vətənindən uzaqlaşdırılmış və o, İrana gəlmiş şah Gəştasib tərəfindən himayə olunmuşdur. İranda yaşayan Zərdüşt qədim hind əsatirlərini

[439] Turan Azər. Əli bəy Hüseynzadə (həyatı, mübarizəsi, yaradıcılığı və şəcərəsi). Bakı, “Letterpress”, 2014, s.96-97

[440] Hüseynzadə Ə. Qırımızı qaranlıqlar içində yaşıl işıqlar. Bakı: Azərnəşr, 1996,s.111

(“Cəmşid”, “Zöhhak”, “Firudin” və b.) “iranlı”lara öyrətmiş, bu əsatirlər Zərdüştün tarixi kitabı “Zənd Avesta”da da əks olunmuşdur.[441] Deməli, Ş.Sami kimi Ə.Hüseynzadə də zərdüştiliyi birmənalı şəkildə Hind-İran, Hind-Avropa mədəniyyətinə aid etmişdir. O, “Siyasəti-Fürusət” əsərində isə yazırdı ki, Mənuçöhr, Nuzər və Əfrasiyab (Astiyaq) Turan ya da Midiya padşahları olduqları halda, yalnız Kirlər, Daralar, Kambizlər İran hökmdarları olublar.[442]

Bütün bunlarla yanaşı, o da, digər Türk aydınları kimi qavram olaraq bu ölkədən bəhs edərkən Qacarlar, Əfşarlar, Səfəvilər, Səlcuqlarla yanaşı, onlara sinonim olaraq “İran”, “İran milləti”, “iranlı”, “İran tarixi” anlayışlarından da istifadə etmişdir. Həmin dövrün təbliğatının nəticəsi olaraq, digər aydınlarımız kimi bu anlayışlardan istifadə edən turançılığın ideoloqu, eyni zamanda bir Türk aydını olaraq “İran”a, “İran millət”inə olan sevgisinə aydınlıq gətirməyə çalışmışdır: “Bizim kimi ümum sair türklərin İrana olan məhəbbəti İranın şimalən həm türk, həm müsəlman, cənubən də ancaq müsəlman bulunduğu üçündür, yoxsa sadə farslıq üçün deyildir. İran farsları ilə bərabər bədəni-ümumi İslamda bir üzv bulunduqca bizim ona riayətimiz bir kamaldır. Lakin farslar İranı özləri ilə bərabər vücudi-İslamdən ayrı bir şey hesab etməyə və məzahibi-İslamiyyənin heç birinə qənaət etməyərək, yenidən Zərdüştü “təqdisə” və mədəniyyətini əhyaya qalxışdıqca bizim onlarla heç bir əlaqəmiz olamaz. **“Füyuzat”ın tutduğu yol türklük, müsəlmanlıq və avropalılıqdır.** Türk hissiyyatı ilə mütəhəssis, İslam dini ilə mütədəyyin və Avropa mədəniyyəti-hazirəsilə mütəməddin olmaqdır. Yoxsa farslaşmaq, Zərdüştün sönmüş mədəniyyəti ilə mədəniləşmək deyildir. Şəhərimizdə farsi lisanında çıxaraq üstü örtülü bir Şərq bürokratiyası qoxusu nəşr edən “Həqayiq” məcmuəsi “Həblülmətin” cərideyi-mötəbərəsindən ibrət alıb, anlamalı idi ki, farslığın, fars lisanının, fars əfkarının meydani-ictahidi İranın cənubi ilə, Belucistan və Hindistandır, yoxsa Azərbaycan, Qafqaz, Rusiya və ələlümum Baykal gölündən Afrika səhrayi-kəbirinə qədər imtidad

---

[441] Yenə orada, s.220

[442] Hüseynzadə Əli bəy. Siyasəti-Fürusət. Bakı, Elm, 1994, s.66

edən Türk aləmi-müəzzəmi deyildir".[443]

Birincisi, Hüseynzadənin bu fikirlərindən belə bir nəticə çıxartmaq olar ki, türklərin, Türk aydınlarının "İran"a olan sevgisi "İran"ın quzeyinin türk-müsəlman, güneyindəki farsdillilərin isə müsəlman olmasına görədir. Əgər farsdillilər nə zamansa islamlıqdan imtina edərək zərdüştlüyə dönərlərsə, türklər birmənalı şəkildə onlardan ayrılacaqlar. Başqa sözlə, Hüseynzadə "İran mədəniyyəti" adı altında zərdüştlük maskasına bürünmüş fars şovinistlərinə demək istəyirdi ki, farslarla türkləri bir arada tutan "ortaq vətən" ya da fars mədəniyyət, fars dini (zərdüştlük), fars dili deyil, bu məsələdə əsas rol oynayan İslam dini və İslam mədəniyyətidir. Əgər farslar türklərlə onları birləşdirən əsas bağdan – İslam dini və İslam mədəniyyətindən uzaqlaşıb zərdüştlüyə, fars mədəniyyətinə üz tutmaq niyyətindədirlərsə Türklər onların yoluyla getməyəcəkdir, çünki türklərin öz yolu vardır.[444]

"Atəşi-Zərdüştü heç bir vaxt təqdis edəmiyəcəyiz. Biz Zərdüştə Budda və Konfusi ilə bərabər ancaq hörmət edə bilərız"[445] deyən, Hüseynzadə şiəlik-cəfərilik məzhəbinin də "İran"ın, fars mədəniyyətinin adına çıxılmasına qəti etiraz edirdi. O, yazırdı: "Şimdi, şiə məzhəbini burada zikr etməməkdən istidlal edə bilərəm ki, onu İran ixtiraatındanədd ediyorsan! Lakin yanılyorsan, zikr etdiyin dörd məzhəb (hənəfilik, şafilik, hənbəlilik, maliklik – F.Ə.) ixtiraatdan mədud olamayacağı kimi, şiəlik də nə ixtiradır və nə də İran ixtirasıdır. Haqq bildiyimiz bu beş məzhəbin beşi də islamiyyətin ibtidayi – zühuruna qərib zamanlarda ya çox az sonra övsuq və o vaxt əldə bulunan mənbələrə istinadən ictihad yoluyla təşəkkül etmiş məzhəblərdir. Ona görə də, ixtira deyil, ictihaddır! Onların cümləsi zahirən cüzi ixtilafat ilə bərabər, batinən eyni məqsədə xidmət edirlər. Həblülmətin – İslamdan ayrılmazlar".[446]

İkincisi, Ə.Hüseynzadə farslara xəbərdarlıq edirdi ki, indi

---

[443]Hüseynzadə Ə. Qırmızı qaranlıqlar içində yaşıl işıqlar. Bakı, Azərnəşr,1996, s.180
[444] Yenə orada, s.184
[445] Yenə orada, s.185
[446] Yenə orada, s.184

"İran" adlanan ərazi əsasən iki hissədən ibarətdir, onun da yalnız cənubunda farslıq, fars dili, fars mədəniyyəti hakimdir. "İran"ın böyük bir hissəsində, o cümlədən Azərbaycanda, Xorasanda isə türklük, Türk dili, Türk mədəniyyəti mövcuddur ki, bu da, Baykaldan başlayıb Afrika səhralarına qədər geniş bir ərazidə hökm sürən Türk aləminin (Turanın) ayrılmaz bir hissəsidir. O, yazırdı: "Qövmiyyət bəhsinə gəlincə məlumdur ki, Rusiya əhalisinin bir qismi türklərdən ibarət olduğu kimi, İranın da bütün cəhəti-şimaliyyəsi bilxassə Azərbaycan qitəsi türkdür. İranın əyaləti-cənubiyyəsinə gəlincə burada sakin olan farsların adət, əxlaq və hətta lisanca türklərdən o qədər fərqləri yoxdur, hətta lisanca diyoruz, çünki hər iki dil müsəlmanlaşdığı üçün bir-birlərinə o qədər təqərrüb etmişdir ki, cüzi bir himmətlə fars türkün, türk farsın lisanını anlaya bilir, çünki fərq lüğətlərdə olmayıb ancaq qəvaiddədir... İran farslarının qanı türk və fars qanlarından ibarət olduğu kibi İran türklərinin də qanı eyni-ənasirdən mürəkkəbdir".[447]

Ə.Hüseynzadənin "ortaq din"dən sonra müəyyən qədər "ortaq yurd", ortaq "dil", "ortaq qan" məsələsi baxımından türklərlə farslar arasında bərabərlik işarəsi qoyması da təsadüfi deyildi. Başqa sözlə, "İran" adlandırılan bu ölkəyə farslardan çox türklərin haqlarının olduğunu, ancaq qaynayıb qarışma nəticəsində "iranlı" adını almış hər iki xalqın "İran"da eyni hüquqlara malik olmasına işarə edirdi. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, Qacarlar süquta uğrayana qədər "İran" nə qədər farslara aid anlayış idisə, Turan da bir o qədər türklərin idi. Üstəlik, ötən min il ərzində də Türklər yalnız Turanda deyil, farsdillilərin yaşadığı kiçik "Farsistan"da da hakim qüvvə idilər. Bu baxımdan indi "İran" adlanan ölkədə bəzi dövrlərdə yazı dili türkcə ilə yanaşı, farsca olsa da, bütün hallarda dövlət idarəetməsi türklərin əlində olmuşdu. Bir Türk dövləti zamanı gələndə gedər, digər Türk dövləti onun sülaləsinin yerində Turanda, o cümlədən kiçik "Farsistan"da hakim olurdu. Bunu, artıq Türk olmayan bütün millətlər, etnoslar o cümlədən irandillilər də təbii hal kimi qəbul etmişdilər.

---

[447]Yenə orada,s.62-63

**Turançılıq fəlsəfəsi və Qərb mədəniyyəti.** Beləliklə, Ə.Hüseynzadənin siyasi-fəlsəfi ideyaları dörd xəttdə yekunlaşmışdır. Hər halda o, Çarlıq Rusiyası dumasındakı müsəlman millət vəkillərinə üzünü tutaraq onlardan aşağıdakılara əməl etməyi tövsiyyə etmişdir. O, yazırdı: "**Biz İnsanız:** Binaənəleyh hər şeydən əqdəm bütün Duma ilə bərabər bilafərq məzhəb və qövmiyyət insanlığı, insanlıq hüququnu müdafiə ediniz. Məzlum olan sinifləri zalım siniflərin təcavüzatından azad etməyə çalışınız, müsavati-tamamə istəyiniz. Yersiz, yurdsuz əkinçilərimizə, kəndlilərimizə yer-torpaq tələb edin, füqərayi-kasibəmizin şəraiti-təəyyüşünü təshihə çalışınız. **Biz Qafqazlıyız:** Qafqaz əhlinin öz ümuri-idarəsinə özü baxa bilmək üçün lazım gələn muxtariyyət tələb ediniz (Yeri gəlmişkən, o, yazırdı ki, bütün Qafqaz xalqları, o cümlədən türklər əsarəti sevməyən, qul olmaqdansa köç edib azadlığa üstünlük verənlər, hətta əsir düşdükləri halda ağa olmağa bacaranlardırlar. Ancaq onların arasında Qafqaz türklərinin yeri ayrıdır: "Məncə Qafqaz türkləri türklərin ən hürriyyətpərəstidir"[448]). **Biz Müsəlmanız:** Ona görə öz əqayidi-diniyyəmizdə hürriyyəti-vicdanımıza hər nə lazımsa onu istəyiniz, onu tələb ediniz. **Biz Türküz:** Dilimizin, lisanımızın tərəqqisinə mane olan hər növ sədlərin, divarların yıxılmasına, rəf olunmasına qeyrət ediniz!..".[449]

Ə.Hüseynzadənin türklərə çatdırmaq istədiyi digər bir fikir isə ondan ibarət idi ki, bu ideyaların mahiyyəti ilə ziddiyyət təşkil etməyən Avropa mədəniyyətinin təbliği də vacibdir. Ancaq Qərb mədəniyyətini mənimsəmək heç də müsəlmanların, türklərin avropalaşması, avropalıları təqlid etməsi anlamına gəlməməlidir: "Türkün irtidad edib firəngləşməsi firənglərin ya mürtədlərin tərəqqisi deməkdir, yoxsa türk, ya müsəlman tərəqqisi demək deyildir!".[450]

Yeri gəlmişkən, Hüseynzadə təzadlı görünsə də, bir müddət Osmanlı sultanı II Əbdülhəmidi müstəbid, despot adlandırıb ona qarşı müxalif olan "Gənc türkləri" müdafiə etməklə yanaşı, ancaq

---

[448] Hüseynzadə Ə. Türklər kimdir və kimlərdən ibarətdir? Bakı, Mütərcim, 1997,s.197
[449] Yenə orada, s.186
[450] Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007, s.35

sonuncuların həddən ziyadə ingilis "sevdası"nı da doğru saymamışdır: "Sultan Həmid isə az qalır ki, yeni türklərin fərqadi-canxəraşından bizar olub, ingilis kralının nəzdinə qaçsın. Yeni türklər isə zatən fələyin əlindən həp ingilis ölkəsinə qaçıyorlar... həp ingilis, ingilis, ingilis! Bir deyən yoxdur ki, canım, bu nə ingilisbazlıqdır? Aləmi-İslamın qoca bir bir nisfini qanlı bir biftek kimi bəl edən bu ingilislərin nə olduqları halə anlaşılmadımı?".[451] O, yazırdı: "Şimdi bizə diyorlar ki, madam ki, ingilislər, firənglər, filanlar böylə imişlər, nə üçün siz də Səid paşalar, Salarüddövlələr kimi "Füyuzat"ınızda ingilislərə, firənglərə müraciət ediyorsunuz. Ortaya gah Hötenin "Faust"unu, gah Şekspirin "Yuli Sezarı"nı, gah nə bilim hankı avropalının hankı əsərini çıxarıyorsunuz! "Avropalılaşalım", "firəngləşəlim" deyirsiniz?! Lakin ey qare, müraciətdən müraciətə fərq vardır. Biz avropalıların ədəbiyyatlarına, sənayelərinə, ülum və maariflərinə, kəşfiyyat və ixtiraatlarına müraciət etmək istəyiriz, özlərinə deyil. Biz istəyiriz ki, İslam ölkəsinə onların beyinləri, dimağları girsin, boğazları, mədələri girməsin. Biz istəriz ki, ölkəmiz onların beyinlərini həzm etsin. Yoxsa, mədələrində həzm olunmasın".[452]

O, yazırdı ki, bir gün qərblilərin mədəniyyət adı altında şərqlilərin başına açıdğı oyunlara görə cavab verəcəklərinə, yəni şərqlilərin sürətlə tərəqqiyə başlayıb avropalıların özlərindən öyrəndiyi texnologiya sayəsində onları məğlub duruma gətirəcəklərinə heç də az ümid etmir: "Ah, o günlər! O günləri Şərq aləmi qəribən görəcəkmidir? Görərsə, əminəm ki, o cəhənnəm kənarına gətirə bildikləri hərifləri hər halda əfv edər. Heç bir vaxt cəhənnəmə atmaz. Bəlkə özlərini də, onları da cəhənnəm əzabından xilas ilə bütün aləmə həqiqi bir sülh və asayiş təmin edər. İttihad etməliyiz, ittihad. İttihada doğru tərəqqi etməliyiz! İttihad və tərəqqi edərsək, o günləri də görəriz. Avropanın kisveyi-mədəniyyətinə bürünən bir tağım vəhşi həriflərinə "Qələt etdim", "Tövbə etdim, bir daha yapmam" da dedirtdiriz! Lakin o günlər gəlincəyə qədər həriflərin mədəniyyət naminə etmədikləri qəddarlıq qalmayacaqdır. Çünki haqq

[451] Hüseynzadə Ə. Qırmızı qaranlıqlar içində yaşıl işıqlar. Bakı, Azərnəşr,1996, s.190
[452] Yenə orada, s.190

qüvətlinindir".[453] O, yazırdı: "...İslam arasında təfriqə salmaq üçün avropalıların əlində daha bir vasitə qalıyor ki, o da Şərq bürokratiyası ilə hökuməti-mütləqələridir. Avropa diplomatları Şərqdə mütləqiyyətin bəqasını arzu ediyorlar. Çünki əvvəla, bir qaç kişidən mürəkkəb idareyi-keyfiyyə heyətini hər zaman qolaylıqla əldə etmək və çaldıqları düdüklə istədikləri kimi oynatmaq mümkündür. Saniyən, idareyi-mütləqədə millət ilə hökumət yekdigərindən təbaüd etdiyindən açıq qalan məsafə hər növ fitnə və fəsada müsaid bir meydan oluyor".[454]

Türk bilgəmizə görə İslam aləmi tərəqqi edəndə də, etməyəndə də, müsəlman arasında birlik olanda da, olmayanda da Avropa tərəfindən daim tənqid olunub: "İttihad və ittifaq istəsək də, şikayət edərlər, nifaq və şiqaqa düçar olsaq da, şikayət edərlər! İttifaqımız bunlar üçün bir təhlükə, nifaqımız yenə təhlükə. İttifaq etsək "panislamizm" adı qoyarlar".[455] Belə anlaşılır ki, avropalıların xoşuna getmək üçün ya məhv olmaq, ya da onların köləsi olmaq lazımdır. O, yazırdı: "Nə etməli? Ya boynumuza bir zənciri-əsarət salmalı! Zəncirin bir ucunu da əllərinə verməli, yaxud məhvü nabüd olmalı, vəssalam!.. Üç-dörd yüz milyon xalq ya əsarətdə, ya məhviyyətdə!.. Başqa heç nə!..".[456]

Bununla da, Ə.Hüseynzadə avropalaşmaq dedikdə, onun elm və texnologiyasını qəbulu etsə də, əxlaqi-mənəvi mahiyyətini qəbul etməmişdir. Başqa sözlə, o, yeniləşməyi zahirən Qərb mədəniyyəti, mahiyyət baxımdan İslam-Türk dəyərləri çərçivəsində görmüşdür.

Hər halda, Hüseynzadə Qərb mədəniyyətini mənimsəməyi tövsiyə etməklə yanaşı, onların əsil niyyətlərini yaxşı bilirdi. Xüsusilə də, avropalıların aşkar və gizlində dəstəklədiyi mütərəqqi hadisə kimi görünən, "əlifba islahatı" (ilk baxışda mütərəqqi mahiyyət daşıyan ərəb əlifbasında ya dəyişikliklərin edilməsi, ya da latın əlifbasına keçirilməsi Türk xalqlarını parçalamağa yönəlmişdir), "din islahatı" ideyaları altında əslində əsasən İslam və Türk xalqlarını parçalamağa yönəlmişdir. Bu səbəbdəndir ki, M.F.Axundzadənin, M.A.Şahtaxtlının "əlifba

[453]Yenə orada, s.188-189
[454] Yenə orada, s.200
[455] Hüseynzadə Ə. Türklər kimdir və kimlərdən ibarətdir? Bakı, Mütərcim, 1997,s.159
[456] Yenə orada, s.160

və din islahatları", Mirzə Kazım bəyin "dil islahatı" Avropa-Rusiya alimləri tərəfindən rəğbətlə qarşılanmış, onlara lazımı dəstəklər verilmişdir. Hüseynzadə bu "islahatlar"ın antislam, antitürk mahiyyətini görərək bildirmişdir ki, "əlifba islahatı"nın (Buna "din islahatı"nı da əlavə etmək lazımdır. Sadəcə, o dövrdə Axundzadənin antislam ruhlu "Kəmalüdövlə məktubları" hamı kimi ona da məlum deyildi) tərəfdarlarının (Axundzadə, Şahtaxtlı və b.) Tiflisdən bunu bəyan etmələri çox düşündürücüdür: "Üç yüz milyon İslamın əlifbasının altmış-yetmiş milyon türkün imlasını bir hökmi-qaraquşilə türkün, İslamın mərkəzindən uzaq olan yuvalarından birdən dəyişmək istəyirlər! Halbuki, böylə mühüm bir əmr üçün kəndilərində lazım gələn məlumatdan əsər belə yox! Türkün imlasını islahı üçün deyil, sərf və nəhvi mükəmməl bilmək, bəlkə bütün türklərin tarixinə, ədəbiyyatına, etnoqrafiyasına, fonologiyasına haqqı ilə aşina bulunmaq tələb edər".[457] O, xeyli dərəcədə haqlı idi ki, ortaq türkcədən ayrı Azərbaycan türkcəsinin inkişafında, əlifba islahatı məsələsində əvvəlcə Çarlıq, sonra Sovet Rusiyasının maraqlı və icraçı olmaları təsadüfi olmamışdır. Hər iki halda məqsəd Quzey Azərbaycanı Türk dünyasından, xüsusilə Güney Azərbaycan və Türkiyə türklərindən ayırmaq idi. Ona görə də Hüseynzadənin vaxtında ruslaşdırmaq, qərbliləşdirmək siyasətinə qarşı irəli sürdüyü "türkçülük" ideyasına haqq qazandırmamaq mümkün deyil.

Y.Akçuraya görə Ə.Hüseynzadə "Qəzetimizin məsləki" məqaləsində deyil, "Bizə hansı elmlər lazımdır?" mövzusu ətrafında gedən mübahisələr əsasında yazdığı məqaləsində ilk dəfə, tərəqqipərvər islamçılığın və türkçülüyün əsasını təşkil edən "üçlü" (islamlaşma, türkləşmə və avropalaşma) düstura üz tutmuşdur; bu "üçlü" düstur da çox keçmədən Türk aləminin hər tərəfinə yayılmış, xüsusilə Osmanlı Türkiyəsində Z.Gökalp və başqaları tərəfindən dəstəklənmişdir.[458] Hilmi Ziya Ülken yazır ki, Hüseynzadənin bu "üçlü" görüşü daha öncə, bir az bəlirsiz olaraq Ali Suavi tərəfindən irəli sürülüb müdafiə edilmişdir: "Fəqət Ali Suavi, hənüz Türkçülüyün oyanmadığı və Namiq Kamalın Osmanlı-İslam

---

[457] Hüseynzadə Ə. Seçilmiş əsərləri. İki ciddə II cild. Bakı, Çaşıoğlu, 2008, s.360

[458] Ülken Hilmi Ziya. Türkiyede Çağdaş Düşünce Tarihi. İstanbul. Ülken. 2013, s.285

görüşünün hakim olduğu bir dövrdə yaşadığı üçün fikirləri unutulmuşdu. Əli bəy Hüseynzadənin təklifi tam zamanındaydı”.[459]

Bu “üçlü” düstur istər Ali Suavi, istərsə də Cəmaləddin Əfqani tərəfindən bu və ya digər tərəfindən toxunulsa da, ancaq onun bu formada orataya qoyulması Ə.Hüseynzadə tərəfindən baş vermişdi. Bu “üçlü” düstur da sonralar yalnız Türkiyə türklüyü və Azərbaycan türklüyü deyil, bütövlükdə Türk dünyasında mühüm rol oynamışdır. Hər halda Hüseynzadə 1900-1910-cu illərdə bu “üçlü” düsturu irəli sürərkən konkret nə Azərbaycan və Azərbaycan türkçülüyünü, nə də Türkiyə və Türkiyə türkçülüyünü nəzərdə tutmuşdur. O, həmin dövrdə nəzəri-fəlsəfi yönlü “üçlü” düsturunu bütün Türk-İslam dünyası üçün irəli sürmüş, ondan sonralar bütün Türk xalqları, o cümlədən Azərbaycan türkləri (M.Ə.Rəsulzadə və b.), Türkiyə türkləri (Z.Gökalp və b.) və başqa Türk xalqları eyni dərəcədə yararlanmışdır.

**Osmanlı türkçülüyü: siyasi-ideoloji və mənəvi-mədəni.** Hüseynzadə 1900-1910-cu illərdə milli və müasir ruhlu islamçılıqdan çıxış etsə də, bunun hədəflərinin qeyri-müəyyənliyini dərk etmiş və onunla müqayisədə reallığa daha yaxın olan “osmanlı mərkəzli türkçülük” ideyasını irəli sürmüşdü. Hüseynzadə bütün müsəlmanların (ərəb, fars, türk və b.) “İslam birliyi”nin mümkün olmadığını yaxşı anladığı üçün, siyasi-ideoloji mənada diqqətini “Türk-İslam” birliyinə əsaslanan “Osmanlı türkçülüyü”nə yönəltmişdir. Bu isə, müəyyən qədər bütün türklərin Turan dövlətində (turançılıq-“panturanizm”) birləşməsi ideyası ilə səsləşirdi. Bu baxımdan Hüseynzadənin “Osmanlı mərkəzli türkçülüyü-turançılığı” müdafiə etməsində iki əsas faktor: 1) siyasi-ideoloji; 2) mənəvi-mədəni türkçülük mühüm rol oynamışdır. Akçuranın təbrincə desək, İstanbulu İslam və Türk dünyasının siyasi-ideoloji mərkəzi kimi görən Hüseynzadə siyasətdə olduğu kimi, dil və ədəbiyyatda da, mərkəzi Osmanlı olmaq üzrə türkçülüyə, yəni osmanlı türkçülüyünə, hətta panturançılığa təkan verən ilk ziyalıdır.[460]

---

[459] Akçura Yusif. Türkçülüyün tarixi. Bakı, Qanun, 2010, s.209

[460] Yenə orada, s.212

Ə.Hüseynzadə siyasi-ideoloji mənada "osmanlı milləti", "osmanlı millətçiliyi"ni deyil, mərkəzi İstanbul olan "osmanlı türkçülüyü"nü müdafiə etmişdir. "Xüsusən "Füyuzat"da nəşr olunan məqalələrinin məzmun və biçimindən Hüseynzadə Əli bəyin türk, türkçü, hətta Osmanlıçı olduğuna dərhal qərar verilir. Bütün türklər arasında Osmanlı türkcəsinin yayılmasını, bütün türklərin ədəbi dilinin Osmanlı türkcəsi olmasını istəyir və özü yazılarını olduqca təmiz Osmanlı ədəbi türkcəsi ilə, o zamanlar İstanbulda mötəbər yeni ədəbiyyatı cədidə üslubu ilə yazır. Siyasi cəhətdən Osmanlı dövlətini, Osmanlı türklüyünü müstəqil türklüyün nüvəsi sayır. Bu baxımdan, bütün türkülük məsələsində görüşü, "Üç tərzi-siyasət"in türkçülük fikrinə yaxın deməkdir".[461]

Onun türkçülüyün siyasi-ideoloji nüvəsi kimi Osmanlını görməsinə əsas səbəb o idi ki, digər Türk dövləti Qacarlar 20-ci əsrin əvvəllərində ingilislərin və rusların yarımvasalı olmaqla yanaşı, xeyli dərəcədə irançılıq adı altında farslaşdırılmış, eyni zamanda Quzey Azərbaycan, Tatarıstan, Başqırdıstan, Krım, Türküstan və başqaları isə Çarlıq Rusiyasının əsarəti altında idi. Bu anlamda Hüseynzadə haqlı olaraq hesab edirdi ki, yalnız siyasi və hüquqi cəhətdən müstəqil olan Türk dövləti türkçülüyü inkişaf etdirərək başqa Türk ellərini də öz ətrafında birləşdirə bilər. Onun fikrincə, yaxın zamanda isə Türk-İslam dünyasının oyanışı, inkişafı və yüksəlməsi Osmanlı dövləti ilə bağlı idi. O, inanırdı ki, məhz Osmanlı türkçülüyü bütün türklər üçün siyasi-ideoloji güc mərkəzinə çevrilərsə bundan Çarlığın əsarəti altındakı Rusiya türkləri, o cümlədən Azərbaycan türkləri də qazanmış olacaqlar. Bu baxımdan müstəqil siyasi-ideoloji baxımdan daha çox təşkilatlanmış Osmanlı mərkəzli türkçülük bütün Türk milliyyətləri üçün mühüm rol oynaya bilər. Xüsusilə də, o, türkçülüyü ötən 60-70 il ərzində Qafqazda çar Rusiyasının ruslaşdırma, xristianlaşıdrma o cümlədən, Qacarlarda son dövrlərdə güclənən farslaşdırmaya qarşı irəli sürmüşdür.

Bu bir daha göstərir ki, Türk dünyasının qurtuluşu üçün irəli sürülən milli-dini birlik (islamlıq və türklüyün vəhdətinə əsaslanan)

---

[461] Yenə orada, s.210

ideyası baxımından Ə.Ağaoğlu Osmanlı mərkəzli islamçılığa, Y.Akçura və Ə.Hüseynzadə Osmanlı mərkəzli türkçülüyə vermişdir. Bunu təsdiq edən Y.Akçuraya görə Hüseynzadə hətta, Azərbaycan türkləri arasında "mədəni və siyasi türkçülük hərəkatı"nın ilk yayıcısı olmuşdur.[462] Əlbəttə, Hüseynzadə yeni dövrdə yalnız Quzey Azərbaycanda deyil, bütövlükdə Çarlıq Rusiyası və Osmanlıda da, "mədəni və siyasi türkçülük hərəkatı"nın ilk yayıcısıdır.

Hüseynzadənin Osmanlı mərkəzli türkçülüyü bütün Türk-İslam dünyasının oyanışı və birliyi kimi görməsinə başlıca amil, başqa Türk xalqlarından fərqli olaraq onların siyasi müstəqilliyə və gücə sahib olmaları idi. O hesab etmişdir ki, məhz Osmanlı mərkəzli türkçülük bütün Türk xalqları üçün bir güc və ideoloji mərkəzə çevirildiyi təqdirdə başqa Türk elləri, uğur qazana bilərlər. Bu mənada bəzi müəlliflərin Ə.Hüseynzadə Osmanlı mərkəzli türkçülüklə digər Türk xalqlarını osmanlıların içərisində əritməyə çalışmışdır, fikri ilə razlaşmırıq.[463] Ə.Hüseynzadənin "Osmanlı türkçülüyü"nü bütün türklüyün nüvəsi kimi götürməsi digər Türk xalqlarında, o cümlədən Azərbaycan türklərində mövcud olan türkçülüyün ziddiyyəti kimi deyil, əksinə uzlaşdırıcı amili kimi baxmaq lazımdır. M.Ə.Rəsulzadə tamamilə doğru yazırdı ki, həmin dövrdə Ə.Hüseynzadə, Ə.Ağaoğlu və onların həmfikirlərinin irəli sürdükləri Osmanlı mərkəzli Türk birliyi ideyası ən azından müstəmləkə altına düşmüş ayrı-ayrı Türk milliyyətlərində müstəqillik eşqi yaradaraq onları inqilabiləşdirmişdi: "Ancaq onlar ayrı-ayrılıqda qarşılarındakı yağıların çox böyük güclərinin qorxusundan azadlıqdan, müstəqillikdən söz belə açamazdılar. Bununla belə, onların kiçik ellər yox, ünlü tarixi, eləcə də gələcəyi olan çoxmilyonlu ulusun-millətin üzvləri olmalarını anlamaları, doğal-təbii olaraq ümidlərini artırıb, yüzilin yağısı ilə dönmədən döyüşməyə çağırırdı".[464]

Ə,Hüseynzadə ayrı-ayrı Türk dövlətlərinin yaranması ideyasından çox vahid Türk dövləti ideyasını müdafiə etsə də, onun

---

[462] Yenə orada, s.203-204
[463] Balayev A. Məmməd Əmin Rəsulzadə (1884-1955). Bakı, "Adiloğlu", 2011, s.27
[464] Rəsulzadə M.Ə. Panturanizm. Qafqaz sorunu. Bakı, Təknur, 2012, s.52

fikirləri Osmanlıdan kənardakı Türk milliyyətlərini oyadırdı. O, dövrün reallıqlarından çıxış edərək yeganə müstəqil Türk dövləti olan Osmanlının timsalında türkçülüyü gücləndirməyə və möhkəmləndirməyə çalışır, bu yolda digər Türk milliyyətlərinin ona dəstək verməsinin vacibliyini vurğulayırdı. Bu baxımdan o hesab edirdi ki, Çarlıq Rusiyasının əsarəti altında olan türk-tatar xalqları da, ilk növbədə Osmanlı türkçülüyünü müdafiə etməlidirlər. Zənnimizcə, 1918-i il Mudros müaviləsinə, yəni Osmanlının məğlubiyyətinə qədər, türkçülük nəzəriyyəsi açısından bu mülahizə həmin dövr üçün, real və gerçəkçi baxış idi. Çünki son əsrlərdə qarışdırdıqları islamçılıqla türkçülyü bir-birindən ayırmağa başlayan milli mütəfəkkirlər, o cümlədən Ə.Hüseynzadə üçün türkçülük ruhunun parçalanması, yəni ayrı-ayrı milli-məhəlli türkçülüyə bölünməsi çox yad və uzaq bir hiss idi. Bu məsələləri çox doğru dəyərləndirən milli ideoloq M.Ə.Rəsulzadə yazırdı: "Panislamizmdən qurtulan Türk ictimai-siyasi düşüncəsi birdən-birə indi çatdığı gerçək milli ideyaya o anda çata bilməzdi. Bu psixoloji baxımdan aydındır. Müharibə və ümumi təhlükə şəraitində İslam birliyi kimi böyük və əhatəli şüardan imtina edən millətçilər onun əvəzinə eyni təsir gücünə malik bir şüar irəli sürməli idilər. Bu, ancaq milli birlik ola bilərdi: "Din birliyi çağı keçdi, indi tarixi uluslar-millətlər irəli aparır. Yaşasın, Dunaydan Altayadək Türk uluslarının birliyi!"".[465]

1918-ci ildə Osmanlı hökuməti tərəfindən Ə.Ağaoğlu ilə birlikdə milli dövlət qurulması məsələsində Cümhuriyyətin ideoloqları ilə fikir mübadiləsi üçün Azərbaycana gələn Hüseynzadə hələ də ümidini vahid Türk dövlətinin olmasından üzməmişdir. Bizcə, onun Cümhuriyyət səfərindən sonra yazdığı məqalədə buna sətiraltı işarələr vardır: "Hilali-Əhməriyənin bayrağı bizimkinin eyni olan fəqət al rəngli milli bayrağında bəyaz hilal qarşısında beş şualı yerinə səkkiz şüualı bir yıldız bulunan məmləkətdən, Qafqasiya Azərbaycanından, Azərbaycan Cümhuriyyətindən, daha doğrusu Qafqasiya Türk dövlətindən bir az bəhs etmək istərəm".[466] O, yazırdı ki,

[465] Yenə orada, s.51-52
[466] Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. İki ciddə II cild. Bakı, Çaşıoğlu, 2008,s.366

Azərbaycan Türk dövlətini çiyin-çiyinə qoruyan Osmanlı və Azərbaycan türkləri bir-birlərini mükəmməl anlayırlar: "…Çünki Azərbaycan avam xalqı ilə Anadolu köylüsünün dili lap bir-birinin eynidir! Bir-birini anlamayanlarsa rus məktəblərində yetişib lisanları ruslaşmış olan Azərbaycan oxumuşları və İstanbulun seçilmişlər ailəsinə məxsus istilahlar işlədən şəxslərdir".[467] Azərbaycan və Osmanlı türklərinin bir-birinə qovuşmasını tarixi hadisə, təbii bir cərəyan kimi qəbul edən Hüseynzadənin fikrincə, hər iki Türk xalqının bir-birinə qaynayıb-qarışması ilə vahid Türk milləti müasirləşmiş, güclənmiş və bütövlşəmiş olacaqdır. Belə ki, imperializm, nasiyonalizm və sosializm cərəyanlarının faciəli fəaliyyət mərkəzinə çevrilən Azərbaycan, Azərbaycan türkləri bu müxtəlif cərəyanların altında nə edəcəyini bilmədi, mühakiməsini itirdi. Ancaq Osmanlı türklərinin onların imdadına çatması ilə yalnız Azərbaycan deyil, həm də Türkiyə türkləri də xilas oldu.[468]

O, Azərbaycan türkçülüyünün gerçəkliyə çevrilərək onun əsasında siyasi və hüquqi cəhətdən müstəqil bir Türk Cümhuriyyətinin yarandığını görərək, iki müstəqil Türk dövlətindən (Azərbaycan və Osmanlıdan) və onların bir-birinə dayaq olmasından bəhs etmişdir. Tadeuş Svyatovski yazır ki, həmin dövrdə Ə.Hüseynzadə Güney Qafqaz bölgəsi üçün üç seçimdən: 1) Qafqaz Federasiyasından; 2) müstəqil türk, gürcü və erməni dövlətlərindən; və 3) Qafqaz türklərinin Osmanlıya birləşməsindən bəhs etmişdir.[469] Bizcə, o, ilk vaxtlar daha çox ümidini vahid Türk dövlətinin qurulacağına bağlasa da, ancaq həm Cümhuriyyət liderlərinin "müstəqilliyə" bağlılıq düşüncələrindən, həm də Osmanlının zəifləməsindən dolayı bunun mümkünsüz olduğunu anlamışdı.

ÜmumTürkçülükdən milli-məhəlli türkçülüyə keçid isə yalnız o zaman baş verdi ki, 1911-1913-cü illərdə Osmanlı əvvəlcə Balkanlarda, daha sonra 1-ci Dünya müharibəsindən məğlub çıxdı, bununla da, həm türkçülüyün məfkurəvi nüvəsi olmaq, həm də

---

[467] Yenə orada, s.367

[468] Yenə orada, s.367

[469] Свйатоховский Т. Руский Азярбайджан 1905-1920 гг. "Хазар" жур., 1990,№1.

vahid Türk dövlətinə çevrilmək gücünü itirmiş oldu. Məhz bu hal türkçülükdə yeni bir dönəmin başlanğıcı oldu və bir çox türkçülər siyasi "romantik-özəkçilik" türkçülükdən (Türk birliyi-vahid Turan dövləti) xeyli dərəcədə uzaqlaşaraq, real milli-məhəlli türkçülüyə (müstəqil Türk dövlətlərinə) meyil göstərdilər. Bizcə, bütün bunlar Ə.Hüseynzadə üçün son dərəcədə ağrılı olmuşdur.

"Osmanlı türkçülüyü"nün ikinci amilini təşkil edən mədəni-mənəvi türkçülüyə gəlincə, öncə qeyd edək ki, 1900-1910-cu illərdə Azərbaycanda dil və ədəbiyyat məsələsi ilə bağlı iki istiqamət mövcud idi. "Həyat", "Füyuzat", "Şəlalə" və digər qəzet-jurnallarda Hüseynzadə başda olmaqla Əhməd Kamal, İskəndər bəy Məlikov və başqaları osmanlı ədəbi dil siyasəti əsasında bütün türklərin bir araya gəlməsi və vahid ideya ətrafında birləşməsi üçün ortaq dilin vacibliyini irəli sürür və bütün türklərin ortaq ədəbi dili kimi Osmanlı türkcəsini görürdülər. Onlar deyirdilər ki, ədəbi dil kütləvi ola bilməz, o ancaq oxumuşlar, təhsilli adamlar üçündür; buna görə də ədəbi dilin sadələşməsinə çalışmaq lazım deyildir; ədəbi dil nə qədər çətin və ağır olsa, bir o qədər də mötəbər olar. Osmanlı ədəbi dilinin ən tanınmış tərəfdarı Əli bəy Hüseynzadə qeyd edirdi ki, ədəbi dildə yazmağa nə Qafqazdakı türk şivələri, nə də qədim türkcə yaramır. O, dilimizi əcnəbi lüğətlərlə doldurmaq əvəzinə Osmanlının İstanbul şivəsinin ədəbi dil kimi işlədilməsini məqsədəuyğun hesab etmişdir.Hüseynzadə İstanbul şivəsinin ortaq türkcə olmasını əsaslandırmaq üçün yazırdı ki, ayrı-ayrı türk ləhcələrini inkişaf etdirməkdənsə vahid Türk dili üzərində düşünmək lazımdır. Onun fikrincə, əlifba və dil ilə bağlı islahatçı ideyaların, ancaq Qafqazda, xüsusilə Tiflisdə M.F.Axundzadə, M.Rza, M.Şahtaxtlı və başqaları tərəfindən irəli sürülməsi isə düşündürücüdür.[470]

İstər 1900-1920-cu illərdə, istərsə də sonralar bəzi Azərbaycan Türk ziyalıları Hüseynzadəni "Osmanlı türkçülüyü"nü həddən artıq ideallaşdırmasına, xüsusilə dil və ədəbiyyat məsələsində ifrata varmasına görə tənqid etmişlər. Məsələn, tanınmış aydınlarmızdan F.B.Köçərli, C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, A.Şaiq və baş-

---

[470] Hüseynzadə Ə. Seçilmiş əsərləri. İki ciddə II cild. Bakı, Çaşıoğlu, 2008, s.360

qaları hesab edirdilər ki, Azərbaycan Türk ədəbi dilini osmanlılaşdırmaq əvəzinə xalqa yaxınlaşmaq yolunu tutmaq lazımdır.[471] Hətta, Cəlil Məmmədquluzadə yazırdı ki, Ə.Hüseynzadə 1910-cu ildə, yenidən Osmanlıya mühacirət edərkən Tiflisdə onların idarələrinə baş çəkərək, xalqa yaxınlaşmaq yolu Azərbaycan Türk ədəbi dilinin inkişafı uğrunda mübarizə aparan "mollanəsrəddinçi"ləri guya, təqdir etmişdir.[472] Məmmədquluzadəyə inansaq, Hüseynzadə bütün türklərin ortaq ədəbi türkcəsi kimi Osmanlı-Türkiyə türkcəsini (İstanbul şivəsini) görməklə yanaşı, hər bir Türk xalqının öz doğma şivələrini inkişaf etdirmələrini də təqdir etmişdir. Kamal Talıbzadə isə yazır ki, 1926-cı ildə Bakıya gələn Ə.Hüseynzadə keçmişdə olub-keçənlərə nəzər salarkən demişdir: ""Füyuzat" məcmuəsini mən məhdud bir oxucu kütləsi üçün çıxarırdım. Sonralar başa düşdüm ki, bu mənim böyük səhvlərimdən biri olmuşdur. Yüksəlmək üçün öncə aşağılara enmək lazım idi: Ədəbiyyat da belədir! Xalqa enmədikcə yüksəlməz! Əvvəlcə xalqa, kəndliyə, fəhləyə – ümumiyyətlə, böyük kütləyə qədər enmək, sonra bununla bərabər yüksəlməyə çalışmaq lazımdır".[473]Əlbəttə, bütün bunlar nə "Füyuzat"ın, nə də Ə.Hüseynzadənin həmin dövrdəki qiymətini qətiyyən azaltmır. "İstanbul şivəsi"ni çox ideallaşdırmasını nəzərə almasaq, Ə.Hüseynzadə ortaq Türk dilinin yaranması məsələsini irəli sürməkdə tamamilə haqlı idi.

Ə.Hüseynzadə 1920-1940-cı illərdə Türkiyədə yaşadığı mühacirət dövründə də, tutduğu ideya xəttindən (Türkiyə mərkəzli Türk birliyi) demək olar ki, üz döndərməmişdir. Sadəcə, Atatürk Türkiyəsinin Qərb dövlətləri ilə məcburi anlaşması nəticəsində "Türk ocağı"nın, "Türk yurdu"nun fəaliyyətinin məhdudlaşdırılması bir sözlə, türklüyün ancaq Türkiyə çərçivəsində görülüb onun xaricində təbliğatın aparılmasına qadağaların qoyulması Hüseynzadə-

---

471 Məmmədquluzadə Cəlil. Əsərləri. IV cilddə, II cild. Bakı, 2004, s.519; Nemanzadə Ömər Faiq. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2006, s.169; Azərbaycan publisistikası antologiyası. Bakı, "Şərq-Qərb", 2007, s.125

472 Dadaşzadə A.M. Seçilmiş əsərləri. 1-cicild. B: Azərnəşr, 1967, s.250-251

473 Talıbzadə Kamal. İnqilabi-demokratik ədəbi fikrin tribunası // Azərbaycan mətbuat tarixi antologiyası. İki cilddə, 2-ci cild. Bakı, "Elmvətəhsil", 2011, s.118

yə də təsirsiz ötüşməmişdir. Bu dövrdə türkçülüklə bağlı demək olar ki, artıq dəyərli əsərlər yazmayan Hüseynzadənin sadəcə, diqqəti cəlb edən bir neçə məqaləsi, Rəsulzadənin bir kitabına yazdığı rəyi və "Qərbin iki dastanında Türk" əsəridir.

1923-cü ildə M.Ə.Rəsulzadənin Türkiyədə nəşr olunan "Azərbaycan Cümhuriyyəti" kitabına ön söz yazan Hüseynzadənin fikrincə, bu kitab Azərbaycanı, Azərbaycan türklərini tanıtmaq baxımdan qiymətli bir əsərdir: "Çünki mövzusu, siyasi və iqtisadi vəziyyəti ilə beynəlxalq bir əhəmiyyət daşıyan Bakının, Azərbaycanın və dolayısıyla bütün türklüyün müqəddəs və müəzzəz istiqlalı, istiqbalı məsələlərinə təmas edir. Bir xalqın, bir millətin asudə və müsəmmər bir həyata, rifah və səadətə nail ola bilməsi ictimai sinfin beynində necə iqtisadi bir həmrəyliyin olmasını tələb edirsə, eləcə də aləmin, bütün bəşəriyyətin sülh və asayiş nemətlərindən faydalana bilməsi beynəlmiləl münasibətdə ədalət və insaf məfhumlarının hakim və cari olmasilə mümkündür. Beynəlmiləl insaf və ədalətdən doğan ümum dünya sülhü isə Azərbaycanın eyni şəkildə hürriyyət və istiqlalını vacib edir".[474] Milli istiqlaliyyəti əlindən alınmış bir dövlətin təbii haqq və hüquqlarının pozulduğu halda, dünya dövlətlərinin buna göz yummasına təəssüf edən Ə.Hüseynzadə yazırdı ki, ancaq bu istiqlalın mücahidləri, rəhbərləri qüvvətli və səbrli olmalıdırlar.[475] Ona görə Azərbaycan bütün hallarda türklərin yurdudur. O, yazırdı: "Qafqaz silsileyi-cibalının cəhəti-cənubiyyəsində sakin Azərbaycan türkləri şirvanlı, bakılı, qarabağlı, gəncəli, irəvanlı və sairədən ibarətdir (İranın şimal-qərbi səkənəsi də bunlardandır)…".[476] Onun fikrincə, Azərbaycan Türk dili də osmanlı, cığatay şivələrindən daha çox türkcədir, çünki o ərəb-fars təsirinə az məruz qalmışdır.[477]

Ə.Hüseynzadə 1920-1930-cu illərdə isə Türk dilinin saflaşması məsələsinə daha çox diqqət yetirmiş, bu dilin ərəb-fars mənə-

[474] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, s.7-8
[475] Yenə orada, s.7-8
[476] Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007, s.49
[477] Yenə orada, s.44

şəli sözlərdən təmizlənməsinə çalışmışdır. Belə ki, o, bu dövrdə qələmə aldığı yazılarında bəzi sözləri, qədim türkcədə olduğu kimi Tanrını Oğan, peyğəmbəri yalavac, metodu oran, şairi ozan, sazı çoğur-çökür, hökuməti törü kimi ifadə etmişdir. Ziyalının fikrincə, dilin saflaşması, təmizlənməsi məsələsinə ehtiyatla yanaşmaq, bu zaman bəzən inqilabla, bəzən də təkamüllə iş görmək lazımdır. Hüseynzadə bu mənada, Türkiyədə soyadların dəyişilməsi məsələsinə də diqqət yetirmişdir: "İsim məsələsində tərəzinin bir gözündə insanlığımı, millətələrarası təmayüllərimi, qərbçiliyimi, ötəki gözünə türkçülüyümü, turançılığımı qoydum. İncə-incə çəkdim. Gördüm ki, tərəzinin sallantılarından sonra qərbçiliyim ağır gəldi".[478] Deməli, alim son dərəcə turançı, türkçü olmasına baxmayaraq, soyadların dəyişilməsində Qərbin mütərəqqi dəyərlərinin nəzərə alınmasını vacib hesab etmişdir. Onun fikrincə, "oğul", "lı" kimi soyad şəkilçiləri ataya, ailəyə mənsubiyyətlə, nəsilə mənsubiyyəti qarışdırır. Ə.Hüseynzadə daha çox "soy" şəkilçisinə üstünlük verirdi.[479]

Mühacirət dövründə Türkiyədə qələmə aldığı "Qərbin iki dastanında Türk" (1926) əsərində isə Ə.Hüseynzadə italiyan Tokvato Tassonun "Qurtarılmış Qüds" və portegiz Kamoensin "Luziada" mənzum dastanlarında türkün mədəniyyət izini axtarmışdır. Ziyalı bu əsərləri tədqiq edərək, orta əsrlərdə Türk mədəniyyətinin Avropa ədəbiyyatında necə öz əksini tapdığını göstərməyə çalışır. Kamoens "Luziada" mənzum əsərində avropalıları bir-birilə boğuşmaqdansa müsəlman türklərlə qarşı mücadiləyə çağırır. Hüseynzadəyə görə İslama və türklərə yaxından bələd olmayan bir avropalı şairin belə sərt mövqe tutması düşündürücüdür.[480] Onun fikrincə, Kamoensin türklərə qarşı olan bu münasibətinin səbəbi 1) türklərin müsəlman olmaları, 2) türklərin portegizlərlə bir neçə dəfə savaşmaları, 3) ən mühümü, türklərin portegizlərin Şərq ilə, Hind ilə, Hind-Çin ilə ola biləcək münasibətlərinə bir əngəl olmalarıdır.[481]

---

[478] Yenə orada, s.440
[479] Yenə orada, s.442
[480] Yenə orada, s.435
[481] Yenə orada, s.435

Ancaq Kamoensdən fərqli olaraq Tasso İslamı və Türk millətini anlayıb təqdir etmişdir. Tasso türkləri ərəb, yunan və başqa millətlərlə müqayisə edərkən, onları çox yüksək, üstün tutur. Türk qəhrəmanlarından bəhs edərkən avropalı, yəni italiyan şairi olduğu halda, Tassonun Türk mütəfəkkirindən heç bir fərqi yoxdur.[482]

**Dini-fəlsəfi görüşləri.** İlk dövrlərdə Ə.Hüseynzadə islamiyyətdən kənar İslam millətlərinin müstəqil şəkildə öz dövlətlərini yaradaraq yaşaya biləcəklərinə inanmayıb. Bu baxımdan onun fikrincə, yalnız müasir ruhlu islamiyyət bütün İslam millətlərinin xilası ola bilərmiş. Başqa sözlə, yalnız İslam və Qurana əsaslanan bir ideya müsəlman xalqlarına nə isə verə bilər, bunlardan kənarda hər hansı bir ideya, o cümlədən millətçilik-nasiyonalizm müsəlman millətləri üçün çıxış yolu ola bilməz. O, yazırdı: "...deyəriz ki, tərəqqi edib, behəqq "zihəyat" bir millət olmaq istərsək, bizə hər şeydən əqdəm İslam bulunmaq, İslam qalmaq əlzəm və bilcəllə məsaiyi-həyatpərəstanə və tərəqqipərvanəmiz ehkami-islamiyyəyə tofiqən icra olunmalıdır. Bizim üçün İslam xaricində nicat yoxdur. Bunu mazidə bütpərəst, ya atəşpərəst olan əcdadımız idrak etdikləri üçün dini-İslamı qəbul və nəşrilə müşərrəf olmuşlar idi".[483]

Ə.Hüseynzadə yaxşı dərk edirdi ki, hədəfi vahid bir İslam dövləti şəklində başa düşülən ifrat islamçılıq gerçəklikdən çox uzaqdır. Burada reallıq odur ki, məzhəbçilik qovğasına, ən çox da sünni və şiə məsələsi son qoyulsun və müsəlman xalqları arasında mədəni birlik ortaya çıxsın. O, yazırdı: "İslam məzhəb xüsusunda sünni və şiə olmaq etibarilə müsənna olub, başlıca iki firqədən ibarətdir, lakin bu cəhətdən fitnə və fəsad çıxarmağın ehtimalı yoxdur; çünki bu firqənin islamlar arasında əhəmiyyəti qalmayıb. Hər iki tərəf üləması ilə təbəələri ittihada doğru mətin addımlar atmaqdadır… İslam cins və qövmiyyət və lisan etibarı ilə müsəlləs olub başlıca türk, fars və ərəbdən ibarətdir. Lakin bu cəhətdən dəxi müsəlman üçün müşkülat ehtimalı yoxdur; zira hər bir müsəlman dəyanətdən lisani-ərəbi bilməyə, sevməyə məcbur olduğu kimi, fars

[482] Yenə orada, s.436

[483] Hüseynzadə Ə. Türklər kimdir və kimlərdən ibarətdir? Bakı, Mütərcim, 1997, s.70

ilə türkün lisanları da bir-birlərinə o qədər təqərrüb etmişdir ki, az bir qeyrətlə bir-iki ayın içində fars türkü, türk də farsı anlaya bilər. Digər tərəfdən, İslam Xristianlığa bənzəməyib, əcnasi-müxtəlifəyi hər zaman bir kütleyi-vahidə kimi birləşdirməyə qabildir".[484]

Eyni zamanda, o, dini mərasim və ayinlərin (ramazan, qurbanlıq, mövlud günü, məhərrəmlik və s.) İslam dininin mahiyyətinə və çağdaş mədəniyyətə uyğun olaraq həyata keçirilməsini vacib hesab etmişdir. Məsələn, o yazırdı ki, mənəvi saflıq ayı olan ramazanda müsəlmanlar ruhən sakitlik tapırlar. Çünki Allah qarşısında maddi və mənəvi borclarını yerinə yetirməyə çalışırlar.[485] Bu anlamda, onun fikrincə, ramazan yalnız müsəlmanların deyil, bütün bəşəriyyət üçün qəbul ediləcək bir bayramdır. Çünki ramazanda insaniyyət, bəşəriyyət, qardaşlıq birinci yer tutur. Eyni zamanda, o, orucluğu hürriyyətlə, azadlıqla müqayisə edirdi. Onun fikrincə, ramazan bayramı elə bir bayramdır başqa dinə tapınanlar arasında da sevgi və məhəbbət yaradır: "Hürriyyət və ramazan! Nə qədər gözəl şeylər! Ona görə də ümid ediyoruz ki, bu sənəki ramazan yalnız müsəlmanların degil, bəlkə başqa millətlərin, musəvi və isəvilərin, yəni ümum qonşularımızın dəxi qəlblərini, fikirlərini hürriyyət sayəsində təmizləməgə, tənvir etməgə müvəffəq oldu".[486]

Hüseynzadə bir çox məqalələrində Məhəmməd peyğəmbərin (s) əxlaqından, onun müdrik kəlamlarından da nümunələr gətirmişdir. Ona görə Allahın rəsulunun yolu ilə getmək istəyən müsəlmanlar arasında sünni, şiə və bu kimi məzhəb ayrılıqları olmamalı, eyni zamanda müsəlmanlar vicdan azadlığına, söz azadlığına, məzhəb azadlığına hörmətlə, dözümlə yanaşmalıdırlar.[487] Hüseynzadəyə görə Peyğəmbər (s) dini elmlərlə dünyəvi elmlərin hər ikisinin öyrənilməsinin zəruriliyndən bəhs etmişdir. O qeyd edirdi ki, Peyğəmbərimizin (s) buyurduğu kimi, riyaziyyat, təbiətşünaslıq, tibb və başqa dünyəvi elmlərin öyrənilməsi vacibdir: "Biz böylə

[484] Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007, s.270
[485] Hüseynzadə Ə. Türklər kimdir və kimlərdən ibarətdir? Bakı, Mütərcim,1997, s.104
[486] Yenə orada, s.104-105
[487] Hüseynzadə Ə. Qırımızı qaranlıqlar içində yaşıl işıqlar. Bakı: Azərnəşr, 1996, s.193-194

zənn ediriz ki, bizə ülumun kaffəsi eyni dərəcədə lazımdır: həm ülumi-diniyyə, şəriyə və ruhaniyyə, həm də riyaziyyat və təbiiyyat kimi ülumi-mücərrədə və cismaniyyə! Mədinəyi-elm olan Həzrəti-Peyğəmbərimizin (s) fikri də böylədir”.[488] Eyni zamanda, o, peyğəmbərimizin dünyəvi elmlərin öyrənilməsi ilə bağlı söylədiyi “Əl-elmü elməni elmül-əbdan, elmül-ədyan” (Bədən-tibb elmi və dinlər elmi elmlərin ən yaxşısıdır) kəlamını da xatırlatmışdır. Hüseynzadə yazırdı: “Bu kəlamda iki nöqtəyə diqqət edilməlidir: nöqtələrdən biri elmül-əbdanın elmül-ədyana təqdim edildiyidir. Bu bir təqdimül-əhəmm ələl-mühümdür!.. Digəri ədyan kəlməsinin cəm siğəsində istemal olunduğudur. Kəlmənin cəm siğəsində istemalından anlaşılıyor ki, sadəcə dini-İslami bilmək kafi deyildir. Sair dinlərə dəxi vüquf peyda etməlidir. O dinlərin nə olduğunu bilməlidir!”.[489]

Beləliklə, Ə.Hüseynzadəyə görə islamiyyətin məqsədi insanlığın istiqbalıdır. Bu baxımdan o, Peyğəmbərin ideyalarının cəmiyyətdə olduğu kimi təqdim olunmasının tərəfdarı idi. Bununla da, Ə.Hüseynzadə İslamda peyğəmbər əxlaqına, peyğəmbər əqidəsinə mühum yer verir və müsəlmanları onu kimi əxlaqlı, əqidəli olmağa dəvət edirdi. Bununla yanaşı, o qeyd edirdi ki, Məhəmməd peyğəmbər (s.) yalnız müsəlmanların həyatında deyil, bəşər cəmiyyətinin tərəqqisində də son dərəcədə böyük rol oynamışdır.

**İslam beynəlmiləlçiliyi, ya da islami sosializm.** Müasir ruhlu islamiyyəti müsəlman-türk xalqlarının nicatı kimi görən, bir növ onu “İslam birliyi”nə zərər verə biləcək ayrıca götürülmüş nasiyonalizmə xüsusilə də, ifrat nasiyonalizmə və kapitalizmə qarşı qoyan Hüseynzadə, sosial-demokrat ideyasında buna yaxın fikirlər olduğu üçün, onu da təqdir etmişdir. O, “Milliyyət və insaniyyət” məqaləsində yazırdı ki, sosial-demokrtlar bütün xalqların çıxış yolunu nasiyonalizmdə-millətçilikdə, milli müxtariyyətlərdə deyil, sosializmdə, internasiyonalizmdə, bir sözlə beynəlmiləliyyətdə gördüyü kimi, müsəlmanların da bunu, islamiyyət daxilində ittihad və ittifaq etməkdə görürlər. Ancaq müsəlmanlar digər dinlərə tapınan xalq-

488 Hüseynzadə Ə. Seçilmiş əsərləri. Bakı, “Şərq-Qərb”, 2007, s.124

489 Yenə orada, s.124-125

lardan fərqli olaraq ittifaq və ittihad etsələr də, etməsələr də "panislamizm" adı altında tənqid olunurlar. Halbuki müsəlman millətlərinin bu gün maarif, təhsil sahələrində görüdükləri işlərində qeyri-adi heç nə yoxdur. O yazırdı: "Biz bir sövqi-təbii ilə naqabil-tağyir bir hökmi-qədərlə, bütün ədyanın, əqvam və millətin getdiyi yollarla gediyoruz!.. O yolun ibtidası qaranlıq və tikanlı isə də, ilərisi işıq və çəmənilidir!.. Millətlərin bir qismi yolun ortasında getdikləri və ya nəhayətinə yetişdikləri halda, digərləri o yolu başlarlar!.. Bu bir qanuni-təbiətdir ki, adına "evolyusiya"- təkamül qanunu deyərlər… Biz də bu yol ilə gediyoruz. Məqsədimiz, əməlimiz ittihad, ittifaq, ictima, maarif, kəsbü-kar, sənaye, ticarət və sairə qüvvətlərilə küreyi-ərz üzərində insanlara mövcud olan səadətə nail olmaqdır".[490]

Ə.Hüseynzadə daha sonra bildirir ki, sosializmin mahiyyəti milliyyətdə deyil, insanlığın istiqlalına müsaid olduğu kimi, islamiyyətin də məqsədi insanlığın istiqlalıdır. O, yazırdı: "Bu gün Avropanın qismi-əzəmini təhdid etməyə başlayan "sosizlizm"ə, "internasiyonalizm"ə (yəni beynəlmiləliyyət) və "marselyoz" nəğməsi müqabilinə çıxan "internasiyonal" mahnısı muxtariyyəti-milliyyələrə deyil, istiqlalati-insaniyyəyə müsaiddir!.. İslamiyyətin məqsədi isə istiqlalati-insaniyyədir. Çünki islamiyyət bir dindir ki, millət və milliyyət tanımaz, kəlmeyi-şəhadət gətirib onunla mütədəyyin olanlara rəsmsiz, şəkilsiz, yoldaşsız bir Allaha iman gətirənlərə bir nəzərlə, bir ümmət nəzərilə baxar!.. Zəkat qanununu əvəz edən "Əlkasibü həbibüllah", "Külli müslümün üxüvvətin" deyən və "vələdi-qeyri-məşru" namilə Avropa şəhərlərini dolduran hüquqi-mədəniyyədən, hüquqi-vərasətdən məhrum bir firqənin törəməsinə mane olan faizi, mürabihəçiliyi, hər növ monopolya və inhisarçılığı haram bilən islamiyyətin nasiyonalizmə ilə deyil, sosializmə ilə əlaqəsi vardır".[491] Hüseynzadə birmənalı şəkildə ifadə edirdi ki, zamanın mədəni cərəyanları islamiyyətin və sosializmin deyil, kapitalizm və nasiyonalizmin ziddinədirlər: "Kor qalıb bunu görməyən, fəhm və idrak etməyən cəmaətlər bu cərəyanalara müqabilə etdikcə

[490] Yenə orada, s.113
[491] Yenə orada, s.113-114

içdən çıxılmaz girdablara düşəcəkləri gün kimi aşikardır".[492] O, bu məqaləsində nasyonalizmlə müqayisədə beynəlmiləl mahiyyət daşıdığı üçün, sosializmin islamçılıqla oxşar cəhətlərindən belə bəhs etmişdi. Onun fikrincə, sosializmdəki ədalət, hürriyyət, bərabərlik və məhəbbət prinsipləri islamiyyətin həmişə əsas amallarından olub ki, Həzrət İsa və Həzrət Məhəmmədin (s.) qanunları da bu həqiqətə aiddir.[493] Bir sözlə, əsl müsəlman, əsl islamiyyət, həm də ictimaiyyət və sosializm, yəni islami sosializmi deməkdir.

O, başqa bir məqaləsində isə yazırdı ki, sosializmin mahiyyətini olduğu kimi dərk etmək lazımdır: "Sosialistlər demiyorlar ki, gəlin, əhli-sərvətin mal və mülkünü bölüşəlim, xeyr, bunlar diyorlar ki, gəlin, öylə qəvanin və nizamati-ictimaiyyə vəz edəlim ki, bundan sonra hər kəs o mal-mülkü, o sərvəti haqq və ədalət dairəsində öz alnının təri ilə qazana bilsin. Buna şübhə yoxdur ki, qazanılan sərvətin haqq və ədalətə müvafiq olub-olmaması mövcud olan qəvanin və nizamata tabe bir keyfiyyətdir... Lakin sosialistlərin və ələlümum camaatin haqqı var ki, idareyi-keyfiyyə üsulunu kökündən qazıyıb atsınlar və idareyi-keyfiyyə ilə vəz olunan qeyri-adilanə qanunların ləğvini tələb etsinlər. Bu gün cahanı qaplayan sosializmə vəlvələsi qəvanin və nizamat haqqındadır. Yoxsa kimsənin bu günə qədər qazanmış olduğu mal və sərvət haqqında deyildir".[494] Hüseynzadə yazırdı: "İstimlaki-milli dediyimiz nasiyonalazasiyanın mənası cəmi əraziyi dövlət mülkü qılmaqdır. Bu isə camaatin əraziyi nasıl təsərrüf edib ondan nasıl istifadə edəcəyini həll etmiyor. Sosializasiya, yəni istimlaki-ictimai isə işin bu cəhətini dəxi təyin etmiş oluyor. Sosialistlər sadə istimlaki-milliyyə qənaət etməyib ərazinin camaati amiyə namına istimlakını tələb ediyorlar. Demək olur ki, istimlaki-milli bir mərkəziyyət sifətilə müttəsif olduğu halda istimlaki-ictimai ədəmi-mərkəziyyəti icab ediyor".[495] O, yazırdı: "Proletariat, yəni füqərayi-kasibəyi-millət isə Gavə və

---

[492] Yenə orada, s.114
[493] Yenə orada, s.199
[494] Hüseynzadə Ə. Qırımızı qaranlıqlar içində yaşıl işıqlar. Bakı: Azərnəşr, 1996,s.142
[495] Yenə orada, s.146

muinləridir. Bunların rəf etdikləri qırmızı bayraqlar da dirəfşi-Gavəyanıdır. Tarixin də və ülumi-təbiyyənin öz qanunları vardır".[496]

Ə.Hüseynzadə K.Marksın sosializm ideyasından çox,[497] onun törəməsi olan marksizm-leninzmə, yəni rus bolşevizminə, rus kommunizminə qarşı olmuş, onların "qırmızı inqilab" ideyasını kəskin şəkildə tənqid etmişdi. "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar" məqaləsində Hüseynzadə qeyd edirdi ki, inqilabların baş verməsi üçün zəruri şərait olmalı, bütün inqilablar təkamül yolu ilə baş verməli və hər bir xalqın milli ruhuna, dininə, mədəniyyətinə uyğun olmalıdır. Bu mənada Ə.Hüseynzadə rus bolşeviklərin radikal qırmızı-inqilab ideyalarını rədd edir, marksizm-leninzmi zərərli bir təlim adlandırır və ona qarşı müasir ruhlu milli-dini birliyi – "yaşıl inqilab" ideyasını irəli sürürdü. O, "yaşıl inqilab" dedikdə, müsəlman xalqlarının, o cümlədən türklərin oyanmasını, inkişafını və birliyini nəzərdə tuturdu: "Yaşıl deyiriz, çünki öz müsəlmanlarımızdır. Zümrüd-yaşıl işıqlı islamiyyə qəndillərini yandırmaq qeyrətində bulunanlarımızdırlar".[498]

Ə.Hüseynzadəyə görə məhz müsəlmanların ilkin İslama əməl etməmələrinin nəticəsidir ki, Şərqin müsəlman məmləkətləri dərin bir ətalət, zülmət və cəhalət içindədir: "İndi zülmət və cəhalətin yoldaşları olan ətalət və bətaəti nur və ziyanın lazım qeyri məfariqi bulunan tərəqqi və hərəkətlə qiyas edərsək, yenə eyni həqiqət mərrə təbyin edər!.. Ədalət və bətaət bir şeyə möhtac deyil ikən; tərəqqi və hərəkət cisim və maddəsiz olamıyor!.. Bugünkü gün bizim Şərq cəmaəti, bu cəmaətin küliyyəti, adlarının əhli-nur və müsəlman olmasına, məmləklətlərinin məşriq, şəmsi-taban bulunmasına rəğmən qəri nayab, dərin bir çahi-ətalətdən vase bir sahəyi-zülmət və cəhalətdən ibarətdir! O ətalətin, o zülmətin müdhiş və mühib girdabları, təlatümləri vardır. Cismaniyyat və maddiyyata möhtac olmayan girdab və təlatümləri vardır".[499] Onun fikrincə, is-

---

[496] Hüseynzadə Ə. Türklər kimdir və kimlərdən ibarətdir? Bakı, Mütərcim, 1997,s.126
[497] Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007, s.127
[498] Yenə orada, s.185
[499] Hüseynzadə Ə. Vidanamə // Azərbaycan mətbuat tarixi antologiyası. İki cilddə, 1-ci cild. Bakı, "Elm və təhsil", 2010, s.109

lamiyyət daxilində nifaqa və təfriqəyə səbəb islam məmləkətlərindəki monarxiya, Şərq bürokratiyası və bundan istifadə edən Avropa dövlətləri və oradan əsən zəhərli yellərdir.[500]

**Ümumilikdə,** islamçılığın və türkçülüyün/turançılığın yalnız Azərbaycanda deyil, Türk-İslam dünyasında böyük dava adamlarından biri olmuş Əli bəy Hüseynzadənin dəyərini hələ, çağdaşlarından Y.Akçura, M.Ə.Rəsulzadə, Ə.Nəzmi və Ə.Müznib, Y.V.Çəmənzəminli və başqaları onu yeni nəslin öncül alimi və ideoloqu kimi qiymətləndirməklə, çox doğru qənaətə gəliblər. Müznibin fikrincə, Ə.Hüseynzadə Ə.Ağaoğlu ilə birlikdə, "Qafqazdakı türk balalarına türklüyü bildirdi, həsbi-nəsəbini öyrətdi, abavü əcdadını tanıtdı. Lakin onların getməsi Qafqaz əhalisini başsız, böyüksüz buraxmış kimidir. Çünki o cənablar dilsizlərin dili, karların qulağı, korların gözü idilər. Müxtəsər, bir bölük maarif yetimi olan Qafqaz müsəlmanlarının ataları idi".[501] Y.V.Çəmənzəminli də yazırdı ki, millətinin yaşaması və inkişafı üçün bir əsas olaraq "Türkləşmək, islamlaşmaq və avropalılaşmaq" lüzumunu iddia etmiş Hüseynzadə "Türk yurdu"nda yazıldığı kimi əsil türk və türkçüdür.[502]

Ə.Hüseynzadənin türkçülük, islamlıq, çağdaşlaşmaq düsturunun ilk müəllifi olmasını M.Ə.Rəsulzadə, Z.Gökalp, Y.Akçura, M.B.Məmmədzadə və başqa mütəfəkkirlər də dəfələrlə qeyd etmişlər. Məsələn, Y.Akçuraya görə Ə.Hüseynzadə müsəlman türkləri arasında ilk turançı, ilk panturançı hesab olunur.[503] Akçura yazırdı: "Türkləşmək, islamlaşmaq, müasirləşmək.. türkçülərin fəaliyyətində bir vəchə mahiyyətini haiz olan bu üçüz (üçlü-F.Ə.) ümdənin əsl atası Hüseynzadə Əli bəydir. Məhz siyasət sahəsində, biri digərinə zidd kimi görünən türklük, islamlıq, osmanlılıq siyasətləriniin, bu üç tərzi siyasətin, qabili təlif olduğunu Əli bəy iddia etmiş və "Füyuzat"ın 10 iyul ihtilalından əvvəl çıxmış

---

[500] Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007, s.270
[501] Müznib Əlabas. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2006, s.111
[502] Çəmənzəminli Y.V. Əsərləri. Üç cilddə. III cild. Bakı, Avrasiya-Pres, 2005, s.152
[503] Akçura Yusif. Türkçülüyün tarixi. Bakı, Qanun, 2010, s.174, 205

nüsxələrindən birində türklük, islamlıq və avropalılıq" qayələrinin məmzucən (sintez edərək-F.Ə.) istehsalını tövsiyə eyləmişdi".[504]

M.Ə.Rəsulzadə isə bu məsələni bir qədər də dəqiqləşdirərək yazırdı: ""Füyuzat" jurnalı "Türk Yurdu"nda olduğu kimi aydın, ardıcıllıqla olmasa da türkçülük mövzusunu daha öncə işə salmış, hətta mərhum Ziya bəyin son çağlarda "Türk millətindənəm, İslam ümmətindənəm, Qərb mədəniyyətindənəm" çağırışı ilə göstərdiyi anlamı Əli bəy Hüseynzadə "Türk qanlı, islam imanlı və firəng geyimli olaq" formulu ilə açıqlamışdı. Azərbaycan mətbuatının, eləcə də Azərbaycan ədəbiyyatının şüurlu metodik bir biçimdə milli türk ideologiyasını işə salmaq düşüncəsi isə I Dünya savaşı öncəsində, illərində daha çox gəlişmişdir".[505] M.B.Məmmədzadə də yazırdı ki, Azərbaycan milli hərəkatının kamilləşməsində, onun ictimaiyyətinin şüurlanmasında "Füyuzat" jurnalı və onun əsas yazarı Ə.Hüseynzadə müstəsna rol oynamışdı.[506] Çağdaş dövrdə Yaşar Qarayev,[507] Aydın Balayev,[508]Azər Turan[509] da doğru yazırlar ki, türkçülük şüuru öncə çar Rusiyasının Türk xalqları arasında yaranmış, siyasi türkçülüyün, o cümlədən türkçülük, islamlıq və çağdaşlıq düsturunun əsaslarını Ə.Hüseynzadə işləyib hazırlamışdır.

Ə.Hüseynzadənin türkçülüyün, islamçılığın təbliğində və inkişafında tutduğu mövqe, oynadığı rol yalnız Türk aydınları tərəfindən deyil, sovet ədəbiyyatında da bu və ya digər formada etiraf olunmuşdur.[510] Bu, Hüseynzadənin yalnız Azərbaycan türkləri deyil, bütün Türk dünyası üçün nə qədər dəyərli bir mütəfəkkir olmasını sübut edir. Bu mənada Hüseynzadənin dəyərini anlamaq üçün yeni "kəşflər" etmək deyil, sadəcə onun elmi-fəlsəfi irsini cəmiyyə-

[504] Akçura Yusif. Gökalp Ziya bey Hakkında Hatıra ve Mulahazalar. İstanbul, "Türk yurdu" dergisi, 1924, II seri, C.I , S:3, s.159
[505] Rəsulzadə M.Ə. Qafqaz türkləri. Bakı, Təknur, 2012, s.48
[506] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992, s.47
[507] Qarayev Yaşar. Tarix: yaxından və uzaqdan. Bakı, "Sabah", 1996, s.363-364
[508] Balayev A. Məmməd Əmin Rəsulzadə (1884-1955). Bakı, "Adiloğlu" nəşr., 2011, s.17-18
[509]Turan Azər. Əli bəy Hüseynzadə (həyatı, mübarizəsi, yaradıcılığı və şəcərəsi). Bakı, "Letterpress", 2014, s.107-109
[510]Azərbaycan Kommunist Partiyasının oçerkləri. I cild, Bakı: Azərnəşr, 1986, s.165

tə doğru-dürüst çatdırmaq lazımdır. Xüsusilə, qeyd olunmalıdır ki, Ə.Hüseynzadənin "üçlü" düsturu (türkləşmək, islamlaşmaq və avropalaşmaq) və Turançılıq ideyası milli-məhəlli türkçülük ideyalarının formalaşmasında da əvəsiz rol oynamışdır.

Çox təəssüf olsun ki, o, 1910-cu ildə Bakıdan İstanbula döndükdən sonra ictimai-siyasi və fəlsəfi məsələlərlə bağlı çox az yazmış, Türkiyə Cümhuriyyəti dövründə isə "Qərbin dastanında iki türk" kiçik bir əsəri istisna olmaqla, diqqət çəkən əsərlər yazmamışdır. Hələ, 1921-ci ildə Y.V.Çəmənzəminli yazırdı ki, "son zamanlar Əli bəy çox oxuyur, heyfa ki, bir şey qələmə almayır".[511] Doğrudan da, Hüseynzadə ömrünün təxminən son 25-30 ilində ictimai-fəlsəfi və siyasi-ideoloji məsələlərə nadir hallarda müraciət etmişdir. Şübhəsiz, dahi mütəfəkkir-filosofun bu susqunluğu, yalnız Azərbaycan Türk fəlsəfi fikir tarixi baxımından deyil, ümumilikdə Türk fəlsəfəsi üçün böyük itki olmuşdur.

Bütün hallarda Hüseynzadə Türk fəlsəfəsinin, Türk dünyagörüşünün yenidən dirçəlişində mühüm rol oynamış böyük bir bilgədir. Onun əsas məqsədlərindən biri Türk fəlsəfəsinin Turan mədəniyyəti adı altında yenidən ortaya qoyulması idi ki, bizcə, o, xeyli dərəcədə Turan mədəniyyətinin, Türk dünyagörüşünün dirçəlişinə nail ola bilmişdi.

[511] Çəmənzəminli Y.V. Əsərləri. Üç cilddə. III cild. Bakı, Avrasiya-Press, 2005, s.153

# ƏHMƏD BƏY AĞAOĞLU

**Həyat və yaradıcılığı.** Azərbaycan Türk mütəfəkkiri Əhməd bəy Ağaoğlu (1869-1939) Şuşada anadan olub ilk biliklərini buradakı Gimnaziyada almış, daha sonra təhsilini Texnologiya İnstitutunda davam etdirmək üçün Sankt Peterburqa getsə də, imtahanların birindən kəsildiyinə görə, Parisə üz tutmuşdur. Sorbonna Universiteti yanındakı Paris Hüquq Məktəbinin tələbəsi olan (1888) Ağaoğlu burada yaşadığı zaman tanınmış alimlərlə (Ceyms Darmsteter, Barbiye de Meynar, C.Əfqani, E.Renan və b.) yanaşı, "Gənc Türklər"lə (Əhməd Rza bəy, Əsəd Paşa və b.) də yaxından təmaslar qurmuşdur. 1890-cı illərdən etibarən Paris, Tiflis, Bakıda nəşr olunan qəzet-jurnallarla əməkdaşlıq edən Ağaoğlu 1894-cü ildə vətənə dönərək üç il Şuşada yaşamışdır. O, 1897-ci ildə Bakıya köçərək "Kaspi" qəzetinin redaktorlarından olub, eyni zamanda Bakı Ali Ticarət Məktəbində fransız dili müəllimi işləmişdir. 1905-ci il 1-ci Rusiya inqilabından sonra "Həyat", "İrşad", "Tərəqqi" qəzetlərində redaktor kimi aktiv fəaliyyət göstərən Ağaoğlu, 1906-cı ilin yayında yaradılan "Difai" Partiyasının əsas qurucusu, lideri idi. O, çar Rusiyasının ona qarşı basqılarının artması, eyni zamanda Osmanlıda "Gənc Türklər"in hakimiyyətə gəlməsi səbəbilə 1909-cu ilin yazında İstanbula köçmüşdür.[512]

İstanbulda əvvəlcə maarif müfəttişi, daha sonra Süleymaniyyə kitabxanasının müdiri və İstanbul Darülfünunun müəllimi kimi çalışan Ağaoğlu bütün bunlarla yanaşı, "Türk yurdu", "Sirati-müstəqim", "İslam məcmuəsi", "Haqqa doğru" adlı qəzet-jurnallarla əməkdaşlıq etmişdir. "Türk ocağı"nın qurucularından olan Ağaoğlu 1912-ci ildə Afyon-Karahisardan Osmanlı Məclisi-Məbusanına millət vəkili seçilmişdir. "Hüseynzadə Əli bəylə birlikdə Ağaoğlu Əhməd hərbi-ümumidə (1-ci Dünya müharibəsi dövründə-F.Ə.) İsveçrədə Qafqaz türklüyü naminə çalışdığı məlumdur. Bu iki azəri

[512]Quliyev Vilayət. Ön söz // Ağaoğlu Əhməd. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007, s.16-17

türkü vətənlərinin xilası üçün Avropa dövlətlərinə muxtıralar (ərizələr) verib Qafqaz türklərinin həqiqi vəziyyətini aydınlaşdırmağa çalışırdılar".[513]

O, Azərbaycan Cümhuriyyəti yarandıqdan sonra Qafqaz İslam Ordusunun komutanı Nuri Paşanın siyasi müşaviri kimi yenidən vətənə gəlmişdir. Parlamentdə millət vəkili olan Ağaoğlu 1918-ci ilin dekabrında Ə.Topçubaşının rəhbərliyi ilə Paris Sülh Konfransına göndərilən nümayəndə heyətinin tərkibində İstanbula getsə də, burada Antantanın işğalçı ordusu tərəfindən həbs edilib. 1919-cu ilin mayında "İttihad və Tərəqqi"inin tanınmış üzvləri ilə birlikdə İngiltərənin nəzarəti altındakı Maltaya sürgün edilən Ağaoğlu yalnız 1921-ci ilin mayında azadlığa qovuşaraq Romaya qayıdıb.[514] O, Romadan Sovet Azərbaycanının başçısı N.Nərimanova məktub yazaraq Ankaradan Türkiyədə qalmaq üçün təklif aldığını, ancaq özünün Quzey Azərbaycana qayıdaraq vətəninə və millətinə xidmət etmək istədiyini yazmışdır. Nərimanovun onun Bakıya qayıtması ilə bağlı məktubunu İstanbulda oxuya bilən Ağaoğlu artıq buna qədər Ankarada qalmaqla bağlı qəti qərara gəlmişdir.[515]

Ankarada Mətbuat baş müdiri olmaqla yanaşı, Qarsdan Türkiyə Böyük Millət Məclisinə deputat seçilmiş və Ankara Universitetində də dərs demişdir. 1930-cu ildə CHP-yə müxalif təşkilat kimi yaranan "Sərbəst" Firqənin liderlərindən biri olan Ağaoğlu, həmin partiyanın bağlanmasından az sonra İstanbula dönərək "Axın" qəzetini təsis etmişdir. Ancaq həmin qəzetin nəşri də yarımçıq qalmış, üsətlik İstanbul Darülfünunun universitetə çevrilməsi zamanı təqaüdə göndərilmiş Ağaoğlu 1939-cu ilin mayında vəfat etmişdir.

Türk fəlsəfəsi, antik fəlsəfə, islam fəlsəfəsi, orta və yeni dövr Avropa fəlsəfəsini dərindən öyrənən Ağaoğlunun əsərləri aşağıdakılardır: "İslam, Axund və Hatifülqeyb", "İslamlığa görə və is-

[517]Məmmədzadə Mirzəbala. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992, s.174

[514]Quliyev Vilayət. Ön söz // Ağaoğlu Əhməd. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007, s.18-19

[515] Yenə orada, s.22

lamlıqda qadın", "Mən kiməm?", "Üç mədəniyyət", "Sərbəst insanlar ölkəsində", "Dövlət və fərd", "İran və inqilabı" və b.

**İctimai-siyasi görüşləri**. XX əsrin əvvəllərində Əhməd bəy Ağaoğlu Qərb mədəniyyəti ilə İslam mədəniyyəti arasında uzlaşdırma yolu ilə "islam millətçiliyi" nəzəriyyəsini irəli sürmüş, əsasən, İslamda islahatlar aparmaqla müsəlmanların ictimai-siyasi tərəqqisinə və yüksəlişinə çalışmış, daha çox islamçılığı təbliğ etmişdir.[516] Milli ideoloq M.Ə.Rəsulzadənin təbrincə desək, bu dövrdə "milliyyətpərvərliyin ən addı-sanlı mürşidləri, başda Ağaoğlu Əhməd bəy olmaqla, islamçılıqla türkçülüyü çox da ayırmır, türklük namına deyil, müsəlmanlıq namına mübarizə aparırdılar. Milli hərəkatımızın adı "panislamizm" idi. Bu yalnız rusların xətası deyildi. Özümüz də islamiyyəti milliyyət məfhumu yerində işlədirdik".[517]

**Dini-ideoloji baxışları: "İran şiəçiliyi"ndən "İslam millətçiliyi"nədək.** Ağaoğlu "İslam millətçiliyi"ni müdafiə edənə qədər isə "İran şiəçiliyi" tərəfdarı olmuşdur. Hər halda XIX əsrin sonu, XX əsrin əvvəllərində şiəlik anlamında iranlılığın, sünnilik anlamında isə osmanlılığın təbliğ olunması Ağaoğludan da yan ötməmişdir.[518] 1890-cı illərdə "İran şiəçiliyi"inə aludə olan Ağaoğlu Parisdə, Tiflisdə nəşr olunan "İran cəmiyyəti" başlıqlı silsilə məqalələrində üç məsələyə 1) İslam aləmi, 2) İran cəmiyyəti, 3) şiəliyə xüsusi diqqət yetirmişdir. "Nəhayət, o illərdə Ağaoğlu nəinki Avropa Şərqşünaslığının Azərbaycan və İran haqqında bəzi yanlış müddəalarının təsirlərindən azad deyildi, o, özünü həm də İran mədəniyyətinin mümayəndəsi, şiəliyin ardıcıl tərəfdarı kimi təqdim edir, hətta bu İslam məzhəbini müstəqil, ayrıca bir din kimi alırdı".[519]

Ağaoğluna görə İslam aləminin nicatı olan "İran" Fransanın Avropada oynadığı rolu oynayaraq yeniləşməyə çalışan Osmanlını belə ötüb keçəcəkdir. Bu anlamda ingilislərin "İran"a toxunmasını onlar üçün bir bomba təhlükəsi kimi xarakterizə edən Ağaoğlunun

---

[520]Məmmədzadə Mirzəbala. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992, s.40-41
[521]Rəsulzadə M.Ə. İstiqlal məfkurəsi və gənclik// "Azadlıq" qəz., 1990, 31 dekabr
[518] Rəsulzadə M.Ə. Əsərləri. Beş cilddə, III cild, Bakı: "Elm", 2012, s.432
[519] Mirəhmədov Əziz. Əhməd bəy Ağaoğlu. Bakı, "Ərgünəş", 2014, s.18

fikrincə, "İran" üçün şiə təmayüllü ruhanilik institutu heç də gerilik hesab oluna bilməz. Bununla bağlı Əziz Mirəhmədov yazır: "Ruhanilik institutunun demokratik mahiyyətdə olduğunu, səylə nəzərə çatdıran müəllif iddia edir ki, bizdə əhalinin bütün təbəqələrinin ruhani təhsil-tərbiyə almaq və molla olmaq imkanı vardır. Burada ruhanilərin mənfi keyfiyyətləri də qeyd edilir və onların öz vəzifələrini icra edərkən yol verdikləri çoxlu mənfi hallar həyati misallarla tənqid olunur. İranın İslamı qəbul etməsinin qısa tarixçəsi veriləndən sonra yeni dini təfəkkürün qədim İran məzhəb və etiqadları ilə varislik əlaqəsinin səciyyəsi müəyyənləşdirilir və şiəliyin yayılması bu aspektlərdə tədqiq edilir. Müəllif ölkənin tarixindən və xalqın mənəvi-əxlaqi aləmindən çıxış edərək ortodoks İslamla şiəçilik arasındakı qarşdurmanın qanunauyğunluğunu sübuta çalışır".[520]

O, 1892-ci ildə Şərqşünasların Londonda keçirilən 9. Beynəlxalq Konqresində "Şiə dinində məzdəki inanclar" məruzəsində də "İran şiəçiliyi"ni müdafiə etmişdir. Ağaoğluna görə şiəlik nə din, nə siyasi partiya anlamına gəlməsə də, öz mahiyyətini iranlılıqda tapıb: "Amma şiəlik başdan-başa İranın milli ruhu ilə doludur. Bu ruh isə keçmişlə bu gün, məzdəklik ilə İslam arasındakı uzlaşmanın əsrlər boyu aldığı özəllikdir İran milli düşüncəsinin sintezidir".[521]

Onun fikrincə, ərəblərin işğalçılığı dövründə onlardan yüksək mədəniyyətə sahib olan iranlılar, bu ağır vəziyyətdən çıxış yolunu İslam dini pərdəsi altında yeni bir "din", yəni şiəliyi, daha doğrusu "İran şiəiyi"ni yaratmaqla tapmışlar. "İran şiəliyi"nin ortaya çıxmasında isə Salman Farsi mühüm rol oynamışdır. Belə ki, əvvəlcə Peyğımbərin silahdaşı olmuş Farsi onun vəfatından sonra Həzrət Əliyə bağlanmışdır. Ağaoğlu yazır: "Həzrəti Məhəmmədin qardaşı oğlu və kürəkəni kimi Əlinin böyük nüfuz sahibi olduğunu bilən Salman Farsi həqiqi İran vətənpərvərinə xas bir tərzdə ölkəsinin mənafeyini güdərək onu İran taxtına çıxarmaq haqda düşünmüş, niyyəti barədə ölkəsinin nüfuzlu şəxsləri ilə fikir mübadiləsi aparmışdı. Əks təqdirdə, Əli kimi fəal mübarizə adamı

[520] Mirəhmədov Əziz. Əhməd bəy Ağaoğlu. Bakı, "Ərgünəş", 2014, s.18-19
[521] Ağaoğlu Əhməd bəy. Mən kiməm? Bakı, Mütərcim, 2019, s.407

olmayan, İranda yetərincə tanınmayan bir şəxsin bölgədə özünə bu qədər tərəfdar tapmasını başqa nə ilə izah etmək olar? Yaxud onun düşmənləri ilə savaşlarını daim İran səhnəsində aparmaq cəhdinə başqa hansı yolla şərh vermək mümkündür? Üstəlik onu da bilirik ki, həzrəti Əli oğullarından birini – İmam Hüseyni Yəzdigürdün qızı, girov kimi ərəblərin əlinə düşən Şəhrəbanu ilə evləndirmişdi. Bu siyasi izdivac Sasani sülaləsinin hüquqlarının həzrət Əli ailəsinə verilməsi arzusunun təzahürü kimi meydana çıxmamışdırmı? İmamlığın Hüseynə keçməsi lazım ikən, Şəhrəbanunun nəvələrinə ötürülmüşdü. Kərbəla müsibətində ətrafındakıların hamısı öldürüləndən sonra şiə inanclarına görə Şəhrəbanu Bəni Haşim, yəni Həzrət Əli ailəsinin bayrağının mühafizi olmuşdu. Əri qətlə yetirləndən sonra onun qanlı paltarını geyinib Peyğəmbərin çalmasını başına qoyaraq Hüseynin nəşini düşmən səflərində axtarmışdı. Peyğəmbərin çalması Bəni Haşimin, yəni Əli ailəsinin simvolik mirası idi...Sonra Abbasın bayrağını qaldırmış (həzrət Hüseynin qardaşı), Zülcənahı (Hüseynin atı, bu da başqa bir simvolik mirasdır) minib düşmənlə əsarət şərtlərini müzakirə etməyə getmişdi. Şərqdə belə rolu ancaq başçı missiyası heç kimdə şübhə doğurmayan  şəxslər öz üzərinə götürə bilərlər... Nəticədə Şəhrəbanunun üçüncü və dördüncü imamlar arasındakı qısa fasilədə bu öndərliyi İran ruhunun keçmişlə bu günü birləşdirməsi və onu müsəlman dünyasına gətirməsi kimi dəyərləndirilir”.[522]

Ağaoğlu 1895-ci ildən sonra, özəlliklə də XX əsrin başlarından etibarən “İran şiəiliyi”ndən uzaqlaşaraq **“İslam millətçiliyi”** nəzəriyyəsinin ideoloqu olmuş, onu soldan və sağdan tənqid edən tərəqqiçilərə və mühafizəkarlara qarşı mübarizə aparmışdır. Mühafizəkarların yeritdikləri ideya xətti ilə bağlı o, yazırdı ki, onlar həddən artıq yeniləşməyə qarşı çıxmaqla səhvə yol vermişlər. Çünki mühafizəkarların müsəlman xalqlarının vəziyyəti ilə bağlı gəldikləri qənaətə görə, onların bütün fəlakətləri adət-ənənələrdən üz çevrmələri, yəni əxlaq pozğunluğu, keçmişə sayğısızlıq etmələri və sərbəst düşüncələriylə bağlıdır. Ağaoğlu yazırdı ki, buradan da

[522] Ağaoğlu Əhməd bəy. Mən kiməm? Bakı, Mütərcim, 2019, s.410-411

mühafizəkarlar "belə nəticəyə gəlirlər ki, xilas yolu nə Avropada, nə də həyatın məntiqinin axtarılmasındadır. Sadəcə, şəfaverici keçmişə qayıtmaq lazımdır. Həmin keçmiş öz ecazkar qüvvəsi ilə müsəlman aləmini xilas edəcəkdir".[523] O, sübut etməyə çalışırdı ki, Avropanın inkişafına səbəb olan mütərəqqi ideyalardan tamamilə imtina edib ancaq "şəfaverici keçmiş"ə qayıtmaqla müsəlman xalqlarının geriliyini, cəhalətini aradan qaldırmaq mümkün deyildir. Çünki müsəlman xalqlarının oyanışı, inkişafı yolunda ən başlıca əngəllərdən biri elə yaxın dövr əcdadlarımız, mühafizəkar ruhanilərdir. Belə ki, onlar öz ulu əcdadlarının əqli və mənəvi sərvətlərini unudub sonrakı nəsillərə miras əvəzinə yalnız zülmət və nadanlıq, mövhumat və xurafat, əldən düşmüş bədən, quru və kütləşmiş beyinlər qoyub gediblər. Ağaoğlu yazırdı: "Ah, bu keçmiş! Axı o bizdən nə istəyir? Onun bizi hər mənada – həm maddi, həm zehni, həm mənəvi baxımdan məhv etməsi, dilimizi, dinimizi, xalqımızı, xəlqiliyimizi məhv etməsi yetməzmi!".[524]

Bu anlamda Ağaoğlu mühafizəkarların "şəfaverici keçmiş"ə qayıtmaq məsələsində yaxın dövr əcdadlarının mirasını qəbul etməmiş, üstəlik onların heç bir fərq qoymadan ümumilikdə yeniləşməyə qarşı olmalarını doğru saymamışdır: "Ata-babadan qalmış bəzi qayda və adətlərimiz də var ki, sədd kimi bizi nicat və fəlahətdən saxlayır. Min illərdən bəri o qədər bizim dillərimizi, əqllərimizi, qələm və fikirlərimizi döyüb döyənəyiblər ki, indi bizdə söz danışmağa, fikir cari etməyə, özümüzün qabiliyyətimizi izhar etməyə taqət və cürət qalmayıb".[525] Ancaq o, daha sonra yazırdı ki, əslində uzaq keçmişdə bu belə olmayıb: "Cümləyə məlumdur ki, biz müsəlman tayfası çoxdan bəri ata babamızın adət və qaidəsi olan və din mübəyyinmizin üsul əsas olan şura, ictimai və məşvərət yolunu unudub qeyriləri əlində sağir sürü kimi idarə olunmaqda idik. Padşahlarımız, xanlarımız, əmir və üməralarımız göydən göndərilən

---

[523] Ağaoğlu Əhməd. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007, s.333

[524] Ağaoğlu Əhməd. Sözlər, sözlər.. // Azərbaycan publisistikası antologiyası. Bakı, "Şərq-Qərb", 2007, s.304

[525] Ağaoğlu Əhməd. Qafqazda milli məsələ. Bakı, Mütərcim, 2019, s.184

hakimi-mütləq surətində hər nə arzu və həvəsləri var isə, bizə cəbri və zülmü qəbul etdirməkdə davam edirdilər. Qeyri-tayfalar arasına düşənlərimiz də həmin surətdə idarə olunurdular".[526]

Ağaoğlu doğru qeyd edirdi ki, milli adət-ənənələrdən və şəriət qayda-qanunlarından uzaqlaşma son dövrlərdə olmuşdur. Belə ki, vaxtilə Türk dövlətləri (Səlcuqlar, Çingizlər, Teymurilər və b.) məşvərətsiz, şurasız və qurultaysız heç bir iş görmədikləri üçün böyük imperiyalar qurublar. İslam dini özü də ictimai ümmət olub, peyğəmbər və bir çox xəlifələr uzun müddət məşvərət və şura ilə qərar qəbul ediblər. O, yazırdı: "Lakin tarix getdikcə həm tayfamızın və həm məzhəbimizin qaidələrini unutduq. Və bu tazə qaidə və ruşən sayəsində başımıza nə qədər bəlalar, fəlakətlər gəldi... Lakin bu fəlakətlərin, bu bəlaların cümləsindən artıq hökmdarlığımızı, vilayətlərimizi əldən vermək olmayıb ən əvvəl və ən mühim bizim təbiətimizə şimdiyədək olan əsəridir".[527]

"İslam, Axund və Hatifülqeyb" (1904) adlı əsərində də İslamla bağlı olaraq son əsrlərdə yaranmış mövhumata, xurafata, dini fanatizmə diqqət yetirən Ağaoğlu riyakar ruhaniləri başa salmaq istəmişdir ki, onların İslamın adı ilə bağlı gördükləri işlər bu dinə mənfi təsir göstərmiş, onun qüdrətini zəiflətmişdir.[528] Əsərdən məlum olur ki, müsəlmanların çoxu İslamın, Quranın əsil mahiyyətini bilmir və burada da əsas günahkar din xadimləridir. Çünki "cəmi əmaviri-nəvahiyi-İslam siz axundların vasitəsilə və haman fikri-batil ki, "şəriəti-tahirə hökm edən"in bərəkəti ilə riyakarlıq və zahirpərəstlik olub, bilmərrə İslamın mahiyyətinə, yəni insan qəlbinə etina etmirsiz. Odur ki, müsəlmanların içərisində zahiri ibadət və itaət ilə belə bu qədər riyakar, bəkirdar mütəqəlliblər artıb".[529]

Mühafizəkarlar yeniləşməyə qarşı çıxıb "şəfaverici keçmiş"i nicat yolu bildikləri halda, əksinə, tərəqqiçilər isə əsasən "şəfaverici keçmiş"lə birdəfəlik vidalaşıb yalnız yeniləşmə tərəfdarı idilər.

---

526 Yenə orada, s.189-190
527Yenə orada, s.191
528 Ağaoğlu Əhməd. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007, s.35
529 Yenə orada, s.42

Hətta, bəzi tərəqqiçilər, xüsusilə də sosial-demokratizm təliminə həddən çox aludə olanlar deyirdilər ki, milli-dini adət-ənənələrdən tamamilə imtina edilməli və Avropa xalqlarının keçdikləri yol burada da olduğu kimi tətbiq edilməlidir. Tərəqqiçilərdən sosial-demokratlara münasibətdə Ağaoğlunun özü də ilk dövrlərdə, ümumilikdə heç də marksizmi İslam dininə tamamilə zidd saymamış, hətta 1905-1906-cı illərdə yazdığı məqalələrində onların elmi sosializm ideyasını təqdir etmiş, sosializmin əsas qayəsinin bəşər övladının mənəvi və maddi səadəti olduğunu bəyan etmişdi.[530]

Ancaq çox keçmədən Ağaoğlu marksizmi, xüsusilə rus bolşevizmini kəskin şəkildə tənqid etmişdir. Ona görə hər hansı cəmiyyətdə əsas məsələ kimi sinfi mübarizəni görmək doğru deyildir. O, yazırdı: “Sinfi mübarizə müxtəlif xalqlar arasında münasibətləri izah etmək üçün həddindən artıq elastik, həddindən artıq uzun, dumanlı haldır. Əgər bu termin altında əhalinin müxtəlif, maddi cəhətdən bir-birindən asılı təbəqələri arasında maraqlar toqquşması başa düşülürsə, onda sinfi mübarizə ilk növbədə, eyni millətin ayrı-ayrı qrupları arasında meydana gəlməlidir. Aydındır ki, bu cür toqquşmalar, məsələn, erməni işəgötürənlər ilə erməni işçiləri, erməni kapitalistləri ilə erməni kəndliləri arasında özünü büruzə verməli idi; eyniliklə türklərdə, gürcülərdə və başqalarında belə olmalı idi. Lakin biz bu hala rast gəlmirik və onun bizdə mövcud olması hələlik qeyri-mümkündür”.[531] O, yazırdı ki, sinfi mübarizənin yaranması üçün cəmiyyətin ayrı-ayrı təbəqələrinin öz daxili birliyini, həmrəyliyini dərk etməsi lazımdır, bunlar isə yalnız çox yüksək kütləvi inkişaf vaxtı mümkündür: “Avropa “sinfi mübarizə” yoluna çoxdanmı qədəm qoyub? Çoxdanmı oradakı “dördüncü zümrə” özünə qarşı az-çox şüurla yanaşmağa başlayıb? Xaricdə bu zümrə indiyədək qaranlıq cəhalətdə qalmaqdadır və onun şüurlu rəhbərləri küt-

[530] Mustafayev Qədim. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı, Maarif, 1973, s.172

[531] Ağaoğlu Əhməd. Qafqazda milli məsələ. Bakı, Mütərcim, 2019, s.117-118

lənin bu cəhalətindən heç də az məyusluq keçirmir. Onda bizim Qafqazda hansı sinfi mübarizədən söhbət gedə bilər?”.[532]

Ağaoğlu onun sosializmlə bağlı bəzi yazılarına istinad edilərək “sosialist” adlandırılmasını isə səhv hesab etmişdi.[533] Hətta, “Materializmin təntənəsi və əsassızlığı” (1908) məqaləsində fəlsəfədə materializm cərəyanının əsassızlığını sübut etməyə çalışan Ağaoğlunun fikrincə, müəyyən bir dövrdə “qalib” durumda olan Marksın materialist təlimi hazırda öz əhəmiyyətini itirmişdir.[534]

Onda sosial-demokratizm, marksizm ideyalarına yenidən maraq Malta sürgünü (1919-1921) zamanı yaranmışdır. Belə ki, sürgündən azadlığa çıxdıqdan az sonra Sovet Azərbaycanının başçısı N.Nərimanova məktubunda Ağaoğlu yazırdı ki, Vətənə qayıtmaq və marksist-leninçilərlə bir yerdə sosializm uğrunda mübarizə aparmaq istəyir. Buna səbəb də, sürgündə olduğu zaman oxuduğu kitablardan əldə etdiyi qənaətdir ki, Qərb demokratları, xüsusilə də ingilislər ikiüzlü oyunlar oynayaraq yalnız Şərq xalqlarını istismar etməyib, eyni zamanda Qərb xalqlarını da əsarət altında saxlayırlar. O, yazırdı: “Bütün bu mütaliələr, düşüncələr və bu müddətdə görmüş olduğum təcrübələr məni dərin və qəti bir imana gətirmişdir ki, istər Şərqdə, istərsə Qərbdə bütün ictimai üsul və bütün ictimai quruluş yalan, qaba sifət, güclülərin gücsüzləri əzmələri üzərində durmaqdadır. O şeyə ki, mədəniyyət, hürriyyət, müsavat deyirlər zəhərli bir yalan, alçaq bir riyakarlıqdır ki, onların sayəsində ancaq qaba zülm və haqsızlıq səltənəti qurula bilər. Bu idarə üsulu öz yalan və riyakarlığı ilə davam etdikcə bəşəriyyətə qurtuluş yoxdur və o bəşəriyyət əziyyətə məhkumdur. Ondan ötrü yeganə qurtuluş hal-hazırda Rusiyada hökmfərma olan ideal sayəsində mümkündür. Mən bu hərəkat rəhbərlərinə, bəşəriyyətin xilaskarlarına istirahət, məhəbbət və səadət üçün imanı ilə doğru yol göstərən peyğəmbərlərə baxan kimi baxıram”.[535]

---

[532] Yenə orada, s.118

[533] Ağaoğlu Ə. Millət və millətçilik.“Tərəqqi” qəz.,1909,22, 26 yanvar №16,№19

[534] Ağaoğlu Ə.Materializmin təntənəsi və əsassızlığı.“Kaspi” qəz., №3, 4 yanvar 1908

[535] Əhməd bəy Ağayevin Nəriman Nərimanova məktubu // Hüseynov Ş. Mətbu irsimizdən səhifələr. Bakı, “Çənlibel” NPM, 2007, s.78

Ağaoğlunun yaşının kamil çağında marksizmə bu cür yanaşması göstərir ki, ondan öncə Rəsulzadənin, Nərimanovun və başqalarının bu cərəyana meyil göstərməsi təsadüfi olmamışdır. Sadəcə, Rəsulzadə marksizmə münasibətdə daim məsafəli dayanıb marksizm-leninizmdən isə tamamilə uzaq durduğu halda, Nərimanov yalnız ömrünün son illərində sosial-demokratizm ətrafındakı oyunları dərk etməyə başlamış, ancaq yenə də ondan üz döndərməmişdir. Bu baxımdan Ə.Ağaoğlunun Malta sürgünündən sonra, müəyyən hisslərə qapılaraq marksizmə ideal kimi baxması təəccüblü deyil. Məhz bu hisslərin təsiri altında Ağaoğlu daha sonra məktubunda yazırdı ki, bolşevizm Şərq üçün də yeganə qurtuluş yoludur: "Zira zəif Şərqi istismar altına alan Qərb imperialistləri Qərb zəhmətkeşlərini də istismar altına alıb boğmağa imkan qazanırlar və bu da ümumbəşəriyyət ailəsi arasında yaxın bir uyğunluq vücuda gətirir. Rusiya qəhrəmanlarının böyüklüyü də bu dərin həqiqəti dərk etməkdə, bir millətin başqa millət tərəfindən istismar altına alınmasını inkar etməkdə, onu milli müqəddaratını təyini, millətlərin federasiyonu və daxili işdə millətlərin ixtiyaratı prinsipləri ilə əvəz etməkdədir. İştə Şərqi əsarətdən xilas edəcək və onunla bərabər Qərbi də qurutara biləcək budur... Biz Şərq millətləri bütün mövcudiyyətimiz ilə bu ideala ittihaq edərək (qoşacaq) və Şərq naminə onun vücuda gəlməsinə xidmət etməliyiz. Ələlxüsus İslam Şərqi onu qəbul edəcəkdir və bütün Asiyanı, Afrikanı öz arxasınca dartaraq bütün Qərbi də onun qarşısında səcdə etməyə məcbur edəcək, zəhmətkeş sinfi əsarətə alan yeganə vəsaiti-imperalistlərdən onu xilas edəcəkdir. Bu barədə Bakı fövqalədə tarixi bir rol oynaya bilər".[536]

Nərimanovun onun bu istəyinə müsbət cavab verməsinə baxmayaraq, az sonra Ağaoğlu Azərbaycana dönmək fikrindən daşınmışdır. O, Nərimanova yazdığı ikinci məktubunda Quzey Azərbaycana qayıtmamasına üç səbəb: 1) bolşeviklərlə həmfikir olmamasını; 2) türklər üçün qurtuluş imkanının təkcə Osmanlı türklüyündə qalmasını; 3) onu əsarətdən qurtaran Ankaraya (Atatürkə) namus borcu-

---

[536] Yenə orada, s.78-79

nun olmasını göstərmişdir.[537] Bizcə, Ağaoğlunun çox qısa bir zamanda fikrindən daşınmasında xüsusilə də, rus bolşevizminin əsas mahiyyəti haqqında bilgilərinin artması mühüm rol oynamışdır.

Ağaoğlu "İslam millətçiliyi"ndən çıxış etdiyi dövrdə qərbçi "Gənc türklər"lə də fikir ayrılığı yaşamışdır. Müsəlman xalqlarının dirçəlişi məsələsində "Gənc türklər"in bütövlükdə doğru yol tutduqlarını qəbul etməklə yanaşı, Ağaoğlu əsasən iki məsələdə: 1) Avropa ideyalarını ifrat şəkildə təqlid etdiklərinə; 2) islamçılığın elmi nəzəriyyəsi yaranmadan onu siyasiləşdirdiklərinə, yəni siyasi partiya halına gətirdiklərinə görə onlarla razılaşmırdı. O, yazırdı ki, tərəqqiçilər belə düşünürlər ki, "bütün fəlakətlərin səbəbi müsəlmanların geriliyindən, onların dininin həyat uğrunda mübarizəyə yararsız olmasından irəli gəlir və bu vəziyyəti aradan qaldırmaq üçün bütün həyat quruluşunu dəyişdirmək, Avropanı təqlidə başlamaq lazımdır. Beləəri Avropa təssisatının qüvvəsinə hədsiz inamla yanaşaraq onu yoxlamadan, saf-çürük edib araşdırmadan, ölkələrində tətbiq etməyin zəruriliyi haqqında moizələr oxuyurlar".[538]

Ağaoğlu belə bir qənaətə gəlmişdir ki, Osmanlıdakı tərəqqiçilər ilk dövrlərdə, yəni XIX əsrin sonlarına qədər İslam ölkələrini Avropa elmləri və ideyaları ilə müalicə etmək yolu ilə canlandırmağa çalışmaqla düzgün yol tutsalar da, onlardan səbirsiz olanları, yəni "Gənc türklər"son nəticəni çıxarmağa tələsdilər. Halbuki din, siyasət, dövlət kimi mühüm məsələlərdə elmi həqiqətlərə çatmaq üçün səbir və təmkinlə hərəkət etmək lazım idi. Ona görə "Gənc türklər" siyasi məsələlərə qarışmaqla bütün Şərqin inkişafına əngəl yaratdılar: "Hərəkat həqiqi obyektivlik və rasionallığını itirdi, siyasiləşdi, partiyalaşdı və arxalandığı xalqı qeyb etdi".[539]

Ümumilikdə, Ağaoğlu tərəqqiçilərin yeniləşmə hərəkatını müsbət dəyərləndirmiş, ancaq onun elmi-nəzəri əsasları yaranmadan, ən azı müəyyən bir mərhələ keçmədən siyasiləşməsini doğru hesab etməmişdir. Onun fikrincə, Osmanlıda Midhət Paşa və onun

[537] Ağaoğlu Əhməd. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007, s.22
[538] Yenə orada, s.333
[539]Yenə orada, s.336

davamçıları olan "Gənc türklər"in ideyalarının Türk xalqları arasında özünə geniş tərəfdar kütləsi tapmamasının başlıca səbəbi elmi nəzəriyyəsi yaranmadan siyasətdən qaynaqlanması olmuşdur: "Həmin kütlələr nə mənəvi, nə də zehni cəhətdən "Gənc türkləri" qavramağa hazır deyildir".[540] Tərəqqiçilərin İslamda yeniləşmə hərəkatını siyasiləşdirməsi mənfi nəticələrdən başqa bir şey verməmiş, elmi-raisonal hərəkat olan islamçılıq şübhə altına alınmışdı.[541]

İlk dövrlərdə Ə.Ağaoğlu Əli bəy Hüseynzadədən fərqli olaraq, mühafizəkarlar və tərəqqipərvərlər arasında orta mövqedən çıxış edən "ağıllı ünsürləri" mötədil tərəqqipərvərlər deyil, **"panislamistlər"** adlandırmış və **"panislamizm"** anlayışını mütərəqqi bir məfhum kimi qəbul etmişdi: "Ağıllı ünsürlər hər iki ifrat cərəyanı (yəni mühafizəkarlar və tərəqqiçiləri – F.Ə.) birləşdirəcək və hər iki tərəfi razı sala biləcək elə bir yol-ideya yaratmaq istəyirlər ki, ifrat mütərəqqiçilərin xəyal etdikləri kimi, nə mücərrəd-zəminsiz, nə də köhnəpərəstilik kimi zəmanənin ruhuna və dövrün tələbinə zidd olsun… Bu panislamizmdir".[542] Ona görə "panislamizm" özünün daxili məzmununa görə geriyə dönmək olsa da, ancaq köhnəliyə qayıtmaq yox, daha inamla, qüvvətlə irəliyə getmək üçün geriyə dönməkdir. Ola bilsin ki, Ə.Ağaoğlunun "panislamizm" anlayışına ilk dövrlərdə müsbət münasibəti sonralar, həmin məfhumun "İslam birliyi" uğrunda mübarizə aparan bütün qüvvələrə verilmiş ümumi siyasi-ideoloji bir ada çevrilməsində də müəyyən rolu olmuşdu. Ancaq bütün hallarda Ə.Ağaoğlu da Ə.Hüseynzadə kimi, "panislamistlər" dedikdə, bütün "İttihadi-İslam" tərəfdarlarını deyil, yalnız onun orta mövqedən çıxış edən "ağıllı ünsürlər"ini, yəni mötədil tərəqqipərvər hissəsini nəzərdə tutmuşdu.

Bunu sonralar Ə.Ağaoğlunun "panislamizm" anlayışına dəyişən münasibəti də göstərir. O, sonralar bu anlayış ətrafında Avropa, o cümlədən Rusiya millətçilərinin yaratdığı mənfi obrazı aradan

---

[540] Yenə orada, s.337
[541] Yenə orada, s.338
[542] Агайев А. Панисламизм, его характер и направление. "Каспий" газ., 1900 гг. 14 апрел №81, 22 апрел №873

qaldırmaq üçün qeyd edirdi ki, "müsəlmanlar qardaşdırlar" prinsipini irəli sürən İslam dini müsəlmanlar arasında qardaşlığa, ittifaqa və ittihada əsaslanır: "Fəqət bu ittihad və ittifaqımız avropalıların ixtirası və onları təqlid yolu ilə Rusiya ermənilərinin də istilah etdikləri "panislamizm" deyildir. Yəni bizim "ittihadımız" slavyan milləti arasında mövcud olan "panslavizm" fikri kimi ümumislamları da bir dövlətə ilhaq etmək və yaxud bir nöqtəyə ictima edərək, aləmi-xristianiyyəyə qarşı qiyam etmək fikri deyildir".[543] Ağaoğlu yazırdı ki, onlarda "panslavizm"ə oxşar fikir yoxdur, ancaq belə bir fikir olsaydı pis olmazdı: "Kaş ki, bizdə dəxi böylə bir əsaslı fikir və mərkəzi-ictimaimiz ola idi də, biz müsəlmanlar da böylə bir məsləkə xidmət etməklə iftixar edər idik. Fəqət nərədə bu fikir, nərədə bu mərkəz?! Böylə bir xəyaldan ibarət bulunan "panislamizm" fikrinə deyil, heç olmazsa ittihadi-islamiyyə-şəriyyəmizə xidmət etsələr də çox təşəkkür edər idik".[544] Bununla da, o, "panislamizm"in müsəlmanların vahid dövlətinin yaradılması uğrunda mübarizə aparan bir cərəyan kimi göstərilməsinin əleyhinə çıxmışdı.

Ağaoğlu "panislamistlər"in əsas ideya xəttini "islam millətçiliyi" nəzəriyyəsi kimi görmüşdür. Burada başlıca qayə müsəlman xalqlarının ayrı-ayrı millətlər şəklində deyil, vahid "İsalm milləti" olaraq təmərküzləşməsindən söhbət gedir. "İslam millətçiliyi" nəzəriyyəsi onun "Müsəlman xalqlarının vəziyyəti", "Panislamizm və onun xarakteri", "Axund, İslam  və Hatifülqeyb" və başqa əsərlərində, çoxsaylı elmi-nəzəri məqalələrində öz əksini tapmışdır. Həmin əsərlərində o, "islam millətçiliyi" ilə bağlı iki məsələyə diqqət yetirilməsini zəruri sayırdı: 1) İslam dünyasının fəlakətlərinin səbəbləri obeyktiv təhlil edilməli və "İslam milləti"nin qurtuluş yolu ruhanilərin təbliğ etdiyi İslamda deyil, mötədil tərəqqipərvər ruhlu İslamda axtarılmalı; 2) dini kimliklə (İslamla) milli kimlik (Türk-

---

[543] Ağaoğlu Ə. İttihadi-islam və panislamizm məsələsi // "İrşad" qəz., 10 aprel 1906-cı il, №86

[544] Агайев А. Положенийе мусулманских народов // "Каспий", 1903 гг. 14 нойабр №246, 21 нойабр №251, 29 нойабр №256, 10 декабр №264, 13 декабр №267, 17 декабр №272

lük), dini özünütəyinlə (islamçılıqla) milli özünütəyin (türkçülük) nəinki ziddiyyət təşkil edir, əksinə bir-birini tamamlayır.

Qeyd edək ki, hələ, 1890-cı illərdə Parisdə təhsil alarkən Avropanın təzyiqindən sarsılmış İslam dünyasının fəlakətlərinin səbəblərini axtaran Cəmaləddin Əfqani ilə həmsöhbət olmaq, onun İslam dinində islahatçılıq baxışlarını öyrənmək Ağaoğluna dərin təsir bağışlamış, "islam millətçiliyi" nəzəriyyəsinin formalaşmasında təkanverici amil olmuşdur. Ağaoğlu yazırdı ki, Əfqani özündə cəsarət tapıb birinci olaraq müsəlmanların ailə və cəmiyyət həyatlarının köhnəldiyini, çağdaş dövrə uyğun olmadığını və bunlara səbəb kimi ruhanilərin özlərinin köhnəlməsi, hakimiyyyətin kütlüyü və nadanlığı olduğunu qeyd etmişdir. Ağaoğlu qeyd edirdi ki, Əfqani "…müsəlman xalqlarını ilkin İslama qayıtmağa, ləyaqətsiz hökmdarlara qarşı açıq mübarizəyə qoşulmağa çağırırdı. Eyni zamanda o, ruhaniləri amansızcasına tənqid edir, onların "boş dialektika və sxolastikasını" məsxərəyə qoyur, onların riyakarlığına və həyasızlığına gülürdü. O, öz mühakimə və mülahizələrini Qurandan gətirilən iqtibaslarla, müsəlman tarixinə aid misallar və əfsanələrlə əsaslandırırdı. Onun bütün gücü də məhz belə "uyğunlaşmaq" bacarığında idi. Bütün ölkələrin müsəlmanları onun səsində nə isə tanış, eyni zamanda yeni çalarlar hiss edirdilər".[545]

Onun fikrincə, Əfqani özünün gələcək davamçılarının fəaliyyəti üçün proqram tərtib etmiş və bu davamçıların inkişaf etdirməli olduqları ideyaları göstərmişdir. Şübhəsiz, Ağaoğlu da Əfqaninin davamçısı kimi, "islam millətçiliyi"ni işləyib hazırlamışdır. O, yazırdı ki, taleyin zərbələrindən sarsılıb məyus olmuş müsəlmanlar indi gəzib bu fəlakətin onların üzərinə haradan gəldiyini axtarır və vəziyyəti düzəltmək haqqında düşünürlər.[546] Q.Mustafayevə görə Ağaoğlu bu yazılarında Əfqaninin fikirləri ilə razılaşdığını bildir-

[545]Yenə orada.
[546]Yenə orada.

miş, eyni zamanda “islam şərqinin böhrandan çıxmasının səbəbini “islamın bərpasında”, islam millətçiliyində görmüşdü”.[547]

“İslam millətçiliyi” nəzəriyyəsində qadınların azadlığı, ərəb əlifbasında islahatların həyata keçirilməsi, müsəlman islahatçısının olması, Qərb mədəniyyətindən yararlanmaq əsas şərtlərdən idi. Ə.Ağaoğlu yazırdı ki, müsəlmanların islahat dövrünü keçmələrinin vaxtı çatmışdır. İslahatlar ilk növbədə, qadınlara azadlıq verilməsindən və əlifbanın islahından başlamalıdır.[548] Eyni zamanda, o, müsəlmanları qəflət yuxusundan oyatmaq üçün, Əfqani kimi müsəlman islahatçısının ortaya çıxmasını da vacib hesab edirdi: “Müsəlman dünyasının qəflət yuxusundan oyadılması, onun mədəni xalqlar sırasına daxil olması üçün güclü sarsılma olmalıdır ki, müsəlmanlar da öz islahedilmə mərhələsinə keçsinlər və nəticədə onlardan da möhkəm iradəyə malik, canından keçməyə hazır olan bir rəhbər çıxmış olsun, həmin islahatçı isə İslamın özündə, onun tarixində və ənənələrində bərəkətli bir zəmin tapacaq”.[549] Ağaoğluna görə “islam millətləri” əsil islami qanunlara əməl etməklə yanaşı, Qərb mədəniyyətinin müsbət dəyərlərini də mənimsəməli, Avropa millətləri kimi inkişaf etməlidirlər. Ona görə mühafizəkarların təbliğ etdiyi kimi İslam dini bədbinlik deyil, nikbinlik və tərəqqipərvərlik dinidir. O, yazır: “Nə Quran, nə də şəriət özlüyündə tərəqqinin düşməni deyildir; özlərini İslam ideyasının daşıyıcıları hesab edən şeyxlər və üləmalar bəd məqsədlərlə oradakı fikirləri təhrif edib, onları mədəniyyətin barışmaz düşmənlərinə çevirmişlər”.[550]

Ağaoğlunun fikrincə, yanlız “panislamistlər” birləşmə anlamındakı keçmişə qayıtmağın əleyhdarı olmadığı kimi, eyni formada yeniləşməyə də qarşı çıxmaqla razılaşa bilməz. Çünki onların nəzərində birləşmək naminə keçmişə qayıtmaq qədər, yeniləşmək də çox vacibdir. O, yazırdı: “Birləşmə mənasında keçmişə qayıt-

---

[547] Mustafayev Qədim. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı, Maarif, 1973, s.93

[548] Ağaoğlu Əhməd. İslama görə və islamda qadın // “Mədəniyyət dünyası” - elmi-nəzəri məcmuə, 12 buraxılış, Bakı, 2006, s.49

[549] Yenə orada, s.49-50

[550] Yenə orada, s.50

mağı təbliğ edən panislamizm, eyni zamanda müsəlmanlar arasında müasir həyatın köklü və biryolluq dəyişdirilməsində təkid edir… Bu, vaxtilə yalnız müsəlmanların malı olan iqtisadi, siyasi və mədəni fütuhatlar sahəsindəki təkiddir… Bir sözlə, Avropa ağıl tərzi və yeni müsəlman meyli möcübincə islamçının ideyalarında panislamizm və yevropeizm anlayışı sinonimi xarakteri kəsb etmişdir”.[551] Ancaq Ağaoğlu “panislamizm” və “yevropeizm” arasındakı sinonimliyi əsasən elm, sənaye, siyasət, ticarət sahələrinə aid edib, bunu mənəviyyat və əxlaqi məsələlərdən uzaq tutmağa çalışmışdır.

Ağaoğlu İslamda yeniləşmənin zəruriliyi bağlı deyirdi ki, din nə qədər qüdrətli amil olsa da, özünü dində tapan insan, onun ən fəal amili kimi həmişə dini dəyişdirməyə, öz tələblərinə uyğun gələn nəzəriyyələr şəklinə salmağa çalışırdı. O, yazırdı: “İslamda da belə olmuşdur. Ərəblərin fiziki və zehni qüvvələri tükəndikdə, irq degenerasiyaya məruz qaldıqda, İslam onlardan heç də az primitiv, heç də az cəngavər olmayan Türk-Tatar tayfalarının əlinə düşdü, öz növbəsində onlar da İslamı öz qaydalarına uyğun dəyişdirdilər”.[552]

Quran ənənələri ilə öz dövrünü müqayisə edən Ağaoğlu İslamın təməl prinsiplərinə üstünlük verməklə yanaşı, onun heç bir siyasi, vicdani, mənəvi azadlığa zidd olmadığını əksinə, bu amillərin Quranda öz əksini tapdığını göstərməyə çalışmışdır. Q.Mustafayevin fikrincə, bununla da “ictimai-tarixi hadisələrə idealist-dini mövqedən yanaşan Ə.Ağayev özü-özünü inkar edir. O, bir əli ilə dində yeniliyin zəruriliyini yazır, digər əli ilə onu pozur”.[553] Bizcə də, Ağaoğlunun bir tərəfdən dində yeniləşməni zəruri saydığı halda, digər tərəfdən İslamın təməl prinsiplərinin qorunması məsələsində israrlı olması bir qədər ziddiyyətlidir. Belə ki, “islam millətçiliyi”ni əsaslandırarkən İslam fəlsəfəsindən, o cümlədən Qurani-Kərimə və peyğəmbərin hədislərinə üz tutan Ağaoğlu hesab edirdi

[551] Агайев А. Панисламизм, его характер и направление. “Каспий” газ., 1900 гг. 14 апрел №81, 22 апрел №87

[552] İqtibaslar aşağıdakı kitabdan götürülmüşdür: Mustafayev Qədim. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı, Maarif, 1973, s.89

[553] Yenə orada, s.89

ki, Məhəmməd peyğəmbərin (s.) təlimi Allahın təlimidir və İslam haqqında fikir yürütmək üçün Quran əsas götürülməlidir: "Məhəmməd peyğəmbər (s.) Allah haqqında onun təsəvvürlərinin Quranda əks edildiyi kimi, müasir fəlsəfə terminologiyasında deizm adını daşıyan təlimin ən bitkin, ən mükəmməl və ən etiqadlı nümayəndəsidir. Onun Allahı şəxs deyil, heç bir müəyyənliyə malik deyil, onu ifadə etmək mümkün deyildir. Ona heç bir atribut – nə mənfi, nə də müsbət atributlar müncər etmək olmaz. Bu, hər şeydən əvvəl, formasız, nəhayətsiz abstraksiya, hər yerdə bulunan, sonsuz, əql xaricində və hər şeyi əhatə edən ideal təsəvvürlərdir".[554]

Onun fikrincə, İslamdakı Allah anlayışı hər şeyin Ondan baş verdiyi və hər şeyin Ona qayıtdığı sonuncu "səbəblər səbəbidir". Allah həyatı, ölümü, zamanı, məkanı Özündə ehtiva edir, Özü isə bunların heç biri ilə məhdud deyildir. O, yazırdı: "Onun hər şeyi qavrayan deizmi… demək olar ki, panteizmə son dərəcə yaxınlaşır. Məhəmməd peyğəmbər (s.) bu ümumi müddəalardan çıxardığı nəticələrdə Avropa deistlərindən daha irəliyə getmişdir".[555] Çünki Avropa filosoflarının "Ali əql" ("Mütləq ideya"), İslam mütəfəkkirlərinin "Universal ruh" adlandırdıqları Allah bu peyğəmbərin vasitəsilə həqiqəti insanlarla birləşdirmişdir. Onun fikrincə, İslam ehkamı əqli – "bütün insanların daşıdığı daxili peyğəmbəri" bütün peyğəmbərlərdən yüksək tutur və o, peyğəmbərlər sırasının başında durur. Çünki əql insanlar üçün birinci peyğəmbərdir. Bu baxımdan İslam ehkamına görə "əqldə bəraət tapmayan nə varsa dinin tərkibinə daxil olmalıdır". Ağaoğlu yazırdı: "Kim özünü təfəkkür, elm sahəsində göstərmək istəyir, qoy o, bu peyğəmbərlər nəzəriyyəsini, bu həqiqətin inkişaf mənzərəsini imkan həddinə qədər genişləndirsin. O zaman onun qarşısında nə qədər gözəl və nə qədər də böyük perspektivlər açılmış olar".[556] Bu kimi mülahizələrdən görmək olar ki, Ağaoğlu özü də ilkin İslami ehkamların dəyişməsinin əleyhinə olub, yalnız İslama sonralar olunmuş əlavələrdən qurtulmağı vacib

[554] Yenə orada, s.89
[555] Yenə orada, s.90
[556] Yenə orada, s.91

hesab etmişdir. Ancaq məsələ ondadır ki, bəzi hallarda ilkin İslami ehkamlarla ona olunmuş əlavələrlə bağlı da yekdil fikir yoxdur. Başqa sözlə, bəzən müəyyənləşdirmək olmur ki, hansı əsil İslami ehkamlar, hansı isə əlavələrdir.

Ağaoğlu daha çox "Panislamizm və onun xarakteri" silsilə məqalələrində "islam millətçiliyi"nin elmi-nəzəri əsaslarını verməyə çalışmışdır. Onun fikrincə, İslam dinini qəbul edən xalqlar arasında bir çox milli adət-ənənələrdəkı fərqlər ortadan qalxmış, ortaq "İslam mədəniyyəti" və "İslam milləti" anlayışları yaranmışdır. Ağaoğlu yazırdı: "İslam ayrı-ayrı xalqların: ərəb, türk, fars, zənci, tacik və sairələrin özünəməxsus fərdi etiqadlarındakı, adət-ənənələrindəki, hətta dil və geyimlərindəki fərqi aradan qaldırmış – niverləmiş, sözün tam mənasında onları fatehlərin assimilyasiyasına məruz qoymuşdur. Hal-hazırda müsəlman xalqlarının lüğətində millət məfhumuna uyğun olan bir istilah axtarmaq yersiz olar. Çünki onların hamısı bu mənanı ifadə edən ümumi bir istilahı – ərəbcə "millət" sözünü işlədirlər. Bu istilah isə irqi, qövmi, etnik, hətta əxlaqi birliyi deyil, hər şeydən əvvəl dini birliyi ifadə edir".[557]

Onun fikrincə, "panislamizm" çərçivəsində "islam millətçiliyi" İslamın özündə, onun nəzəriyyə və tarixində ehtiva edilmişdir. Yəni hər cür etnik millətçiliyə düşmən olan İslam dini, onu qəbul edən xalqlar üçün ortaq bir din kimliyi "müsəlmanlar qardaşdırlar" tezisi ilə möhkəmlətmişdir. O, yazırdı: "Ümumbəşərilik demək olan İslam milli əlahidəliyi, irqi ayrı-seçkiliyi, silki xurafat və ənənələri zəiflətməyə çalışır. İslama görə ona iman gətirən bütün insanlar qardaşdırlar, hamı Allah və Quran qarşısında bərabərdir. Nə türk, nə ərəb, nə fars, nə hindu, nə zənci, nə ağ var: hamı müsəlmandır, bərabər və birdir, hamı eyni bir Atanın, sevən bir Atanın övladlarıdır, fərq yalnız Ona itaət edənin dərəcəsindədir. Bu ideya Quranda ümumi müddəa şəklində deyil, aydın və rəsmi şəkildə ifadə edilmişdir: "Müsəlmanlar qardaşdırlar"".[558]

---

[557]Агайев А. Панисламизм, его характер и направление. "Каспий" газ., 1900 гг. 14 апрел №81, 22 апрел №87
[558] Yenə orada.

Bizcə, Ağaoğlunun etnik millətçiliyi bir kənara qoyub "islam millətçiliyi"ni təbliğ etməsi və bunu "müsəlmanlar qardaşdırlar" tezisi ilə əsaslandırmağa çalışması təsadüfi deyildi. Burada ilk növbədə, Avropa dövlətləri və ideoloqları tərəfindən şüuri, fiziki cəhətdən param-parça olunmuş İslam xalqlarını bir arada tutmaq, onlar arasında mövcud olan düşmənçilik hisslərini aradan qaldırmaq idi. "İslam millətçiliyi"ni gerçəkləşdirmək naminə etnik millətçiliyi İslamın düşməni kimi qələmə verən Ağaoğlu da müsəlman xalqlarının qurtuluş yolunu "dini millətçilik"də görürdü.

Q.Mustafayevə görə "islam millətçiliyi"ni irəli sürməklə Ağaoğlu açıq şəkildə olmasa da, üstü örtülü olaraq dini millətçilik yolunu birinci plana çəkir və müsəlman xalqları bu bayraq altında toplamağa çalışırdı: "Burjua millətçiləri Azərbaycan xalqının maarif və mədəniyyəti yolunda maarifçilərin mübarizəsini islam maarifi və mədəniyyəti uğrunda mübarizə istiqamətinə yönəltməyə çalışır, onların köməyi ilə islam dini ilə elmi barışdırmaq, "islam mədəniyyətini" "qərb mədəniyyətinə" qarşı qoymaq, islamı müasirləşdirmək, islam ruhaniliyini çarizmin təsirindən xilas edib, islam millətçiliyi axınına cəlb etmək istəyirdilər".[559]

Bizcə, burada söhbət İslam mədəniyyətini Qərb mədəniyyətinə qarşı qoymaqdan çox Avropa mədəniyyətinə aid yeniləşmə ideyalarını da qəbul etməklə yanaşı, eyni zamanda, ona alternativ ola biləcək bir mədəniyyəti ortaya qoymaq idi. Sadəcə olaraq, burada özünü (panislamist, islam milləti) və mədəniyyəti (islam mədəniyyəti) adlandırma doğru seçilmədiyi üçün, bu Avropa ideoloqları tərəfindən ancaq dini birlik yönündən dəyərləndirilmişdir. başqa sözlə, C.Əfqani, Ə.Hüseynzadə, Ə.Ağaoğlu və başqa mütəfəkkirlər Yaxın Şərq xalqlarının ümumi oyanışı və birliyi adına "İslam milləti", "İslam mədəniyyəti" anlayışlarına sinonim başqa uğurlu ad tapa bilməmişdilər. Bundan yalnız etnik-milli anlamda (türkçülük, farsçılıq, ərəbçilik və b.) kənara çıxmaq mümkün idi ki, bu da Qərb mədəniyyətinə qarşı alternativ olmağı mümkünsüz edirdi. Ona görə

[559] Mustafayev Qədim. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı, Maarif, 1973, s.93

də, Qərb mədəniyyətinə, millətçiliyinə (əslində bunun da sinonim adı xristian millətçiliyi, xristian mədəniyyətidir) alternativ ola biləcək ən uğurlu ideya kimi "İslam mədəniyyəti" və "İslam millətçiliyi" görülmüşdür.

**Türkçülük və milli oyanış.** Ağaoğlunun "islam millətçiliyi" ilə yanaşı türkçülüyə üz tutmasında ən başlıca amil Qafqazda ruslaşdırma, farslaşdırma siyasəti, erməni-müsəlman münaqişəsi və milli özünüdərk prosesi olmuşdur. "İslam millətçiliyi" bütün müsəlman xalqlarını vahid mədəniyyət, vahid ideya, vahid dini-siyasi millət olaraq bir arada tutmaq qədər vacib olduğu halda, dörd bir tərəfdən Türk varlığına qarşı açılmış savaşlara dayanmaq üçün türkçülüyü də vacib etmişdir. Ancaq Ağaoğlunun nəzərində türkçülük süni bir millətçilik deyil, islamçılıqla səsləşən bir ideya idi. Ümumiyyətlə, o, süni millətçiliklə əsil millətçiliyi bir-birindən ayırmağa çalışmışdır. Onun fikrincə, "süni millətçiliyi" yaradan daha çox şəhər mühiti, onun məhdud görüşlü "intellektualları"dır: "Bir tərəfdən din, irq, digər tərəfdən isə insana nifrət – budur həmin "millətçilər"in guya öz millətçi tendensiyalarını bəyan etmək üçün istifadə etdiyi sevimli silahlar. Bu "intellektual əhval-ruhiyyə" şəhər islahatı keçiriləndən sonra bizim aramızda daha çox kəskinləşmişdir. Xalqı təmsil etməyə can atan, özgələrin fikirlərinə, sərbəstliyinə dözümsüz olan, başqalarının hüquqlarına, hisslərinə hörmət etməyən bu "intellektual fanatiklər" xalqın "qayğısına qalanlar" adı altında "din"lə, "irq"lə, "tarixi xatirələr"lə oynaqlaşırlar. Onlar hər boş şeyə, hər adi həvəsə milli-dini don geyindirməyə çalışırlar və nəticədə süni millətçilik meydana gəlir ki, bizim çoxsaylı "millətçilər" ondan məharətlə və özlərinə sərf edən kimi yararlanırlar".[560]

O, "Qafqazda milli məsələ" (1904) məqaləsində də yazırdı ki, yaxşı və pis millətçilik var: "Birincisi vətənə məhəbbətlə, dil ilə, qan ilə, ümumi ənənələr və tabe ilə bağlı olduğunuz insanlara qeyri-ixtiyari rəğbət etməkdir. Bu cür millətçiliyi təbiət özü yaradır və heç bir kapitalın, heç bir qəzetin burada işi yoxdur. Təbii olduğu

[560] Ağaoğlu Əhməd. Qafqazda milli məsələ. Bakı, Mütərcim, 2019, s.119

üçün belə millətçilik həm gözəldir, həm də xeyirxahdır. O, xeyirxahlıq etmək, vətənə xidmət göstərmək, onun uğrunda özünü, vaxtını, gücünü qurban vermək arzusundan o tərəfə keçmir. Ancaq pis millətçilik də var – ədavətə, nifrətə, başqalarına nifrət etməyə və əzməyə sürükləyən barışmaz millətçilik. Belə millətçilik sünidir, qeyri-təbiidir, onu insanlar və kapital yaradır”.[561] Ona görə pis millətçilik hər gün həyatımızı korlayır, bu faktdır: “Belə millətçiliyin haradan gəlməsi isə başqa bir məsələdir ki, onu anlamaq üçün bu bəlanın bizim diyara nə vaxtdan gəldiyini xatırlamaq yetər. Bir şey şəksizdir: bizdə sənaye, iri ticarət mərkəzləri, bir sözlə, kapital olmayana qədər pis millətçilik də yox idi. Gəldiyimiz yeganə qənaət budur ki, Qafqazda kütlə arasında, şəhər mərkəzlərində, kəndlərdə və tarlalarda heç kim millətçilik barədə düşünmür; orada hamı hiyləgərcəsinə müdriklik etmədən, sadə, eyni vətənin övladları kimi, eyni qayğılarla əhatələnən, ümumi zəhmətlə birləşən, bir-birinin köməyinə gələn insanlar kimi yaşayır”.[562]

“Pis millətçilik” Avropada kapitalizmin yaranmasıyla meydana çıxmış, burada burjuaziya və millətçilik bir-birinə bağlı olduğu üçün burjua olub millətçi olmamaq qeyri-mümkün olmuşdur. Ağaoğlu yazırdı: “Kapitalizm soyğunçuluğunda heç nəyə fərq qoymamaq isə kosmopolitizmdir. O, özünkünü də, özgəni də, ellini də, yəhudini də eyni rahatlıqla məhv edir. Lakin onun kosmopolitzmi bundan o yana keçmir. Özgəni məhv etmək lazım olanda və həmin özgə bunu könüllü etmək istəməyəndə kapital sözün ən pis mənasında millətçi olur”.[563] O, daha sonra yazırdı: “Avropanı – barışmaz millətçiliyin bu klassik ölkəsini götürün. Onu yaradan həmin kapital deyilmi? Hansısa bazarda ingilis kapitalisti ilə rəqabət aparmaq istəyən fransız kapitalisti öz vətənınində ingilislərə qarşı nifrət, paxıllıq hisslərini oyadır. Unutmayın ki, onun bunun üçün vasitələri – qəzetlər, jurnallar, teleqraf agentlikləri və görkəmli, nüfuzlu mövqeyi var. O, həmvətənlərinin xoş hisslərindən, onların öz millətinə,

---

561 Yenə orada, s.123
562 Yenə orada.
563 Yenə orada, s.122

vətəninə sevgisindən istifadə edir, bu hissləri pis yola çəkir, yaxşı millətçiliyi pis millətçiliyə çevrir. Bu azmış kimi, mənfəət qazanmaq üçün o, qayğı adı altında imkansızlığa düçar etdiyi, proletariata çevirdiyi əhalinin üçdə bir hissəsinə pis millətçiliyi artıqlaması ilə aşılayır. Bunlar barışmaz millətçiliyi daha da gücləndirir, inkişaf etdrir, dəstəkləyir".[564]

Ağaoğlunun dünyagörüşündə "islam millətçiliyi"ümumi xarakter daşıdığı halda, türkçülük daha çox xüsusi mahiyyət kəsb etmişdir. Buradakı xüsusiliyin mahiyyətində də çar Rusiyasının işğalı altında olan Türk-Tatar xalqlarının dini millətçilikdən daha çox etnik millətçiliyə görə assimliyasiyaya məruz qalması idi. Türkçülük hissinin güclənməsi də farslaşdırma, ruslaşdırma, erməniləşdirmə siyasəti qarşısında mühüm siyasi faktor idi. Ağaoğluna görə Rusiyadakı müsəlman cəmiyyəti də yalnız dini deyil, həm də milli xarakterlidir: "Bütün bu cəmiyyət yalnız dini cəmiyyət olmayıb, eyni zamanda etnik bir varlıqdır. Çünki bizim Rusiya müsəlmanları çox az istisna ilə böyük Türk-Tatar irqinə mənsubdurlar".[565]

Y.Akçuranın təbrincə desək, ruslaşdırmaya, farslaşdırmaya qarşı dayanmaq, məzhəb ayrılığına son qoyaraq düşmənlərə fürsət verməmək baxımından Ə.Ağaoğlu, Ə.Hüseynzadə və Ə.Topçubaşı Qafqaz türkləri arasında milli birliyin yaranmasına çalışmışlar. Ona görə də Ə.Ağaoğlu nə qədər "İslam milləçiliyi"ndən çıxış etsə də, Azərbaycan türklərinin oyanması baxımından gördüyü milli işləri, xüsusilə erməni-müsəlman münaqişəsi zamanı "Difai"nin lideri kimi apardığı mübarizə onu islamçılığın ideoloqu ilə yanaşı, türkçü adlandırmağa layiq edir.[566] T.Svyatoxovski isə hesab edir ki, tatar-erməni mübaribəsi nəticəsində meydana gələn "Difai" özünün əsasən antirus fəaliyyəti ilə Şamil dövründən bu yana təşkilatlanmış heç bir müqavimətlə üzləşməyən çarlığı uzun illər boyu mütilik tabeçilyə zərbə endirmiş oldu.[567]

---

[564] Yenə orada, s.123

[565] Akçuraoğlu Yusif. Türkçülüyün tarixi. Bakı, Qanun, 2010, s.228

[566]Yenə orada.

[567] Свйатоховский Т. Руский Азярбайджан 1905-1920 гг. "Хазар",1990, №1, s.101

Ağaoğlu "Tulu edən ay parçası" məqaləsində yalnız müsəlmanlığın deyil, türklüyün də müdafiəçisi kimi çıxış edib bunun səbəblərini göstərirdi: "Türklük və müsəlmanlıq məsələsinə gəldikdə yenə menşikovlar bilməlidirlər ki, biz müsəlmanız və türküz. Nə müsəlmanlıqda və nə türklükdə elə bir ləkə gətirən bir şey yoxdur ki, biz öz müsəlmanlığımızı və türklüyümüzü gizləyək. İslam dünyada ən əvvəlinci dinlərdən birisidir. Onda elə bir insanpərəstlik vardır ki, insana fəxr və səadətdən savayı bir şey gətirməz. İslamda nə var ki, biz ondan utanıb öz müsəlman olmağımıza pərdə çəkək? Menşikovlara İslam xoş gəlməyir. Mənə də Xristianlıq xoş gəlməyir. Onlar öz yollarında, mən də öz yolumda. Nə onlara, nə də mənə bundan bir töhmət, bir məzəmmət gəlməz. Türk tayfası isə əlan Asiya və Afrikada islamlar arasında ən böyük, ən rəşid, ən müstəid, ən qabil, ən həmiyyətli, ən birinci tayfadır. Türklük ilə ancaq iftixar etmək olar".[568] O, yazırdı ki, türklük elə bir hiss, duyğudur ki, onu heç kim türkün əlindən zorla ala bilməz: "Türk olubda qəlbi-meylimiz dünyada, hər yerdə Türk var isə onadır. Bu bir hissi-təbiidir. Dünyada heç bir güc, heç bir zor bizim əlimizdən alamaz".[569]

Ağaoğlunun fikrincə, ancaq antitürk, antiislam ideoloqların ifadə etdiyi kimi, müsəlman və türk olmaq heç də "panislamist" və "pantürkist" olmaq demək deyildir: "Çünki panislamist demək, yəni cümlə müsəlmanları bir müsəlman dövlətin təxti-idarəsinə cəm etmək deməkdir. Pantürkizm demək də cümlə türkləri bir türk dövlətinin təxti-həkumətinə cəm etmək deməkdir. Əgər mənə belə isə dünyada bir müsəlman, bir türk tapılmaz ki, belə xəyal ilə uğraşsın. Əgər tapılsa belə divanədir. Çünki müsəlmanlar və türklərin indiki halında belə fikirlərə alışmaq Don Kixot kimi yel dəyirmanı ilə vuruşmaq kimidir. İslam və Türk bu halda elə pərişan, elə məzlumdurlar ki, bu növ fikirlərə əsla belə yer vermiyorlar. Müsəlmanların və türklərin yüzdə doxsanı özgə tayfaların əlindədirlər ki, olsun Avropa tayfalarından. Bu tayfalar alim, müsəlləh tayfalardır".[570]

---

[568] Ağaoğlu Əhməd. Qafqazda milli məsələ. Bakı, Mütərcim, 2019, s.236-237
[569] Yenə orada, s.241
[570] Yenə orada, s.237

Ağaoğlu çar hökumətinin ruslaşdırma siyasətinə qarşı "Hürriyyət, Müsavat, Ədalət!" devizi ilə nəşr olunan "İrşad" qəzetinin tutduğu məsləki belə izah etmişdir: Birincisi rus hökumətinə qarşı mücadilə edərək Türk ünsürünün siyasi hüquqlarını təmin etmək, ikincisi isə, Türk ünsüründə birlik fikrini yaratmaq.[571] Doğrudan da, Ə.Ağaoğlu həmin dövrdə çar hökumətinin, eləcə də marksist-leninçilərin Türk xalqlarına qarşı yeritdiyi riyakar siyasəti ifşa etməyə çalışmış, sonuncuları ittihad və ittifaqa çağırmışdı.

Onun fikrincə, çar hökumətinin siyasəti isə, sadə rusların türklərə olan münasibətindən tamam fərqlidir. Belə ki, sadə ruslarla türk-tatarlar arasında gizli bir doğmalıq, yaxınlıq vardır, çünki rusların damaralarında türk-tatar qanı çoxdur. Tatarların bir neçə yüz il davam etmiş hökmranlığı hədər getməmiş, hər iki irq bir-birinə möhkəm qaynayıb qarışmışdır. Bir sözlə, ruslarla türk-tatarlar aralarındakı din ayrılığına baxmayaraq, tatarların öz antropoloji xüsusiyyətlərini qoruyub saxlamaqla yanaşı, bir çox rus ailələrinin də damarlarından tatar qanı axır. Ancaq türk-tatarlarla ruslar arasındakı bu doğmalığa, yaxınlığa rəğmən, 1-ci Rus inqilabına qədər çar Rusiyası "mənfur məzhəbçilik-ruslaşdırma siyasəti" aparmış, onları ən təbii hüquqlardan belə məhrum etmişdir.[572] Maraqlıdır ki, vəziyyətin bu dərəcəyə çatmasında isə rus məmurları hökuməti deyil, türk-tatarların özlərini günahkar saymışlar. Belə ki, Ə.Ağaoğlu və başqa ziyalıların ruslaşdırma ilə bağlı imperiya məmurlarına yönəlmiş ittihamlarına onların cavabı belə olmuşdur: təqsir sizin özünüzdədir, axı siz nə üçün səsinizi çıxarmırdınız, nə üçün indiyə qədər özünüzü göstərmirdiniz. Ə.Ağaoğlu isə, rus məmurlarının bu iradlarını acı həqiqət kimi dərk edib sarsıldıqlarını bildirmişdir.[573] Rus məmurları bu iradlarında heç də haqlı deyildilər. Buna ən bariz nümunə kimi "Əkinçi"nin bağlanmasını, uzun müddət Türk dilində

---

[571] Akçuraoğlu Yusif. Türkçülüyün tarixi. Bakı, Qanun, 2010, s.228

[572] Ağaoğlu Əhməd. Peterburq səyahətimdən nə nəticə çıxardım? // Hüseynov Şirməmməd. Mətbu irsimizdən səhifələr. Bakı, "Çənlibel" NPM, 2007 s.40

[573] Yenə orada, s.41

qəzetlərin nəşrinə qadağaları, çar zülmünə qarşı tək-tük çıxanların ya öldürülməsini, ya da Sibirə sürgün edilməsini göstərə bilərik.

Rus məmurlarının dediklərində həqiqətə oxşayan, yalnız türk-tatarların milli birlik məsələsində yetərincə iş görməmələri, əksəriyyətinin haqsızlığa, ədalətsizliyə qarşı dözümlülük (!!!-F.Ə.) nümayiş etdirmələri idi. Ağaoğlu yazırdı: “Bu, bizim tərbiyəmizin birinci kredosudur, valideynlərimizdən aldığımız birinci öyüddür. Bizim bütün şairlərimiz, yazıçılarımız, müdriklərimiz dinməməyi gəncliyin ən böyük bəzəyi, qocaların müdriklik əlaməti kimi tərənnüm edirlər”.[574] Bir sözlə, müsəlmanlar arasında “susmaq qızıldır” kimi fikirlər hamıya məlumdur. Onun fikrincə, son əsrlərdə hökmdarlar, riyakar ruhanilər “özlərinin əmin-amanlığı naminə bizim müqəddəs dinimizi istismar etmişlər, onlar bizim qəlbimizlə oynamışlar və biz buna da dözürük”.[575]

Deməli, son dövrlərdə “susmağ”ın nəticəsi idi ki, həm ruhən, həm də cismən əzilmiş bir millət tamam “lal” olmuşdur. Halbuki rus inqilabi illərində “danışmaq” qabiliyyətinə çox ehtiyac duyulurdu və millətin gələcək mövcudluğu da bundan asılı idi. O, yazırdı: “Rusiyalı müsəlmanlar üçün də köhnə dəyərləri yenidən qiymətləndirmək üçün tarixi məqam yetişmişdir. Biz özümüzün “tarixi sükutumuzu” da, onunla birlikdə insanların taleyinə hansısa möcüzəli bir ilahi qüvvənin müdaxilə edəcəyinə tarixi inamı da bir kənara atmalıyıq. Biz müsəlmanlar nədənsə belə düşünməyə vərdiş etmişik ki, guya biz heç nə etməsək də, ulu Tanrı bizim qeydimizə qalacaq və işlərimizi lap yaxşı yoluna qoyacaqdır. Bu cür düşüncə ilk növbədə, Qurana ziddir. Quranda göstərilir ki, insanın bütün taleyi, onun bütün qisməti özünün enerjisindən və əməyindən asılıdır”.[576]

Ağaoğlu yazırdı ki, əmək sərf etmədən işləyən, əl-ələ verib yaşayan xalqlarla rəqabət aparmağı düşünmək çox yanlışdır, daha belə yaşamaq yaramaz. Artıq özümüzü cansız, ölü portretlərin yerinə qoymaqdan əl çəkməli, işləməli, özümüz özümüzün qeydinə

[574]Yenə orada, s.41
[575]Yenə orada, s.42
[576]Yenə orada, s.42

qalmalı, ehtiyaclarımız barədə düşünməli, onun təmin edilməsi üsullarını öyrənməliyik. O, yazırdı: "İndi bütün Rusiya qarşısıalınmaz və qüdrətli bir tərzdə yeniləşdiyi bir dövrdə biz müsəlmanlar da yeniləşməliyik, əks təqdirdə biz yenə geridə qalacayıq, yenə hamı bizi ötüb keçəcək".[577] Rusiyada həyata keçirilən islahatlardan maksimum yararlanmaq, yeni həyat formaları arasında başımızı itirməmək, həmin formalara ağlabatan tərzdə uyğunlaşmaq, ətrafımızıdakı xalqların səviyyəsinə çatmaq və özümüzə layiqli yer tumaq lazımdır: "Bundan ötrü isə: 1) elə bu saat, dərhal ictimai həyatda bizim zəifliyimizin, indiferentliyimizin, dava-dalaşın, şəxsi qərəzliyin bütün səbəblərini bir kənara atmalıyıq; 2) hər yerdə və hər işdə ağla, zəkaya, işguzarlığa, biliklərə, namusluluğa üstünlük verməli, onları yerlibazlığın, qohumbazlığın və şəxsi qərəzliyin kölələrinə çevirməməliyik; 3) müsəlmanlara hər yerdə və hər işdə, həmçinin müsəlman ziyalılarına tam etimad göstərilməli, onları özləri üçün rəhbər seçməli, onların məsləhət və göstərişlərinə əməl etməlidirlər, çünki yeni həyatın tələblərini, bu tələblərin təmin edilməsi üsullarını ən yaxşı bilən həmin ziyalılardır".[578]

Ağaoğlunun bu tezislərində açıq aşkar milli əlamətlər də öz əksini tapmışdır. Çünki o, Rusiyadakı müsəlman xalqları dini mənsubiyyət qədər, etnik mənsubiyyəti də nəzərə almaqla, birləşməyə çağırır və əsas yükü ziyalıların çiyininə qoyurdu. Birinci növbədə ziyalılar bütün qüvvələrini cəmləşdirməli, gecə-gündüz yorulmaq bilmədən işləməli və ölkə yeni həyata qədəm qoyduğu andan etibarən buna hazır olmalıdırlar. Çünki ziyalılar "öz xalqlarının taleyini müəyyənləşdirən məsələləri həll etməli olacaqlar. Məhz buna görə də ziyalılar təxirəsalmadan bu məsələlər üzərində düşünməli, onları hərtərəfli, ağılla götür-qoy etməli, heç bir sentimental və ya nəzəri ideologiyaya uymamalıdırlar".[579] Türk-müsəlman ziyalılar Qafqazda müsəlman türklərin çoxluq təşkil edən bir millət olduğuna görə, mövcud olan rəsmi dövlət orqanları və başqa təşkilatları, eyni za-

[577] Yenə orada, s.43
[578] Yenə orada, s.44
[579] Yenə orada, s.45

manda diyarın özünü hərtərəfli öyrənməlidirlər. Əgər bu baş verərsə, onda türklər Qafqazın ən sanballı milləti kimi diyarın həyatında onun sayına və mövqeyinə uyğun yer tuta biləcək və indiyə qədər olduğu kimi kənarda qalmayacaqdır.[580]

Ağaoğlu "Bəs bizim ziyalılarımız hardadır?" məqaləsində isə ruslaşdırma siyasətinə qarşı mübarizədə ziyalıların yerini və rolunu göstərməyə çalışmışdır. O, yazırdı ki, əsl ziyalı özü və ətarfı üçün deyil, bütövlükdə fərdi olduğu millət və onun ali məqsədləri, üçün mübarizə aparan şəxsdir. O, təəssüf edidi ki, dövründə ziyalı adlananların böyük çoxu xalqdan uzaq olub, üstəlik cəmiyyəti durğunluqda, cahillikdə, avamlıqda, nadanlıqda ittiham etməklə işlərini bitmiş sayırlar. Ağaoğlu haqlı olaraq yazırdı ki, bunun müqabilində kütlənin bu cür ziyalılara soyuq, istehzalı-inamsız münasibətini ədalətli, əsaslı saymaq olar.[581] Bütün bunlara baxmayaraq, son vaxtlarda sözün həqiqi mənasında milli ruhlu ziyalıların ortaya çıxmasına da işarə edən Ağaoğluya görə bu kimi ziyalılar xalqın içinə gedərək xalqın ümid yerinə çevrilməyə başlamışlar.[582]

Ağaoğlunun millət, millətçiliklə bağlı mülahizələri "Bizim millətçilər", "Millət və millətçilik" məqalələrində də öz əksini tapmışdır. "Millət və millətçilik" silsilə məqalələrində o, yazırdı: "Kamali əminiyyət və iftixar ilə deyə biləriz: Rusiya müsəlmanları arasında milliyyət və İttihadi-İslam məsələlərini qalxızanların birisi də biz özümüzük".[583] Ona görə artıq Türk xalqlarını millətlərin inkişafının ən parlaq mərhələsini təşkil edən millətçilik deyilən dövrə çatdırmaq uğrunda mübarizə aparmaq lazımdır.[584] Bəşərin tarixi təkamülündə dindən sonra millətçiliyi insan ruhunun ikinci növü adlandıran Ağaoğluna görə birincisi cəmiyyətin, millətin ilkin, əbədi halı, ikincisi isə bəşəri təkamülün vacib əlaməti, xassəsi, hətta onun inkişafının "sehrkar halı"dır: "Nasionalizm dövrəsi bir millətin əm-

[580] Yenə orada, s.45
[581] Ağaoğlu Əhməd. Bəs ziyalılarımız hardadır? Bakı, "Qanun", 2019, s.102-103
[582]Yenə orada, s.104-105
[583] Ağaoğlu Ə. Millət və millətçilik. "Tərəqqi" qəz., 1909, 22 yanvar №16, 26 yanvar №19, 29 yanvar №22, 5 fevral №28
[584] Yenə orada.

rində həmin mayənin xəmiriyyəyə təsir edib, onun qıcqırması kimidir. Nasionalizm dövründə millət özünə gəlir, özünü tanıyır, onun cümlə üzvləri cabəca olub, millətin vücudu, bədəni qəribə bir mətanət, bir mükəmməlliyət kəsb ediyor”.[585]

Qeyd edək ki, 1910-1918-ci illərdə Ə.Ağaoğlu Türkiyədə olarkən, xüsusilə “Türk Yurd”u dərgisində “Türk aləmi” sislsilə yazıları ilə islamçılıqla türkçülüyün bütövlüyü məsələsinə daha çox diqqət ayırmışdır. Onun fikrincə, islamiyyət cərəyanının tərəfdarları bilməlidirlər ki, qövmiyyət (milliyyət) cərəyanı da ictimaiyyət arasında nüfuza malikdir: “İslamiyyət faili müxtəlif millətlərdən təşəkkül etdiyi üçün pək təbiidir ki, vahid külli qüvvət, səlahiyyət və mədəniyyət, onu təşkil etməkdə olan əza və əqvamın qüvvət və mətanəti ilə mütənasibdir. İslam millətləri nə qədər güclü və mətin olursa, islamiyyətin heyəti-ümumiyyəsi də eyni nisbətdə qüvvət və mətanət kəsb edir. Milliyyətə xidmət etmək filhəqiqə islamiyyətə də xidmət etmək deməkdir”.[586]

Bununla da, Ağaoğlu türkçülüyü islamçılığa, islamçılığı isə türkçülüyə qarşı qoyanlara öz etirazını bildirmişdir. O hesab edirdi ki, islamçılığı gücləndirən ən önəmli amil milliyyət, yəni türklükdür. Əgər onlar bir-birinə qarşı qoyularsa hər ikisi süquta uğrayacaqdır. Bu mənada Ağaoğlu islamçılığın güclü olması üçün, milliyyətin də güclü olması fikrini müdafiə etmişdir. Burada önəmli bir məqam var ki, Ağaoğlu bir müddət İslam-Türk birliyi tərəfdarı olmuşdur. Görünür, bu səbəbdəndir ki, Ağaoğlu İslam-Türk birliyindən çıxış edərək etnik türkçülüyü, yəni ayrı-ayrı Türk dövlətlərinin yaranması ideyasına bir o qədər də rəğbət göstərməmişdir. Ağaoğlu yazırdı ki, Türk-İslam birliyi məsələsində Sultan Səlimdən sonra Nadir şah Əfşar mühüm rol oynamışdır: “Nadir bu işdə daha irəli getdi; Türküstanı, Buxaranı, Xivəni aldı və Osmanlılarla birləşmək istədi; sünni-şiə ixtilaflarını aradan qaldıraraq vahid bir mil-

---

585 Yenə orada.

586 Ağaoğlu A. Türk alemi. İslamiyet ve türklük//İstanbul, “Türk yurdu”, 1912, №7, s.198-199

lət və vahid bir ümmət qurmaq sevdasına düşdü. Fəqət bu sevdayə də İstanbulun inadı mane oldu!”.[587]

Bu baxımdan bəzi tədqiqaçılar (A.Balayev və b.) hesab edirlər ki, 1918-ci ildə Qafqaz İslam Ordusunun tərkibində Azərbaycana gələn Ə.Ağaoğlu Nuru paşanın siyasi müşaviri kimi İslam-Türk birliyi ideyasına uyğun olaraq, müstəqil Türk dövlətlərinin yaranmasının əleyhinə çıxmış, hətta, Azərbaycanın Türkiyəyə birləşməsini tələb edən “ilahaqçılar”ın əsas ideoloqlarından biri olmuşdur.[588] Vaxtilə M.B.Məhəmmədzadə də yazırdı ki, Nuru paşanın səlahiyyətli siyasi müşaviri Ağaoğlu onunla danışıqlar aparmağa gələn Milli Şuranın nümayəndələrinə (M.Ə.Rəsulzadə, F.Xoyski və M.H.Hacınski) xalqın onları istəmədiyini, bu səbədən onların hökumətinə qarşı xalq üsyan edəcəyi təqdirdə tərəfsiz qalacaqlarını bildirmişdi. Ə.Ağaoğlu siyasi böhrandan çıxış yolu kimi təklif etmişdir ki, Milli Şura ləğv olunsun və Nuru paşanın özü bir hökumət qursun. Ancaq Milli Şura nümayəndələrinin onun bu fikirlərinə etiraz etməsindən sonra Ə.Ağaoğlu razılaşmışdır ki, Milli Şura yeni hökuməti təşkil etsin və bütün hüquqlarına ona verməklə, özünü ləğv etsin.[589] Ağaoğlunun Milli Şuraya qarşı tutduğu kəskin mövqe həm o zaman, həm də sonralar onun ayrı-ayrı müstəqil Türk dövlətlərinin deyil, vahid İslam-Türk dövləti ideyasının tərəfdarı olması mülahizəsinin yaranmasına səbəb olmuşdur.

Ümimiyyətlə, Azərbaycanın milli istiqlalı məsələsində Ağaoğlu ziddiyyətli mövqe tutmuşdur. Nuru paşanın “siyasi müşaviri” kimi Milli Şuranın ləğvinə və Osmanlı ilə birləşmək istəyən “ilhaqçılar”a meyilli yeni hökumətin təşkilinə nail olan Ə.Ağaoğlu, Osmanlıdan gələn türk əskəri Azərbaycanı tərk etməyə məcbur olduqdan sonra, Bakıda çıxan rusdilli qəzetlərdən birinə verdiyi müsahibəsində Azərbaycanın yenidən Rusiyanın tərkibinə qayıtmasını ən məqbul variant kimi göstərmişdi: “Azərbaycan türklərinin indi-

---

[587]Ağaoğlu Əhməd. İran və inqilabı (Seçilmiş əsərləri).Bakı, “Şərq-Qərb”, 2007, s.123

[588] Balayev Aydın. Məmməd Əmin Rəsulzadə (1884-1955). Bakı, “Çıraq” nəşr., 2011, s.117-118

[593]Məmmədzadə Mirzəbala. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992, s.99-101

yə qədər arxalandıqları Türkiyə, Dünya müharibəsi nəticəsində məğlub olmuşdur. Azərbaycan müstəqil yaşaya bilmədiyi üçün Rusiya ilə Türkiyədən birinə arxalanmalıdır. Türkiyə məğlub olduqdan sonra Azərbaycanın öz taleyini Rusiyaya bağlamaqdan başqa çarəsi qalmır. Özü də mədəni cəhətdən Rusiya Türkiyə ilə müqayisədə daha yüksək pillədə durur. Bütün bu mülahizələri nəzərə alaraq, eləcə də Azərbaycan məsələsinin Avropadakı sülh konfransında qəti həllini tapmayacağı təqdirdə, Azərbaycan xalqı ÜmumRusiya Federasiyasının tərkibinə daxil olmağa razılaşmalıdır”.[590]

Ancaq Parlamentin yaranması, siyasi böhranın aradan qalxmasından sonra, artıq millət vəkili kimi Ağaoğlu Cümhuriyyətin istiqlalını dəstəkləmişdir. Bunu, onun parlamentin iclaslarındakı çıxışları da təsdiq edir: “Hökumətin bəyannaməsində söylədiyi Azərbaycan istiqlalı bizim hamımızın əfzəl (birinci) amalımızdır! Hər bir öz şərəfini, öz amalını bilən azərbaycanlı bunu duymalı və bu yolda olmalıdır!”.[591] Ona görə Azərbaycanın coğrafi isim deyil, yer üzündə yaşayan bir millətin yurdu, dövləti olmasını artıq bütün dünyaya, o cumlədən Avropaya da tanıtdırmaq lazımdır.[592]

**Hitlerizmin tənqidi. Kamalizm və hitlerizmin müqayisəsi.** Ə.Ağaoğlu yaradıcılığında hitlerizmin tənqidinə də yer vermişdir. Onun fikrincə, hitlerizm öz qaynağını alman filosofu F.Nitsşenin “fövqəlinsan”, “üst insan” zehniyyətində bulmuşdur. Nitsşe hərəkət və davranışlarında sərhəd bilməyən insanları “fövqəlinsan” adlandırıb “qəhrəman” kimi təqdim edirdi ki, son nəticədə də “fövqəlinsan”lar “ari irqi”ni ortaya qoymuşdu. Beləliklə, qürur və kibr təlqin edən bu fikir mənzuməsi alman gəncliyini gizlicə bəslədi və ona almanların hər millətin və hər şeyin fövqündə olduğu və ona görə də bütün digər millətləri özündən aşağı görmək hissini verdi. O, yazırdı ki, Nitsşenin “həyat fəlsəfə”sindən

[590] İqtibas aşağıdakı kitabdan gətirilmişdir: Balayev Aydın. Məmməd Əmin Rəsulzadə (1884-1955). Bakı, “Çıraq” nəşr., 2011, s.148

[591] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). I cild. Bakı, “Azərbaycan”nəşriyyatı, 1998, s.129

[592] Yenə orada, s.130

qaynaqlanan hitlerizm və onun Nasional-Sosialist partiyası rasisit, irqçi yol tutub bəşəriyyəti ikiyə bölmüşdür: "Bir qismi başda Almaniya olmaqla arilərdir: Supermensh – yəni fövqəlbəşərləri onlar və bilxassə almanlar yetişdirir. Digər qismi isə - untermenshentum, yəni dünülbəşərdir, bütün Şərq insanları bu məyandadır: "Şərqlilər bəşəriyyətin aşağı məxluqu olduqlarından mədəniyyətə, ali, yaradıcı həmlələrə, əsil və nəcib fikirlərə və hisslərə istedaddan məhrumdurlar. Onlar mənfi bir ünsür olduqlarından mədəniyyət üçün bir təhlükə təşkil edərlər. Ona görə də mədəniyyət amili olan "fövqəlbəşərlər", bilxassə almanlar bu "dünülbəşərlər"dən mədəniyyəti qorumalıdırlar və buna görə də onları hakmiyyətləri altına almalıdırlar". [593] "Dünülbəşər" nəzəriyyəsi bütün Şərqi ehtiva etdiyindən Şərq xalqları, xüsusilə də Türkiyə kimi "fövqəlbəşərlər"ə yaxın olanlar bütün bunlara laqeyd qalmamalıdırlar. O yazırdı ki, əgər alman nasistlər türklərin üzərinə irqçi nəzəriyyələri ilə gələrlərsə, onlara haqlı olaraq bu sözləri söyləyə bilərik: "Əvvala, sizin bəşəriyyəti "fövqəlbəşər" və "dünülbəşər" deyə ikiyə bölməniz heç bir həqiqətə istinad etməyən zehni bir dəlalətdir. İkincisi, əgər həqiqətdə fövqəlbəşər bir irq var və bu irq də ari isə bəşəriyyətə imamət şərəfini arilərin əsil və kökü olan və bu baxımdan sizdən çox əsil və nəcib olan hindlərə buraxmalısınız...".[594]

Hitlerizmlə Kamalizm arasında bənzərliklər tapmaq istəyənlərə qarşı çıxan Ağaoğlunun fikrincə, bu iki cərəyan arasında kifayət qədər təzad və ziddiyyətlər vardır. O, yazırdı ki, Kamalizm yaradıcı bir hadisə olub yoxdan bir dövlət vücuda gətirdiyi halda, hitlerizm müsbət anlamda bir yaradıcılıq əsəri göstərməyib: "Kamalizm geniş və məmləkətçi bir hərəkatdır. Kamalizmin vücuda gətirmiş olduğu Təşkilati-Əsasiyyə Qanunu Türk mədəniyyətini qəbul edən hər kəsi Türk kimi qəbul eyləməkdədir. Hitlerizm isə dar, inhisarçı bir hərəkatdır. İrqçi-rasist deyə öz-özünü tərif edən bu hərəkat alman mədəniyyətini qəbul edərək bu mədəniyyətin feilən inkişafına xidmət və yardım edənləri

---

[593] Ağaoğlu A. "Untermenshentum" - "Dünülbəşər". "Akın", sayı 33, 30 haziran 1933
[594] Yenə orada.

yalnız almanlıqdan deyil, alman hüdudu xaricinə atmaqdadır. Kamalizm milli olmaqla bərabər bəşəridir. O, hüquqda, əxlaqda bədiyyatda və bilgidə, bütün bəşəriyyətin birgə çalışması məhsulu olan bütün həqiqətləri, yaxşılıq və gözəlliyi mənimsəməkdə tərəddüd etməz. Hitlerizm isə qeyri-bəşəridir.Çünki hər sahədə hər şeyi almanlığa, alman irqinə çevirmək xülyasındadır".[595]

Beləliklə, Ağaoğlunun gəldiyi qənaətə görə hitlerizmin gələcəyi yoxdur, o müəyyən bir müddət "parlaya" bilər, ancaq tez sönəcəkdir. Çünki alman xalqı gec-tez demokratiya yolunu turmaqdan başqa bir yol görməyəcəkdir.

**Əxlaqi-fəlsəfi və liberal görüşləri.** Ağaoğlu "Üç mədəniyyət" (1919-1921) əsərində üç fərqli – İslam, Qərb və Budda-Brəhmən mədəniyyətlərinin müqayisəsini aparmış, əxlaqi-fəlsəfi anlamda fərqliliklərini izah etmişdir. O hesab edirdi ki, hansı xalqlar mədəniyyətin bütün sahələrində inkişafa nail olublarsa, digər mədəniyyətə sahib millətlər üzərində hökmran vəziyyətə gəlmişlər. Hazırda Avropa-Qərb mədəniyyəti məhz belə bir qalib mövqeyə çatmış, İslam və Budda-Brəhmən mədəniyyətləri isə məğlub duruma düşmüşlər. Ağaoğlu yazırdı: "Yenilmə iki cürdür: maddi və mənəvi. Maddi yenilmə o qədər açıqdır ki, artıq zənn edirəm hamımızın beynimizə qədər girdi. Yenilmənin bu qismi bu gün deyil, üç yüz ildən bəri başlamışdır. İslam cəmiyyətləri bir-birinin ardınca və gurultulu bir tərzdə yıxılmaqda və məhv olmaqdadır. Bir çox müstəqil İslam hökumətlərindən tək bir dənəsi bu gün özünü qoruya bilmədi. İslamiyyətin son sağlam qalası olan Osmanlılıq da bugünkü pərişan halına düşdü. Artıq bu qədər yıxılma inkar olunacaq kimi deyildir. Bütün bu pərişanlıqlar, bu yıxılmalar, şübhəsiz Qərb mədəniyyəti ilə olan mücadilənin doğrudan-doğruya sonucudur".[596]

İslam və Budda-Brəhmən mədəniyyətləri mənəvi baxımdan da Qərb mədəniyyətinə yenilərək, onun şəxsiyyət və özəlliklərini qəbul və iradəsinə tabe olmaq məcburiyyətində qalmışlar. Müsəlmanların və buddistlərin bütün sahələrdə avropalıları təqlidə başla-

---

[595]Ağaoğlu A. "Kamalizm ve Hitlerizm. "Akın", sayı 51, 18 temmuz 1933

[596] Ağaoğlu Əhməd bəy. Üç mədəniyyət. Bakı: Mütərcim, 2006, s.28-29

dıqlarını irəli sürən Ağaoğlunun fikrincə, bununla da müsəlman ölkələrində qədim ənənələrə dayanan mühafizəkarlarla Avropa mədəniyyəti tərəfdarları çarpşmağa, ölüm-dirim mücadiləsi verməyə başladılar. Ağaoğlu yazır: “Bir tərəf əskini, ənənəni qorumağa çalışır, o biri tərəf isə bu mühafizəkarlığın ölüm demək olduğunu təqdir edərək, Avropa mədəniyyətini almaq sayəsində varlığını davam etdirməyə çabalayır. Həyatın hər günkü təcrübələri, olayları bu ikinci cərəyana haqq verməkdədir. Avropa mədəniyyətindən qorunmaq istəyən bütün cəmiyyətlərin və özəlliklə İslam mədəniyyətinə mənsub olanların hər gün tükənib getməkdə olduqlarını görürük… Sel kimi axıb gələn və qarşısında öz türündən əngəllər görməyən Avropa mədəniyyəti hər şeyi sürükləyib götürür. Bu halda tək çarə yenə o mədəniyyətə isinişmək, onu almaqdır”.[597]

Ancaq Avropa mədəniyyətini qəbul edənlər arasında da fikir ayrılığı vardır. Bəziləri mədəniyyəti elm və fənnə bağlayaraq, Avropa mədəniyyətinin süzgəcdən keçirilməsini, onun yalnız bu tərəfinin qəbul edilməsini irəli sürdükləri halda, başqaları Qərb mədəniyyətinin tam şəkildə mənimsənilməsinin tərəfdarıdırlar. Sonuncuların fikri ilə həmrəy olan Ağaoğlu yazır ki, bir mədəniyyət zümrəsi bölünməz bir bütündür, parçalanmaz, süzgəcdən keçirlə bilməz: “Qalibiyyət və üstünlüyü qazanan onun bütünüdür. Yoxsa ayrı-ayrı filan və yaxud filan qismi deyildir. Avropa sahəsində elm və fənn başqa çevrələrdən ziyadə gəlişirsə, bunun səbəbləri o çevrənin bütünündə aranmalıdır, bugünkü Avropa elm və fənni doğrudan-doğruya öz şərtlərinin və ümumi ünsürlərinin bir əsəridir”.[598] Bu baxımdan Ağaoğluya görə Qərb mədəniyyətini tam qəbul etməli, yalnız geyimlərimizi, evlərimizi, müəssisələrimizi deyil, beynimizi, görüş tərzimizi, qəlbimizi, zehniyyətimizi də ona uyğunlaşdırmalıyıq və bundan kənarda qurtuluş yoxdur.[599]

Onun fikrincə, türk-müsəlman xalqlarının Qərb mədəniyyətini tamamilə mənimsəməsi isə, heç də onların milli şəxsiyyətini və

---

[597] Yenə orada, s.30
[598] Yenə orada, s.30-31
[599] Yenə orada, s.32

özünəməxsusluğunu itirməsi demək deyildir. Çünki, yalnız əsasən dil və başqa özünəməxsusluqları (menitalitet) nəzərə almasaq, hər bir millətdə dəyişməyən, ölümsüz bir özəllik yoxdur. Belə ki, tarix boyu hər bir millətin həyatında bir neçə dəfə din, hüquq, əxlaq və başqa sahələrdə dəyişiklikər olmuşdur. Ağaoğlu yazır: "Bununla bərabər, bir millətin tarixində ən sağlam olan və həmən dəyişməzlik dərəcəsinə varan amil dildir, yəni yalnız dildir ki, mahiyyəti dəyişmədən özəlliyini daşıyır. Demək ki, ümumiyyətlə, şəxsiyyət və özlük deyilən məfhum dllə bərabər bir millətin maddi varlığından başqa bir şey deyildir".[600]

Ona görə hər bir xalq mentalitetini saxlamaqla yanaşı, həmişə dəyişməyə meyillidir. Mədəniyyət sahəsində məğlub durumda qalıb, Qərb mədəniyyətini mənimsəmək məcburiyyətində olan müsəlman xalqları bu addımı atmaqla milli şəxsiyyətlərini itirməyəcəklər. O, yazırdı: "Milli şəxsiyyəti yalnız hərəkətsizlik öldürür. İstər fərdlərdə və istərsə millətlərdə həyat nə qədər qatı və qüvvətlidirsə, şəxsiyyət də o nisbətdə ziyadədir. Qəlbinin həyəcanlarını yeni ahənglərlə söyləməyən zəka və ağlının məhsullarıyla insanlığı verimli, qüdrətli olmayan, fəaliyyətinin meyvələrini ümumi bazara çıxara bilməyən cəmiyyətlər hansı şəxsiyyətdən, hansı sözlükdən söz edə bilərlər".[601] Ona görə mədəniyyət sahəsində məğlubiyyətimiz qəti olduğu üçün, qalib mədəniyyəti mənimsəmək də məcburiyyətdir. O, yazırdı: "Bu gerçəyi nə qədər acı olsa etiraf etməli və gərəyincə hərəkət etməlidir. Həm də qəti, açıq, qeydsiz-şərtsiz hərəkət etməlidir. Özümüzü kəlmələrlə, aldadıcı nəzəriyyələrlə cahilcə "idareyi-məsləhət"lərlə aldatmamalıyıq".[602]

Avropa xalqlarında da təxminən dörd əsr bundan öncə xristianlıq həyatın bütün maddi və mənəvi məsələlərinə qarşırdı və onlar bunu həll etdilər. Halbuki "İncil"də ancaq mənəvi həyata aid məsələlər olmuş, buna baxmayaraq keşişlər maddi həyata da müdaxilə

[600] Yenə orada, s.33
[601] Yenə orada, s.35
[602] Yenə orada, s.35

etmişlər.[603] Brunolar, Qalileylər, Koperniklər, Lüterlər, Kalvinlər, Erazmlar, Russolar və başqalarının sayəsində kilsənin nüfuzu aradan qalxmağa başladı və 18-ci əsrin başlarından etibarən yenilikçilərlə (liberalistlər) mühafizəkarlar (klerikalistlər) arasında mübarizə yeni bir mərhələyə daxil oldu. Avropa xalqları kilsəyə qarşı mübarizə apararaq dünyəvi, maddi işlərini nizamalayıb tam bir hürriyyət və sərbəstlik əldə etdikdən sonra müsəlman xalqlarından daha çox irəliləməyə, yüksəlməyə başladı və zaman keçdikcə məsafələr genişləndi, bugünkü durum ortaya çıxdı. O, yazırdı: "Bir tərəfdə sərbəstlik və hürriyyət, təcrübə və ağıl hakimyyəti, digər tərəfdə durğunluq və keçmişə bağlılıq. Bəsbəllidir ki, birisi yürüyəcək və irəliləyəcək, ötəki heç olmazsa duracaqdı... Şimdi bir tərəfdən bir cəmiyyət düşünüz ki, öz həyatını düzənləmədə, yəni qanun yapmada tamamilə sərbəstdir, digər tərfdən də başqa bir cəmiyyət təsəvvür ediniz ki, bu sərbəstlikdən yoxsun olsun, bir nöqtəyə saplanıb dursun. Bəsbəllidir ki, birinci həyatını daima zamana və məkana uyğun bir tərzdə düzənləmiş və tərtib etmiş olacaqdır; ikinci daima zaman və məkandan geri qalmış bulunacaqdır".[604] Çünki ikinciyə aid olan dini zümrə tək səlahiyyəti özlərində görərək bu dini zehniyyətlə də həyat durdurur, ruhlu insanları ruhsuz bir qəlib halına salmağa çalışırlar. O, yazırdı: "Biz bir kərə gələnəyə yapışıb qalmışıq. Biz hər şeyi oradan almağa və oraya döndərməyə alışmışıq. Yüz illərdən bəri bütün elm və fənni, hikmət və fəlsəfəni, əxlaq və hüququ, siyasəti, qısacası hər şeyi orayla ilgili görmüşük və şimdi də görürük. Bu görüş tərzinin dışına çıxanlara qarşı daima lənətləmə və kafir sayma silahını kullanmışıq və kullanırıq".[605]

Avropanın 4-5 əsr əvvəlki zehniyyətini, həyatını daşıdığımız halda, bu gün istər-istəməz onun bir çox həyati müəssisələrini təqlid etmək məcburiyyətindəyik. Bu durum bizdə elə faciəvi hallar yaradıb ki, onun dərəcəsini yalnız uzun-uzun düşünüb bu gün çəkdiyimiz fəlakətlərin səbəblərini incələmək zəhmətinə qatılanlar təq-

[603] Yenə orada, s.41
[604] Yenə orada, s.46-47
[605] Yenə orada, s.48

dir edə bilirlər. O, yazır: "Məsələn, biz məşrutiyyət üsulunu Avropadan almaq məcburiyyətində qaldıq. Halbuki bü üsulun Avropada ifadə etdiyi məna ilə bizim zehniyyətimiz arasında qara ilə ağ qədər fərq vardır. Avropada məşrutiyyət üsulu demək, milli hakimiyyət deməkdir. Yəni milli iradənin hər şeyə hakim olması, milli iradənin ilgili olduğu hər maddənin kəskin bir əmr olması deməkdir. Orada milli məclislər milli həyatın hər hansı bir qismini düzənləmək və hər hansı şəklə salmaq haqqına sahibdir. Orada zamanın dəyişməsilə hökmlər də dəyişir qaydasına haqqı ilə riayət edilərək hər hansı qaydanı, üsulu lüzum görüldüyü anda dəyişdirə bilirlər".[606]

Onun fikrincə, müsəlman dövlətlərində nə belə milli hakimiyyətlər, nə də milli məclislər var.  Hətta, milli məclislər varsa belə, onlar da din qorxusundan hərəkət edə bilmirlər. O zaman, Avropadan əxz olunan müəssisələrin yalnız şəkli, forması təqlid olunur, məzmun və mahiyyətdə isə yenə də, son əsrlərdə hakim olan despotizm və din hakimiyyəti davam edir. Ağaoğlu yazırdı: "Bu zehniyyətdir ki, qurtuluşumuz üçün çarə sayaraq aldığımız bütün müəssisələrin tam əsasından pozaraq, əslini dəyişdirərək yalnız iş görəməz deyil,  hətta əksinə hərəkət edəcək bir hala soxur; faydalanmaq yerinə zərər görürük. O zaman saxta fikirli adamlarımızdan mütəəssüb və cahil gələnəkçilərimizə qədər hər kəs qınama dilini açaraq gördüyümüz qüsurları, əks nəticələri həmişə o müəssisələrə yükləyirlər. Bunlar anlamırlar və ya anlayıb etiraf etmək istəmirlər ki, qəbahət o müəssisələrdə deyil, bizdədir, bizim dar düşüncələrimizdə, kor zehniyyətimizdədir".[607] Əgər onun bu düşüncələrini incələsək görərik ki, müsəlman xalqlarda, o cümlədən İslam inanclı Türk dövlətlərinin çoxunda eyni vəziyyət, yəni sözdə "demokratiya" ənənələri (zahiri parlament, məhkəmə) davam etməkdədir.

Ağaoğluna görə müsəlman xalqlarının ən azı 4-5 əsrlik dini hökmləri (şəriəti) və milli adət-ənənələri (törələri) artıq bir işə yaramadığı üçün, çıxış yolu Qərb mədəniyyətindədir, onu da yalnız formaca, təzahürcə deyil, məzmun və mahiyyət etibarilə bütününü

[606] Yenə orada, s.49
[607] Yenə orada, s.49-50

qəbul etmək vacibdir. Çünki müsəlman dünyasında Qərb mədəniyyətindən bəzi örnəklər alaraq dini və milli adət-ənənələrlə bağlı aparılan dəyişikliklər heç bir fayda vermir. Belə ki, avropalı Spenserlərlə, Russolarla, Smitlərlə, Kontlarla, Berqsonlarla, Dürkheymlərlə (Pozitivizm, "ictimai müqavilə", Struktur funksionalizm və b.) müsəlman şərqli Əbu Yusiflərin, Əbu Davidlərin (Örfçülük, Dahilik və b.) nəzəriyyələri arasında yerlə göy qədər fərq var ki, onları bir-birlərilə uzlaşdırmaq çıxış yolu deyil, bəlkə də ölümü seçmək kimi bir şeydir. Çünki birincilər, fərdin düşüncəsinə önəm verməklə yanaşı, fərdlə cəmiyyət arasındakı bağları, milli hakimiyyəti inkişaf etdirməyə çalışdıqları halda, ikincilər ya fərdləri əsassız olaraq mütləqləşdirilər, ya da fərdlərin fikirlərinə heç bir dəyər verməədən ümumi insani "tanrılıq" anlayışını ortaya atırlar. Ağaoğlu yazırdı: "Halbuki gerçəkdə siyasi, ictimai, estetik, fikri gəlişmənin ən təsirli amili yenə fərddir. Hər nə qədər fərdlər içində olduqları çevrədən ilham alırlar, fikir və duyğularının amillərini və əlamanlarını o çevrələrdən saxlayırlarsa da gəlişmə tarixi və hər günkü müşahidələrimiz isbat edir ki, bu xüsusda fərdlərlə çevrələr arasında qarşılıqlı bir fəaliyyət və təsir vardır. Çevrə fərdə nə qədər ilham verirsə, o nisbətdə də fərd çevrə üzərinə təsir etməkdən geri qalmır. Fərd çevrədən aldığını fazlasıyla geri verir. Zatən fərd bu olsaydı, özü çevrəyə ilham verməsəydi və çevrəyə qarşı yalnız qramofon rolunu oynamaqla (hazırda da müsəlman şərqi xalqların fərdlərinin çoxu qramofon rolunu oynamaqdadır – F.Ə.) qalmış olsaydı, bir çox fərdlərin bir araya gəlməsindən ibarət olan cəmiyyətdə heç bir yenilik, heç bir irəliləmə olmazdı. Cəmiyyətlər dönüb dönüb bir nöqtə üzərində qalmış olarlardı".[608]

Ağaoğlu yazırdı ki, müsəlmanlar ölmək yox yaşamaq istəyirlərsə qərbli Spenserlərin, Russoların, Smitlərin, Kontların, Berqsonların, Dürkheymlərin yolunu seçməli, bu zaman da dinlərindən və milli şəxsiyyətlərindən uzaqlaşacaqlarını güman etməməlidirlər. Çünki müsəlman ibadət və inanclar anlamında dininə çox bağlıdır, üstəlik islamiyyətin başlanğıcından bu günə qədər, Tanrı birliyinə

[608] Yenə orada, s.51-52

aid ayələr əleyhinə də heç bir dəyişiklik olmamışdır. Onun fikrincə, əsas problem dünya işlərinə aid hökmsüz buraxılmış ayələrlə bağlı olmuşdur ki, artıq müsəlman xalqları da dünya işlərini istədikləri kimi təsərrüf etməlidirlər, bundan başqa çıxış yolu yoxdur.[609]

Bəs, ən azı 4-5 əsr bundan öncəki, yəni təhrifə məruz qalmadığı dövrlərdəki dini hökmləri (şəriəti) və milli adət-ənənələri (törələri) artıq heç bir işə yaramırdımı ki, çıxış yolu olaraq yalnız və yalnız Qərb mədəniyyətinin bütününün qəbulu vacib sayılırdı? Ağaoğlu bu məsələnin üzərində çox durmayaraq əsasən, İslam dünyasında son əsrlərdəki böhranlı vəziyyəti tənqid edir, bu böhrandan çıxmaq üçün də milli-dini törələrlə Qərb mədəniyyəti arasında hər hansı uzlaşdırmanın doğru saymadığını ifadə edirdi. Ona görə Qərb mədəniyyətini bütünlükdə (əxlaq, demokratiya, hüquq və s.) qəbul etməklə türklükdən və islamlıqdan uzaqlaşma baş verməyəcək.

Bu baxımdan Ağaoğlu əxlaqda da yeniləşməyi, Qərb mədəniyyətindən faydalanmağı mümkün sayırdı. Ona görə, müsəlman şərqində əxlaq məsələsi ilə bağlı iki başlıca müqəddəs qayda: 1) namus, 2) peyğəmbərlə (s.) imamların şəxsiyyətinə sayğı, var. Onlardan birincisi olan namus, ancaq qadınlara aid edilərək, kişilərin belə bir problemi olmadığı halda, ikinci qayda da isə, xalq vicdanında peyğəmbər və imamlar toxunulmazdır. O, yazırdı: "Fəqət bunların dışında digər bütün əxlaq qaydaları müəyyidədən (nəzarətdən) yoxsundur. Gərçi bizdə də başqa çağdaş cəmiyyətlərdə olduğu kimi yalan, riya, yarınmaq, yaltaqlanma, hiylə, fırıldaqçılıq, oğurluq, vəfasızlıq, sədaqətsizlik, öldürmə və bənzəri hərəkətlər pis sayılır. Fəqət sadəcə sayılırlar. Gerçəkdə xalq vicdanında bu məfhumların heç də bir qutsallığı yoxdur. Heç bir müəyyidə ilə qüvvətləndirilmirlər. Deməkki, həqiqətdə biz bu çeşid hərəkətlərə aid qaydaları müqəddəs tanımırıq".[610]

Onun fikrincə, əslində nəzarəti olmayan hər hansı bir əxlaq qaydası yox kimdir və nəzarətin qüdrəti isə xalqın vicdanıdır. Ancaq xalq vicdanını hərəkətə gətirəcək qədər qutsalığı olmayan bir

[609] Yenə orada, s.54-55
[610] Yenə orada, s.57

əxlaq qaydasını istədiyimiz qədər sözdə qəbul etməklə də, onun dəyər və önəmi olmaz.[611] Deməli, hər hansı əxlaq qaydası sözdə qəbul edilib əməldə öz gerçəkliyini tapmırsa, o zaman "xalqın vicdanı" anlayışı da əhəmiyyətsizləşir. Görünür, bu cür mənfi məqamları nəzərə alaraq Ağaoğlu hesab edirdi ki, müsəlman şərqində zümrəvi və ictimai əxlaq prinsiplərindən bəhs etmək mənasızdır. Çünki Avropadan fərqli olaraq son əsrlərdə müsəlman ölkələrində nə düz əməlli zümrələr, nə də ictimai əxlaq prinsipləri vardır. Bütün bunların əsas səbəbi də nəzarətsizlik, ya da "xalq vicdanı"nın formal xarakterə çevrilməsidir. Bunun nəticəsidir ki, son zamanlar müsəlman ölkələrində, o cümlədən Türkiyədə yaranmış mətbuat orqanlarının, siyasi partiyaların çoxu cəmiyyətdə ciddi nüfuz qazana bilməmişlər, hətta "İttihad və Tərəqqi" kimi az-çox uğur qazananlar da ondan umulan iç sağlamlığı və dayanıqlığı sonuna qədər göstərə bilməmişdir; yavaş-yavaş əsil mahiyyətini qeyb edərək ilk önəmli zərbədə dağılıb getmişdir.[612]

Ağaoğluna görə ictimai əxlaqın nəzarəti ümumi əfkardır ki, Şərqdə gerçək belə bir anlayış olmadığından bu cür əxlaqdan söz belə edilə bilməz: "Bizdə ümumi əfkar deyilən şeyin tək görünmə vasitəsi mətbuatdır. Mətbuat ictimai zümrələrdən, bu zümrələrin dayandıqları əsas və prinsiplərdən ziyadə, şəxsləri, şəxslərin özəl təmayüllərini, diləklərini təmsil edər. Şəxsi dilək və təmayüllər isə bəlli bir ölçü, bir qayda, bir sınır içinə girəməz və daima dəyişikdir. İştə, bunun üçündür ki, tərəfgirlik, aşırılıq, ölçüsüzlük qəzetlərimizin göstərdiyi ümumi hallardır. Bu da mətbuatımızı müəyyidə olmaq fəzilətindən yoxsun buraxmaqdır".[613] Bununla da, Ağaoğlu belə bir nəticəyə gəlirdi ki, əxlaq məsələsində İslam xalqları çox zəifdirlər; üstəlik bu gerçəkliyi dərk etmək əvəzinə, əxlaqı qurşaqdan aşağı anlayıb Qərb cəmiyyətlərindən daha əxlaqlı olmağı iddia etmək qətiyyən doğru deyildir: "Bu fikir qətiyyən yanlış və yanlış olduğu qədər zərərlidir. Çünki öncə burasını bilməliyik ki, əxlaqı

---

[611] Yenə orada, s.58
[612] Yenə orada, s.60-61
[613] Yenə orada, s.61

yalnız cinsi münasibətlərlə sınırlanmış sayanlar insanı yalnız qurşağına qədər təsəvvür edənlərdir. Fəqət qurşaqdan yuxarı bir qəlb və bir də ruh vardır. İştə, bu qəlb və ruh aid olan əxlaq sahələrinin hamısında biz çox aşağı bir durumdayıq".[614]

Müsəlman xalqlarında üst deyilən hakim təbəqə ilə alt təbəqə deyilən xalq arasında digər sahələrdə olduğu kimi əxalq məsələsində də doldurulmaz bir uçurumun olduğunu yazan Ağaoğlu hesab edirdi ki, əgər cəmiyyətin aydını hesab edilənləri arasında bəzi "ziyalı"lar hər hansı millətin çeynənən haqqı uğrunda mübarizə aparmaqdansa köləliyə boyun əyirsə, o zaman həmin millətin işi çox çətin olacaqdır. Buna nümunə olaraq, Osmanlının tənəzzülü dövründə ortaya çıxan ingilispərəst paşaları göstərən Ağaoğlu ilk vaxtlarda ümid edib ki, hər kəs öz mətanət və səbatı ilə düşməni saygıya sövq edəcək. Ancaq çox keçmədən məlum olub ki, nəinki İstanbulda qalanlar arasında, eyni zamanda Böyük Britaniyanın təlimatı ilə Maltaya sürgün edilən Türk ziyalılar arasında da fəlakətə boyun əyərək, hətta ingilis bayrağına bürünərək "uca və adil ingilis hökuməti"indən əfv olmasına ümid edirmişlər.[615]

Ağaoğlu xüsusilə də, üst təbəqədən (elit) hesab olunan ziyalılar arasındakı əxlaq düşkünlüyünün səbəblərini əxlaq növlərinin (din, ailə, ədəbiyyat, fəlsəfə, milli adət-ənənlər və s.) cəmiyyət və onun fərdləri tərəfindən hansı dərəcədə dərki ilə açıqlamağa çalışmışdır. Onun fikrincə, məsələn islamiyyətin irəli sürdüyü əxlaqi prinsiplər (mərdlik, doğruluq, ədalət, bağışlamaq, dayanışma, dözümlülük və s.) çox yüksək olsa da, ancaq gerçəklikdə onlara aid nə doğru-dürüst dini kitablar var, nə də onlara əməl edənlər var. Əslində islamiyyətin öyrətdiyi həmin əxlaqi prinsiplər deyil, sadəcə fərz, vacibat, halal və haramdır; üstəlik bundan qırağa çıxmaq ruhanilər tərəfindən qəbuledilməz hal hesab olunur. Bu cür ruhanilərə görə, islamiyyətin tarixini, xüsusilə də Məhəmməd peyğəmbərin İslam dininin yayılması uğrunda verdiyi mücadiləni, xəlifələrin islamlıq uğrunda gördüyü əməlləri, hətta Quranın əsil mahiyyətini

---

[614] Yenə orada, s.61-62
[615] Yenə orada, s.67-68

dərk etmək deyil də, müsəlmanlar üçün zəruri olan qüsul qaydalarını, vacibatları bilməkdir. Ağaoğluya görə nə islamiyyəti bu cür anlayan ruhanilərdən, nə də onlardan özünü uzaq tutaraq bir köşəyə çəkilib özünü ibadətə həsr etdiyini iddia edərək başqa kimsəyi düşünməyənlərdən cəmiyyət adına bir şeylər gözləmək faydasızdır.[616]

Dindən sonra millətin əxlaqi görüşlərinə ədəbiyyatla fəlsəfi əsərlərin olduğunu inanan Ağaoğluna görə dünənə qədər bu məsələdə də daha çox ərəblərlə farsların kitablarına müraciət edilib. Ancaq həmin kitablarda da çağın ruhunu təmsil edəcək bir əsər yoxdur. N.Tusi kimi azsaylı mütəfəkkirlərin müstəqil olaraq əxlaqdan bəhs etdiyini də xatırladan Ağaoğlu yazır ki, İslam üləmaları isə heç bir zaman əxlaqı müstəqil bir bölgü şöbəsi olaraq qəbul etməmiş, onu daima dinlə bağlamışlar: "Çünki onlara görə yaxşı və pis dəyərləri təyin, yalnız şəriət sahibinin yetkisi içindədir. Bu görüşə görə şəriətcə təyin edilmiş olan əxlaq prinsipləri daimi və əbədidir. Nə məkana, nə zamana, nə də sosial şərtlərə bağlıdır. O halda əxlaqdan ayrıca və müstəqil olaraq söz deməyə lüzum varmıdır?".[617]

Ağaoğlu əxlaqi məsələləri, din və əxlaqı bir-birinə qarışdırdıqlarına görə mütəsəvvüfləri də tənqid etmişdir: "Bunlar şəkli ibadətə o qədər önəm verməzlər. Onlarca əsil olan iç təmizliyidir. Fəqət bu məzhəb də əxlaqı öz-özünə və doğrudan-doğruya bir qayə deyə qəbul etməyir. Yalnız bir vasitə olmaq üzrə tələqqi edir. Əsil hədəf "hüzura ulaşma"dır. Bu qayəyə varıldımı və ya daha doğrusu, varıldığı zənn edildimi, artıq əxlaqa belə lüzum qalmaz. Bu cəhət nə qədər çəkicidir! Özünü Allahın hüzuruna əbədi təcəlli yerinə ulaşmış sayan birisi üçün artıq iç bağlantılara təbiətilə ehtiyac qalmır. Bu üzdən ilgisizlik, laüballıq yolunu tutmuş olanlar nə qədər çoxdur".[618] Ancaq az-çox islamiyyətdə ali fikirlərin, əxlaqın canlandırılması yalnız təsəvvüf yolunu tutanlarla mümkündür; çünki dini müəssisələr arasında həyat qabiliyyəti yalınız buradadır.

---

[616] Yenə orada, s.69-70
[617] Yenə orada, s.71
[618] Yenə orada.

İslam Şərqinə aid ədəbiyyatda əxlaq məsələsinə gəlincə, burada da durumun yaxşı olmadığını yazan Ağaoğluna görə məşrutiyyətin elanına qədər yalnız mədrəsələrdə deyil, digər məktəblərdə də əxlaq adına yetərli kitablar olmamışdır. Ancaq “Kəlilə və Dimnə”, Şeyx Sədinin “Gülüstan” və “Büstan” kimi əsərləri İslam Şərqində geniş yayılıb ki, bunlar da öz dövründə bəlkə də müəyyən əhəmiyyət kəsb etdiyi halda, hazırda çağın ruhu ilə qətiyyən səsləşmir. Ona görə də, milli hakimiyyət quruculuğu yolunu tutan bir millət üçün bir tərəfdən çağın ruhuna uyğun addımlar atmaqla yanaşı, hələ də Sədinin əsərlərinə müraciət edib hökmdarları “Allahın kölgəsi” kimi təqdim etmək qətiyyən doğru deyildir. Bununla da, Ağaoğlu belə bir nəticəyə gəlirdi ki, Türkiyə “İran” kimi durğunluq içində yaşamağa davam etməməli, üzünü Avropaya tutmalıdır.[619]

Biz görürük ki, Ağaoğlu da Ə.Hüseynzadə kimi az-çox dünyəvi dövlət olmaq yolunda Osmanlını (Türkiyəni) “İran”dan daha irəli görmüşdür. Ağaoğlu da Hüseynzadə kimi inanırdı ki, “İran” xüsusilə də, son bir əsrdir dərin bir yuxu içindədir və iranlılar yuxu içində olduğu dövrdə də müsəlman, o cümlədən Türk dünyasının əsas yükünü daşıyan Osmanlı olmuşdur. Çünki Sədilərin “əxlaq fəlsəfəsi”ndən (itaət, qənaət, təslim, təvəkkül, təhəmmül, susmaq) daha çox təsirlənən “İran” olmuş, burada fərd daha çox özü üçün yaşayır, özünün mutluluğuna çalışır, cəmiyyətin digər fərdləri ilə çox da maraqlanmır və cəmiyyətlə bağlı önəmli məsələləri də “Allahın kölgəsi” hesab etdiyi hökmdara, onun ətrafına etibar edir. Başqa sözlə, bir qoyun öz həyatını tamamilə necə çobanın ixtiyarına buraxırsa, Sədinin “əxlaq fəlsəfəsi”ndə də fərdlər ancaq özünü düşünür, yalnız təhlükə anında öz canını xilas etməyə çalışır və bunu bacarmayanda da həyatla vidalaşmalı olur. Ağaoğlu yazır: “Bu fəlsəfənin bir kərə nə qədər məncil, özünü bəyənmişcəsinə olduğu meydandadır. Bütün prinsip fərdin özünü, öz nəfsini qurtarmasına yönəlmişdir. Fərdin öz cinsinə qarşı heç bir vəzifə yükləməz. Fərd yalnız özünü qurtarmağa çalışacaqdır, başqasını düşünməyəcəkdir. Bu fəlsəfənin ruhlarımız üzərində nə qədər yıxıcı bir təsir etmiş ol-

[619] Yenə orada, s.77

duğu meydandadır. Deyilə bilər ki, İslam camaatı mənçiliyin ən fazla qol gəzdiyi bir sahədir. Mənçillik bizdə əsasdır. İştə, bunun üçündür ki, bizdə ictimai təşkilat asanlıqla meydana gəlmir”.[620]

Ağaoğlu çox doğru yazırdı ki, biz əxlaqi örnəklərimizi Şirazdan, İsfahandan almaqdan, zərdüşti ənənələrlə tərbiyə edilməkdən, aryançılıqdan imtina etmədikcə İslam Şərqindən, o cümlədən Türk dünyasından inkişaf gözləmək çətindir. Deməli, Ağaoğlu da Hüseynzadə kimi İslam Şərqinin, xüsusilə də onun aparıcı nüvəsi olan Türkün ruhuna ciddi sirayət etmiş zərdüştliyi, iranizmi görür və onların aradan qaldırlmasını vacib sayırdı: “Biz örnəklərimizi Şirazdan və İsfahandan alırız. Avropa isə əski Yunanıstanla əski Romadan alır. Biz zərdüştilərin ənənələriylə tərbiyə edilirik. Onlarsa əflatunların, aristotellərin, solonların ənənələriylə. Biz Fərri-Yəzdan (Allahın həşəmətinin timsalı) və yarı allahlar önündə qənaət, təslim və rizaya təhəmmül və susmaya qəlbimizi bağlarkən, onlar önlərində böyük bir hürriyyət dastanının haqq və ədalət tarixinin, altın səhifələrini qeyd edirlər. Biz,Daralar ilə düşüb qalxarkən, onlar Sokratlardan ilham alırlar”.[621]

Bu coğrafiyadakı türklər üçün üç minillik “Ariyan” və zərdüştilik bəlası mövcuddur ki, bundan qurtulmaq heç də asan deyildir. Hazırda daha çox “İran türkləri” adlanan Türklər (Midiya, Azərbaycan, Xəzər, Parfiya, Hunlar, Səlcuqlar, Qaraoyunlu, Ağqoyunlu, Səfəvi, Əfşar, Qacar və b.) üç minillik ərzində Ariyançılıq və zərdüştlükdən qurtulmaq üçün müxtəlif üsullara əl atmış, yəni hərbi savaşlardan tutmuş müxtəlif dini-fəlsəfi ideyalara da müraciət etmişdir. Bizcə, bu bölgədə yaşayan türklərin zaman zaman milli dini-fəlsəfi təlimlərini (tanrıçılığı) saxlamaqla yanaşı İudaizmə, Xristianlığa, İslama üz tutmalarında zərdüştlikdən uzaq durmaq məsələsi heç də az rol oynamamışdır. Ağaoğlu yazırdı: “Nə qəribədir ki, İslam mədəniyyəti Roma və Yunanla təmas edərkən və ondan fəlsəfəni və müsbət bilimlərə aid bilgiləri alarkən Yunan ədəbiyyatı ilə Roma hüququna tamamilə yabançı qalmışdır. Yunan fəl-

[620] Yenə orada, s.78-79
[621] Yenə orada, s.81

səfəsindən və elmlərindən ilham alaraq bunca incə, dərin, əsərlər vücuda gətirən İslam fikir adamları, yunan əski ədəbiyyatı ilə Romanın hüquq xəzinəsini görməmişlər. Halbuki haqqdan və hürriyyətdən ilham alan bu ədəbiyyatla bu hüquq, İslam əsaslarına İran ənənələrindən daha ziyadə uyardı və daha ahəngli olardı. İcmaiümməti əsas tutaraq hökumətin binasını ləldən ziyadə istəmiş və hökumət yetkisini tamamilə cəmiyyətə əmanət edərək nəzarəti də ona təslim etmiş olan İslamiyyət Fərri-Yəzdan, Allahın kölgəsinə bənzərləri kimi Zərdüşt nəzəriyyələrinə tamamilə yabançı və qarşıydı. Əflatunla daha uyğun və ahəngliydi. Fəqət yazıq ki, iş əksinə olmuşdur. Fərri-Yəzdan nəzəriyyələri islamiyyətə qalib gəldiyi kimi yunan və Roma xəzinələrini də İslamın gözündən saxlamışdır".[622]

Deməli, müsəlman fikir adamları mənəviyə aid Allah, ruh, varlıq məsələlərini araşdırıb, maddiyə aid olan gerçək həyat fəlsəfəsindən, qanundan, hüquqdan uzaq durublar. Onların maddi məsələlərdə Yunan ədəbiyyatı və Roma hüququna deyil "İran ənənələri"nə müraciət etməsi təsadüfi ola bilməzdi. Bu o deməkdir ki, Ariyançılıq və zərdüştlik kimi "İran ənənələri"ndə qeyri-adi olan nə varsa, o, yalnız qədim Midiyaya sahib olan yerli (türk), ya da gəlmə (yunan, romalı) qeyri-fars hökmdarları "özünküləşdirmir", eyni zamanda qeyri-aryançı dinləri (Xristianlığı, İslamlığı), dini-fəlsəfi cərəyanları da dəyişdirərək iransayağı bir qəlibə salır. Məsələn, "İran"da Tanrıçılıq, Xristianlıq və İslamlıq öz əksini uyğun olaraq zərdüştlüklə çulğalaşmış maqlarda, manilikdə, məzdəklikdə, təsəvvüfün bir çox təriqətlərində, fars şiəçiliyində və digərlərində tapmışdır. Deməli, bu bölgədə yeniləşmənin, dünyəvi dövlət olmanın əsas problemi zərdüştlik və ariyançılıqdır! Bizcə, bu anlamda İslam mədəniyyəti daxilində də özünə yer taparaq yuvalanmış əsas problem zərdüştlük və ariyançılıqdır! Başqa sözlə, İslam mədəniyyəti çərçivəsində yalnız bir panərəbizim, samiçilik problemi deyil, bəlkə də ondan da çox panariyanizm və zərdüştlikdir. Əslində bu coğrafiyada və ona həmhüdud bölgələrdə də İslam mədəniyyəti daxi-

[622] Yenə orada.

lində əsas mübarizə İslam dini ilə "İran ənənələri" arasında gedir. Ancaq bu "İran ənənləri" sırf İslam dininə qarşı olmaq kimi başa düşülüb, buna uyğun olaraq da yalnız bir Ərəb düşmənçiliyi deyil, eyni zamanda ondan da çox Türk düşmənçiliyi vardır. Çünki "İran ənənələri"nə İslama qədər də, İslamdan sonra da ən böyük mücadilə verən Türk gücü və Türk təfəkkürü olmuşdur. Hər halda İslamaqədərki dövrdə "İran ənənələri" (ariyanizm, zərdüştizm) ilə mübarizdə ən çox içdən və dışdan mücadilə verən türklər olmuş, ancaq bu məsələdə yunanaların, romalıların da əməyini unutmaq olmaz. Nizmai Gəncəli heç də təssadüfi olmayaraq "İskəndərnamə" poemasında Makedoniyalı İskəndərin "İran ənənələri"ni (xüsusilə zərdüştizmi) məhv etməsini ürəkdən təqdir etmişdir.

Sadəcə, bir müddət Türk gücünü və Türk təfəkkürünü xeyli dərəcədə zəiflədərək bu bölgədə yenidən hakimiyyətə başına gəlmiş zərdüşti Sasanların 7-ci əsrdə bu dəfə İslam bayrağı altında ərəblərdən (İslam ordusu tamamilə ərəblərdən ibarət olmamışdır) böyük və həlledici zərbə alması ilə yeni bir mərhələ başlamışdır. Hər halda Türklərin tolerantlığını İslam Xilafətində görməyən "İran ənənələri"nin təmsilçiləri üçün yenidən toparlanmaq və gücdə qeyb etdiklərini təfəkkürdə qazanmaq üçün böyük bir yol keçmişlər. Bu yolda da, ən vacib olanı İslam mədəniyyətini ariyançı, zərdüşti təfəkkürə uyğunlaşdırmaq idi. Bunun üçün də, "İran ənənələri"nin təmsilçiləri iki istiqamətli iş aparmışlar: 1) islamlığı dünyəvilikdən mümkün qədər uzaq tutmaq, 2) islamlığı ərəblərdən də çox dünyəvi mahiyyətdə saxlamağa çalışan və orta çağın üzun müddət hakim qüvvəsi olan Türk xalqlarının ağlı (vəziri) olmaq.

Bizcə, "İran ənənələri"nə Samilərdən və başqa xalqlardan daha çox Türk xalqları qapılmışdır. Halbuki Türk dünyagörüşündə fərd və cəmiyyətin həm ayrı-ayrılıqda, həm də bir yerdə yeri və roluna münasibətlə, aryançıların dünyagörüşü arasında xeyli ziddiyyətlər var. Aryançılıqda fərd və cəmiyyət təzahür olaraq ali ideallarla (İslam dini, ya da şiəçilik, irançılıq) bir-birinə bağlı göründüyü halda, mahiyyətcə həmin ali ideallar aryançılığı qorumaq üçün əsas qalxan rolunu oynamaqdadır. Ancaq burada ilk baxışda aryan-

çılığı, zərdüştizmi hiss etmək mümkün deyil, bunun əvəzində guya dini ideal ön plandadır. Ariyançılar yaxşı dərk edirlər ki, əsasən iç-içə yaşadıqları gerçəkçi, həqiqətçi, ədalətsevər türklərin oyanışının qarşısını alıb, hakimiyyəti əldən verməmək yolunda əsas silah İslam dini (Əhli-beytə bağlılıq, Hz. Əlinin və Hz. Hüseynin məzlumların yanında olmaq fəlsəfəsinə inam və s.) və əski İran mədəniyyəti (Əhəmənilər, Sasanların ortaq sahibi olmaq və s.) məsələləridir.

Bizcə, son əsrlərdə bu bölgədəki türklər fərd və təşkilat olaraq iki məsələdə: 1) Türk ruhlu Qızılbaşlıqdan uzaqlaşıb, zərdüştizmə əsaslanan şiəçiliyə meyillənməklə, 2) Türk əxlaqından uzaqlaşıb, "İran mədəniyyətinə" qapılmaqla aryançılara məğlub olmuşlar. Başqa sözlə, Türk fərdləri və təşkilatları həm ruhi-mənəvi, həm də maddi-fiziki varislik anlamında "İran ənənələrinə" sürətlə yenilməyə başlamış və son nəticədə hakimiyyətlərini də (1925) ariyançılara buraxmaq məcburiyyətində qalmışlar. Bu anlamda deyə bilərik ki, ərəblərin, yunanların Osmanlıda oynadığı buraxdığı mənfi təsirlə (yeri gəlmişkən, tamamilə mənfi məqamlar üzərində durmağı doğru hesab etməyərək, hətta türk-yunan, türk-ərəb münasibətlərində bəzi müsbət cəhətləri də istisna etmirik) müqayisədə, aryançılar türk dövlətlərinin tənəzzülündə və türk təfəkkürünün "İran ənənələri" içində assimilyasiyasında daha sistematik və ardıcıl iş aparmışlar. Məsələn, bu gün Anadolu türklərində İslam dininə olan sevginin ifratlığı müəyyən qədər ərəbləşməyə səbəb olmuşdursa, yaxud da əski Yunan-Roma mədəniyyətinə aşırı sevgi bəzilərini yunanlaşdırmışsa da, bu proses Midiya-Azərbaycan türklərinin başına gələnlər qədər ağrılı olmamışdır. Ona görə də, Anadolu türkləri Osmanlı Türk imperiyasından heç olmazsa bir Türkiyə Cümhuriyyəti ilə öz varlığını sürdürməyə davam etdiyi halda, Midiya-Azərbaycan türkləri Səfəvi, ya da Qacarlar Türk imperiyasından yalnız çox kiçik bir Azərbaycan Cümhuriyyəti ilə mövcudluqlarına davam edirlər. Yerdə qalan böyük bir ərazidə isə Midiya-Azərbaycan türkləri iki məsələ, yəni şiəçilik və aryançılıqla ("İran ənənələri") bağlı ciddi problem yaşamağa davam edirlər.

Ağaoğlunun İslam Şərqində yaşayan xalqlarda (türk, ərəb, fars və b.) din, əxlaq və onun davamı kimi gördüyü fərd, ailədə yaşananlarla bağlı düşüncələrini izah edərkən, həmin xalqların milli-dini dünyagörüşü ilə bağlı daban-dabana zidd olan fərqliliklərini nəzərə almaq lazmdır. Əslində Ağaoğlu da "İslam mədəniyyəti" çərçivəsində müsəlman xalqlarının İslamlıqla yanaşı, ümumilikdə din, əxlaq, ailə, dövlət, fərd, cəmiyyət və bu kimi məsələlərdə fərqli yol tutmalarının əsil kökünü açmağa cəhd göstərmişdir. Bunu onun din, əxlaqa münasibətdə ortaya qoyduğu mülahizələrdən görürük ki,o, eyni formada fərd və ailəni də izah etməyə çalışmışdır.

Ağaoğluna görə hər hansı cəmiyyətdə fərd o zaman cahil qalır ki, buna səbəb ya dini əngəldir, ya da milli xüsusiyyətlərdən tamamilə məhrum olmaqdır. Uşağın bir fərd kimi formalaşmasında dini və milli bayramların, milli və dini məktəblərin mühüm rolu vardır; ancaq İslam Şərqində uşaqlar əsasən milli bayramlardan məhrumdurlar, dini bayramlar isə onlarda ortaq mənəvi həyatın formalşamasına çox da kömək etmir, bəlkə də əngəl olur. Məktəblərə gəlincə, son əsrlərdə bunlar da işgəncə evlərinə çevrilmişdir. Deməli, milli və dini bayramlardan, dünyəvi məktəblərdən və elmlərdən yoxsun olan hər hansı cəmiyyətdə normal bir fərdin formalşması mümkün deyildir. Ağaoğluna görə son əsrlərdə Osmanlı hökuməti fəzilətin, xüsusilə də mədəni fəzilətin mənbəyini qurutmaq üçün nə lazımdırsa etmiş, ayrı-ayrı şəxsiyyətlərin yüksəlməsinə, ailələrin qurulmasına əngəl olmuşlar: "Doğruluğa, mədəni cəsarətə, haqqa, haqsevərliyə qarşı davamlı bir hərb elan etmişlər. Doğrunu söyləyən, haqqı sevən nə bir hökumət adamını, nə bir şairi, nə də bir yazar və fikir adamını yaşatmışlar. Çalışaraq, şəxsi dühasıyla yüksəlmək istəyənlər daima əzilmişlər. Qısacası, fərdi fəzilətlərin hamısını ta kökündən qurutmaq üçün son dərəcə çalışılmışdır".[623]

İslam Şərqi xalqlarında bu məsələdə çox şey dəyişməz olaraq qaldığı üçün, son əsrlərdə olduğu kimi günümüzdə də əsasən məddah şairlərlə məddah alimlər iş başındadırlar. Başqa sözlə, indinin özündə də müsəlman xalqlarında fərdin azadlıqları, mədəni fəzilət-

---

[623] Yenə orada, s.85

nin bəslənməsi, inkişafı çox ciddi problem olaraq qalmaqdadır. Burada fərdlərin böyük çoxu özünü düşünərək özünü qorumaqla, özünü qurtarmaqla məşğuldurlar. Ağaoğlunu təbrincə desək, köləlik ruhu ilə özünə inamsızlıq şəraitində günümüzdə də, müsəlman cəmiyyətlərində əsasən toplumun rifahı, ədalətliliyi, haqqı naminə fərdi qəhrəmanlıqlar, təşəbbüslər nadir hallarda ortaya çıxır: "Çünki şəxsi təşəbbüslər və qəhrəmanlıqların qaynağı özünə güvəndir. Özünə güvən isə fərdi ilhamların yüksəkliyi və ictimai çevrənin əlverişli olmasıyla doğar. Fəqət fərdlərdə eqoizm nə qədər dərin isə şəxsi bacarıqsızlıq və zillətə təhəmmül də o dərəcə genişdir".[624]

Onun fikrincə, yüksək fərdiyyət, sərbəst sahə üzərində sərbəst çalışmaq, sərbəst ortaqlıq və sərbəst rəqabət əsaslarına dayanır ki, bu əsaslar da Böyük Fransız İnqilabı tətbiq etməyə başladı, daha sonra Qərbdə ailə, dövlət və cəmiyyət təşkilatının hamısı ondan ilham aldı: "O zamana qədər min türlü ailəvi, ictimai, siyasi, idari zəncirlərlə bağlanmış olan fərdlərin qabiliyyətləri, istedadları və qiymətləri bir sel kimi axmağa başladı. Elm və fənnin irəliləməsi, gözəl sənətlərin yüksəlməsi, xarüqəl sayılacaq icadlar və kəşflər insanlıq tarixində heç bir zaman görülməmiş bir əzəmətlə bir-birini qovaladı. Ümumi sərvətin miqdarı, xalqın nüfuzu, şəhərlərin imarı şaşırlacaq bir dərəcədə yüksəldi".[625] Sərbəst rəqabət sahəsində Qərbdə insanların güclərinin tarixdə misli görülməmiş bir tərzdə inkişaf etdiyini yazan Ağaoğluna görə bunun da sayəsində doğruluq, sədaqət, səbat, nizam, dayanışma və yardımlaşma, cəsarət, təşəbbüs, icad fikri inkişaf etdi.

Qərb xalqları inkişaf etdiyi bir dövrdə Şərqdə, xüsusilə də müsəlman Şərqində son 4-5 əsrdə fərdlər arasında həsəd, birləşməmə, yardımlaşmama, güvənsizlik nəticəsində təbiətimiz, əxlaqımız, ruh halımız pozulmuşdur. Onun fikrincə, artıq bütün bunlara son qoyulub həyatımızın bütün olaylarını çağdaş cəmiyyətlərin təqib etdikləri əsaslara görə düzənlənməlidir. O, yazırdı: "Ölmüş, çürümüş, əzilmiş fərd haqlarını təslim etməliyik. Ona yeni bir ruh aşıla-

[624] Yenə orada, s.86
[625] Yenə orada.

malıyıq. Bu isə yalnız ailə, idarə, siyasət müəssisələrimizi, bu haqları gerçəkləşdirə biləcək bir hala gətirməklə mümkündür. Quru formulalardan ibarət olan bir Anayasanın elanı ilə iş olmaz. Bütün müəssisələrimizi ictimai, siyasi, iqtisadi təşkilatımızı yaşadığımız çağa uyğunlaşdırmalıyıq. Bizdəki fərd yalnız o zaman qurtulur və özündə gizlənmiş olan maddi və mənəvi dəfinələri o zaman meydana çıxarar".[626] Onun fikrincə, əsas və ruh, yəni "fərd yox, cəmiyyət var, haqq yox, vəzifə var" prinsipi dəyişməlidir, çünki fərdsiz cəmiyyət düşünmək, əlsiz və ayaqsız, başsız və gövdəsiz insan düşünməkdir. "Artıq bizi çürütmüş olan bu kimi Şərq prinsiplərinə son verərək ətrafımızı saran müdhiş həqiqətləri görməli və həyatımızı ona uyğunlaşdırmalıyıq"deyən,[627] Ağaoğlu onu da yazırdı ki, hər şeydən əvvəl millət fərdləri məncillik, eqoizm bəlalarından qurtulmalı, öncə fərdə sayğı olmalıdır.

Ailə məsləsinə gəlincə, Ağaoğluna görə "ailə, fərd ilə cəmiyyət, təbiətlə insanlıq, maddi həyatla mənəvi həyat arasında atılan ilk əsaslı körpüdür. Sosial həyatın ilk və ən davamlı hücrəsi olmaqla bərabər, fərdi həyatın da ən səmimi, ən müqəddəs bir ocağıdır. Heyvani təmayülün ən açıq bir örnəyi olduğu halda, insani və mənəvi xassələrin də ən yüksək bir toplantı yeridir".[628]Ailə ilə bağlı bir neçə nəzəriyyə: 1) fərdin cəmiyyətin içində əriməsi yolunda ailə maneədir deyən cəmiyyətçilər (Platon, Furye və b.), 2) ailəni müqəddəs hesab edərək cəmiyyətdən ayıran fərdçilər (Prudon və b.), 3) onların arasında orta yol tutan mötədilçilər vardır. Ailə məsələsində mötədil mövqe tutan Ağaoğluna görə əşirət daxilində ailəyə müdaxilələr çox olduğu halda, milli dövlət halında isə ailə dar çərçivədə qalır. Onun fikrincə, ən mükəmməl ailə təbii və ictimai amilləri özündə birləşdirən ailədir. Yəni ailə həm təbii istəklərin (anadangəlmə instinktlərin), həm də ictimai tələbatların (qarşılqılı hörmət, millətə bağlılıq və s.) bütünlüyünü ifadə etməlidir.[629]

---

[626] Yenə orada, s.90
[627] Yenə orada, s.91
[628] Yenə orada, s.93
[629] Yenə orada, s.94-96

Cəmiyyət məsələsinə gəldikdə, Ağaoğluna görə burada dinin mühüm rolu vardır ki, müsəlman xalqlarında dini həyat ictimai baxımdan tamamilə çökmüşdür; artıq ruhlarda və qəlblərdə yaşamır, həyəcan oyatmır: "Dini bu hala gətirən və cameləri boşaldan, yenə din əmrini düzənləmək iddiasında bulunaraq insanın ruh halından tamamilə xəbərsiz olanlardır. Bunlar təqdir edə bilmirlər ki, insanları bir araya çəkən başlıca amil ya düşüncədir və ya duyğudur. Halbuki düşüncə və duyğu tamamilə camedən qovulmuşdur. Xütbə və vəəzlərimiz, yüz illərdən bəri təkrarlanan və xalqca dili anlaşılmayan bilməcələrdən ibarət eyni nəqaratdır. Xalqın mənəvi və maddi iztirab və əndişələrinin heç birisini təmin edəcək mahiyyətdə deyildir".[630]

Onun fikrincə, cəmiyyətin həyatının qüvvətlənməsinə səbəb olan, fikir və hiss axınlarıyla fərdləri birləşdirən fəlsəfə ilə ədəbiyyat məsələsində də ciddi problemlər vardır. Ağaoğlu iddia edirdi ki, müsəlman xalqlarında əskidən ədəbiyyat dışında fəlsəfə olmamış, yalnız təsərruf ədəbiyyatında görülmüşdür (Ağaoğlunun bu fikirləri ilə, tamamilə razılaşmaq mümkün deyildir). Belə ki, fransızlar Volter, Didro, Monteskye, Russonun, almanlar Kant, Hegel, Şellinqin, ruslar Tolstoy, Dostoyevskinin, bolşeviklər Marksın, Engelsin fəlsəfi nəzəriyyələrindən ilham aldqları halda, Osmanlı yalnız tənzimat dövründə Avropadakı fikir cərəyanlarını təqib etmək yolu ilə fəlsəfə ilə ciddi maraqlanmışdır; ancaq burada da uğurlu bir fəlsəfi cərəyanlar ortaya çıxmamışdır.[631] O, yazırdı: "Elmi müəssisələrin yoxluğu üzündən, bizdə elm, texnika və dolayısı ilə fikir və fəlsəfi cərəyanları və bu cərəyanların doğurduqları fikir həmrəyliyi və toplu həyəcanlar olmamışdır. Fikir nəzəriyyələrinin verdikləri həyəcanları, fərəhlikləri biz bilməyirik. Bir kantizm, bir hegelizm, bir pozitivizm, bir darvinizm mücadilələri ətrafında qurulan fikir zümrələri bizə tamamilə yabançıdır. Son zamanlarda çox bilikli görünmək həvəsi ilə və həvəskar sifəti ilə Avropa süfrəsindən bir loxma olaraq aldığımız "fəlsəfə" kəlməsi və atdığımız "filiosof"

630 Yenə orada, s.102
631 Yenə orada, s.107

imzaları kəndirbazlıqdan başqa bir şey deyildir".[632] Cəmiyyətin həyatının qüvvətlənməsində əsas səbəblərdən biri kimi gördüyü ədəbiyyata gəlincə, Ağaoğluna görə müsəlman Şərqində uzun müddət "Xosrov və Şirin", "Leyli və Məcnun", "Şahnamə", "İsgəndərnamə" kimi ədəbiyyatlar hökm sürmüşdür. Yalnız Namiq Kamalın dünya çapındakı inqilabi ruhunu təqdir edən Ağaoğlu hesab edir ki, indiki türkçülər mənəvi olaraq onun təqibçisi olsalar da, "Türkün yüz illərdən bəri istibdad altında əzilmiş ruhu, zülm və cəhalət içində yuvarlanmış həyatı, kəndinə yol göstərəcək, ümid verəcək, iman aşılayacaq bir öndər arayır".[633]

Ağaoğlunun dövlət anlayışına yanaşmasına görə, dövlət və hökumət bir-birindən fərqləndirilməlidir, ancaq Türk dövlətlərində çox vaxt buna əməl olunmamış, üstəlik dövlətlər sülalə adları ilə adlanmışdır: "Dövləti sülalə adı ilə adlandırmaq, dövləti sülalədən ibarət saymaqdır ki, bu təqdirdə, sülalə yıxılınca, ya çöküncə dövlətin də yıxılması çökməsi gərəkdir. Halbuki gerçəkdə dövləti quran, dövlətin əsaslı və sürəkli amili və qurucusu olan millət davam edər, yaşayar".[634]Onun fikrincə, sultan Mehmet Fatehdən sonra Osmanlı dövləti də onun əsasını təşkil edən, qurucusu olan Anadolu türklərindən uzaqlaşdığı üçün sonralar ciddi problemlər yaşamış; Osmanlının qurucusu olan Anadolu türklərini bir kənara buraxıb hökmdar və sülalədən yapışmaqla ciddi yanlışlıqlara yol vermişlər. Ağaoğluna görə dövlət məsələsində Osmanlı ilə müqayisədə "İran"da məsələ daha ifrat hal almış, dövlət dedikdə yalınız hökmdar başa düşülmüşdür: "Dövlətə deyil, hökmdarın şəxsinə bağlılıq, Şərq qövmləri arasında daima bir fəzilət hesab edilmişdir".[635]

Bu fikrin Şərq xalqları adı altında türklərə də şamil edilməsi qismən doğrudur. Çünki, Türk xalqları əsasən məşvərətçi, hüquqi, ədalətli dövlətdən yana olub hökmdara deyil dövlətə bağlı olublar. Türklər daha çox iransoylu və samisoylu xalqlarla qaynayıb qarış-

---

[632] Yenə orada, s.105-106
[633] Yenə orada, s.113
[634] Yenə orada, s.118
[635] Yenə orada, s.125

dıqdan sonra, bu kimi problemlərlə üzləşiblər, üzləşməyə davam edirlər. Bunu, hər halda bildiyi üçün Ağaoğlu daha sonra yazırdı ki, tarixmizdə şəxsə-hökmdara bağlılıq qaydası əsas prinsipə çevrildikdən sonra Türklər məsələn, Osmanlının timsalında son üç-dörd əsrdə dövləti idarəetmədən uzaqlaşdırılmışlar: "Üç yüz ildən bəri saraya girmək imkanını tapan nəsli-kökü bilinməyən, dövlətin qurucu ünsürü ilə maddi və mənəvi heç bir ilgisi olmayan neçə qadın və erkək, bu dövlətin başına nə qədər müdhiş fəlakətlər gətirmişlər. Milli tariximizdə o qanlı və müdhiş şəkli verənlərin, həmən yüzdə doxsanı, bu kimi Türk olmayanlardır... Kəsin olaraq deyilə bilər ki, Qanuni Sultan Süleyman zamanından bəri şəhər imarı, xalqın maddi və mənəvi rifahının artırılması yolunda bir tək addım atılmamışdır. Əksinə olaraq istər Səlcuqlar zamanında və istər Qanuniyə qədər edilmiş olan imarın hamısı dərəcə-dərəcə yox edilmiş və nəhayət, Türk o xaraba kulübəsi və bitlik vücuduna qalmışdır".[636]

Ağaoğluna görə türklər arasında hökumət anlayışı da dövlət kimi, öz əvvəlki qavramından xeyli dərəcədə sapmışdır. Belə ki, türklər də "İran ənənələrinə" aid ilahi hüquq nəzəriyyəsinə uymuş, yəni guya hökmdar qüdrət və ixtiyaratı doğrudan doğruya Yaradandan alır və özü də yarı insan yarı tanrıya çevrilir.[637] İslamiyyətin belə bunu qəbul etmədiyini, hökumətin qaynağını xalqda aradığını yazan Ağaoğluna görə xilafətdə əvvəllər xəlifəni xalq seçmiş, onun da maddi olaraq cəmiyyət hüzurunda, mənəvi olaraq da Allah hüzurunda cavabdehliyi olmuşdur: "Fəqət yazıq ki, islamın bu anlayış tərzi islamiyyətdə çox uzun davam edə bilmədi. Həşəmət, cəbr, zülm və basqıya alışmış olan Şərq, bu nəzəriyyəyə alışa bilmədi və Müaviyə zamanından bu günə qədər yenə o əski İran nəzəriyyəsi hər tərəfdə hakim oldu. Yalnız bu kərə Fərri-Yəzdan (Allahın həşəmətinin timsalı) Şəhriyarlar yerinə Zillulahi-Azam (Allahın kölgəsi), Müəyyəd bin Tarafullah (Allah tərəfindən yardım görən), Kaim bin Əmrullah (Allahın əmri ilə hökm edən) sifətləri keçdi. Nə edirlərsə etsinlər onlara itaət Allaha, peyğəmbərə itaət etməkdir, onla-

[636] Yenə orada, s.127
[637] Yenə orada, s.129

rın zülm və fəsadlarına, xəyanət və cinayətlərinə qarşı üsyan, ayaqlanma, ixtilal kimi təşəbbüslər Allaha üsyan kimi sayılacaqdır”.[638]

Şübhəsiz, bu zehniyyət yalnız Ərəb Xilafəti ilə məhdudlaşmamış, eyni zamanda orta çağda qurulan bir çox Türk dövlətlərinə, xüsusilə də Osmanlı, Səfəvilər, Qacarların hakimiyyətlərinin son dövrlərində onların üzərində dərin iz buraxmışdır. Ağaoğlunun təbrincə desək, bu “ilahi  hüquq zəhniyyəti” o qədər dərin iz buraxmışdır ki, son dövrlərdə Osmanlı və Qacarlarda elan olunan məşrutiyyətlər belə maddi olaraq bir çox azadlqlar versə də, mənəvi cəhətdən çox şey dəyişməmişdir.[639]

Ə.Ağaoğlu “Üç mədəniyyət” əsərində Türk mədəniyyətinin inkişafı, yəni din, əxlaq, fərd, ailə, cəmiyyət, dövlət və başqa sahələrdə irəli sürdüyü bir sıra görüşlərinin davamı olaraq “Sərbəst insanlar ölkəsində” utopik siyasi-fəlsəfi əsərini yazmışdır. Ağaoğlunu bu utopik əsəri yazmağa məcbur edən isə din, əxlaq, cəmiyyət, dövlət, hökumət, demokratiya və başqa sahələrdə Qərb ölkələrinin əldə etdiyi nailiyyətlərin müsəlman-türk dünyasında, ilk növbədə Türkiyədə əsasən, gerçəkləşməməsi idi. Ağaoğlu özü bu əsərini qələmə almasını, sətiraltı mənada belə izah edir: “Türk milləti dahi rəhbərinin (Atatürkün) təşviqi ilə Cümhuriyyət kimi ən kamil bir idarə şəklini həqiqətə çevirmişdir. Fəqət bu çox incə, çox zərif və ona görə də çox müşkül olan dövlət üsuli-idarəsinin inkişafı və möhkəmlənməsi üçün Cümhuriyyət bizdən, yəni Türk millətinin fərdlərindən bəzi mənəvi xüsusiyyətlər tələb edir”.[640] Ağaoğlunun Türk millətinin fərdlərində görmək istədiyi “bəzi mənəvi xüsusiyyətlər” vətəndaşların azad və sərbəst yaşamaları, ölkənin azad və demokratik şəkildə idarə olunması, maarif və mədəniyyət müəssisələrinin çoxaldılması ilə bağlı idi. Bunun üçün də, insan maddi və mənəvi anlamda nəfsinə hakim kəsilməli, doğruluğu sevməli, həqiqətə dözümlü olmalı, heysiyyət sahibi kimi çıxış etməlidir.[641]

---

[638] Yenə orada, s.130

[639] Yenə orada, s.131-132

[640] Ağaoğlu Əhməd. Seçilmiş əsərləri. Bakı, “Şərq-Qərb”, 2007, s.186

[641] Yenə orada, s.188

Ağaoğlunun "Sərbəst insanlar ölkəsi" Türk dünyagörüşü əsasında yeni bir Türk dövlətinin (Türkiyənin) ifadəsinin xəyali bir varlığıdır. Hər halda o, əsərin girişindəcə qəhrəmanının (yəni özünün) dilindən təsadüfən qeyd etmirdi ki, millətinin ilk məskəni Orta Asiyanın yüksək yaylası olub, sonradan dünyanın dörd bir yanına yayılmışdır: "Nəslim əsil, elim nəcib, qanım təmizdir. Yurdum əvvəlcə Orta Asiyanın yüksək yaylası idi. Sonra daşqın bir qanın həmləəri ilə əcdadım Şərqə, Qərbə, Şimala və Cənuba yayılmışlar. Məmləkətlər basmışlar, dövlətlər qurmuşlar, mədəniyyətlər meydana gətirmişlər. Ulularımız əvvəlcə sadə yaşarlardı, xalqla oturub-durarlardı, qanuna baxarlardı, haqqa və qurultaya itaət edərlərdi. El ağaları, oba böyükləri, tarxanları haqqı qorumaqdan, doğrunu söyləməkdən, azğınlara həddini bildirməkdən və qoluzorluluğa qarşı çıxmaqdan çəkinməzlərdi. Bu hal davam etdikcə elim qüdrətli və ellər arasında hörmətli idi. Amma sonralar qanımız qarışdı, kölə ellərin adət-ənənələrinə uyduq. Qurultay dağıldı, qanun pozuldu və zorakılıq qələbə çaldı. Hökmü rəvan millətim kölə oldu. O zamandan ocağımız söndü, adımız-sanımız batdı".[642]

Ağaoğlunun xəyali Türk dövlətində, ancaq gerçək olaraq isə Türkiyədə görmək istədiyi "Ümumi əsaslar" aşağıdakılar idi: "1. Azadlıq yüksək bir vergidir. Azad ola bilmək üçün çox nəcib olmaq lazımdır. Fikir təmizliyi, söz təmizliyi və hərəkət təmizliyi azadlığın əsaslarıdır. 2. Özünü ələ ala bilməyənlər azad ola bilməzlər. 3. Söz sadəliyi və yaşayış sadələyi azadlığın əsaslarıdır".[643]

Şübhəsiz, Ağaoğlu Qərb mədəniyyətini və demokratiyasını həddən artıq ideallaşdırmaqla yanlışlığa yol verirdi. Bu baxımdan Atatürk onun Qərb mədəniyyətinə meyilliyin qəbul etsə də, ifratçı liberalist baxışları ilə bəzi hallarda razılaşmırdı. Halbuki Atatürkün özü də kifayət qədər inqilabi dəyişiklikləri ilə tarixə düşmüşdür. Bu mənada Ə.Ağaoğlu Türkiyədə yaşadığı dövrdə M.Ə.Rəsulzadənin

[642] Yenə orada.
[643] Yenə orada, s.189

təbrincə desək, türk milliyyətçiliyinin, kamalizmin (atatürkçülüyün) və Türkiyədəki liberalizmin öndərlərindən biri olmuşdur.[644]

O, "Dövlət və fərd" əsərində isə daha çox Türk inqilabı ilə digər inqilablar (fransız inqilabı, rus inqilabı, ingilis inqilabı, alman inqilabı və b.) arasındakı oxşarlıqları və fərqlilikləri göstərmək olmuşdur. Ağaoğlu göstərirdi ki, Türk iniqlabı Avropadakı ictimai inqilabların mahiyyəti ilə bağlı ola bilər: "Necə ki, Avropa və Amerikada qurtuluş mücadiləsinin hədəfi muasir kapitalist dovlətlərini duşmuş olduqları təzadlardan və bu təzadların ortaya qoyduğu sinif mücadilələrindən qorumaqdır, öylə də bizim inqilabımızın başılıca hədəfi Türk cəmiyyətini gərək sərmayə təhəkkumundən və gərək bu təhəkkumun doğura biləcəyi sinif təzadlarından indidən qorumaq olmalıdır".[645]

Onun fikrincə, dövlət və fərdə münasibətdə kommunizmlə liberalizmin müqayisəsində daha çox üstünlük liberal təsanüdçülüyə verilməlidir. Çünki kommunistvari təsanüdçülüklə müqayisədə liberal təsanüdçülük təfəkkürə, elmi idraka əsaslanır. Ağaoğlu yazırdı: "Mütəkamil cəmiyyətlərdə isə təsanud biləks iş bölumu əsası üzərinə mustəniddir. Burada təsanud dərunidir, kimyəvidir. Burada fərd ehraz etmiş olduğu hürriyyətlər sayəsində qabiliyyətləri üçün sərbəst covlangah bulur və bu qabiliyyətlər getdikcə inkişaf edərək, nəhayət, ixtisas dərəcəsinə varır və bu sürətlə fərdlər adətən yekdigərinin mutəmmimi olurlar. Hər kəs qonşusunun məsaisinə möhtac olduğunu hiss və idrak edər və bütün cəmiyyət fərdləri arasında bu mutəqabil ehtiyac və mərbutiyyət dolayısı ilə bir zəncirləmə şəbəkəsi qurulmuş olur ki, birisinin məsaisinə varid olan hər hanki bir təşəvvus və pozuqluq dərhal digərləri üzərinə əks edər və cümləsini rahatsız qılar. Və bu ictimai rahatsızlıq, pozuqluğa meydan verən səbəb qaldırılmadıqca davam edər. Məsələn, fərz ediniz ki, bir şəhərdə hər hanki bir səbəb dolayisilə əkməkçilərin məsaisində durğunluq hasil oluyor

---

[644] Resulzade M.E.Hatıralar ve Kafkasya. İstanbul, 2011, s.177

[645] Ağaoğlu Əhməd. Dövlət və fərd // Yaqublu Nəsiman. Şuşa ziyalıları: unudulmuş irs. Bakı, AVE Print, 2022, s.18

və bunlar işliyəməz oluyorlar. Bütün şəhər xalqında hüsula gələcək rahatsızlığın və əksuləməlin dərəcəsini qolaylıqla *(asan)* təsəvvur edərsiniz. Qəbilədə isə böylə bir hal vuqua gəlməz. Çünki orada iş bölumu ibtidai bir haldadır. Hər ailə kəndi əkməyini kəndisi bişirir, binaənileyh bunlardan birisinə ariz olan illət digərlərinə əks etməz. Digərlərini rahatsız qılmaz. Yəni burada fərdləri bir-birinə bağlayan dəruni və bünyəvi mərbutiyyət hənüz hüsulə gəlməmişdir. Camaat yuksəldikcə və hürriyyət sayəsində iş bölumu artdıqca bu mərbutiyyətin *(bağlılıq)* kökləri hər tərəfə dal-budaq salar və fərdləri bir-birinə qırılmaz həyatı əlaqələrə bağlar. Bütün bu muşahidələrdən çıxarılacaq nəticə budur: fərd inkişaf etdikcə, yəni fərd hürriyyətlərini əlinə alaraq məsaidə tənəvvu etdikcə fərdləri yekdigərinə bağlayan iplərin ədədi çoxalır və bu ədəd nisbətində cəmiyyət arasında təsanüd və vəhdət təəssüs edər. İştə bunun üçündür ki, əsas və istinadgahı fərdi hürriyyət olan demokrasinin qələbəsilə hər yerdə və hər mühitdə milli vəhdət cərəyanlarının başladığını müşahidə edirik. Müasir milli qrupmanları və müasir milliyyət cərəyanları sırf demokrasinin məhsuludur. Nasıl ki, demokrasinin qələbəsindən əvvəl tarixdə milli cərəyanlara təsaduf olunmuyor, öylə də qayət təbii və məntiqi olaraq demokrasiyi inkar edən məzhəblərin düsturlarından başlıcası milliyyəti inkar və "Dünya vətənim və bəşəriyyət millətim" şüarından ibarətdir".[646]

Ağaoğlu hesab edir ki, əvvəllər Şərqdə dövlət və fərd münasibətləri daha yaxşı tənzimləndiyi hallarda, son əsrlərdə Qərbdə bu məsələ öz müsbət həllini tapmağa başlamışdır. O, yazırdı: "Bir zamanlar gəlmiş ki, iki qitə uzərində tamamən məkus axıntılar hüsula gəlmişdir. Şərqdə fərd boğulmuş, Qərbdə açılmış, bir tərəfdə getdikcə azğınlaşan istibdadın təzyiqi altında fərd sıxışdırılmış, zəiflətdirilmiş, cılızlaşdırılmış və nəhayət, kəndinin dar və boğucu qını içində soxuşdurulmuşdur. Qərbdə isə istibdadın getdikcə zəifləməsi sayəsində fərd tədricən hürriyyətlərini əlinə almış və mütəmadiyən açılaraq yaşamaq və çalışmaq zövqunu duymuşdur. Nəticədə boğulmuş və kəndi qını içinə girmiş zəif və

[646] Yenə orada, s.23-25

cılız fərdlərdən mürəkkəb Şərq camaatları da boğulmuşlar, zəifləmişlərdir. Əksi də olaraq mütəmadiyən qüvvətləşən fərdlərdən mürəkkəb Qərb camaatları qüvvətləşmişlərdi".[647]

Onun fikrincə, Qərbdə fərdi calışmasına doğru yürüyən mütərəqqi cərəyanlar davam edərkən Şərqdə camaatları kəndi əllərinə Allah tərəfindən verilmiş bir sürü kimi tələqqi edən qəhhar və cəbbar müstəbidlər fərdləri əzdikcə əzdilər, o qədər ki, ruhlardan yaşamaq zövqünü belə silərək ölüm və ədəmi bir ideal halına gətirdilər: "Böylə bir ideal bəsləyən fərdlərdə mürəkkəb bir camaata dayanma, açılma və yüksəlmə qüdrəti qalırmı? Şərqin məhkumiyyəti bu sürətlə doğrudan-doğruya fərdin əzilməsinin fərdə sərbəst düşünmək, sərbəst hərəkət etmək imkanı verilməməsinin nəticəsidir. Türk inqilabı Şərqin bu elm vəziyyətinə çarə olmaq uzrə yapılmışdır. Onun son diləyi fərdləri yenidən hər hanki bir qüvvətin əsiri deyil, hər təhəkkümdən qurtarmaqdır. Və bunun da bariz və musbət dəlili bu inqilabın qurmuş olduğu dövlət şəklilə təşkilati-əsasiyyə qanunudur.

Yeni Türk dövlətinin əsas təməlləri seçki üzərinə, yəni fərdlərin sərbəst rəylərinin izharı üzərinə qurulmuşdur. Fərdlər məbusları seçərlər, məbuslar Rəisi-cumhuru, Rəisi-cumhur Baş vəkili, Baş vəkil Vəkillər heyətini və butun bunlar bir-birlərini müraqibə edərlər. Eyni zamanda, təşkilati-əsasiyyə qanunu Türk vətəndaşına 31 maddəlik bir taqım əsasi-hüququ təmin etmişdir ki, yekunu türklərin hüquqi-amməsi namını daşır. Bu hüquq dövlətin dayandığı və qaldırılması və dəyişdirilməsi, bügünkü dövlət şəkli dururkən, cayiz olmayan əsaslardır. İştə bu əsaslardır ki, inqilabın başbuğuna Türk köylüsünün əfəndi olduğunu aləmə elanını təlqin etmişdir. Kadroçular Türk inqilabının ideolojisini qurmaq istərkən müsbət zəmin olmaq üzrə bu əsasları tədqiq edəcəklərdi. Fəqət bu tərz onların işinə gəlməz. Çünki bu metodla hərəkət etmiş olsalardı, inqilabımızın fərdi və fərd vasitəsilə fərdlərdən mürəkkəb camaatı qurtarmağa məruf olduğu, yəni tam və şamil bir demokrasi sistemini iltizam eyləmiş bulunduğu nəticəsinə varmaq

[647] Yenə orada, s.27

məcburiyyətində qalacaqlardı. Halbuki onların apriori *(əvvəl)* iltizam etdikləri məqsəd obyektiv bir həqiqətə varmaq deyil, subyektiv bir fikri irəli surməkdir. Bu fikir müfrit *(həddən artıq)* dövlətçilik üsuludur...”.[648]

Bizcə, Ağaoğlunun “Mən kiməm?” etik-fəlsəfi əsəri də, ideya təkamülü baxımından “Üç mədəniyyət”, “Sərbəst insanlar ölkəsində”, “Dövlət və fərd” traktatlarının davamıdır. Burada o, daha çox insan problemi və əxlaq fəlsəfəsinə toxunsa da, yenə də məsələni Qərb və Şərq cəmiyyətlərini müqayisə şəklində qoymuş və izah etməyə çalışmışdır. Əsərdə başlıca qayəni insanın “ikiləşməsi”, gah xeyir, gah da şər obrazında çıxış etməsinin səbəbləri təşkil edir. Müəllifə görə, ağla qara, gündüzlə gecə arasındakı bənzəyiş insanın İçilə Çölü arasındakı bənzəyişdən daha çoxdur. O, yazırdı: “Zahirim batinimə əsəbi və küskündür, batinim zahirimə lənət oxuyur! Demək, mən, mənim mənliyim bu imiş, bu yan-yana gəlməyən, bir-birini inkar edən, bir-birindən iyrənən təzadlar imiş, eləmi? O halda mən qəribə, nə əcaib yarıdılşam. Əcaba, siz də mi beləsiniz, o birilər də belədirlərmi?”.[649]

Ağaoğlu yazırdı ki, insanın söz aləmi ilə iş aləmi, təsəvvürdəki fəaliyyətlə həqiqi fəaliyyət arasında çox dərin fərqlər olur, onlar nəinki bir-birinə bənzəyir, hətta bir-birini inkar edirlər. Kənardan baxanlar isə belə adamları “dəyişkən”, “qeyri-sabit” adlandırırlar. Halbuki burada günahkar insan deyil, bütün bunlar onun İçilə Çölü arasındakı təzaddan irəli gəlir. Ağaoğlunun fikrincə, əslində burada problem insanın İçi ilə bağlı deyil, çünki insanın İçi xeyirə xidmət edir. O, yazırdı: “Doğrusunu söyləmək lazım gəlsə, mənim İçim çox yaxşı təbiətli, xoş niyyətli, yaxşılıq sevən, başqaları üçün xeyir istəyən, qəhrəmanlığa aşiq, sədaqətə, doğruluğa məftun bir varlıqdır; elə buna görədir ki, mən danışıq və təsəvvür aləmində qəhrəmanlıqdan, doğruluqdan, sədaqətdən, vətəndaşlara yaxşılıq

---

[648] Yenə orada, s.28-29

[649] Ağaoğlu Əhməd. Seçilmiş əsərləri. Bakı, “Şərq-Qərb”, 2007, s.50

eləməkdən hərarətlə, həyəcanla söz açır, yazıram və sizi inandırram ki, bunları edərkən çox səmimiyəm".[650]

Ona görə əgər problem insanın İç dünyası ilə bağlı deyilsə, deməli onu insanın Çölündə axtarmaq lazımdır. Çünki insan sözdən hərəkətə, əmələ keçəndə İçi onu tərk edir və yerini Çölünə verir. Ağaoğlu yazırdı: "O (insanın Çölü) isə yerinə və şəraitinə uyğun düşünülmüş və hesablanmış hərəkətlər etdiyindən məni də arxasında sürükləyir. Və baxırsan ki, səhərçağı əleyhinə danışıdığım işi günortadan sonra böyük bir imanla həyata keçirməkdəyəm. İmanı məxsusi olaraq nəzərə çarpıdırıram. Çünki həqiqətən Çölüm belə vəziyyətlərdə tam bir mömin olmağı da bacarır".[651]

İnsanın İçilə Çölü arasındakı bütün təzadların bircə qaynağı var – Eqoizm! O yazır: "Çölümün ən canlı səciyyəsi özünü istəməkdir, öz nəfsini və faydasını hər şeydən üstün tutmaqdır. Əsas bəla budur, digər təzadlar bundan doğur".[652] Yoxsa, insanın İçi çox yüksək, nəcib, əsil insani duyğularla doludur; insaniyyət, haqq, Vətən və vətəndaş uğrunda mal və nəfs fədakarlığı onun ən çox sevdiyi şeylərdir. Bir sözlə, insan İçində qüvvətli bir altruizm, yəni başqalarının yaxşılığı uğrunda özünü qurbanvermə eşqi vardır. Ancaq insanın İçi nə qədər altruistdirsə, Çölü də bir o qədər eqoistdir.

İnsanın İçi ilə Çölü arasındakı bu təzadları araşdıran Ağaoğluya görə eqoizm və altruizm insanda sonradan əmələgəlmə xüsusiyyətlər deyil, bunlar bioloji, yəni lap əzəldən varlıqla bərabər doğulan amillər imiş. Hətta bu xüsusiyyətlər heyvanlarda da var. O, yazırdı: "Xülasə, canlı kainat bu iki əsas üzərində bərqərar olmuşdur. Lakin varlıqlar təkamül etdikcə altruizm xüsusiyyəti eqoizm üzərində qələbə çalır. Hətta heyvan növləri yüksəldikcə, bunun müqabilində fədakarlıq və bərabərlik kimi altruizm əlamətləri də qüvvətlənmişdir. Əksinə, altruizm xüsusiyyəti az olan heyvan növləri isə dəyişilməkdədir".[653]

---

650 Yenə orada, s.50
651 Yenə orada.
652 Yenə orada, s.51
653 Yenə orada, s.54

O qeyd edir ki, bu iki amillə bağlı instinkt hərəkət edən heyvanlardan fərqli olaraq, şüurlu insanlar təcrübələrindən, müşahidələrindən nəticə çıxarmaq etibarilə özlərində altruizmi inkişaf etdirməyə çalışırlar. Ancaq bəzi millətlər, xüsusilə Qərb cəmiyyətləri altruizm instinktini inkişaf etdirdikləri halda, Şərq xalqları eqoizmə yuvarlanmışdır. Belə ki, Şərqdə bir şəxs milyonların arasında yaşadığı halda heç kəs ona diqqət yetirmir, təkbaşına buraxılır: "Xəstələri, acları, evsizləri heç kəs düşünmür, vecinə almır. Hələ yoxsul və işsiz yaşlıların qayğısına qalmaq, əlillərin fikrini çəkmək kimsənin ağlına gəlmir. Qərbdə isə belə deyil. Hər kəsin haqqında düşünülür və nəticədə unudulan bir kimsə qalmır. Qərb cəmiyyəti bütün bunları vətəndaşlarının izzəti-nəfslərini incidən və təhqir edən mərhəmət şəklində deyil, onların qarşısında bir borc və vəzifə kimi yerinə yetirir".[654] Ağaoğluna görə eqoizmlə altruizm arasındakı müvazinətin Qərbdə altruizmin, Şərqdə isə eqoizmin xeyrinə bu qədər pozulmasının səbəbləri 1) Ailə və ailədə qadının vəziyyəti; 2) Məktəb və ədəbiyyatın təsiri; 3) Çox uzun sürən anarxist istibdadın təsiri və sairdir.

Ağaoğlu Türk mədəniyyətinin, ədəbiyyatının, demokratiyasının inkişafı ilə yanaşı, bəzi əsərlərində Türk xalqlarının qədim inancları, adət-ənənələri ilə bağlı fikirlərini bölüşmüşdür. Məsələn, Ə.Ağaoğlu bütün türklərin ən qədim dini-fəlsəfi təlimi kimi zərdüştiliyi deyil, şamanizm və tanrıçılığı görmüşdür. "Tanrı dağında" hekayə-məqaləsində Ə.Ağaoğlu qədim türklərin, o cümlədən Azərbaycan türklərinin şamançı və tanrıçı inanclarından bəhs etmişdir. Onun fikrinə görə, Şamanlar Şamı Qaraqumlu Göyçə həm də Tanrı qulu, Tanrı elçisi idi.[655] Ə.Ağaoğlu bu hekayəsində göstərməyə çalışır ki, Şaman insanı Tanrı ilə qovuşduran bir məbud, Tanrıya aparan yolun bələdçisidir: "Özümü Tanrı dağının təpəsində, Şamanı öndə, özümü arxada yeriyən gördüm. Dağın təpəsi geniş və uzun bir meydandı. Minlərcə insanlar toplanmışdı. Diqqət etdim: şamanlar və şamanlara qoşulmuş mənim kimi Tanrı aşiqləri idi! Hər elin

[654] Yenə orada, s.54
[655] Yenə orada, s.78

şamanları başda Şamanlar Şamanı olmaq üzrə ayrı bir səf təşkil edirdi. Odur, sarı rəngli tuğun altında Cunqariya şamanları, bax qırmızı rəngli tuğun yanında Qırğız şamanları, o biri tərəfdə göy rəngli Orxon şamanları, daha o biri yanda yaşıl rəngli Qaşqar şamanları, onların sol tərəfində Qobi şamanları, sağ tərəfdə pənbə rəngli Altay şamanları! Bu da bizim qara rəngli Qaraqum şamanları".[656]

Ağaoğlu birmənalı şəkildə zərdüştiliyi isə İran mədəniyyətinə aid etmişdir. O, "İran və inqilabı" əsərində yazırdı ki, Zərdüştün "Zənd Avesta"sı istisna olmaqla İran mədəniyyəti əsasən, türk hakimiyyətləri dövründə inkişaf etmişdir: "Ondan əvvəlki dövrlərdə İranın vermiş olduğu yeganə əsər Zərdüştün "Zənd Avesta"sı ilə pəhləvi lisanındakı, ikinci dərəcəli dini mahiyyətli yazılardır".[657]

Onun əxlaqi-fəlsəfi görüşləri əsasən təkamül prosesi zəminində formalaşsa da, ancaq bəzi hallarda sıçrayışlar da özünü büruzə vermişdir. Hər halda gənc Ağaoğlu ilə zamanla müdrikləşən yaşlı Ağaoğlunun dini məzhəbçi, dini, milli, qərbçi, insani anlamda əxlaq məsələlərinə yanaşmasında ziddiyyətlər də öz əksini tapmışdır. Bundan irəli gələrək tədqiqatçılar (Şahnəzər Hüseynov,[658] Rafail Əhmədli[659] və b.) Ağaoğlunu kosmoplolit vətənpərvər adlandırmışlar. Hər halda Ağaoğlunun dünyagörşündəki əxlaqi-fəlsəfi məsələlər birmənalı olmasa da, ancaq əsas nüvə kimi çağdaş ruhlu Türk-İslam əxlaqının özünü qoruyub saxlamasını düşünürük.

**Beləliklə,** Ağaoğlu haqqında fikirlərimizi yekunlaşdıraraq deyə bilərik ki, onun "islam millətçiliyi" təlimi XX əsrin əvvəllərində ən aktual nəzəriyyələrdən biri olmuşdur. Siyasi türkçülüyün banilərindən Y.Akçura qeyd edirdi ki, Azərbaycan türkçülüyünü oyanmağa, şüurlanmağa, milli və insani haqlarını müdafiə etməyə dəvət edən Əhməd bəyin bu nəzəriyyəsi rus hökuməti tərəfindən təhlükəli və zərərli sayılmışdır.[660] Ö.F.Nemanzadəyə görə isə Ağa-

---

[656] Yenə orada, s.85
[657] Yenə orada, s.125
[658] Hüseynov Şahnəzər.Əhməd bəy Ağaoğlunun dünyagörüşü. Bakı,1998, s.24
[659] Əhmədli Rafail. Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsi: türkçülük, müasirlik, islamçılıq. "Elm" nəşriyyatı, Bakı, 2007, s.157
[660] Akçura Yusif. Türkçülüyün tarixi. Bakı, Qanun, 2010, s.228

oğlu bu teorisi ilə indiyə qədər pərdə arxasında qalan bir çox keçmiş islam adət-ənənələrimizi, mədəniyyətimizi, eləcə də xilas yolumuzu göstərmişdir.[661] M.Ə. Rəsulzadənin də təbrincə desək, 1900-cu illərdə millətçiliyimiz əsasən, islamçılıq üzərində qurulmuşdu və onun da başlıca ideoloqu Ə.Ağaoğlu idi.

Əhməd bəy Ağaoğlu islamçılıq ideyasından ümidini kəsdikdən sonra daha çox Qərb mədəniyyəti əsasında Türk-İslam dünyasının dirçəlişinə inanmışdır. "Üç mədəniyyət" əsərində qərbçilik ideyasını geniş şəkildə izah edən Ağaoğlunun bu ideyaya münasibətdə həddən artıq ifrata varması düşüncəsindəyik. Hər halda, Qərb mədəniyyətini idellaşdırmaqla bir qədər  ifrata varan Ə.Ağaoğlunun çox keçmədən, bu məsələdə bir qədər daha ehtiyatlı mövqe tutmasına inanırıq.

Ə.Ağaoğlunun yaradıcılığında islamçılıq, qərbçilik ideyaları ilə bərabər Türk dünyagörüşü də mühüm yer tutmuşdur. Ağaoğlu Türk mədəniyyətinin inkişafı ilə yanaşı, bəzi əsərlərində Türk xalqlarının fəlsəfi təfəkkürü, Türk dünyagörüşü ilə bağlı fikirlərini bölüşmüşdür. Bizcə, Ağaoğlunun islamçılıq və qərbçilik ideyalarından sonra Türk fəlsəfəsinə, Türk dünyagörüşünə üz tutması təsadüfi olmamışdır. Ağaoğlu fərd və cəmiyyətlə bağlı bəslədiyi ümidlərinin doğrulması yolunda Türk fəlsəfəsinin, Türk dünyagörüşünün əhəmiyyətini də hiss etmişdir. Xüsusilə də, onun Türk fəlsəfəsini əsasən zərdüştlükdən, qismən də islamçılıqdan fərqləndirib daha çox Tanrıçılıq üzərinə kökləməsi bunun bariz örnəyidir.

---

[661] Nemanzadə Ömər Faiq. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2006, s.36-37

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ

**Həyat və yaradıcılığı.** Azərbaycan Türk mütəfəkkiri Məhəmməd Əmin Axund Hacı Molla Ələkbər oğlu Rəsulzadə (1884-1955) Bakının Novxanı kəndində ruhani ailəsində doğulub və S.M.Qənizadənin müdiri olduğu "II Tatar-Rus" məktəbində və Bakı texniki məktəbində təhsil alıb. 1902-1903-cü illərdə Bakıda "Türk gənc inqilabçılar dərnəyi" yaradan Rəsulzadə, 1904-cü ilin axırlarında təsis olunan "Müsəlman sosial-demokrat "Hümmət" təşkilatı"nın da banilərindən biri olub. "Nicat-Maarif" cəmiyyətinə də bir müddət rəhbərlik edən Rəsulzadə 1909-cu ilin əvvəllərində Təbrizə, daha sonra Tehrana getmişdir. Tehranda bir qrup ziyalı ilə birlikdə 1910-cu ilin sentyabrında İran Demokrat Partiyasının əsasını qoyan Rəsulzadə onun əsas mətbuat orqanı olan "İrani-nou" qəzetinin baş redaktoru olub. 1911-ci ildə çar Rusiyasının Tehran hökumətinə basqısı nəticəsində İstanbula getməyə məcbur olan Rəsulzadə "Türk ocağı" təşkilatı və "Türk yurdu" jurnalında çalışıb.

1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi münasibəti ilə elan edilən amnistiyadan sonra Bakıya dönən Rəsulzadə "Müsavat"ı aktivləşdirmək siyasəti ilə yanaşı, 1915-ci il oktyabrında əsas şüarı "türkçülük, islamçılıq və müasirlik" olan "Açıq söz" qəzetini təsis edib. 1917-ci il mayın 1-dən 11-dək Moskvada keçirilən ÜmumRusiya Müsəlmanlarının I qurultayında Rəsulzadə Bakıda irəli sürdüyü milli-ərazi federasiya prinsipləri əsasında yaradılmış qoşma respublika ideyasını burada da qaldırıb. Onun irəli sürdüyü milli-məhəlli muxtariyyət ideyası 271 səsə qarşı 446 səslə qəbul edilib. O, 1917-ci ilin oktyabrında Bakıda keçirilən "Müsavat"ın I qurultayında həmin partiyaya sədri, az sonra da Qafqaz və Türküstandan Rusiya Müəssisələr Məclisinə millət vəkili seçilib.

1918-ci il mayın 26-da Zaqafqaziya Seymi dağıldıqdan sonra mayın 27-də Rəsulzadənin rəhbərlik etidyi Müsəlman-Türk fraksiyasının əsasında Milli Şura yaranıb. Rəsulzadənin Milli Şuraya sədr seçilməsinə 4 partiyadan yalnız "İttihad" əleyhinə səs verib.

"Müsavat",Müsəlman Sosialist Bloku və Müsəlman Sosial-Demokrat-Menşeviklər və "Hümmət" lehinə səs veriblər. "Gizli səsvermə yolu ilə 22 səs çoxluğu qazanan Məhəmməd Əmin Rəsulzadə Azərbaycan Milli Şurasının başçısı seçilir".[662] Milli Şura öz dövrü üçün ölkənin ən yüksək idarəetmə orqanı rolunu oynayıb və faktiki olaraq Rəsulzadə Cümhuriyyətin qurucusu və ilk dövlət başçısı idi.

27 aprel faciəsindən sonra 1920-ci ilin avqustun 17-də Lahıcda tutulub Bakıya gətirlən Rəsulzadənin həbsi xəbəri az sonra Stalinə çatdırılıb. M.Əliyev yazır: "Stalin heç kəsə xəbər vermədən Bakıya gələrək, XI ordunun xüsusi şöbəsinin rəisi V.Pankratova RSFSR-in Millətlər Komissarlığı adından göstəriş verdi və özü şəxsən həbsxanaya gedib M.Ə.Rəsulzadəni azad etdi. Bununla, İ.V.Stalin 1905-ci ildə onu ölümdən qurtaran keçmiş inqilabçı dostu Rəsulzadənin qarşısında öz tarixi vicdan borcunu yerinə yetirdi. O, Rəsulzadəni özü ilə birlikdə Moskvaya apardı və RSFSR Millətlər Komissarlığında mətbuat müvəkkili vəzifəsinə təyin etdi. M.Ə.Rəsulzadə RSFSR Millətlər Komissarlığına tabe olan Moskva Şərqşünaslıq (keçmiş Lazarev) institutunda fars dilində dəsr demişdir... Onun oradan Moskvadan rəhmətlik tatar maarifçilərindən Musa Cərullah Bigiyevin müyəssər yardımı ilə qayıqlaFin körfəzi üzərindən keçərək Finlandiyaya qaçırılması təmin edilmişdir".[663]

1922-ci ilin sonlarında Rəsulzadə İstanbula gələndə, burada Azərbaycandan gələn mühacirlər arasında bir dağınıqlıq vardı, hətta mühacirlər arasındakı fikir ayrılığı nəticəsində konsulluq bağlanmışdı. O, 1923-cü ildə Azərbaycan Milli Mərkəzi təşkil edib, müsavatçı olan, olmayan mühacirləri bir təşkilat ətrafında birləşdirdi, tezliklə bütün Sovetlər Birliyini həyəcana gətirən "Yeni Qafqasiya" jurnalını nəşr etdirdi. Daha sonra onun redaktorluğu ilə "Azəri Türk" (1928-1931), sonrakı illərdə isə "Odlu yurd" (1929-1930) jurnalları və həftəlik "Bildiriş" (1929-1931) qəzeti nəşr edilmişdi.

---

662 Yaqublu Nəsiman. Məmməd Əmin Rəsulzadə. Bakı: Gənclik, 1991, s.79

663 Əliyev Mövsüm. M.Ə.Rəsulzadənin ömür yolu //Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991, s.12-13

1931-ci ildə Türkiyəni tərk edərək Almaniyaya gedən Rəsulzadə Berlində "İstiqlal" (1932-1934) qəzetini, "Qurtuluş" (1934-1938) jurnalını nəşr etdirmişdir. 1938-1939-cu illərdə Polşa hökumətində məsləhətçi işləyən Rəsulzadə SSRİ-nin bu ölkəni işğal etməsilə əvvəlcə Fransaya, daha sonra da İsveçrəyə üz tutub. İsveçrədən sonra qısa müddət Londonda yaşayan Rəsulzadə 1940-cı ildə Buxarestə-Rumıniyaya getməyə məcbur olub.

O, 1942-ci ilin yayında Hitlerin "Şərq nazirliyi" tərəfindən Almaniyaya dəvət olunmuş, ancaq müstəqil və milli Azərbaycan məsələsində hitlerçilərlə anlaşa bilməyərək 1943-cü il avqustun sonlarında Berlini tərk edib Rumıniyaya üz tutmuşdur. Sovet qoşunlarının Rumıniyaya yaxınlaşması ilə əlaqədar olaraq Rəsulzadə Buxarestdəki Türkiyə səfirliyinin qonaq evindən çıxmağa məcbur olub. Daha sonra Buxarestdən Vyanaya gedən Rəsulzadə bir müddət burada qaldıqdan sonra Qərbi Almaniyaya-Münhenə köç etmişdir. Rəsulzadə Münhendəki azərbaycanlıların problemlərini həll etmək məqsədi ilə Azərbaycan Demokrat Birliyi adlı təşkilat qurub.

II Dünya müharibəsindən sonra Türkiyəyə dönə bilən Rəsulzadə 1949-cu il fevralında Ankarada yaranan "Azərbaycan Kültür Dərnəyi"nin sədri seçilmişdi. O, 1952-ci ildə Münhendə Ümumqafqaz Konfransının keçirilməsinə nail olmuş, burada "Qafqaz Mərkəzi"nin yaradılmasını və SSRİ imperiyasına qarşı mübarizənin Birləşmiş Qafqaz Konfederasiyası formasında davam etdirilməsini təklif etmişdir. Bundan bir az sonra da, o, 1953-cü ildə Azərbaycan Milli Mərkəzini bərpa etmişdi. 1955-ci ilin martın 6-da böyük ideoloq M.Ə.Rəsulzadə Ankara Universitetinin Tibb fakültəsinin klinkasında vəfat etmişdir.

Onun əsas əsərləri aşağıdakılardır: "İran türkləri" (1913), "Milli dirilik" (1914), "Azərbaycan Cümhuriyyəti: keyfiyyəti-təşəkkülü və şimdiki vəziyyəti" (1923), "Əsrimizin Səyavuşu", (1924), "İstiqlal məfkurəsi və gənclik" (1925), "İnqilabi sosializmin iflası və demokratiyanın gələcəyi" (1928), "Millət və bolşevizm" (1927), "Qafqasiya türkləri" (1927), "Azərbaycan istiqlaliyyəti" (1930, Paris), "Qafqaz problemi ilə əlaqədar olaraq pantura-

nizm haqqında" (Paris, 1931), "Azərbaycan Respublikası haqqında bəzi qeydlər" (Berlin, 1933), "Çağdaş Azərbaycan ədəbiyyatı" (1936, Berlin), "Azərbaycan poblemi" (1938, Berlin), "Azərbaycanın hürriyyət savaşı" (1939, Varşava), "Azərbaycan şairi Nizami" (1951), "Stalinlə ixtilal xatirələri" və b.

**Dini görüşləri.** Tanınmış din alimi, Quranın təfsirçisi Axund Molla Ələkbərin ailəsində dunyaya gələn Rəsulzadə uşaq vaxtlarından İslama böyük maraq göstərib, sonralar bunu, dinin ecazkarlığına heyranlığı ilə izah etmişdir.[664] İslamın türklərin, o cümlədən Azərbaycan türklərinin taleyində mühüm rolunu görüb onu qiymətləndirməyə çalışan böyük mütəfəkkir-filosof Azərbaycan türklərinin İslam-Türk aləmində hansı mövqeyə, yerə malik olmasını doğru təyin edərək onların milli xüsusiyyətləri ilə yanaşı, dini və məzhəbi təssübkeşllik amillərini də nəzərə almışdır.

Rəsulzadə əsərlərində Məhəmməd peyğəmbərin (s) müdrik kəlamlarından nümunələr gətirmiş, onun dünyaya gəlməsi ilə bəşər tarixində yeni bir səhifənin açılmasını inamını ifadə etmişdir. Rəzulzadə yazırdı: "İslamiyyət nöqteyi-nəzərindən bu günün nə qədər heysiyyəti varsa, insaniyyət nöqteyi-nəzərindən də bir o qədər var və bəlkə də artıqdır. İslam dininin vəzi ilə bir çox insanlar təriqi-zəlal və əsəbiyyətdən qurtarıb rahi-nicat və fəlahə düşdüyünü heç kəs dana bilməz, zənn ediyorum".[665] Rəsulzadənin fikrincə, başdan-ayağa istibdad, cəhalət içində olub güzəranlarını qətl və qarət ilə keçirdən, təəssüb ucundan öz doğma balasını diri-diri yerə basdıran bədəvi ərəblər arasında İslam dini kimi insaniyyətpərvər, ədalət və bərabərlik, maarif və həqqaniyyətamiz bir məslək icad edən və onu təbliğ edən Məhəmməd peyğəmbər (s) olmuşdur.[666]

Rəsulzadə İslamın əsas simalarından biri olan Həzrət Əliyə (ə) də yüksək qiymət verərək onun əməllərini və fikirlərini nəinki bir cəmiyyət, ümumilikdə bəşəriyyət üçün fövqəladə vacib olduğu-

---

[664] Rəsulzadə M.Ə. Əsərləri (1909-1914). II cild. Bakı: Şirvannəşr, 2001, s.272
[665] Rəsulzadə M.Ə. Əsərləri. I cild (1903-1909). Bakı, "Təhsil", 2014, s.71
[666] Yenə orada, s.71-72

nu ön plana çəkmişdir.[667] O, Həzrət Əlini həm islamın mücahidi, həm də bir alim kimi yüksək dəyərləndirmişdir.[668] Həzrət Əli ilə yanaşı, onun oğlu İmam Hüseynə də din mücahidi kimi yüksək qiymət verən Rəsulzadə yazırdı ki, müsəlmanlar Aşura günündə onu məzlum bilib ağlamaqdansa, imamın bu böyük ruhu ilə aşina olub, əqidəsini davam etdirməlidirlər: "Əqidə, amal və məsləki yolunda ölümünə razı olub da nəfsini fəda edən kim olursa-olsun böyükdür. Və bu böyüklük təqlidəşayan və təhsinə müstəhəqqdir! Aşura günü bizə böylə bir əxlaq tərbiyəsi vermək iqtidar və səlahiyyətində ikən, eyvah ki, biz onu başqa dürlü qandıq, hər şeydə olduğu kimi burada da yanlış bir yola düşdük".[669] O, daha sonra haqlı olaraq yazırdı ki: "Hüseyn əleyhissəlam inandığı və etiqad elədiyi fikri üstündə ölməyincə, özünün əbədi bir rəhmətə nail ola bilməyəcəyini göstərmiş ikən, biz "mən - mənə, o - ona, o - o yana" timsalından dörd əlli yapışıb səadətdarini üç-dörd qətrə göz yaşı müqabilində veriləcək qədər ucuz bir şey sandıq".[670]

Ümumiyyətlə, ağlamaqla heç bir nəticə əldə olunmayacağına inanan Rəzulzadəyə görə təbiət olduqca qəddar və rəhmsizdir və o, göz yaşlarına zərrə qədər əhəmiyyət verməz: "O, gülməyə, ağlamağa qarşı laqeyddir. Hələ ağlamaqdan bir az da zəhləsi gedər. Çünki ağlamaq acizlik əlamətidir. Acizlərin isə təbiət ən birinci düşmənidir. Qüvvətli olanları saxlar, zəif olanları əzər-budur onun rəftarı. Siz gəlin də bu xasiyyətindən ötrü ona kəcmədar deyiniz. Fəqət bu onun getdiyi bir doğru yoldur. Tazə ilimizdə köhnəsindəki itirdiklərimizi təlafi etmək istəyirsək, gələn məhərrəmə qədər ağlanacaq hallardan bir az olsun, özümüzü xilas etmək amalında isək, fələyin "kəcmədar" olduğuun anlayalım və böylə bir zalimə qələbə çala bilmək üçün insani boşaldan göz yaşından deyil, fikir istiqaməti və əqidə səbati ilə əməlpərvərlikdən kömək gözləyəlim".[671]

---

[667] Əlizadə Soltan. Məhəmməd Əmin Rəsulzadə və İslam. Bakı, 2003, s.16-17
[668] Rəsulzadə M.Ə. Əsərləri. I cild (1903-1909). Bakı, "Təhsil", 2014, s.23
[669] Rəsulzadə M.Ə. Əsərləri. II cild (1909-1914). Bakı, "Təhsil", 2014, s.434
[670] Yenə orada, s.434
[671] Yenə orada, s.434

O, dinə münasibətdə ifrat mühafizəkarlıq kimi, ifrat yeniləşmənin də əleyhinə olmuşdur. Hər halda Rəsulzadə sosial-demokratizmə meyil göstərib, hətta bir müddət islami sosializmdən çıxış etsə də, heç vaxt ifrata varmamışdır. Rəsulzadə yazırdı: "Hər bir şeyin qüvvəti birlikdədir. Birlik isə yalnız "mən sənə yoldaşam" – deyib təsəlli verməklə olmaz. Bu, dildə deyilən sözü əməl ilə də göstərməlidir. Bir neçə şəxsin arasında ittihad həmfikirlilik, həmməsləklik ilə olur... Hərəmiz bir güncdə bir xüsusi cəmiyyət qayırıb da müxtəlif yollar ilə getməkdənsə birləşməli, öz fikir və fellərimizdən bir-birimizi hali etməliyik. Millətpərəstlik bizə yararsa, hamımız millətpərəst, demokratlıq yararsa, hamımız demokrat və qeyri bir yarar məslək üzrə olub, sözü və işi bir olan iş görək. Bəndəyə qalır isə hər bir dəstədən olursa olar, ancaq islamiyyət üzrə olaq. İslamiyyətdən kənara çıxsaq fəlakət bizi gözləyir. İslam bizə rahi-nicatdır – desəm eyni savabdayam. Nə sosializmin, nə də demokratizmin ümdə əqidələri İslam ilə müxalif deyil. Bəlkə şərəyei-müqəddəsi-İslam qoyduğu qəvaidlə eyni mütabiqətdə və müvafiqətdədir. Zəkat, fitrə və qeyrə sədəqlər vacibi-sünnəti materializm deyil də nədir? Bərəkət cəmaətlikdədir. Ümur cümhuri-şura ilə görülməlidir - kəlamları demokratizmi icab etməzmi? Xülasə, yenə də təkrar edirəm, hər nə olmalıyız, olaq. Fəqət islamiyyət üzrə olaq ki, bu eyni insaniyyətdir".[672]

Millətin mənafeyinə zidd getmədən hər hansı bir cərəyanla əməkdaşlığı mümkün sayan Rəsulzadə, bu baxımdan islami dəyərlərlə materializm arasında oxşarlıqlar olduğunu sübut etmək istəyirdi. O, ətrafındakıları inandırmağa çalışırdı ki, İslam müxtəlif əqidəli insanları bir-birindən ayırmır, əksinə birləşdirir. Bir sözlə, o, sosial-demokratizm kimi, İslamın da mərkəzində ictimaiyyətin, yəni ictimai bərabərliyin, sosial ədalətin öndə olduğunu iddia edirdi. Rəsulzadəyə görə adımızı müsəlman qoysaq da lakin İslamın nə tarixindən, nə üsulundan, nə də qaydalarından xəbərimiz yoxdur. Əgər xəbərimiz olsa idi, o zaman görədik ki, İslam dini özü ictimaiyyətə əsaslanır: "İslamiyyət, hürriyyət - məhz bir olub, hər bir

[672] Rəsulzadə M.Ə. Əsərləri. I cild (1903-1909). Bakı, "Təhsil", 2014, s.25-26

əsası ictimaiyyət üzrə bina olunduğu bir zamanda biz istibdadpərəst oluruz. Quran bizə "hər iş barəsində onlarla məsləhətləşin" buyurduqda, biz üsuli keyfəma yaşau dalınca gediriz. Cəmi taifələr dinimizin üsullarından olan hürriyyət və ittihad-beynəlmiləli ararkən bizlər istibdad və nifaqı axtarıyoruz. Müsəlmanlar! Bəsdir bu qədər özümüzdən bixəbər qaldığımız! Bəsdir dinimizə olan kəmetiqadlığımız, dinimizə diyoram-dinimizə,o dinə ki, onun cümlə üsulu və ərkani ictimaiyyət, məhz və məhz ictimaiyyətdir".[673]

Ona görə ilkin İslamla hazırda təbliğ olunan İslam arasında müəyyən fərqlər var ki, bu da zaman zaman islamlığa olunmuş əlavələrlə bağlıdır: "Şəkk yoxdur ki, İslam dini bizzat tədənnini mövcib bir din deyildir. Fəqət yenə şəkk yoxdur ki, bu gün İslam dini deyə, tərvic olunan əxlaqi-diniyyə və adati-məzhəbiyyə sədri-İslamda mövcud olan təlimatın eyni deyildir. Hər bir dində olduğu kimi İslamda da müriri-əyyam ilə bir çox təbəddülat əmələ gəlmişdir. İslamın ruh və mənəviyyatı ilə tamam-tamamına zidd olan bir çox şeylər vardır ki, İslam piruləri tərəfindən dinin birər möhkəm əqanimi (əsilləri) kimi qəbula keçmişdir".[674] İslamiyyətin içərisinə xaricdən gələn bu kimi yad ünsürlərin nə surətlə ona qarışdığını, dinin pozulduğunu iddia və isbat edən alimlər az deyildir. O, yazırdı ki, belə alimlərdən biri olan Cəmaləddin Əfqani də müsəlmanların inkişafını İslam ehkamlarının düçar olduğu əlavələrdən qurtulmaqda və dini oyanışda aramışdır: "Həm həqiqətən də böylə olmalıdır. Avropa tərəqqiyyatına protestantlığın böyük bir təsiri olmuşdur. Hətta bəzi mütəfəkkirincə ki, Şeyx cənabları da bu zümrəyə ittihad ediyor, Avropa mədəniyyəti-cədidəsinin yeganə müəssiri protestantlıqdır".[675]

Xristianlqda olduğu kimi, İslamlıqda da islahatlar aparılıb ona olunmuş əlavələrdən qurtulmasını vacib hesab edən Rəsulzadə yazırdı ki, Mərakeşdən tutub Buxaraya qədər hər bir İslam məmləkətində müsəlmanlar dünyanın "beş günü"nü də "beş qara gün" ki-

[673] Yenə orada, s.71-72
[674] Yenə orada, s.246-247
[675] Yenə orada, s.247

mi verib deyir nə çalışmağa dəyər, nə də zəhmətə: "Biz müsəlmanlar, bizə öyrədilən "müsəlman tərbiyəsi"nə sadiq qaldıqca dünya işlərində müvəffəq ola bilməmiz mümkün deyil. Çünki dünyanı və onun həyatını sevmiyoruz, onda bir gözəllik görmüyoruz. Dünya bizcə bir cifədir, içərisi pisliklə dolu zərrin bir sandıqdır. Biz böylə düşünəcək, bittəb, sevmədiyimiz bir şeyi mənimsəmirik də, mənimsəmədikcə onun abadlığına, tərəqqisinə də xidmət etmərik. Çünki xidmətimiz öz fikrimiz və etiqadımızla bir təzad təşkil edər. Bir millətin əksəriyyəti dünyanın bir "cifteyi-napakdan" ibarət olduğuna qane olur isə, öylə bir millətin dünya üstündə vaqe olan mübarizələri də məğlub düşəcəkləri mühəqqəq deyilmidir?".[676]

Onun fikrincə, əgər hər hansı bir millət dünyanı beş günlük sayıb, bu cür düşüncədən uzaq olmayacaqsa məğlubiyyətə uğrayacaq: "Əlbəttə böylədir: təsəvvür ediniz, bir tərəfdən həyata əhəmiyyət verməyən və dünyanı beş qəpiyə almaq istəməyən bir camaatı ki, gözəl bir yerdə sakindir. Fəqət öz həyatlarına əhəmiyyət vermədiklərindən aralarında müxtəlif azarlar tövlid olunuyor, ölüyorlar və gündən-günə azalıyorlar, yerlərinə də heyfləri gəlmiyor. Ona görə o da bərbad və xaraba bayır və batil bir halda qalıyor. Halbuki digər tərəfdə dünyaya dörd əli ilə sarılan və həyatdan, onun gözəlliyindən zövq alan digər bir millət vardır ki, gündən-günə təvəllüd və tənasül ediyor, artır, məişətini, həyatını gözəlləndiryor, oturduğu yeri abad ediyor. Ehtiyacat o qədər artıyor ki, artıq özü oturduğu yer ona kifayət etmiyor. Bu iki qonşunu halı necə ola bilər? Əgər ikincisi gələr də birincinə deyərsə ki, qalx burdan mən oturacağam, o ona nə cavab verər? Ehtimal ki, bəşərə məxsus bir hisslə məzkur təklifə razı olmaz, müqabilə edər. Fəqət tərbiyəsi icabi məşğul olar gedər. Çünki insan sevmədiyi bir şey üçün fədakar olmaz. Fədəkar olmayınca müvəffəqiyyət və qələbəyə də nail olmaz".[677] İslamda insanlara tərkidünyalıq, dünya düşmənliyi aşılanmadığı halda, onun adından əhaliyə öyrədilən bu kimi yanlış əməllər vardır.[678]

---

676 Yenə orada, s.248
677 Yenə orada, s.248
678 Yenə orada, s.248-249

Onun fikrincə, Avropada olduğu kimi, İslam dünyasında da intibaha ehtiyac var. Yalnız bu halda İslam dininin daha da inkişaf edəcəyinə inanan Rəsulzadə C.Əfqani kimi buna misal olaraq orta əsr Avropası ilə, müasir Avropanı göstərir: "Mərhum Şeyx Cəmaləddin Əfqani həzrətlərindən müsəlmanların fəlahı nəylə bağlıdır-deyə sormuşlar. O, "bir intibahi-diniyyəyə"- deyə cavab vermişdir. İntibahi-dini lüzumuna qail olan bu böyük siyasi avropalının məbədi-tərəqqisini "Lüter"in zühurunda görüyor və İslam aləmini tədənnindən qurtarmaq üçün də mütləq islahi-dini yolunda bir hərəkətə lüzum vardır- diyormuş. Şeyxin bu mütaliəsini keçən sənə Misirdə nəşr olunan ərəbcə qəzetlərdən birində görmüş, mərhumun nüfuzu-nəzərinə heyran qalmışdım. Həqiqətən böylədir."Lüter"dən qabaqkı, Avropa nə idi? Papaların bütün xristianlıq aləminə hökmran olan dəmləri xatirə gətiriniz, inkivizision məhkəmələri insanın ağlını heçə endiriyor, onun üçün bir növ hürriyyət təsəvvür etmiyordu. Din əsaslarına istinad etməyin ağlın, bilcümlə ixtiraları "küfr" idi. Bizim mollalar təəqqül edənləri yaxşıdır ki, cəhənnəmdə yandırıyorlar. Roma papaları bu əzabi-ələmi heç də nisyə qoymazlardı, onların cəhənnəmləri nağd idi. Nisyə satdıqları şey yalnız behşit idi".[679] Vaxtilə dini məsələlərdə Avropanın Şərqdən daha ağır durumda olduğunu önə çəkən Rəsulzadə yazır ki, ancaq onlar ən intibah dövrlərində belə müsəlman türklərə uduzmuşlar: "Ərbabi-dinin daha doğrusu, əhli-din keçənlərin ağla hakim olduğu dəmlərdə, Avropa Şərqin indiki halından da betər bir hal keçiriyordu. Zatən "Lüter"in zühuru dəmləri deyilmi ki, müsəlman olan türklər ən böyük xristian dövləti olan Bizansı yıxdılar".[680]

Onun fikrincə, bütün bunlara baxmayaraq xristianlıqda baş verən bu cür intibahlar Avropanın tərəqqisinə, xüsusilə də Qaliley kimi cəsur, fədakar alimlərin qəhrəmanlıqları sayəsində katoliklik əleyhinə əfkarı-ümumiyyədə bir cərəyan hasil olmuşdu: "Bu cərəyan nəticəsində təəssübdən uzaqlaşaraq ağıla öz mövqe və iqtidarını təmin edən protestentantlıq müəssisəsi "Lüter" meydana çıxdı.

---

[679] Rəsulzadə M.Ə. Əsərləri. II cild (1909-1914). Bakı, "Təhsil", 2014, s.286-287
[680] Yenə orada, s.287

Bir çox xunrizliklərdən sonra katolikliyin soleti sındı. Avropanın dövri-tərəqqi və təkamülü başladı".[681] Bu intibahın İslam dinində baş verməsini zəruri hesab edən Rəsulzadəyə görə müsəlmanların da "Lüter"ə ehtiyacı var: "İslamda ağlın mühüm bir mövqeyi vardır. Fəqət bugünkü dini tələqqiyatımızda isə məətəəssüf o mövqe bir çox alçaqlanmış, köçülmüş, dairəsi məhdud olmuşdur. Doğru, bizdəkilər Roma papaları qədər təhəkkümə çıxmamışlarsa da hər halda məaşə aid olan hər bir məsələni şərə tətbiq etmək istəməkdən də geri qalmamışlardır. İslamiyyətin indiki hali islah olunmaq üçün bir "Lüter"ə ehtiyac varmıdır? Buna Bahadır müsbət bir cavab veriyor. Nəriman bəyin qəhrəmanınca - demək ki, Nərimanbəyin də fikrincə - İslam aləmi indi öz Lüterini gözləməkdədir və bu Lüter gəlməyincə də müsəlmanlar tədənnində qalacaqlar".[682]

Rəsulzadəyə görə xristianlıq İstanbulu itirərkən Qərbdə dini islahatlar qovğaları hazırlandığı kimi, indi də İstanbulun müsəlmanlar əlindəki mövqeyi sarsıldığı zaman Şərqdə eyni islahatların başlaması yaxşı haldır. "Allah eləsin ki, süquti xristian aləminin məbədi-tərəqqisinə müsadif olan İstanbulun bu dəfəki tənəzzülü də müsəlman aləminin məbədi-tərəqqi və intibahi olmaqla təlafi olsun…"deyən,[683] Rəsulzadənin fikrincə, dinin əsas iki cəbhəsi var: ibadət və müamilat: "Birinci qism bəndə ilə bəndələrə məxsusdur. Birinci qism sabitdir. La yövm əlqiyamə baqidir. Təğiriyyata uğrayamaz. İkinci qism isə biləks bir şəkil halda qala bilməz. Təfsir və zamanın iqtizasına görə təfyir və təbdil oluna bilər".[684]

Rəsulzadə təəssüflə yazırdı ki, İslam aləmini bərbad edən ən böyük illətlərdən biri də yeni fikirləri eşitməyə təhəmmül etməməsidir: "Bizdə təzə bir fikir meydana qoyuldumu, haman arı yuvasına çöp uzadılan kimi hamı yerindən qalxar, hay qoymayın-deyə küy qopar. Bu dinə xilaf oldu, o mövcud olan əsaslarla müqabil çıxdı. O biri kafir oldu, digəri bilməm nə oldu - deyə hücum olu-

---

[681] Yenə orada, s.287
[682] Yenə orada, s.287
[683] Yenə orada, s.289
[684] Yenə orada, s.356

nar. Nəticədə isə zərər çıxaran həqiqət olar ki, bunun sonunda həqiqətdən məhrum qalan camaat cəzasını çəkər. Halbuki fikirlərin müsadiməsi həqiqət bariqəsinə doğurar".[685] O, bu cür geriliyin hər bir millətə zərər verdiyini deyirdi: "Xalqa qalanda budur ki, həqiqəti eşitmək və ehtiyaclarının həqiqi çarəsini öyrənə bilmək üçün bəyan olunan fikirləri mətanət və etidalla dinləsin. Fikir ərbabına hürriyyət-tamə təmin eləsin".[686]

Rəsulzadəyə görə din bir məslək sahibi olanlar arasında ruhi və əxlaqi birlik yaradır. Xüsusən də, İslam dini Qərb müsəlmanlarını Şərq müsəlmanlarına tapşırıb deyir: "Möminlər bir-birilə qardaşdırlar". O, yazırdı: "Dünyanın 300 milyon müsəlmanları arasında bu birlik var və olmalıdır. Əgər kimsə bütün müsəlmanların hərtərəfli birliyini, yəni siyasi, ictimai və iqtisdai birliyini yalnız din birliyi hesab edirsə, onun bu gümanı boş və mənasız deyilmi?".[687] Bu zaman, "Rəsulzadə mütləq bir dövlətdən yox, bir ittifaqdan danışır: "Bütün türklərin, bütün farsların, bütün ərəblərin ictimai bir vücud kimi birləşmələri mümkün, həm də istənilən bir haldır. Müsəlman olan millətlər bir millət və bir hökumət halına gəldikdən sonra ittihad deyil, İslam ittifaqı ola bilər"".[688] Rəsulzadəyə görə "müsəlmanlar arasında bütün müsəlmanları bir məkanda (yəni bir dövlətdə-F.Ə.) birləşdirən "İttihadi-İslam" ola bilməz. "İttihadi-İslam" mümkün olmayacaq bir xəyal, utopiyadır".[689]

Ümumilikdə, ona görə din və məzhəb tamamilə siyasətdən ayırılmalı, siyasətdə dindən sui-istifadə halına son verilməlidir. Bu anlamda böyük mütəfəkkir İslam dininə münasibətdə çağdaş, mütərəqqi bir mövqedə dayanmış, onu milli və çağdaş dəyərlərlə uzlaşdırmağa çalışmışdır.

**İctimai-siyasi görüşləri.** Onun ictimai-siyasi görüşlərində türkçülük, ya da Azərbaycan türkçülüyü ideyası mühüm yer tut-

---

[685] Yenə orada, s.356
[686] Yenə orada, s.358
[687] Yenə orada, s.104
[688] İbrahimli X., Zeynalov R. Müsavat Partiyasının 1920-ci 27 aprel istilasından sonra fəaliyyəti tarixindən // Müsavat, Bakı, 1993, №1(5), s.8
[689] Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu... Bakı: Gənclik, 1991, s.36

muşdur. "Açıq söz" qəzetinin ilk sayındakı "Tutacağımız yol" adlı məqaləsində, Rəsulzadə Azərbaycan Türk milliyyətçiliyinin başlıca prinsiplərini göstərmişdir. Ona görə milli ideyanın əsas idealı milliyyətdir ki, XX əsrdə milliyyət əsri olduğuna görə, Azərbaycan türkləri də milliyyət mərhələsini keçib millət olaraq meydana çıxmalıdır. I Dünya müharibəsi nəticəsində dünyanın xəritəsinin dəyişməsinin labüdlüyünə inanan Rəsulzadəyə görə dünya xəritəsinin alacağı yeni şəklə vətəndaşların fədakarlığı, dövlətlərin təşkilatı və orduların əzəməti ilə bərabər, aşkar və qətiyyətlə peyda olmuş milliyyət məfkurələrinin də böyük təsiri var və olacaqdır: "Özünü lüzumunca bilib də istiqbal üçün müəyyən bir ideal bəsləyən millət şübhəsiz ki, böyük bir qüvvət təşkil edər. Şübhəsiz ki, sözün tam mənası ilə deyiləcək qədər dağ dağıdan topların hakim olduğu hərb meydanlarında təsirsiz qalmayan bu qüvvət yaşıl mahudlu barışıq masası üzərində əsaslıca bir təsir yapacaq. Hər hansı qalib tərəf azçox sorunclu bir dinclik vücuda gətirmək istərsə, əsrin vicdanları üzərində ən çox təsir icra edən qüvvətli milliyyət məfkurəsini ehmal edəməz! Bunun böylə olacağı arabir gələcəyin sülhü haqqında söz söyləyən Avropa mütəfəkkirlərincə də təsdiq olunmaqdadır. Sülhsunə mənsub siyasilərcə, milliyyət əsasına riayət etməyəcək, millətlərin hüququnu gözətməyəcək bir sülh əqdnaməsi çox çəkməz yırtılar və sorunlu bir dinclik təmin edəməz".[690]

Milli ideyanın əsas hədəfi olan milliyyətçilik Rəsulzadəyə görə onlarca özgə millətləri hakim millət mənafeyinə fəda edən millətçilik deyildir. Hər bir milliyyət azad yaşayıb da tərəqqi edə bilmək üçün üç əsasa: 1) dil; 2) din; 3) zaman-müasirliyə istinad etmək məcburiyyətindədir. **Milliyyətin birinci əsası dildir** ki, dili türk olan bu xalqın etnik mənsubiyyəti də türkdür. O, yazırdı: "Dilcə – biz türküz, türklük milliyyətimizdir. Ona görə də müstəqil Türk ədəbiyyatı, Türk sənəti, Türk tarixi və Türk mədəniyyətinə malikiyyətimiz - məqsədimizdir. Parlaq bir Türk mədəniyyəti isə ən müqəddəs qayeyi-amalımız, işıqlı yıldızımızdır".[691]

---

[690] Rəsulzadə M.Ə. Əsərləri. III cild (1915-1916). Bakı, "Təhsil", 2014, s.180-181
[691] Yenə orada, s.181

Rəsulzadə milli ədəbi dilin formalaşması problemi ilə bağlı yazırdı ki, Osmanlı və Azərbaycan türkcəsi bir olub "ortadakı ayrılığı yaradan şey isə Azərbaycan danışığının daha çox Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər kimi Türk dövlətlərinin yönətimi altında Osmanlılardan ayrı, məzhəb baxımından onlara kəskin qarşı olan başqa bir siyasi yönətimin özəyini oluşdurmasıdır".[692] Dil məsələsində "osmançılarla" (Ə.Hüseynzadə, M.Hadi və b.) "azərbaycançılar" (C.Məmmədquluzadə, Ö.Faiq, A.Şaiq və b.) arasında orta mövqedən çıxış edən Rəsulzadə bir tərəfdən Türk ədəbi dilinin xalqın dili ilə bağlı olmasının vacibliyini qeyd etmiş, digər tərəfdən isə ortaq türkcənin yaranması təklifi ilə çıxış etmişdi. O, birinci məsələ ilə bağlı yazır: "Dilimiz türkcədir. Əlbəttə, türkcə də qalmalıdır. Ədəbi dil, xalqın anlayacağı dildir. Yazı dili xalqın danışdığı dildən çox uzaq olmamalıdır. Yazı dilinin anlaşılmaz bir halda olduğunu ədəbi hesab eyləyən dövr çoxdan keçmişdir. İndi bir əsrdəyik ki, hər bir şey ümumiləşdiyi kimi, ədəbiyyat da ümumiləşir. Böylə bir əsrdə məhdud şəxslərə məxsus bir dil ilə yazı yazmaq, əlbəttə, ədəbi hesab olunmaz".[693] Eyni zamanda, o, yazırdı ki, hər dilin bir milliyyəti, bir də beynəlmilliyyəti vardır: "Milliyyət cəhəti hissiyyata, beynəlmilliyyət cəhəti isə fənniyyata aiddir. Bir millət özünə məxsus olan hissiyyatını ifadə etmək üçün mütləq öz ana dilində istədiyi qədər lüğətlər tapa bilər, bu şərtlə ki, bu hisslər milli və təbii olsun, əcnəbi bir təsirlə peyvənd olunmuş özgə hisslər olmasın. Halbuki elmi və fənni mənaları ifadə üçün ana dili lüğətləri kifayət etmir. Çünki elm və fənn bir millətin deyildir, millətlərindir. Çünki fənniyyat təbii deyil: sünidir ixtiraidir! Sonradan icad olunan məfhumun bittəb ixtirai bir olmaq da icabatdandır. Dil milliyyət, din isə beynəlmilləliyyət təşkil edir. Biz türk olmaq hesabilə dilimizin milliyyəti Türkcədir. Müsəlman olduğumuz üçün beynəlmilliyyətimiz İslamdır".[694]

---

[692] Rəsulzadə M.Ə. Qafqaz türkləri. Bakı, Təknur, 2012, s.41

[693] Rəsulzadə M.Ə. Əsərləri. II cild (1909-1914). Bakı, "Təhsil", 2014, s.283

[694] Yenə orada, s.284

Rəsulzadəyə görə dil cəmiyyətin, millətin əsas sütunlarından birincisi olub, hətta dini də üstələyir: "İnsanlar arasında cameiyyət vücuda gətirən iki mühüm amil vardır. Bunlardan biri din, digəri dildir. Məlum olduğu üzrə din müxtəlif dillərlə mütəkəllim və müxtəlif cinsdən olanları birləşdirdiyi halda, dil ancaq bir növdən və bir cinsdən olan insanları birləşdiriyor... Əvət, dil təbiidir, ona görə əsildir, millətlə bərabər hasil olur. Dilsiz bir millət olmadığı kimi, millətsiz də bir dil olmaz. Dil bir milliyyətin yeganə rüknü deyildir. Bir millət vücuda gəlmək üçün dili ilə bərabər digər iştiraklı şeylər də vardır. Fəqət dil bunların ən mühümüdür. Dil milliyyət həyatının ən mütəkamil bir şəklidir. Dil bir millətin ən qiymətli sərvəti, həyatının ən fəyyaz mənbəyini təşkil edir. Bir milləti dildən yaxşı təmsil edən olmaz. Bugünkü milliyyət məfhumuna dillə bərabər din, tarix və ənənatda daxildir. Qədimdə isə "dil" demək "millət" demək hökmündə idi…".[695] Rəsulzadəyə görə dil milyonlarla insanların, bir çox nəsillərin müştərək vücuda gətirdikləri bir anlayışdır: "Dil qanlı və canlı, adətən üzvi və zihayət bir vücuddur. Dil millətin canıdır. Dil millətin məntiqi, ruhu və onun şəxsiyyəti-müştərəkəsidir. İştə bunun üçündür ki, bir dili öldürmək, bir milləti öldürmək deməkdir. Və yenə buna görədir ki, hər bir təmsil həmən dili təzyiq etməklə başlar. Dil durduqca, millət də durar, öldümü, millət də canını bağışlar... O, dindən daha bir qüvvətli - ittihad və millətin ən doğru bir müməssili oluduğu kimi, millətlərin yeganə vəsileyi-tərəqqisidir də. Millətləri maddətən etila etdirmək, mədəni və mütərəqqi qılmaq üçün dinlərdən deyil, dillərindən istifadə edilir. Hətta dinin tərvici üçün belə dilə ehtiyac vardır".[696]

Rəsulzadə dil məsələsinə biganə yanaşılmasının faciə ilə nəticələnə biləcəyini istisna etmirdi. Ona görə bir millətin həyatında maddətən və mənən bu qədər bir əhəmiyyətə malik olan dili biz Azərbaycan türkləri vaxtilə unutmaq üzrə idik. O, yazırdı: "Tamamilə farslaşdığımız bir zamanlar vardı. Türk ədəbiyyatı bilməzdik. Türkcə əvama məxsus bir dil ədd olunur, xass farsı və ərəbi

[695] Yenə orada, s.231-232
[696] Yenə orada, s.232

bilməsilə iftixar edərdi. Sonra Füzuli əleyhirrəhmənin təsiri-fəyyazı təxtində yetişən bir çox azərbaycanlı türk şairləri bu təhlükəli nisyanın önünü aldılar, "yaman-yaxşı" bir ədəbiyyat vücudə gətirdilər".[697] Ona görə dil daim iki mühüm cəbhəyə malik olmuşdu: "Biri danışıq dili, digəri də ədəbi yazı dili… Dilimizi həqiqətən də millətimizin ruhu və onun vasiteyi-bəqası məqamında görmək istəyiriksə və onu cameiyyəti-milliyyəmizdə ən mühüm bir ittihad və tərəqqi amiliədd edirsək, yazımız ilə danışığımız arasında olan fərqi azaltmalıyız".[698]

Osmanlı türkcəsi ilə müqayisədə Azərbaycan türkcəsinin ərəb-fars dillərinin təsirinə az qalması müddəası ilə sonuncunu müdafiə etməklə yanaşı, Rəsulzadə türk dilinin məhəlli şivələrinin inkişafına çox da meyil göstərmirdi. Məhz bunun nəticəsidir ki, Rəsulzadənin təşəbbüsü ilə Azərbaycan Cümhuriyyəti dövründə natamam ali və ali məktəblərdə Türkiyə türkcəsinin qrammatikası əsasında, ancaq Azərbaycan türkcəsinin də qayda-qanunları nəzərə alınmaqla ortaq türk dili keçilmişdi.[699] Hətta, "Müsavat"ın ikinci qurultayda (1919) qəbul edilmiş proqramında da, Rəzulzadənin təklifi ilə ortaq Türk birliyindən və ortaq Türk dilindən çıxış edilmişdir: "Oxuma proqramında İstanbul danışığının orta məktəblərdə keçilməsilə ali məktəblərdəki dərslərin ortaq ədəbi danışıq saydığı İstanbul türkcəsilə oxudulmasını istər".[700] Beləliklə, o, vahid Türk dili, Türk tarixi, Türk ədəbiyyatı ilə bağlı nəzəri ideyalarının xeyli bir qismini Azərbaycan Cümhuriyyətində reallaşdırmışdır.

Rəsulzadənin fikrincə, **milliyyətin ikinci əsası din**dir, çünki din hər nə qədər dildən sonra gələn bir amil olsa da bəzi şərait daxilində ondan da təsirli qüvvət şəklini ala bilir. O, yazırdı: "...Ümumi bir dil nə qədər dil əhlində ümumi bəzi xislətlər və ideallar tövlid ediyorsa, ümumi bir dinə malik olmaq dəxi o dərəcədə böyük bir təsir icra edə bilər. Müxtəlif din və məzhəblərə malik olan bir

[697] Yenə orada, s.232
[698] Yenə orada, s.233
[699] Rəsulzadə M.Ə. Qafqaz türkləri. Bakı, Təknur, 2012, s.78-79
[700] Yenə orada, s.74

dil sahiblərinin "milliyyət" olaraq vahid mədəni bir kütlə vücuda gətirmələri müşkül olduğu halda, bir din və bir dilə malik olanlarca bu müşkülat mütəssəvir deyildir. Dil bir millətin əsliyyətini mühafizə edə bilər. Fəqət çox kərə də din bir millətin dilinin baqi qalmasına və bu münasibətilə milliyyət fikri və amalının inkişafına səbəb oluyor".[701] O, daha sonra yazırdı ki, dincə müsəlmanız. Müsəlman olduğumuz üçün də biz türklər beynəlmiləliyyəti-islamiyyəyə daxiliz: "Bütün İslam millətlərilə şərikli bir əxlaqa, dini bir tarixə, müştərək bir yazıya, xülasə ortaq bir mədəniyyətə malikiz… Bu şəriklik islamiyyətə daxil olan zərərli təsirlərdən bizi mütəzərrir etdiyi kimi, bu yolda olacaq islahat feyzlərindən də bizi nəsibsiz qoymaz".[702] Rəsulzadədin ilə millətin öncə fərqlərini və oxşarlıqlarını göstərir, daha sonra onların hansı anlamda uzlaşa biləcəyini, ya da bilməyəcəyini ortaya qoyurdu. [703]

Məhəmməd Əmin millətin formalaşmasında İslam dininə mühüm yer verməklə yanaşı, dəfələrlə bildirmişdir ki, millətlə din arasındakı fərqlər nəzərə alınmalıdır: "Bizdə daima din ilə milliyyəti qarışdırıyorlar. Saçlı-saqqalı alimlərimiz, başı şapkalı intelligentlərimizdən soruşsanız sən hansı millətdənsən? - deyər ki, müsəlman dinindən. Bu sualın çox az eşidilən səhih cavabını mən böyük bir məmnuniyyətlə, hüzurlə müftəxir olduğum, rus-müsəlman qız məktəblərinin imtahan məclisində eşitdim. Bir qızdan soruşdular ki, sən hansı millətdənsən? - türkəm-dedi. Nə dindənsən – deyincə müsəlmanam cavabını verdi. İmtahanlar qurtardı. Ürəklərimiz qürur və sürur ilə dolmuş idi. Artıq biz də istiqbaldan əmin ola bilərik. Çünki milli işlərimiz doğru yolunu tapır. Əvət, doğru yol. Millətlər ailələrdən təşkil edilir. Ailələrin fərdi qiymətləri sıfır olursa, onların məcmui olan millətlərin qiyməti-məcmui də sıfırdır".[704]

Ən əsası odur ki, hələ milli istiqladan öncə, "Müsavat"ın 1-ci qurultayındakı çıxışında (1917) Rəsulzadə dünyəvi dövlətin tərəf-

[701] Rəsulzadə M.Ə. Əsərləri. II cild (1909-1914). Bakı, "Təhsil", 2014, s.479
[702] Rəsulzadə M.Ə. Əsərləri. III cild (1915-1916). Bakı, "Təhsil", 2014, s.181
[703] Rəsulzadə M.Ə. Əsərləri. II cild (1909-1914). Bakı, "Təhsil", 2014, s.480-481
[704] Yenə orada, s.181

darı kimi dini mənəvi məsələ sayaraq, onun siyasətə qarışmasının əleyhinə çıxış etmişdir. Onun fikrincə, məscidə daxil olan şəxs siyasəti, partiyanı, ideyanı unutmalı və ancaq Allaha dua etməlidir. Ümumiyyətlə, ruhanilər siyasətlə məşğul olmamalı və siyasi mübarizədə məscid bitərəf qalmalıdır. Dinin dövlətdən ayrı olması öz əksini, Rəsulzadənin təkidi ilə partiyanın yeni proqramında da tapmışdı: "Hökumət din və məzhbələrdən heç birini digərilərindən üstün tutub, onu himayə və mühafizə edə bilməz".[705] Milli istiqlaldan sonra da, yəni Cümhuriyyət dövründə də din məsələsində dünyəvilik modelindən çıxış edən Rəsulzadə üzünü islamçılara, xüsusilə onların siyasi təşkilatı olan "ittihadçılar"a tutaraq deyirdi: "Din və məscid öz müqəddəsliyini qoruyub saxlamaq istəyirsə, siyasətdən kənarda qalmalıdır. Ruhanilər siyasi ehtiraslar burulğanında sülh və anlaşmanın daşıyıcıları olaraq qalmalıdırlar".[706]

Onun fikrincə, **milliyyətin varlığının üçüncü əsası** isə zamandır-müasirləşməkdir: "Zamanca da – biz texnikanın, elm və fənnin möcüzələr yaradan bir dövründəyiz. Türk və müsəlman qalaraq müstəqilən yaşamaq istərsək mütləq əsrimizdəki elmlər, fənnlər, hikmət və fəlsəfələrlə silahlanmalı, sözün bütün mənası ilə zamanə adamı olmalıyız".[707] O sonda belə bir nəticəyə gəlir: "Demək ki, sağlam, mətin və oyanıq məfkurəli bir milliyyət vücuduna çalışmaq istərsək ki, zaman bunu tələb ediyor – mütləqə üç əsasa sarılmalıyız: türkləşmək, islamlaşmaq və müasirləşmək. İştə millətimizin ictimai həyatının islahı üçün üzərinə dayandığımız üçayaqlı mədəniyyət!".[708]

Millətin formalaşmasında Rəsulzadə **tarixi şüur və adət-ənənələrin** də mühüm rolunu da unutmurdu: "Milliyyət amillərindən birisi də tarix ilə adət və ənənədir. İləridə bir miknət və qüvvət tapa bilmək üçün millətlər həmən tarixlərindən istimdad edərlər.

---

[705]Балаев А. Азербайджанское национально-демократическое движение в 1917-1920 гг., Баку: Элм, 1990, s.77

[706] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) Parlament (stenoqrafik hesabatlar). I c. Bakı, "Azərbaycan"nəşriyyatı, 1998, s.731-732

[707] Rəsulzadə M.Ə. Əsərləri. III cild (1915-1916). Bakı, "Təhsil", 2014, s.182

[708] Yenə orada.

Zəif düşdükləri, əzilib, inqiraza tərəf çəkildikləri, hətta inqiraz bulub, hər bir iqtidar və qüvvətdən düşmüş olduqları zamanda belə keçmişin qüvvətli və parlaq dəmlərini xatirə salmaqla istiqbal üçün bir ümid bəslərlər. Keçmişini yaxşıcasına tədqiq etmiş olan millətlər daima mazinin ölüb torpaqlar altında çürümüş olan qəhrəmanlarından birər ideal modeli yapıb da, onu gələcəyin bir nümuneyi-həmasəti kəsdirirlər".[709]

Bir millətin öz tarixini bilməsi qədər qüvvətli birlik və amal ola bilməz deyən Rəsulzadəyə görə mədəni millətlərdə tarix, vətən tarixi, millət tarixi ən mühüm dərslərdən biridir: "Vətənin keçmişdə keçirdiyi şanlı günləri və bəşəriyyət aləminə bəxş edə bildiyi səmərəli və faydalı xüsusları həmən tarix dərs kitablarından başlanaraq övladi-vətənin yadına nəqş etdirilir. Vətən və millət əfradı həmən müəyyən bir üsul ilə böyük və bəşəriyyətə, mədəniyyətə dəyərli xidmətlər yetişdirmiş olan bir nəsli-nəcibə mənsub olduğuna qənaət yetirərək böyüyür. Haradan gəldiyini, tarixdə nələr elədiyini və nə kimi qüvvələrə malik olduğunu bilib, izzəti-nəfsi ilə istiqbala qarşı bir ümid olaraq yaşayır".[710] Rəsulzadə tarixin millətin həyatında rolunu ümumiləşdirərək belə bir nəticəyə gəlir: "Tarixi öyrənmək və millət arasında tarix dərsini təmin etmək ittihad və ittifaqı mövcib olduğu qədər, bəlkə ondan daha artıq, vüqüati-tarixiyyə özü də millətləri qaynadıb qarışdıran bir amildir. Bu xüsusda başqaları üzərinə hücumlar icra edən təcavüzkar tarixdən çox, başqalarının hücumunu dəf edib də müdafiədə olan tarix faydalıdır".[711]

Millətin formalaşmasında adət-ənənələrin roluna gəldikdə, Rəsulzadə bunu, milliyyətin birləşməsi və saxlanması səbəblərindən biri kimi dəyərləndirib. Ona görə xalq arasında bəzilərinin adət-ənənələrə biganə yanaşması, onu "ne kulturnu" adlandırıb dəyişdirmək istəməsi, xonçaları yolkalarla əvəz etməsi, uşağın anasıyla rusca danışması, anasının bundan fərəhlənməsi doğru deyil: "Təsəvvür ediniz dediyim uşağın halını: dil açıb anasıyla rusca da-

[709] Rəsulzadə M.Ə. Əsərləri. II cild (1909-1914). Bakı, "Təhsil", 2014, s.483
[710] Yenə orada.
[711] Yenə orada, s.485

nışmış. Atası mağazadan gələndə yenə onu rusca dindirmiş: həyətdə yoldaşlarını rus görmüş, onlarla o dildə söhbət etmiş, oyun oynarkən rus oyunlarını oynamış, məktəbdə dəxi eyni tərbiyəyə tabe olmuş. Bayramlarda yolka bəzəyib ətrafına da dönüb-dolaşmış, ən axırı da məlumdur ki, daxili Rusiya şəhərlərinin birində ali tərbiyə alıb "obrozovannı" olacaq. Fəqət böylə bir "obrozovannı"dan bizim "neobrozovannı" millət nə gözləyə bilər və o özü istərsə "millətinə" nə kimi fayda yetirə bilər? Heç nə!".[712]

Beləliklə, Rəsulzadə türkçülük, müasirlik və islamçılıq ideyaları əsasında yeni bir ideyanın – **Azərbaycan türkçülüyü və Bütöv Azərbaycançılığın (Azərbaycan Milli ideyasının)** əsasını qoymuşdur. Rəsulzadə sonralar yazırdı ki, əslində türkçülük mərkəzli Azərbaycan Milli ideyası Nəsib bəy Yusifbəyli ilə tanışlığının ilk illərindən (1914-1915-ci illər) hər ikisində yaranmışdı: "Bu ruhi-müştərək Gəncədə Nəsib bəyə siyasi bir firqə maddəsinin yazılmasını təlqin etdiyi bir zamanlarda, mənə də Bakıda "Açıq söz" qəzetəsinə eyni tezisi müdafiə edən bir baş məqalə ("Tutacağımız yol"-F.Ə.) yazdırmışdı".[713] M.B.Məhəmmədzadə və H.Baykara hesab edirlər ki, Qafqaz türklərini "ümmətçilik"dən "millətçiliy"ə yönəldən, onları əvvəlcə türkçülük, daha sonra Azərbaycan türkçülüyü (Azərbaycan Milli ideyası) ətrafında birləşdirən və "Açıq söz" qəzetində bunu təbliğ edən Rəsulzadə olmuşdur.[714] H.Baykara onu da yazır ki, ilk dövrlərdə sosial-demokratlarla eyni cəbhədə çalışmış M.Ə.Rəsulzadə 1911-1913-cü illərdə C.Əfqaninin yazılarının təsiri altında türkçülük hərəkatına qoşulmuş və Azərbaycanda bu ideyanın əsas ideoloqu olmuşdur: "M.Ə.Rəsulzadənin Azərbaycan istiqlalının elanında və Azərbaycan dövlətinin yaradılmasında xidmətləri əvəzsizdir".[715]

Rəsulzadənin sayəsində, onun öz təbrincə desək, ictimai ideologiyanın bütün sisteminin öncə dini islamçılıq sistemindən

---

[712] Yenə orada, s.486
[713]Rəsulzadə M.Ə. Nəsib bəy Yusifbəyli. "Odlu Yurt" dərgisi, 1929, № 3, s.110-111
[714] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992, s.52;Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.186
[715]Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.192

ümumi türkçülüyə-turançılığa, daha sonra türkçülükdən milli-məhəlli türkçülüyə keçidi başlandı.[716] Rəsulzadə qeyd edirdi ki, əvvəllər türk ziyalıları rus inqilabçıları və rus liberalistləri arasında gedən mübarizədə dolayısıyla iştirak etsələr də, sonralar türkçülük ideyasını irəli sürdülər: "1910-cu ilə kimi rus liberalizmi ilə rus sosializmi arasında seçim qovğası ilə keçən siyasi yaşam bu çağdan etibarən Qafqaz türklərində yeni bir səhifəyə girir, üçüncü müstəqil bir siyasi düşüncə axını ilə yeni qurum çalışmaları başlayır, bu da milli demokratizm və milli devrim ideologiyasıdır. …Bu ideologiya birinci olaraq Qafqaz türklərinin siyasi gələcəyini Rusiyadan ayrı düşünmüşdür. Bu ün isə türkçülüyündür".[717]

Məhz türkçülük nüvəsində Azərbaycan türklərinin Rusiyanın federativ dövlətə çevrilməsi nəticəsində milli-məhəlli muxtariyyətini (1917-ci ilin mayında Moskvada keçirilən Ümumrusiya Müsəlmanlarının I qurultayında),[718] az sonra da istiqlaliyyətini (N.Yuisifbəyli ilə birlikdə) irəli sürən M.Ə.Rəsulzadə olmuşdur. Artıq "Müsavat"ın 1-ci qurultayında (1917, 25-31 oktyabr) milli istiqlalı müdafiə edən Rəsulzadə deyirdi ki, milli amal və milli məfkurə olmadan milli istiqlal mümkün deyildir. Beləliklə, istiqlaldan öncə "insanlara hürriyyət, millətlərə istiqlal!" şüarı ilə çıxış edən Rəsulzadənin bu ideyaları "Müsavat"ın yeni proqramında da öz əksini tapmışdı: "… ən müvafiq və ən təbii dövlət milli dövlətdir, çünki milli istiqlal və ya muxtariyyətə malik olmayan bir millət hürriyyət və mədəniyyətini hifz edə bilməz".[719]

Onun istiqlal ərəfəsində "Azərbaycan" adına müraciət etməsi isə, türkçülüyün yaxın və uzaq milli hədəfi olan yeni Türk dövlətinin keçmişi, bu günü və gələcəyi ilə birbaşa bağlı olmuşdur. M.Ə.Rəsulzadə Azərbaycan Milli ideyasını – azərbaycançılığı nəzərdə tutaraq yazırdı: "Bu yolla qafqazlı Türk yazarların və şairlərdən bir çoxunun ayrı-ayrı çağlarda gizli olsa da, söylədikləri "bağımsızlıq" ideyası I

---

[716] Rəsulzadə M.Ə. Panturanizm. Qafqaz sorunu. Bakı, Təknur, 2012, s.51
[717]Rəsulzadə M.Ə. Qafqaz türkləri. Bakı, Təknur, 2012, s.55
[718] İhsan İ. Rusyada birinci müslüman Kongresi tutanakları. Ankara: 1990, s.163
[719]Балаев А. Азербайджанское национальное-демократическое движение в 1917-1920 гг., Баку: Элм, 1990, s.74

Dünya savaşı illərində bilginlərin başında yaranaraq devrim günlərində siyasi bir çağrış biçiminə girir, daha uyğun bir gündə "bütünlüklə bağımsızlıq" çağrışına keçmək yetənəyində bulunan siyasi bir prorqama çevrilirdi".[720] O hesab etmişdir ki, "Azərbaycan" milli ideyası yalnız türkçülük uğrunda savaş aparan müsavatçıları deyil, sosialistləri, islamçıları və başqalarını da öz ətrafında birləşdirə bilər. Əslində son hədəfi müstəqil Türk dövləti yaratmaq olan türkçülərin ölkənin "Azərbaycan" adlandırılması bir tərəfdən türklüyün ifadəsi, digər tərəfdən isə siyasi-ideoloji məsələ idi. Rəsulzadə yazır: "…Güney Doğu Qafqaz torpaqlarının bütünlüklə "Azərbaycan" adı altında yaranmış siyasi quruluşlarda olması tutalqasından başqa Azərbaycan türklərinin yaşadıqları bir ölkə olduğu üçün buraya "Azərbaycan" deməkdə heç bir sıxıntı görülməmişdir. Bu adın yeni Türk Cümhuriyyətinə verilməsində ən böyük tutalqa sözsüz bu türklük olmuşdur".[721]

Onun "Azərbaycan" milli ideyası ya da Bütöv Azərbaycançılıq ideyası ilə bağlı ən mühüm əsərlərdən biri "Əsrimizin Səyavuşu"dur. Bu əsər siyasi-fəlsəfi xarakterli olub, Azərbaycan türkçülüyünün ya da azərbaycançılığın manifestidir. Fars şairi Firdovsinin "Şahnamə" əsərini bir daha oxuyan və paralel müqayisə apararaq Firdovsinin qəhrəmanlarından biri olan Səyavuşun həyatını Azərbaycan Cümhuriyyətinə oxşadan Rəsulzadənin gəldiyi nəticəyə görə, İranlaTuran arasında qalan Səyavuşun həyatı Azərbaycan Cümhuriyyətinə həyatına bənzəyir. O, həmin əsərdə yazırdı ki, zaman zaman Azərbaycan türkləri öz türklüklərini və türk soyundan gəldiklərindən uzaqlaşaraq "iranlı" kimi özlərini hiss edib, "iranlı" kimi düşünüb yaşasalar da,[722] bu da çox uzun çəkməmiş, yenidən Turana dönüş baş qaldırmışdır. Ona görə "Turanın mərkəzində Azərbaycan" adlı bir ölkə yaranıb ki, "yeni Turanın açarı" ondadır. Yeni Azərbaycan Türk ocağı, əski Türk yurdudur.[723]

---

[720] Rəsulzadə M.Ə. Qafqaz türkləri. Bakı, Təknur, 2012, s.56
[721] Yenə orada, s.61
[722] Rəsulzadə M.Ə. Əsrimizin Siyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı, Gənclik, 1991, s.33
[723] Yenə orada, s.35

Mühacirət dövründə də M.Ə.Rəsulzadənin mədəni-fəlsəfi irsində "Azərbaycan" milli ideyası, yəni azərbaycançılıq mühüm yerlərdən birini tutmuşdur. Bu dövrdə azərbaycançılığı "Azərbaycan Cümhuriyyəti" (1923) əsərində elmi dəlillərlə əsaslandırmağa çalışan M.Ə.Rəsulzadə burada yazırdı ki, azərbaycanlılar milliyyət etibarilə türk, müxtəlif adlar daşıyan böyük türk ağacının bir qoludur: "Azəri türklərinin hal-hazırda yaşadıqları yerlər min ilə qədim türk xalqı ilə məskun idi. Gərək Bakı, Gəncə, Şamaxı, İrəvan ilə Təbriz, Marağa, Ərdəbil və sairə kimi vilayətlər və gərək Muğan, Arran, Qarabağ və Qaradağ kimi məmləkətlər daim türk elinin məskəni və türk xanlarının ovlağı olmuşdur. Bu yerlər özlərində bir çox türk sülalələrinin irili-ufaqlı hökumətlər qurduqlarını və illərlə səltənət sürdüklərini görmüşlərdir".[724]

Bu əsərində M.Ə.Rəsulzadə bir çox məsələlərlə yanaşı, yeni dövlətə nədən "Azərbaycan" adının verilməsinə də aydınlıq gətirməyə çalışmışdır. Əslində bir Türk dövlətinə "Azərbaycan" adı verilməsi Rəsulzadə və onun silahdaşları tərəfindən siyasi-ideoloji bir addım idi. Azərbaycan Cumhuriyyətinin ideoloqu Rəsulzadə başda olmaqla yeni dövlətə "Azərbaycan" adını verənlər bunu üç faktorla izah etmişlər: 1) Qacarlar dövlətinin şimal-qərbində məskunlaşmış türklərin yaşadıqları coğrafiya adı Azərbaycandır; 2) Cənubi-şərqi Qafqazda yaşayan türklərlə, Qacarlların şimal-qərbində yaşayan türklər dil, din, etnik, mədəni və sosial baxımdan eynidir; 3) Cənubi-şərqi Qafqazda türklərin yaşadıqları coğrafiya da Azərbaycan adını daşımışdır.[725] Buradan belə bir nəticəyə gəlmək olur ki, Rəsulzadə yeni dövlətə "Azərbaycan" adı verməklə birincisi, "tarixi-coğrafi" və "siyasi-inzibati" anlamda Bütöv Azərbaycanı göz önündə tutmuş, gələcəkdə Azərbaycanın bütövləşməsi ortaya qoyulub. Türk dövlətinə bu ad verilərkən, etnik-milli kimliyə deyil, qədim tarixi-coğrafi anlayışa və siyasi-inzibati coğrafiyaya üstünlük vermək bundan irəli gəlib. Şübhəsiz, burada əsas hədəflərdən biri, bəlkə də birincisi Qacarlar dövlətinin ən böyük siyasi-inzibati vila-

[724] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, s.12
[725] Əmin Abid. "Müsavat" jurnalı, 1995, №: 8, səh. 81–82.

yətlərindən biri Azərbaycan olmuşdur. Cümhuriyyət ideoloqunun Güney Azərbaycan türkləri ilə Qafqaz türklərinin eyni kökə, dilə, mədəniyyətə bağlı olduqlarını da açıq şəkildə söyləməsi bunu bir daha ortaya qoyur. Deməli, yeni dövlətə "Azərbaycan" adının verilməsi, nə zamansa Güney Azərbaycan türkləri ilə Qafqaz türklərinin Azərbaycan adlı dövlətdə yenidən birləşməsi, bütövləşməsi ideyası ilə bağlı olmuşdur. Fikrimizcə, bu səbəbdən o vaxt, yeni dövlətə kiçik bir ərazini əks etdirən digər adların verilməsindən qəti şəkildə imtina olunmuşdur. Əsasən Rəsulzadənin sayəsində "Azərbaycan" adı qalib gəlmişdi.[726]

Yeni Türk dövlətinə "Azərbaycan" adının verilməsində ikinci hədəf dövlətçilik ənənələrinin bərpası ilə bağlı olmuşdur. Bir sözlə, "Azərbaycan" adı bu ərazilərdə vaxtilə mövcud olmuş dövlətlərlə (Atropatena, Albaniya, Sacilər, Atabəylər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər və b.) yeni dövlət arasında bir bağlılıq olmalı idi. Deməli, "Azərbaycan" adı qədim dövlətçilik ənənələrini ifadə etmək, eyni zamanda milli dövlətçilik ideologiyasını yaratmaq naminə yeni dövlətə verilmişdir. Bununla da, milli mənsubiyyəti ifadə edən türkçülük ideyası ilə yanaşı, milli dövlətçiliyi ifadə edən Azərbaycan Milli ideyası yaranmışdır. Çox keçmədən Azərbaycan Milli ideyası türkçülüyün rəsmi təbliğinin əsas hissəsinə çevrilmişdir. Rəsulzadə yazır ki, bu Cümhuriyyət Azərbaycan adlansa da əslində bir türk hökuməti, başqa sözlə kiçik Türkiyədir.[727]

Deməli, "Azərbaycan" sözü dövlətçilik ideologiyası ilə bağlıdır, ölkənin adının nə cür adlanmasından asılı olmayaraq əslində bu dövlət Türk dövləti, Türk hökumətidir. Görünür, M.Ə.Rəsulzadə "Azərbaycan" sözünə sinonim kimi "kiçik Türkiyə" ifadəsini də bu mənada işlətmişdir. Hər halda açıq şəkildə hiss olunur ki, Cümhuriyyət ideoloqları milli mənsubiyyət, milli dili, milli mədəniyyəti "türkçülük", dövlətçiliyi, dövlət ənənələrini isə "Azərbaycan"-azərbaycançılıq ideyaları əsasında təbliğ ediblər. Məhz bu amildən çıxış edərək M.Ə.Rəsulzadə yazır ki, Rusiyada yaşayan Qafqaz mü-

---

[726] Qarayev Yaşar. Azərbaycan ədəbiyyatı XIX və XX yüzillər. Bakı, 2002, s. 163

[727] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, s.10

səlmanlarını "Türk", ölkələrini "Azərbaycan" kimi qəbul etdirmək qazanılmış bir dava idi. Ona görə "Azərbaycan" sözü artıq xalqın düşüncəsində də coğrafi mənadan ideoloji mənaya çevrilmişdir: "Xalqın düşüncəsində AZƏRBAYCAN məfhumu coğrafi bir mənadan daha çox fikir və əməl şəklində təcəssüm edir".[728]

Yeni dövlətin "Azərbaycan" adlanmasında üçüncü hədəf Azərbaycanın əsas nüvəsi olan türklərlə, Bütöv Azərbaycanda yaşayan azsaylı etnik qrupları və etnosları vahid ideya altında birləşdirmək, milli dövlətə xidmətçiliyə nail olmaq idi. "Azərbaycan" adı yalnız türklərin deyil, azsaylı etnik qrupların və etnosların da qəbul etdiyi anlayış kimi Azərbaycan milli ideyasına xidmət etməli idi.

Rəsulzadə bir tərəfdən, Azərbaycan milli ideyasını müdafiə etsə də, digər tərəfdən, azərbaycançılığı ümumi **türkçülüyün, turançılığın** ayrılmaz bir hissəsi olduğunu da daim vurğulamışdır. Hələ, Azərbaycan Cümhuriyyəti qurulmamışdan öncə (1917-ci il), Rusiya tərkibindəki türk-tatar millətlərinin, o cümlədən Azərbaycan türklərinin ayrı-ayrılıqda milli-ərazi muxtariyyətini tələb etməklə yanaşı, Rəsulzadə gələcək muxtar Türk dövlətlərinin nümayəndələrindən ibarət Milli Şuranın formalaşdırılmasını təklif etmişdi.[729] Mühacirət dövründə bu ideyanı inkişaf etdirən Rəsulzadə xatırladırdı ki, Cümhuriyyət dövründə "Müsavat"ın 1919-cu ildə Bakıda keçirilən 2-ci qurultayında qəbul etdiyi proqramının girişində "bugünkü durumu ilə dağınıq olan geniş Türk dünyasının bir gün gəlib də əlbir və dost bir Türk aləmi oluşduracağına inanırıq və bu imanla getdiyimiz əməl yolunun çatacağı son yeri belə bir bağlılığın gerçəkləşməsində görürük", deyilmişdir.[730]

27 aprel işğalından sonra da "Yeni Turançılıq" Rusiya əsarətində yaşayan bütün Türk xalqlarının, o cümlədən Azərbaycan türklərinin əsas ideyalarından biri idi. Bu ideyaya görə, bütün müsəlmanları "İslam birliyi" altında birləşdirmək mümkün deyilsə, ancaq bütün türklər öz aralarında dünya federasiyasına nümunə ol-

---

[728] Yenə orada, s.95

[729] Balayev Aydın. Məmməd Əmin Rəsulzadə (1884-1955). Bakı, 2011, s.61

[730] Rəsulzadə M.Ə. Qafqaz türkləri. Bakı, Təknur, 2012, s.74

maq üzrə Türk Federasiyası yarada bilər. Rəsulzadə yazırdı: "Yeni Turan, mədəni birlik üzərində təsis edilib ancaq gələcək birər Türk hökumətlərinin federasyonu şəklində təsəvvür oluna bilər. Azərbaycan da bu gələcək Turan silsiləsinin mühüm bir halqasıdır".[731] Deməli, Rəsulzadə 27 aprel işğalından az sonra Azərbaycan milli ideyasının yaşaması üçün, mədəni ruhlu "Yeni Turançılıq" ideyasını müdafiə etmişdi. "Yeni Turançılıq" ideyası isə Rusiya əsarətində yaşayan bütün türklərin, o cümlədən Azərbaycan türklərinin əsas hədəflərindən biri olmalı, Z.Gökalpın təbrincə, Rusiyanın dağılıb viran, Türkiyənin böyüyüb Turan olmasına yönəlməli idi.[732] Z.Gökalpın və M.Ə.Rəsulzadənin bu fikirləri, yəni Turanın Türk hökumətlərinin federasiyası şəklində gerçəkləşə bilməsi, o dövr üçün bir qədər utopik xarakter daşısa da, hazırda Türk dövlətləri (Qazaxıstan, Qırğızıstan, Özbəkistan və b.) Türk Dövlətləri Təşkilatının nümunəsində, belə bir federasiyanı əsasən gerçəkləşdirib.

Bu baxımdan, hələ o zaman Rəsulzadə doğru yazırdı ki, müstəqil Türk dövlətlərinin yaranması turançılıq, türkçülük məfkurəsinə kölgə salmamış, bir sözlə Türk birliyini parçalamamışdır: "Turançılıq, türkçülük ədəbi məsləki Türkiyə ilə Azərbaycanı bir-birinə bağlayan ən davamlı bir bağ, mətanətli bir ip idi. Turançılıq məfkurəsi doğulunca millət beynəlmiləl islamiyyətçilik və federasiyon formullarını çıxarmış, sosiologiyada da "Türkləşmək, İslamlaşmaq və Müasirləşmək" kimi üçayaqlı bir şüar ortaya atmışdı. İstanbul yurdçuları bu şüarları nəzəri şəkildə yaymaqda ikən, Azərbaycan turançıları bunu siyasi bir fəlsəfə kimi qəbul edərək qurduqları milli siyasi partiyanın prinsipi elan etdilər".[733]

Şübhəsiz, indi olduğu kimi, həmin dönəmdə də türkçü mütəfəkkirlərin bu mülahizələri rus, erməni və başqa millətlərin ideoloqları tərəfindən birmənalı qarşılana bilməzdi. Bu baxımdan 1920-1930-cu illərdə bəzi əcnəbi müəlliflər, o cümlədən Hondkaryan,

---

[731] Rəsulzadə M.Ə.Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı, Gənclik, 1991, s.36

[732] Yenə orada, s.37

[733] Yenə orada, s.35-36

A.Kerenski,Zarevand (Zaven Nalbandyan və Vartoui Nalbandyan), A.N.Mandelştam və başqaları panturanizm, panturkizm təhlükəsindən bəhs edən əsərlər ("Türkiyənin qulluğunda", "Rus milləti üzərində diktatura", "Türkiyə və Panturanizm") yazırdılar. Onların fikrincə, SSRİ-ni dağıtmaq istəyən panturançılar Turan imperiyası yaratmaq niyyəti güdürdülər. Fəlsəfə tarixçisi, professor Rafail Əhmədli doğru yazır ki, vaxtilə əzilməyə məhkum edilmiş Türk xalqlarını oyadıb əsarətdən xilas etmək məqsədilə ortaya çıxan türkçülük ideologiyası türkün düşmənləri tərəfindən mürtəce və təhlükəli mənada "panturanizm", "pantürkizm" kimi qələmə verilmiş, türklərin yenidən tarix səhnəsində söz sahibi olmasının qarşısı hər vəchlə alınmağa səy edilmişdir.[734]

M.Ə.Rəsulzadə həmin dövrdə "pantürkizm", "panturanizm"lə bağlı bir sıra məqalələrində antitürkçülərə cavab olaraq yazırdı ki, bu məsələdən bəhs edənlər türkçülüyün, turançılığın tarixini, o cümlədən bu ideyaların müəlliflərinin fikirlərini təhrif edirlər. Belə ki, "pantürkizm", "panturanizm" panslavyanizm kimi ideologiyalardan fərqli olaraq xalqın içindən yaranan bir məfkurə olmuşdur. O yazırdı: "Pantürkizm məsələsinə gəlincə, fürsətdən istifadə edən yanıltmaçıların aldatmaq istədikləri zümrəyə birdəfəlik anladaq ki, slavyan millətlərində olduğu kimi, Türk irqinə mənsub millətlərdə dəxi, bir birlik məfkurəsi doğmuş və bu doğuş müəyyən bir zaman romantik bir dövr yaşayaraq, o vaxta qədər, İslam dini düşünüş alışqanlığında olan siyasi Türk-Tatar fikri üzərində daha əsri və tərəqqi sevərcəsinə bir təsir yapmışdır. Fəqət panslavyanizmdən daha az real şərait və imkana malik olan panturanizm panslavyanizmin çatdığı nəticəyə nisbətən daha az bir zamanda gəlmiş və bu gün ən qatı panturanistlər belə sadə bir kültür birliyini mümkün mərtəbə mühafizəyə qeyrət etməklə kifayətlənmişlər".[735]

Bununla da, Rəsulzadəyə görə turançılıq millətin özünün yaratdığı ideyadır, bu ideya ilk dövrlərdə romantik xarakter daşısa da, artıq öz yerini gerçəkçi, müasir məsələlərə tərk etmişdir. Çağ-

[734] Əhmədli Rafail. Azərbaycan dövlətçilik fəlsəfəsi. Bakı, "Nurlan", 2008, s.207
[735] Rəsulzadə M.Ə. Milli birlik. Bakı, "Çıraq" nəşriyyatı, 2009, s.50-51

daş dövrdə yeni türkçülük və yaxud da yeni turançılıq ideologiyası ondan ibarətdir ki, vahid Türk milləti deyil, vahid Türk irqi vardır. Türk irqinə aid hər bir millətin də ayrı-ayrı müstəqil Türk dövlətləri yaratması məntiqə uyğundur. Bu baxımdan "panrusizm" vahid "slavyan" dövlətinin yaranmasına çalışdığı halda, yeni turançılıq ideologiyası ayrı-ayrı türk dövlətlərinin yaranmasını müdafiə edir. Bunu nəzərə alaraq Rəsulzadə yazır: "Varlığı ilə Sovet İttifaqında Türk ellərinin ulusal, doğal axınlarını yaxşı yöndə etkiləyən çağdaş, gerçəkçi "türkizm", sözsüz "panrusizmin" yağısıdır".[736]

Onun fikrincə, XX əsrin əvvəllərindəki romantik türkçülərdən fərqli olaraq, çağdaş türkçülər vahid Turan dövləti ideyası ilə yaşamırlar. Çağdaş türkçülər Türkiyənin-Osmanlının timsalında türklərin böyük imperatorluğunu yaratmaq deyil, hər bir Türk millətinin ayrıca istiqlalı uğrunda mücadilə edirlər. Bu baxımdan slavyan birliyi fikri Çexoslovakiya dövlətinin təşəkkülünə mane olmadığı kimi, Türk-Turan birliyi fikri də Azərbaycanın müstəqil bir Türk dövləti kimi Qafqaz Konfederasiyasına girməsinə əngəl ola bilməz. Rəsulzadə yazır: "Eyni irqə yaxınlıq nəticəsində bir-birinə yaxın mədəniyyət məhsullarına malik olan Türk ellərindəki müştərək qiymətləri mühafizə etməklə bərabər, ayrı-ayrı Türk millətlərinin ayrıca bir dövlət və cümhuriyyət halında istiqlal qazanmaq yolundakı hərəkatlarını şübhə altına alanlar ancaq rus imperalizminin könüllüləri və yaxud kölələri ola bilirlər! Azərbaycan istiqlalçılığının Türk birliyi fikrindən əzəmi surətdə mülhəm olduğunu inkar etməməklə bərabər, siyasətdə realizm tərəfdarı olan Azərbaycan milliyyətçiləri üçün bu fikrin sadə mədəniyyət sahəsində qəbulu tətbiq olacağı aşkardır".[737] Ona görə panturanizm ideyası adı altında Azərbaycanın Türkiyə ilə vahid dövlət halında birləşmək niyyəti yoxdur. Çünki mədəniyyət birliyi sahəsinə çəkilən siyasi panturanistlər artıq mövqeyini müstəqil Türk millətləri reallığına tərk etmişdir.[738]

---

[736] Rəsulzadə M.Ə. Panturanizm. Qafqaz sorunu. Bakı, Təknur, 2012, s.27
[737] Rəsulzadə M.Ə. Milli birlik. Bakı, "Çıraq" nəşriyyatı, 2009, s.52
[738] Yenə orada, s.53

Rəsulzadənin turançılığa fərqli baxması, bu mənada Şərqdəki milli axınlardan olan panturanizmlə Qərbdəki şovinist cərəyanları bir-birindən fərqləndirməsi başa düşüləndir. Çünki Rəsulzadənin fikrincə, Qərbdəki şovinizm-nasionalizm siyasi saldırıcı, sosial tutucu ideologiya olduğu halda, Şərqdəki millətçilik isə siyasi qoruyucu, sosial yenilikçi olaydır.[739] Başqa sözlə, ilk dövrlərdə romantik vahid Turan birliyinə qapılan türkçülər, artıq Türk irqindən ayrı-ayrı millətlərin və onların da öz müstəqil dövlətlərinin yaranmasına inanırlar: "Daha romantik, siyasi panturanizm yoxdur, ancaq ulus istəklərini güdən türkçülük vardır… Türk ellərinin özünüanlaması, irq ideologiyasından ulus ideologiyasına keçir, bu da saldırıcılığı ideoloji-qurama baxımından da aradan qaldırır".[740]

Rəsulzadə yazırdı ki, yeni türkçülüklə, yeni turançılıqla "pantürkizm", "panturanizm"in eyni anlamı daşımadığı ortada olduğu halda, özəlliklə, "Zarevand"ların "Türkiyə. Panturanizm" əsərində irəli sürdüyü antitürkçü, antiturançı müddəaları qəbul etmək mümkün deyildir. Eyni zamanda, "Zarevand"ların kitabına ön söz yazan A.N.Mandelştam da bilərəkdən türkçülüyün tarixini və mahiyyətini saxtalaşdırmış, ona tamam başqa siyasi rəng verməyə çalışmışlar. Məsələn, "Zarevandlar" ən çox Z.Gökalp, Y.Akçura, eləcə də Atatürkü tənqid hədəfi götürmüş və onları panutrançılıqda, pantürkizmdə ittiham etmişdir. "Zarevand"lara görə guya, "panturanizm" ideyasını türkçülüyün ideoloqları Z.Gökalp, "panturançıların Marksı" Y.Akçura irəli sürmüşdür ki, çağımızın "panturanizm"ini isə Mustafa Kamal Atatürk həyata keçirir.[741]

Rəsulzadə öncə antitürkçü ideoloqların diqqətinə çatdırırdı ki, Gökalp turançılıq məfkurəsindən bəhs etsə də, bunu Leninin kommunizmi kimi utopiya adlandırmışdır.[742] Deməli, Gökalpın turançılıq məfkurəsi daha çox romantik və mədəni mahiyyətli olmuş-

---

[739] Rəsulzadə M.Ə. Panturanizm. Qafqaz sorunu. Bakı, Təknur, 2012, s.42
[740] Yenə orada, s.62
[741] Zarevand (Zaven Nalbandyan, Vartoui Nalbandyan). Türkiyə və Panturanizm. Paris, 1930, s.30-35
[742] Gökalp Ziya. Türkçülüyün əsasları.Bakı:Maarif,1991, s.38

dur. Bu mənada Gökalpın ideyalarına söykənən Atatürkün "panturanizm"i də ondan çox fərqlənmir. Belə ki, Atatürk bu dövrdəki (1920-1930-cu illər) çıxışlarında panislamizm və panturanizm ideyalarının indiyə qədər heç bir uğur əldə etməməsindən bəhs etmişdir. Atatürkün fikrincə, tək gerçək siyasət milli-ulusal siyasətdir ki, bu mənada "dünyanın bütün türklərini içinə alacaq bir dövlət yaratmaq amacı da gerçəkləşməz düşüncədir".[743] Atatürkün turançılığa bu cür mövqeyinin nəticəsi idi ki, həmin dövrdə Xəlil Müşkrim və silahdaşları türkçülərdən fərqli olaraq, milləti ancaq soy, dil göstəricilərilə bəlirləməyib, ona ayrı-ayrı tarixi, sosial, mədəni təsirlərinin qarşılıqlı məhsulu kimi baxırdılar. Onlar təklif edirdilər ki, "Türk millətçiliyi"ndən "Türk beynəlmiləlçiliyi"nə keçilsin. Rəsulzadə yazırdı: "Bu ulusal sistemin yolçuları başda tanımış tarixçi Xəlil bəy Müşkrim olmaqla, Türk anlayışının ulus yox, irq göstərdiyini deyən "anadoluçular" adlı məktəb də yaratmışdılar. "Anadoluçular" tək bir Türk ulusunun yox, ayrı-ayrı Türk uluslarının olduğunu deyirlər. Onlar bu düşüncələrini gəlişdirərək Türkiyəni Anadolu adlandırmağı da irəli sürdülər".[744]

Türk aydınlarının, liderlərinin turançılığa münasibətdə ehtiyatlı mövqe tutmasına əsas səbəblərdən biri həmin dövrdə Türk ismiylə tanınan millətlərin, o cümlədən Türkiyə türklərinin dünya müstəvisində istənilən gücə sahib olmamaları idi. Belə ki, türklərin sahib olduğu Osmanlı dövləti süquta uğramış, Qacarlar iranlılaşdırılmış digər Türk dövlətləri isə Sovet Rusiyası tərəfindən işğal olunmuşdur. Belə bir vəziyyətdə Z.Gökalpın, M.Ə.Rəsulzadənin, Atatürkün və başqalarının turançılıqdan tamamilə imtina etmələri deyil, zamanın tələblərinə və Türk millətinin gücünə görə siyasət yürütmək idi. Bu baxımdan çağdaş Türkiyə alimi A.Gökdəmirin aşağıdakı fikirlərinə tamamilə qatılırıq ki, Z.Gökalp, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Y.Akçura kimi Türk milliyətçiliyinə, turançılığa öncüllük və xidmət verən aydınların Türkiyənin sərhədlərinin xaricində qalan Türk elləri ilə bağlı heç bir tələbdə bulunmamaları ağ-

[743] Rəsulzadə M.Ə. Panturanizm. Qafqaz sorunu. Bakı, Təknur, 2012, s.40
[744] Yenə orada, s.18-19

labatan deyildir: "Burada əsəf ediləcək şey, aydınların turançı olması deyil, Türkiyənin də, Türk dünyasının da yetəri qədər güclü olmaması və qalib gələməməsidir".[745]

Mühacirət dövründə ən geniş yayılmış ideyalardan biri olan **qafqazçılığın** da əsas ideoloqlarından biri Rəsulzadə idi. Onun fikrincə, bir müddət panturanizmin inqilabçı ideyalarından ilhamlanaraq milli varlığını qorumaq ideyasına çatan Azərbaycan xalqı artıq hazırda müstəqil Qafqaz Konfederasiyası siyasi birliyindən qıraqda qurtuluş olmadığnı anlamışdı.[746] Bununla da, Rəsulzadə gələcəkdə gerçəkləşməsini mümkün saydığı Türk dövlətlərinin Türk Federasiyası ideyası ilə yanaşı, Qafqaz Konfederasiyasını da müdafiə etmişdir.[747] Rəsulzadə Azərbaycan Milli ideyası ilə Qafqaz Birliyi ideyası arasında uzlaşmanın olması ilə bağlı ciddi siyasi-nəzəri müddəalar ortaya atmışdır. Hələ, Azərbaycan Cümhuriyyəti dövründə Qafqaz Konfederasiyası ideyasını irəli sürən Rəsulzadə yazırdı: "Mən Azərbaycanı Qafqaz İttifaq dövlətinin konfederativ tərkib hissəsi kimi təsəvvür edirəm. Həmin ittifaq dövlətinin tərkibinə Azərbaycan, Gürcüstan, Ermənistan və Şimali Qafqaz daxil olmalıdır".[748] Bu ideyanı 1919-cu ilin noybarında "Müsavat"ın 2-ci qurultayında da müdafiə edən Rəsulzadənin təşəbbüsü ilə toplantı iştirakçıları Qafqaz respublikalarının Qafqaz Konfederasiyası azad ittifaqında birləşməsi ilə bağlı qətnamə də qəbul etmişdi.[749] 1934-cü ildə Qafqaz Konfederasiyası aktını Azərbaycan adından Ə.Topçubaşı ilə birgə imzalayan Rəsulzadənin bu dövrdə siyasi fəaliyyəti daha çox istiqlalçılıq və qafqazçılıqla bağlı idi.

1952-ci ildə Münhendəki "Qafqaz" dərgisində nəşr olunan "Qafqaz məsələsi" məqaləsində Qafqaz Konfederasiyasının gerçəkləşməsi yollarını daha dərindən incələyən Rəsulzadə hesab edirdi ki, belə bir birliyin yaranmasını vacib edən amillər aşağıdakılar-

[745] Gökdemir Ayvaz. Düşüncə tarihimizden portreler. İstanbul, "Bayrak", 2005, s.245
[746] Yenə orada, s.63
[747] Rəsulzadə M.Ə. Milli birlik. Bakı, "Çıraq" nəşriyyatı, 2009, s.52
[748] Balayev Aydın. Məmməd Əmin Rəsulzadə (1884-1955). Bakı, 2011, s.186
[749] Yenə orada.

dır: birincisi, "Qafqazın nə qövm, nə kültür, nə də irq baxımından Rusiya ilə heç bir ilgisi yoxdur"[750] İkincisi, "ekonomi baxımından Qafqaz, kəndinə yetər müstəqil bir vəhdətdir"; Üçüncüsü, "strateji baxımından da, Qafqaz bir bütündür".[751] Dördüncüsü, "aralarındakı milli və kültürəl özəlliklərə baxmayaraq, Qafqaz millətləri ortaq bir ruh və xarakterə malikdirlər ki, bu Qafqaz deyilən psixolojik bir tipin yaranmasını dəstəkləyən ictimai bir çox müəssisələrdə görükməkdədir".[752] Beşincisi, ən əsası "çarizmin və bolşevizmin hər şeyi bir səviyyəyə gətirən ruslaşdırma, müstəmləkəçilik siyasətinə qarşı mücadilədə bütün Qafqaz millətləri birləşməlidilər".[753] Çünki çar Rusiyasından sonra Sovet Rusiyasının da Qafqaz millətlərinə qarşı yürütdüyü işğalçı siyasət bir daha göstərdi ki, "geopolitik bir vəhdət təşkil edən Qafqaz daxilində yaşayan millətlər eyni müqəddərata malikdirlər".[754] Bütün bunlardan sonra Rəsulzadə belə bir nəticəyə gəlirdi: "Türkiyə Cümhuriyyəti və İran kimi güneydəki müsəlman dövlətləri ilə qüzeydəki xristian Rusiya arasında bir Eta tampon (hail hökumət) halində qurulacaq Qafqaz Konfederasyonu isə məsələni məqbul bir tərzdə həll edə bilir. Gürcülərlə ermənilər Türk-Müsəlman dünyasında boğulmaq təhlükəsindən özlərini masun görür, azərbaycanlılarla, Şimali Qafqaz müsəlmanları da quzeydən gələcək təhlükəyə qarşı öz qonşularıyla yapmış olduqları ittifaq sayəsində təmin edilmiş olurlar".[755]

Rəsulzadənin fikrincə, belə bir ittifaqın varlığının Qafqazdakı Türk ünsürünə xələl gətirə bilərmi sualına, azərbaycanlı mütəfəkkirlərin cavabı budur: "Ekonomi baxımından qüvvətli, kültür baxımından qüdrətli olan Azərbaycan böylə bir kombinezonda öz önəmini itirmək riskinə heç bir zaman məruz deyildir. Əksinə, Qafqaz millətləri ailəsində Türk ünsürünə özünə layiq bir rol oynamaq

---

[750] Resulzade M.E.Hatıralar ve Kafkasya. İstanbul, 2011, s.173
[751] Yenə orada, s.173
[752] Yenə orada, s.174
[753] Yenə orada, s.174
[754] Yenə orada, s.175
[755] Yenə orada, s.175

müqəddərdir".[756] O, inanırdı ki, Qafqaz Birliyi məsələsində Türkiyə Sovet Rusiyasından fərqli olaraq imperalist yol tutmamışdır. Artıq böyük Atatürkün sayəsində, Türkiyə demokratik bir xətt seçmiş və onu davam etdirməkdədir. Onun fikrincə, Türkiyənin bu xətti isə Qafqaz Birliyini nəinki inkar edir, əksinə onun yaranmasının tərəfdarıdır: "Türkiyə Cümhuriyyətinin müqəddəratını idarə edənlər hər fırsatta bugünkü milli hüdudlar xaricində heç bir əməl daşımadıqlarını israr və önəmlə elan etməkdədirlər. Patriotizm mənasında anlaşılan Türk milliyyətçiliyi ilə, Qafqazya Konfederasiyon fikri arasında qətiyyən bir təzad yoxdur".[757] O yazırdı ki, Azərbaycan Türk mütəfəkkirləri, dövlət adamları Qafqaz Birliyi ideyasını 1918-1920-ci illərdə irəli sürüb müdafiə etdikləri kimi, bu gun də onun arxasında dayanırlar: "1918-ci ildə bu məsələ nə qədər aktual idisə, bu gün də o qədər önəmli və aktualdır. Otuz iki ildən bəri davam edən müştərək fəlakət otuz dörd il əvvəl duyulan bu zərurətin ikna qüvvətini şübhəsiz daha ziyadə artırmışdır. Mühacirətdəki konfederasiyonçuluq hərəkatı da ancaq bu iddiayı isbat edər".[758]

O, böyük uzaqgörənliklə onu da əlavə edirdi ki, çürük əsaslara söykənən SSRİ dağıldıqdan sonra qurutlacaq Qafqazın alacağı siyasi idarə şəkli haqqında indidən qərara gəlmənin həyati önəmi vardı: "Gələcək Qafqaz rejimi haqqında indidən dəqiq bir fikir və qənaət birliyi təmin etməlidir. Bu təmin edilmədən Qafqaz millətlərinin ən az qüvvət və fədəkarlıq sərfiylə ən çox hürriyyət və istiqlal imkanlarına qovuşmaq imkansızdır… Buna məhəl buraxmayacaq biricik tədbir isə, Qafqaz Konfederasiyası ideyasının bütün əlaqədarlarca indidən ciddiyyət və önəmlə ələ alınmasıdır!".[759] Beləliklə, o, təklif edirdi ki, "Qafqaz Mərkəzi" yaradılsın və SSRİ imperiyasına qarşı mübarizə Birləşmiş Konfederativ Qafqasiya formuləsində davam etdirilsin.

---

[756] Yenə orada, s.176
[757] Yenə orada, s.177
[758] Yenə orada, s.178
[759] Yenə orada, s.179

**Sosial-fəlsəfi görüşləri.** Rəsulzadənin sosial-fəlsəfi görüşlərində sosial-demokratizm və onun marksizm-leninizm təzahürünün tənqidi, kommunist və faşist rejimlərinə qarşı qoyduğu milli təsanüd – milli həmrəylik təlimi xüsusi yer tutur.

**Sosial-demokratizm və marksizm-leninizm.** 1903-cü ildə Uzaq Şərqdə çar Rusiyasına qarşı müharibəyə başlayan Yaponiyanın əldə etdiyi qələbələr nəticəsində imperiya daxilindəki hürriyyətçilər, inqilabçılar hərəkətə gələrək, Çarlıqdan narazı olan xalq kütlələrini inqilablaşdırmağa başlamışdılar. Bu prosesdə çar Rusiyasında gizli şəkildə fəaliyyət göstərən sosial-demokratlar çox fəal rol oynayırdılar. 1903-cü ildə tarixi materializm ideologiyası daşıyan Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının (RSDFP) 2-ci qurultayında bu təşkilat Lenin başda olmaqla, inqilabı dərhal həyata keçirmək istəyən çoxluğa (bolşeviklərə) və Martov başda olmaqla, inqilaba zərurət yarananda onu həyata keçirmək istəyən azlıqda qalanlara (menşeviklərə) parçalanmışdı. Menşeviklər çarlığı siyasi yolla devirmək yolunu tutduqları üçün, əvvəlcə sosial bünövrəni kapitaizm şərtləri altında təkamüllə gəlişdirməyi, bu məqsədlə burjua sinfinin liberal və radikal zümrələriylə əməkdaşlıq etməyi və daha sonra zamanı gələndə kapitalizmin yerinə cümhuriyyət idarəsini qoyub sosializm prinsiplərini sosial quruluşda gerçəkləşdirməyi nəzərdə tuturdular. Bolşeviklər isə burjua sinfinin əməkdaşlığının əleyhinə olmaqla yanaşı, çarlığın sadəcə siyasi rejimini deyil, iqtisadi sistemini də aradan qaldırıb mövcud imperiya dövlətini tamamilə dağıtmaqla yalnız proletariatın diktaturasını qurmaq istəyirdilər.

Rus-Yapon müharibəsi dövründə imperiyanın hər bir tərəfində hürriyyət, demokratik fikirlər yayan onlarla gizli təşkilatlar meydana çıxmışdır ki, bolşeviklər və menşeviklər onları özünə cəlb etmək istəyirdi. Belə qurumlardan biri də gənc M.Ə. Rəsulzadənin başçılığıyla proqramında qismən milli-dini xüsusiyyətləri, əsasən isə sosial-demokratizmi daşıyan "Türk-Müsəlman gənc inqilabçılar dərnəyi" olub.[760] Rəsulzadə 1902-1904-cü illərdə Bakıda müxtəlif

[760] Mehmetzade M.B. M.E.Resulzade. "Azerbaycan", №12 (36). Ankara, 1955

millətlərin oxuduğu “rus-tatar” liseylərində və başqa orta məktəblərdə Türk şagirdlərindən ibarət gizli yaratdığı sosial-demokrat əqidəli “Türk gənc inqilabçılar dərnəyi”nin fəaliyyət istiqamətlərini, yaranma səbəblərini şərh edərk yazırdı: “Çarlığa qarşı mücadilə edən siyasi zümrə və siniflər çarlığı təşkil edən millətlər, zümrələr və siniflər qədər hər cür rəng və ahəng daşıyan bir çox partiyalara ayrılmışdılar. Fəqət bütün müxalifət və ixtilal partiyası və qruplarını müştərək bir bölünmə xətti ilə iki cəbhəyə ayırmaq qabildi. Bunlardan bir qismi Rusiyada parlamentli bir idarə təsisi ilə kifayətlənir, mütləq çarlıq rejimi yerinə məşruti bir krallıq qurmaq istəyirdi. Bunlar liberal-burjua partiyaları idi. Radikal-demokratlarla sosialistlər ikinci qismi təşkil edirdilər. Bunlar çarlığın devrilməsini, yerində demokratik bir cümhuriyyət rejiminin qurulmasını tələb edirdilər. Eyni zamanda siyasi bir inqilabla kifayətlənməyən bu qrupa daxil olan sosialist partiyaları Avropa kapitalizmindən fərqli sosial bir reform proqramının tətbiqini də vacib görürdülər. Sosialist partiyaları idealist-xalqçı ideologiyasında sosialist-devrimçilərlə (qısaca eser), tarixi materializm ideologiyası daşıyan sosial-demokrat (qısaca esde) zümrələrinə ayrılırdılar.”[761]

Rəsulzadə yazırdı ki, Bakıda fəaliyyət göstərən bolşeviklər və menşeviklər belə bir şəraitdə “Türk-müsəlman gənc inqilabçılar dərənəyi””ni öz tərəfinə çəkməyə çalışırdılar. Həmin dövrdə də RSDFP-nin Qafqazdakı bolşevik fraksiyası Tiflisə nisbətən Bakıda daha qüvvətli olub, həmin fraksiyaya da, sonralar uzun illər Sovetlər Birliyinin başçısı olmuş İ.V.Stalin rəhbərlik edirmiş. Stalinlə ilk dəfə əmisi oğlu Məhəmməd Əli Rəsuloğlunun vasitəsilə Balaxanıdakı neft ocaqları məhəlləsində bir fabrikanın işçilərinə məxsus evlərin birində tanış olan Rəsulzadə yazırdı ki, Bakının da içində olduğu bolşevik və menşevik mühitində “Təkamül” qəzeti-nin redaktoru kimi “milli müxalifət”in (Türk inqilabçılığının)

[761] Rəsulzadə M.Ə. Mühacirət dövrü ədəbi-elmi irsindən seçmələr. I cild, Bakı, Elm, 2016, s.132

adından orada bulunub.[762] Ancaq Rəsulzadə hiss edirdi ki, onlarla birgə əməkdaşlıq etmək istəyən Stalinlə yolları axıra qədər bir olmaya bilər. Bunu, Məhəmmədəli Rəsuloğlu da yazdığı xatirələrində təsdiqləmişdir.[763] Bununla bağlı olaraq M.B.Məmmədzadə də yazırdı ki, Rəsulzadə "çarizmə qarşı mübarizədə inqilabçı sosializmi ən sadiq olmasa da, ən münasib bir müttəfiq, bir ortaq gördüyündən",[764] sosial-demokrat kimi bəlli dövrdə onlarla çarizmə qarşı mübarizədə birgə fəaliyyət göstərmişdir. Məhz bu amillərə əsaslanan fəlsəfə tarixçisi Müstəqil Ağayevə görə də, ilk dövrlərdə Rəsulzadənin sosial-demokratizmə bağlılığında bu təlimin bir çox prinsiplərinin digər təlimlərə nisbətdə üstünlüyü ilə bağlı olmuşdur.[765]

Rəsulzadənin sosial-demokrat baxışlarının təşəkkülü Bakı (1903-1908) və Tehrandakı (1909-1911) fəaliyyət dövrünə təsadüf edir. Bu zaman Rəsulzadə əsas diqqəti maariflənməyə, İslam dini ilə sosial-demokratizmin bir-birinə zidd olmamasına, imperiyanın müstəmləkəçilik siyasətinə, hökumətin müsəlmanlarla hüquqsuz vətəndaş kimi davranmasına, insanların hürriyyət və azadlıq probleminə, çar Rusiyasında, Osmanlıda, Qacarlarda və bütövlükdə dünyada kapitalizmə qarşı mübarizəyə yönəltmişdir: "Çox keçmədən onu, 1906-cı ildə nəşrə başlayan "Təkamül" qəzetinin başında görürük. İnqilabçı, millətsevər gəncliyin fikirlərinə tərcüman olan bu qəzet proqram məqaləsində "Millətlərin, qövmlərin, heyətlərin siniflərin və şəxslərin hüquq və ixtiyaratda azad və bərabər olmalarını", hər növ təcavüzdən qorunmalarını müdafiə edən gənc və inqilabçı mütəfəkkir Rəsulzadə bu tezisi həyatı boyunca işlədəcək: "İnsanlara hürriyyət, millətlərə istiqlal!" şəklində ifadə etdiyi milli məfkurə halına gətirəcəkdir".[766]

Rəsulzadə "İnsanlara hürriyyət, millətlərə istiqlal!" şüarının mahiyyətində fərdin azadlığı, əmək-çalışma azadlığı və millətlərin

---

[762] Rəsulzadə M.Ə. Stalinlə ixtilal xatirələri. Bak,: Elm və təhsil, 2011, s.20
[763] Resuloğlu M.E. Müsavat Partisinin kuruluşu // Müsavat, Münhen, 1962, №4, s.9
[764] Məmmədzadə Mirzə Bala. Milli Azərbaycan hərəkatı. Bakı: Nicat, 1992, s.30
[765] Ağayev Müstəqil. Məhəmməd Əmin Rəsulzadə. Bakı: "Nurlan", 2006, s.26
[766] Mehmetzade M.B. M.E.Resulzade. "Azerbaycan", №12 (36). Ankara, 1955

azadlığı kimi üç əsas prinsip təşkil etmişdir. M.B.Məmmədzadə yazırdı: "Fərdin azadlığı, əmək və çalışma azadlıqları və millətlərin azadlığı kimi üç ana ünsürdən ibarət olan bu Qərbi Avropa azadlıq ideyasının Şərq dünyasına yayılmasına və yerləşməsinə qarşı çətin bir cəhalət səddi təşkil edən Rusiya imperatorluğunu, inqilabçı həmlələrlə yıxıb ortadan qaldırmağın mümkün olacağına inanan Rəsulzadə "İnsanlara hürriyyət, millətlərə istiqlal" şüarı ilə milli Azərbaycan məfkurəsinin insani, mədəni və aləmşümul mənasını da qısa bir şəkildə ifadə etmişdir".[767]

Deməli, gənc Rəsulzadə sinfi mübarizə, sosial ədalət, ictimai bərabərlik məsələlərinin daşıyıcısı kimi sosial-demokratizmi doğru görmüş, bunu "İnsanlara hürriyyət, millətlərə istiqlal!"kimi formülə etmişdir. Bizcə, burada isə əvvəlcə "insanlara hürriyyət" prinsipi daha çox öndə olmuşdur. Məsələn, fəhlələrə səkkiz saatlıq iş günü tələbi ilə çıxış edən Rəsulzadə 1906-cı ildə "Fəhləyə dair" başlıqlı silsilə məqalələrində bunun mahiyyətini, tarixini, fəhlələrin birləşməsi baxımdan əhəmiyyətini, xam xəyal olmamasını, mənafeyini, iqtisadi əhəmiyyətini, ailəyə təsirini izah etmişdir.[768] Rəsulzadə fəhlə, işçi üçün 8 saatlıq iş gününün müəyyənləşməsini İslam diniylə də əsaslandırmağa çalışırdı. Ona görə yanlız şəriət deyil, heç bir qanun, əql, elm, kitab da fəhlələrin müəllimlərdən, ruhanilərdən və məmurlardan ixtiyarlarının az olmasına işarə etməyib və etməz.[769]

Rəsulzadənin gənc olmasına baxmayaraq sosial nəzəriyyələri, sosiologiyanı, siyasəti dərindən bilməsi açıq qəkildə hiss olunur. Belə ki, o, sosial məsələlərə toxunarkən, onların tarixinə nəzər salır, əsaslandırmağa çalışır, uyğun olaraq sosial utopik, sosial-demokrat baxışlı mütəfəkkirlərdən sitatlar gətirirdi. Səkkiz saatlıq iş günü üçün fəhləələrin on illər boyu əməli mübarizə aparmasını, bəzi mütəfəkkirlərin (Tomas Mor, Tomazzo Kampa-

---

[767] Yenə orada.

[768] Rəsulzadə M.Ə. Əsərləri (1903-1909). I cild, Bakı: Azərnəşr, 1992, s.35

[769] Yenə orada, s.35-36

nella, Kompenius, Qiyavanski və b.) əsərlər yazmasını xatırladan Rəsulzadə, buna, xam xəyal kimi baxılmasına etiraz edirdi.[770]

Rəsulzadə fəhlələrin haqlarını tələb etməklə yanaşı, çarizm istibdadını lənətləyərək belə bir ölkədə insan kimi yaşamağın mümkünsüzlüyünü yazırdı. Onun fikrincə, mütləqiyyətçi istibdadla mübarizə aparmağın tək nicat yolu da sosialist inqilabdan keçir. Bu baxımdan Rəsulzadəyə görə Çarlığı bürüyən anarxiya buradakı millətlər mövqeyindən inqilablar edib azadlığa çıxmaq üçün tək yoldur: "Bu bir yoldur ki, bunu cəmi milləli-qərbiyyə getmişlər və yerdə qalan millətlər də gedəcəklər. Bu bir keçiddir ki, tarix hamısını buradan sürüb keçirdəcəkdir. Bu bir dəhşətli yoldur ki, istər-istəməz hər kəs buradan keçməyə məcburdur".[771]

Çarlığın apardığı assimilyasiya təhlükəsi ilə üzbəüz qalan türk-müsəlmanlara gəlincə, Rəsulzadəyə görə onların nicat yolu imperiyanın süquta uğrayıb sosial-demokratizmin qalib gəlməsi ilə bağlıdır. Bu baxımdan o, türk əhalini Rusiyada öz işini meydandan aparmağa əlləşən iki böyük üz-üzə durmuş tərəflər, yəni "sol"lar və "sağ"lar arasından birinciyə dəstək verməyə çağırırdı.[772] Çünki Rəsulzadə üçün çarlıq hökuməti ilə "sağ"çı siyasi qüvvələrin mahiyyəti bir olub, bütövlükdə imperiya daxilindəki insanların azadlığının və millətlərin istiqilalının düşməni mövqeyində idi.

Həmin dövrdə "sağ"lar daha çox imperiyanın mütləqiyyət-çiliyindən yana olduqları halda, "sol"ların isə imperiyanın inqilab yoluyla süquta uğradılaraq buradakı insanların və millətlərin azadlığından, sosial bərabərliyindən çıxış etmələri təəssüratı daha güclü idi. Hər halda imperiya daxilindəki müxtəlif millətlərin sosialist inqilabından sonrakı milli və dini xüsusiyyətlərsiz, sinifsiz "kommunizm" cəmiyyətində taleyinin konkret necə olacağı ilə bağlı tam dəqiqi təsəvvür olmasa da, bütün hallarda "sol"ların prinsipləri hökumətin yürütdüyü, "sağ"ların da dəstək verdiyi mövcud siyasətə münasibətdə daha cəlbedici olub, əsas nicat yolu

---

[770] Yenə orada, s.36-37
[771] Yenə orada, s.55
[772] Yenə orada, s.78-80

kimi özünü ifadə edirdi. Bu baxımdan 2-ci Dumanın açılışına bir neçə gün qalmış Rəsulzadə ümid edirdi ki, "sol" cəbhədə dayanan hürriyyətçi millət vəkilləri camaatın tələblərini çarizm cəlladlarına yetirib onların hökumət başından rədd olmalarına nail ola biləcəklər. Birinci Dumanı buraxmaqla əhalini "sağ"laşdırmaq niyyəti güdən stolıpinlərin səhvə yol verdiyini yazan Rəsulzadə inanırdı ki, camaat artıq ikinci Dumanın məhvinə razı olmayacaqdır.[773]

Çox keçmədən 2-ci Duma da stolıpinlərin əlində oyuncağa çevrilir ki, "sol"ların hökumət və hökumətyanlı "sağ"lar tərəfindən məğlub duruma düşməsinin canlı şahidi olan Rəsulzadə, digər sosial-demokratlar kimi bu hadisəni böyük üzüntü ilə qarşılamışdır. Üstəlik, "sol"ların öz varlığını nisbətən hiss etdirə bildiyi 2-ci Dumanın ömrünün qısa olması, daha sonra da Çarlığın istibdadı yenidən gücləndirib 3-cü Dumanı tam şəkildə öz əlində cəmləşdirməsi, azad mətbuatın bir-birinin ardınca bağlanması, "Hümmət"in siyasi fəaliyyətinə qadağa və bəzi üzvlərinin həbsxanalara atılaraq Sibirə sürgün olunması və digər amillər Rəsulzadəyə də mənfi anlamda psixiloji təsir göstərmişdi. Bu baxımdan 3-cü Dumadan heç nə gözləməyən Rəsulzadə yazırdı ki, artıq bu Duma millətin deyil, ancaq hökumətin işinə yarıyır.[774]

**Milli sosialist inqilabçılıq, yoxsa beynəlmiləlçilik.** Sosial-demokratların milliyyət məsələsi ilə bağlı mövqeyini ən doğru taktika kimi qəbul edən Rəsulzadə inanırdı ki, sosial-demokratlar bütün millətlərin problemlərinə eyni prizmadan yanaşır və onların milli mədəniyyətinə, dillərinə yüksək dəyər verir: "Budur, o əsaslar ki, onun üstündə sosial-demokratiya milliyyəti gözləyir. İctimaiyyun-amiyyun düşmənləri bu firqəni ləkəyərək deyirlər ki, guya ictimaiyyət əfkarı milliyyəti bilmərrə götürüb millətlərin mədəniyyət, ədəbiyyat və dillərinə əsla qədr vermiyor".[775] Ona görə sosial-demokratlar "milliyyət"ə düşməndirlərsə, bu həqiqi milliyyət deyil,

---

[773] Yenə orada, s.117
[774] Yenə orada, s.160
[775] Rəsulzadə M.Ə. Əsərləri. I cild (1903-1909). Bakı, "Təhsil", 2014, s.84

qondarma "milliyyətçi"likdir.[776] Əlbəttə, dövrün şərtləri altında "sosial-demokrat"lar milliyyətə tamamilə əks olmasalar da, ancaq onların cəmiyyətin gələcəyinə doğru planlarına görə gec-tez millət anlayışı ortadan qalxmalı idi. Sadəcə hələlik, mövcud sosialist dövləti olmadığı üçün, sinifsiz cəmiyyətdə millətin taleyinin necə olacağı haqqında da qəti bir mülahizə yürütmək mümkün deyildi. Bu baxımdan ilk mərhələdə "sosial-demokrat"lar sinfi mübarizə aparmaqla yanaşı, imperiya daxilindəki xalqların dil, mədəniyyət və digər haqlarını da müdafiə edirdi. Bu baxımdan Rəsulzadə özünə bir nicat yolunu tapa bilməyən millətin oyanmasına hələlik, sosial-demokratizmin dəstək verdiyi halda, riyakar mollaların, "millətçilər"in isə ona əngəl olduğuna inanırdı.[777]

"İctimaiyyun-ammiyyun müsəlman firqəsidir"-deyə, Rəsulzadə yazırdı ki, nə "həqiqi rus", daşnaksutyun, inqilabçı-sosialistlər və kadetlərin bloku, nə də ki, müsəlmanların bloku azadlıqsevər xətt seçməyib. Rəsulzadəyə görə yalnız sosial-demokratlar həmişə camaat və onun səadəti yolunda çalışıb, onun mənafeyinin mühafizə və qarovulçusu olub: "Bu firqeyi-ammə cəmaətindir. Bu firqə hüquqsuzların, məzlum və məfluqların firqəsidir. Bu firqənin amalı və əfkarı fəqət füqərayi-kasibənin əmniyyətini təmin edib, ümum insanları nəzərində bir tutub, bilafərq millət, məzhəb, arvad və kişilərin hər bir hüquq və ixtiyaratda müsavi olmalarıdır. Bu firqə beynəlmiləldir. Bunun üçün milliyyət filan yoxdur. Bunun nəzərində əhəmiyyət qazanan fəqət sinifdir. Bir-biri ilə zidd olan iki sinfin ki, onları heç bir rabitə müttəhid edə bilməz.... Əsil həqiqətinə baxsaq, biz müsəlmanlar ümumən bir məzlumlarıq. İctimaiyyun-ammiyyunda məzlumlar firqəsidir. Kəmali-cürətlə demək olar ki, ictimaiyyun-ammiyyun müsəlman firqəsidir".[778]

Rəsulzadənin "sosial-demokrat" firqəsini müsəlmanları müdafiə edən əsas partiyalardan biri kimi göstərməsi həmin dövrün tələbləri, gerçəklikləri ilə bağlı idi. Yuxarıda da qeyd etdiyimiz

---

[776] Yenə orada, s.84
[777] Yenə orada, s.89-91
[778]Yenə orada, s.102

kimi, hələlik rus "sosial-demokrat"ları əsil üzlərini açıb ortaya qoymamışdılar. Onlar çarizmi yıxıb yerində Sovet imperiyası qurmaq üçün qeyri-rus millətlərin, o cümlədən də müsəlmanların məzlumlarına ehtiyacı vardı. Bu anlamda rus "sosial-demokratlar" ilk dövrlərdə qeyri-rus xalqların məzlumlarının da müdafiəçisi kimi çıxış edirdi ki, Rəsulzadə də bunu nəzərə alaraq onların partiyasını əzilən müsəlmanların tərəfdarı adlandırırdı. Bu baxımdan türk-müsəlman əhalini Dumaya seçkilərə səsləyən Rəsulzadə onları millət üçün işləyən "sol" qüvvələrə səs verməyə çağırırdı. Onun fikrincə, aşkarda və gizlində "millətçilik"lə, "ümmətçilik"lə məşğul olan partiyalardan isə xalq uzaq durmalıdır: "Müstəqilən çalışmalıdır ki, ictimaiyyun-ammiyyun keçsin. Yox, bu mümkün olmaz isə "Yer və ixtiyar" ilə müsəlman blokunun arasında heç bir təfavüt yoxdur! Təfavüt yoxdur, deyiriz. Zira, həqiqətən millətçi olub üzünü dürlü-dürlü maskalar ilə örtən bir millətçinin, aşkara millətçilik edən ilə heç bir təfavütü olmasın gərək".[779] Bütövlükdə millətçilik məsələsində tamamilə milli xüsusiyyətlərin əleyhinə çıxmayan, sadəcə, bir millətin başqa millət üzərində ağalığına etirazını bildirən Rəsulzadə inanırdı ki, cəmi dünya ölkələrinin xoşbəxtliyi bir millətin işi deyil.[780]

**Sosial-demokratizmdən milli demokratizmə doğru.** Onun sosial-demokratizmə nisbətən dərin, müqayisəli təhlili, konkret prizmalardan yanaşması, marksizmdən demokratiyaya, daha sonra da milli demokratiya cərəyanına yaxınlaşması Qacarlar dövründəki fəaliyyətinə (1909-1911-ci illər) təsadüf edir. 1910-cu ildə Qacarlarda mühafizəkar "Etidaliyyun" ("Mötədillər") partiyasının yaranması ilə bağlı yazdığı "Mühafizəkar və ya sosialist mühafizəkar partiyaların" adlı tənqidi əsərdə və "İrani-nou" qəzetində yazdığı məqalələrində Rəsulzadə sosial-demokratizmi, sosializmi müxtəlif xalqlara nisbətdə müqayisəli şəkildə verirdi. O, hesab edirdi ki, sosializmə Avropa və başqa yerlərdə rəvac verən fəhlə-

[779] Yenə orada, s.106
[780] Yenə orada, s.111-112

kəndli və burjua sinifləri arasında gedən mübarizə səbəb olub.[781] O, inanırdı ki, bütün millətlərin fəhlə-kəndli təbəqəsi kapitalizmdən azad olarsa, o zaman millətlərin də azadlığı baş verəcək. Bu yol millətlərə həqiqi azadlıq və xoşbəxtlik gətirəcək.[782]

Bu baxımdan o, Avropadakı sosial-demokratların milli hökumət formasında, bərabər şəkildə sosial-siyasi bərabərliklərə nail olma prinsiplərini müsbət dəyərləndirirdi. Milli hökumətdə beş formada hürriyyət olmalı idi: Birincisi, söz azadlığı insanın öz fikrini, düşündüklərini qorxub çəkinmədən, kimsədən ehtiyat etmədən açıb danışması demək idi. Hürriyyətin mövcudluğunu şərtləndirən ikinci amil mətbuat azadlığıdır. O, hürriyyətin üçüncü əlamətini cəmiyyətin və ittifaqların yaradılıb sərbəst fəaliyyət göstərməyində görürdü. Hürriyətin dördüncü əlaməti vicdan azadlığıdır. Hürriyyətin sonuncu əlaməti şəxsiyyətin toxunulmazlığındadır. Bu cür azadlıqlar bəlkə də Rəsulzadənin təsəvvür etdiyi milli, ancaq mahiyyətində həm də sosial-demokratizmin bəzi müddəalarına yer verən bir iqtidarda mövcud olmalıydı.

**Marksizm-leninizmin tənqidçisi kimi.** Mühacirətdə, yəni 1920-ci illərdən başlayaraq qələmə aldığı əsərlərində Rəsulzadənin sosial-demokratizm, sosializm, demokratiya anlayışlarına baxışları öz aktuallığını itirməmişdi. O, rus sosial-demokratizmi ilə marksizmin fərqlərini göstərməyə çalışmış, milli dövlətdə sosial məsələnin yerini izah etmiş, milli təsanüdçülük təlimini irəli sürmüşdü.

Sosial-demokratizm adı altında pərdələnərək fəhlə-kəndli sinfi formasında millətləri əsarət altında saxlayan Sovet rejiminə qarşı mübarizə aparan Rəsulzadə, bolşeviklərin Azərbaycana tətbiq etdiyi "sosializm"in iç üzünü açıb göstərirdi. O, yazırdı: "Azərbaycanda "sosializm"in zahirən "türkizm" üzərində qələbəsi təmin olunmuşdu. Rus bolşevizmi Azərbaycan millətçiliyi üzərində qələbəsini bayram edirdi. Yabançı totalitarizm yerli demokratiyaya qələbə çalmışdı. Lakin bu məsələnin, sadəcə, zahiri tərəfidir. Həqiqətdə isə mübarizə hələ bitməmişdir: Onun müqəddəratı

[781] Rəsulzadə M.Ə. Əsərləri (1909-1914). II cild. Bakı: Şirvannəşr, 2001, s.93-94
[782] Yenə orada, s.95-96

müasir şəraitdə dünya miqyasında cərəyan edən böyük mübarizənin müqəddəratı ilə bağlıdır. Azadlıq və demokratiyanın son qələbəsi müqəddərsə, (buna qətiyyən şübhəmiz yoxdur) o zaman 1918-ci ilin 28 mayında hüquqi ifadəsini tapan milli Azərbaycan Respublikasının həyata keçirdiyi azadlıq və istiqlala yenidən qovuşacağı əlbəttə ki, həqiqət və müqəddərdir”.[783]

Rəsulzadənin əsas məqsədi əsl demokratiya, sosial-demokrat təlimi ilə, sovetlərin “sosial-demokratiya”, “demokratiya”sı arasındakı fərqləri ortaya qoymaq idi. “Rusiyada siyasi vəziyyət” məqaləsində o, bu fərqləri göstərir, bunun nəticəsində bolşeviklər arasında yaranmış ziddiyyətləri nümunə gətirirdi: “Kommunist firqəsindəki müxalifət eyni cinsdən deyildir. Bunlar bir tərəfdən Zinovyev tərəfindən idarə olunan sollar, digər tərəfdən də Sokolnikov və Medvedyev kimi sağlar arasında müxtəlif fərqlərlə ayrılan çoxlu zümrəsindən ibarətdir. Bu müxaliflərə görə indiki idarə Rusiyanı sosializmə deyil, kapitalizmə aparır”.[784] Rəsulzadə onların arasındakı fikir ayrılığını belə izah edirdi: “Sağlar deyirlər ki, dünyada sosializm qurmaqdan əl çəkməli, Avropa ilə əməkdaşlıq etməli, demokratiyaya doğru getməli, sollar deyir, Leninə qayıtmalı, bütün dünyanı sovetləşdirməli. Kommunist firqəsi bir tərəfdən həqiqi rus mənafeyini güdən sağlar, digər tərəfdən də beynəlmiləl inqilab iddialarından əl götürməyən sollar arasındakı çəkişmələrə səhnə olmuşdur. Medvedyev və Zinovyev qütbləri arasında müxtəlif şəkil və xüsusiyyətlər daşıyan qruplar çoxalır. Bunlar arasında hakim bir vəziyyəti tutan qrup Stalin zümrəsidir”.[785]

Rəsulzadə Sovetlərin saxta “demokratiya” və “sosializm” təbliğatına baxmayaraq, qeyri-rus millətləri öz yollarından döndərə bilmədiyini yazırdı: “Bakıda toplanan Türkoloji Konqresin pantürküstlər tərəfindən istifadə olunmamasını təmin üçün yaxşı əməl sərf edilməsinə rəğmən yuxarıda adı çəkilən konqresdə “nə

---

783 Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991, s.111

784 Rəsulzadə M.Ə. Bolşeviklərin Şərq siyasəti. Bakı: Sabah, 1994, s.16

785 Yenə orada, s.17-18

yapsalar da bizi böyük Türk kültür və mədəniyyəti yaratmaq əzmindən döndərəməzlər" mənasında söylənən hərarətli nitqlər iradını qadağan edə bilməmişlərdi".[786] Bu baxımdan Rəsulzadə inanırdı ki, sonda bolşevik diktatorluğu məhv olacaq. O, yazırdı ki, keçirdikləri çox acı təcrübələr nəticəsində birlik lüzumuna bütün mövcudiyyətləri ilə qənaət gətirən bu millətlər nə lazımdır etməlidirlər: "Bunlar arasında Azərbaycan Cümhuriyyətinə və azəri türklərinin üzərinə düşən vəzifə də çox böyükdür".[787]

Rəsulzadə "Milliyyət məsələsində bolşevik nəzəriyyə və əməliyyatları" əsərində milliyyətlə bolşevizm arasındakı əsas ziddiyyətləri göstərməyə çalışmışdır. Onun fikrincə, Vilson prinsiplərində xüsusi mövqe tutan "millətlərin öz müqəddəratlarını həlli səlahiyyətdar olduqları" prinsipi bolşevizmdə heç bir zaman öz mahiyyətində müsbət bir qiymətə malik olmamışdır: "Onların nəzərində bu şüar təqib etdikləri məqsəd uğrunda istifadə etdikləri silahlardan biridir. Digər təbirlə, bu məsələ onlar üçün heç bir zaman bir məqsəd deyil, sadə bir vasitə və alət rolunu oynamışdır.... Milli mədəniyyətə müqabil Lenin "ümumdünya fəhlə hərəkatı və beynəlmiləl demokratiya mədəniyyəti"ni qoyurdu. Bu nöqteyi-nəzərlə də o, Rusiyanın milli-məhəlli muxtariyyətlər əsası üzərində qurulu qoşma cümhuriyyətlər (federasiyon) şəklində təsisinin şiddətlə əleyhinə idi".[788] 1917-ci ildə bolşevik konqresi Lenin tərəfindən təklif olunan bu formulu "mərama müvafiq olarsa" qeydi ilə qəbul etmişdi. Yəni onlar demək istəmişdi ki, "bəli bir millət dövlətdən ayrılmaya belə haqlıdır. Yalnız bir şərtlə ki, bu ayrılma mərama müvafiq olsun". Rəsulzadə yazırdı: "Mərama müvafiq olan ayrılmanın təqlidi isə bolşevik firqəsinə aiddir. Sonralar "bu təqdir"in miqyası da təyin olundu. "Təyini-müqəddərat" haqqı bir millətin ümumi heyətinə deyil, ancaq o millətin "proletariat" sinfinə məxsus olundu".[789] Rəsulzadə

[786] Yenə orada, s.30
[787] Yenə orada, s.43
[788] Rəsulzadə M.Ə. Əsərləri (Mühacirət dövrü: Türkiyə, 1922-1929). I cild, Bakı, "OL" npkt, 2016, s.303-304
[789] Yenə orada, s.305

Azərbaycanın, Gürcüstanın da bu adla işğal edildiyini yazırdı: "Gürcüstan və ya Azərbaycan fəhlələri guya "Sovet Rusiyasına ilhaq qərarı verdiklərindən" təbii ki, Moskva bolşevikləri elan etdikləri milliyyət prinsipini pozmadan bu məmləkətlərə gəlmələrdir".[790]

Ən azı üç müxtəlif dövrdə - çar Rusiyası, Azərbaycan Cümhuriyyəti və SSRİ (Rəsulzadənin də mühacirətdə olduğu dövr) zamanlarında sosial-demokratizmi dəyərləndirən Rəsulzadənin bu təlimə baxışlarında zamana görə kəskin fikir ayrılıqlarının olduğunu söyləmək mümkün deyil. Düzdür, onun zaman-zaman bu təlimə baxışlarında müəyyən dəyişikliklər olub, bunu da daha çox Rəsulzadənin dünyagörüşünün formalaşma mərhələlərində bu ideyaya yeniləşmiş baxışları kimi dəyərləndirmək olar.

Onun qəbul etmədiyi sosial-demokratiya sovetlərin yalançı, riyakar"sosializm"i idi. Sovetlərin ortaya qoyduğu yalançı "sosializm" və "demokratiya"nın mahiyyətini də açmaqdan geri qalmayan M.Ə.Rəsulzadə marksist sosial-demokratizmin isə müəyyən müddəalarını qəbul edib. Bu müddəalar da cəmiyyətin sosial bərabərliyi, maddi rifahı ilə bağlı idi. Ona görə də Rəsulzadə insanların sosial bərabərliyini təmin edən bir təlim kimi, onu Cümhuriyyət dövründə qismən də olsa, həyata keçirməyə çalışıb.

Ümumilikdə, Rəsulzadənin sosail-demokratizmə, sosializmə baxışlarını üç yöndən qiymətləndirmək olar. Birinci halda o, sosial-demokratizmi digər ideyalardan üstün tutub, insanların və millətlərin azadlıqlarının sosializmin beynəlmiləl qələbəsi ilə mümkün olacağına inanmışdır. Onun fikrincə, bütün millətlərin fəhlə-kəndli sinfinin bərabər şəkildə mübarizəsi nəticəsində ayrılıqda götürülmüş bir millətin azadlığı da reallaşa bilər. 1911-1912-ci illərə qədər Rəsulzadə də bu fikrin hakim olduğunu görmək mümkündür. Düzdür, o, bəzən bunun özünə də tərəddüdlə yanaşıb. Hətta boş məhculluq içərisində sosial-demokratizmə söykəndiklərini də etiraf edən Rəsulzadənin bütün bunlarla yanaşı müəyyən bir dövrdə ən çox sosial-demokratizmə üstünlük verdiyi

[790] Yenə orada, s.305-306

bəllidir. Bunun nəticəsidir ki, Rəsulzadə hətta mənəvi baxımından bağlandığı İslamı belə sosial-demokratizmə zidd saymayıb. Əksinə, onlar arasında ideya yaxınlığı tapıb ortaya çıxarmağa çalışıb. Prof. Şamil Qurbanov yazırdı: "Məhəmməd Əmin fəaliyyətinin ilk dövründə sosial-demokratlarla yaxın olub, sosializm ideyasının təsiri altında idi. Onun gizli imzalarından biri də "sosialist" olmuşdur. Onlar cəmiyyəti inqilab yolu ilə dəyişdirmək, yeniləşdirmək istəyirdilər ki, bu da zamanın tələbindən doğurdu. Məhəmməd Əmində Müsavat fikrinin formalaşmasına və eyni adlı partiya yaranana qədər bu əqidə onda güclü idi".[791]

İkinci halda isə Rəsulzadə sosial-demokratizmi sosial məsələ kimi, ikinci plana salıb. Bu, o vaxt baş verib ki, Rəsulzadə sosial-demokrat ideya əsasında bir millətin azad, müstəqil ola biləcəyinə inanmayıb. Eyni zamanda anlayıb ki, Rusiya bolşevikləri sosial-demokratiya (bolşevizm) adı altında yeni bir imperiya qurmaq istəyirlər. Bu baxımdan müsavatçılıq ideyasını ortaya ataraq milli davanı önə çəkən Rəsulzadə sosial-demokratizmi daha çox sosial nəzəriyyə kimi yanaşıb. Bu nəzəriyyəyə görə isə sosial-demokratizmdə olduğu kimi, bütün millətlər bərabər şəkildə sosial-iqtisadi rifaha, insan haqlarına sahib olmalıdır. Ancaq bundan öncə milli dava aparılmalı və hər bir millət ayrı-ayrılıqda ən azı muxtariyyət şəklində özünü idarəetməyə nail olmalıdır.

Üçüncü halda Rəsulzadə sosial-demokrat və milli məsələyə nisbətən bərabər şəkildə yanaşıb. Milli demokratizmi istənilən ideyadan üstün tutmaqla yanaşı Rəsulzadə hesab edib ki, demokratik ölkədə faşizm, hitlerizm kimi mürtəce millətçiliyə də yol verilməməlidir. Milli demokratik cəmiyyətdə dövlətin vətəndaşları heç bir milli-dini ayrı-seçkilik olmadan bərabər şəkildə yaşamalıdırlar. Ancaq milli demokratik, ya da milli sosial dövlətdə də milli xüsusiyyətlər, milli mənlik şüuru patriotluq anlamında hər zaman bir addım öndə olmalıdır. Burada nəzərdə tutulan milli mənlik şüuru bütövlükdə toplumu bir tam olaraq görmək, onu milli sosial dövlət anlamında ayaq üstə tutmaqdır.

---

[791] Qurbanov Şamil. Məmməd Əmin Rəsulzadə. Bakı: Nurlan, 2001, s.49

**Rəsulzadə milli həmrəylik (solidarizm) təliminin banisi kimi.**XX əsrin ilk yarısında yaşamış Rəsulzadə sosial demokratiya, liberalizm/liberal-demokratiya cərəyanlarını və onların mahiyyətindən irəli gələn təlimləri (bolşevizm, menşevizm, faşizm, hitlerizm və b.) çox yaxşı bildiyi üçün, onlardan fərqlənən üçüncü yolu daha doğru görmüşdür. Belə ki, Rəsulzadə kommunizmə və liberalizmə, eləcə də onlardan törəyən ifrat təlimlərə qarşı milli təsanüdçülük, ya da milli həmrəylik təlimini irəli sürmüşdür.

1920-ci illərin ortalarından etibarən solidarizmə əsaslı şəkildə müraciət edən Rəsulzadənin yaradıcılığında milli həmrəylik təlimi önəmli ter tutmuşdur. Məsələn, o, 1926-ci ildə İstanbulda verdiyi iki konfransda inqilabi sosializmlə mütləqçi liberalizmin oxşar və fərqli cəhətlərini müqayisə etməyə çalışmışdır. Onun həmin məruzələrinin ("İxtilalçı sosializmin iflası" və "Demokrasinin gələcəyi"") əsasında inqilabi sosializmin nədən iflasa uğraması, eyni zamanda liberalizmdən çox demokratiyanın (milli demokratiyanın) vacibliyi və burada da milli həmrəylik təliminin əhəmiyyətini izah etmək dayanmışdır. "İxtilalçı sosializmin iflası" məruzəsində "Dünya cənnəti məfkurəsi"nə aydınlıq gətirməyə çalışan Rəsulzadə bu məsələyə öz əsərlərində müəyyən yer vermiş Russo, Kant, Hegel, Kont, Spenser, Marksın və başqa mütəfəkkirlərin düşüncələrinə yer vermişdir.[792]

Rəsulzadəyə görə xüsusilə də, Kant, Hegel, Kont, Spenser bəşəriyyətin yaxın gələcəkdə sosial bərabərlik içində xoşbəxt yaşayacağı mülahizəsinə daha nikbin yanaşmışlar. O, yazırdı: "Başqa əsaslar və ifadələrlə olsa da, Kont dəxi bəşəriyyətin istiqbalını eyni qətiyyət və nikbinliklə təbşir eləmişdir. Müsbət fəlsəfənin müəssisi "bəşəriyyətin mümtaz qiami təbiətə ən ziyadə uyan ictimai intizam dövrünün hüsuluna yanaşmaq üzrə bulunuyor" deyə müntəzirləri təsəlli etməkdədir. Bunun üçün filosof hər şeydən əvvəl, fikir və mühakimələrin fününi-müsbətə

[792] Resulzade M.E. Yeni Kafkasiya yazıları (1923-1927). Ankara, Türk tarih kurumu yayınları, 2017, s.338;Rəsulzadə M.Ə. Əsərləri (Mühacirət dövrü: Türkiyə, 1922-1929). I cild, Bakı, "OL" npkt, 2016, s.345

əsası üzərinə tövhidini tələb ediyor; fikir və mühakimələrdəki anarşiyi bərtərəf etməyə lüzum görüyordu. Konta görə bəşəriyyət Russo, Kant və Hegeldə olduğu kimi hüququn mütəkamül şəkillərini tətbiq etməklə deyil, elm və fənnin sözgötürməz həqiqətlərinə tabe olmaqla nicat bulacaqdır".[793]

Marksla Engelsin kommunizm idealını təhlil edən Rəsulzadəyə görə onların birgə yazdıqları "Kommunist manifesti"ndə məzlumların zalımları devirməsi ilə dünyanın bir gün cənnətə çevriləcəyi ideyası ən qüvvətli, məntiqli səviyyədə ifadə olunmuşdur.[794] Ancaq marksizmə görə proletariatın kapitalizm üzərində qələbəsindən sonra yalnız ailə, milliyyət, din, sinfi məsələlər deyil, eyni zamanda vətən, dövlət və mülkiyyət anlayışları da aradan qalxacaqdır. Şübhəsiz, bu cür yanaşma Russonun, Hegelin baxışlarının tam tərsi idi. Marksizmin bu cür tutumuna qarşı Russonun ("İctimai müqavilə"), Hegelin ("Dövlətin təntənəsi") ideyalarını Almaniyada ən yaxşı davam etdirən isə Ferdinand Lassal olmuşdur. O, yazırdı: "Almaniya sosial-demokrat firqəsində əskidən bəri "lassalyanizm" namilə məruf bir cərəyan vardır; bu cərəyan marksizmlə daimi bir təsadüm halında idi. Marksın yuxarıda gördüyümüz vəchlə dövlət həqqindəki nəzəri mənfi idi. Halbuki Ferdinand Lassal bu xüsusda tamamilə Hegelə sadiq idi. Müsbət bir görüşü vardı. Dövləti inkar deyil, qəbul ediyordu. Lassala görə dövlət bir sinfin digər siniflər üzərindəki təğəllüb və hakimiyyətindən ibarət deyil, cəmiyyətin idarəsinə yarar, siniflər fövqündə bir makinadır. O, liberalizmin dövləti iqtisadi münasibətə müdaxilədən mən edən nəzəriyyəsini cərh ediyor, böylə bir müdaxilə demokratik dövlətin vəzifəsindən olduğunu iddia ediyordu. Lassala görə əsaslı qanunlar cəmiyyət içindəki ictimai siniflərin bilfeil haiz olduqları qüvvət və iqtidarın həqiqi təvazinini təsbit edən vəsiqələrdir".[795]

[793] Rəsulzadə M.Ə. Əsərləri (Mühacirət dövrü: Türkiyə, 1922-1929). I cild, Bakı, "OL" npkt, 2016, s.346
[794] Yenə orada, s.351
[795] Yenə orada, s.353

Lassalın dövlətin missiyası ilə bağlı irəli sürdüyü mülahizələri qəbul edən Rəsulzadənin də fikrincə, dövlətin əsas vəzifəsi bir tərəfdən insanların azadlıqlarını təmin etmək, digər tərəfdən isə fərdlərin birləşdirilməsi, onların müsbət xassələrinin aşkar edilməsidir. Ən əsası da odur ki, dövlətləri yıxmaq deyil, onları təkamül əsasında inkişaf etdirmək və sosial ədalətli cəmiyyətlər təşkil etməkdir. Rəsulzadə hesab edirdi ki, marksizmin irəli sürdüyü sosial inqilabın (marksist iniqlabçılar) baş verməsi gününü gözləmək, bunun üçün də fəhlələrin qulaq-başını doldurmaq əvəzinə, ən yaxşısı dövlətin sosial islahatlar həyata keçirməsinə (Russoya, Hegelə əsaslanan Lassalyanizm- təkamülçülər) təkan vermək idi.[796] Beləliklə, alman sosialistlərin (Lassal, Bernşteyn, Bebel və b.) zamanla sinfi həmrəyliklə yanaşı milli həmrəylikdən bəhs etmələri marksizm üçün ciddi zərbə olmuşdur. Xüsusilə də, Lassaldan sonra Bernşteyn, Bebel və Libknextin alman vətənpərvərliyindən, milli hisslərdən bəhs etmələri sosial-patriotizmi və milli həmrəylik təlimini ortaya qoymağa başlamışdır. Rəsulzadə hesab edirdi ki, onlar Marksın hər növ xüsusiyyətləri məhv edən internasionalizminə müqabil reformizm və sosial-patirotizmdə insanın öz vətəninin istiqlalını müdafiə etmək lüzumundan bəhs edirdilər. O, yazırdı: “Vətən nədir? Üzərində yaşadığımız torpaqmı? Bu, yalnız yaşadığımız torpaq deyil, Bebelin üsulətlə işarət etdiyi kimi bu, ana-babalarımızdan bizə keçən mənəvi qiymətlərin yekunudur. Bu, həm din, həm dil, həm ədəbiyyat, həm gözəl sənətlər, xülasə bir millətin həqiqi siyasi və mənəvi şəxsiyyətini təşkil edən bütün qiymətlərin məcmuidir!”.[797]

Alman sosioloqlarının bu fikirlərinin az sonra digər xalqlar arasında yayıldığını deyən, Rəsulzadəyə görə 1-ci Dünya müharibəsi dövründə və ondan sonrakı dövrdə də Rusiya təcrübəsi istisna olmaqla, Avropa ölkələrində inqilabçı sosializmdən daha çox sosial islahatçılıq, milli demokratiya fikirləri geniş yayılmışdı. O, yazırdı: “Milyonlarca cana, milyonlarca sərvətə mal olan rus təcrübəsi dəxi

[796] Yenə orada, s.357-358
[797] Yenə orada, s.359

isbat ediyor ki, yer üzündə hər növ milli və tarixi əlaqə və rabitələrdən ari cahan cənnəti təsis etmək fikri xam bir xəyaldır. Bu xam xəyal üçün cahan tarixinin müsbət bir həqiqət olaraq meydana gətirdiyi milli demokrasiyi fəda etmək olmaz. Sosializmin təsisi ilə zərurət dünyasına intəha verilərək hər növ qeyddən azadə bir hürriyyət dünyasına atılmaq xülyası ilə şəxsi hürriyyətimizi bizə ən əmin və ən təbii surətdə təmin edəcək milli istiqlal və milli demokrasi şüarından uzaqlaşmayalım! Biləlim ki, tarixi-ibtida və intəhası bəlli olmayıb daima yüksəklərə doğru gedən layətənahi bir yoldur. Bu yolun çata biləcəyi müxəyyül aqibət şəxsin mümkün olduğu qədər daha hürr, daha sərbəst, daha mütəkamil bir vücud olmasıdır. İnsandakı fərdi məziyyət və nöqsanların əksəriyyətlə mühit və cəmiyyətdən alınan xislətlər olduğunu nəzərə alırsaq, insan cəmiyyətlərinin milliyyət və demokrasi əsaslarında hürr və müstəqil olmalarının cahan tarixindəki rolunu həqqilə anlar, milli dövlət məfkurəsinin ülviyyət və xəllaqiyyətini bütün vücudumuzla hiss və əqlimizlə dərk edəriz!”.[798]

“İnqilabi sosializmin iflası” məqaləsinin davamı kimi az sonra məruzə etdiyi “Demokrasinin gələcəyi” mövzusunda isə, Rəsulzadə artıq milli həmrəyliyin əsil mahiyyətini aydınlaşdırmağa xeyli dərəcədə yaxınlaşmışdır. Bizcə, “Demokrasinin gələcəyi” məqaləsində o, bir tərəfdən müsavatçılığı, digər tərəfdən isə solidarizmi (həmrəylik fəlsəfəsini) izah etməyə çalışmışdır. Hər halda 1910-cu illərdə müsavatçılıq ideyasını müdafiə etməsi və həmin müsavatçılıqda da milli-dini ideyalarla sosial-demokratizmin uzlaşdırılması məsələsi, ancaq onun uzaqgörənliyi ilə izah oluna bilər. Başqa sözlə, Rəsulzadənin 1910-cu illərdə ortaya ataraq əsaslandırmağa çalışdığı müsavatçılıq əslində bəzi qüsurlarına baxmayaraq, milli sosial dövlətçilik təlimi idi. Deməli, Rəsulzadənin 1920-ci illərin ortalarından etibarən müdafiə və təbliğ etdiyi Milli təsanüdçülüyün (solidarizm) kökü müsavatçılqla (milli sosial bərabərliklə) bağlıdır. Hər halda Rəsulzadənin demokratiyanın əsas təməl prinsipləri ilə bağlı yazdıqları bunun bariz

[798] Yenə orada, s.368

örnəyidir: "Məlum olduğu üzrə demokrasiyi təşkil edən üç mühüm əsas vardır. Bunlardan birincisi hürriyyət, ikincisi müsavat, üçüncüsü də hakimiyyəti-milliyyə əsaslarıdır. Demokrasi bu üç əsasın tərkibindən hasil olma mənzumədir. Bu əsasları birər-birər təhlil və onların demokrasidəki rollarını tədqiq edəlim. Əvvəla, hürriyyət prinsipini alalım: bu, şübhəsiz demokrasiyə tərkib edən ünsürlərdən ən mühümüdür. Fəqət böylə olmaqla bərabər öz-özünə demokratiyanı təşkil edəməz, hətta hürriyyət prinsipi ilk dəfə olaraq bu gün hamımızın alışqın olduğu kimi, hürrəndiş zəvat tərəfindən deyil, ingilis kəlisalarından müstəqil məzhəblər tərəfindən irəliyə sürülmüşdür. Müsavat fikri də ilk zühurunda bu gün bizim anladığımız mənada zühur etməmişdir. Müsavat fikrini ilk dəfə olaraq hökuməti-mütləqə tərəfdarları irəli çəkmişlərdir. Kralın hakimiyyətini təmin və krallığa mərkəziyyət verdirmək üçün hökuməti-mütləqə tərəfdarları müsavat prinsipini feodalizmə qarşı müdafiə etmişlərdir. Dövlət işlərinin yalnız feodallara xas bir iş olmayıb, qanun nəzərində bütün vətəndaşların müsavi bir həqqə malik olmasını tərvic eləmişlərdir. Sonra hüquqi-tərbiyə tərəfdarları bu fikri daha çox dərinləşdirmiş, insanların bitəb müsavi olmadığı fikrini yapmışlardır".[799]

Rəsulzadəyə görə müsavat prinsipinin mütləq və mücərrəd surətdə tətbiqi də bizi əsil məqsədə çatdırmır. Belə ki, müsavatın mütləq surətdə tətbiqi hürriyyət məhfumu ilə təzad təşkil edir. O, yazırdı: "Siyasi hüquqda müsavat mümkün, iqtisadi fəaliyyət xüsusunda müsavat qabili-təsəvvür olsa da, şəxsiyyətlərdəki xüsusiyyətlərin mənən eyni dərəceyi-təsavidə görülməsi caiz deyildir. Bütün xüsusiyyətləri eyni təzyiq altında əzən "müsavat" həqiqi hürriyyət və fərdi zəkayı əzən bir afət olur. Hakimiyyəti-milliyyə prinsipi dəxi surəti-mütləqədə tətbiq olunamaz. Surəti-mütləqədə tətbiq olunacaq hakimiyyəti-milliyyə hürriyyəti-şəxsiyyə prinsipi ilə qatı bir təzad təşkil edər. Bu, kollektiv naminə

[799] Yenə orada, s.372

icra olunan bir cəbr və istibdaddan ibarət olur ki, bir fərd naminə icra olunan istibdaddan çox da fərqli olmaz”.[800]

Ona görə yeni dövrdə ingilislər arasında ortaya çıxıb fransızlarda inkişaf edən hürriyyət, müsavilik fikirləri çox keçmədən Avropada liberalizm (siyasi liberalizm, iqtisadi liberalizm və s.) cərəyanının yaranmasına səbəb olmuşdur. Rəsulzadə yazırdı: “Sənai inkişaf dövrünə girən Avropanın 19-cu əsrin ilk yarısında və əqllərə heyrət verəcək bir tərzdə zühur edən tərəqqiyyatında hürriyyət fikri ilə fərdiyyət məbdəinin heç şübhəsiz, çox böyük təsiri olmuşdur. Fəqət hürriyyət fikrinin iqtisadiyyata tətbiqi ilə səri surətdə inkişaf edən Avropa sənayesi kiçik sənaye dövrünü atlayaraq böyük sənaye dövrünə keçincə hürriyyət fikrinin iqtisadi və sənai fəaliyyətinin hər sahəsində faydalı olub olmayacağı düşünülməyə başlanılmış, gündən-günə şiddət kəsb edən sinif ixtilaflarının tənzimi üçün hökumətin iqtisadi fəaliyyət sahəsinə müdaxilə edərək ictimai müvazinəyi təminə məcbur olduğu qənaəti hasil olmuşdur. Daha ziyadə liberalizmin müqabili sosializm məsləki zühur eləmişdir”.[801]

Rəsulzadəyə görə sosializm meydana çıxana qədər əgər liberallar daha çox bütöv cəmiyyəti deyil ayrı-ayrı azad fərdləri müdafiə edirdilərsə də, sosialistlər isə tam əksinə azad fərdləri bir kənara qoyub sistematik cəmiyyəti, yəni kollektivçiliyi əsas kimi görüblər. Üstəlik, sosialistlər iddia ediblər ki, dünyada mövcud olab bütün ədalətsizliklərin, haqsızlıqların əsas səbəbkarı iqtisadi liberalizm və fərdiyyətçilikdir. O, yazırdı: “Liberallar “cəmiyyətə qarşı fərd” şüarını müdafiə edərkən bunlar münhəsirən cəmiyyəti iltizam və kollektivizmi tərvic ediyorlar. Hal-hazırda Rusiyadan başqa, kollektivizmi tətbiq təcrübəsini icra edən bir məmləkət yoxsa da, ictimai və iqtisadi münasibətləri tənzim üçün fərdi hürriyyəti təhdid edən hökumət tədbirlərinin Avropada və Amerika məmləkətlərinin çoxunda ittixaz olunduğunu iləridə bütün təfsilatı ilə görəcəyiz. Bu gün hürriyyəti-şəxsiyyə və mülkiyyət prinsip-

---

[800] Yenə orada, s.373
[801] Yenə orada, s.376

lərinə qiymət verməklə bərabər, bilxassə iqtisadi fəaliyyətdə fərdiyyətçiliklə cəmiyyətçiliyi təlif və tərkib edən təsanüdçülük nəzəriyyəsi xeyli dərəcədə qüvvətlənmişdir”.[802]

Onun fikrincə, sosialist cərəyanlarla liberalist məsləklər arasında qalan demokratiyanın bundan çıxış yolu kimi yeni bir təlim ortaya qoyması lazım gəlirdi. Çünki hər iki cərəyan arasında müsbət cəhətlərlə yanaşı neqativ xüsusiyyətlər olduğu üçün, yeni bir məsləkin ortaya çıxmasına inanların görüşü də var idi. O, yazırdı: “Bu görüş sayəsindədir ki, müasir cəmiyyətin ahəngini təmin edən əsas bulundu. Təsanüdçülük (solidarizm) məsləki rəvac buldu. Təsanüdçülük liberalizm kimi mülkiyyət əsasına hörmət edər, yalnız ona qüdsiyyət payəsini verməz. Cəmiyyətin mənafeyi iqtiza etdiyi zamanlarda mülkiyyət həqqinin təhdidini və dövlətcə şu həqqi kullanmaq tərzinin təyinini zəruri görür. O, fərdiyyət-çiliklə cəmiyyətçiliyin arasına təlif edər. Bu gün demokrasi məsləkləri arasındakı hakim cərəyan da budur: təsanüdçülükdür. Demək ki, dünki liberalizm əsası üzərinə qaim olan demokrasi fikri bu gün solidarizm sisteminə doğru getməkdədir. Fransa inqilabı əsnasında hakim olan demokrasi fikri fərdin hökumətə qarşı hürriyyətini təmin etmək hədəfinə mütəvəcceh idi; müasir demokrasi zehniyyəti isə yalnız fərdi deyil, zümrəvi mənfəətlərin də təminini düşünmək məcburiyyətindədir”.[803]

Rəsulzadəyə görə fərdi hürriyyətin mütləq şəkli ilə ictimai hakimiyyətin mütləqiyyəti arasında təsanüdçülük-həmrəylik ən doğru yoldur, çünki solidarizmdə həm fərdin azadlıqları, həm də siniflərin istəkləri demokratiya, hüquq çərçivəsində nəzərə alınır. Bu baxımdan da, təsanüdçülük yalnız demokratik quruluşda, hüquqi dövlətdə gerçəkləşə bilər. Başqa sözlə, qeyri-demokratik, yəni avtoritar, totalitar, hərbi diktatura, teokratik kimi quruluşlarda solidarizm mümkün deyildir. O, yazırdı: ““Siyasi relatizm”ə təhəmmül etməyən hər hansı sistemdə təsanüdçülüyün bu xüsusiyyətləri (yəni fərdin azadlığını və siniflərin istəklərini

[802] Yenə orada, s.376-377
[803] Yenə orada, s.377-378

bərabər şəkildə gerçəkləşdirməsi – F.Ə.) bütün qüvvətilə inkiaf etməkdən məhrumdur. İqtisadiyyat sahəsindən siyasət sahəsinə keçərsək, hüquqi hürriyyətin də yalnız bu sayədə ahəngdar bir mənzumə təşkil edəcəyini həmən hiss edəriz. Şöylə ki, hər hansı cəbhədən baxarsaq, demokrasi ilə hüquq arasında sıx və çox səmimi bir əlaqə buluruz. Demokrasidən bəhs edən bir müəllif deyir ki: "İctimai təşəkküldə hüququn realizasyonunu təmin edən yeganə imkan sahəsi demokrasidir. Hüququn hakimiyyəti və istiqlalı demokrasi yolunun rəhbər yıldızıdır. Digər hökumət sitemlərindən demokrasi bununla ayrılıyor ki, onun üçün hüquq xaricində bir hökumət təşkili qeyri-qabil təsəvvürdür. Hökumətin təşkili ilə hüququn müdafiəsi – demokrasi üçün – iki ayrı ayrı şey deyil, yalnız bir şeydir". Demokrasi ilə hüquq – çox məruf bir təriqə görə - bir sikkənin iki üzüdür. Hüququn gələcəyi olduğu kimi, demokrasinin də gələcəyi əmindir".[804]

Demokratiya ilə yanaşı hüquq da solidarizm üçün çox önəmlidir. Çünki millətə, cəmiyyətə aid hüquqla fərdin hüququ arasında uzlaşdırmanın olması təsanüdçülüyün əsas prinsiplərindən biridir.Hazırda nəinki zor gücünə qurulmuş sosialist cəmiyyətlərdə, heç liberal-demokratik toplumlarda da hüququn bu iki xüsusiyyəti arasında uzlaşdırmanı istənilən şəkildə reallaşdırmaq mümkün olmamışdı. O, yazırdı: "Fərzən dövlət idarəsindən hökmdarın hüquqi-xüsusiyyəyə müstənid istibdad və mütləqiyyətini tamamilə atan və onun yerinə arayi-ümumiyyə ilə müşəxxəs və hüquqi-ümumiyyəyi müməssil xalq müəssisəsini vəz edən demokrasi, iqtisadi və ictimai həyat sahəsində hala hökmran olan fərdi hüquq müməssillərini ictimai hüquqa tamamilə tabe edəməmişdir. Dövlətdə irsi hökmdarlığın əhəmiyyəti tamamilə səlb edilmiş ikən, bir dövlət qədər əhəmiyyət kəsb edən böyük fabrikada bu prinsip hələ də hökmrandır. Hüququ tələqqisindəki bugünkü məxsus inkişafın gözə aldığı istiqamət iştə budur. Fərdi hüququn hər cəhətcə ictimai hüquqa tabe olmasıdır".[805] Demokratiya hər şeydən

[804] Yenə orada, s.380-381
[805] Yenə orada, s.383

əvvəl müəyyən bir fikri mənzuməsidir ki, burada fərdin hüquqları, azadlıqları nəzərə alınmaqla cəmiyyətin hüququ, onun milli varlığı da qorunmalıdır. Bu baxımdan demokratik dövlətlərdə yalnız fərdin hüquqları düşünülməməli, eyni zamanda ayrı-ayrı fərdlərdən təmsil olunan cəmiyyətin bütünlüyünü də nəzərə almaq lazımdır. Eyni zamanda, fərdiyyətçilik və liberalizm dövründən sonra ortaya çıxan zümrə təşəkküləri, məslək təbəqələri məsələsinə hüquqi müstəvidə yanaşmaq vacibdir. Onun fikrincə, XX əsrin əvvəllərində yalnız ifrat cəmiyyətçiliyin deyil, Avropada parlamentarizmin böhrana düşməsində də, liberalizmin doğurduğu zümrə təşəkkülləri, yəni sosial təbəqələşmə mühüm rol oynamışdır.[806]

Rəsulzadə belə nəticəyə gəlirdi ki, indivudalizm (fərdiyyətçilik) və universalizm (külliyyət) arasındakı məsələdə ən doğru yol təsanüdçülüklə bağlıdır. Çünki yalnız solidarizmdə həm fərdin, həm də ümuminin maraqlarına cavab vermək mümkün olur. Eyni zamanda, milli təsanüdçülükdə sosial məsələ ilə milli məsələ arasında uzlaşdırma da mümkündür. Ona görə məmləkəti əcnəbi düşmənin qanlı istilası altında inləyən millətin fərdi heç bir zaman inqilabi sosializmin arxasınca getməz. O, yazırdı: "Bizcə hər cür islahatı rədd edən əski qafalı mürtəcelər milli vəhdət, milli inkişaf və milli istiqlal üçün müzürr olduqları kimi, milli vəhdət və bu vəhdəti təşkil edən siniflər arasında təsanüd və müsahiləyi inkar ilə sinif mücadiləsini atəşləyən kommunistlər də eyni dərəcədə müzürrdürlər. Biz hər cür sinif diktatorluğunun əleyhindəyiz. Hədəfimiz millətin vəhdəti, istiqlalı və hürriyyətidir. Bizi bu hədəfə doğru götürən vasitə isə gələcəyi heç də şübhə doğurmayan təsanüdçü demokrasi məfkurəsidir!".[807]

1950-ci illərin başlarında qələmə aldığı "Milli təsanüd" məqaləsində Rəsulzadə yazırdı ki, dövlətin formalaşması bir neçə mərhələdən keçib: "Hürriyyət prinsipi ilə mülkiyyət əsasının mədəniyyət tarixində oynadıqları böyük rol məlumdur. XVIII əsrin sonları ilə XIX əsrin əvvəllərində elm, fənn, fəlsəfə və estetika

[806] Yenə orada, s.395-396
[807] Yenə orada, s.404

sahəsində görülən parlaq müvəffəqiyyətlərin anası “hürriyyət”; onlarla birlikdə yürüyən sənaye inqilabi nəticəsindəki maddi tərəqqilər ilə iqtisadi gəlişmeyi doğuran da “mülkiyyət” olmuşdur”.[808] Onun fikrincə, bunun ardınca bir sıra ölkələrdə baş verən mühüm ictimai-siyasi hadisələr liberal düşüncə tərzini ortaya qoymuşdur: “Siyasət sahəsində fransız inqilabının elan etdiyi “İnsan haqları” bəyannaməsində, iqtisad sahəsində də Mançestr məktəbinə mənsub iqtisadçıların “burax keçsin, burax yapsın” şəklindəki formullarıyla əsaslandırlan bu prinsiplər burjua inqilablarında qəhrəmanlıqlar yaradan liberal düşünüş sisteminin əsasını təşkil etmişdir. İnsanı, orta əsr gerliyinin siyasi, dini və iqtisadi üç qatlı zərurət və əsarət məhkumiyyətindən qurtaran və fərdə cəmiyyət içində layiq olduğu vətəndaş mövqeyini verən qüvvət liberalizmin zəfəri olmuşdur”.[809]

Liberal dövlətin mahiyyətinə gəlincə, Rəsulzadə yazırdı: “Liberalizm, dövlətin vətəndaş üzərindəki hakimiyyətini ən az dərəcəyə endirib, onu yalnız daxili asayiş ilə xarici əmniyyət təmin edən cəmiyyət xidmətində və nəzarətində bir müəssisə görmək istəmiş; dinin dünya işlərindən ayrılığını tələb edərək, vicdanların hər cür təzyiqdən azadlığını gözə almış; iqtisadi sahədə dəxi satış təşəbbüsünün istiqlalına hörmətlə mülkiyyətin qutsallığını elan etmişdir. Liberalizmdə əsas ideal, fərdin ən çox hürriyyəti və dövlətin vətəndaşlar arasındakı qarşılıqlı münasibətə ən az müdaxiləsidir. Şəxsi təşəbbüslərlə mülkiyyət haqqını tapdayan və təhdid edən hər hansı dövlət müdaxiləsi bu sistemin klassik baxışına qətiyyən uyğun deyildir.”[810]

Rəsulzadəyə görə liberal dövlət müəyyən bir zamana qədər tarixi vəzifəsini uğurla görmüş, feodalizm sisteminə bağlı qalan cəmiyyət qüvvələrinin hər sahədə açılaraq irəliləməsini təmin etmişdir. Ancaq hər tarixi cəmiyyət növü kimi zəncirlərini qıraraq böyük bir sürətlə irəliləyən liberal cəmiyyətdə içindəki əks

[808] Resulzade M.E. Milli tesanüd. Ankara: Kardeş matbaası, 1978, s.13
[809] Yenə orada, s.13
[810] Yenə orada, s.13

qüvvələrin böyüməsilə yeni ictimai təzadlar qarşısında qalmışdır. O, yazırdı: "Başıboş (azad) rəqabət əsasına dayanan liberal istehsal sistemi təşəbbüslü və eqoist fərdlər arasında hüdud və ölçübilməz bir mücadiləyə meydan vermişdir. Bu isə bildiyimiz kapitalizmi doğurmuş və ona bağlı bütün sosial təzadları qanadlandırmışdır. Sözdə siyasi hürr, mənən hürr və iqtisadi hürr olan vətəndaşlar, budur yarını məchul, bir dilim çörək qazancının əsiri bir hala gəlmişlər. Zahirdə hakimiyyət "ümumun rəyinə" dayanan parlament içindən yaradılmış "məsul hökumətlər"də isə də, həqiqətdə əsil hakimiyyət yeni para aristokratiyası deyilən bankirlərlə fabrikaçıların əlində. Bir tərəfdə gözqamaşdırıcı əfsanəvi zənginlik, o biri tərəfdə isə ürək yaxan bir fərqli səfalət. Sinfə qarşı sinif. Daxili mücadilə. Vətəndaşlar bıçaq-bıçağa".[811]

Liberal cəmiyyətdə yeni qüvvələrin meydana çıxdığını qeyd edən Rəsulzadə bunlardan birinin də kommunizm olduğunu yazır: "Liberal dövlət bizzat kəndi sisteminin məhsulu olan kapitalizmin doğurduğu böhranla mücadilədən acizdir. Bu təzada yenə cəmiyyət içərisində doğan yeni qüvvətlər qarşı gəlirlər. Kapitalizmin doğurduğu proletar sinfinə dayanan inqilabçı sosializm ideolojisi doğur. Digər adı kommunizm olan bu ideolojiyə görə, burjua cəmiyyətini iztirablar içində tutan şey liberalizmin istehsal sahəsindəki anarxiyaya izn verən fərdiyyətçiliyidir. İstehsal alətləri üzərindəki şəxs mülkiyyəti haqqı baqi qaldıqca-kommunistlərə görə-insan cəmiyyətinin iztirabına son gəlməz. Cəmiyyətlərin bir millət və dövlət içində vəhdətləri onlarca bəhs mövzusu olamaz… Hökumət demək, Leninin təbrincə, həddi zatında bir sinfin digər sinifləri əzmək və kəndinə tabe etmək üçün qurmuş olduğu cəbr makinasından başqa bir şey deyildir. Bunun üçün də Marksa görə əmələnin nə vətəni, nə də milləti var. Vətən və millət hissindən məhrum olan bu insanlar zümrəsi - proletariat burjua "diktatorluqlarını" devirərək, kəndi hakimiyyətini quracaq və tədricilə bütün sinifləri ortadan qaldıraraq sinifsiz və təzadsız bir cəmiyyət yaradacaqmış. Hürriyyət və mülkiyyət prinsipləri üzərində qurulan

[811] Rəsulzadə M.Ə. Milli birlik. Bakı, "Çıraq" nəşriyyatı, 2009, s.25

mədəniyyəti bütün əsərləri ilə inkara qalxışan bu müfrit cərəyan, yeni bir mütləqiyyət idealı doğuryor ki, onun ən kamil və ən amansız mümənssili kommunizm və Rusiyadakı misalı isə bolşevizmdir… Nə fərdi hürriyyətlə şəxsi mülkiyyətin mütləqiyyətindən doğan kapitalist anarxiya ilə sərmayə istibdadı, nə də insanları mənliyindən çıxararaq, bir kölə və makina halına gətirən kommunizm əsarəti! Nə mütləq liberalizm, nə də mütləq kollektivizm! O halda: İkisini təlif edən solidarizm = təsanüd”.[812]

Dövlət sistemində mütləq liberalizmi və kommunizmi rədd edərək solidarizmə üstünlük verən M.Əmin yazırdı: “Təsanüdçülükdə əsri mədəniyyətin əsasını təşkil edən- hürriyyət, şəxsi təşəbbüs və mülkiyyət əsasları baqidir. Fəqət, eyni zamanda dövlət, mütləq liberalizmdə olduğu kimi, fərdlər, siniflər və zümrələr arasındakı münasibət və mücadilələrə laqeyid, sırf zabitə vəzifəsiylə mükəlləf bir müəssisə deyildir. Bu sistemdə hürriyyət də, mülkiyyət də mütləq deyil, məşrutdur, şərt isə ümumun mənfəəti və dövlətlə millətin səlamətidir. Şəxsin olsun, zümrə və ya sinfin olsun – hürriyyəti, topluluğun yüksək mənfəətləri və hürriyyətini pozmamaq şərtləri ilə çərçivələnmişdir. Liberalizm bu hüdudu bir şəxsin hürriyyəti ilə digər şəxsin hürriyyəti arasında ancaq etibar edir; bunun üçün də dövlətin vəzifəsini sadə bir zabitə və məhkəmə dərəcəsinə endirmək istəyirdi. Solidarizmdə isə dövlət millətin mümənssil və cəmiyyətdəki münasibətlərin nəzimidir. Bu surətlə, solidarizm hürriyyət və mülkiyyət müəssisələrində qoyulmuş təbii təşəbbüs və ilərləmə həmlələrini zədələmədən, kapitalizmin liberal sistemdə ümumi mənfəət zərərinə işləyən ifratlarının önünə keçmək vəzifəsini dövlətə verir”.[813]

Rəsulzadə daha sonra yazırdı ki, sinifləri əsas olaraq alan kommunizm kimi, fərdləri nəzəri-etibara alan liberalizm də daha kosmopolit və internasyonaldır; yalnız solidarizm millidir. O, yazırdı: “Çünki sadə şəxslərin və siniflərin maddi mənfəətə bağlı xüsusiyyətlərinə deyil, siniflər və fərdləri bir cəmiyyət halına

[812] Yenə orada, s.25-26
[813] Yenə orada, s.27

gətirən mənəvi qüvvətlərə böyük qiymət verir. Bu mənəvi qüvvətlər isə millət və dövlətlərin gerçəkləşməsində birləşdirici amil olaraq təsir edən dil, din, tarix və ümumiyyətlə, kültür və ortaq ideal kimi mənəvi qüvvətlərdir".[814] Bununla da o, həmrəylikdəki bu milliliyin mənəvi dayaqlarının birləşdirici amilini "dil, din, tarix və ümumiyyətlə, kültür və ortaq ideal kimi mənəvi qüvvətlərdə" görürdü.

Liberalizm mədəniyyətin ruhunu fərdin yaradıcı eqoizmində, kommunizm sinfi eqoizmdə görür ki, hər ikisi ifrata varanda cəmiyyət üçün zərərli olur. Bu baxımda sinfi və fərdi eqoizmi qəbul etməyən Rəsulzadə bütün bunlardan çıxış yolu olaraq solidarizmi göstəriridi: "Solidarizm mədəniyyəti fərdi eqoizmlə cəmiyyət mənfəətləri arasındakı ahəngdən ibarət bilir. Liberal cəmiyyətdə başqasını düşünmək (altruizm) qəhrəmanlıqdır. Solidarizmdə isə bu bir vəzifədir. Kültür və tarix bağlarıyla mənəvi birlik təşkil edən bir millətin fərdləri, topluluğun ortaq mənfəətlərini qorumaq üçün öz şəxsi istək və mənfəətlərini hüdudlandırmaq məcburiyyətindədirlər. Topluluğun mənfəətlərini təmsil edən müəssisə dövlətdir. Fərdin mənəvi mənliyini təşkil edən ortaqlı bütün qyimətlərin qaynağı milli camiə, onu təmsil edən də dövlətdir".[815] Fərdin mənəvi mənliyini təşkil edən ortaqlı bütün qiymətlərin qaynağı milli cəmiyyət, onu təmsil edən də dövlətdir. O, yazırdı: "Fərd digər fərdlərlə ortaq olduğu bu mənəvi mənliklə özünəməxsus mənfəətlərdən ibarət maddi mənlik arasında ixtilaf çıxınca, maddiliyini mənəviliyinə fəda etmək məcburiyyətindədir. Hürr və kamil insan olmaq fəzilətinin hökmü bundan başqa ola bilməz. Dövlətlər, millətlər və cəmiyyətlər ancaq "canlarını cananlarına fəda edə bilən" bu kimi üzvlərə malik olduqları zaman uzun ömürlü ola bilirlər".[816]

M.Ə.Rəsulzadə dünyada hakim olan iki əsas sistemdən fərqli olaraq belə bir müddəa irəli sürürdü: "Madam ki, millətçiyiz,

---

[814] Yenə orada, s.28
[815] Yenə orada, s.27-28
[816] Yenə orada, s.28

diyoruz; madam ki, milli dövlət istiqlalını müdafiə ediyoruz, o halda bizim üçün nə kosmopolit liberalizmə və nə də kommunizmə təhəmmül caiz olamaz. Bizcə müdafiə ediləcək yeganə sosial sistem milli təsanüd sistemidir".[817] Rəsulzadə inanırdı ki, milli-dini dəyərlərlə sosial-demokrat və liberal dəyərlərin uzlaşmış nöqtəsinə çatmaq olar. O, bolşeviklərdən fərqli olaraq sosial məsələyə, onların milli məsələyə yanaşdıqları kimi baxmadığını ortaya qoyurdu. Sosial məsələlərə milli yöndən baxılmaqla, bolşeviklərin proletar "millətçilik" baxışları heçə endirilmiş olurdu. Rəsulzadə bolşeviklərin güya, millətçilik məsələsinə hörmətlə yanaşması fikrinin yanlış olduğunu isbat etdi. O, əsl milli təsanüdün necə olmasını göstərməklə həqiqətin ortaya çıxmasına nail oldu. Rəsulzadə, "Milli mücadilədə sosial şüarlar" məqaləsində yazırdı: "Milli dava və sosial məsələ. Bu iki anlamı bir-birindən ayırmaq qəbul olsa idi, yuxarıdakı ilk suala mənfi cavab verər, "milli hərəkat adamlarına sosial məsələlərlə məşğul olmaq caiz deyildir!" deyərdik. Halbuki, həqiqət öylə deyildir: Bir kərə "millət"in özü ictimai, yəni sosial bir anlamdır. Milli dava dəxi, əhatəli və ötkün bir baxışla, sosial bir davadır. Bir millət nə zaman müstəqil olur və bu istiqlalı nə üçün istər? Bu suallara cavab aradığımız zaman milli istiqlal davası ilə sosial məsələlər arasında ayrılıq deyil, dərin bir bağlılıq olduğunu görürüz. Bir millətin dışarıya qarşı həqiqi istiqlalı, içəridəki milli hakimiyyətinin həqiqiliyi ilə mütənasibdir. Dövlətlər arasındakı "milli istiqlal" anlamının bir dövlət içindəki qarşılığı, "milli hakimiyyət" sözündəki mənadır".[818]

Onun fikrincə, hürriyyət, milliyyət və istiqlal kimi mücərrəd siyasi şüarlar, münəvvər kütləyə xitab edən və onları inqilablaşdıran anlamlardır: "Geniş xalq təbəqələrini ayaqlandırmaq üçün, sadə şüarlar kafi deyildir. Onlar hərəkətə keçmək üçün, daha maddi və daha sərih şüarlar istər. Sosial şüarların xalq kütlələrini ayaqlandırmaqda siyasi şüarlardan daha mühüm rol oynadığı hərb sonu hadisələrində bilxassə görülmüşdür. Kütlənin sadə sosial

[817] Yenə orada, s.28
[818] Resulzade M.E. Milli tesanüd. Ankara: Kardeş matbaası, 1978, s.43-44

şüarlar və ancaq maddi mənfəətlər sövqi ilə hərəkətə gətirilərək inqilablaşdırıla biləcəyini xeylicə hesaba alan inqilabçı marksizm taktikasına əsas olaraq, sinif mücadiləsini və internasyonal sosializm almışdır. Eyni məktəbin məhsulu və məmləkətimizin bugünkü müstəvisi bulunan bolşevizm dəxi-məlum olduğu üzrə-eyni məktəbin şagirdi və eyni taktikanın sahibidir. Onunca əsas, siniflər və onlar arasındakı mücadilədir. Bu isə milli deyil, beynəlmiləl bir işdir. "Millətlər isə – onun gözündə – tarixin keçici və epizodik bir hadisə və müəssisələridir. Bəşəriyyətin atlatdığı gerilik mərhələlərindən milliyyət bəlkə də həzmi (yo xolması) çox uzun sürəcək birisidir". Bunun üçün də bu məsələ, yəni milliyyət məsələsi, bolşeviklər üçün ikinci dərəcədə, sosial məsələyə – sinif mücadiləsi mənfəətlərinə tabe bir məsələdir [Stalinin formulu]".[819]

**Milli həmrəylik təlimi faşizm və hitlerizmə qarşı.** Məlum olduğu kimi, italiyan nasional-sosialistləri "faşizm" adı altında qədim Roma imperiyasının bərpasını hədəflədikləri halda, alman hitlerçilər də "üstün alman xalqı" irqçiliyi ilə Almaniyanı dünya imperiyasına çevirmək niyyətində idilər. İtaliyan faşistləri ilə alman hitlerçilərin öz xalqlarının geniş kütlələri arasında uğur qazanmalarında rus bolşevizminin "beynəlmiləlçiliy"i mühüm rol oynamışdır.[820] M.Ə.Rəsulzadəyə görə də, rus bolşevizmi olmasaydı, İtaliya və Almaniyada faşizm bu dərəcədə uğur qazanmazdı. Çünki marksizmə əsaslanan rus bolşevizminin ifrat "beynəlmiləlçiliy"i İtaliya və Almaniyada uyğun olaraq faşizmlə hitlerizmin ortaya çıxmasına gətirib çıxarmışdır. Rəsulzadə rus bolşevizmi kimi, sosial şüarları milli şüarlar adı altında dəyişdirən faşizmlə hitlerizmi də qəbul etmirdi. Ona görə millətçilik və milli istiqlal incə bir məsələdir ki, faşizmlə hitlerizmin ona başqa yerə sürükləməsi qəbul edilməzdir. Rəsulzadə yazırdı: "Milli istiqlal-bu bir zərfdir, məzruf isə – milli hakimiyyətdir. Kəndini təşkil edən təbəqələr arasında nisbi olsun ictimai müvazinət və yenə nisbi olsun iqtisadi rifah təmin

---

[819] Yenə orada, s.44

[820] Xəlilli Xəlyəddin. Sosializm ideologiyasının mənbələri, inkişafı və faciələrinin tarixinə giriş. Bakı, Xan nəşriyyatı, 2022, s. 127

edəmiyən bir cəmiyyətdə isə, milli hakimiyyət təsisi qeyri mümkündür. Tək siyasi deyil, həyatın bütün sahələrini əhatə edərək həyatın sosial məsələlərini də məşğuliyyət və icraatı daxilində görən əsri milliyyətçiliyin hərəkət fəlsəfəsi də budur”.[821] Rəsulzadəyə görə hitlerçilik bolşevizm kimi öz müxaliflərindən diktatorluq fikrini götürmüş, lakin aradakı beynəlmiləlçiliyi radikal millətçiliklə əvəz etmişdir. O, yazırdı: “Milli istiqlal qayəsini və milli mənlik fikrini şiddətlə mənimsəyən faşizmlə istiqlal və milli mənlik adına vuruşan millətlər üçün, sözün beynəlmiləl mənası ilə, zəmin və zamana görə bir anlaşma imkanı qeyri varid deyildir; fəqət milli istiqlal davası ilə hürriyyət və demokrasi sistemi arasında yaxın artıq mərbutiyyət duyan Rusiya əleyhdarı milli istiqlal hərəkətləri üçün, sosialist ideologiyasını daşısalar belə, Moskva diktatorluğu ilə birləşənlərə qarşı hüsnü təvəccühlə baxmaq imkanı heç bir vəchlə varid olamaz”.[822] Rəsulzadə yazırdı ki, SSRİ hökuməti cahan sülhünü təmin işində nə dərəcədə əmniyyətsiz bir müttəfiqisə, hitlerizm də hürriyyət və demokratiya rejimini himayədə o dərəcədə mənfi bir qüvvədir: “Hitlerizm, hər şeydən əvvəl kommunizm demaqogiyasına qarşı çıxmaq üzərə doğmuş bir ideyadır. O, faşizm kimi öz müxaliflərindən diktatorluq fikrini almış, fəqət ondakı internasyonalizmi nasyonalizmə dəyişdirmişdir”.[823]

Hitlerizm haqqında dərin bilgisi olan Rəsulzadənin 2-ci Dünya müharibəsi dövründə Almaniyanın “Şərq nazirliyi” bölməsi tərəfindən Berlinə dəvət olunması təsadüfi olmamışdır. “Şərq nazirliyi”nin Qafqaz şöbəsinə başçılıq edən Fon Mend keçmiş Qafqaz liderləri ilə Sovet Rusiyasına qarşı mübarizədə işbirliyi qurmaqda maraqlı idi. Rəsulzadə Almaniya hökumət nümayəndələri ilə aparılan danışıqlarda Azərbaycan tərəfinin mövqeyini 12 maddədən ibarət xüsusi memorondumda ifadə etmişdi. Bu memorondumda azərbaycanlıların alman hərbi düşərgələrindən azad edilməsi, onların mülki işlərdə işlədilməsi, Milli Azərbaycan ordusunun yaradılması,

[821] Resulzade M.E. Milli tesanüd. Ankara: Kardeş matbaası, 1978, s.47
[822] Yenə orada, s.69
[823] Yenə orada, s.67

ordu komandirlərinin azərbaycanlılardan təyin edilməsi, alman qoşunlarının Azərbaycanı tutduğu zaman milli ordunun oraya daxil olmasına təminat verilməsi, rus işğalının alman işğalı ilə əvəzlənməsinə qətiyyən yol verilməməsi, Azərbaycanın müstəqilliyinin toxunulmaz olması və bu kimi şərtlər irəli sürülmüşdü. Rəsulzadə tərəfindən irəli sürülən bu milli prinsipləri Hitler qəbul etməmiş və nəticədə anlaşma əldə olunmamışdır. Deməli, Rəsulzadə Azərbaycanın milli istiqlal davasını hər şeydən üstün tutmuş, heç vaxt bir köləliyin başqa bir köləliklə əvəz olunmasına razı olmamışdır. Üstəlik, Rəsulzadənin bu cür antifaşist mövqeyi 1943-cü ilin payızında onun Almaniyanı tərk etməsi ilə nəticələnmişdi.

Bu baxımdan Sovet işğalının, Almaniya işğalı ilə əvəz edilməsinə razılaşmayan Rəsulzadəni Berlinlə danışıqlar aparmasına görə ittiham etməyin heç bir əsası yoxdur. Əgər o, Hitlerin Azərbaycanla bağlı fikirlərini qəbul etsəydi, o zaman ona münasibət də fərqli ola bilərdi. Ancaq ondan istədiklərini ala bilməyən hitlerçilərin onun ölkədən çıxardılması ilə bağlı qərarı hər şeyi ortaya qoyur. Bu məsələ ilə bağlı Rəsulzadənin silahdaşı M.B.Məmmədzadənin yazdıqları da çox önəmlidir: "II Dünya müharibəsi əsnasında Hitlerin "həyat sahəsi" nəzəriyyəsinə dayanan istila və hakim olma siyasətinə və totalitar rejiminə qarşı Rəsulzadənin tutduğu mövqe, istiqlal məfkurəsinə və demokratiya əsaslarına sadiq məfkurəçi bir liderin tuta biləcəyi yeganə bir yol idi. Berlinə dəvət olunan və o zamankı alman hökuməti ilə aylarla müzakirə aparan Rəsulzadə istiqlal xaricində heç bir anlaşmaya tərəfdar olmamışdı".[824]

**Milli həmrəylik təlimində milli sosial dövlət anlayışı.** M.Ə.Rəsulzadənin milli həmrəylik təliminin əsasında milli sosial dövlət anlayışı dayanmışdır. O, milli sosial dövlətə əsaslanan həmrəylik təlimini "Müsavat" Partiyasının 1938-ci ildə keçirilən 3. qurultayında irəli sürülən "Yeni Proqram əsasları"nda açıqlamışdır. "Yeni Proqram əsasları"nda Azərbaycan müstəilliyini bərpa etdikdən sonra, milli həmrəylik təlimi əsasında onun necə bir milli

---

[824] Məhəmmədzadə M.B. Məhəmməd Əmin Rəsulzadə. "Azərbaycan" dərgisi, Ankara, 1955, sayı 12 (36)

sosial dövlət olacağının başlıca prinsipləri açıqlanmışdı. Xüsusilə, "Yeni Proqram əsasları"na görə, milli sosial dövlətdə milliyyət məsələsi öz qüvvəsində qalmaqla yanaşı, orada sosial bərabərliyin, sosial ədalətin öz əksini tapması vacib hesab edilirdi. Şübhəsiz, "Yeni Proqram əsasları"nın əsas müəllifi M.Ə.Rəsulzadə olduğu üçün, orada öz əksini tapan milli sosial dövlət ideyasını da o, irəli sürmüşdü. Onun "Yeni Proqram əsasları"nda milli həmrəyliyə əsaslanan milli sosial dövlət prinsini irəli sürməsi, daha dəqiqi desək milli məsələylə sosial məsələni bu şəkildə bərabər götürməsi heç də bütün mühacir milli aydınlar arasında birmənalı qarşılanmamışdır. Millətçilik məsələsində radikal mövqe tutan milli ziyalılar hesab edirdilər ki, "Müsavat"ın "Yeni Proqram əsasları"nda milli məsələdən uzaqlaşılaraq sosial məsələyə doğru yön alınmışdır. Bu cür düşünənlərə görə, Azərbaycanın müstəqilliyinin bərpası uğrunda mübarizə dövründə milli məsələ ilə yanaşı, sosial məsələyə bu qədər önəm vermək, onu radikal formada ifadə etmək milli istiqlal davasına zərər verməkdədir. Onların fikrincə, milli istiqlal uğrunda mübarizə aparıldığı bir dövrdə sosial məsələnin bu cür qoyuluşu milli qüvvələr arasında ikitirəlik yaradır və bu da, qəbuledilməzdir.

Rəsulzadə "Yeni Proqram əsasları"nda yer alan milli sosial dövlət prinsipinə, ümumiyyətlə orada öz əksini tapan milli həmrəylik mülahizələrinə qarşı çıxan radikal millətçilərə tutarlı cavablar vermişdi. O, yazırdı ki, birincisi, hazırda milli həmrəyliyə əsaslanan "Yeni proqram əsasları"nı radikal sayan bəzi mühacir demaqoqlar "Müsavat" Firqəsinin Rusiya Məclisi-Müəssisan seçkilərində və 1917-ci ildə Bakıda yerli sovetlərə seçkilər əsnasında qəti müvəffəqiyyətinin sirrini unudublar. Filosof-mütəfəkkirə görə, ozamankı "Müsavat" proqramında, indiki əsaslar kimi, milli davanı ön sırada tutmaqla bərabər, sosial məsələni də unutmamış, fəhlə və kəndli məsələlərinə son dərəcə əhəmiyyət vermiş və onları sosialist internasionalistlərin ayaqlarını havada baş-ayaq tutacaq qədər radikal bir şəkildə həll etmişdir: "Bu sosial məsələləri unutmayan milliyyətçi proqramı ilə idi ki, "Müsavat" Bakı kimi inqilab yuvası "internasional bir fəhlə şəhərində" Türk fəhləsinin tək bir səsini

Türk sosialistlərinə belə qapdırmamış və Qızıl ordunun siyasi hiylə və üstün qüvvə ilə edilən istilasına qədər bolşevik olan müsəlman fəhlə və qeyri fəhləsi sayının bütün Azərbaycanda üç yüzü (300) keçməməsinə səbəb olmuşdu”.[825]

Rəsulzadəyə görə ikincisi, “Əsasları”ı milli məsələdən çox sosialməsələyə üstünlük verməkdə ittiham edənlərin görüş xətası vardır. Belə ki, Azərbaycanın istila altında olması, heç də onun milli və siyasi istiqlal gələcəyi ilə yanaşı, sosial bərabərliyə aid gələcəyini də düşünməyə əngəl ola bilməz. Başqa sözlə, burada dar düşüncədən deyil, daha geniş və bütünləşdirici dünyagörüşdən çıxış etmək lazımdır. O, yazırdı: “Məmləkət istila altındadır – deyirlər: hamımız vətəndən ayrı və mühacirətdəyik. Bizi burada ancaq bir qayə, bir ideal birləşdirir – təkrar vətənə dönmək və istiqlalımızı geri almaq. Toplayıcı bu milli və siyasi şüar yanına hansı sosial maddəni əlavə edərsiniz, istiqlalçılar cəbhəsinə ikilik gətirərsiniz ki, bu da milli qurtuluş hərəkatını işğal edər. Bu şəkildə düşünənlərin – düşüncələrində səmimi isələr – başlıca bir xətaları vardır: bir görüş xətası. Milli qurtuluş hərəkatını təkcə vətən ayrısı mühacirlərə aid etmək və milli istiqlal mücadiləsinin taktika və strategiyalarını, ancaq bu mühitdəki münasibət və əlaqələrlə ölçmək –böyük davanın geniş dairəsini çox kiçiltmək deməkdir”.[826]

Siyasi mühacirət orada başlanan bir davanın buradakı təmsilçiləridir ki, bu dava Azərbaycanda başlamış, orada davam edir və orada da həll olunacaqdır. Onun fikrincə, siyasi mühacirətin ön sırasında gedən “Müsavat mühacirəti” də bütün dünyadakı hərb sonu ruhu ilə bu zamandakı şərtlər arasındakı fərqi və o zamankı real şəraitlə bu zamandakı şərtlər arasındakı başqalığı öz vəzifəsinə sadiq və missiyasına layiq qaldıqca nəzərə almaya bilməz! Rəsulzadə yazırdı ki, o zamankı “Müsavat” proqramı əsasda milliyyətçi, istiqlalçı bir proqram olmaqla bərabər sosial məsələlərdə bəzən hətta firqənin əsil qayəsini təşkil edən milli prinsiplərlə təzad təşkil edən ifratlara belə qapılmışdır: “O zaman

[825] Rəsulzadə M.Ə. Milli birlik. Bakı, “Çıraq” nəşriyyatı, 2009, s.64
[826] Yenə orada, s.64

hələ sahiblərinin əlində və mülkündə olan torpaqların dövlət tərəfindən müsadirə olunaraq kəndlilər arasında əvəzsiz bölüşdürülməsi tələb olunurdu. Hadisələrin üzə çıxardığı torpaq islahatından sonra təbiidir ki, bu tələbin şəkli dəyişəcək, artıq xüsusi malikanələrin deyil, bolşevik kolxozlarının nə ediləcəyinə cavab veriləcəkdi. Torpaqların altındakı dəfinə və mədənlərin dövlətə aid olduğunu vaxtilə qəbul və mütərəqqi gəlir vergisilə böyük sərmayə məhsulu sənaye müəssisələrinin dövlət əlinə keçməsini ideal olaraq arzu edən bir firqənin, indi sənayenin dövlətləşdirilmiş bir vaqeəsi qarşısında və milli dövlət mənafeyi naminə milli totalitar rejimlərdə misalı varkən, hadisələrə göz yumub, bu məsələnin üstündən keçməsi necə qəbul oluna bilir?...”.[827]

Rəsulzadə sosial məsələlərdən cümhuriyyət dövründə yetərli səviyyədə istifadə olunmadığını özü də etiraf edirdi. O qeyd edirdi ki, sosial məsələlərdən o zaman lazımi şəkildə istifadə olunmamağın isə bir sıra səbəbləri olub: “O zaman bir tərəfdən liberalizm, digər tərəfdən də internasyonal sosializm cərəyanlarının zamana hakim təsirlərinə rəğmən, milliyyətçi qalmağı bacaran “Müsavat” üçün indiki ümumi ruhdan mülhəm olaraq, daha milli bir siyasət də daha təsanüdçü sosial bir sistem təsbit etmək qeyri-mümkün idi!”.[828]

Bununla da yeni dövrdə “Müsavat”ın proqramına sosial məsələlərdə bir sıra dəyişikliklərin edildiyini önə çəkən Rəsulzadə yazırdı ki, bu da milli həmrəylik anlayışıdır. Ona görə yalnız milli təsanüdçülük demokratik dövlətin əsas ideologiyası ola bilər. Bu zaman nə liberalizmə, nə də bolşevizmə ehtiyac qalacaq. Bu, sosial məsələlərlə milli məsələnin uzlaşdığı ən mühüm nöqtə idi. Rəsulzadənin ortaya atdığı bu ideya sosial-fəlsəfi və siyasi baxımdan yeni idi. Burada əsas məsələ milli çərçivə daxilində sosial məsələləri həll etmək cəhdidir. Şübhəsiz ki, bu zaman kommunizmin doğurduğu bolşevizm kimi bəlaları özündən uzaq tutmaqla yanaşı, milli təsanüdçülük kapitalizmin də mənfi tərəflərini rədd edirdi: “Milli istiqlal mücadiləsinin müvəffəqiyyəti və onun bir kütlə

[827] Yenəorada, s.65-66
[828] Yenə orada, s.66

hərəkəti olaraq, şumulluluğu üçün milliyyətçilərə sosial məsələlərlə məşğul olmaq zərurət və bu məsələləri milli davanın faydası namına həll etmək isə borcdur! Tək istiqlal şüarı məmləkətin geniş xalq kütlələrini toplayaraq mücadiləyə çəkmək üçün kafi deyildir. Uğrunda mücadilə edilən "istiqlalın" daşıdığı sosial mənanı da açmalıdır ki, milli hərəkət düşmənlərinə kütləyi şaşırtmaq üçün demaqogiyasına imkan qalmasın!… Məmləkətimizi istilası altında tutan bolşevizm, "Müsavatizm"ə qarşı etdiyi demaqogik təbliğatda "milli istiqlal demənin əski bəy, xan və ağalar dövrünün qaytarılması demək olduğunu" deyib durmaqdadır. Bu demaqogiya qarşısında milli hərəkat proqramında geniş xalq kütlələrilə əməkçi təbəqələrin haqları açıq deyilməz və özəlliklə kəndli və fəhlə məsələlərində bütün düyünlər açılmazsa, düşmənin işini qolaylaşdırır, hər türlü yalan və demaqogiyaya meydan verilmiş olur. Buna meydan verməmək və tək bu deyil, öz tərəfdarlarına təsəvvür etdiyi milli dövlət rejiminin sosial əsaslarını indidən bildirmək və onları içinə hər türlü sosial məna soxulan mücərrəd bir məfhum deyil, tarixin bu çətin ideologiyalar mücadiləsi dövrü deyiləcək zamanında hər türlü yabançı və düşmən təsirlərə dayana biləcək mətin bir ideya sistemi verə bilmək üçün, milli mücadilə partiyası müdafiə etdiyi milli istiqlal davasının sosial proqramını da mütləq verməlidir!...".[829]

Rəsulzadəyə görə yalnız sosial məsələni milli məsələnin bir hissəsinə çevirməklə bolşevizmi sıradan çıxarmaq mümkün olar. Bu baxımdan onun əsas məqsədi o idi ki, sosial məsələnin millətçiliyə zidd olmadığını ortaya qoysun: "Doğrudur- milliyyət şüarı toplar. Fəqət, sosial şüarların da toplayıcıları yox deyildir. Ayırıcı sosial şüarlar sinif mücadiləsini tərvic edən kosmopolit, internasyonal marksist sistemindən doğan şüarlardır. Yoxsa, sinifləri vuruşdurmağa deyil, barışdırmağa baxan təsanüdçü (solidarist) sosial sistemindən gələn şüarlar ayırmaz, toplar və bu surətlə də milli istiqlal anlamı ilə təzad deyil, tam bir ahəng təşkil edərlər!… Düşmənimiz bolşevizm üçün milliyyət, keçici bir taktika məsələsi

[829] Yenə orada, s.66-67

isə, bizim üçün sosial islahat heç də öylə deyildir. Bu, öz başına təsanüdlü və məsud bir varlıq təsəvvür etdiyimiz ahəngdar milli cəmiyyətin həm davamı, həm də istiqlalının təmini üçün zəruri və daimi bir qayədir!…”.[830]

Milli həmrəylik təlimi ilə ortaya atılan Rəsulzadə artıq cəmiyyətin problemlərinin həllində əsas həll yolunu tapmışdı. Başqa sözlə, uzun müddətli siyasi-ideoloji axtarışlardan sonra Rəsulzadə sosial məsələni milli məsələ ilə uzlaşdırmağı bacarmışdı. Bununla da o, milli dava ilə sosial davanı bir yerdə, tam şəkildə götürüdü. Onun milli təsanüd sistemi ideyası, milli məsələ ilə sosial məsələnin kəsişdiyi bir nöqtə idi. O, bu ideyanı irəli sürməklə sübut etmək istəyirdi ki, sosial məsələləri milli məsələlərə qarşı qoymağın heç bir mənası yoxdur. Rəsulzadə sosial məsələlərin milli məsələlərə zidd olmadığını, əksinə, onunla bağlı olduğuna inanırdı. Beləliklə, milli ideoloq əsas fikirlərini milli məsələ ilə sosial məsələnin təsanüdünə, yəni onların həmrəyliyinə yönəltmişdir. O, sosial məsələlərdən sui-istifadə edən bolşevikləri və milli məsələdən eyni şəkildə yararlanan faşistləri bir-birindən fərqləndirmirdi. Onun əsas qayəsi onların iç üzünü açıb göstərmək və əsil milli həmrəyliyə nail olmaq idi. Bu baxımdan Rəsulzadənin milli təsanüd təlimini ortaya qoyması uzun elmi-fəlsəfi, siyasi-ideoloji axtarışlarının nəticəsi idi.

**Milli sosial dövlət fəlsəfəsinin “Azərbaycan şairi Nizami” əsərində əksi.** “Azərbaycan şairi Nizami” adlı əsərində böyük Türk mütəfəkki-filosofu Nizami Gəncəlini təkrarolunmaz bir şəkildə tədqiq edən Rəsulzadə bir tərəfdən onun Türk mənsubiyyətinə, Türk dini-fəlsəfi düşüncəsinə, Türk ruhuna, Türk fəlsəfəsinə bağlılığını elmi-fəlsəfi şəkildə ortaya qoymuş,[831] digər tərəfdən dövrünün ictimai-fəlsəfi, sosial-siyasi problemləri kontekstində milli ideya ilə, dünyəvi ideyaları uzlaşdırmağa çalışmışdır. Türkün dövlətçilik anlayışının geniş şərhini verən M.Ə.Rəsulzadə yazırdı ki, Nizamiyə görə dövlət başçısı sürüyə cavabdeh bir çoban kimidir: “Hətta bun-

[830] Yenə orada, s.67

[831] Rəsulzadə M.Ə. Azərbaycan şairi Nizami. Bakı, “Çıraq” 2008, s.40, 164, 173,

dan da məsuliyyətli bir mövqedədir. Başdakı beyin bədənin bütün üzvlərini idarə etməkdə hansı mövqedədirsə, dövlət başçısı da onun kimidir. "Əl ayağın fəaliyyətindən razı deyilsə, cavabdeh başdır". Fərd dövlətə münasibətdə müəyyən vəzifələri icra etməyə borcludur. Amma fərd hər hansı dövlətdə yalnız vəzifə daşımağa borclu deyil, həm də bir sıra hüquqlara malikdir".[832] Türk hökmdarını ədalətli və vicandlı olmağa çağıran Nizamiyə görə türk hökmdarları heç bir zaman zalım və ədalətsiz olmamışlar, Sultan Səncərin buna uyğun olmayan davranışı isə Türk adına şərəf gətirmir.[833]

Rəsulzadə dövlətdə fərdin rolunu xüsusilə dəyərləndirməklə yanaşı, onun vəzifələrini də göstərir. Dövlət başçısı dövləti idarə edən bir şəxs kimi fərdə nisbətən daha məsuliyyətli olmalıdır. Ancaq bu o demək deyil ki, fərd məsuliyyəti dövlət başçısının, və yaxud vəzifə sahiblərinin üstünə ataraq tamamilə geri çəkilməlidir. Ona görə də Rəsulzadə Nizami kimi, dövlətin idarə olunmasında məsləhətləşmələri önəmli sayır: "Nizamiyə görə iqtidar ilə təmkin bir-birini tamamlayan şeylərdir: "Güclü ol, amma təmkinini əldən vermə". Dövlətin idarə olunmasında şair məsləhətləşmə tərəfdarıdır".[834] Ona görə dövlət başçılarından başqa ölkə üçün dost və düşmən təsəvvür etmək olmaz. Millət əgər öz vəzifəsini yerinə yetirsə, düşmənlər də dost olacaqlar. Əgər öz vəzifəsini yerinə yetirə bilməzsə, dostlar da düşmən olarlar.

Nizaminin baxışlarına uyğun dövlət idarəsini reallaşdıran hökmdar İskəndərdir və Rəsulzadənin də Nizaminin İskəndərinə, onun işlərinə xüsusi yer verməsi təsadüfi deyil. O, Nizaminin "İskəndərnamə"də yaratdığı ideal cəmiyyəti özü də görür: "İskəndərin şəxsində Nizami biliyə, hikmətə və sənətə bağlı olan ziyalı bir hökmdar görür. Filosoflar, alimlər və ədiblər tərəfindən əhatə olunmuş bu hökmdarın özü də xarakter (səciyyə), cəsarət və qəhrəmanlığı ilə bərabər, alim, filosof və tədbirli bir insan kimi tanınır. Ona müavinlik edən vəzir Yunanıstanın ən məşhur filosofu Ərəstundur.

---

[832] Rəsulzadə M.Ə. Azərbaycan şairi Nizami. Bakı: Azərnəşr, 1991, s.213
[833] Gəncəvi Nizami. Sirlər xəzinəsi. Bakı: "Lider", 2004, s.111
[834] Rəsulzadə M.Ə. Azərbaycan şairi Nizami. Bakı: Azərnəşr, 1991, s.215

Sarayında Yunanıstanın bütün tanınmış filosof və alimlərindən təşkil olunmuş Dövlət Şurası tipli yüksək bir məclis vardır".[835]

Fikrimizcə, Nizaminin "İskəndərnamə"ni yazmaqda məqsədi yalnız Makedoniyalı İskəndərin timsalında adil hökmdarı, ədalətli cəmiyyəti təsvir etmək deyil, eyni zamanda Türk millətinin qədimliyini, türk inanclarını, adət-ənənələrini tanıtdırmaq olmuşdu. Bu baxımdan N.Gəncəvinin Makedoniyalı İskəndəri Türk dünyasının bir hissəsi olan Azərbaycana, Qıpçaq elinə aparması təsadüfi ola bilməzdi. N.Gəncəvinin burada başlıca məqsədi Azərbaycanda, Qafqazda, Orta Asiyada və başqa yerlərdə yaşayan türklərin adət-ənənələrini, mədəniyyətini, düşüncələrini ortaya qoymaq olmuşdu. Məsələn, İskəndəri Qıpçaq ellərinə aparan Nizami Gəncəvi yazırdı ki, Qıpçaq türklərinin adət-ənənələri böyük fatehi mat qoymuşdur. Xüsusilə qadınların üzlərini örtməməsi və kişilərdən qaçmaması İskəndəri təəccübləndirir. İskəndər qıpçaqların ağsaqqallarını başına yığaraq bu adətlərindən əl çəkməyə çağırır: "Örtülü dedi çöl qıpçaqlarına: "Üzünü gizləmək xoşdur qadına"".[836] Qıpçaq türkləri isə İskəndəri başa salırlar ki, onlar adətlərini dəyişməyəcəklər, makdeoniyalı fateh isə hiylə işlətməklə istəyinə çatır.

Ədalətli cəmiyyət Rəsulzadənin dövlət siyasətinin tərkib hissəsi idi. Bu onun düşüncələrinə hakim kəsilib və sosial-fəlsəfi dünyagörüşünə mühüm təsir edib. O, Nizaminin də axtarıb tapdığı bu ideal dövlət fəlsəfəsini fikirlərində inkişaf etdirir: "Hər böyük və həqiqi sənətkar kimi Nizami də millilik və vətənsevərlik xüsusiyyəti daşımaqla bərabər, yaratdığı obrazlarla təlqin etdiyi fikir meydanında milli çərçivədən kənara çıxımış, bütün bəşəriyyətə şamil olan duyğularla həyəcanlanmış, millətlər və ölkələrin fövqündə olduğu kimi, dövrlər və əsrləri yarıb keçən yüksək və dünyaya şamil bir qayğıya cavab verə biləcək "söz"ü tapmağa çalışmışdır. Bizim qənaətimiz ilə bu "söz" İskəndərin möcüzəsində tapılmışdır. Bu möcüzə bugünkü bəşəriyyətlə birlikdə bizim də gerçəkləşməsini gör-

---

[835] Yenə orada, s.216

[836]Gəncəvi Nizami. İskəndərnamə. Bakı: "Lider",2004, s.314

mək istədiyimiz idealdır. Millətlərə yalnız mənəvi avtoritetlə nüfuz etmək, ruhlarını anlayaraq varlıqlarına qarşı ehtiram etmək".[837]

M.Ə.Rəsulzadə Nizaminin yaratdığı həmin ideal cəmiyyətin Sovet dövründə kommunizm quruluşuna oxşadılmasına etiraz edirdi. O, Nizaminin ideal cəmiyyəti ilə bolşeviklərin kommunizm ideologiyası arasında heç bir oxşarlığın olmadığını ortaya qoyurdu: "Nizaminin "Cənnət şəhər"i dindardır, sovet cənnəti isə dinsizdir. Birincisi Allahı tanıyır, o birisi isə rədd edir. Birincidə yalan söylənməz, ikincidə isə yalan ən böyük təbliğat silahıdır. Birincidə sevgi əsas ikən, ikincidə sinif qovğası əsasdır. Birincidə heyvanlar belə təhlükəsiz yaşadığı halda, ikincidə insanlar daim ölüm qorxusu altındadır. Birincidə qan tökmək haram ikən, ikincidə qanlılıq əsasdır. Birinci oğurluq nədir bilmir, ikincidə isə oğurluq ən qanlı polis rejimidir. Birinci casusluq bilməz, ikincidə hamı casusdur. Birinci silahsız və dindar, ikinci, təpədən-dırnağa qədər silahlıdır. Birinci, fitnə nədir bilməz, ikinci, bütün dünyanı bürüyəcək bir fitnə yuvasıdır. Sözün qısası: dini əxlaqa və ictimai anlayışa əsaslanan "Nizami sosializmi" ilə dini rədd edən və siniflər qovğasını əsas tutan qanlı "rus sosializmin" bir-birinə bənzər heç bir tərəfi yoxdur!.. Fəqət, bizim fikrimizcə, sevgi ilə nifrət, rəhmət ilə lənət nə qədər bir araya sığa bilərsə, Nizami ilə bolşeviklər də o qədər birgə ola bilərlər!".[838] Bolşeviklərin öz aləmlərində Nizaminin ideal cəmiyyətinə bənzətdiyi kommunizmin əsassız olduğunu yazan milli ideoloqa görə onun ideal cəmiyyəti yalnız Azərbaycan Cümhuriyyəti ilə bərabər tutula bilər.

M.Ə.Rəsulzadənin tarix qarşısında ən faydalı xidmətlərindən biri də Azərbaycanın dövlətçilik məsələsini irəli sürməsidir. Onun baxışlarında demokratik respublika ideyası birdən-birə meydana gəlməmişdir. Özünün dediyi kimi, "misli" Avropda olmayan" Azərbaycan Cümhuriyyəti, demokratik əsaslara söykənən sosial sistemli bir dövlət idi. Yeni milli dövlət xalqı bu acınacaqlı vəziyyətdən qurtarmalı, xalqın öz dövləti olmalı idi. Rəsulzadə

[837] Yenə orada, s.29-30
[838] Yenə orada, s.211-212

deyirdi ki, Rus kommunizminin yıxıcı və yaxıcı tətbiqatı yanında Türk demokratizminin yapıcı və yaradıcı icratı vardır. Yıxıcılıq keçər, yapıcılıq qalar. Müstəqil Azərbaycan Cümhuriyyəti məhz belə bir "yapıcı" dövlət sistemi olmalı idi.

Ümumiyyətlə, milli həmrəylik təlimini, solidarizm sistemini ortaya qoymaqla Rəsulzadə mili sosial dövlət anlayışı baxımından mükəmməl bir nəticəyə gəlmişdir. Bu, Rəsulzadənin mühacirət dövründə düşüncələrində yaratdığı milli sosial dövlətçiliyin ən yeni və son forması idi. Buna milli həmrəylik (milli təsanüdçülük) adı verən Rəsulzadə hesab edirdi ki, belə bir dövlətdə həm milli-dini dəyərləri, həm də sosial-demokrat, çağdaşlıq prinsiplərini tətbiq etmək olar. O, artıq sırf solçuluqla yanaşı, radikal millətçiliyi də qəbul etmirdi. Özünün də qeyd etdiyi kimi, o, millətçiliyi nasionalizm yox, mütərəqqilik, patriotluq mənasında kəsb edilməsini önəmli sayırdı.

Rəsulzadənin millətçilik məsələsinə daha təmkinlə yaxınlaşması təbii idi. O, hər zaman mütərəqqi millətçiliyin tərəfdarı kimi çıxış etmişdir. Xüsusilə də, onun müdafiə etdiyi mütərəqqi milliyyətçilik Azərbaycan türklüyünü yenidən ayağa qaldırmaq, azərbaycançılığı ortaya qoymaq üçün lazım idi. Çünki həmin dövrdə Azərbaycan türklərinin çox qismi öz milli kimliyini və mənliyini yaxşı tanmıır, müsəlmançılıq, rusiyaçılıq, irançılıq adı altında assimilyasiyaya uğrayırdı. Milli kimliyini, milli mənini bilmədiyi üçün də milli haqlarını müdafiə edə bilmir və müstəmləkə vəziyyətindən qurtula bilmirdi. Belə bir məqamda millətin öz milli kimliyini, milli varlığını ortaya qoyması üçün mütərəqqi milliyyətçiliyə, vətənpərvərliyə ehtiyac yaranırdı.

Digər tərəfdən, ilk dönəmlərdə sosial-demokrat, liberal-demokrat ideyalarının tərəfdarı kimi çıxış edən Rəsulzadə sonralar anlayacaqdı ki, mücərrəd sinfi mübarizə ilə də nəyisə əldə etmək mümkün deyil. Əgər sinfi mübarizə olacaqsa, bundan öncə bir millət olaraq türklər özlərini tanımalıdır. Millət olaraq özünü tanıyıb sinfi mübarizə aparan xalqla, milli kimliyindən xəbərsiz sinfi mübarizə aparaq xalq arasında böyük fərq var. Birinci halda

öz milli kimliyini tanımayan millətin uğursuzluğa uğrayacağı bəllidir. Ona görə ki, onun haqlarını "proletar sinfi" adı altında başqa millətlər mənimsəyəcəklər. Necə ki, Sovetlər imperiyasında "sovet milləti" adı altında qeyri-rus millətlərin əksəriyyəti məhz belə bir bəlaya düçar olmuşdular.

Bu baxımdan Rəsulzadənin "sosial məsələ-islam, türkçülük-islam" və sonda "türkçülük-sosial məsələ-islam" düsturunu başa düşmək çətin deyil: "Əski nəslə mənsub milli mühacirətin şüurlu qismi tərəfindən təmsil olunan siyasi proqramın milli həmrəylik, ictimai ədalət və siyasi istiqlaldan bəhs edən üç əsası yeni nəslin ictimai və siyasi şüurunu müəyyən edir. Yeni mühacirətin siyasi düşüncəli qismi siyasi etiqadımızın yuxarıdakı "üçlü" ümdəsini böyük bir sevinc və vicdan rahatlığı ilə xəbər alırdı. Onlar qırmızıların siyasətinin milli mühacirətin ictimai irtica ilə siyasi təhqir nümunəsi kimi tanıtdığını, yalan və böhtanlardan ibarət olduğunu görürdülər. Milli Azərbaycan Respublikasının yaşadığı istiqlal dövrü Azərbaycan tarixinin ən parlaq bir dövrüdür. Əski və yeni mühacirətin ilham qaynağı, 1918-ci ildə elan olunan istiqlal bəyannaməsindəki demokratik əsaslardır. Əldə edilmiş milli istiqlalı yenidən qazanmaq əvvəlki kimi yeni nəslin də idealıdır: lakin bir şərtlə: yenidən qurulacaq Azərbaycanda əski ictimai uyğunsuzluğa, siyasi haqsızlıqlara meydan verilməyəcək, sosial həmrəylik və ədalətin təmininə xüsusi əhəmiyyət veriləcəkdir".[839]

**Beləliklə,** gənclik dövründən yaşıdlarından fərqlənən Rəsulzadənin hansısa siyasi təşkilatlarda fəaliyyət göstərməsindən asılı olmayaraq, əsas məqsədi Quzey Azərbaycanı azad və milli-demokratik bir ölkə kimi görmək olub. Xüsusilə də, türkçülük, islamçılıq və çağdaşlığa əsaslanan azərbaycançılığın yaranmasında Rəsulzadə mühüm rol oynamışdır. Azərbaycan Türk dövlətçiliyinin bərpa olunmasında və milli istiqlalın qorunub saxlanılmasında müstəsna əməyi olan Rəsulzadə son dövr Azərbaycan Türk tarixinin yetişdirdiyi dəyərli milli mütəfəkkirlərdən biri olmuşdur. M.B.Məhəm-

[839] Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991, s.110

mədzadə yazır: "Azərbaycan xalqının taleyinin bir parçası olan Rəsulzadənin mənalı həyatına, dolğun yaradıcılığına bu gün ani bir nəzər salmaqla biz Vətənə, müstəqil Azərbaycana sədaqət timsallı böyük bir şəxsiyyətin canlı obrazı ilə görüşürük. Sözsüz ki, bu sədaqət, bu sevgisi ilə o, Azərbaycan xalqının məhəbbətini qazanmış və qəlblərdə əbədi məskən salmışdır. Rəsulzadə prinsipə sədaqətin, məfkurəyə bağlılığın, səbr və fədakarlığın, əzm və qüdrətin timsalı idi. 20 yaşında "İnsanlara hürriyyət, millətlərə istiqlal!" arzusu ilə siyasi həyata atılmış Rəsulzadə "İnsanlara hürriyyət, millətlərə istiqlal!" fikri ilə də 72 yaşında həyatla vidalaşdı. Lakin ömrünün sonuna qədər bu inam onu tərk etmədi".[840]

Öncə İslam dinini sosial-demokratizmlə uzlaşdırmağa çalışan, sonralar bunu milli ideya çərçivəsində inkişaf etdirən Rəsulzadə, bütün hallarda dini siyasətdən kənarda hesab etmişdir. İslama münasibətdə həmişə dəyişməz və sabit mövqe nümayiş etdirən Rəsulzadənin dində intibahın tərəfdarı kimi çıxış etməsi də təbiidir. Çünki dində durğunluq olanda, cəhalətin təsiri altında qalanda, millətin xeyrinə deyil, zərərinə işləyir. Bu gün Azərbaycan Respublikasının mühüm atibutlarından biri bayrağımızda çağdaş ruhlu islamçılıq öz əksini tapması da Məhəmməd Əmin ideyalarının praktiki nəticəsidir.

Bizcə, Hüseynzadə, Ağaoğlu və Topçubaşının müasirləşmək-qərbləşmək-avropalaşmaqla bağlı bir-birinə yaxın və ziddiyyətli mülahizələrini də Rəsulzadə bir ideoloq kimi ümumiləşdirə bilmişdir. Belə ki, türkləşmək, islamlaşmaq və müasirləşmək kimi "üçlü" düstura Azərbaycan türkçülüyünə əlavə edən Rəsulzadə, bununla da bir tərəfdən azərbaycançılığın əsasını qoymuş, digər tərəfdən milli demokratiyanın təşəkkülündə əvəsiz rol oynamışdır. O, yeni dövrdə Azərbaycan Türk aydınları arasında ilk dəfə, ümmətçilikdən millətçiliyə üz tutaraq milli ideyanın təməl prinsiplərini işləyib hazırlamışdır. Çünki 1915-ci ildən işıq üzü görən "Açıq söz" qəzetində ilk dəfə olaraq "müsəlman", "tatar" əvəzinə "türk" sözünü işlədən, "Biz türkük!" deyən Rəsulzadə olmuşdur.

---

[840] Əfəndiyev Elçin. Məmməd Əmin Rəsulzadə (oçerk). Bakı: Şərq-Qərb, 1994, s.20

Milli ideoloq azərbaycançılığı da çox dəqiq ifadə etmişdir. "Azərbaycançılıq demək, istiqlalçılıq deməkdir. Bir istiqlalçılıq ki, tarixin ən böyük müəssəsi (qurucusu) olan milliyyətin dövlət olmaq üzrə müzəffər yürüşü deməkdir. Azərbaycançılıq demək, böyük Türk irqinə mənsub bir millətin istiqlalını qazanmaq üzrə başlanmış şanlı bir mücadilədir. Azərbaycançılıq eyni zamanda, bir hürriyyət və mədəniyyət hərəkatıdır ki, onun ən bariz sifəti xalqçılıq və milli hakimiyyət əsasına bağlılıqdır".[841] Rəsulzadə Azərbaycan milli-demokratiyasının əhəmiyyətini, digər cərəyanlardan, xüsusilə "sosialistlər"dən fərqini də doğru izah etmişdi: ""Sosialistlər"lə bizim fərqimiz bundadır ki, onlar beynəlmiləlçidirlər, biz isə demokratik millətçi. Millətçi demokratlığın nə qədər camaata faydalı, zamanın tələbinə müvafiq olduğunu Qafqaz təcrübəsilə göstərərək, isbat edərək göstərə bilərəm ki, məsələn, gürcü sosial-demokratiyası camaata nicat vermək üçün nasional-demokratlıq üsulundan başqa bir çarə tapmadı".[842]

O, Azərbaycan Milli ideyası ilə yanaşı, Bütöv Azərbaycan ideyasının da müəllifi olmuşdur. Başqa sözlə, Rəsulzadə bir tərəfdən, azərbaycançılığın türkçülüklə, islamçılıqla, qafqazçılıqla bağlılığını daima qoryub salxamış, digər tərəfdən Bütöv Azərbaycan ideyasını bizlərə miras buraxmışdır.

Milli həmrəylik təliminə isə son dərəcədə inanması bir daha göstərir ki, o milli ideoloq kimi Azərbaycan Cümhuriyyətinin yalnız siyasi-hüquqi deyil, sosial-fəlsəfi və ideoloji anlamda da memarıdır. O, elə bir memardır ki, Rəsulzadə ideyaları əldə əsas tutularsa, milli dövlətimiz həm bütövləşmək, həm də əbədi yaşamaq gücünə qadirdir.

[841] Resulzade M.E. Şefibeycilik. İstanbul, 1934, s.68

[842] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) Parlament (stenoqrafik hesabatlar). I c. Bakı, "Azərbaycan" nəşriyyatı, 1998, s.260

# ƏLİMƏRDAN BƏY TOPÇUBAŞI

**Həyat və yaradıcılığı.** Azərbaycan Türk mütəfəkkiri Əlimərdan bəy Topçubaşı (1863/65-1934) Tiflisdə anadan olmuş, ilk təhsilini I Tiflis Gimnaziyasında alıb və Peterburq Universitetinin hüquq fakültəsini bitirmişdir. Topcubaşov iş fəaliyyətinə Tiflisdə hüquqşünas, vəkil kimi başlamış, Tiflis geodeziya məktəbində hüquqdan dərs demişdir. O, 1896-cı ildə Bakıya gələrək vəkillik məsləyinə davam etmiş, eyni zamanda "Kaspi" qəzetində çalışmış, 1898-ci ildə onun redaktoru təyin olunmuşdur.[843] 1905-ci ilin noyabrında H.Z.Tağıyevin rəhbərliyi ilə Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti təsis olunub ki, Topçubaşı onun İdarə heyətinin üzvü seçilmişdi.[844]

I Dövlət Dumasına millət vəkili seçilən Topçubaşı "Müsəlman fraksiyası"nın rəhbəri olmuş, Dumanın qısa bir zamandan sonra buraxılmasına etiraz edərək "Vıborq müraciətnaməsi"ni (1906-cı il iyulun 9-10) imzalamışdır.[845] Vıborq bəyannaməsinə imza atdığına görə bir müddət həbsxana həyatı yaşayan Topçubaşı 1905-1907-ci illərdə mövcud olmuş "Rusiya Müsəlmanları İttifaqı" Partiyasının sədri olmuşdur.[846]

1918-ci ilin dekabrında Azərbaycan Cümhuriyyəti Parlamentinin sədri seçilən Topçubaşı Versal sülh konfransnda iştirak etmək üçün Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi əvvəlcə Osmanlıya, oradan da Fransaya getmişdi. Məhz Topçubaşı və onun silahdaşlarının əməyi sayəsində də Müttəfiq dövlətlərin Ali Şurasının 1920-ci ilin yanvarın 11-də keçirilən iclasında Azərbaycan onlar tərəfindən de-fakto tanınmışdı. 27 aprel işğalından sonra Vətənə dönə bilməyən Topçubaşı milli istiqlal mübarizəsini Parisdə apar-

---

[843] Topçubaşov Əlimərdan bəy. "Kaspi"dən seçmələr.. Bakı, "Zərdabi LTD" MMC, 2018, s.18-22;Topçubaşov Əlimərdan bəy Azərbaycan mətbuatı səhifələrində. Bakı, Elm, 2005, s.6-7

[844]Topçubaşov Əlimərdan bəy Azərbaycan mətbuatı səhifələrində.Bakı,Elm,2005,s.43

[845] Devlet Nadir. Rusya Türklerinin milli mücadile tarihi (1905-1917). Ankara, TTK yayınları, 2014, s.149

[846] Topçubaşı Ə.M. Azərbaycan Cümhuriyyətinin yaradılması. Bakı, 2013. s.7-9

mış, Azərbaycan Milli Mərkəzinin aparıcı simalarından olmuşdur. O, 1934-cü ildə Parisdə Qafqaz Konfederasiyası aktına da Azərbaycan Milli Mərkəzi adından M.Ə.Rəsulzadə ilə birlikdə imza atmışdır. Topçubaşı 1934-cü ilin noyabrın 5-də Paris yaxınlığındakı Sen Klu şəhərində vəfat etmiş və burada da dəfn olunmuşdur.

Onun əsas əsərləri aşağıdakılardır:"Azərbaycan Cümhuriyyətinin yaradılması", "Azərbaycanın mayakı", "Memorandum" və b.

**İctimai-siyasi görüşləri.** XX əsrin əvvəllərində Quzey Azərbaycanda qərbçilikdən çıxış edən yeniləşmə tərəfdarları milli liberalistlər olmuşdur. Belə ki, bu dövrdə Ə.Ağaoğlu, Ə.Hüseynzadə və başqaları qərbçilik, avropalaşmaq ideyalarıyla milli-dini ideyaların müqayisəsi zamanı, üstünlüyü türkçülüyə və islamçılığa verirdilərsə, ancaq onlardan fərqli olaraq milli liberalizmin nümayəndəsi kimi Əlimərdan bəy daha çox liberal-demokratik mövqedən çıxış etmişdir. Deməli, Ə.Topçubaşı nə Ə.Ağaoğlu kimi "islam millətçiliyi"ni (Ağaoğlu 1920-1930-cu illərdə milli liberalizm mövqeyində dayanmışdır), nə də Ə.Hüseynzadə kimi "Osmanlı türkçülüyü"nü əsas ideya kimi qəbul etmişdir. Topçubaşı bu iki ideyanı ideallaşdırmaqdan yan qaçaraq, daha çox diqqəti liberal-demokratik dəyərlərə, o cümlədən Rusiya türklərinin birliyinə və onların milli-mədəni muxtariyyatına yönlətmişdir. Başqa sözlə, milli liberallar islamçılıqdan və türkçülükdən çox cəmiyyətin yeniləşməsi, Qərbin-Avropanın mütərəqqi mədəniyyətinin mənimsənilməsi məsələlərinə diqqət yetirmişlər. Ancaq milli liberallar islamçılıq və türkçülükdə ifrata varmadıqları kimi, qərbçilik və avropaçılıq məsələlərində də radikal mövqedən çıxış etməmişlər. Belə ki, milli liberallar türk-müsəlman xalqlarının siyasi-ideoloji mənada vahid "İslam birliyi" və "Türk birliyi"ni real hesab etməməklə yanaşı, birmənalı şəkildə Qərb mədəniyyətinin, Avropa dəyərlərinin müsəlman ölkələrində tətbiq olunmasını da qəbuledilməz saymışlar.

Milli liberalistlərin Azərbaycan milli azadlıq hərəkatında roluna toxunan M.Ə.Rəsulzadə yazırdı ki, Azərbaycan milli ideyası yaranana qədər, Azərbaycanda islamçılıqla ("İttihadi-İslam"la) yanaşı, ondan kənarda marksistlərə meyil göstərən radikal türk inqi-

labçıları (M.Ə.Rəsulzadə və b.) və kadetlərə rəğbət bəsləyən türk liberalistləri (Ə. Topçubaşı və b.) olmuşdur.[847] Rəsulzadə onu da qeyd edirdi ki, Rusiya türkləri arasında ilk dəfə milli-mədəni və mülki-hüquqi muxtariyyətdən çıxış edən də Ə.Topçubaşı olmuşdur.[848] Bu isə o deməkdir ki, H.Baykaranın da qeyd etdiyi kimi, həmin dövrdə "panislamist" Ə.Ağaoğlu geniş və dərin, teoretik şəkildə "islam millətçiliyi"ni, "pantürkist" Ə.Hüseynzadə turançılığı təbliğ etdiyi zaman, "milli liberalist" Ə.Topçubaşı "Rusiya müsəlmanlarının birliyi" devizi altında, daha çox Azərbaycan Türk xalqının milli-mədəni muxtariyyəti üçün çalışmışdır.[849]

Sovet ədəbiyyatında yazılır ki, "XIX əsrin axırlarında - XX əsrin əvvəllərində Azərbaycan burjuaziyasının hələ öz siyasi partiyası yox idi və yerli panislamistlər öz ideoloqları Əhmədbəy Ağayev və Əlimərdan bəy Topçubaşov başda olmaqla H.Z.Tağıyev tərəfindən alınan "Kaspi" qəzeti ətrafında toplaşıb, onun səhifələrində öz baxışlarını təbliğ edirdilər".[850] Bəs bu baxışlar nədən ibarət idi? Sovet ədəbiyyatı bunu "panislamizm" və "panturkizm" kimi qiymətləndirdiyi halda, türkçülüyün ideoloqlarından Ziya Gökalp tamamilə əksinə fikirləşirdi. Onun fikrincə, həmin dövrdə Ə.Topçubaşı və onun digər iki silahdaşı Ə.Ağaoğlu ilə Ə.Hüseynzadə mütərəqqi ruhlu islamılıq və türklük uğrunda çalışmışlar: "Bu vaxt (1905-1906-cı illər nəzərdə tutulur - F.Ə.) Hüseynzadə Əli bəy İstanbuldan və Ağaoğlu Əhməd bəy Parisdən Bakıya gəlmiş və orada fikir savaşı üçün əl-ələ vermişdilər. Topçubaşov da bunlara qoşuldu. Bu üç şəxs orada o zamana qədər hakim olan sünnilik və şiəlik anlaşılmazlıqlarını ortadan qaldıraraq türklük və islamlıq fikirləri ətrafında bütün azərbaycanlıları toplamağa çalışdılar".[851]

"Kaspi", "Həyat" və başqa qəzetlərdə Rusiya müsəlmanlarının hüquqlarını müdafiə edən Topçubaşının "Ümummilli haqq istəyi" layihəsində (1905) iştirakı da diqqəti cəlb edir. "Ümumi Milli

---

[847] Rəsulzadə M.Ə. Qafqaz türkləri. Bakı, Təknur, 2012, s.54-55
[848] Rəsulzadə M.Ə. Azərbaycanda Milli Hərəkat. Bakı, Elm, 2009, s.25
[849] Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.111-112
[850] Azərbaycan Kommunist Partiyasının oçerkləri. I cild, Bakı: Azərnəşr, 1986, s.40
[851] Gökalp Ziya. Türkçülüyün əsasları. Bakı: Maarif, 1991, s.29

haqq istəyi" adlı bu ərzi-halı Bakı Şəhər Dumasının qərarı ilə çar hökumətinin Nazirlər Kabinetinin sədrinə, I Rus inqilabından sonra bərpa olunmuş Qafqaz canişinliyinə seçilmiş nümayəndə heyəti vasitəsilə göndərmişdilər. Bu layihəyə görə, türklərə-müsəlmanlara da ruslarla eyni siyasi, mədəni, dini hüquq verilməli, onlara aid bütün məhdudiyyətlər aradan qaldırılmalıdır: "Rusiyada seçkilər əsasında təsis olunacaq qanunverici məclislərin, idarə müəssisələrinin hamısında azad şəkildə seçilmiş müsəlman nümayəndələri ruslarla eyni hüquqa malik olmalıdırlar; müsəlmanlara öz problemlərini həll etmək ixtiyarı verilməlidir".[852] Ərzi-halda qeyd olunurdu ki, çar Rusiyasında müsəlmanlara dair olan yanlış mülahizələr onların mədəniyyət və inkişafına bir sədd çəkib, Qafqaz müsəlmanlarının həyat və məişətlərinin hər cəhətinə şiddətlə tətbiq olunur: "Məhz müsəlmanlar haqqındakı dini mülahizələrin nəticəsidir ki, dövlətin mövcud qanunları ilə və ələlxüsus qərarnamələri və yeri gəldikcə verilən əmrləri ilə mülki və dini hüquqlarda müsəlmanlara məxsus sayılan istisnalar və məhrumiyyətlər vücuda gətirilimişdir. Bu növ mülahizələrdən irəli gələn təhlükə əvvəlcə müsəlman ünsürünü məmləkətin idarə olunmasında iştirakdan tamamilə məhrum etdi. Müsəlmanlar məmləkətdə əsgəri, mülki, ədliyyə, hər növ ali işlərindən uzaq salınmaqdan başqa, hətta adət üzrə kiçik işlərə belə qəbul olunmurlar".[853]

Ərzi halda daha sonra yazılırdı ki, ən güclü bir mədəni və inkişaf vasitəsi olan milli maarif yolunda əməldə müsəlman övladlarına qarşı sədd çəkilmişdir. Məktəblərdə tədris olunan təlim materialları və üsulları müsəlman uşaqlarının məktəbə nifərtinə bais olur, müxtəlif hiylələr səbəbindən ana dilini öyərənə bilmirlər. Üstəlik, 25 ildən çoxdur ki, bir xeyriyyə cəmiyyətinin təsis üçün icazə ala bilmirlər. Ona görə də, ərzi-halda Qafqazda yerli idarələrin yaradılması və onların müstəqil olması, Qafqaz müsəlmanları-

[852]Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.113
[853] Topçubaşov Əlimərdan bəy Azərbaycan mətbuatı səhifələrində. Bakı, Elm, 2005, s.25-26

nın şəxsiyyət və ərazi toxunulmazlığı, Türk dilində məktəblərin olması, fikir, söz, mətbuat azadlığı verilməsi tələb olunurdu.[854]

"Qafqaz canişinliyi" (1905) məqaləsində inqilabın başlanması ilə Qafqaz canişinliyinin bərpa edilməsinə etiraz olaraq Topçubaşı qeyd edirdi ki, azadlıq hərəkatında ömrünü başa vurmuş idarəetmə formalarına qayıdış ola bilməz. O, yazırdı: "Bizim şovinistlər qafqazlıların seperatizm, millətçi və sair meyillərini "urbi et orbi" kimi qələmə verərək imkan düşən kimi konsullara müraciət edərək Qafqaz diyarına xüsusi ciddi rejim tətbiq olunmasını tələb edirdilər… Qafqazda yaradılan canişinliyin məqsədinin bu cür "izah edilməsi, təbii ki, mədəni inkişaf yoluna yaxın vaxtlarda qədəm qoymuş diyarımızın taleyi barədə ciddi narahatlıqlar doğurmaya bilməzdi".[855] Ancaq o ümid edirdi ki, "Qafqazda canişinlik bizim diyarı təcrid etmək və dövlət quruluşu, dövlət qaydaları barədə sənədlərdən irəli gələn bütün nemətlərin Qafqaza şamil edilməməsi məqsədilə yaradılmamışdır. Əksinə, bu canişinlik bizim diyara imkan verəcəkdir ki, Rusiyanın daxili vilayətləri ilə müqayisədə heç bir məsələdə kənarda qalmayaq. Yeni idarə üsulu yalnız bu şərtlə diyarda tam əmin-amanlıq bərqərar olmasına, onun mənəvi, maarifçilik və ictimai tələbatının ödənilməsinə şərait yarada bilər".[856] O yazırdı ki, Qafqazın Rusiyanın daxili hissələri ilə bərabər hüquqlara malik olmasının ədalətli və zəruri olması göz qabağındadır: "Rusiyanın başqa yerlərində olduğu kimi, Qafqazda keçiriləcək islahatlarda yerli adamlar əlbəttə, çox xeyir verəcəklər və biz əminik ki, görülən işlərdə Qafqaz xalqlarının nümayəndələrinin səsi eşidiləcək, ona xüsusi diqqət yetirləcəkdir".[857]

O, başqa bir məqaləsində yazırdı ki, Rusiyanın digər xalqları kimi müsəlmanlar da azadlıq hərəkatına töhfə verəcəklər: "Doğrudur, ümumi şəkildə götürüldükdə müsəlman kütləri hələ çox geridə qalırlar. Müsəlmanlar uzun müddət təcrid şəraitində

---

[854] Yenə orada, s.31-32

[855]Topçubaşov Ə.M. Qafqaz canişinliyi // Hüseynov Şirməmməd. Mətbu irsimizdən səhifələr. Bakı, "Çənlibel", 2007, s.67

[856] Yenə orada, s.70

[857] Yenə orada, s.69

yaşayıblar. Lakin mülki və siyasi azadlıqların münbit başlanğıcı öz-özlüyündə o qədər həyati və canlıdır ki, xalq kütlələri onların timsalında böyük məktəb tapacaq. Layiqli mövcudluq üçün zəruri olan nemətlərin axtarışına çıxmaqda çox da ləngiməyəcək”.[858]

Topçubaşıya görə yeniləşmək, maariflənmək yolunda müsəlmanların dünyagörüşündə, dinində, eləcə də İslam şəriətində hansısa əngəlin mövcudluğu haqda söhbət gedə bilməz. Çünki İslam dini öz ehkamlarında sülh, xeyirxahlıq, məhəbbət və ədalətin böyük prinsiplərinə əsaslanır. O, yazırdı: “Yüksək humanizmə malik etik başlanğıc İslam dinində insanların birgəyaşayışının guşə daşını təşkil edir, hər bir müsəlman üçün onun gündəlik həyatına rəhbərlik səciyyəsi daşıyır. Dini və sosial vətəndaşlıq qaydalarının məcmusundan ibarət şəriət də həmin prinsiplərdən çıxış edir. Şəriətdə İslamın ardıcılları üçün yalnız dinin ehkamları ilə bağlı məsələlərə aydınlıq gətirilmir, mülki-hüquqi və sosial münasibətlərin tənzimlənməsi üçün də qaydalar ortaya qoyulur. Həm də onlar həyatın tələbi ilə daimi təkamül prosesində olurlar”.[859]

O, “Müsəlmanların dirçəliş erası” məqaləsində də yazırdı ki, İslam dini və onun qayda-qanunları müsəlmanların dirçəlişi və inkişafı yolunda heç bir zaman əngəl olmamışdır. Bu anlamda İslamda Orucluq mərasimini yüksək dəyərləndirən Topçubaşı yazırdı ki, Quranda Ramazan günlərinin hər bir möminin həyatındakı əhəmiyyəti barədə son dərəcə ülvi, poetik sözlərlə bəhs edilməsi təsadüfi deyildir: “Bu izahatda insanın mənəvi təbiətini üzə çıxaran dərin, etik məzmunlu fəlsəfə ehtiva olunur: onun yer üzündəki son dərəcə böyük missiyası haqda söhbət açılır. Bəşər övladının yalnız özünə deyil, çevrəsindəkilərə, bütün canlı varlıqlara, kainata münasibətdə müqayisəyə gəlməz dərəcədə böyük təyinatı və vəzifələri vardır. O, məhəbbətin, xeyirlə şərin mühüm prinsiplərinə əməl edirmi? İnsan Yer üzündəki müvəqqəti həyatında göylərdən nazil olan, bəşər övladının bütün əməllərinə

[858] Topçubaşov Əlimərdan bəy. “Kaspi”dən seçmələr. Bakı, “Zərdabi LTD” MMC, 2018, s.81-82
[859]Yenə orada, s.82-83

işıq salan, hər bir şüurlu varlıq üçün yolgöstərici ulduza çevrilən ilahi, səmavi mənşəli humanist prinsipləri əldə rəhbər tuturmu? Gündəlik həyat bitib-tükənmək bilməyən xırda qayğıları ilə insanın fikrini o qədər məşğul edir, bir-birini əvəzləyən hadisələrin girdabında o, özünü elə unudur ki, bəzən hərəkətləri haqda daxili hesabat verməyi, üzərinə qoyulan yüksək vəzifələrin icrası ilə bağlı fikirləşməyi yaddan çıxarır. Geriyə qayıdıb düşünmək, hər şeyi yoxlamaq üçün insana bir müddət maddi və bəzi mənəvi nemətlərdən imtina etmək lazımdır. Həmin müddətdə o, öz iç dünyasının dərinliklərinə dala, vicdanını sorğu-suala tuta və həmcinslərinə münasibətinin səmimilik dərəcəsini imtahan edə bilər. Bu, ruhun bədənlə, bütün yaramaz insan ehtiraslarının, vəhşi instinktlərin məhəbbət və həqiqətin böyük prinisipləri ilə savaşdır. Hər müsəlman özünü belə mübarizədə sınamalı, möhkəmləndirməli, bu yolla ruhun bədən üzərində qələbəsini təmin etməlidir. Belə daxili mübarizə həmişə xeyrin şərə, işığın qaranlığa zəfər çalmasına imkan yaradır".[860]

Onun İslam dininə, islamlığa baxışları əsasən siyasi-ideoloji deyil, mədəni-mənəvi xarakter daşımışdır. Yəni Topçubaşı İslamı siyasiləşdirməkdən uzaq duraraq, ona daha çox mənəvi-fəlsəfi yöndən yanaşmışdır: "Bütünlükdə həyata asketik münasibətə yad olan İslamın qazandığı bu tipli qələbələr insanı özünü təkmilləşdirməyə aparan yeganə həqiqi yoldur. Və o müsəlman xoşbəxtdir ki, bədənlə ruhun mübarizəsindən mənən qlaib çıxır, orucluq bayramını vu sözlərlə qarşılamaq haqqı qazanır: "Ramazan ayının otuz günü ərzində yalnız gündüzlər yeyib-içməkdən imtina ilə məhdudlaşmadım, həm də Yer üzündə məhəbbət və həqiqətin böyük qanunlarını pozmadan, kimsəyə pislik etmədən, əyri yollara baş vurmadan ailəm və cəmiyyət arasında həqiqi insan, həqiqi vətəndaş kimi yaşamağı mənə məsləhət görən vicdanım qarşısında hərəkətlərimi yoxlayıb özümü sınaqdan çıxardım"".[861]

---

[860]Yenə orada, s.85-86
[861]Yenə orada, s.86

Çar Rusiyasında sözün həqiqi mənasında, öz milli-dini və insani haqq və hüquqlarını dərk edən müsəlmanların, müsəlman türklərinin az olduğunu qeyd edən Topçubaşıya görə bunun səbəbkarları da polis-bürokratik rejim, "vətənpərvər missionerlər" olmuşlar. Beləliklə, müsəlmanlar onların, xüsusilə də "vətənpərvər missionerlər"in qəsdən yaratdıqları süni əngələrlə maarifin hər bəlaya əlac sayılan həyatverici nurundan salınmışlar. O, yazırdı: "Müsəlmanlar Rusiyada bütün başqa xalqlarla müqayisədə köhnə quruluşun yaramaz qaydalarına daha çox tab gətirməli, iztirab çəkməli olurdular. Bütün rütbə və dərəcələrdən olan qaragüruhçuların, insana nifrət ustalarının "qayğısı" sayəsində ictimai mühitin fəzasına bol-bol buraxılan antidini və antimilli zəhərlər ilk növbədə, onları nəfəs almağa qoymurdu".[862]

Topçubaşı yazırdı ki, bütün bunlara baxmayaraq 1. Rusiya inqilabından, 17 oktyabr manifestindən sonra müsəlmanlar üçün də əsl dirçəliş erası başlanmışdır: "İndi biz müsəlmanların qarşısında da 17 Oktyabr manifestinin yaratdığı geniş imkanlar sayəsində azad, mədəni cəmiyyətdə yaşamağa bağlı böyük fürsət və hərtərəfli fəaliyyət meydanı açılır. Doğrudur, önümüzdəki tarla hələ becərilməyib, hətta müsəlmanların ora ilk dəfə ayaq basdıqlarını söyləmək mümkündür. Amma heç nəyə baxmadan tarixi məqamdan yaralanmaq lazımdır. Bu, özünü yeni şəraitdə dirçəlməkdə olan rus cəmiyyətinin layiqli üzü kimi təsdiq baxımından da çox vacibdir. Belə fəaliyyət eyni zamanda, müsəlmanların hamının qoşulduğu azadlıq mübarizəsindən kənarda qalmadıqlarının göstəricisidir".[863]

Deməli, o, islamlığın, türklüyün çağdaşlıq ruhunu və mübarizə üsulunu doğru müəyyənləşdirməklə yanaşı, dövrün şəraitinə və şərtlərinə uyğun hərəkət etməyi də bacarırıdı. Bu anlamda 1905-ci ilin avqustunda Nijni-Novqorod yaxınlığındakı Oka çayı üzərində gəmidə keçirilən Rusiya Müsəlmanlarının 1. qurultayındakı çıxışı zamanı Ə.Topçubaşı islamlığın və türklüyün real

[862]Yenə orada, s.87
[863]Yenə orada, s.88

şərtlər altında nə cür öz ifadəsini tapa biləcəyi ilə bağlı doğru bir cizgi izləmişdi. O, yaxşı dərk etmişdir ki, hələlik şərtlər və şərait Türk xalqlarını müsəlmanlıq adı altında bir araya gətirilməsini zəruru etməkdədir: "Ey möminlər, ey qardaşlar, mən bu gün o qədər şad və məmnunam ki, bu sevinc və məmnuniyyətimi heç bir vəchlə ifadə edə bilmirəm. Mən heç vaxt bu günü unutmayacağam. Şübhəsiz, bu gün Ümumrusiya müsəlmanları üçün hər il bayrama çevriləcəkdir. Biz bir əsildən, bir nəsildən gələn, bir dinə iman gətirən türklərik. Məğribdən Məşriqə qədər bizim babalarımızn yurdu olub. Babalarımızın qəhrəman xalq olmasına baxmayaraq, bu gün Qafqaz dağlarında, Krım bağlarında, Kazan çöllərində, babalarımızın yurdunda, öz vətənimizdə, öz torpağımızda ehtiyac və tələbatımızı azad şəkildə müzakirə etməyə ixtiyarımız qalmadı. Lakin şükürlər olsun Allaha ki, bütün fitnə-fəsadlara və qəddarlıqlara baxmayaraq, biz bu gün sular üzərində könlümüzü bir-birimizə açmağın səadətini yaşayırıq, üz-üzə oturmuşuq, bir-birimizə qucaq açmışıq. Mən tamamilə əminəm, əgər gələcəkdə bizə sular üzərində danışmağa macal verməsələr, göylərə baş vurarıq, ulduzlar arasına yer bularıq və bu günü bayram edərik".[864]

Zənnimizcə, Topçubaşı bir tərəfdən islamlığın və türklüyün əsl həqiqi, çağdaş ruhlu mahiyyətini ifadə etməklə yanaşı, digər tərəfdən çox ustalıqla çar ideoloqlarının ruslaşdırma siyasətinin iç üzünü açıb göstərməyə çalışmışdır. O, xüsusilə də çarizmin müsəlman-türk xalqlarını hansı formada "maarifləndirmə"sini, "mədəniləşdirmə"sini yaxşı bildiyi üçün hər fürsətdə, çar ideoloqlarının ruslaşdırma siyasətini ifşa etmişdir. O, "Qafqaz müsəlmanlarının vəziyyətinə dair" məqaləsində yazırdı: "Əsrlər boyu ruslaşdırma siyasətinin uğurla həyata keçirilməsi üçün təqib və repressiya obyektinə çevrilmiş "yadelli və yad dinli" əhalisi, heç şübhəsiz, xalqa azadlıqlar verilməsi haqda çar manifestini razılıqla qarşılamalı idi. Həqiqətən də, onlar tarixi hadisəyə ürəkdən sevindilər... Çünki onilliklər boyu bu zülm altındaən çox onlar əzilməli, məhrumiyyətlərə qatlaşmalı olmuşdular. Hökumətin

[864]Rusiya Müsəlmanları İttifaqının 1-ci qurultayı.15.08.1905//TRMA,f.199, s.1, i.722

hansısa "yüksək siyasəti"nin tələbləri əsasında imperiyanın ögey övladlarına çevrilmişdilər".[865]

Topçubaşıya görə ruslaşdırma siyasətinin qurbanına çevrilən Qafqaz müsəlmanları üçün hazırda çıxış yolu "Güc birlikdədir!" prinispindən çıxş etməkdir ki, milli ictimai fəaliyyətin bu böyük çarxını hərəkətə gətirmək işi müsəlmanlar arasında son dərəcə çətindir. Buna başlıca səbəb isə hər hansı mütəşəkkil ictimai təşkilatın, yaxud ittifaqın olmamasıdır ki, sadəcə iki şəhərdə "xeyriyyə təşkilatları" vardır. Onun fikrincə, bundan çıxış yolu Qafqaz müsəlmanlarının, ümumilikdə Rusiya müsəlmanlarının qurultaylarının nəticəsi olaraq ciddi ictimai birliklər qurmaq lazımdır.[866]

Topçubaşı ruslaşdırma ilə yanaşı Avropa mərkəzçiliyi də tənqid etmişdi. O, hesab edirdi ki, Şərq xalqlarının məhvə məhkum olması, onların çağdaş sivilizasiyayla heç zaman ayaqlaşa bilməyəcəyi ilə bağlı avropalıların təsəvvürlərində möhkəm kök salmış fikirlər qəbuledilməzdir. O yazırdı ki, özlərini sivilizasiyanın qoynunda sayanların bu cəhdlər zəminində necə vəhşi instinktlər və böyük iştaha nümayiş etdirdikləri ortdaddır: "Bizdən ötrü ilk növbədə, belə bir cəhəti vurğulamaq vacibdir ki, fikirlərdə özünə möhkəm kök salmış baxışlar sisteminə görə, Şərq xalqları artıq tam məhvə məhkum topluluqlar kimi əsas prinisiplərini Avropa sivilizasiyasının hazırladığı mədəni birgəyaşayışa və müasir təsirlərə hər hansı reaksiya verməyə qabil deyillər. Və bunun ümumi səbəbi kimi (ən azı, müsəlman dövlətlərindəki ümumi səbəbi kimi!) guya məhdud teokratik ehkamları ilə hər cür mədəni inkişafın, əqli-mənəvi tərəqqinin qarşısını kəsən İslam dini göstərilirdi. Bu dövlətlər üçün ələlxüsus Qərbi Avropadakı mövcud xalq hakimiyyəti ideyası tam yabançı və qəbuledilməz şəkildə qələmə verilirdi. Doğuluşdan müti, itaətkar olan, qismət və qədərə inanan Şərq xalqlarının Yer üzünə yalnız despotik mütləqiyyət rejimlərinin hakimiyyətlərinə boyun əymək üçün gəldikləri hesab

---

[865] Topçubaşov Ə. b. "Kaspi"dən seçmələr. Bakı, "Zərdabi LTD" MMC, 2018, s.94
[866]Yenə orada, s.98

olunurdu".[867] Tobçubaşıya görə yalnız İslama nabələdlik böyük dini təlim yaradıcısının ruhu ilə tam ziddiyyət təşkil edən belə fikirlər doğura bilərdi. Çünki sadə xalq dini olan İslam hələ ilk xəlifələrin zamanından seçkili əsasda formalaşmış və inkişaf etmişdi. Topçubaşı yazırdı ki, İslam dini müsəlman cəmiyyətlərinin həyati tələblərinə cavab verdiyindən ictimai hüququn bütün məsələlərini və onlar üzərindəki nəzarət hüququnu ümumun müzakirəsinə çıxarmaq niyyətini bəyan etmişdir: "İctimai əmlaka nəzarət, yoxsullara və kimsəsizlərə qayğı, ədalət mühakiməsinin qurulması – islamın bütün bu tələbləri xalq hakimiyyəti ilə bağlı təsəvvürlərdən irəli gəlirdi. Bu səbəbədən də heç bir vəchlə İslam dini təlimində xalq hakimiyyəti anlayışı ilə ziddiyyət təşkil edən məqamlar axtarmaq və görmək düzgün deyil. Bir dini təlim kimi İslam deyil, Şərq dövlətləri, daha doğrusu, onların hakimiyyətləri despotik idarəçiliyin tələblərindən doğan amansız, ədalətsiz qaydalar müəyyən edib ki, bu da mahiyyət etibarilə İslamın humanist tələblərinin pozulmasına səbəb olur".[868] Beləliklə, Topçubaşı hesab edirdi ki, İslam Şərqi dövlətlərinin probemləri İslam dini deyil, onun despotik hakimyyətləri ilə bağlıdır. O, ümid edirdi ki, müsəlman Şərqi xalqları da artıq despotik hakimiyyətlərə qarşı ciddi şəkildə ayaqlanmaqdadır.

Bizcə, milli-dini və insani haqq-hüquqlar məsələlərində doğru bir yol izlədiyi üçün 1-ci Dövlət Dumasında "Müsəlman fraksiyası"nın rəhbərliyinə gətirilmiş Ə.Topçubaşının "Rusiya Müsəlmanları İttifaqı" Partiyasının (Bu qurumun "Rusiya Müsəlmanları İttifaqı" adlanması, o zaman Türk ellərinə ortaq adın tapılmaması ilə bağlı olmuş və məcburiyyətdən "müsəlman" anlayışına müraciət edilmişdir) quruluşundan etibarən lider kimi qəbul edilməsi, bu siyasi təşkilatın nizamnaməsini, proqramını şəxsən hazırlaması təsadüfi olmamışdır. Onun tərəfindən hazırlanan proqramda məhkəmə, siyasi məqsədlər, fəhlə məsələləri, məhəlli muxtariyyət, dini qaydalar, maliyyə işləri, dövlət quruluşu öz əksini

[867]Yenə orada, s.102
[868]Yenə orada, s.102-103

tapmışdır. Bu qurumun proqramı ilə bağlı qəzetlərə verdiyi müsahibəsində Partiyanın lideri, sədri Topçubaşı deyirdi ki, ümumi şəkildə tərtib olunmuş bir proqramdır: "Onun müfəssələn tədqiq və təbdil etməyə hacət yoxdur. Alınız, məsələn, Duma və siyasi firqələr xüsusunda göstərilmiş olan maddələrin axrımcısını. Burada meydana bir şey gəlir ki, o da müsəlmanların mövcud olan siyasi firqələrdən birisi ilə birləşib və yaxud birləşməyib də özlərindən əlahiddə bir firqə təşkil etməsi məsələsidir. Bu böyük və müşkül məsələdir... Mürəxxislərin ən böyük hissəsi müstəqil milli müsəlman "əsas qanuni firqəsi" (yəni konstitusionnı-narodnı) təşkil etmək tərəfdarıdır. Nijni Novqorodda Məclisi-İslamiyyədə qəbul olunub da qətnamə sifətini caiz olan və mənim tərəfimdən yazılan proqram hazırdır".[869]

Ə.Topçubaşının hazırladığı və qurultaya tədqim etdiyi bu proqramda açıq şəkildə yazılırdı ki, "İttifaq"ın siyasi məqsədi Rusiya müsəlmanlarını əməli işdə birləşdirməkdir. Rusiyanın dövlət quruluşunu Konstitusiyalı monraxiya kimi görmək istəyən Topçubaşı yazır ki, bu idarə üsulunda vəkillər monarxa nəzarət edərlər. Xalq vəkilləri isə, bir məclis – Dövlət Duması olmaqla, ümumi, gizli, bərabərlik prinsipi ilə seçiləcək, müsəlmanların vəkilləri əhalinin ümumi sayına mütənasib olacaqdır.[870]

Əhalinin sayına və ərazinin böyüklüyünə görə fərqlənən millətlərə məhəlli muxtariyyət verilməsi müddəasını irəli sürən Ə.Topçubaşı proqramın 34-35-ci maddələrində qeyd edir ki, vilayətə aid məsələlərin hamısı məhəlli muxtariyyət idarələrinin səlahiyyətlərinə görə, vilayət məclislərində müzakirə edildikdən sonra dövlətin icraiyyə orqanları tərəfindən həyata keçirilməlidir. Vilayətdə hər hansı bir millət çoxluq təşkil edərsə bu vilayətin idarələrində həmin millətin dili ümumi dil olmalıdır. Rus dili isə ümumdövlət dili olmaq şərtilə mərkəzi idarələrdə, dəniz və quru qoşunlarında işlədilməlidir. Proqramın 36-cı maddəsində isə Topçubaşı yazır: "Bütün

---

[869] Topçubaşov Əlimərdan bəy Azərbaycan mətbuatı səhifələrində. Bakı, Elm, 2005, s.49-50

[870]Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.150

xalqlar mədəni, siyasi hüquq baxımından bərabər olmaqla yanaşı, dövlətin əsas qanunları xalqların hamısını mədəni hüquqlarla təmin etməlidir, yəni hər dildə və hər məhəlli dialektdə danışmaq, məktəb, mədrəsələr inşa etmək, uşaqları tərbiyə etmək, dil və ədəbiyyat cəmiyyətləri, müəssisələri yaratmaq xüsuslarında millətlərin hər birinə tam azadlıq verilir”.[871]

İ.Qaspıralı, Yusif Akçura bu maddələrin Rusiyada icrasının mümkünsüz olduğunu, hətta ən hürriyyətli İngiltərə dövlətində belə bu qədər geniş muxtariyyatın (avtonomiyanın) olmadığını ifadə ediblər. Topçubaşı onlara cavab olaraq deyib ki, bu üç maddədə avtonomiyadan söhbət getmir; bu maddələrdən məqsəd məhəlli işlərin məhəlli idarədə aparılmasıdır.[872]

Topçubaşı tərəfindən hazırlanan bu proqram daha çox Rusiya türklərinin maraqlarına uyğun olaraq milli-demokratik səciyyə daşımış, islamçılıq düşüncələri burada çox az yer tapmışdır. Baykaraya görə buna səbəb Ə.Topçubaşının Ə.Ağaoğlu ilə müqayisədə islamçılıq ideyasına çox bağlı olmaması idi: “Ə.Topçubaşovda Ə.Ağayevin geniş və dərin teosentrik panislamizmi yox idi. Sanki o, belə bir ideyanın müvəffəqiyyətlə başa çatmayacağını qabaqcadan hiss etmiş və anlamışdı. Bu məqsədlə o, 1905-ci il inqilabının gətirdiyi azadlıq nemətlərindən Azərbaycan xalqı üçün əlindən gələn qədər daha çox pay qoparmaq istəyirdi”.[873] H.Baykaranın fikrincə, bu baxımdan Topçubaşı “İslam birliyi” kimi “utopik axınların heç birində iştirak etməmişdir. Dərin biliklə hüquqşünas və siyasətçi olan Əlimərdan bəy həyatı boyu realist və uzaqgörən bir şəxs kimi tanınmışdır. “Rusiya Müsəlmanları İttifaqı” türklərin tarixində ilk dəfə birlik fikrini irəli sürmüşdür”.[874]

Bu baxımdan H.Baykaranın o mülahizəsi ilə razılaşa bilmərik ki, Topçubaşı ümumiyyətlə, “İslam birliyi”, “Türk birliyi” kimi “utopik axınlar”ında iştirak etməmişdir. Sadəcə, Topçubaşı Ağaoğ-

---

[871] Yenə orada, s.52
[872] Yenə orada, s.53
[873] Yenə orada, s.112
[874] Yenə orada, s.160

lu və Hüseynzadə ilə müqayisədə daha çox realist mövqedən çıxış etmişdir. Bir sözlə, Topçubaşının bu dövrdə əslində iki əsas məqsədi: 1) müsəlmanlar arasında məzhəb ayrılığına son qoyub mənəvi-ideoloji anlamda İslam birliyinə nail olmaq, 2) Rusiya müsəlmanlarının-türklərinin milli-mədəni muxtariyyətini əldə etmək, var idi. Bu da, Azərbaycan Cümhuriyyətinin qurucusu, filosof-mütəfəkkir Məhəmməd Əmin Rəsulzadənin təbrincə desək, liberal-demokratizmə əsaslanan milli realist baxış idi. M.Ə.Rəsulzadə yazırdı ki, XX əsrin əvvəllərində Rusiya müsəlmanlarının həyatında əsas rolu Azərbaycan Türk nümayəndələri oynamışdır: "Rusiya müsəlmanlarının siyasi cəhdlərini formalaşdıran iki tarixi fakt Rusiya müsəlmanlarının siyasi həyatının inkişafında iki mühüm məqamı müəyyənləşdirir: bunlardan birincisi 1905-ci ildə çağırılmış Nijni Novqorod qurultayı, ikincisi isə 1917-ci il Moskva qurultayıdır. Taktiki cəhətdən rus liberalizmi ilə əməkdaşlıq şüarı altında keçən Nijni Novqorod qurultayı siyasi baxımdan milli-mədəni və mülki-hüquqi xarakterli tələblərlə məhdudlaşırdı. Moskva qurultayı isə Rusiyanın muxtar milli-ərazi vahidlərinə bölünməsi tələb olunan qətnamə qəbul etmişdi. Həm birinci, həm də ikinci qurultayda siyasi formulirovkaları Azərbaycan nümayəndələri (birincisində – ilk Dövlət Duması Müsəlman fraksiyasının sədri Ə.M.b.Topçubaşı, ikincisində – Azərbaycan milli-demokrat Müsavat Partiyasının sədri M.Ə.Rəsuzladə) irəli sürmüşdülər".[875]

Y.Akçuranın fikrincə də, 1905-1907-ci illərdən etibarən Quzey və Qafqaz türkləri arasında məzhəbçi və qəbiləvi fərqlər azalaraq milli birlik fikrinə dayalı ciddi bir "milli şüur" formalaşmağa başlamış və bu məsələdə ən mühüm rollardan birini Topçubaşı oynamışdır. O, yazırdı: "1905-1907-ci il hərəkatları, zahirən Rusiya müsəlmanları birliyi adı altında yürüdülmüşdürsə də, həqiqətdə bu milli bir hərəkat idi. Rusiyada türkləri, məzhəb baxımından ikiyə, sünni və şiə qisimlərinə ayıran ixtilafın qaldırılmasına da bu zəmanə ciddi surətdə çalışılmışdır. Bütün Rusiya müsəlmanlarının III konqresində, qəbul olunan qərarlardan biri də bu idi: "Müxtəlif

---

[875] Rəsulzadə M.Ə. Azərbaycanda Milli Hərəkat. Bakı: "Elm", 2009, s.25

məzhəblər arasındakı fərqlər önəmli deyildir. Bu fərqlər Rusiya müsəlmanlarının ruhani işləri üçün ümumi bir müəssisənin vücuduna dini baxımdan bir maneə törədə bilməz". Bu qərarı şiə məzhəbindən olan azərbaycanlı Əli Mərdan bəy Topçubaşoğlu təklif etmiş, üzvləri arasında bir çox sünni və şiə ruhanilər olan konqres isə bu təklifi "sünilik, şiəlik yoxdur, Yetsin ixtilaf!" sədaları ilə və dəqiqələrcə sürən alqışlarla, səs birliyi ilə qəbul etmişdir".[876]

Beləliklə, Akçuranın təbrincə desək, ruslaşdırmaya və farslaşdırmaya qarşı dayanmaq, məzhəb ayrılığına son qoyaraq düşmənlərinə fürsət verməmək baxımından Ə.Topçubaşı Ə. Ə.Ağaoğlu, Ə.Hüseynzadə və başqaları kimi, Rusiya türklərində, o cümlədən də Qafqaz türklüyündə birliyin yaranmasına çalışmışdır.[877] Azərbaycan türkçülüyünün siyasi-ideoloji tarixini yazan müəlliflərdən biri kimi Mirzə Bala Məmmədzadə də hesab edir ki, milli liberallar dini-ruhani idarə birliyi və "Rusiya Müsəlmanlarını İttifaqı" bayrağı altında millətçi bir proqramın tətbiqinə girişmişdi.[878]

M.Ə.Rəsulzadə, H.Baykara, Y.Akçura, M.B.Məhəmmədzadənin mülahizələri də təsdiq edir ki, Topçubaşı "İttifaq"ın timsalında Rusiya türklərinin həm dini, həm də milli birliyinin yaranmasına inanmış və türk-müsəlman "ittifaqçı"larının bir araya gəlməsini bayram kimi qəbul etmişdir. Bunu, Topçubaşovun 1906-cı ilin avqustunda "İttifaq"ın Nijni-Novqorodda Oka çayı üzərində keçirilən üçüncü qurultayındakı çıxışı da göstərir: "Hər bir müsəlman öz xalqının xoşbəxtliyini arzulayır, bu gündən etibarən məzhəb ayrılıqları yoxdur və olmayacaq, artıq nə sünni var, nə şiə, nə hənəfilik və digərləri, ona görə də bu məzhəb ayrılıqları Rusiya müsəlmanlarının dini işlərinin idarə olunması üçün ümumi müəssisələr yaradılması baxımından maneə sayıla bilməz".[879] Eyni zamanda, o, yazırdı ki, sünnilik və şiəlik arasında fərqlərin öz əhəmiyyətini itirdiyi bir vaxtda irançıların öz çirkin əməllərindən əl çəkməməsi təsadüfi de-

---

[876]Akçura Yusif. Türkçülüyün tarixi. Bakı, Qanun, 2010, s.200
[877] Yenə orada, s.228
[878]Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992, s.27
[879] Topçubaşı Ə.B. Rusiyada müsəlman qurultayları. // Arcive d'Ali Mardan-bey Toptcıbashi, carton n 7. CERCEC, EHESS, Paris, p.17

yildir: "Qabaqcıl İslam üləmalarının fikrincə, hazırda sünnilik və şiəlik arasında fərq öz əhmiyyətini itimiş və sırf siyasi xarakter daşıyır. Bu, islama zərdüştilikdən çox şey gətirmiş iranlıların dumanlı fantaziyalarının şişirtməsidir. Buradan nəticə çıxarmaq olar ki, dini nöqteyi-nəzərdən Rusiya müsəlmanlarının bir ümumi ali ruhani idarəsinin yaranmasına maneəçilik ola bilməz".[880]

Deməli, Topçubaşının əsas amallarından biri məzhəbiliyə son qoymaq anlamında "İslam birliyi"nə nail olmaq idi. O, yazırdı ki, əlində imkan olsaydı bütün məzhəbləri aradan qaldırıb yalnız müsəlman anlayışını saxlayardı. Onun fikrincə, həmin dövrdə Zaqafqaziya şeyxülislamı Əbdüssalam Axundzadənin də eyni fikridə olması məzhəbçiliyə son qoymaq üçün mühüm bir amil idi. Ona görə ən azından Rusiya müsəlmanları arasında məzhəbçiliyə son qoyulub dini birlik yaranmasa, türk-müsəlman xalqlarının gələcək vəziyyəti daha da ağır olacaqdır.[881] Topçubaşı bunun belə olmaması üçün, ən yaxşı variant kimi Rusiya müsəlmanlarının vahid Ali ruhani idarəsinin yaradılmasını təklif etmişdir. O, yazırdı ki, vahid Ali ruhani idarənin yaradılmasında məqsəd məzhəbləri tamamilə ləğv etmək deyil, onların həmrəyliyinə nail olmaqdır. Bu məsələ ilə bağlı Cəmil Həsənli yazır: "Əlimərdan bəy bütün məzhəblərin və İslam təriqətlərinin mərkəzinə Qurani-Kərimin qoyulmasını, vahid ruhani müəssisənin məhz bütün məzhəb ayrılıqlarından yüksəkdə dayanan Quran prinsipləri əsasında qurulması, islam həmrəyliyinə bilavasitə müsəlmanların Müqəddəs Kitabı vasitəsilə nail olmağı zəruri hesab edirdi. Bu dövrdə Əlimərdan bəyin müsəlman ruhani idarəsinin yenidən qurulması ilə bağlı hazırladığı sənədlər onun qanun yaradıcılığının ən parlaq səhifələrindən biridir...".[882]

Bütün bunlar bir daha təsdiq edir ki, Topçubaşı türkçülüyü (Türk birliyini) və islamçılığı (İslam birliyini) siyasi cəhətdən ideallaşdırmaqdansa, ilk növbədə konkret olaraq Rusiya ərazisində

---

880 Ə.B.Topçubaşovun S.G.Ganturinə məktubu.26.04.1908//ARDA,f.3172,s.1,i.6,v.27
881 Yenə orada, ARDA, f.3172, s.1, i.6, v.29-30
882 Cəmil Həsənli. Tarixi şəxsiyyətin tarixi: Əlimərdanbəy Topçubaşov. Azərbaycan Diplomatik Akademiyası, Bakı, 2013, s.185

məhkum həyat yaşayan müsəlman türklərinin milli və dini birliyini vacib saymışdır. O, bu zaman reallıqlardan çıxış edərək Rusiya türklərinin müəyyən milli-mədəni, mülki-hüquqi muxtariyyət kimi azadlıqlara sahib olmasına çalışmışdır. Bu baxımdan Baykara doğru yazırdı ki, Topçubaşının rəhbəri olduğu "Rusiya Müsəlmanları İttifaqı" partiyası əsarətdə yaşayan türklərin liberal-demokratik burjua hərəkatı idi.[883]

Bizcə, həmin dövrdə milli ideyaya yaxınlığı baxımından islamçılıq və marksizmlə müqayisədə, türkçülük (Ə.Hüseynzadə və b.) və milli liberalizm (Ə.Topçubaşı və b.) ideyaları Azərbaycan türkçülüyü ideyasına-milli azərbaycançılığa nisbətən daha yaxın olublar. Hər halda, Ə.Topçubaşı çar Rusiyasının əsarəti altında olan Türk xalqlarının, o cümlədən Azərbaycan türklərinin məzhəbçiliyi aradan qaldırıb dini birliyə, eyni zamanda milli-mədəni muxtariyyət, hüquq və azadlıqlar əldə etməsinə səy göstərmişdir. Cəmil Həsənli yazır: "Rusiyanın müsəlman xalqlarının inkişafı, onların imperiyanın hakim xalqı ilə eyni hüquqa malik olmasına nail olmaq üçün o (Ə.Topçubaşı-F.Ə.), daim axtarışda idi. İmperiyanın müsəlman əhalisinin qabaqcıl nümayəndələri belə hesab edirdilər ki, Rusiya əhalisinin yeddidə bir hissəsini təşkil edən 20 milyonluq müsəlman toplumu "velikorus və maloruslardan" sonra ən böyük toplum olaraq siyasi əhəmiyyət kəsb etdiyindən, ən azı ölkə daxilində öz müqəddəratını təyin etmək haqqına sahib olmalı idi. Müsəlmanların tərəqqisini Əlimərdan bəy Türk xalqları arasında milli ideyanın güclənməsi və islamda məzhəb ayrılığının aradan qalxmasında görürdü".[884] Əlbəttə, bu dövrdə müsəlman ruhani idarəsinin təşkilindən əlavə yuxarıda da toxunduğumuz kimi, Topçubaşını düşündürən digər mühüm məsələlər arasında müsəlmanların xalq təhsili, Qafqazda zemstvoların tətbiqi və Cənubi Qafqazda torpaq problemi də var idi.

---

883 Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.157-158
884 Cəmil Həsənli. Tarixi şəxsiyyətin tarixi: Əlimərdanbəy Topçubaşov. Azərbaycan Diplomatik Akademiyası, Bakı, 2013, s.180

Topçubaşının 1900-cü illərdə irəli sürdüyü milli-mədəni, mülki-hüquqi muxtariyyətin davamı olaraq 1910-cu iilərdə milli-məhəli muxtariyyət ideyası gündəmə gəlmişdir. Milli-məhəlli muxtariyyət ideyasına əsaslanan Azərbaycan türkçülüyü ideyasının yaranmasında isə 1910-cu illərdə dünyada və Qafqazda baş verən mühüm hadisələr (Balkan müharibəsi, 1-ci Dünya müharibəsi, 2-ci Rus burjua inqilabı və s.) və bir sıra digər amillər (milli özünüdərk, inqilabi ideyaların güclənməsi, çar Rusiyasını əsarəti altında olan müxtəlif xalqların azadlıq hərəkatı və s.) mühüm rol oynamışdı. Məhz bu tarixi olayların və milli azadlıq hərəkatlarının təsiri altında Azərbaycandakı milli ruhlu islamçılar-türkçülər, liberallar və inqilabçılar vahid əqidə ətrafında birləşərək milli və müstəqil taktika yürütməyə başlamışlar. Bu dövrdəki hadisələrin gedişi isə ideya baxımdan milli liberalların və türkçülərin, taktika baxımından isə milli inqilabçıların (marksistlərin) düzgün yol tutduğunu təsdiq etmişdi. M.B.Məmmədzadə yazır: "“İttiifaqçılar”ın liberal millətçilik taktikası məğlubiyyətə uğramışdı. Hadisələr inqilabçı millətçilərə haqq verirdi. Türklər milli haqlarını, milli varlıqlarını savaşda qazana biləcəklərdi. İnqilabi taktikanı seçən millətçilər ideoloji baxımdan ittifaqçıların milli məsələdəki ideologiyasından fərqli bir ideologiya izləmirdilər. Onlar inanırdılar ki, çarizm yıxılmadıqca, türklər digər əsir millətlərlə birlikdə siyasi haqq və hürriyyətə malik olmadıqca bu proqramın tətbiqi qeyri-mümkündür".[885]

Ə.Topçubaşı hələ, ilk vaxtlardan daha çox Rusiya müsəlmanlarının milli-mədəni muxtariyyəti və digər azadlıqları uğrunda mübarizə apardığı üçün, 1910-cu illərdə də daha çox bu istiqamətdə fəaliyyətini davam etdirmişdir. Belə ki, 1914-cü ilin iyun ayında keçirilən Rusiya müsəlmanlarının 4-cü qurultayında iştirak edən Ə.Topçubaşı "Müsəlman ruhani təhsil müəssisəsi – mədrəsələrin yaradılmasının əsas məsələləri" adlı sənəd hazırlamış və bu sənəd qurultayın gedişində müzakirəyə təqdim edilmişdir. "Orada məzhəb fərqlərindən asılı olmayaraq diyarda vahid mədrəsə sisteminin yaradılması nəzərdə tutulurdu. Sənəddə bu mədrəsələrin harada

[885]Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992, s.36

açılması və Şimali Qafqazın bura daxil edilib-edilməməsi açıq saxlanılırdı... Bu sənədlə yanaşı Əlimərdan bəy uzun müddət üzərində işlədiyi müsəlman seminariyasının təxmini proqramını da təkmilləşdirib müzakirəyə təqdim etmişdi... Əlimərdan bəyin qurultayın müzakirəsinə təqdim etdiyi ikinci mükəmməl sənəd "Rusiya imperiyası müsəlmanlarının dini işlərinin idarə edilməsi haqqında əsasnamə" layihəsi idi. Bu layihə bir hüquqşünas kimi Əlimərdan bəyin çoxillik zəhmətinin nəticəsi idi. Layihədən məlum olur ki, o, İslam dini, onun tarixi, şəriət qaydaları, müsəlman hüququ haqqında geniş bilgiyə malik olmuşdur".[886] Doğrudan da, həmin qurultaydakı yekun sözündə Topçubaşı Çarlığın islamlığa və türklüyə olan qəddar siyasətinin iç üzünü bir daha açıb göstərmişdir. O, deyirdi ki, onsuz da müsəlman xalqlarının problemi hər kəsə, o cümlədən də rus hökumətinə bəllidir. Ancaq rus hökuməti bu problemləri həll etmək əvəzinə daima müsəlmanlara, o cümlədən müsəlman türklərə etimadsızlıq göstərmiş, biganə münasibət bəsləmişdir. Onun fikrincə, rus hökumətinin onlara bu cür münasibət bəsləmələrinin başlıca səbəbi müsəlman və türk olmalarıdır.[887]

1917-ci il fevralında gerçəkləşən ikinci Rusiya burjua inqilabından sonra yaranan Bakı Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsinin rəhbərlərindən biri olan Ə.Topçubaşı "Cənubi Qafqazın müsəlman əhalisinin dini işlərinin qurulması və idarə edilməsinin vacib məsələləri" adlı sənəd hazırlamışdır. Bu sənəddə göstərilirdi ki, müsəlmanların dini, maarif və idarəçilik orqanları təcili olaraq qaydaya salınmalı, onların seçki əsasında kollegial orqanlara çevrilməsi həyata keçirilməli, vəqf mülkiyyəti quberniya və şəhərlərin müsəlman əhalisinin ixtiyarına verilməli, onlar bu mülkiyyəti idarə etmək üçün on iki nəfər yerli müsəlman nümayəndədən ibarət komissiyalar təsis etməlidirlər. "Xalqın etimadını qazanmaq üçün Əlimərdan bəy belə hesab edirdi ki, müəyyən müddətə bütün dini vəzifələr – ruhani idarəsinin sədri və məclisi, o cümlə-

---

[886] Cəmil Həsənli. Tarixi şəxsiyyətin tarixi: Əlimərdanbəy Topçubaşov. Azərbaycan Diplomatik Akademiyası, Bakı, 2013, s.223
[887] Yenə orada, s.225-226

dən şeyxülislam, müfti, qazı, molla, əfəndi və sair seçki əsasında formalaşdırılmalı, mənəvi keyfiyyətləri və təhsil səviyyəsi nəzərə alınmadan köhnə hökumət tərəfindən təyin edilmiş bütün ruhani şəxslər tutduqları vəzifələrdən kənarlaşdırılmalıdırlar”.[888]

Qafqaz Müsəlmanlarının 1917-ci ilin aprelində Bakıda keçirilən 1-ci qurultayında fəal iştirak edən Topçubaşı buradakı çıxışlarında Çarlığın “parçala və hökm sür” siyasəti və bunun Rusiyası müsəlmanalrına olan mənfi təzahürlərindən bəhs etmişdir: “Qafqaz müsəlmanlarının bugünkü qurultayı ötən yüz il ərzində birinci xalq qurultayıdır ki, burada Qafqaz müsəlmanlarının azad sözü eşidiləcək. Bu qurultay gərək Qafqazın keçmiş tarixi əzəmətini bərpa etsin. Keşmiş rus hökumətinin Rusiyada məskulaşmış rus olmayan xalqlara qarşı yeritdiyi siyasət ayrı-seçkilik və onları bir-birinə qarşı qoymaq siyasəti idi. Yaxın keçmişdə azərbaycanlılar və ermənilər arasındakı qarşıdurmanı ancaq insanlığa zidd olan düşməncəsinə bir siyasətlə izah edə bilərik. Əgər müsəlmanlar və onların ardınca Qafqazın digər bütün xalqları həqiqətən azadlıq və yeniləşmə yolu ilə getmək istəyirlərsə, onda onlar Məclisi-Müəssisana ortaq arzu və ideallarla birlikdə getməlidirlər”.[889]

Topçubaşı həmin ilin mayında Moskvada keçirilən Rusiya Müsəlmanlarının qurultayında da iştirak etmişdir. O, qurultayda çıxış edərək Çar Rusiyasının indiyə qədər müsəlman xalqlara qarşı yanlış və qəddar siyasət yürütdüyünü bildirmişdir: “Bu vaxta qədər belə təsəvvür edilirdi ki, müsəlmanlara molla ilə məscid ver, onlar bundan artıq bir şey istəməzlər. Lakin indi belə deyildir. “Müsəlman” ifadəsi din məfhumunu anlatsa da, təcrübə və mənaca millət məfhumuna malik olmuşdur. Müsəlmanlar “müsəlman” adına tələb etdikləri maddələrdə milli tələblərini istəmiş olurlar. Əlbəttə ki, muxtariyyət məsələsini Müəssislər Məclisi həll edəcəkdir. Lakin hökumət indidən bilməlidir ki, müsəlmanlar din və millət işlərinə aid məsələlərdə muxtar olmalıdırlar, özləri öz müqəddəratlarını həll etməlidirlər. Qoy hökumət əlimizdən alınan vəqf yerlərini qaytar-

---

[888] Yenə orada, s.239
[889] “Kaspi” qəzeti, 1917-ci il, 18 aprel

sın. O zaman biz milli məktəb və ehtiyaclarımızı özümüz təmin edə bilərik. Biz, şübhəsiz ki, Müəssisələr Məclisini gözləyəcəyik. Fəqət oraya öz muxtariyyətimizi tələb etmək üçün hazırlaşıb gedəcəyik”. [890] Topçubaşıya görə Bakıda keçirilən Qafqaz müsəlmanlarının 1-ci qurultayında sünni və şiə məzhəbləri arasında bütün problemlər aradan qaldırılmışdı. Onun fikrincə, məzhəb ayrı-seçkiliyi düşüncəsi Rusiya müsəlmanları, bütövlükdə İslam dünyasında da birdəfəlik aradan qaldırılmalıdır.

Bizcə, o, Rusiya müsəlmanları arasında vaxtilə tutduğu mühüm mövqeyinin nəticəsi olaraq 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Cümhuriyyətinin parlament sədri seçilmişdi. O, Azərbaycan Cümhuriyyətini dünya dövlətlərinə tanıtmaq üçün parlament sədri, eyni zamanda Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi əvvəlcə Osmanlıya, oradan da Fransaya getmişdi. Hələ, 1918-ci ilin sentyabrında İstanbula gələn Əlimərdan bəy Topçubaşı Azərbaycanın mövcudluğu, əhalisinin sayı, tərkibi, hazırkı durumu, milli müstəqilliyini elan etməsi ilə bağlı memorandumu müxtəlif dövlətlərin buradakı nümayəndələrinə təqdim etmişdi.[891]

Həmin memorandum əsasında 1919-cu ildə qələmə aldığı “Azərbaycan Cümhuriyyətinin yaradılması” əsərində Topçubaşı qafqazçılıq ideyasını dəstəklədiyini də ifadə etmişdir. O, yazırdı ki, Güney Qafqazın üç ulusu (türklər, gürcülər və ermənilər) İsveçrə Respublikasında olduğu kimi konfederasiya əsasına dayanan ortaq bir siyasi yaşama ortaya qoya bilər: “Konfederasiya quruluşu düşüncəsi Güney Qafqazda olduqca geniş yayılmışdır. Bu düşüncə 1918-ci il aprelin 9-da bütün Güney Qafqazın bağımsızlığının bildirilməsi, ölkədə bir yönətim yaratmış Ağalığın yaradılması ilə sözdən işə keçdi. Bu baxış indi də yaşamaqda olub, istəyənləri arasında ermənilərin, gürcülərin, azərbaycanlıların orta-liberalları, ulusalçı partiyaları ilə yanaşı Güney Qafqazın bütün ellərinin birləşmək istəyən sosial-demokrat partiyaları da bulunmaqdadır”.[892]

[890] “Açıq söz” qəzeti, 1917-ci il, 23 may
[891] Topçibaşev E.M. Memorandum. Baku: Azerbaydjan, 1993, 17-18
[892] Topçubaşı Ə.M. Azərbaycan Cümhuriyyətinin yaradılması. Bakı, 2013. s.54-55

Ə.Topçubaşının başçılıq etdiyi nümayəndə heyəti bir müddət İstanbulda qaldıqdan sonra Versala yola düşmüşdü. Versal sülh konfransında başlıca olaraq Almaniya ilə sülh nizamlanması nəzərdə tutulsa da, əvvəldən böyük dövlətlərin liderləri "rus məsələsini" müzakirəyə başladılar. Topçubaşı yazırdı: "Elə buna görə də bütün ağırlığına baxmayaraq Antantanın münasibəti bizi haldan çıxarmırdı, qarşıya qoyduğumuz məqsədə - Azərbaycanın müstəqilliyinə çatmaq yolunda zəruri saydığımız, özümüzə borc bildiyimiz addımları atmaqdan çəkindirmirdi. Biz misilsiz nemət saydığımız bu böyük sərvətə - müstəqilliyə nail olmaq yolunda heç nədən çəkinməmişik və çəkinmirik. Mən əvvəllər də Sizə yazmışdım - indi elə bir yola gedirik ki, verəcəyimiz heç bir qurban bizi bu yoldan çəkindirməyəcəkdir".[893]

Topçubaşının istər Versaldan göndərdiyi məktublardan, istərsə də hələ İstanbulda ayrı-ayrı dövlətlərin nümayəndələri ilə keçirdiyi görüşlərdən aydın olur ki, Azərbaycan Cümhuriyyətinin müstəqil bir dövlət kimi tanıdılması üçün böyük işlər görmüşdür. Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi ABŞ prezidenti Vudro Vilsonla görüş zamanı o, demişdir: "Biz uzaq Qafqazdan, buradan bir neçə min mil uzaq olan Azərbaycandan gələrək xalqımızın azad və müstəqil həyatı üçün sizə müraciət edib xahiş edirik ki, cənab prezident, bizim ölkəmiz, bizim xalqımız və elə bizim özümüz haqqında məlumatı bizdən eşidəsiniz. Çünki biz Avropa və Amerika mətbuatında tez-tez Azərbaycan haqqında səhv, saxtalaşdırılmış və həqiqətə uyğun olmayan məlumatların verildiyini eşitməli oluruq. Düzdür, bizi hələ yaxşı tanımırlar, biz indi birinci dəfədir ki, Avropadayıq, lakin sizi əmin edirik ki, müstəqil yaşamaq üçün bizdə hər şey vardır. Biz ümid edirik ki, konfrans bizi dinləyəcək və biz Millətlər Cəmiyyətinə buraxılacağıq. Biz əminik ki, bütün xalqlar kimi, biz də sizin böyük prinsipləriniz əsasında yardım alacağıq. Biz bilirik ki, nə Kolçakın, nə Denikinin, nə də köhnə Rusiya imperiyasının hüdudlarında hakimiyyəti tanıyacağıq. Biz Azərbaycan üçün yalnız öz parlamentimizi

---

[893]Topçubaşov Ə. Paris məktubları, Bakı, Azərnəşr, 1998, s.96

və öz hökumətimizi tanıyırıq və tanıyacağıq".[894] Bununla yanaşı Topçubaşı Vilsona Qafqaz xalqlarının konfederasiyasının mümkünlüyünü də çatdırmışdı.

Beləliklə, Topçubaşının başçılıq etdiyi Azərbaycan nümayəndə heyətinin Versal sülh konfransında apardığı danışıqların nəticəsi olaraq 1920-ci ilin yanvarında Azərbaycan Antantaya daxil olan dövlətlər tərəfindən de-fakto tanınmışdır.

Ancaq çox keçmədən Sovet Rusiyasının Azərbaycan Cümhuriyyətini devrib (27 aprel 1920-ci il), onun yerində sözdə müstəqil Sovet Azərbaycan Respublikası qurmasından sonra Topçubaşının əsas fəaliyyət istiqaməti milli istiqlalın bərpası istiqamətində olmuşdur. Topçubaşının başçılıq etdiyi Azərbaycan nümayəndə heyətinin Millətlər Cəmiyyətinə, Versal sülh konfransının rəhbərliyinə ünvanlanan məktublarda bildirilirdi ki, 27 aprel işğalına qarşı dünya dövlətləri səssiz qalmamalı, Azərbaycan xalqının yanında yer almalıdırlar. Belə ki, Sovet Rusiyası Azərbaycanda "sovet hakimiyyəti" qurulması adı ilə əslində işğalçılıq etmişdir. 1920-ci ilin iyulun 15-də Topçubaşı Ceyhun Hacıbəyliyə ünvanladığı məktubda yazırdı ki, 27 aprel işğalı ilə bağlı nə etmək lazımdırsa, hər bir şey edilmişdir.[895]

Bütün bunlara baxmayaraq, ABŞ başda olmaqla, dünya dövlətlərinin 27 aprel işğalına əsasən göz yummasını Topçubaşı qəbuledilməz hal hesab etmişdir. O, bununla bağlı 1920-ci ilin avqustunda ABŞ-ın Parisdəki səfirinə göndərdiyi nota da deyirdi ki, bu gün rəsmi Vaşinqton daha çox Ermənistanın müdafiəçisi kimi çıxış edir, halbuki vaxtilə Çar Rusiyasına qarşı əsas mübarizəni Azərbaycan və Dağıstan müsəlmanları aparıblar. Topçubaşı yazırdı: "Azərbaycanın və Dağıstanın rus işğalına qarşı mübarizəsi yarım əsr davam edib. Halbuiki Qafqaz erməniləri heç vaxt ruslara qarşı mübarizə aparmayıblar. Ancaq biz kiçik erməni millətinə və

---

[894] Cəmil Həsənli. Tarixi şəxsiyyətin tarixi: Əlimərdanbəy Topçubaşov. Azərbaycan Diplomatik Akademiyası, Bakı, 2013, s.359-360.

[895] Ə.Topçubaşovun C.Hacıbəyliyə məktubu. 15.07.1920// S.Mümtaz adına ADƏİA, f.648, s.6, i.2.v.2

çoxmilyonlu rus xalqına ən xoş arzular diləyirik. Biz, sadəcə qeyd etmək istəyirik ki, kiçik Azərbaycan millətinin də böyük xalqların köməyi və müdafiəsinə ehtiyacı var və azərbaycanlılar daha çox diqqətə və ədalətli münasibətə layiqdirlər. Bundan əlavə, Azərbaycan xalqı iki dəfə – 1918-ci ildə və 1920-ci ilin aprel ayından etibarən rus bolşevikləri tərəfindən dəhşətli müdaxiləyə məruz qalıb və hal-hazırda heç bir yerdən kömək almadan onlara qarşı qanlı mübarizə aparmaqdadır... Azərbaycanın nümayəndə heyəti inanmaq istəyir ki, böyük dövlət kimi Amerika və onun məşhur prezidenti, millətlərin öz müqəddəratını təyinetmə hüququnun əsas carçısı olan V.Vilson kiçik Azərbaycan xalqının artıq həyata keçmiş öz müqəddəratını təyinetmə hüququnu tanıyacaqdır".[896]

Daha sonra Azərbaycanın Millətlər Cəmiyyətinə üzv qəbul olunması üçün onun rəhbərliyinə məktub yazan Topçubaşı ümid edirdi ki, bu üzvlük gerçəkləşərsə, Azərbaycan azad və müstəqil həyatına davam edə bilər: "Bolşeviklərin qazandığı qələbələrə və törətdikləri amansız qətlərə baxmayaraq, Azərbaycan xalqı yeni rus işğalına qarşı qalxmış və heç bir yerdən kömək almadan inadla mübarizə aparmışdır. Bu mübarizə nəticəsində bolşeviklər yalnız Bakını və onun ətrafını idarə edirlər. Moskvanın Sovet hökumətinin Azərbaycan Sovet Respublikasını tanımasına baxmayaraq, Azərbaycan xalqı heç vaxt bolşeviklərə tabe olmayacaq, özünə mənəvi və milli baxımdan yad olan, ona fəlakət gətirən bir rejimdən azad olanadək silahı yerə qoymayacaqdır. Məhz bu fəlakətə qarşı kiçik Azərbaycan təkbaşına kəskin mübarizə aparır. Onun Millətlər Cəmiyyətinə daxil olması verdiyi bütün qurbanlar müqabilində ona mənəvi rahatlıq gətirər və güc verərdi".[897] Ancaq Topçubaşının bütün bu cəhdlərinə baxmayaraq Millətlər Cəmiyyəti Milli Azərbaycanı həmin beynəlxalq quruma üzv etməmişdir.

---

[896] Ə.B.Topçubaşovun ABŞ-ın Parisdəki səfirnə notası. 16.08.1920.// Arcive d'Ali Mardan-bey Toptcibashi, carton n 7. CERCEC, EHESS, Paris, pp.1-4

[897] Cəmil Həsənli. Tarixi şəxsiyyətin tarixi: Əlimərdanbəy Topçubaşov. Azərbaycan Diplomatik Akademiyası, Bakı, 2013, s.464-465

Azərbaycandan sonra Ermənistan (1920-ci ilin 29 noyabrı) və Gürcüstanın (1921-ci ilin 25 fevralı) da sözdə sovetləşdirilməsindən az sonra, yəni 1921-ci ilin mayında Azərbaycanın Parisdəki nümayəndə heyəti başda Topçubaşı olmaqla geniş toplantı keçirib, hər üç ölkənin birləşərək Qafqaz Konfederasiyası yarada bilməsi təklifini irəli sürmüşdür. Çox keçmədən 1921-ci ilin iyununda Topçubaşının sədrliyi ilə Azərbaycan, Gürcüstan, Ermənistan və Dağlılar respublikalarının toplantısı keçirilərək, Qafqaz Konfederasiyasının yarana biləcəyi ilə bağlı on bənddən ibarət Paris bəyannaməsi qəbul olunmuşdur. Ancaq bunun ardınca iyulun 4-də yenə də Parisdə keçirilən Qafqaz mühacir hökumətinin nümayəndələri ilə Rusiyanın Avropadakı mühacirlərinin birgə toplantısında ortaq bir nəticəyə gəlmək mümkün olmamışdı.[898]

Ancaq bundan ümidsizliyə qapılmayan Topçubaşı İtaliyada keçirilən Genuya iqtisadi konfransında (1922-ci il aprel) da Milli Azərbaycanın maraqlarını müdafiə etmiş, həmin beynəlxalq tədbirdə Sovetlər tərəfindən iştirak edən N.Nərimanova da tutarlı cavablar vermişdir. Genuya konfransından sonra Parisdə keçirilən Azərbaycan nümayəndə heyətinin toplantlarında Topçubaşı Türkiyə hökuməti ilə münasibətlər qurmaqdan, Azərbaycan daxilində gizli əlaqələr yaratmağın mühümlüyündən bəhs etmişdir.[899]

Çox təəssüf ki, belə bir çətin, mürəkkəb şəraitində 1923-cü ilin fevralından sonra rəsmi Paris Topçubaşıya diplomatik viza verməmiş və onun Azərbaycan nümayəndə heyətinin başçısı kimi toxunulmazlığı da ləğv edilmişdir.[900] Xüsusilə də, 1924-cü ildə Avropa dövlətlərinin, o cümlədən Fransanın Sovetlər İttifaqını tanıması mühacirlərə böyük zərbə olmuşdur.

Bütün bunlara baxmayaraq, Topçubaşı bir tərəfdən M.Ə.Rəsulzadə, C.Hacıbəyli kimi silahdaşları ilə müntəzəm işlər aparmış, digər tərəfdən 1925-ci il iyulunda Qafqaz mühacirlərindən ibarət qrup yaradaraq Qafqazda bolşevik hərəkatının

---

[898] Yenə orada, s.471-473
[899] Yenə orada, s.502-503
[900] Yenə orada, s.511.

əməllərini pisləyən protokol imzalamışdır. Bununla yanaşı Topçubaşı calışırdı ki mühacirlərin vahid birliyi yaradılsın.[901]

1926-cı ildə Parisdə Qafqaz İstiqlal Komitəsinin orqanı kimi "Prometey" jurnalı nəşr edilirdi ki, Topçubaşı orada da fəal iştirak etmişdir.[902] Üstəlik, 1927-ci ilin yanvarında Azərbaycanla Dağlılar Respublikası arasında Müvəqqəti Birgə Mərkəz yaradılır və Topçubaşı həmin quruma prezident seçilir.[903] 1928-ci ildə M.Ə. Rəsulzadə Parisə gələrək Ə. Topçubaşıyla görüşərək mühacirətdə vahid Azərbaycan Milli Mərkəzinin yaradılması ilə bağlı bəyannamə qəbul etmişlər. Bu bəyannamə ilə Azərbaycan mühacirət hərəkatının siyasi və diplomatik addımlarının ağrılıq mərkəzi Azərbaycan Milli Mərkəzinin üzərinə keçmişdi.[904]Aydın Mədətoğlu yazır ki, bununla da Topçubaşı Azərbaycan siyasi mühacirəti arasında birliyin yaranmasına, mühacirətin vahid mərkəzdə birləşməsinə çalışmışdır.[905]

**İctimai-fəlsəfi fikir tarixinə aid görüşləri.** Topçubaşı bir neçə əsərini Azərbaycan Türk mütəfəkkirlərindən M.F. Axundova, F.b.Köçərliyə, H.Zərdabiyə və b. həsr etmişdir. Məsələn M.F. Axundovun əsərlərinə yüksək dəyər verən Topçubaşı yazırdı: "Sözün həqiqi mənasında qiymətli yaradıcılıq nümunələri baxımından yoxsul olan Azərbaycan tatarlarının ədəbiyyatı bu gün öz dram əsərləri, həm də tatar həyatının mənfi tərəflərinin sərrast və dəqiq təsviri ilə seçilən dram əsərləri ilə öyünə bilirsə, bunun üçün hər kəsdən öncə ilk tatar dramuturqu və tatar dramaturgiyasının istedadlı banisi kimi Mirzə Fətəli Axundova minnətdar olmalıyıq. O, haqlı surətdə tatar Molyeri hesab edilir. Qələmindən çıxan altı komediya geridə qalmış tatar həyatının mənfi cəhətlərinin

[901] Quliyev Vilayət. Tariximiz taleyimiz. Bakı, "Tural" NPM, 2002, s.224
[902] Həsənli Cəmil.Tarixi şəxsiyyətin tarixi: Əlimərdanbəy Topçubaşov. Azərbaycan Diplomatik Akademiyası, Bakı, 2013, s.525
[903] Yenə orada, s.529.
[904]İmanov Vügar. Ali Merdan Topçubaşi (1865-1934). Lider Bir Aydın ve Bağımsız Azerbaycan Cümhuriyetinin Temsili. İstanbul, 2003, s.217-218.
[905]Mədətoğlu Aydın. Türkçülər (tarixi-siyasi-ideoloji oçerklər). Bakı, "Orxan" NPM, 2015, s.257

gerçəklikdən alınmış inandırıcı təsviri, yaddaqalan insan tipləri və mənzərələri, səmimi yumoru, yüngül, asan, obrazlı dili sayəsində indi də böyük maraq doğrur".[906] Ona görə Azərbaycan türkləri aarasında dövrünün bilikli şəxslərindən biri kimi tanınan Axundov zamanın tələb və çağırışlarına anında cavab verir, müasirləri olan adlı-sanlı ziyalıların çoxu ilə yazışırdı. O, imkanı daxilində məktublaşdığı müasirlərini Avropa, xüsusən də rus həyatı və ədəbiyyatı ilə tanış etməyə çalışırdı.[907] O, Axundovun ərəb əlifbasında islahatların aparılması ideyasını da alqışlamışdı.[908]

Topçubaşı "Azərbaycan tatarlarının ədəbiyyatı" məqaləsində F.b.Köçərlinin eyni adlı əsərini təhlil etməklə yanaşı, onun elmi yaradıcılığını da yüksək qiymətləndirmişdir: "Firidun bəy Köçərli doğma ədəbiyyatla yaxından tanış olan, onun tarixi, yaradıcılıq nümunələri və yaradıcı şəxsiyyətləri ilə maraqlanan azsaylı ziyalı müsəlmanlardandır. Çap etdirdiyi "Azərbaycan tatarlarının ədəbiyyatı" broşürü dediklərimizi bir daha sübuta yetirir".[909]

Tobçubaşı "Azərbaycanın mayakı" əsərini isə "Əkinçi" qəzetinin 50 illiyi münasibətilə Həsən bəy Zardabiyə həsr etmişdir. O, yazırdı: ""Əkinçi"! Bu sözü qəlb titrəmədən və həyəcansız söyləmək olmur: onda hər bir azərbaycanlı üçün nə qədər müqəddəslik var. "Əkinçi" müstəqil Azərbaycanın, onun dilinin, xalq mahnılarının, poeziyasının, ədəbiyyatının, tarixinin möcüzəli emblemidir. Bu bütün Azərbaycan xalqının ifadəsi və nişanıdır, onun gücünün, azad əməyə sevgisinin, ideya və ideyalarının aşkara çıxmasıdır. "Əkinçi" və Həsən bəy Məlikov-Zərdabi, Həsən bəy Məlikov-Zərdabi və "Əkinçi" tarixdə və xalq yaddaşında elə qaynayıb qovuşmuşdur ki, onlar bir-birindən ayrılmazdır".[910] Topçubaşıya görə Zərdabinin Azərbaycan Türk milləti qarşısında

---

[906] Topçubaşov Əlimərdan bəy. "Kaspi"dən seçmələr.. Bakı, "Zərdabi LTD" MMC, 2018, s.39-40

[907]Yenə orada, s.44

[908]Yenə orada, s.47-48

[909]Yenə orada, s.49

[910]Topçubaşı Ə.M.Azərbaycanın mayakı // Azərbaycan mətbuat tarixi antologiyası. İki cilddə,I cild. Bakı, "Elm və təhsil", 2010, s.118

xidmətləri "Əkinçi" ilə məhdudlaşmamışdır: "Türk-azərbaycanlıların əqli və mədəni inkişafı işində bir sıra təşəbbüslər və yeniliklər Həsən bəyin adı ilə bağlıdır: ilk Azərbaycan tamaşasının qoyulması, xalq mahnılarının ilk nəşri, tələbə və şagirdlər üçün xeyriyyə cəmiyyəti, xalq atalar sözü və məsəllər toplusu. Həsən bəy həyatın tələbi ilə gedirdi və getməli idi. O yalnız, bir kateqoriyalı məsələlərin üstündə dayana bilmirdi".[911] Topçubaşı Zərdabini yeni dövrdə Azərbaycan türklərinin mayakı hesab etmiş, onu yeni dövr ziyalıların fikir ustadı kimi dəyərləndirmişdir.

**Beləliklə,** Topçubaşı məzhəbçiliyin aradan qaldırılması baxımından "İslam birliyi", Türk xalqlarının güclü olması anlamında Türk birliyi ideyalarını dəstəkləməklə yanaşı, liberal-demokratik dəyərlərlə bütün Rusiya müsəlmanlarının-türklərinin o cümlədən, Azərbaycan türklərinin birliyinə çalışmışdır. Bu isə həmin dövrdə milli məsələyə daha gerçəkçi bir baxış kimi qiymətləndirilə bilər. Belə ki, Quzey Azərbaycan türkləri arasında ilk dəfə milli-mədəni müxtariyyət ideyasını irəli sürən Topçubaşı daha sonra Azərbaycan milli ideyasını – milli azərbaycançılığı müdafiə etmişdir. Xüsusilə də, onun bir müddət Rusiya müsəlmanlarının lideri kimi tanınması ictimai-siyasi görüşlərində tutduğu mərkəzçi, liberal-demokratik mövqeyi ilə bağlı olmuşdur. Mühacirətdə yaşamağa məcbur olduğu dövrdə də Azərbaycan Milli ideyasına sadiq qalan Topçubaşı daima Azərbaycanın milli istiqlalı uğrunda mübarizə aparmış, milli azərbaycançılqla yanaşı qafqazçılıq ideyasını da dəstək vermişdir. Onun azərbaycançılıq ideyası ilə yanaşı, Qafqazçılıq ideyasına dəstək verməsi Sovet Rusiyasına qarşı mübarizədə daha effektiv mübarizə üsulu ilə bağlı idi. Bütün hallarda Topçubaşı Azəbaycan xalqının ictimai-siyasi fikrində mühüm rol oynamış, özü adını Azərbaycan türklərinin tarixinə qızıl hərflərlə yazdırmağı bacarmışdır.

[911]Yenə orada, s.133

# MİRZƏ BALA MƏHƏMMƏDZADƏ

**Həyat və yaradıcılığı.** Bakının Qala kəndində dünyaya gələn Azərbaycan Türk mütəfəkkiri Mirzə Bala Məhəmmədzadə (1898-1959) əvvəlcə 7-ci "Rus-tatar" məktəbində və "Rüşdiyyə"də oxumuş, 1915-ci ildə Bakı Politexnik Texnikumunun İnşaat-Memarlıq bölməsinə daxil olmuşdur.[912] Texnikumda oxuduğu dövrdə "Məhəmmədiyyə"ə daxil olub, Cəfər Cabbarlı ilə birlikdə bu təşkilatın fəaliyyətində yaxından iştirak etmişdir. I Dünya müharibəsinin davam etdiyi bir dövrdə qurulan "Məhəmmədiyyə" təşkilatı Azərbaycan gəncliyini milli-dini ruhda yetişdirməyə çalışırmış.[913]

O, "İttifaqi-Mütəallimin" və "Qafqaz Tələbələrinin Mərkəzi Komitəsi" adlı gənclik təşkilatlarının da fəallarından olub. "İttifaqi-Mütəallimin"in eyni adlı həftəlik qəzetində Mirzə Bala, Cəfər Cabbarlı, Əbdül Əbdülzadə, Əbdülvahab Yurdsevər milli və siyasi yazılarla çıxış etmişlər. Qafqaz tələbələrinin Mərkəzi Komitəsinin orqanı olan "Gənclər sədası" qəzetinin rusca bölümünə H.M.Ataman, türkcə bölümünə Ə.Yurdsevər rəhbərlik etmiş, qəzetin baş redaktoru isə M.B. Məhəmmədzadə olmuşdu.[914]

O, 1915-ci ildən etibarən "Açıq söz", "Qurtuluş", "Doğru söz" kimi qəzet-jurnallarla əməkdaşlıq etmişdir. II Rusiya inqilabından sonra (1917) "Müsavat"a üzv olan Mirzə Bala 1917-ci ilin mayında Bakıda keçirilən Qafqaz müsəlman tələbələrinin qurultayında fəal iştirak etmişdir.[915] Cümhuriyyət dövründə Məhəmmədzadə "Gənclər yurdu" jurnalının redaktoru olmaqla yanaşı, 1919-cu

---

[912] Əhmədli Rafail. Mirzə Bala Məhəmmədzadənin ictimai-siyasi görüşləri.Bakı, Ozan, 2017, s.22-24

[913] Veliyev Afgan. Azerbaycan Siyasi düşünce tarihi ve Mirza Bala Mehmetzade, İstanbul, "Doğu Kütüphanesi", 2006, s. 35-36

[914] Yurdsever Abdul Vahab. "43 Senelik arkadaşım Mirza Bala". "Azerbaycan" dergisi, yıl 7, sayı 12(84), Mart, Ankara, 1959, s.17

[915] Rüstəmli Asif. Zirədən başlanan yol (Mirzə Bala Məhəmmədzadənin həyatı, yaradıcılığı və mühiti). Bakı, ZMM-EkoPark, 2018, s.34

ilin oktyabrında "Müsavat"ın 2-ci qurultayında partiyanın Bakı Komitəsinə üzv seçilmişdi.

27 aprel işğalından sonra gizli fəaliyyət göstərən "Müsavat"la yanaşı, o, Milli Müqavimət Hərəkatının başçısı və "İstiqlal" qəzetinin redaktoru olmuşdur. O, Azərbaycan Ali Xalq Təsərrüfatı Şurasında tərcüməçi və orta məktəbdə müəllim işləmiş, "Yeni Yıldız" jurnalında Azərbaycan Türk tarixinə dair silsilə məqalələr yazmış və "Azərbaycan Türk mətbuatı" adlı kitabçasını çap etdirmişdi.

1923-cü ildə Quzey Azərbaycanı tərk edərək öncə Ənzəliyə, daha sonra Tehrana getmiş və üç il burada yaşadıqdan sonra 1927-ci ildən Türkiyədə məskunlaşmışdır.[916] İstanbulda "Azəri Türk", "Odlu Yurd" jurnalları ilə əməkdaşlıq etməklə yanaşı, İstanbul Universitetinin Hüquq fakültəsini bitirən Mirzə Bala 1932-ci ildə İstanbulu tərk edib Polşaya üz tutmuş, 1936-cı ildə Varşavada keçirilmiş "Müsavat"ın III Qurultayında iştirak etmişdir. 1939-cu ildə Polşanın Almaniya ilə SSRİ arasında işğalı ərəfəsində İstanbula dönərək "Milliyyət" və "Cümhuriyyət" qəzetləri ilə əməkdaşlıq edib.[917]

O, 1954-cü ildən etibarən Münhendə yerləşən "SSRİ-ni Öyrənmə İnstitutu"nda çalışmış, bu institutda iki il Elmi şuranın sədri, iki il də sədr müavini vəzifəsini icra etmiş, burada nəşr olunan "Dərgi" adlı siyasi jurnalın baş redaktoru olmuşdu. M.Ə.Rəsulzadənin vəfatından sonra "Müsavat" Partiyasının başqanı (1955-1959) olan Mirzə Bala 1959-cu ildə İstanbulda dünyasını dəyişmişdir.

Onun Azərbaycan Türk tarixi, ədəbiyyatı, mədəniyyətinə həsr etdiyi əsərləri aşağıdakılardır: "Nəf elm və yaxud elmin sonu" (1912), "İki inqilab arasında" (1918), "Azərbaycan Türk mətbuatı" (Bakı, 1922), "Azərbaycan Misaqi-Millisi: 28 Mayıs İstiqlal Bəyannaməsinin təhlili" (1926, İstanbul), "Ermənilər və İran" (1927, İstanbul), "Milli Azərbaycan hərəkatı" (1938, Berlin), "Azərbaycan tarixində Türk Albaniya" (1951, Ankara) və b.

[916] Veliyev Afgan. Azerbaycan Siyasi düşünce tarihi ve Mirza Bala Mehmetzade, İstanbul, "Doğu Kütüphanesi", 2006, s. 94-99

[917] Əhmədli Rafail. Mirzə Bala Məhəmmədzadənin ictimai-siyasi görüşləri.Bakı, Ozan, 2017, s.25-28

**İctimai-siyasi görüşləri.** Gənc yaşlarından türkçülük əsasında "üçlü" düstura əsaslanan Məhəmmədzadə Cümhuriyyətəqədərki "Açıq söz", "Doğru söz", "Qurtuluş" kimi qəzet-jurnallarda türkçülük, Azərbaycan türkçülüyü (milliyyətçilik) və istiqlalçılıq mövzularında məqalələrlə çıxış etmişdir. Şübhəsiz, onun dünyagörüşündə əsas yeri Azərbaycan türkçülüyü ideyası və istiqlalçılıq tutmuşdur.

Azərbaycan milli ideyasının ilk rüşeymlərinin XIX əsrdə yeni ziyalı zümrəsinin yaranması ilə meydana çıxdığını irəli sürən Məhəmmədzadənin fikrincə, M.F.Axundzadə, H.Zərdabinin öncüllüyü ilə bu zümrə millətin oyanması, birləşməsi və yüksəlməsi üçün savaşa başlamışdır. O, yazırdı: "Yeni ziyalı zümrə millətin yüksəlməsinə və milli varlığını qorumasına yarayacaq yeni həyat və yeni ictimai münasibətlər tərzini qorumaq üçün əski ictimai münasibətləri yıxmaq istəyən millətçi idealist kadrlar idi. XIX əsrin ortalarından etibarən savaşa atılaraq qısa müddət sonra bizə müasirləşmiş bir ədəbiyyat, mətbuat, sənət, teatr, müasir məktəb və maarif verən mədəni-millətçi idealist kadrlar orta əsrlərin sxolastik, çürük və milli varlığı təhdid edən köhnə ictimai təsisatların cahil və mütəəssib nümayəndələrinin din pərdəsi altında kəskin müqavimətlərinə məruz qalmışdı. Bu cahil və mühafizəkar qeyri-milli zümrəni Rusiya bütün vasitə və imkanlarla himayə edir, qüvvətləndirirdi".[918] Mədəni-millətçi idealistlər mühafizəkar qüvvələrin birləşmiş müqavimətlərini qıraraq, yeni həyat tərzi yaradır, bu da ziyalı zümrənin taktikasının siyasiləşməsinə səbəb olurdu. Məhəmmədzadəyə görə idealistlər milli varlığı qoruyub yaşatmaq üçün müasir mədəniyyətə qovuşmağı, milli dil, ədəbiyyat, sənət və mətbuatı yüksəltəməyi irəli sürürdülər: "Onlar gözəl bilirdilər ki, milli mədəniyyət və milli xüsusiyyətlərini qorumağa müvəffəq olmayan millət ölümə məhkumdur. Softalar və mütəəssib cahillər bunu başa düşmürdülər. Çarizm də bu cahilləri himayə edirdi".[919]

XX əsrin əvvəllərində isə mədəni millətçiliyin yerini siyasi-ideoloji şəkil almış ümum türkçülük və Azərbaycan türkçülüyü-

---

[918] Məmmədzadə Mirzə Bala. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992, s.18
[919] Yenə orada, s.19

tutmuşdur. Məhəmmədzadə yazırdı ki, mədəni millətçiliyin sonrakı forması Əli bəy Hüseynzadə tərəfindən "türkləşmək, islamlaşmaq və avropalaşmaq" kimi bir prinsip halına gətirilmiş, daha sonra "Müsavat"ın başlıca şüarı və milli Azərbaycan bayrağının əsasını təşkil etmişdir: "Beləliklə, Türk milli hərəkatı gərək geniş mənası ilə, gərəksə də Azərbaycan ölçüsündə XX əsrin əvvəllərinə doğru şəkillənməyə başlamışdır. XX əsrin əvvəlləri türklüyün milliyyət dövründən millət dövrünə kediyi bir dövrdür".[920]

O, Azərbaycan türklərinin milliyyətdən millətə keçməsini isə cəmiyyətin ayrı-ayrı üzvləri arasında milli iradənin, milli düşüncənin, milli müqavimətin yaranması ilə izah edirdi. Onun fikrincə, artıq XX əsrin əvvəllərində mütərəqqi Azərbaycan Türk ziyalıları özlərini Xanlıqlar dövründə saraylara toplaşaraq xanların zövqünə uyğun olaraq özünü aparan şair və mütəfəkkirlər deyildir: "Bu kollektiv bir hərəkat idi. Bu kollektiv hərəkatdan həqiqətən kollektiv bir vicdan, kollektiv bir şüur və iradə doğacaqdı. Bu şüur və iradə büllurlaşdıqca mahiyyəti və hədəfi artıq büllurlaşmış olan milli hərəkat öz zahiri simasını da taparaq islami etiketdən çıxır, milli türk simasını alırdı. Çünki kollektiv vicdan islami mahiyyətini çoxdan tərk etmiş, ictimai münasibətlərdə dinin bağlayıcılıq yerini dil almış olurdu".[921] Beləliklə, bu şüurlu və kollektiv hərəkat türkçülük doğaraq mədəni millətçiliyə yeni bir yön verirdi.

XIX əsrin ortalarından etibarən yaranmağa başlayan mədəni millətçiliyin-türkçülüyün XX əsrin əvvəllərində siyasi-ideoloji şəkil almasını çox doğru müəyyənləşdirən Məhəmmədzadə qeyd edir ki, bu dövr Azərbaycan Türk ziyalıları iki dilemma: 1) daxili mühafizəkarlarla; 2) çar Rusyası ilə mübarizə qarşısında qalmışdı. Məhz bu dilemma Azərbaycan Türk idealist millətçilərini XX əsrin əvvəllərində iki qrupa ayırmışdı: "Nəticədə rus liberalları ilə həmfikir olan tərəqqipərvər zümrə və rus inqilabçıları ilə həmfikir olan inqilabi gənclik kimi iki ictimai hizb (qüvvə) meydana gəlmişdi.

[920] Yenə orada, s.22
[921] Yenə orada, s.23

Xatırladılan hər iki hizb (qüvvə) XIX əsrin idealistləri tərəfindən elan edilmiş millətçilik prinsiplərinə sədaqətdə ortaq idi".[922]

Deməli, XIX əsr Azərbaycan Türk ziyalıları mədəni millətçiyliyin, türkçülüyün əsasını qoymuş, onların davamçıları olan siyasi türkçülər isə XX əsrin əvvəllərində bu ideyanı bir qədər də inkişaf etdirərək, eyni hədəfə istiqamətlənməsinə baxmayaraq, iki fərqli qüvvə 1) rus liberalları ilə həmfikir olan milli liberallar-"ittifaqçılar" (Ə.Topçubaşı, İ.Qaspıralı və b.), 2) rus inqilabçıları ilə həmfikir olan milli inqilabçılar (M.Ə.Rəsulzadə, A.Kazımzadə, İ.Aşurbəyov və b.) şəklində meydana çıxmışdır. Bu iki qüvvənin əsas rəqibləri isə çar Rusiyası və onun siyasətini Azərbaycanda dəstəkləyən yerli mürtəce mühafizəkarlar idi.

Rus liberalları ilə həmfkir olan "ittifaqçılar", yəni Ə.Topçubaşı, İ.Qaspıralı Rusiyanın tərkibində qalmaq və "qanun dairəsi"ndən kənara çıxmamaqla, dini müəssisə – ruhani idarəsi bayrağı altında və millətçi proqramla Rusiya müsəlmanlarının birliyinə çalışırdı. Məhəmmədzadənin fikrincə, "ittifaqçılar"ın bu taktikasını qəbul etməyən bir inqilabçı gənclik doğmuşdu: "Qara və mürtəce qüvvələrə himəyadarlığı davam etdirən və onların əli ilə oyanış hərəkatını dayandırmaq istəyən, eyni zamanda polis və fitnəkarlıq vasitələrinə əl atan çarizm durduqca milli inkişafa imkan olmayacağını irəli sürən bu gənclik milli inkişafa əlverişli bir zəmin hazırlamaq üçün çarizm rejimini devirmək lüzumuna inanırdı. Bu yeni cərəyan rus inqilabçıları ilə əməkdaşlıq taktikasına üstünlük verir və rus kadetləri ilə həmfikir olan ittifaqçıları, xüsusilə bu təşəkkülün lideri və ideoloqu İsmayıl bəyi tənqid edirdi".[923] Milli inqilabçılara (M.Ə.Rəsulzadə və b.) görə çarizmə qarşı mübarizədə hələlik, rus inqilabçıları ən sadiq olmasa da, ən münasib müttəfiq idilər.

Çar Rusiyasına qarşı mübarizədə milli inqilabçıların doğru yol tutduğuna inanan Məhəmmədzadəyə görə hadisələrin sonrakı gedişi də milli liberalların-"ittifaqçılar"ın deyil, milli inqilabçıların doğru yol tutduğunu ortaya qoydu: ""İttiifaqçılar"ın liberal millət-

[922] Yenə orada, s.19
[923] Yenə orada, s.27

çilik taktikası məğlubiyyət uğramışdı. Hadisələr inqilabçı millətçilərə haqq verirdi. Türklər milli haqlarını, milli varlıqlarını savaşda qazana biləcəklərdi. İnqilabi taktikanı seçən millətçilər ideoloji baxımdan ittifaqçıların milli məsələdəki ideologiyasından fərqli bir ideologiya izləmirdilər. Onlar inanırdılar ki, çarizm yıxılmadıqca, türklər digər əsir millətlərlə birlikdə siyasi haqq və hürriyyətə malik olmadıqca bu proqramın tətbiqi qeyri-mümkündür”.[924]

O, yazırdı ki, hadisələr inkişaf etdikcə və bir sıra amillərin təsiri altında milli liberallar və milli inqilabçılar birləşərək eyni taktika yürütməyə başladılar. Ancaq bu qüvvələrin siyasi-ideoloji baxışlarında, ilk dövrlərdə “islam millətçiliyi”, “müsəlmanların birliyi”, “müsəlmanlıq”, “ümmətçilik” mühüm yer tuturdu. Məhəmmədzadəyə görə həmin dövrdə “islam millətçiliyi”nin ideoloqu Əhməd bəy Ağaoğlu yazılarında üstünlüyü “ümmətçiliyə”, yəni “müsəlman qayğısı”na və “müsəlman qövmlərini tənəzzüldən qurtarmağa” verirdi.[925] Onun fikrincə, dövrünün hakim zehniyyəti altında üçüncü qüvvə kimi ortaya çıxan “Müsavat” da yaranışının ilk illərində məhz belə bir xətt, yəni “islam millətçiliyi”ni seçmiş, ancaq “bu doktrinə qapanıb qalmamış, Azərbaycan cəmiyyəti ilə birgə dinamik təkamül yolu keçmiş və Azərbaycan cəmiyyətinin milli şüurunu tənzim və idarə etməklə onu özü ilə birlikdə millətçiliyə, türk milətçiliyinə və Azərbaycan istiqlalçılığına qovuşdurmuşdur”.[926]

“Müsavat”ın yalnız islamçı deyil, həm də türkçü, yenilikçi və istiqlalçı bir partiya olması Rəsulzadənin 1913-cü ildə İstanbuldan Bakıya dönüşündən sonra baş vermişdi. Quzey Azərbaycanda “ümmətçilik”dən “millətçiliy”ə keçən, Azərbaycan Milli ideyasının (Azərbaycan türkçülüyünün) təməl prinsiplərini işləyib hazırlayan Rəsulzadə olmuşdur. Mirzə Bala yazır ki, tanınmış Türk mütəfəkkiri Cəmaləddin Əfqanin yolunu davam etdirən Rəsulzadə “islam millətçiliyi”nin yerinə “türk millətçiliyi”ni irəli sürmüşdür: “Şeyx Cəmaləddin Əfqani kimi Məhəmməd Əmin bəy də islamiyyətin və

[924] Yenə orada, s.36
[925] Yenə orada, s.40-41
[926] Yenə orada, s.42

müsəlmanlığın milliyyət deyil, "ümmətçilik" ifadə etdiyini, milliyyətin isə din üzərində deyil, dil və mədəniyyət birliyi üzərində qurulduğunu və bu milli diriliyin təməlini təşkil edən milli mədəniyyətin ünsürlərini izah edərək milli hərəkatın ictimai fəlsəfəsini qurmuşdur".[927] Onun fikrincə, 1915-ci ildən işıq üzü görən "Açıq söz" qəzetində ilk dəfə olaraq "müsəlman", "tatar" əvəzinə "türk" sözünü işlədən, "Biz türkük!" deyən Rəsulzadə bu surətlə "ümmət", "ümmətçilik" dövrünü rəsmən qapamış, "millət", "türk millətçiliyi" dövrünün başlandığını elan etmişdir.[928] Ona görə Rəsulzadənin ümmətçilikdən millətçiliyə, islamçılıqdan türkçülüyə keçməsində isə C.Əfqaninin böyük rolu olub: ""Ümmət" dövrünü yaşayan müsəlman Şərqində milliyyət şüurunun oyanmasında çox böyük rolu olan məşhur İslam mütəfəkkiri Şeyx Cəmaləddin Əfqaninin "milliyyət xaricində səadət yoxdur" - deyən "Vəhdəti cinsiyə fəlsəfəsi"ni (yəni "Milli birlik fəlsəfəsi"ni) farscadan türkcəyə çevrib "Türk yurdu"nda dərc etməsi də bu zamana rast gəlir. Sonraları Bakıdakı nəşriyyatında milliyyət məsələsini işlədiyi zaman Cəmaləddin Əfqanidən çox faydalandığı görüləcəkdir".[929]

Onun fikrincə, çar Rusiyası əsarətindəki türklərin XIX əsrin ortalarına doğru milli-mədəni yüksəlişi şəklində başlayan milli qurtuluş hərəkatı bu günə qədər üç dövr keçmişdir: 1) Milli-mədəni oyanışın bir nəticəsi olmaq üzrə "Milli-mədəni muxtariyyət" üçün mücadilə dövrü; 2) Milli-siyasi dövlət şürünün bir nəticəsi olmaq üzrə, tam istiqlala gətirəcək "Milli-məhəlli (torpaq) müxtariyyəti" üçün mücadilə dövrü; 3) Rusiyadan tamamilə ayrılmağı ifadə edən tam istiqlal üçün mücadilə dövrü.[930] Məhəmmədzadənin fikrincə, milli-mədəni muxtariyyət Topçubaşı başda olmaqla, 1905-1907-ci illərdə "Rusiya Müsəlmanları İttifaqı" partiyası tərəfindən ortaya atıldığı halda,[931] milli-məhəlli muxtariyyət ideyasının başında isə

---

927 Yenə orada, s.51-52
928 Yenə orada, s.52
929 Mehmetzade M.B. M.E.Resulzade. "Azerbaycan", №12 (36). Ankara, 1955
930 Mehmetzade M.B. Resulzade Mehmet Emin. "Dergi", yıl: 1 Ocak-Mart, Minih, 1956, s.137
931 Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992, s.27-28

1917-1918-ci illərdə Rəsulzadə dayanmışdır: "Bəzi Türküstan şairlərinin nəzmə çəkmiş olduqları bu tarixi müdafiədən sonra qəbul edilən "Milli tezis"ə görə, böyük çoxluğunu rus olmayan millətlər təşkil edən Rusiya imperatorluğu milli vahidlərə, yəni millətlərin sayı qədər ayrı-ayrı müstəqil milli dövlətlərə parçalanacaq, o cümlədən olmaq üzrə, rus əsiri türklərin də özlərinə məxsus milli dövlətləri olacaqdır".[932] Rəsulzadənin milli-məhəlli muxtariyyət ideyasının arxasında bir tərəfdən Rusiya türklərinin birliyi, digər tərəfdən isə Rusiya əsarəti altında olan ayrı-ayrı Türk xalqlarının (Azərbaycan, Türküstan, Volqa-Ural, Krım, Sibir və b.) tam istiqlalları dayanırdı. Mirzə Bala yazır: "Artıq tam istiqlaldan başqa bir qurtuluş yolunun mövcud olmadığı anlaşılmışdı. İlk və müsbət örnəyi müstəqil və demokratik Milli Azərbaycan Cümhuriyyəti təşkil edən bu hərəkat və dava ətrafında Rəsulzadə Məhəmməd Əmin konqres, konfrans, qurultay, məclis və yığıncaqlarda söylədiyi nitqlər, oxuduğu məlumatlar, etdiyi mübahisə və müzakirələr, nəşr etdiyi bəyannamə və verdiyi bəyanatlar, çıxardığı qəzetə və jurnallar, yazdığı məqalə və çap etdirdiyi kitablar siyasi tariximizin qızıl səhifəsini təşkil etməkdədir".[933]

Məhəmmədzadə özü də, "Açıq söz" qəzetində yazdığı "Azərbaycan çağırıyor" adlı məqaləsində Türk gəncliyini üz tutaraq onu milli istiqlalçılıq uğrunda mübarizəyə səsləmişdir: "Ey gənc Türklər! Bu gün Kəbeyi-müqəddəsiniz olan vətənimizi azad ediniz! Və gözəl ananız zəncirlərlə sərilmiş yatıyor, onu qurtarınız! Əgər milli ədəbiyyat istəyorsınız, yenə onu qurtarmalısınız. Əgər milli məktəblər istəyorsınız, yenə onu qurtarmalısınız. Əgər elmi fənn arzulayorsınız, yenə vətəni azad etməlisiniz. Əgər bir millət olaraq yaşamaq istəyorsınız, yenə onu xilas etməlisiniz. Hər bir fikriniz, hər bir düşüncəniz, hər bir əməl və diləyiniz onun içərisində sələmət qala bilər. Siz bu gün onun yolunda çalışınız. Bu gün əldən buraxsanız daha bir də milli məktəb, milli ədəbiyyat nəinki

[932] Mehmetzade M.B. M.E.Resulzade. "Azerbaycan", №12 (36). Ankara, 1955
[933] Yenə orada.

görmək, hətta eşitməzsiniz də! Bu gün "həyat və ölüm" mübarizəsi gediyor. Bu gündən millətlər keçmişlərini dirildirlər".[934]

O, Cümhuriyyət dövründə yazdığı məqalələrində isə artıq türkçülüyün çarizm, bolşevizm üzərində qələbə çalmasından bəhs edirdi: "Çarizmin məhvi, bolşevizmin yurdumuzdan qovulması ilə Azərbaycan türkləri üçün yeni bir həyat başlanmış oldu. Azərbaycanlılar siyasətən daha məhkum deyil müstəqil, əsir deyil hürr yaşamağa başladılar".[935] Mirzə Bala hesab edirdi ki, yeni bir həyata başlayan Azərbaycan türkləri Cümhuriyyətin quruculuğunda fəal iştirak etməli, milli təşkilatlar bu işdə öncül rol oynamalıdırlar. Bu məqsədlə qələmə aldığı "Təşkilatlarımız" məqaləsində o, yazırdı ki, milli-mədəni təşkilatlar və onun rəhbərləri xalqın içinə getməli, onun problemlərini öyrənib həll yolları tapmalıdır. Mirzə Balaya görə milli təşkilatlanma işində isə ən böyük misssiya "Türk ocağı"nın üzərinə düşməkdədir. Onun fikrincə, "Türk ocağı" Azərbaycan Türk xalqının hissini, düşüncə və dilləyini təshih etməli, Türk mədəniyyətini inkişaf etdirmək vəzifəsini layiqincə yerinə yetirməlidir.[936]

Mirzə Balaya görə Azərbaycan türklüyünün təşkilatlanması və milli birliyini gücləndirməsi yolunda isə, hazırda ən böyük təhlükə bolşevizmlə bağlıdır. Belə ki, rus bolşevizmi "sinfi mübarizə" adı altında Azərbaycan türklüyünün bütünləşməsinə və Cümhuriyyətin inkişafına əngəl törətməkdədir. O, "Bizdə sinif mübarizəsi" məqaləsində yazırdı: "Bolşeviklər bəşəriyyətin nicatını kapitalın məhvində, sərvətdarların iş başından getməsində, hakimiyyət və ağalığın demokratiyaya, zəhmətkeş xalqa verilməsində buluyordular. Məgər bunu biz bilmiyoruzmu? Kim istəyər ki, 3-4 milyonluq bir Azərbaycan türkü adından ancaq 3-4 nəfər bəy-xan vəkil olunsun və kəndilərinə bir millət adı versinlər?".[937] Ona görə sinif mübarizəsindən önəmli olan millətin əkinçisi, fəhləsi, ziyalısı, bəyi-xanı ilə bilikdə bütünləşməsidir. Bu anlamda Azərbaycan türklərinin birliyinin,

---

[934] Məmmədzadə M.B. Azərbaycan çağırıyor, "Açıq söz" qəzeti, 04.01.1918
[935] Məmmədzadə M.B. "Yeni həyata doğru". "İstiqlal" qəzeti, 14.02.1919, №2
[936] Məmmədzadə M.B. "Təşkilatlarımız". "Azərbaycan" qəzeti, 03.03.1919, №127
[937] Məmmədzadə M.B. "Bizim sinif mübarizəsi". "İstiqlal" qəzeti, 07.06.1919, №18

istiqlalının "Şimal hürriyyətçiləri və Qərb mədəniləri" tərəfindən pozulmasına yol verilməyəcəyini dəfələrlə ifadə etmişdir: "Əgər "Şimal hürriyyətçiləri və Qərb mədəniləri" istiqlaliyyətimizi pozmaq fikrilə hərəkət etsələr, əmin olmalı ki, nəticədə Azərbaycan sərvətdarları fürsət qazanacaqlar. Xalq həqindən çəkməyə və istiqlal uğrunda sinfi düşmənlər ilə birləşməyə məcbur olacaqdır".[938]

Mirzə Bala mühacirət dövründə İstanbulda qələmə aldığı "Azərbaycan Milli Xartiyası: 28 Mayıs İstiqlal Bəyannaməsinin təhlili" əsərində həm İstiqlal Bəyannaməsini geniş şəkildə təhlil etmiş, həm də Azərbaycan türklüyünün hansı şəraitdə gerçəkləşdiyini yazmışdır. Mirzə Bala öncə, əsərində istiqlalın qəbul edilməsi şəraitini və bu bəyannamədən sonra Quzey Azərbaycanda baş verən hadisələrə nəzər yetirmişdir: "Məmləkətin canlı, tərəqqipərvər, mütəhərrik və məhsuldar qismini məhz bu zümrələr təşkil edirdi. Feodalizmlə artıq çoxdan "əlvida!" - demiş olan Azərbaycanda milli xanədan da olmadığından istibdad və Cümhuriyyət arasında tərəddüd etmirdi. Tərəddüd edənlər, "Demokratik Cümhuriyyət"i quru bir nəzəriyyə hesab edənlər Azərbaycanın keçirmiş olduğu ictimai-iqtisadi dövrləri və ictimai-siyasi cərəyanları bilməyənlərdir. Azərbaycan istiqlalını Azərbaycan bəy və xanlarının intriqası adlandıran düşmənlərimiz, "Demokratik Cümhuriyyət"i də Müsavatın şəxsi arzusu hesab edənlər bir şeyi unudurlar ki, Müsavatı təşkil edən məfkurəçilər də, xalq hərəkatının özünü də yaradan yenə millət, Azərbaycan xalqı idi. Müsavat firqəsi də yalnız millətin rəyini, o məclis də yalnız millətin iradəsini təmsil edirdi. Ona görə də "Demokratik Cümhuriyyət" qərarı millətin öz qərarı, öz fərmanı və öz iradəsi kimi qəbul edilməlidir".[939] Milli Şuranın bütün qərarları, o cümlədən "İstiqlal Bəyannaməsi" xalqın iradəsinin məhsulu idi. O, yazırdı ki, bu baxımdan Milli Şura "sinfi, məsləki, cinsi, milli və dini sərhədləri aradan qaldıraraq bütün vətəndaşlara bərabər siyasi-vətəni hüquqlar təmin etdiyi kimi, öz sərhədləri daxilindəki millətlərə də hürriyyət

---

[938] Yenə orada

[939] Məmmədzadə M.B. Azərbaycan Milli Xartiyası. 28 Mayıs İstiqlal bəyannaməsinin təhlili. "Azərbaycan" ədəbi-bədii jurnalı, №4, Bakı, 1991, s. 138-139

və sərbəstlik verirdi. Millətlərin hüriyyət və istiqlalını, milli mənafeyin inkişaf və təkamülünü özü üçün qayə qəbul edən bir Məclis mümkün deyildi ki, başqa cür hərəkət edə bilsin”.[940]

O, bütün bunlarla yanaşı, Milli Şuranın bəzi məsələlərdə ehtiyatlı addımlar atmasını, dövrün şərtlərini nəzərə almasını doğru hesab etmişdir. Xüsusilə də, Milli Şuranın Azərbaycan Cümhuriyyətinin istiqlalını elan edərkən ölkənin başdan-başa bir anarxiya içərisində, xüsusilə də Bakı başda olmaqla Quzey Azərbaycanın şərq hissəsinin bolşevik-daşnak istilası altında olduğunu diqqətə çatdıran Məhəmmədzadə yazırdı: “Buna görə məmləkət qanunları və təşkilatları nizama salmaqdan əvvəl hüquqən və rəsmən elan etdiyi istiqlalı, Azərbaycan Milli Şurasını faktiki olaraq yaratmalı idi. İkincisi, Azərbaycan istiqlalını elan etdikdən sonra qanunlar və təşkilatların əsasları məsələlərini Müəssislər Məclisinə buraxaraq istiqlalın qorunması üçün silahlı mübarizəyə başlamışdı ki, bu da əslində məfkurə uğrunda silahlı mübarizəyə başlamaq deməkdi. Deməli, Milli Şuranın istiqlalı elanı qərarı məfkurə uğrunda mübarizə dövrünün sonu deyildi ki, ilk sıraya məfkurənin tətbiqindən, məfkurəçilikdəki üçüncü dövrdən bəhs edilsin. Bu istiqlal elanı qərarı ilə məfkurəçiliyin ilk hazırlıq dövrü bitirdi. Bundan sonra ikinci dövr, məfkurə uğrunda mübarizə dövrü başlayacaqdı. Bu mübarizə zamanı bir istiqlal qərargahı halına gələn Milli Şura və onun höküməti, Azərbaycanın xilası və istiqlalının faktiki olaraq (de-fakto) vücudə gəlməsi üçün çalışacaqdı”.[941]

Məhəmmədzadə onu da xatırladırdı ki, Azərbaycan türkçülüyünə, onun əsas hədəfi olan Milli istiqlalçılığa qarşı iki əsas müxalif qüvvə olmuşdur: 1) “beynəlmiləlçilik” adı altında pərdələnən bolşeviklərlə, 2) “İslam birliyi” adı altında pərdələnən “İttihadçılar”. O, yazırdı: “Rusiya Müəssisələr Məclisi seçkilərinə qədər sağı və solu təmsil edən iki qeyri-milli partiya öz fəaliyyəti və təbliğatları ilə yalnız istiqlal əleyhinə deyil, həm də Azərbaycan fikrinin “Azərbaycan” təbirinin, türklük cərəyanının da əleyhinə iş aparmış-

[940]Yenə orada, s. 141
[941]Yenə orada, s. 146

dılar. Nəhayət istər yerli, istərsə də Müəssislər Məclisinə seçkilərdə xalq Müsavat Partiyası və onunla birlikdə hərəkət edən "Bitərəf demokrat qrup"a səs verməklə türkçülük, Azərbaycançılıq və İstiqlalçılıq qalib gəlmiş, qeyri-milli cərəyanlar məğlub olmuşdu".[942]

Quzey Azərbaycan türklərinin "beynəlmiləlçi" bolşeviklərlə "İslam birliyi" tərəfdarları ittihadçıları deyil, məhz Türk birliyi tərəfdarı müsavatçıları dəstəklədiyini yazan Məhəmmədzadəyə görə vaxtilə "Müsavat firqəsi əleyhinə mübarizə edən, "Azərbaycan" kəlməsini yaxın buraxmayan "qeyri-milli" qüvvələr belə İstiqlaldan sonra onu proqramlarının ilk səhifəsinə qeyd etmişdir: "Milli mühitimizdən əcnəbilərə uşaqlıq edən "qeyri-milli" cərəyanlar deyil, Azərbaycançılığın, Türklüyün, istiqlalçılığın amansız düşməni olan Rusiya belə bu gün bir "Azərbaycan" qitəsi tanımaqda, əhalisinin türk olduğunu, hətta Azərbaycanın müstəqil bir Cümhuriyyət olduğunu sözdə də olsa qəbul etməkdədir".[943] Bununla da milliyyəti, istiqlalı, demokratiyanı, cümhuriyyəti rədd edən və "İslam birliyi"-ni əsas götürən "İttihad", eləcə də sol cəbhədə dayanan "beynəlmiləlçi" marksist-leninçilər "Müsavat"la mübarizədə məğlub çıxmışdı. Ancaq onlar bu məğlubiyyətlə müvəqqəti barışmışdır, çünki ideya xətləri tamam fərqli idi. Məhəmmədzadə yazırdı: "Onlar üçün "Müsavat"ın müdafiə etdiyi milliyyət, türklük, demokratiya və cümhuriyyət prinsipləri yabançı, hətta zərərli şeylər idi. Ta ilk gündən etibarən "Müsavat"ın dilə gətirdiyi prinsiplərə müxalif olan bu firqələrin Azərbaycan bayrağına sədaqətləri müvəqqəti və keçici bir zaman üçün idi. İslami beynəlmiləl şüarlarla proletar-marksist doktrinlərin azərbaycançılıq, milliyyətçilik və cümhuriyyətçilik prinsipləri ilə uzlaşmayacağı göz qabağındadır".[944]

Ona görə Azərbaycan Milli Xartiyası, 27 aprel işğalından sonra da, qanlı mübarizə fırtınaları içərisində aydın qurtuluş yolu göstərən bir istiqlal çırağıdır. O, yazırdı ki, Milli Xartiya Azərbaycan xalqının bütün təfəkkür, xəyal, arzu, əməl, məqsəd və idealları-

---

[942]Yenə orada, s. 147
[943]Yenə orada, s. 147
[944] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992, s.144

nı, hiss və əqlinə aid düşüncələrini təmsil edən, ona səadət qapıları açan, onun yüksəliş və bəxtiyarlıq yollarını aydınladan bir məşəldir: "Azərbaycan Milli Xartiyası Azərbaycan Türklüyünün sinif və cins mənsubiyyətini nəzərə almadan hər bir fərdinin və ümumi həyati ilə hamısının həyat və səadət məfkurəsidir. Bu həyat və səadət məfkurəsi süni bir sıra xəyalpərəstlərin fantaziyalarından ibarət deyil, on illər, bəlkə də əlli illərlə davam edən ictimai, iqtisadi, siyasi, mədəni və səmərəli bir mübarizəsinin nəticəsidir".[945]

Mühacirət dövründə yalnız "Müsavat"ın azərbaycançılıq, istiqlalçılıq, türkçülük və cümhuriyyətçilik prinsiplərinə sadiq qaldığını qeyd edən Mirzə Bala yazırdı ki, M.Ə.Rəsulzadə İstanbula gələnə qədər Azərbaycan istiqlal dövrünün keçici, təsadüfi bir hadisə olduğu qənaətinə hər yerdə təsadüf olunurdu. Rəsulzadənin açdığı milli dava, xüsusilə onun bu yöndə yazdığı "Azərbaycan Cümhuriyyəti" əsəri yenidən bütün dünyanı Azərbaycandan bəhs etməyə məcbur etmişdi.[946]

Azərbaycan milli ideyasını daima müdafiə edən Məmmədzadə hesab etmişdi ki, azərbaycançılığın tarixi bir missiyası var və o, "Müsavat"ın "Yeni proqram əsasları"ında öz əksini belə tapmışdı: "Azərbaycan qədim zamanlardan bəri tarixin müxtəlif dövrlərində özünəməxsus siyasi varlıq göstərərək müstəqil dövlət halında yaşamışdır. Azərbaycan xalqı isə müasir millət olmaq üzrə zəngin bir kültür həyatına malik bulunmuş və bunun məntiqi nəticəsi olaraq siyasi bir ideal daşımışdır. Bu ideala tərcüman olan milli Azərbaycan "Müsavat" xalq firqəsi 1918-ci ildə milli Azərbaycan Cümhuriyyəti istiqlalının elanındakı təşəbbüsü, bu təşəbbüsün fikirdən işə keçirilməsi yolundakı fəaliyyəti və nəhayət qızıl rus istilasına qarşı milli mücadilə işində göstərdiyi yol göstərənliyi ilə bütün azərbaycanlıların biricik siyasi təşəkkülüdür".[947] O, daha sonra yazırdı: "İstiqlal və milli dövlət ən yüksək, ən qüdsi və ən insani bir məfkurəni

---

[945] Məmmədzadə M.B. Azərbaycan Milli Xartiyası. 28 Mayıs İstiqlal bəyannaməsinin təhlili. "Azərbaycan" ədəbi-bədii jurnalı, №4, Bakı, 1991, s. 148
[946] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992, s.181
[947]Yenə orada, s.209

milli sərhədlər daxilində gerçəkləşdirmək üçün bir vasitədir. Zatən siyasi türkçülük, milli dövlət qurmaq hərəkatı milli varlığı qorumaq əndişəsindən və mədəni millətçiliyi gerçəkləşdirə bilmək arzusundan doğmamışdırmı? Müstəqil və azad bir milli dövlət həyatı türk mədəni birliyini tətbiq etməkdən və gerçəkləşdirə bilməkdən əlavə millətin fərdlərini səadətə və rifaha qovuşdurmaq, ictimai bir ədalət və bərabərlik qura bilmək üçün də lazımdır".[948]

Beləliklə, o, belə bir doğru nəticəyə gəlir ki, "Müsavat"ın liderliyi ilə Azərbaycan xalqı islamçılıqdan türkçülüyə, ümumi türkçülükdən Azərbaycan türkçülüyünə-Azərbaycan milli dövlətçiliyinə doğru böyük bir yol keçmişdir: "Əgər o ("Müsavat"-F.Ə.), "islamçılıq" dövründən "ümumi türkçülüyə", oradan da türk kültür birliyinə əsaslanan "Azərbaycan milli dövlətçiliyinə" keçməmiş olsaydı, yerini başqa ifrat və qeyri-milli firqələrə verəcəkdi".[949]

Ancaq onun siyasi fəlsəfəsində azərbaycançılıq yalnız türkçülüklə məhdudlaşmamış, eyni zamanda istiqlalçılığı, müsavatçılığı, xalqçılığı və dövlətçiliyi də özündə əks etdirmişdir.[950] Məhəmmədzadə azərbaycançılıq və türkçülük arasındakı münasibətlərə xüsusilə diqqət etmişdir. Buna səbəb də, bir çox qüvvələrin mümkün olduğu qədər azərbaycançılığı türkçülükdən uzaqlaşdırmaq cəhdləri idi. O, yazırdı: "Azərbaycançılıq ideyasını ortaya atmaqla biz heç də türkçülüyü inkar etmirik, ancaq Azərbaycan Vətəni ideyasını birinci yerə keçirir, Azərbaycanın coğrafi sərhədləri daxilində millətin yekdilliyini və vəhdətini birinci dərəcəli vəzifə kimi irəli sürürük".[951]

Bəs, siyasi türkçülüyün nəticəsi olaraq meydana çıxan Türk dövlətləri, konkret olaraq Azərbaycan Türk dövləti müstəqil olacağı təqdirdə hansı quruluşa, hansı siyasi sistemə əsaslanmalı idi. "Müsavat"ın "Yeni proqram əsasları"na görə, müstəqil Türk dövlətində nə ifrat liberalizmə, nə də kommunizmə yer olmayacaqdı: "Bu qənaətlə o, fərdi azadlıq və şəxsi mülkiyyət əsasını siyasət və

[948] Yenə orada, s.210-211
[949] Yenə orada, s.234
[950]Yenə orada, s.12
[951]Mehmetzade M. B. Azerbaycan Misaqi-Millisi. Ankara, 2002, s.54

iqtisad prinsipi olaraq qəbul etməklə bərabər əsrimizin gündən-günə qüvvətlənən bir sintezi halında olan **həmrəylik (solidarizm)** sistemi gərəyincə dövlətlə cəmiyyətin haqlarını tanıyır və onların çarpışan zümrə mənfəətləri üzərində nizamlayıcı rolunu oynamağa mükəlləf müəssisələr olduğunu qədul edir. Bu surətlə müsavatçılıq milli birlik və həmrəyliyi əsas olaraq qəbul edir, hər cür sinif və zümrə hakimiyyətini rədd edir".[952] Bu proqrama görə Türk mədəniyyətinin inkişafı və təkamülü, Azərbaycan türkünün səadəti və rifahı belə bir milli həmərylik sistemi daxilində mümkündür. Məhəmmədzadə bu məsələdə də "Müsavat"ın yeni proqramından çıxış etmiş və Rəsulzadənin irəli sürdüyü milli həmrəylik (solidarizm) ideyasını müdafiə etmişdi. Artıq burada fərdi azadlıq və mülkiyyəti ilə yanaşı, ümüminin mənfəəti də vardır. O, yazırdı: "Bu tezisdə cəmiyyət də (bütün) var, fərd də (tək). Fərdi hürriyyət və mülkiyyət, ümumun, bütünün, dövlətin – millətin ali mənafelərinə zərər vurmamalıdır. Ona görə millət-dövlət fərdi hürriyyət və mülkiyyətləri kontrol etmək haqqına malikdir".[953]

Məhəmmədzadə Azərbaycan türkçülüyü, Azərbaycan istiqlalçılığı, Türk birliyi ideyaları 1930-1950-ci illərdə qələmə aldığı məqalələrində də inkişaf etdirmişdir. Bu dönəmdə qələmə aldığı məqalələrində o, **Cümhuriyyətin quruluşu və onun quruluşunda Qafqaz İslam Ordusu**nun roluna mühüm yer vermişdir. Məsələn, "Qafqaz İslam Ordusu" məqaləsində Türkiyənin Azərbaycan Cümhuriyyətinə hərbi yardımını eyni millətin bir-birinə qucaq açması kimi dəyərləndirən Məhəmmədzadə yazırdı: "Tarixi vəzifəsini şərəflə yerinə yetirib gedən Qafqaz İslam Ordusu özündən sonra gənc milli bir ordunu nüvəsini yaratmışdı. Bu ordunun təmin etdiyi nizam və intizam sayəsində İngilis işğal ordusu komandanlığı Azərbaycan istiqlalını tanımaqda ilk addım olaraq Azərbaycan hökumətini yeganə məşru (qanuni) məqam olaraq elan etmişdir".[954]

---

[952] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992, s.211
[953] Yenə orada, s.212
[954] Məmmədzadə M.B.Qafqaz İslam Ordusu. // Azərbaycan mühacirət irsi. Bakı, "Elm və Təhsil", 2011, s.58

O, "Bakı yollarında" məqaləsində Qafqaz İslam Ordusunun necə təşəkkül tapmasından, Azərbaycan Milli Ordusunun yaranmasından və 15 sentyabr 1918-ci ildə rus-erməni hərbi birləşmələrinin işğalı altında olan Bakının azad edilməsindən hərtərəfli qələmə almışdır. Məhəmmədzadə yazır ki, Anadolu qəhrəmanlarının unudulmaz fədakarlıqlarından ilham alan Azərbaycan türkü ikinci 15 Sentyabrın da doğulmasına dərin inam bəsləməkdədir. Çünki o, Anadolu qəhrəmanlarının mübarək qanları bahasına bizə bəxş etmiş olduqları 15 Sentyabr zəfərini heç bir zaman unutmamış və unutmayacaqdır.[955]

15 Sentyabr zəfərinin 18-ci ildönümü münasibətilə yazdığı "Bakı məsələsi" məqaləsində də, o bildiridi ki, bu gün birləşmiş Azərbaycan-Türkiyə orduları Bakını tarixi və əzəli düşmənindən təmizləmiş, bununla Yaxın və Orta Şərq in tarixində yeni bir dövr açmışdır: "Bakı məsələsinin axıdılan Türk qanının bahasına Azərbaycana faydasına olan həlli yalnız Azərbaycan və Qafqaz xalqından deyil, bütün türklük və müsəlmanlıq aləminin mənfəətləri haqqında daha qüvvətli idi". [956] Mirzə Balaya görə Bakı, onunla birlikdə Azərbaycan və bütün Qafqaz məsələsi Şərq məsələsi deməkdir: "Və 18 il bundan əvəvl Bakının qurtuluşu uğrunda axıdılmış olan qan, yalnız Azərbaycanın istiqlalı üçün deyil, bütün Qafqaz, bütün Türklük və bütün Müəslmanlıq dünyası üçün axıdılmışdır. Bu, dünən belə olduğu kimi, sabah da belə olacaqdır və bu gün Azərbaycan istqilalı üçün axıdılan qan da eyni məqsədlə axıdılır".[957]

Mühacirət dövründə onun diqqət yetirdiyi əsas məsələlər sırasında **27 aprel işğalının nəticələri və marksizm-leninizm**in tənqidi olmuşdur. O, "Azərbaycanın əsir edildiyi gün (1920-27 aprel 1952)" məqaləsində yazırdı ki, 27 aprel millətimizin yenidən Rusiyanın əsarəti altına düşdüyü gündür: "Bu gün milli tariximizin seyri, bədbəxt taleyimiz kimi tərsinə dönmüş, yüksək milli və insani ideallardan qüvvət alan həmləmiz dayandırılmışdır. 27 aprel tarixin-

[955] Məmmədzadə M.B. Bakı yollarında//Azərbaycan mətbuat tarixi antologiyası (mühacirət dövrü). Üç cilddə,III cild. Bakı, "Elm və təhsil", 2013, s.186-192
[956] Yenə orada, s.193
[957] Yenə orada, s.198

dən etibarən millətimizin həyat və mövcudiyyəti istiqlal və müqəddəratı ölüm təhlükəsi altına düşmüş, rus dənizində əriməyə və rus nihilizminin bir ifadəsi olan bolşevizmin köləlik nizamı içində məhv olmağa məhkum edilmişdir. Bu gün bütün müsəlman Şərqinin və Türk dünyasının, hürriyyət və demokratiya kimi mədəni prinisiplərə söykənən, ilk Cümhuriyyəti əsarət və vəhşət timsalı olan rus bolşevizminin qanlı pəncəsinə girmişdir".[958] O, Azərbaycanda iqtidarda olan yerli bolşeviklərin bu günü "aprel inqilabı" adlandırdığı halda, rəsmi Moskvanın daha ehtiyatlı davaranıb "Azərbaycanın sovetləşməsi" kimi adlandırlmasını təsadüfi hesab etməmişdir. Mirzə Bala yazır: "Moskva bu günə heç bir zaman inqilab adını verməmişdir. Moskvanın müxtəlif vəsilə və səbəblərlə bu günə verdiyi ad "Azərbaycanın sovetləşməsi"dir. Və bu sovetləşmə də hər zaman və hər yerdə "Rusiyaya ilhaq" mənasında alınmışdır. Çünki həqiqətən 27 aprel hadisəsi bir işğal və ilhaqdan başqa bir şey deyildir".[959]

Ümumiyyətlə, ona görə 27 aprel faciəsi kommunistlərin hər yerdə çığırdıqları və bağırdıqları kimi, Azərbaycan kəndli və işçisinin inqilabı deyil, sadə Rusiya ordusunun vəhşicə istilası olması hər kəsə aydın və açıqdır.[960] Bunu nəzərə alaraq, o qeyd edirdi ki, Azərbaycan Türk xalqının məsumanə axan qanından yaranan milli intibah rus ağalığının son qəbir daşı olacaqdır: "Ey Türk xalqı! Səni azad edəcək və xoşbəxt yaşadacaq mübarizəyə bütün qüvvənlə hazırlaş, səni bu mübarizə xilas edəcəkdir! Azərbaycanın istiqlalını bir dəfə qurdun, iknici dəfə də qurmaq bacarığına maliksən. Düşmənini tanı, milli intibahını yüksəlt, haqq səninlədir".[961]

1955-ci ildə Münhendə "Qurtuluş" radiosunda yayımlanmış "Azərbaycanda azadlıq yoxdur" məqaləsində Məmmədzadə bəyan edirdi ki, Sovet Rusiyasının işğalından sonra Azərbaycan Türkü ən bəsit insani hüquqlarından belə məhrum edilmişdir: "Yox yurddaş-

---

[958] Məmmədzadə M.B. Azərbaycanın əsir edildiyi gün (1920– 27 aprel 1952)//Azərbaycan mətbuat tarixi antologiyası (mühacirət dövrü). Üç clddə,III cild. Bakı, "Elm və təhsil", 2013, s.210-211

[959] Yenə orada, s.211

[960] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992, s.155

[961] Yenə orada, s.156

larım, bolşeviklərin qızıl yalanlarına inanmayın. Yaşadığınız həyat azadlıq həyatı deyil. Orada əmək də azad deyil, dilək də azad deyil, insan da azad deyil. Əməyin və diləyin azad sayıla bilməsi üçün hər şeydən əvvəl insanın özü azad olmalıdır. İnsan bütün hüquqi, mədəni, iqtisadi və başqa insani haqlara malik olmalıdır".[962]Bütün bu hüquq və azadlıqlar isə Azərbaycanda yoxdur, çünki bolşeviklər bunu azərbaycanlıların əllərindən zorla almışdır. O, yazırdı: "Hər şey Kommunist partiyasının və hökumətinin malıdır. Və məmləkət onların bir malikanəsidir. Ticarət alətləri də onların inhisarındadır. Siz yetişdirdiyiniz məhsulları yox qiymətinə onlara təslim etmək məcburiyyətindəsiniz. Hələ istdəyiiniz və möhtac olduğunuz məhsulu yetişdirmək azadlığına da sahib deyilsiniz".[963]

Bu həqiqəti, yəni sözdə fəhlə və kəndlinin azad olmasını, əslində isə hakimiyyətin bir qrupun əlində cəmləşməsini bolşeviklərin lideri Lenin belə qəbul etmişdir. Çünki Lenin "Nə etməli?" əsərində yazırdı ki, fəhlə və kəndliyə azadlıq vermək, üstəlik onlara hakimiyyətdə hökumət işləri etibar etmək olmaz. Məhəmmədzadəyə görə Leninin bu fikirləri "NEP" dövründə tamamilə isbat edildi: "Əziz yurdaşlarım! Görürsünüz ki, bolşeviklər azadlıq düşməni olduqlarını özləri də boyunlarına alırlar. Bunun bir həqiqət olduğunu Leninin sözləri və onun qanlı vəsiyyətini yerinə yetirən Stalinin qanlı icraatı da sübut etdi. Azadlıq sayəsində onların qanlı diktaturalarına son qoyacağımızı bildikləri üçün bolşeviklər sizi bütün haqlardan və vasitələrdən məhrum etmişlər. Onların əlinizdən aldıqları yalnız əmək və dilək azadlığı deyildir. Yəni siz yalnız iqtisadi azadlıqdan məhrum deyilsiniz. Bolşeviklər sizin təbii və insani haqqınız olan dilədiyiniz kimi inanmaq, düşünmək, yığılmaq, danışmaq, yazmaq və cəmiyyət qurmaq azadlıqlarından da məhrum etmişlər. Yəni siz bolşeviklərdən başqa bir şeyə inana bilməzsiniz".[964]

---

[962] Məmmədzadə M.B. Azərbaycanda azadlıq yoxdur // Azərbaycan mühacirət irsi. Bakı, "Elm və Təhsil", 2011, s.51

[963] Yenə orada, s.52

[964]Yenə orada, s.53

O, yazırdı ki, 27 aprel işğalı milli haqq və hürriyyətlərlə bərabər milli mətbuata son vermiş başqa sözlə, Rus istilası Azərbaycan xalqını yalnız istiqlaldan deyil, azad və sərbəst milli mətbuatdan da məhrum etmişdi. Məhəmmədzadəyə görə yalnız "İstiqlal" qəzeti üç il gizli şəkildə Bakıda nəşr olunmuşdur ki, onun da qapanmasından sonra ümidlər yalnız mühacirət mətbuatına bağlanmışdır: "26 sentyabr 1923-cü il tarixində İstanbulda intişara başlayan "Yeni Qafqasya" Bakıda əldən-ələ keçir, maraqlı bir surətlə oxunurdu. Azərbaycan mətbuatı tarixində "mühacirət dövrü" kimi bir mərhələ başlamışdı".[965]

**Türkçülük və turançılıq.** Məhəmmədzadə yaradıcılığında türkçülük və turançılığın Türk xalqları üçün hansı: siyasi yoxsa, mədəni birlik mənası daşıması ilə bağlı mövcud olan fikirləri dəyərləndirməyə və bu məsələdə tutduğu mövqeyi ifadə etməyə çalışmışdı. Hələ, Cümhuriyyət dövründə Türkçülüyün/Turançılığın təbliğatçısı olan Mirzə Bala, həmin dövrdə Tiflisdə nəşr etdirdiyi "Gənclər yurdu" jurnalında yazdığı "Məqsədimzi nədir?" məqaləsində qeyd edirdi ki, onların əsas məqsəd və iqtisadi amalı Osmanlı, Azərbaycan, Tatarıstan, Türkistan və Monqolustan kimi parçalara bölünmüş Türk millətini bir yerdə görmək, Turan yurdunda yenidən diriltməkdir: "Fəqət başqaları ilə fərq budur ki, bundan ötəri qılınca, qurşuna, oda, alova deyil, ədəbiyyata, elmə, mədəniyyətə müraciət ediləcəkdir. "Gənclər yurdu"nun fikrincə, həyati-bəşəriyyə ancaq millətlərin tərəqqi və təlimləri ilə məmnundur. Tərəqqi etmək mədəni bir millət olaraq elmi bəşəriyyətə xidmət etmək üçün hər millətə möhkəm bir lisan, mükəmməl bir ədəbiyyat, müstəqil bir mədəniyyət sahibi olmaq icab edər. Fəqət ədəbiyyat, ənənati-tarix, dil və mədəniyyətlə səfi mərbut olan bu türklük hissələri ümumi, sadə bir ədəbi xalq dilindən məhrum olduqlarından tarixdə dəfələrlə birləşib böyük Türk imperatorluqları yapdıqlarına baxmayaraq bir yerdə yaşayamamışlar. "Gənclər yurdu" zənn edir ki, birləşmiş bir Türk milləti

---

[965] Məmmədzadə M.B. Azərbaycanın əsir edildiyi gün (1920– 27 aprel 1952)//Azərbaycan mətbuat tarixi antologiyası (mühacirət dövrü). Üç cilddə,III cild. Bakı, "Elm və təhsil", 2013, s.210-211

görmək üçün ümumi bir dil düzəltmək lazımdır. Türk qövmlərini mədəni cəhətcə birləşdirmək gərəkdir”.[966]

O, yazırdı ki, “Gənclər yurdu” bu məqsədlə öz səhifələrində Türk dili, Türk ədəbiyyatı, Türk tarixinə dair məlumatlar verib, Türk dünyasında (Anadolu, Azərbaycan, Türkistan, Krım, Tataristan, Monqolustan və b.) yaşayan türklərin ictimai həyatı, siyasəti, mədəniyyətlərilə öz oxucularını tanış edəcəkdir: ““Gənclər yurdu” tam mənasilə yeni fikir tərəfdarı olduğunu göstərmək üçün var qüvvəsilə milləti xalqdan ibarət biləcək, onun hüququnu, onun hakimiyyətini müdafiə edəcək, təki ədəbiyyat, mədəniyyət də xəlqləşsin...”.[967] O, “Mart günləri” məqaləsində də yazırdı ki, Azərbaycan türkləri Türkçülük şüuru ilə meydana atılmış, Azərbaycan türklüyü ilk əvvəl müstəqil və hürr bir Cümhuriyyət vücuda gətirmişdir: “Azərbaycan türklüyü Şərq aləmində yeni bir tarix vücuda gətirmiş, Türk-Turan tarixində yeni bir intibah dövrü yaratmışdır”.[968]

Məhəmmədzadə yazırdı ki, Türk Federasiyasını vücuda gətirmək üçün, əvvəlcə ortaq bir dil, din və mədəniyyət sahibi olan xalqlar arasında birlik olmalıdır. Bu isə dini birlikdən çox, milli birliklə mövcud ola bilər. O, yazırdı: “Yalnız bu münasibət bütün müsəlmanları mexaniki bir surətdə birləşdirən “İttihadi-İslam”dan ibarət ola bilməz. “İttihadi-İslam” qeyri-mümkün bir mif, bir etiqaddır. Əksinə, bütün türklərin, bütün farsların, bütün ərəblərin canlı bir vücud kimi birləşmələri həm mümkün, həm də arzu ediləndir. Müsəlman olan millətlər birər millət və birər milli hökümət halına gəldikdən sonra belə “İttihadi-İslam” deyil, İslam İttifaqı mümkün hadisə ola bilər. Ancaq belə bir siyasi ittifaq mövcud olmasa da mədəni bir ittifaq vardır və olmalıdır. Bütün Türklər öz aralarında bütün dünya federasiyasına bir addım atmaq üçün bir federasiya yaratmalıdırlar. “Yeni Turan Birliyi” ancaq müstəqil Türk

---

966 Məmmədzadə M.B. Məqsədimiz nədir? “Gənclər yurdu”. Tiflis, 23 iyul 1918, №1
967 Yenə orada.
968 Məmmədzadə M.B. Mart günləri. “İstiqlal” qəz., 31 mart, 1920, №12

hökumətlərinin federasiyası şəklində təsəvvür oluna bilər ki, Azərbaycan da bu Müstəqil Turan silsiləsinin mühüm bir həlqəsidir”.[969]

O, yazırdı ki, hələ çar Rusiyasının dağılması ərəfəsində türkçülər və turançılar vahid Türk dövlətinin qurulması istəyində bulunsalar da, bunun imkansız olduğunu anlamışdılar: “Rusiyanın xarabalıqları üzərində vahid deyil, ayrı-ayrı Türk dövlətləri qurulur və yaxud qurulmaq istənir. Dünya türklərinin geopolitik vəziyyəti, coğrafi vəziyyət etibarilə dağınıq və bir-birilərindən uzaq olmaları, onları ayrı-ayrı dövlətlər qurmağa sövq etmişdi. Doğrudur, “Müsavat” firqəsi bu vəziyyəti nəzərə almış və bu milli dövlət prinsipni dilə gətirərkən bir gün bu dövlətlərin federasiya yaradacaqlarını təsəvvür etmişdi. Fəqət o “bir gün” uzaq, bu gün isə yaxın idi. Türk dünyasının geopolitik vəziyyəti, mədəniyyət və kültür xüsusunda eyni məfkurə, qayə və taktikaya sahib müxtəlif Türk ellərini siyasi-dövlətçilik sahəsində məhəlli yurdçuluq-vətənçilik yoluna sövq etmişdi”.[970] Onun fikrincə, bir bütün halda başlayan Türk milli hərəkatının ayrı-ayrı yurdçuluq və milli dövlətçilik halına gəlməsində siyasi, coğrafi, iqtisadi və strateji səbəblər mühüm rol oynamışdı.

Məhz bu səbəblərin nəticəsidir ki, Türkiyədə milli hərəkata başlayanlar yalnız Türkiyə türklərini düşünmüş, onların proqramında Türkiyə xaricindəki türklərdən bəhs olunmamış, hətta Türkiyə Misaqi-Millini gerçəkləşdirmək üçün Qərbi Avropa imperialistləri ilə döyüşdə Türküstan, Krım, İdil-Ural və Azərbaycan türklərinin mübarizə apardıqları Rusiya ilə müttəfiq olmaq məcburiyyətində qalmışdı. Türkiyə Cümhuriyyəti qurulduqdan sonra da bu proses davam etmiş və Türk birliyi uğrunda mübarizə aparan “Türk ocağı” əvvəlcə fəaliyyətini Türkiyə ilə məhdudlaşdırmış, daha sonra isə bir müddət qapanmışdır. Məmmədzadə yazır: “Artıq Türkiyədə bir Türkiyə türkçülüyü doğmuşdu və bu halın cığırından sapmış bir xətası olmaq üzrə “Anadolu milətçiliyi” epizodu da müşahidə edilmişdi. “Anadolu” məcmuəsi ətrafında toplanan bir qrup ziyalılar-

[969]Məhəmmədzadə M.B. Azərbaycan Milli Xartiyası. 28 Mayıs İstiqlal bəyannaməsinin təhlili. “Azərbaycan” ədəbi-bədii jurnalı, №4, Bakı, 1991, s. 140
[970] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992, s.201-202

dan ibarət zümrənin irəli sürdyü iddiaya görə türklük bir millət deyil, bir irqdir və bu irqə Anadolu, Azərbaycan, Türküstan və i.a. kimi millətlər daxildir".[971]

Doğrudan da bu dövrdə, türkçülüyün ideoloqu sayılan Z.Gökalp belə türkçülüyün və turançılığın real siyasi-ideoloji hədəfi kimi türkiyəçiliyi götürmüşdü. Onun fikrincə, uzaq gələcəkdə oğuzçuluq və daha sonra turançılıq mümkündür ki, bu isə daha çox siyasi deyil, mədəni birlik mahiyyətli idi. Gökalp yazır: "Yüz milyon türkün bir millət halında birləşməsi türkçülər üçün qüvvətli bir coşqunluq qaynağıdır. Turan məfkurəsi olmasaydı, türkçülük bu qədər sürətlə yayılmayacaqdı. Bununla bərabər, kim bilir, bəlkə gələcəkdə Turan ülküsünün gerçəkləşməsi də mümkün olacaqıdr".[972]

Mirzə Bala yazırdı ki, artıq Türk birliyi kimi romantik turançılıq da əski mənasını tamamilə dəyişdirmişdi. Türkçülük və turançılıq məsələsində, "Müsavat"ın 1936-cı ildə qəbul etdiyi "Yeni proqram əsasları"na görə, ümumi türkçülüklə azarbaycançılığı ideal bir surətdə birləşdirməyə nail olmaq lazım idi. Yəni müsavatçılar türk mədəni birliyinə sadiq və bağlı qalmaqla yanaşı, müstəqil Azərbaycan türkçülüyü ideyasını müdafiə edirdilər. O, yazırdı: "Müsavatçılıq böyük türk kültürünə bağlı, milli, mədəni və insani dəyərləri mənimsəyən, hürriyyət, cümhuriyyət və istiqlal idealına sadiq Azərbaycan vətənsevərliyidir. Böyük türklüyə mənsub bir məmləkət olması səbəbilə Azərbaycan digər türk elləri ilə kültürəl surətdə bağlıdır. Bu bağlılığın bundan əvvəl olduğu kimi, bundan sonra da qorunmasını müsavatçılıq ciddiyyətlə müdafiə edər".[973]

Mirzə Balaya görə türkçülük ən yüksək səadət mahiyyətində olduğu üçün, milliyyətə bağlı qalmaq, millət kimi yaşamaq, yabançılaşmaqdan qurtulub millətə dönmək, mənsub olduğu millət Türk olduğu üçün, Türkləşmək, Türk olaraq yaşamaq, Türk olaraq qalmaq deməkdir. Türkçülüyün hədəfi olan Turançılığın məqsədi Sovet imperatorluğunu parçalamaq, Sovet əsarəti altında inləyən əsir

[971] Yenə orada, s.206
[972] Gökalp Z. Türkçülüyün əsasları. Bakı, Maarif, 1991, s.38
[973] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992, s.209

millətləri qurtarmaq, Moskvanı dünya sülhü üçün təhlükə təşkil etməyəcək bir hala gətirməkdir ki, bu da Türk dünyasının, o cümlədən də Türkiyənin əmin-amanlığı deməkdir.[974]

Mirzə Balaya görə türkçülüyü ya da turançılığı bu bölgədə özünə düşmən ideya kimi qəbul edənlər başında ermənilər və farslar gəlir. Belə ki, onların düşüncələrində iki dünya varmış: 1) mədəni İran və erməni dünyası, 2) vəhşi, barbar Türk dünyası, bu da, əvvəlcə İran-Turan, daha sonra da İran-Roma, İran-Bizans müharibələrində öz əksini tapmışdır. Bütün bu məsələlərə "Ermənilər və İran" əsərində aydınlıq gətirməyə çalışan Mirzə Bala yazırdı ki, sonunda Qacarların devrilib, onun yerinə Pəhləvilərin hakimiyyətə gəlməsini İranın Turan, ya da farslarla ermənilərin türklər üzərində qələbəsi kimi qiymətləndirənlər bunu, təsadüfən etmirlər. Onların nəzrində ermənilər, farslar, kürdlər və digər Ariyan xalqlarına əsas təhlükə turançılıq, yəni Böyük Turanın qurulması olduğu üçün, daim ayıq-sayıq olmalı, özlərini müdafiə etməlidirlər. Başqa sözlə, Türk düşmənlərinə görə Ankara Turanizmin mənbəyi və mərkəzi olduğu kimi Tehran və ya İsfahan da ariyan nəslinin qardaşlıq və ittifaq mənşəyi, iranizmin mərkəzi olmalı, "Türk ocağı"na qarşılıq "Ariyan ocağı" təşkil etməlidirlər.[975]

Bütün bunlara cavab olaraq Mirzə Bala yazırdı ki, bir rusla farsın, bir almanla fransızın birliyi mümkün olmadığı kimi, bu anlamda ermənilərə farsların da ittihadı cəfəngiyyatdan başqa bir şey deyil: "Bir fransızla bir almanın nə qədər ariyanizm bayrağı altında birləşməsi mümkünsə bir gürcü, fars, kürd və erməni ittihadı dəxi o surətlə mümkün ədd oluna biləcəyini "Daşnaksütyun" mühərrirləri çox yaxşı bilirlər. Bilirlər ki, fars millətinin ittihadı vücuda gələcəksə hars və mədəniyyət, elm və ürfan sayəsində mümkün olacaqdır və bunun üçün də mücadilə cəbhəsinin şimalə və qərbə Türk dünyasını deyil, bilxassə şərqə

---

[974] Mehmetzade M.B. Türklük ve Komunizm. "Azerbaycan" dergisi, yıl:19, sayı 201, Ankara 1970, s.4

[975] Məmmədzadə M.B. Ermənilər və İran. Bakı, Azərnəşr, 1993, s.16-17

təvəccöh olunduğu ilk əvvəl maddi və mənəvi vəhdətlərinə məhzur olmayanlarla birləşmək lazım gəldiyi aşkardır. Və böylə bir fars dünyasının, fars birliyinin vücuda gəlməsi üçün türklərlə mücadiləyə ehtiyac yoxdur. Çünki farslıqlarına şübhə olmayan və aralarında coğrafi və milli haillər bulunmayan, eyni zamanda mühüm bir qüvvət təşkil edən fars ariyan əqvamı Türk dünyasında deyil İranın Şərqi hüdudundadır”.[976]

Bununla da, Mirzə Bala doğru qeyd edirdi ki, birincisi, müəyyən anlamda eyni qanı daşımalarına rəğmən, farslarla ermənilərin yolları əsasən, tarixən fərqli yollarla irəliləmiş, ikincisi "fars dünyası", "aryanizm" deyilən bir şey olacaqsa, o da, ancaq farsların və ona yaxın etnik qrupların çoxluq təşkil etdiyi bölgələrdə ola bilər. Başqa sözlə, Türk dünyasına aid bölgələrdə, o cümlədən Bütöv Azərbaycanla bağlı ərazilərdə "fars dünyası", "Böyük Ermənistan" tarixən olmadığı kimi, bundan sonra da olmayacaq. Ən yaxşı halda onlar "süni Ermənistan"ı Türk torpaqlarının hesabına, arxalarına alqdıqları güclər hesabına yarada bilərlər ki, onun da gec-tez taleyi puç olacaqdır.[977]

**Qafqazçılıq.** Mirzə Bala hələ, 1918-ci ilin əvvəllərində Tiflisdə Qafqaz Konfederasiyasının qurulması məqsədi ilə yaradılan təbliğatçılar qrupunun üzvü kimi fəaliyyət göstərərək Qafqaz Federativ Cümhuriyyətinin yaradılmasına çalışmış, Qafqazda birliyin, bərabərliyin qorunub saxlanılması məqsədi ilə yaradılan Qafqaz Tələbələrinin Mərkəzi Komitəsinin rusca-türkcə yayınladığı aylıq "Gənclər sədası" dərgisinin önəmli yazarlarından biri olmuşdur. Mirzə Bala bu komitə heyəti ilə birgə qəsəbələrdə, kəndlərdə, fabirklərdə təbliğat apararaq Qafqaz Federativ Cümhuriyyətinin yaradılması istiqamətində önəmli rol oynamışdı.[978]

Bu məsələdə də M.Ə.Rəsulzadə ideyalarının davamçısı olan Məhəmmədzadə Qafqazçılıq ideyasını mühacirətdə yaşadığı dövr-

---

[976]Yenə orada, s.19-20

[977]Yenə orada, s.28

[978] Əhmədli Rafail. Mirzə Bala Məhəmmədzadənin ictimai-siyasi görüşləri.Bakı, Ozan, 2017, s.58-59

də də davam etdirmişdir. Xüsusilə də, 1930-cu illərdə təşəkkülü və fəaliyyətində Azərbaycan siyasi mühacirlərinin də yaxından iştirak etdiyi "Qafqaz Konfederasiyası Şurası" fəaliyyətə başlamışdı. Qafqaz xalqlarının coğrafi, iqtisadi və tarixi əlaqələrini onların birlikdə yaşamasını şərtləndirən amil sayan Məhəmmədzadə göstərirdi ki, Qafqaz xalqları ayrıldıqları zaman əsarətə düşmüş, birləşdikləri zaman qurtulmuşlar. Onun üçündür ki, Türkistanda, Quzey Qafqazda, İdil-Uralda "parçala və hökm et" siyasətini tətbiq edən Moskva həmişə Zaqafqaziyada birliyi əngəlləmişdir.[979]

"Müsavat"ın 1936-cı ildə Varşavada keçirilən 3-cü qurultayının "Yeni proqram əsasları"na görə, Azərbaycan türkləri müstəqillik əldə etmək üçün Qafqazın digər millətləri ilə bir yerdə mübarizə aparmalı və hətta onlarla konfederativ dövlətdə birləşməyi belə istisna etməməli idi. O da, "Müsavat"ın "Yeni proqram əsasları"ndan çıxış edərək qeyd edirdi ki, Azərbaycan milli ideyasının mövcudluğuna səbəb isə Şərqi Avropa ilə Yaxın Şərqi birləşdirən və Xəzərlə Qara dəniz arasında yerləşən Qafqazın ayrılması qeyri-mümkün olan bir üzvüdür: "Qafqaz millətləri müxtəlif bağlarla bir-birlərinə o qədər bağlıdırlar ki, hamısı müstəqil və həmrəy olmadan heç biri azadlığını qoruya bilmir. Azərbaycan məsələsi bütün Qafqaz məsələsinin bir parçasıdır. Qafqazda müstəsna və nüfuzlu bir yer tutan Azərbaycan öz istiqlalını əldə edib qorumaq üçün Qafqazın digər millətləri ilə əl-ələ yürümək məcburiyyətindədir".[980]

Qafqaz xalqlarının bir gün yenidən öz müstəqilliyini əldə edəcəyinə inanan mütəfəkkir yazırdı ki, bu gün Qafqaz Rusiyanın işğalı altında olsa da, ancaq üsyan halındadır: "Qafqaz bu gün bolşeviklərin hakimiyyəti altında milliyyət və istiqlal atəşi ilə tutuşmuş bulunuyor. Bolşevik istilasının aradan qalxması ilə Qafqaz xalqlarının əldə edəcəkləri bağımsızlıq və hürriyyət Yaxın Şərqi də rahata qovuşduracaqdır. Bu etibarla bu gün Sovetlər Birliyinin hər-

---

[979] Mehmetzade M.B. "Maverayi-Kafkasya Federasiyası neden dağıldı?", "Kurtuluş" dergisi, yıl:3, sayı: 21, Temmuz-Agustos, Berlin, 1936, s.14

[980] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992, s.210

bi bazası olan Qafqaz bu işğaldan qurtulduqdan sonra bütün dünya üçün bir barış və güvən ünsürü olacaqdır”.[981]

**Bütöv Azərbaycançılıq.** Mirzə Bala mürşidi, milli ideoloq M.Ə.Rəsulzadə kimi bir gün Bütöv Azərbaycan ideyasının gerçəkləşməsi yolunda olmuşdur. O, Cümhuriyyət dövründə qələmə aldığı “Azərbaycan Cümhuriyyəti” silsilə məqalələrində bunu belə ifadə etmişdir ki, tarixən Azərbaycan bir olmuş, onun tarixi, ədəbiyyatı, mədəniyyəti, coğrafiya və etnoqrafiya halı bunu təsdiq edir: “Fəqət yüz on dörd sənə bundan irəli Azərbaycan iki hissəyə ayrıldı. Arazdan cənubu İranda, şimalı Rusiyaya getdi. İmdi Rusiya Azərbaycanı xilas etmiş, müstəqil bir hökumət halına gəlmişdir. Cənub hissəsi barəsində bir söz söyləyə bilmərik. Fəqət arzumuz bu iki parçanın birləşməsidir”.[982] Asif Rüstəmli yazır ki, Cümhuriyyət dövründə Mirzə Bala ilk dəfə mətbuat vasitəsilə Azərbaycanın bütöv ərazisini, sərhədlərinin kontrunu oxucularına təqdim edirdi: “Əslində bu xatırlatma parçalanmış vətənin bütövlüyü, birliyi, monloitliyi uğrunda gələcək mübarizələrə incə bir işarə idi”.[983]

Məhz bundan irəli gələrək Mirzə Bala “Azərbaycan Cümhuriyyəti” başlıqlı sonuncu məqaləsində yazırdı: “Biz Azərbaycanı Cümhuriyyət halında görmək istədiyimiz kimi özünü də bütöv və həqiqi bir Azərbaycan halında görmək tərəfdarıyıq. Əgər İran Azərbaycanı ilə Qafqasiya birləşməyə müvəffəq olsalar o vəqt ən xoşbəxt bir millət ola biləcəgiz deyiriz. Təbiətcə dövlətli, mədəni, Cümhuriyyətli Azərbaycan Qafqasiya dağlarından Farslıqa (Qacarların Fars əyaləti nəzərdə tutulur – F.Ə.) kimi sərbülən (başı uca – F.Ə.) on milyonluq bir əhalinin yurdu, vətəni olacaqdır. Bu əhali hamısı da bir millət olmuş olacaq”.[984] O, daha sonra yazırdı ki,

---

[981] Mehmetzade M.B. Kafkas İstiklal ilanının 40.yıldönümü münasibeti ile. “Dergi”, yıl: №12, Münih 1958, s.3-17

[982] Məmmədzadə M.B. Azərbaycan Cümhuriyyəti. “Gənclər yurdu”. Tiflis, 23 iyul 1918, №1

[983] Rüstəmli Asif. Zirədən başlanan yol (Mirzə Bala Məhəmmədzadənin həyatı, yaradıcılığı və mühiti).Bakı, ZMM-EkoPark, 2018, s.43

[984] Məmmədzadə M.B. Azərbaycan Cümhuriyyəti. “Gənclər yurdu”. Tiflis, 15 noyabr 1918, №5

Azərbaycan xalis bir millətdən ibarət bir qitədir, aramızda xırda etnoslar, etnik qruplar azdır: "Onlara da Xalq Cümhuriyyətimiz mədəni muxtariyyət əta edəcəkdir. Ona görə də, azərbaycanlılar ən bəxtiyar millətlərdən hesab oluna bilərlər. Bizim kimi xalis bir millətdən ibarət məmləkət yox deyildir. Fəqət bizim dövlət, sərvət, mədəniyyətimiz bizə millətlər arasında xüsusi bir mövqe ayırır. Böylə bir xüsusiyyət üçün də azərbaycanlılar Şərqin ən mədəni və fəal bir milləti ola bilərlər. Azərbaycan həmişəyaşar və insaniyyətdə böyük xidmətlər edər".[985]

**Mədəni-ədəbi və elmi-tarixi görüşləri.** Onun yaradıcılığında dünyagörüşündə milli mədəniyyət, milli əxlaq məsələləri də mühüm yer tutmuşdur. O, yazırdı ki, hər bir millət mahiyyətcə də, formaca da milli mədəniyyətdən çıxış etməlidir. Əks təqdirdə milli mədəniyyətdən uzaq qalan dövlətdə Qacarlar və Osmanlı da olduğu kimi, uçurumlar yaranıb üsyanlar çıxar: "Əski saray zehniyyətilə "mahiyyəti" və hər şeyi kəndilərindən ibarət bilən kommunistlər çox dərin qəflət içərisində idilər. Azərbaycanın həqiqi vəziyyətini obyektiv baxışla görə bilmədiklərindən fikirlərində israr edirdilər. Halbuki şəkilcə və mahiyyətcə Türk olan Azərbaycan mədəniyyəti yeni şərait içərisində bu mədəniyyəti mahiyyətcə daha çox türkləşdirmiş və milliləşdirmişdir".[986] O, milli qüvvələrin əvvəlcə ərəb əlifbasından latına keçilməsinə etiraz etmələrinə səbəb olaraq, bolşeviklərin məkrli niyyətlərini və bunun Azərbaycan ilə Türk dünyası arasında əlaqələrə zərbə olmasını göstərmişdi.[987] O, yazırdı ki, sovet ideoloqları ruslaşdırma nəticəsində yarı rusca, yarı türkcə olan "internasional" dil yaradırdılar.[988]

Onun Ankarada yayınlanan "Azərbaycan tarixində Türk Albaniya" (1951) adlı əsəri isə Azərbaycan Türk tarixinin qədim dövr və erkən orta əsrlər dövrünü öyrənmək üçün maraqlı mənbədir. O, bu əsərində Azərbaycanın qədim dövrlərdən bir türk yurdu

---

[985]Yenə orada.

[986] Məmmədzadə M.B. Köylü hərəkatı. Lenin milli siyasəti. Bakı, 2007, s.53

[987] Məmmədova Fatimat. Azərbaycan mühacirətinin kulturoloji irsində dil problemi. Bakı, "Elm", 2009, s.56

[988] Mehmetzade M.B. Sovyet Azerbaycanda Türk dilinin ruslaşdırma ve imha siyaseti hakkında. Kurtuluş, Berlin, 1936, №20, s.56

olması nəzəriyyəsini müdafiə etmişdir. Erməni müəlliflərinin "Albaniya"nı "Aqvank" və ya "Ayiank" adlandırmasını "Erməni tezisi" adlandıran Mirzə Bala yazırdı ki: "Bu nəzəriyyənin çürüklüyü alimlər tərəfindən isbat edilmişdir".[989] Onun fikrincə, Azərbaycan xalqının qədim əcdadlarından albanlarla kaspilər türksoylu olmuş, erkən orta əsrlərdə yeni Türk axınları ilə qaynayıb qarışmışdır.[990]

**Ümumilikdə,** Məhəmmədzadənin müdafiə etdiyi ideyaların nüvəsində Azərbaycan türkçülüyü və Bütöv Azərbaycan ideyası dayanmışdır. Onun dünyagörüşündə "milli Azərbaycan", "azərbaycançılıq" dedikdə də, əsasən ümumi türkçülüyün doğurduğu və onun müstəqil bir hissəsinə çevrilmiş Azərbaycan türkçülüyü və Bütöv Azərbaycan ifadə olunmuşdur. Ancaq onun siyasi fəlsəfəsində azərbaycançılıq yalnız türkçülüklə məhdudlaşmamış, eyni zamanda istiqlalçılığı, müsavatçılığı, xalqçılığı və dövlətçiliyi də özündə əks etdirmişdir. Azərbaycançılıqla türkçülük arasındakı münasibətlərə gəlincə, Mirzə Bala M.Ə.Rəsulzadə kimi, daim onların bütövlüyündən yana olmuşdur. Onun Azərbaycançılıq və Bütöv Azərbaycan ideyalarından sonra ən çox diqqət etdiyi ideyalar Turançılıq/ Türkçülük, Qafqazçılıq və Milli həmrəylik (solidarizm) olmuşdur. Məhəmmədzadə üçün Turançılıq/Türkçülük Azərbaycan türkçülüyünü ayaq üstə tutmaq və Bütöv Azərbaycana nail olmaq üçün əsas nüvə hesab olunurdu. Çünki Turançılıq Azərbaycan türkçülüyünün var olma səbəbi idi. Başqa sözlə, türkçülük zəifləyəndə də, güclənəndə də bundan ən çox təsirlənən məhz Azərbaycan türkçülüyü olmuşdu.

---

[989] Mehmetzade M.B. Azerbaycan Tarihinde Türk Albanya. Ankara, Yeni Ceza Evi, 1951, s.3-6

[990] Yenə orada, s.8-11

## NƏSİB BƏY YUSİFBƏYLİ

**Həyat və yaradıcılığı.** Azərbaycan Türk mütəfəkkiri Nəsib bəy Yusifbəyli (1881-1920) Gəncədə anadan olub, buradakı klassik gimnaziyada təhsilni bitirdikdən sonra əvvəlcə Peterburqda Texnologiya İnstitutunun (1902), çox keçmədən də Odessada Novorossiya Universitetinin hüquq ixtisası üzrə tələbəsi olmuşdur. 1907-ci ildə Novorossiya Universitetinin müvəqqəti bağlanmasından dolayı Xarkov Universitetində təhsilini davam etdirən Yusifbəyli vətənə hüquqşünas kimi dönmüşdür. 1906-1912-ci illlərdə müəyyən fasilələrlə, daha çox Krımda yaşamış, İ.Qaspıralının qurucusu olduğu "Tərcüman" qəzetində çalışmışdır. Yusifbəyli 1908-1909-cu illərdə Osmanlıda yaşayıb, oradakı "Gənc türklər"lə təmasda olub.[991] Yusifbəyli 1905-ci ilin sonlarında Gəncədə Əliəkbər bəy Xasməhəmmədov, Ə.Rəfibəyli və başqalarıyla birlikdə Türk sosial-federalist "Qeyrət" Partiyasını yaratmışdır. 1917-ci ildə "Qeyrət""Türk Ədəmi-Mərkəziyyət" Partiyası kimi bərpa olunmuşdu.[992] O, 1912-ci ildən 1918-ci ilədək isə yalnız Gəncədə yaşayaraq burada Gəncə Şəhər İdarəsinin, Gəncə Şəhər Dumasının üzvü olub.

1917-ci ilin fevral burjua inqilabından sonra Gəncədə Müsəlman Milli Komitəsi,[993]az sonra onun əsasında "Türk Ədəm-Mərkəziyyət" Firqəsi yaradılmış, Yusifbəyli də sədr seçilmişdir.[994] Onun sədri olduğu bu partiya çar Rusiyasının federasiyaya çevrilib Azərbaycana siyasi muxtariyyət verilməsini qarşısına əsas vəzifə kimi qoymuş, bu məqsədlə 1917-ci ildə Gəncədə Şah Abbas məscidinin həyətində böyük mitinq də keçirmişdir.[995] 1917-ci il aprelin 15-20-si arasında Bakıda keçirilən Qafqaz müsəlmanlarının I qurultayında Yusifbəyli türklərin tapdalanmış hüquqlarından danışaraq "müstə-

---

[991] Qəhrəmanlı Nazif. Nəsib bəy nümunəsi. Bakı,"Nurlan", 2008, s.8
[992]Azərbaycan tarixi. Yeddi cilddə, V cild (1900-1920-ci illər). Bakı: Elm, 2008, s.153
[993] Bağırov Fikrət."Türk Ədəmi-Mərkəziyyət" Partiyasının banisi N.b.Yusifbəyli // Nəsib bəy Yusifbəyli–milli istiqlal və dövlətçilik mücahidi.Bakı, "Ziya",2013, s.29-39
[994]Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, "Azərnəşr", 1992, s.187
[995]Rəsulzadə M.Ə. Nəsib bəy Yusifbəyli. "Odlu Yurt" dərgisi, 1929, № 3, s.75

qil Azərbaycan muxtariyyəti" fikrini siyasi bir tələb olaraq ilk dəfə irəli sürmüşdür. Həmin Qurultayda Yusifbəylinin başçılıq etdiyi "Türk Ədəmi-Mərkəziyyət"lə "Müsavat"ın qiyabi olaraq birləşdirilməsi razılığına da gəlinib.[996]

O, 1917-ci ilin noyabr ayında Rusiyada Müəssislər Məclisinə keçilən seçkilər nəticəsində millət vəkili seçilmiş, bu hüquqla da az sonra, yəni 12 (25) yanvar 1918-ci ildə Zaqafqaziya Seyminin deputatı olmuşdur. Seymdəki Müsəlman fraksiyasının sədri M.Ə.Rəsulzadə, müavinləri N.Yusifbəyli və Məhəmmədyusif Cəfərov, katibləri Mustafa Mahmudov və Rəhim ağa Vəkilov idilər.[997] Seymin 13 (26) mart 1918-ci il tarixli 17-ci iclasında baş nazir Y.P.Gegeçkorinin yeni hökumət kabinetində o, xalq maarif naziri vəzifəsini tutmuşdur. Seymin 8 aprel 1918-ci ildəki qərarı ilə Yusifbəyli və Seym katibi Ə.Kantemirov Osmanlıyla Seym arasında keçirilən Trabzon konfransında iştirak etmişlər. Azərbaycan nümayəndələrinin təkidilə Zaqafqaziya Seymi aprel ayının 22-də Zaqafqaziyanın suverenliyini bəyan etmişdi.[998] Seymin 26 aprel tarixli iclasında baş nazir A.Çxenkeli yeni hökumət kabinetini açıqlayıb ki, burada da N.Yusifbəyli maarif naziri vəzifəsində qalmışdır.

Cümhuriyyət dövründə F.Xoyskinin başçılığı altında təşkil edilən ilk hökumətdə Yusifbəyli maliyyə və maarif naziri, ikinci və üçüncü kabinetlərdə isə maarif və məzahib naziri olmuşdu. O, 1919-cu ilin aprelin 14-də fəaliyytə başlayan dördüncü hökumətin baş naziri olub, daha sonra beşinci hökumətdə də təkrarən baş nazir vəzifəsini tutmuşdur. 1920-ci ilin aprelin 1-də onun başçılıq etdiyi 5-ci hökumət istefa vermişdi. 27 aprel işğalından sonra Bakıda gizli yaşayan, sonra isə buranı tərk edən Yusifbəyli 1920-ci ilin mayın sonu, iyunun əvvəllərində Kürdəmirdə, ya da Gürcüstanla sərhəddə naməlum şəkildə şəhid edilmişdir.

---

[996] Məmmədzadə M. B. Milli Azərbaycan hərəkatı. Bakı, "Nicat", 1992, s.56

[997] Əhmədova F. Azərbaycan milli istiqlal hərəkatında Nəsib bəy Yusifbəylinin rolu //Nəsib bəy Yusifbəyli–milli istiqlal və dövlətçilik mücahidi.Bakı, Ziya, 2013, s.114

[998] Балаев А. Азербайджанское национальное движение в 1917-1918 гг., Баку: Элм, 1990, s.184-185

**Milli maarifçilik və islamçılıq.** N.Yusifbəyli ilk dövrlərdə milli maarifçliklə məşğul olaraq dini xurafata, mövhumata, cəhalətə qarşı mübarizə aparmış, İslamın isə bütün bunlarla heç bir əlaqəsinin olmamasına diqqət yetirmişdir. Onun yazdığı "Təslim" hekayəsinin məzmununu xalqın maariflənməsi və inkişafı təşkil etmişdi. Ona görə başqa millətlərin dili zəngin, əlifbaları mükəmməl olub, dövlət məktəblərin tərəqqisinə, maarifə nəzarətə çalışdığı halda, müsəlman-türk xalqlarında vəziyyət ürəkaçan deyildir. Belə ki, müsəlman-türk xalqlarında hələ də, yenilikçilərlə mühafizəkarlar arasında mübarizə davam etməkdədir. Bu anlamda, o, müsəlmanların yeni dövrdə real təhsil vəziyyətini əks etdirmək üçün mədrəsələrdəki şəraiti təsvir etmiş, MollaMahmudun şəxsində mühafizəkarlığı, Rza bəyin timsalında isə yenilikçiliyi ifadə etmişdir.

Onun fikrincə, Molla Mahmudları maraqlandıran heç də millətin gerilikçi durumu deyil, öz hallarıdır. Mədrəsəni tərk edib yeni məktəbdə dərs deməyi dini anlamda böyük günah hesab edən Molla Mahmudlar digər tərəfdən yeniləşmə qarşısında aciz qalmasını da etiraf edirdi. Çünki mədərəsənin axundu onu yeni məktəblərdə dərs verməyə dəvət etdiyi halda, Molla Mahmud bu təklif qarşısında tərəddüd edirdi. Yusifbəyli bunu onunla izah edirdi ki, mühafizəkar islamçılar vaxtilə İslam dininin əsl mahiyyətini öz maraqları naminə xalqa doğru çatdırmadıqları üçün, indi özləri də bundan zərərə çəkmiş olurlar. Belə ki, onlar öz övladlarını rus-tatar məktəblərində oxuturduqları halda, xalqa bunun günah olduğunu söyləmişlər. Bu anlamda, Yusifbəyli Molla Mahmudun dilindən yazırdı: "Səni vaxtilə rus məktəbinə verdiyim üçün Allah başıma bu bəlayı verməyirmi? Allahın lənəti bəni bu əzab, müsibətə uğradıyor".[999]

Xalqın nicatına nail olmaq üçün, artıq millətin övladlarına mühafizəkar, riyakar ruhanilər deyil, millətini, vətənini sevən, eyni zamanda tərəqqipərvər dünyagörüşlü müəllimlər dərs verməlidir. Yalnız bu halda millətdə milli amal, milli mədəniyyəti, milli tərbiyə yarana bilər. Onun fikrincə, nə vaxta qədər məktəblərdə mühafizəkar ruhlu Molla Mahmudlar dərs keçəcəklər, heç vaxt irəliləyiş

---

[999] Qəhrəmanlı Nazif. Nəsib bəy nümunəsi. Bakı, "Nurlan", 2008, s.58

olmayacaq. Çünki Molla Mahmudlar təhsildə və ictimai həyatda yeniliyi və tərəqqini deyil, dini xurafat və cəhaləti təbliğ edirlər.[1000]

Nəsib bəy Rza bəylərin timsalında isə, vaxtilə elm və tərəqqinin mərkəzi olan Türk-İslam dünyasının geriləməsinin səbəblərini göstərməyə çalışırdı. O, yazırdı ki, vaxtilə İslam mədəniyyətinin işığı olan məscidlərdəki mədrəsələrin qapalı hücrələrə çevrilməsinə səbəb burada elmli insanlar əvəzinə, mərsiyəxanlar yetişdirməsidir: "Ah! Vaxtilə mərkəzi-ülum və fünun olan və İbn Rüşdlər, İbn Sinalar yetişdirən, fəqət bugünkü gündə islahı mümkün olmayan bir surətə girmiş bulunan şu mübarək mədrəsələrin lal və əbkəm divarları nələr eşitməmiş, nələr görməmişdir".[1001]

Artıq köhnəpərəstliyə, yalançı din xadimlərinə qarşı ciddi şəkildə mübarizə aparılmalıdır. Bu məsələdə isə açıqgözlü, milli ruhlu müəllimlərin çiyinlərinə daha ağır yük düşür. Çünki İslam ölkələrindəki müəllimlər yalnız öz vəzifələrini deyil, dövlətin işlərini də həyata keçirməlidir. Bir sözlə, bu gün Avropa millətlərinin həyata keçirdiklərini görmək, bu anlamda müsəlman-türk xalqlarını oyatmaq zamanıdır. Bu anlamda, öncə N.Yusifbəyli Rza bəyin dilindən Avropa millətlərinin durumunu anlatırdı: "Bizlər başqa millətlərlə qiyas oluna bilirmiyiz? Əvvəl əmrdə digər millətlərin müəllimləri bizlərdən daha müntəzəm, daha mükəmməl məktəblərdən ikmali-təhsil etmişlər, üsul-tədris oxumuşlardır. Bu xüsusda nöqsanları olursa qolaylıqla islah edə bilirlər. Pedaqojiyə dair binlərlə əsərlər vardır. Bundan başqa lisanları zəngin, əlifbaları mükəmməl, imlaları müəyyən. Məmafih bu xüsuslarda səxi qüsurları olursa islahı üçün akademiyaları, universitetləri və mütəxəssisləri vardır. Məktəblərinin tərəqqisini dövlət düşünüyor, maarif nəzarəti baqıyor, millət qeydinə qalıyor. İdareyi-məhəllilər, idareyi-bələdiyyələr, mütəəddin cəmiyyətlər təşəbbüsdə bulunuyor".[1002]

İslam ölkələrində riyakar ruhanilər, din xadimləri tərəqqini, inkişafı islamın əleyhinə olan anlayışlar kimi qələmə verir, üstəlik

[1000] Yenə orada, s.57-58
[1001] Yenə orada, s.59
[1002] Yenə orada, s.63

türk-müsəlman xalqlarının tərəqqi və inkişaf uğrunda çalışanları, o cümlədən qabaqcıl müəllimləri kafir elan edirlər. O, yazırdı: "Zavalı bizlər! Bu vəzifələrin həpsini öz öhdəmizdə bulunduruyoruz, bu haqda bir çox dəfələr söyləmiş olduğum sözləri təkrar edəcəyim. Bu mədrəsədə, bu müqəddəs binada xidmət etmək üçün yalnız müəllim olmaq kafi deyildir, fədakar olmaq lazımdır. Həm də nasıl fədakar. Xidmətin təqdir edilməkdən məadə bir çox iftira və pək çox böhtanlara da hədəf olacaqsan. Necə ki, oluyoruz. Xidmətimizin ali və müqəddəs olduğunu kəndimiz üçün kafi dərəcədə mükafat ədd edə bilməzsək, başqa bir iş aramalıyız, buradan qaçmalıyız, vəssalam!".[1003]

Rza bəylərin timsalında o, gələcəyin yeniləşmə, millətçiliklə bağlı olmasına inanırdı. Onun fikrincə, artıq gerilikçi fikirlərlə milləti irəli aparmaq mümkün deyildir. Çünki mühafizəkar düşüncələr millətin bir nöqtədə dirənib qalmasından başqa heç bir şeyə xidmət etmir. Bu cür düşüncəli insanların, o cümlədən müəllimlərin yeni məktəblərdə öz işlərini davam etdirməsini təhlükəli hesab edirdi. Bu fikirləri N.Yusifbəyli Rza bəyin dilindən yazırdı: "Bilməm, tərbiyyeyi-milliyyəmiz olmadığındanmı, yoxsa qayeyi-milliyyəmizin nə olduğuna ədəmi-vüqufimizdənmi, nədəndir iş başında bulunacaq adamımız yoxdur. Darülfünun ikmal edənlərimizə varıncaya qədər öylə adi məsələlərdə bəzi öylə böyük səhvlər yapıyorlar ki, insan şaşıyor. Vallahi bütün şəhəri gündüz fanarla arasanız, məktəb nə olduğunu, mədərsə nə dedigini həqqilə anlayan üç adam görəməzsiniz. Milli məktəblə dövlət məktəblərinin, həqiqi mədrəsə ilə əski xərabələrin fərqində bulunan beş adam bulamazsanız".[1004]

Yusifbəyli əsərin sonunda Molla Mahmudun yeni məktəbdə dərs demək qərarına gəlməsini qeyd etmişdir. Bu o demək idi ki, artıq cəmiyyətin yeniləşməsindən başqa yol yox idi.

Ümumiyyətlə, N.Yusifbəylinin həyatında maarifçilik hər daim mühüm yer tutmuş, o, Seym və Cümhuriyyət hökumətlərində maarif naziri vəzifəsini icra etmişdir. Məsələn, o, Cümhuriyyət

---

[1003] Yenə orada, s.63-64
[1004] Yenə orada, s.68

parlamentindəki çıxışlarında bəyan edirdi, Azərbaycanın istiqlalı, gələcəyi yalnız maarifə bağlıdır: "Milli maarifimiz, milli məktəbimiz irəliləmə etməzsə bizim üçün xoşbəxtlik və nicat ümidi qalmaz. Hökumət bunu bilir, bunun üçün ibtidai təhsilin ümumi olmasına əsas hazırlamağa və bu sentyabrda ibtidai məktəblər açmağa təşəbbüs edəcək. Sənaye məktəblərinə ayrıca diqqət edəcək. Mövcud orta məktəblərdən bir qismi yavaş yavaş milliləşdiriləcək, digər qismi isə müsəlman olmayan uşaqlar rusca davam edəcək. Hər millətin öz dilində oxumasına heç bir maneə olmadığından uşaqlar üçün hökumət hesabına məktəblər açılacaq. [...] Müəllimlərə olan ehtiyacımızı qarşılamaq üçün kifayət qədər darülmüəlliminlər açmaqla bərabər, xaricdən də müəllimlər dəvət etməyə çalışacaq. Dərs kitabları da azdır. Maarif Nəzarəti bunun çarəsini düşünəcəkdir. Şimdidən komissiyalar təşkil edilmişdir. Bir çox kitab seçilmişdir. Bunların nəşrinə təcili başlayaraq sentyabradək lüzum görülən kitabları tamamilə ortaya qoymağa və tədarükə cəhd edəcək. Hökumət yüksək təhsili də düşünmüşdür. Bunun üçün yüksək əkinçilik məktəbi haqqında qanun layihəsi bəyənməyiniz üçün təqdim edilmişdir. Tiflisdəki Qafqaz Universitetinin paytaxtımıza nəqli üçün müzakirələrə girişilərək sentyabr əvvəllərində dərslərə burada davam edilməsinə çalışılacaq. Universitetimizdə, təbii, dilimizin, tariximizin, ədəbiyyatımızın inkişafına, xidmət edə biləcək bölmələr açılacaq".[1005]

Parlamentin başqa bir iclasında Yusifbəyli bir daha maarifçilik, o cümlədən maarifçilikdə müəllimlərin rolundan bəhs etmişdir. Onun fikrincə, müəllimlər maarifçiliyi təbliğ edən əsas qüvvədir ki, bu anlamda müəllimlərin maaşının artırılması təbii bir məsələdir: "Müəllimlərin maaşını nə qədər artırsanız yəqin edin ki, bundan bir şey qaçırmayın, çünki bizim varlığımız və gələcəyimiz ancaq müəllimlərin əlindədir. Müəllim nə qədər ac olsa, nə qədər gözü ətrafda və özgə əlində olsa, əlbbətə ki, o müəllim bir şey verə bilməz və o məktəbdən bir şey çıxmaz".[1006] Beləliklə, müəllimlərin maaşının

---

[1005] Yenə orada, s.135
[1006] Yenə orada, s.141

artmasına hökumətin etiraz etmədiyini, əksinə buna dəstək verdiyini Nəsib bəy parlamentarilərin diqqətinə çatdırmışdır.

N.Yusifbəyli **islamçılığı** isə müsəlman ölkələrinin vahid dövlət halında birləşməsi kimi deyil, mənəvi birlik olaraq qəbul etmişdir. O, xüsusilə bəzi Avropa mütəfəkkirlərinin ortaya atdığı "panislamizm" anlayışın qəbul etmir və onu müdafiə edən istənilən qüvvəyə qarşı çıxırdı. Onun fikrincə, bütün müsəlman xalqlarının bir dövlətdə birləşməsi bir utopiyadır. Bu cür utopiyalarla uğraşmaqdansa, daha real işlər görülməli və müsəlman millətlərinin mədəni səviyyəsinin yüksəldilməsinə çalışılmalıdır: "Bir iftira qalmadı ki, onlar müsəlmanların üstünə atmasınlar: cihaddanmı cəhd etmədilər, "İttihadi-İslam" iləmi dövləti qorxudub fəna halımızın daha da fənalaşmasına təşəbbüs etmədilər?".[1007]

O, yazırdı ki, ermənilərin isə "İttihadi-İslam" məsələsini ön plana çıxartmaqda məqsədi xristian din qardaşlarının yardımına ümid etmələridir. Bu baxımdan ermənilərin qəzetlərdə müsəlmanlara atmadıqları iftira və böhtan qalmamışdır. O, yazırdı: "Bu illərdə "İttihadi-İslam" xüsusunda nələr yazılmadı, nələr söylənmədi. Ermənilər gecələri yatıb bu xüsusda quramalar düzəldib, röyalar görüb gündüzlər dünyanın hər bir bilmənа xəbərlər yazıb qəzetələri doldururlar".[1008] Yusifbəyliyə görə ermənilər boş xülyadadırlar və onların iddia etdiyi mənada müsəlmanların vahid dövlətdə birləşməsinə heç ehtiyac da yoxdur. Çünki müsəlmanlar xristianlara ya da başqa qeyri-müsəlmanlara qarşı vahid dövlətdə birləşmək deyil, öz daxilində birlik və bütöv olmaq yollarını arayır. O, yazırdı ki, İslam birliyi məsələsindən narahat olan yalnız ermənilər deyil, həm də Avropanın qabaqcıl ziyalıları, onların mətbuatıdır. Avropalılar hesab edirlər ki, bütün müsəlmanlar vahid bir dövlət yaratsalar ya da Osmanlı Türkiyəsinin ətrafında birləşsələr Avropa üçün təhdid yaradacaqlar. Ona görə bəzi müsəlman mütəfəkkirlərinin İslam birliyi yönündəki yazıları da məsələni daha da çətinləşdirmişdi.[1009]

---

[1007]Yusifbəyli N. Bizim mətbuat. "Tərcüman" qəzeti, 1906, 12 aprel, № 37
[1008] QəhrəmanlıNazif. Nəsibbəynümunəsi. Bakı, "Nurlan", 2008, s.120
[1009] Yenə orada, s.121-122

Yusifbəyli İslam birliyi məsələlərinə sonralar da həssaslıqla yanaşmışdır. O, Türk Ədəm-Mərkəziyyət Partiyasının sədri olduğu zaman İslam dinindən sui-istifadə etməyə çalışan mühafizəkar ittihadçılara qarşı da mübarizə aparmalı olmuşdur. Çünki həmin dövrdə Gəncədə ittihadçılar "Məhəmmədi" firqəsi yaradaraq Türk Ədəm-Mərkəziyyəti dinsizlikdə ittiham edirdilər.[1010] Dinin dövlətin işinə qarışmasını doğru saymayan Yusifbəyli bumülahizəni baş naziri olduğu dövrdə də müdafiə etmişdir. O, baş nazir kimi ilk çıxışında bəyan etmişdir ki, hürriyyətdən məmurların, din xadimlərinin sui-istifadə etməsinə yol verilməyəcək, ədliyyə məhkəmələrinin ədalətli və qanuni qərarlarına tabe olmaları əsas tutulacaqdır. Onun fikrincə, bu azadlıqların ən müqəddəsi vicdan və şəxsiyyət azadlığı, mənzil toxunulmazlığıdır ki, inanc və vicdana aid məsələlər üçün demokratik cümhuriyyətimizdə kimsə təqib edilməyəcəkdir.[1011]

**İctimai-siyasi görüşləri.**Yusifbəyli Odessda, Xarkovda tələbə olduğu (1902-1906) dövrdə və "Tərcüman"da çalışdığı ilk illərdə (1906-1907) siyasi cərəyanlar arasından daha çox sosial-demokratizmə ya da marksizmə meyil göstərmişdir. Həmin dövrdə bir çox soydaşları kimi o da, sosial-demokratizmin çar Rusiyasının əsarəti altında olan xalqlara azadlıq gətirəcəyini düşünmüşdür. Şübhəsiz, Odessa və Xarkovda sosial-demokrat təşkilatlarının güclü olması, eyni zamanda onların proqramının cəlbedici olması Yusifbəyliyə də ciddi təsir göstərmişdir. O, 1906-1907-ci illərdə "Tərcüman"da yazdığı məqalələrdə Bakıda nəşr olunan "İrşad" və başqa qəzetlərdə sosial-demokratizmdən, onun nümayəndələrindən (Marks, Plexanov, Jores, Bebel və b.) bəhs olunmasını təqdir etmişdi. Xüsusilə, o, "İrşad" da N.Nərimanovun sosial-demokratlarla bağlı məqaləsini şərh etmiş, müəyyən dərəcə də onun fikirləri ilə razılaşdığını ifadə etmişdi.[1012] Onun fikrincə, yalnız sosial-demokratizm dövrünün başqa şovinist "pan"izmlərindən fərqlənir və yalnız ona ləkə

---

[1010] Şeyxzamanlı Nağı. Azərbaycan istiqlal mücadiləsi xatirələri.Bakı, "Azərbaycan"nəşr., 1997,s.75

[1011] Qəhrəmanlı Nazif. Nəsibbəy nümunəsi. Bakı, "Nurlan", 2008, s.134

[1012]Yusifbəyli N. Bizim mətbuat. "Tərcüman" qəzeti, 1906, 26 aprel, № 43

yaxmaq doğru deyildir: "Panslaviyanizm, panxristianizm, panermənizm, panyəhudizm və qeyri panizmlər ancaq qarını tox ağaların xam xəyallarıdır və füqarayi-kasibəyə böylə böhtan atmaq rəva deyil!.. Doğrudur, Yer üzünün cəmi ictimaiyyun-ammiyyunların (sosial-demokratlarının) da bir "panizmi" var, ona dəxi panxristianizm deməzlər, bunu adı "panfüqarayi-kasibizm"dir".[1013]

Yusifbəyli sosial-demokratizmə meyilli bir şəxs kimi hesab edirdi ki, çar Rusiyası Avropa ölkələrindən fərqli olaraq baş vermiş inqilabdan düzgün nəticə çıxarmır. Belə ki, çar Rusiyasında sosial-demokratların baxışlarından doğru nəticə çıxarmaq əvəzinə onlara qarşı repressiyalar həyata keçirilir. O, yazırdı:"Avropada təcrübə və timsali olub keçmiş inqilab və hərəkatlardan Rusiya dövləti ibrət almaq gərək idi. Qaynayıb axan bir suyun önünü kəsmək mümkün olmadığı kimi oyanmış, qəlyanə gəlmiş xalqın hüquq və vəzifəsini anlamış camaatın da önündə durub toxtatmaq mümkün olmayacağını düşünmək və bilmək gərək idi".[1014] Çarlığın inqilabın önünü kəsmək üçün müxtəlif hiylələrə əl atdığını qeyd edən Yusifbəyli yazırdı ki, artıq bu hiylələr baş tutmayacaq. Onun fikrincə, çar Rusiyasının qarşısında iki yol var: ya qəsb olunmuş hüquqların hamısını qaytarmaq, ya da əvvəlki istibdad yolu ilə davam etmək.[1015]

Yusifbəyli sonralar sosial-demokratizmə meyllilikdən uzaqlaşaraq türkçülük, daha sonra onun milli-məhəlli ifadəsi olan Azərbaycan türkçülüyü uğrunda mübarizə aparmışdır. Ancaq o, türkçülük, türk milliyyətçiliyi hərəkatının liderlərindən biri olduğu zamanlarda da sosial məsələlərin həllində, o cümlədən fəhlə və kəndlilərin hüquq və azadlıqlarının qorunmasında sosial-demokratizmin bəzi müddəalarını müdafiə etmişdir. Hətta, onun qurucusu və lideri olduğu "Türk Ədəmi-Mərkəziyyət" partiyasının proqramında da sosial-demokratizmin müddəaları, o cümlədən "Aqrar məsələ", "Fəhlə məsələsi" öz əksini tapmışdır. Bununla bağlı "Türk Ədəmi-Mərkəziyyət" partiyasının proqramında yazılırdı ki, xalqın firqəsi kimi Türk ulusu-

---

[1013] Yenə orada.
[1014] Qəhrəmanlı Nazif. Nəsibbəy nümunəsi. Bakı, "Nurlan", 2008, s.112
[1015] Yenə orada, s.113

nun bütün təbəqələrinə əsaslanır: "Demokratik partiya kimi zəhmətkeş xalq kütlələrinə arxalanır və Rusiyanın İslama etiqad edən bütün Türk zəhmətkeş kütlələrinin iqtisadi-sinfi və milli-mədəni mənafelərini müdafiə etməyə çalışır".[1016]

Sadəcə burada bir anlaşmazlıq var ki, S.C.Pişəvəri, H. Baykara onun Müsavat Partiyası daxilindəki mövqeyini "sol cinaha mənsub olan Yusifbəylinin mülkədar və kapitalist qrupu".[1017]kimi dəyərləndirmişlər. İlk baxışda "kapitalist və mülkədarın" sol cinahda dayanması məntiqsizlikdir. Bizcə, N.Yusifbəyli sinfi təbəqəsinə görə "mülkədar və kapitalist qrup"una aid edilsə də, əslində o, düşüncə və dünyagörüş baxımından bütün insanların sosial bərabərliyinin tərəfdarı olmuşdur. Başqa sözlə, Yusifbəylinin "mülkədar və kapitalist qrup"una aid edilməsi simvolik xarakter daşımış, bu daha çox onun əcdadlarının bəy-xan nəslindən olmasından irəli gəlmişdir. Ancaq gerçəklikdə isə, o, bəy-xan əcdadlarının davamçısı kimi heç bir sinfi ayrı-seçkilik qoymamış, Türk ulusunun fərdlərini bir bütün kimi görmüşdür.

**Türkçülük və Azərbaycan milli ideyası.** Yusifbəylinin türkçülük ideyasına üz tutmasında ilk olaraq, böyük türkçülərdən İsmayıl bəy Qaspıralının mühüm rolu olmuşdu. Belə ki, bir müddət onun "Tərcüman" qəzetində çalışmış (1906-1912) Nəsib bəy ustadının Türk xalqarının "Dildə, fikirdə və işdə birlik" fəlsəfəsini mənimsəmişdir. Hər halda Qaspıralının dünyagörüşündə türkçülük ideyası digər ideya və cərəyanlardan üstün mövqeyə malik olmuşdu.[1018] Ə.Cəfəroğlu da yazır ki, Yusifbəylinin türkçülüyə üz tutmasında Qaspıralının mühüm rolu olmuşdu.[1019] Eyni fikirlərə N.Qəhrəmanlıda da rast gəlirik: "Dünyagörüşünə gəldikcə Nəsib bəy əvvəlcə solçu olmuş, yəni sosialist ideyalarına uymuş, tədricən İsmayl bəy Qaspıralının təsirilə türk millətçisi kimi formalaşmışdı. Şəfiqə xanım bu barədə yazırdı: "Nəsib "Tərcüman" qəzetində çalışarkən çox vaxt atamla münaqişə

---

[1016] AXC Ensiklopediyası. 2-ci cild. Bakı, Lider nəşriyyatı, 2005, s.409

[1017]Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.189

[1018]Qaspıralı İsmayıl bəy. Dildə, fikirdə, işdə birlik.İ.Qaspıralı 1851-1914.Bakı, Qartal,2002, s.15

[1019]Cəfəroğlu Əhməd. Seçilmiş əsərləri. Bakı, "Mütərcim", 2008, s.7-8

edərdi, atamdan daha başqa görüşləri vardı, fikir ayrılığı vardı. Bu yalnız ilk bir-iki il sürmüşdü. Sonradan tamamilə atamla birləşdi”.[1020]

N.Yusifbəyli də türkçülüyün formalaşmasında Qaspıralının ciddi təsiri ilə yanaşı, 1908-1909-cu illərdə Osmanlıda yaşaması və burada “Türk dərnəyi”ndə iştirakı da mühüm rol oynamışdır. C.S.Kırımər “Mücahid” jurnalında yazırdı: “1909-cu ilin sonlarında bizim həyatımızda əhəmiyyətli bir hadisə olmuşdu. Tələbə cəmiyyətimiz təcili yığıncağa çağırıldı, bir komissiya seçildi. İstanbula gələcəyini xəbər aldığımız Qaspıralı İsmayıl bəyi qarşılayacağdıq... İsmayıl bəylə birlikdə, Yusuf bəy Akçura və İsmayıl bəyin kürəkəni Azərbaycanlı Nəsib bəy Yusifbəyli də gəlmişdilər. Biz bu toplantıda Nəsib bəylə razılaşmış və ona candan bağlanmışdıq. İsmayıl bəy bizə ciddi və qarşıdurma qəbuletməz bir əda ilə elmə sarılmağı tövsiyə edir, bizim siyasi və ictimai əndişələrimizə cavab verməyi belə zaid görürdü. Yusuf bəy də aşağı-yuxarı eyni fikirləri müdafiə etmişdi. Nəsib bəy isə biz gənclərdə gördüyü imandan, fədakarlıq hisslərimizin, bilxassə inqilab atəşi ilə yanmamızdan, bütün əməllərimizin xalqımızı yüksəltməyə haqq olmasından çox sevindiyini söylədi və bizi bu yola sadiq qalaraq bu əməl üçün hazırlanmağa təşviq etdi. Nəsib bəy hər şeydən çox, xarakterimizin sağlam, doğru, ciddi olmasına diqqət etməyimizi bilxassə hərarətlə tövsiyə etdi”.[1021]

1908-1909-cu illərdən etibarən türkçülüyün əsas dava adamlarından biri olan N.Yisifbəylinin çox keçmədən, əsas hədəfi Azərbaycan türklərinin Rusiya daxilində öncə muxtariyyət, daha sonra isə istiqlaliyyət əldə etməsi dayanmışdır. Məhz bunun nəticəsi idi ki, “Türk Ədəmi-Mərkəziyyət”in partiyasının lideri kimi N.Yusifbəyli 1917-ci ilin yazında çar Rusiyasını federativ şəkildə görmüş, bu federasiya çərçivəsində isə Azərbaycanın muxtariyyətini tələb etmişdir. M.B.Məmmədzadə yazırdı: “Azərbaycana qayıtdıqdan sonra Nəsib bəy Əmin bəylə yaxın əlaqəyə girərək “Açıq söz” ailəsinə daxil olmuşdu. Onun qurduğu Ədəmi-Mərkəziyyət firqəsi

---

[1020] Qəhrəmanlı Nazif. Nəsib bəy nümunəsi. Bakı, “Nurlan”, 2008, s.7

[1021] İqtibas aşağıdakı mənbədən gətirilmişdir: Tahirzadə Ədalət. Nəsib Bəy Yusifbəyli. // Fikir və əməl böyüklərimiz. Bakı, “Nurlar” NPM, 2014, s.279-280

"Açıq söz"ün yaydığı millət nəzəriyyəsinə əsaslanırdı və millət məsələsini "Müsavat" kimi həll edirdi. O, Rusiyanın milli varlıqlara parçalanmasını, federalizm üzərində qurulmasını, bütün millətlərə, o cümlədən Azərbaycana, Türküstana, İdil-Urala və Krıma milli-məhəlli muxtariyyat verilməsini tələb edirdi".[1022]

M.Ə.Rəsulzadə də yazır ki, türkçülük mərkəzli Azərbaycan Milli İdeyası onların tanışlığının ilk illərindən (1914-1915-ci illər) hər ikisində yaranmışdı: "Hərbi-ümumi illəri idi. O, Gəncədə bələdiyyə idarəsi əzadarlığında, mən də Bakıda 1915-də təsis etdiyim "Açıq söz" qəzetinin başında bulunurduq. Nəsib bəy idarə işləri üçün Bakıya sıx-sıx gəlirdi və hər gəlişində ilk ziyarətini "Açıq söz" idarəxanasına verirdi. Daha ilk görüşümüzdə rəhmətliklə aramızda 1920-ci ilin son may günlərinədək zərrə qədər xələldar olmayan bir səmimiyyətlə davam edən bir dostluq təəssüs etmişdi. Bu dostluğu bu qədər mətin bağlarla bir görüşmədə bağlayan şey, şübhəsiz, müştərək bir qayə, müştərək bir ruh daşıdığımızı mütəqabilən kəşf edişimiz idi. Bu ruhi-müştərək Gəncədə Nəsib bəyə siyasi bir firqə maddəsinin yazılmasını təlqin etdiyi bir zamanlarda, mənə də Bakıda "Açıq söz" qəzetəsinə eyni tezisi müdafiə edən bir baş məqalə yazdırmışdı".[1023] Bütün bunları nəzərə alaraq M.Ə.Rəsulzadə daha sonra yazırdı ki, N.Yusifbəylinin Azərbaycan istiqlalı hərəkatındakı rolu yalnız maarif naziri, baş nazir olmaqla kifayətlənməmişdir: "Onun hərəkatdakı həqiqi rolu sonra tutduğu bu rəsmi mövqelərdən çox əvvəl başlamışdır. Bu rol onun Gəncədə 1917-də "Türk Ədəmi Mərkəziyyət xalq firqəsi" namıyla təsis edilən siyasi Azərbaycan firqəsinin təşkilinə təşəbbüs etməsiylə başlayır. Azərbaycan ideyasını siyasi bir tələb maddəsi şəklində formulə etmək şərəfi mərhum Nəsib bəyindir".[1024]

Nəsib bəy 1917-ci il aprelində Bakıda keçirilən Qafqaz Müsəlmanlarının 1-ci qurultayında "kim dava edə bilər ki, biz kəndini (özünü – F.Ə.) idarəyə səlahiyyətdar bir millət deyilik!" demişdir.

---

[1022] Məmmədzadə M. B. Milli Azərbaycan hərəkatı. Bakı, "Nicat", 1992, s.54
[1023] Rəsulzadə M.Ə. Nəsib bəy Yusifbəyli. "Odlu Yurt" dərgisi, 1929, № 3, s.110-111
[1024] Yenə orada, s.110

M.B.Məmmədzadə yazır: “Qurultayın lap ilk günlərindən etibarən hakim mövqeyi iki firqə tutmuşdu ki, bunlardan biri “Müsavat” xalq firqəsi, digəri də “Türk Ədəmi-Mərkəziyyət firqəsi” idi. Birincinin fikirlərinə Məhəmməd Əmin Rəsulzadə, ikincinikinə isə Nəsib bəy Yusifbəyli tərcüman olurdu”.[1025]

M.Ə.Rəsulzadənin də yazdığı kimi, o, bu qurultayda milliyyətçilük (Azərbaycan türkçülüyü), türkçülük, xalqçılıq və modernələşmə (yeniləşmə) prinsiplərini müdafiə etmişdi. Hətta, bununla kifayətlənməyərək eyni prinsiplərlə çıxış edən iki partiyanın birləşməsinə təşəbbüs göstərmiş və dərhal bunun tətbiqini istəmişdi. Rəsulzadə yazırdı: “Nəsib bəyin zəkası yalnız bu çıxışı ilə bitməmiş, o qurultayda eyni prinsipləri müdafiə edən Müsavat Xalq Firqəsinin nümayəndələri və “Açıq söz” qəzetini təmsil edən cərəyanla sözləşərək, onlara yaxın axınların birləşmələrini təmin etmək zərüriyyətini görmüş və onu həyata keçirmək təşəbbüsünü irəli sürmüşdür. Bir tərəfdən Nəsib bəy, digər tərəfdən də M.Ə.Rəsulzadə ilə A.Kazımzadə tərəfindən təmsil olunan Gəncə və Bakı, milliyyətçi Azərbaycan istiqlalçılıq hərkatında çox mühüm əsərləri sonradan meydana çıxan bu ittihadın hüsulunda Nəsib bəyin zəka və səmimiyyətinin qəti rol oynadığını burada təsbit etməliyəm. Bu ittihad üzərinə idi ki, Qafqaziya qurultayını mütəəqqib Türk Federalist Müsavat Xalq Firqəsinin ilk qurultayı Bakıda toplanmış və bu toplanış siyasi Azərbaycan həyatında pək mühüm bir hadisə təşkil eyləmişdir”.[1026]

1918-ci ilin əvvəllərində yaradılmış Seymdə xalq maarif naziri vəzifəsini tutan Yusifbəyli burada da Azərbaycan xalqının milli maraqlarını müdafiə etmişdir. Məsələn, Seymin 5 Mart 1918-ci il tarixli 14-cü iclasında ermənilər və gürcülər Azərbaycün türklərini nəzərdə tutaraq “Seymdə xəyanətkarlar var” deyirdilər. Bu zaman onlara cavab olaraq söz alan N.Yusifbəyli demişdir: “Daşnaksütyun Partiyasının başçısı məni təəccübləndirmir – anlayıram ki, İrəvan vilayətində meydana gəlməkdə olan cinayətləri indi ört-basdır

[1025] Məmmədzadə M. B. Milli Azərbaycan hərəkatı. Bakı, “Nicat”, 1992, s.55
[1026]Rəsulzadə M.Ə. Nəsib bəy Yusifbəyli. “Odlu Yurt” dərgisi, 1929, № 3, s.111

etmək lazımdır, orada işlənmiş biabırçılıqlara indi haqq qazandırmaq lazımdır: çünki bütün müsəlman-türk kəndlərinin əhalisi qılıncdan keçirilib, sakinləri qovulmaqla süni şəkildə ermənilərə aid ərazilər qurulub. Ancaq məni menşevik nümayəndələrinin buradakı danışmaları çaşdırır. Mən düşünürdüm ki, bu, özbaşına çıxışlardır və gözləyirdim ki, indi kimsə dayanacaq və deyəcək ki, bu, özbaşına çıxışdır və biz tam başqa cür düşünürük, ancaq təəssüf ki, bu səsi mən eşitmədim. Vətəndaşlar, bizi çoxdan ittiham edirlər. Bizi doğramamışdan öncə ittiham etdilər - buna öyrəncəlidirlər. Qorxuram ki, bizi yenidən çökməyə istəsinlər. Bu səbəblə hökumətdən soruşmaq istəyirəm, Ardahana komissiya göndərsin ki, əsgər göndərilməsinə və o əhalinin qırılmasına mane olsun. Bu xalqı xəbərdar etmək lazımdır, çünki onlar üçün qorxunc təhlükə var: qadınları da, uşaqları da, kişiləri də - hər kəsi orada doğrayacaqlar”.[1027]

Osmanlı ilə danışıqlar üçün Batuma sülh nümayəndəliyi göndərməzdən öncə Zaqafqaziya Seyminin türk-müsəlman fraksiyası qarşısında çıxışı zamanı da N.Yusifbəyli əsas diqqəti Azərbaycan türklərinin çətin günlər yaşamasına, onun varlığının təhlükə altında qalmasına yönəltmişdir. O, bu çıxışında bildirib ki, Seymin tərkibindəki gürcülərlə ermənilər Azərbaycanda erməni daşnaklarıyla rus bolşeviklərin türk-müsəlman əhaliyə qarşı soyqırım törətməsinə tamamilə biganədirlər. Belə bir vəziyyətdə Azərbaycan türklərinin Osmanlı türklərinə üz tutmaqdan başqa çarə qalmadığını deyən Yusifbəyli bütün bunlarla yanaşı, “Müstəqil Azərbaycan” ideyasının qüvvədə qalmasını da ifadə etmişdir: “Müstəqilliyimizin qızğın tərəfdarlarından biri kimi mən bu barədə birinci söz açmağa məcburam. Təhlükənin gözünə cəsarətlə baxmaq, gələcək hadisələrin əlamətlərini ayırd etmək və vaxtında zəruri tədbirlər görmək lazımdır. Bu halda biz hadisələrin belə bir xoşbəxt kəsişməsinə sevinməliyik ki, bura gəlməli olan xarici qüvvə bizə dost və qardaş olan Türkiyədir. Bəlkə də, bu bizim qonşularımıza xoş gəlməyəcək, ancaq başqa çıxış yolumuz yoxdur. Qorxunc anarxiya qarşısın-

---

[1027] Tahirzadə Ədalət. Nəsib Bəy Yusifbəyli. // Fikir və əməl böyüklərimiz. Bakı, “Nurlar” NPM, 2014, s.288

da qonşularımız da bizim kimi gücsüzdürlər. Onlarda olan hərbi qüvvə də anarxist əhval-ruhiyyəlidir, qanun-qaydanın dayağı rolunu oynaya bilməz. Hərgah onlarda intizamlı qüvvə olsaydı da, onların yardımına ümid bağlaya bilməzdik. Xətir üçün xəstə düşə bilmərik. Bizim nümayəndə heyətimizin Batuma getmək və və Şərqi Zaqafqaziya türkləri adından Osmanlı imperiyasından yardım istəmək vaxtı gəlib çatmışdır. Əlbəttə, biz təcili olaraq qoşun göndərilməsi üçün türklərə çox da təkid edə bilmərik; biz ancaq xahiş edəcəyik. Ancaq bütün bunlarla yanaşı, azad Azərbaycanın müstəqil surətdə mövcudluğu ideyasını heç vaxt gözdən qaçırmaq lazım deyil”.[1028]

Cümhuriyyət qurulduqdan sonra əvvəlcə maarif naziri, daha sonra baş nazir olan Yusifbəyli Cümhuriyyətin birillik ildönümüylə bağlı xalqa müraciətində milli istiqlal məsələsiylə bağlı bildirirdi ki, artıq Azərbaycan türkləri istiqlaliyyətini heç bir kəsə güzəştə getməyəcəkdir: “Qan dəryasında qütəvər olan Azərbaycan Türk milləti kəndi müqəddəratını öhdəsinə alaraq, özbaşına buraxılmışdır. O, mətanəti-qəlb və əzmi qəti ilə istiqlalı düşünərək yaşayır. Və bilaxirə müstəqil və azad yaşamaq yolu arayıb, ona rəvan oldu. Öylə bir yol ki, onu ümumcahanın əzilmiş və döyülmüş millətləri tutmuşdu. Bu bir sənə müddət ərzində biz yorulmadan işlədik və bu işləməyimiz ilə dövlətimizi möhkəmləndirərək, camaatımızın aşağı sinfinə milli dövlət təşkili hissini düşündürdük və istərdik ki, camaat və millət vəkillərinin getdikləri yol doğru və xalqın azad fikir və məsləkidir. Bu az vaxt zərfində Azərbaycan türkləri kəndilərinin müstəqil və azad yaşamağa layiq olduqlarını gözəl surətdə göstərib və dövlət təşkilinə istedad və qabiliyyət yeritdiklərini isbat etdilər. Bunun sayəsində isə şimdi məmləkətdə insanı məmnun edəcək bir dərəcədə nizam və asayiş hökfərmadır”.[1029]

Baş nazir kimi proqram səciyyəli ilk çıxışında da, o, Milli istiqlal məsələsini xüsusilə qeyd edərək həm daxili birliyin, həm

---

[1028] Vəkilov Rəhim. Azərbaycan Respublikasının yaranma tarixi.Bakı,Elm,1998,s.22

[1029] Yusifbəyli Nəsib bəy. Azərbaycan vətəndaşlarına hökumətin müraciəti. “Azərbaycan” qəzeti, №190, 28 may 1919-cu il

dünya dövlətləri tərəfindən tanınmağın vacibliyini vurğulamışdır: "Əmrinizlə təşkil etdiyim hökumət, üzərinə nə qədər ağır və nə qədər böyük bir məsuliyyət almış olduğunu anlayır. Doğrudur, Azərbaycan milləti müstəqilliyini elan etdiyi bu az bir zamanda yar və əğyar nəzərində müstəqil olmağa layiq olduğunu göstərdiyindən, bugünkü vəziyyət və mövqeyimiz iki ay əvvəlkindən daha mətin və daha sağlamdır. Bəli, 10 aydan bəri həqiqətən müstəqil olan Azərbaycan bu gün böyük dövlətlər tərəfindən belə hüsni-qəbul əsnasında olduğuna və Azərbaycan Türklərinin yaxın bir zamanda dünyanın bilcümle mədəni millətləri ailəsində olacağına ümidimiz güclüdür. Bu, belə olacaq idi. Çünki Azərbaycan Türkləri fərdi vücud olaraq kişi-qadın, gənc-qoca, kasıb və zəngin, işçi və rəncbər, "Müsavat", "Əhrar", "Sosialist", "İttihad" xülasə bütün millət vahid vücud olaraq istiqlalımızı mühafizə etməyə and içmişdir. Çünki millətin bu əzminə birbaşa şahid olan böyük və demokratik İngiltərə komanda heyəti, aldığı təəssüratı tərəfsiz, şişirtməsiz Parisdə təşkil edilən məhkəmə-kübrayə kəsb edəcəyi şübhəsizdir".[1030]

N.Yusifbəyli daha sonra demişdir ki, Azərbaycanın şan-şərəfini mühafizə etməklə bərabər, hökumət qonşular arasında çıxan bütün problemlərin sülhlə həll edilməsi, öz daxilindəki etnik azlıqlarla barış içində yaşamasının tərəfdarıdır: "Təbii, bu sülh və səlahın başqa şərtləri də vardır, o da azlıqda qalanların haqqını tanımaqdır. Zülm və istibdad altında yaşayıb da "inorodes" adı altında bir əsrdən bəri maddi və mənəvi baxımdan bir çox təzyiqlərə məruz qalan Azərbaycan türkləri Azərbaycan içindəki bütün vətəndaşlarına bir gözlə baxmaqla hər kəsin öz dilində oxuyub oxumasına, öz dilini və öz milliyyətindən mühafizə etməsinə icazə etməzsə tarixi bir səhv etmiş olur. Onun üçün hökumət sevgili Azərbaycanımızın bütün vətəndaşlarımız üçün gerçək bir vətən olmasına çalışacaqdır".[1031]

O, torpaq və işçi məsələsi ilə bağlı ciddi bir problemin olmadığını, əksəriyyətin bunun həllinin tərəfdarı olduğunu deyirdi:

---

[1030] Qəhrəmanlı Nazif. Nəsib bəy nümunəsi. Bakı,"Nurlan", 2008, s.131

[1031] Yenə orada, s.132

"Torpaq məsələsini qəti olaraq həll etmək, təbii, milləti həqiqətən təmsil edəcək Məclis-Müəssisanın haqqıdır. Bu barədə bugünkü hökumətin üzərinə ancaq bir vəzifə düşür, o da mövzunu ətraflı hazırlamaq, torpaq işlərinə dair bütün vasitələri yığmaq və yazıb hazırlamaq və bu surətlə Məclis-Müəssisana bu ağır və əhəmiyyətli problemin asan həlli kömək etməkdən ibarətdir. Bununla birlikdə, istər torpaq və istər işçi mövzusunda bir ixtilaf çıxarsa hökumət hər zaman əməkçilərin haqqını müdafiə edərək öz tərəfində olacağını vəd edir".[1032]

Ona görə milli hökumət üçün mətbuat azadlığı, yığıncaq azadlığı, mədəni və demokratik bir dövlət rəhbərliyi başlıca şərtlərdir. O, yazırdı ki, bu barədə, Azərbaycan çox dövlətlərdən irəlidədir, buradakı azadlıqlar dünyanın çox yerində yoxdur: "Hökumət, təbii, müqəddəs olan bu azadlıqları qoruyacaq. Hər kəs nə yazırsa yazsın, hər kəs nə istəyirsə söyləsin, harada yığışırsa yığışsın. Yalnız bir məsələ vardır ki, ona əl uzatmağa təhəmmül ediləməz. O da Azərbaycanın istiqlaliyyəti məsələsidir. Bu istiqlaliyyəti, millətin bu müqəddəs və qanuni haqqını təhqir etdirməməyə, bu ülvi hissiyyatına toxundurmamağa hökumət var gücü ilə çalışacaqdır".[1033]

Azərbaycanın Osmanlıya ya da Rusiyaya birləşməsini tələb edən "ittihadçılar"ı, denikinçiləri, bolşevikləri N.Yusifbəyli daima tənqid etmişdir. Cümhuriyyətin bəyan olunmasından sonra, ilk dövrlərdə müəyyən təsir qüvvəsinə malik olan osmanlıpərəst "ilhaqçılar"ın milli istiqlala qarşı yönəlmiş ideyalarına cavab olaraq Yusifbəyli deyirdi ki, onlara müəyyən obyektiv səbəblərə görə güzəştlər getmək olar, ancaq bu güzəştlər milli istiqlala xətər yetirməməlidir. Nəsib bəyə görə əks halda "istiqlalımıza qarşı yönəlmiş təcavüzə qarşı ilk əvvəl üsyana qalxan mən özüm olacağam".[1034] Denikinçilərin ya da Denikin ordusunun Dağıstana və Azərbaycana təcavüzü ilə bağlı da Yusifbəylinin mövqeyi dəqiq, qəti olmuşdur. Belə ki, millət vəkillərindən birinin Denikinin ordu-

---

[1032] Yenə orada, s.132-133
[1033] Yenə orada, s.133
[1034] Azərbaycan Respublikası Dövlət Arxivi. f. 970, s.1, i. v.57.

sunun Azərbaycan sərhədlərini keçməsi iddiasına qarşı baş naziri bildirmişdir ki, "bizim hüdudumuzu kimsə keçməmişdir və ancaq meyitlərimiz üzərindən keçə bilərlər".[1035] Sonra o, parlamentə məlumat verib ki, Dağıstana, yəni Petrovskiyə və Dərbəndə kazaklardan ibarət 3-4 eşalon gəlib: "İngiltərə nümayəndələrinə söylədim ki, biz vədlərdən artıq doyduq. Bundan belə biz özümüzə güvənəcəyik və lazım olsa bir adam kimi azadlıq və istiqlalımızı müdafiə qalxışacağıq. Kim olursa olsun, dünyanın böyük və qüvvətli dövləti olursa olsun, qarşısına çıxıb müdafiə edəcəyik...".[1036]

Onun fikrincə, Azərbaycan türkçülüyünün, milli istiqlalın ziddinə olan əsas qüvvə bolşevizm və bolşeviklər olmuşdur. "Bolşevizm bizim üçün bir təhlükədir, bəlkə də daha böyük təhlükədir"[1037] deyən, Nəsib bəy daha sonra qeyd edirdi: "Əgər bu saat mənə desələr ki, səni tanıyıb və istiqlalını təsdiq edirəm, mən sabah burada bir bolşevik qoymaram. Çünki bolşeviklərin təhlükəsini biz öz istiqlalımız ilə ölçürük. Biz hürriyyəti-vicdan tərəfdarıyıq".[1038] Bu anlamda Azərbaycanın baş naziri Milli İstiqlalın yaşaması üçün, Sovet Rusiyasıyla münasibətdə diqqətli olmağı hər şeydən vacib hesab edirdi. O, yazırdı ki, Azərbaycanın Rusiyanın daxili işlərinə qarışmağa haqqı yoxdur: "Rusiyada hansı təriqət qalib gələcək, hansı adamlar iş başına keçəcək - bu, bizim vəzifəmiz deyil, böyük Rusiyanın öz işidir. Biz Rusiya dövləti ilə hər zaman sülh və səlahla dostluq keçinmək istəriz.Yalnız bir məsələ var ki, bolşevik Rusiyamı, menşevikmi, yoxsa başqa birimi olsun, bizim daxili işlərimizə qarışmamalıdır. Biz Rusiyadan yalnız bunu tələb edirik. Bunun da haqqımız olduğunu, təbii, kimsə inkar etməz, zənn edirik".[1039]

Ona görə Sovet Rusiyasına qarşı dayanmaq üçün tək çıxış yolu qüvvətli olmaqdır: "Bunu tək bilməliyik - qüvvətli olmasaq nə

---

[1035] Qəhrəmanlı Nazif. Nəsib bəy nümunəsi. Bakı, "Nurlan", 2008, s.142
[1036] Yenə orada, s.144-145
[1037] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqraifk hesabatlar). II c. Bakı, "Azərbaycan"nəşriyyatı, 1998, s.67
[1038] Yenə orada, s.68
[1039] Qəhrəmanlı Nazif. Nəsib bəy nümunəsi. Bakı,"Nurlan", 2008, s.136-137

hürriyətimiz, nə də istiqlalımız mümkün deyil. Onun üçün hərbi işimiz hökumət işinin əsası olacaq. Əsgərimizin ehtiyacına, ləvazimatına hökumət ayrıca diqqət və səy edəcək. Əsgərlik kimi müqəddəs vəzifənin ilk əvvəl zənginlərin, imkanlıların, ziyalıların övladlarının vəzifəsi olduğunu hökumət onlara izah edəcək. Ayrıca boyun qaçıran olursa lazım olan cəza veriləcək. Xülasə, əfəndilər! Təkrar edirəm, hər şeydən əvvəl, gələcəyimiz qüvvətə və millətin əzminə möhtacdır. Birincisi hərbiyyə nazirimizin müqtədir və təcrübəli əllərində olub, ikincisi isə sizin əlinizdədir”.[1040]

1919-cu ilin mayında Bakıda rus fəhlələrinin çox çalışdığı müəssisələrdə tətillər keçirilirdi ki, bu məsələ parlementin 6 may 1919-ci il tarixli 34-cü iclasında müzakirə olunan zaman Nəsib bəy Yusifbəyli bildirmişdir ki, bu tətil iqtisadi deyil, siyasi xarakter daşıyır: “Bu tətilin siyasi olduğunu tətil edənlər və tətil etdirmək istəyən şəxslərin özləri də inkar etmiyorlar. Onlar öz məclislərində açıq deyirlər ki, biz gərək bütün Rusiyada, eyni zamanda Azərbaycanda da (ki, onu Rusiyanın bir parçası olaraq görərlər) Sovet hökuməti təşkil edək. Onlar bunu inkar etmirlər və bu məqsədə çatmaqdan ötəri hər cür vasitəyə müraciət ediblər və edirlər”.[1041]

O, çıxışında daha sonra deyirdi ki, indiyə qədər iş başında olan hökumətlər və indiki hökumət Azərbaycanda mətbuat azadlığı, yığıncaq, tətil azadlığını qoruyub: “Bunun səbəbi nədir? Səbəbi budur ki, hökumətimizə hər nə qədər bəy-xan hökuməti desələr də iş başında olan hökumət öz demokrat və xalqpərəst əməli ilə demokratlığı sübut etmişdir. Ancaq indi bu azadlıqlardan sui-istifadə edilir. Bunlar da öz içərimizdən olan əhvalimiz deyil, özgə dövlətlərdən gələnlərdir ki, sui-istemal edirlər. Bununla da əsl məqsəd Azərbaycanı Rusiyaya ilhaq etməkdir. Bunu rusların əksəriyyəti, mütəəssifanə, hər bir Rus istəyir”.[1042] Yusifbəyliyə görə Rusiya Azərbaycanın istiqlalını tanıyarsa, onunla hesablaşarsa o zaman ruslara neft satmaq mümkündür: “Bunlar olmayınca hökumət So-

[1040] Yenə orada, s.137-138
[1041] Yenə orada, s.138
[1042] Yenə orada, s.139

vetlərə neft verməz. Lakin bunlar deyirlər ki, yolu şərtsiz açın, gəlsinlər. Buna heç bir hökumət, heç bir işçi, Türk demokratiyası, heç bir azərbaycanlı razı olmaz”.[1043]

Həmin dövrdə Moskvada yaşayan Nəriman Nərimanov Nəsib bəy Yusifbəyliyə yazdığı məktubunda bolşeviklərlə bir yerdə olmasını ideoloji baxışlarındakı fərqlərlə izah etməyə çalışıb, onu təslimçiliyə çağırmışdır.[1044] Yusifbəyli Nərimanov kimi düşünənlərə cavab olaraq Parlament kürsüsündən deyirdi ki, milli istiqlalçı kimi bütün qüvvələrə bir nəzər ilə baxır: “Mənim tutduğum nə bolşevik, nə də menşevikdir. Mən yalnız vətənimizin, istiqalliyyətimizin düşmənlərini düşmən tuturam. Onlar öylə adamlardır ki, hər zaman fikirləri bizim hüququmuza və istiqlalımıza təcavüz etməkdir və yaxud idarə tərzimizi dəyişmək üçün çalışmaqdır. Bunlar bizim düşmənlərimizdir”.[1045]

Bütün bunları nəzərə alan M.Ə.Rəsulzadə “Yeni Qafqaziya” dərgisində yazırdı ki, ümumilikdə, Nəsib bəy xalqçı, idealist, millətpərvər, demokrat və liberal bir şəxsiyyət olmuşdur: “Nəsib bəyin şəxsiyyətini, onu yetişdirən mühitin xüsusiyyətini kamilən təhlil etmək və nəticədə mərhumun tutduğu həqiqi mövqeyi olduğu kimi təsbit etmək üçün məqaləmizin həcmi müsaid deyildir. Bu qədər söyləyə bilərik ki, o, milli Azərbaycan demokratiyasının yetişdirdiyi ən tipik mümessillərindən biridir. Elə bir mümessil ki, milli Azərbaycan hərəkatının istiqlala müncər olan qayəsini formulə etmək onun ismilə mərbutdur”.[1046]

M.Ə.Rəsulzadənin silahdaşı, məsləkdaşı Nəsib bəy haqqında dedikləri o qədər doğru, dürüst və səmimidir ki, bu deyilənlərə əlavə bir söz demək çox çətindir. Onun N.Yusifbəyli ilə bağlı dediklərində diqqəti çəkən məqamlardan biri də, Nəsib bəyi milli Azərbaycan ideyasının müəllifi kimi göstərməsidir. Bu onun göstə-

[1043] Yenə orada, s.139

[1044]Nərimanov N.Məqalələr və nitqlər.II cilddə, I cild, Bakı, Azərnəşr, 1971,s.218-219

[1045] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqraifk hesabatlar). II c. Bakı, “Azərbaycan”nəşriyyatı, 1998, s.69

[1046] Qəhrəmanlı Nazif. Nəsibbəy nümunəsi. Bakı, “Nurlan”, 2008, s.177

ricidir ki, Rəsulzadə memarı olduğu Azərbaycan Cümhuriyyəti ideyasında Nəsib bəyin rolunu daha üstün verməklə öz ləyaqətinin ucalığını ifadə etmişdir. Başqa sözlə, Rəsulzadənin bu fikirlərindən belə nəticə çıxarmaq olar ki, milli və müstəqil Azərbaycan ideyasının nəzəri-ideoloji müəllifi Rəsulzadə, siyas hədəfçisi isə Nəsib bəy olmuşdur. belə ki, Nəsib bəy Rəsulzadənin nəzəri-ideoloji şəkildə irəli sürdüyü milli və müstəqil Azərbaycan ideyasını siyasi bir tələb kimi ifadə etmişdir. Deməli, Azərbaycan Cümhriyyəti iki böyük liderin nəzəri-ideoloji və siyasi praktiki əməllərinin nəticəsidir. Bu mənada bu iki böyük Azərbaycan Türkünün Azərbaycan Cümhuriyyətinin yaranması və inkişafında göstərdiyi xidmətlər misilsizdir.[1047] Rəsulzadə yazırdı ki, Yusifbəyli Qafqazda Türk milliyətpərvərliyini tərvic edən dəyərli xadimlərmizdəndir: "Nəsib bəy qüvvətli bir qələmə malik olduğu kimi, hərarətli də bir natiq idi. Ona görə də qüvvətli iman sahibi və demokrat bir adamdı".[1048]

Milli istiqlal ideyasına daim sadiq qalan N.Yusifbəyli Azərbaycan Cümhuriyyəti Sovet Rusiyası tərəfindən işğal edildikdən qısa bir müddətdən sonra yaxın silahdaşlarıyla görüş zamanı demişdir: "Azərbaycan istiqlalını qurduq. Ancaq onu saxlaya bilmədik. Əbədi düşmənimiz olan ruslar güclü qüvvələri ilə vətənimizi işğal etdilər və istiqlalımıza son qoydular. Müqəddəs ölkəmiz rusların istilası altına keçdi. Ancaq inandığımız və iman etdiyimiz bir şey varsa, o da bizə təsəlli verməkdədir. Ruslar zülmləri, vəhşilikləri ilə xalqımızı nə qədər əzirlərsə əzsinlər, əbədi olaraq qala bilməzlər. Xalqımızın beyninə yerləşdirdiyimiz istiqlal məfhumundan mənəvi varlığımıza hopmuş hürriyyət ruhunu söküb ata bilməzlər. Onlar buna nail olmaq üçün vəhşiliyi və qəddarlığı ilə məhur olan Neronu köməyə çağırsalar da yenə müvəffəq ola bilməzlər".[1049]

**Beləliklə,** deyə bilərik ki, böyük turançı Əli bəy Hüseynzadənin Türklük, İslamlıq və Çağdaşlıq "üçlüy"ü, M.Ə.Rəsulzadənin

---

[1047] Ələkbərov F.Q. Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış (II hissə). Bakı, "Elm və təhsil", 2014, s.149

[1048] Rəsulzadə M.Ə. Əsərləri (Mühacirət dövrü: Türkiyə, 1922-1929). ICild. Bakı, "OL" npkt, 2016, s.133

[1049] Qəhrəmanlı Nazif. Nəsibbəy nümunəsi. Bakı, "Nurlan", 2008, s.195-196

və N.Yusifbəylinin bu “üçlük” əsasında Azərbaycan türkçülüyü ideyasını – azərbaycançılığı irəli sürməsi bir təkamülün nəticəsi idi. Bu təkamülün kökü nə qədər qədimlərə gedib çıxsa da, çağdaş mərhələdə onun yeni cizgiləri XIX əsrdə meydana çıxmış, XX əsrin əvvəllərində isə Azərbaycan Milli ideyasının və onun bariz nümunəsi olan Azərbaycan Cümhuriyyətinin yaranması ilə nəticələnmişdir. Cümhuriyyəti isə Azərbaycan türklərinin milli azadlıq hərəkatı nəticəsində və onların nüvəsi ilə yaranmasına baxmayaraq, bu dövlətdə yaşayan etnosların heç birinə qarşı ayrı-seçkilik siyasəti yürüdülməmişdir. Bir sözlə, Cümhuriyyət etnik mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların ortaq dövləti olmuşdur ki, bu işdə ən başlıca rollardan biri də N.Yusifbəyliyə aiddir. Bunu, vaxtilə Rəsulzadə belə ifadə etmişdir: “Sadə bu mərbutiyyət Nəsib ismini Azərbaycan tarixində ölməz və unudulmaz bir ismi halına qoymaq üçün kafidir. Nisan matəmində intiqam əhdini təcdid edən milli istiqlal nəslinin qeyrətini təhrik edən böyük amillərdən biri də heç şübhəsiz Nəsib bəyin şəhadətidir. Müzəffər istiqlal nəslinin ilk edəcəyi təşəkkür vəzifələrindən birincisi siyasi azərbaycançılığın ilk mübəşşirlərindən Nəsib bəy adını davam etdirmək və Bakı ilə Gəncədə ona bir abidə qoymaqdan ibarət olmalıdır!”.[1050]

Ancaq təəssüf ki, bu günə qədər Bakıda ya da Gəncədə Nəsib bəy Yusifbəyliyə layiq bir abidə ucalda bilməmişik. Yusifbəyli bu gün Azərbaycanın ən böyük şəhərlərində (Bakı, Gəncə və b.) və həmin şəhərlərin ən görkəmli yerlərində abidəsi ucaldılmalı olan ən layiqli dövlət xadimlərimizdən biridir. Ən azı ona görə ki, o bugünkü Azərbaycan Respublikasının siyasi ideya müəlliflərindən biri olmaqla yanaşı, onun müstəqilliyi uğrunda şəhid olmuş baş nazirdir. Bu gün Yusifbəyli örnəyini öyrənmək və tanımaq son dərəcə zəruridir. Azərbaycan xalqı bilməlidir ki, onun milli varlığı və müstəqilliyi uğrunda şəhid olan Nəsib bəy Yusifbəyli kimi baş naziri, mütəfəkkiri olmuşdur!!!

---

[1050]Rəsulzadə M.Ə. Nəsib bəy Yusifbəyli. “Odlu Yurt” dərgisi, 1929, № 3, s.112

# FİRİDUN BƏY KÖÇƏRLİ

**Həyat və yaradıcılığı.** Azərbaycan Türk mütəfəkkiri Firidun bəy Köçərli (1863-1920) Şuşada anadan olub, öncə Mirzə Kərim Münşinin mədrəsəsində, daha sonra Şuşadakı Rus-Tatar məktəbində təhsil almışdır. 1878-ci ildə Qori Müəllimlər Seminariyasında oxumağa başlayan Köçərli oranı bitirdikdən sonra İrəvan gimnaziyasına təyinat almış, 1885-1895-ci illərdə burada ana dili, hüsnxətt fənlərini tədris etmiş, pansion mürəbbisinin köməkçisi vəzifəsini daşımışdır. 1895-ci ildə Qori Müəllimlər Seminariyasının "Tatar şöbəsi"nin Türk dili və şəriət müəllimi təyin edilmiş, 1918-ci ildə qədər Qoridə pedaqoji fəaliyyətini davam etdirmişdir. 1910-cu ildə Seminariyanın Azərbaycan Türk şöbəsinin müvəqqəti təlimatçısı, az sonra inspektoru vəzifəsinə təyin olunmuşdur. 1917-ci ildə "Müsavat"a üzv olan Köçərli haqqında Ənvər Əhmədov yazır ki, o, "liberal-demokrat maarifçiliyin ən görkəmli nümayəndəsi idi.[1051]

Azərbaycan Milli Şurasının üzvü olan Köçərlinin Milli İstiqlal bəyannaməsində də imzası vardır. 1919-cu il fevralın 1-də "Müsavat"ın təşəbbüsü ilə Parlament tərəfindən yaranması məqbul görünən Qazax Müəllimlər Seminariyasının direktoru seçilən Köçərli Sovet Rusiyasının 27 aprel işğalına qədər buraya rəhbərlik etmişdir. 27 aprel işğalından dərhal sonra Quzey Azərbaycanda əsas söz sahibinə çevrilən rus-erməni yağmaçıları, onu əksinqilabçılıqda ittiham edərək şəhid etmişlər.[1052]

Onun əsas əsərləri "Təlimi-Sokrat", "Təlimi-lisani-türkü", "Tatar komediyaları", "Azərbaycan türklərinin ədəbiyyatı" və digərləridir. Köçərli hələ, 1895-ci ildə rus dilində qələmə aldığı "Tatar komediyaları" silsilə məqalələrində Azərbaycan Türk mütəfəkkirlərinin yaradıcılığına müraciət etmişdir. Bunun davamı olaraq

---

[1051] Ахмедов, Э.М. Философия Азербайджанского просвещения. Баку: Азернешр, 1983, s.206

[1052] Yaqublu Nəsiman. Azərbaycan Milli Azadlıq Hərəkatı Ensiklopediyası, Bakı, "Qanun" nəşriyyatı, 2018, s.25

da, Azərbaycan Türk tarixində ilk dəfə, Köçərlinin müəllifliyi ilə 1903-cü rus dilində "Literatura Azerbaydjanskix Tatar", 1907-ci ildə isə Türk dilində "Azərbaycan türklərinin ədəbiyyatı" kitabı nəşr olunub. Burada qeyd edilməli bir məsələ də odur ki, Köçərli öz kitabını "Azərbaycan türklərinin ədəbiyyatı" adlandırdığı halda, Sovet Rusiyasının işğalı dövründə türklüyə qarşı aparılan repressiyadan sonra, kitabın adı dəyişdirilib "Azərbaycan ədəbiyyatı tarixi materialları" ya da "Azərbaycan ədəbiyyatı" adlandırılmışdır.

Çox təəssüf ki, bu "müstəmləkəçilik ənənəsi" Quzey Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra (1991) da davam etdirilməkdədir. Belə ki, müstəqillik dövründə də kitab özünü əsil adı ("Azərbaycan türklərinin ədəbiyyatı") ilə deyil, Sovet Rusiyasının türklüyə qarşı başladığı repressiyadan sonra verilmiş saxta adıyla ("Azərbaycan ədəbiyyatı") nəşr olunmuşdur. Hətta, bu yetməzmiş kimi, üstəlik SSRİ dövründə saxtakarlaşdırılan məsələlərə haqq qazandıranlar Köçərlinin müstəqillik dövründə nəşr olunmuş həmin əsərinin "Firidun bəy Köçərli və onun "Azərbaycan ədəbiyyatı" əsəri" adlı girişində açıqca yazırlar ki, kitabda "Türk" sözü "Azərbaycan" sözü ilə əvəz olunmuşdur: "Bu müqəddimədə Köçərlidən gətirilən misallarda və kitabın hər iki cildinin mətnində "Türk" sözü "Azərbaycan" (məs., "türk ədəbiyyatı" – "Azərbaycan ədəbiyyatı") və "azərbaycanlı" mənasında işlənmişdir". [1053] Bir sözlə, müstəqillik dövründə də Köçərlinin həmin kitabın yalnız əsil adının deyil, eyni zamanda Azərbaycan türklərinin dilinin (Türk dili) və xalqının (Azərbaycan türkləri) adının dəyişdirilməsi görməzdən gəlinir və üstəlik, bütün bunlara haqq qazandırılmağa çalışılır.

**Azərbaycan Türk fəlsəfə tarixinin qaynaqları və təşəkkülü.** Köçərlinin Azərbaycan türklərinin tarixində əsas xidməti, ilk növbədə Azərbaycan Türk ədəbiyyatı ilə yanaşı, Azərbaycan Türk fəlsəfə tarixinin də formalaşmasına təkan verməsidir. Onun "Azərbaycan türklərinin ədəbiyyatı" kitabında qədim dövrdən XX əsrin

---

[1053] Qənbərqızı Ruqiyyə. Firidun bəy Köçərli və onun "Azərbaycan ədəbiyyatı" əsəri // Köçərli Firidun bəy. Azərbaycan türklərinin ədəbiyyatı. İki cilddə, I cild. Bakı, Avrasiya-Press, 2005, s.4

əvvəllərinə qədər yaşamış Azərbaycan Türk mütəfəkkirlərinin yalnız ədəbi deyil, fəlsəfi irsi də öz əksini tapmışdır. Bu baxımdan, bizcə, Azərbaycan Türk fəlsəfə tarixinin təşəkkülü akademik üslübda bir çox tədqiqatçıların iddia etdiyi kimi, Heydər Hüseynovun 1940-cı illərdə qələmə aldığı "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" kitabıyla deyil,[1054] F. Köçərlinin 1900-cü illərdə yazdığı "Azərbaycan türklərinin ədəbiyyatı" əsəri ilə başlamışdır. Hər halda, Köçərli ilk dəfə olaraq daha müfəssəl və elmi şəkildə Azərbaycan Türk mütəfəkkirlərinin ədəbi-bədii və ictimai-fəlsəfi yaradıcılıqlarını bir kitabda ortaya qoya bilmişdir.

Eyni zamanda, Köçərliyə qədər yazılmış bəzi təzkirələr, çünglər, poetik müntəxabatlar və Bakıxanovun "Gülüstani-irəm" əsərlərində də az-çox milli fəlsəfi fikir tariximizin öz əksini tapmasını unutmaq olmaz. Məsələn, təzkirəçilərdən fars dilində yazan Əhməd Razi, Lütfəli bəy Azər Bəydilli, Mirzə Tahir Nəsrabadi və başqaları olduğu kimi, Türk dilində yazıb yaradan isə S.Ə.Şirvani, M. M. Nəvvab, Məhəmməd ağa Müctehidzadə, Həsənlixan Qaradaği və başqaları olmuşlar. Ancaq təzkirələr nə ədəbiyyat tarixi, nə də fəlsəfə tarixi kitabına uyğun deyildi: "Təzkirələrdə müəlliflər haqqındakı çox qısa məlumatlar faktik materiallar əsasında yazılıb bioqrafik və biblioqrafik səciyyə daşıyırdı. Çox vaxt təzkirəçi bu və ya başqa yazıçının adını, təxəllüsünü, doğum və ölüm tarixlərini, yerini və onun bəzi əsərlərinin adını göstərməklə kifayətlənirdi. Bundan sonra şairin əsərlərindən bir-iki nümunə verməklə təzkirə müəllifi öz işini bitmiş hesab edirdi".[1055]

Bizcə, təzkirələr kimi poetik müntəxabatlar da, o cümlədən Mirzə Yusif Qarabağinin "Məcmueyi-Vaqif və müasirini-digər", Adolf Berjenin "Qafqaz və Azərbaycanda məşhur olan şüəaranın əşarına məcmuədir", Hüseyin Əfəndi Qaibovun "Azərbaycanda məşhur olan əşarına məcmuədir" əsərləri milli ədəbiyyat tarixi, xü-

[1054] Hüseynov Heydər. Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən. Bakı, "Şərq-Qərb", 2007

[1055] Qənbərqızı Ruqiyyə. Firidun bəy Köçərli və onun "Azərbaycan ədəbiyyatı" əsəri // Köçərli Firidun bəy. Azərbaycan türklərinin ədəbiyyatı.İki cilddə, I cild. Bakı, Avrasiya-Press, 2005, s.6

susilə də ictimai-fəlsəfi fikri tarixi baxımından özünü doğrultmamışdır. Çünki bu müntəxabatlarda da əsasən son dövr şairlərin əsərlərindən nümunələr verilib ki, bu da yalnız fəlsəfi fikir tarixi baxımından deyil, bütöv Azərbaycan Türk ədəbiyyat tarixinin ortaya qoyulması anlamında da yarımçıq qalırdı.[1056]

Bu cür təzkirələr və poetik müntəxabatlardan əlavə bir də diqqəti çəkən Abbasqulu Ağa Bakıxanovun "Gülüstani-İrəm" adlı tarixi əsəridir. Hər halda Bakıxanov həmin əsərinin sonunda az da olsa, Azərbaycan Türk ədəbiyyatı tarixinin, o cümlədən ictimai-fəlsəfi fikir tarixinin icmalını verməyə çalışmışdır. Məsələn, o, bu əsərində Baba Kuhi Bakuyi, Məhsəti Gəncəli, Nizami Gəncəli, Əbülüla Gəncəli, Xaqani Şirvani, Fələki Şirvani, İzəddin Şirvani, Mücirəddin Beyləqani, Seyid Zülfüqar Şirvani, Seyid Yəhya Bakuyi, Yusif Müskürü, Bədr Şirvani, Əbdürrəşid Bakuyi, Müsahib Gəncəvi, Hacı Zeynəlabdin Şirvani və başqalarının yaradıcılığı (o cümlədən, özünün də) haqqında ictimai-fəlsəfi fikri tarixi baxımından az-çox qiymətli məlumatlar vermişdir.[1057]

Bütün bunlarla yanaşı, Köçərlinin "Azərbaycan türklərinin ədəbiyyatı" kitabı bir çox məziyyətlərinə görə, onlardan fərqlənmiş, eyni zamanda yalnız milli ədəbiyyat tarixini deyil, milli fəlsəfi fikir tarixini də özündə əks etdirmişdir. Köçərli özü də həmin əsərinin girişində qeyd edirdi ki, bu kitab özündən əvvəlki təzkirələr (xüsusilə də Lütfəli bəy Azərin "Atəşkədə"sindən) və poetik müntəxabatlardan bir çox cəhətlərinə görə fərqlənir. O, yazırdı: "Belə ki, mərhum Azəri "Atəşkədə"sində hər bir şairin tərcümeyi-halına dair müxtəsər əhval yazıb, əsərlərindən azacıq və bir-birinə münasibəti olmayan nümunələr göstərir. Amma biz mümkün olduğu qədərdə məşhur şüəra və üdəbamızın həm tərcümeyi-hallarına və həm asari-qələmiyyələrinə dair ətraflı məlumat vermişik, məzkur əsərlərin haqqında öz rəy və təəssüratımızı yazıb, açıqlama və ya tənqidə layiq olan məqam və nüktələri şərh və bəyan etmişik. Hər bir şairin məsləkini, üslubi-kəmalını və öz əsr və zəmanəsinin ruhunu və

[1056] Yenə orada, s.6-7
[1057] Bakıxanov A.A. Gülüstani-İrəm. Bakı, Möminin, 2001, s. 232-260

hansı növ əsərlər gətirdiyini və onların camaatımıza hüsni-təsirini, xeyir və ya zərrərini qüvvəmiz yetdiyi qədər açıb göstərmişik”.[1058]

“Bunda milli və sevgili şairlərimizin, əziz və möhtərəm ədiblərimizin tərcümeyi-halları və seçilmiş əsərləri zikr olunubdur”[1059] deyən, Köçərlinin bu fikirləri də göstərir ki, “Azərbaycan türklərinin ədəbiyyatı”nı yalnız ədəbiyyat tarixi əsəri kimi görmək doğru deyildir. Əslində onun şair və ədib adlandırdıqlarının bir çoxunun irsi (N.Gəncəli, Füzuli, Nəsimi, M.F.Axundov, A.A.Bakıxanov və b.) bəzən birbaşa, bəzən də dolayısıyla da olsa, ictimai-fəlsəfi fikir tariximizə aiddirlər. Bu anlamda Köçərlinin əsərinin girişində “milli ədəbiyyatın” əhəmiyyətindən bəhs etdiyi zaman tanınmış şəxsiyyətlərimizi “şairi-qabil”lə yanaşı, “ədibi-fazil” adlandırması təsadüfi olmamışdır. Bizcə, onun “ədibi-fazil” dediyi şəxsiyyətlər ilk növbədə, milli fəlsəfi fikir tariximizlə bağlıdır. O, yazırdı: “Ərbabi-daniş və və kamala məlumdur ki, hər bir millətin şən və əzəmətinə, tərəqqi və səadətinə bais olan səbəblərdən biri də onun ədəbiyyatıdır. Ədəbiyyat millətin ayneyi-həqiqətnümasıdır ki, onun maddi və mənəvi tərəqqisini və istiqbalı üçün nicat və səadət yollarını eynilə göstərir. Ədibi-fazil və şairi-qabil millətin maarif xadimləridir. Milləti haqq və səvaba irşad edən, şöhrət və hörmətə yetirən onlardır. Öz asar və əşarı ilə onlar millətin cisminə şəfa, ruhuna səfa, fikrinə cəla, ağlına və tamami mənəvi və ruhani qüvvələrinə balü pər verib uca məqama qaldırırlar”.[1060]

Qərb xalqlarının (ingilis, fransız, alman, rus və b.) milli ədəbiyyat sayəsində inkişaf etdiklərinə inanan Köçərli sadəcə, yaşadığı dövrünün təsiri altında şair və ədib adlandırdıqları mütəfəkkirlərin bütün irsini “ədəbiyyat” kimi qələmə vermiş, onları “Azərbaycan türklərinin ədəbiyyatı” adı altında toplamışdır. Ancaq o, özü də çox yaxşı bilirdi ki, “ədəbiyyat” deyilən anlayış birmənalı deyil, yəni o, ancaq nəğmə, məsəl, tapmaca, yanıltmac, bayatı kimi yozulmama-

[1058] Köçərli Firidun bəy. Azərbaycan türklərinin ədəbiyyatı. İki cilddə, I cild. Bakı, Avrasiya-Press, 2005, s.43-44
[1059] Yenə orada, s.44
[1060] Yenə orada, s.44

lıdır. O, yazırdı: "Ədəbiyyat iki qisimdir: bir qismi ağızda söylənən nağıl, hekayətlərdən, cürbəcür milli nəğmələrdən, aşıq sözlərindən, məsəllərdən, tapmacalardan, yanıltmaclardan, ağıçı sözlərindən, bayatılardan ibarətdir. Bu qisim ədəbiyyata ədəbiyyati-lisani və ya əfvahi və yaxud el ədəbiyyatı deyilir. İkinci qisim ədəbiyyat üdəba və şüəranın, üləma və hükəmanın asari-qələmiyyələrindən vücuda gələn yazı və təsnifatdan ibarətdir ki, bunlar istər nəsr ilə, istərsə nəzm ilə yazılmış olsun, istər elm və fününa dair olsun və istərsə əxlaq və davranışdan, şeir və qəzəliyyatdan bəhs eləsin. Hər iki qisim ədəbiyyatın bünövrəsi və dayağı sözdür ki, qüdrəti-ilahi ilə insanın ağzında zikr olunubdur və onun vasitəsi ilə insanın batini (iç) aləmi məlum və zahir olur, dəqiq niyyəti onunla bir-birindən təmyiz qılınır və bundan əlavə yer üzündə insanın digər məxluqat ilə arasında meydana gələn münasibətlər və rəftarı və mədarisi şərh və bəyan eyləyən sözdür. Söz olmasaydı, əlbəttə, ədəbiyyat da olmazdı. Bu surətdə insan ilə heyvanın arasında artıq bir fərq də qalmazdı və hal-hazırda müşahidə olunan tərəqqi və inkişafdan da bir əsər görülməzdi". [1061]

Köçərliyə görə hər iki ədəbiyyatın mövcudluğu ilk növbədə, dilin inkişafı ilə bağlıdır ki, bu da hər tayfaya ya da millətə qismət olmayıb, çünki bir çox tayfalar yaradılışdan mayalarında istedad və qabiliyyət olmadığı üçün dilini zənginləşdirməmiş, Daş əsrindən çox da uzağa gedə bilməmişlər. Ancaq bir çox qövm və millətlər olublar ki, onlar dilini inkişaf etdirməklə müəyyən uğurlar qazanmışlar. Onun fikrincə, dilini inkişaf etdirən qövm və millətlərin özü də iki qisimə bölünürlər: 1) ancaq el ədəbiyyatına (şifahi ədəbiyyata) sahib olanlar, 2) el-şifahi ədəbiyyatı ilə yanaşı qələm-yazılı ədəbiyyata sahib olanlar. Köçərliyə görə el ədəbiyyatı xalqa məxsus olub ağızdan-ağıza varisliklə ötürüldüyü halda, yazı-qələm ədəbiyyatı bir fərdin beyninin məhsulu olub, burada milliyyət nişanəsi və rayihəsi daha güclüdür. O, yazırdı: "Bunda (qələm ədəbiyyatında F.Ə.) hər bir nağıl və hekayənin məxsusi katibi və münşisi və hər bir təsnifin öz müsənnifi və hər bir şeir və qəzəlin müəyyən şairi

[1061] Yenə orada, s.45

vardır. Əlbəttə, bu qisim əsərlərdə milliyyət nişanəsi və milliyyət rayihəsi çox da müşahidə olunmaz. Vəli bir müsənnif və şair nə qədər öz millətinə yavuq olsa, onun adət və xüsusiyyətləri üzrə örnəklərə tapınsa, milliyyət qanı onun damarlarında nə qədər artıq cərəyan etsə, bir o qədər onun əsərlərində də milliyyət qoxusu və milliyyət nişanəsi çox görünəcəkdir. Şairi-kamil və ədibi-fazil həqiqətdə o ədib və şairdir ki, öz millətinin dili ilə danışa, ürəyi ilə, hissi və ağlı ilə fikir edə".[1062]

Bununla da, Köçərliyə görə Güney Qafqazın doğu və güneyində (Dərbənd, Borçalı, Naxçıvan, Gəncə, Bakı, İrəvan, Şəki, Şirvan, Qarabağ, Qazax, Lənkaran və b.), Qacarlar dövlətinin isə quzeyində yaşayan (Təbriz, Həmədan, Zəncan, Xoy, Maku, Ərdəbil, Urmu, Miyanə, Salmas və b.) Azərbaycan türklərinin də özünəməxsus ədəbiyyatı və dili (bir qədər fərqli şivələrdə danışslar da) vardır. Başqa sözlə, onun fikrincə, Azərbaycan türklərinin bugünkü dili qədim türkcədən müəyyən qədər uzaqlaşıb fars və ərəb kəlmələri özgə tərkib və qaydaya düşsə də, ancaq bütövlükdə bu dildə söylənən və yazılan ədəbiyyat Azərbaycan Türk ədəbiyyatıdır.[1063]

Köçərlinin fikrincə, milli ədəbiyyat tarixi həm də ona görə lazımdır ki, başqa xalqlar kimi Azərbaycan türkləri də öz milli ədiblərini, mütəfəkkirlərini tanısınlar, onlarla fəxr etsinlər: "Aya, biz Azərbaycan türklərinin Seretelliləri və Çavçavadzeləri olmayıbdırmı? Bizim milli şairlərimiz ərseyi-dünyaya gəlməyibdirmi? Aya, bizlər belə möhtərəm şəxslərin vücudundan məhrummu qalmışıq? Bu suallara cavab verib deyə bilərik ki, bizim də çox böyük, müqtədir və xoştəb milli şairlərimiz olubdur və lakin təəssüf ki, onların qədr və qiymətinə öz vaxtlarında və nə bu halda bilinməyibdir".[1064] Deməli, Köçərlini milli ədəbiyyat tarixini, o cümlədən də milli fəlsəfi fikir tarixini yazmağa sövq edən də məhz bu suallara cavabların tapılması istəyi olmuşdur.

---

[1062] Yenə orada, s.51
[1063] Yenə orada, s.52-56
[1064] Köçərli F. b. Milli bayram.// Azərbaycan publisistikası antologiyası.Bakı, Şərq-Qərb, 2007, s.92

Ona görə bir millətin ədəbiyyatı onun məişətinin aynası deməkdir, yəni millətin dolanacağı, inkişafı, tərəqqisi, kamalı onunla ölçülür.[1065] Onun fikrincə, milli şairlər, milli mütəfəkkirlər ədəbiyyatda vətənə məhəbbət, millətə xidmət, dostluğa sədaqət kimi müqəddəs hisslərə yer versə daha yaxşı olar.[1066] O yazırdı ki, millət böyük bir cisimdir ki, bu cismi təşkil və təsis edən hər bir kəs onun üzvləri məqamındadırlar. Belə olan surətdə millətin salamatlığı, şan-şərafəti, dövlət və sərvəti, onu təşkil və təsis edən üzv və ünsürlərin mütənasib olub sülh və ittifaq içində yaşamalarından, hər birinin üzərinə düşən vəzifələri əməl etmələrindən asılıdır. Türk-müsəlman xalqların başqa millətlərdən geri qalmalarına səbəb, məhz bu cür əməllərdən, milli ruhdan yəni milli ədəbiyyatdan, milli təfəkkürdən uzaqqalmalarıdır.

Köçərliyə görə insanlıqla, bəşəriyyətlə bağlı olan problemləri, o cümlədən milli məsələləri, milli ehtiyaclarımızı yalnız şairlər deyil, bütün mütəfəkkirlər düşünməli, onlar millətinin oyanışına, maariflənməsinə, elm və mərifət əldə etməsinə çalışmalıdırlar. Bu baxımdan o, "Azərbaycan türklərinin ədəbiyyatı" kitabında bir çox tanınmış Türk mütəfəkkirlərinin (N.Gəncəli, M.Füzuli, Ə.Nəvai, Y.Nabi, M.F.Axundov, A.A.Bakıxanov və b.) ancaq tərcümeyi-hallarını yazıb və əsərlərindən iqtibaslar gətirməklə kifayətlənməmiş, eyni zamanda onların yaradıcılıqlarının ictimai-fəlsəfi yöndən təhlilini vermişdir. Bizi isə burada daha çox maraqlandıran ictimai-fəlsəfi fikir tarixi baxımdan önəmli olan təhlillər, yeri gəldikcə, irəli sürdüyü fərqli mülahizələrdir.

**Fəlsəfi və əxlaqi görüşləri.** Köçərlinin fəlsəfi və əxlaqi görüşləri daha çox Türk mütəfəkkirlərinin (N.Gəncəli, M.Füzuli, Ə.Nəvai, Y.Nabi, A.A.Bakıxanov və b.) yaradıcılığını təhlili zamanı irəli sürdüyü mülahizələrlə əlaqəlidir. Köçərli Türk mütəfəkkirlərinin fəlsəfi yöndən yazdığı əsərlərini təhlil edərkən də daha çox dünyanın yaranışına və insan probleminə, eləcə də insanın Yarada-

[1065] Köçərli.F. b. Ədəbiyyatımıza dair məktub // Azərbaycan publisistikası antologiyası. Bakı, "Şərq-Qərb", 2007, s.70
[1066] Yenə orada, s.73

na olan məhəbbətinə, insanın əxlaqına, iradə azadlığına, insan həyatının mənasına və digər məsələlərə diqqət yetirmişdir.

**İnsan həyatının mənası və Vəhdət problemi.** O, Füzulinin əsərlərinin, xüsusilə də "Leyli və Məcnun"u təhlil edərkən yazırdı ki, onun əsərlərində əsas fəlsəfi fikirlər insanın Yaradana olan məhəbbəti və bu yolda çəkdiyi iztirablardır. Köçərli yazırdı: "Ol dürri-yeganənin (Füzulinin – F.Ə.) uşaqlar əlinə təlim üçün verilən "Leyli və Məcnun" dastanında o qədər hikmətamiz sözlər, dərin fikirlər, nazik imalar və incə işarələr, şairanə nəzmlər və fəlsəfi şeirlər vardır ki, cümləsini burada zikr etməyə və şərh qılmağa nə qələmdə qüdrət, nə də dildə bir o qədər axıcılıq və aydınlıq vardır. Avropa hükəma və fəlsəfəsindən məşhur Artur Şopenhauer "Məhəbbət nədən ibarətdir?" sərlövhəsilə yazdığı bir əsərində bəsh verdiyi şərh və bəyanatın çoxunu Füzulinin mənalı şeirlərində tapırıq. O fikirləri ki, alman filosofu əlli sənə bundan irəli bəyan etmişdir, onları Molla Məhəmməd Bağdadi üç-dörd yüz sənə bundan öncə xeyli ədibanə və çox usta bir şəkildə rişteyi-nəzmə çəkmişdir".[1067]

Köçərliyə görə Füzulinin dünyanın faniliyi və insan problemi ilə bağlı fəlsəfi fikirləri saqinamələrdə də öz əksini tapmışdır: "Bu saqinamələrdə o qədər peşəkarlıq, lətafət və ahəngdarlıq vardır ki, onları yazmaqla başa gələsi deyil. Onları diqqətlə oxuyanlar bir tərəfdən dünyayi-dunun qeydindən və pis nəfsin hirs və tamahından, alçaq və rəzil əməllərdən, pis işlərdən, fasid və batil fikirlərdən xilas olub nuraniyyət kəsb edirlərsə də, digər tərəfdən onların qəlbi bir növ məhzun və könülü tutqun olur. Bu hala səbəb odur ki, Füzuliyi-şikəsthalın qiymətli qələminin tökdüyü saf dürrün əksəri gözdən tökülən təmiz göz yaşına bənzəyir, nəinki şadlıq çəmənində yağan barana (yağışa). Füzuli demək olur ki, möhnət yükünün qəm yük çəkəni olub, aləmi insaniyyətdə bütün qəmlilərin və möhnətkeşlərin yüklərini çəkmək və məzlumların halına yanmaq üçün xəlq olunmuşdur. Füzulinin ahü nalələri oxuculara da sirayət edib, onları da özü ilə hüzn atəşi və ələmi ilə yandırır. Amma bu qan-

[1067] Köçərli F.b. Azərbaycan türklərinin ədəbiyyatı. İki clddə, I cild. Bakı, Avrasiya-Press, 2005, s.65-66

maqda bir feyz və səadət və ülviyyət vardır ki, o atəşə yanan istər ki, bir də yansın. Bu cansuzluq pərvanənin şam başına dolanıb yanmağına bənzəyir”.[1068]

Köçərli hesab edirdi ki, insan ölümdən qorxub axirət dünyasına, fəna aləminə köçməkdən məyus olmamalıdır. İnsan üçün ölümü haqq sayan mütəfəkkirə görə, bu dünyadakı həyatın mənasını başa düşməyib, dünyada hər bir şeyi heç, mənasız, anlamsız (nihilizm) sayıb özünə qəsd etmək doğru deyildir. Başqa sözlə, bu dünyada hər bir şeyin puç, fani olub, əsil aləmin fəna aləmi, axirət dünyası olması həqiqət olduğu halda, Yaradanın bu iradəsinə qarşı çıxıb fani dünyanın, yəni bu dünyanın qəmini yeyib şübhələr içində olmağın, ya da ancaq fəna aləmi üçün yaşamağın da faydası yoxdur. Bu baxımdan real dünyanı insan oğlunun ancaq qəm yeri hesab edib, fəna aləmində azad yaşamağı düşünməsi də əbəsdir. O, yazırdı: “Belə olan surətdə ölümdən qorxumaq və fəna aləminə köç etməkdən məyus və qəmli olmaq böyük bir səhv deyilmi? Gerçək vəziyyətdən bir növ xəbərsiz və qafil olmaq deyilmi? İnsan üçün ölüm haqdır və ayeyi-vafi hidayət (doğru yol göstərən, əhdə vəfalı ayənin – F.Ə.) məzmununca “küllü şeyin halikun illə vəchəhu” – baqi və əbədi qalan ancaq tək cəlal sahibi olan Yaradandır. Bu cəhətə dünyanın qəmin yeməkdən və zəmanənin durumundan incimənin və üsyankar olmanın bir faydası yoxdur. İnsanın yaşadığı müddətcə gərək həyatın qədrini bilsin və Həqq-taalanın ona mərhəmət qıldığı qüdrət və bacarığı xeyir işlərə və haqq yoluna sərf eləsin. Tək fəna aləmi arzulamaqdan bir mənfəət yoxdur və Haqq-təalanın əmri bizə çalışmaq və təlaşdır. Zaviyənişinlik və bikarçılıqdan bir şey çıxmaz. Bizim bu uğursuz əsrdə, hətta mədəni millətlər arasında da yaşamı, həyatı məzmunsuz bilib dünyadan və onun keşməkeşindən bizar olub canlarına qəsd edənlər az deyildir. Son vaxtlarda böyük və paytaxt şəhərlərdə intihar edənlərin həddi və hesabı əndazədən çıxır və dövlət rəhbərlərini, polis məmurlarını, hükəma və fəlsəfə firqələrini fikir və əndişəyə salır. Bu hədsiz inti-

[1068] Yenə orada, s.70

hara səbəblər çoxdur. Əsası dünyadan bizar olub beş günlük həyatı puç və mənasız bilmək əqidəsidir”.[1069]

Onun fikrincə, İslam aləmində də bu cür nihilist (heçlik) düşüncə və əqidədə olanlar hər daim olub, bunlardan biri də Füzulidir. O, yazırdı: “Təkcə Füzulinin: Əlqissə, vücud dami-qəmdir, Azadələrin yeri ədimdir (azad yaşayanların yeri heç bir şeyə sahib olmamaqdır – F.Ə.), – şeri ona kifayət edir ki, çoxlarını qəfildən ayıldıb beş günlük dünya məişətinin puç və boş olmağı barəsində böyük əndişəyə salsın. Başqa bir əcəm şairi bu xüsusda demişdir: Biz heçik, cahan heç, qəm və şadlıq heçdir. Heçlik üçün narahat olmaq xoş deyildir”.[1070] Bizcə, Qərb mütəfəkkirlərinin çoxundan fərqli olaraq İslam-Türk mütəfəkkirləri, o cümlədən də Füzuli, Nigari, Məhvəşi və başqaları bu dünyanı heçlik, fani adlandırıb daha çox “fəna aləmi”nə tapınıb, hər bir şeyi Yaradanın iradəsi, tövhidi və qüdrətinə bağlayıblar. Köçərli də Füzuli, Məhvəşi, Nigari və başqaları kimi bir tərəfdən İslam dininə səmimi qəlbdən inanan bir ziyalı kimi, bu dünyanı fani, puç görüb əsas Yaradanın birliyini və əbədiliyini qəbul etsə də, digər tərəfdən onlara nisbətən bu dünyanı tamamilə “beş günlük”, puç və fani hesab edib millət, vətən, insanlıq üçün çalışqan olmamağı doğru hesab etməmişdir.

Bu baxımdan F.Köçərli Füzuli və Məhvəşi kimi, Nigarinin də dünyagörüşünün əsasında dayanan, daha çox fəna aləminə bağlı olan ilahi eşq, Tanrı sevgisini bəyənsə də, bizcə, ancaq onun həddən artıq real dünyadan uzaqlaşmasını təqdir etməmişdir: “Hacı Mir Həmzə əfəndinin yazdığı müxtəlif şeirlərinin cümləsi eşqi-həqiqiyyə, məhəbbəti-ilahiyyə, hüsni-təbiiyyə, mədhi-mövlaya, mərifəti-xudaya, eşq yolunda sədaqət və dəyanətə və sair övsafi-həmidələrin mədhinə şamil kəlamlardır”.[1071]“Çün bu dünyada heç bir şey və heç bir əməl ilahi iradənin xaricində deyil, belə olan surətdə meyə meyl etməkdə və ya onu tərk qılmaqda şairdə nə təqsir var və

[1069] Yenə orada, s.475
[1070] Yenə orada, s.475
[1071]Köçərli F.b. Azərbaycan türklərinin ədəbiyyatı. İki cilddə, II cild. Bakı, Avrasiya-Press, 2005, s.152

onun özü bilmir ki, o, günah əhlidir yoxsa əhli-savabdır”,[1072]- deyən Köçərlinin sözlərindən belə anlaşılır ki, o, insanın da əvvəl-axır Yaradana üz tutacağına şübhə etməmişdir. O, daha sonra yazırdı: “Çünki hər şeyi cünbişü hərəkətə gətirən və hər şeyə ruhi can verən, hər şeyi gözəl, lətif, bəyənilən, təzə qılan eşqdir, ona görə bütün məxluqata sahibü hökmfərman olan, cəmi yaranmışa ağalıq edən, xüsusən bəni-növi-bəşəri, yəni insanı öz təhti-idarəsində dolandıran, piri cavana, cavanı pirə, tərsanı müsəlmana, müsəlmanı tərsaya bağlayan, dinü məzhəbi, malü canı, qeyrətü himməti, irzü namusu, namü şöhrəti öz əlində əsir edən lazım olduqda cümləsini badi-fənaya verən eşqdir”.[1073]

Ümumiyyətlə, onun fikrincə, dünyada nə qədər kəşf və ixtiralar olsa da, əsas sirlər insanlara bəlli deyil: “Əgərçi bizim bu tərəqqi əsrində çox şeylərin və əlamətlərin müxtəlif elmlər sayəsində əsil mahiyyəti açılıb bilinməkdədir və gün-gündən növbənöv ixtiraat və kəşfiyyat olunmaqdadır və lakin dünyada çox sirrlər və hikmətlər vardır ki, insan əqli onları dərk etməkdə aciz və çarəsizdir”.[1074] O, daha sonra yazırdı: “Doğrudur, elm sayəsində çox gizli sirrlərin və naməlum şeylərin yaranış səbəbi, mahiyyəti kəşf olunubdur və kəşf olunmaqdadır, amma daha da çox şeylər var ki, onlar araşdırılıb tədqiq olunmayıbdır və bu yolda hükmətli filosoflar xeyli zəhmətlərə və məşəqqətlərə giriftar olub və ömürlər sərf ediblərsə də, yenə də bir məqama vasil olmayıblar və çox alimlər axır nəfəslərində həsrətlə canlarını təslim etdikdə dünyaya cahil gəlib, cahil getdiklrini söyləyiblər. Hasili-kəlam biz dediyimiz budur ki, xudavəndi-aləmin öz qüdrəti ilə yaratdığı aləmin hər şeyində bir hikmətü sirr vardır və hər nə ki, yaradıbdır, tamamını öz yerində xeyli gözəl və qəşəng yaradıbdır və bu xüsusda bir etirazü irad ola bilməz”.[1075]

---

[1072]Yenə orada, s.119

[1073]Yenə orada, s.329

[1074]Köçərli F.b. Azərbaycan türklərinin ədəbiyyatı. İki cilddə,I cild. Bakı, Avrasiya-Press, 2005, s.251

[1075]Köçərli F.b. Azərbaycan türklərinin ədəbiyyatı. İki cilddə,II cild.Bakı, Avrasiya-Press, 2005, s.385

İnsanı digər canlılardan fərqləndirən cəhətlərdən biri də şüur, ağıl vasitəsilə **iradə azadlığı**nı dərk etməsidir. İradə azadlığının əhəmiyyətini irəli sürən Köçərliyə görə insan öz hərəkət və davranışlarında başqalarını təqlid etməməlidir: "Əql və fərasət Haqq-taalanın öz bəndəsinə verdiyi ən ali və gözəl nemətlərdir ki, insan onların vasitəsilə sair məxluqat və heyvanatın ən dəyərlisi və əşrəfi olubdur. Hər şəxs gərəkdir bu gözəl nemətin qədrini bilib onunla şərafətlənsin. Özgə ağıl ilə, özgə tədbir ilə dolanan, öz ağlını unudub, öz fəhmü dərrakəsini yatızdırıb qeyrilərə təqlid edən, müridbazlıqda ömrünü zay edən kəs həmişə fəlakətdə və zillətdə olacaqdır. Amma müsəlman ruhaniləri və onlar ilə müttəfiq müsəlman ədib və fazilləri məqamında olan ağayi-möhtərəmin çoxu bu əqidədədir ki, adam öz aciz, zəif əqli ilə iş görsə, axırda peşmanlıq çəkər. Bəs lazımdır ki, öz rəyincə iş görməyib qeyrilərin buyurmağına qulaq asasan və əmrinə tabe olasan".[1076]

Belə düşünən müsəlmanlar bu əqidədədir ki, hürriyyət və azadlıq ancaq fəsad və inqilab yaradıcı olub, onların sayəsində rahatlıq tapmaq qeyri-mümkündür. Köçərli bu cür düşünənlərin dilindən yazırdı: "Avama hürriyyət verilsə, o öz bildiyini eləyəcəkdir və belə olan surətdə bir kəs onun xətasından və bəlasından uzaqda və təhlükəsiz yerdə qalmayacaqdır. Bəs, bu xətalardan və fəsadlardan salamat qalmaq üçün hər kəsin öz əqlini və rəyini işlətməyə gərək yoxdur. Ağıllılarımız və işbilənlərimiz hər nə buyursalar, başqalarının da onların əmrlərinə tabe olmaları və onların göstərdiyi yol ilə getmələri kifayətdir".[1077]. Köçərliyə görə bir tərəfdən baxanda, bu yaxşı məsləhət olsa da, ancaq digər tərəfdən yanlışdır: "Amma iş budur ki, ağıllılarımız və işbilənlərimiz həmişə avamın xeyrini mülahizə eləmir, onun xeyrinə çalışmır. Bəlkə də onların əsas fikri və xəyalları avamın avamlığının davamını saxlamaqla, onların avamlığı və qanmazlığı sayəsində özlərinin rifahlarını artırıb, səadətli bir şəkildə güzəran etmələri, yaşamalarıdır". [1078]

[1076] Yenə orada, s.281
[1077] Yenə orada, s.281-282
[1078] Yenə orada, s.281-282

Köçərliyə görə bu baxımdan hər şeydən əvvəl bizə lazım olan elm və bilikdir, çünki elm və kamalsız tərəqqi etmək qeyri-mümkündür: “Elm və kamalmız olsa, öz başımız ilə iş görməyə müqtədir ola bilərik, o halda bizə qəyyum dəxi lazım olmaz. O zaman qoyun olmaqdan qurtulub çobansız da başımızı dolandıra bilərik, onda hürriyyətin də səmərəsi acı olmaz. Və bir kəsin qeyrisinə xeyirdən başqa zərəri olmaz. Hər bir şəxsin zəhməti təklikdə özünə xeyir gətirən kimi, ümum cəmiyyətə də onun xeyri yetişər”.[1079]

Yaradana sidqi-dil ilə ümid edən insan öz arzusuna yetişər, hər niyyəti hasil olar. Ancaq Yaradana ümid bağlamaqla yanaşı, Köçərliyə görə insanın çalışqan olması və zəhmət göstərməsi də lazımdır: “Əlbəttə, Rəzzağə (Yaradana-F.Ə.) ümid bağlamaq hər cəhətdən yaxşıdır. Məsəldir ki, ümidsiz düşmənin olsun. Ümid olmayan yerdə insanın həyat mübarizəsi nəyə lazımdır? İş ümid ilədir, ümidə bağlıdır. Ümidsiz kim bir işə başlaya bilər? Ümid işin ruhudur. Amma söz buradadır ki, ümidə yetişmək üçün onun səmərini dadmaq üçün qeyrət və zəhmət lazımdır. Zəhmətsiz murad və mətləbə yetişmək mümkün deyil, mümkün olsa da, zəhmətsiz muradın meyvəsi bir o qədər ləzzətli və şirin olmur. Necə ki, zəhmətlə yetişən meyvənin dadı ləzzətli olur. Haqq özü də ona ümid bağlayanı dost tutur, bəşərdi ki, ümid bağlayan şəxs əl ayağını boşaldıban böyrü üstə yatmaya ki, “Allah yetirəcəkdir” ki, “Allahdan buyruq, ağzıma quyruq”, bəşərdi ki, ümid bağlayan şəxs alının tərini silə-silə zəhmət çəkə və haqqdan naümid olmaya. Atalar haqqın dilindən deyiblər: “Səndən hərəkət, məndən bərəkət”. Hərəkətsiz bərəkət hərgiz gerçək olmaz”.[1080] O, daha sonra yazırdı: “Qazancına ümidvar olan, yəni zəhmət çəkən adam heç vaxt məhrum qalmaz. Bu şərt ilə ki, onun qazancı halal olsun. Çünki halal qazancın özü ibadətdəndir. O ki qaldı “qəzaya riza vermək” bu xüsusda bizim də rəyimiz budur ki, qəzaya lazımdır riza olmaq, yəni insanın başında qəzadan bir iş gəlsə, artıq cəza-fəza etməmək. Çünki ağlamaq və ah-zar etmək ilə vüqua gələn bəlavü müsibəti rəf etmək olmaz. La-

---

[1079] Yenə orada, s.282

[1080] Yenə orada, s.282-283

kin insanın öz məişətini düzəltməsə və boş-bikar oturub "hər nə müqəddərdir, o olacaqdır" – deyib bir gəlir qazancı dalınca getməsə, gün-gündən pozğun və pərişan hala düçar olacaqdır və öz pərişan halını qəzavü qədərə həml eləməyin (bu əqidə eyni batil əqidədir) nəticəsi axırda fəqirlik və dərvişlikdir...".[1081]

Beləliklə, Köçərli insanın yalnız bədəninin qayğısına qalıb bu dünyada yeyib-içməklə, yatmaqla, sakit yaşamaqla ömrünü keçirməsini doğru hesab etməmiş, onu daim mübarizəyə səsləmişdir. O, yazırdı: "Həqiqətdə məhz-istirahəti bədən və fərəqati-cism ilə dolanmaq heyvaniyyətdən bir az bəridir. Künci-üzlət və qənaəti qənimət bilib, beş günlük ömrü xabi-qəflətdə, yəni ancaq yeyib-içməkdə keçirmək, məhz bir bədənə xidmət edib, onun zəruriyyatını mühəyya etməyə çalşmaq və ruhun varlığından bilmərrə bixəbər olmaq insanın sırf cəhalət və avamlığına dəlalət edir".[1082]

Köçərli hesab edirdi ki, ədalətsizliyə, haqsızlığa qarşı təkbaşına qalsa belə insanoğlu daima mübarizə aparmalı, sonuna qədər müharibə meydanını tərk etməməlidir. Köçərli yazırdı: "Əlbəttə, tək öz nəfsinin salamatlığını göz önündə tutmayıb, cəmiyyətin xeyir və yaxşılığı yolunda çalışan və çabalayan şəxsin başında bəlalar çoxdur, nəinki o adamın ki, bütün insanların üzünə gülüb, hər işdə bütünlükdə öz şəxsi mənfəətini gözləsin. Əlbəttə, haqqı söyləməkdən çəkinməyib dürüstkirdarlıq və həqiqətpərəstlik etməkdə xəta və xətər çoxdur, nəinki haqq söyləməkdən çəkinib, məhz öz səlahı üçün bir küncdə sakitcə sükunət ixtiyar etməkdə. Amma bununla belə, bizim ixtiyarımız yoxdur ki, xalqı haqq söyləməkdən, düristkirdar olmaqdan və haqq yolunda fədakar olmaqdan daşındıraq. Biləks, hər bir vicdan sahibinin, elm və mərifət ərbabının başda gələnlərinin əvvəlinci vəzifəsi millətin övladlarını düzlüyə və doğruluğa dəvət etməkdir. Vətən uğrunda, millətin tərəqqisi və təalisi yolunda onları candan və başdan keçməyə, cürətli, ürəkli və dosdoğru olmağa təbliğ və təşviq etməkdir. Və illa adam bir öz başını və nəf-

---

[1081] Yenə orada, s.283

[1082] Köçərli F.b. Azərbaycan türklərinin ədəbiyyatı. İki cilddə, I cild. Bakı, Avrasiya-Press, 2005, s.77

sini qorumaqla, öz şəxsi mənfəətini güdməklə, hər qisim cəfa və sitəmə tab gətirib, hər bir töhmət yükünə və məzəmmətə səbirli olmaqla və bu qədər xar və zəlil olub, qeyrilərin təhti-hökumətində əsirliklə güzəran edib, bu günə dolanmağın adını "müdara" qoymaqla həqiqi səadətə və həqiqi nicata vasil olmaz. Belə dolanmağın nəticəsi qorxaqlıq, kəmcürətliklə yanaşı, başqa zillət və məşəqqətdən savayı bir şey olmaz. Öz rəy və fikrimizi açıq deməkdən çəkinib, əyri ilə doğruya fərq qoymayıb, haqqa və nahaqqa "bəli, bəli" deməklə belə fəna hala düşmüşük. Bizim əqidəmizə görə, tərəqqi və səadətimizə lazım olan əsbablardan birisi də cürətli, fədakar və dürüstkirdar olmaqdır".[1083]

İnsan oğlunun təkbaşına qalanda belə mübariz olmağa səsləyən Köçərli, bu baxımdan onun bütün hər şeyi alın yazısına bağlayıb "Allaha təvəkkül" düşüncəsindən çıxış etməsini də xeyli dərəcədə doğru hesab etməmişdir. Ona görə belə düşünmək doğru deyildir ki, Allah insanları bilərəkdən varlı ya da kasıb yaratmış, eyni zamanda, birinə xoşbəxtlik, digərinə isə bədbəxtlik qismət etmişdir. F.Köçərlinin fikrincə, bu cür düşüncələr həm də ona görə doğru deyil ki: "Haqq-taala hamı adamları bir halda, bir surətü heyətdə yaradıbdır və cümləyə ağıl, zehin və fərasət əta edibdir. İnsanı yaradanda birisinin alınına ağalıq və birisininkinə rəiyyətlik nişanəsi vurmayıbdır. Birini fəqir və birini münim yaratmayıbdır. İnsan arasında vüqua gələn bu fərqü təfavüt, bu ədalətsizlik və ədavət insanın əməlindən, tamah və hirsindən törəyib zühura gəlibdir və necə ki, adamlar öz nəfslərinə və bətnlərinə qulluq edəcəklər, öz hirs və tamahlarına tabe olacaqlar, yer üzündən zülm və sitəm əksilməyəcəkdir. İnsanlar firqə-firqə olub, bir-biri ilə cəngü cidal edəcəklər. Yer üzündən büğzü ədavət, nifaqü fəsad qurtarmayacaqdır. Və bu büğzü ədavəti, nifaqü fəsadı Allah yaratmayıbdır, insanın özü yaradıbdır. Həmişə fəqir istəyibdir ki, fəqirlikdən və yoxsulluqdan xilas olsun, dövlətli də istəyibdir ki, dövləti və malı əldən verməsin və hətta bacardığı qədər dövlətinin üstünə daha da dövlət artırsın. Bu yolda hər iki sinfin arasında həmə vəqt nizavü nifaq olubdur və

[1083]Yenə orada, s.87

olacaqdır”.[1084] O, yazırdı ki, Haqq-taala insana atadan-anadan mehribandır, Onun mehirbanlığı cəhətinə insan insana əbəs yerə zülm etməz, bir-birini dərdü bəlalara düçar qılmaz: “Ona binaən bizə bir müsibət və bəla üz verdikdə Haqqdan şikayət etməyimiz nahaqqdır. Çünki həqiqəti halda o bəla müsibətlərin vüqua əksər-övqat bais özümüz oluruq. Allahın bunda bir qarışacağı yoxdur. Amma acizliyimiz və avamlığımız ucundan öz təqsirimizi və qəflətimizi Haqqdan görüb, şaki və asi oluruq. Bilmək gərəkdir hamı müsəlmanlar və elmsiz tayfalar bu batil əqidə üzrə yaşamaqdadırlar”.[1085]

Köçərli bir tərəfdən “Allaha təvəkkül” düşüncəsinə qarşı çıxıb, Allahın hamını bərabər yaratdığını, ancaq bərabərsizliyin insanların özü tərəfindən yaradıldığını iddia etməklə yanaşı, digər tərəfdən də insanın iqbalının, bəxtinin bağlı ya da açıq olması təqdirdə bəzi hallarda onun səy, zəhmətkeş və çalışqan olub olmamasının əhəmiyyətsiz olduğuna da inanırdı. O, yazırdı: “Bu həqir bəndə həmişə bu etiqad üzrədir ki, əksəri-ovqatda şəxsin xoşbəxt və rahat olması öz səyi ehtimamına bağlıdır. Hər bir iş insanın elm və kəmalından, bilik və təcrübəsindən asılıdır. “Zəhmət çəkməyən bal yeməz”, “cəfa çəkməyən səfa görməz”. Bu etiqadda ola-ola həqir bu doğrunu da inkar edə bilməz ki, insanın iqbalı açılanda və bəxti gətirəndə zəhmətsiz və məşəqqətsiz də hər tərəfdən onun üstünə dövlət və nemət axıb tökülür, her yerdə ona hörmət və izzət görsənilir. Və bu bəxt gətirən vaxt onun mal və dövlətini, cah və cəlalını saxlamağa “bir qüvvət” kifayət eləyir. Amma vay o gündən ki, bəxt insandan üz çevirə, iqbal gətirməyə. Bu halda adam nə qədər çalışıb-əlləşə və nə qədər canını zəhmət və cəfa oduna yaxsa, yenə də axırda fəqir və əliboş qalacaqdır... İnsandan dövlət və hörmət üz döndərib gedəndə, filhəqiqə, nəinki zəncir ilə, bəlkə heç bir qüvvə ilə onu saxlamaq mümkün olmaz”.[1086]

---

[1084] Köçərli Firidun bəy. Azərbaycan türklərinin ədəbiyyatı. İki cilddə, II cild. Bakı, Avrasiya-Press, 2005, s.386-387

[1085] Yenə orada, s.387

[1086] Köçərli Fiidun bəy. Azərbaycan türklərinin ədəbiyyatı. İki cilddə, I cild. Bakı, Avrasiya-Press, 2005, s.481-482

O, **əxlaq məsələsinə** də diqqət yetirmiş, cavan yaşındakı insanla yaşlı bir insanın həyata baxışını müqayisə etməyə çalışmışdır. Köçərli yazırdı ki, cavanlıq yaşında az adam tapılır ki, həyatın qədrin bilib, onu boş yerə sərf eləməsin: "...şairin zəbunü pərişan halını pirlik mövsümündə öz vücudunda hiss eləməsin, hirs, tamah, hübbi-cahi, mərtəbə, hübbi-malü miknət, löhvü ləəb, büğzü ədavət, məniyyət, sərkeçlik, büxlü həsəd və zülmü sitəmə adət və sair övsafi-zəmimə və əxlaqi-rəzilə ki, cümləsi avamlıq və cəhalət nəticələridir, cismü ruhumuzu bir növ zəbtü təsərrüf edibdir ki, həqqü həqqaniyyətdən, insafü mürvvətdən və əsl bəşəriyyət və insaniyyət nə olduğundan bilküliyyə qafil və bixəbərik. Ancaq axır nəfəsimizdə qəflətdən gözümüzü açıb, ölümü önümüzdə görüb xövfü əndişəyə düşürük və və şairin dili ilə bu günə tövbə və istiğfar eləyirik. Əgərçi axırki peşmanlıq fayda verməz, tövbə və inabədən başqa bir çarəmiz yoxdur".[1087] Köçərliyə görə əsil insana yaraşan sifət odur ki, zahiri zəhətdən özünü göstərməklə deyil mənəvi və əməli baxımdan igid olsun: "Çul və çuxaya bəzənib zahirlərinə zinət və sığal verənlərə kişi demək şayəstə deyil. Həqiqətdə mərd igid o kəsdir ki, özünü dağa-daşa toxuyub haqq yolunda mərdanə dava eləsin".[1088] O, hesab edirdi ki: "...insanın başına qisim-qisim bəlalar gəlməsə və o, cürbəcür bəlalara və müsibətlərə mübtəla olmasa, ənvai-təcrübə və imtahanlar sınaq olunmasa, ruzigarın kürəsində əriyib dəsti-qəza ilə vurulan çəkiclər altında döyülməsə, qəllü qəşdən hərgiz pak ola bilməz və dərəceyi-kəmala irişməz".[1089]

İnsanın kamilləşməsində cavanlıqda başına gələnlər və həyatda qazandığı bir çox təcrübələr mühüm rol oynayır. Burada ən vacib odur ki, insan öz yanlış-doğru hərəkət və davarnışlarını bilməlidir. O, yazırdı: "Doğrudan da öz eyib və qəbahətini görməyib, qeyriləri eyibləndirən və özglərə töhmət edən şəxsdən nə hörmət və mərifət təmənna eləmək olar? Öz pozğunluqlarını görməyən, çirkin və ədəbsiz əməllərindən utanıb həya etməyən adam, söz yoxdur ki,

[1087] Yenə orada, s.321
[1088] Yenə orada, s.342
[1089] Yenə orada, s.347

özgədən də utanmaz və sevmədiyi adamın haqqında hər qisim iftira və böhtanı söylər. Bu qisim adamlardan kənar dolanmaq eyni-məsləhətdir”.[1090]“Hər bir vücud qabili-tərbiyə və təlim ola bilməz. Elə bir cövhərsiz, mayası xarab şəxslər var ki, nə qədər onlara təlimü tərbiyə olunsa, yenə də avamlıqda və heyvaniyyətdə qalıb, ruhaniyyət və mənəviyyat cəhətincə tərəqqi edə bilməzlər... Girdəkana qoz yapışmayan kimi, tərbiyət də mayası xarab şəxslərə təsir edə bilməz”,[1091] mülahizəsi Köçərliyə görə müəyyən qədər doğru görünsə də, ancaq insan elm və tərbiyə sayəsində ədəblə əxlaqında tərəqqi tapa bilər. Belə ki, insan üçün səadət mayasının əsası tərbiyədir və tərbiyəsiz elmin də faydası yoxdur.[1092]

Köçərli belə bir qənaətə gəlmişdir ki, dünyanın yaranmasından bu günə qədər insan keçdiyi həyat yolunda daha çox müsbət deyil, mənfi amillərə meyil göstərmişdir: “Dünya yaranandan bu anacan Adəm atanın övladları öz şəxsi mənfəətlərini mülahizə edib dövlət və sərvət sahiblərindən qisim-qisim təmənna nəzərdə tutub doğrunun üzünə yalanın qara pərdəsini çəkməyə adətkar olublar. Müflis və miskinlərin hünəri olmayıbdır ki, doğrunu kəmali-cürət ilə söyləyib yalançı və hiyləbaz münəccimlərin yalanlarını batil eləsin və haqqı yetirsin. Belə cəmiyyətlərdə hər tərəfdən onların üstünə eqoist və nəfspərəst alçaq və mayası xarab şəxslər hücum edib ağzını qapayırlar və özlərini də xalq içində hörmətsiz və biabır ediblər. O səbəbdəndir ki, müsəlman qardaşların arasında yalan söyləmək və haqqı gizlətmək adi bir şey olubdur və hətta bəzi cəmiyyətlərdə hünər belə sayılır. Bu minval haqqa güc və zor edib, iftira və yalana rövnəq verməyin adını “düruği-məsləhətamiz” (yalançı məsləhətlər-F.Ə.) qoyublar”.[1093]

Köçərli şairlərin cəmiyyətdəki mövqeyini də ifadə etməyə çalışmışdır. Onun fikrincə, şairin əsas peşəsi odur ki, doğrunu doğ-

[1090] Yenə orada, s.482

[1091] Köçərli F.b. Azərbaycan türklərinin ədəbiyyatı. İki cilddə, II cild.Bakı, Avrasiya-Press, 2005, s.65

[1092] Yenə orada, s.66

[1093] Köçərli F.b. Azərbaycan türklərinin ədəbiyyatı. İki cilddə, I cild. Bakı, Avrasiya-Press, 2005, s.482

ru, əyrini də əyri yazsın, yalançı və məddah olmasın. O, yazırdı: "Əgər şair peşəkar və əhli-sənət olsa, o sənət və peşə şairin yazmağına, şerlər vasitəsilə yoxdan xəlq etməyinə, onun təbinin açılıb barvər olmağına mane olardı. Şairin sərmayəsi Haaq-taalanın ona bəxşü əta qıldığı təbi-səlimdir (istedaddır) ki, ondan nəşət edib zühura gələn cəvahirlərin hər birisinin ərbabı nəzərində qədrü qiyməti ziyadədir".[1094] O, daha sonra yazırdı: "Həqiqi hüsnə və mərifətülləhə vasil olmaq istəyən adam əzəli eşq günəşini gərək axtarıb bulsun, çünki məcazi dilbərlərin və ay üzlülərin hüsnü lətafəti daim deyil, müvəqqəti, boş bir şeydir. Ona mübtəla olmaq layiq və münasib deyil və insan oğlu üçün yarımçıq şənlikdir. Əsil həqiqətə və mənəviyyata talib olan kəs gərəkdir Kəbə evi ilə digər ibadət evləri arasında bir fərq görməsin və bu müqəddəs məqamlara da bir nəzər ilə baxsın. Şair əsl hürriyyətpərəst olub, azadeyi-əfkar və hürriyyəti-dinü etiqad onun baş arzularından birisidir. Şair üçün məscid, kilsə, künişt, sinaqoq və deyr arasında əsla təfavüt yoxdur. Bunların cümləsi Allahın evi mənzələsində müqəddəs və pak məqamlardır ki, ibadət və mərifətüllah üçün bina olunubdur".[1095]

Ona görə həqiqi şairin baş vəzifəsi mənanı yetirməkdir: "Çünki hər bir hekayətin ruhu onun içində olan məna və məzmundur. Nə qədər ki, şairin başında doğan təzə fikirlər aydın, açıq və salamat olsa, bir o qədər də onları bəyan etmək asan olur. Çətini ancaq fikrin başda doğub böyüməsidir. Dolaşıq və qarışıq fikirlərin zühura gəlməsi də dolaşıq olur və bəzi şairin yazılarının mənası o qədər qarışıq və bulaşıq olur ki, o qədər ağır və qəliz ibarələrlə malamal olur ki, elə ölçüsüz və biçimsiz yaraşılmayan dona geyinilir ki, onları oxuyanlar bir şey fəhm edə bilmir və bu kəlamı yazmaqdan şairin ümdə məramının nə olduğunu anlayıb başa düşmürlər. Zənn edirəm ki, əgər şairin və ya ədibin özündən dəxi soruşulsa ki, cənab filan, sizin bu kəlamı yazmaqda əsl məramınız nə olubdur və

[1094]Köçərli F.b. Azərbaycan türklərinin ədəbiyyatı. İki cilddə, II cild.Bakı, Avrasiya-Press, 2005, s.74
[1095] Yenə orada, s.114

bunun ruhu, canı nədədir, hansı mətləbi ifadə etmək istəyibsiniz, ol cənab bu suallara cavab verməkdə aciz qalar..”.[1096]

Köçərliyə görə şairin əsas silahı isə “Söz”dür. Çünki dünyadan öncə də, dünyanın özünün də, dünyada nə varsa hamısının da, o cümlədən bütün məxluqatın da vücuda gəlməsinə səbəb “Söz” olmuşdur. “Söz”ün meydanı o qədər vüsətlidir ki, onun sərhəddi və əndazəsi təsəvvürə gəlməz. O, yazırdı: “Sözsüz cümlə məsələlər və sirrlər aləmdə iləl-əbəd puşidə qalardı və insanın heyvanat və nəbatat qismindən artıq bir fərqi və təfavütü olmazdı və aləmdə bütün görünən nə varsa susan, dinməz xəzinə olub zühur etməzdi. Bəs, nə vaxtdan ki, dünya yaranıbdır, onda vüqua gələn əlamətlərin cümləsində sözdən bir əsər var.  Nitq qutusunda söz xoşbəxt bir gövhəridilkəşdir və her şeyin iç dünyası ona bağlı olub, kəşfi-bəyanı ondan asılıdır. İnsanın fikrində yengi doğub təşkil bulan hekayələri ən əvvəlcə  bilən və onları əlvan libas geydirib aləmə göstərən sözdür və nə qədər ki, dünyada söz həm əskidir, həm də yengi doğduqda yenə tər təzədir və Şeyx Nizaminin dediyi haqdır ki, bizim həyatımız, ölmümüz sözün varlığına və yoxluğuna bağlıdır”.[1097]

**Sosial-siyasi görüşləri.** Köçərlinin yaradıcılığında sosial-siyasi məsələlər, yəni dövlət, hakimiyyət, idarəetmə, despotizm, yenilikçiliyə münasibət mühüm yer tutmuşdur. Məsələn, o, Qacarlar və çar Rusiyasındakı hakimiyyətlərin despotizmini açıb göstərməyə çalışmışdır. Bu anlamda o, A.A.Bakıxanovdan bəhs edərkən onun Təbrizdə olarkən şəhər əhalisini tənqid edən şeirinə diqqət çəkirdi: “Əgər indi “İbrahim bəyin səyahətnamə”sinə diqqət yetirilsə, yəqinlik hasil olar ki, bu müddəti-mütəmədiyyənin ərzində Təbriz əhalisinin əhvali-ictimaiyyəsi, məişəti vəziyyəti və əxlaqı qədimdən olduğu üzrə davam etməkdədir. Bu uzun müddətlərdə cümlə millətlər ayılıb tərəqqi etdikdə müsəlmanlar yatmaqdan usanmadılar; yatdılar və belə fəna hala düşdülər, məğlub və məyus oldu-

[1096] Yenə orada, s.382
[1097] Yenə orada, s.314

lar".[1098] O yazırdı ki, Qacarlarda və digər müsəlman dövlətlərində zahirdə inkişaf görünsə də, mahiyyət etibarilə heç bir şey dəyişməmişdir: "Zahirdə guya bir az tərəqqi əsəri görünür, amma həqiqətihala diqqət yetirdikdə yəqinlik hasil olur ki, müsəlmanlar mənəvi və həqiqi tərəqqidən yenə də çox uzaqdırlar. Hətta təqəllübdə, xəyanətkarlıqda, büxlü həsəddə və bir-birinin canına və malına düşmən olmaqda irəlikindən bir az da artıq qabağa gediblər".[1099]

Qasım bəy Zakirin bir çox şeirlərində çar məmurlarının xalqa etdiyi zülm və sitəmi geniş şəkildə təhlil edən Köçərliyə görə o, divan məmurlarının qüsurlarını şairanə zikr edib, onların avam xalqa etdiyi zülm və sitəmi doğru göstərmişdir: "Burada təəssüf edilən və heyrət doğuran budur ki, altmış-yetmiş sənə bundan irəli divan xidmətçiləri xalqla nə növ rəftar etmişlərsə, indi o gunə rəftar etməkdədirlər. Bu müddət ərzində ki, az qalıbdır tamam bir əsr etsin, - onların əxlaq və adabında bir təbəddülat, bir tərəqqi əsəri müayinə olunmur. Zahirdə ədalət və sədaqət məmurları və qanun tərəfdarları adlanırlarsa da, əsl həqiqətdə zülmət əhlidirlər. İşləri, sənətləri şər və fəsad törətməkdir, qanuna zidd və ədalətsiz işlər etməkdir. Hər cür hiylə və fırıldaqları xalqın malını yemək və onların avamlıqda qalmalarını saxlamaq şəklində çevirirlər. Dəryalarca rüşvət verməsən, bir içim su almaq mümkün olmaz; qızıl və gümüş ilə ciblərini doldurmasan, işin yeriməz və muradına çatmazsan. Onların tamahı həzrət Əlinin qılıncından daha kəskindir. Onlar, toruna düşən bədbəxtin şirəsini tamam çəkməmiş, onu əllərindən buraxmazlar".[1100]

Ona görə hətta, M.F.Axundzadə bir neçə komediyasını Zakirin bu cür gerçəkçi ruhu və onun real hekayətləri əsasında yazmışdır: "...bəzilərinin rəvayətinə görə, "Hacı Qara" təmsilatının əslü binasını və Mərdi-xəsisin keyfiyyəti halını Mirzə Fətəliyə mərhum Qasım bəy nəql edibdir və həmçinin həkimi-nəbatat Müsyö Jordanın sərgüzəştinə

[1098] Köçərli F.b. Azərbaycan türklərinin ədəbiyyatı. İki cilddə, I cild.Bakı, Avrasiya-Press, 2005, s.273
[1099] Yenə orada, s.351
[1100] Yenə orada, s.334-335

dair bir para təfsilatı mərhum Axundzadə Zakirin dilindən yazıbdır”.[1101] Köçərli daha sonra yazırdı ki, Zakir həqiqi bir milli şair imiş: “Öz əsrinin aynası olubdur və məişəti-milliyəsini – necə ki, var imiş, – eyni ilə yazıb, bizim üçün böyük bir yadigar qoyubdur. Öz əsərində şayani-diqqət olmuş olan bir şey qoymayıbdır ki, ona əl aparmamış olsun”.[1102]

Köçərli M.F.Axundzadənin dünyagörüşünü təhlil edərkən də, daha çox zülmkar məmurlar, ruhanilər üzərində dayanmışdır. Onun fikrincə, zəmanəsinin L.Tolstoyu, Musa Bigiyevi sayılan Axundzadə müsəlmanların əvvəlinci refermatoru olubdur: “Müsəlman məişətinin köhnə və çürümüş əsaslarını pozan və İslam tərəqqisinə mane olan üsulu qəvaidin təğyirü təbdili yolunda ən əvvəl sərfihimmət edən bu zati-ali olubdur”.[1103] Ona görə Axundzadənin komediyaları yazılan zamandan 60-70 il keçməsinə baxmayaraq nə məmurların zülmkarlığı, nə də ruhailərin fırıldaqları azalmışdır: “Bu uzun müddət ərzində – ki, yarım əsrdən ziyadədir, – məişətimizdə, dürüst diqqət olunsa, artıq bu tərəqqi əsəri görünməz; ata-babadan qalma köhnə adətlər və ayinlər üzrə güzəran edib yaşamaqda varıq. Xeyir və şər ittifaqlarda işlənən bihudə məsarif və məxaricə diqqət olunsa, sözümüz təsdiq olunar. Ata-babalarımızın batil əqidələrinə, səfalət və yanlışlarına varis olmuşuq. Bu axır vaxtlarda şəhərlərdə az-çox tərəqqi və yeniləşmə əsərləri görünsə də, kənd əhalisi irəliki qərar üzrə avamlıq halında yaşayırlar; onların imdadına yetən yoxdur. Amma onları soyan və qarət edən çoxdur; bir tərəfdən tamahkar ruhanilər, bir yandan zülmkar polis məmurları və üçüncü tərəfdən yalançı millət dostları ki, ibarət olsun yarımçıq elm kəsb edənlərmizdən və quru isim ilə mədəni olan nücəbamızdan”.[1104]

Köçərliyə görə “Aldanmış Kəvakib”i oxuduqda görürük ki, “İran” kimi dövlətin viran olmağına, “dövləti-aliyyənin” belə zəif və gücsüz hala düşməyinə “ümənayi-dövlət” və “üləmayi-giram”

[1101] Yenə orada, s.421-422
[1102] Yenə orada, s.350
[1103] Yenə orada, s.404
[1104] Yenə orada, s.411-412

və "vüzərayi-zülehtiram" olubdur: "Bu rəy və qövlün haqq və doğru olmağını Şah Abbasın müqərrəb vəzirləri və ərkani-dövlət onun hüzurunda lisani-bəlağətsənci ilə sübuta yetirirlər. Onlardan hər biri öz qəbahət və və səfalətlərini kəmali-iftixar bəyan edir. Qədim şövkətli və əzəmətli İranı xarab edən və pozğun hala salan vüzəra cahilanə işlərini və tədbirlərini hüsni-xidmət və böyük hünər məqamında qoyub, dövləti-aliyyəyə sədaqətlə xidmət etməklərini sübuta yetirmək istəyirlər".[1105] Onun fikrincə, Səfəvi dövlətinin bir çox hallarda Osmanlı ilə müharibə edib Vətəni qorumaq əvəzinə, yolları, körpüləri dağıtması, əkin sahələrini, bağları məhv etməsi heç bir siyasi və mənəvi mübarizəyə uyğun olmamışdır. Üstəlik, bunun gerçəkləşməsində mühüm rol oynayan sərkərdələr, vəzirlər şahın qarşısında öz "qəhrəmanlıq"larından danışanda, şah da bunu təbii qarşılamışdır. O, yazırdı: "Həmin bu qərar üzrə "məclisi-xassın" sair üzvləri dəxi... öz əhməqanə tədbirlər ilə və xilafi-əqlü qanun əməlləri ilə qoca və şöhrətli İranı belə fəna hala salmaqlarını, əhaliyə həddindən ziyadə zülm etməklərini, dini-paki-Məhəmmədini pozub, başqa bir hala salmaqlarını iftixar ilə şərh qılıb həmaqət və səfahətlərini bəyan edirlər. Əgər doğrudan da işin künhünə diqqət yetirilsə, İranın viran olmasına və bundan sonra onun bir də həyat və ricətinə ümid qalmamasına ümdə səbəb tamahkar, şöhrətpərəst, dünyadan bixəbər, avam və cahil vüzəra ilə üləma olublar".[1106]

O, daha sonra yazırdı ki, müsəlman məmləkətlərində, xüsusən "İran"da ümuri-dövlətə mübaşir olan vüzəra və vükəla və sair ərkani-səltənət "Aldanmış Kəvakib"də zikr olunan qüsurlara diqqət yetirib məmləkətlərinin məmuru və səlahı üçün sərfi-himmət etsəydilər, Yusif şah öz müvəqqəti əyyami-səltənətində işlətdiyi binagüzarlıqları və tədbirləri icra etsəydilər, müsəlman məmləkətləri hərgiz belə fəna və pozğun hala düşməzdi və əcnəbi millətlərin müstəmləkəsinə çevrilməzdi. Onlar da sair dövlətlər kimi qüvvət və qüdrət sahibi olub əmniyyət, asayiş üzrə yaşardı.[1107]

---

[1105] Yenə orada, s.419
[1106] Yenə orada, s.421
[1107] Yenə orada, s.426

O, despotik məmurlarla yanaşı, onlara əsas dəstək olan ruhaniləri də tənqid etmişdir: "Ruhanilərimizin qüsur və nöqsanı hər bir əsrdə elm, mərifət əhlinin nifrət və tənqidlərinə bais olub, onlar tərəfindən qınanmış və doğru yola gətirilməyə çalışılmışdır. Xüsusən, yuxarı vəzifələrdə əyləşən alicənabların hirsü tamahı, dünyagir və biəməl olmaqları daha çox elm və şairlər zümrəsinə təsir edibdir".[1108] Köçərliyə görə ruhanilərin müsəlman dövlətlərinə vurduğu zərbələr heç də məmurların istismarından az deyildir: "O ki, qaldı insana zinət verən gözəl sifətlərə – ki, ibarət olsun sədaqət və istiqəmətdən, dəyanət və qeyrətdən, ittihad və ittifaqdan, ədl və mürüvvətdən, cürət və həmiyyətdən – bu qism sifətlərdən din qardaşlarımız daha da ziyadə kənar düşüblər və nə vaxtı millətimiz nicat və səadət ylounu arayıb tapacaqlar, Allah bilir. Bu tərəqqi əsrində bizim belə geridə qalmağımız və qəflətdə yaşamağımız tezliklə məhvü nabud olmağımıza şəhadət verir".[1109]

"Dəryalar kamına çəkməsi sirr olmayan və heç bir şeydən gözləri doymayan ruhanilərdən milləti soymaqdan qeyri daha bir təmənna və istəkləri ola bilməz",[1110] deyən, Köçərli daha sonra yazırdı ki, son əsrlərdə tərəqqi və islahatlardan uzaq qalan müsəlman xalqlarının ancaq zahiri cəhətində dəyişiklik var, ancaq elm-mərifət sahəsində isə heç bir yenilik yoxdur: "Kəmali-cürətlə demək olar ki, millətimizin əxlaq və adətlərində də bu ötən müddət ərzində artıq bir tərəqqi və islahat görülməyibdir. İstər nücəbalarımız, istərsə ruhani sinfi və mötəbər hacılarımız və məşhədlərimizin... zahirdə geyimləri və libasları modaya müvafiq dəyişilibsə də, kəmalü mərifətdə, azacıq da olsa tərəqqi etməyiblər".[1111] O, daha sonra yazırdı: "Zamanla bu aynanın üzünə toz qonubdur. Bu tozu silib, aynanın üzünə sığal verib diqqət ilə ona baxsaq, öz surətimizi onda görərik və bir-birimizi tanıyarıq. Batini aləmimizə diqqət yetirsək, xəcalət çəkib yəqin edərik ki, bu yarım əsrin müddətində çox da uzaq get-

[1108] Yenə orada, s.327
[1109] Yenə orada, s.351
[1110] Yenə orada, s.327
[1111] Yenə orada, s.353-354

məmişik, cüzi dəgşiriliyimiz və təfavütümüz olubsa, o da zahiridir. Batini tərəfimiz mənən və əxlaqən irəliki qərar üzrə bağlıdır”.[1112]

O, müsəlmançılığı tək bir məzhəb və məslək üzrə sabit qədəm olmaqda görməyib, həqiqi müsəlmançılığı insan olmaqda və bəşəriyyət vəzifəsini dərk edib layiqincə ifa etməkdə görürdü.[1113] Köçərli hesab edirdi ki, bir çox üləmalar və ruhanilər zahirdə əlləmə libasına bürünüb ibarətpərdazlıq edib boş və mübhəm mənalı sözlər danışsalar da həqiqətdə əsil mərifət və kamaldan uzaq olduqlarını tez büruzə verirlər: “Amma nə eləmək ki, avam onların hiylə-vü təzvirlərini anlaya bilmir. Avamın ağlı gözündə olmağa görə, zahirə aldanıb yaxşı ilə yamana, doğru ilə yalana tərcih verə bimir, dostu ilə düşmənini tanımayıb bədbəxt olur. Əgər həqiqətdə millətin malı ilə elm təhsil edən “nayibi-imam”dan yazıq və sadədil millətə bir nəfü fayda hasil olsaydı, onda şəksiz millətimiz belə pozğun və pərişan halda məyus və sərgərdan qalmazdı. Doğrudan da fəna halda qalmışıq; ağıldan ağlımız, əxlaqdan əxlaqımız yox, əsil dindarlıq nə olduğunu bilmirik, nə kamaldan kamalımız, nə hörmətdən hörmətimiz və nə dövlətdən dövlətimiz var... Hər tərəfə baxsaq, fəxr edəsi, könül şad qılası və ürək açası heç bir şeyimiz yoxdur. Vətən nədir bilməzik, millət və milliyyət nə olduğunu hissini dərk etməzik, ittihadü ittifaq bizim üçün boş və mənasız sözlərdir. Dildə onları tələffüz ediriksə də,o minval danışmaq moda olubdur. Onların həqiqi məzmununu düşünmürük, düşünmədikdə əməl də etmirik. Tanınmış üləmalar və nüfuzlu din xadimləri bizim içimizə ancaq təfriqə və partiya salıblar. Buna da səbəb öz şəxsi mənfəətlərini və nəfsi xeyirlərini görmək olubdur. Haqqa, doğruluğa, ədalət və mürüvvətə xalqı irşad qılmayıblar. Himmət və qeyrət, birlik və qardaşlıq, dostluq və mehribanlıq çoxdan unudulubdur; ülum və fününuna, sənaye və ticarətə, tərəqqi və təməddünə xalqı

---

[1112] Yenə orada, s.412

[1113] Köçərli Firidun bəy. Azərbaycan türklərinin ədəbiyyatı. İki cilddə, II cild. Bakı, Avrasiya-Press, 2005, s.28

təğrib və təşviq etməyi üləma sinfi öz vəzifələrindən kənar bir əmr bilib, bu qisim məsələlərə əsla etina etməyiblər!”.[1114]

Ona görə “məqsədsiz alimlərə və zamankar vaizlərə açıq-açığına acı söz deyib onlara lənət oxuyan hər kəs kinayəyə deyil, alqış və afərinə layiqdir. Doğru söyləyən və haqqı sevən kəs, əhli-insaf və sahibi-vicdan yaxşıya-yaxşı, yamana-yaman deməkdən əsla çəkinməyəcəkdir. Yamana yaxşı deyənlər, əyrini düz görənlər və yalana doğruluq libası geyindirənlər, əlbəttə, aşikaranə zəlalətdədirlər və həmçinin aşkar zəlalətdədir o kəslər ki, yaxşıya yaman deyib, haqqı batil qılmağa çalışırlar”.[1115]

Köçərli hesab edirdi ki, müsəlman xalqları avamlıq və cəhalət içində olduğu bir zamanda əksinə, Avropa millətlərinin inkişafını  görüb qiymətləndirməmək mümkün deyil. Onun fikrincə, bu zaman Avropa xalqlarını tərif etməkdə məqsəd heç də onları uca tutmaq deyil, sadəcə müslamanların da onlara baxıb elm və mərifət əldə etməsini ortaya qoymaqdır.[1116] Başqa sözlə, Köçərli hesab edirdi ki, Avropa xalqları inkişaf etdiyi bir dövrdə müsəlman xalqarının min il əvvəl tutduğu yola davam etmələri doğru deyildir. O, yazırdı: “Sair millətlər və dövlətlər irəli gedib, elm və mərifət sayəsində tərəqqi tapırlar, kamali-hürriyyətə qovuşmaqla çox yaxşı yaşayıb müsəlmanların da malına mülkünə və canına sahib olurlar. Biz isə vaxtımızı qəflətdə keçiririk, dünyadan xəbərimiz yoxdur. Vətənimizin, dinü dünyamızın, malü əmlakımızın hətta, irzü namusumuzun hifzü amanda qalması üçün lazimi işlər görüb, tədarüklər və alətlər toplamamışıq”.[1117]

Onun fikrincə, bütün hallarda türk-müsəlman xalqlarının Avropa ya da Rus mədəniyyətinin müsbət tərəflərini görmək, tamamilə ona qapılıb avropalaşamaq, ruslaşmaq anlamına gəlməməlidir. Üstəlik, belə təhlükə olarsa, ona qarşı müqavimət göstərib türklüyümüzü və müsəlmanlığımızı qorumaq lazımdır. Bu baxımdan o

[1114] Yenə orada, s.41-42
[1115] Yenə orada, s.46
[1116] Yenə orada, s.86
[1117] Yenə orada, s.362

yazırdı ki, Çarlıq Rusiyasında İlminski kimilərinin müsəlman xalqlarının geriliyini İslam dininin üstünə atıb, ana dili vasitəsilə türkləri xristian dininə dəvət etməkdə məqsədi heç də onların qayğısına qalmaq yox, ruslaşdırmaq olmuşdur. Ancaq müsəlman türklər də sadə türk dilində yazılımış "İncil"dəki "üçlüy"ü, yəni ata, oğul və ruh məsələsini dərk etdikdən sonra ona yaxın durmamışlar.[1118]

Sosial-siyasi görüşlərində **qadın məsələsi**nə də yer verən Köçərliyə görə son əsrlərdə müsəlman xalqlarının mədəniyyət və tərəqqi yolunda dalda qalmaqlarının əsas səbəblərindən biri də qadınların zillət içində yaşamaları, hüquq və azadlıqlarından məhrum olmalarıdır: "Belə zülmət və cəhalət içində dolanan anaların əllərində böyüyən övlad dəxi, əlbəttə, avam, qorxulu, cürətsiz və fəhmü fərasətsiz olacaqdır. Bu halda bəlli yerlərdə həyat mübarizəsi aparan müsəlman məktəblərinin hansı birisinə nəzər yetirsək görərik ki, onlardan yazıq, aciz, bacarıqsız və cürətsiz tayfa yer üzündə yoxdur. Çünki analar qoçaq, hünərli, elmli və bacarıqlı övlad yetirməyiblər. Bəs, lazımdır ki, arvadların təlim və tərbiyəli, ixtiyarlı və məlumatlı olmağına himmət sərf etmək və onları ziyalandırıb bir hala yetirmək ki, övladlarına tərbiyə verməyə özləri müqtədir olsunlar. Və illa onların zülm altında boğulub və dünyadan bixəbər qalıb, sırf cəhalətdə yaşamaqlarından bir nəticə hasil olmaz".[1119]

O, yazırdı ki, qadın məsələsinin gündəmə gəlməsinə görə M.F.Axundzadəyə borcluyuq: "O vaxtlarda müsəlman aləmində arvadların hüququ, hürriyyət və müsavatı barəsində bir söz də danışılmazdı və danışmaq da olmazdı. Əvvəl kəsi ki, arvadları da insan dərəcəsinə qoyub, onları haqqü hüququ barəsində söz açıbdır və onları səhneyi-tamaşaya gətiribdir, o mərhum Mirzə Fətəli olubdur. Arvadların dolanacağı, fikrü xəyallarını, kişilər ilə rəftarü əlaqələrini və onların əhvali-ruhiyyələrini və sair müxtəlif sifətlərini mərhum Mirzə artıq məharətlə təhrir qılıbdır. Demək olar ki, M.Fətəli bu vaxtacan gizlində, qara pərdələr altında və zülmət içində yaşayan ana-bacılarımızın üzərinə bir işıq qapısı açıbdır; onların nicat

[1118] Yenə orada, s.314-315
[1119] Yenə orada, s.389

və səadəti üçün yol göstəribdir. Müsəlmanlar üçün təzə bir aləm kəşf edibdir ki, onsuz diriliyimiz, tərəqqi və səadətimiz qeyri-mümkündür".[1120] O, daha sonra yazırdı: "Arvadlarımıza təlim və tərbiyə verib, onlar ilə hüsni-müamilə etsəydik, hüquq və ixtiyarlarını müraat edib zülm etməsəydik, bu vaxta qədər avam halında qalmazdılar, caduya və pitiyə inanmazdılar; övladlarına gözəl tərbiyə verərdilər; ərlərinə və qardaşlarına çox işlərdə köməkçi olub, məişətimizə rövnəq və ziynət verərdilər; yaxşı işlərə bizləri qeyrətləndirib, fəna işlərdən və qəbih əməllərdən bizi çəkindirərdilər, daşındırardılar; vətənpərvərlik və millətpərəstlik və dindarlıq kimi uca və müqəddəs hissləri bizim qəlbimizdə oyadıb bəslərdilər".[1121]

O, qeyd edirdi ki, arvad da kişi kimi insandır. Kişinin elm və ədəbə, ruhani və cismani təbiyəyə ehtiyacı olan kimi, qadının da bunlara ehtiyacı vardır: "Hər bir şeydən əvvəl insanın cisminin, ağılının və ruhunun tərbiyəsidir. Yaxşı tərbiyə alan arvadda və kişidə, əlbəttə, həya da olacaqdır, ismət də. Xüsusən tərbiyə və təlim qadınlara lazımdır ki, onun döşlərinin arasında və dizlərinin üstə, gözlərinin önündə və əllərinin altında yeni nəsilin yetişməsi baş verir. Təzə və cavan nəslin bəqası və səadəti, bilküliyyə, analar əlindədir, onun himmət və mərifətinə bağlıdır. Mahir, təcrübəli, elmli və bilikli bağban əkib-becərdiyi ağaclar salamat, gözəl və barlı olan kimi, elmli, mərifətli anaların təhti-tərbiyəsində böyüyən övlad dəxi gözəl, salamat, humanist və fərasət sahibi olacaqdır".[1122]

**Milli oyanış hərəkatı.** Köçərli ifrat mühafizəkarlığı tənqid edərək soydaşlarını "dünya beş gündür, beşi də qara", "kişi gərək axirət üçün yaşasın" kimi stereotiplərdən uzaqlaşdırmağa, həyata dəvət etməyə çalımışdır: "Möhtərəm üləma, vaizlərimizin məscidlərdə camaata xitabən söylədikləri sözlər və nitqlər əksər övqat bu qisim vəz və nəsihətlərdən ibarət olduğu cümləyə məlumdur. Bu məzmunlu vəzlər ilə ruhani atalarımız, "salikani-rahi-həqiqət" ca-

---

[1120]Köçərli F.b. Azərbaycan türklərinin ədəbiyyatı. İki cilddə, I cild. Bakı, Avrasiya-Press, 2005, s.413

[1121]Yenə orada, s.426

[1122]Köçərli F.b. Azərbaycan türklərinin ədəbiyyatı. İki cilddə, II cild. Bakı, Avrasiya-Press, 2005, s.388

maatın etiqadına pərxaştlik və süstlük gətirib, dünya zindəganlığından onu soyudurlar, ümuri-məişətdə lazım olan səy və təlaşdan bir növ kənar edirlər. Bu qisim vəz və nəsihətlərin bərəkətindən müsəlman qardaşların var qüvvətləri zəifləşir, fikirdən hünərləri yatır, cürət və hünərləri bir işdə büruz etməyir, qəzalarına razı olub, hər bir cəfa və məşəqqəti qəbul edirlər, hər növ zəhmət və əziyyətə qatlanıb məişətin pozğun və cəfalı övzasına tab gətirirlər və hər işdə "migüzərəd" deyib rahət olurlar".[1123]

Köçərliyə görə "ruhani atalar"ın avam müsəlman camaatı istədiyi kimi idarə etmələri səbəbdəndir ki, müsəlman aləminə nəzər yetirdikdə, onun fəna halı ilə avropalıların dolanacağını tutuşdururkən insan əqli heyrətdə qalır: "Dövlət, sərvət, mərifət, kamal, hünər, bilik, bacarıq, rahat güzəran avropalılarda; fəqr, zəlalət, yoxsulluq, cəhalət, avamlıq, hünərsizlik, narahatlıq, icz, əsarət və kəsalət aləmi-İslamda. Bunlar gözün tikiblər axirətə, beş günlük ömrü bir tövr keçirib, darü bəqaya vasil olmağa, onlar çalışırlar dünya zindəganlıqlarını rahat etməyə və mürəffəhal ilə dolanmağa, özləri üçün dövlət və hörmət qazanmağa. Bunlar fəlakət və qəflətdə, onlar ciddiyyət və səadətdə; bunlar ölü, onlar diri! Avroplaıların bu fəaliyyət, ciddiyyət və səadəti onların müsəlmanlardan artıq dərəcədə qabil və məqsəd olmaqlarından deyil, məhz ondan naşıdır ki, onlar həyatın qədrini bilib, ondan müstəfid olurlar. Müsəlmanlar isə həyata meyl etməyib, məmatın fikrindədirlər". [1124] Ona görə həyatı unudub ancaq axirət üçün yaşayan camaatın, həmin camaatın ümumiliyi olan millətin gələcəyi yoxdur. O, üzünü "ruhani atalara" tutaraq yazırdı ki, bu millətə rəhm etsinlər: "Bizə rəhminiz gəlsin, insaf və mürüvvət ediniz, ətrafımızdakı millətlərin cümləsi tərəqqi yoluna düşüb, aramsız ciddi cəhd etməkdədirlər, əsbabi-məişətlərini təhiyyə qılmaqdadır. Cümlənin əqli, fikri, zehni işləyir, övzai-məişətləri yaxşılığa və asanlığa çevrilir. Cümlə millətlərin fərdləri arı

[1123] Köçərli F.b. Həyata dəvət. // Seçilmiş əsərləri. Bakı, AzSSR EA, 1963, s.279
[1124]Yenə orada, s.280

səbətlərə bal daşıyar kimi müttəsil işləməkdədirlər, amma biz yatıb qalmışıq, nə qəlbimiz işləyir, nə fikrimiz və nə zehnimiz”.[1125]

Bu anlamda Köçərli millət üçün çalışıb onları həyata dəvət edən, milli oyanışı və inkişafı qarşısına məqsəd qoyan ziyalılara böyük dəyər verirdi. Ona görə Azərbaycan türklərinin milli oyanışına ən böyük töhfə verən aydınlarımız, ilk növbədə M.F.Axundzadə, S.Ə.Şirvani, H.Zərdabi olmuş, bu gün isə o yolu Ə.Ağaoğlu, S.M.Qənizadə və başqaları davam etdirməkdədir. Onların da millət qarşısında əsas xidmətləri həmməzhəblərinin oyanmasına və inkişafına təkan verməsi olmuşdur. Məsələn, ona görə, S.Ə.Şirvaninin insandan ən əvvəl tələb etdiyi dini əqidə yox, insanlıq, həqiqi insan olmaq olmuşdur: “Əsil müsəlmançılığı insaniyyətdə və əsil insaniyyəti həqiqi müsəlmançılıqda görüb də təkrarən deyir: “Müsəlman ol, müsəlman ol!. Axır sözü odur ki, insan ol!”. Və lakin çoxumuz müsəlman isək də, insan deyilik, çoxumuz insanıqsa da, həqiqi müsəlmanlıqdan çox uzaq və kənarıq. Seyidin ümdə mətləbi və baş arzusu insaniyyət dərəcəsinə və bəşəriyyət mərtəbəsinə vasil olmaqdır. Bu xüsusda onun nəzəriyyəsi və mərifəti o qədər çox və genişdir ki, ona tək Azərbaycan şairi demək dürüst deyil, bəlkə ol dürri-yeganə ümumi-insaniyyət şairdir”.[1126] Ona görə Şirvaninin böyük xidmətlərindən birisi də, sünni-şiə məsələsində barışdırıcı mövqe tutması olubdur: “Hacı Seyid Əzim hər iki tərəfin əbəs və bihudə biri-birilə müddəi olmaqlarını görüb, canü dildən ağrıyıb naləvü fəryad edərdi ki, biz bir millət olduğumuz halda, biri-birimiz ilə qardaş kimi dolanmağa Allahın hökmü ilə borclu ikən nə səbəbə iki firqəyə bölünüb ədavət başlayaq?”.[1127] O, yazırdı ki, Şirvaninin sayəsində məzhəbçilik məsələsi aralıqdan götürülməkdədir.

Köçərliyə görə Axundzadə, Şirvani və Zərdabi kimi ziyalılarımız İslam dini ilə bağlı məhərrəmlik mərasiminə münasibətdə də doğru yol tutmuşlar. O, yazırdı ki, şəriətdə haram buyurulan əməllərin üzdəniraq üləmalar tərəfindən fətva verilməsi doğru deyil:

---

[1125]Yenə orada, s.280
[1126] Yenə orada, s.48
[1127] Yenə orada, s.56

“Əgər dini-mübini-nəbəvidə hifzi-bədən əmri sadir olmasaydı, onda baş çapmaq, belinə və bədəninə nizə, ox, qıfıl, at nalı, qılınc, gorda və hətta palanduz sünbəsi kimi ağır şeylər taxıb, ona həddən ziyadə cəfalar və təsəvvürə gəlməyən əziyyətlər yetirməyə bir növ eşqi-ali-əbaya və məhəbbəti-şühədayi-Kərbəlaya isnad qılıb sakit olmaq olardı. Amma bir iş ki, şərən nəhyü qadağan buyurula və onun icrasına nə övliya tərəfindən və nə üləma firqəsindən iqdam olunmaya, o işə mürtəkib olmaq peyğəmbərin buyuruğuna əməl etməmək və onun əmrini inkar etmək kimidir. Əgər imam yolunda bədənə cərahət yetirib qan tökmək və divanə halına düşmək cayiz olsaydı və onun dünyəvi axirətə bir xeyir və mənfəəti olsaydı, bişəkkü laşübhə hamıdan əvvəl bu işə üləmavü hükəma, ürəfavü nücəba firqələri mayil olardı. Amma hal-hazırda biz bunları tamaşaçı və yalandan ahastə-ahəstə sinələrinə əllərini döyən və yaşsız gözlərinin nəmini hiyləvü riya dəsmalı ilə silən görürük. Başlarını çapan, arxalarına zəncir vuran və bədənlərinə hər qisim zərər yetirən yenə əlsiz-ayaqsızlar, biçarə və sadədil əvamün-nas olur”.[1128] Ona görə Axundzadə, Şirvani, Zərdabi kimi ziyalılar vaxtilə reformaçı Jan Qusun oynadığı rolu oynayaraq özlərindən sonra Lüterlərin meydana çıxmasına zəmin hazırlamışdır. O, inanırdı ki, Jan Quslar Lüteri meydana çıxardığı kimi, onların da əməyi boşa getməyəcək, Azərbaycan xalqının da öz Lüteri meydana çıxacaqdır.[1129]

Köçərliyə görə bu dövrdə Azərbaycan türklərinin oyanışı üçün əlindən gələni edən ziyalılar Sultan Məcid Qənizadə,[1130] Əhməd bəy Ağaoğlu və başqaları olmuşdur. Hər halda Köçərli hesab edirdi ki, Zərdabinin, Axundzadənin yolunu davam etdirənlərin başında Ə.Ağaoğlu dayanır. Onun fikrincə, Ağaoğlunun “Axund və İslam” əsəri məzmununa görə, müsəlman ruhanilərinin qara işlərinin və şəxsi mənfəət meyillərinin əleyhinə çevrilmiş ən qüvvətli bir etirazdır. İslamı din xadimlərinin dilindən deyil, Ə.Ağaoğlu ki-

[1128] Yenə orada, s.68
[1129]Köçərli F.b Azərbaycan türklərinin ədəbiyyatı. İki cilddə, I cild.Bakı, Avrasiya-Press, 2005, s.428
[1130] Köçərli F.b. S.M.Qənizadə // Seçilmiş əsərləri. Bakı, AzSSR EA, 1963, s.288-290

mi elmli, bilikli şəxsiyyətlərin əsərlərindən oxuyub öyrənməyi vacib hesab edən Köçərli qeyd edirdi ki, o, İslamla bağlı bu günə qədər pərdə arxasında qalan bir çox keçmiş adət-ənənələrimizi, mədəniyyətimizi ortaya qoyur və eləcə də xilas yolumuzu göstərir.[1131]

Köçərlinin yaşadığı dövrdə Türk-müsəlman xalqlarının mövcud problemlərdən xilas olması və inkişafı üçün ifrat qərbçiliyi əsas prinsip kimi götürən M.Şahtaxtlı, C.Məmmədquluzadə və onunla həmfikir olanlar bu yolda İslam və ona əsaslanan "İttihadi-islam"ı əngəl kimi görür, bu ideyanı müdafiə edənləri, xüsusilə Ə.Ağaoğlu, Ə.Topçubaşı, Ə.Hüseynzadə və başqalarını da tənqid edirdilər. Xüsusilə, M.Şahtaxtlı Ə.Ağaoğlu, Ə.Topçubaşı başda olmaqlai slamçı-türkçü ideoloqları qeyri-səmimilikdə ittiham edir, onları islamçılığın və türkçülüyün qabaqcılları kimi görmədiyini yazırdı. Millətin ziyalıları arasında fikir ayrılığını qəbul etməyən Köçərli isə bu qarşıdrumaya qarşı çıxır və bunu, millətin birliyinə və inkişafına zərər hesab edirdi. O, üzünü onlara tutub yazırdı ki, indi dostları pərişan edib düşmənləri sevindirmək deyil, millət və vətən naminə birləşmək zamanıdır.[1132]

Deməli, ilk dövrlərdə milli aydınlarımız bir çox məsələlərdə vahid milli konsepsiyadan, milli ideyadan çıxış etməkdə çətinlik çəkirdilər. Bu məsələlərdən biri də **milli dil problemi** idi. Milli dil məsələsi ilə bağlı Köçərli də C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, A.Şaiq və başqaları kimi hesab edirdi ki, Türk ədəbi dilini osmanlılaşdırmaq əvəzinə xalqa yaxınlaşmaq yolunu tutmaq lazımdır. Köçərli yazırdı: "Xeyli vaxtdır ki, dil məsələsi məhəlli müzakirəyə qoyulub, onun üstündə məclislərdə, qəzet sütunlarında və jurnallarda bəhs olunur. Kimi İstanbulda işlənən ədəbi dili tərif edib, onu sair yerlərdə işlənən Türk dillərinə tərcih verir, kimi Azərbaycan türklərinin şiveyi-lisanını bəyənib, onun tərəfini saxlayır. Bir

---

[1131] Köçərli F.b. Azərbaycan dövri mətbuatının qısa icmalı //Azərbaycan publisistikası antologiyası. Bakı, "Şərq-Qərb", 2007, s.78

[1132]Yenə orada, s.77-78

paraları da İbn-Yasəf kimi türklər üçün ümumi bir dil təsis etmək fikrindədirlər ki, hər yerdə o dildə danışılıb yazılsın".[1133]

O, bu üç xətt arasında Azərbaycan türkcəsini müdafiə edərək, bunu belə əsaslandırırdı ki, dili mürəkkəbləşdirmək deyil sadələşdirmək, yəni geniş xalq kütlələrinin anlaya biləcəyi şəklə salmaq lazımdır. Ədəbi dil də xalqın öz dilidir, bu dil hamı üçündür; hamı yazıb oxumalı, cəmiyyətin inkişafında yaxından iştirak etməlidir. Ədəbi dil sadə olmalı, onu hamı başa düşməlidir deyən, Köçərli milli özünüdərk baxımından türk-osmanlı şivəsinin deyil, Azərbaycan Türk ləhcəsinin ədəbi dil kimi qəbul edilməsini vacib hesab etmişdir. O, yazırdı: "Hər millətin özünəməxsus ana dili var ki, onun məxsusi malıdır. Ana dili millətin mənəvi diriliyidir, həyatının mayası mənziləsindədir. Ananın südü bədənin mayəsi olduğu kimi, ananın dili də ruhun qidasıdır, hər kəs öz anasını və vətənini sevdiyi kimi ana dilini də sevir. Bu Allah-təalanın gözəl nemətlərindən birisidir, onu əziz və möhtərəm tutmaq hər kəsə borcdur".[1134]

Köçərlinin fikrincə, Azərbaycan türkləri osmanlı şivəsini o baxımdan qəbul edə bilməz ki, İstanbul ədibləri öz dillərini unudub fars və ərəb terminləri ilə doldurublar. Doğrudur, Köçərli etiraf edirdi ki, Azərbaycan türkləri də uzun müddət bu dillərin, xüsusilə də fars dilinin təsirinə məruz qalıbdır: "Azərbaycan türklərinin dili dəxi mürüri-əyyam ilə dəyişirilib, özgə tərkib və qaydaya düşüb. Belə ki, indi istemal olunan türki-cədid əzəlki türki qədimə oxşamaz. Hal-hazırda danışılan dilin başqa üslubu olduğundan əlavə türki-qədimə nisbət bu dil həm dövlətli də, şirin ləhcəli və gözəl şivəli bir dil hesab olunur. Dini-mübini-İslamın türklərə yetirdiyi şərafəti-etiqadiyyəsindən əlavə böyük bir xeyri də bu olubdur ki, onun feyz və bərəkətindən türklər ərəb və fars lisanından tədricilə çox sözlər, ibarələr alıb, öz dillərini dövlətləndiriblər və mürurі-əyyam ilə əxz və iqtibas olunan kəlmələr və istlahlar o qədər işlənib

[1133] Köçərli F.b. Ana dili. // Seçilmiş əsərləri. Bakı, AzSSR EA, 1963, s.292
[1134] Yenə orada, s.292

təhrif və tərif olunubdur ki, Türk dili ilə onlar qaynayıb qarışıbdır və onlarsız Türk dili bir mənanı ifadə etməkdə acizdir”.[1135]

Bütün bunlarla yanaşı, ona görə Osmanlı türkcəsi ilə müqayisədə Ərəb və Fars dilləri Türk dilimizi o qədər qəliz və dolaşıq etməyibdir ki, onu anlamaq olmasın. Köçərli yazırdı: “Bizim Azərbaycan türklərinin dəxi özlərinə məxsus dili vardır. Uzun müddət “İran” dövlətinin (əslində “İran” adlanan dövləti də əsrlər boyu Türk xanədanları yönətmiş, əhalisinin ən azı üçdə ikisi daima türklərdən ibarət olmuşdur- F.Ə.) nüfuzu altında yaşamaqla belə bizim dilimizə bir növ fars dilinin qanun və qaydası sirişt edibdir. Amma bununla belə dilimizi o qədər qəliz və dolaşıq etməyibdir ki, onu anlamaq olmasın. Bəlkə dili bir dərəcədə dövlətləndiribdir”.[1136]

Köçərliyə görə İstanbul şivəsini Azərbaycanda tətbiq etmək istəyən Ə.Hüseynzadənin, Ə.Kamalın tutduğu yol səhvdir. Bununla da Köçərli onların ortaq Türk dili olaraq təqdim edilən “Osmanlı-İstanbul” şivəsi ideyasına qarşı çıxmışdır. Köçərli yazırdı: “Amma bu axır vaxtlarda bizim açıq və sadə dilimizə İstanbulda yarımçıq elm təhsil edib gələnlər xələl yetirməkdədirlər. Bu cənəblar nə elmdən elm və nə mərifətdən öyrənməyib və adlarına əlqab olaraq bir quyruq yapışdırıb, qəliz ibarələr atına minib, ədəbiyyat meydanında cövlan etməkdədirlər”.[1137]

Azərbaycan türklərinin özünəməxsus dilinin olduğunu bildirən ziyalı qeyd edirdi ki, dili dolaşıq olan şəxsin fikri də dolaşıqdır. O, yazırdı: “Millətini sevən, onun mənəvi diriliyinə çalışan, tərəqqisi yolunda əmək sərf edən yazıçılarımızdan, ədiblərimizdən və şairlərimizdən çox-çox təvəqqə edirik ki, dillərini asanlaşdırısınlar, ana dilindən uzaq düşməsinlər..., fikirlərini açıq və sadə dildə yazsınlar, ta ki, onların yazdıqlarının oxuyan anlasın, dşüşünsün və ayılsın. Ancaq bu yolla yazan ilə oxuyanın arasında dostluq, ittifaq və birlik əmələ gələ bilər”.[1138] Beləliklə, Köçərli belə bir qənaətə

[1135]Köçərli F.b. Azərbaycan türklərinin ədəbiyyatı. İki cilddə, I cild. Bakı, Avrasiya-Press, 2005, s.52
[1136] Köçərli F.b. Ana dili. // Seçilmiş əsərləri. Bakı, AzSSR EA, 1963, s.293
[1137] Yenə orada, s.293-294
[1138] Yenə orada, s.295

gəlirdi ki, hər bir millətin ruhani həyat və səadəti bağlıdır onun öz ana dilinə: "Necə ki, ana dili azadə dillərdə caridir, o millət baqi qalacaqdır. Bir millət nə qədər zillət və üsrətə düşsə də, nə qədər xar və zəlil olub, ixtiyarını itirsə də, nə qədər aciz, zəif və məğlub olsa da, fövt olmaz, itib batmaz, bəşərti ki, onun ana dili əlindən alınmaya, o dilə cəbr olunmaya, onun hürriyyət və istiqlaliyyətinə mümaniət göstərilməyə və əluzunluq edilməyə".[1139]

**Ümumiyyətlə,** Köçərlinin irsinin tədqiqi əsasında belə bir qənaətə gəldik ki, onun yaradıcılığında ictimai-fəlsəfi məsələlər ön planda olmuşdur. Onun "Azərbaycan türklərinin ədəbiyyatı" əsəri hər nə qədər ilk baxışda ədəbiyyat, ədəbiyyat tarixi ilə bağlı təsir bağışlasa da, ancaq onu incələdikdə Köçərlinin ən azı filoloq qədər, filosof və fəlsəfə tarixçisi kimi yönlərini də görürük. Xüsusilə də, onun bu əsəri ədəbiyyat tarixindən çox fəlsəfə tarixinə ona görə yaxındır ki, burada fəlsəfi təfəkkürə aid izahlar və şərhlər vardır.

Eyni zamanda, onun bu əsərdə və digər məqalələrdə fəlsəfənin ontologiya və qnoseologiyaya dair məsələləri ilə bağlı irəli sürdüyü mülahizələr, xüsusilə də insanın həyatının mənası və Vəhdət probleminə aid düşüncələr diqqəti çəkir. Doğrudur, Köçərli ümumilikdə, dünyaya və insana baxışda İslam dininin prinsiplərindən çox kənara çıxmamış, daha çox onun əsasında fikrilərini izah etməyə çalışmışdır. Ancaq bütövlükdə Köçərlinin dünyagörüşündə fəlsəfi təmayüllərin güclü olması, yeri gəldikcə, dini dünyagörüşlə çox da səsləşməyən mülahizələr irəli sürməsi də müşahidə olunur.

Ümumilikdə, Köçərli əsərlərində Azərbaycan Türk fəlsəfəsini, digər anlamı ilə Türk dünyagörüşünü də ifadə etmişdir. Hər halda Köçərlinin əsərlərinin əsas mahiyyətində Azərbaycan Türk fəlsəfi fikrinin yaranması və inkişaf yolları mühüm yer tutmuşdur.

---

[1139]Köçərli F.b. Azərbaycan türklərinin ədəbiyyatı. İki cilddə,II cild.Bakı, Avrasiya-Press, 2005, s.314

# YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİ

**Həyat və yaradıcılığı.** Azərbaycan Türk mütəfəkkiri Yusif Vəzir Çəmənzəminli (1887-1943) Şuşada anadan olub öncə, xüsusi məktəblərdə, daha sonra "rus-tatar" məktəbində oxumuşdur. Bir ildən sonra Şuşa Realını məktəbinin birinci hazırlıq sinfinə daxil olan Y.Vəzir orta məktəbdə oxuyarkən rusca yazdığı romantik şeirlər və əmisi oğlu Mirhəsən Vəzirovla birlikdə əlyazmasında hazırladığı "Fokusnik" (1904) jurnalında "Bədbəxt" imzası ilə şəkillər çəkmişdir.[1140] Atasını vəfatından sonra çətin vəziyyətə düşən Yusif Vəzirin ailəsinə Güney Azərbaycanın Çəmənzəminli adlı kəndindən Şuşaya pənah gətirib, Yusifgilin həyətlərində sığınacaq tapmış Həsənxan, Nifti və Fərəc qardaşları kömək etmişdir. O, da sonralar qonşularının kəndlərinin adını özünə təxəllüs kimi götürmüşdür.[1141]

Y.Vəzir 1909-cu ildə Bakı realnı məktəbini bitirib, təhsilini davam etdirmək üçün əvvəlcə S.Peterburqa üz tutaraq sənədlərini Mülki Mühəndislər İnstitutuna versə də, daha sonra bundan vaz keçmişdir. O, S.Peterburqda qaldığı vaxtdan istifadə edib məşhur "Cənnətin qəbzi" hekayəsini yazmaqla yanaşı, Qafqazın qəhrəmanı olan Şeyx Şamil bir şeir həsr etmişdir.[1142] Daha sonra o, Peterburqdan Aşqabada gedərək burada qaldığı müddətdə latıncanı öyrənib, daha sonra Daşkənd gimnaziyasında imtahan verərək universitetə girmək hüququ qazanmışdır. Yusif Vəzir 1910-cu ildə Kiyevə gedərək Müqəddəs Vladimir adına İmperator Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. Kiyevin ali məktəblərində təhsil alan Türk tələbələrdən ibarət xüsusi nəşriyyat heyəti təşkil etmiş-

---

[1140]Yusif Vəzir Çəmənzəminli: biblioqrafiya /tərtib edənlər: M.Vəliyeva, L.Şirinova, G.Misirova; elmi red. K.Tahirov; red.G.Səfərəliyeva.- Bakı, 2017, s.6

[1141] Çəmənzəminli Yusif Vəzir. Əsərləri (Məqalələr, oçerklər və xatirələr). III cild. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1977, s.312-319.

[1142]Məmmədov Kamran. Yusif Vəzir Çəmənzəminli (həyatı və yaradıcılıq yolu). Bakı, Elm, 1981, 20

dir. [1143] Çar hökuməti Kiyev Universitetini müvəqqəti olaraq Saratova köçürdüyü üçün Y.Vəzir universiteti 1915-ci ildə burada bitirib. Daha sonra o, Saratov məhkəmə palatasında hakimlik vəzifəsinə namizəd qəbul olunmuş, ancaq tutduğu vəzifə maaşsız olduğu üçün bir neçə aydan sonra başqa iş axtarmaq üçün Kiyevə qayıtmış və "Zemstvo" təşkilatına daxil olub cəbhəyə getmişdir.

1917-ci il fevral burjua inqilabından sonra Yusif Vəzir Kiyevdə oxuyan azərbaycanlı-türk tələbələri ətrafına toplayaraq "Musavat"ın Kiyev şöbəsini yaratmışdır. Həmin şöbəyə sədr seçilən Yusif Vəzir Ukrayna Respublikası yarandıqdan sonra Azərbaycan Cumhuriyyətinin Kiyevdə diplomatik nümayəndəsi təyin olunmuşdur. 1918-ci ildə Yusif Vəzir Krıma-Simferopola getmiş, orada bir neçə ay ləngidiyi üçün ədliyyə direktorluğunda məsləhətçi işləmişdir. Krımdakı "Millət" qəzetində "Azərbaycan və azərbaycanlılar" adlı məqaləsini çap etdirməklə yanaşı, Litva tatarlarının tarixi ilə maraqlanaraq onların yaranması və vəziyyəti haqqında tədqiqat aparmışdır. Onun Simferopolda nəşr olunan "Millət" qəzetində otuza yaxın məqaləsi də işıq üzü görmüşdür. Beləliklə, 1917-ci ilin əvvəllərində Kiyevdə siyasi fəaliyyətə başlayan Azərbaycan Koloniyası Rəyasət Heyətinin 1919-cu il sentyabrın 21-də ADR Xarici İşlər Nazirliyinə göndərdiyi məlumatda bildirilirdi ki, Ukrayna Mərkəzi Radası günlərində "Müsavat"ın Kiyev komitəsinin sədri Yusif Vəzirovun başçılığı altında buradakı Azərbaycan Koloniyası komitə ətrafında birləşərək Ukraynanın siyasi həyatının bütün sahələrində fəal iştirak edirdi.[1144]

1919-cu ilin yazında Bakıya gələn Yusif Vəzir bur müddət sonra baş nazir Nəsib bəy Yusifbəylinin təklifi ilə, İstanbula səfir kimi göndərilib. 27 aprel faciəsindən sonra o, İstanbulda tutduğu elçi vəzifəsini tərk edib, Parisdə Siyasi Elmlər İnstitutunun diplomatiya fakültəsində oxuyan qardaşı Mirabdulla Vəzirovun yanına getmişdir. Paris yaxınlığındakı Klişi adlı şəhərdə əvvəlcə loko-

[1143] Çəmənzəminli Yusif Vəzir. "Biz kimik?". "Sədayi-həqq" qəzeti, 12 mart 1913

[1144] Yusif Vəzir Çəmənzəminli: biblioqrafiya /tərtib edənlər: M.Vəliyeva, L.Şirinova, G.Misirova; elmi red. K.Tahirov; red.G.Səfərəliyeva.- Bakı, 2017, s.8

motiv, sonralar isə avtomobil zavodlarında fəhləlik etmişdir. O, “Paris xəbərləri” qəzetində də əməkdaşlıq edib “Şərq məktubları” başlığı altında müxtəlif yönlü məqalələr yazmışdır. Yusif Vəzirin qardaşı Mirabdulla 1922-ci ildə təhsilini başa vurub Paris banklarının birində məmur işləməyə başlasa da, 1924-cü ildə qəflətən xəstələnib vəfat emişdir.[1145] Qardaşı vəfat etdikdən sonra Yusif Vəzir vətəninə qayıtmaq üçün Parisdəki Sovet səlahiyyətli nümayəndəliyinə ərizə ilə və Azərbaycan SSR XKS-nin sədri Qəzənfər Musabəyova xüsusi məktubla müraciət edib. Ümumittifaq İcraiyyə Komitəsinin 18 yanvar 1926-ci il tarixli qərarına əsasən Yusif Vəzir “sovet vətəndaşlığı”na qəbul edilib və həmin ilin aprelində onun vətənə qayıtması gerçəkləşib.[1146]

Yusif Vəzir ilk əvvəl “Bakı işçisi” nəşriyyatında bədii şöbənin redaktoru, sonralar Dövlət Plan Komitəsinin ictimai-mədəni bölməsində ixtisası üzrə vəkil işləmiş və eyni zamanda müəllimliklə də məşğul olmuşdur. Əvvəlcə, Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq və pedaqoji fakültəsində, sonralar isə Pedaqoji, Tibb və Neft İnstitutlarında Türk və Rus dilləri kafedrasında dərs demişdi. O, 1930–35-ci illərdə Azərbaycan Neft İnstitutunda işləyən zaman “Qızlar bulağı”, “Studentlər”, “1917-ci il” adlı romanlarını yazmışdır. “Əli və Nino” əsərinin də Yusif Vəzirin qələmindən çıxdığını iddia edən ədəbiyyatşünaslar var.

1938-ci ildə Özbəkistan SSR-nin Urgənc şəhərindəki Xarəzm Vilayət Pedaqoji institutunda rus dili müəllimliyi üçün təşkil olunmuş müsabiqədən keçib. 1938-ci ilin avqustunda Urgəncə yola düşən Y.Vəzir Urgənc Pedaqoji İnstitutunda baş müəllim, eyni zamanda institut kitabxanasına müdir təyin olunub.

1940-cı il yanvar ayının 25-də Yusif Vəzir Ürgəncdə həbs edilib Bakıya gətirilib.[1147] O, altı aya yaxın Keşlə həbsxanasında saxlanıldıqdan sonra 1940-cı ilin iyunun 11-də Xüsusi müşavirənin qərarı ilə 8 il müddətinə islah-əmək düşərgəsində həbs cəzasına

[1145] Vəzirov Orxan. Atam Yusif Vəzir Çəmənzəminli. Bakı, Azərnəşr, 1997, s.57-61.
[1146] Yenə orada.
[1147] Bünyadov Ziya. Qırmızı terror. Bakı: Azərnəşr, 1993, səh. 200

məhkum edilib.[1148] Yusif Vəziri iyul ayının 3-də Nijni Novqorod vilayətinin Suxobezvodnaya stansiyasındakı həbs düşərgəsinə göndəriblər. O, 1943-cü il yanvarın 3-də Nijni Novqorod vilayətinin Suxobezvodnaya stansiyasındakı həbs düşərgəsində vəfat etmiş, nəşi Betluqa çayının sahilindəki qəbiristanlıqda dəfn olunub.

Onun əsas elmi və bədii əsərləri aşağıdakılardır: "Azərbaycan ədəbiyyatına bir nəzər", "Tarixi, coğrafi və iqtisadi Azərbaycan", "Qızlar bulağı", "Studentlər", "Qan içində" ("İki od arasında"), "Əli və Nino" (müəllifi mübahisəlidir), "Azərbaycan muxtariyyəti", "Xarici siyasətimiz", "Milli və mədəni işlərimiz", "Litva tatarlarının tarixi", "Biz kimik və istədiyimiz nədir?" və b.

**Milli fəlsəfə tarixi və ictimai-fəlsəfi görüşləri.** Yusif Vəzir "Azərbaycan ədəbiyyatına bir nəzər" əsərində Türk ədəbiyyat tarixini araşdırmış, bu zaman müəyyən qədər ictimai-fəlsəfi fikir tariximizə aid şərhlər vermiş, eləcə də sosial fəlsəfə ilə bağlı bəzi mülahizələr irəli sürmüşdür. Ona görə ədəbiyyat iki qismdən, yəni şifahi və yazılıdan ibarət olub, onun birincisi birmənalı şəkildə Türk xalqının fikir qüvvəsinin və zehninin məhsuludur: "Şifahi ədəbiyyatımız Türk milləti qədər qədimdir. Yazılı ədəbiyyatımız başqa bir yolla inkişaf edib. Ədəbiyyat getdikcə saraylardan; əşrəf və əyan məclislərindən xalqa doğru enməyə başlayıb. Və uzun müddət fars bürokratizmi ilə Türk demokratizmi mübarizə etmiş və axırda Türk xəlqçiliyi qələbə çalmışdır".[1149]

Əvvəlcə, şifahi ədəbiyyatla bağlı məlumat verən, nümunələr gətirən Çəmənzəminli daha sonra yazılı ədəbiyyata müraciət etmiş, bu zaman ilk olaraq Nəsiminin, Xətayinin, Füzulinin ictimai-fəlsəfi görüşlərini şərh etməyə çalışmışdır. Məsələn, Nəsiminin hürufi, müəlliminin də Fəzlullah Nəimi olmasını diqqətə çatdıran Çəmənzəminliyə görə onun fəlsəfəsi elə Nəiminin fəlsəfəsidir. Onun fikrincə, Fəzlullaha aid "Cavidannamə"ni oxumaqla Nəsiminin fəlsəfi dünyagörüşünü dərk etmək mümkündür: "Nəsimi diyari-Rumə sə-

[1148] Yenə orada, 203

[1149] Çəmənzəminli Y.V.Əsərləri. Üç cilddə. III cild. Bakı, Avrasiya-Press, 2005,s.117

yahəti əsnasında hürufiliyi açıqcasına təbliğ eyləyirdi. Hələb şəhərində bulunarkən cəzbi-allahiyə məğlub olur”.[1150]

Daha sonra Şah İsmayıl Xətayinin tərcümey-halı haqqında qısa məlumat verən Çəmənzəminliyə görə böyük hökmdar Şah İsmayıl ilə böyük şair-mütəfəkkir Xətayi arasında fərq azdır; eyni mətanət və qüvvətli iman da şeirini başdan-başa doldurur. O, yazırdı: “Xətayinin şeirlərini üç qismə ayırmaq olar: dini, fəlsəfi və eşqə dair. Bizcə ən əhəmiyyətli şeirləri də fəlsəfəyə dairdir. Bu şeirlərdə Xətayi böyük, qəvi və mətin şəxsiyyətdən bəhs edir. Qəvi şəxsiyyəti tərif etmək üçün bu misralara müraciət edilməlidir:

*Cümlə əşyadə zühur edən kəlamımdır mənim,*
*Xələti-ərzi-səma sirri qiyamımdır mənim.*
*Vaqif oldum çün zəminü asimanın gəncinə,*
*Cismimin sultanıyam, aləm qulamımdır mənim”.*[1151]

Xətayinin bu fikirləri ilə əsasən razılaşan Çəmənzəminli də hesab edirdi ki, qəvi şəxsiyyət əzəlidir: “Varlıq eylə var idi, onun sirrlərinə vaqif idi və bütün kainatı vələlərin şahididir. Həqq ilə şəxsiyyət dostdurlar, yaxındırlar. İki qüvvə ümumi sirrə malikdir. Şəxsiyyəti yaradan Həqdir, lakin Həqdən şəxsiyyəti vücuda gətirən səbəb inkardır”.[1152] O, buna misal kimi Xətayinin “Ey Xətayi, həqqi bilib tanımışam bigüman, Onun üçün ox yaratdı, mən ona inkar idim”, – beytini göstərmişdir.

O, Füzulinin həyatı və yaradıcılığı haqqında da bilgi vermiş, onun Türk bilgələri arasında tutduğu ali mövqeyi ifadə etmişdir.

Onun fikrincə, milliyyət hissini birinci dəfə hiss edən, kritisizmdən istifadə edən M.F.Axundzadə ilə Q.Zakir birlikdə tənqid dövrünün nəsr və nəzmdə banisi sayılır. Yusif Vəzirə görə onlar ictimai həyatımızın qüsurlarını görüb, eynilə göstərən mütəfəkkirlər olublar.[1153] O, yazırdı: “Zakiri tam mənası ilə milliləşdirən, bizim ağacın meyvəsi edən şeirlər onun həzliyə və həcvləridirlər. Azərbaycan təbiətinə məxsus zərafət, kinayə, kəlayə və bəzən acı

---

[1150] Yenə orada, s.124
[1151] Yenə orada, s.127
[1152] Yenə orada, s.127-128
[1153] Yenə orada, s.133-134

rişxənd və köhnələri bəyənməyib, yeni bir şey axtarmaq... Bu nöqtələrdə Zakir bizim ilə həmruh və həmdərddir”.[1154]

Daha sonra Mirzə Kazım bəy, S.Ə.Şirvani, M.Ə.Sabirlə də bağlı məlumatlar verən Çəmənzəminli Sabirin yaradıcılığı üzərində bir az çox dayanmışdır: “Sabir filosofdur, mürəbbidir, inqilabçıdır, nihilistdir, hamısında da səmimidir... Sabir Zakirin həcvlərindən doğma bir şairdir. Aralarındakı fərq budur ki, Zakir xəstə millətin bir əzasiylə məşğul olmuş, onu məhv edən mikrobları göstərmiş. Sabir isə bütün millət vücudunu təşrih edib onun çürümüş cəhətlərini meydana çıxarır. Zakir məhəlli şairdir; onun əsərlərində “provinçializm” (əyalətçilik) çoxdur. Sabir isə başqa bir zamanda vücuda gəlib, ümumşərqin intibahının şahidi olduğu üçün mövzularını geniş sahələrdən alır. Odur ki, bəzən Sabir azərbaycanlılıqdan çıxıb ümumislam və bəlkə ümuminsaniyyət şairi olur. Sabir ruhən şərqlidir, təmayülün Avropa mədəniyyətinin üftadəsidir. Millətinin mütərəqqi olmasını istər, mədəniləşməsini arzu edər”.[1155]

A.A.Bakıxanov, Nəbati, A.Səhhət, Hadi, H.Cavid, Ə.Cavad və başqa ziyalılarımızın isə adlarını çəkməklə kifayətlənən Çəmənzəmənli, “Osmanlıda yetişmiş azərbaycanlı müəlliflər” bölümünə isə Şirvanlı Fətullah, Baba Nemətullah, Yusif Ziyaəddin Məxdun, Azəri İbrahim Çələbi, Sadiq Əfəndi Şirvani, Mir Həmzə Nigari, Əli bəy Hüseynzadə və başqalarını aid etmişdir.

Çəmənzəminli “Azərbaycan nağıllarının əhval-ruhiyyəsi”, “Azərbaycanda Zərdüşti adətləri”, “Folklor yolunda” və digər məqalələrində də milli fəlsəfə və ictimai fikir tariximizlə az-çox bağlı olan mövzulara toxunmuş, daha çox qədim dövr və antik çağ Azərbaycan Türk fəlsəfə tarixindən bəhs etmişdir.Onun fikrincə, Azərbaycan türklərində fəlsəfi fikrin rüşeymləri şifahi ədəbiyyatda öz əksini tapmış, daha sonra yazılı ədəbiyyatda inkişaf etmişdir. O, yazırdı ki, bu fəlsəfi fikrin rüşeymləri isə Kür-Araz mədəniyyətindən başlamış, eyni zamanda İran ilə Turan arasında gedən mübarizələrin zəminində və Böyük Midiya dövründə davam etmişdir:

[1154] Yenə orada, s.136
[1155] Yenə orada, s.140-141

“Tarix göstərir ki, bu mübarizə üçün Quzey Azərbaycan mərkəz təşkil etmiş və nəticədə Türk dili qədimdən “Böyük Midiya” adlanan Qaf dağı ilə Həmədan arasında hökmran bir vəziyyət almışdır... Xalq ədəbiyyatımızın tədqiqi yalnız bizim üçün deyil, bütün insaniyyət tarixinə yeni bir səhifə əlavə edəcəyinə iman edənlərdənəm, çünki dünyanın ən qədim mədəniyyətlərindən birinin beşiyi Kür ilə Araz çaylarının arası olmuşdur. Bu mədəniyyətin əsrarını bilmək üçün xalq ədəbiyyatımız, bilxassə nağıllarımız qiymətli vasitə ola bilər”.[1156] Beləliklə, o, qədim dövrdə Türk fəlsəfəsinin təşəkkülü ilə bağlı yazırdı ki, bunun izinə, ilk növbədə şifahi ədəbiyyata aid olan nağıllarda rast gəlmək mümkündür. O, yazırdı: “Nağıl xalq ədəbiyyatının qeyri-ənvaindən daha da qədim olmalıdır, çünki fikir, etiqad və fəlsəfə etibarilə Zərdüştün “Avesta” və hindi-qədimin “Veda”sına yavıqlaşır”.[1157]

Yusif Vəzir bir tərəfdən Azərbaycan türklərinin qədim fəlsəfi fikir tarixindən bəhs etdiyi halda, digər tərəfdən bu fəlsəfi fikrin Zərdüştün “Avesta” və hindlilərin “Veda”sı ilə yaxınlığından bəhs etmişdir. O, yazırdı ki, bütün Azərbaycan Türk nağılları içində tanınmış olan “Məlik Məmməd” nağlında da zərdüştlük və vedalarda olduğu kimi, əsas fikir haqqın nahaqqa qələbə çalmasından ibarətdir: “Məlik Məmməd”in fəlsəfəsi təbiətdəki ikiliyi təsvir eləyir. Bir tərəfdə Hürmüzd və onun xəlq etdiyi nur, əbədi həyat, haqq və ədalət, o biri tərəfdə də Əhrimən və güruhu: qaranlıq dünyanın məhsulu divlər, əjdahalar, büxl, həsəd, fəna fikirlər. Bir-birilə əbədi çarpışmada olan bu iki qüvvə Hürmüzdün qələbəsilə nəticələnir. Əbədi həyat bəxş edən, almanı oğurlayan divlər, Zümrüdün balalarını öldürmək istəyən əjdahalar, büxl və həsədə qapılan iki şahzadə məhv olub gedirlər. Zirək, qüvvətli, təmiz ürəkli Məlik Məmməd isə qurtulur və işıqlı dünyanın bütün səadətinə nail olur”.[1158]

Bizcə, onun Türk fəlsəfi fikrini bu formada “Avesta” və “Veda”ya bağlaması məntiqə uyğun deyildir. Çünki burada bəhs olu-

---

[1156] Yenə orada, s.277
[1157] Yenə orada, s.278
[1158] Yenə orada, s.278

nan "Məlik Məmməd" nağlının özü də İrançı zərdüştülərcə təhrif olunmuş, Türk düşüncəsindən kənara sapdırılmışdır. Bu baxımdan Yusif Vəzirin öncə "Məlik Məmməd" nağlı ilə "Avesta" fəlsəfəsini eyniləşdirməsi, üstəlik tək Tanrıçılığı Sami irqinə aid etməsi, daha sonra da Zərdüştü və onun "Avesta"sını Azərbaycan mədəniyyəti ilə əlaqələndirməsi doğru sayıla bilməz: ""Məlik Məmməd"dəki mücadilə haqq və işığın hökmranlığı ilə nəticələnir. "Avesta"nın fəlsəfəsi də bundan ibarətdir. Sami irqindən zühur etmiş dinlərin (yəhudilik, xristianlıq və müsəlmanlıq) tövhidi zərdüştlükdə yoxdur. Vəhdət əvəzində ikilik, kainatda ikilik var və mübarizə hər şeyə əsas olaraq vəz olunmuşdur. Bu mübarizə getdikcə inkişaf edib böyüyür və axırda qaranlığın, div və əjdahaların, paxıl vücudların yox olub, yer üzündən qaib olması ilə qurtarır. Zərdüştlükdə dini məfkurə dünyada əbədi bir həyat, əbədi işıq, əbədi istirahət və səadət təmin etməkdir. Lakin buna mane olan qara qüvvələr var".[1159]

Doğrudur, o, bəzən etiraf edirdi ki, "zərdüşti fəlsəfə və etiqadından doğma nağıllarımız yalnız dil etibarilə türkləşmişlər".[1160] Deməli, onun düşüncəsindən çıxış etsək, birincisi qədim Azərbaycan xalqına aid nağıllar "zərdüşti fəlsəfə və etiqadından doğur", ikincisi nağıllar dilcə türkcələşir mahiyyətcə yox, üçünçüsü tərəfdən isə nağılların qaynaqları olan zərdüştlük farslara aid olunmur. Maraqlıdır ki, Çəmənzəminli eyni formada "Novruz" bayramını da İran-Aryan mədəniyyətinə deyil Azərbaycan mədəniyyətinə aid edib, hətta iddia edir ki, ümumiyyətlə "İran mədəniyyəti"ni Midiya və Azərbaycan yaratmışdır. O, yazırdı: "İran mədəniyyətinin Midiya və bilxassə Azərbaycan yaratmış və Midiya səltənəti münqəriz olduqda bu mədəniyyət zərdüştlüklə bərabər İrana keçmiş və əsrlərcə pars səltənəti ilə yan-yana azərilər (muğlar) məmləkətin ruhani və mədəni həyatını idarə eləmişlər. "Novruz" və başqa adətlərimiz də o zamanlardan qalmadır. "Novruz" adətinə "Avesta"da rast gəlmiriksə də, fəlsəfəsi tamamilə oradan alınmışdır".[1161]

---

[1159] Yenə orada, s.278-279
[1160] Yenə orada, s.282
[1161] Yenə orada, s.309-310

Buradan belə anlaşılır ki, Çəmənzəminli zərdüştlüyü, Novruz bayramını azəri ya da muğ adlandırığı qövmün adına çıxmış, Midiyanın süqutundan sonra parsların hakimiyyət başına keçməsinə baxmayaraq, ancaq ruhani və mədəni həyatın yenə də muğların əlində qaldığına inanmışdır. Beləliklə, Yusif Vəzirə görə atəşpərəstlik və zərdüştilik kimi təlimlər Midiya dövründə, ya da ondan öncə meydana çıxmış, əsas ideoloqları isə muğlar olmuşdur. Zərdüşt də Aranda muğlar arasında dünyaya gəlmiş, "Avesta" və atəşpərəstlik də Azərbaycanda yaranmışdır. Bu baxımdan qədim Yunan fəlsəfəsinə ciddi təsir göstərən dünyanın dörd: od, su, hava və torpaq kimi ünsürlərdən ibarət olması nəzəriyyəsi də farslara/parslara deyil, qədim Azərbaycan xalqı olan muğlara, onların mağlar təliminə aid olunmalıdır. Sadəcə, yunan tarixçiləri başda Herodot olmaqla, Əhəmənilər dövründə parslar hakimiyyət başında olduğu üçün, bu fəlsəfəni parsların ya da İranın adına çıxmışlar. Çünki Çəmənzəminliyə görə Midiyanı məhv edən parslar, çox keçmədən Midiya və Azərbaycanın din və ayinlərini, o cümlədən dörd ünsürlə (od, su, hava və torpaq) bağlı nəzəriyyəsini də mənimsəmişlər: "İrandan əvvəl də bu nəzəriyyə (dörd ünsürə aid olan nəzəriyyə nəzərdə tutulur-F.Ə.) Kürlə Araz çaylarının arasında doğulmuş olacaq, çünki Midiya dövlətini inqiraza uğradan parslar, Midiya və Azərbaycanın din və ayinlərini və bütün mədəniyyətini iqtibas etdilər. Zərdüştiliyi İrana bəxş edən azərbaycanlılar İrandakı müəssisələri əsrlərcə idarə etmişlər. Hətta bəzən hökuməti də ələ almağa qalxmışlarsa da, müvəffəq olmamışlar".[1162]

Deməli, onun sözlərindən belə anlaşılır ki, üç min il bundan öncə Azərbaycanda məskən salan muğlar zərdüştlüyün, Novruz bayramının yaradıcısı olmuş, Midiyaya qədər və Midiya dövründə həm hakimiyyəti, həm də ruhani sahəni idarə etmişlər. Ancaq farslar e.ə. 6-cı əsrin ortalarında (e.ə.550-548) Midiyada hakimiyyəti zəbt etdikdən sonra, muğların sadəcə ruhani və mədəni sahələr əllərində qalmış, dəfələrlə cəhd göstərsələr də hakimiyyəti isə yenidən ələ keçirə bilməmişlər. Üstəlik, bizim eranın 7-ci əsrin ortalarında

[1162] Yenə orada, s.314

Ərəb Xilafəti yalnız parslara məxsus Sasanlı hakimiyətini deyil, muğlara aid olan dini-mədəni hakimiyyəti (zərdüştlüyü) də aradan qaldırmışlar. O, yazırdı: "Bu fəlsəfə və yaratdığı zehniyyət sayəsində Aran, Muğan və bütün Azərbaycan mədəniyyəti həyatında yüksək dərəcələrə çıxmışdır. Lakin ərəb istilası Zərdüştün atəşi ilə bərabər ölkəmizin mədəniyyət işığını da söndürdü. Dərbənddən Həmədana qədər sərf olunan əməklər məhv oldu".[1163]

Bizcə, Çəmənzəminlinin Zərdüştü və zərdüştlüyü (atəşpərəstliyi) qədim Azərbaycan xalqına aid hesab etməsi doğru deyildir. Burada qədim Azərbaycan türklərinə aid olan yalnız Muğların, ya da Mağların təlimidir. Bizcə, Zərdüşt hind-aryan kökənli olub Muğların təlimini təhrif etmişdir. Muğların təlimində heç bir maddi ünsürü, o cümlədən atəşə zərdüştülərdə olduğu kimi, Yaradan səviyyəsində bir inam olmamışdır.[1164]

Bu baxımdan Çəmənzəminli bir tərəfdən mağlar və mağların təlimini Azərbaycan xalqına aid etməkdə haqlı olsa da, ancaq mağları daha sonra zərdüştlük və onun "Avesta"sı ilə tamamilə eyniləşdirməsi doğru deyildir. O, muğların və onların təliminin Azərbaycan Türk xalqı və onun milli fəlsəfi fikir tarixi ilə nə dərəcədə bağlı olub-olmaması kimi məsələlərə isə dərindən aydınlıq gətirməmişdir. Ancaq bütövlükdə məlum olur ki, Çəmənzəminli azəri ya da muğ adlandırdığı xalqın kökünü, o cümlədən zərdüştlüyü türklərə aparıb çıxartmışdır. Bizcə, bu səbəbdən də Çəmənzəminlinin çağdaşı olmuş Əmin Abid yazırdı ki, onun Zərdüştü türk zənn edib, azərbaycanlıları da atəşpərəst olaraq qələmə alması, üstəlik "azəri" sözünü türklüyə aid etməsi kökündən yanlışdır: "Bu vaxta qədər yapılan tədqiqlər əsasında: birisi qədim dövrlərdən zamanımıza; o biri zamanımızdan əski əsrlərə doğru yürüyən iki hərəkət xətti hiss edilməkdədir. Yalnız Azərbaycan kəlməsi ətrafında dönüb dolanan hər iki xəttin gəlib dayandığı bir nəticə nöqtəsi var: qurduğumuz dövlətin həqiqi adı "Azərbaycan" və bu dövlətin hakim olduğu yerlərdə oturan türklər (şi-

[1163] Yenə orada, s.315

[1164] Ələkbərli F.Q. Turan sivilizasiyasına giriş: Turan məfkurəsi və Tanrıçılıq. Bakı, Xan nəşriyyatı, 2017, s.117-123

mali-qərbi "İran"da yaşayan türklər kimi) "azəri"dir; azərilər də atəşpərəstlik sistemi ilə əlaqədardır".[1165]

Yusif Vəziri Azərbaycan Türk xalqının qədim əcdadı hesab etdiyi muğlar, ya da "azərilər", eləcə də onların dini-fəlsəfi dünyagörüşü ilə bağlı məqalələri və bədii əsərləri Sovet Azərbaycanı dövründə qələmə almışdır. Yuxarıda da qeyd etdiyimiz kimi, bu dövrdə Sovet Rusiyasının ideoloqları da hələlik, Azərbaycan türklərinin türklüyünün, müsəlmanlığının üstündən bir çox səbəblərə görə, qəti xətt çəkə bilmədikləri üçün daha çox "azərilik" nəzəriyyəsi adı altında oyun oynayıb "xalqın öz tarixini qədimləşdirmə" niyyətinə uyğun olaraq zərdüştlüyün, atəşpərəstliyin təbliğinə şərait yaradırdılar. "Xalqın tarixini qədimləşdirmə" prosesinə uyğun olaraq "Azərbaycan"ı zərdüştlüklə, atəşpərəstliklə bağlayıb, Zərdüştün də ya Türk olmağını, ya da ən azından Midiyada, ya da Azərbaycanda doğulduğu (yəni buna inanaların düşüncəsində) üçün azərbaycanlı olduğunu əsaslandırmağa çalışırdılar. Çəmənzəminli də, məhz "azəriliy"ə uyğun olaraq muğları və Zərdüştü əsasən "azəri", midiyalı, bəzi hallarda da Türk kimi qəbul etmişdir.

Yusif Vəzir Sovet Azərbaycanı dövründə yazdığı "Qızlar bulağı" adlı romanında da zərdüştlüyün yaradıcısı saydığı Midiyanın aparıcı tayfalarından biri olan muğları/mağları qədim Azərbaycanın yerli xalqı hesab etmiş, eyni zamanda onların parslar, iskitlər, misirlilər, yunanlar, babillər, yəhudilərlə münasibətlərindən bəhs etmişdir.[1166] Bu bədii əsərdə ən çox diqqəti çəkən odur ki, Çəmənzəminliyə görə öncə zərdüşti inanclı muğlar arasında atəşpərəstliyin bəzi ayin və adətlərinə (məsələn, yaxın qohumlarla evlənmək, ölünü basdırmamaq və s.) etirazlar olub dəyişikliklər edilmiş, daha sonra da başqa xalqlarla, özəlliklə də turanlı iskitlərlə qaynayıb-qarışma baş vermişdir. Guya, zərdüşti inanclı oturaq, yerli muğlar, ya da azərilər iskitləri xaqanlıqdan, köçərilikdən, döyüşkənlikdən və

---

[1165] Abid Əmin. Azərbaycan türklərinin ədəbiyyatı tarixi. Bakı, Elm və təhsil, 2016, s.29

[1166] Çəmənzəminli Y.V. Əsərləri. Üç cilddə. II cild. Bakı, AVRASİYA-PRESS, 2005, s.345-450

xüsusi əmlaka rəğbətdən uzaqlaşdıraraq xeyli dərəcədə özləri kimi oturaq həyata və ictimai əmlaka alışdıra bilmişlər.[1167]

Deməli, bu əsərində Çəmənzəminli bir tərəfdən Azərbaycan xalqının kökünü farslardan uzaq tutub muğ/mağ mənşəli hesab etdiyi Midiyaya və Türk mənşəli İskitlərə, eləcə də onların dini-fəlsəfi təfəkkürünə bağlamağa çalışdığı halda, digər tərəfdən kommunizm təliminə uyğun olaraq sosial bərabərlik məsələsini də ön plana çıxartmağa çalışmışdır. O, yazırdı: "Ümumi qəbilə xalqı səhər tezdən işə çıxar: kimi ilxıya, kimi bağ-bağçaya gedər. Daimi vəzifə yoxdur, vəzifələr dəyişilir. Dünən hərəm ağası ilə tarlada çalışdıq, bu gün isə ilxıda idik... Səadət şəxsi "mən"dən, şəxsi təmayüldən, şəxsi arzudan əl çəkərək ümumi "mən"liyə, ümumi təmayülə və ümumi arzuya xidmət etmək deməkdir".[1168]

Çəmənzəminlinin milli fəlsəfi fikir tarixi ilə bağlı apardığı tədqiqatları ümumiləşdirərək hesab edirik ki, o, muğları, muğların təlimini tamamilə zərdüştülüklə eyniləşdirməklə, eləcə də Qərb tarixçiliyinin təsiri altında Türk-Turan mənşəli iskitləri köçəri və vəhşi kimi qələmə verməklə səhvlərə yol vermişdir. Doğrudur, Çəmənzəminli haqlı olaraq muğları, midiyalıları birmənalı şəkildə irandillilərdən, o cümlədən farslardan da uzaq tutmuşdur. Ancaq bütün bunlarla yanaşı, onun daha çox irandillilər, o cümlədən farslara aid edilən qeyri-əxlaqi adətləri (məsələn, yaxın qohumlarla evlənmək, ölünü basdırmamaq və s.) muğlara aid edib, ancaq sonralar muğların bundan üz döndərməsini yazması da, çox ziddiyyətlidir. Bütün hallarda, o məsələdə Çəmənzəminli ilə razılaşırıq ki, məhz Muğların fəlsəfəsi yunan, fars, yəhudi, qibti və digər xalqların dünyagörüşünə xeyli dərəcədə təsir göstərmişdir.

**Türkçülük görüşləri.** Onun ictimai-siyasi yaradıcılığında türkçülük məsələsi xüsusi yer tutmuşdur. Yusif Vəzirə görə Azərbaycan türkləri başqa Türk xalqları ilə müqayisədə yad millətlərin təsirlərinə daha çox məruz qalmışlar. Çünki özgə millətlər, xüsusən də farslar əsrlər boyu azərbaycanlıların mədəniyyətinə, ədəbiyyatı-

[1167] Yenə orada, s.445
[1168] Yenə orada, s.449-450

na, dilinə, hətta dini düşüncəsinə mənfi təsir göstərmiş, nəticədə bir çox milli-mənəvi dəyərlər unudulmuşdur. O, yazırdı ki, türklərin dini həyatı heç bir zaman farsın, ərəbin, yunanın, romalının və başqalarının dini həyatına bənzəməyib: "Türküstan qövmlərinin ruhani həyatını nəzərə aldıqda onların qeyri-dindar olduqlarını bilirik. Qırğızlar müsəlman adını daşıdıqda dinə əsla möhtac deyillər. Türkmən obalarını dolandıqda məscidə rast gəlməzsən. Təkə nişanlarının (müsəlmanlarının) özlərinə məxsus libasları olmaz. Camaat geyinən çapandan geyib başlarında da dəri papaqları olar. Mollaya müqəddəs bir nəzər ilə baxıb onları uca mərtəbələrə mindirən müridbazlıq ömürlərini boş-boş dini mübahisə, cənnət və cəhənnəm məsələsi ilə keçirmək – türkmən arasında adət deyil. Bu sağlam qövm dünya ilə məşğuldur. Bunların qayələri – şücaətli ömür sürüb şan və şərəfə malik olmaqdır".[1169]

Ona görə Azərbaycan türklərinin əsil türkə yaraşan törələrdən xeyli dərəcədə uzaq düşməsinə səbəb irançı düşüncə olmuşdur. Yusif Vəzir yazırdı ki, fars mədəniyyəti Azərbaycan Türk həyatına elə ağır möhür basıb ki, indi də onun nüfuzundan xilas ola bilmirik: "Heyif ki, bu nüfuz ilə mübarizə etməyə hələ bizdə qüvvə yoxdur. Zənnimizcə, onda mübarizə müqənnid ola bilərik ki, aşağıda bəyan olan fikirlər qüvvədən felə keçə. Fikirlərim səkkiz fəsildən ibarətdir: 1) Gərək bizim bir cəmiyyətimiz olsun ki, dilimizi farslıqdan xilas eləsin. Bu da onda mümkündür ki, cəmiyyəti fəal və kamil alimlər təşkil edələr. Və hər müəllif kitabını çapa verməkdən qabaq cəmiyyətə göstərib qüsurlarını düzəltdirə... 2) Gərək müstəid və geniş məlumatlı münəqqidlərimiz ola, qələmləri qüvvəsi ilə dil və ədəbiyyatımızı düz yola çıxardalar. Ədəbi dil el ədəbiyyatından götürülməlidir. Bununla ehtiyaclar dəf olmasa, fars və ərəb sözlərinə əl atmaq olar... 3) Milli musiqimiz türkləşməlidir. Bunun ilə həm farsa qalib gələrik, həm də Türk mədəniyyətini ləzzətli bir mövqeyə gətirərik ki, hamı məhəbbət və rəğbət göstərib yavuqlaşar... 4) Qızlarımızı mükəmməl surətdə oxutmalıdır. Onları

[1169] Çəmənzəminli Y.V. Əsərləri. Üç cilddə. III cild. Bakı, AVRASİYA-PRESS, 2005, s.335

hüquqsuzluq təzyiqindən qurtarmalıdır. Arvad elmli və əri ilə müsavi olsa milli ruhlu və tərbiyəli övladlar yetişdirər. Təbiidir ki, belə uşaqlar gələcəkdə öz tərbiyələri sayəsində nə farslığın və nə qeyri millətlərin nüfuzu altına düşməyib öz milli yolu ilə milli qayələrə (ideala) doğru gedər. 5) Türk məktəblərinin sayını artırmalıdır. Onların içində ruhani sinfi yetişdirmək üçün orta və ali məktəbi bina etməlidir ki, oradan kamil mollalar çıxıb biçarə camaatımızı İrandan gələn əcəm ətvarlı mollanümalardan və mərsiyxanlardan xilas etsinlər. 7) Bizi farsların nüfuzu altına salanlardan biri də fars ədəbiyyatıdır. Lazımdır farsların Firdovsi, Sədi Şirazi kimi dahilərin əsərlərini Azərbaycan türkcəsinə tərcümə etməklə daha fars dilində onları oxumağa ehtiyac olmasın. Tərcümə əlbəttə, "dəhri-həqai" kimi olmamalı, tərcümənin birinci şərti düzgünlük və sadəlikdir... 7) Firdovsi və Sədilərin öz millətlərini təbliğ etməkdə müvəffəqiyyətlərini gördükdə bizlərə də çalışıb dahilər yetişdirmək lazım gəlir. Bunların vasitəsi ilə həm özgələrin mənəvi təsirindən qurtararıq, həm də öz nüfuzumuzu qonşularımız arasında artırarıq. 8) Azərbaycan türklərinin tarixini sadə bir dildə yazdırıb nəşr etrməlidir ki, camaat özünün Türk olmağını bilsin. Keçmişini öyrənsin və milli vəzifələrini düşünüb gələcək üçün çarələr arasın. Yoxsa hər kəsdən soruşursan: "Sən kimsən?" Deyir: "Müsəlman". Tahı bunu bilmirlər ki, dinimiz müsəlman dinidir, millətimizsə Türk millətidir".[1170]

Cümhuriyyətəqədərki dövrdə farsların, irandillilərin mədəniyyətini "əcəmin pozğun mədəniyyəti" adlandırıb onun Azərbaycan Türk həyatına çox mənfi təsirindən bəhs edən Çəmənzəminli, ancaq Sovet Azərbaycanı dövründə yuxarıda da gördüyümüz kimi, bir qədər bu məsələyə fərqli yanaşmış, muğları və guya, onlara aid zərdüştliyi onlardan ayıraraq onun sonralar farslar tərəfindən təhrifə uğradıldığından bəhs etmişdir. Nazim Cəfərova görə Yusif Vəzir M.Ə.Rəsulzadə kimi, xalqın savadlı şəxslərinə böyük ümidlər bəsləmişdir. N.Cəfərov yazırdı: "Yusif Vəzirovun M.Ə.Rəsulzadə təkin xalqın savadlı şəxslərinə böyük ümid bəsləməsi əbəs deyildi.

---

[1170]Yenə orada, s.335-337

Qeyd olunduğu kimi, yerli əhali o zamanlar savadsızlıqdan daha çox əziyyət çəkirdi. Bir tərəfdən də çarizm müsəlmanların, xüsusilə də türklərin maariflənməsinə heç bir həvəs göstərmirdi. Hər ikisi – M.Ə.Rəsulzadə də, Yusif Vəzirov da məhz milli kökündən üzülməyən savadlılara bel bağlayırdılar".[1171]

Yusif Vəzirə görə iki mənbə var ki, buradan "millət" – nə olduğunu öyrənib onun mühafizə və tərəqqisi üçün çalışacaq idi – biri ana tərbiyəsi, biri məktəb. O, yazırdı ki, bunların ikisindən də millətin şüurunda acı yaddaşdan başqa bir şey qalmayıb: "Millətin ruhu, canı və bəlkə cəmi vücudu hesab olunan – ana dilini bizə lazımınca öyrədən bir vəsilə olmadı. Daha dilsiz də nə etmək olar. Hər yerdə dil və savad lazım, nəşriyyat bunlar ilə olar. Camaatın dərdinə əlac aramaq, məişətimizin fəna tərəflərini tənqid etmək... Bunların hamısına dil və savad lazım. Bir də bir camaata yol göstərmək fikrində olan lazımdır ki, o camaatın adət və qaydalarından müxbir olsun, tarix və ədəbiyyatı bilsin. Bunları bilmək camaatın məişətini bilmək, onların qüsurlarını və qüsurlarının səbəblərini bilmək deməkdir! Burada da ki, yenə Türk savadına möhtacız! Savaddan və dildən də ki ana dilindən müsəlman studentləri məhrumdurlar!!! Hər bir qüsurun bir səbəbi, bir mənbəyi olan tək, müsəlman studentlərinin böyük qüsuru ədd olunan "nəfs"sizliyin, camaatımızın dərdlərinə yaramadığının səbəbi və mənbəyi yuxarıda göstərdiklərim olub".[1172]

Çəmənzəminli "Qulluq və əsrlik" məqaləsində isə türkçülük nəzər nöqtəsindən daha çox müsəlmanlıq adı altında baş vermiş ərəbləşməyi tənqid etmişdir. Çünki türklərin təbiətində Allaha qul olmaq, ya da başqa xalqların əsarəti altında yaşamağa razılaşmaq olmayıb. Onun fikrincə, islamiyyət dövründə bu kimi hallara rast gəlindi ki, bu isə türkün təbiətinə zidd idi. O, yazırdı ki, islamiyyətə qədər türklər övladlarına Allahqulu, Hüseynqulu, Əliqulu, Rzaqulu kimi adlar deyil, "Dağ", "Qaya", "Dəniz", "Gün", "Ay", "Ul-

---

[1171] Cəfərov Nazim. Milli-ictimai fikir tariximizdən (1914–fevral, 1917).Bakı, Azərnəşr, 1993, s.63

[1172]Çəmənzəminli Y.V. Müstəqilliyimizi istəyiriksə... Bakı: Gənclik, 1994, s.9-10

duz" kimi adlar qoyar, adlarına da uyğun şan və şərəflə ömür sürərdilər: "İnsana qul sənəti vermək Allaha nasaz gələn hərəkətlərdən biridir. Biz buna baxmayaraq yenə özümüzə qulluq isnad veririk. Bircə kişilərə verdiyimiz adlara diqqət edin: "Allahqulu", "Məmmədqulu", "Həsənqulu", "Hüseynqulu", "Əliqulu", "Vəliqulu", "İmamqulu" və qeyri. Hələ bu Allah, peyğəmbər və imam quluları dursun kənarda, biz özümüzü adi şəxslərin də qulu hesab edirik. Məsələn, "Şahqulu", "Ağaqulu", "Xanqulu". İnsanın şəni, qədr və qiyməti müsəlman aləmində o qədər alçaq tutulur ki, bunları pir və ocaq kimi cansız və mənasız şeylərə də qul verirlər: "Pirqulu", "Ocaqulu" kimi. Biz Türk ola-ola mən güman eləmirəm ki, bizim təbiətimizdə qulluq və ocaqlıq olsun. Bu adlar da bizə ərəblərdən qalmadır. Din-islamın intişarından qabaq ərəblər bir xeyli allah və ilahələrə iman edirdilər. Bunların ən böyüyü yeri və göyü xəlq edən idi ki, adına "Allah-taala" deyirdilər...

İslamiyyət "Allah-taala"nın sifətlərini artırdı. Bu da kişi adlarına sirayət etməmiş olmadı: "Əbdülkərim", "Əbdüləzim", "Əbdüləziz", "Əbdülbaqi" kimi bir xeyli yeni adlar əmələ gəldi. Bu yolda ərəbləri təqlid etmək, şiəlik aləmində daha da tərəqqi edib ifrata üz qoydu: "Əbdüləli, Qulaməli, Əliqulu", "Əbdülrza, Qulamrza, Rzaqulu", "Əbdülhüseyn, Qulamhüseyn, Hüseynqulu"... kimi adlar icad olundu. Cahil mütəəssiblər bu yerə gəldilər ki, özlərini "Kərbəlayi", yəni Əlinin iti də adlandırdılar... Bəs bu alçaqlıq da bizə bizə bir xeyli qüsurlar ilə özgələrdən qalmadır. Ulu babalarımız oğullarına "Dağ", "Qaya", "Dəniz", "Gün", "Ay" və "Ulduz" kimi adlar qoyardılar. Onda adlarına müvafiq də şan və şərəf ilə ömür sürərdilər. O zamanlar türklük dağ kimi qüvvətli və qaya kimi möhkəm idi; fikirlər gün kimi parlaq, niyyətlər ulduzlar kimi yüksək idi".[1173]

Ona görə biz həmin türklərin övladlarıyıqsa, ən əvvəl lazımdır ki, özümüzü köləlikdən, qul olmaqdan xilas edək, yenidən Türklüyümüzə dönək və Türk törəsinə əməl edək. O, yazırdı:

---

[1173] Çəmənzəminli Y.V. Əsərləri. Üç cilddə. III cild. Bakı, Avrasiya-Press, 2005, s.346-347

"Dürüst düşünməlidir ki, biz insanlar qulluq üçün yaranmamışıq, şan və şövkət ilə ömür sürməyə gəlmişik. Bunu düşündükdə türklərə məlum olacaq ki, şan və ad ilə ömür sürmək meylində olan bir millət gərək mədəni olsun. Gərək, "fəqirlik", "yoxsulluq" və "alçaqlıq" kimi sözlərdən nifrət eləsin. Həmişə dövlətli, qüvvətli və salamat bir millət olmağa çalışsın; çünki təbiət qanunu zəiflik tərəfdarı deyil, zəif gərək fot olsun! İnsaniyyət sürətlə qabağa getdikdə zəiflər ancaq ayağa dolaşırlar; belə mənalar ortalıqdan götürülməlidir. Fəal və dünyaçı Avropanın tənbəl və axirətpərvər Şərqə axıb gəlməsi həmın təbiətin qanununa tabedir; parlaq ömürdən gözləri qamaşıb, dünyaya "darfəna" ad qoyanlar yox olunacaqlar!... Bir də deyirəm, mədəni olmalıyıq. Mədəniyyətdən savayı ayrı bir şey bizə nicat yolu ola bilməyəvək. Məzhəbbazlıq heç bir milləti xoşnicatlığa çıxarmadı, bizi də çıxartmayacaq. Bu yükün nə dərəcə batil olub, insanları fot olmağa məcbur etməyi gün kimi aşkardır. Dəlil istəyirsinizsə, din və kilsə tarixləri oxuyun. Məzhəbbazlıq yuvası olan İranın hal-hazırdakı zəlalətinə nəzər yetirin. Onda görəcəksiniz ki, məzhəbbazlıq nifaq və fəsadın çeşməsidir. Türk oğlu Türk olun!. Türklər heç vədə dünyanın şövkətli həyatından əl çəkib axirət yolu üçün çalışmayıblar. Həmişə ağalıq ediblər. Şanlı yaşayış üçün qılınc vurublar. Bu fikrin doğruluğunu Türk və İslamın düşmənləri belə inkar etmirlər. Böyük Volter deyir: "Türk həyatında dini məsələ ilə üstdə baş vermiş bir qafilə görünməmişdir. Qafilə dursun kənarda, türk arasında dini müsahibə, bir üsyan, bir qarışıqlıq isə də tarixdə qeyd olunmayıb"".[1174]

O, "Studentlər" romanında isə həqiqi və yalanıçı millətçiliyi, milliyyətçiliyi təhlil etməyə çalışmışdır. Əsərin qəhrəmanlarından biri olan Rüstəmbəy əsil Azərbaycan türkü həm vətənpərvər, millətpərvərdir, həm də Türk törəsini gözləyən biridir. Eyni zamanda, o, sözdə millət, xalq adından danışanları deyil əsl millətpərvərləri müdafiə etməkdədir. Rüstəmbəy və Cəlal hesab edirlər ki, sözdə "millətpərəstlik" bir pərdədir ki, bəziləri bütün hiyləgərlikləri onun arxasında edirlər. "Din və millət adı daşıyan cəmiyyət

[1174]Yenə orada, s.347-348

və müəssisələrimiz al – "İslamiyyə mehmanxanası", "İslamiyyə limonadı", "Milli papiros"... Bunlar lotuluq deyilmi? Tacir pul qazanıb kef çəkmək üçün din və milləti əlində oyuncaq edir. Bakıda qoçular evlərində tələbə yurdu açır, hərəsi beş-on tələbəyə aylıq verir. Bu əxlaqsızlıqdır, yoxsa millətpərəstlik? Yoxsul gənclərin maddi vəziyyətindən istifadə edilərək, namusları ləklənir. Bu rüsvayçılıqlara millətpərəstlik deyirlər". [1175] Əli İbrahimliyə görə Yusif Vəzir yalançı millətpərəstlərin iç üzünü böyük ustalıqla aça bilmiş, onların şəxsi maraqları naminə hər cür fırıldaqlara əl atmasını doğru təhlil etmişdir.[1176]

Çəmənzəminlinin fikrincə, Türklüyə dönüşün bir yolu odur ki, milli və dini kimlik bir-birindən fərqləndirilməlidir. Bu mənada o, soydaşlarına deyirdi ki, onlar milli mənsubiyyət baxımından müsəlman deyil, türkdürlər. Halbuki elələri tapılır ki, hətta ana dillərini də "müsəlman dili", milli komitələrini də "müsəlman komitəsi" adlandırır. Y.Vəzir yazırdı: "Qürbət bir şəhərdə oturub istəyirəm Vətənimizin halından xəbərdar olam. Bakı komitəsinin məlmatını əlimə alıram ("Kaspı"nin dal vərəqəsindədir), başlayıram öz-özümə danışmağa, suallar verirəm, özüm də cavabını axtarıram: 1) Niyə "Müsəlman" komitəsinin cəmi üzvləri türk ola-ola buna Türk komitəsi demirlər? Cavab: Bizdə hələ din ilə millət mənaları bir-birindən ayrılmayıb, biz hələ özümüzü tanımamışıq. Biz hələ həddi-büluğa çatmamışıq. Biz hələ köhnə yol ilə gedirik. 2) Niyə Türk komitəsinin məlumatı rus dilində verilir? Cavab: Bizdə milli dil qədri bilmək qabiliyyəti hələ yoxdur. Biz o qədər ruslaşmışıq ki, Nikolaydan sonra yenə köhnə işlərdən əl çəkə bilmirik. 3) Niyə biz öz adımızı bilmirik? Niyə özümüzə Türk deməyə ərinirik? Cavab: Yuxarıda söylədik ki,biz hələ özümüzü tanımamışıq ki, adımızı da bilək. 4) Niyə "Müsəlman" komitəsinin məlumatı zəmanəyə dair yazmır? Cavab: Məsələ aydındır...".[1177]

---

[1175]Çəmənzəminli Y.V. Romanları. Bakı, Azərb. SSR EA Nəşriyyatı, 1968, s.46
[1176]İbrahimli Əli. Yusif Vəzir Çəmənzəminli və milli məsələ.Bakı,"Qartal", 2002, s.53
[1177]Çəmənzəminli Y.V. Müstəqilliyimizi istəyiriksə... Bakı: Gənclik, 1994, s.15-16

Yusif Vəzirə görə milli kimliyimizin müsəlman deyil türk olmağını dərk etməyimiz üçün ilk növbədə, Türk dilinin qayğısına qalmalıyıq. Çünki ana dilin tənəzzülü millətin çöküşü deməkdir. Ona görə də hər kəs dilini sevməli, bu dildə danışmağı eyib yox, fəxr hesab etməlidir. Bu baxımdan osmanlı-türk ləhcəsinin bütün türklərin ortaq dili olması fikrinə qarşı çıxan Çəmənzəminli yazırdı: "Dilin birliyi üç-dörd adamın bir dildə yazmağı ilə olmaz: dil gərək işlənsin, mürurla gəlib birləşsin. Dil qayırmaq zəiflik sevməz, zor gücü də qəbul etməz. Dil öz kökü üstə bitər, qalxar, qol-qanad açar və bu asudəlik sayəsində də belə gözəl, zərif və geniş bir hala gələr ki, hamını heyran qoyar. Dilin kökü camaatımızın yaratdığı el ədəbiyyatındadır, gərək onlar toplansın, öyrənilsin, əzbərlənsin. Dil axtaran gərək camaatımızın arasında gəzsin, dolaşsın, öyrənə bilsin. Əsl dilimiz bazarlarda, xalqın toplandığı yerlərdə, tərəkəmə elinin içində danışılmaqdadır. Qələm sahiblərimiz buralara yönəlib bunları öz dilləri ilə danışdırıb yol göstərməkdənsə, özləri düz yoldan çıxıb, camaatı da avara qoymaq istəyirlər. Hərgah yazıçılıq etməkdən məqsəd fars və ərəb sözləri işlədib bilik satmaq isə, bu ayrı bir məsələdir. Yoxsa camaatın mənfəəti də mülahizə olunursa, gərək o camaatın başa düşdüyü bir dildə yazılsın ki, o da oxuyub, bundan bir hissə götürsün. Gərək yaddan çıxmasın ki, Azərbaycanda neçə milyon adam var və onların çoxu geridə qalıblar. Bu səbəbdən də gün-gündən əsir olub, əcnəbilərin ayağının altına düşürlər. Torpaqları, əkin yerləri əllərindən çıxır, ticarət gedir, sənətdən xəbərləri yox, milliyyət və tərəqqi nə olduğunu bilmirlər... Bu camaatı qaranlıqdan çıxartmağa ən əvvəl dil lazımdır ki, deyəsən: "Ay qardaş, uşaqlarını məktəbə qoy, əkin yerlərini satma, gözü açıq ol...". Bunları hansı dildə danışdırmalı ki, başa düşsün? Əlbəttə, camaatın öz dili ilə, Azərbaycan türkcəsində. Osmanlı dilini bunlar bilməzlər. Belə olan surətdə qəzet və jurnallarımızı osmanlı dili ilə doldurmaq camaata yol göstərmək olmayıb, onu yoldan çıxartmaq deməkdir. "Necə" sözü əvəzində "nasıl", "arvad" əvəzində "qadın", "ata" yerinə "baba" və ya "pədər" yazmaq millətin dilini dolaşdırıb, işini çətinləşdirmək-

dən savayı bir şeyə yaramır.Yaxşı olardı yazıçılarımız ata-baba dilimizə qayıda idilər. Onda mətbuatımız bir ovuc savadlının malı olmayıb, ümumin, yəni az savadlıların və heç savadı olmayanların da mənfəətinə qulluq edərdi".[1178]O, Osmanlı türkcəsinin Azərbaycan xalqının ədəbi dilinin olmasının əleyhinə çıxsa da, ümumilikdə Azərbaycan və Türkiyə xalqlarının eyni dilə, soykökə, mədəniyyətə sahib olmalarını da dəfələrlə ifadə etmişdir. Sadəcə olaraq, Yusif Vəzir doğru yazırdı ki, İstanbul şivəsini anlamaq Azərbaycan türkləri üçün çox çətindir. Bu baxımdan o, ən yaxşı variant kimi xalqın anladığı bir dildə yazıb oxumağı uyğun görmüşdür.

Yusif Vəzirin türkçülük görüşləri ilə bağlı milli kimlik, milli dil, milli mədəniyyət, milli birlik və digər məsələlərə baxışı doğru və dəqiq olmuşdur. Hər halda, o, Şuşada, Aşqabadda, Daşkənddə, Ağməsciddə, Ürgəncdə, İstanbulda, Bakıda və digər Türk şəhərlərində yaşayan bir ziyalımız olaraq ümumtürk problemlərini dərindən anlamışdır. Bu baxımdan Yusif Vəzirin türkçülük məsələsini dərindən anlamaqla yanaşı, M.Ə.Rəsulzadə, N.Yusifbəyli və digər aydınlarımız kimi müstəqil Türk dövlətlərinin yaranmasından yana olması doğru bir seçim olmuşdur. Başqa sözlə, Yusif Vəzir bir tərəfdən müstəqil Türk dövlətlərini və onların özlərinə məxsus dəyərlərini qəbul etməklə yanaşı, ümum Türk birliyinə də müsbət yanaşmışdır.

**Müstəqil Azərbaycan Türk dövlətçiliyi ilə bağlı görüşləri.** Yusif Vəzir Azərbaycan türklərinin, Azərbaycan xalqının müəyyən bir fasilədən sonra yenidən müstəqil dövlət yaratmasının səbəblərini də göstərmişdir. Onun fikrincə, böyük bir ərazidə yaşayan, dili bütün yad tayfalar üçün belə ortaq dilə çevrilən, eyni zamanda ədəbiyyatı, musiqisi, operası, teatrı olan bir camaat , yəni Azərbaycan xalqı da "millət" adını daşımağa haqlıdır.[1179] O, yazırdı ki, Azərbaycanın dövlət dili də Türk dili olmalıdır. Çünki Azərbaycanın əhalisinin çoxu türkdür.[1180]

Çəmənzəminli milli-demokratik cərəyanın tərəfdarı kimi Azərbaycan Cümhuriyyətinin qurucusu, dövlət başçısı M.Ə.Rəsul-

[1178]Çəmənzəminli Y.V. Əsərləri. Üç cilddə. III cild. Bakı, Avrasiya-Pres, 2005, s.338
[1179] Yenə orada, s.349
[1180]Yenə orada, s.229

zadənin milli istiqlal yolunu tutmuş, onun milli dövlətçilik ideyasını dəstəkləmişdir. O, 1917-ci ilin noyabrında Kiyevdə qələmə aldığı “Azərbaycan muxtariyyəti” məqaləsində Azərbaycan türklərinə müraciət edərək yazırdı: “Böyük ölkə bir-birinə dəyir: Rusiyanın qiyaməti qopur. Geniş bir dövləti mərkəz bir orta idarəyə qadir deyil. Hökumətə gündə bir adam daxil olub, biri çıxır. Sabit idarə yox, nizam yox, qayda yox, əmin-amanlıq yox. Güclü gücsüzü döyür, əzir və təhqir eləyir; abır və namus ara yerdə gedir. Başsızlıq gün-gündən ölkəni ağzına alır; nahaq qanlar tökülür, abadanlıqlar talan olur. Bu hal getdikcə şiddət eləyir və eləyəcək, aləm viran olur və olacaq. Rusiya hökumətindən cəmi millətlər ümidini çəkib öz başını öz ətəginə bükməyə başlayır. Rusiya millətləri hərə öz cəmiyyət və şuraları ilə idarə olunmağa üz qoyur, qoşun toplayırlar. Hər millət öz fərdini axtarıb tapır; əl-ələ verib camaatın halına qalır. Çünki milli himmətdən savayı özgəsi milləti bu dəhşətli zamanda müdafiə eləyə bilməz!”.[1181]

Yusif Vəzirə görə Qafqazda sayca üstün, mal-dövlətcə varlı olan Azərbaycan türklərinin indiyə qədər ciddi formada Mərkəzi Şurasının, Milli idarəsinin olmaması qəbuledilməzdir. O, yazırdı: “Ey nəcib Türk milləti, ayıl! Bir rəşadətli balalarını balalarını yad et! Şan və şövkət ilə ömür sürülməlidir. Köhnə rus məmurlarının çəkməsi altında tapdalandığın kifayət edər. Ayılın, toplaşın! Rusiyanın siyasi həyatı yeni bir dairəyə girir. Rusiyada yaşayan millətlər üçün tarix yeni bir səhifə hazırlayır. Ədəmi mərkəziyyət binası qurulur. Ölkə federasion üsulu ilə idarə olunmaq istəyir. İndiyə kimi Peterburq hər millət üçün qanun yapıb, əmrlər veriyordu, imdi isə qanunları millətlərin milli məclisləri yazacaq. Hərənin öz malı, öz dövləti, öz səadəti özünə məhvəl olacaq”.[1182]

Çəmənzəminli marksizm-leninizmin Azərbaycandakı nümayəndələrinə, yəni yerli bolşeviklərə üz tutaraq deyirdi ki, milli qüvvələrin istiqlal ideyasına qarşı çıxmasınlar: “Ey hümmətçilər! Ukraynanın cəmi firqələri ittifaq edib. Ukrayna muxtariyyətini yapdı-

[1181]Çəmənzəminli Y.V. Müstəqilliyimizi istəyiriksə... Bakı: Gənclik, 1994, s.23
[1182]Yenə orada, s.23-24

lar. Muxtariyyət olmasa, ölkə başsızlıq bəlasından xilas olmasa, orada firqə həyatı da olmaz. Bəs əqidə davası eyləmək zamanı deyil. Mərkəziyyəti öldürüb, yerində ədəmi-mərkəziyyət payidar edilməlidir. Milli idarə qoy çöl tərəfdən düzəlsin, sonra içini düzəltdikdə mübahisə edərik".[1183]

Yusif Vəzir milli dövlətçiliyin yaranmasında "Müsavat"ın rolunu görür və gəncləri bu siyasi quruma yardım etməyə çağırırdı: "Ey cavanlarımız! Eyş-işrət zamanı deyil! Hər millətin cavanları millət üçün imarətlər yapırlar. Gecə-gündüz çalışırlar. Məgər siz onlardan əskiksiniz? Onlarda olan zor, qüvvə sizdə də var. Rəşadət və cürətdə siz onlardan da irəlidəsiniz. Böylə olduqda bəs sizin səsiniz niyə gəlmir? Niyə Azərbaycan türklərinin bayrağını uca tutmursunuz? Ey cavanlar! Cəmi millətlər sizin işə diqqətlə baxır. Sizdən qeyrət gözləyirlər. Bəs siz haradasınız? Ədəmi-mərkəziyyət fikrinin başında toplaşın: "Müsavat" firqəsinə yazılın! Yatmışları oyadın. Onları federasion nuru ilə işıqlandırın! Durmaq zamanı deyil. Bir mərkəzə tabe Rusiya uçurum qarşısında durub, bizi də çəkib aparmaq istəyir. Məmləkəti bu haldan qurtarın; onun idarə ixtiyarının bir hissəsini Qafqaza gətirib öz əlinizə alın".[1184]

O, üzünü Türk ziyalılarına tutaraq yazırdı ki, Qafqazın böyük və bərəkətli bir qismi Azərbaycan türklərinindir: "Burada torpağın və mülkün çoxu bizim, dövlət bizim, onda yaşayan millətin çoxu bizim, danışılan dil bizim, ruhumuzu bəsləyən musiqi və ədəbiyyat bizim... Bəs Allahın o gözəl nemətindən niyə üz döndərirsiniz? Cürət ediniz iş görünüz! "Müsavat" şöbələrini hər şəhər və kəndlərə yayınız! Durmaq zamanı deyil; bir az səbr eləsəniz, gözəl ölkəmiz fot (puç) olub əldən gedər!".[1185]

Yusif Vəzir bəylər, xanlar, mülkədarlara da müraciət edərək deyirdi ki, Azərbaycan muxtariyyəti onları uçurub-dağıtmaq fikrində deyil. O, yazırdı: "Muxtariyyət uçurmaq üçün yaranmayıb, bəlkə yaratmaq və bina etmək üçün yaranıb. Muxtariyyət onun

---

[1183]Yenə orada, s.24
[1184]Yenə orada, s.24-25
[1185]Yenə orada, s.25

üçün düzəlir ki, dərəbəyilik zamanında millətin mal və canı sağ və salamat qalsın. Muxtariyyət onun üçündür ki, namusumuz ayaqlar altına düşməsin. Ey türklər! Qars-Ərdahan müsibətləri, Urmu, Qəsri-Şirin və qeyri yerlərin talanı sizə bunu öyrətdi ki, başsız və pərakəndə milləti hər yetən döyür, incidir və öldürür. Zəmanə böylə xarab zəmanədir ki, ağlamaqla, göz yaşlarına qulaq asan olmur. Zəmanə iş zəmanəsidir. Məgər neçə milyon türkün gücü yoxdur? Güc var. Ancaq dağınıq gücdür. Böylə güc faydalı olmaz. Toplanıb cəmi gücümüzü təşkilata tabe etməliyik. Ədəmi mərkəziyyət qayəli Azərbaycanda bir idarə yaradılmalıdır ki, Dağıstan, Bakı, Gəncə, İrəvan, Batum və Qars vilayətlərindəki türklər mal və namusunu mühafizə eləsin. Həm hal-hazırda, həm gələcəkdə asudə və səadətli yaşamağını təmin eləsin”.[1186]

Ona görə Azərbaycan türkləri bir millətdən ibarət olub, geniş torpağa malik olduğu üçün muxtariyyət binası qurmaq istəyir. O, yazırdı: “Ölkəmizin sərhədi Dərbənd şəhərindən tutmuş Osmanlı məmləkətinə qədər və Batumdan tutmuş Xəzər (Kaspi) dənizinin qiblə tərflərinədəkdir. Paytaxtımız Bakı şəhəri olacaq. Çünki bu şəhər bizə həmişə yol göstərib və bizə kömək əli uzadıb. Bakı şəhərində millət məclisi qurulacaq və bu məclisə Azərbaycanın hər bir guşəsindən camaat vəkilləri göndəriləcək. Vəkillər o məclisdə camaatın dərdlərini və diləklərini bildirəcək və ona görə əlaclar ediləcək. Millət məclisi Azərbaycanımız üçün qanunlar yazacaq, biz də ona əməl edəcəyik. Millət məclisinin buyruqlarını yerinə yetirmək üçün milli hökumətimiz olacaq. Millətə lazım olan tədbirləri millət vəkilləri tökəcəklər və əmələ gətirmək üçün milli hökumətə veriləcək. Milli hökumətimiz bizim malımızı, canımızı, namusumuzu hifz eləmək üçün var qüvvəsilə çalışacaq”.[1187]

Yusif Vəzirə görə millətin varlığı üçün milli marş, milli nəğmənin olması çox vacibdir. Bu baxımdan o, hesab edirdi ki, milli nəğmə də zəruri məsələlər cərgəsinə gələ bilər: “Bunu bizim köhnə fəallarımız da beləcə düşünmüşdülər. Zərdablı Həsən bəy

[1186]Yenə orada, s.25-26
[1187]Yenə orada, s.28

"Milli nəğmələr" məcmuəsini əmələ gətirmişdi. Lakin ümurət qazanan bir şərqi imdiyədək ortalığa çıxmadı. Şərqisiz də bizim siyası coşğunluğumuz və milliliyimiz ortalığa çıxmır. Hər bir millətin özünəməxsus bir milli nəğməsi var. O nəğmə oxunduqda millət fərdlərinin ruhu ucalır. Mübarizə edib öz xalqını mühafizə etmək xahişi artır. Bizimsə bu nəğməmiz yoxdur. Odur ki, milli sərxoşluğumuz və nəşəmiz də yoxdur. Düşməni yıxmaq üçün də milli sərxoşluq lazımdır. Bolqarlar "Şumey murpeçə" nəğmələrini oxuduqda intiqam hissi ürəyi dəlir. "İşşənəvimala Ukrayna" şərqisi adamda elə qüdrətli birlik doğurur ki, doğrudan da Ukraynanın həmişə diri qalıb səadətdə yaşamağına iman edirsən... Bizim hələ milli nəğməmiz yoxdur. Biçarə cavanlarımız milli hiss coşğunluğunda bilmirlər nə oxusunlar. Kiyevdə inqilabın əvvəl günləri təntənəli nümayişlər yapılanda tatarlar "sübhanallah" oxuyurmuşlar. Bizim studentlər isə nəğməsizlikdən nümayişi sükut içində keçiriblər. Bizə milli şərqi lazımdır. Bu da bu saatın məsələsidir. Milli şərqi bizim yatmış hisslərimizi oyadar. Bu şərtlə ki, məzmunu və havası ayıq olsun, oxunduqda "Segah" kimi ruhumuzu boaşaltmasın. Milli tərəqqi əmələ gətirmək üçün şairlərimiz və musiqişünasımız Ü. Hacıbəyov cənabları çalışmalıdırlar".[1188]

O, Cümhuriyyətin müstəqilliyi dövründə qələmə aldığı "Xarici siyasətimiz" məqaləsində yazırdı ki, bugünkü Azərbaycan ən sağlam vücuda malikdir. Ona görə burada tam əksəriyyəti təşkil edən isə Azərbaycan türküdür: "Bu millətin özünəməxus mədəniyyəti var. Mədəniyyətimiz o qədər qüvvətlidir ki, bizdən başqa qonşularımızı təsir altında saxlayıb və saxlamaqdadır. Dilimiz Qafqazda, Xəzər arxasında və Şimali İranda ümumi bir dildir. Bu dildə Dağıstan qövmləri, ermənilər, bir çox gürcülər və rus mühacirləri danışırlar; musiqimizdən və teatromuzdan qonşularımız da faydalanırlar. Milli operamız vətəndən dışarılarda da şöhrət tapmağa başladı... Bu hallar mədəniyyətimizin qüvvətliliyinə dəlildir. İndiyə kibi biz məhkum idik, lakin mədəniyyətimiz hakim idi. Yəni qeyri-məcburi olaraq qonşularımız arasında yayılırdı.

[1188]Yenə orada, s.21

Bundan sonra ehya olunmuş istiqlaliyyətimiz sayəsində mədəniyyətimiz geniş meydan alacaqdır. Böyük Türk irqinə mənsub olduğumuz üçün Türk idarəsinin ədalətini saxladıq; bu gün vətənimizdəki xırda millətlər bizim ilə bərabər yaşamaqdadırlar, bunların hüquqları heç bir qanunla təhdid olunmuyub və olunmayacaqdır. Hökumətimiz ədalət hökmranlığını daimi surətdə təmin etməyə çalışmalıdır".[1189]

O, yazırdı ki, dünyada ən böyük qüvvələrdən birisi isə əfkari-ümumiyyədir. Topdan, tüfəngdən zirehlilərdən də bu qüvvə böyükdür. Odur ki, hər kəs istər ki, bu qüvvəni əlində saxlasın. İstər məhkum, istər hakim. Hökumətlər rəsmi qəzetlər nəşr etməyi və ajansi-teleqraflar ilə əfkari-ümumiyyəni öz tərəfinə çəkmək istəyir. Məhkum millətlər bu yolda daha da çox çalışırlar. Əfkari-ümumiyyəni qazanmaq üçün məhkumların hərəkətləri bəzi vaxt qəribə hallar alır. Avropa şəhərlərindən birində bir erməninin bir çocuğa güllə atdığını qəzetdə oxumuşdum. Ermənidən cinayətin səbəbini soruşduqda demişdi: "Bu cinayət ilə erməni cocuqlarının halından sizi xəbərdar eləyirəm, onları osmanlıda qırırlar". İştə əfkari-ümumiyyə cəlbi üçün qəribə bir hərəkət, lakin bu, adətdənkənar bir işdir. Amma bunun ilə də istifadə edirlər".[1190]

O, həmin məqaləsində Qacarlar dövləti, Ermənistan və Gürcüstanla Azərbaycan Cümhuriyyətinin münasibətlərindən də bəhs etmişdir. Y.Vəzir yazırdı ki, Qacarlar dövlətinin rəhbərliyinin Azərbaycan Cümhuriyyətinin varlığına narahatçılıqla yanaşmasının əsası yoxdur. Çünki Azərbaycan dövlətinin hədəfində Təbriz və ətrafını özündə birləşdirmək deyil, mövcud sərhədləri çərçivəsində yaşamaqdır. O, yazırdı: "Dövlətimiz Azərbaycan adlandığı üçün sui-təfhümlərə səbəb oldu. Halbuki Təbriz əyalətinin, yəni İran Azərbaycanının İranın olub-olmaması barədə ortalıqda heç bir məsələ yoxdur. İranın haqqına təcavüz etmək fikrində deyilik,

---
[1189]Yenə orada, s.45
[1190]Yenə orada, s.51

olmamışıq və olmayacağıq. Bizim tərəqqi və istirahətimizi təmin edən yalnız qonşularımız ilə dostluğumuz olacaqdır".[1191]

Yusif Vəzir hesab edirdi ki, Gürcüstan ilə dostluğumuz isə ən təbii bir haldır. O, yazırdı: "Şimalda rus qorxusu və cənubda ola biləcək intriqalar gürcülər ilə azərbaycanlıları kip dostluğa məcbur edir. İki müstəqil dövlət üçün də hürriyyətlərinə təcavüz edən qüvvələrə qarşı bir hazırlıq lazımdır. Bu dövlətlər hücum üçün deyil, müdafiə məqsədilə birləşdilər və əqd yapdılar. Bu əqdin sabit qalacağına əminik. İki dövlət arasında olan dostluğun yalnız faydaya bağlı olduğunu söyləmişdik. Gürcüstan-Azərbaycan dostluğunun iki tərəf üçün də böyük faydası var. Şübhə ola bilməz ki, həm Gürcüstan, həm də Azərbaycan müstəqil yaşamaq istəyir. Böylə olduqda Gürcüstan üçün bir qorxu baş versə, axırda xətəri Azərbaycana da toxunacaq. Bu iki məmləkətin hürr yaşaması bir-birinə bağlıdır. Biri asudəliyini itirərsə, o biri də itirmək məcburiyyətində bulunar. Qafqazın dağlarını Qara dəniz iləXəzər dənizi arasında mütəfiqqə müdafiə etməliyik. Açıq dənizə yolumuz olmadığı üçün ölkəmizin mal ixrac və idxalını Gürcüstan yolu ilə edəcəyik. Dost bir ölkə bu yolda bizə bizə maneələr təşkil etməyəcək və ya ağır şərtlər qoymayacaq".[1192] Ermənistanla münasibətlərə gəlincə, o yazırdı ki, ermənilər uydurma "Böyük Ermənistan" iddiasından əl çəkərlərsə o zaman Azərbaycanla normal münasibətlərin qurulması da mümkün olacaqdır.[1193]

Beləliklə, Yusif Vəzirin Yusif Vəzirin müstəqil Azərbaycan Türk dövlətçiliyi ilə bağlı görüşləri türkçülük çərçivəsindən kənara çıxmamışdır. Belə ki, o, müstəqil Türk dövlətlərinin olması və onların bərabərhüquqlu şəkildə əməkdaşlıq etməsinin tərəfdarı olmuşdur. Ən əsası odur ki, Çəmənzəminli müstəqil bir Türk dövləti kimi Azərbaycan Cümhuriyyətinin həm daxili, həm də xarici siyasəti ilə bağlı məqalələr yazmış, bununla bağlı fikirlərini təhlil etməyə çalışmışdır. Hər halda Yusif Vəzirin Cümhuriyyətin daxili və xarici siyasəti ilə

[1191] Yenə orada, s.56
[1192] Yenə orada, s.58
[1193] Yenə orada, s.57-58

bağlı gəldiyi nəticələr, mülahizələr olduqca önəmli olub, bu gün də aktuallığını qoruyub saxlamaqdadır.

**İslamçılıq ya da dini görüşləri.** Y.V.Çəmənzəminli hesab edirdi ki, Azərbaycan Türk mütəfəkkirləri arasında din probleminə münasibətdə Türk ictimai fikir tarixində yenilikçi ruh M.Ş.Vazeh, Q.Zakir, M.F.Axundzadə, S.Ə.Şirvani, H.Zərdabi, M.Ə.Sabir və başqaları ilə başlamışdır. Belə ki, bu mütəfəkkirlər ilk dəfə, dini xurafat və mövhumata, yalançı ruhanilərə qarşı daha kəskin tənqidi mövqe tutmuşlar. Başqa sözlə, XIX əsrdən başlayaraq Azərbaycan Türk mütəfəkkirləri dini sxolastikadan, ilahiyyatçı düşüncə tərzindən müəyyən qədər uzaqlaşaraq dünyəviliyi müdafiə etmişlər. Çəmənzəminli yazırdı ki, Axundzadəni, Zakiri və başqalarını məşğul edən millətə nifaq salan mollanümalar, xalqı cəhlilə qırıb öldürən həkimlər, şərarəti özünə sənət edən xainlər, oğrular, əyrilər olmuşdur. Axundzadələr, zakirlərdən sonra dinə münasibətdə daha obyektiv mövqe tutan, dini xurafat və mövhumatı açıb göstərənlərdən biri milli şairimiz Sabir olmuşdur. O, yazırdı: "Sabir riyakar zahidlərilə daima düşmən idi. Millətin qəflətdə yaşamasını onlara istinad edirdi. Zahidlər də Sabiri təfkir etməkdən çəkinmirdilər".[1194]

Onun fikrincə, müsəlmanla Allah arasındakı münasibətə qarışan, möminləri İslamın əsil mahiyyətindən uzaqlaşdıran riyakar ruhanilər elə şərait yaradıblar ki, heç kəs cəsarət edib onların doğru olmayan sözlərinə qarşı fərqli, əks söz də deyə bilmirlər. Çəmənzəminli yazırdı: "Bir müsəlman cəmiyyətinin məclislərinə gedərdim. Otağın yuxarı tərəfində həmşə iki molla oturardı və onlardan aşağı sağ və sol divarların qabağındakı döşəkcələrin üstündə cəmiyyətin qeyri-üzvləri əyləşərdilər. Bir məsələ müzakirəyə qoyulduqda ən əvvəl, əlbəttə, molların rəyi sual olunardı. Bunların hərəsi öz rəyini bildirərdi. Qeyri üzvlərə gəldikdə biri öz fikrini bəyan etməyə cürət etmirdi".[1195]

"Bunun səbəbi nədir ki, yazıq üzvlər fikirsiz, şəxsi rəysiz, cəsarətsiz qul halına gəliblər?"- deyə sual edən Çəmənzəminli özü

[1194]Çəmənzəminli Y.V. Əsərləri. Üç cilddə. III cild. Bakı, Avrasiya Press, 2005, s.142
[1195] Yenə orada, s.340

buna belə cavab verirdi ki, İslamın mahiyyətini dərindən bilməməyimiz, eləcə də "böyük dura-dura kiçik danışmaz" kimi ev tərbiyəmiz biz türkləri bu hala gətirib çıxarmışdır. Onun fikrincə, milli-dini adət-ənənələrimizdən uzaqlaşmağımızın nəticəsidir ki, indi sözün həqiqi mənasında müdriklər deyil, hansısa təsadüfi "mollalar" və "ağsaqqallar" məclislər də baş tərəfdə otururlar. Bu baxımdan o, sözünün doğruluğunu isbat etmək üçün yazırdı ki, bir müsəlman məhəlləsinə gedin, oturun otağın bir guşəsində qapıdan girənə diqqət yetirin: "Molla içəri girən kimi gedəcək yuxarı başa. O ki qaldı qeyri adamlara, bunlar otağa daxil olduqda, bir az duruxacaqlar. Bilirsiniz, duruxanda nə fikir eləyirlər? Özlərinə yer axtarırlar. Məclisin yuxarı başı (mollanın ətrafı) həmişə boş olar, lakin oraya getməyə cürət etməzlər: orada "böyük" oturar".[1196]

Çəmənzəminli hesab edirdi ki, müsəlmanlar dünyəvi elmləri öyrənmədikləri, nadan qaldıqları müddətcə ruhanilər və despotik şahların əllərində oyuncaq olacaqlar. Onun fikrincə, bundan qurtumaq üçün müsəlmanlar, o cümlədən Azərbaycan türkləri elm və mədəniyyət arxasınca getməlidirər. O, yazırdı: "Mədəniyyətdən savayı ayrı bir şey bizə nicat yolu ola bilməyəcək. Məzhəbbazlıq heç bir milləti xoşnicatlığa çıxarmadı, bizi də çıxarmayacaq. Bu yükün nə dərəcə batil olub, insanları fot olmağa məcbur etməyi gün kimi aşkardır. Dəlil istəyirsinizsə, din və kilsə tarixlərini oxuyun. Onda görəcəksiniz ki, məzhəbbazlıq nifaq və fəsadın çeşməsidir".[1197]

O, ümumilikdə dində islahatın aparılması fikrini qəbul etmirdi. Çəmənzəminli yazırdı: "Bəzi mütəfəkkirlərimizin "müsəlman Lüteri" gözləməsi də yaxşı fikir gərək olmasın. Özündən müştəbeh olmuş bir divanə çıxıb yeni bir məzhəb icad etməsindən başqa Lüter məsələsi ayrı işə müvafiq ola bilməz. Mühüm bir Lüter axtarıb ona tabe xəyalında olunca, yaxşı deyilmi hər bir dolaşıq dini və milli məsələlərimizi zəmanəyə və ağıla müvafiq özümüz həll edək?".[1198] O, daha sonra yazırdı: "Ey dini firqələr! İslamiyyəti hər

---

[1196] Yenə orada, s.340
[1197] Yenə orada, s.347
[1198] Yenə orada, s.348

şeydən qabaq tutursunuz. Bizim dediyimiz sizin əqidəyə zidd deyil. Əlimizdə milli idarə olsa, din şərafəti də artar. Köhnə idarə tərəfindən dinimiz hər an, hər dəqiqə təhqir olunurdu. Yeni idarə üçün çalışılmalı ki, tahı bir də o qədim vaxtlar geri qayıtmasın”.[1199] Onun mülahizələrindən belə anlaşılırdı ki, ümumiyyətlə tamamilə dindən imtina edilməsə də, ancaq dini siyasi həyatdan uzaqlaşdırıb məscidlərdən kənara çıxmasına yol verilməməlidir.

Bu prizmadan Azərbaycan Cümhuriyyəti dövründə Çəmənzəminli yazırdı ki, Türk-Müsəlman aləmində Azərbaycan xalqı milli və dini kimliyini dövlət səviyyəsində müəyyənləşdirmiş, ölkənin idarə olunmasında şəriətə deyil, dünyəvi qanunlara, yəni sekulyar dövlət quruluşuna üstünlük vermişlər: “Burada Rusiya və Avropada məşhur olan qanun məhkəməsi daha da ədalətli şəkildə qoyuldu. Millətlər, cinslər və siniflər bərabərliyi də felən tanındı”.[1200] Bir sözlə, Azərbaycan Cümhuriyyətinin dinə münasibəti dünyəvi modellə üst-üstə düşmüşdür.

Ümumilikdə, Çəmənzəminlinin dinə münasibəti ondan ibarət idi ki, bu məsələdə etiqad azadlığı olmalıdır. Yəni heç bir fərd inancına görə hər hansı təzyiqə və zorakılığa məruz qalmamalı, ölkədə dini dözümlülük hökm sürməlidir. O, yazırdı: “Çünki din insan ilə Allahın əlaqəsinə dair bir şeydir. Din müqəddəs bir yoldur ki, insanın gizli sirlərini, dua və diləklərini Allahın hüzuruna aparır. Bu yolu hərə özünə bir növ təsəvvür edir. Din bir aləmdir ki, oraya dünya qanunlarının qarışmağı lazımsızdır. Allah ilə insanın arasına girmək insanın azadlığına xətər yetirir”.[1201]

Deməli, Çəmənzəminli ictimai-siyasi görüşlərində əsasən türkçülüyü və müasirliyi müdafiə etmiş, milli dövlət tərəfdarı olmuşdur. Xüsusilə, o, Sovet Azərbaycanında yaşayana qədər türkçülük və yeniləşmə məsələsində dəyişilməz mövqe sərgiləmiş, islamçılığa isə bir qədər fərqli yanaşmışdır.

---

[1199] Çəmənzəminli Y.V. Müstəqilliyimizi istəyiriksə... Bakı: Gənclik, 1994, s.24

[1200] Yenə orada, s.256

[1201] Yenə orada, s.222

**Ümumiyyətlə**, Çəmənzəminlinin fəlsəfi və ictimai-siyasi görüşlərində bəzi hallarda ziddiyyətlər müşahidə olunur. Onun Çar Rusiyası və Azərbaycan Cümhuriyyəti dövründə ictimai-siyasi və fəlsəfi baxışlarında türkçülük, yeniləşmə ideyaları ön planda olmuş, islamçılığa isə loyal mövqedən yanaşmışdır. Ancaq Cümhuriyyətin süqutundan sonra Avropada yaşayan və daha sonra zorla sovetləşdirilmiş Quzey Azərbaycana dönən Çəmənzəminli islamçılığa münasibətdə daha radikal mövqe tutmaqla yanaşı, "azəriçilik" nəzəriyyəsini təbliğ etmişdir. Onun Sovet Azərbaycanı dövründə təbliğ etdiyi "azəriçilik" nəzəriyyəsi türklüyə əsaslansa da müəyyən qədər qüsurlu olmuşdur. Belə ki, Azərbaycan dövlətinin adından qaynaqlanan "azəriçiliy"ə əsasən antik dövrdə mövcud olmuş mağların təlimini zərdüştlüklə əlaqələndirmiş, qədim Azərbaycan xalqının dini-fəlsəfi təliminin də atəşpərəstlik olduğuna inanmışdır. Doğrudur, o bu zaman zərdüştlüyün farslara aid olmadığını, ancaq Midiyanın süqutundan sonra onlar tərəfindən təhrif olunduğunu iddia etmişdir. Bu baxımdan onun qədim dövrdə Azərbaycan xalqının fəlsəfi-ictimai fikir tarixini araşdırlmağa yönəldilmiş tədqiqatlarında muğlar və ona aid etdiyi zərdüştlük mühüm yer tutmuşdur.

Bütövlükdə, bəzi yanlışlara baxmayaraq Çəmənzəminlinin Türk dünyagörüşünün, Türk fəlsəfəsinin, Türk mədəniyyətinin dirçəlişində xeyli payı olmuşdur. O, Türkçülük və Azərbaycanın milli istiqlalı məsələsində səmimi olmuş, bu yolda uzun müddət mücadilə vermişdir. Doğrudur, Sovet Rusiyasının işğalı altında olan Quzey Azərbaycana döndükdən sonra bu məsələlərdə müəyyən düzəlişlər etmək məcburiyyətində qalmışdır. Ancaq Yusif Vəzir hər nə qədər türkçülük və Azərbaycın milli istiqlalı məsələsində müəyyən qədər fikirlərində dəyişikliklər etmək məcburiyyətində qalsa da, Sovet Rusiyasının repressiyasından qurtula bilməmişdir.

# ÜZEYİR BƏY HACIBƏYLİ

**Həyat və yaradıcılığı.** Azərbaycan Türk mütəfəkkiri Üzeyir Hacıbəyli (1885-1948) Ağcabədidə dünyaya gəlmiş, ilk təhsilini Şuşadakı ikisinifli Rus-Türk məktəbində almışdır. Qori Müəllimlər Seminariyasında (1899-1904) təhsilini davam etdirən Hacıbəyli 1904-cü ildə Cəbrayıl qəzasının Hadrut kəndindəki məktəbdə rus dili, hesab, tarix və musiqidən dərs demişdir. Çarlıqda baş vermiş 1905-ci il inqilabı ərəfəsində Bakıya gələn Hacıbəyli "Səadət" məktəbində müəllim işləmiş, eyni zamanda "Həyat" qəzetinin tərcüməçisi, "İrşad" qəzetinin isə əməkdaşı olmuşdur. 1907-ci ildə Bakıda "Hesab məsələləri" və "Mətbuatda İstifadə olunan Siyasi, Hüquqi, İqtisadi və Əsgəri Sözlərin Türki-Rusi və Rusi-Türki Lüğəti"ni nəşr etdirmişdir.

O, 1911-ci ildə musiqi təhsili almaq üçün Moskvaya getmiş, Moskva filarmonik cəmiyyəti nəzdində İlyinskinin xüsusi musiqi kursunda təhsil almışdır. Maddi ehtiyac üzündən Ü.Hacıbəyli Moskvada musiqi təhsilini yarımçıq qoyub Bakıya qayıdaraq burada yazdığı operaları səhnəyə qoymaqla məşğul olmuşdur.

Cümhuriyyətin quruluş və inkişafında yaxından iştirak etdiyi üçün 27 aprel işğalının ilk illərində bolşevizm repessiyası ilə üzüzə qalmış, yalnız yaxın qohumu H.Terequlov və N.Nərimanovun sayəsində bu təhlükə sovuşmuşdur. 1921-ci ildə Bakıda Azərbaycanlı tələbələr üçün ilk musiqi məktəbini – Azərbaycan Dövlət Türk Musiqi Məktəbini (sonralar texnikum) təşkil etmişdir. 1926-cı ildən Azərbaycan Dövlət Konservatoriyasında fəaliyyət göstərən Hacıbəyli burada nəzəriyyə, harmoniya,Azərbaycan Türk musiqisinin əsasları fənlərindən dərs demiş, konservatoriya yanında ilk çoxsəsli Azərbaycan Türk xor kollektivi yaratmışdır. O, 1927-ci ildə Müslüm Maqomayevlə birgə ilk "Azərbaycan Türk el nəğmələri" məcmuəsini nəşr etdirmişdir. 1931-ci ildə Azərbaycan Radio Komitəsi yanında ilk notlu xalq çalğı alətləri orkestri təşkil etmiş,

1937-ci ildə ən məşhur operalarından olan "Koroğlu"nu yazmışdır. O, 1948-ci ildə Bakıda vəfat etmişdir.

**İctimai-siyasi görüşləri.** Onun dünyagörüşündə sosial-demokratizm, milli demokratizm, yəni müasirlik, türkçülük və islamçılıq ideyaları mühüm yer tutmuşdur.

**Sosial-demokratizm.** XX əsrin ilk on illiyində, yəni milli ideya xəttinin birmənalı olaraq ortaya çıxmadığı bir dövrdə Hacıbəyli bəzi ziyalılarımız kimi çarizmə qarşı mübarizə aparan cərəyanlar arasında tələb və məramına görə sosial-demokratizm təliminə meyil göstərmişdir. Xüsusilə də, 1-ci Rusiya inqilabi illərində (1905-1907) Hacıbəylinin yazılarında müəyyən qədər də olsa, "sosial-demokatizm"ə meyil hiss olunur. Məsələn, o, məqalələrində solçu "sosial-demokrat" firqəsinə digər təşkilatlardan daha çox üstünlük vermişdir. Onun fikrincə, sosial-demokratlar oktyabristlərdən, kadetlərdən, sosialist-inqilabçılardan və başqa təşkilatlardan fərli olaraq Dövlət Dumasında ən doğru yol tutmuşdur. Hacıbəyli yazırdı: "Tələb və məramca ən gözəl, ən yaxşı firqə "İctimaiyyun-amiyyun" (sosial-demokrat) firqəsidir ki, onun bütün tələbləri insanı valeh edir, başlıca tələbi isə nəyə desən dəyər! Bu tələb isə kasıb və dövlətlini bərabərləşdirmək, pul üzündən, var-dövlət fərqləri üzündən bu gün dünyada mövcüd olan paxıllığı, kin-küdurəti, ədavəti, qərəzkarlığı, nifrəti, yalanı, saxtakarlığı, riyakarlığı, dava-dalaşları, müharibələri və başqa bu kimi halları yox etməkdir".[1202] O, ilk dövrlərdə hesab edirdi ki, yalnız sosializm əqidəsi bütün insanların sosial və hüqüqi bərabərliyində yanadır: "Sosializm siyasi bir əqidədir ki, ona görə, dünya malını hamı adamlar arasında bərabərcə bölmək üçün indiki məişət və həyati-bəşəriyyəni dəyişdirmək lazımdır. Yəni bu əqidəyə görə, dünyada dövlətliliyi və kasıblılığı aradan götürüb, hamını iqtisadi cəhətcə bərabər etmək olar. Bunun üçün xüsusi və şəxsi mənafeyi aradan götürüb, əmək və zəhməti hamı arasında bərabər bölmək lazımdır ki, bunların məhsulatı da hamıya bərabər çatsın".

[1202] Hacıbəyli Üzeyir bəy. Dövlət Dumasının qurulması // Azərbaycan publisistikası antologiyası. Bakı, "Şərq-Qərb", 2007, s.528

Deməli, ilk dövrlərdə Hacıbəyli də bəzi mütəfəkkirlərimiz kimi inanmışdır ki, sosial-demokrat təlimi bütün xalqlara, xüsusilə də onların istismara məruz qalan hissələrinə xoşbəxtlik gətirəcəkdir, çünki yalnız bu təlimdə heç bir dini, irqi, milli ayrı-seçkilik yoxdur. O, yazılarında göstərirdi ki, kadetler və eserlər monarxistlər və oktyabristlər kimi dövlətlə əməkdaşlığa daha çox meyillidirlər, nəinki sosial-demokratlar.[1203]

Sosial-demokrat təliminin bir çox ideyalarını təqdir edən Hacıbəyli hesab edirdi ki, solların Dövlət Dumasında tutduğu mövqe digər firqələrlə müqayisədə daha doğrudur. Bu baxımdan onun yazılarında Dövlət Dumasındakı "Müsəlman fraksiyası"nın Rusiyanın 30 milyonluq müsəlman əhalsinin milli, dini, iqtisadi, elmi, təhsil ehtiyaclarının ödənilməsi istiqamətində daha çox sosial-demokratlarla əməkdaşlıq etməsinə meyilliyi də hiss olunur. O, yazırdı: "Dövlət dumasının üzvləri, yəni əhali tərəfindən göndərilmiş vəkillər orada neçə-neçə firqəyə bölünübdürlər. Bizim vəkillərə də lazımdır ki, bu firqələrin birinə özlərin daxil etsinlər. Bu işi biz vəkilin öz vicdan və insafına həvalə ediriz. Əlbəttə, hər bir halda, vəkillərimizə lazımdır ki, o firqəyə daxil olsunlar ki, onun məramnaməsi biz əhalinin bütün ehtiyacatını rəf etmək üçün ittixaz oluna bilən məramnaməyə müvafiq ola".[1204]

Hacıbəyli Çarlığın apardığı qəddar siyasətə baxmayaraq, II Dumada "sol"ların önə çıxmasını təsadüfi deyil, əksinə ciddi əsaslarla baş verdiyini izah etmişdir: "Hökumətin seçki icraatında qoyduğu təhdidat dəxi onun nəfinə əhəmiyyətə layiq bir müddət yetirə bilmədi. Duma üzvləri yığıldı və onların əksəriyyəti də həman hökumət qabağını kəsən "sol"lardan oldu. Bu nəyə dəllildir? Buna dəlildir ki, Rusiyada əvvəlcə əksəriyyən xəfi və bəzən aşikar surətdə getdikcə kəsbi-izdiyad və istedad edən və bu axır vaxtlarda ahu fəqanlar, odlu-odlu şikayətlər, dadu fəryadlar ilə bərabər revolverlər, tüfənglər, bombalar partıltı və gurultular ilə bütün məmləkəti lərzəyə salmış olan millət etirazı səvükəqillərin görmək üçün icra

[1203] Hacıbəyli Ü.Seçilmiş əsərləri.İki cilddə.II cild.Bakı, Şərq-Qərb, 2005, s.327-328
[1204]Yenə orada, s.224

edilən boş və əsassız bir nümayiş deyildir. – bu, cana doymuş camaatın, kəmalə çatmış əqillər təviq və təhriki ilə sədayi-həqq tələbanəsidir. O səda ki, heç bir hədə-qorxu ilə xamuş olmaz və hər bir top və pulemyotdan dəxi gurultulu və əsərli olmaqla bərabər getdikcə mühib və müdhiş olub eşidənlərin tüklərini qabardar və bədənlərini lərzəyə salar".[1205] Vaxtilə bu kimi mülahizələrə istinad edən F.Q.Köçərliyə görə Hacıbəyli marksizmin təsiri altında inqilabi hərəkata qızğın rəğbət bəsləmiş, özünəməxsus ustalıqla inqilabi ideyaları təbliğ etmək dərəcəsinə qədər yüksəlmişdir.[1206]

Bizcə, o, 1900-cu illərdə Osmanlı və Qacarlarda baş vermiş məşrutə hərəkatlarına da daha çox sosial-demokratların mövqeyinə yaxın bir yanaşma sərgiləmişdir. Hacıbəyli hesab edirdi ki, bu iki türk-müsəlman ölkəsində baş verən inqilablar nəticəsində istibdadlar məhv ediləcək və bütün insanlar azadlıqlar əldə edəcəklər. O, yazırdı: "31 mart (1909) hadisəsindən sonra Osmanlıda yenidən əsil inqilab vaqe olub, doğrudan da istibdad məhv edildi. Bu gün (1909-cu ilin iyulu) isə həmən əsil inqilab İranda baş verməkdədir. Odur ki, bu inqilabın nəticəsinə də kəmali etimad ilə inanmaq olar... Əvət, bir bu qədər inadlılıq göstərib də, təcdidi-həyat etmək arzusunda olan millətin yoluna sədd çəkməklə on milyonluq bir camaatı müstəbid əli altında əzmək istəyən şah, bu gün özünə bir təriqinicat axtarır; pənah arayır. Bütün istibdad tərəfdarları bildilər ki, böylə bir gün də varmış".[1207] Xüsusilə də, Qacarlardakı inqilaba böyük ümidlər bəsləyən Hacıbəyli inanırdı ki, burada əsrlərdən bəri avam xalqın iliyinə işləmiş çürük əqidələr aradan qalxıb, onun yerində yenilikçi, qanunpərəst bir hökumət qurulacaqdır.[1208] Ancaq onun sosial-demokratizmə meyilliyi uzun sürməmiş, 1910-cu illərdən etibarən o, milli-demokrat cəbhəsində fəaliyyət göstərmişdir.

---

[1205] Yenə orada, s.266

[1206] Köçərli F.Q. Üzeyir Hacıbəyovun ictimai-siyasi görüşləri. Bakı, Azərb. SSR EA nəşriyyatı, 1965, s.8

[1207] Hacıbəyli Ü. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2005, s.86

[1208] Yenə orada, s.89-90

**Milli maarifçilik və türkçülük.** Hacıbəyli istər sosial-demokratizmə meyil göstərdiyi, istərsə də birmənalı şəkildə milli-demokratizm cəbhəsində olduğu dövrlərdə əsas diqqəti Qafqaz türklərinin, o cümlədən Quzey Azərbaycan türklərinin milli oyanışına, milli haqq və azadlıqların əldə olunmasına yönəltmişdir. Məsələn, o, müasiri olduğu dövrdə əcnəbi müəlliflər tərəfindən müsəlman türklərin tamamilə vəhşi və barbar kimi qələmə verilmələrinə qarşı kəskin şəkildə etiraz etmişdir. 1905-ci ildə "Həyat"da nəşr olunan "Bir xanım əfəndinin bizlərə hüsnü-təvəccöhi" adlı məqaləsində Hacıbəyli yazırdı ki, Allahın insanları yaradanda yalnız türklərin mayasına istedad qoymaması, mərifət və mədəniyyətdən uzaq tutması mülahizəsi qəbuledilməzdir. Belə ki, türklər bu gün mədəniyyət sarıdan inkişaf etmiş bəzi millətlərdən geridə qalsa da, ancaq məsələni ifrat şəkildə qoymaq doğru deyildir. O, yazırdı: "Doğrudur, cümlə Qafqaz əhalisi ümumiyyətlə və biz Türk tayfası da, xüsusilə Avropa milli-mədəni səviyyələrinə nisbətən, ümumiyyət etibarilə yarımvəhşiyik. Ancaq burası nəzərdə tutulmalıdır ki, avropalılar bu dünya evinə ana bətnindən mədəniyyətli halda düşməmişlər. Bəlkə əsrlərcə ömür edərək mədəniyyət yolunu tapıb, ondan faydalanmışlar".[1209]

Hacıbəyliyə görə inkişaf etmiş Avropa millətlərindən fərqli olaraq, Türk milləti son əsrlərdə kənardan müdaxilə səbəblərinə görə mədəniyyət yolunu tapa bilməmişdir. İndi işıq qapısı türklərin üzünə açılmışdır ki, onlar əl-ələ verib mədəniyyət və mərifət sarayına daxil olmağa hazırdır. Ancaq bəzi fitnəkar şəxslər tapılır ki, türklərin mədəniyyət bulağından su içməsinə imkan vermirlər. Maqda Neyman xanım kimləri iddia edirdi ki, guya türklər 500 il həmdinliləri iranlıların hökuməti altında yaşasalar da, onlardan heç bir şey öyrənə bilməmişlər. Bütün bunları cəfəngiyyat adlandıran Üzeyir bəyə görə, Maqda xanım tarixi oxusa görərdi ki, Qafqaz türklərinin farslardan əxz etmədikləri bir şey qalmamışdır.[1210]

---

[1209] Hacıbəyli Üzeyir bəy. Bir xanım əfəndinin bizlərə hüsnü-təvəccöhi // Azərbaycan publisistikası antologiyası. Bakı, "Şərq-Qərb", 2007, s.515-516

[1210] Yenə orada, s.516

Maqda Neyman xanım bir tərəfdən türkləri vəhşilikdə suçlayıb, onlar da elm və mərifət qabiliyyəti yoxdur dediyi halda, digər tərəfdən isə onların məktəb açmaq istəklərinə qarşı çıxaraq ədəbi dillərinin olmadığını iddia edirdi. Hacıbəyliyə görə hazırda Türk dili üç dilin (türk, ərəb və fars) əsasından ibarət olsa da, onun kökü Türk dilidir. Onun fikrincə, əslində Maqda Neyman xanımı narahat edən türklərin ədəbi dilinin olub-olmaması məsələsi deyil, din məsələsidir – yəni, onun təbrincə, "İslam birliyi"nin zühura gəlməsidir.[1211] Başqa sözlə, Maqda Neyman xanım kimləri rus imperiyasını müsəlmanların guya, "İslam birliyi" yaradacaqları ilə qorxutmaq istəyirlər. Hacıbəyli yazırdı: ""İttihadi-İslam" ləfzi dəxi gözübağlıçılıq hiyləsi ilə ortaya atılmış mənasız sözdür".[1212]

Bütün bunlardan sonra Ü.Hacıbəyli Maqda Neyman xanımın iç üzünü ifşa edir. Məlum olur ki, bu xanım türkləri "İslam birliyi"ndə suçlamaqla məqsədi onları hökumətin gözündən salmaq və onların bəylərinin, xanlarının torpaqlarını əllərindən alıb rus mühacirlərinə və Osmanlıdan qaçıb gələn ermənilərə verməkdir: "Əcaba, hansı insaf sahibi belə dəhşətli sözlərdən nifrət etməz? O sözləri yazandan kənar durmaz? Bədbəxt türklər! Böhtan, yalan və iftira altında qol çalan türklər! İnsafsız, mürvətsiz və vicdansız juranlistlər qələminin oynağı olmuşsunuz. Hər əli qələm tutan sizin barənizdə bir iftira yazmasa olmaz! Əcaba buna səbəb nədir? Qafqaz iğtişaşıdırmı? Elə isə genə bədbəxt türklər".[1213]

Hacıbəyli yazırdı ki, son əsrlərdə Türk dövlətləri zəiflədikdən sonra hər kəs türklərin düşməninə çevrilmişdir. Bu baxımdan əli qələm tutan əcnəbi müəlliflərin çoxu da türklərin əleyhinə iftira və böhtan atırlar. Son əsrlərdə Türk xalqları da öz milli kimliklərindən və Türk dünyagörüşündən uzaqlaşıb özlərini əsasən müsəlman kimi anladıqları üçün bu cür böhtanlara cavab verə bilmirlər.

Ona görə də, Qafqaz türklərinin millət və din mənsubiyyəti məsələsinə yaradıcılığında geniş yer verən Hacıbəyli yazırdı ki,

---

[1211] Yenə orada, s.517
[1212] Yenə orada, s.518
[1213] Yenə orada, s.518

Qafqaz müsəlmanlarının etnik mənşəyi və dili türk dili olduqları halda, özlərini müsəlman adlandırmaları doğru deyil, çünki "müsəlman" məfhumu nə milləti, nə də dili ifadə edir. Hacıbəyli yazırdı: "Halbuki özü Türkdür, dini İslam dinidir, dili də Türk dilidir. Daha burasını düşünən yoxdur ki, müsəlman adında millət yoxdur, müsəlman adında dil yoxdur, müsəlman – yəni İslam dinini qəbul etmiş bir adam deməkdir. Din başqa, dil başqa. Din başqa, milliyyət başqa. Dində dil yoxdur, dində milliyyət də yoxdur". [1214] Onun fikrincə, bu baxımdan türklər öz etnik mənsubiyyətlərini, dilini tanımalı və onun tərəqqi etməsinə, islahına çalışmalıdırlar. O, yazırdı: "Çünki doğrudan da əgər biz öz ana dilimizə indiyə qədər baxdığımız nəzərlə baxmaqda davam edərsək, yəni heç bir əhəmiyyət verməsək, ola bilər ki, günlərin bir günü dilimiz itər, batar, yox olar və bir millətin də ki dili batdı, onda o millət özü də batar, çünki bir millətin varlığına, isbati vücud etməsinə səbəb onun dilidir".[1215]

O, yazırdı ki, Türk dilinə biganəlik göstərib övladlarımıza ana dilində deyil, yalnız yad dillərdə təhsil vermək, ya da dilimizi əcnəbi sözlərlə zibilləmək qətiyyən doğru deyildir. Onun fikrincə, əcnəbi xalqların bir çox mütəfəkkirlərinin belə Türk dilini yüksək qiymətləndirdiyi halda, ona ögey münasibət bəsləmək yolverilməzdir: "Biz, ibtidaiyyə məktəblərinin birinci şöbəsində öz ana dillərinə bilmərrə dara olmayan müəllimlərdən bir il zərfində dərs almaqla ana dilimizi öyrənib, istemailnə müqtədir olmarıq. Halbuki bizim türk lisanımız Avropa üləma və filosoflarının rəyinə nəzərən ən vəsi və kamil bir dildir ki, onun vasitəsilə insan ən ali fikirlərini və ən dəqiq hisslərini bəyanə qadirdir. Belə bir zəngin lisanın sahibi olub da onunla istifadə etməməyin özü böyük bir bədbəxtlikdir".[1216]

Yeri gəlmişkən, Hacıbəyli də təbii olaraq doğma ana dilini Türk dili adlandırdığı halda,[1217] Sovetlər Birliyi dövründə olduğu kimi (xüsusilə 1936-cı ildən etibarən), müstəqilliyimizin bərpasın-

---

[1214] Hacıbəyli Ü. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2005, s.141
[1215] Yenə orada, s.142
[1216] Yenə orada, s.179
[1217] Yenə orada, s.179

dan sonra da "Türk dili" anlayışı "Azərbaycan dili" kimi verilmişdir. Belə ki, Hacıbəylinin iki cildlik "Seçilmiş əsərləri"nin 2-ci cildinin izahlar bölməsində bu kimi qeyri-dəqiqiliyə yol verilmiş,[1218] eyni zamanda, ümumilikdə izahlar bölümü açıq aşkar müstəmləkə təfəkkürü ilə yazılmışdır. Hər halda bu kitabın izahlar bölümündə Ə.Hüseynzadənin "qatı türkpərəst", Ə.Ağaoğlunun burjua əqidəli ictimai xadim, Ə.Topçubaşını xırda burjua əqidəli ictimai xadim, ya da əks-inqilabçı adlandırılması qətiyyən doğru deyildir.[1219]

Ümumilikdə, Hacıbəylinin ana dili məsələsi ilə bağlı mülahizələri doğru olub, daha çox orta yol tutmuşdur. Başqa sözlə, o, Osmanlı türkcəsini müdafiə etmədiyi kimi, Azərbaycan türkcəsini ruslaşadıranlara qarşı çox sərt olmuşdur. Ona görə bəzilərinin ana dilini inkişaf etdirmək əvəzinə, osmanlı şivəsini bəyənməyib onlarla mübahisə açması mənasızdır: "Biz Türk dili üzrə böyük bir padşahlıq təsis etmiş olan osmanlılardan, fars və rus tərcümələri altında bilkülliyyə xarab olub türklük ruhunu itirmiş olan dilimizi təzədən öyrənmək əvəzinə hələ osmanlıları bəyənməyib sırf cahil olduğumuz bu məsələ üstə onlar ilə mübahisəyə də cəsarət edirik".[1220]

Deməli, burada Hacıbəyli Türk dilinin (Azərbaycan) Osmanlı türkcəsi ilə yaxınlaşdırılmasından daha çox farslaşdırılmasına, ruslaşdırılmasına etiraz etmişdir. O, açıq şəkildə işarə edirdi ki, son əsrlərdə Qafqaz türklərinin dili xeyli dərəcədə ruslaşdırılmış, bir çox ziyalılar rus dilinin qrammatikasına uyğun olaraq türk dilində yazmağa başlamışlar: "Qafqazda Türk dilini mükəmməl bilənlərdən Əli bəy Hüseynzadə cənabları dəfələrlə qəti surətdə elan etmişlər ki, Türk dilində "hansı ki", "hansılar ki" sözü yoxdur. Mən də diyoram ki, bu sözü tərcümə üsulilə dərs verən müəllimlər, rusun "kotorıy" kəlməsini tərcümə etmək üçün özlərindən çıxarıblar; onun istemalı dil üçün lüzumsuz bir ağırlıqdır".[1221]

---

[1218] Yenə orada, s.419
[1219] Yenə orada, s.410-413
[1220] Hacıbəyli Üzeyir. Nəşrlərdə kənara qoyulmuş, ixtisar və "redaktə" edilmiş əsərləri. Bakı, "Elm", 2010, s.209
[1221] Yenə orada, s.210

O, 1917-ci ildə "Doğru söz" qəzetində yazdığı "Dil davası" məqaləsində də ana dilimizin Türk dili olduğu halda, onu yad dillərdən, xüsusilə də rus dilindən aşağı tutmağın və əcnəbi sözlərlə korlamağın əleyhinə çıxmışdır: "Əlqissə, yazılar hamısı türkcə yazılmalıdır ki, oxuyanlar hamısı başa düşsün. Türkcə... Əlbəttə, əlifəlbəttə türkcə yazılsın".[1222]

**Milli cəmiyyətlərin təşkili və milli birlik məsələsi.** Rusiya müsəlmanları arasında özünəməxsus milli kimliyə və milli dilə sahib Qafqaz türklərinin milli varlığını müdafiə edən Ü.Hacıbəyli onların ictimai-siyasi təşkilatlar yaratmasının zəruriliyindən də bəhs etmişdi. Onun fikrincə, milli-dini birliyin olmamasının nəticəsidir ki, Çarlıq Dövlət Dumasında müsəlmanları, o cümlədən Qafqaz müsəlmanlarını siyasi qüvvə kimi tanımır, yerlərdə onların haqq və azadlıqlarını tapdalayırlar. O, buna misal kimi Qafqaz zemstvolarının (bələdiyyələrinin) yaradılmasının gecikdirilməsini, burada müsəlman türklərə mümkün qədər az yer verilməsi cəhdini göstərirdi.[1223] O, yazırdı ki, "zemstvo" məsələsindən gürcülərlə ermənilər maksimim faydalandıqları halda, müsəlmanları isə bundan məhrum qalmaqdadır: "Bəs bizim ehtiyacatımız nəzərilə kim baxsın və bu gözəl nemətdən məhrum olmağımıza razı olmasın? Heç kim yoxdur... Biarlığımıza salıb dinməz-söyləməz oturmuşuq. Genə bir cürə işlərdə üzümüzü ağardan və haqqımızın pay-bəşik olmasına namuscasına yol verməyənlərimiz var idisə, o da Əhməd bəy idi. Onu vətəndən qaçırtdılar... Əhməd bəy gedəndən sonra doktor Qara bəy Qarabəyov idi. Onu da vətəndən qaçırtdılar. Bunlardan başqa Əlimərdan bəy Topçubaşov idi, onu da vətəndən qaçırtdılar. Bunlardan savayı doktor N.Nərimanov idi, onu da qazamata saldırıb bir bölük külfətini ac qoydurdular".[1224]

Bütün bunları Çarlığın yalnız Türk ziyalılarını ölkədən didərgin salmağa məcbur etməklə deyil, eyni zamanda ruslaşdırmaq,

---

[1222] Yenə orada, s.115
[1223] Hacıbəyli Ü. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2005, s.94
[1224] Yenə orada, s.112

xristianlaşdırmaq[1225] siyasəti ilə də əlaqələndirən Hacıbəyliyə görə bundan əsas nicat yolu yenə də Qafqaz müsəlmanlarının milli təşkilatlarını yaradıb ciddi bir siyasi qüvvəyə çevrilməklə bağlıdır. Üzeyir bəyə görə Qafqaz müsəlmanlarının yolunda ümumi və təkrarçı sözləri bir kənara qoyub işə (milli ruhlu siyasi təşkilatlar yaratmağa) başlayarkən də, əvvəlcə fildən deyil, siçan düzəltməkdən yapışmaq lazımdır.[1226] Onun fikrincə, milli təşkilatlar ərsəyə gətirmək üçün də ilk növbədə, dini radikallıqdan və ruspərəstlikdən uzaq milli başçılar, milli təfəkkürlü ziyalılar olmalıdır. O, "Başçı lazımdır" adlı məqaləsində yazırdı: "Bizim də sair millətlərdə olan kimi başçı firqəmiz olmasa, əcəba, tərəqqi və təcəddüd edə bilərikmi? Haradan edə bilərik? Məgər ziyalılarımız, ürəfa və intelligentlərimiz bunu bilmirlər? Anlamırlar? Neyçün heç bir təşəbbüs yox? Neyçün oxumuşlarımız heç bir asari-həyat göstərmirlər. Camaatmızda müşahidə olunan cüzi tərəqqi və təcəddüd əlamətindən naşi təsəlli tapıb da, arxayın oturmaq yaramaz! Bu əsrdə tısbağa qədəmi ilə tərəqqi etmək heç tərəqqi etməməyə müsavidir. Burada milləti irəli sürüyə bilən qüvvət lazımdır".[1227]

Hacıbəyli "Rəhbərlərimiz" məqaləsində də milli ruhlu təşkilatın və milli rəhbərlərin olmasının vacibliyindən bəhs etmişdir. Onun fikrincə, hər bir millətin təkamül, ya da inqilab yolu ilə tərəqqisinin, yeniləşməsinin əsasında milli liderlər və onların yaratdıqları milli təşkilatlar dayanmışlar. O, yazırdı: "Firqeyi-mücahideyindən məqsudumuz bir neçə adamın, özlərini millət rəhbəri hesab edib, tərəqqi etmək adı ilə bilib-bilmədikləri işlərə mübaşir olmaq deyildir. Bəlkə hər kəs milləti tərəqqi etdirəcək bir sənət, bir əmələ öz öz qəlbində bir şövq və həvəs hiss etdiyi surətdə haman əməlin dalınca düşüb, onu xalq arasında nəşr və təmim etmək, onunla xalqın ya ağlını və yaxud hissiyyati-aliyyəsini nəşvü-nüma etdirməklə

---

[1225] Hacıbəyli Üzeyir bəy. Dövlət Dumasının qurulması // Azərbaycan publisistikası antologiyası. Bakı, "Şərq-Qərb", 2007, s.522

[1226] Hacıbəyli Ü. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2005, s.56

[1227] Hacıbəyli Ü. Başçı lazımdır // Azərbaycan publisistikası antologiyası. Bakı, "Şərq-Qərb", 2007, s.536

xalqa maddi və yaxud mənəvi bir xidmət göstərmək işində davam etməkdədir. İştə mütərəqqi və mütəməddin millətlərin dərəceyi-tərəqqinin ali payəsinə nail olub da, bizlərə nisbətən xoş gün keçirmələri öz karkün adamları sayəsindədir.

Bu gün o millətlərin tərzi-məişəti də bizimkindən dəfələrcə xoşraqdır. Orada hər bir fərd mənafeyi-ümumiyyənin nədən ibarət olduğunu və bu mənafeyi-ümumiyyə ilə hər kəsin də mənfəəti-şəxsiyyəsi təmin edildiyini dürüst anlayıb əsl insana yaraşan bir tərzlə ömür sürürlər. Orada hər bir fərd, hər kim olursa-olsun, öz-özlüyündə öz tərzi-məişətində ona təzyiq edə biləcək və onun hüququna və hürriyyəti-şəxsiyyəsinə xələl yetiəcək şeylər ilə müqəyyud deyildir. Məgərinki bunun hürriyyəti-şəxsiyyəsi başqaların hüquqi şəxsiyyəsinə təcavüzdən ibarət olmasın, bu isə onlar üçün heç bir qeyd olmuyub bəlkə özləri arzu edən şeylərdəndir. Çünki özgənin hüququna toxunmaq, ya hürriyyəti-şəxsiyyəsinə əl atmağın böyük bir şərr və zərəri olduğunu hər bir fərd çox gözəl anlayır”.[1228] Hacıbəyliyə görə bizlərdə hələ, elə rəhbərlər yoxdur, yox olmalarına da səbəb ümum camaatımızı bürüyən, əhatə edən ətalət, kəsalət ilə bərabər, rəhbərliyə layiq olan şəxslərimizin məişətcə dar gün keçirmələridir.

O, “Biz hamımız qafqazlı balalarıyıq” məqaləsində isə yazırdı ki, Qafqaz müsəlmanlarının birləşməsi üçün öncə, daxili dini və milli nifaqlara son qoyulmalıdır. O, yazırdı ki, yalnız əldən səs çıxmadığı üçün bütün Qafqaz xalqları ümumi düşmənə qarşı birləşib, vahid hədəfə çatmaq uğrunda mübarizə aparmalıdır: “Biz hamımız Qafqaz balalarıyıq. Birimizin düşməni varsa, hamımızın düşmənidir, dəfinə hamımız çalışmalıyıq. Birimizi bir təhlükə təhdid edirsə, hamımızı təhdid edir, nicatımız ittifaqdadır. Din, millət ayrılığı bizim ittifaqımıza sədd olmasın gərək. Biz hamımız Qafqaz balalarıyıq. Həmrəylik, həmfikirlilik, həmməsləklilik, həmkarlıq bunlar hamısı bizim vəzifeyi-müqəddəslərimizdənədd olunsun gərək. Əks

[1228] Hacıbəyli Ü. Rəhbərlərimiz // Azərbaycan publisistikası antologiyası. Bakı, “Şərq-Qərb”, 2007, s.539

surətdə heç bir işimiz düz gətirməz, taleyimiz nifaq və ədavət üçün bizi bir-birimizə uğratmayıbdır. Biz bunu isbat etməliyik”.[1229]

Hər halda o, çox yaxşı anlayırdı ki, Qafqaz xalqları arasında din, millət ayrılığı salan Çarlıq və onun əlaltılarıdır. Xüsusilə də, Çarlıq bir tərəfdən xristian ermənilərı, gürcüləri müsəlman türklərə qarşı qoyur, digər tərəfdən isə müsəlmanların öz aralarında da məzhəbçilik, etnikçlik, yerliçilik hisslərini alovlandırırdı. Belə olduğu təqdirdə də, bundan da ən çox Qafqazın türk-müsəlman əhalisi əziyyət çəkirdi. Hacıbəyli bunu yaxşı idrak etdiyi üçün ümumi anlamda nə qədər məzlumların haqq və hüquqları uğrunda mübarizə aparsa da, ancaq xüsusi anlamda Qafqaz türklərinin, bütövlükdə Rusiya müsəlmanarının oyanışına çalışmışdır. Bu baxımdan Qafqaz müsəlmanlarının milli təşkilatlarının yaranması, milli liderlərinin önə çıxması məsələlərini daim diqqətdə saxlayan Hacıbəyli bunun üçün məsləkin, xüsusilə də milli məsləkin olmasının vacibliyini də anlayırdı. O, yazırdı: “Məslək – hər kəsin etiqad etdiyi bir yoldur; ümumi xoşbəxtliyini, asayiş və aramını, rəfain-halını, tərəqqi və təkamülünü təqib edən hər bir məslək onun sahibi üçün müqəddəsədd olunmalıdır. Belə bir məsləkə xidmət edən şəxs haman məsləkə xəyanət etməməlidir. Bəlkə o məsləkin daha ali və daha müqəddəs bir yola yaxınlaşması üstündə çalışmalıdır, insan öz məsləkini dəyişə bilərmi? Əvət, insan yaxşı bir məsləkdən daha gözəl bir məsləkə keçə bilər. O gözəl məsləkdən də daha gözəlinə keçə bilər. Yəni özü tərəqqi etdiyi kimi o, məsləki də o yolda tərəqqi edə bilər. Amma yaxşı bir məsləkdən pis bir məsləkə keçmək olmaz. Keçərsə əxlaqsızlığı bildirər”.[1230]

Onun fikrincə, hər bir şəxsin olduğu kimi, cəmiyyətin də özünəməxsus məsləki olur ki, Qafqaz türklərinin də məsləki millətin tərəqqisi və inkişafıdır. Başqa sözlə, milli təşkilat üçün milli lider, milli lider üçün də milli məslək vacibdir. Məsləkə sahib olmaq isə yalnız öz xalqını deyil, ümumilikdə insaniyyətə diqqət yetirməkdir. O, yazırdı: “İndi bu iyirminci əsrdə vaxtdır ki, daha biz öz

---

[1229] Hacıbəyli Ü. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı, “Şərq-Qərb”, 2005, s.185
[1230] Yenə orada, s.121

insanlığımıza diqqət yetirək. Özümüzün də sairlər kimi məharətlər göstərə biləcək insan olduğumuzu nəzərə alıb bir kərə o qara pərdəni üstümüzdən ataq. Məharət və ustadlığımızın üstünü bürüyən kəsif qabıqları yırtaq və içimizdə mövcud olan sərvət və samanın zühuruna və zühuru ilə həm özümüzə və bütün insaniyyətə xidmətlər göstərəcəyinə mane olmayaq”.[1231]

Hacıbəyli çox doğru yazırdı ki, hər bir cəmiyyət ilk növbədə, öz daxilində bütövləşməli, inamını artırmalı, həyata bağlılığını gücləndirməli, bir sözlə vahid bir toplum olduğunu dərk etməlidir. Ona görə hər hansı ailədə böyüyən uşaq zaman keçdikcə öz ailəsi ilə digər ailələri müqayisə edə bilib, buna uyğun olaraq mövqeyini dəqiqləşdirərək öz ailəsinin qayğısına qaldığı kimi, bir fərdin də xalqa münasibətdə mövqeyi, məsləki dəqiq olmalıdır. Əgər bir toplumda millətin fərdlərinin, xüsusilə də qabaqcıl insanlarının ümummilli məsələlərdə mövqeləri dəqiq deyilsə, tərəddüd içində həyatlarını yaşayırlarsa, o zaman həmin toplumun gələcəyi ola bilməz. O, “Halımız” məqaləsində yazırdı: “Ənvai-əksam işlərimizə diqqət yetirdikdə bu işlərdə zahir olan halətlərimizi nəzərə aldıqda, insanda belə bir etiqad hasil olur ki, biz hələ öz-özümüz, öz mövcudiyyətimizi və öz mövqeyimizi dürüst anlamamışıq. Biz nəyik, nə haldayıq, hansı mövqeyi işğal etməkdəyik – bunlar hamısı bizim üçün hələ qaranlıqdır. Hər ağızdan eşidilən “millətimiz cahidlir, bacarıqsızdır, , müsəlmandan bir şey çıxmaz” kimi sözlərin ağız sahiblərini bir yerə yığsaq, elə bir əksəriyyət hasil olar ki, gendən baxan o əksəriyyətin belə “ahu-zarına” istinadən camaatımızı bədbinlər cərgəsindən sayar”.[1232]

Hacıbəyliyə görə cəmiyyətin içində başqa bir çoxluq isə var ki, heç də halmızdan bədbin deyil, əksinə xeyli dərəcədə nikbindirlər, gələcəkdən heç də qoruxmurlar, çünki gələcəyin xoş keçəcəyini və məramımızca olacağını yəqin bilirlər: “Fəqət əsil mətləb burasıdır ki, bizlər nə bədbinlərdənik, nə də nikbinlərdən. Zatən biz bədbinlik və nikbinlik nə olduğunu da bilmirik. Bir

[1231] Yenə orada, s.129
[1232] Yenə orada, s.154

hissəmizin də halımızdan şikayət etməsi bədbinlik əlaməti deyildir. Bəlkə boş-boşuna vayıldamaqdır. Uşaq ağlamağıdır. Digər hissəmizin də nikbinanə davranması qeydsizlik və yaxud qəflət əlamətidir”.[1233]

O, “Öz halımızdan” (1910-cu il, aprel) adlı məqaləsində də əsas diqqəti Qafqaz türklərinin bir millət olaraq bütünləşməsi, tərəqqisi və yeniləşməsi məsələsinə yönəltmişdir. Bütün bunlar üçün də, millətin fərdlərinin millətin və insanlığın birliyi, diriliyi naminə bir-birilərinə arxa durmalarını vacib hesab edən Hacıbəyliyə görə Avropa xalqları məhz son əsrlərdə (əvvəllər Avropa xalqları da indiki Şərq xalqlarının yaşadığı vəziyyətdə olublar) buna əməl etmələri sayəsində bugünkü tərəqqiyə nail olublar; xüsusilə də millət və insaniyyət üçün çalışan mütəfəkkirlərə sahib çıxmaqla tərəqqi əldə ediblər. O, yazırdı: “Lakin bizlərdə millətin tərəqqi və təməddününə böyük bir ehtiyacı olan bu zamanda, bu cürə tərəqqi və təməddün mənbəyi olan şəxslərə heç bir qədr və qiymət qoyanlar yoxdur. Onlara vüsət verən, qabaqlarına tez bir meydan açan adamlar yoxdur, əksinə istedad sahiblərinin başından vururlar, həvəsdən salırlar, incidirlər, haqqında bir çox narəva və nagüvara işlər görürlər. Odur ki, hər bir istedad sahibi də bilmərrə sövq və həvəsdən düşüb, adi adamlar cərgəsinə girib də kəsbi-ruzi dalınca gedərlər...”.[1234]

O, yazırdı ki, hazırda maarif və tərəqqi üçün təşkil edilmiş cəmiyyətlərdən heç biri də, bu cür mühüm məsələyə diqqət yetirməmişdir: “Həqiqətən – millət bir bağ yeridir, qabil və müstəid adamlar isə o bağın meyvəli ağacları və ətirli gülləri mənziləsindədir. Məsələn, ənvai elmlərə və fənlərə dara olanlar meyvəli ağaclar mənziləsindədir. Sənayeyi-nəfisə sahibləri isə ətirli güllər yerindədir. Ləziz meyvələr insanın bədəninə, müəttər güllər də insanın ruhuna ləzzət verən kimi, elm və fünun sahibləri əhalinin ağlını, sənayeyi-nəfisə sahibləri də camaatın ruhunu tərbiyə edirlər... Bəli, hər halda yaxşı bağbanı ola biləcək bir cəmiyyətə böyük ehtiyacı-

[1233] Yenə orada, s.155
[1234] Yenə orada, s.161

mız vardır”.[1235] Hacıbəyli hesab edirdi ki, bir zamanlar cəhalət içində yaşayan Avropa xalqları sonralar məhz istedadlı, dahi insanların sayəsində qaranlıqda işığa çıxmış, milli təşkilatlar yaratmış və bir zamanlar qul ikən indi ağa olmuş, üstəlik əksər Şərq xalqları üzərində də ağalıq etməkdədir. Ona görə Şərq xalqları, o cümlədən müsəlman xalqları da tərəqqi və yeniləşmə yolunu tutmalı, artıq istedadlı insanlarına və onların yaratdıqları cəmiyyətlərə sahib çıxmalıdırlar. Bu cür istedadlı insanların Qafqaz müsəlmanlarının oxumuşlar, ya da oxumamışlar arasında da olduğunu deyən Hacıbəyliyə görə əgər onlara şərait yaradılarsa, millət və insaniyyət naminə çox iş görərlər: “Mən öz içimizdən bir çox savadsız və elmsiz adamlara təsadüf etmişəm ki, bir də görürsən özündən cürbəcür şeylər icad edir. Yaxud ən ali və filosofanə məsələlər həllinə məşğul olur. Yaxud iti və müəssir bir dil il danışmaq qabiliyyəti var. Mən bu cür adamları gördükdə, həm onların özlərinə və həm də öz millətimizə və hələ ümuminsaniyyətə də yazığım və heyfim gəlir... Hələ onlar kənarda dursun, oxumuşlarımız içində də cürbəcür elm, fənn və sənətdə bir çox müstəid və qabil adamlarımız vardır. Amma nə etməli ki, onlar üçün şərait, məişət o qədər namüsaid və o qədər müşküldür ki, asudə nəfəs almağa belə imkanları yoxdur”.[1236]

1910-cu illərdə, xüsusilə də 1-ci Dünya müharibəsinin ilk illərində Hacıbəyli əvvəllər olduğundan daha çox, müasir ruhlu milli-demokratik bir siyasi təşkilatın yaranmasının zəruriliyindən, milli təfəkkürlü insanlara sahib çıxmağın vacibliyindən bəhs etmişdi. O, “Yeni İqbal” qəzetində yazdığı “Nəyimizin vaxtıdır?” məqaləsində də göstərirdi ki, indiyə qədər var olan ümummüsəlman təşkilatlarının gözə görünən və işə yaradılan nəticələri olmasa da, mənəvi əhəmiyyəti olmuşdur. Bu baxımdan yeni istər ümum Rusiya müsəlmanları, istərsə də xüsusi Qafqaz müsəlmanları təşkilatının yaranması zəruriliyini vurğulayan Üzeyir bəy yazırdı ki, artıq ümumi və təkrarçı sözlərdən işə keçməyin vaxtıdır: “...Bu milli ehtiyacları-

[1235] Yenə orada, s.162
[1236] Yenə orada, s.163-164

mızın, və milli məsələlərimizin bundan belə quru danışmaq deyil, bəlkə felən rəf və dəfini və həllini təmin edə biləcək yollar xüsusunda danışıb və ictimalar qurmağımız daha münasib deyilmi? Və bundan sonra məhz bu yolların aranılmasının vaxtı deyilmi? Qəzetə vasitəsilə danışmaq yenə danışılmağında qalır. İctimai qurmaq yenə qurulmasında qalır. Ancaq "tema" dəyişilir. Yeni qəzetə və ictimai söhbətinin zəmin və mövzusu daha milli ehtiyaclarımız və məsalimiz olmayıb, bəlkə bu ehtiyac və məsalimizin keçirilmək və hüsulə gətirilmək yolları söhbətinə dəyişir. Bu gün o söhbətin ibtidası zənnimcə 1) biz 30 milyonluq Rusiya müsəlmanlarının bu böyük məmləkətdəki öz hal və mövqeyimizdən və 2) siyasi firqələr cərgəsində tutmuş olduğumuz məqamdan başlanmalıdır".[1237]

Hacıbəyli yazırdı ki, Rusiya millətləri arasında sayına görə (30 milyon) ikinci olmasına baxmayaraq türklər arasında milli birlik yoxdur. Əgər bəzilərində milli ictimai işlərlə bağlı bir həvəs əlaməti görsənirsə, bu həvəs də tez yatıb yenə biganəlik zülməti içində yox olur. Müsəlmanlar yalnız şəxsi mənafeyi ilə bağlı olduqda bu cür milli və ictimai işlərə maraq göstərirlər. O, yazırdı: "Hərəmizin fikri başqa, hərəmizin amal və arzusu varsa başqa, tərzi-hərəkətimiz başqa-başqa. Bu səbəbdəndir ki, ümumi cəmaət və dövlət işlərindəki əməllərimiz dəxi pərişanlıq üzündən calibi-diqqət degildir. İçimizdəki pərişanlıq bir dərəcəyə çatıbdır ki, hətta əlimizdə olan hüquq və ixtiyaratdan dəxi layiqilə istifadə etməgə həvəsimiz olmayıb, bu üzdən hətta bəzi vaxt elə də olur ki, o hüquq və ixtiyaratdan mənfəət almaz əvəzində özümüzə zərər də vururuq. Və bu da bizi heç də acındırmayır da! Çünki ruhsuz, həvəssiz, laqeyd, Avropa təbrilə "apatiçni" olmuşuq. İctimai və siyasi işlərə qarşı göstərməkdə olduğumuz bu "apatiya" və qeydsizlik bizim hər bir sinifimizdə mövcuddur. Xass, avam, oxumuş, oxumamış, ümumiyyətlə hamısı bu "apatiya" dərdinə mübtəladır. Doğrudur, bəzi vaxt olur ki, qaranlıq içində bir balaca işıq zühuru görünən kimi bizim içimizdə dəxi milli və ictimai işlərə qarşı bəzilərimzidə

[1237] Hacıbəyli Üzeyir bəy. Nəşrlərdə kənara qoyulmuş, ixtisar və "redaktə" edilmiş əsərləri. Bakı, "Elm", 2010, s.73-74

bir həvəs əlaməti görünür. Zühur edib tez də sönən kimi, bizim bu həvəsimiz dəxi tez yatıb yenə qeydsizlik zülməti içində yox olur”.[1238]

Onun fikrincə, 1905-ci il 1-ci Rusiya inqilabının verdiyi azadlıqlar sayəsində milli qəzetlər, milli məktəblər, maarif və xeyriyyə cəmiyyətləri təşəkkül tapmışdı ki, indiyə qədər bundan daha çox faydalanmaq olardı. Ancaq ötən on il ərzində bütün bunlardan faydalanmaq əvəzinə müsəlman ziyalılar arasında əlaqə kəsilmək həddinə çatmış, bunun nəticəsində də “Həyat”, “İrşad”, “Molla Nəsrəddin” və başqa bu kimi milli qəzet-jurnallar bağlanmış “Səadət”, “Nur” və başqa milli məktəblərin, eyni zamanda mədəni-maarif cəmiyyətlərinin (“Nicat” və b.) fəaliyyəti zəifləmişdi. O, yazırdı: “Əvvəllərdə həvəs ilə işə girişmiş olan başbilən ziyalı və inteliigentlərimiz nədənsə yavaş-yavaş camaat işlərindən çəkilməyə və boyun qaçırmağa başladılar. Milli qəzetə ilə müsəlman intelligentləri arasında əvvəlcə bağlanmış olan əlaqə, get-gedə azalıb axırda lap kəsilmişdir. Bu gün müsəlman ziyalıları ilə müsəlman mətbuatı arasında heç bir əlaqə yoxdur. Müsəlman intelligentlərinin oxuduqları qəzetələr rus qəzetələridir”.[1239]

Hacıbəyli yazırdı ki, halbuki müsəlmanca bisavad olan intelligentdə savad olmasa da, milli şövq və həvəs olsa, millət qeydinə qalmaq, millətin mütərəqqi və mütəməddin bir hala salmaq arzusu olsa, həmən bu tərəqqi və təməddün nişanəsi olan milli mətbuatda iştiraka özünü məcbur bilər, müsəlmanca bisavad olmağı da bu yolda ona əngəl olmaz: “İntelligentlərimizin sair bəhanələri də heç tənqidə də layiq olmayıb, yenə milli “apatiya” və milli ruhsuzluq üzündən əmələ gəlmiş haldır. “Həyat”, “İrşad”, “Molla Nəsrəddin” kimi cəridələrimizin əlimizdən getməyinin təqsiri hamıdan artıq intelligentlərimizin boynundadır, bu halda isə əlimizdə olan qəzetələrin halı belədir ki, oxucularımız az olan kimi qəzetədə işləyənlərimiz dəxi bir o qədər azdır”.[1240]

---

[1238] Yenə orada, s.74-75
[1239] Yenə orada, s.78
[1240] Yenə orada, s.79

Üzeyir bəyə görə ötən 10 il ərzində (1905-1915) Dövlət Dumasında Qafqaz müsəlmanlarının siyasi sima kimi tanınmamaları təsadüfi deyildir. Çünki Dumada olan kadetlər, nasionalistlər, oktyabristlər, sosial-demokratlar müsəlman fraksiyasının hansı siyasi firqəyə bənzədyini və ya xüsusi siyasi sifətinin olmasını müəyyən edə bilməyiblər. O, bundan nicat yolu kimi, Qafqaz müsəlmanlarının bir millət kimi varlıqlarını ortaya qoymağın vaxtının çatdığını yazırdı: "Hal-hazırda əsil bunun vaxtıdır ki, biz öz-özümüzə məhəl qoyaq, millətimizin qədrini bilək, müsəlman millətinin içini və çölünü o cürə düzəldək ki, bizə də bir millət olub millətlər arasına girməyə layiq olaq. Ehtiyacımızın deyil, tək-tük ağızlardan bəlkə ümummillət ağzından çıxan bir səs olduğuna və bu səsə də rus camaatı, rus mətbuatı və Dövlət Dumasının tərəqqipərvər vəkilləri ağzından da səs verilib kömək edilməsinə və qonşu millətlər tərəfindən də haqlı görülməsinə yol göstərən şərait ilə dolanmaq xüsusunda danışmağımızın və çalışmağımızın vaxtıdır...".[1241]

**Cümhuriyyətin quruluşu və onun fəlsəfəsi.** Ü.Hacıbəyli milli mövqeyi ilə zamanla milli-demokrat cərəyana daha çox yaxınlaşmış, başda "Müsavat" olmaqla milli təşkilatlarla yaxından əməkdaşlıq etməyə başlamışdır. Bu baxımdan da Hacıbəyli milli-demokratik cərəyanın bariz örnəyi olan Azərbaycan xalqının milli istiqlala qovuşması hadisəsini təbii qarşılamışdı. Azərbaycan Cümhuriyyətinin istiqlalının ilk ildönümü ilə bağlı "Bir yaş" məqaləsində Hacıbəyli yazırdı ki, Azərbaycan Türk dövlətinin istiqlalı "Türk irqində sağlam bir milliyyət hissi oyatdı, millət nə olduğunu milliyyətini unutmuş türklərə bildirdi: Onlara – sən əvvəl-əvvəl bir türksən dedi və "türkəm" dedirtdi".[1242]

Onun fikrincə, Azərbaycan Cümhuriyyəti türklüyün ümidgahı, İslamın pənahı və dünya mədəniyyətinin daşıyıcısıdır. Çünki islam ölkələri arasında, ilk dəfə Azərbaycan türkləri dinimizin, Quranımızın, peyğəmbərimizin bir olduğunu ortaya qoydu. O, vaxtilə Azərbaycan türklərinin müstəqil hökumət qura bilməyəcəyi fikrini

---

[1241] Yenə orada, s.85-86
[1242] Hacıbəyli Üzeyir bəy. "Bir yaş", "Azərbaycan" qəz., 1919-cu il, 28 may, №190

səsləndirənlərə cavab olaraq isə yazırdı: "Adamlar var ki, bizim istiqlalımızı istəmirdilər, halbuki bizə düşmən deyil idilər və bu istəməməklikləri düşmənçilik üzündən deyil idi. Fəqət onlar qorxurdular. Qorxurdular ki, biz hökumət etməyə, məmləkət dolandırmağa, dövlət saxlamağa qabil olmayıb da müxtəlif millətli təbəəmizin can və malını mühafizə edə bilməyən məmləkətdə asayiş bərpa edə bilməyək, nizam və qaidə qoya bilməyək, siyasətdə bacarıqsızlıq göstərib xalqın istirahətini pozaq".[1243]

Üzeyir Hacıbəylinin fikrincə, bayrağımızın mənəvi mənası olaraq al (qırmızı) boya türkçülüyə, yaşıl boya islamlığa, mavi boya isə mədəniyyətə işarədir.[1244] Deməli, Ü.Hacıbəyli qırmızı boyanı türkçülüyə aid edərək mavi rəngi mədəniyyət mənasında qəbul etmişdir.

Hacıbəylidə olan bu milli ruhu inkar edə bilməyən sovet müəllifləri yazırdılar ki, 1920-ci il aprel işğalına qədər Ü.Hacıbəyli marksizmə yiyələnə bilməmiş, "bəzi digər demokratik ziyalılar kimi, müsavatçıların "milli istiqlaliyyət" pərdəsi altında apardıqları hiyləgər millətçilik siyasətinin həqiqi mənasını düzgün başa düşməmişdi. Müsavatçıların hakimiyyəti illərində o, dərin mənəvi böhran keçirir, millətçilik təsiri altında ciddi ideya-siyasi səhvlərə yol verirdi".[1245] Sovet müəlliflərinin Ü.Hacıbəylidə "ciddi ideya-siyasi səhvlər" kimi qələmə aldığı məsələlər, əslində onun vətəninə, millətinə, dininə, demokratik dəyərlərə və istiqlalçılığa bağlılığı idi.

O, Sovet dövründə də mümkün olduğu qədər türkçülüyü, Azərbaycan türkçülüyünü yaşatmağa çalışmışdır. Milli ruhun daşıyıcısı kimi də o, "proletar mədəniyyəti" adı altında milli mədəniyyətin assimilyasiya olunması ilə qətiyyən razılaşmamışdır. Hacıbəylinin kosmopolitçilərə qarşı mübarizəsini təhlil edən Arzu Hacıyeva doğru qeyd edir ki, o, novator bəstəkar olmasına baxmayaraq, həmişə xalq musiqinin, xalq mahnılarının yaşadılmasına və inkişafına mühüm yer vermişdir. Xüsusilə, 1920-ci illərdə Ü.Hacıbəyli bir tərəfdən muğamın, o

---

[1243] Yenə orada.
[1244] Yenə orada.
[1245] Köçərli Firudin Qasım oğlu. Üzeyir Hacıbəyovun ictimai-siyasi görüşləri. Bakı, Azərb. SSR EA nəşriyyatı, 1965, s.7

cümlədən "çahargah"ın, tarın iranlılaşdırılmasına, digər tərəfdən milli musiqimizin avropalaşdırılmasına qarşı çıxmışdır.[1246]

**Din problemi və İslam dini.** İctimai-siyasi görüşlərində din probleminə də yer verən Ü.Hacıbəyli tərəqqiyə, dünyəvi elmlərə qarşı çıxan mühafizəkar ruhaniləri tənqid etmişdir. O, yazırdı ki, məktəb, mədrəsə, elm, mərifət və tərəqiyyə qarşı düşmən olanların sıralarmızda olması müsəlmanları, ancaq başqa millətlərdən geridə saxlayır. Hacıbəyliyə görə bəzi ruhanilərin məktəbin dinə qarşı olması ilə bağlı dedikləri cəfəngiyyatdan başqa bir şey deyildir: "Görəsən bu bayquşlar nə dindədirlər ki, o dinə məktəbdən, elm və mərifətdən zərər gözlənilir. O hansı dindir? İslam dinimi? Haşa və kəlla! Bu İslam dini haqqında ən ağır ittihamdır ki, bu cürə böhtanı ancaq İslamın adını xərab və viran etmək istəyən bayquşlardan gözləmək olar! Bunların "din" və "imanı" camaatin qaranlığından istifadə edib tovlamaq və soymaqdır ki, doğrudan da məktəbin bu cürə "din" və "imana" da zərəri vardır".[1247]

Hacıbəyli məhərrəmliyin, o cümlədən Aşura gününün mahiyyətinin doğru başa düşülməsinə çalışmaqla yanaşı, eyni zamanda həmin günlərdə müsəlmanlarının həyata keçirdikləri bəzi əməllərə də diqqət yetirmişdir. Məsələn, o, "Heydar təpmək"lə bağlı yazırdı ki, onu həyata keçirənlər bir növ Kərbala faciəsini canlandırmağa çalışırlar. Bunu kəskin surətdə tənqid edən Hacıbəyliyə görə bu cür üsullara əl atmaq İmam Hüseynə (ə) olan sevginin nümunəsi ola bilməz. Hacıybəli yazırdı: "Sizi and verirəm Allaha, bir deyin görüm bu "heydər-səfdər" "müharibəsi"nin Kərbəla faciəsinə və imam Hüseyn təziyəsinə dəxli və təsərrüfi vardır?? Hər kəs bunu mənə qandırsa səvab eləmiş kimi olar!".[1248] Hacıbəylinin fikrincə, imam Hüseynin (ə) şəhadətini doğru şəkildə çatdırmaq lazımdır ki,

---

[1246] Hacıyeva A.Ə. Xalqın musiqi dühası və ruhunun əbədi mənbəyi: Üzeyir Hacıbəyovun muğam hermenevtikası// "Elmi əsərlər" jur., 2012, №1 (18), s.23

[1247] Hacıbəyli Üzeyir bəy. Nəşrlərdə kənara qoyulmuş, ixtisar və "redaktə" edilmiş əsərləri. Bakı, "Elm", 2010, s.39

[1248] Yenə orada, s.45

bununla da, yalnız İslam dünyasının deyil, bu mərasimi kənardan izləyənlərin də rəğbətini qazanmaq mümkün olsun.[1249]

Onun fikrincə, bu günə qədər müsəlmanları məhərrəmlik mərasimi ilə bağlı səhv yola çəkənlər isə yalançı ruhanilər və mollalar olmuşdur. Çünki ikiüzlü ruhanilər hesab etmişlər ki, məhərrəmlik mərasimi müsəlmanlar arasında ağıllı və şüurlu şəkildə həyata keçirlərsə, onda onların həmin mərasimin mahiyyətinə uğyun olmayan əməlləri həyata keçməyəcəkdir. Bu baxımdan həmin dövrdə ikiüzlü ruhaniləri narahat edən guya, kimlərinsə imam Hüseynə (ə) hörmətsizlik etməsi məsələsi deyildir. Sadəcə, müsəlmanların şüurlanması və savadlanması nəticəsində yalançı ruhanilərin, çürükfikirlilərin nüfuzlarının itirilməsidir. Hacıbəyli yazırdı: "Çürük fikirlilər qəzetəçilərin məhərrəmlik söhbətindən acıqları tutub diyorlar ki, guya biz təziyə saxlamaq istəmirik; belə şeylər xoşumuza gəlmiyor!... Bu qəzetəçilər haqqında böyük bir iftiradır, yalandır! Biz hürriyyət, həqq və həqqaniyyət yolunda can qurban etmiş olan övladı-peyğəmbərin təziyəsini dünya durduqca hər məhərrəm yada salıb ağlamaqla bərabər arzu edirik: Əvvala: Bu böyük və yanıqlı təziyə – hörmət və ehtiram ilə, qaidə və nizam ilə əmələ gəlsin. Və saniyən: Bu təziyə cəmaətimizin əhval və ovzaini, ovsaf və əxlaqını tərbiyəyə salıb, pis əməllərdən kənar eləsin".[1250]

Hacıbəyli təklif edirdi ki, məhərrəmliyin düzgün anlaşılması üçün, açıq müzakirələr keçrilməli və burada maraqlı olan hər bir tərəf iştirak etməlidir.[1251] Milli operamızın banisinə görə bütün bunlar ona görə lazımdır ki, müsəlmanların, o cümlədən uşaqların XX əsrdə küçələrə tökülüşərək zəncir vurmaları, başlarını yarmaları birincisi, İmam Hüseynin (ə) şəninə ucalıq gətirmir, ikincisi isə əcnəbilərin istehzalarına səbəb olur. O yazırdı: "Bəzi mərsiyəxanların övladi-peyğəmbərə yaraşmayan sifətləri, onlara istinad vermələri, bu qəsidələr ilə avam camaat çox ağlasın, mərsiyəxanların avam camaatın əxlaqını pozan "fitvaları" ki, hər kəs göz yaşı töksə

---

[1249] Yenə orada, s.48
[1250] Yenə orada, s.48
[1251] Yenə orada, s.48-49

– hər bir günahından azaddır ki, guya imamı ağlamağımızdan məqsəd – tək bir günahdan azad olmaq üçündür. Deməli, günahı olmayan ağalmasa da olar!... Halbuki, bu cür fitvalar, əvvəla sidqi – dil ilə ağlamağı aradan götürüb və saniyən cəmi oğruları, quldurları, qatilləri, mərdiməzarları, ev yıxan və ocağı kor qoyanları arxayın edib pis və murdar əməllərinə daha da şövqləndirir!”.[1252]

O, məqalələrində peyğəmbərdən (s) və onun əqidə yolundan nümunələr gətirməklə yanaşı, onun mövludunu böyük bayram kimi qələmə vermiş və müsəlmanları bu bayramın mahiyyətini dərk etməyə çağırmışdır. Bu günə qədər Həzrət Məhəmmədin (s.) doğum gününün istənilən səviyyədə keçirilməməsinə təəssüflənən Hacıbəyli yazırdı ki, bütün hallarda onun haqqında qəlbimizdə bəslədiyimiz böyük bir məhəbbət, başqa dinlərdə olanların qibtə edə biləcəyi dərəcədə səmimi və həqiqidir. Onun fikrincə, milli ictimai-siyasi əqidəmiz formalaşmasa da, dini etiqadımız mətin və möhkəmdir: “Avropa elm və fənlərinin aramızda intişarından dini etiqad süstlügü əmələ gələr, deyə qorxan bəzi ruhani və müridlərinin zənni əksi olaraq, tazə elm və fənlər sayəsində dini etiqadımız daha da bərkiyib İslam dininin həqq dini olduğu daha aydın və müsbət bir surətdə həm başımızda və həm qəlbimizdə yer tutur. Və bu dini gətirmiş olan zatın əzəmət və ehtiramı daha layiqli bir surətdə tutulmaq lüzumi meydana çıxır. Böylə olan halda biz öz peyğəmbərimizə olan hörmət, əzəmət və məhəbbəti qəlbimizdə saxlamaqla bərabər, bir də hamlıqla bərabərdə izhar və ibraz etməliyik”.[1253]

O vurğulayırdı ki, Peyğəmbərimizə (s) olan sevgimizi xüsusən mövludda göstərməliyik. Çünki həmin gün yalnız ərəblər üçün deyil, bütün bəşəriyyət üçün bir nur doğmuş və dünyanı işıqlandırmışdır. Hacıbəyli yazırdı: “Bu nümayiş isə günlərimizin ən əzizi olan mövlid günündə icra edilməlidir ki, o gün peyğəmbəri-zişanımız anadan olubdur. Və bu gün bu yövmi-məsudun günü olduğuna görə, ən böyük bayramımız münasibətilə oxucularımızı təbşir və təbrik ilə bu əziz gündə şad olmaqla bərabər məxsusi məclislərdə

[1252] Yenə orada, s.49
[1253] Yenə orada, s.99

öz ehsan və ianələri ilə fəqir-füqəraları da şad etmələrini ümid və arzu edirik”.[1254]

O, başqa məqalələrində də yeri gəldikcə, Məhəmməd peyğəmbərin (s) müsəlman dünyasında oynadığı tarixi rola toxunmuş, onun həyatını və əxlaqını bir nümunə kimi müsəlmanlara örnək göstərmişdir. Ona görə peyğəmbər İslam dinini yer üzünün bir çox nöqtələrinə yaymaqla İslam əhlini artırdı, islamiyyətin çoxalması yolunda mucadilələrdə bulundu, dini bayramlarda müsəlmanlara yardımlaşmağı, bir-birinə kömək etməyi buyurdu.[1255] Bir sözlə, Hacıbəyli peyğəmbərin fikirlərinə böyük dəyər vermiş, onun dünyaya gəlməsi ilə bəşəriyyət tarixində yeni bir dövrün başlandığına inanmışdır. Dahi bəstəkarın fikrincə, peyğəmbərin həyat və əqidə yolunun öyrənilməsi üçün də onun mövludunun keçirilməsi zəruridir. Çünki mövlud bayramı İslamın digər bayramları (oruculuq, qurbanlıq və s.) kimi, müsəlmanları ittifaqa və ittihada dəvət edir.

Ü.Hacıbəyli 2-ci Rusiya fevral burjua inqilabından sonra İslam aləminin birliyinin vacibliyindən də yazırdı. Onun fikrincə, bu günə qədər Rusiya müsəlmanları İslam dünyasını parçalayan, İslam xalqlarını məhv edən Çar Rusiyasının siyasətinin altında əzilmiş, hətta 1. Dünya müharibəsində Osmanlıya qarşı savaşmağa məcbur edilmişdir. Halbuki Çar Rusiyası və onun müttəfiqləri olan İngiltərənin, Fransanın məqsədi bütün dünya üzündə bir dənə də müsəlman hökuməti, müsəlman dövləti qoymamaq idi. Hacıbəyliyə görə artıq İslam xalqları, o cümlədən Rusiya müsəlmanları bunu dərk edib birləşməlidirlər. O, yazırdı: “Bu gündən belə amalımız və əfkarımız bu olmalıdır ki, hər bir yerin, şər bir diyarın müsəlmanları bir-birinə var-qüvvələri ilə kömək edib əcnəbi hakimiyyəti altından azad edilsinlər. Ondan sonra əl-ələ verib İslam aləmi təhtində birləşsinlər və almanlar kimi güclü bir “müşt-zireh” əmələ gətirib hə-

[1254] Yenə orada, s.99-100
[1255] Hacıbəyli Ü. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı, “Şərq-Qərb”, 2005, s.157

mişə davaya hazır olsunlar. Aləmi-İslamın əzəmət və şövkəti ancaq ittihad və ittifaqə bağlıdır”.[1256]

Onun dünyagörüşündə İslam dininə, islamlığa münasibətdə hər zaman müasir, demokratik ruhlu bir yanaşma olmuşdur. Hər halda onun bu məqaləsi də bir daha göstərir ki, Hacıbəyli islamlığın nə həddən artıq ifratlaşdırılmasının, nə də tamamilə bir kənara qoyulmasının tərəfdarı olmamışdır. Bu baxımdan onun islamlıqla bağlı tutduğu mövqeyi daha çox M.Ə.Rəsulzadənin, Ə.b.Hüseynzadənin, Ə.b.Topçubaşının baxışları ilə üst-üstə düşmüşdür.

**Beləliklə,** Üzeyir Hacıbəylinin Azərbaycan Türk fəlsəfi fikri tarixində mühüm yeri və rolu olduğu danılmazdır. Doğrudur, o, daha çox sosial fəlsəfəyə və ictimai-siyasi məsələlərə öz münasibətini bildirmiş, şərhlər vermişdir. Xüsusilə də, Hacıbəylinin türkçülük və islamçılıqla bağlı irəli sürdüyü mülahizələr diqqəti cəlb edir. O, Azərbaycan türklərinin milli oyanışında türkçülüyün yerini çox doğru görmüş və lazimi izahlar vermişdir. Bizcə onun, türkçülük və islamlıqla baxışları daha çox obyektiv xarakter daşımış, yəni nə həddən artıq ifratlaşdırma, nə də idellaşdırma olmuşdur.

Onun türkçülük, Azərbaycan türkçülüyü məsələsində tutduğu mövqeyi Azərbaycan Sovet Rusiyası tərəfindən işğal ediləndən sonra da, mahiyyət etibarilə əsasən dəyişməz olaraq qalmışdır. Sadəcə, 27 aprel işğalından sonra türkçülük və islamçılıq ideyalarında bir qədər ehtiyatlı hərəkət etməyə məcbur olan Hacıbəylinin xüsusilə, bu dövrdə Azərbaycan Türk musiqinin inkişafında yeri və rolu da danılmazdır. Bizcə, o bu dövrdə yazdığı əsərlərində, o cümlədən M.Maqomayevlə birgə ərsəyə gətirdikləri “Azərbaycan Türk el nəğmələri” əsərində milli mədəniyyətimizi ifadə etmişdir.

---

[1256] Hacıbəyli Üzeyir bəy. Nəşrlərdə kənara qoyulmuş, ixtisar və “redaktə” edilmiş əsərləri. Bakı, “Elm”, 2010, s.123

# ABDULLA SUR

**Həyat və yaradıcılığı.** Gəncədə anadan olan Azərbaycan Türk mütəfəkkiri Abdulla Sur-Məhəmmədzadə (1882/83-1912)[1257] Gəncə Məktəbi-Xeyriyyəsini 1898-ci ildə bitirib, daha sonra da burada müəllimlik etməyə başlamışdır. 1903-cü ildə nəşrə başlayan "Şərqi-Rus" qəzeti ilə əməkdaşlıq edən [1258] Sur, 1905-ci ilin yanvarında qəzet bağlandıqdan sonra Gəncəyə qayıdaraq "Həyat", "İrşad", "Tərcüman" qəzetlərinə məqalələr göndərmişdir. 1906-cı il martında İstanbula gedən Surun İstanbul Universitetinin Ədəbiyyat-Tarix fakültəsinə daxil olduğu iddia olunur.[1259] Ancaq Surun İstanbul universitetində təhsil alması ilə bağlı hələlik, rəsmi bir sənəd yoxdur. Sur özü tərcümeyi-halında İstanbuldakı təhsili ilə bağlı sadəcə "xüsusi oxudum" yazmış, İstanbul Darülfunundan bəhs etməmişdir.[1260] 1908-ci ilin payızında vətənə qayıdan Sur, Gəncənin Ruhani seminariyasında Türk dili və tarix müəllimi kimi pedaqoji fəaliyyət göstərmişdir. Surun İstanbulda təhsil almasında mühüm rol oynayan M.H.Rəfiyev onun Mədrəsə-i Ruhaniyyədə müəllim kimi fəaliyyətinə davam etməsində də əsas rol oynamışdır.[1261] Bu zaman ədəbi tənqidlə də məşğul olan Sur, Gəncədəki "Ədəbiyyat və sənayeyi-nəfisə cəmiyyəti"ndə fəal iştirak etmişdir.

Ömrünün gənc çağlarında "kor bağarsaq" xəstəliyinə tutulan A.Sur 1912-ci ilin mayın 8-də Tiflis xəstəxanasında vəfat etmiş, daha sonra nəşi Gəncəyə gətirilərək buradakı şəhər məzarlığında dəfn olunmuşdur.[1262] Abdulla Şaiq, Əhməd Cavad, Hüseyn Cavid,

---

[1257] Mirzəcamalov H.Abdulla Tofiq kim idi?."Təzə xəbər" qəz.,Bakı,22 iyun1912,№31; Qasımov C. Abdulla Surun həyat və yaradıcılığı. Bakı, "Təhsil", 2004, s.15; Talıbzadə K. Azərbaycan ədəbi tənqidinin tarixi (1800-1920-ci illər). Bakı, "Şərq-Qərb", 2015, s.225; Genceli M. Hür fikirli Abdullah Sur. İstanbul, Ötüken, 2021, s.19

[1258]Talıbzadə Kamal. Sənətkarın şəxsiyyəti. Bakı, "Yazıçı", 1978, s. 262

[1259] Fərəcova Zöhrə."O, qəlblərdə yaşayır". "Azərbaycan" qəz.,Bakı,23 iyul 2017, s.6

[1260]Genceli Mehdi. Hür fikirli Abdullah Sur. İstanbul, Ötüken, 2021, s.19-20

[1261] Keykurun Naki. "Mekteb-i Ruhani". "Azerbaycan", yıl;7, sayı 10 (70), ocak 1958

[1262]Qasımov Cəlal. Abdulla Surun həyat və yaradıcılığı. Bakı, "Təhsil", 2004, s.30

Firidun bəy Köçərli xatirələrində Suru milli və vətənpərvər ruhlu ziyalı kimi xarakterizə etmişdir.[1263] Sənəttula İbrahimov isə Surun vəfatı ilə yazırdı: “Yüksəl, ey böyük Türk, böyük könül! Yüksək duyğu sahibi, böyük könül!. Yüksək duyğu sahibi, böyük ruhpərvər əməl… Millət yaşadıqca, millət yüksəldikcə millətin ruhu ilə, amalı ilə sən də yüksələcəksən!”.[1264]

Onun əsas əsərləri “Türk ədəbiyyatına bir nəzər”, “Elm-i iqtisad” və başqalarıdır.

**İslamlıqla türklüyün yenidən dirilişi və inkişafı.** Abdulla Surun dünyagörüşündə islamlıq və türklük mühüm yer tutmuşdur. O, islamlığı nəinki müasirləşməyə zidd saymış, əksinə çağdaşlığın, yenilikçiliyin əsasını təşkil etdiyini bəyan etmişdir. Sura görə, bunu iddia edənlər ya islamiyyətin əsil mahiyyətindən xəbərsizdirlər, ya da bilərəkdən cəmiyyətin şüurunu qarışdırırlar. Onun fikrincə, həqiqi və əsl mədəniyyət islamiyyət deməkdir, əsl və həqiqi mədəniyyət də nə isə islamiyyət də odur.[1265] Çünki islamiyyətin əmriylə mədəniyyətin funksiyaları eyni şey olub, tamamilə üst-üstə düşməkdədir. O, yazırdı ki, islamiyyət də mədəniyyətdə olduğu kimi, insanları nəzakətliliyə, hörmətə, sevgiyə, yardıma, xoşgörüyə, zəhmətə və sair müsbət keyfiyyətələrə dəvət edir: “Libas geyin. Təharət və nəzafətə diqqət edin. Yekdigərnizə hörmət və riayət edin. Sanat və ziraata çalışın. Hər feildə, hər qavildə ittihad və ittifaq göstərin. Rəisləriniz ilə qocalarınıza hörmət qoyun. Qənaət eyləməyə çalışın. Bir-birinizə sədaqət göstərin. Səlahiyyəti xüsumətə tərcih verin. Dininizi, millətinizi və vətəninizi sevin. Yekdigəriniz ilə xoş-rəftar olun. Elm və maarifə harıs və rağıp olun. Qiraət və təhrir öyrənin. Ədalət və mürüvvət sahibi olun. Müsavat və səxavətə alışın. Yemə içmənizə diqqət edin. Xoş-təbiət

---

[1263]Şaiq Abdulla. Əsərləri. 5 cilddə, 5-c cild. Bakı, “Yazıçı”, 1978, s. 384-385; Cavad Əhməd. Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2005, s.26-27; Cavid Hüseyn. Əsərləri. Beş cilddə. V cild. Bakı, “Lider”, nəşr.,2005, s.228; Firidun Bəy Köçərlinin şəxsi arxivi. Bakı, Nurlan, 2006, s.184

[1264] İbrahimov Sənətulla. “Bir məşəl yenə söndü”. “İqbal” qəzeti. Bakı, 1912, №59

[1265] Gəncəvi, Məhəmmədzadə Abdulla. “Din-i İslam tərəqqiyyata mane deyildir”. “Şərq-i Rus” qəzeti, Bakı, 18 iyun1903, № 33

və xoş niyyət olun. Qərib sevin və mehman-nəvaz olun. Cümlə insaniyyət vəzifələrini icra edin. Mədəniyyət də eyni şeyləri əmr etməkdədir, mədəniyyətin buyurduqları da, İslamiyyətin buyurduqlarının eynidir, əsla fəqrləri yoxdur".[1266]

O, yazırdı ki, bütün millətlər maarif və mədəniyyəti əsasən bir-birlərindən iqtibas edə-edə gəlmişlər. İndi dünya cəmiyyətlərinin elm və mərifət nurlarına bürünüb rahat yaşamalarından birinə də səbəbkar İslam mədəniyyətidir. Ancaq son əsrlərdə müsəlmanlar İslam mədəniyyətindən uzaqlaşmaqla cəhalətə yuvarlanıblar. Sur yazırdı: "Bir kərə gözlərimizi açalım da ətrafımıza baxalım. Dünya yoldaşlarımızın cümləsi elm və mərifət nurlarına bürünübdürlər, rahat-rahat yaşayırlar. İstədiklərinə nail olmuşlar, hər məkanda izzət və hörmət görüyorlar. Hər gün, bəlkə hər saat öz millətlərinə xidmət etməkdədirlər. Onlar üçün hər gün bir-iki mərifət, sərvət və istirahət qapıları açıyorlar. Dindaşlarının və vətəndaşlarının qeydinə qalıyorlar. İndi onları bu halətdə, özümüzü cəhalətdə görüncə xəcalət çəkmirizmi? Utanmırızmı?". [1267] Bununla da, o, belə nəticəyə gəlirdi ki, yenidən İslam xalqlarının dirilişini və inkişafını istəyiriksə Avropa millətləri kimi, buna çatana qədər malımızdan, canımızdan, qanımızdan heç bir şey əsirgəməməliyik. Çünki yox yerdən, yaxud da ömrümüzü cəhalət içində keçirməklə nəyəsə nail olmaq mümkün deyildir. O, yazırdı: "Bizim kimi qeyri-müstəqil xalqlar isə mədəniyyət və maarifin əhvali-cəmiyyətə, iqtisadiyə, ziraətə, sənayeyi-necariyə və siyasiyə aid əcsamini tabe bulunduğu dövlətdə olmalıdır. Zira nə olacaq isə, orada olacaqdır, orada yaşayacaqdır, orada öləcəkdir".[1268]

Surun fikrincə, Avropalı millətlərdən ibrət almaq isə yalnız onu təqlid kimi başa düşülməməlidir. Yəni müsəlman türklər öz adət-ənənələrinə hörmət etməklə yanaşı, müasirləşməyə də biganə qalmamalıdırlar. Çünki elə bir əsr gəlmişdir ki, zamanla ayaqlaşmayan millətlər başqa millətlərin arasında əriyib yox olur. Maraqlı-

---

[1266] Yenə orada.

[1267] Sur Abdulla. "Bir tövsiyyə". "İrşad" qəzeti, Bakı, 3 sentyabr 1906, № 207

[1268] Yenə orada.

dır ki, zəmanə ilə ayaqlaşmaq və maarif kəsb etmək üçün Avropa millətlərindən, o cümlədən Rusiyadan nümunə götürməyi tövsiyə edən Sur milli keyfiyyətləri isə Osmanlıdan öyrənməyi məqbul saymışdır. Bunu, Sur belə izah etmişdir: "Maarifin lisan, ədəbiyyat, din və şəriət kimi milli şöbələrinə gəlincə, həmcins bulunan digər müstəqil hökumət var isə mütləq oradan əxz etməlidir. Demək istərəm ki, mədəniyyət və maarifi-ümumiyyəti Rusiyadan, Avropadan öyrənəlim. Milli libasımız, ədəbiyyatımız və bunlara dair ülum və fünunu da İstanbuldan alalım. Madam ki, kəndi aramızda müqtədir ədiblər, mühərrirlər, müəllimlər yoxdur, mütləqa oraya möhtacız. Bizə görə, ədəbiyyat elmində İstanbullu Türk qardaşlarımız ilə bir dərəcəyə gələlim də sonra İstanbuldan müstəqil oluruz. Onlar ilə bərabər lisanımızın islahını, ədəbiyyatımızın kəsbi-vüsət etməsini biz də çalışmaya başlarız. Şimdilik onlara möhtac olduğumuzu danmayacağız".[1269]

Milli dəyərləri, milli adət-ənənəni ön plana çəkən Surun fikrincə, yalnız bunları qorumaqla "Türk oğlu Türk olmaq"[1270] mümkündür. O, yazırdı: "İstanbula ikmali-təhsil dalısınca gedənlər geniş məlumata malik olmalı, Türk dilini, Türk ədəbiyyatı və tarixini sevməli, bilməlidir. Bununla belə rus dilini də bilməlidir. Yoxsa ələ keçən mahiyyəti məchul mübtədilləri göndərir isək, azı on-on iki sənə daha onların ikmali-təhsil etmələrini bəkləməliyiz. Nəhayət, dəxi mətləbimizə müvafiq ya olar, ya olmaz. Olmaq ehtimali ilə bərabər, olmamaq ehtimalı da varid oluyor. Bu isə həm təkamül, həm də iqtisad nöqteyi-nəzərindən cəmiyyətə faydalı deyildir".[1271] A.Sur daha sonra yazırdı ki, məktəbdən məzun olub İstanbula gedərək, orada iki-üç tərəfdən mükəmməl türkcə öyrənsəniz millət üçün ən böyük xidmətkarlardan olursunuz: "O zaman sizdən vətən də istifadə edə bilər, ədəbiyyatımız da sizdən müstəfid olur, maarifimiz də sayənizdə irəlilər. Kəndiniz rifah-hal ilə yaşarsınız, cəmiyyəti-bəşəriyyəyə də xeyirli biri olursunuz.

---

[1269] Yenə orada.
[1270]Sur Abdulla. "Tövsiyyəyə dair izahat". "İrşad" qəzeti, Bakı, 1906, № 215
[1271] Yenə orada.

Başınızda "fənər", ürəyinizdə "mələk", ağzınızda "təbliğat" olduğu gəzər, dolaşarsınız".[1272] Cəlal Qasmovun fikrincə, bu düşüncələrinə görə Surun milli yol tutması şübhəsizdir:"Tövsiyyədən də göründüyü kimi, ədəbiyyatımızın, maarifimizin irəliyə inkişafı naminə soya, kökə müraciət etmək, tarixi keçmişə qayıtmaq vacib şərtlərdəndir. Bu tezisdən o da aydın olur ki, insanın hər işi gərək vətənə və millətə xidmətə yönəldilsin. Bugünkü müasir ədəbi hərəkat da, ictimai həyatdakı hadisələr də həmin tezisin müasirliyini və həqiqətə nə dərəcədə yaxınlığını bir daha sübut edir".[1273]

**Qərb-Şərq mədəniyyətlərinin müqayisəsi.** Sur Osmanlıda (1906-1908) olarkən İslam-Türk mədəniyyəti ilə yanaşı, Qərb mədəniyyətinə də geniş yer vermişdir. İstanbulda yazdığı məqalələrində bir daha Şərqlə Qərb mədəniyyətlərini, İslam dini ilə Xristian dinini müqayisə edən Sur əvvəlcə üstünlüyü sonunclara vermişdir. O, yazırdı: "Avropanın burnunu uzatdığı yerlər müqabilində Asiya çəkilərək, Asiyanın soxulduğu məhləllər qarşısında Avropa qaçaraq, Boğaza bir vəchlə tənazür verilmişdir ki, hər iki qitə bir az daha yaxınlaşmış olur isə,dodaqları tamamilə bir-birinə müntəbağ olur".[1274] O hesab edirdi ki, Avropa-Qərb mədəniyyətindən faydalanmaqla Asiya-Şərq mədəniyyətini inkişaf etdirmək mümkündür. Bunu məcazi mənada İstanbulun Avropa və Asiya hissələrini müqayisə edən Sur yazırdı: "Qərb mədəniyyətinin müəksi Şərq cəhalətinin mədfidir. Ənvari-mədəniyyət Qərbdən süzülə-süzülə buraya qədər gəlir də burada ərir... Cəhalətlə maarifin təzvicini sin etmək istəyən, dər səadətə varsın, Şərq ilə Qərbin emtizacını görmək istəyən İstanbula getsin".[1275] Surun bu əsərindəki Qərb və Şərqə münasibətdəki nəticələr Məhəmməd Hadinin bununla bağlı fikirləri ilə üst-üstə düşür.[1276] Çünki Hadi də Şərqlə Qərbi müqayisə edərək yazırdı ki, Qərbdə maarif, elm,

---

[1272] Yenə orada.
[1273]Qasımov Cəlal. Abdulla Surun həyat və yaradıcılığı. Bakı, "Təhsil", 2004, s.50
[1274]Sur Abdulla."Boğaz içində günəş doğarkən". "Tərəqqi" qəzeti, Bakı, 1909, № 85
[1275]Sur Abdulla. "Günəş doğduqdan sonra". "Tərəqqi" qəzeti, Bakı, 1909, № 97
[1276]Qasımov Cəlal. Abdulla Surun həyat və yaradıcılığı. Bakı, "Təhsil", 2004, s.69

hürriyyət, səadət, işıq, bəsirət, qanun olduğu halda, Şərqdə cəhalət, əsarət, zülmət, ətalət, səfalət, mövhumat, fanatizm hökm sürür.[1277]

Məmməd Cəfər Surun Qərb və Şərqə münasibətdəki dəyərləndirmələrinə nəzərən yazırdı ki, Şərq romantiklərin nəzərində qəflət yuxusuna dalmış, müasir mədəniyyətdən uzaq düşmüş, azadlıqdan məhrum olan mövhumat Şərqi idi: "Bunları birinci növbədə Şərqin mədəni, iqtisadi və siyasi geriliyi düşündürürdü. Buna görə də Şərq təbiətindən danışanda da, onun insan əli dəyməyən vəhşi gözəlliklərindən bəhs açmaq heç yadlarına düşmürdü. Əksinə, Şərqdə də təbiəti insana tabe etmək, təbiəti fəth etmək haqqında düşünürdülər. Qərb mədəni həyatına gəlincə, XX əsr Avropa romantiklərinin əksinə olaraq, Qərbin mədəni həyatı onların nəzərində Şərqə nisbətən ideal həyat kimi görünürdü".[1278]

Beləliklə, Qərbi Şərqə nisbətdə ideallaşdıran A.Sur bu məsələyə uyğun olaraq islamlıq və xristianlıq dinlərini də müqayisə etmişdir. Onun fikrincə Qərb-Şərq ayrımı eyni zamanda, İslam-Xristian ayrımıdır. O, İstanbulun müsəlmanlarla xristianlar yaşayan hissələrinin bir-birindən fərqlənməsinin səbəblərini izah etməyə çalışmışdır. Sur İstanbulun müsəlmanlar yaşayan məhəllənin gecəsi ilə xristianların gecə yaşamı ilə bağlı yazırdı: "Xaliç, şəhərin Avropa qismini ikiyə ayrır: İstanbul-Bəyoğlu yaxud İslam-Xristian. Bu iki qisim arasında səy ilə ətalət, nur ilə zülmət, hal ilə mazi qədər fərq vardır. Gündüz çox bəlirgin olmayan bu fərq, gecə olunca daha da gözə batmaqdadır. Gecənin bastırmasıyla şəhərin müsəlman qismi "iflic və pislik"də olarkən Xristian məhəlləsində sabaha qədər "həyat və feyz əsəri" görülməkdədir... Müsəlman qismində dərin boşluq içində uzaqdan-uzağa ara-sıra görünən əli fanarlı (kağız fonuslu) yolçular çürük məzarlar içində sönük-sönük parlayan fosfor qırıntılarına bənzər... Seyrək-seyrək, fəqət sürəkli-sürəkli köpək ulamaları bayquş iniltisini əxtar ilə qırıq-sökük çalğıdan qoyub, sürünən iniltiyə qarışaraq, bu dərin sükutu yırtar... Xristianların bulunduğu məhəllədə sabaha qədər əsəri-həyat feyzi

---

[1277] Hadi Məhəmməd. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2005, s. 267

[1278] Cəfər Məmməd. Seçilmiş əsərləri. I cild. Bakı, Azərnəşr, 1974, s.96

cəlaliyyə görünməkdədir. Xristian İstanbul bağçaları, bulvarları, teatroları, konsertləri, sinemaları, klubları ilə bir əyləncə, cilvə və qəhqəhə məkanıdır”.[1279]

Sur, qeyri-müsəlman millətlərin yeni ilə “təbriklər, nəşələr, qəh-qəhələrlə” girdiyini söyləyib buradan hərəkətlə, şərqli və qərbli olmaq üzrə iki ayrı insan tipini təsvir edir: “Şərq əhalisi ölgün gözlü, ağırbaşlı, ağlar könüllü keçinirlər. Həyatları çətin, sönük, yalnız və loş olur. Yavaş yavaş, soyuq soyuq və bir sıra pisliklər içində sürünürlər. Qərb əhalisi isə oynaq, diribaş, hər dəm şad yaşarlar. Həyatları dilbər və şaşaalı qəhqəhələr, rəngin və gürultulu şənliklər içində uzanıb gedər”.[1280] Halbuku 120 il bundan əvvələ qədər Avropanın da cəhalət və gerilikçilik içində olduğunu yazan Sura görə qərblilər cəhalət, xurafat üzərində qələbə çaldıqları kimi, müsəlmanların da bu yolda bacarmamağı üçün heç bir səbəb yoxdur. Bu baxımdan Sur geri qalmış müsəlman ölkələri üçün çıxış yolunu “Avropa üsul-i idarə və nizamatını islamiyyətə tətbiq etməkdə” görmüşdür. [1281] Ancaq bu məsələdə Surun mövqeyi dönəmin əksər aydınları kimi, ondan ibarət idi ki, Qərbin əxlaqını deyil, elmini almaq lazımdır.[1282] O, kor-təbii şəkildə Qərbin təqlidçiliyin əleyhinə olub, belə bir təqlidçiliyin gələcəkdə böyük problemlərə yol açacağını bildirmişdir. Ona görə böyük Türk milləti olaraq zaman-zaman çinlilərə, ərəblərə, farslara və başqa xalqlara müəyyən qədər meyil göstərmişik ki, hazırda da bir qismimiz ingilis, digər qismimiz isə rus adət-ənənələrinə meyil edirik.[1283]

Sur bütün bunlara baxmayaraq müsəlman dünyasının, Şərq mədəniyyətinin oyanacağına və dirçələcəyinə ümidini kəsməmişdir. Bu baxımdan, çox keçmir ki, “Şərqdə şəfəq sökülərkən”, “Günəş doğduqdan sonra”, “Xavər zəmin oyandı” məqalələrində

---

[1279]Sur Abdulla. “Günəş doğduqdan sonra”. “Tərəqqi” qəzeti, Bakı, 1909, № 97

[1280]Sur Abdulla. “Tarixə bir nəzər”. “Həqiqət” qəzeti, Bakı. № 34, 36,37, 60, 61; 11, 14, 15 fevral, 19, 21 mart 1910

[1281]Sur A.“İrana məxsus bir mülahizə”. “İrşad” qəzeti, Bakı, 7 sentyabr 1906, № 210

[1282] Yenə orada.

[1283]Tofiq Abdulla. “Məktəblərdə xəyal-i fənər yaxud sinematoqraf”. “Həqiqət” qəzeti, Bakı, 1 iyul 1910, № 149

artıq Sur, Şərq və İslam dünyasının oyanışından bəhs etmişdir: "Demək ki, Şərq oyanıyor… O Fərabilər, Firdovsilər, Nizamilər yetişdirən Asiya oyanıyor. Demək ki, Oğuzların, Çingizlərin, Teymurların məzarı qiyam ediyor!".[1284] Surun araşdırmaçılarından olan tədqiqatçı-alim Mehdi Gəncəli hesab edir ki, mütəfəkkirin toxunduğu mövzu yeni deyildir və əvvəllərdə bu məsələ mütəfəkkirlərimiz tərəfindən çox müzakirə və mübahisə səbəbi olmuşdur. M.Gəncəli yazır: ""Şərq-Qərb" yəni "Doğu-Batı" qarşılaşdırılması Qərb qarşısındakı mütləq üstünlüyün qeyb edildiyi zamanda bəri Türk aydının dəyişməyən və eyni zamanda içindən tam olaraq çıxa bilmədiyi mövzulardan biridir, hətta bu mövzuların başında gəldiyi belə danışla bilər. Elmi, texnologiyası, mədəniyyəti, sənəti və ümumi xüsusiyyətləri ilə bərabər bu iki fərqli dünyayı qarşı-qarşıya qoyan, müqayisə edən, sorğulayan, bütünləşdirməyə ya da ayrışdırmaya, barışdırmaya ya da savaşdırmaya çalışılan qeyrətlər də o gündən bü günə davam etdirilməkdədir. Sur da bu iki dünyayı müqayisə etməkdən özünü alamamış, yer yer ölçülü, yer yer də ölçüyü qaçırmış bir şəkildə Batıdan yana bir tövr qoymuşdur deyilə bilər. Abdulla Surun Doğu-Batı qarşılaşdırmaları arasında elə bir qarşılaşdırmaya rast gəlinir ki, qayət simvolik olmaqla bərabər, Surun bu mövzudakı tutumunu açıqlığa qovuşdurmaq baxımından qayət diqqət çəkicidir".[1285] C.Qasımova görə isə burada Surun əsas ideyasını Qərbi ideallaşdırmaqdan çox Şərq taleyi məsələsi təşkil etmişdir: "Bu qayə onun yaradıcılığının ictimai məndəricəsini də düzgün təyin etməyə imkan verir. Məlum olur ki, A.Sur yalnız öz millətinin, yaxud Türk xalqlarının deyil, eyni zamanda. Bütün Şərqin gələcəyi barədə düşünürdü".[1286]Sur "Xavər zəmin oyandı", "Sərnigün ümidlər"və digər məqalələrində də Şərqin oyanmasına böyük ümidlər bəsləmişdir.[1287]

---

[1284]Sur Abdulla. "Şərqdə şəfəq sökülərkən". "Tərəqqi" qəzeti, Bakı, 1909, № 117
[1285]Genceli Mehdi. Hür fikirli Abdullah Sur. İstanbul, Ötüken, 2021, s.54-55
[1286]Qasımov Cəlal. Abdulla Surun həyat və yaradıcılığı. Bakı, "Təhsil", 2004, s.74
[1287]Sur Abdulla. "Xavər zəmin oyandı". "Günəş" qəzeti, Bakı, 1910, № 49; Sur Abdulla. "Sərrnigün ümidlər". "Yeni İrşad" qəzeti, Bakı, 1911, № 14

**Milli cəmiyyətlərin təşkili və cəmiyyət anlayışı.** O, Şərqin oyanıb inkişaf etməsi üçün milli cəmiyyətlərin yaranmasını çox önəmli saymışdır. Onun fikrincə, indiki zamanda cəmiyyətsiz iş görülmür, xüsusilə də müstəmləkəçilikdən əziyyət çəkən xalqların buna ciddi ehtiyacı vardır. Sur yazırdı: "Yalnız əldən səs çıxmaz demişlər. Bizim kimi millət-i məhkumələrin islahı-əhvali, ancaq milli yaxud ümumi cəmiyyətlərlə bağlı ola bilər. Cəmiyyət öylə bir ali qüvvətdir ki, hökumətlər də ondan müstağni olmazlar".[1288] Müxtəlif problemlərin mahiyyətinə uyğun olaraq da ayrı-ayrı milli cəmiyyətlər təşəkkül etməlidir. Məsələn, Sura görə belə təşkilatlardan biri milli xeyriyyə cəmiyyətləri olmalıdır. O, yazırdı: "Hər yerdə cəmiyyət-i xeyriyyələr təsis və tərtib edib fəqirlərimizə, yetimlərimizə, bikəslərimizə, dullarımıza, dilənçilərimizə, qocalarımıza, şikəstlərimizə və korlarımıza ianə edəlim".[1289] Sura görə Azərbaycan türklərinin də cəhalət qaranlığından mərifət aydınlığına çıxması üçün xərclər, məsrəflər lazımdır: "Başqa dövlətlilər yanında ibrət alın. Onlar öz millətləri xeyrinə yüz minlərcə, bəlkə milyonlarca ianələr veriyorlar. Siz də millətimizin qeydini düşünün! Bəzi cahillər kimi "millətin boğazına biləyim" deməyin".[1290] Sura görə zəmanəyə müvafiq milli təşkilatlar, milli cəmiyyətlər ortaya qoymaqla yanaşı, həmin təşkilatların vasitəsilə yeni adətlər, yeni rəsimlər (formalar- F.Ə.) də qəbul etməliyiz: "Bu adətlər bizim dinimizi, islamiyyətimizi əlimizdən almaz. Bilaəks millətimizi cəhalət girdabından xilas edər".[1291]

O, "Elm-i iqtisad" əsərində Spenserin "ictimai təkamül" nəzəriyyəsini təhlil edərkən "cəmiyyət" sözünə aydınlıq gətirməyə çalışmışdır. Cəmiyyətlərin digər canlı varlıqlar, canlı orqanizmlər kimi təkamül yolunu tutduğunu mülahizəsini (Spenser) qəbul edən Sur bunu, günəş sistemi misalında izah etmişdir. Sur yazırdı: "Cəmiyyətin kəndi-kəndisindən bəzi tərtibat hasilə gələrək sünuf-i

---

[1288] Sur Abdulla. "Əkinçilərə aid". "İrşad" qəzeti, Bakı, 19, 22 may 1906, №117, 119

[1289] Gəncəvi, Məhəmmədzadə Abdulla. "Ay müsəlman qardaşlar". "Şərq-i Rus" qəzeti, Bakı, 22 iyun1903, № 35

[1290] Yenə orada.

[1291] Yenə orada.

müayyinə təşəkkül edir. Vəzaif-i cəmiyyətdə də belə olur. Əksəriyyət-i xalqdan ayrı bir qüvvət-i hakimə peyda olur. Sonra infirah edir. Qüvvət-i qanuniyyə qüvvət-i icraiyədən ayrılır. Qüvvət-i qanuniyyə də bilaxirə ayrıldığı kimi, qüvvət-i icraiyyə də hüquq və cəza qisminə təfərrük edir və bir tərəfdən də polis-jandarma ayrılır. Sonra bunlar da ayrıca təfərrük edərək, şöbələr hasilə gəlir”.[1292]

Sura görə insanlar arasındakı yaxınlıqların dərəcəsi bir-birinin içində olmaqla üç həlqə: qövmiyyət, dindaşlıq, insanlıq şəklindədir. O, yazırdı: “Yekvücudluq aləmində üç dərəcə vardır: qövmiyyət, dindaşlıq, insaniyyət. Bir çoxları kimi biz də bu üç dərəcəyi bulmaq məcburiyyətindəyiz. Türk olduğumuz üçün Türklüyü, Müsəlman olduğumuz üçün İslamiyyəti, İnsan olduğumuz üçün də İnsaniyyəti unutmamalıyız. Biz daima Türk, Müsəlman, İnsan olmaya çalışmalıyız”.[1293]

**İslmaiyyət və türklük.** Sur hesab edirdi ki, Türk milləti ali insani dəyərlərə sahib olduğu üçün milli dini olan Tanrıçılıqdan yaxud Göy Tanrıçlıqdan islamiyyətə keçdikdən sonra da öz əski dini inanclarını qoruyub yaşatmışlar. O. yazırdı: “Bir millət birinci dinindən çıxıb da ikinci bir din qəbul etməklə birincidən büsbütün əl çəkməz, onun bəzi izləri ikinciyə qarışaraq gedər... Biz türklər İslam dinində bulunduğumuz halda əski etiqadlarımızdan bəzi izlər, bəzi “gen”lər hələ də yaşamaqda, dilimiz ucunda dönüb dolaşmaqda və axıb tökülməkdədir. Suyun ərənlərinə, ocağın atəşinə, çırağın işığına, günəşin ziyasına and içərik; göyə, ulduza, günəşə yəmin edərik. Ulu ağacları, yüksək dağları, bəzi qəbirləri ocaq və pir ittihz edəriz, tapınırız ki, bunların cümləsi bütpərəstlikdən, atəşpərəstlikdən.. qalma yadigarlardır. Bu hal yalnız türklərdə deyil, başqa millətlərdə də görülmüşdür”.[1294]

---

[1292] Sur Abdulla. Elm-i iqtisad. Azərbaycan Respublikası Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu, 3576 FR 544, s. 73-74

[1293]Sur Abdulla. “Türkiyədə məktəblər məramnaməsi”. “İrşad” qəzeti, Bakı, 15 may 1906, №114

[1294]Sur Abdulla. “Tarixə bir nəzər”. “Həqiqət” qəzeti, Bakı. № 34, 36,37, 60, 61; 11, 14, 15 fevral, 19, 21 mart 1910

Sura görə islamiyyət xristianlıq, yəhudilik, buddizm, şamanlıq, tanrıçılıq kimi bir-birindən fərqli inanclara mənsub bulunan, dolayısıyla inanc baxımından parçalanmış olan türkləri birləşdirmişdir. O, yazırdı: "Türklərin ən son qəbul etmiş olduqları din, İslam dinidir. Türklər hər nə qədər bir qanlı, bir ruhlu millət isə də gərək siyasətən, gərək dinən çox zaman bir-birlərindən ayrı yaşamışlar. Hər parça kəndi başına bir aləm, bi cahan olmuş. Islamiyyətdən əvvəl türklərin bir qismi xristian, bir qismi yəhudi, bir qismi buddist, bir qismi də şamani idi. İslamiyyət mənən bunları birləşdirdi. Türklər din-i İslamı rəsmən və ümumən hicrətin 350-ci sənələrində qəbul etdilər".[1295]

Son əsrlərə qədər daha çox inkişafda olan, hazırda da digər müsəlman Türk xalqlarına nisbətən ön plana çıxan Osmanlı türkləridir. Onun fikrincə, Osmanlı türkləri təhsildə, maarifdə, tibbdə, hərbdə, sənayedə, ədəbiyyatda və digər sahələrdə nisbətən irəliləməkdədir. Sura görə müsəlmanlar üçün bir elm və kültür mərkəzi kimi Osmanlının, özəlliklə İstanbulun kitabxanaları digər müsəlman cəmiyyətlərin də çoxca faydalanmaları gərəkən yerlərdir.[1296] Ona görə Qafqaz türklərinin də milli lisan və ədəbiyyatda örnək alacaqları və elm öyrənəcəkləri yer Osmanlıdır. Bu baxımdan Sur hesab edirdi ki, Qafqaz türklərinin Osmanlı universitetlərində elm və təhsil alması təbiidir. Çünki eyni soykökə, adət-ənənələlərə, dinə bağlı olan Osmanlı və Qafqaz türklərinin bir-birlərindən əsasən ayrı-seçkilikləri yoxdur. Deməli, A.Sur təxminən yüz il bundan öncə Türk xalqlarının birliyi üçün eyni elm və təhsil xətti tutub vahid düşüncənin, məfkurənin formalaşmasının əhəmiyyətini görmüşdür.

**Ortaq Türk dili məsələsi və türklük.** Sur Türkiyə türkləri və Azərbaycan türklərinin həm dillərinin, həm də soyköklərinin bir olduğunu bəyan edirdi. Onun fikrincə, sadəcə Osmanlı türkcəsi Azərbaycan türkcəsinə nisbətən bir qədər çətin anlaşılır. Buna səbəb də Osmanlı türkcəsinin ərəb-fars dillərinin təsirinə daha çox

---

[1295]Sur Abdulla. "Türk tarixi". "Həqiqət" qəzeti, Bakı,5, 6 iyun1910, № 152, 153
[1296]Sur A. "İrana məxsus bir mülahizə". "İrşad" qəzeti, Bakı, 7 sentyabr 1906, № 210

məruz qalmasıdır. Bu baxımdan da o, yazı üslubunda Azərbaycan ədəbi türkcəsinin Osmanlı ədəbi dilinə bənzədilməsinin əleyhinə olmuşdur. Sur hesab edirdi ki, ortaq türkcə Osmanlı və Türkiyə türklərinin mümkün olduğu qədər, ərəb-fars dillərindən kənarda formalaşmalı, inkişaf etməlidir. Ancaq bütövlükdə Türkiyə və Azərbaycan türklər vahid Türk millətinin övladları, vahid Türk dilinin təmsilçiləridir. Bu mənada, Sur M.Ə.Sabir kimi, "osmanlı dilindən türk dilinə tərcümə" anlayışını qətiyyən qəbul etməmişdir. O, yazırdı: "Osmanlı millətinəcibəsinin xalis türk olduğunu heç bir tarix, binaəleyhi heç bir fərd inkar edə bilməz! Əvət, osmanlılar Türk, dilləri də Türk dilidir. Bu milləti-aliyyə biz Qafqaz müsəlmanları ilə dində olduğu kimi, lisanca da qardaşdırlar. Yəni onlar da Türk, bizlər də Türküz. Aramızda bir fərq var isə, o da ləhcə və şivəmizdə, bir də osmanlı üdəbasının ərəb və fars ədəbiyyatlarına tüğl edərək əlfazi qəribə-qəribə istemal etmələrindədir. Odur ki, bunların yazdıqlarını oxuyub anlamaq bizcə güc olur. Zira osmanlılar bu halları ilə türklükdən çıxmazlar".[1297]

Sur yalnız dövrünü deyil eyni zamanda, bu günümüzü də görərək Türk birliyi baxımından dil birliyinin vacibliyini əsaslandırmağa çalışmışdır. Bu baxımdan o, daha sonra yazırdı: "İndi baxalım: "Osmanlı şivəsində, Osmanlı ləhcəsində yazılmış bir Türk kitabını Azərbaycan türkcəsinə tərcümə etmək" demək səhihmidir, yoxsa qələtmidir? Binaəleyh, əvvəlcə tərcümənin nə olduğunu anlayalım. Budur, önümdə duran Şəmsəddin Sami bəy həzrətlərinin "Qamusu-ləfzi"sini açıb baxıram: tərcümə - bir lisandan digər lisana döndərmə. Anlaşıldımı? Osmanlıllar ilə azərbaycanlılar bir millət və bir dildə olduqları üçün, Osmanlı türkcəsindən Azərbaycan türkcəsinə tərcümə etmək demək qələt, həm qələti-fəhşdir".[1298] Çox təəssüf ki, Surun təbrincə desək, bu gün də Türkiyə türkcəsindən Azərbaycan türkcəsinə "tərcümə" edənlər vardır. Şübhəsiz,

[1297]Sur Abdulla. "Tərcüməmi, təbdil və yaxud təhvilmi?". "Günəş" qəzeti, Bakı, 20 oktyabr 1910, № 102
[1298] Yenə orada.

bunun adı da "qələt, həm qələti-fəhşdir", yəni kökündən yanlışdır. Doğru olanı isə, "tərcümə" deyil, uyğunlaşdırmadır.

Sura görə tatar türklərinin dili ilə Türkiyə türklərinin şivələrində müəyyən fərqlərdən bəhs edildiyi halda, bunu Türkiyə türkləri ilə Azərbaycan türklərinə aid etmək mümkün deyildir. O, yazırdı: "...Tatarca ilə İstanbulcanın arasında tərkibat, tələffüz və ləhcəyə xeyli fərq vardır. Bizdə isə o qədər uzaqlıq yoxdur. Lisanımızın təqsimatı da bunu göstəriyor. Turani əqsamindən olan "türkcə" qərbi, şərqi, şimali adları ilə üçə bölünüyor. Qərbi olan şöbə osmanlıca, türkcə və İranda müsəmməl şivələrdən ibarətdir. Türkcə bizimkidir. İkinci qism olan şərqi şöbəsi isə tatar, qırğız, türkman, cığatay, kaşfər və altayı dillərindən və və şimali sinfi isə şimalda yakut və sairədən ibarətdir".[1299]

"Türk tarixi" adlı məqaləsində də Sur, bir millətin varlığında və inkişafında milli dilin, milli kültürün önəminin nə qədər böyük olduğunu vurğulamışdır. O, yazırdı: "Filhəqiqə başqa qüvvətli bir millətin içində əriyib yox olmaq istəməyən millətlər öz dillərinə, öz ədəbiyyatlarına, milli adətlərinə dörd əlləriylə sarılmalıdırlar, fəqət mühafizəkarlıqla deyil, tərəqqi etməklə yaşamalıdırlar".[1300]

Sur, "Nigar xanım" məqaləsində isə Nigar xanımın sözləriylə türklüyün bir qürur yeri olduğunu, Türk dili, Türk mədəniyyəti, bir sözlə türklüklə iftixar etdiyini dilə gətirmişdir: "Macar qövmi iləmi, Türk milləti iləmi iftixar etdiyimi soruyorsuz. Ziyarətimə gələn avropalılar bana "macar" deyirlər. Darılmam. Pədərim həp nə qədər macar idisə də, İstanbulda tərbiyə almış idi. Ana dilini belə hətta unutmamışdı. Bən kəndim macarca bilməm. Vətənim İstanbulu pək sevərəm və buradan ayrılmaq istəməm. Bu günə qədər İstanbuldan uzaqlara getmədim. Vətənim Türk vətəni, dilim Türk dili. Anam Türk qızı olub kəndim də Türkiyədə doğulub böyüdüyüm üçün türklüklə daha ziyadə iftixar edirəm. Bən bir Türkəm! Bən bir müslimətəyəm!.. Macarlar dəxi bir qövmi-nəcib olduqları üçün qəlbimdə bu millətə aid də bir hiss məfxərət bəslərəm. Zatən

[1299]Sur Abdulla. "İstanbulda tələbələr qərarı". "İrşad" qəzeti, Bakı, 1906, № 264
[1300]Sur Abdulla. "Türk tarixi". "Həqiqət" qəzeti, Bakı,5, 6 iyun1910, № 152, 153

əslimiz bir degilmidir? Əqvami-Turaniyədən bulunan macarların dəxi əsası Türk olduqları tarixcə müsbət degilmidir?”.[1301]

Deməli, Surun Türk dilinə və türklüyə münasibəti dəqiq və aydın olmuşdur. O, birmənalı şəkildə Azərbaycan və Türkiyə türklərinin ortaq Türk dilinə, ortaq Türk soykökünə sahib olmasını vurğulamışdır. Eyni zamanda, o, bir qədər fərqli şivələrdə danışan, ancaq soy kökü bir olan Türk xalqlarının Turan məfkurəsi altında birliyini də mümkün görmüşdür.

**Erməni separatizminin ifşası.** Surun yaradıcılığında 1905-1906-cı illərdə Çar Rusiyasının imperiya maraqları çərçivəsində gerçəkləşdirdiyi erməni-müsəlman münaqişəsinə də müəyyən qədər yer verilmişdir. O, bu münaqişəyə həsr etdiyi məqalələrində ermənilərin maşa kimi imperiya tərəfindən istifadə edilməsinin səbəblərini, Azərbaycan türklərinin hədəf seçilməsinin təsadüfi olmamasını göstərməyə çalışmış, ermənilərin “separatizm” ideyasının mahiyyətini ifşa etmiş, bu münaqişənin planlı şəkildə türklərin məhvinə və bəzi ərazilərdən köç edilməsinə hesablandığını iddia etmişdir. Separatizmin humanizmə zidd olduğunu irəli sürən Sur yazırdı ki, erməni daşnaklarının Qafqazda bu çür çirkin oyunlar oynaması təsadüfi deyil. Burada əsas məqsəd bəzi bölgələrdə iç-içə yaşayan erməniləri türkləri qarşı qoymaq və türkləri öz doğma yurd-yuvalarından didərgin salmaqdır. O, yazırdı: “Bilməm, bəlkə “separatizm” (ayrılıq) istəyirsiniz? Böylə isə bu başqa məsələ. Əfəndim bunda da yanlış gediyorsunuz. Bu heç mümkün deyil!.. Qafqasiyamızda sizin üçün separatizm əsla mümkün deyil. Qafqasiyada bu fikrə səfsətəpərdaz Daşnaksütyun yazıçılarından başqa heç kim düşməz. Bu fikrə qoyun laməhalə gürcülər ilə dağıstanlılar düşsünlər ki, onlar başqa millətlərlə qarışıq deyil, deyiləcək dərəcədə top yaşayırlar. Məvərayi-Qafqasiyada isə müsəlmanlar ilə ermənilər qarışıqdırlar. Nə müsəlmanlar ermənilərin içindən çıxıb torpaqlarını ermənilərə verib bir tərəfə çəkilməzlər, nə də ermənilər eylə yapmazlar”.[1302] C.Qasımova görə Surun

[1301]Sur Abdulla. “Nigar xanım”. “Füyuzat” jurnalı, Bakı, 1907, № 18
[1302]Sur A. “Xoruzun quyruğu görünməyə başladı”. “İrşad” qəzeti, Bakı, 1906, № 50

bu mülahizəsi öz dövrü üçün prinsipcə doğru idi: "Nəzəri baxımdan burada elə bir yanlışlıq yoxdur. Hətta maraqlıdır ki, dünya təcrübəsi də bu amilin doğruluğunu sübut edir. A.Sur da lazımi dəlillər gətirir. Yazır ki, İsveçrə də nemeslər ilə firənglər, macarlar ilə də nemeslər çox yaxşı, rahat yaşayırlar. Lakin açınacaqlı olsa da, son illərin hadisələri dünya təcrübəsinin əleyhinə olan faktları da ortaya çıxardı. Eyni zamanda, A.Surun millətlərin qarışıq halda yaşamaları barədəki elmi nəticəsi, təəssüf ki, zərbə altında qaldı. İndi Ermənistan ərazisində bir nəfər də olsun azərbaycanlı qalmamışdır".[1303]

Erməni millətçilərinin separatizm ideyasının arxasında gizlənən niyyətlərini ustalıqla ifşa edən A.Sur yazırdı ki, türklərin bəlli ərazilərdən, xüsusilə də İrəvan və ətrafdakı yurd-yuvalarından köç etdirilməsi əvvəlcədən planlaşdırlmışdır. O, yazırdı: "Daşnak-sütyunçular! Çox bildiyinizdən özünüzü itirmişsiniz. Bir azca özünüzə gəlin! Separatizm Qafqasiyada sizin üçün müyəssərmi? Xoruzun quyruğu görünməyə başladı. Siz daşnaksütyunçular "separatizm"ə çalışyor imiş! Bəli! Zənnimcə, erməni qövmi ilə müsəlman qövmi bir bəhanə ilə çırpışdırıb erməniləri "Qars" oblastı ilə "İrəvan" vilayətinə toplarsız. Oradakı müsəlmanları da Gəncə, Bakı vilayətlərinə qaçmağa məcbur edərsiz. O vəqt erməni qövmünü Türkyə hüdudunda Qars oblastı ilə İrəvan vilayətinə toplarsınız. Sonra da hökumət ilə çırpışıb separatizmə nail olarsınız. Digər tərəfdən də Samsun, Zeytun, Muş, Van, Səlmas erməniləri də sizə iltihaq edərlər, məramnıza çatarsınız. "Böyük Ermənistan" dövlətini təşkil etmiş olarsınız. Katalikosunuz da məşhur arzusuna çatar: "Ermənistan padşahına dualar oxuyar, onun başına öz əli ilə tac qoyar!". Xeyir olsun, yaxşı yuxudur! Dadlı umaşdır! Əfsus ki, qaşığı yanında deyil!".[1304]

Sur bu məqalələri ilə XX əsrin əvvəllərində baş vermiş erməni-müsəlman münaqişələrinin əsil mahiyyətini açıb göstərmə-yə çalışmışdır. Buradan aydın olunur ki, "Türkyə hüdudunda Qars

[1303]Qasımov Cəlal. Abdulla Surun həyat və yaradıcılığı. Bakı, "Təhsil", 2004, s.60-61
[1304]Sur A. "Xoruzun quyruğu görünməyə başladı". "İrşad" qəzeti, Bakı, 1906, № 50

oblastı ilə İrəvan vilayəti"nin türklərdən təmizlənməsi təsadüfi olmamış, gələcəkdə bu torpaqların hesabına "erməni dövləti"nin yaranmasına zəminlər yaradılmışdır.

**"Türk ədəbiyyatına bir nəzər" fundamental əsəri və ədəbi-tənqidi görüşləri.** Surun ədəbi-tənqidi görüşlərinə gəlincə, Kamal Talıbzadə hesab edir ki, onun ədəbiyyat tarixinə həsr olunmuş məqalələrinin əhəmiyyəti böyük idi: "O, klassik irsi təbliğ və təhlil etmək yolu ilə, eyni zamanda ədəbi inkişafa kömək edirdi. Ədəbiyyatda ideyalılıq, elm ilə sənətin əlaqəsi, novatorluq, təqlidçilik və onun ziyanları, həyatı doğru əks etdirmək və s. kimi məsələlər onun bu məqalələrində yeri gəldikcə izah olunurdu".[1305]

Akademik İsa Həbibbəyli isə yazır ki, XX əsrin əvvəllərində ədəbiyyat tarixçiliyi istiqamətində araşdırmaların genişləndirilməsi Azərbaycan cəmiyyətində xalqın milli-mənəvi özünüdərk proseslərinin genişlənməkdə olması ilə əlaqədar idi: "Yazıçı və şairlərin milli-mənəvi özünüdərk və oyanış sahəsində ədəbiyyatda həyata keçirdikləri böyük işi tənqidçi və ədəbiyyatşünaslar elmi-nəzəri və ədəbi-tarixi əsərlərin yazılması ilə yerinə yetirirdilər. Bu dövrdə yazıçıların da həmin proseslərə qoşulması ilə elmi-ədəbi mühitdə yazıçı-ədəbiyyatşünas, şair-tənqidçi formatında yaradıcı qüvvələr formalaşmışdır. Şair - ədəbiyyatşünas kimi çıxış edən Abdulla Surun bədii yaradıcılıqla eyni səviyyədə ədəbiyyatşünaslıq fəaliyyəti ilə də ardıcıl məşğul olması və araşdırmalarında ədəbiyyat tarixçiliyinə üstünlük verməsi onun cəmiyyətdə və ədəbiyyatda getməkdə olan milli-mənəvi özünüdərk proseslərində daha geniş miqyasda iştirak etməsinin nəticəsi idi. Bu baxımdan Abdulla Surun "Füyuzat" jurnalında 1907-ci ildə çap olunmuş "Füzuliyə bir nəzər" adlı məqaləsi "Azərbaycanda Füzuli araşdırmalarının təməli" hesab olunur. Bundan başqa, Abdulla Surun "Türk ədəbiyyatına bir nəzər", "Ədəbiyyati Osmaniyyə" kitabları da ədəbiyyat tarixi istiqamətində yazılmış elmi araşdırmalardan ibarət

[1305]Talıbzadə Kamal. Azərbaycan ədəbi tənqidinin tarixi. Bakı, "Maarif", 1984, s.222

olub, ayrı-ayrı dövrlərdə yaşayıb-yaratmış yazıçı və şairlərimizi yeni nəsillərə tanıtmağa xidmət edir".[1306]

Surun "Türk ədəbiyyatına bir nəzər" əsərinin ümumTürk ədəbiyyatında, o cümlədən Azərbaycan ədəbiyyatında özünəməxsus yeri vardır. "Gənc alim "Türk ədəbiyyatına bir nəzər" adlı 1000 səhifəlik əsərini də İstanbulda tamamlayır. Həmin il (1908-ci il – F.Ə.) A.Sur əsəri "Molla Nəsrəddin" jurnalına təqdim edir".[1307] "Tərcüman" qəzetində bu ədəbi hadisəni "Ədəbiyyat-ı Osmaniyyə" (Burada söhbət eyni bir əsərdən gedir- F.Ə.) adlı başlıqda xəbər verən tanınmış ictimai-siyasi xadim, mütəfəkkir Nəsib bəy Yusifbəyli hesab edirdi ki, naşiri olacağı bu kitab Türk aləmi üçün çox dəyərli bir əsərdir: "İstanbulda üdəbayi-məşhurədən Əhməd Hikmət və filosof doktor Rza Tofiq bəylərin xüsusi şagirdlərindən gəncəli Məhəmmədzadə Abdulla Tofiq əfəndinin "Türk ədəbiyyatına bir nəzər" əsəri-cəsimini bu ünvan altında böyüklü-küçüklü yigirmi beş risalə şəklində gələcək 1909 sənəsi fevralın ibtidasından etibarən nəşrə başlayacağam. Risalənin hər biri böyücək qitədə 40-200 səhifədən mütəşəkkil olub nəfis kağız üzərində gözəl hürufat ilə basılacaqdır. Sıra ilə ayda bir olaraq şu risalələr nəşr ediləcəkdir: 1) Səttar paşa, 2) Füzuli, 3) Baqi, 4) Nəfi, 5) Səbri, 6) Nabi, 7) Nədim, 8) Rağib paşa, 9) Şeyx Qalib, 10) Akif paşa, 11) Şinasi, 12) Ziya paşa, 13) Kamal bəy ilə Əbüzziya, 14) Hamid bəy ilə Mehrənisə xanım və Əbdühəlim Məmduh bəy, 15) Əkrəm bəy ilə Tahir bəy, 16) Müəllim Naci ilə Əhməd Midhət, 17) Tofiq Fikrət, 18) Nigar xanım ilə Fatma Əleyh və Məqbulə Ləman xanımlar, 19) Səfa bəy, 20) Üşşaqizadə Xalid Ziya, 21) Hüseyn Rəhmi ilə Səfvət və Nəzihi bəylər, 22) Əhməd Hikmət bəy, Məhəmməd Əmin Yurdaqul bəy, 24) Rza Tofiq ilə Fuad bəy və Ehsan xanım, 25) Abdullah Zöhti bəy..."[1308] N.Yusifbəyli daha sonra yazırdı: ""Türk ədəbiyyatına bir nəzər" kəndilərindən bəhs

---

[1306] Həbibbəyli İsa. "Ədəbiyyatşünaslıq elminin formalaşması prosesləri". "525-ci qəzet" qəzeti, Bakı, 21 may 2022, s.14,15,19

[1307] Qasımov Cəlal. Abdulla Surun həyat və yaradıcılığı. Bakı, "Təhsil", 2004, s.20; "Ədəbiyyat maraqlılarına müjdə". "Molla Nəsrəddin", Bakı,14 dekabr 1908, №50

[1308] "Ədəbiyyat-ı Osmaniyyə". "Tərcüman" qəzeti, Krım, 28 dekabr 1908, № 81

ediləcək zəvatın tərcümeyi-hallarını və ən bədii, ən nəfis əşar və asari-ədəbiyyələrini şamil olacağı kibi, məslək və əsərləri haqqında da müfəssəlcə tənqidat və mütaliati-məxsusəyi havi olacaqdır. "Türk ədəbiyyatına bir nəzər"in əczası Türk tarixi-ədəbiyyatının dövri-ətiq, dövri-təcəddüd və dövri-cədidinə dair üç böyük cild təşkil edəcəkdir. Bunu oxuyan Türk ədəbiyyatının şeir, nəsr, tiyatro, hekayə qismlərinin gərək üslubca, gərək ruhca keçilmiş olduğu səfəhat ilə bugünkü təkamül və tərəqqisi haqqında doğru və vazeh bir fikir edinə biləcəkdir. Bu qədər müntəzəm və ətraflı proqram ilə bir əsər İstanbulda nəşr olunmamışdır".[1309]

Ancaq həmin əsərin nəşri baş tutmayıb ki, buna səbəb Əhməd Hikmətin əsərə yazacağı girişin gecikməsi, lazımlı bəzi kitabların İstanbuldan cəlbi və digər əlavələrlə bağlı olmuşdur. Sur ümid etsə də ki, bundan sonra kitab nəşr olunacaq, lakin onun bu arzusu gerçəkləşməmişdir.[1310] Bütün hallarda o, Türk ədəbiyyatı, o cümlədən Qafqaz Türk ədəbiyyatı tarixi ilə müntəzəm məşğul olmağa davam etdiyinə görə, Əli Nəzmi onu "Qafqaz ədəbiyyatının atası" adlandırmışdır. [1311] Kamal Talıbzadə isə Surun "Türk ədəbiyyatına bir nəzər" kitabı ilə bağlı yazırdı: "1000 səhifədən və üç cilddən ibarət olan bu əsərin əldə qalmış bəzi fraqmentləri təsdiq edir ki, bir ədəbiyyat tarixi kimi o, həmin dövrdə yazılmş ədəbiyyat tarixlərindən elmi-nəzəri cəhətdən daha üstün imiş".[1312]

Onun "Türk ədəbiyyatına bir nəzər" kitabında yer alan yazılarından biri "Füzuliyə bir nəzər"dir. Sur yazırdı ki, Füzulinin şeirlərinin dilində azərbaycanlılığın hiss olunması, əcdadımızın Azərbaycan türklərindən olması haqqında əsaslı zənn vermişdir.[1313] Sura görə Türk ədəbiyyatının nəsr müəssisi Sinan paşa olduğu kimi, nəzmcə müəssisi də Məhəmməd Füzulidir.[1314] "Türk dili üzrə

---

[1309] Yenə orada.
[1310] Məhəmmədzadə A.T. "Gəncədən". "Tərəqqi" qəzeti, Bakı, 16 mart 1909, № 55
[1311] Nəzmi Əli. Abdulla Tofiq (A.Sur)un ruhuna ithaf. "İqbal" qəz., Bakı, 1912, №93
[1312] Talıbzadə Kamal. Sənətkarın şəxsiyyəti. Bakı, "Yazıçı", 1978, s. 270
[1313] Sur Abdulla. "Füzuliyə bir nəzər". "Füyuzat" jurnalı, Bakı, 1907, № 31; Araslı H. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri. Bakı, Gənclik, 1998, s.320
[1314] Sur Abdulla. "Füzuliyə bir nəzər". "Füyuzat" jurnalı, Bakı, 1907, № 30

ilk dəfə mərsiyə yazan Füzulidir"[1315] mülahizəsini də irəli sürən Sura görə alim Füzuli ilə şair Füzuliyə isə vəhdətdə baxmaq lazımdır: "Füzuli şeirə intixab etmədən ikmali-təhsilə çalışdı. Elində, günündə mövcud əqli, nəqli ülum və fünunu təlim elədi. Həm alim, həm şair oldu. Çünki o, "elmsiz şeir əsası yaş divar olur, əsassız duvar qayətdə bietibar olur" qanununu kəndinə düsturi-məşrəb edən şairlərdən olmaq istəyirdi".[1316]

O, Füzulinin "Leyli və Məcnun" əsəri haqqında isə yazırdı ki: "Sənətpərdazənə yazılan bu əsər sənət və səlasət nöqteyi-nəzərindən qeyd oluna bilər. Ruhşünasanə bir rəz ilə bundan bir çox gizli-gizli eşq pərdələri rəngin-rəngin sevda səhifələri nəşr edilmişdir".[1317] Füzulinin həcvdən uzaq olmasını yüksək dəyərləndirən Sur yazırdı ki,  Füzuli qəsdən mədh və zəmmə göz ilişəcək dərəcədə yaxınlaşmadı: "Hələ həcvə heç-heç yaxın durmadı, demək ki, ədəbsiz ədibin dəfinə üzərində yatan yatağana (əfi ilana) bənzədiyini biliyormuş da hissi-əxlaq şairlər kimi bu münasibətsizlikdən qaçıyormuş".[1318]

Ümumiyyətlə, Sur istər "Füzuliyə bir nəzər", istərsə də digər əsərlərində sənətkarın, mütəfəkkirin yüksək əxlaqa sahib olmasına mühüm əhəmiyyət vermişdir. Surun fikrincə, bədii əsərin dəyəri bəlağətli, parıltılı, qulaq oxşayan dili ilə deyil, dərin məzmunu, həyat həqiqətlərini düzgün müşahidə və tədqim ilə ölçülür. Sura görə sənətkar xalqın adət və ənənələrini qorumağa çalışmalı, eyni zamanda, oxucunun və dinləyicinin hissinə, şüuruna, əxlaqına təsir etməlidir. Sənətkar nəinki ayrı-ayrı fərdlərin, sosial qrupların, bütövlükdə toplumun əxlaqına müsbət  təsir göstərməlidir. Yalnız bunlara nail olan sənətkar həmişəyaşar, ölməz sənətkara çevrilə bilər.[1319] O, "Nəfiyə bir nəzər" məqaləsində yazırdı: "Şair mənsub olduğu qövmün ruhudur, dilidir. Ona hədyan düşünmək, yalan söyləmək heç yakışarmı? Həqiqətpuş məhalannəvis nazim və

---

[1315] Yenə orada.
[1316] Yenə orada.
[1317] Sur Abdulla. "Füzuliyə bir nəzər".  "Füyuzat" jurnalı, Bakı,  1907, № 31
[1318] Yenə orada.
[1319] Qasımov Cəlal. Abdulla Surun həyat və yaradıcılığı. Bakı, "Təhsil", 2004, s.105

mühərrirlərə də şairi-müqtədir, ədibi-kamil ünvanlarının verilməsinə cavab verəlim. Kamillər o bəxtiyarlardır ki, əxlaqın tənqid və müvaxizə təzyiqləri arasından purusuz (həmvar) çıxdılar, sağlam qurtuldular. Əsərləri münəqqidanə mütaliyə olunmayanları kor-koranə təqdir etmək, gəlin olacaq qızı görmədən almağa bənzər ki bu xüsusda qayət ehtiyatkaranə davranılmalıdır”. [1320] Sura görə əgər sənətkarın əsil-nəcabətinə, həyat və yaradıcılığına dərindən bələd olmasaq, onun doğru, obyektiv dəyərini də verə bilmərik. Bu zaman da, dəyərli bir insanı dəyərsizləşdirə, ya da əksinə dəyərsiz birini dəyərə mindirə bilərik. O, yazırdı: “Ulu şəxs həqiqətdə fənaların fənası olsun. Biləks bəslədiklərini o adamdan görməzlər isə surəti-hal tərsinə çevrilir, zavallının rəzil, alçaq bir kimsə olduğuna qol qoyarlar. Vəli o zat eyilərin eyisi olsun”.[1321]

Bu baxımdan o, “Sinan paşaya bir nəzər” məqaləsində Sinan paşanın tibbi, riyazi biliklərlə yanaşı, təsəvvüf fəlsəfəsinə bələd olmasını xüsusilə vurğulamışdır: “Sinan paşa həm həkim idi, həm riyaziyyatı bilirdi, həm də təsəvvüfü. Bunun üçündür ki, asarında bir mətanəti-fikriyyə, əfkarında bir ələviyyəti-məniyyə qoxusu duyulmaqda və bir təriqəti-sufiyyə, bir taəti-həqaniyə ruhu uçunmaqdadır”.[1322] Buradan da anlaşılır ki, Sur hər hansı mütəfəkkirin istedadlı olması ilə yanaşı, heç də bundan az olmayaraq ali dəyərlərə sahib olmasını vacib hesab etmişdir. Məsələn, Sinan paşanın riyazi, tibbi biliklərlə yanaşı təsəvvüfə bələd olması onun xeyli dərəcədə kamilliyə yaxınlşamasına işarədir. Bu baxımdan o, Sinan paşanın sənət aləmindəki əsas xidmətini “əxlaqiyyət ilə ədəbiyyatı” birləşdirməsində görmüş, onun “Nəsihətnamə”, “Tərznamə” və digər əsərlərini yüksək dəyərləndirmişdir.[1323]

Sur yazırdı ki, hər bir mütəfəkkir, ədib eyni zamanda, öz dövrünün həqiqətlərini olduğu kimi xalqa çatdırmalıdır. Başqa sözlə, cəmiyyətin sosial-siyasi, iqtisadi, mədəni problemlərini

---

[1320] Sur Abdulla. “Nəfiyə bir nəzər”. “Həqiqət” qəzeti, Bakı, 1909, №3
[1321] Sur Abdulla. “Nəfiyə bir nəzər”. “Həqiqət” qəzeti, Bakı, 1909, №2
[1322] Sur Abdulla. “Sinan paşaya bir nəzər”. “Füyuzat” jurnalı, Bakı, 1907, № 28
[1323] Sur Abdulla. “Sinan paşaya bir nəzər”. “Füyuzat” jurnalı, Bakı, 1907, № 28

obyektiv şəkildə işıqlandırmağı bacarmalıdır. Bu baxımdan o, Nədimə həsr etdiyi məqaləsində yazırdı: “Binaənəleyh Nədimin bu xüsusdakı müvəffəqiyyəti kəndi zamanının halına tərcüman olmuş olması ilə tərif etmək müvəffəq olur... Əsərləri bu gün blə bizə yabançı görünməz və kəmali-zövq ilə mütalib oluna bilər”.[1324]

Bu anlamda Türk ədəbiyyatının yeniləşməsində mühüm rol oynayan İbrahim Şinasiyə böyük dəyər verən Sur, sözügedən əsərində onu belə xarakterizə etmişdir: “Şinasinin şöhrəti-şaiyəsi ilə asari-ədəbiyyəsi müqayisə edilir də, qiyməti şeiriyyə etibarı ilə o əsərləri nəzəri mühakiməyə alacaq olursa, insan bu zatın ehraz etməli olduğu şöhrəti mübalidəli bulmağa meyyal bulunur. Halbuki Şinasinin böyüklüyü şairliyində deyil, bir kaç əsrlərdən bəri təhəkküm etmiş olan tərzi-şeiri qətiyyən hökmdən isqat edərək əski məbnayi-ədəbiyyatı kökündən sarsıtmış olmasındadır. Əski cəryani-ədəbiyi Avropa zövqünə və şeiri təbiilik vadisinə çevirmiş olmaq kimi himməti-məşkurə ibraz etməsindədir”.[1325]

Sura görə Şinasinin yaradıcılığında üç cəhət: söz, məna və “hikməti-bədaye”dir ki, o, bunların arasında üstünlüyü axırıncıya vermişdir. Deməli, Şinasinin əsas yeniliyi nəzmdə yeni bir yol açması, yəni şeirdə Avropada olduğu kimi, sosial-siyasi həyatın tənqidini ifadə etməsi olmuşdur. O, belə bir dövrdə Şinasinin meydana çıxmasının təsadüfi hesab etməmişdir: “...Artıq böylə bir məcburiyyət və bu qədər də hazırlıq olunca, hər kim olursa-olsun bir Şinasinin doğması zəruri idi. İştə Şinasi bu təmayilati-mütəfərriqəyi toplayıb kəndisində mənən bir fikir və niyyət, felən də bir xətti-hərəkət ittixaz edə bilmiş olduğu üçün böyükdür. Şinasinin sağ əli istiqbala uzadılmış oldğuğu halda, sol əli mazidən ayrılmamışdır, demişdim. Fəqət, bundan dolayı Şinasini iki nöqteyi-nəzərdən məzur görmək lazım gəlir. Bir, insan nə qədər mücəddid olursa olsun, içində yetişdiyi cəmaətin, sinəsində böyüdüyü adatın büsbütün mafövqünə çıxamaz və az-çox onunla

[1324] Sur Abdulla. “Türk ədəbiyyatına bir nəzər”. Azərbaycan Respublikası Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu, 3577[FR 544]
[1325] Yenə orada.

ələqədar bulunur. İkinci məzuriyyət başqa cinsdəndir. Məlumdur ki, ədəbiyyati-ətiqəmizin əski tərz və üslubu kimi mürəttib və cəli bir əsəri-sənət vücudə gətirmək üçün istedadati-fitriyyədən başqa bir şey istər. O hoqqabazlığın yolunu bilməli!.. Bu da bir xeyli zəmanə və br növi-təhsil və tərbiyəyə möhtacdır”.[1326]

Sur onun böyüklüyünü yalnız Qərb mədəniyyətinin yeniliklərindən təsirlənən əsərlər yazmaqda görməyib, Şinasinin Türk dilinin saflaşmasındakı əməyini də yüksək qiymətləndirmişdir. O, yazırdı: “Zira, bütün-bütün lisanı türkcələşdirmək və bizi İrana və Ərəbə iləlebəd əsir buraxan bu meylin önünü almaq üçün türk sərmayeyi-əlfaz ilə türk qəvaşdi-nəzmiyyəsi ilə şeir yazmaq lüzumunu ima etmiş və belə bir müvəffəqiyyətin bu dərəcəyə qədər möhtəməl olduğunu da göstərmişdir. Sırf türk kəlmələrindən mürəkkəb bir ifadə ilə şeiri vardır”.[1327]

**Beləliklə,** A.Sur soydaşlarını, dindaşlarını tərəqqiyə, maariflənməyə səsləməklə yanaşı, islamlıqla türklüyün dirilişi və inkişaf yollarını da göstəmişdir. O, bir tərəfdən hazırda cəhalət, geriçilik dövrünü yaşayan türk-müsəlman xalqlarının problemlərinin əsas mahiyyətini göstərməyə çalışmış, digər tərəfdən Qərbə nisbətdə geridə qalan Şərq xalqlarının, o cümlədən türk-müsəlman millətlərinin çıxış yollarını aramışdır. Azərbaycan türklərinin tərəqqisi uğrunda mübarizə aparan A.Sura görə artıq bütün millətlər kimi türk-müsəlman xalqlarının da milli cəmiyyətlər yaratması, milli-dini birliyə nail olması vaxtıdır. Xüsusilə də, milli birlik, yəni Türk xalqlarının birliyi yolunda o, ortaq Türk dilinin olmasını vacib hesab etmişdir. Bizcə, onun dünyagörüşündə Türk-İslam aləminin vəziyyəti və çıxış yolları ilə bağlı irəli sürdüyü bir çox mülahizələr günümüzdə də aktuallığını qoruyub saxlamaqdadır.

[1326]Yenə orada.
[1327] Yenə orada.

## HAŞIM BƏY VƏZİROV

**Həyat və yaradıcılığı.** Şuşada anadan olan Azərbaycan Türk mütəfəkkiri Haşım bəy Vəzirov (1867-1916) Şuşa realnı məktəbi və İrəvan Müəllimlər Seminariyasında təhsil almışdır.[1328] Seminariyanı bitirdikdən sonra Vəzirov Böyük Vedi, Alpout, Bərdə, Kiçik Göynük kəndlərində müəllimlik edib. Hətta, o, Şuşada "müsəlman-rus" məktəbinin direktoru vəzifəsində də çalışmış, eyni zamanda Şuşa şəhər bələdiyyə idarəsinin üzvü seçilmişdi.

1905–1906-cı illər erməni-müsəlman münaqişəsində erməni quldurlarına qarşı fəal mübarizə apardığına görə, 1906-cı ilin əvvəlində hökumət tərəfindən həbs olunub Stavropola sürgün edilmişdir. 1906-cı ilin ortalarında sürgündən azad olunaraq Şuşaya, daha sonra Bakıya gələn Vəzirov burada Əhməd bəy Ağaoğlunun baş yazarı olduğu "İrşad" qəzeti ilə əməkdaşlıq etmiş, hətta bir müddət qəzetin müvəqqəti redaktoru olmuşdu. Bununla da, jurnalistika sahəsində fəaliyyətə başlayan Haşım bəy "Təzə həyat" (1907-1908), "İttifaq" (1908-1909), "Səda" (1909-1911), "Kavkazets" (1911, rus dilində), "Sədayi-vətən" (1911), "Sədayi-həqq" (1912), "Sədayi-Qafqaz" (1915-1916) qəzetlərini və "Məzəli" (1914-1915) jurnalını nəşr etdirmişdir.

1911-ci ildə çar Rusiyasının "İttihadi-İslam" töhməti ilə həbs etdiyi Türk qəzetçiləri arasında Vəzirov da olmuşdu.[1329] O, 1916-cı ildə Bakıda vəfat etmişdir.

**İctimai-siyasi görüşləri.** H.Vəzirovun dünyagörüşünüdə əsas yeri islamçılıq, İslam birliyinin mahiyyəti və ona qarşı olanların tənqidi tutmuşdu.

**İslamçılıq: mühafizəkarlıq və yenilikçilik.** O, "Təzə həyat", "İttifaq", "Səda" və digər qəzetlərdə çıxan yazılarında ifrat mühafizəkarların və ifrat qərbpərəstlərin mövqelərini tənqid etmiş-

---

[1328] Vəzirov Haşım. Keyfim gələndə (Haşım bəy Vəzirovun jurnalistlik fəaliyyəti). Bakı, "Şuşa" nəşriyyatı, 2001, s.5-7

[1329] Rəsulzadə M.Ə. Əsərləri. III cild (1915-1916). Bakı, "Təhsil", 2014, s.334

dir. Ona görə İslam dəyişilməzdir, lakin tərəqqiyə də qarşı deyildir, əksinə, inkişafın tərəfindədir. Yalnız bu dini mükəmməl bilən şəxslər anlayar ki, müsəlman aləminin də hazırda geridə qalmasının baiskarı İslam dini deyil, başqa amillərdir. O, bu amillər arasında ilk olaraq müsəlmanlarının çoxunun İslamın əsil mahiyyətindən, tarixindən xəbərsiz olub, ona olunmuş əlavələrə inanmalarından və bu məsələdə də yalançı ruhanilərin əməllərini görmüşdür. Vəzirov yazırdı: "İslam dini həqq bir dindir. Bu dini-mübin zəmanənin hər bir təqəzasına (tələblərinə) lazımınca mütabiqdir. Gərdişi-ruzigar nə qədər dəyişilərsə də, bu dinin əsil ruhu, əsl binası bir zərrəcə dəyişilməyib. Həm dəyişilməyir, həm də hər bir tərəqqi və irəli getmək ilə düz gəlir. İslam dininin bu qabiliyyətinin, bu, hər əsrin öz təqəzasına görə kifayət verib əsl ruhunu dəyişdirməməyinin özü bu dinin haqq və Allah tərəfindən, məhz insanların xoşbəxtligindən ötrü göndərilmiş olmağına qüvvətli bir dəlildir".[1330]

Onun fikrincə, "müsəlmanlar qardaşdırlar" prinsipi sayəsində müsəlman xalqları ilk vaxtlar barış və rifah isərçisində yaşamışlar. Lakin sonralar Qurani-Kərimin əmrlərini unudan despotik hökmdarlar və bəzi din adamları İslamın adından saxta hökmlər uydurmuşlar. H.Vəzirovun fikrincə, bununla da əvvəllər nə qədər sürətlə islamiyyət tərəqqi edib irəli getmişdisə, son əsrlərdə ona bənzər bir surətlə dağılmağa, tar-mar olmağa üz qoymuşdur: "Amma əsl bina, əsl ruh özü o qədər qüvvətlidir ki, bir bu qədər afət, bir bu qədər təfriqə ilə genə bugünkü günə kimi davam ediyor. Bu davamsızlıq, bu səbatsızlıq bu sayaqilə getsə, sədaqətsizlik, saxtakarlıq, riyapərəstlik, müqəddəs bir vəzifəyə düşünməzlik bu rəviş ilə bir zamanda sorsa ata oğulu, oğul atanı, qardaş qardaşı hamı bir-birini anlatmaq, bir az müddətdə böylə qalsa, keçmiş mücahid fisəbillahilərin olanlar keçmiş qəhrəman və sahib vicdanların evladi, nəinki ən ərzlin əsfəl dərəcə insaniyyətdə yaşamağı, bəlkə bilmərrə məhv və nabüd olub, yox olmağı bədihi bir əmrdir. Buna görə də hər bir insan oğlu insan hər yolda, təriqdə və etiqadda

[1330] Vəzirov, Haşım bəy. Məsləkimiz. //Azərbaycan mətbuat tarixi antologiyası (2 clddə 1 cild). Bakı, "Elm və təhsil", 2010, s.226

olursa-olsun, ən ümdə səyin bu fəlakət və zəlalətə düşmüş taifənin dəstərssələ sərf etməgi insaniyyət borcudur".[1331]

Belə dönəmdə müsəlman mütəfəkkirləri yaranmış vəziyyətdən çıxış yolu axtarmağa başlamış, nəticədə XIX əsrdə İslamda islahat ideyası ortaya çıxmışdır. Onun fikrincə, ictimaiyyətçi, yenipərəst, bir sözlə islahatçı olmaq isə İslamın əsaslarına zidd deyildir. Çünki ictimaiyyətçi və yenipərəst olmaq İslam bərqərar olan gündən onun mahiyyətini təşkil etmişdir. O, yazırdı: "Biz bütün millətlərin, bütün insanların kamal həddinə yetişməyinin və onlarla birlikdə öz millətimizin xoşbəxtliyinin tərəfdarıyıq. Biz öz millətpərəstliyimizi əsil yenipərəstlik, insanpərəstlikdə binalandırırıq. No ömzdən millətimizi müdafiəyə hamıdan möhtac, onun tərəqqi və təməddün yoluna çəkilməyin hamıdan müqəddəm bilib, bir yol səyimizi, təlaşımızı, hətta diriliyimizi də buna sərf etməyə bu millətin arasında baş göstərən nifaq və təfriqənin vəfaq ittihada mübəddəl olmağına can və malilə xidmət etməgə söz veririk".[1332]

O yazırdı ki, hürriyyət, müsavat və ədaləti islamiyyətin eyni kimi qəbul edərək bütün müsəlmanların rifahı üçün çalışacaqlar: "Siyasi cəhətdən ruznaməmiz tərəqqipərəstlik yolunda olub müsəlmanların haqqında indiyə kimi hər nə təcavüzat və sıxıntı olubsa, onların rəfinə çalışacaq, Rusiyada olan rus millətinə verilən hüquq və imtiyazın hamısını biz dəxi öz millətimiz üçün tələb edəcəyik və hər bir işdə bu halda Dövlət Dumasında müsəlman firqəsi tutduğu məramnamə ilə mütabiq gedəcəyik,... dil məsələsinə gəldikdə mümkün olan qədər camaatın çoxuna tanış olmayan sözlərdən, istilahlardan qaçacayıq".[1333]

Əziz Mirəhmədova görə H.Vəzirov daim ideya tərəddüdləri içində olan, çox vaxt burjua məfkurəsi təsiri altında yazan tipik liberal burjua ziyalısı olmuşdu: "O, sinfi sülh ideyasının tərəfdarı idi, İslam dini və şəriətinin "saflığını" tərəqqinin başlıca şərtlərindən biri kimi irəli sürürdü, elmlə dini etiqadı birləşdirməyə cəhd edir-

[1331] Yenə orada, s.227-228
[1332] Yenə orada, s.228
[1333] Yenə orada, s.230

di”.[1334] Doğrudan da, Vəzirov İslamı tərəqqiyə çatmaq üçün başlıca şərt sayır, elmlə din arasında ziddiyyət görmürdü. Ona görə müsəlman xalqların birliyini istəməyənlər elmlə dini bir-birinə qarşı qoyurlar, halbuki Qurandakı hökmlər dünyəvi elmlərə qarşı deyildir.

Sinfi sülh ideyasının tərəfdarı kimi də çıxış edən Haşım bəyin fikrincə, bəşəriyyətin müxtəlif dinlərə parçalanması yer üzündə barışa nail olunmasına əngəl törədə bilməz. Əksinə, bütün səmavi dinlər yalnız sülh ideyasını təbliğ və müdafiə edirlər. Dinlərin barışçı missiyasını dananalar, dini inancları ədavət mənbəyi sayanlar isə marksistlər və digər ifrat sol qüvvələrdir. Mütərəqqi islamçılara meyil edən H.Vəzirov ifrat tərəqqiçiləri (M.Şahtaxtlı), “mollanəsrəddinçi”ləri (C.Məmmədquluzadə və b.) yerli-yersiz müsəlman ziyalılarına, müsəlman millətçilərinə, müsəlman mülkədarlarına (H.Z.Tağıyev və b.) sataşmaqda ittiham etmişdi. Vəzirov yazırdı: “Doğrudan da, bu “Molla Nəsrəddin” çox bicdi. İndi də yavaş-yavaş bizə sataşır, nə eyləsin, o, gərək bir adama sataşa. Onun borcudur, gündə bir adama, bir cəmiyyətə sataşa! O da sataşır. Doğrusu, Molla, mən səndən incimirəm. Sənin hamıya haqqın var sataşasan, buyruq qulusan! Hər nə təhqir var, hamısı sana buyruq yazan mürşidindədi, yazır çatana sataş, sataşırsan! Şaha sataş, sataşırsan! Hacı Zeynalabidinə, Şeyxülislama, Müftiyə, nə bilim kimə? Kimə!... Bəzi adamlar da deyir ki, özgənin əlində alət omaq yaxşı degil, niyə yaxşı olmasın, əl əli yuyar, əl də adamın jurnalın-zadın satdırar, orda burda tanıdar, çox yaxşı işdir, qulaq asmaq, böyük nə desə, kiçiyin borcu qulaq asmaqdı”.[1335] O, “Molla Nəsrəddin”ə nəzirə olaraq yazdığı bir şeirində də bu jurnalın islamlığa, İslam dininə qarşı tutduğu sərt mövqeyi tənqid etmişdir:

*Necə gör başına daş düşdü müsəlman, ölübə,*
*Göstərir yol bizə hər hərzə və hədyan, ölübə.*
*Dəxi bundan da böyük nisgil olurmu, yarəb?*

---

[1334] Mirəhmədov Əziz. Mətbuat // Azərbaycan mətbuat tarixi antologiyası. İki cilddə, 2-ci cild. Bakı, “Elm və təhsil”, 2011, s.101

[1335] Vəzirov Haşım. Keyfim gələndə //Azərbaycan mətbuat tarixi antologiyası.İki cilddə, 1-ci cild. Bakı, “Elm və təhsil”, 2010, s.231

*Gəlib İslamə riyasət edə tiflan, ölübə.*
*Aləmi şişəsini əldə tutub nitq eləyə,*
*Niyə verməz bizə əl, köhnədi Quran, ölübə!*
*Bu nə vəz və nə nəsihətdi, ay oğlan işinə,*
*Get sənə bağladı, ya yandı miskidən, ölübə.*
*Sən hara, çərh hara, din hara, millət hara,*
*Məsləkü məzhəb hara, yoxsa, cibişdan, ölübə?*[1336]

Vəzirov islamlıq məsələsində tutduğu ifrat mövqeyə görə yalnız "mollanəsrəddinçilər"i deyil, Məhəmməd Ağa Şahtaxtlıyı da tənqid etmişdir. Onun fikrincə, islamiyyət əleyhinə məqalələr yazan Şahtaxtlı kimlərindən millət xeyir görə bilməz.[1337]

H.Vəzirov hesab edirdi ki, son dövrdə Qafqazda islamlığın, türklüyün əsil mahiyyətini ifadə edənlər isə Həsən bəy Zərdabi və onun davamçıları olmuşdur. O, "Həsən bəy Məlikov" adlı məqaləsində Zərdabinin vəfatı münasibətilə yazırdı ki, Qafqaz müsəlmanlarının ən cahil, ən vəhşi vaxtında onun "Əkinçi" qaranlıqda, zülmətdə bir işıq olmuşdur. Bu anlamda Zərdabinin ölümünü daha çox mənəvi anlamda böyük itki hesab edən Vəzirov yazırdı: "Bizi düşündürən, bizi ağladan millətimiz içində bu növ ürəgi, dili, əfalı, məsləki bir, qorxusuz, açıq-açığına deyən millət mücahidinin qaib olmasıdır. Çoxdurmu böylə iş görənlərimiz? Çoxdurmu böylə saf, sadiq, biqərəz iş dalınca gedənlərimiz? Əfsus, həzər əfsus, çox azdır, çox bəlkə yox hesabındadır. Lakin genə "əsər təsirsiz və mütəssirsiz qalmaz" qaidəyi-küliyyəsinə mütəsili olub bu mərhuma xudavənd aləmindən tələbi məqfərət edirik".[1338]

**"Panislamizm" məsələsi və Avropa-Qərb mərkəzçilik.** İslamlığa və "İslam birliyi" ideyasına qarşı olanlara cavab olaraq H.Vəzirov yazırdı ki, ingilislər, ruslar, italiyanlar və digər əcnəbi xalqlar bu məsələdə müsəlman aləminə qarşı mövqe tutsalar da, artıq bəzi müsəlman ölkələri (Osmanlı, Əqfansıtan, Mərakeş və b.)

---

[1336] Vəzirov Haşım. Keyfim gələndə (Haşım bəy Vəzirovun jurnalistlik fəaliyyəti). Bakı, "Şuşa" nəşriyyatı, 2001, s.159

[1337]Yenə orada, s.208-209

[1338] Vəzirov Haşım. Həsən bəy Məlikov //Azərbaycan mətbuat tarixi antologiyası.İki cilddə, 1-ci cild. Bakı, "Elm və təhsil", 2010, s.233

İslam birliyinə doğru qədəm qoymuşlar.[1339] Onun fikrincə, xristian millətləri ittifaq yaratdıqları dövrdə müsəlmanların da eyni amal uğrunda birləşməyə cəhd göstərmələri isə təbii haldır. Ancaq maraqlıdır ki, xristian millətlər öz aralarında ittifaq yaratdıqda bunu müsəlmanlar üçün təhlükə kimi görmürlər. Eyni addımları müsəlman millətlər atdıqda isə, xristian millətlərin mütəfəkkirləri tərəfindən bu, dərhal xristianlar üçün təhlükə mənbəyi, hətta dünya üçün zərərli amil sayılır. Ona görə də Haşım bəy müsəlman xalqlarını kənar qüvvələrin oynuna gəlməməyə, onları ən azı dini-mənəvi birliyə nail olmağa çağırırdı.

O, "Gün çıxan ilə gün batan" məqaləsində Avropanın Asiya üzərində necə hökmranlığa başlamasının tarixindən bəhs etmişdir. Vəzirov yazırdı: "Hər necə düşübsə siyasət aləmində o gündən ki, Yevropa dövlətləri bir az zor və qüvvət kəsb edib özlərin qalan aləmin hamısına sahiblik etmək fikrinə düşüblər. Cəmi yer yüzünün ki, beş qitədən ibarətdir, öz ləfz və istilahlarını da iki hissəyə bölüb, birinə günçıxan, o birinə günbatan adı qoyublar. Günçıxan deyilən məmləkətlərin çoxusu elmi, fənni tərəfdən vaqeən günçıxan degilsə də və günbatan deyilən qitələrin çoxusu qeyri məmləkətlərə nisbətən günbatan da degilsə də, bu ad özü bir növ ilə mərifətli və mərifətsiz ləfzlərin daha doğrusu, eyni və qeyri eyni mənasın andırır – cəmi Yevropa qitəsi və Amerika özlərin günbatan adlandırıb qalan qitələrə - Asiya, Afrika və Avstraliyaya günçıxan (Şərq) deyirlər". [1340]

Vəzirov daha sonra bu gün dünyaya meydan oxuyan Avropanın necə tərəqqi etməsindən yazırdı: "Səkkiz, doqquz qərinə bundan qabaq yarımvəhşilikdə ömür keçirib Asiya və Afrika əhalisi əlində dəstgir olan Yevropa ənvahi-əqsam şərait sayəsində tərəqqi etdi, elmə, fənnə qeyrilərdən yaxın oldu. Demək ki, ayıldı. Ayılan gündən Şərq ilə rəqabət etməgə, bacarsa bu insanın əsl

---

[1339] Vəzirov Haşım. Erməni mətbuatı //Azərbaycan mətbuat tarixi antologiyası.İki cilddə, 1-ci cild. Bakı, "Elm və təhsil", 2010, s.232

[1340] Vəzirov Haşım. Keyfim gələndə (Haşım bəy Vəzirovun jurnalistlik fəaliyyəti). Bakı, "Şuşa" nəşriyyatı, 2001, s.99

beşigi, əvvəlinki xilqət tapdığı yeri kökündən, binasından götürüb yüzqoylu çevirmək fikrinə düşdü. Şərq əhalisinin zatən tənbəl, biqeyd olduğundan istifadə edib, Yevropanın ən balaca dövlətləri özündən neçə kərə böyük qitələri tutmağa, zəbt etməgə şüru eylədi. Yevropanın öz əhalisi də kamalınca əhli-mərifət olmağına görə, onları Şərq davalarına çəkmək üçün Yevropa iş görənləri öz həmvətənlərində əvvəlinci dəfələrdə alladıb məzhəb rəvacı üçün Şərq torpaqlarında dava eylədiklərini ortaya topladılar. Bu vəsilə ilə cəmaəti, zorən, camaət qoşunların hər yerə, hansı məkanə istədilərsə çəkdilər. Həqiqətdə isə bu davalara, bu uzun səfərlərə, bu qorxulu işlərə yevropalıları çəkən bilmərrə məzhəb və din qeydikeşliyi degildi. Onlardan ötrü nə İncil hökmünün, heysiyyət əqidəsinin bir o qədər də əhəmiyyəti yox idi”.[1341]

Vəzirova görə qərblilərin-avropalıların əsas məqsədi din və məzhəb adı altında əslində onların var-dövlətini ələ keçirmək idi: “Onlardan (qərblilərdən-F.Ə.) ötrü hər əqidə və ədyandan, hər bir din və imandan müqəddəm Hindistanın cəvahiratı və qızılı, Afrikanın şirmayisi və şetr-mürq qanadları idi. Məzhəb adına avam cəmaətin vasitəsilə gəlib Şərq torpaqlarında özlərinə yuva tikən yevropalılar tutduqları yerlərdən o ki lazımdı, istifadə etdilər. Dürüst hər yerin cövhərin çəkdilər, hər nə ki, yük tutmalı idilər tutdular. Onda sonra qalan işləri onların hiyləsinə allanıb, dallarına düşüb gələn avamlara qoydular. “Buyurun, indi siz məzhəb və din davası eyləyəcəksiniz, eyləyin, biz öz işimizi gördük”, deyib, çəkildilər qırağa”.[1342]

Vəzirov yazırdı ki, ancaq Avropalılar bununla da işlərini heç də tamamlanmış hesab etmədilər: “İndi növbət gəldi ikinci “məzhəbçi”, “mübəlliğ” firqəsinə. Amma oyunlar da dəgişirdi: əvvəlincilər tutduqları yerlərin nəqd mənfəətin götürdülərsə də gələcəkdə genə mənfəət gözlənməsini nəzərdə tutub bu dəfə özləri öz əhdlərinə köpəklik vəzifəsin götürüb, “mübəlliğlər”ə, “məzhəbçilər”ə qaravul çəkmək binasın qoydular. Mabədə özgə köpəklər

[1341] Yenə orada, s.100
[1342] Yenə orada, s.100

gəlib buradan sevmək, ummaq fikrinə düşür deyib, gecə-gündüz yatmadılar, qıraqdan bir köpək göründükdə də dişlərin taqqldadıb, mırıllamağa başladılar. Şərqlilərin özlərində bu hərəkəti yoxdan oyadıb, bir sərnişmək əlaməti göründükdə onların üstünə atılıb onları boğmağa və sair yatanları oyatmamış oyananları bir-bir tələf etməyə, yox etməyə can atdılar".[1343]

O yazırdı ki, hər bir yatmağın axırında bir oyanmaq mülahizəsini də yaddan çıxartmayıb, ayıq avropalılar həmişə hazırlanmağa, həmişə amədə olub, hər kəs öz növbəti yerində durmağa nizami-tamamilə boyun qoydular: "Odur ki, heç bir ay, il bəlkə gün deyil ki, Şərq torpağının bir tərəfindən top, tüfəng, dava, mərəkə səsi gəlməsin. Bir gün yoxdur ki, "ziyalı", "mərifətli", "insaniyyətpərəst Şərqin bir qitəsində məhəlli vəhşiləri sakit etməgə "insaniyyət, vəhşiyyət" yoluna çəkməyə cəhd etməsinlər və bunun nəticəsi olaraq yüzlərcə, minlərcə əlsiz-ayaqsız, bacarıqsız əhalini oda dutub top-tüfəng nişanəsi etməsinlər. Bu günahların, bu "səxavətlərin" hamısına da insaniyyət, ürfaniyyət hərgah onlar bu növ vəhşiliyə razı olurlarsa".[1344]

O, "Panislamizm məsələsi və ermənilər" məqaləsində isə avropalıların həm "panislamizm" anlayışını necə sui-istemal etdiklərindən, həm də ermənilərdən maşa şəklində istifadə edərək islamlığa qarşı apardıqları mübarizənin fərqli üsullarından bəhs etmişdir. Vəzirov öncə "panislamizm" anlayışından avropalıların qorxuya deşərək, ondan necə sui-istifadə etmələrinə aydınlıq gətirmişdir: ""Panislamizm" sözü bəzi müfsid rus, erməni və əcnəbi sahib qələmlərinin dövlətindən qəzetələrə və ceridələrə o qədər yazılıb ki, indi bu söz bizim aramızda bir növ türkləşib. İndi bu sözü hamı qərinə ilə başa düşür. Bununla belə genə bu sözün barəsində bir neçə kəlmə izahat verməmiş əsl mətləbə keçməyi münasib bilmirik. "Pan" ləfizi qədin yunan sözüdür. Mənası da "hamı", "birlik", yainki, ərəb ləfzilə işlənən "ittihad"dır. "Panislamizm"ə gəldikdə buna "hamı islamın birləşməgi" yainki,

[1343] Yenə orada, s.100-101
[1344] Yenə orada, s.101

"İttihadi-İslam" deyiləcək".[1345] O, yazırdı ki, neçə yüz illərdən bəri Avropa siyasətçilərini məşğul edib gecə-gündüz fikirlərə, qorxuya salan böyuk məsələlərdən birisi də həmən bu "panislamizm" deyilən məsələdir: "....Çox alimlər, çox siyasilər, çox yazıçılar bu məsələnin dəfinə, Yevropanın gözündə bir ağ ləkə hesabında olan bu azarın rəf və dəf olmasına gecə-gündüzlər ömür sərf edib, cildlərcə kitablar yazıb, yüzlərlə iclaslar qayırıblar. "Panislamizm" məsələsi vaqiən də Yevropa üçün ən qorxulu, bəlkə Yevropanın varlıq və yoxluq məsələsinə hökmfərma bir məsələdir. Hərgah vaqiədə bu məsələ indi ortalıqda olmuş, varmı, yoxdumu, bunu biz aşağıda ərz edərik. İndi bunu da demək istəyirik ki, bu məsələ ümum Yevropa üçün nə qədər qorxulu və təhlükəli bir məsələ isə də, Yevropa dövlətləri bu məsələni ancaq şəxsi qərəzlərindən, şəxsi arzularına nail olmaqdan ötrü işlədirlər".[1346]

Vəzirova görə Avropa dövlətlərindən birisinin müsəlman dövlətlərdən birisi ilə bir haqq-hesabı olan kimi yadlarına "panislamizm" məsələsi düşür. Çünki artıq Avropa dövlətlərində müsəlman dövlətlərindən birini qəsb etmək, yağmalamaq üçün "panislamizm"ə qarşı cəbhə açmaq adət almışdır. O, yazırdı: "...ticarət cəhətdən bir müsəlman torpağın qəsb etmək üçün, bir yerdə bir müsəlman həqqin payimal etmək üçün arada bağladıqda qabaqca Yevropa dövlətlərindən hər hansı olsa bir "panislamizm" deyib çığırmağı müsəlmanlara nisbət olunacaq haqsızlığa bir müqəddimə də bəlkə sair dövlətlərdən birisində insaniyyət və həqqaniyyət hissi olub, bu işə müdaxilə etdiyi qorxusundadır, elə ki, müsəlman məmləkəti qəsb olundu, hüququ payimal olundu, qurtardı, "ziyalı", "vətənpərvər" Yevropa dövləti öz muradına çatdı, panislamizm məsələsi də haman dövlətdə yatıb qalır. Demək ki, bu məsələni Yevropa dövlətləri özləri üçün bir qəsblik, bir oğruluq silahı qayırıblar. İngilis Misiri, Hindi, Ədəni, Bəhreyn tərəfi və sairələrin qəsb edib ələ gətirdiyi vaxtlar müttəsil "panislamizm" deyib çağırırdı. Naili-mərəm olandan sonra bu səs

[1345] Yenə orada, s.125
[1346] Yenə orada, s.126

İngilisdən müddəti-mədid çıxmadı, hələ bəlkə bu dövlət özün müsəlmanlara nisbət bir növ dostluqda da göstərmək istədi”.[1347]

O, yazırdı ki, “panislamizm” məsələsindən ingilislər kimi fransızlar, hollandlar, ruslar və başqa millətlərin faydalandığı bir zamanda müsəlmanların böyük əksəriyyəti “İttihadi-İslamdan” xəbərsiz, uzaq olublar. Vəzirov yazırdı: “Lakin müddətlərdən bəri İslamın içərisi özün, dışarısı özgələrin yandırır. İttihadi-İslam nədir ki, rabiteyi-İslamdan, İslamın harada olub-olmamasından, İslam nə qədər olub-olmadığından böylə müsəlmanların yüzdə doxsan doqquz bixəbərdir. Bu bixəbərlikdən əlavə “İttihadi-İslam” o yanda dursun, aralarında “ixtilafi-islam” dəxi cari olmaqdadır. İslam aləminin iki müqtədir dövlətinin arasında bir neçə sajın yerdən ötəri əmələ gəlmiş soyuqluq hələ də davam etməkdədir”.[1348]

Vəzirov yazırdı ki, müsəlman dövlətləri arasında əslində bir “İslam birliyi” olmadığı halda, Avropalı ideoloqların, qəzetçilərin bundan bəhs etməsi də təssadüfi deyildi: “Bir böylə ixtilafımızın bir-birimizdən bixəbərliyimizin vücudilə öz aramızda nəinki bir ittihad, hətta bir-birimizə nisbət bir məhəbbətə və meylə malik olmadığımızla böylə genə əcnəbilər bizim adı var, özü yox “İttihadi-İslam”ımızdan həmişə həyəcan, həmişə mütəfəkkirdirlər. Və İslam səmtinə dolandığı hər bir tazə hərəkətə, tazə cünbişə, siyasi əlaqəyə, tərəqqi və təməddünün hər bir guşəsinə, küncünə yapmaqda yevropalılar bir “panislamizm” vaqiəsi görmək, “panislamizm” vaqiəsi görməyi, “panislamizm” heykəlini vücudə gəlməsi ilə bir-birin qorxuzmağı adət ediblər”.[1349]

O, yazırdı ki, Yaponiyada təzə din axtarmaq üçün hazırlanan “Din axtarışı məclisi”nin təklifləri belə panislamizm məsələsilə məşğul olan Avropa üləmasını ciddi şəkildə narahat etmişdi: “Bu məclisə Yevropanın və Amerikanın hər qitəsindən, hər yerindən ruhanilər hazırlanmağa, xristian üləmanın hər sinfi bu meydana qədəm qoyub bacarsalar Yaponiya kimi müqtədir bir tayifəni öz

---

[1347] Yenə orada, s.126
[1348] Yenə orada, s.126
[1349] Yenə orada, s.127

tərəflərinə çəkmək qəsdi yevropalıları heç bir xətər və əndişəyə salmadı. Katolik məzhəbi tərəfdarları Yaponiyaya yüzlərlə misyoner hazırlamağına, lüteranların mübəlliğləri pişəzvəxt gedib orada özləri üçün mənbər sazlamağı, ortadoks (pravoslavnı) məzhəbinin misyonerləri bir para mövqufata da nail olmağı nəzərə almadı. Amma Misirdən, Hindistandan, Osmanlı və İrandan üç-dörd üləmanın adı Yaponiyaya getmək niyyətilə çəkildikdə guya ki, ozayi-dünya mənqəlib oldu. Guya ki, yerlər dağılıb göylər yerə töküldü. İslam tərəfindən vurulan beş-on qələm yevropalıların beyninədək işləyib, cəmi Yevropa cəraidin bir vəlvələyə, bir həyəcana saldı. Halbuki o etayi Şərqi-Asiyada olan Yaponiyanın xəvah millət və qövmiyyətcə, xah adət və əxlaqca İslam olması, tazə bir din axtararsa, İslamdan artıq ona yaranan, karına gələn bir məzhəb olmamağı təbii bir işdir, bainhəmə yevropalılar genə "panislamizm", "pantürkizm" deyib çığırışmağa başladılar".[1350]

O yazırdı ki, Avropa və Amerika xaçpərəstləri panislamizm məsələsinə xaçpərəst və islamlıq arasında mübarizə rəngi verirlər: ""Panislamizm" məsələsinə qədər siyasi bir məsələdə buna məzhəb rəngi verməkdən Yevropa və Amerika siyasiyunlarının genə ümdə qəsdi əvam cəmaəti də siyasət içinə artıq müdaxilə etməyən əvamı da məzhəb adına xaçpərəstlik naminə bu işə qarışdırıb, hamını birdən bu işin qabağın alınmağa çəkməkdir. Məzhəb məsələsi əvam nəzərində nə qədər əhəmiyyətli, nə qədər həyəcan götürən olduğunu siyasiyunlar kəmalınca düşünüb öz işlərinin getməgi üçün bəzi vaxt məzhəbi əllərində bir silah qayırmağa can atırlar. Halbuki haman məzhəbə, dinə onların əksərinin bilmərrə etiqadı yoxdur".[1351]

Vəzirova görə axır vaxtlarda panislamizm barəsində Avropa və Rusiyadan daha çox erməni yazarlarının, erməni qəzetlərinin canfəşanlıq göstərməsi də təsadüfi deyil, əksinə həmin dairələr tərəfindən dolayısıyla davam etdirilməsidir: "Erməni qəzetə və yazıçılarının bu barədə çığır-bağırı dəxi siyasət cəhətindən çığır-

---

[1350] Yenə orada, s.128
[1351] Yenə orada, s.129-130

bağır ilə Yevropa, Amerika siyasiyunlarının yazısına, onların tədbir və təhrikinə bənzəyir. Bunların yazıları məxsusi bir ədavəti, məxsusi bir bəzz və inadı büruzə etmək üçün verilən donoslara, şeytanətlərə çox bənzəyir. Məşriq zəmin əhalisinə məxsus olan bir həssaslıq sifətinin əla dərəcəsində duran erməni tayifəsi panislamizm məsələsi adına hər bir xırda xüsumatı, birisilə bir ticarət işində də bir gileyi olsa bu ad ilə həmən gileylisindən intiqam almaq fikrinə düşür. Qabaq illərdə olan erməni-müsəlman vuruşmalarında "İttihadi-İslam"ın heç bir münasibəti olmadığı halda, erməni qəzetələri və yazıçıları bu işə panislamizm libası geydirməyə nə qədər can atdıqların dübarə yazmağa ehtiyac yoxdur".[1352]

Vəzirov yazırdı ki, ermənilərin "panislamizm" məsələsindən bərk-bərk yapışıb, onu istənilən məsələdə öz maraqlarına uyğunlaşdırmağa çalışması artıq heç kəs tərəfindən sirr deyildir. Belə ki, 1905-1906-cı illərdə baş vermiş erməni-müsəlman münaqişəsinin artıq geridə qalmasına baxmayaraq, ermənilər hər fürsətdə "panislamizm" deyib, bütün dünyanı müsəlmanların, türklərin üzərinə qaldırmağa çalışırlar. O, yazırdı: "Ermənilərin bizə nisbət qəlbi ədavətləri rəf olmağa dəlalət edən maddələrdən birisi də genə hər gün yeri düşdükcə qəzetələrdə "panislamizm" deyib öz aləmlərində özgələri bizim üstümüzə sövq etmək, bizi cəmi xaçpərəst aləminə bir ədu, mübin göstərmək niyyətindədir. Bu axır vaxtlarda erməni qəzetələrinin yazdığına görə Osmanlı dövləti ermənilərə nisbət genə bir para şəxsiyyətlərə, bir para əziyyətlər etməyə şüru edir, bunu dəstavüz qayırıb erməni qəzetələri "panislamizm" məsələsini ortaya salırlar. Amma bunu deməliyik ki, bir-iki il bundan irəli Rus dövləti də erməniləri incidirdi. Bəs bu nədən idi? Bu da panislamizm idi? Firənglər (fransızlar- F.Ə.) mərakeşliləri sıxır, dünyanı onların başına dar edib, bu da, yəqin "panfirəngizmdir?". Daşnaksaqanlar illər üzunu Qafqazı bir qan dəryasına döndəriblər. Xah öz tərəflərindən, xah müsəlman tərəfindən hədsiz-hesabsız

[1352] Yenə orada, s.130

fəqir-füqəranı ac-susuz, bisahib, biçarə qoydular. Bu da yəqin "panermənizm"dir?".[1353]

Vəzirov izah edirdi ki, əgər Osmanlı dövləti ermənilərə bilərəkdən zülm edibsə, onda ermənilərin haqqı var bu dövlətin idarəsindən ermənilərə və digər millətlərə etdiyi zülümündən danışsın, yazsın: "Böylə eyləməyib hər bir zərrəcə işlərə "pan-islamizm" adı qoymaqla ermənilər ümum İslama ədavət göstərib onlardan donos etməyin sübuta yetirir. Bu axır vaxtlarda İranda əmələ gələn hərəkat əhrarənəlikdə bəzi yerləri erməni yazıçılarına xoş gəlməyib bu hərəkətlərində adın "panislamizm" qoymağa onları vadar etdi. Necə ki, yuxarıda zikr olundu müsəlmanda hər bir tərəqqi və irəli getmək əlaməti göründükdə erməni yazıçıları bunun adın "panislamizm" qoyub özgələrin nəzərin oraya cəlb etməyə çalışırlar... Eyni surətdə iranlıların bəqədri imkan öz mətalarına (mallarına) rəvac verib ayrı yerin mətainə möhtac olmamaq niyyəti-müqəddəskaranəsinə bir "panislamizm" rəngi verildi".[1354] Vəzirov yazırdı ki, həqiqətdə isə hazırda müsəlman ölkələrində "panislamizm", ya da "İttihadi-İslam" yoxdur. O ümid edirdi ki, "İslam birliyi" olacaq, olanda da Avropa, Rusiya və Amerikadan gizli tutulmayacaq: "İndi hər bir ictimai üçün hürriyyət tamam hər yerdə hökmfərmadır. Ermənilərin qantökən, aləmi bir-birinə vuran Daşnaksaqan firqəsinin hamısı, açıq-açığına öz məramnaməsin, öz etiqadın söylədiyi halda müsəlmanların da bir tərəqqi və təalinamə "İttihadi-İslam"i olsa heç kəsdən gizləməyəcək, dəxi donosa və şərarətə bilmərrə ehtiyac yoxdur".[1355]

Qeyd edək ki, müsəlmanların siyasiləri, ziyalıları bu dünyada "İttihadi-İslamı" ortaya qoya bilməsələr də, onların bütün qoçuları bir araya gəlib hər gün 3-4 dörd müsəlman öldürməklə o dünyada bunu "nail olurmuşlar". O, müsəlman qoçuların dilindən yazırdı: "Bu günlərdə Bakıda hamı qoçuların istər bakılı, istər iranlı, istər qarabağlı, hər haralı olacaq, olsun böyük bir cəmiyyət əmələ gəldi.

[1353] Yenə orada, s.130-131
[1354] Yenə orada, s.131
[1355] Yenə orada, s.132

Şurada danışdılar ki, balam, bu böyüklər bizim millətin evini yıxdı. Bunlar yüz ildir ittihad, birlik, nə bilim nələr deyil bir şey də qayıra bilməzlər, indi gərək bu işə biz özümüz tez bir təhər əncam çəkək, böylə olmaz, millət əldən getdi. Gərək yaxşı bir İttihadi-İslam qayıraq. Bu ittihad da bu dünyada əmələ gəlməyəcək, gərək o biri dünyada qayıraq. Ona görə qət etdilər ki, gecədə beş-üç müsəlman öldürüb, göndərsinlər o dünyayə ki, onlar o dünyada birləşib İttihadi-İslam məsələsini başa gətirsinlər. Ümidimiz var ki, bu dayaq rəftar eyləsələr bu yaxın vaxtda müsəlmanlar hamısı yığışa o dünyadə doğrudan da ittihad əmələ gələ, bu ittihadə dəxi heç kəs mane ola bilməz. Ermənilər min panislamizm deyib bağırsınlar da bir şey qayıra bilməzlər. Çünki o dünyada nə polisə yox, nə jandarm yox, əhalinin də hamısı bu duruş tutsa müsəlmana dəxi buradan yaxşı "İttihadi-İslam" yeri ola bilməz...".[1356]

Vəzirova görə müsəlmanların bir qüsuru da odur ki, əlimizdə olan işləri, yerli idarəetməni öz soydaşlarmızdan, dindaşlarmızdan çox xaricilərə etibar edirik. O, yazırdı: "Biz müsəlmanların ümdə bir qüsuru da budur ki, biz heç vaxt öz tayifəmizdən, öz millətimizdən olan adamları, istər ən ali məktəbdə təhsil etmiş olsun, istər ən müqtədir və kargən bir adam olsun, bəyənmərik və əlimizdə olan işləri onlara həvalə etməyi özümüzə kəsr, şani-həqarət hesab edib, ən balacaən bir zəif işi ki, onu cüzvi savadı olan bir müsəlman da apara bilərdi, külli bir məvaciblə xaricilərə verməyə ciddi-cəhd eyləyirik. Bu sifət Qafqaz müsəlmanlarınını hamısında varsa da, Bakı müsəlmanlarında Qafqaz müsəlmanlarının hamısınca var. Şəhərimizə rəis (qlava) üzv, ya sekretar lazımsa əlhəmdüllah, özümüzün yaxşı oxumuşlarımız, ali məktəblər qurtarmışlarımız, həkimlərimiz, injinerlərimiz, vəkillərimiz və sairələri də var".[1357]. Ona görə də Vəzirov təklif edirdi ki, artıq bitərəfliyi bir kənara qoyub Bakı şəhərinin Dumasına üzvləri ancaq müsəlmanlardan seçmək zamanıdır.

---

[1356] Yenə orada, s.134
[1357] Yenə orada, s.138

Vəzirov "Ögey oğul" məqaləsində yazırdı ki, Qafqaz Rusiya tərəfindən işğal olunduqdan sonra Qafqaz müsəlmanları əsasən, çarlıqdan öğeylik görmüşdür. Hətta, I Rusiya inqilabı, onun nəticəsi kimi meydana Dövlət Duması Qafqaz, xüsusilə Qafqaz müsəlmanlarına münasibətdə ögeyliyi aradan qaldırmış deyildir: O, yazırdı ki, buna nümunə Dövlət Dumasının Qafqazın aclıq və qəhətlik çəkən əhalisinə yardım etməkdən imtinasıdır. Belə ki, Dövlət Dumasının radikal-şovinist rus deputatlarından Sokolov, Menşikov və başqaları öz düşüncələrincə üsyankar Qafqaz əhalisinə yardımı uyğun görməmişlər. Vəzirov yazırdı: "Qafqazı həmişə bir üsyançı, Rusiya nisbət bir qeyri mötəbər qələminə vermək müalimləyi-şeytanəkaranələri qıraqda dursun, haman bu həriflər Qafqazda sair Rusiya əhalisi kimi fəlakətzədə və qəhətzədə olanların aclıq və yoxsulluqlarına etina etməgi bunların bir ədu insan, bir insan cildində şeytan olmaqlarına dəlalət etməzmi?".[1358] Vəzirova görə bu kimi qatı rusçu deputatların Qafqaza, Qafqaz əhalisinə ədavət bəsləmələri gec-tez öz əks-sədasını tapacaqdır.

Vəzirov yazırdı ki, "Tazə həyat" qəzetinin islamlıq, "İslam birliyi" yolunu tutması, Qurana tərəfdar çıxması yavaş-yavaş rus, erməni və digər əcnəbi qəzetlərə xoş gəlməməyə başlamışdır: "Mən əvvəldən müdirə deyirdim ki, qardaş, sən böylə sözləri yazırsan, ruslara, yəhudilərə, ermənilərə, hətta atəşpərəstlərə də bu xoş gəlməz. Onlar hamısı deyir ki, İslam zidd yoldur, gərəkdir ortalıqdan götürülə, qulaq asmırdı".[1359]

**İslamlıq və onun yeni erası-gələcəyi (İslam-Türk birliyi).** Vəzirova görə millətdən, İslamdan yazan ziyalılar sözün həqiqi mənasında ziyalı olmalı, millət və İslam dini naminə "hürriyyət", "azadlıq", "ədalət", "müsavilik" və sair anlayışları doğru izah etməlidir. O, özü də həmin anlayışlara izahlar verməyə çalışmış ilk növbədə, "hürriyyət" və "azadlıq" məfhumları üzərində dayanmışdır: "Hürriyyəti-ədyan və vicdan və əfkar hər kəsin öz insafı cəhətinə, hər kəsin din qəbul etməkdə və hər kəsin fikir etməkdə

[1358] Yenə orada, s.141
[1359] Yenə orada, s.145

muxtar və azad olmağını göstərir. Lakin muxtariyyətin müqabilində bir növ məsuliyyət də var, olur ki, birisinə onun insafı oğruluq, bir qəbih əməl olmadığını göstərsin. Lakin bunun insafı bunu böylə deməklə bu kişi oğruluğa iqdam etdikdə qurilərin insafı da onlara bu kişi tutduğu əməlin xilafi-insaniyyət olduğun göstərib, onu məsuliyyət altına aldıra bilir. Odur ki, hüriyyət ancaq o vaxt gözəl və məmduhdur ki, o hürriyyətdən özgəyə zərər gəlməsin. Hürriyyət və azadlıq sözü, bu sözü layiqincə düşünən, buna layiqincə rəftar edən şəxs üçün ən böyük bir übüdətdir. Çünki hər bir azad şəxs gərək özünün cəmi hərəkət və ətvarını bir sayaqda ölçüb-biçsin ki, onun azadlığı heç kəsin azadlığına zərrəcə zərər və əziyyət yetirməsin. Azad və hürr şəxs gərək hər bir söz danışanda, hər bir iş iqdam edəndə, hətta bir fikri edəndə də baxsın ki, bunun bu azadlığı və hüriyyəti qeyrilərinin azadlıq və hürriyyətinə ziyan yetirməyəcək. Budur ki, əsl hürriyyətilə layiqincə rəftar edən şəxsdən, əbəd və qul kimsə yoxdur".[1360] Ona görə İslamda da deyilir ki, hər bir kəs hürriyyəti-vicdandan çıxış edərək öz insafı əsasında düz gördüyü hər hansı bir dini, yolu seçə bilər.[1361]

Vəzirov daha sonra "ədalət" anlayışını şərh etmişdir: "Ədalət – yəni adil olmaq, yəni hamı üçün bir mizanda, bir çəkidə olub, hər bir kəslə kişi öz nəfsilə rəftar edən kimi rəftar etmək. Adil olan şəxs gərək heç vaxt özü ilə qeyrilərin arasında bir təfavüt qoymasın, əla dərəcədə bitərəf, hamıya bir nəzərlə baxan, hər nəyi özünə rəva bilirsə, özgələrə dərəva bilən bir adam olsun. Bu qayda necə ki, ayrı-ayrı şəxslərin arasında cari olur, amirlər ilə məmurlar , tabelər ilə mətbuələr arasında da gərək caiz olunsun".[1362]

O, "müsavat" anlayışını isə belə izah etməyə çalışmışdır: "Müsavat – bərabərlik, yəni hamı hüquqi-insaniyyədə bir mənzilədə, bir mazanda bərabər olmaq, bir insan dünyaya gəldikdə qeyri insandan mütəfavüt olmur. Haman bu təfavütsizlikdə onunla həmişə bazi qalmalıdır. Əlbəttə, bundan bu çıxmaz ki, mən bir

---

[1360] Yenə orada, s.151-152
[1361] Yenə orada, s.153-154
[1362] Yenə orada, s.151-152

qeyrisilə bərabər olduğuma görə ondan hər nəyi varsa, ona da şərikəm. İkisi də bir halətdə, bir azahda anadan olmuş uşağın birisi səyi, qeyrəti, zəhməti, yainki ittifaqların cəmi gəlməgi sayəsində ali bir mərtəbəyə çatdıqda, o biri tənbəl, biqabiliyyət, biqeyrət onunla şərik olmaq iddiasına düşməyi əbləhanə bir təmannadan qeyri bir şey deyil. Amma bununla böylə mən dövlətliyəm, sən kasıb, mən bəyəm, sən rəiyyət, mən savadlıyam, sən savadsız deyib özündən əksiyi həmişə məhdud, həmişə təzyiqdə saxlamaq da əbləhanə bir hərəkətdir. Bir para cəhətlər var ki, onlarda insanlar hamısı bərabər bir mizanda müsavi, bərabər bir dərəcədə haqlıdırlar. Havaya, suya, fikri etməyə, danışmağa, tərəqqi fikrinə düşməyə, millət üçün müalicə axtramağa və sair çox şeylərə hamı insanların bir mizan, bir dərəcədə həqqi var. Bu işləri axtarmaqda insanların hamısı müsavidirlər. İnsanlar arasında insanlqıları cəhətindən heç bir təfavüt ola bilməz. Filankəs ağazadədir, bununla belə rəftar, amma filankəs kasıbzadə olduğuna görə onunla ayrı bir sayaq rəftar etməməlidir”.[1363]

“Damarlarında islamlıq və onunla mərdanəlik və qəyyumluq qanı axan şəxslər...”,[1364] Vəzirova görə İslamlığın nə dərəcədə aliliyini, onun İnsanlıq dini olmasını yaxşı anlayırlar: “Biz müsəlmanlara gəldikdə, bizim boynumuzda həm insanlıq, həm islamlıq təklifləri var. Hərgah biz öz insanlıq və islamlıq təklif və borcumuza layiqincə əməl etsək, yer üzündə əvvəlinci xoşbəxt və mütərəqqi tayfa olardıq”.[1365] Bu baxımdan o, 1907-ci ildə qurulan “Səadət” cəmiyyətinin təşkilində islamlıq və insanlıq ideyalarının gözlənilməsini vacib hesab etmişdir. Vəzirov onu da təklif edirdi ki, bu cəmiyyətin rəyasətində yalnız ruhanilər deyil, qabqacıl görüşlü ziyalılar da təmsil olunmalıdırlar.[1366]

Vəzirov “Müsəlmanların gələcəyi” məqaləsində islamlığın, “İslam birliyi”nin gələcəyinə ümidlə baxdığını, bu anlamda

---

[1363] Yenə orada, s.152-153
[1364] Yenə orada, s.161
[1365] Yenə orada, s.164
[1366] Yenə orada, s.164

ümmətçiliyin heç də millətçiliyin kölgəsində qalmasına inanmadığını izah etməyə çalışmışdır. Onun fikrincə, cəmiyyətlərin tərəqqi ya da geriləməsində milliyyətin, coğrafiyanın, yoxsa dinlərin və digər amillərin olması həmişə üləmalar, filosoflar tərəfindən mübahisə obyekti olmuşdur. O, yazırdı: "Torpağın, abu havanın, cinsiyyət və millətin, insanların tərəqqi və təalisinə və ya bunların müqabili olan geriləməsinə dəxli olub, olmamağı böyük bir mübahisə bəhsidir. Keçmiş əsrin ən məşhur üləmalarından Volter deyir ki, ümmətlərin təbiəti haqqında iqlimlərin, abu havanın, bəlkə cinsiyyət və qövmiyyətin heç bir dəxli yoxdur. Vaqedə böylə görürük bir vaxtında mərifət, sənaye, elm və ixtiraat ilə məşhuri-cahan olan Yunanıstanda iyirmi əsrdən bəridir dəxi nə anaqriyonlar, nə arestalistlər, nə arxilidlər, nə sokrat və bokratlar dəxi baş göstərmiyor, halbuki, torpaq haman torpaq, hava və su haman, irslik, cinsiyyət və qövmiyyət genə haman, eyni surəti Rim, ya Roma torpağında görüyoruq, bu torpaqdan dəxi Sissiron, Timif, Qaton kimi şəxslər çıxmıyor".[1367]

Bütün bunlardan sonra Vəzirov belə bir nəticəyə gəlir ki, millətlərin tərəqqisi və tənəzzülü məsələsində havanın, torpağın, cinsiyyətin mühüm rolu yoxdur, əgər varsa da, çox cüzi olubdur: "...Əsl səbəb isə millətləri, qövmləri haldan-hala dəyişib, birini hökmdar, digərini fərmanbərdar yerinə qoyan maddə həmən tək-tək insanlarda, heyvanlarda, bəlkə nəbatatda gördüyümüz təvəllüd və tövlid dünyaya gəlib, müəyyən bir müddət ömür sürüb, nəsil qoyub, öz əməlini, öz nəslinə həvalə edib getmək məsələsidir. Bir az da açığı, ölmək və dirilmək məsələsidir. Bir insan dünyayə gəlib toxum salmağa, özündən sonra bir nəsil qoymağa ki, o nəsil onun nəslinin bəqasına bais olacaq. Bu nəsil məsələsindən xatircəm olandan sonra dünyadan mürəxxəs olmağa, arxayın çəkilib getməyə, "dəxi mənim burada işim yoxdur, mən öz işimi tamam etdim" deyib getməyə həm özü hazırlaşır, həm də onun

[1367] Yenə orada, s.166-167

dövribərində olanlar onu köçməyə, dəxi qalanların yerin dar etməyə heç kəsə müyəssər olmaz”.[1368]

Onun fikrincə, millətlər də insanlara bənzəyirlər, ya bəzi insanlar kimi ömür sürüb heç bir toxum qoymadan gedir, ya da ömür sürməklə yanaşı özündən sonra toxum qoyaraq gedirlər. Vəzirov yazırdı ki, bu halda İslam dininə tapınan millətlərdən ərəb və farslar uzun ömür sürdülər və nəsil də qoyub getdilər, nəsilləri də baqi və düşdükləri torpaq həmən ata-babalarının yaşadıqları torpaqlardır: “Türk qövmi isə bir müddət ömür sürdü isə də bu ömür çox gödək, çox müxtəsər oldu.Amma qoyduqları nəsil hər bir cəhətdən salamat, toxum düşən torpaq haman tayifənin əvvəldən yaşadığı və ata-babadan nəşvünüma etdiyi torpaq oldu. Nəsilsə, toxumsa hədsiz-hesabsız Fərat və Şət sahillərindən başlamış Saxalinə vilayətinə, Ural dağlarından tutmuş Xətayə, Çinə, Zindüşəbə cəzirəsinədək hamısı Türk qövmidir. Bu böyük, sabit, şücaət və hüsni-təbiətilə məşhur tayifə İslama peyrəv (qəbul edən) olanların qism ezamidir. Türk qövmi, nəsli bu vaxta kimi uşaqlıq, tüfulət aləmində yaşayırdısa da, indi bu qövmidə bir hərəkat, fövqəladə bir həyəcan, fövqəltəsəvvür kəmalınca görünməkdədir. İslama peyrəv olanların hamısına bir nicat, bir sahilə çıxmaq, özün Yevropa dırnağından, pəncəsindən qurtarmağa, bir təlaş və səy gözlənirsə, ancaq bu qövmdən gözlənir”.[1369]

Deməli, Vəzirov müsəlmanların gələcək erasının türklərə bağlı olduğunu, ancaq onların qeyrət və səyi nəticəsində Qərbin təhlükəli oyunlarından xilas olacağına ümid etmişdir. Başqa sözlə, “Avropa cəngindən və pəncəsindən məşriqi-zəmin əhalisini qurtarmaq məsələsi” təbiət məsələsi olduğu qədər, eyni zamanda türklərin islamlığı da əsas tutaraq xilas yolunu göstərməsi ilə bağlı olacaqdır. Vəzirov yazırdı: “Budur ki, biz ərz edirik: Bir tərəfdən yevropalıların məcburən hər kəs üzərinə çəkilməyi (yəni Vəzirova görə avropalılar gec-tez müstəmləkə halına gətirdiyi ölkələri tərk edəcəklər – F.Ə.), bir tərəfdən də Şərq əhalisi Türk qövminin

[1368] Yenə orada, s.167
[1369] Yenə orada, s.168-169

hərəkati-fövqəladəsi sayəsində müsəlmanlıq bayrağı altında birləşib onların tez üzərinə çəkilməyinə səy etməsi cəmi yer yüzünün müsəlmanların yaxın bir zamanda birləşdirib ən müqtədir, ən nüfuzlu bir səltənət qayırmağına və bu səltənət cəmi yer yüzünə hökm fərma olmağına heç bir şəkk-şübhəmiz yoxdur".[1370]

Vəzirov "Müsəlman müəllimlərinə açıq məktub" məqaləsində yazırdı ki, İslam-Türk aləmində millətin, islamiyyətin oyanışı, maariflənməsi və birliyi üçün də indi müəllimlərə daha çox ehtiyac vardır. Onun fikrincə, məktəblər millət və milliyyətdən, İslam və islamiyyətdən layiqincə xəbərdar şagirdlər yetişdirsə, o zaman dost sevinər, düşmən isə kədərlənər: "Bilin və eşidin ki, ən böyük məsuliyyətiniz gələcək tarix yanındadır. Millətin gələcəyi külliyyətin sizin hümmətinizə bağlıdır. Qeyrətiniz və səyiniz sayəsində millət və onunla bağlı islamlığımız bir sahili-nicata, bir caddə fəlahə qədəm qoyarsa, adlarınız qızıl xətt ilə tarixin ən birinci səhifələrini müəyyən edib, sizləri millət xatirində əbədi dara saxlayacaq. Xudanəkərdə, bunun ziddi baş verərsə, genə haman tarixdə adlarınızı kamali-nifrət və həqarətlə çəkilib həkk olmağından həzər etməlisiniz". [1371] Bir sözlə, Vəzirov üzünü müəllimlərə tutaraq deyirdi ki, türklüyün və islamlığın gələcəyi onların əllərindədir. Əgər müəllimlər uşaqlara, gənclərə islamlığını, insanlığını və türklüyünü doğru təlim edərlərsə, o zaman onların bu qeyrət və səyləri də səmərəsiz qalmayacaqdır.

O, böyük bir inamla yazırdı ki, müsəlman xalqlarının hazırdakı başsızlığının, pərişanlığının tezliklə dəyişib bir ittifaqa çevrilməsi şəkk-şübhəsizdir: "Bizim etiqadımızca bu özah, bu gördüyümüz başsızlıq, pərişanlıq, tezliklə dəgişilib bir ittifaqa, ittihadə, mübəddəl olması bişək, bişübhədir. Özahi-halət dəgişiləcək və dəgişiləcək, əvvala İttihadi-İslam, ikinci türklülük və Türk qövminin hərəkəti sayəsində İslama pirəv olan bu halda üç böyük qism dövlətlərdir ki, bunlardan ən birinci qism türklər, ikincisi ərəblər, üçüncüsü farslardır. Bu üç millətin hər biri ayrı-ayrı

[1370] Yenə orada, s.169
[1371] Yenə orada, s.173

dillərdə danışdığı və söyləşdiyi halda üçü də bir dinə peyrəv olduqlarından aralarında böyük bir münasibət, böyük bir rabitə var, bu üç millət zahirən nə qədər bir-birindən uzaq görünsə də..., bunların arasında qüvvətli və mənəviyyatlı bir rabitə olduğun, bu mənəviyyata, bu rabitəyə, bu İslamca fərz hesab olunan üxüvvətə, qardaşlığa bir az da sığal verilib, islah olunursa, bu yolda bir az da zəhmət və təhəmmül qəbul olunursa, ənihəd İslam məsələsi bitmiş, tamam olmuş məsələlərdən birisidir”.[1372]

Bu anlamda Vəzirova görə avropalı alimlərin müsəlman xalqlarının günü-gündən tənəzzülə gedib məhv olacaqları ilə bağlı yazdıqları doğru deyildir. Çünki İslam dinində olan bu üç böyük millət birləşərsə avropalıların iddiaları baş tutmayacaqdır. O, yazırdı ki, vaxtilə tarixin müxtəlif zamanlarında ayrı-ayrılıqda öz sözlərini demiş bu üç millət hazırda da dünyada yeni bir güc qüdrətinə çevrilmək iqtidarındadır: “Bu üç tayfanın üçü də haman əvvəldən tutduqları məkanda yaşamaqda, haman əvvəldə olduqları komitədə davam etməkdədirlər, nə ab və havaları, nə cinsiyyət və qövmiyyətləri dəyişilmədi. Bu millətlər hər kəs öz vaxtında təkbətək, cəmi dünyanı tutub istila etməyə, cəmi aləmə hökmran, hökmfərma olmağa, müqtədir oldularsa, indi bu üç qövmün üçü də bir yerdə möhkəm bir rabitə sayəsində “həblülməyin” İslama mütəməssil olduğu bir halda dübara sahib qüdrət və nüfuz olmasına niyə şəkk olunsun, anlaya bilmirik”.[1373]

Vəzirova görə hazırda müsəlmanların iki başlıca vəzifəsi: 1) yardım və ehtiyacı olan qardaşlarına əl tutmaq, 2) “İttihadi-İslam”a qulluq edib onu gerçəkləşdirmək, vardır: “İslamiyyətin əsl əlamətləri, fərqləri doğruluq, düzlük, saf qəlblik, qəyyurluq, haqpərəstlik, səbat və mətanət sahibi olmaqlıq kimi sifətlər olduğu halda infaqimal və İttihadi-İslam məsələsinə xidmət etmək İslamın əsliliyi hesab olunsun gərək”.[1374]

[1372] Yenə orada, s.179
[1373] Yenə orada, s.180
[1374] Yenə orada, s.196

Ona görə hazırda hər iki vəzifəni müsəlmanlar layiqincə yerinə yetirə bilməsələr də, hətta, bəzi müsəlmanlar bu yolda saxtakarlıq etsələr də, ancaq ümumilikdə bu yolun sonunda imanlı olan əsil müsəlmanlar qazanacaqdır. Bu anlamda Vəzirov inanırdı ki, başa dinlərə, millətlərə nisbətdə bu gün müsəlman xalqları, İslam tənəzzül içində görünsə də, əslində doğru yoldan heç zaman kənara çıxmadığı üçün ən sonda qazanan müsəlmanlar və İslam dini olacaqdır.[1375]

**Beləliklə,** deyə bilərik ki, Vəzirovun yaradıcılığında əsas yeri islamlıq fəlsəfəsi, "İslam birliyi" ideolojisi tutmuşdur. Onun dünyagörşündə islamlıq məsələsinin önəmli yeri tutması bir tərəfdən İslam dininə həddən artıq bağlılığı, dini inancı ilə bağlı olmuşdursa, digər tərəfdən Türk xalqlarının böyük çoxluğunun bu dinə tapınması da öz sözünü demişdir. Hər halda Vəzirovun düşüncələrində islamlıq və türklük bir-birini tamamlamış, üstəlik bu günün və gələcəyin əsas ideoloji silahı kimi də qəbul görmüşdür.

Vəzirov islamlıqla türklüyün, xüsusilə də islamlığın Qərb dünyasında bir çoxları tərəfindən tənqid hədəfi seçilməsini də zamanında doğru görmüş və buna uyğun izahlar verməyə çalışmışdır. Hər halda təxminən 100 il bundan öncə Qərb dünyasının islamlığa və türklüyə qarşı tutduğu mövqe bu gün də, əsasən dəyişilməz olaraq qalmaqddır. Guya, İslam ölkələrinə, o cümlədən də Türk coğrafiyasına mədəniyyət, demokratiya, azadlıq aparan Qərb dünyasının əsil sifəti tamamilə başqa olmuşdur. Bunu vaxtilə çox doğru görüb Qərbin əsil sifətini ifşa etməyə çalışan Vəzirovun verdiyi mücadilə olduqca diqqətəlayiqdir.

---

[1375] Yenə orada, s.197

# ƏLABBAS MÜZNİB

**Həyat və yaradıcılığı.** Bakı Xanlığının sonuncu xanı Hüseynqulu xanın nəslindən olan Azərbaycan Türk mütəfəkkiri Əlabbas Müznib-Mütəllibzadə (1883-1938) Bakıda anadan olub, olub,[1376] "Rus-tatar" məktəbində təhsil almış, ədəbiyyat və mətbuat aləminə isə I Rusiya inqilabından (1905) sonra gəlmişdir. İlk şeirləri "Tazə Həyat", "İttifaq" qəzetlərində nəşr olunan Müznib 1908-ci ilin payızında ata-baba sənətini – arababəndliyi buraxıb "İttifaq" qəzetində mürəttib sifətilə işə girmişdir. 1909-cu ildə onun milli azadlıq ideallarını tərənnüm edən "Hüriyyəti-bəşəriyyə" adlı şeirlər kitabı da işıq üzü görmüşdür.[1377]

1909-cu ilin martında Bakıda satirik "Zənbur" jurnalını nəşr edən Mirzə Əbdülxaliq Axundov Ə.Müznibin timsalında özünə çoxdan axtardığı münasib baş redaktor tapmışdır.[1378] Müznib 1910-cu ilin sonlarında "Zənbur" bağlandıqdan qısa bir müddət sonra, "Hilal" adlı həftəlik qəzeti nəşr etdirmişdir. Ancaq həddindən artıq tənqidçi ruhu və çarizm siyasətinin ifşaçılığı ilə diqqəti çəkən bu qəzetin ilk sayı qısa müddətdə müsadirə olunmuşdur. "Hilal"ın 1911-ci ilin ilk aylarında beş sayı işıq üzü görsə də, çox keçmədən o da, bağlanmışdır.[1379] "Hilal"dan sonra şairin yayınlamağa başladığı "Şihabi-saqib" jurnalının (1911) aqibəti də fərqli olmamışdır.[1380]

1911-ci ilin yazında Müznib hökumətin əleyhinə yönəlmiş yazılarına görə həbs olunmuşdur. Çar məhkəməsinin çıxartığı

---

[1376]Əliyeva Aynurə. Azərbaycan Cümhuriyyətinin Dövlət Marşını yazan şəxsiyyət. "Türküstan" qəzeti, 15-20 iyun 2018-ci il (1. Yazı)
[1377]Ağayev İslam.Ön söz//Müznib Əlabbas.Seçilmiş əsərləri.Bakı,Şərq-Qərb,2006, s.6
[1378] Yenə orada, s.8
[1379]Sarıahmetoğlu N. Milletleşme Sürecinde Azerbaycan Basının Oluşum ve Gelişimi //Azerbaycan Düşünce Tarihi. 1 cild. 2 cilddə. Ankara, YTB yayınları, 2021, s.86
[1380]Azərbaycan multikulturalizminin elmi-fəlsəfi və ictimai-publisistik qaynaqları. 2-ci kitab. Bakı, BBMM, 2021, s.215

hökmə görə də, o, 1912-ci ilin fevralında Sibirə sürgün olunub.[1381] 1912-1913-cü illərdə Sibirin İrkutsk bölgəsində sürgün həyatı yaşayan Müznib Sibirdə də yazmağa davam etmiş, orada qələmə aldığı şeirləri Bakı mətbuatında nəşr olunmuşdur.[1382]

1913-cü ildə Romanovlar sülaləsinin quruluşunun 300 illiyi bağlı hökumətin qəbul etdiyi amnistiyadan sonra Müznib də əfv olunaraq Bakıya qayıtmış və yenidən mətbuat-nəşriyyat sahəsində işinə davam etmişdir. O, 1914-cü ilin payızında böyük qardaşı Əbülfəz Mütəllibzadənin adına "Dirilik" adlı bir məcmuə təsis etmişdir. Milli ideoloq M.Ə.Rəsulzadənin "Milli dirilik" adlı ardıcıl yazıları ilk dəfə bu jurnalın sahifələrində nəşr olunmuşdur. 1915-ci ildə Müznib bu jurnalın səhifələrində Rusiya imperatoru I Pyotrun Türk-Müsəlman düşmənçiliyini təşviq edən "Vəsiyyət"ini nəşr etdikdən sonra yenidən təqiblərə məruz qalmış, 1916-cı ildə isə bu jurnal bağlanmışdır. O, 1915-1916-cı illərdə satirik "Babayi-Əmir" jurnalının da redaktoru olmuşdur. "1913–1917-ci illər arasında Müznib milli mətbuat sahəsində çalışmaqla yanaşı, Şərq və Qərb ədəbiyyatından tərcümələr də etmişdir".[1383]

Cümhuriyyət dövründə Müznib Zülfüqar Hacı bəy ilə birlikdə "Övraqi-nəfisə" jurnalının redaktorlarından biri olmuş, eyni zamanda, Azərbaycan hökumətinin rəsmi nəşr orqanı olan "Azərbaycan" qəzetində Türklüyün tarixi və məsələləri üzərinə bir sıra ardıcıl məqalələr nəşr etdirmişdir.[1384]

27 aprel işğalından sonra mətbuatda çalışan Müznib 1920-1921-ci illərdə Şuşada "Qarabağ revkomunun əxbarı", "Qarabağ füqərası" qəzetlərinin naşiri, eləcə də Qarabağ siyasi-maarif idarəsinin müdiri olmuşdur. 1922-1923-cü illərdə isə Qubada "Quba qəza icraiyyə və firqə komitəsinin əxbarı", "İki dirilik" qəzetlərini nəşr etmişdir. 1924-1925-ci illərdə isə "Kommunist",

---

[1381] Əlabbas Müznibin arxivi. Qovluq 37 (52), vər.8

[1382] Ağayev İslam.Ön söz/Müznib Əlabbas.Seçilmiş əsərləri.Bakı,Şərq-Qərb,2006,s.12

[1383] Yenə orada, s.13-14

[1384] Əliyeva Aynurə. Azərbaycan Cümhuriyyətinin Dövlət Marşını yazan şəxsiyyət. "Türküstan" qəzeti, 15-20 iyun 2018-ci il (1. Yazı)

“Molla Nəsrəddin”, “Kəndçi” kimi qəzet-jurnallarla əməkdaşlıq etmişdir.[1385] Çalışdığı mətbu orqanlarda ona hər daim millətçilik sahəsində yazdıqları xatırladılmış, sonunda da vaxtından əvvəl təqaüdə göndərilmişdir. Bununla da o, 1926-cı ildə mətbuatdan ayrılaraq ədəbiyyat sahəsində araşdırmalar aparmağa başlamışdır. Müznib 1927-1937-ci illər arasında XIX–XX əsrlər Azərbaycan ədəbiyyatı klassiklərinin əsərlərindən ibarət olan bir sıra kitablar yayınlamışdır: “Molla Nəsrəddin məzhəkələri” (1927), “Aşıq Pəri və müasirləri” (1928), “Nakam (İsmayıl bəy Sədrəddinbəyov)” (1928), “Natəvan” (1928), “Abbas Səhhət” (1928, 1935), “M.Ə.Sabir” (1929), “S.Ə.Şirvani” (1930) və b.

İslam Ağayev yazır ki, Ə.Müznib bu illərdə M.P.Vaqifin, M.Hadinin, sonra isə C.Cabbarlının əsərlərinin tərtibinə başlayırsa da, bunların nəşrinə nail ola bilmir. Hələ 20-ci illərin əvvəllərində qələmə aldığı “Bakıda millət müharibəsi” və “Qarabağ xatiratı” memuarlarını yazmaq üçün materiallar toplayır. Azərbaycan Dövlət Nəşriyyatı ilə səkkiz çap vərəqi həcmində olacaq “Ədəbi xatirələr” adlı kitab yazacağı barədə müqavilə bağlayır.[1386]

Müznib 27 avqust 1937-ci ildə həbs edilib, bir millətçi kimi mühakimə olunaraq səkkiz il müddətinə Sibirə sürgün edilmişdir. Ə.Müznibin ailəsinə Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsi tərəfindən 1959-cu il 24 fevralda verilmiş arayışdan məlum olur ki, o, 1938-ci ilin 28 avqustunda Vladivostok yaxınlığındakı xüsusi məntəqədə vəfat etmişdir.[1387]

**Türküçülük və turançılıq.** Müznib Türk romantizminin (Azərbaycan) nümayəndəsi olmaqla yanaşı türkçülük və milli istiqlalçılıq ideyalarını da təbliğ etmişdir. “Hürriyyəti-bəşəriyyə” adlı şeirlər kitabında o, türklükdən və millətin azadlığından bəhs edərək bu yolda milli mədəniyyətin əhəmiyyətindən söz açmışdır. Onun

[1385] Ağayev İslam. Əlabbas Müznib: Həyatı, yaradıcılığı, əsərlərindən seçmələr. Bakı: Elm, 2003, s.75-76
[1386] Ağayev İ.Ön söz//Müznib Əlabbas.Seçilmiş əsərləri.Bakı,Şərq-Qərb,2006,s.15
[1387] Ağayev İ. Əlabbas Müznib: Həyatı, yaradıcılığı, əsərlərindən seçmələr. Bakı: Elm, 2003, s.87

fikrincə, müstəmləkə həyatı yaşayan türk-müsəlman xalqları artıq köləlikdən azad olmalıdırlar. O, yazırdı:

*Necə ucalmasın atəşi-ahımız,*
*Olub bəsteyi-zülm şəhr əhlimiz.*
*Necə çıxmasın naləmiz göylərə,*
*Müsibət yağar dəmadəm yerlərə.*[1388]

Müznib vətəninin, millətinin çar Rusiyasının əsarət altında qalması ilə heç cür barışmaq istəməyib, belə vaxtda rahat yeyib-yatmağı, arsız millət olub torpağı bir ədaya satmağı doğru saymamışdır. Onun fikrincə, çar Rusiyasının işğalı altında yaşayan türklər buna son verib milli hökumətlərini qurmalıdırlar. Müznib yazırdı:

*Ey dəli könlüm, Vətənə ver rəvac,*
*Heç rəvadırmı verək qeyrə bac.*
*Milli hökumət dilərik sadəcə,*
*İstəməriz təntənəli təxtü tac*
*Nalə ilə gəlməz hökumət ələ,*
*Dərdimizə hərbdir ümdə əlac.*
*Hərbə gərək hazır olaq hərb üçün.*
*Əldə silah etməyə var ehtiyac,*
*Hərblə pərvərdə olan türkləriz,*
*Xaki Vətəndir bəzəyim, təxtü tac,*
*Qeyrət edib zülməti zülmə gərək,*
*Şöleyi-şəmkirimiz olsun sirac.*[1389]

"Olsam da mən" şeirində şair millətini "Leyla" adlandırıb, özünü "Məcnun" gözündə görmüşdür. Müznib xalqın azadlığı uğrunda vətənindən sürgün edilib, hər nə qədər qəmküsar olsa da, yenə də sevdiyi bir ad var idi:Millət. O, yazırdı:

*Millətimdən çəkmərəm əl, xarü zar olsam da mən,*
*Dönmərəm əzmimdən hərgiz tarimar olsam da mən.*
*Tərk edildimsə Vətəndən, məqsədim tərd olmadı,*
*Tərki-məqsəd etmərəm məhkumi-dar olsam da mən.*
*Kainat ilə dəyişməm millətin ən acizin,*
*Ac-susuz, miskin qalıb, biqəmküsar olsam da mən.*

[1388]Ağayev İslam.Ön söz//Müznib Ələbbas.Seçilmiş əsərləri.Bakı,Şərq-Qərb,2006, s.6
[1389] Müznib Ələbbas. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2006, s.21

*Sevdiyim bir şey varsa, ol da millət ləfzidir,*
*Eylərəm ol ləfzə səcdə parə-parə olsam da mən.*
*Öylə məftunam ol ismi-pakə kim, Allah bilir,*
*Başımın tacı olar, gər hökmdar olsam da mən.*
*Baxmaram təni-rəqibə xidmətindən doymaram,*
*Sevgilimdir, sevgilimdir, şəhriyar olsam da mən.*
*Aşiqi- dildadeyəm, Leylayi-nami-millətə,*
*Dostlar, ondan bilin, məcnun mədar olsam da mən.*[1390]

Müznibin bu şeirində millət və vətəninə bağlı olmaq ali hisslərlə əks olunmuşdur. Millət, vətən duyğusunu ali səviyyədə özündə təzahür etdirən şair hesab edirdi ki, hər bir Türk, Azərbaycan türkü öz milli qürurunu, milli izzətini dərk edərsə, o zaman milli haqlarının qəsbinə yol verməyəcəkdir:

*Hər kəsdə olsa izzü şərəf, qüdrətü kamal,*
*Qoymaz hüquqi-millətini məhv edə zəval,*
*Sevdayi-eşq-mal ilə satmaz həqiqəti,*
*Etməz özünü duni-rəzil əzməyə xəyal...*
*Barı, əlində saxla bu milli lisanını,*
*Hifz eylə milli adətini varikən macal.*
*Bax, büsbütün çoluq-cocuğun əcnəbiləşib,*
*Dili yox, libası yox, hünər az, vaxt purmahal.*
*Hər kim ki öz dilini atıb özgə dil tutar,*
*Sanma o dillidir, yox, odur ən birinci lal.*
*Müznib, qılınc olmasa, bu qövm öz işin,*
*Qanmaz, yer üzrə ensə də xəllaqi-zül-cəlal.*
*Qanmaz, yer üzrə ensə də xəllaqi-zül-cəlal.*[1391]

Müznib çox haqlı olaraq bir millətin varlığında milli dilin, milli adət-ənənələrin əhəmiyyətini yüksək dəyərləndirmişdir:

*Arif danışmır öz dilini, rusca söyləşir,*
*Dilimiz kimi fənaya gedibdir vüqarımız.*
*İslam adı olubdu bizə bir ləkeyi-cəmal,*
*Heç yerdə qalmamışdı bizim etibarımız.*
*Cəmiyyət hər biri özünü bir yanə çəkir,*

---

[1390] Yenə orada, s.23
[1391] Yenə orada, s.31

*Mövludi dörd yerə bölüb ərbabi-giramımız.*[1392]

Mütəfəkkir "Əhsən, həzar, əhsən!" şeirində yazırdı ki, ziyalının üzərinə düşən vəzifə milləti parçalamaq deyil, bütövləşdirmək olmalıdır. Onun fikrincə, ən önəmli olan isə ziyalı milli kimliklə dini kimliyin fərqini cəmiyyətə başa salmalı və milli hüquqlarını öyrətməlidir. Müznib yazırdı:

*Millət ki, hər hüququn, sayəndə anlayıbdır,*
*Tarixini bilibdir, milliyyəti qanıbdır.*
*Sanma ziyalı qardaş, millət səni danıbdır,*
*Yox, yox qəsəm xudaya, dərdində lap yanıbdır,*
*Ey kani-elmü ürfan, əhsən, həzar, əhsən!*
*Ey millətə nigahban, əhsən, həzar, əhsən!*[1393]

Şairin fikrincə, miliyyətini bilməyən, milli dilini qoruya bilməyən, milli adət-ənənələrdən uzaq düşən hər hansı xalqın gələcəyi yoxdur. Xüsusilə də, milli dilini atıb başqa dillərdə danışanları "lal" hesab edən şair-mütəfəkkirə görə ümidimiz, ancaq milli dilimizə sahib çıxmaq, milli adət-ənənələrimizi yaşatmaq və milli istiqlala nail olmaqdır. Bu baxımdan o, "Ümid" şeirində milli istiqlalın bir gün gerçək olacağına inanaraq yazırdı:

*Göyər, ucal, fələkə baş çək, ey nihali-ümid!*
*Görünməsin bizə asan ikən məhali-ümid.*
*Həyat qönçəsi olmaz zəmanədə xəndan,*
*Ümid gülşəninə axmasa zülali-ümid.*
*Zəvali-halı görüb qan, dirilmək olmayacaq,*
*Bir kiridarda olmazsa bir kəmali-ümid.*
*Münəvvər olmayacaq ümmətin qara qəlbi,*
*Görünməyincə göz gün kimi cəmali-ümid.*
*Görün ilahi! Pərişan ola o cəmiyyət,*
*İçində olmaya gər qal ilə məqali-ümid.*
*Yapış ümidə əgər fateh olmaq istərsən,*
*Hanı o qüvvə ki, kəskin ola misali-ümid.*[1394]

---

1392 Yenə orada, s.58
1393 Müznib Əlabbas. Əsərləri. Bakı, "Elm və təhsil", 2012, s.69
1394 Müznib Əlabbas. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2006, s.32

Bu şeirdən anlaşılır ki, hər hansı cəmiyyəti yaşadan ümidlər, ən başlıcası isə "milli ümidlər"dir. Müznibin düşüncəsindəki "milli ümidlər" millətin öz əlinin öz başında olması, yəni milli hökumətə sahibliyi demək idi. Müznib yaxşı bilirdi ki, dünənə qədər də Türk xalqları, o cümlədən Azərbaycan türkləri azad, hürr yaşamış və milli dövlətlərə sahib olmuşlar. Sadəcə, son əsrlərdə Türk xalqları əsasən qəflətə düşərək cəhalət girdabına yuvarlanmış, nəticədə də böyük əksəriyyəti milli dövlətlərindən məhrum olmuşdur. O, "Mənzumə" şeirində yazırdı:

*Özüni hifzi-qadir olmayan cəng məlamətdir,*
*Utanmazmı vurar dəm səhm vüsalatdan, səlabətdən.*
*Quru lafü-güzaf ilə yaşarmı daimyətlə.*
*O millət ki, olub məhrum sənətdən, ticarətdən?*
*Bu gün millətin ayrı, güni doğmuş məhəbbətlə,*
*Gər gedər feyziyab olmaq bu ənvari-hidayətdən.*
*Rəqabət ərsəsinə biz dəxi qoyduq qədəm, lakin,*
*Təcahillə əzildin ortada şitəmü şəmatatdan,*
*Dolub ayineyi-idarə kəmizjənki küdurətdə,*
*Girizanin həmişə boş yerə ədəbü adətdən,*
*Bu gün Şah məscidilə Xan evi, Qız qalası əlhəq,*
*Birər fəryadi-ibrətdir təvarixi-səadətdən,*
*Zəbuni-qəflət olmuş Qafqasiyanın xananü xaqani,*
*Fənayə uğramış çoxları ətalətdən, bətalətdən.*
*Qiyamət hövlünü daim bizə vəz eyləyir vaiz,*
*Özü məhsuz olmaz leyk bu müdhiş qiyamətdən,*
*Cahani zahidim çirkabi-küfrə qərq zənn eylər,*
*Özün qurtarmamış girdabi-qüsli-cinabətdən!*[1395]

Müznib II Nikolaya ünvanladığı bir şeirində yazırdı ki, Rusiya çarı türklüyün və islamlığın düşmənidir:

*Türklüyü məhkum qıldın bisəmər əfsanəyə,*
*Kəbəyi-İslamı sənsən döndərən viranəyə,*
*Aşinanı-hiyləşər sənsən satan biganəyə,*
*Qəllü zənciri-səfa sənsən nurin fərzanəyə...*[1396]

---

[1395] Yenə orada, s.35
[1396] Yenə orada, s.22

Türk-İslam məfkurəsindən çıxış edən Müznib “Dirilik” (1914-1916) adlı jurnalı nəşr etməklə Azərbaycan türklərinə türklük və islamlıqlarını elmi-fəlsəfi şəkildə aşılamaq istəmişdir. O, həmin jurnalda çıxan məqalələrində yazırdı ki, dini və etnik mənsubiyyət arasında fərq vardır. Bu mənada yalnız türklərin özlərini “İslam milləti” adlandırılması doğru deyildir. Çünki İslam dininə tapınan ərəb, fars, türk kimi bir çox müsəlman xalqları vardır.

Ə.Müznib yazırdı ki, 1900-cu illərdə Azərbaycan Türk mütəfəkkirlərindən Əli bəy Hüseynzadə və Əhməd bəy Ağaoğlu Qafqazdakı Türk və İslam balalarına türklüyünü, islamlığını bildirmiş, yəni “həsbi-nəsəbini öyrətmiş”, “abavü əcdadını” tanıtmışdı. Müznib yazırdı: “Fəqət bu yeddi-səkkiz ildə nəşr olunan qəzetələrin yazıçılarından möhtərəm Əli bəy Hüseynzadə ilə Əhməd bəy Ağayev cənabları bu əhəmiyyətsizlikdən müstəsnadır. Çünki onlar böyük bir aləm kəşf etdilər. Millətlərinə milliyyəti qandıran kimi öz dili, öz mətbuatının fəraizi-diniyyə kimi vacib olduğunu da anlatdılar. Ələlxüsus Əli bəy həzrətləri mətbuat aləmində fövqəladə məharət göstərdi..., farslaşıb... bərbad olan Qafqazdakı Türk balalarına türklüyünü bildirdi, həsəb-nəsəbini öyrətdi, abavu-əcdadını tanıtdı. Lakin onların getməsi Qafqaz əhalisini başsız, böyüksüz buraxmış kimidir. Çünki o cənablar dilsizlərin dili, karların qulağı, korların gözü idilər. Müxtəsər, bir bölük maarif yetimi olan Qafqaz müsəlmanlarının ataları idi”.[1397]

Ə.Hüseynzadə, Ə.Ağaoğlunun Azərbaycanda olmadığı bir dövrdə onların yolunu davam etdirən Ə.Müznib bir tərəfdən Türk kimliyini, digər tərəfdən İslam mədəniyyətini təbliğ etmişdir. Müznib Türkçülük və İslamçılıq yolunu tutan əqidədaşları kimi hesab edirdi ki, millətin varlığı onun dilinin, milli adət-ənənələrinin qorunub saxlanılmasından və milli istiqlala nail olmaqdan asılıdır. O, “Məqsədimiz” məqaləsində yazırdı: “Ona görə də biz dəxi özümüzü bir məqsəd sahibi sandığımıza görə alıb, müaşirət və həyati-milliyyəmizi tədqiqə başladıq, başladıqsa qüvvətli deyicilərin deyintilərinə düçar olduq. Lakin o düçar olmağın acısı

[1397] Yenə orada, s.111

Qafqaz əhalisinin halında olan aclığın yüzdən biri qədər bizə təsir etmədi. Çünki tədqiqatımızda əhalinin yüzdə doxsan doqquzunu hansı dindən, hansı məzhəbdən və hansı millətdən olduğunu bilməyən gördük, hər bir müsəlmandan – "hansı dində, hansı məzhəbdə və hansı millətdənsən" – soruşduqda "İslam dinindən, islam millətiyəm" – cavabı alınırdı. Yazıq səksən-doxsan il ömür edib din, məzhəb ilə millətin ayrı-ayrı olduğunu hənuz başa düşməmişdir. Halbuki İslam dinində ərəb, fars, türk millətləri var. Hakəza xristian türkləri dəxi vardır. Və hər bir dini qəbul edə bilər. Məzhəb də elədir. Lakin milləti din adı ilə adlandırmaq böyük nöqsandır. Belə bir millətin yaşamaq ümidində olması xətadır. Bu səbəbilə əhalimizə millətini tanıtmaq üçün bir müfəssəl "Türk tarixi" yazmışdıq".[1398]

Ə.Müznib "Qafqasiya tarixi" məqaləsində yazırdı ki, bütün millətlər öz övladlarına hansı irqdən, cinsdən, etnosdan olmaları barədə bilgi verə bildikləri halda, Qafqaz türkləri bundan məhrumdurlar: "Tarixi bilməyən bir millət özünün nə olduğunu bilməz, özünün nə olduğunu bilməyən millətdə şərəf və izzəti-nəfsin olmağı qeyri-mümkündür".[1399] Müznibə görə qədim bir qitə olan Qafqaz çox müxtəlif etnoslardan ibarətdir ki, buna əsas səbəb də tarixən Asiyadan Avropaya köç edən qövmlərin bir hissəsinin burada məskunlaşmasıdır: "O qəbilə əhalisinin bir miqdarının o qövmlərin nəvələrindən olduğu da zənn edilir. Bu cürə zənniyyatdan sərf-nəzər etdikdə bu gün Qafqasiyanın əhalisi üç qismə bölünür: 1) Əsil Qafqaz əhli; 2) Turanlılardan olan türk, tatar və monqollar; 3) "Ariya" qövmlərindən olan ruslar ilə ermənilər və iranlılar və sairə".[1400] Ona görə Azərbaycan türklərinin millət kimi təşəkkülündə əsasən türk-tatarlar ilə yanaşı, türkləşmiş moğollar da iştirak ediblər. Ermənilərin "ariya" qövmündən olması məsələsinə gəlincə, fikrimizcə, Müznib həmin dövrdə belə bir iddia ilə çıxış edən avropamərkəzçi tədqiqatçıların təsiri altında bunu yazmışdır.

[1398] Yenə orada, s.113-114
[1399] Yenə orada, s.115
[1400] Yenə orada, s.115

Müznib "Nə etməliyik?" məqaləsində isə milli istiqlala nail olmaq üçün milli birliyə gəlməyin vacibliyindən bəhs etmişdir. Onun fikrincə, milli birliyə nail olmaq üçün də yeni dövrün şərtlərini də nəzərə almalıyıq. Başqa sözlə, Türk-İslam xalqları milli ittifaq etmək üçün əvvəlcə ortaq nöqtələri tapmaq lazımdır. O, yazırdı: "Həqiqətən xəyalımız hüquqi-müizzimizi (ali hüquqlarımızı – F.Ə.) geri almaq, zalımın çəngəli-qəddarəsindən (qəddar əsarətindən – F.Ə.) xilas olmaq isə müctəhid və müttəfiqə rəy olub ittifaq etməliyik. Zira ittifaq elə bir ali sifətdir ki, beş aciz onunla mütəəssif (təəssüflənərsə - F.Ə.) olar isə əngüştnümai-cahan olan bir cabbari (zülmkar dövrə – F.Ə.) dəqiqələrlə belə macal verməyərək müzməhil (aradan qaldıracaqları - F.Ə.) edəcəkləri şübhəsizdir. Necə ki, bu xüsusda həkimi-banami-aləm alimi-siyasət Şeyx Sədi həzrətləri buyurmuşdur:

*Murçəqanra çü bovəd ittifaq,*
*Şiri-jiyanra baderənd pust.*
*(Qarışqalar əgər ittifaq etsə,*
*Vəhşi şirin dərisini yırtarlar).*

Hakəza ittifaq kiçik bir qövmi böyük bir millət dərəcəsinə yetirdiyi kimi, nifaqın dəxi böyük bir milləti də nabüd etməsi mühəqqəqdir. Ona görə də biz İslam millətini boğazlayan cəlladların cəngalından qurtarmaq istərsək, hər halda, hər məkanda olursa olsun bir-birilə görüşüb müşavirə etməklə ittifaq etməliyik. Lakin biz müsəlmanlar elə qanı soyuq, elə havapərəst olmuşuq ki, bir acizi döyməyə ittifaq etməkdən başqa digər bir şeyə istedadımızın olmaması dəxi zənn olundu. Əcəba, bir acizin əksəriyyətlə döyülməsini özümüzə hünər saydığımız kimi ən alçaq bir qulluqçunun da qarşısından yüzlərimizin qaçması nə dərəcə də namussuzluq olduğunu anlasaydıq, şübhəsiz hər ikisinin tərkinə çalşardıq. Odur ki, istiqlali-milliyyəmiz, islahati-mülkiyyəmiz günü-gündən pozğunluğa, pərişanlığa üz çevirməkdədir. Halbuki indilikdə biz islam milləti üçün mövcud olan cəmiyyətlər heç bir dövləti-mütləqənin məmləkətində mümkün deyil. Əcəba, bütün ömrümüzü cəmiyyətlərdə keçirdiyimiz kimi istiqlali-milliyyəmizə çalışdığımız

nə olmuş, fəqət lağlağiyyat, müzəxrəfat (uydurmalar – F.Ə.) söyləməkdən başqa bir şey olmamışdır”.[1401]

Ona görə milli birliyə nail olmaq üçün din amilindən, islamiyyətdən də faydalanmaq lazımdır. Çünki İslamda da millət birliyi, vətən məsələsi mühüm yer tutur, vətən üçün mücadilə vermək əsas amallardan hesab olunur. O, yazırdı: “Məscid o müqəddəs, o ali yerdir ki, millətin-nücəbiyi-islama (islam millətinin nəcibləri, əsilli adamları – F.Ə.) bir hadisə ariz olduqda filfövr (dərhal) orada ərlər, qəhrəmanlar, ictima edib haman hadisənin dəfinə, yainki tövsiyeyi-məmaliki islamiyyə haqqında məsləhət və məşvərət edərdilər. Amma burasını bilməliyik ki, o tərzdə, o qaydada ki, indilikdə biz millətİ-İslam dolanırıq, gələcəkdə belə ictimailik istər məsciddə, istər qeyri bir yerdə olmuş olsun, ağlar göz ilə həsrətinini nə qədər çəkəcəyiksə də, lakin bir zərrəcə mümkün olmayacaq. O vaxt – “ah”, “əfsus” – dəxi fayda verməyəcəkdir. Hər halda islam qardaşlarımdan məzkur cəmiyyətləri qənimət bilib onu cəraddan (soyğunçulardan) sərfi-nəzər etməklə dərdlərimizin çarəsinə tədbir etmələri tövsiyə olunduğu kimi, dərdimizə çarə istərsək ittifaq etməliyik, - deyə xətmi-kəlam edərim”.[1402]

Ə.Müznib Azərbaycan Cümhriyyəti yarandıqdan sonra da, milli birlik məsələsinə həssaslıqla yanaşmış, Türk xalqlarının birliyi üçün mücadilə vermişdir. Belə ki, Cümhuriyyətə qədərki dövrdə daha çox çar Rusiyasının işğalı altında olan Türk-İslam xalqlarının azadlığı üçün çalışan Müznib, növbəti mərhələdə isə müstəqil olan Türk dövlətlərinin birliyi üçün əlindən gələni etmişdir. Bu baxımdan onun Cümhuriyyət dövründə yazdığı “Azərbaycan” şeiri diqqətəlayiqdir. O, adı çəkilən şeirində bir tərəfdən Azərbaycan Cümhuriyyətinin müstəqilliyinin əhəmiyyətindən, digər tərəfdən isə müstəqil Türk dövlətlərinin Turan coğrafiyası çərçivəsində birliyindən bəhs etmişdir. Eyni zamanda, o, Azərbaycanı da arzuladığı Türk birliyinin, Turanın mərkəzi hesab etmişdir:

---

[1401]Yenə orada, s.109
[1402]Yenə orada, s.110

*Azərbaycan çəlik güllər bağçası,*
*Bakıxanlar gülzarıdır bu ölkə.*
*Məhəmməd xan, Əhməd xanlar məskəni,*
*Cavad xanlar məzarıdır bu ölkə.*

*Turan irqi bu ölkədə boy atmış,*
*İgidliyin sancağın ucaltmış,*
*Dünyaları qeyrəti ilə donatmış,*
*Qəhrəmanlar peykarıdır bu ölkə.*

*Mədənləri fironları qudurtdu,*
*İskəndəri uzaq yerdən gətirdi,*
*Nüşabəni, Sədanları böyütdü,*
*Sərkərdələr qəmxardır bu ölkə.*

*Turan boyu başqa soya qarışmaz,*
*Qul olmağa heç bir zaman alışmaz,*
*Qucağında yad tutmağa çalışmaz,*
*Düşmənlərin əğyarıdır bu ölkə.*

*Moskovlular gözlərini yumdular,*
*Turanlıya barbar deyə cumdular,*
*Pozuldular, axır geri döndülər,*
*Xırsızların qəhbarıdır bu ölkə.*

*Məbudumuz üç boyalı bayrağı,*
*Kəbəmizidir hər bir ovuc torpağı,*
*Sevməz bu yer hər xaini, alçağı,*
*Doğruların asarıdır bu ölkə.*[1403]

Müznib hesab edirdi ki, heç bir zaman Turan-Türk xalqları əsarətlə barışmamış, qısa müddətli işğal dövrlərində də daim mücadilə verib sonunda yenidən müstəqilliklərinə qovuşmuşlar:

*Altun yurdum qalmış idi bir zaman*
*Qaniçici düşmənlərin əlində.*

[1403]Min beş yüz ilin Oğuz şeiri.Antologiya. 1. Kitab.Bakı, "Azərbaycan", 1999, s. 666

*Yavruları boyun söyküb baxardı.*
*Qoca kibi gücsüz əli belində.*
*Azərilər hər bir yanda ağlardı,*
*Lalə kibi yürəkləri dağlardı.*
*Çirkin dilək, alçaq məqsədli düşmən*
*İstərdi ki, Quran, İslam yox olsun.*
*Həm Türklüyün bir şöbəsi Turanda.*
*Solsun da, həm qanlı əllərlə solsun.*[1404]

Ancaq heç bir zaman Türk böyükləri, Türk aydınları Türk xalqlarının əsarət altında yaşaması ilə razılaşmamış, əgər əsarət altında olan bir Türk toplumu varsa onun azad olmasına çalışmşlar. Bu baxımdan Müznibin Osmanlı dövlətinin hərbi naziri olmuş Ənvər paşaya həsr etdiyi "Qazi Ənvər paşa" şeiri təsadüfi olmamışdır. O, həmin şeirində Ənvər paşanın bir Türk böyüyü, Türk komutanı kimi bütün Türk xalqlarına sahib çıxmaq diləyinə ali bir duyğu ilə qarşılıq vermişdir. O, yazırdı:

*Ol dəm ki, bütün qanə, boyanmış dəmir əllər,*
*Türk ölkəsinin sancmış idi bağrına xəncər,*
*Ol dəm ki, xilafət sönəcəkdi, batacaqdı,*
*Türk aləminin yoxluğu olmuşdu müqərrər.*
*Ol dəm ki, hilal arizinə yırtıcı qartal*
*Salmışdı amansızlıq ilə qara şəhpər,*
*Ol dəm ki, səlib əhli edib şiddətü tüğyan.*
*İstərdi dönə bütkədəyə Kəbəyi-əthər,*
*Ol dəm ki, Məhəmməd (s.) adı təqdir olunurdu.*
*Quran tutulurdu nə rəzalətlə məhqər,*
*Doğurdu böyük Türk elinə fəzli-ilahi*
*Ənvər paşatək fatehü qaziyü hünərvər;*
*Güldü üzü Türk aləminin, oldu fərhənak,*
*Buldu qədəmi-pakı ilə Türk eli zivər;*
*Ənvər paşa, ey çalisi-övrəngi-rəşadət,*
*Ənvər paşa, ey qahirəyi-ədayi-sitəmgər.*
*Ey Şərqi münəvvər edən ənvari-zəfərlə,*
*Ey türki edən qüdrəti qüvvətilə müzəffər,*

---
[1404] Müznib Əlabbas. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2006, s.42

*Tariximizi şanlatan, ey şanlı igit türk,*
*Afaqımızı parlatan ey şöleyi-əzfər,*
*Sərdin bir zərbi ilə heykəli-zülmi,*
*Bir vaxtda ki, qalmış idi türk eli bisər.*[1405]

Müznibin düşüncəsində Ənvər paşa Türk birliyinə, Turana nail olmağa çalışan bir Türk qəhrəmanı, Türk igidi idi. Şübhəsiz, Ənvər paşanın Azərbaycan Cümhuriyyətinə etdiyi yardımlar, xüsusilə də kiçik qardaşı Nuru paşanı Qafqaz İslam Ordusunun komutanı kimi Azərbaycana köməyə göndərməsi Müznibin düşüncəsində böyük, müqəddəs bir əməl idi. Məhz bu qardaş yardımını nəzərdə tutaraq Müznib "Əməlpərvəranə bir xatirə" şeirində Türk birliyindən, Turandan bəhs etmişdir:

*Ey türkliyin nişanəsi, yüksək səmalərə*
*Yüksəl, səninlə yüksələcəkdir əməllərim,*
*Yüksəl, başın təmas eləsin ərşi-əkbərə,*
*Yüksəl, hüzuri-həqqə irişsin əməllərim,*
*Zira nəbiyyi-məqsədimin Cəbrəilisən,*
*Ülvi diləklərin əbədi bir dəlilisən.*

*Ey türklüyün bu ölkədə yüksək minarəsi,*
*Ey heykəli-mövbüdü Allahü əkbərin,*
*Şərqin səmayi-izzdə parlaq sitarəsi,*
*Çirkin əsərini əzmək üçün vəhşi bərbərin,*
*Girdi hilal şəklinə ruhi-Süyüm bikə,*
*Etdi başında qartalı min parça, min tikə.*

*Oldu cahanə Türk elinin qüvvəti sübut,*
*Kinli, inadlı düşmənimiz eylər etiraf,*
*Dünya üzündə Türk eli bir eldi ləyamut,*
*Etməz zəif onları min hərb, min məsaf,*
*Dünya olunca hökm edəcək Türk uluqları,*
*Dünya durunca həp duracaq Türk uruqları.*[1406]

---

[1405] Müznib Ələbbas. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2006, s.39-40

[1406]Ağayev İslam. Ələbbas Müznib: Həyatı, yaradıcılığı, əsərlərindən seçmələr. Bakı: Elm, 2003, 115-116

Beləliklə, Əlabbas Müznibin türkçülük, Türk birliyi, Turan məfkurəsi ilə bağlı gəldiyi nəticələri çox yüksək qiymətləndiririk. Bizcə, Müznibin bu məsələlərlə bağlı gəldiyi nəticələr, irəli sürdüyü mülahizələr yüz ilə əvvəl olduğu kimi hazırda da mühüm əhəmiyyət kəsb etməkdədir. Xüsusilə də, onun Türk birliyinin gerçəkləşməsi yolunda Azərbaycanın, Azərbaycan türklərinin yeri və rolu barədə yazdıqları öz aktuallığını qoruyub saxlamaqdadır.

**Müznibin dünyagörşündə islamçılıq.** İslamlıq məsələsinə gəlincə, Müznib İslam dini və onun banisi Məhəmməd peyğəmbərin (s.) həyatı ilə bağlı məqalələr yazmış, ondan bəhs edən "Muxtarnamə" romanını türkcəyə çevirmişdir. Onun İslam dininə dair ən dəyərli kitabı isə "Müxtəsər ənbiya və İslam tarixi"dir.

İslamiyyətlə bağlı Müznibin ən çox diqqət yetirdiyi məsələlərdən biri Məhəmməd peyğəmbərin (s.) yüksək əxlaqi-mənəvi keyfiyyətləridir. Müznib Həzrət Məhəmmədə (s) həsr etdiyi "Mövlud" şerində yazırdı ki, Peyğəmbərin (s) dünyaya gəlməsi ilə həmin ayda möcüzələrin baş verməsi təsadüfi olmamışdır:

*Doğmuş bu gün ami-cahan,*
*Bir tacdari-əzəmi,*
*Kim, haqq vücudilə anın,*
*Etmiş müzəyyən aləmi.*
*Mehri-cəmali-çərxdə,*
*Xurşudi bitab eyləmiş.*
*Əymiş hilali taq tək,*
*Şəmşiri əbruyi-xəmi.*[1407]

Müznibin fikrincə, bununla da bəşəriyyətdə yeni bir başlanğıcın əsası qoyulmuş, insanlar Peyğəmbərimizin (s.) yaydığı haqq dininə tapınmağa başlamışlar:

*Şəkli bəşərdə ibtida,*
*Ərzi-cəmal etmiş həqqə.*
*Xəllaqi-haqq ol vəchilə,*
*Məhbub qılmış aləmi.*
*Oldur nəbii-mürsəlin,*

[1407] Müznib Əlabbas. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2006, s.38

*Oldur şəfie müznibin,*
*Səlavat ilə zikr eyləyək,*
*İmami-Rəsuli-əkrəmi.*[1408]

Müznibin Məhəmməd peyğəmbərə (s) həsr etdiyi şeirləri arasında "İqrari-iman"ı fəlsəfi-mənəvi mənasına görə xüsusilə, diqqətəlayiqdir. O, bu şeirində yazırdı ki, Peyğəmbərin (s) mövludu cəhalət və nadanlıq içində boğulan insanlar üçün nicat yolu olmuşdur. Belə ki, onun üzünün nuru ilə Allah Quranı müsəlmanlara göndərmişdir. Müznibin fikrincə, bunu təsdiq edən də Quranın özüdür:

*Açıldı mehrin ilə çeşmi-iman, ya Rəsulullah,*
*Silindi nurun ilə qəlbi-əzan, ya Rəsulullah.*
*Bəşərsən, zahirən, lakin məqami-həqq məkanındır,*
*Lisani-xaliq aləmi-həqiqətdə lisanındır.*
*Sən əvvəli-zati-məailisən ki, Quran mədhi-xanındır,*
*Bunu təsdiq edər Quranü Fürqan, ya Rəsulullah.*
*Qədəmi-pakin ilə izzəti-insan füzun oldi,*
*Yığıldı Kəbədən əsnam, o saqi-sərnigun oldi.*
*Təcəlləyi-cəmalından ədular bağri xun oldi,*
*Cahana bəxş qıldın feyzü ehsan, ya Rəsulullah.*

Onun fikrincə, Peyğəmbərmizin (s) İslamı təbliğ etməsi ilə insanlar arasında bərabərlik, ədalət və azadlıq ideyaları yayılmış, bununla da Rəsulallahın dövründə artıq cəhalətdən əsər-əlamət qalmamışdı. Çünki Peyğəmbərimiz (s) irqindən, cinsindən asılı olmayaraq bütün insanların bərabər olması ideyasını irəli sürmüşdü. O, yazırdı:

*Qurtardi iqrari-biismi-rəbbinə xəlqi cəhalətdən,*
*Sən əvvəlki zati-müəzzimsən, məlaik ərşi-izzətdən.*
*Enib oldi qapıda cümlə dərban, ya Rəsulullah.*
*Yədi-ecazkarında kim açdı xəlqə şəhrahi,*
*Ləki-möcüz bəyanında buyrdun hikmətullahi.*
*Müsavi eylədin mərdü zənn, ey şahlar şahı!*
*Hüquqa, hökmə malik olan insan, ya Rəsulullah:*

---

[1408] Müznib Ələbbas. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2006, s.39

*Təcəlləyi-cəmalın tirə ərzi-tabnak etdi,*
*Həqiqət hali parlatdı, xurafatı həlak etdi.*
*Sən əvvəli-insani-kamilsən, səninlə iştirak etdi,*
*Qəzadə mərdü zən, əşyax, sibyan, ya Rəsulullah.*
*Zinani, sirqəti, xəmri, riyani, qətli-ixvani,*
*Ümumən nəhy edib, etdin müəzzəz şaki insani.*
*Səxani, rəhmi, sidqi, himməti, bicize-ətaki,*
*Edib fərz, eylədin qüdrəti nümayan, ya Rəsulullah.*[1409]

Ə.Müznibin fikrincə, o vaxta qədər ki, müsəlmanlar Peyğəmbərin (s) qoyduğu yol ilə getdilər, onda bütün dünyada cahangir və məşhur oldular. Ancaq bu yoldan kənara çıxdıqdan sonra müsəlman dünyasında vəziyyət tamamilə dəyişdi:

*Nədən ki, hökümunə baxdıq, cahangiri zaman olduq,*
*Ədalət kani olduq, həm də məşhuri-cahan olduq.*
*O gün ki, inhiraf etdik, zəlili-insü can olduq,*
*Əsir etdi bizi hər yerdə üdvan, ya Rəsulullah*
*Oturdi məsnədində alim adlı bir para nadan,*
*Şəriət söndü, din getdi, məmalik olan həm viran,*
*O şövkət, ol səlabətdən qalıb bircə quru əfğan,*
*Fənaya uğramış iqrari-iman, ya Rəsulullah.*[1410]

Müznib hesab edirdi ki, cəhalət və avamlığın hökm sürdüyü müsəlman məmləkətlərin cəhalət və nadanlıq girdabından xilas olmalarının yolu ilkin İslama qayıtmaq və Peyğəmbərin (s) qoyduğu qaydalara əməl etməkdir. Çünki "yalnız İslamın ərşə ucalmış minarələri Yer ilə Günəş arasında əmini-sadiq"dir:

*Səni sevən kişidə olsa qüvvəyi-iman,*
*Şəhidi-tiğ olub əduyə eyləməz təslim.*
*Səni sevən kişi gər olsa sahibi-Quran,*
*Əlini qoymaz uzatsın turfana əhli cəhim.*[1411]

Ə.Müznib "Üləma və ruhanilərimiz" məqaləsində də İslamın adından danışan, ancaq şəriətin qanunlarına əməl etməyən ruhaniləri tənqid etmişdir. O yazırdı ki, müsəlman dünyası cəhalət

---

[1409] Müznib Əlabbas. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2006, s.29
[1410] Müznib Əlabbas. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2006, s.30
[1411] Müznib Əlabbas. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2006, s.30

və nadanlıq içində batdığı, min bir müşkulat və əzaba düçar olduğu birinci Dünya müharibəsi dövründə üləmaların və ruhanilərin bunlara reaksiya verməməsi doğru deyildir: "Ona görə də bu gün dünyanı dəhşətli yanğınlara yandıran, qanlı faciələrə mərux edən (məruz qoyan –F.Ə.) bu cahan müharibəsinin baisi məzkur milliyyət və dəyanət məhkəməsində əfv edilmədiyi kimi üləma və ruhanilərimiz dəxi əfv ediləcək müqəssirlərdən deyildir. Əgər onların bugünkü hərəkət və sükunəti ətrafınca tədqiq və təhqiq edilərsə, cahan müharibəsinin baisindən eylər və ən əvvəl üləma ruhanimizin məcazaiti təqrir edəcəyi təbiidir. Zira bu müharibə içində keçirdiyimiz qailə, rast gəldiyimiz müşkülat və düçar olduğumuz müsibət din və milliyyət ayrısı olanları mütəssir etdiyi halda, üləma və ruhanimizdə əsla bir təsir müşahidə olunmadı. Sanki yanan evlər, dağılan xanimanlar İslamın, heyvancasına kəsilən başlar, boğazlanan qocalar, namusları çirkin ayaqlar altında əzilib çeynənən xanım qızlar İslam deyilmişlər. Halbuki bu ölüm, faciə dünyada ağlatmamış bir bəşər buraxmamış, hətta daş ürəkli qatillərin dəxi kəsdiklərinin tamaşasına riqqətlənib ağladığı da rəvayət olunur. Buna binaən qatilin riqqətinə, üləmamızın rahat yaşamağına baxdıqda demək olar ki, o müslüm və müslümələrin, yəni məzlum və məzlumələrin halına bütün qeyri-müslümlər ağladığı halda, üləma və ruhanimiz qəhqəhəylə gülüb şad olmuşlardır".[1412]

O, vurğulayırdı ki, xristian keşişlər çətin vəziyyətdə qalmış dindaşlarına hər cür yardım göstərdikləri halda, müsəlman ruhanilərin yalnız özlərini fikirləşmələri böyük faciədir. Müznibə görə din alimlərinin həyata baxışı qəti surətdə islah olunmayınca müsəlman ölkələrində vəziyyət dəyişməyəcəkdir. Məscidlərdə toplanan pulların ruhanilər tərəfindən mənimsənilməyib yoxsullara, aclara ayrılması üçün, ilk növbədə, din xadimlərinə məvacib kəsilməlidir. Müznibin əsas məqsədi odur ki, müsəlmanlar İslam dininin əsl mahiyyətini dərk etsin, ona sözün əsl mənasında əməl

[1412] Müznib Əlabbas. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2006, s.127-128

etsinlər. O, "Durma çəkil" şeirində satirik anlamda da olsa, müsəlmanların İslama münasibətində olan bir çox gerçəkləri yazır:

*Qoy cəhalətlə çürütsün ömrünü islamiyyət*
*Elmilə olsun əcanib kainatə hökmran,*
*Biz cinan qılmaniyik, qoy onlara qalsın cahan.*
*Düşməmiş artıq bəlayə gəl bu feilindən usan!*
*Dağ kimi durma könül, şəhrahi-millətdən çəkil!*
*Sən ki peyğəmbər deyilsən, keç bu ümmətdən çəkil!...*

*Mollalar arifləri təkfir edirsə, eyləsin,*
*Şeyxlər şairləri təqdir edirsə, eyləsin,*
*Əhdini Avropaya təğyir edirsə, eyləsin,*
*Hər necə röyaların təbir edirsə, eyləsin,*
*Dağ kimi durma könül, şəhrahi-millətdən çəkil!*
*Sən ki peyğəmbər deyilsən, keç bu ümmətdən çəkil!...*

*Söyləmə hər dəm axan qanlar müsəlman qanıdır,*
*Dad qılma doğranan canlar müsəlman canıdır,*
*Qanımız çünki əcanib dərdinin dərmanıdır,*
*Qanmayırsanmı, bu gün dövran hünər dövranıdır,*
*Dağ kimi durma könül, şəhrahi-millətdən çəkil!*
*Sən ki peyğəmbər deyilsən, keç bu ümmətdən çəkil!*[1413]

Müznib müsəlmanları oyanmağa, bir-birlərinə sahib çıxmağa dəvət edirdi. Onun fikrincə, müsəlmanların başçısı hesab olunan mollalar, axundlar, vaizlər bir sözlə, üləmalar insanlara doğru yol göstərməlidir. O, "Vaiz" şeirində yazırdı:

*Gəlmiş əza, mətaın doldur çuvala, vaiz,*
*Bazari-minbərə çıx sat, ah-nalə, vaiz!*
*Zahirdə sat təqəddüs, batində elə tüğyan,*
*Əmr et, avam qılsın məscidləri çırağban.*
*Gəlsin araya hər dəm halva, çörək, forəvan,*
*Bir külçəyə behşiti eylə qəbalə, vaiz!*[1414]

---

[1413] Müznib Əlabbas. Əsərləri. Bakı, "Elm və təhsil", 2012, s.26
[1414] Yenə orada, s.79

O, “Biz üləma məzhəbiyik” şeirində də yazırdı ki, bunların çoxunun dini, imanı İslam dini deyil “üləma dini”dir. Belə ki, “üləma dini”nin tərəfdarlarına görə, əsas İslam dini deyil, onlarn maraqlarına cavab verən öz “din”ləridir. Müznib yazırdı:

*Ədə, a qardaş, başına fırlanım,*
*Biz nə təbiyyi, nə həva məzhəbiyik.*
*Dinmə, biz İslam, filan qanmırıq,*
*Cümləmiz ancaq üləma məzhəbiyik.*
*Ruhla-canla edərik etiqad,*
*İstər ola zülm, yainki dad.*
*Beynimizə girməyəcək başqa zad.*
*Çünki ümumə üləma məzhəbiyik,*
*Aşiqi-üqba, füqəha məzhəbiyik.*[1415]

O, “Təcəssümi-əmal” şeirində isə riyakar üləmaların əməlləri nəticəsində İslam aləmində yaranan problemlərindən söz açmışdır. Müznibə görə İslam aləminin geriləməsinə səbəb son əsrlərdə yenilik qapılarını üzümüzə bağlamamız oldu. O, yazırdı:

*Bilməm bizə cin dəydimi, düşdük bu bəlayə?*
*Banaleyi-cangah.*
*Min illərlə gördüyümüz zövqi-səfalar,*
*Məhv oldu pozuldu.*
*Amalımızın bəhrəsi bu cövrü səfalar,*
*Ənzarə düzüldü.*
*Öz işlərimiz cisimlənib çıxdı zühura,*
*Açdı yədü bidad....*[1416]

Müznib “Qurban bayramı” şeirində isə dini bayramlara, müsəlmanların özlərinə olan münasibətdə dəyişən mənfi cəhətləri tənqid etmişdir. O, yazırdı ki, müsəlmanlar ümidsizliyə qapılmaqdan əl çəkib zülmə, cəhalətə son verməlidir. Şair yazırdı:

*Birdə nə görürsən yığışıb əhli-maarif,*
*Bir məclis açıldı.*
*Cəmiyyət edib məclis açıb bir neçə arif,*
*Həm üzv seçildi.*

---

[1415] Yenə orada, s.52-53
[1416] Yenə orada, s.49

*Üz tutdular min şivə ilə əhli-ğinayə,*
*Ey sahibi-dövlət.*
*Yandırdı cəhalət bizi getdikdə fənayə,*
*Yox zülmə nəhayət.*
*Daldan dala qaldı müsəlman bu cahanda,*
*Xar oldu əzildi.*
*Yox mədrəsəmiz, məktəbimiz qaldıq amanda,*
*Əncam pozuldu...*
*Bilməm bu nə sözdür ki, deyirlər edər ehya,*
*Milliyyəti qeyrət.*
*Biz milləti-İslamda olmaz niyə aya,*
*Bu qeyrətü himmət...*[1417]

Beləliklə, Müznibin islamlıq, islam dini ilə bağlı düşüncələri onu göstərir ki, o, İslam dünyasının oyanışı və zülmətdən işığa çıxması məsələsində inamlı, ümidli olmuşdur. Bu baxımdan Müznibin islamiyyət, islamlıqla bağlı o vaxt irəli sürdüyü bu fikirlər bu günümüz üçün də son dərəcə aktualdır. Məsələn, Müznib "Məscid" şeirində ümid edirdi ki, müsəlmanlar doğru yola yenidən üz tutacaqlar. Başqa sözlə, məscidlər yenə də sözün həqiqi mənasında müsəlmanlara doğru yolu göstərəcəkdir. O, yazırdı:

*Ey məscid, əya məcməi-ərbabi-həmiyyət*
*Şurayi-həqiqət*
*Səndə doğulub şəmseyi-elmü mədəniyyət,*
*Şani-əbədiyyət.*
*Hər müşkül işə düşsəydi milləti-islam,*
*Aləm bulunardı.*
*Fövrən yığışıb halına eylərdilər iqdam*
*Çarə aranardı.*
*Səndə yığışan cümləsi ərbabi-hünərdi,*
*Bixofu xətərdi.*
*Zülmə əl açan, zalimi filfövr yıxardı,*
*Min zərbə vurardı.*[1418]

---

[1417] Yenə orada, s.36
[1418] Yenə orada, s.33-34

Qeyd edək ki, Ə.Müznib Azərbaycan Türk ədəbiyyatının tanınmış nümayəndələrinin (Qasım bəy Zakir, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab, Seyid Əzim Şirvani və b.) həyat və yaradıcılıqları haqqında yazdığı əsərlərində də yeri gəldikcə, din və islamlıqla bağlı fikirlərini ifadə etmişdir.[1419] İslam Ağayev doğru yazırdı ki, Ə.Müsnib ö müasirləri içərisində İslam dininə obyektiv münasibət bəzləməsinə görə seçilən ədəbiyyat xadimlərimizdən biridir: "O, İslam dinini bədnam edən mənfəətpərəst ruhaniləri amansız tənqid etsə də, bu dinin böyük mənəvi dəyərlərini yüksək qiymətləndirirdi. Ə.Müznib bir sıra əsərlərində İslam dininin elmi və tarixi əsaslarını təbliğ edirdi".[1420]

**Beləliklə**, Əlabbas Müznibin dünyagörüşündə türkçülük, islamçılıq, yeniləşmə və digər məsələlər önəmli yer tutmuşdur. Özəlliklə, onun görüşlərində mühafizəkarlığın tənqidi və çağdaş dövrün şərtləri ilə ayaqlaşma böyük önəm daşımışdır. Müznib Azərbaycan xalqının milli oyanışı üçün maarifçiliyi mühüm yol kimi götürmüş, cəmiyyətdə islahatların aparılmasının tərəfdarı kimi çıxış etmişdir. O, son yüzilliklərdə tənəzzül içində olan İslam dünyasını tənqid edərkən də heç bir zaman radikallığa varmamış, bu məsələlərdə diqqətli olmağa çalışmışdır. Müznibin əsas tənqid hədəfi İslam dini deyil, həmin dinin adından çıxış edən ikiüzlü ruhanilər olmuşdur. O, əsas diqqəti müsəlmanların çağdaş dövrün tələbələrinə uyğunlaşması üçün islahatların aparılmasına yönəltmişdir. Eyni zamanda, Müznibin ictimai-siyasi görüşləri də burada şərh edilmiş, onun Türk dünyasının, o cümlədən Azərbaycan xalqının gələcəyi ilə bağlı düşüncələri təhlil olunmuşdur. Belə ki, Müznib türklüyün dərkinin çox vacib olmasını soydaşlarına çatdırmağa çalışmış, məhz türklük əsasında Azərbaycan xalqının yenidən Milli istiqlala qovuşacağına inanmışdır.

---

[1419] Müznib Əlabbas.Azərbaycan ədəbiyyatından seçmələr.Bakı, "Elm və təhsil", 2011

[1420] Ağayev İslam. Əlabbas Müznib: Həyatı, yaradıcılığı, əsərlərindən seçmələr. Bakı: Elm, 2003, 17

# YUSIF ZİYA TALIBZADƏ

**Həyat və yaradıcılığı.** Azərbaycan Türk mütəfəkkiri, ictimai-siyasi xadim Yusif Ziya Talıbzadə (1877-1923) Tiflisdə Axund Mustafa Talıbzadənin ailəsində dünyaya gəlib. O, təhsilini Zaqafqaziya Şiə Ruhani İdarəsinin nəzdindəki məktəbdə almışdır. 1894-cü ildə Məşhədə gedən Yusif Ziya orada Mirzə Cəfər mədrəsəsini bitirmişdir.[1421] Mədrəsədəki ədəbiyyat müəllimlərindən biri Yusif Ziya adını daşıyırdı ki, sonralar Yusif Talıbzadə həmin müəlliminin şərəfinə "Ziya" təxəllüsünü özünə götürmüşdür. Tiflisdə "axundluq" dərəcəsindən imtahan verərək Zaqafqaziya Ruhani İdarəsində qazı, vaiz, pişnamaz işləmək hüququ qazanmışdır. Tiflisdəki Şah Abbas məscidinə axund təyin olunmuş, lakin Hacı Zeynalabdin Tağıyev tərəfindən Bakıya dəvət olunduğu üçün vəzifəsini icra edə bilməmişdir.[1422]

1900-cü ildə Bakıya gələn Yusif Ziya bir il sonra burada "Rus-Tatar" məktəbinə şəriət müəllimi təyin olunmuşdur. 1905-1910-cu illərdə "Həyat", "İrşad", "Füyuzat", "Tərəqqi", "Yeni Füyuzat", "Şəlalə" kimi milli mətbuat orqanlarında məqalələr yazan Yusif Ziyanın təkcə İslam dini məsələlərinə dair bir çox artıq kitabçası bu dövrdə çapdan çıxmışdır.

1907-ci ildə "Quran"ın Azərbaycan türkcəsində nəşr edilmiş üç cildlik nüsxəsini (təfsirlə birlikdə) İstanbula Osmanlı sultanı II Əbdülhəmidə hədiyyə aparmağı Hacı Zeynalabdin Tağıyev Yusif Ziyaya etibar etmişdir.[1423] Bu məsələ ilə bağlı Abdulla Şaiq yazırdı ki, Bakı qazısı Mir Məhəmməd Kərim Mir Cəfərzadə tərəfindən Azərbaycan Türk dilinə tərcümə olan Quranı Hacı Zeynalabdin Tağıyev Yusif Talıbzadə vasitəsilə Osmanlı sultanına hədiyyə

[1421] Əsədli M. Yusif Ziya Talıbzadənin həyatı və mühiti. Bakı, "Nurlan", 2005, s.13
[1422] AXC Ensiklopediyası. İki clddə. II cild. Bakı, "Lider nəşriyyatı", 2004, s.391
[1423] Cabbarov Fərhad (tərtib edəni). Müasirləri Hacı Zeynalabdin Tağıyev haqqında. Bakı, "Ziya" NPM, 2013, s.66; Keykurun Naki. Büyük bir hayirsever Hacı Zeynalabdin Takızade. "Azerbaycan" dergisi, Ankara, mayis 1957, sayı 14 (62), s.16-19

göndərmişdi.[1424] Bəzi iddialara görə, Quranın Türk dilinə tərcümə olunmasının isə Almaniya kralı II Vilhelm təklif etmişdir.[1425]

O, 1911-ci ildə Müsavat Partiyasının yaranmasında fəal iştirak etmiş, ilk üzvlərdən biri olmuşdur. Bununla da, 1910-cu illərin əvvəllərində Yusif Ziya aktiv siyasi fəaliyyətə başlamış, tez-tez Osmanlıya səfər etmiş, müxtəlif ictimai-mədəni və xeyriyyə cəmiyyətlərinin üzvülüyünə, rəhbərliyinə seçilmişdir. O, 1912-1913-cü illərdə Osmanlı ilə Balkan dövlətləri arasında gerçəkləşən müharibədə, daha sonra da I Dünya müharibəsində Kars-Ərdəhan cəbhəsində Osmanlı ordusu sıralarında olmuşdur.

1918-ci ilin iyununda Qafqaz Türk-İslam Ordusunun tərkibində Azərbaycana qayıdan Yusif Ziya "Azərbaycan" və dövrün başqa mətbu orqanlarında çalışmış, siyasət, maarif və mədəniyyət mövzularına dair məqalələr yazmışdır. Eyni zamanda, o, Azərbaycan Cümhuriyyətinin mədəni quruculuq işlərində fəal olmuş, Maarif Nazirliyinin nəzdində Əlifba islahatı komissiyasının üzvü seçilmişdir. Hətta, onun Azərbaycan Cümhuriyyətinin Daxili Qoşunlarının yaranmasında da əsas rol oynadığı iddia olunur.[1426]

Bütün bunlarla yanaşı bir sıra önəmli məsələlərdə, o cümlədən Cümhuriyyət rəhbərlərinin mərkəzçi siyasəti (yəni sağ və sol qüvvələr arasında barışdırıcı siyasət yürütməsi) ilə razılaşmayan Talıbzadə yenidən Osmanlıya qayıtmışdır. [1427] 1919-cu ildə Osmanlı nümayəndə heyətinin başçısı kimi Təbrizə getmiş, orada Güney Azərbaycan türklərinin milli mübarizəsini dəstəkləmişdir. 27 aprel işğalından sonra Azərbaycan-Qacarlar sərhəddində həbs olunmuş, ancaq Azərbaycan SSR-nin Müvəqqəti İnqilab Komitəsinin sədri N.Nərimanovun zəmanəti ilə həbsdən azad edilmiş, hərbi bacarığı nəzərə alınaraq Naxçıvana hərbi komissar təyin edilmişdir. 1921-ci ilin fevralından həmin ilin axırlarına qədər Naxçıvan Diyar

---

[1424]Şaiq Abdulla. Sultana Quran aparılması. "Elm" qəz., mart 1992, №6 (403)

[1425]Rəhimli Təranə Turan. Axund Yusif Ziya Talibzadə haqqinda bilmədiklərimiz// http://bizimyazi.az/axund-yusif-ziya-talibzade haqqinda

[1426]Dünyamin qızı Qərənfil. Abdulla Şaiqi ölənəcən yandıran dərd. "Kaspi" qəzeti. 22-24 oktyabr 2016, s. 7

[1427]AXC Ensiklopediyası. İki cilddə. II cild.Bakı, "Lider nəşriyyatı", 2004, s.391

İniqlab Komitəsinin üzvü və hərbi komissar kimi fəliyyət göstərən Yusif Ziyanın adı həm də qısa müddət ərzində Xarici işlər komissarı kimi çəkilir.[1428] Erməni millətçilərinə münasibətdə Sovet rəhbərliyinin liberal siyasəti ilə razılaşmayan Yusif .Ziya, 1921-ci ilin axırlarında Naxçıvandan Bakıya qayıtmışdır.

O, Türküstanda Basmaçılar hərəkatına (Türküstanda özbəklər və digər Türk xalqlarının Sovet Rusiyasına qarşı 1917-ci ildən 1934-cü ilə qədər davam etdirdiyi milli azadlıq hərəkatına) qoşularaq işğalçı Sovet ordusuna qarşı vuruşmalarda iştirak etmiş, basmaçılar hərəkatının başçısı Ənvər Paşanın müavini olmuşdur. Talıbzadə 1923-cü il may ayının 18-də Xarəzmdə Sovet ordusu ilə döyüşlərin birində ağır yaralanmış, Amu-Dərya çayını üzüb keçmək istərkən aldığı ağır yara nəticəsində şəhid olmuşdur.[1429]

Onun əsas əsərləri "Sərvət və səxavətlə məşhur cənab Hacı Zeynalabdin Tağıyevin tərcümeyi-halı" (1903), "Müəllimüş-şəriə" ("Şəriət müəllimi" 1903, 1908, 1909), "Təəllümüş-şəriə" ("Şəriət təlimi" 1904), "İslam tarixi və tarixi-müqəddəs ənbiyaya dair məkanların nəqşəsi və İslam məmləkətlərinin xəritəsi" (1907), "Həqiqəti-İslam", "İslam və Menşikov", "Rusi-müsəlman məktəbləri", "Hədiyyeyi-nisvan" (1903), "Türk lisanında sərf və nümunələr", "Türkiyə məktubları" (1913) və başqalarıdır.

**İslamçılıq düşüncələri.** Yusif Ziya Talıbzadənin türkçülüyə və İslama bağlılığının əsasında ilk növbədə, Qacarlarda ingilis himayəsindəki irançıların farslaşdırma, Quzey Azərbaycanda Çar Rusiyası ideoloqlarının isə ruslaşdırma siyasəti olmuşdur. Başqa sözlə, soydaşlarının bir qisminin şiəlik adı altında farslaşdırılması, digər qisminin isə ruslaşdırılması Y.Z.Talıbzadənin ictimai-siyasi həyatında və yaradıcılığında həlledici rol oynamışdır. Bu cür antimilli cərəyanlara qarşı mübarizədə Talıbzadə üçün ən doğru və uyğun gələn islamlıqla türklük idi. Xüsusilə, ilk dövrlərdə çar Rusiyasına qarşı mübarizədə islamçılıq cərəyanı daha nüfuzlu idi.

---

[1428]Kəlbizadə E., Hacıyev İ. Naxçıvanlı diplomatlar. Naxçıvan,"Əcəmi", 2017, s. 128.
[1429]Rəhman Salmanlı. Amu-Dərya sahillərində öldürülən azərbaycanlı. "Azərbaycan" qəzeti. 25 may 2011, s.10

Çünki burada müsəlman xalqların özünəməxsus milli adət-ənənələr sahəsindəki fərqlər imkan verirdi ki, onlar islamçılıq adı altında çarizmə qarşı birgə mübarizə aparsınlar.[1430]

Talıbzadənin XX yüzilin əvvəllərində qələmə aldığı əsərlərində ("Həqiqəti-islam", "Təəlümüş-şəriə", "İslam tarixi", "Müəllimüş-şəriə", "İslam və məzhəb" və b.) daha çox İslam fəlsəfəsi əsas yer tutmuşdur. İlk dönəmlərdə milli məsələyə də dini baxımdan yanaşan Yusif Ziyaya görə İslam dini millətlərin təşəkkülü və inkişafının əsasında dayanmışdır. O, "İslam və məzhəb" əsərində yazırdı: "Məhəmməd peyğəmbərin (s.) gətirdiyi din və ayin üsuli-etiqadiyyələrdə və kitabi-müqəddəs Qurani-Şərifdə təğəyyürdən məsun (dəyişikliklərdən toxunulmaz - F.Ə.) qaldığı üçün zati bariyənin ittihad… yolundan bir nişanə qalmış deməkdir".[1431]

O, daha sonra yazırdı ki, İslam dini "milli lisanın, milli adətlərin, milli tərzi-düşüncələrin məişəti təsisi üzərinə... böyük və birinci dərəcəli təsir göstərdiyindən "millətlərin təşəkkülü və təsirinin mayesi" rolunda çıxış edir. Onun fikrincə, Allahını tanıyan fərd millətini, milli birliyini də dərk etmiş olur. O, yazırdı: "Xudavəndi aləmin… məxluqatı xəlq etməkdə əsl məqsədi xəlayiqi təşkil etməkdir… Bu səbəbdəndir ki, Xudavəndi aləm əsl fitrət insaniyyəni ümuma bir təriqi-müstəqim üzrə xəlq edibdir".[1432]

"Həccə dair" məqaləsində isə o, yazırdı ki, həcci icra edənlər onun mənasını və məqəsdini də anlamalı, bunun üçün də, hər bir müsəlman ilk növbədə, öz nəfsinə qalib gəlməli, şeytani nəfsdən azad olmalıdır: "Əcaba! Müsavat hərəmgahının miqatına yetib liaslarını xəl etdikdə ümumən yekrəngi-müsavat olmaq məqsədini anladılarmı? Hürriyyət hərəmində məqami-təslimdə bulundlarmı? İttihad və ittifaq Kəbəsinin dövrünə pərvanəasa təvaf etmək məramını düşündülərmi? Maddi və mənəvi qüvvələr vasitəsilə mənafyei-ümumiyyəyə tərəf səy etmək meydanına daxil oldularmı?

---

[1430] Əsədli M. Yusif Ziya Talıbzadənin həyatı və mühiti. Bakı, "Nurlan", 2005, s.37

[1431] Talıbzadə Y.Z. İslam və məzahib. Bakı, 1906; Abdulla Şaiqin Mənzil Muzeyinin arxivi, qovluq 4.

[1432] Yenə orada.

Öz sikkeyi-əmallarını həcərül-əsvəd məhəkinə vurduqda qəlp ilə xalisi, həqq ilə batili təmyiz verə bildilərmi? Yövmi-tərviyədə Məşərül-hərəmə vardıqda Zəmzəmi-şərifdən zərfi-vicdanlarını doldurub təşnəgani-həqiqəti dilsir etməyə abi-zülal götürdülərmi? Məşərül-həramın izkari-səfabəxşasini arifanə əda etdilərmi?... Nəfsi-şeytankarın tərd və dəfi üçün surəti-ciddiyyədə rəmyi-əhcar etdilərmi? Mina qurbangahında İbrahim misal insaniyyət yolunda öz övladından keçmək mərtəbəsinə etila etdilərmi? Həqiqət mehmanxanasında "innəməl muminunə ixvatun" əhdi-müqəddəsini təcdid qıldılarmı? Öz amali-şəxsiyyələrini həqiqət naminə qurban edə bildilərmi? Rəsuli-Əkrəmə peyröv olub ehtiyacati-insaniyyəyə dair bəliğanə xütbələr inşad qıldılarmı?".[1433]

Talıbzadə hesab edirdi ki, həccin mühüm və müqəddəs vəzifələrindən biri də, Allaha ibadətin mahiyyətini digər müsəlmanlarla bir yerdə dərk etmək, eyni zamanda, insanın öz dualarını, qayğılarını, üzüntülərini "həqiqət şurası"na çatdırmaqdir. O, yazırdı: "Əmiri-həccimiz möhtacileyh məsələləri həqiqət şurasına təlqin etmək vəzifeyi-müqəddəsəsini lazımınca icra qıldımı? Səlavati-əzhayi cəmaətlə əda edərkən ibadəti-Allahın insanları yekdigərinə qəlbi-məhəbbətlə rəbt etmək niyyətilə olduğunu dərk etdilərmi? Bu mübarək bayram xütbələrini oxurkən Rəsuli-Əkrəmin aşiq olduğu həqayiqi bəşəriyyətə təlqin etmək şövqündə bulundularmı? Məzkur vəzaifi-müqəddəsləri ifa edib də dübarə Kəbəyi-həqiqətin təvafinə nail oldularmı? Şurayi-ümmətdə mürəttəb məsələlərin həlli üçün həlli-əqdi-əhram qıldılarmı? Hər kəs öz xüsusi libasını geyinib, yenə Mina dağında üç gün nə xidmətə dəvət olunduğunu bildilərmi? Mina dağında Şərqi və Qərbi təşriq etmək üçün məsaili-mürəttəbənin həllinə dair müxtəlif cəmiyyətlər, məclislər, məhfillər təşkil etdilərmi? Hər bir sinif öz vəzifə xidmətini icra etmək üçün kəndisinə münasib cəmiyyətlərə əza oldularmı? Bu cəmiyyətlər nəticəsi əmiri-həccə ərz olunub da ümumi-hacı babalarımıza bəyan olundumu? Hacı babalarımız öz müqəddəs təkliflərinə alim olub bəsirət ilə vətəndaşlarına tərəf

[1433]Talıbzadə Y.Z. "Həccə dair", Bakı, "Füyuzat" №6, 1907, 12 yanvar

əzimət etdilərmi? Milləti-islamın şəşəəli sabiqəsini dər xatir etməklə gələcək islahı üçün hali-hazırı qənimət sandılarmı? Amma bizlərə gəldikdə, İslamca eyd nə üçün olduğunu bilirzmi? Həqiqət qurbanı nə yolda qəbula yetdiyini düşünürüzmü?”.[1434]

Ümumiyyətlə, o, məqalələrində, bir müsəlman olaraq idealist mövqedə durub, materializmi daim tənqid etmişdir: “İdealizm və materializm bir-birini istisna edən cərəyanlardır: əgər birincisi mənəvi aləmlə bağlıdırsa, ikincisi isə maddi aləmlə bağlıdır. Biz həmçinin görürük ki, həyat uğrunda mübarizə aparan bəşəriyyət maddiliyə əməl etməklə, materializmdən xilas ola bilməz! İdealizmi dərk edə bilmək üçün materializmi kənara atmaq gərəkdir”.[1435]

Talıbzadə İslam dinini müsəlman xalqlarının geriliyinin əsas səbəbi kimi göstərən erməni, rus və başqa xristian inanclı millətlərin ideoloqlarına da tutarlı cavablar vermişdir. Məsələn, 1906-cı ildə erməni şərqşünası Əmirxanyans “İrşad” qəzetində nəşr olunan “İslam və tərəqqi” məqaləsində yazırdı ki: “İslam ruhanilərinin imanları budur ki, əgər müsəlmanlar Avropa millətlərinin əməllərindən birini də əxz edərlərsə, kafir olurlar”.[1436] Həmin erməni şərqşünası bir qədər də qabağa gedərək daha sonra yazırdı ki, müsəlmanlar üçün nəsihətin, elmin və mədəniyyətin faydası yoxdur. Talıbzadə bu tip ermən şərqşünaslarına cavab olaraq yazırdı ki, Quran İncillə müqayisədə daha çox elmin, mədəniyyətin inkişafına çalışmış, onlara şərait yaratmışdır. Talıbzadəyə görə İslam dini müasirləşməyin, yeniləşməyin əleyhinə ola bilməz, çünki bütün bunlar onun prinisplərində, mənəvi-əxlaqi dəyərlərində öz əksini tapmışdır. Bu baxımdan İslam dini heç vaxt dünyəvi elmlərin də öyrənilməsinin əleyhinə olmamış, əksinə hər zaman çağdaşlıqla ayaqlaşmış və özünün yenilikçi ruhunu qoruyub saxlamışdır: “Sizin dediyinizə görə “İslam milləti Avropa mədəniyyətinin düşmənidir”. Halbuki İslam dininin müqəddəs kitabı Quranı-şərifə nəzərən ümumən elm və mərifət, tərəqqi və mədəniyyət İslamın ümdə

---

[1434] Yenə orada.

[1435] “Yeni Füyuzat” jurnalı, 1910, №10

[1436] Talıbzadə Y.Z. “Əmirxanyansa cavab”, İrşad qəz., №263, Bakı, 1906, 14 noyabr

əsasıdır. Və İslam dinində rəhbaniyyətin (tərkidünyalığın- F.Ə. ) haram olduğu və Çinəcən elm dalınca getmək tövsiyəsi bu mətləbə dəxi şahiddir”.[1437]

Talıbzadənin fikrincə, hal-hazırda isə müsəlmanların pərişan olmalarının səbəbkarı İslam dini deyil, onun adından danışan iküzlü ruhanilər, despotik hökmdarlar və bu dinə aid olmayan məzhəblərdir. Bu baxımdan onun həmin dövrdə “İrşad”da çap olunmuş “Hürriyyəti-dəyanətə cavab”və yaxud “Axund Yusifzadə ilə müsahibə” başlıqlı məqaləsi diqqətəlayiqdir. Həmin məqaləsində Talıbzadə yazırdı ki, məzhəblərarası intiriqalar, xüsusən müsəlmanların sünni və şiə deyə, iki yerə parçalanması, ikiüzlü “ruhani”lərin əməlləri və digər problemlər dinin əsaslarını sarsıdır: “Aya, bu ixtilafdan onların məqsədləri nədir? Məgər Allah-təala onlara ixtilafmı əmr edibdir ki, onlar Allahamı itaət edirlər? Yainki Allah-təala bu ixtilaflardan nəhi edib. Onlar Allaha üsyanmı ediblər? Ya ki, Allah dini naqis göndərib, onlar təkmil etmək istəyirlər. Yainki ehkamda Allah ilə şərik olub, bunlar hər nə desələr Allah da gərək razımı olsun? Ya Allah-təala dini tamam göndərib, Rəsuli-Kərim həzrətləri xəlayiqə təbliğ etməyibdir”? [1438] O, müsəlman əhlini İslamın əsil mahiyyətindən uzaqlşadıran, onların İslamın təməl prinsiplərindən bixəbər olmasında maraqlı olan qüvvələri, yəni iqtidar sahibləri olan hakmiyyətləri və ruhani rəisləri imana dəvət etmişdir.

Talıbzadəyə görə İslam aləminin mənəvi-ideoloji durumu Qərb millətlərini bir xeyli düşündürməkdədir. Çünki Qərb millətlərinin mülahizəsinə görə, müsəlmanlar Qurani-şərifə uyğun yaşamağa qeyrət etdikcə İslam aləmi qüvvədən feilə çıxmaqla onlar üçün təhlükəli bir üfüq açılacaqdır. O, yazırdı: “Qurani-şərifə nəzərən İslam bir dindən ibarət bulunduğu üçün başqa xüsusi məzhəblərin zühurinə macal buraxmamışdır. Camieyi-islamiyyə Qərb millətlərini bir xeyli düşündürməkdədir. Məzkur millətlərin əfkarınca

[1437] Yenə orada.

[1438] Talıbzadə Y.Z. “Hürriyyəti-dəyanətə cavab” və yaxud “Axund Yusifzadə ilə müsahibə”, Abdulla Şaiqin Mənzil Muzeyinin arxivi, qovluq 4.

müsəlmanlar Qurani-şərifə mütabiq (adekvat, uyğun - F.Ə. ) rəftarə qeyrət etdikcə cameiyyəti-islamiyyə qüvvədən felə çıxmaqla onlar üçün təhlükəli bir üfüq açılacaqdır. Ancaq Qərb millətləri burasını düşünmüyorlar ki, Qurani-şərif və dini-İslamın məsləki nəinki İslamda məzahibi-müxtəlifə zühurinə müsaidə vermiyor, bəlkə ümumi-müvəhhid olan dinlər ilə qayət ehtiram-kiranə və sülhpərvəranə rəftarə və ümdə məhəbbəti-bəşəriyyəyi tövsiyə etməklə cameiyyəti-bəşəriyyəyə bir vəsilə fərz oluna bilər. Əcəba, hissi-bəşəriyyələri olan əqvam milləti-İslamda ruhaniyyət və ümumi-bəşəriyyətə bir məhəbbət təriqilə xütvəəndazi-ittihad və tərəqqi olmalarına nə məqsəd üzrə mümainət göstərmək istiyorlar-mış? Cameiyyəti-islamiyyə hənuz müsəlmanların xatirlərinə xütur etməmiş, bu sözləri biz başqa millətlərin ağzından eşidiyoruz. Bir çox vəqtlər xəyalətə məcbur oluyoruz ki, aya cameiyyi-islamiyyə nə deməkdir? Bu sözlər nərədən zühur etmiş? Və nərədə cameiyyət zühura gəlmiş? Çox bir fikirlərdən sonra düşünürüz ki, Avropa müctəmeən İslama qarşı etdikləri hərəkətlərini hiss edib və gələcəkdə milləti-İslam kəndilərinin mühafizəsi üçün cameiyyi-islamiyyə təşkilinə məcbur olacaqdırlar deyib xəyalətə qərq olmuşlar. Fəqət İslam milləti arasında bunca zühura gəlmiş məzahib və firqələrin vücudi ilə bu fikirləri avropalıların kəndi xəyalatına münhəsir etmək lazım gəliyor. İştə cameiyyi-islamiyyə vücud bulursa avropalılar özləri təşkil etmişlər deməkdir. Əsrlərdən bəri İslam ilə avropalıların rəqabətinə tarix səhifələri dəxi şahid ola bilir”.[1439]

Talıbzadə İslam dininə, islamlığa münasibətdə çox həssas olmuş, onun ən səmimi tərəfdarlarından biri kimi çıxış etmişdir.

**Türkçülük, Türk-İslam birliyi düşüncələri.** Y.Z.Talıbzadə Türk-İslam dünyasının gələcəyini Türk-İslam birliyinin təməli say-dığı Osmanlının güclənməsində və böyüməsində görmüşdür. 1910-1918-ci illərdə Osmanlı ordusunun tərkibində öncə Balkan, daha sonra I Dünya müharibəsində iştirak etməsi onun Türk-İslam birliyi inancını daha da gücləndirmişdir. M.Ə.Rəsuloğlunun yazdığına

[1439]Talıbzadə Y.Z. İzhari-bütlan. Bakı, “Füyuzat”, №16, 1907, 29 aprel

görə 1911-ci ildə "Müsavat"ın üzvülüyünə yazılan ilk beş nəfərdən biri Yusif Ziya olmuşdur: "Partiye ilk aldığımız arkadaşlar şunlardır:Veli Mikailoğlu (İkinci Dünya savaşında İrana girmiş bolşevikler tarafından Zencan şehri civarında çalınarak yok edildi), Seyyit Hüseyin Sadik (Sibiryaya sürüldü), Abdürrahim (eceliyle vefat etti), Yusif Ziya, "Ahund Yusif" (Türküstanda bolşeviklere karşı Basmaçılarla beraber savaşırken şehit düştü), Seyid Musevi (çar ajanlarının tahrikiyle öldürüldü)".[1440]

Yusif Ziyanın "Müsavat"ı təsis edənlər sırasında olmasını bu partiyanın ilk dövrlərdə türkçülükdən çox İslam dininə bağlı olması idi. Partiyanın quruluş illərində proqramı və məramnaməsi türkçülüklə yanaşı, islamçılığa meyilli olub Türk-İslam birliyini hədəfləyirdi.[1441] Ancaq "Müsavat" "İslam millətçiliyi" ideyasına qapanıb qalmamış, "Azərbaycan cəmiyyəti ilə birgə dinamik təkamül yolu keçmiş və Azərbaycan cəmiyyətinin milli şüurunu tənzim və idarə etməklə onu özü ilə birlikdə millətçiliyə, Türk millətçiliyinə və Azərbaycan istiqlalçılığına qovuşdurmuşdur".[1442]

"Müsavat"ın Balkan müharibəsində və I Dünya müharibəsində Osmanlının yanında yer alması Yusif Ziyanın ürəkdən istədiyi bir mövqe idi. Hətta, Balkan müharibəsi başladıqdan az sonra (1912) partiyanın Türk-İslam birliyini, o cümlədən Osmanlını müdafiə edən bəyannaməsi belə yayınlanmışdı. M.Ə.Rəsuloğlu bu məsələ ilə bağlı yazırdı ki, bəyannamə Orucoğullarının mətbəəsində (sahiblərindən xəbərsiz), Seyid Hüseyn Sadıqzadənin və digər millətçi insanların yardımı ilə basılmışdı: "Bəyannamədə Türkiyəyə hər cür yardım göstərilməsi fikri irəli sürülür və yardım edilməsi istənilirdi. Bəhs edilən bəyannamə, arkadaşımız Yusif Ziya tərəfindən İstanbula götürüldü. "Səbil-ür-Rəşad" məcmuəsi bu bəyannaməni eynən nəşr edərək Qafqaz müsəlmanlarının Türkiyəyə qarşı göstərdikləri ilgidən dolayı məmnuniyyətini bəyan

[1440]Resuloğlu M.E. Müsavat Partisinin kuruluşu//Müsavat, Münhen, 1962, №4, s.13
[1441]Yaqublu N.Azərbaycan milli istiqlal mübarizəsi və M.Ə.Rəsulzadə.Bakı,2001,s.29
[1442]Məmmədzadə M.B. Azərbaycan milli hərəkatı. Bakı, "Nicat", 1992, s.42

yollu sətirlər yazdı".[1443] "Səbil-ür-Rəşad" məcmuəsinin nəşr etdiyi həmin bəyannamədə göstərilirdi ki, bütün dünya müsəlmanlarının, o cümlədən Qafqaz müsəlmanlarının yeganə ümidi, nicatı Osmanlının istiqlal və tərəqqisi ilə bağlıdır. Bu baxımdan bəyannamədə qeyd olunurdu ki, islamiyyət və milliyyət naminə Osmanlının bu haqq işində yanında olmaq lazımdır: "Cəmi aləm bilir ki, İslam xilafətinə sahib olan Osmanlıya qarşı bu müharibəni Balkanın ufaq və kiçik hökumətləri elan etməmişlər. Çünki şir nə qədər zəif olsa da, çaqqallar və tülkülər ona yaxın gəlməyə cürət etməzlər. Bu işləri işləyən, islamiyyət və insaniyyət düşməni və "dünya jandarmı" ləqəbi ilə məşhur olan şimal ayısı müstəbid Rusiya hökumətidir ki, hər gün tibb ləvazimatı, həkimlər və könüllülük adı altında bölük-bölük nizamilər göndərir".[1444]

Beləliklə, o, 1910-cu illərdə islamçılıqdan az olmayaraq türkçülük məsələsinə də çox önəm vermişdir  ki, buna səbəb də bir tərəfdən Osmanlıda türkçü-turançı ruhlu "İttihad və Tərəqqi"nin hakimiyyətdə olması, digər tərəfdən I Dünya müharibəsi ərəfəsində dünyada millətçilik ideyasının geniş yayılması idi. Həsən Həsənov yazır: "Yusif Ziya və Abdulla Şaiqin şəxsiyyət kimi formalaşması XIX əsrin sonlarına doğru, o günə qədər rus və fars kültürü arasında qalıb və slavyan düşüncəsi içində əriməyə başlayan Azərbaycan türklərində özünəqayıdış, kökünə dönüş mahiyyətində, İslamla bağlı ümmətçi milliyyətçilik olaraq səciyyələndirilə biləcək bir hərəkatın başladığı dövrə təsadüf edir. Əgər bu dövrdə millət anlayışı daha çox İslama mənsubiyyətlə, ümmətçiliklə təyin edilirdisə, I Dünya savaşı ərəfəsində artıq "türk", "türk fikri", "türk milləti" ifadələri işlədilməyə başlanmışdı".[1445]

Minəxanım Əsədliyə görə də, Yusif Ziyanın islamçılıqla yanaşı, millətçi olması, yəni türkçülüyə xidmət etməsi təsadüfi olmamışdır: "Yusif Ziyanın da həmrəy olduğu düşüncə sahiblərinin

---

[1443]Resuloğlu M.E. Müsavat Partisinin kuruluşu//Müsavat, Münhen, 1962, №4, s.14
[1444]Məmmədzadə M.B. Azərbaycan milli hərəkatı. Bakı, "Nicat", 1992, s.45-46
[1445]Həsənov Həsən. Nəriman Nərimanov: milli ruh və siyasi təfəkkürün vəhdəti // "Fəlsəfə və sosial-siyasi elmlər". 2020, №2 (30), s.54

qənaətincə, əgər "islamlaşmaq, İslamı dərk etmək "İttifaq və ittihad" nemətini dərk etməkdirsə, onda "Türk ənsarının İslamı bulması" da "türkləşmək", Türk birliyinin, "Türk ittihadı"nın meydana gətirilməsi deməkdir. Yəni əslində islamiyyətə xidmət etmək, türk qövmünə xidmət etməkdir, türk qövmünə xidmət etmək də islamiyyətə xidmət etmək deməkdir. Əli bəy Hüseynzadənin və Əhməd bəy Ağaoğlunun əsərlərində xüsusilə geniş şərhini tapmış bu məsələnin əsas məqsədi Osmanlı imperiyasının himayəsi altında əvvəlcə bütün türk dilli xalqları, ümumiyyətlə cəmi müsəlmanları birləşdirməkdən ibarətdir. Ə.Ağaoğlunun "Türk aləmi" sislilə məqalələrində və həm də onun başqa yazılarında, eləcə də Ə.Hüseynzadə, Y. Talıbzadə və digərlərinin əsərlərində dini mövqe belə idi: İslamiyyətin, İslam mədəniyyətinin yeganə hamisi, onun istinadgahı və "əvvəlki əzəmətini bərpa edib rövnəqləndirən" yalnız Türk millətidir".[1446]

Görünür, türkçülük nəzəriyyəsinin müəllifləri ilə tanışlığı Yusif Ziyada Türk-İslam birliyinə inamı daha da gücləndirmişdir. Hər halda H.Zərdabi, İ.Qaspıralı, Ənvər Paşa, H.Z.Tağıyev, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə və digər Türk böyükləri ilə əlaqəsi onun türkçülük məfkurəsinin formalaşmasına həlledici təsir göstərmişdir. M.Əsədli yazır: "Bu əlaqələrin təməlində təbii ki, uşaqlıq illərini keçirdiyi Tiflis həyatı da durur. Atası – Zaqafqaziya şeyxülislamı Əhməd Səlyaninin müavini Axund Mustafanın M.F.Axundovla dostluq münasibətləri və Ə.Hüseynzadənin bu ocaqla bağlılığı nəticə etibarilə Yusif Ziyanın da həyat və fəaliyyətində dərin iz buraxmışdır".[1447] Bu baxımdan M.Əsədli hesab edir ki, Talıbzadənin elmi, ədəbi, pedaqoji fəaliyyətində islamçılıq meyilləri özünü qabarıq surətdə göstərməklə yanaşı, türkçülük düşüncəsi də yetərli qədərdir: "O, ictimai-siyasi və hərbi fəaliyyətində özünü həm də bir türkçü kimi tanıtmışdır. Mənbələrin verdiyi məlumatlardan da aydın olur ki,

[1446]Əsədli M. Yusif Ziya Talıbzadənin həyatı və mühiti. Bakı, "Nurlan", 2005, s.38
[1447]Əsədli M. Yusif Ziya Talıbzadənin ictimai baxışları və fəaliyyəti. Bakı, "Avropa", 2014, s.14

xüsusilə, Y.Z.Talıbzadə Türkiyə siyasi, ədəbi-mədəni mühiti ilə yaxından bağlı olduqdan sonra bu mühit onun dünyagörüşünün, türkçülük düşüncəsinin formalaşmasında mühüm rol oynamışdır. Onun türkçülük düşüncəsi qardaşı Abdulla Şaiqə də öz təsirini göstərmişdir”. [1448] Milli aydınımız Əbdülvahab Yurdsevər hələ 1950-ci illərdə yazırdı ki, Abdulla Şaiqi də Şaiq edən, yəni türkçü-turançı ruhlu edən Axund Yusif Ziya olmuşdur: “Ayrıca bir çox şeirlərində Abdulla Şaiqin fikri siması üzərində mərhum ağabəyisi Axund Yusif Talıbzadənin (bu məfkurəyə bağlılığını əməli ilə isbat etmişdir) böyük təsiri olmuşdur”.[1449]

Qeyd edək ki, Yusif Ziya həm “Müsavat”ın, həm də Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin fəal üzvü kimi Osmanlı ilə Azərbaycan türklərinin arasında yaxınlaşmanın intesivləşməsində də mühüm rol oynamışdır. Xüsusilə də, onun Balkan savaşında Osmanlı ordusunun tərkibindəki “Qafqaz Könüllü Hissəsi” əsgəri birliyində yer alması bunun bariz örnəyidir. Belə ki, o, Hüseyn Baykaranın da yazdığı kimi, “Qafqaz Könüllü Hissəsi” əsgəri birliyində Abdulla Şaiq, Əhməd Cavad, Məhəmməd Hadi, Əli bəy Hüseynzadə və digər azərbaycanlılarla birlikdə Osmanlı-Türk əsgərləri ilə çiyin-çiyinə düşmən qüvvələrə qarşı döyüşmüşlər.[1450] Türkiyəli tədqiqatçı Beytül Aslan da yazır ki, Azərbaycandan gələn könüllülər içərisində Əhməd Cavad, Abdulla Şaiq, Yusizf Ziya və başqaları Balkan savaşlarında Türk qardaşlarıyla birlikdə çiyin-çiyinə savaşmış və daha sonra Azərbaycana geri dönmüşlər.[1451]

O, I Dünya müharibəsində, Qars-Ərdəhan cəbhəsində Osmanlı-Türk ordusu sıralarında işğalçı Çar Rusiyasına və onun əlaltıları olan ermənilərə qarşı qəhrəmanlıqla vuruşmuşdur. Hətta,

---

[1448] Yenə orada, s.45

[1449] Yurtsever A. Abdulla Şaik vefat etti. // “Azerbaycan” (Ankara), Azerbaycan Kültür Derneği yayınları, 1959, sayı 4-5, s.14

[1450] Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.175

[1451] Betül Aslan. 1. Dünya savaşı esnasında Azerbaycan türklerinin Anadolu türklerine Kardeş kömeği (yardımı) ve Bakü Müslüman Cemiyeti-Hayriyesi // Ankara, Atatürk Kültür Merkezi başkanlığı yayınları, 2000, XII, s.396

o, I Dünya müharibəsinin son illərində Güney Azərbaycanda da olmuşdur. Belə ki, 1917-cı ilin oktyabrında Rusiyada bolşeviklərin hakimiyyətə gəlməsindən sonra rus ordusunun (o vaxtkı beynəlxalq konyunkturaya uyğun olaraq) Güney Azərbaycandan çəkilməsi nəticəsində Yusif Ziya Osmanlı ordusunun bir fərdi olaraq onun tərkibində Təbrizdə olmuşdur. Doktor Cavad Heyət yazır ki, Y.Z.Talıbzadə burada "İttihadi-İslam" cəmiyyətinin rəhbərlərindən biri olub və atası Mirzə Əli Heyətlə də münasibətləri varmış.[1452]

Yusif Ziya 1918-ci ildə Azərbaycan Cümhuriyyətinin hərbi yardım çağırışına uyğun olaraq, Nuru Paşanın başçılığı ilə Azərbaycana göndərilən Qafqaz İslam Ordusunun tərkibində yer almışdır. 1950-ci illərdə Əbdülvahab Yurdsevər də məsələ ilə bağlı bunları qələmə almışdır: "Axund Yusifin türkçülüyündə və turançıığında kimsənin şübhəsi olmasa gərəkdir. Xarakter etibari ilə Şaiqin tamamən xilafına olaraq fəal bir siyasət adamı və usanmaz bir mücadiləçi bulunan Axund Yusif çarlıq dövründə bir müddət Bakı Real lisəsində türkcə və şəriət öyrətmənliyini yapdıqdan sonra Balkan hərblərində Türkiyəyə (Osmanlıya – F.Ə.) gedərək, orduya könüllü qeyd olunmuş və rəşadəti sayəsində çabuk irəliləyərək kəndi iradəsinə görə minbaşı rütbəsinə qədər yüksəlmişdir. İstiqlal dövrümüzdə Axund Yusif Azərbaycana dönərək könüllü yardım alayının komandirliyini öz üzərinə almışdır. Axund Yusif qayət hərəkətli və fəal bir mücadilə adamı idi. Hətta deyilə bilər ki, qabına sığmayan bir xarakterdə insan idi. Eyni zamanda, "Müsavat" partiyasının ən əski əzalarındandı".[1453]

Kamal Talıbzadə yazırdı ki, bir müddət Azərbaycanda yaşayan Yusuif Ziya, ancaq "bəzi siyasi məsələlərin həllində Demokratik Respublika rəhəbərləri ilə razılaşmadığı üçün yenidən Türkiyəyə qayıdır".[1454] Bizcə, buna səbəb onun Ə.Hüseynzadə və

---

[1452] Cavad Heyət. Dr. Turac Ətabəkinin "Azərbaycan" kitabı üzərinə bir dəyərləndirmə və təkmilləşədirmə //"Mədəniyyət dünyası" jurnalı, 6-cı buraxılış. Bakı, ADMİU-nun mətbəəsi, 2003, s.79-80

[1453] Yurtsever A. Abdulla Şaik vefat etti. // "Azerbaycan" (Ankara), Azerbaycan Kültür Derneği yayınları, 1959, sayı 4-5

[1454] Talıbzadə Kamal. Axund Yusif Talıbzadə. // "Mədəniyyət dünyası" yurnalı, 2-cı

Ə.Ağaoğlu kimi vahid "Türk-İslam dövləti"nin yaranmasının tərəfdarı olması idi. Bu anlamda o, ilk dövrlərdə hesab edirdi ki, Azərbaycan Osmanlı dövləti ilə birləşməlidir. Minəxanım Əsədli yazır: "Heç şübhəsiz ittihadçı və panislamizmin qatı tərəfdarı olan Yusif Ziya birbaşa olmasa da, sonuc etibarilə Azərbaycan Xalq Cümhuriyyətini istiqlal ideyalarına həmrəy olmamışdır. O da dövrün bir çox böyük Türk mütəfəkkirləri kimi, Azərbaycanın qurtuluşunu ən yaxşı halda Osmanlı hüdudlarına qatılmaqda görürdü".[1455]

Bu məsələdə Talıbzadənin bir qədər daha radikal mövqe tutaraq vahid Türk-İslam dövləti arzulaması mühüm rol oynamışdır. M.Əsədli yazır ki, C.Əfqanidən üzü bəri İslam dünyasında islahatçılığın təbliğatçıları Osmanlını islamiyyətin mərkəzi, sultanı da xəlifə kimi gördükləri kimi, "turançılıq" ideyasında da müsəlman-türk topluluqlarının qurtuluşunu Osmanlı ilə ittihadda görmüşlər: "Talıbzadənin həyat və yaradıcılığı da onun əsasən bu əqidənin daşıyıcısı olduğunu təsdiqləyir. Azərbaycan Xalq Cümhuriyyətinin ideoloqları ilə olan fikri ayrılıqları da məhz bu məqamla bağlı olmuşdur. Demokratik Respublikanın ilk günlərində, xüsusilə də Qafqaz İslam Ordusu rəhbərliyi ilə milli hökumət rəhbərləri arasındakı mübahisələrdə bu amil də az rol oynamamışdır". [1456] Bu barədə M.B.Məmmədzadə yazırdı ki, Qafqaz İslam Ordusunun komandanı Nuru paşanın səlahiyyətli "siyasi müşaviri" Ə.Ağaoğlu da vahid Türk-İslam dövlətindən yana olmuş, ancaq Azərbaycan Milli Şurasının səyləri nəticəsində müstəqil Azərbaycan hökumətinin təşkilinə razı olmuşdur. [1457]

Ə.Ağaoğlunun Milli Şuraya qarşı tutduğu bu mövqe həm o zaman, həm də sonralar onun ayrı-ayrı müstəqil Türk dövlətlərinin deyil, Osmanlı bayrağı altında vahid Türk-İslam dövləti ideyasının tərəfdarı olması mülahizəsinin yaranmasına səbəb olmuşdur. Ümimiyyətlə, etiraf etmək lazımdır ki, Azərbaycanın milli istiqlalı

---

buraxılış. Bakı, ADMİU-nun mətbəəsi, 2001, s.44

[1455]Əsədli M. Yusif Ziya Talıbzadənin həyatı və mühiti. Bakı, Nurlan, 2005, s.80

[1456] Yenə orada, s.74

[1457]Məmmədzadə M.B. Azərbaycan milli hərəkatı. Bakı, Nicat, 1992, s.99-101

məsələsində dövlət xadimlərimizdən, ziyalılarımızdan bəziləri, o cümlədən Ə.Ağaoğlu, Ə.Hüseynzadə, Y.Z.Talıbzadə və başqaları bir qədər tərəddüdlü mövqe tutmuş, əvvəlcə Osmanlı bayrağı altında vahid Türk-İslam dövlətinin yaranmasına çalımış, bunun mümkün olmadığını gördükdən sonra Azərbaycan Cümhuriyyətinin müstəqil varlığını müdafiə etmişlər.Bütün hallarda, Azərbaycan Cümhuriyyətinin qurucusu, ilk cümhurbaşqanı M.Ə.Rəsulzadənin uzaqgörənliyi, müdrik siyasəti nəticəsində bu məsələ Azərbaycanın müstəqilliyinin itirilməməsi şərti ilə həll edilmiş[1458] və çox keçmədən müstəqil "Azərbaycan milli məfkurəsi" Azərbaycandakı bütün siyasi qüvvələrin, başda türklər olmaqla burada yaşayan bütün etnosların əsas ideyasına çevrilə bilmişdir. M.Ə.Rəsulzadə 1918-ci ilin 10 dekabrında parlamentin 2-ci iclasındakı çıxışında bununla bağlı deyirdi: "Daima Azərbaycan məfkurəsinin müdafiəçisi olan firqəmiz üçün bu gün o böyük məqsəd hasil olmuşdur. Çünki artıq gərək sağlar, gərəksə sollar Azərbaycanı inkar deyil, var qənaətlərilə isbat edirlər. Çünki artıq Azərbaycan fikri üzərində müsəlman firqələri arasında ixtilafi-nəzər yoxdur. Çünki cəmiyyətimizin zehnində Azərbaycan istiqlalı fikri yer tutmuş, yerləşmişdir. Çünki üçrəngli o məğrur bayraq artıq siyasətən hamımızı birləşdirmişdir".[1459]

Bu baxımdan, çox keçmədən Ə.Ağaoğlu, Ə.Hüseynzadə kimi Y.Z.Talıbzadənin də Azərbaycan Cümhuriyyətinin müstəqil varlığını müdafiə etdiyini görürük. O, "Müsavat qurultayında daxili siyasətimiz", "Əkmək məsələsi", "Qafqasiyaya bayram təbriki", "Cəmiyyəti əqvam" və digər məqalələrində Milli hökumətin təqdir etdiyi, ya da yanlış gördüyü əməllərini dəyərləndirmişdir. Məsələn, "Cəmiyyəti əqvam" məqaləsində Y.Z.Talıbzadə üzünü Versal Sülh Konfransınının rəhbərlərinə tutaraq, Azərbaycan xalqının müstəqil yaşamağa haqqı olmasından bəhs etmişdir: "Hər kəs bu sülhün nəticəsində həqqini istər və ümum millətləri məsud görmək arzu edər. Bilxassə bu xüsusda vəzifədar olub böylə bir mühüm vəzifə və mə-

[1458]Balayev Aydın.Məmməd Əmin Rəsulzadə (1884-1955).Bakı, "Çıraq", 2012, s.119
[1459]Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqraifk hesabatlar). I c. Bakı, "Azərbaycan"nəşriyyatı, 1998, s.50

suliyyəti dərk etməkdə olan cəmiyyəti əqvam bunu hər kəsdən daha ziyadə düşünməyə məcburdur. Cəbr və ilhaq, istila və nifaq dövrü keçmişdir, əski dünyayə təzə ruh vermək və təzə dünyanın ehtiyacına riayət etmək üçün milli ruhları razı salmaq və milliyyətlərin məsud yaşamalarını təmin etmək lazımdır”.[1460]

Ancaq bütün hallarda sosializm və millətçilik məsələsində də mərkəzçi, barışdırıcı siyasət yürüdən Cümhuriyyət rəhbərləri ilə razılaşmayan Talıbzadə 1919-cu ilin payızında İstanbula qayıtmış, az sonra da Təbrizə getmişdir. 27 aprel işğalından sonra Qacarlarla sərhəddə saxlanılaraq Bakıya göndərilən Talıbzadə hətta, bir müddət bolşeviklərlə əməkdaşlıq etməyə razı olmuşdur. Osmanlı bayrağı altında vahid Türk-İslam dövlətini hədəfləyən, bu səbəbdən bir müddət Azərbaycan Cümhuriyyətinin müstəqil varlığına tərəddüdlə yanaşan Yusif Ziyanın Sovet Rusiyasının 27 aprel işğalından sonra meydana çıxan Azərbaycan SSR-yə, onun lideri N.Nərimanova isti münasibət göstərməsi diqqətimizi çəkməyə bilmir. Bizcə, Yusif Ziyanın belə bir addım atmasında vaxtilə Osmanlıda mühüm vəzifələr tutmuş (hərbi nazir, baş komandan müavini), “İttihad və Tərəqqi”nin liderlərindən biri kimi ”Türk-İslam birliyindən çıxış edən turançı ruhlu Ənvər paşanın ciddi təsiri olmuşdur. Belə ki, Osmanlının paytaxtı İstanbul “Antanta” ittifaqının hərbi qüvvələri tərəfindən işğal altında olduğu həmin dövrdə Ənvər paşa bir müddət (1918-1919-cu illər) Berlində yaşadıqdan sonra 1920-ci ildə Sovet Rusiyasına üz tutmuşdur. Türkiyə Cümhuriyyətinin qurucusu, ulu öndər Mustafa Kamal Atatürk Anadoluda “Antanta” işğalçılığına qarşı Milli Mücadilə hərəkatı apardığı bir dönəmdə (1920-ci ilin 23 aprelində Ankarada TBMM yaranmışdı), Ənvər paşa Moskvada həmin imperialistlərə qarşı Sovet bolşevikləri ilə iş birliyi qurmağa çalışmışdır.

Bu məsələ ilə bağlı M.Ə.Rəsulzadə yazırdı ki, 1920-ci ilin 1-8 sentyabrında Bakıda keçirilən Şərq Millətləri Qurultayında iştirak edən Ənvər paşanı Türk əhali elə bir böyük həyəcanla qarşılamış, ona bir xilasedici qəhrəman kimi münasibət göstərmişlər ki, bunun

[1460]Talıbzadə Y.Z. Cəmiyyəti-əqvam. Bakı, “Azərbaycan” qəzeti, 1919-cu il, №348

sədası məhkum olduğu Bayıl həbsxanasının kameralarına qədər gəlib çatmışdır.[1461] Bu hadisədən az sonra, 1920-ci sonlarında Moskvaya gəlib yerləşdikdən sonra isə Rəsulzadə burada iki Türk nümayəndəliyinin olduğunu öyrənmişdir: “Bunlardan biri Ankara hökumətini rəsmən təmsil edən Türkiyə nümayəndəliyi idi. Digəri isə Türk missiyası (Turetskaya missiya) deyilən ikinci bir heyət idi. Bu, əsl “İttihad və Tərəqqi” liderlərindən Ənvər paşa ilə Camal paşanın bütün İslam dünyasını qurtarmaq qayəsilə təşkil etdikləri “İslam İnqilab Cəmiyyəti”nin bir bürosundan ibarət idi. Ənvər paşa mərhumla bir Türk missiyası binasında görüşdük”.[1462]

Rəsulzadəyə görə Ənvər paşanın təmsil olunduğu Cəmiyyətin qayəsi bolşeviklərlə iş birliyi qurub, İslam dünyasındakı məhkum millətlərin istiqlallarına nail olmaq imiş. Bu cəmiyyətə “Müsavat” Partiyasının da qatılmasını istəyən Ənvər paşa Rəsulzadəyə deyib ki, bunun üçün “Müsavat” Sovet hökuməti əleyhindəki müxalifətindən hələlik vaz keçməli, bu hökumətə qarşı hər cür qiyam niyyətlərindən uzaq olmalıdır. Rəsulzadə isə Ənvər paşanın bu təkilifinə cavab olaraq bildirib ki, onun qayəsi öz-özlüyündə mükəmməl olsa da, müsəlman millətlərini qurtarma təşkilatının mərkəzinin Moskva deyil, milli mücadilə verən Ankaranın olması lazım gəlir: “Yoxsa, mərkəzi qırmızı Moskvada olacaq bir müsəlman hərəkatı ümumi kommunist hərəkatının bir silahı olar. Belə olmaqdan çıxmaq istədiyi gün isə mövcud şərtlər daxilində məhv olduğu gündür”.[1463] Rəsulzadənin bu məsələdə tamamilə haqlı olması idi ki, Atatürkün liderlik etdiyi Ankara hökumətinin Qurtuluş savaşında qələbələrindən sonra Türkiyəyə də qayıda bilməyən Ənvər paşa 1921-ci ilin oktyabrında Batumdan Buxaraya-Türkistana gedib Basmaçıların başına keşərək Sovet Rusiyasına müharibə elan etmişdi.

---

[1461] Rəsulzadə M.Ə. Bir Türk milliyyətçisinin Stalinlə ixtilal xatirələri. Mühacirət dövrü ədəbi-elmi irsindən seçmələr. I cild. Bakı, Elm, 2016, s.184-185

[1462] Yenə orada, s.185

[1463] Yenə orada, s.186-187

Bu vaxt Yusif Ziya da Quzey Azərbaycanı tərk edərək Türküstanda Ənvər Paşanın başçılıq etdiyi Sovet bolşevizminə qarşı aparılan Basmaçılar hərəkatına qoşulmuşdur. M.Əsədli yazır: "Onun məhz Türküstana, Basmaçılar hərəkatına doğru üz tutmasının mahiyyətində isə, Balkan müharibəsində, I Dünya hərbində, Osmanlı Ordusunun Azərbaycan yürüşündə daima yan-yana olduğu ittihadçı arkadaşları və onların öndəri Ənvər Paşa ilə isti münasibətləri, onlarla əqidə, məfkurə birliyi, işğalçı bolşevik qüvvələrinə qarşı birgə mübarizə istəyi dururdu".[1464]

Doğrudan da, Ənvər Paşa və Yusif Ziyanı bir-birinə bağlayan romantizm və idealizm çox güclü şəkildə olmuşdur. Xüsusilə, Türk-İslam birliyi, Türk birliyi hər iki şəxsiyyətin ortaq idealı idi. Osmanlının süquta doğru üz tutması belə hər iki böyük şəxsiyyəti durdura bilməmiş, onlar Azərbaycan və Türküstanda yeni, böyük bir Türk dövlətinin qurulması uğrunda mübarizə aparmışlar. Y.Z.Talıbzadənin Türk ordusunda xidməti, işğal altında olan Azərbaycanın qurtuluşu, İttihadı-İslamın bərqərar olma arzuları onu ittihadçılara o qədər bağlamışdı ki, Osmanlı dövlətinin cahan hərbindəki məğlubiyyətindən sonra belə Ənvər Paşaya sonsuz inam və sayğı bəsləyirdi. Bir sözlə, Y.Z.Talıbzadə Ənvər Paşanın Azərbaycan və Türküstanı Sovet işğalından qurtarıb yeni bir dövlət quracağına birmənalı şəkildə inanmışdır. Məhz bu inamının nəticəsi olaraq, Azərbaycan Cümhuriyyəti və "Sovet Azərbaycanı"nın ilk illərində daima Ənvər Paşanın yolunu izləmişdir. Görünür, Cümhuriyyətin quruluşundan sonra Ənvər paşanın Azərbaycan, Dağıstan və Kars-Ərdahan-Batumdan ibarət yeni böyük Türk dövləti yaratması ideyasını dəstəklədiyi üçün Yusif Ziyanın müstəqillik tərəfdarı olan Azərbaycan rəhbərliyi ilə münasibətləri arzu olunan səviyyədə olmamışdır.[1465]

Türküstanda Sovet Rusiyası işağlçılığına qarşı Basmaçılar hərəkatını genişləndirən Ənvər Paşa 1922-ci ilin fevral ayında

---

[1464]Əsədli M. Yusif Ziya Talıbzadənin həyatı və mühiti. Bakı, "Nurlan", 2005, s.96

[1465] Masayuki Yamauchi. Hoşnut olmamış adam – Enver Paşa.(Türkiyeden Türkistana). Ankara, Bağlam Yaylncılık, 1995, s.20

komandalığında topladığı Basmaçı birliklərlə Düşənbəni nəzarət altına alaraq oradakı Sovet qarnizonunu əsir almışdı. Bunun ardınca Xorasan üzərinə yürüş edən Ənvər Paşa Sovet ordu birliklərinin Buxaradan, Xorasandan ümumiyyətlə, Türküstandan çəkilmələrini tələb etmişdi. M.Ə.Rəsulzadə yazırdı ki, Ənvər paşanın Türküstanda Basmaçılar adlandırlan bolşevik əleyhdarı Milli Türkistan partizanlarının başına keçib, Sovet ordu hissələrini müəyyən ərazidən qovduğunu və onunla müzakirəyə girmək istəyən bolşeviklərə Türküstandan çıxmaları xüsusunda ultimatum verdiyi xəbəri Moskvada bomba kimi partlamışdı. Rəsulzadə yazırdı ki, ehtimal olunan "Müsavat" qiyamını təqdir etməyən paşanın bu qədər qısa bir zamanda bolşeviklərin iş birliyi yaradılacaq dost deyil, onlara qarşı silah çəkiləcək düşmən bir qüvvə olduqları qənaət və qərarına gəlməsinə heyrət etmişdi.[1466]

28 iyun 1922-ci ildəki Kafiran döyüşündə məğlub olduqdan sonra dağlara çəkilən Ənvər Paşa qısa bir müddət sonra, yəni 4 avqust 1922-ci ildə Qurban bayramı zamanı indiki Tacikstandakı Belçivan yaxınlığında Çeken kəndində Sovet ordusuna qarşı olan qeyri-bərabər döyüşdə şəhid düşüb həmin kənddə dəfn edilmişdir[1467] (1996-cı ilin avqustunda nəşi Tacikstandan gətilərək İstanbulda – Şişlidəki Abide-i Hürriyyət təpəsində, Tələt Paşanın məzarının yanında dəfn olunmuşdur). Zəki Vəlidi Toğan yazırdı ki, Ənvər Paşa şəhid olmamışdan bir neçə gün öncə ona, Tələt Paşa kimi Berlin küçələrində bir erməni gülləsinə qurban getmək istəmədiyini, müqəddəs Türk-İslam birliyi yolunda ya qazi ya da şəhid olmasını diləyirmiş. Zəki Vəlidiyə görə "o mütləq bir idealistdi və Türküstan torpağında oranın istiqlalı üçün şəhid olmaq fikrində əlbəttə səmimi idi. İstədiyini əldə etmişdir və ismi

---

[1466] Rəsulzadə M.Ə. Bir Türk milliyyətçisinin Stalinlə ixtilal xatirələri. Mühacirət dövrü ədəbi-elmi irsindən seçmələr. I cild. Bakı, Elm, 2016, s.187

[1467] Hayıt Baymirza. "Basmaçılar" Türkistan Milli Mücadile Tarihi (1917-1934. Ankara, Türkiye Diyanet Vakfi Yayınları, 1997, s.221; Toğan Zeki Velidi. Hatıralar ( (Türkistan ve diger müslüman Doğu türklerinin milli varlık ve kültür mücadileleri). Ankara, Türk Diyanet Vakfi Yayınları, 1999, s.456

Türküstan tarixində əbədiyyətə qarışmışdır”. [1468] Bu baxımdan, Sovet ordusunun qarşısından qaçıb Əfqanıstana getmək təklifini qəbul etməyi özünə sığışdıra bilməyən Ənvər Paşa, şərəfli ölümü ilə türklüyə xidmət etməyi üstün saymışdır.[1469]

Yusif Ziya isə Ənvər Paşa şəhid olana qədər, onun Türküstanda gerçəkləşən Basmaçılar hərəkatında işğalçı Sovet ordusuna qarşı mübarizəsində ən yaxın silahdaşı, müavini olmuşdur. O da, Ənvər Paşa kimi İslam və türkçülük məsələsinə bir bütün kimi yanaşmış, türkün “Qızıl alma” hədəfinə çatması yolunda bu ideyalara sadiq qalmışdır. Doğrudur, dövrün şərtləri, mühafizəkarların daha güclü olduğu bir dönəmdə Ənvər paşa kimi, Yusif Ziya da daha çox öncüllüyü İslam dininə, İslamlığa vermişdir. Xüsusilə də, Türküstanda mühafizəkarların yenilikçilərə, o cümlədən cəddidçilərə münasibətdə öndə olması Yusif Ziyanı narahat etmiş olub, bu baxımdan İttihadi-İslam ideyasına daha çox meyil etməsinə səbəb olmuşdur. Əslində həm Ənvər paşanın, həm də Yusif Ziyanın Türküstanda ciddi uğurlar qazana bilməməsinin, üstəlik qısa bir müddətdə şəhid düşmələrinin səbəbi burada onları müdafiə edə biləcək milli aydınların azlığı idi. Türküstanda milli aydınların azlıq təşkil edib basqı altında olmalarının səbəbi də Çarlıq Rusiyası və Sovet Rusiyasının onları ya məhv, ya da sürgün etməsi idi. Bunun əvəzində isə Sovet Rusiyası rəhbərliyi çarlıq dönəmində olduğu kimi radikal mühafizəkar ziyalılara dəstək verirdilər. Məhz bunun nəticəsi olaraq da Türküstanda onların ətrafında ciddi bir ziyalı-aydın düşərgəsi formalaşa bilmədi.

Türk dünyasınını tanınmış mütəfəkkiri Zəki Vəlidi Toğan “Xatirələri”ndə Y.Z.Talıbzadəni “Azərbaycanlı panislamist və pantürkist” kimi dəyərləndirmiş, eyni zamanda, onun bir fikir adamı, din xadimi olduğunu söyləmişdir: “Axund Yusif Talıbzadə Azərbaycanın fikir həyatında mühüm yer alan mütəfəkkir və yazardı. Onun türkcə əsərləri və liberal fikirləri ehtiva edən qısa “Quran” təfsiri vardı. Rusca lap az bilirdi. Fəqət, ərəbcə və farscası

[1468]Yenə orada, s.456
[1469]Yenə orada, s.457

mükəmməl idi. O kəlmənin tam mənası ilə bir panislamist və pantürkist idi. Bu baxımdan, Ənvər Paşaya fazla bağlı, hətta onun müridi kimi idi”.[1470]

Z.V.Toğan Yusif Ziya ilə Ənvər Paşanın münasibətlərinin üst səviyyədə olmasına da toxunmuş, onların arasında böyük bir ideya bağlılığının mövcudluğuna işarə etmişdir. Yusif Ziya ilə ilk görüşlərini izah edən Z.V.Toğan xatirələrində yazırdı ki, o, özünü Ənvər Paşanın Şimal və Qərb vilayətlərində geniş səlahiyyətlərə malik “fövqəladə kommisarı” olaraq tanıdırdı.[1471] Yusif Ziya, Türküstan Milli Birlik Cəmiyyətinin başqanı Z.V.Toğandan Türküstanın Şimal və Qərb vilayətlərində uğur qazanmaları üçün onlara – basmaçılara yardım etməsini xahiş edirmiş.[1472]

Eyni zamanda, Yusif Ziya bolşevizmin tezliklə süquta uğrayacağına inanaraq Toğana Sovet-Rus mətbuatını faydasız yerə mütaliə etməsinə görə eyhamlar vururmuş. Z.V.Toğanda türklərin və digər müsəlman millətlərin İslamiyyət əsasında siyasətən birləşmələrini ümdə edinən Axund Yusif Talıbzadəni yerli qanunlara uymayan dini təbliğata və reallığa uyğun gəlməyən idealist təmayüllərə görə məzəmmət edirmiş. Ancaq bütün hallarda Yusif Ziya ilə Z.V.Toğan arasında həqiqi əqidə və insani dostluq yaranıbmış. Z.V.Toğan yazırdı ki, aralarında Türk xalqlarının nümayəndələrinin bulunduğu “milli kültür məsələlərinə dair gecə söhbətləri”ndə milli həmrəylik, milli istiqlal ideyaları ortaya qoyulmuşdur: “Xalqımızın istiqlal eşqi, bu anda bir-birimizə qarşı duyduğumuz səmimi bağlantılar, əsgərlərin özlərinə güvənləri təbiətin zənginliyi və buraların tarixlərdə oxuduğumuz şanlı keçmişi könüllərimizi doldurmuşdu”.[1473]

**Beləliklə,** Talıbzadənin dünyagörüşündə islamçılıq əsas yeri, ana xətti tutmuşdur. O, şüurlu həyatının ilk dövründən şəhid düşənə qədər İslam birliyi məsələsində bir addım olsun belə geri

[1470]Toğan Zeki Velidi. Hatıralar ((Türkistan ve diger müslüman Doğu türklerinin milli varlık ve kültür mücadileleri). Ankara, Türk Diyanet Vakfi Yayınları, 1999, s.408-409
[1471]Yenə orada, s.407
[1472]Yenə orada, s.410
[1473]Yenə orada, s.416

addım atmamışdır. Talıbzadənin həyatında İslam dininə bağlılıq, İslam birliyini, ya da Türk-İslam birliyini gerçəkləşdirmək müstəsna yer tutmuşdur. İslam dininə dərindən bələd olan Yusif Ziya Türk xalqlarınnı gələcəyini da yalnzı İslam birliyi, İslamlıq çərçivəsində görmüşdür. Başqa sözlə, onun dünyagörüşündə, həyat amalında islamlıq ilk pilləni tutmuş, ancaq Türk kimliyini, Türklüyünü də heç bir zaman gözardı etməmişdir. Sadəcə, onun düşüncəsində İslam dininə, İslamlığa bağlılıq türklüyə, Türk milliyyətçliyinə bağlılıqdan bir addım öndə olmuşdur. O, Bakıda, İstanbulda, Təbrizdə, Buxarada və digər şəhərlərdə islamçılıq, türkçülük uğrunda dəyişilməyən bir ruhda mübarizə aparmışdır. Yusif Ziya şüurlu həyatınnı ilk günlərindən islamlığa necə bağlı idisə, sonrakı dövrlərdə bunu daha da dərinləşdirirək, sonuna qədər bu əqidəsinə sadiq qalmışdır. Əlbəttə, bu heç də onun türklüyü, turançılığı bir kənara qoyması anlamına gəlməmişdir. Hər halda Yusif Ziya İslamlıq, İslam dini qədər olmasa da, ancaq türkçülüyə, turançılığa da bağlı bir şəxsiyyət olmuşdur. Sadəcə, yuxarıda da qeyd etdiyimiz kimi, Yusif Ziya üçün islamlıq və İslam dünyasına bağlılıq onun dünyagörüşündə müstəsna yer tutmuşdur.  Ancaq o, bir Türk oğlu Türk olduğu üçün islamlıqla turançılıq arasında bir ziddiyyət görməmiş, hər iksinə bir bütün kimi yanaşmışdır.

# ÜMGÜLSÜM SADIQZADƏ

**Giriş.** Azərbaycan Türk şair-ədibi Umügülsüm Sadıqzadə (1900-1944) Bakının Novxanı kəndində ruhani ailəsində dünyaya gəlmişdir. Milli ideoloq Məhəmməd Əmin Rəsulzadənin əmisi qızı, Cümhuriyyət parlamentinin millət vəkili Məhəmməd Əli Rəsuloğlunun bacısı olan Ümgülsümün milli ruhda yetişməsində onların bir həyətdə, eyni ailə mühitində yaşamaları mühüm rol oynamışdır. İlk təhsilini atası Əbdüləziz Rəsulzadədən alan Ümgülsüm Türk dili ilə yanaşı, ərəb və fars dillərini də öyrənmiş, doqquz yaşından etibarən şeirlər yazmağa başlamışdır. [1474] Ümgülsümün 1914-cü ildən "İqbal", "Yeni iqbal", "Açıq söz", "Qurtuluş", "Dirilik", "Məktəb", "Qardaş köməyi", "Azərbaycan" və başqa mətbuat orqanlarında hekayə və şeirləri dərc edilmişdir. Onun "Solğun çiçək" hekayəsi "Qurtuluş" jurnalının elan etdiyi müsabiqədə mükafata layiq görülmüşdür. O, 200-dən artıq şeirin, bir poemanın və bir neçə hekayənin müəllifidir.[1475]

Ümgülsüm 1918-ci ildə Azərbaycan Cümhuriyyətinin yaranmasını sevinclə qarşılamış, milli dövlətimizi vəsf etmiş, bu böyük hadisəyə "Türk Ordusuna", "Ey Türk oğlu", "Çəkil, dəf ol", "Əsgər anasına", "Dərdli nəğmə", "Yurdumuzun qəhrəmanlığına", "Yollarını bəklədim" adlı şeirlər həsr etmişdir.[1476]

O, 1920-1930-cu illərdə qələmə aldığı "Hicran" və "Bayrağın enərkən", "Bən" şeirlərinə görə "xalq düşməni", "sosializmin düşməni", "müsavatçı" kimi ittihamlara məruz qalmışdır. Bu şeirlər Azərbaycan siyasi mühacirləri arasında dillər

---

[1474] Hüseynzadə Aydın. İstiqlal şairi Ümgülsüm. Bakı, Çaşıoğlu, 2005, s.18-19

[1475] Salamoğlu Təyyar (1998). Faciəli talelər (Azərbaycan repressiya və mühacirət şeirinə dair porrret oçerklər). Bakı, Elm, s.88-89

[1476] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. II cild. Bakı: "Lider nəşriyyat", 2005, s.418

əzbəri olmuş, M.Ə.Rəsulzadə mühacirətdə yazdığı əsərlərində onlardan xüsusi bəhs etmişdir.[1477]

1937-ci ilin iyununda həyat yoldaşı Seyid Hüseyn həbs edildikdən sonra Ümügülsüm də "xalq düşməni"nin, "vətən xainin həyat yoldaşı" kimi qələmə verilmişdir. O, həmin ilin noyabrın 10-da həbs edilərək bir müddət Bayıl həbsxanasında saxlanıldıqdan sonra, Rusiyanın Mordva vilayətinə 7 illik Telmaq həbs düşərgəsinə göndərilmişdir.[1478] Ümügülsüm sürgündən sonra Bakıya dönsə də, onun burada yaşamasına icazə verilməmiş, Şamaxıya getməyə məcbur olunmuşdur. Qızı Qumralla birgə Şamaxıda yaşamağa başlayan Ümgülsüm, bir müddətdən sonra 1944-cü ilin sentyabrında vəfat etmiş, Şahxəndan qəbristanlığında dəfn olunmuşdur.

**İctimai-siyasi görüşləri.** Hələ, yeniyetmə yaşlarından türklük və vətənpərvərlik ruhunda böyüyən Ümgülsümün belə bir formada yetişməsində Rəsulzadələr nəslinin mühüm rolu olmuşdur. Ümgülsümün atası (Molla Əbdüləziz Rəsulzadə) və əmisi (Molla Axund Ələkbər Rəsulzadə) İslam ruhlu mömün müsəlman olduqları qədər də, Türk ruhlu şəxsiyyətlər olub. Şübhəsiz, onların övladları da islamlıqdan heç də az olmayaraq türklüklərini bilir və vətənə bağlı yetişirdilər. Bu baxımdan Ümgülsümün yeniyetmə yaşlarında olarkən Vətənə və Türklüyə aid şeirlər, hekayələr yazması təbii idi.

Ümgülsüm 1914-cü ildə "Dirilik" jurnalında nəşr olunan "Vətən sevgisi" adlı kiçik həcmli hekayəsində Vətən anlayışını başa düşdüyü bir şəkildə izah etməyə çalışmışdır. Onun düşüncəsindəki Vətən anlayışı gözəlliyi və xarabalıqları ilə bir bütün idi. Ananın gözəl və çirkinliyindən asılı olmayaraq övlad üçün eyni dərəcədə əziz, möhtərəm olduğu qədər, Vətəndə acısı-şirinisi ilə bütünlükdə onun qoynunda yaşayan hər bir fərd üçün dəyərlidir. Ümgülsüm yazırdı: "Ey daşlar.. Kim bilir, siz kimləri doğmuş, dərağüş etmiş (qucaqlamış), böyütmüş, sonradan

---

[1477] Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991, s.80

[1478] Qasımov Cəlal. Məhbus tərcümeyi-halı. Bakı, "Səda" nəşriyyatı, 2003,s.141-142

sərdabaya göndərmişsiniz. Babalarımızın min dürlü səfaları ilə fərəhlənmişsiniz, min dürlü əzab və əziyyətin şahidi olmuşsunuz. Babalarımızdan mənə hekayələr söyləyiniz, məlumatlar veriniz... Siz mükəddər və mühəqqər görünürsünüz. Fəqət nə vaxt şənlənəcək, şadlanacaqsınız?... Görünən evlərin qapısından çıxan qırmızı dumanlı işıqlar qəlbimə alov saçırlar. Daşlar, qumlar, sular, ağaclar xırda uşaqlardan eşidilən qəhqəhə və xırda danışıqlarla əlbir olub bir soyuqluq, istilik yəni türklük aləm edirlər. Bu vaxt ürəyimdə bağların məhəbbəti yanımdakı anamın məhəbbətindən az deyildi desəm, qabildi. Bu məhəbbət ürəyimdə həyəcanlı bir sıxıntı hasil etdi. Boğazımı acı bir ağrı bürüdü... Bütün kainatı məzhun könlümdən keçirdim. Qəlbimdə yeganə bir eşq, məhəbbət vardı. Əcaba bu eşq kimə və nəyə idi... Gözəlliklərəmi? Yaxud insanlara-mı? Xayır. Mən gözəllikləri də, babalarımı, qardaşlarımı, bacılarımı da doğan, Vətənimə aşiq və məftun idim”.[1479]

Təyyar Salamoğluna görə “Vətən sevgisi” və “Solğun çiçək” hekayələri ilk qələm təcrübələri olsa da, Umgülsümün həyatda duyduqlarını və düşündüklərini romantik bir pafosda, lakin olduqca şirin bir dillə ifadə etmək bacarığı maraq doğururdu: “14-15 yaşlı qızcığazın vətən, doğma yurd anlayışının kamilliyi, bütövlüyü, ən ümdəsi, bunu yüksək sənət dili ilə oxucuya təqdim etməsi ilk hekayənin uğurlu cəhəti idi və həm də onun müəllifinin güclü istedadından xəbər verirdi. İkinci hekayədə isə vətən təbiətinin lətif mənzərələrinin canlanması fonunda əsrin əvvəllərinin kəskin sosial problemlərindən biri olan yetim uşaqların taleyinin bədii inikasına səy edilirdi”.[1480]

Beləliklə, vətənə və millətə məhəbbət hissi ilə böyüyən Ümgülsüm qarşımıza türkçü, turançı biri kimi çıxır. Bu baxımdan onun 1917-ci ildəqələmə aldığı “Turan düdüyü” şeiri çox ibrətamizdir. O, bu şerini Osmanlının 1-ci Dünya müharibəsi dövründə çar Rusiyasına əsir düşüb Nargin adasında saxlanan Türk

[1479] Ümgülsüm. Əsərləri. Bakı, “Letterpress” nəşriyyatı, 2010, s.84-85
[1480] Salamoğlu Təyyar. Müasir Azərbaycan ədəbiyyatı. Bakı, “E. L.” nəşriyyat və poliqrafiya, 2012, s.100

əsgərlərinə ithaf etmişdir. [1481] Bizcə, şair-ədibimiz bu şeirində türkün ruhunun əsarətlə barışmayacağına və yenidən qurtuluş yolu tapacağına inamını göstərməyə çalışmışdır. Eyni zamanda, Ümgülsümün bu şeirində iki Türk xalqının dar gündə bir-birinə arxa çıxmasının mahiyyəti də ifadə olumaqdadır. O, yazırdı:

*Dərdli-dərdli sürükləndim, inlədim,*
*Acı-acı fəryadları dinlədim.*
*Gəldim iştə, dərdimi sana söylədim,*
*Ərzimi dinləyən, soran nerədə?*

*Unudulmaz dərdim, ovunmaz qəlbim,*
*Gülsə, cahan, gülməz bənim taleyim,*
*Gəl yaramı sən özün sar, sevgilim,*
*Duyulmaz, dərdimə dərman nerədə?*

*Dağıtdılar yuvasını bülbülün,*
*Xəzan vurdu yaprağını hər gülün,*
*Susdurdular nəğməsini bir elin,*
*Cananan can verən o can nerədə?*

*Məskənimiz həp fəlakət bucağı,*
*Bəstərimiz (yatağımız) firtınalar qucağı,*
*Sönmüşdür əcəb Türkün ocağı,*
*Anadolu nerdə, Turan nerdə?*[1482]

Ümgülsümün bu şeirində bir tərəfdən Nargin adasındadkı əsir türklərin harayına çatmaq, digər tərəfdən isə Türk xalqlarının birləşməsinə yönəlmiş çağırış vardır. Şair-ədibimizə görə Türk xalqları arasında yeni bir güc ortaya çıxaraq bütün türkləri vahid çatı altına birləşdirməli idi. Prof. Alxan Bayramoğluya görə "Turan düdüyü"nün poetik sədasını bütövlükdə Turan elinin qulağına çatdırmağa çalışan Ümgülsüm Türk xalqlarının hər nəfərinin belə

[1481] Azərbaycan Xalq Cümhuriyyəti: Ədəbiyyat, dil, mədəni quruculuq (2009). Bakı, "Qoliot Qkup" QSC nəşriyyatı, 2009, s.84-85
[1482] Ümgülsüm. Əsərləri. Bakı, "Letterpress" nəşriyyatı, 2010, s.55

qədrini bilməyə, bir-birinə arxa, kömək durmağa səsləyirdi: "O, Türk xalqlarını başladığımız istiqlal savaşının sədasına səs verməyə çağırırdı ki, qoy bu güc birliyi bizim doğan günəşimizin şəfəqlərinə boy versin, möhkəmlənsin". [1483] Türklərin günəşinin yenidən doğacağına inanaraq o, yazırdı:

*Halətimə uğramışız həpimiz:*
*Cavanlarımız, ixtiyarımız, yigitimiz,*
*Bir sahil yoxmudur çıxa gəmimiz,*
*Ağlaşır analar, duyan nerədə?*

*Qərib, sürgün, öksüz cocuqlar ağlar,*
*Ninni söylər uğultulu dalğalar:*
*Mərhəmət namına səni haraylar,*
*Ədalətin nerdə, vicdan nerədə?*

*Səba, yetir sevgilimə sözümü,*
*Mükəddər halımı gülməz üzümü,*
*Yanıqlı halımı, ağlar üzümü,*
*Aşiqlərin nerdə, canlar nerədə?*[1484]

Gördüyümüz kimi, şair-ədibi bu şeirində türklüyün qurtuluş yolunu arayıb axtarır. O, ümidini qətiyyən kəsmir ki, bir gün türklük yenidən diriləcək, Turan ülküsü yenidən gerçəkləşəcəkdir. Biz, bunu Ümgülsümün "Səs verəlim" şeirində daha dəqiq şəkildə görürük. Belə ki, o, bu şeirində türklüyün yenidən dirçəlməsi üçün yalnız oğlanları deyil, qızları da fəal olmağa, əl-ələ verib Türk birliyi, Turan üçün mücadilə verməyə səsləmişdir. O, üzünü Türk qızlarına tutaraq yazırdı:

*Dəyərlidir ehtiyacı millətin,*
*Yaradıcısı, bizik istiqbalına,*
*Yüksəldəlim bayrağını türklüyün,*
*Şan verəlim qafqaslılıq namına.*

---

[1483] Bayramoğlu Alxan. Ümgülsüm Sadıqzadə (1900-1944). Ümgülsüm (2010). Əsərləri. Bakı, "Letterpress" nəşriyyatı, 2010, s.17

[1484] Ümgülsüm. Əsərləri. Bakı, "Letterpress" nəşriyyatı, 2010, s.55

*Türklük deyil, biz türklüyün özüyük,*
*Millətimiz bizim ilə canlanır.*
*Qazanalım, Fateh xanın qızıyıq,*
*Türklük adı fütuhatla şanlanır.*[1485]

Alxan Bayramoğluna görə Ümgülsümün poeziyasında, o cümlədən bu şeirində vətənin və xalqımızın başına gətirilən bəlalardan doğan vətəndaşlıq və işıqlı gələcək üçün mübarizəyə çağırış motivləri aparıcıdır. A.Bayramoğlu yazır: "Çünki hər tərəfi düşmənlərin sarıdığı bir şəraitdə aparılan ağır və şanlı mübarizədə təkbaşına qalib gəlmək çətin olardı. Ona görə Ümgülsüm bu yolda birinci növbədə Türk xalqlarının, kişili-qadınlı bütün nümayəndələrinin bir nəfər kimi əlbir fəaliyyət göstərmələrini, bir-birilərinə dayaq durmalarını vacib sayırdı. Onun fikrincə, milli müqəddəratımızın ölüm-qalım dilemması qarşısında qaldığı bir zamanda Türk qızları da fəal olmalı, öz oğullarına, ərlərinə dayaq durmalıdırlar". [1486] Doğrudan da, Ümgülsümün düşüncəsində "aslanın erkəyi dişisi olmaz" fəlsəfəsi önəmli yer tutmuşdu. Bu analmda o, daha sonra yazırdı:

*Səslənməli, varlığımız bilinsin,*
*Türk oğlunu yadlar öksüz sanmasın.*
*Güc verəlim, qüvvətimiz görünsün,*
*Qız, qadınlıq həyansız kimi qalmasın.*

*Ey qadınlıq, bilmirsən haqqını,*
*Övladını gözətməkdi vəzifən.*
*Övladının səadəti, iqbalı*
*Sənin gözəl, ən şərəfli amalın.*

*Sən özünə bu vüqarı alarkən*

---

[1485] Ümgülsüm. Əsərləri. Bakı, "Letterpress" nəşriyyatı, 2010, s.57

[1486] Bayramoğlu Alxan. Ümgülsüm Sadıqzadə (1900-1944). Ümgülsüm (2010). Əsərləri. Bakı, "Letterpress" nəşriyyatı, 2010, s.15

*Yarar şeymi səndə belə donuqluq?*
*O sevgiyi kökusünə taxarkən*
*Yakışarmı sana belə soyuqluq?*[1487]

Tanınmış jurnalist, tədqiqatçı, tərçüməçi Nəcibə Bağırzadə Ümgülsümə və bütövlükdə Rəsulzadələr ailəsinə həsr etdiyi kitabında onun türklüyə bağlılığını çox doğru izah etmişdi: "Ümgülsüm soykökünə bağlı, minilliklərdən soraq verən tarixiylə, keçmişiylə qürur duyan və bu tarixi gələcəyə ötürməyə çalışan Türk xatunudur. Türkün bayrağını göylərin və yer üzünün ən gözəl bəzəyi bilən şair "Səs verəlim" şeirində öz dövrünün xanımlarına tarix boyu at belində, öz ərinin, xaqanının yanında, döyüş meydanında olduğu zamanları xatırladır... Türklük deyil, biz türklüyün özüyük", "Qazanalım, Fateh xanın qızıyıq" deyən şairin arzularını 1918-ci ildə doğmalarının fədakarlığı bahasına qurulan Cümhuriyyətin Parlamentində gerçəkləşdi. Şərqdə qadına ilk dəfə seçki hüququ məhz Azərbaycanda, Məhəmməd Əmin Rəsulzadənin qurduğu dövlətdə verildi. Bu qərarın Ümgülsüm xanımı nə qədər xoşbəxt elədiyini təsəvvür eləmək elə də çətin deyil...Heyflər olsun ki, bu xoşbəxtliyin ömrü uzun sürmədi...".[1488]

Ümumiyyətlə, "türklük deyil, biz türklüyün özüyük" deyən, şairənin böyük bir Turan yolçusu olmaqla yanaşı, Türk dünyagörüşünü, Türk mənəviyyatını, Türk fəlsəfəsini də dərindən bilməsi şəkk-şübhəsizdir. Bunu, Ümgülsümün 1918-ci ilin fevralında "Açıq söz" qəzetində qələmə alıdığı "Ey Türk oğlu" şeirindən də görmək mümkündür. O, "Ey Türk oğlu" şeirində Türk millətinin şanlı tarixindən söz açaraq yazırdı ki, türklər Ərgənəkon timsalı yenidən türklüyünü dərk edib onulayiq olduğu yerə ucaltmalıdır. Başqa sözlə, Türkün, tarixin dərinliklərindən gələn şanlı bir yolu var ki, indiki nəsildə həmin Türklük yolunu davam etdirməyə borcludur. O, yazırdı:

---

[1487] Ümgülsüm. Əsərləri. Bakı, "Letterpress" nəşriyyatı, 2010, s.57

[1488] Bağırzadə Nəcibə. İstiqlal şairi Ümgülsüm-Vətən ayrısı Rəsulzadələr. Bakı, Ecoprint, 2018, s.127-128

*Ey Türk, sən ey qəhrəman, yigit oğlu Turanın!*
*Şanlı, yüksək babanın öyüdünü unutma,*
*Sən də yürü o yolu.*
*Yürü, əvət özünü heç bir şeydən qorxutma;*
*Yürü, əvət bir daha təməddünün, ürfanın*
*Ülvi duyğular versin Türkün həssas qəlbinə*
*Hörmət, izzət aldırsın böyük Turan elinə.*
*Səmalardan seçiləməz Türkün mavi bayrağı,*
*Yenə əski şan ilə Türk yurduna dikilsin.*
*İştə Turan, iştə Yurd, iştə Türklük ocağı*
*Yabançıya düşəməz duruyorkən sən özün.*
*Tarixlərdə həp sənin rəşadətin, hünərin,*
*Bildirişin, fırtınan oxunurkən sən neçin*
*Avropaya qarşı bir*
*Yersiz, yurdsuz əsir tək boyun büküb durasan?*
*Yüz yıllarca əzildin, ayaqlandın, yetər:*
*Yüz yıllarca ağlarsan,*
*Yüz yıllarca hıçqırdın, duyulmadı heç səsin.*
*Şimdi hayqır və bağır bitməmişkən nəfəsin.*
*Ey qəhrəman, düşmənə qılınc tutan biləgin*
*Vətəninə, yurduna birər qələ sayılır.*
*Bu ün sənin ən parlaq, ən dəyərli diləyin*
*Öz ürfanının gücilə, qüdrətilə verilir.*
*Qafqasiyanın ən böyük, yüksək, ulu dağları*
*Ormanları, bağları*
*Sənin müzəffər adın, şərəfinlə tanınsın!*
*Səni vəhşi tanıyan o mədəni canavar*
*Məğlub olsun, xar olsun, intiqamlar alınsın!*
*Türk bayrağı o zaman göy üzündə parıldar.*[1489]

Alxan Bayramoğluna görə Ümgülsümün vətəndaş qəlbinə ən çox təsir edən məsələlərdən biri də, “mədəni canavarlar”ın yüz illərlə öz yırtıcı xislətlərini gizlətmək üçün, türkləri daima vəhşi adlandırıb onları aşağılamağa çalşması olmuşdur. Bayramoğlu

[1489] Ümgülsüm. Əsərləri. Bakı, “Letterpress” nəşriyyatı, 2010, s.58-59

yazır: “Öz milli varlığını dərk edən bir xalq üçün bundan ağır əzab ola bilməz. Odur ki, müəllif öz soydaşlarını bu tarixi ədalətsizliyin əvəzini amansız intiqamla, düşməni xar və zəlil etməklə almağa çağırır. Onun qənaətincə, bunsuz – bu çarpışma və qələbələrsiz “Türk bayrağı göy üzündə parıldamaz”.[1490]

**Cümhuriyyət dövrü türkçülük və turançılıq düşüncələri.** Ümgülsüm Azərbaycam Cümhuiyyətinin var olduğu 1918-1920-ci illərdə türkçülük və turançılıq düşüncələrini daha da inkişaf etdirmişdir. Alxan Bayramoğluna görə Azərbaycan Cümhuriyyəti dövründə Ümgülsüm milli istiqlala qovuşmağın böyük həyəcanını, sevincini yaşamış və bunu əsərlərində ifadə etmişdir. O, yazırdı: “AXC milli-ictimai və ədəbi fikrimizin uzun illər ərzində məqsəd-yönlü və sistemli şəkildə apardığı mübarizənin və tarixi-siyasi şəraitin əlverişli məqamı nəticəsində meydana çıxdı. Onun həm qurulması, həm də qorunaraq möhkəmləndirilməsi uğrunda öz ədəbi-ictimai fəaliyyəti ilə yaxından iştirak edən şairlərdən biri də Ümgülsüm idi. Ümgülsümün poeziyasında yüksək milli ruh və qürur hissi, mübarizəyə çağırış hayqırtıları, milli-tarixi yaddaşdan güc alan qəhrəmanlıq və vətənpərvərlik, habelə düşmənə kəskin nifrət duyğusu, soykökümüzün qədim və şərəfli olmasında doğan daxili inamdan, vətəndaşlıq qürurundan güc alır. Şairənin qəti inamına görə hər bir kəs, o cümlədən gənclik öz əcdadının, soykökünün əsilli-nəsilli olmasından daxili bir qürur duyur. Bu qürur insanın həyat amalının uğurlu aqibətində müstəsna rol oynayır”.[1491] Doğrudan da, o, “Çəkil, dəf ol” şeirində Turan övladı olub türklüyün özünü ifadə etdiyini yazmışdır. Ümgülsümə görə Turanlı, Türk balası artıq əsarət altında yaşamamalı, öz bayrağı altında azad həyat sürməlidir. O, yazırdı:

*Turan balasıyam, türkün özündən,*
*Soyuq su içdim bən tünkar gözündən.*
*Yeni nur aldım o günəş yüzündən*

---

[1490] Bayramoğlu Alxan. Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat. Bakı, Elm, 2003, s.20

[1491] Bayramoğlu Alxan. Ümgülsüm Sadıqzadə (1900-1944). Ümgülsüm (2010). Əsərləri. Bakı, “Letterpress” nəşriyyatı, 2010, s.13

*Şərəfli bir dilək yaşadır məni.*

*Annəciğim, bənim şu yaşıl dağlar,*
*Bənsiz nəşə bulmaz çiçəkli bağlar,*
*Bənsiz bülbül inlər, çiçəklər ağlar,*
*Buraxmam yurduma alçaq düşməni.*

*Bən də cəngə girdim cidalı gördüm,*
*Göy üzünə baxdım, hilalı gördüm,*
*Səni yox, o gözəl camalı gördüm,*
*Yadlara aldırtmam gözəl vətəni.*

*Ey buzlu şimaldan qopan ruzigar!*
*Toxunma qəlbimə, atəşi parlar.*
*Saqın, gəlmə, səni nəfəsim boğar,*
*Dəf, ol, vətənimdə görəməm səni.*

*Ey murdar çöhrə, sən ey əbus (acıqlı) sima!*
*Sevdiyim deyilsən, qarşımda durma!*
*Nifrətim var san, bana yaxlaşma,*
*Kinlərim məhv edər qarşı gələni.*[1492]

Cümhuriyyət dövründə qələmə aldığı "Əsgər anasına" şeirində isə o, Azərbaycan əsgərinin anasından söz açmışdır:

*Ey şəfqətli gözündə inci yaşlar parlayan,*
*Ey atəşli köksündə sönməz sevgi saxlayan,*
*Ey möhtərəm validə!*
*Əvət sən də oğlunu doğurduğun günündə*
*Həyatının müqəddəs borclarını yetirdin;*
*Sən o sıcaq bağrında arslanlar yetirdin.*
*Bu gün səni bir millət böylə təqdis ediyor*
*Sənin o göz nurunu əziz vətən bəkliyor.*
*Mane olma şu gəncə, burax, hərbə gediyor.*
*O bir baba yigitdir,*

[1492] Ümgülsüm. Əsərləri. Bakı, "Letterpress" nəşriyyatı, 2010, s.60

*Vətənin bəkçisidir. Omuza silah alaraq*
*Pak şərəfli və cəsur bir qəhrəman olacaq.*
*Annəciyim, ağlama xeyir-dua söylə sən!*
*Göz yaşilə saxlama haqq yoluna gedəni,*
*Onun çarpan qəlbinə çalış, fərəh verəsən,*
*Onun şu gənc həyatı qurtaracaq vətəni,*
*Yurdu qurtarmaq istər pək coşğun bir əzmlə,*
*Türk duyğusu daşıyor saf və sağlam qəlbində.*[1493]

Ümgülsüm 1918-ci ilin qanlı mart hadisələrindən sonra Azərbaycan türklərinin yaxasını düşmən əlindən almaq və ölümdən qurtarmaq üçün qardaş, arxadaş deyə dərə, təpə, dağ, daş aşaraq yardıma gələn şanlı Türkiyə ordusuna ithafla "Yolunu bəklərdim" şeirini yazmışdır. O, bu şeirində Osmanlı Türk əsgərinin Azərbaycan xalqını erməni-rus hərbi birləşmələrindın necə xilas etməsini anlatmışdır. O, yazırdı:

*Yürüyürkən ölüm saçan fırtınalar önündən,*
*Uçqun dərələrə uçdum, tiyələrə dırmandım.*
*Baxdım ki, yox xilas yeri fəlakətin cəngindən,*
*Gözəl yurda son nəzərlə baxmaq üçün dayandım.*
*Qara yaslar anına yenir gözlərimə çarpmadı,*
*Pək səmimi bir məhəbbət bir an bəni saxladı.*

*Görüyordum ağ dumanlar, qara sislər altında*
*Türk elinin səadəti, xanimanı yaxılır.*
*Ləpə çalan qan çində, girdabların ağzında*
*Qəhrəmanlar çabalayır, mərd igidlər can verir.*
*Uf, sevgili yurdcuğazım, dözəməm bu kədərə,*
*Dözəməm ciyərimi parçalayan zəhərə.*

*Yaşayamam səndən iraq, dözəməm o hicrana,*
*Yaşayamam, annəciyim, bən çəkəməm o dərdi.*
*Heç sönməyən kinlərimlə üzü qara düşmənə*
*Alov saçan dodaqlarım bəd dualar söylərdi.*

---

[1493] Ümgülsüm. Əsərləri. Bakı, "Letterpress" nəşriyyatı, 2010, s.61

*Şaşqın-şaşqın düşüyordum və qalxınca yürürdüm,*
*Düşmən bəni izlədikcə namusumu sürürdüm.*

*Qəlbi yanıq sızlayaraq gəzdim vəhşi çölləri,*
*Köksümdə uyutdurdum böyük arzu, böyük kam.*
*Boğularaq, inləyərkən rübabımın telləri*
*Həp dağlar da səslənir: həp intiqam, intiqam!*
*Dinlədikcə o səsləri bənə qarşı anlarıdm,*
*Bir qurtuluş ümidilə izlərini arardım.*

*Nərdə bənim ardı-önü düşmən kəsən qılıncım?*
*Nərdədir, yigit qardaş, nərədə bəklədiyim?*
*Neçin susmuş biləklərim, nərdə bənim o gücüm?*
*Neçin gəlməz böyük ordu, neçin gəlmir sevdiyim?*
*Uca dağlar, ordumuzun salamına əyilin,*
*Bəni qurtarmağa gələn dostlarıma yol verin.*

*İştə gəldin, gözlərimin yaşlarını qurutdun.*
*Nəvazişin ovunmayan qərib ruhu oxşadı.*
*Heç ölçüyə sığınmayan dərdlərimi ovutdun,*
*Qara günüm hilalının işığıyla parladı.*
*Artıq bana nəsib degil şadlıq, sevinc, – deyərkən*
*Gəldin, aldın ürəyimi – ağlama, gül, – dedin sən.*[1494]

Ümgülsüm "Yurdumun qəhrəmanlarina" adlı şeirində isə yeni yetişən Azərbaycan Türk gənclərinə üzünü tumuşdu:

*Ey gənc yurdun gənc duyğular daşıyan,*
*Gənc əməllər bəsləyən gənc övladı,*
*Vətən üçün səadətlər arayan,*
*Ordumuzun igid, canlı əfradı (fərdləri).*

*Mənim ruhum sizin ilə, biliniz,*
*Nə hisslər, nə mənalar duyuyor.*
*Nə sevgilər, nə səfalar buluyor,*

[1494] Ümgülsüm. Əsərləri. Bakı, "Letterpress" nəşriyyatı, 2010, s.62-63

*Qəlbi bu gün məmnun edən sizsiniz.*

*Millətiyçin kim qorxmasa qovğadan,*
*Həyat eşqi verən ulu Yaradan.*
*Yardımçıdır sizə, əmin olunuz,*
*Yürüyünüz, mərdlik, zəfər bulunuz.*

*Sən ey gənclik, durma, yürü irəli,*
*İnsan oğlu istədiyi şeyləri*
*Bular, əgər gənc qoşarsa peşindən*
*Ala bilər bir arslanın dişindən.*[1495]

Ümgülsümün bütün şeirlərində türklüyə, Turana və Azərbaycan Cümhuriyyətinə olan sonsuz bir sevgi duyulmaqdadır. Onun varlığı türklüyü, turanlılığı ilə birgə mövcud idi. Təyyar Salamoğluna görə Azərbaycan türklərinin bu günü və gələcək taleyi ilə bağlı dərin və səmimi narahatlıq hissləri, bu narahatlıqdan yaranan üsyankarlıq və kəskin mübarizlik notları Umgülsümün Azərbaycan Cümhuriyyətnə qədərki və Cümhuriyyət dövründə yazdığı şeirlərin əsas məziyyətlərindəndir: "Bütün varlığı ilə milli istiqlal arzusu ilə yaşayan Ümgüsümün yaradıcılığına Azərbaycan Milli Demokratik Respublikasının qələbəsi ilə əlaqədar çox güclü tərənnüm və sevinc ruhu hopur. Bu da təbii idi. İllərdən bəri onun şeirlərinin misralarından boylanan istiqlal arzusu dönüb həqiqət olmuşdu. Lakin bu həqiqəti Umgülsüm əlçatmaz bir varlıq kimi dərk edir, onun əbədiliyini təmin etmək üçün hələ çox mübarizə aparmaq lazım olduğunu yaxşı başa düşürdü".[1496]

**Cümhuriyyət nisgili və milli mücadilə.** Onun Cümhuriyyətin devrilməsi ilə əlaqədar yazdığı "Hicran", "Bayrağım enərkən", "Bən" şeirləri rus-bolşevik işğalı barədə yazılmış ilk ən dəyərli əsərlərdəndir. O, "Hicran" şeirində yazırdı:

*Ayrılınca hilal qaşlı yarımdan,*
*Mən yaslara batdım, geymədim əlvan.*

[1495] Ümgülsüm. Əsərləri. Bakı, "Letterpress" nəşriyyatı, 2010, s.66
[1496] Salamoğlu Təyyar (2021). XIX əsrin sonu XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının aktual problemləri. Bakı, "Elm və təhsil", s.591

*Düşünüb o yıldız gözləri hər an,*
*Ağlarkən, kəndini yorma, dedilər.*

*Könül şəkvəsini kimə söyləsin?*
*Qəlbimin dərdini kimlər dinləsin?*
*Səni sevən sənsiz ömrü neyləsin?*
*Ardınca qoşarkən, varma, dedilər.*

*Mənim gözlərimdən günəş çəkildi,*
*Parlaq həyatıma zülmət töküldü.*
*Vərəmli qəlbimə oxlar dikildi,*
*Qoy axsın qanları, sarma, dedilər.*

*Günəşim bir daha doğmayacaqmı?*
*Vəhşi qaranlığı boğmayacaqmı?*
*Kölgələri şəfəq qovmayacaqmı?*
*Sordum, ümidini qırma dedilər.*[1497]

Cümhuriyyətin lideri, milli ideoloq Məhəmməd Əmin Rəsulzadə əmisiqızı Ümgülsümün adını çəkməsə də, ancaq onun bu şeirindən "Çağdaş Azərbaycan ədəbiyyatı" əsərində bəhs etmişdir. Rəsulzadə yazırdı ki, Sovet Rusiyasının müstəmləkəçiliyi mühitində "şairi boğan bu havasızlıq daha böyük təsirlə qadın şairin riqqətli qəlbini titrədir. Onun duyduğu əzabı bir "Hicran" adlı parçada görürük... Milli Azərbaycan öz bağrından fədakar mücahidlər yetişdirir. Qəhrəmanlıqla ölməyi şərəfsiz yaşamaqdan üstün tutan bunlar kişi kimi savaşır və itirilimiş hürriyyətlə istiqlalın geri alınması uğrunda Sovet zindanları ilə uzaq Şimalın buzlu sahillərini saysız qurbanlarla doldururlar". [1498] Rəsulzadənin adıçəkilən əsərində gizli şeirlərdən biri kimi yazdığı əsər də Ümgülsümə aiddir. Çünki böyük mütəfəkkirimiz əvvəlcə həmin "gizli şeir"dən bəhs etmiş, daha sonra Ümgülsümün "Hicran" şeirinə müraciət

---

[1497] Ümgülsüm. Əsərləri. Bakı, "Letterpress" nəşriyyatı, 2010, s.70

[1498] Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991, s.80

etmişdir. Rəsulzadə yazır: "Qüvvəsini məmləkətin tarixi və milli ənənələrindən alan bu cərəyanın (milli hərəkatın) əlamətlərini bizə sovet əsirliyinin tam mənzərəsini yaradan gizli şeirlər verirlər. Budur, facilərə uğrayaraq faciələrlə dolu həyatından bezmiş, nə üçün doğulduğunu özü-özündən soruşan şair:

*Nə yazayım artıq yurduma dair,*
*Düşmən zəhər salır, dostlar gizlənir...*
*Bilməm ki, yurdunu sevən bir şair,*
*Neçin də bir cani kimi gizlənir.*

*Yol kəsmədim mən, qaçaq olmadım,*
*Qürurlu bir həyatı pozmadım mən ki...*
*Dostu arxadan bıçaqlamadım,*
*Heç qətlə fərman yazmadım mən ki...*

*Bəs nə üçün qəribəm bu doğma eldə*
*Məhbəsmi dörd yanım, mən ki boğuldum:*
*Məlun bir zamanda, məhkum bir eldə*
*Bu yerdə mən nəçin şair doğuldum?...*[1499]

Məhz bu "gizli şeirin" davamı olaraq da Rəsulzadə, daha sonra yenə də ad çəkmədən, Ümgülsümün "Hicran" şeirindən bəhs etmişdir. Ümgülsüm "Bayrağım enərkən" şeirində isə daha radikal şəkildə Sovet Rusiyasının işğalçılıq siyasətinə etirazını bildirmişdir. O, yazırdı:

*Sən, Bayrağım! O yüksək şanlarınla enərkən,*
*Mavi göyə bir duman gəldiyini sezdim mən.*
*Qoynundakı ağ nurlu ay-yıldızın sönərkən,*
*Üzərimə doğacaq günəşlərdən bezdim mən.*

*Al-yaşıllı bağında çiçəklərin solurkən,*
*Sən enərkən ruhumdan bir inilti yüksəldi.*
*Hıçqırıqlar içində düşüyorkən, ölürkən*
*Məni tutub qaldıran kirli, murdar bir əldi.*

---

[1499] Yenə orada, s.79-80

*Yazıq səni Bayrağım, endirdilər öyləmi?*
*Səni qızıb devirən o zəhərli ruzigar,*
*O, haqq yeyən haqsızlar, vəhşilər, tanrısızlar*
*Yanar ocağımı da söndürdülər, öyləmi?*

*Bir röyamı oldu o gördüklərin həpsi?*
*Bağlandımı üzümə Türk elinin qapısı?*
*Yurdumuza ədalət arzularım dondumu?*
*Bağlandımı üzümüzə Türk elinin qapısı?*

*Aman, mənim bu yanıq fəryadımı dinləmə,*
*O əməlin o parlaq ümidlərin sönməzdir.*
*Dönük üzlü fələkdən heç şikayət eyləmə,*
*Haqqın qolu bükülməz, doğru üzü dönməzdir.*

*Tufan olsa yenə də, uca dağlar aşamaz,*
*Bir qaplanın dişləri, bir arslanın dırnağı,*
*Bir zalimin zülm əli, haqq çeynənən ayağı,*
*Bir caninin qılıncı həşrə qədər yaşamaz.*[1500]

Nəcibə Bağırzadəyə görə Ümgülsüm istiqlalımızla, bayrağımızla qürur duyan və bu dəyərləri sözə çevirən yeganə xanımdır. O, yazır: "Hər kişinin cəsarət edib deyə bilmədiklərini bu zərif olduğu qədər də üsyankar qadın bütün sərtliyi ilə ifadə edib. Bu mənada o, qardaşı Məmmədəli, əmisi oğlu Məhəmməd Əminlə birgə istiqlal mübarizəsinin önündə gedənlərdən biri sayıla bilər. Zamansa o zaman idi ki, istiqlal sevdası ilə yaşayanlar üçün ölümdən, sürgündən, qürbətdən başqa yol görünmürdü. Məhəmməd Əmin Rəsulzadənin "Bir kərə yüksələn bayraq bir daha enməz!" nidası ilə ucaltdığı bayrağın könüllərə endiyi məqam bir tarixi sənədlərdə, bir də Ümgülsümün şeirində öz həzin kədəri, orman yanğınları kimi qarşısıalınmaz nifrətiylə yaşamaqdadır... Bu şeir zərif vücudlu bir qadının böyük bir imperiyaya, mənəvi dəyərləri ayaq altına alıb əzən quruluşa qarşı təkbaşına üsyanı idi…Repressiya maşınının işə

[1500] Ümgülsüm. Əsərləri. Bakı, "Letterpress" nəşriyyatı, 2010, s.68

düşdüyü zaman Sovet rejiminin başında dayananları "O haqq yeyən haqsızlar, vəhşilər, tanrısızlar" adlandıran şairin üzünə açılan yalnız həbsxana qapıları ola bilərdi.".[1501]

Ümgülsüm 1925-ci ilin 28 mayında Məhəmməd Əmin Rəsulzadyə ithaf etdiyi "Bən" şeirində də Sovet Rusiyasının işğalçılıq siyasətini ifadə etməyə çalışmışdır. O, yazırdı ki, kommunistlər onun yurdunu yetim buraxıb üç rənğli bayrağı müvvəqəti olaraq Azərbaycan xalqının başı üzərindən endirsə də, ancaq bir gün o bayraq yenidən yüksələcəkdir. Çünki Azərbaycan xalqının ruhu, o cümlədən Ümgülsümün ruhu kommunizmlə deyil, millətçiliklə döyünməkdədir. Ümgülsüm yazırdı:

*Kommunist, yurdumu buraxdın yetim...*
*Sanma ki, bununla ölən yigidəm;*
*Sana baş əyəməyən nasionalistəm,*
*İstiqlalın ilk qurbanı bənəm...*

*Səndə "oraq" varsa, bənim "ay"ım var,*
*Oğuzdan aldığım altun yayım var,*
*Milliyyət denilən bir sarayım var,*
*Yaşlı diyarın göy pasibanı bənəm...*

*Əsir edəməzsən bəni, övlüyam,*
*Uzaqlaş ey düşmən, bən qorxuluyam;*
*Dədəsi Nuh olan Yafəs oğluyam,*
*Cəddimin yaşayan tufanə bənəm...*

*Yeniləməz xəlqimin milli bayrağı,*
*Gavurda qalamaz türkün torpağı,*
*Saçına dəgəməz rusun darağı,*
*Azəri qızının cananı bənəm...*

*Rusa "yoldaş" deməm, düşmənimdir o,*
*Yurdumu buraxmam, cananımdır o,*

---

[1501] Bağırzadə Nəcibə. İstiqlal şairi Ümgülsüm-Vətən ayrısı Rəsulzadələr. Bakı, Ecoprint, 2018, s.130-131

*Torpaq deyib çəkməm Vətənimdir o,*
*Azərbaycanımın hökmranı bənəm.*[1502]

Təyyar Salamoğlu yazırdı ki, Ümgülsümün burada özünü "nasionalist" adlandırmasını ifrat miliyyətçilik kimi başa düşülməməlidir: "Əlbəttə, burada Ümgülsüm "nasionalizmi"ni öz millətini başqa millətlərdən üstün təqdim edən, millətinin xoşbəxtliyini başqa millətlərin bədbəxtliyi üzərində qurmağa çalışan millətçilərin millətçilik azarı ilə (keçmiş və indiki rus, yaxud erməni millətçiləri kimi) qətiyyən eyniləşdirmək olmaz. Bu "nasionalizm" öz qidasını xalqın azadlıq arzularından alaraq, müstəmləkə boyunduruğu altında sürünərək yaşamaq əzabından qurtuluş yolu kimi düşünülmüş və hər şeydən öncə, saxta sosialist beynəlmiləlçiliyinə qarşı çevrilmişdir".[1503]

O, "Ati" ("Gələcək") məqaləsində Şərq ölkələrinin, o cümlədən əsarət altındakı Türk xalqlarının bir zaman əsarətdən qurtulub azad yaşamasına inamını ifadə etmişdir. Ümgülsüm üçün "gələcək" kəlməsi yeni bir qurtuluş rəmzi və istiqlala qovuşmaq demək idi: "Artıq bu kəlmə bana o qədər munis, o qədər cazibədar görünür ki, ati deyincə sanki gözlərimin önündə günəşli bir fəza açılır, ati deyincə sabahın ülvi ilhamları içində nəqş edilmiş altun buludların arasında parlayan xülya qanadlı bir lövhə görən kibi oluyoram. Ati deyincə bir məsumun gül dodaqlarında açılan ilk gülüşlərini düşünürəm. Sən ey bəklədiyim, özlədiyim ati! Nərədəsin?... Pək uzaqlardamısın?.. Əcəba, hər doğan günəş bir atiyi bəklətməmiş mi?.. İnsan ki, hər zaman sənə müştaq, hər zaman səni bəkləyir. Ah bilsən sənin xəyalını, qəlbimin həyəcanları, təəssüratları, eşqləri və səadətləri içində yaratırım... Sən öylə bir gözəlsən ki, gənc ruhlar həpsi sənin düşkünün, həpsi sənə vurulmuş, həpsinin səadəti sənin qoynunda, həpsinin müqəddəratı sənin əlindədir. Sənə ilk öncə qovuşmaq üçün bugünkü sönük, ölgün həyatım qoşaraq keçsə idi!..

---

[1502] Ümgülsüm. Əsərləri. Bakı, "Letterpress" nəşriyyatı, 2010, s.69
[1503] Salamoğlu Təyyar. Müasir Azərbaycan ədəbiyyatı. Bakı, "E. L." nəşriyyat və poliqrafiya, 2012, s.101

Bəlkə yanılıram, bəlkə səni doğuran bu günə də ehtiram etməm vacibdir; bəlkə bu gün olmasa idi, sən olmayacaqdın.... Bəzən bir tatlı dil, yəni nəvazişlər ilə oxşar, bir munis əl əyilmiş alnımı yuxarı qaldırır və qəmli gözlərimə baxar. Ati şəfqətli yüz bənə qarşı gülümsər. Parlaq, səmimi bir göz gözlərimə baxar. O, səndə bəklədiyim əməlimdir, o, sənsən!...Bəzən həyatın tikanlı yollarında, dalğalı dənizlərinə uğrarım, göy üzünün qara buludlarından enən uğursuz kölgələrinə məruz qalıram, hicranlar, ələmlər duyuram, girdablara düşərim, zindanlara alınırım... O vəqt sən və sənin ümidin olmasaydı, büsbütün məhv olurdum... Gəl, bəlkə çırpınan qəlblər rahat olsun. Həm də gəlirkən səni bəkləyənlərə səadət gətir; zalım qüvvələr qarşısında bənliyini qeyb edən, ağır yumruqlar altında varlığı parçalanarkən yalnız səninlə təsəlli bulanların həp ümidi sənsin!”.[1504]

Onun “Bən” şeirində, “Ati” məqaləsində yenidən milli istiqlalın bərpa olunacağına sonsuz inam vardı. Bu inam o qədər güclü olmuşdur ki, Ümgülsüm Bayıl həbsxanasında belə Sovet rejimini ittiham edən “Xəzərə xitab” şeirini qələmə almışdır:

*Gözümüz yaşlıdır, sinəmiz dağlı,*
*Mən deyim dərdimi, dinlə ey dəniz!*
*Ana qəlbi olur balaya bağlı,*
*Dinlərmisən məni, söylə, ey dəniz.*

*Bir gecə yarısı əziz balamız*
*Alındı əlimizdən bir laçın kimi.*
*Söndü işığımız, uçdu yuvamız,*
*Həyat tarixində bunu gördünmü?*

*Çağla coşğun dəniz, göz yaşımız tək,*
*Dağıt sularını bizdən əks edən.*
*Nə gələr payımız gen təbiətdən?*
*Ağla, səmimi bir yoldaşımız tək.*

[1504] Ümgülsüm. Əsərləri. Bakı, “Letterpress” nəşriyyatı, 2010, s.88-89

*Darmadağın eylə dalğalarınla*
*Bizi dar divara alan qalanı.*
*Heçliklərə sovur nalələrinlə*
*Çıxılmaz tilsimə salan qalanı.*

*Nəymiş təqsirimiz, neyləmişik biz?*
*Bunu sən sual et, mənim dilim yox.*
*Hansı xəyanətin şərməndəsiyiz?*
*Bunu sən sual et, mənim dilim yox.*[1505]

**Beləliklə,** Ümgülsüm yazıdğı bütün şeirlərində türkçülüyü, turançılığı ən yüksək səviyyədə ifadə etmişdir. Onun dünyagörüşündə türkçülük azərbaycanlılığı da öz içinə alan bir tamdır. Başqa sözlə, türkçülüyü, turançılığı azərbaycanlılıqla, Cümhuriyyətin varlığı ilə eynilikdə görən şair-ədib üçün bu yol müqəddəs, qutlu bir dava idi. Onun düşüncələrindəki turançılıq Türkün yenidən oyanışı üçün əsas ideya idi. Məhz bu ideyanın nəticəsi olaraq da Azərbaycan Cümhuriyyəti yaranmış, üçrəngli bayarağımız başımız üstündə dalğalanmışdı. O, bütün varlığı ilə Cümhuriyyətə bağlanmış, milli istiqlalın əbədiliyini qəbul etmişdi. Onun milli istiqlalın əbədiliyinə dərin inamın nəticəsi idi ki, 27 aprel işğalını qəbul edə bilməmişdir. Məhz bundan irəli gələrək də, 27 aprel işğalından sonra da milli istiqlalı müdafiə edən şeirlər yazmış, Rus imperiyasının müstəmləkəçilik siyasətinə açıq-aşkar şəkildə etiraz etmişdir. Bu cür milli üsyankarlığın nəticəsi olaraq da Ümgülsüm həbsxanaya atılmış, Vətəndən sürgün olunmuşdur. Bununla da, o, Azərbaycan Türk qadını, şair-ədibi olaraq adını tarixə qızıl hərflərlə yazdırmışdır.

[1505] Ümgülsüm. Əsərləri. Bakı, “Letterpress” nəşriyyatı, 2010, s.73-74

# SEYİD HÜSEYN SADIQZADƏ

**Həyat və yaradıcılığı.** Azərbaycan Türk mütəfəkkiri Seyid Hüseyn Sadıqzadə (1887-1938) Bakıda anadan olub, "Rus-Tatar" məktəbində dörd ilə yaxın təhsil almışdır. Məktəbi bitirdikdən sonra o, "Tazə həyat" və "Kaspi" qəzetlərinin mətbəələrində mürəttib kimi çalışmışdır. 1912-ci ilə qədər "Kaspi" mətbəəsində mürəttibliyə davam edən Seyid Hüseyn daha sonra şərikli olaraq "Bəhlul" və "Kəlniyyət" jurnallarını nəşr etdirmiş, 1913–1914-ci illərdə isə "İqbal" qəzetinin baş redaktoru olmuşdur. O, 1915-ci ildən etibarən "Qurtuluş" jurnalının redaktoru olmuş, "Yeni iqbal" və "Açıq söz" qəzətləri ilə də əmkdaşlıq etmişdir.[1506] 1907-ci ildən etibarən onun qəzet və jurnallarda ədəbi-tənqidi məqalələr dərc olunmuş, Bakının ictimai həyatında, mədəni-maarif cəmiyyətlərinin fəaliyyətində yaxından iştirak etmişdir. O, 1910-cu illərdə də bir sıra hekayələr, eyni zamanda "Dərədən-təpədən" ümumi başlığı altında silsilə felyetonlar, elmə, maarifə, gənclərin təlim və tərbiyəsinə dair məqalələr qələmə almışdır.[1507]

Seyid Hüseyn başda olmaqla bir qrup gənc ədəbiyyatçılar 1911-ci ildə "Qafqaz Türk ədəbiyyatı cəmiyyəti" yaratmağa cəhd göstərsə də, onların bu niyyəti baş tutmamışdır.[1508] Ancaq bu uğursuzluğa görə ruhdan düşməyən Seyid Hüseyn 1910-cu illərdə Bakıdakı xeyriyyə cəmiyyətlərinin təşkilati işlərində çalışmışdır. Məsələn, Seyid Hüseyn "Səfa" maarif cəmiyyətinin katibi kimi fəaliyyət göstərmiş, 1912-ci ildə cəmiyyətin kimsəsiz uşaqlar üçün açdığı "Yetimlər məktəbi"ndə müəllimlik etmiş, cəmiyyət xətti ilə keçirilən teatr tamaşalarının təşkili ilə məşğul olmuşdur.[1509]

Cümhuriyyət dövründə "Azərbaycan", "İstiqlal" qəzetləri ilə əməkdaşlıq edən S.Hüseynin rəhbərliyi ilə 1919-cu ildə "Yaşıl

---

[1506] Hüseynzadə Aydın. Seyid Hüseyn. Bakı, Az. SSR Bilik Cəmiyyəti, 1978, s. 31
[1507] Talıbzadə Kamal. Sənətkarın şəxsiyyəti. Bakı, "Yazıçı", 1978, s. 195-196
[1508] "Həqiqəti-əfkar" qəzeti, 17 dekabr 1911-ci il, №1
[1509] Talıbzadə Kamal. Sənətkarın şəxsiyyəti. Bakı, "Yazıçı", 1978, s. 196-197

qələm” ədəbi dərnəyi yaradılmışdır. “Təsadüfi deyildir ki, S.Hüseynin inqilabdan əvvəl “Ədəb yurdu”, “Yaşıl qələm” dərnəklərinə rəhbərlik etməsi, onun bu sahədəki səmərəli fəaliyyəti “Azərbaycan sovet ədəbiyyatı” kitabında xüsusi qeyd olunmuşdur”.[1510]

O, 27 aprel işğalından sonra M.B.Məmmədzadənin rəhbərliyi ilə “Müsavat”ın Bakıda gizli fəaliyyət göstərən Mərkəzi Komitəsinin üzvü olmuşdur. “Müsavat”ın rəsmən özünü buraxması haqqında 1923-cü ilin avqustun 14-də “Bakinski Raboçi” qəzetində yayılmış bəyannaməsində Seyid Hüseynin də adı var idi.[1511] Bu hadisədən sonra müsavatçıların bir qismi (M.B.Məmmədzadə, H.Baykara, Ə. Məmmədzadə və b.) Vətəndən getməyə məcbur olduğu halda, digər qismi (Seyid Hüseyn, C.Cabbarlı və b.) Azərbaycanda yaşamağa davam etdilər. Seyid Hüseyn həmin hadisədən bir müddət sonra “Kommunist” qəzeti redaksiyasında ədəbi işçi kimi fəaliyyət göstərmiş, Bakının orta məktəb və texnikumlarında müəllimlik etməyə başlamışdır. Eyni zamanda, o, publisistik, tənqidi yazıları ilə mətbuatda müntəzəm çıxış etməklə yanaşı Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Cəfər Cabbarlı, Abdulla Şaiq haqqında məqalələr, xatirələr yazmışdır.[1512]

1934-cü ildən Azərbaycan SSR Yazıçılar Birliyinin üzvü olmuş, “Azərnəşr”in bədii ədəbiyyat şöbəsinin redaktoru kimi fəaliyyət göstərmişdir. 1936-cı ildə Yazıçılar Ittifaqının üzvlüyündən çıxarılıb, 1937-ci il iyulun 15-də Şüvəlandakı bağında həbs olunmuşdur. SSRİ Ali Hərbi Məhkəməsi tərəfindən Seyid Hüseynə verilən ölüm hökmü yanvarın 6-da 1938-ci ildə yerinə yetirilib.[1513]

Onun əsas əsərləri aşağıdakılardır: “Yatmış kəndin qış gecələrində”, “Gilan qızı”,“Yeni həyat yollarında”, “İki həyat arasında”, “Şirinnaz”, “Altun”, “Yalan”, “Gözəllik nədir?”, “Ağarılan dişlər”, “Dil ətrafında mütaliələr”, “Türk sözlər” və s.

---

[1510]Hüseynzadə Aydın. Seyid Hüseyn. Bakı, Az. SSR Bilik Cəmiyyəti, 1978, s. 28

[1511]Bünyadov Ziya. Qırmızı terror. Bakı, Azərnəşr, 1993, s. 41-42

[1512]Pənah Gülxani, Əhmədli Salatın. Azərbaycan ədəbiyyatı məsələləri (müasir ədəbi mühitə ümumi baxış). Bakı, “UniPrint”, 2014, s.65

[1513]Turan Anar. Seyid Hüseyn və Ümgülsüm Sadıqzadənin həyat dramı. Xalq qəzeti, 13 dekabr 2016-cı il.

**Milli maarifçilik və türkçülük görüşləri.** Seyid Hüseyn İslam aləminin, Türk-müsəlman xalqlarının pərişan vəziyyətdən çıxış yolunu təlim və tərbiyə, elm və mərifət kəsb etməkdə görmüşdür. Onun fikrincə, kim buna qarşı çıxırsa yalnız millətin deyil, İslamın da düşmənidir. Çünki din müsəlmanların cəhalət içində qalmasını deyil, əksinə maariflənməsinin tərəfdarıdır.Üstəlik, İslam dinində zəmanənin tələblərinə uyğun olaraq həmişə yeniləşmək ruhu vardır: "Bir dəfə bu bizə yəqin olmuşdur ki, yeni bir yaşayış dövrünə girməmiz lazımdır. Zira, indiki şərait daxlində yaşamaq qeyri mümkündür. Budur ki, təbii olaraq bizdə bir təcəddüd və intibah əsəri görünməyə başlamışdır". Bu anlamda 1905-ci il inqilabı illəri "Azərbaycan türkləri üçün bir intibah dövrü" olmuş, onun başında da Ə.Hüseynzadə və Ə.Ağaoğlu dayanmışdır.[1514]

S.Hüseynə görə millətin maariflənməsinə və savadlanmasına qarşı çıxanlar arasında ən ciddi təhlükə ruhanilər olmuşdur. O, yazırdı: "Şu islamiyyət hamiləri adlanan ruhani babalar isə müsəlmanların tərəqqisi yolunda heç bir zərrə səy yapmadıqları bir yana dursun, bu yolda çalışanları da cürbəcür adlar ilə camaatın nəzərində ləkələndirirlər. Bununla müsəlmanların avam və anlaqsız qalmalarına böyük bir xidmət etdilər"**.** Ona görə ruhanilər bu vaxtadək müsəlman ölkələrində, o cümlədən Qafqazda tərəqqi yolunda böyük bir əngəl olmuşlar. Belə ki, çağdaş ruhlu milli mütəfəkkirlər xalqı tərəqqiyə tərəf apardığı halda, yalançı ruhanilər geriyəpərstliklə məşğul olurlar. Halbuki din xadimləri müsəlmanların maarfilənməsi işində daha fəal iştirak etməlidirlər. Məsələn, məhərrəmlikdə İmam Hüseyni ağlamaq əvəzinə müsəlman qardaşlarının qayğısına qalmalı, onlara mənəvi və maddi baxımdan yardım etməli, bir sözlə milli işlərlə məşğul olmalıdırlar: "İmamı ağlamaqdan qabaq gərək şəxs özünü ağlasın, yəni öz milli işlərinə qarışsın. Axırda söhbət buraya əncam çəkildi ki, neçə illərdir hər ildə filan qədər tut, silə (hədiyyə - F.Ə.) kimi bimənfəət şeylərə xərc qoyulur, aya, bu xərc olunan pulları millət uğrunda qoysaq

---

[1514] Hüseyn Seyid. Ədəbi qeydlər // Məmmədov M. Azərbaycan ədəbi tənqidi. Müntəxabat. Bakı,"Tural-Ə" NPM, 2002, s.205

yaxşı olmazmı? - deyə bu məsələni müzakirə edib, axırda məhəllə rəisləri buna qərar qoydular ki, Şah məscidinin həyətində mövcüd olan məqbərəni üsuli-cədid üzrə bir ibtidai məktəb tərtib versinlər ki, məhələ uşaqları küçələrdə gəzməyib, ora təhsilə getsinlər… Budur bərat, budur şəbulğ olunmuş təziyə! Ümidvaram ki, hər ildə bir belə xeyir iş iqdam olunsun! Şah məscidinin bu növ təziyədarlığından qeyri təziyədarlar ibrət götürsünlər!”.

Milli intibahı gücləndirməyi yalnız dini deyil, milli birlik baxımından da vacib sayan S.Hüseynə görə millətin namusunu, mənliyini qorumaq müqəddəs vəzifədir: “Mən də özümü bu vəzifə ilə müəzzəf (borclu) bilirəm ki, istər qardaşım olsun, ümumiyyətə dəxi olan məsaid (işlər) barəsində sükut etməyim. Hər kəs rəncidə olursa olsun. Rədiyyə yazarsa cavabını alar, buna görə mən olunacaq hücumlardan heç ehtiyat etmirəm”. Bu mənada, onun yaradıcılığında milli mübarizlik ruhu özünü daha çox büruzə verirdi. O, yazılarında Quzey Azərbaycan türklərini məslək və məfkurəsində möhkəm olmağa, müstəmləkəçilikdən qurtulmağa səsləyirdi. Onun fikrincə, hər hansı millət qorxaqdırsa onun gələcəyi yoxdur və bir gün tarix səhnəsindən silinib gedəcəkdir: “Qorxaq bir millətin heç vaxt işi irəli getməz. Ya tərəfi müqabil və ya… qeyrinin iki kəlmə lağlağayi lisandan ibarət olan təhdidatından xof edib işindən qayıdar. Və ya rəis və sərkərdələri olan düşmənin quru bir vədeyi ümidinə yanılıb millətini və vətənini əcnəbinin dəst (çoxlu-çoxlu) təcavüzünə tapşırar, o vaxt həm özünü, həm də millətini məhv edər”.

Ümumiyyətlə, Seyid Hüseynə görə bir şəxsin və ya bir millətin cəsarət və mətanətinin olub-olmaması onun gələcəyini müəyyənləşdirir. Əgər bir millətdə mətanət və cəsarət yoxdursa, onun gələcəyə ümidi də olmayacaqdır. Belə millət və fərdlər isə gec-tez tarix səhnəsindən silinməyə məhkumdurlar. Bu mənada, o, Azərbaycan türklərinin mətanətli və cəsarətli millət olmasına inamını tam əminlliklə ifadə edirdi. Sadəcə, Seyid Hüseyn tövsiyə edirdi ki, ikiüzlü millətpərəstlərdən və ruhanilərdən uzaq olmaq lazımdır. Çünki onlar millətin cəsarətini və mətanətini məhv

etməyə çalışırlar. O, “Şikayət” adlı məqaləsində yazırdı: “Ey bizim sahiblərimiz, Allah xatirinə bizə yazığınız gəlib bizi minin də, əmma lap boynumuza oturmayınız. Bizə nəsihət edəndə iki min söyüş deyib, millət adı ilə növbənöv yalanlar satmayınız. Bizim zəhmətimiz ilə pul qazananda, ay “millət yolunda xərc edirik” deyib əfsanə yalanlar ilə başımızı tovlamayınız. Üstümüzə minəndə istər ağ köynkəli, istər ağ sarıqlı, istər çəkməli, istər nəleyinli, Tanrı xatirinə bizə dünya və axirət ilə guya tərbiyə verirsiniz deyə, çox bizləməyiniz”.

“Mühüm bir ehtiyacımız” məqaləsində o yazırdı ki, artıq geriyəpərəst deyil, irəlipərəst və millətpərəst olmaq lazımdır. Avropa millətləri, hətta Azərbaycan türklərinə qonşu millətlər tərəqqiyə üz tutduğu bir zamanda geriyəpərəstliklə məşğul olmaq bir millətin məhvi deməkdir. “Cəmiyyətlərimizin birləşdirilməsi” məqaləsində də o yazırdı ki, müsəlman-türk təşkilatlarının birgə hərəkət etmələri vcaibdir: “Zəmani ki, bu cəmiyyətlər müsəlman cəmiyyətidir, məqsədləri biri digərinə zidd deyil, bunlar edə bilərlər ki, cümləsi müttəfiq olub işləsinlər”.

Onun fikrincə milli birliyin yaranmasında milli şüurun formalaşması mühüm amildir. Ancaq Quzey Azərbaycandan uzaq düşən bəzi gənclər var ki, milli şüur məsələsində əziyyət çəkirlər. “Ağarılan dişlər” məqaləsində o, buna nümunə kimi ona yazılmış iki gəncin məktubundan bəhs etmişdir. Məsələn, Şuşada təhsil alan tələbə ona yazdığı məktubunda bir gün millətinin maariflənməsinə və ağ günə çıxmasına inamını ifadə etmişdir. Seyid Hüseyn yazırdı: “Bir gün iki məktub aldım. Birini Şuşa realnisini bu yıl bitirəcək bir mütəəllim; digərini Moskva politexnikumuna keçən sənə girmiş bir student göndərmişdi. Şuşalı mütəəllim yazdığı məktubunu bu cümlələrlə tamam ediyordu: “... Çoxdan bəri tulladığım ümid sitarəsi yenə qənşərimdəki qara dumanları yarıb parlamaq istiyor. Qarşımda bir işareyi-sual gibi duran şübhələr zail oluyor. “Bir gün gələr - bugünki şərər afitab olur”*(qığılcımın yerini işıq, nur tutar - F.Ə.)* həqiqətinə inanmağım gəliyor... əvət inanıyor və inanmaq da istiyorum. Lakin qorxuyorum ki, bu saat masamın arxasından bir

baş çıxıb, dişlərini bana ağartsın. Acı bir qəhqəhə izhar edərək desin: Çocuqsun, aldanıyorsun!!!

Bu məktub bəndə təsviri qeyri-qabil bir fərəh və bir təsir oyatdı. Bir mütəəllimin şu yolda məktub yazması, mühitini görərək istiqbalından bir növ tərəddüd və şübhədə bulunduğu, beləliklə el və millət qayğısı çəkdiyi bəni ciddən sevindirdi. Kəndi-kəndimə dedim: - Əvət, sevimli cocuq... aldanıyorsun... Lakin bu aldandığın, zənn etdiyin tərəfdən, bugünki şərərlərin (qığılcımların) yarın günəş gibi parlayacaqları ümidində yanlış olduğunda deyil, bəlkə masanın arxasından çıxacaq ağarılan dişlərin mövcud olduğundandır. Qorxma, kimsə ümidində yanıldığı sana söyləməyə və masanın arxasında girib gizlənməyə cəsarət etməz”.[1515]

Seyid Hüseyn yazırdı ki, Moskvada oxuyan tələbə isə türk dilini artıq bilmədiyi üçün ona rus dilində məktub yazılmasını istəmişdir. Bu səbəbdən kədərlənən Seyid Hüseyn, yazırdı: “Əvvəlki məktubdan hasil etdiyim nəşə bozuldu. Türk oğlu bir türkün, qafqazlı bir igidin, irəlidə günəş olacağına ümid bəslədiyimiz bir şərarın (qığılcımın) - bir studentin öz ana dilini utanıb qızarmadan bilmədiyini söyləməsi bəni ağrıtdı. Gördüm ki, şuşalı mütəəllim haqsız deyilmiş... Bu kərə bənim qulağımda acı qəhqəhələr cingildəməyə başaldı: - Aldanıyorsun!!!”.[1516]

Bu iki məktubun təsiri altında düşüncələrə dalan Seyid Hüseyn Türk xalqının istiqbalı ilə bağlı bəlli bir nəticəyə gəlməyə çalışmışdır. O, yazırdı: “Düşünüyor, həm də bu iki məktubun bəndə buraxdığı təsir altında düşünüyorum. Kəndi-kəndimə diyorum: doğurdanmı aldanıyoruz? Bu gün kəndilərinə bir şərər (qığılcım) nəzərlə baxdığımız çocuqlarımız və məktəblilərimiz yarın günəş olaraq üstümüzə çökən qara dumanları məhv edəcəkləri yerdə əcəba yanar od olaraq bizi və bizliyimizi yıxacaq, məhvmi edəcəklər? Buna inanmaq istəmiyor, ümidimi bəzi kiçik şeylərlə qüvvətləndirməyə çalışıram: aşağı sinif əhalimizin, yarımsavadlı gənclərimizin ictimai işlərə, milli məsələlərə olan

[1515] Hüseyn Seyid. Ağarılan dişlər. “Qardaş köməyi” jurnalı №2, 1917, s. 27-28
[1516] Hüseyn Seyid. Ağarılan dişlər. “Qardaş köməyi” jurnalı №2, 1917, s.28

səmimiyyətləri, ümumi fəlakətlərə qarşı öz qəpik-quruşlarından keçdikləri, hələ ibtidai şəhər məktəbi mütəallimlərindən birinin qəzetə idarəsinə öz sinif arkadaşlarından toplayıb göndərdiyi üç manat 74 qəpik bir ianə ilə yazdığı məktubu, on binlərlə toplanacağını zənn etdiyi ianələr arasında "bal arısı" gibi özlərinin iki qətrə bal misalında olan mühəqqər ianələrini görməklə mütəsəlli olduqlarını bildirmələri ümidimdə aldanmadığımı bana öz zəif səsilə bildirmək istiyordu. Lakin milli bir məsələ müzakirəsi üçün beş-altı doktor, dörd-beş dava vəkili və bir o qədər mühəndis və iki o qədər müəllim və ali təhsil görmüş cavan və ixtiyarlarımızın həp rusca danışmaları, (üzr bədtər əz günah qəblindən olaraq) türkcə ifadeyi-məram etməkdən aciz olduqlarını üzr gətirdikləri yenə bəni ümidsizliyə düşürdü. Şuşalı mütəallimin; masası arxasından çıxıb görüləcəyindən ehtiyat etdiyi "ağarmış diş"ləri bən bu kərə məzkur məclisin binası üzərində qəhrəmanənə bir vəziyyətdə dayanaraq qəhqəhələr etdiyini görməyə, "aldanıyorsunuz" sədasını eşitməyə başladım".[1517]

Bütün bunlara baxmayaraq, milli istiqbaldan ya da türkçülüyün gələcəyinin parlaqlığından yana ümidini itirmək istəməyən Seyid Hüseyn hesab edirdi ki, heç bir halda insan, o cümlədən Türk övladı ümidsiz olmamalıdır. O, yazırdı: "Küçələrdə dəstə ilə məktəbə gedən qızlarımızı görüb yenə seviniyoram. Hesab və təxmin etdikdə anlıyorum ki, yalnız Bakúdə istər məktəblərdə, istər xüsusi surətdə evlərdə oxutdurulan qız çocuqlarının sayı doqquz yüzə çatmaqdadır. Hələ bu yıl ətrafdan təhsil məqsədilə Bakúyə gəlib Hacı Zeynlabidin Tağıyevin Ünas (Qız) məktəbində yer bulunmadığından gözü yaşlı bir halda geri qayıtmağa məcbur olan qızların halı dolayısıyla nə qədər də ümidbəxşdir. Oxuyan çox, məktəblər azlıq ediyor. Təbii bu hallar bizim gələcəyimizi bizə təbşir ediyorlar. Artıq ağarılan dişlərdən qorxmayıram. Kəndi-kəndimə deyirəm. Heç bir şey bir halla qalmaz. Bu gün bizdə bir tərəfdən əcnəbiləşmək, öz dilini bilməmək "tərəqqi" ediyorsa, milli məktəblərimiz, əski mədərəsələrimiz məhv oluyorsa, digər tərəfdən

[1517] Hüseyn Seyid. Ağarılan dişlər. "Qardaş köməyi" jurnalı №2, 1917, s.28-29

də milliyyət məsələləri ortaya qonulur, qadınlarımız oxuyur. Onlar bizim ictimai işlərimizə qarşıyor, millət qayğısı ilə məşğul bulunuyorlar. Bizim milliyyətimizi, dilimizi oxumuş gözüaçıq, dünyadan xəbərsiz gələcəkdə analarımız olacaq qızlarımızı mühafizə edib qoruyacaqlar. Hələ onların cəmiyyətlər təşkil etmələri, fəqir və yoxsul qızların tərbiyələrinə çalışmaları ayrıca bəni fərəhləndiriyor. Götürüb şuşalı mütəəllimə yazmaq istiyorum ki, əzizim, vaqeən sən aldanıyorsun! Heç bir ağaran dişdən qoruxmamalı, heç bir şübhə ümidini qırmamalıdır. Xanımlarımız, bizim get-gedə millətindən və milliyyətindən uzaq düşən doktorlarımızı, advokat, mühəndislərimizi, müəllim və mürəbiyyələrimizi bundan sonra əcnəbləşməyə buraxmazlar”.[1518]

Seyid Hüseyn Azərbaycan türklərinin milli birliyinin əsas atributu kimi dil məsələsini mühüm hesab etmişdir. O, hər bir Türk xalqının milli dillərini inkişaf etdirməsinin tərəfdarı olmaqla yanaşı, eyni zamanda İstanbul türkcəsinin ortaq türk dili olmasını da tənqid etmişdir. Bu baxımdan o, 1910-cu illərin ortalarında Bakıda nəşr olunan jurnal-qəzetlərdə milli dil məsələsi ilə bağlı gedən müzakirələrdə fəal iştirak etmişdir. Xüsusilə də, o, “Şəlalə” jurnalının “İstanbul türkcəsini” önə çəkərək “Qafqasiya Türk şivəsi” adlandırdığı Azərbaycan türkcəsinə etinasız münasibətini doğru görməmişdir. O yazırdı ki, bu məqsəd ilə çalışanları Türk dili cəlladı deyil, Türk milləti və milliyyəti cəlladı demək daha doğrudur: “Bizim ərəb və fars lüğət və kəlmələrinə ehtiyacımız yox deyildir. Lakin türkcədə mövcud olan bir lüğət və bir kəlmə yerinə farsca, ərəbcə bir kəlmə (od yerinə ataş, il əvəzinə sənə, ağ yerinə bəyaz kimi) yazmağa nə şey bizi məcbur etsin?.. Doğrudur ki, biz kəndi dilimizin ədəbi bir dil olmasını və qaba ləfzlərdən ari bulunmasını istiyoruz. Bu istəyiş türk kəlməsi və tərkibi yerinə fars və ərəb kəlməsi və tərkibi qonulsun demək deyildir, yaxud Altun qələmin sözləri kimi heç kimin anlamayacağı bir tərzdə yazılmış cümlələr deyildir”.[1519]

---

[1518] Hüseyn Seyid. Ağarılan dişlər. “Qardaş köməyi” jurnalı №2, 1917, s.29

[1519] İqtibas aşağıdakı kitabdan götürülmüşdür: Talıbzadə Kamal. Sənətkarın

S.Hüseyn "Dil ətrafında mütalilələr" məqaləsində də Türk dilinin (Azərbaycan) osmanlılaşdırılmasına qarşı çıxmışdır. Onun fikrincə, osmanlı türkcəsini müdafiə edənlər Türk dili və ədəbiyyatı ilə tam tanış ola bilməyənlərdir. O, "Türk sözləri" məqaləsində də yazırdı ki, hər bir millətin dili onun varlığıdır. Bu mənada, Seyid Hüseyn Azərbaycan türklərinin dilini milli dil kimi qəbul edir, osmanlı türkcəsinin təbliğinə qarşı çıxırdı: "Deyirlər ki, türkcə (söhbət Azərbaycan Türk dilindən gedir – F.Ə.) yazmaq çətindir. Türk dili darısqal olduğundan... incə düşüncələri gərəyi kimi yazıb söyləmək olmaz. İlk baxışda bu dediyim bir az doğru kimi görünürsə də bir az da yanlışdır. Hər bir yazıçı çətinliyə düşməyə, düşünüb aramağa qatlaşarsa, öz düşüncəsini deyib söyləmək, yazıb bildirmək, düzüb qoşmaq üçün türkcə sözlər bula bilər. İndi mən təmiz türkcə yazmaq istəyirəm. Bu yazımda çalışacağam ki, türkcədən başqa özgə, yad və bizə yabançı dilərdən bacardıqca və gücüm çatdıqca sözlər almayım".[1520]

Kamal Talıbzadə yazırdı ki, Seyid Hüeynin Azərbaycan türkcəsinin təmizliyi, ədəbi dilin xalq dilinə yaxınlaşması uğrunda apardığı mübarizə və bu mövzuda yazdığı məqalələr deklarasiya olaraq qalmadı: "O, öz bədii yaradıcılığında olduğu kimi, ayrı-ayrı yazıçılar, bədii əsərlər haqqındakı məqalələrində də müntəzəm olaraq bədii dil normalarından bəhs etmişdir".[1521]

O, 27 aprel faciəsindən sonra türkçülük, istiqlalçılıq, cümhuriyyətçilik düşüncələri ilə bolşevizmdən uzaq durmuş, hətta bir müddət şəhər həyatını tərk edərək kəndə üz tutmuşdur. Sadıqzadə "28 aprel inqilabı"nı həzm edə bilmədiyi, hələ də 28 may istiqlalına sadiq qaldığı üçün bu addımı atmışdı. Seyid Hüseyn özü sonralar bunu belə izah etmişdir: "28 aprel revolyusiyası mənim üçün gözlənilməz bir hadisə deyildi. Ancaq mən Aprel revolyusiyasını birdən-birə qəbul edə bilmədim. İyirmi üçüncü ilə kimi tərəddüd etdim. Mən hələ revolyusiyanın birinci

şəxsiyyəti. Bakı, "Yazıçı", 1978, s. 250

[1520] Hüseyn Seyid. Türk sözləri, "El həyatı" jurnalı №2, 1918

[1521] Talıbzadə Kamal. Sənətkarın şəxsiyyəti. Bakı, "Yazıçı", 1978, s. 253

gürünlərindən "çarxların hücumu" hekayəmdəki Murad kimi Bakıdan qaçdım, uzaq bir kəndə çəkildim. Oktyabr inqilabını necə ki lazımdı anlamamışdım... İyirmi üçüncü ildəki XII partiya qurultayının... qərarları mənim gözümü açdı. İnsan dəyişə bilər. Bu, bir o qədər də sadə bir şey deyildir. Bu, çox mürəkkəbdir. Bir adamın həyat görüşünün dəyişməsi üçün müəyyən bir zaman lazımdır. Mənim də dəyişməm belə oldu. "Gələcək həyat yollarında" adlı hekayəm də mən bunu qeyd etmişəm".[1522]

Seyid Hüseyn "Gələcək həyat yollarında" adlı hekayəsində əsərin qəhrəmanının dilindən 27 aprel faciəsindən sonra keçən üç il müddət ərzində Bakıda baş verən dəyişikliklərdən, o cümlədən özünün dəyişməsindən də bəhs etmişdi. O, yazırdı: "Şəhərə qayıdırdıq, tramvayın pəncərəsindən ətrafa baxırdım. Bir tərəfdən Ağ və Qaraşəhərlərin dağıdılmış, uçurulmuş, alçaq, hisli, miskin əski binaları, onların qalıqları və xarabalıqları üzərində tiklib və tikilməkdə olan yeni yaşayış mənzilləri, yüksək bacaları tüstüləyən yeni zavodlar, əjdaha kimi ətrafında dəhşət saçmaqla yanıb gurlayan buxar qazanları, o biri tərəfdən, inşaat materialları və maşın hissələri daşıyan kiçik və böyük yük avtomobilləri gözümün önündən bir kino lentası kimi sürətlə keçərkən... Gördüklərim ilə düşündüklərim arasında sıxı bir rabitə və əlaqə bulunurdu. Ortada böyük bir dəyişiklik vardı. Hər şey dəyişmişdi və dəyişməkdə idi. Yalnız yaşayış mənzilləri, zavodların və istehsalat müəssisələrinin üsuli-idarələri deyil, bütün mühit, insanların həyat tərzi, ruhu, hətta əxlaq və təbiətləri, üzlərinin xətləri belə dəyişmiş və dəyişirdi... Bəli, hər bir şeydə dəyişiklik mövcud idi. Mən özüm də çox dəyimişdim. Üç il əvvəlki adam deyildim".[1523]

Bizcə, Seyid Hüseynin burada təsvir etdiyi ölkə həyatında, o cümlədən əsərin qəhrəmanında baş verən dəyişikliklər müəyyən qədər inandırıcı görünsə də, əsil mahiyyətdə bu, 27 aprel faciəsi ilə zorla "barışmaq" idi. Əslində isə o, heç bir zaman tutduğu

---

[1522] İqtibas aşağıdakı kitabdan götürülmüşdür: Hüseynzadə Aydın. Seyid Hüseyn. Bakı, Az. SSR Bilik Cəmiyyəti, 1978, s. 11

[1523] Hüseyn Seyid. Seçilmiş əsərləri, Bakı, "Şərq-Qərb", 2006, s.88

türkçülük, islamçılıq, istiqlalçılıq, azərbaycançılıq yolundan geri çəkilməmişdir. Başqa sözlə, Seyid Hüseynin mahiyyəti 27 aprel faciəsindən sonra da türklük, islamlıq, istiqlalçılıq və azərbaycançılıqla bağlı olmuşdur. Bizcə, onun şəhidlik zirvəsinə ucalmasında isə həmin ideyalara bağlılığı həlledici rol oynamışdır.

**Ədəbi-tənqidi və fəlsəfi görüşləri.** Seyid Hüseynin milli maarifçilik və ədəbi-tənqidi nəsri çağdaş Azərbaycan ədəbiyyatının ən parlaq səhifələrindən biridir. Seyid Hüseynin 1920-ci illərin sonundan, 1930-cu illərin birinci yarısınadək yazdığı ədəbi-tənqidi məqalələri, hekayələri o zaman oxucuların dillərində əzbər olmuşdur. Hekayə və publisistik məqalələrində mürtəce, gerilikçi ziyalıların əleyhinə çıxmış Azərbaycan Türk dilinin saflığı uğrunda mübarizə aparmış, Azərbaycan xalqının ədəbiyyatı və onun ədəbiyyat xadimləri haqda məqalələr, çağdaş həyatdan bəhs edən hekayələr yazmışdır.

Prof. Vaqif Sultanlı yazır ki, yaxın tarixi keçmişdə ədəbi tənqidin ədəbiyyatın inkişafındakı müstəsna rolunu Mirzə Fətəli Axundzadə ətraflı səciyyələndirmiş, bu yolun davamçılarından biri də Seyid Hüseyn olmuşdur: “Daha sonra Həsən bəy Zərdabi, Firidun bəy Köçərli, Seyid Hüseyn, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Yusif Vəzir Çəmənzəminli, Üzeyir Hacıbəyli və başqa müəlliflər tənqidin ədəbi-bədii düşüncədə yerini, önəmini fərqli aspektdə dəyərləndirmiş, habelə tənqidin tənqidi istiqamətində əsərlər yazmışlar”. [1524] V.Sultanlıya görə xüsusilə də, XX əsrin əvvəllərində Azərbaycan ədəbi tənqidində Seyid Hüseyn, Firidun bəy Köçərli, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə və başqa müəlliflərin resenziyaları janrın ilk örnəkləri kimi dəyərləndirilə bilər. Onun fikrincə, sonrakı illərdə isə Mehdi Hüseyn, Mirzə İbrahimov, Əkbər Ağayev, Yaşar Qarayev, Bəkir Nəbiyev, Təhsin Mütəllimov və başqa müəlliflərin resenziya janrında yazdığı əsərlər elmi-nəzəri səviyyəsi ilə seçilir.[1525]

[1524] Sultanlı Vaqif. Azərbaycan ədəbi tənqidi. Bakı, “Nurlar” nəşriyyatı, 2019, s.6
[1525]Yenə orada, s.38

Qeyd edək ki, milli maarifçilikdən çıxış edən Seyid Hüseyn "sənət sənət üçündür" devizini nə tamamilə qəbul, nə də rədd etməmişdir. S.Hüseynə görə, sənətə hörmət etməklə yanaşı, avam, cahil xalqı maarifləndirmək də lazımdır. Yəni sənət əsərləri bəşəriyyətə yalnız sənətin incəliklərini deyil, bununla bərabər həyatı da təlim etməlidir. O, yazırdı: ""Sənət sənət üçündür" - deyə, ədəbiyyatda bir nəzəriyyə var... Bununla bərabər, ikinci nəzəriyyə dəxi vardır. Bu nəzəriyyəyə görə, "sənət yalnız sənət üçün deyil, bəlkə həyat üçündür. Yəni sənətkaranə yazlan əsəri-sənətlər bəşəriyyətə yalnız sənətin incəliklərini deyil, bəlkə, bununla bərabər, həyatı da təlim etməlidirlər"".[1526]

Seyid Hüseynin ədəbi-tənqidi görüşlərini şərh edərkən belə bir fikri vurğulamaq lazımdır ki, o, sənətdə realizm tərəfdarı idi. Onun realizm metodu və prinsipləri ilə bağlı mülahizələri yetərincə əsaslandırılmasa da, amma ilkin halda, hələ nəzəri fikrin tam formalaşmadığı bir dövrdə bu mülahizələr maraq doğururdu. S.Hüseyn yazırdı ki hər şeyi olduğu kimi kopiya edən naturalizmin əksinə olaraq həqiqiyyun-realist ədəbiyyat yazıçının daxili aləmini, hadisələrə münasibətini göstərmək üçün də imkan verir. Bir müəllif bir hadisəni, bir tarixi özünə mövzu qərar verər, orada öz fikrini, öz ruhunu irəli çəkər, özündən oraya bir çox şeylər əlavə edərək onu sənətkaranə bir hala qoya bilər. O, yazırdı: "Biz haçana qədər tənqiddən qorxacağız? Tənqidsiz ədəbiyyat ormanlarda bitən yabanı ağac misalında olar ki, onda gözəl, nəzərə xoş görünən bir meyvə bulmaq olmaz. Bir az açıq danışmaq lazım gələrsə, cəsarət edib demək olar ki, tənqidsiz yazı və mətbuat tərbiyəsiz və bu tərbiyəsizlikdən dolayı əxlaqsız çocuqlar kimi olar ki, hər qisim nəzakətsizlkdən və akadaşlarına qarşı föhş deməkdən çəkinməz".[1527]

Vaqif Yusifli hesab edir ki, Seyid Hüseyn bütövlükdə hər cür naturalizmin, çılpaq həyat səhnələrinin təsvir edilməsinin əleyhinə idi: "O, fransız yazıçısı Emil Zolyanı bir qüdrətli sənətkar kimi

[1526]Hüseyn Seyid. Zülmün səmərəsi // Məmmədov M. Azərbaycan ədəbi tənqidi. Müntəxabat. Bakı,"Tural-Ə" NPM, 2002, s.201

[1527]Hüseyn Seyid. Tənqid. "Qurtuluş" jurnalı, 16 oktyabr 1915-ci il, №2

qiymətləndirirdi, onun realist mövqeyini müasir yazarlara nümunə göstərirdi, amma naturalist təsvirlərini nöqsan hesab edirdi. Tarixi hadisələri kopiyalamağı da qüsurlu sanır, yazıçılardan fotoqrafçılığa enməməyi tələb edirdi. Maraqlıdır ki, o, gənc Cəfər Cabbarlının "Ədirnə fəthi" və "Bakı müharibəsi" pyeslərini də bəyənməmiş, onları naturalist əsərlər adlandırmışdı, S.Hüseynin fikrincə, Cabbarlı istedadlı dramaturqdur, amma bu iki əsərdə tarixi hadisələri üzdən təsvir edib".[1528]

Seyid Hüseyn də bir tənqidçi kimi çalışmışdır, hər bir əsəri düzgün və layiqincə qiymətini versin. O, hər zaman tənqidə və tənqidçiyə ehtiyac olduğunu yazırdı: "Tənqidə bu qədər ehtiyac olduğu halda təəssüflər olsun ki, bu vaxtadək bu xüsusda bizdə əhəmiyyət verilməmişdir. Budur ki, nə müəlliflərimiz hansı yol ilə yazacaqlarını bilirlər, nə də şairlərimiz nə kimi əsərlərin camaata mənfəət verəcəyini tanıyırlar. Bizdə tənqidçi yoxluğundandır ki, təb və nəşr edilən kitablarımızın içində bir çox əxlaqpozan və heç bir məziyyəti olmayan kitabçalar təsadüf edilir. Yenə tənqidçi yoxluğundandır ki, "Osmanlı hökumətini qüdrətli günləri" kimi kitablarda türklərin tarixi gülünc surətdə meydana qoyulub. "Aşçı başının əli altında xidmət edən oğlanlar küçəyə çıxdıqca onun-bunun sataşmasından qorxub arvad kimi üzlərini örtərdilər: və yaxud "Soltanın sarayında xidmət edən xristian uşaqlarının əndamı tər kimi gözəl olması şərt idi" və s. kimi sözlər insanın ruhunu zəhərləməkdədir. Halbuki, bunların qabağına sədd çəkib ədəbsizlərə ədəb öyrətməlidirlər".[1529]

S.Hüseynin fikrincə, tənqid həm yazıçılar, həm də oxucular üçündür. O, yazırdı: "Mətbuatımızı salamat bir cığıra salıb, onu camaatımızdan ötəri bir əxlaq və bilik məktəbi halına qoymaq üçün lazımdır ki, təbdən çıxan hər risalə və kitabçaya baxılıb, o barədə qəzet sütunlarında bəyani-mütaliə edilsin, onun pis və yaxşı tərəfləri yazılıb göstərilsin. Bununla həm oxucular hansı kitabın

---

[1528]Vaqif Yusifli. Ədəbi tənqiddə Seyid Hüseyn nümunəsi (2-ci yazı). 525-ci qezet /2017/ 01 fevral.

[1529]Hüseyn Seyid. Bir mütaliə. "Son xəbər"qəzeti, 1 avqust 1915-ci il, №13

alınıb oxunması lazım olduğunu bilər və həm də müəllif və yazıçılar nə yolda yazmağı düşünməklə özlərinə ədəbi bir məslək ittixaz edərlər”.[1530]

Ümumiyyətlə, Seyid Hüseynin tənqidçi qələminin yüksək qiymətini C.Məmmədquluzadə, M.Ə.Sabir, Y.V.Çəmənzəminli, Ə.Haqverdiyev, N.Nərimanov, S.M.Qənizadə, M.S.Ordubadi yaradıcılığına münasibətdə də aydın görmək olar. Seyid Hüseynin ən çox sevdiyi sənətkarlar sırasında heç şübhəsiz, Mirzə Ələkbər Sabir birinci idi. Sabirin ölümündən səkkiz il sonra ona həsr etdiyi bir məqaləsində böyük vətənpərvərlik hissi ilə o, yazırdı: “M.Ə.Sabirin qiymətini indiyə kimi bizim millət bilməyib. Əgər belə şair özgə millətdə olsaydı, ona heykəl qoyardılar, onun əsərləri min-min tirajlarla nəşr olunardı, onu hər bir əcnəbi dilə tərcümə edərdilər, hər il ona yadigar axşamlar, müsamirələr edərdilər, onun adını ucaldardılar, vird edərdilər. Qonşu və əcnəbi millətlərə göstərərdilər ki, onların da milləti dahilər yaratmağa qabildir. Bizim ən böyük milli eyiblərimizdən biri budur ki, biz öz şairlərimizi, ədiblərimizi, millətsevərlərimizi qiymətləndirə bilmirik, onlara laübalı, bəzən mərhəmətsiz baxırıq. Geniş intişara layiq olan M.Ə.Sabirin kitabı heç bir yerdə tapılmır. Qoqol hər bir rusun sevimlisi olduğu kimi, indi Sabir də hər azərbaycanlının sevimlisidir”.[1531] O, daha sonra yazırdı ki, Sabirin məziyyətlərindən biri, bəlkə başlıcası yaratdığı tiplərin ruhuna girməkdir. Sabir bu yol ilə qəhrəmanlarını öz dilləri ilə, öz xasiyyətləri və təbiətləri ilə danışdırır.[1532]

O, Cəlil Məmmədquluzadənin “Ölülər” komediyasının ilk tamaşası ətrafında gedən müzakirələrdə iştirak etmiş, əsərə öz layiqli qiymətini vermişdir. Seyid Hüseyn əvvəlcə “Ölülər” haqqında təəssürat”, sonra isə “Ölülər” və onun tənqidləri haqqında

---

[1530]Hüseyn Seyid. Əcəmlik dövrü və onunla mübarizə. “İqbal”qəzeti, 3 noyabr 1913-cü il, №489

[1531] Hüseyn Seyid. Ədəbi qeydlər // Məmmədov M. Azərbaycan ədəbi tənqidi. Müntəxabat. Bakı,“Tural-Ə” NPM, 2002, s.206

[1532]Yenə orada, s.207

bir mütaliə" adlı məqalələrini dərc etdirərək, bu əsəri "ədəbiyyatımızda inqilab törədə biləcək məziyyətdə" olan bir əsər kimi dəyərləndirmişdir. Bu baxımdan S.Hüseynə görə həmin əsər yalnız N.V.Qoqolun "Müfəttiş"i deyil, Viktor Hüqonun "Səfillər"i ilə də müqayisə edilə bilər. Onun fikrincə, yalnız bu kimi əsərlərlə cəhalət içində olan müsəlmanları oyatmaq mümkündür. S.Hüseyn yazırdı: "Bilirəm, bir çox möhtərəm ağalar Mirzə Cəlilin "Ölülər"ini Qoqulun "Revizor"da kefli İskəndər kimi bir qüvvə yoxdur ki, "elm oxuyun, alim olun deyib", "adam olun" deməyənlərə, doqquz yaşında ərə gedən qızlara, qardaşının, ata və anasının dirilməsindən ötrü fikirləşməyə gələnlərə, dirildikdən sonra evlərinə, yurdlarına qayıtmaq istərkən qapısı üzünə açılmayan ölülərə gülsün, doqquz yaşında nazlılarını şeyx nəsrullahlara məcburən arvad etmək istəyən atalarının üzünə tüpürməklə ağlasın və ağlatsın. Mən deyirəm ki, bir əsr bundan əvvəl Fransa əhvali-ictimaiyyəsində "Səfillər" nə isə Viktor Hüqonun ac və səfil arvad uşaqları və küçələrdə yaşayan sahibsiz "külxanbəyi"ləri bəşər cəmiyyətinə və fransız əfkarına necə təsir bağışlamışsa, bizdə də "Ölülər" o; və onun doqquz yaşlı nazlıları həyati-nisvanimizdə həmən təsiri bağışlayacaq, ruhlarımız üzərinə qüvvətli bir təsir olmaqla yazıq, fəqir, çoluq-cocuq əlində qalan səhnəmizdə rusların "Revizor"u qədər ölməz bir mövqe tutacaqdır".[1533] O, əsərin qiymətini düzgün anlayıb verə bilməyənlərə cavab olaraq yazırdı: "Ölülər" faciəsinin ruhu Şeyx Nəsrullahın hiylələrində deyil, onun hiyləsi qurbanı olan doqquz yaşlı nazlıların ailədəki və həyatı-ictimaiyyətimizdəki mövqelərindəndir".[1534]

Seyid Hüseynə görə realist tənqidçilərdən fərqli olaraq romantik mühərrirlər heç bir qanuna tabe olmaq istəməzlər və öz düşüncə, mühakimələrində sərbəstdirlər: "Onlar hər şeydə gözəlliyi görürlər və bu yolda hissiyyati-şədidəyə namütənahi bir surətdə qapılırlar. Hələ bəziləri tarixi simalara istədikləri təbiət və xasiyyətləri vermək, tarixin xilafına hərəkət etdirib söz söylətdir-

[1533] Hüseyn Seyid. "Ölülər" haqqında təəssürat. "Açıq söz" qəz., 1 may 1916, №173
[1534] Yenə orada

mək səlahiyyətinə də malik bulunurlar. Kimsə onları məsələlərindən dolayı tənqid etməz. Romantiklər həyatı istədikləri təcəllidə görmək istəyirlər, onu bir takım rəngarəng əlbisələr ilə süslərlər, bu, onların təbiətləridir”.[1535] K.Talıbzadəyə görə S.Hüseynin bu tərifində romantizmə məxsus bir çox xüsusiyyətlər doğru müəyyənləşdirilmişdir: “O, romantikin təbiətindəki həssaslığı, onun gələcək haqqında arzular bəsləməsini, bilavasitə həyatın özünü yox, ondan doğan xəyalları, fantaziyanı təsvir etməsini görə bilmişdir. Tənqidçinin romantiklərin təbiəti haqqında söylədiyi mülahizələrdə də həqiqət az deyildir. Romantiklərin “öz düşüncə və mühakimələrində sərbəst” olmaları, “tarixi hadisələri, həyatı istədikləri təcəllidə” göstərmələri haqqındakı fikirlər etiraz doğurmur”.[1536]

Seyid Hüseynin yaradıcılığında Azərbaycan romantizminin nümayəndələrindən M.Hadinin, A.Səhhətin, A.Şaiqin və başqalarının dünyagörüşlərinin təhlili, tənqidi mühüm yer tutmuşdur.

Ədəbiyyat tarixində istedadlı bir ədəbiyyatşünas tənqidçi və publisist kimi tanınılan Seyid Hüseyn Azərbaycan ədəbiyyatı, teatrı, dili və mətbuatının inkişafında mühüm xidmətləri olmuşdur. Mətbuat səhifələrində dərc olunan “Ədəbiyyata bir nəzər”, “Sabir və N.Vəzirov haqqında”, “Mətbuatımıza bir nəzər”, Abdulla bəy Divanbəyoğlunun “Can yanğısı”, M.C.Ordubadinin “Bədbəxt milyonçu, yaxud Rzaqulu xan Firənqiməab”, Ə.Haqverdiyevin “Şeyx Şaban”, Firidun bəy Köçərlinin “Balalara hədiyyə”, C.Cabbarlının “Ədirnə fəthi” əsərləri haqqında yazdığı tənqidi məqalələr ədəbiyyatşünaslığın inkişafında mühüm yer tapmışdır.

Seyid Hüseyn Azərbaycan ədəbiyyatında roman janrının olmamasından, həyat hadisələrinin geniş planda əks etdirən epik əsərlərin azlığından şikayətlənirdi. Tənqidçinin fikrincə, romanın “Təhzibi-əxlaqa” rolu böyükdür. Hər bir insanın öz nöqsanlarını görmək üçün roman əlverişli vasitədir. Romanda həyat hadisələri geniş şəkildə, canlı bədii lövhələr vasitəsilə təsvir olunur. Bu

[1535]Hüseyn Seyid. Taxsır kimdədir? “El həyatı”jurnalı, 14 yanvar 1918-ci il, №1

[1536]Talıbzadə Kamal. Azərbaycan ədəbi tənqidinin tarixi (1800-1920-ci illər). Bakı, “Şərq-Qərb”, 2015, s.161

baxımdan Azərbaycan ədəbiyyatının keşiyində sərvaxt dayanan, öz xalqının ədəbi-bədii fikrinin hər cəhətdən inkişafına çalışan Seyid Hüseynin tənqidçilik fəaliyyəti geniş və əhatəlidir.[1537] O, romanın ədəbiyyatımız üçün gərəkliliyini belə izah edirdi: "Romançılıq ədəbiyyat aləmində bir sənətdir. Bizim ədəbiyyatımız sair müsəlman olan millətlər ilə bərabər şeir babində çox irəliləmişdir... Nəsr babində qeyrilərə nisbət geridə qaldığından romançılıq sənəti bizdə bir halətdədir. Halbuki, romanın təhzibi-əxlaq üçün əhəmiyyəti çoxdur. Bu cür fikri söyləmək üçün romandan gözəl bir alət olmaz. Roman vasitəsilə bir millətin həqiqət kimi qəbul etdiyi nöqsanlarını elə tənqid etmək olar ki, oxucu onu şirin oxumaqla, öz nöqsanlarını düşünə bilər".[1538]

Seyid Hüseyn Azərbaycan romanının ilk mərhələsində yaranan bu kiçik romanların bir çoxuna məqalələr həsr etmiş, o əsərlərin məziyyətləri və qüsurları barədə fikrini çəkinmədən söyləmişdir. O dövrün ədəbi həqiqəti bu idi ki, romanda gərək həyat, təsvir edilən hadisələr və obrazlar reallığı əks etdirsin. S.Hüseyn M.S.Ordubadinin "Bədbəxt milyonçu" əsərini "bütün həqiqətləri ilə bir roman" adlandırırdı. Romanın əsas konfliktini "İran" istibdadı ilə demokratik qüvvələr arasında münaqişədə görürdü. Təsvir edilən müsbət obrazların hərəkətlərini təqdir edən tənqidçi, onların yaşadığı mühitdə maarifçiliyi təbliğ etmələri, lakin həm ailə, həm də ictimai mühitdə bədbəxtliyə düçar olmalarını faciə hesab edirdi. Amma əsas odur ki, bu romanla Ordubadi artıq realist bir sənətkar kimi inkişaf edirdi. S.Hüseyn yazırdı: "Hər kəs bir əsəri oxuduqda o, əsər barəsində onda bir təəssürat olar. Bu təbii bir şeydir. Hər nə qədər yazdığımız mütaliəyə "intiqad" adı ilə verilmişsə, iqrar edirik ki,

---

[1537] Abidqızı Göyərçin. Seyid Hüseyninn ədəbi-tənqidi fəaliyyəti. "Ədalət" qəz., 22 noyabr 2017-ci il, s.7.

[1538] Hüseyn Seyid. "Can yanğısı" // Məmmədov M. Azərbaycan ədəbi tənqidi. Müntəxabat. Bakı,"Tural-Ə" NPM, 2002, s.175

"yazdıqlarımız tənqidçilik nöqteyi-nəzərindən olmayıb "Bədbəxt milyonçu"nun bizdə buraxdığı təsirin nəticəsidir".[1539]

Kamal Talıbzadə yazırdı: "Seyid Hüseyn də "Bədbəxt milyonçu" romanının əhəmiyyətini, hər şeydən əvvəl, onun toxunduğu məsələdə, ideyasında görürdü. Tənqidçi yazır ki, ədib qarşısına romanın müqəddiməsində qeyd etdiyi kimi, Nəsrəddin və Müzəfərrəddin şahların dövründəki istibdadın "İrana nə kimi fəna təsir bəxş etməsini" canlandırmaq məqsədini qoymuşdur. Lakin bu məsələlər əsərdə, təəssüf ki, kifayət qədər öz həllini tapa bilməmişdir. Müəllif Rzaqulu xanın və Böyükxanımın ailə faciəsi kimi ikinci dərəcəli məsələlərlə daha çox məşğul olmuş, buna görə İranın daxili ictimai və siyasi həyatına kifayət qədər diqqət yetirə bilməmişdir".[1540] Ən sonda o, roman haqqında belə bir nəticəyə gəlmişdir: "Ümumən "Bədbəxt milyonçu" barəsində demək olar ki, məzmunu olduqca gözəl bir roman olduğu halda, özü, yəni yazılışı bir o qədər ustadanə yazılmamışdır. Yəni müəllif cənabları bunu əgər istəsəydilər, daha gözəl və əsaslı surətdə yazardılar ki, onun olacağı və nəvaqisat (nöqsanlar) yek nəzərdə gözə çarpmazdı".[1541]

Təyyar Salamoğluna görə Seyid Hüseynin bu cür məqalələri ədəbi tənqidin qarşısında duran tələblərə cavab verirdi. Çünki onun yazılarında ədəbi prosesin məhsulu olan hər bir əsərə yazıçının yaradıcılıq yolunun inkişafı, milli və dünya ədəbiyyatının tarixi və çağdaş mənzərələri kontekstlərində dəyər vermək cəhdi öndə idi. Seyid Hüseyn hər bir əsərə aid olduğu janrın tarixi yaddaşı zəminində təhlil obyektinə çevirməyi bacarır, onları dünya ədəbiyyatı nümunələri ilə müqayisə müstəvisinə gətirə bilirdi".[1542]

S.Hüseynin bəyəndiyi romanlardan biri də Abdulla bəy Divanbəyoğlunun "Can yanğısı" əsəri idi. Bu əsəri o, dilinin

[1539]Hüseyn Seyid. "Bədbəxt milyonçu" və yaxud Rzaqulu Firəngiməab // Məmmədov M. Azərbaycan ədəbi tənqidi. Müntəxabat. Bakı,"Tural-Ə" NPM, 2002, s.183

[1540]Talıbzadə Kamal. Sənətkarın şəxsiyyəti. Bakı, "Yazıçı", 1978, s. 207

[1541]Hüseyn Seyid. "Bədbəxt milyonçu" və yaxud Rzaqulu Firəngiməab // Məmmədov M. Azərbaycan ədəbi tənqidi. Müntəxabat. Bakı,"Tural-Ə" NPM, 2002, s.186-187

[1542]Salamoğlu Təyyar. Seyid Hüseyn tənqidi XX əsrin əvvəllərində. "Kredo" qəzeti, 04 dekabr 2019-cu il, s. 5

təmizliyinə, səlisliyinə, obrazların təbii surətdə təsvir edilməsinə görə bəyənirdi: "Birinci olaraq möhtərəm A.Divanbəyoğlu tərəfindən qələmə alınıb, İsabəy Aşurbəy tərəfindən nəşr edilən "Can yanğısı" arvadlarımızın hallarında bir nümunə göstərmişdir, "Can yanğısı" Qafqazın köçəri məişətini təsvir edən hekayədir. Bu hekayə Ruqiyyə adlı bir qafqazlı arvadın çəkdiyi zəhmət və müsibəti göstərir".[1543] Bu dövr üçün adi hal idi. Hər bir qadın bu zülmləri görərək yaşayır, səslərin belə çıxarmağa haqları yox idi. Seyid Hüseyn "Can yanğısı" əsərinin "bir taqım səhvlərə təsadüf edildiyini" yazır. Əsərin dili, yazılış qaydasını tənqidçi səhv olduğunu, bu da Qafqaz şivəsindən irəli gəldiyini açıqlayırdı.

Ancaq elə romanlar vardı ki, Seyid Hüseyn haqlı olaraq onları kəskin tənqid atəşinə tuturdu. Məsələn, Bağır Cabbarzadə adlı bir müəllifin "Bir yetimin naləsi, yaxud qardaş qardaşa etdiyi xəyanət", Rza Zaki adlı başqa bir müəllifin "Fədai-eşq" romanlarını o, saxta, süni, qurama yol ilə yazıldığını, bundan oxucuların zövqünün korlanacağını söyləyirdi.[1544]

Seyid Hüseyn "Zülmün səmərəsi" məqaləsində isə Səkinə Axundovayla Əbdürrəhim bəy Haqvediyevi tənqid etmişdir. Ona görə Səkinə Axundovanın Avropa ədəbiyyatından tərcümə etdiyi "Lakme" faciəsi əsərinin səhnələşdirilməsi və təbliği doğru deyldir. Çünki tərcüməçinin müraciət etdiyi əsər Avropa tərəfdarlığı ruhunda yazılmış, faciədə şərqlilərin mənəviyyatı alçaldılmış, onlar hiyləgər kimi təsvir edilmişdir. Seyid Hüseyn hesab edirdi ki, həmin əsər o zaman üçün Avropada dövriyyədə olan yanlış bir dünyagörüşünün ifadəsi kimi yaranmışdır: "...Ümum müsəlmanlar mədəniyyət aləminin mikrobları imiş. Bəşəriyyətin sağlam olması üçün də mikrobların qırılıb tələf olması lazım imiş".[1545] Seyid Hüseyn yazırdı ki, sənətkarlıq baxımdan "Lakme faciəsi" təqdir edilsə də, ancaq milli mahiyyət baxımından qəbul edilməzdir. O,

---

1543 Hüseyn Seyid. "Can yanğısı" // Məmmədov M. Azərbaycan ədəbi tənqidi. Müntəxabat. Bakı,"Tural-Ə" NPM, 2002, s.176

1544 Hüseyn Seyid. İzah. "İqbal"qəzeti, 3 sentyabr 1914-cü il, №725

1545Hüseyn Seyid. "Zülmün səmərəsi" // Məmmədov M. Azərbaycan ədəbi tənqidi. Müntəxabat. Bakı,"Tural-Ə" NPM, 2002, s.203

yazırdı: "Sənətkarlıq nöqteyi-nəzərindən "Zülmün səmərəsi" təqdir edilə bilər. Lakin mənliyimiz orada təhqir edilir... "Zülmün səmərəsi"nin mövzusu itiqbas edilmişdir. İqtibas edildikdə müəllifi onu istədiyi kimi təğyir və təbdil edə bilərdi... Zira böyləliklə əsər bir tərəfli olur. Şəxslər asiyalı və müsəlman olduqları səbəbilə vəhşi, hiyləgər, xain rüşvətxor, avropalı və xristian olduqlarından adil, sədaqətli, cəsur və məzlum göstərilir".[1546]

Eyni zamanda, o, Əbdürrəhim bəy Haqverdiyevin tərcümə etdiyi "Soltan Osman" əsərini tənqid etmişdir. Seyid Hüseyn yazırdı: "Vaxtilə möhtərəm Ə.Haqverdiyev cənabları tərəfindən tərcümə edilib dəfələrlə mövqeyi-tamaşaya qoyulan "Soltan Osman" faciəsi də bu kimi bir əsərdir. Orada da Soltan Osman və əyanının vəhşi, zalım, şöhrətpərəst, hiyləgər, rüşvətxor və avropalıların məzlum və bununla bərabər, cəsur və qəhrəman olduqları göstərilir".[1547] Ona görə bu əsərdə türklər və avropalılar, Şərq dünyası və Avropa dünyası kontekstinə çıxarılıb, Türk və Şərq dünyası haqqında mənfi, Avropa dünyası və avropalı xarakteri haqqında müsbət xarakteristika formalaşdırılır. O, türkçülüyə, müsəlmançılığa qarşı yönəlmiş Avropanın, Qərbin ikiüzlü siyasətini, diplomatiyasını göstərməyə çalışmışdır: "Məlum ki, bu kimi əsərləri, avropalı mühərrirlər öz millət və hökumətlərinin yürütdüyü siyasəti-iqtizası olaraq yaza bilərlər. Lakin türk mütərcimləri bunları tərcümə etdikdə bir qədər ehtiyatlı olmalı idilər".[1548]

Kamal Talıbzadə Seyid Hüseynin ədəbi görüşlərinin əsas prinsiplərini müəyyənləşdirərkən, haqlı olaraq onun sənətin həyatla əlaqəsinə, münasibəti məsələsini ön plana çəkir. Onun fikrincə, bunsuz tənqidçinin ayrı-ayrı ədəbi hadisələrə münasibətini aydın təssəvvür etmək çətindir. K.Talıbzadə yazırdı ki, əgər Firidun bəy Köçərli Azərbaycan realizminin M.F.Axundov dövrünü əsas götürüb, bu ədəbi məktəbin Azərbaycanda tarixi mövqeyini işıqlandırmaqla məşğul olurdusa, Seyid Hüseyn bütün diqqətini

---

[1546] Yenə orada, s.204
[1547] Yenə orada, s.203
[1548] Yenə orada, s.203

müasir ədəbiyyat məsələlərinə verir, onu realizm prinsipləri nöqteyi-nəzərindən saf-çürük edir, realizm məktəbinin yeni nəsli haqqında, çap olunan, tamaşaya qoyulan əsərlər haqqında ardı-arası kəsilmədən məqalələr yazırdı: "Seyid Hüseynin ədəbi görüşlərində tənqidin faydası, vəzifələri və predmeti haqqında mülahizələr xüsusi yer tutur. O, XX əsrdə bu haqda ən çox yazan, ədəbi tənqidi ictimai həyatınmühüm bir sahəsi kimi ən çox təbliğ edən tənqidçidir. Əgər XIX əsrdə ədəbi tənqid ilə ən çox məşğul olub onun vəzifələrini müəyyən edən M.F.Axundov idisə, yeni əsrdə bu işi, əsasən S.Hüseyn görmüşdür. Bu cəhətdən o, XX əsr ədəbi tənqidinin görkəmli siması F.b.Köçərlidən də fərqlənməkdədir. Seyid Hüseyn göstərirdi ki, yeni əsrdə, kəskin fikir mülahizələri getdiyi bir zamanda, mətbuatın, ədəbiyyatın geniş bir miqyas aldığı dövrdə ədəbi tənqidsiz keçinmək çətindir, hətta qeyri-mümkündür. Fikirləri doğrultmaq, ictimai zövqü tərbiyə etmək, ədəbiyyatı doğru yola istiqamətləndirmək, yaxşı ilə pisi bir-birindən ayırmaq üçün ədəbi tənqid ən qüdrətli vasitədir".[1549]

XX əsr Azərbaycan tənqidinin Firidun bəy Köçərli, Seyid Hüseyn, Abdulla Sur kimi görkəmli nümayəndələrinin ədəbi-tənqidi proses fonunda, nəzəri-estetik fikrin tarixi təkamülü kontekstində tədqiq olunması diqqəti cəlb edən cəhətlərdən idi. Bu cəhət Əhməd Cəfəroğlunun da nəzərindən yayınmamış, Kamal Talıbzadənin "Azərbaycan ədəbi tənqidinin tarixi" əsərində Seyid Hüseynə müstəqil yer ayırmasına xüsusi dəyər vermişdi.[1550]

**Beləliklə,** deyə bilərik ki, Seyid Hüseynin yaradıcılığında türklük, türkçülük mühüm yer tutmuş, onun dünyagörüşünün əsas mahiyyətini təşkil etmişdir. Türklüyün, türkçülüyün ümumi və lokal mahiyyətini dərindən anlayan Seyid Hüseyn Türk xalqlarının gələcəyinə optimist yanaşmış, heç bir zaman ümidsizliyə qapılmamışdır. O, Türk dövlətlərinin tənəzzülü, Türk xalqlarının çarəsiz qaldığı dövrdə belə, öz təmkinini qoruyub saxlamış, Türk

---

[1549] Talıbzadə Kamal. Seçilmiş əsərləri. Bakı, Elm, 2015, s.22-23

[1550] Caferoğlu Ahmed. XX Asr Azerbaycan Edebi Tenkidi (1905-1917). "Türkiyyat" mecmuesi. İstanbul, 1972, XVII cild, s.277

birliyinin yenidən var olacağına inanmışdır. Onun dünyagörüşündə, türkçülük min illərin dərinliklərindən yol alıb gəlmiş və heç bir zaman yarı yolda qalmayacaq bir ülkü, dava idi. Bu baxımdan Seyid Hüseyn türkçülüyü heç bir zaman dar, məhdud anlamda dərk etməmiş, onun mahiyyətinin özünəməxsusluğunu görməyi bacarmışdır. Başqa sözlə, o, türkçülüyün yalnız milliyyətçiliklə məhdudlaşmadığını, onun mahiyyətinin və məzmununun əxlaqla, ədalətlə, insanlıqla, böyüklüklə bağlı olduğunu ifadə etməyə çalışmışdır. Bu anlamda Seyid Hüseynin milli maarifçilik və ədəbi-tənqidi görüşlərində də yeri gəldikcə, türkçülüklə bağlı məsələyə müraciət olunması təsadüfi deyildi. O, göstərirdi ki, türklüyü, şərqliliyi, islamlılığı Qərb-Avropa mədəniyyətinin kölgəsi altında qoymaq istəyənlərin niyyəti heç də yaxşı olmamışdır. Onun fikrincə, bir çox avropalı mütəfəkkirlər, yazarlar bunu qəsdən edib, mümkün olduğu qədər Şərq, o cümlədən Türk-İslam dünyası haqqında vəhşi, barbar obraz yaratmağa çalışmışlar. Seyid Hüseyn haqlı olaraq təəssüf edirdi ki, avropalı-qərbli yazarların, mütəfəkkirlərin əsərlərinə müraciət edən türk-müsəlman ədiblər onların bizim əleyhimizə olan kitablarını olduğu kimi tərcümə edərək səhnələşdirməklə böyük xətalara yol vermişlər.

Göründüyü kimi, Seyid Hüseyn həm türkçülüyə, həm də onun əleyhinə yönləmiş düşüncələrə münasibətdə olduqca diqqətli, həssas olmuşdur. Bu isə o deməkdir ki, onun sözün həqiqi mənasında türkçülüyün hansı mahiyyət daşımasını yalnız dərk etməmiş, eyni zamanda dövrün şərtlərinə uyğun olaraq bu dava yolunda hansı addımların atıla bilməsi yönlərini də göstərə bilmişdir. Şübhəsiz, S.Hüseynin türkçülüyə və milli maarifçiliyə münasibətdə tutduğu doğru düşüncəni Türk düşmənləri də görmüş, onu repressiya etməkdə tərəddüd etməmişlər.

# ALMAS İLDIRIM

**Həyat və yaradıcılığı.** Azərbaycan Türk şair-mütəfəkkiri Almas İldırımın (1907-1952) əslində adı Əbdülhəsən, soyadı isə Almaszadə olub Bakı yaxınlığındakı Qala kəndində əkinçi ailəsində dünyaya gəlmişdir. Altı yaşında (1913) olarkən ailəsi Şüvəlana, 1920-ci ildə isə Çəmbərəkəndə köçən A.İldırım ibtidai təhsilini "İttihad" məktəbində almışdır. O, 1925-ci ildə tanınmış mütəfəkkir Abdulla Şaiqin "Nümunə məktəbi"nə (1925-ci ildən A.Şaiq adına Pedaqoji Texnikum) daxil olmuşdur. "Nümunə məktəbi"ndə oxuduğu dövrdə Abdulla Şaiq, Hüseyn Cavid, Əhməd Cavad, Cəfər Cabbarlı kimi tanınmış mütəfəkkirlərlə daha yaxından təmas quran A.İldırım daha çox da Əhməd Cavadı özünə ustad bilmiş, onun türklük, turançılıq yolunu izləməyə çalışmışdır.

Qeyd edək ki, həmin dövrdə yenicə yaranmış "Ədəbiyyat cəmiyyəti"nin məsul katibi olan Əhməd Cavad milli ruhlu gənc şairlərə, o cümlədən Almas İldırıma, Mikayıl Müşfiqə və başqalarına özünü ifadə etməsi üçün əlindən gələn şəraiti yaratmışdı. Şübhəsiz, Əhməd Cavdala Hüseyn Cavidin milli ruhlu gənc şairlərə hər cür dəstək vermələri Sovet Rusiyasının məmurlarının, eləcə də Quzey Azərbaycandakı ifrat solçu bolşeviklərin nəzərindən qaça bilməzdi. Özəlliklə də, 1926-cı ildə İstanbulda çıxan "Həyat" dərgisində "A dağlar", "Sevdiyim" şeirləri çap olunan İldırımın Sovet bolşevikləri tərəfindən milliyyətçi, Türkiyə sevdalısı kimi tanınması üçün yetərli bəhanə idi. Bununla da Azərbaycan SSR Baş Siyasi İdarənin (QPU) nəzər diqqətini özünə cəlb edən İldırım 1927-ci ildə Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsinə daxil olsa da, çox keçmədən oradan xaric olunmuşdur.

Feyzi Aküzümə görə həmin dövrdə Bakıda yenicə yaranmış Azərbaycan Proletar Yazıçılar Cəmiyyətində iki cəbhə: 1) Proletar yazıçılar, 2) Cığırdaşlar var imiş ki, İldırımda sonuncuya aid edilmişdir. Belə ki, "Cığırdaşlar" kimi tanınanlar, o cümlədən

Almas İldırım milli istiqlal və türklük tərəfdarı olub, Azərbaycanın yenidən müstəqillik əldə etməsinə inanırmış. [1551] Məhz bu səbəbdəndir ki, hətta, A.İldırım özünü məcbur edib nadir hallarda müəyyən qədər kommunizmi mədh edən şeirlər, poemalar yazmasına baxmayaraq, yerli bolşeviklər onu "müsavatçıların aşiqi", "Türkiyə çavuşlarının həqiqi şagirdi" kimi damğalamağa davam etmişlər. Beləliklə, o, Sovet kommunizmini deyil istiqlalçılıq, türklük yolunu tutduğuna görə, Sovet Rusiyasının göstərişi ilə 1928-ci ildə Azərbaycan Proletar Yazıçılar Cəmiyyətindən xaric edilərək Dağıstana sürgün edilmişdi. İki il burada sürgün həyatı yaşayan A.İldrım Dağıstan Proletar Yazıçılar Cəmiyyətinin Dərbənd özəyinin yaradılmasında mühüm rol oynamışdır.[1552]

1930-cu ilin əvvəllərində Dağıstandan Türkmənistana köç etmək məcburiyyətində qalan Almas İldırım Aşqabadda Güney Azərbaycandan və Qafqazdan köçürülmüş türk ailələrinin uşaqları üçün təşkil edilmiş məktəbdə dərs demiş, eyni zamanda Aşqabad radiosu, "Zəhmət" qəzeti ilə əməkdaşlıq etmişdir. 1932-ci ildə əslən Güney Azərbaycanın paytaxtı Təbriz şəhərindən olub bir müddət Şamaxıda yaşamış, oradan da Aşqabada sürgün edilən bir ailənin Zivər adlı qızıyla evlənən A.İldırımın ilk uşağına Azər adı qoyması da təsadüfi deyildi. Ədəbiyyatşünas Maarif Teymur bununla bağlı yazırdı: "...Sürgün həyatı yaşayan, millilik ruhu ilə yoğrulmuş şair Almas İldırımın ilk övladına "Azər" adı verməsi M.Ə.Rəsulzadənin "Əsrimizin Səyavuşu" adlı əsərindəki aşağıdakı fikri bir daha yada salır: "O, pəri kimi bir oğul doğdu ki, çöhrəsi Azər heykəlinə bənzəyirdi". Buradan, bu ad qoymadan aydın olur ki, Almas İldırım bir şəxsiyyət kimi dövrünün acısını, şirinini dadmış, özündən əvvəlki sənətkarlarn əsərlərini dərindən mütaliə etmişdir".[1553] Doğrudan da, Azərbaycan Türk mütəfəkkiri, milli

---

[1551] Aküzüm Feyzi. Elmas Yıldırım'ın Hal Tercümesi//Yıldırım Elmas. Yigitlere Sesleniş. Ankara, Azerbaycan Kültür Derneği Yayınları, 1990, s.21

[1552] Yurtsever Abdül Vahab. Elmas Yıldırım'ın Edebi Şahsiyeti ve Şiir Sanatı // Yıldırım Elmas. Seçilmiş Şiirleri. Ankara, Yeni Cezaevi Matbaası, 1953, s.7

[1553] Teymur Maarif. Almas İldırımın həyatı, mühiti, şəxsiyyəti // İldırım Almas. Seçilmiş əsərləri. Bakı, "Öndər nəş.", 2004, s.10

ideoloq Məhəmməd Əmin Rəsulzadə "Əsrimizin Səyavuşu" adlı əsərində yenicə dünyaya gələn Səyavuşu təsvir edərəkən, onu "Azər heykəli"nə bənzətməsi təsadüfi olmamışdır. Belə ki, Rəsulzadə üçün Səyavuşun varlığı Azərbaycan Cümhuriyyətinin mövcudluğu ilə paralelik xarakterinə malik idi.[1554]

Türklük və istiqlalçılıq ideyalarının daşıyıcı kimi hər addımı Sovet agentlərinin nəzarəti altında olan, günü-gündən təhlükənin artığını hiss edən İldırım üçün yolun sonuna gəlinmişdi. O, artıq iki yoldan birini, yəni ya Sovet kommunizmi adı altında pərdələnmiş müstəmləkəçiliyi seçib bununla razılaşmalı, ya da istiqlalçılığa, türkçülüyə sadiq qalıb mühacirətə üz tutmalı idi. Beləliklə, o, sonuncu ideyalara sadiqliyini hər şeydən üstün tutaraq 1933-cü ilin iyununda gizli şəkildə İran Pəhləvilər rejiminə tərəf keçməyi bacarmışdı. Tehran hökuməti tərəfindən 25 gün müxtəlif ağır işgəncələrə məruz qalan İldırım daha sonra azad edilsə də, artıq bir sıra xəstəliklərə düçar olmuş, üstəlik Sovet Rusiyasından fərqlənməyən İran Pəhləvilərinin faşizmi ilə üz-üzə qaldığı üçün buranı da tərk etmək qərarına gəlmişdi. M.Teymur yazır: "1933-cü ildə Türkiyəyə gedən A.İldırım, bu ölkənin simasında özünə ikinci vətən tapır. Dili, dini, kültürü bir qardaş-bacılarına qovuşur. Şairin Vətən həsrətilə təşnə olan qəlbi, az da olsa, rahatlıq tapır. Burada mənzil və işlə təmin olunur, ailəsinin güzəranı müəyyən qədər yaxşılaşır".[1555] Əvvəlcə Türkiyənin Van şəhərinə gələn İldırım az sonra Elazığa üz tutmuşdur. Hadi Önal yazır ki, bununla da Türkiyə Yıldırım ailəsinə qucaq açmış, Bakının Xəzər dənizinə həsrət qalan şair Elazığdakı Xəzər gölünün qonaqpərvər, istiqanlı insanları qarşlamışdır: "İkinci vatanlarına çabucak alışan bu genç çiftin etrafı bacı, kardeşleri ile doldu. Şair için artık hür ve müstakil Anadolu coğrafiyasında yeni bir hayat başlamıştı".[1556]

---

[1554] Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991, s.22-23

[1555] Teymur Maarif. Almas İldırımın həyatı, mühiti, şəxsiyyəti // İldırım Almas. Seçilmiş əsərləri. Bakı, "Öndər nəş.", 2004, s.11-12

[1556]Önal Hadi. Baküden Elazığa Bir Vatan Hikayesi: Elmas Yıldırım // Elazığ Kültür ve Tanıtma Vakfi dergisi. Yıl: 27. Sayı: 45 temmuz 2016, s.49

Onun həyatında ən faciəli anlardan biri də 1936-cı ildə anadan olan əkiz oğlanlarının çox keçmədən eyni gündə xəstəlikdən dünyalarını dəyişmələri olmuşdu. O, əkiz oğlanlardan birinə Eldəgəz, digərinə Yurdavar qoymuşdur ki, müəyyən anlamda onların ölümü İldırımın Vətən həsrətinə bir az da acı qatmış, sanki doğma yurduna bir daha gedə bilməyəcəyinə işarə olmuşdu.

Türkiyədə yaşadığı mühacirət dövrünin ilk illərində pedaqoji fəaliyyət göstərən İldırım daha sonra Şərqi Anadolunun (Van, Elazığ, Malatya, Tunceli) müxtəlif əyalət şəhər və qəsəbələrindəki bələdiyyələrdə (Keban, Palu, Karabeğan, Ağın, Hankəndi, Balıbey, Muşan bucak, Qala, İresi və b.) kargüzar, katib kimi çalşmışdır.[1557] O, ən sonda yenicə işə başladığı Malatyanın Qala qəsəbəsində çalışarkən 1952-ci ilin yanvarın 14-də vəfat etmiş, nəşi Elazığda dəfn olunmuşdur. Beləliklə, Quzey Azərbaycanın Qala kəndində dünyaya gələn İldırım, qardaş Türkiyənin Malatyasına bağlı Qala kəndində isə dünyaya əbədi göz yummuşdu. Görünür, bu da onun alın yazısına yazılmış bir qismət idi. Fəlsəfə tarixçisi, f.e.d. Arzu Hacıyeva yazır: "Dərbənd sürgünündən Bakıya qısa bir gəlişində görüşünə gələn Mikayıl Müşfiqə: "Bunların (yəni bolşevik hakimiyyətinin) məqsədi indi mənə aydındır. Yəqin hər dəfə bir türk məmləkətinə göndərməklə böyük Türkistanımızı mənə qarış-qarış gəzdirmək istəyirlər", demişdi. Bu kinayəli sözlər də başqaları kimi gerçəkləşdi. 1930-cu ildə Şamilqaladan "Mənim yalnız ümidim türk qəlbi, iradəsi, Mənim yalnız tutduğum millətimin haqq səsi" deyə bəyan edən şairin Bakının Qala kəndindən başlayan əzablı, mücadiləli ömür yolu "doğma türk ellərin"dən keçərək Malatyanın Qala qəsəbəsində qapandı və… gerçəyi rəmzə çevirdi…".[1558]

---

[1557] Aküzüm Feyzi. Elmas Yıldırım'ın Hal Tercümesi//Yıldırım Elmas. Yigitlere Sesleniş. Ankara, Azerbaycan Kültür Derneği Yayınları, 1990, s.26

[1558] Hacıyeva Arzu. Həyat və poeziya nostalji kimi: Almas İldırımın əzablı və mücadiləli yolu // Elmi əsərlər. Beynəlxalq elmi-nəzəri jurnal. №1 (28). Bakı, AMEA Fəlsəfə və Sosiologiya İnstitunun mətbəəsi, 2017, s.30-31

Onun Türkiyədə yazdığı şeirləri "Çinaraltı", "Göyboru", "Bozqurd", "Orkun", "Özleyiş" və digər dərgilərdə nəşr olunmuşdur. İldırımın sağlığında Türkiyədə "Boğulmayan ses", "Azerbaycan mahnileri", eyni zamanda ölümündən sonra "Seçilmiş Şiirler"i (1953), "Yigitlere Sesleniş" (1990) əsərləri nəşr olunmuşdur.

**Azərbaycançılıq və milli istiqlal sevdası.** Almas İldırımın yaradıcılığında ilk növbədə, Vətən sevgisi, Azərbaycan türkçülüyü ideyası və Azərbaycan milli istiqlalı davası mühüm yer tutmuşdur. O, hesab edirdi ki, Azərbaycan Cümhuriyyətinin süqutu ilə milli müstəqilliyə son verilmiş, onun yerini Sovet Rusiyasının işğalçılıq siyasəti tutmuşdur. Bu anlamda "sosializm", "kommunizm" adı altında pərdələnmiş Sovetlərin işğalçılığını tənqid edən A.İldırım "A dağlar" şeirində yazır ki, azərbaycanlılar, Azərbaycan türkləri milli istiqlalın müstəmləkəçiliklə əvəzlənmisinin yasını tuturlar:

*Tarixdə namının tükənməz şanı,*
*Karvanlar boynunun qızıl mərcanı,*
*Sinəndə kəsərlər ellər qurbanı,*
*Keçirərkən ağır illər, a Dağlar!*[1559]

Azərbaycandan zorla sürgün edilib bir müddət Dağıstanda yaşamağa məcbur edilən A.İldırımın bütün bunlara baxmayaraq, Vətən sevgisi nəinki azalmış, əksinə daha da güclənmişdir:

*Mən gələrkən o yurdun mövsümü son bahardı,*
*Gülşəndə gül yerinə qızıl tikanlar vardı....*[1560]

Şübhəsiz, Vətəndəki bu "qızıl tikanlar" rus, erməni və başqa yad millətlərin nümayəndələri olan işğalçı bolşeviklər idi. Hər bir şeirində sətiraltı, bəzən də açıq şəkildə Vətənini əsarət altında saxlayanlara qəzəbini bildirən şair, anasına ünvanladığı bir məktubunda yazırdı ki, məscidlərə gedib ondan ötrü Allah qarşısında ağlayıb-sızlayıb, yalvarmaqdan heç nə çıxmaz:

*Mən anlamaq isətəməm nə məzhəb, nə yol, nə din,*
*Mənim yalnız ümidim Türk qəlbi, iradəsi,*
*Mənim yalnız tutduğum millətimin haqq səsi.*
*Mən yalnız iman etdim qollarımın zoruna,*

---

[1559]Yıldırım Elmas. Yigitlere Sesleniş. Ankara, AKD Yayınları, 1990, s.39
[1560] İldırım Almas. Seçilmiş əsərləri. Bakı, "Öndər nəş.", 2004, s.77

*Bu zor məni qurtarıb, çıxaracaq yarına.*
*Dağları titrədirkən qəlbimin daşan kini,*
*Eh, sən ki bilməzsən bu gənc qəlbimdəkini.*
*Mən atmışam o köhnə, əski görkümü, annə!..*
*Dinləsənə uzaqdan coşan türkümü, annə!*[1561]

Azərbaycan Cümhuriyyətinin müstəqilliyi əlindən aldığı üçün Sovet Rusiyasına duyduğu kinini gizlətməyən İldırıma milli istiqlal olmadan "Yeni dünya", yəni kommunizm lazım deyil idi. Məhz vətəninə, millətinə olan bu sonsuz, qutlu eşq sonda şairi sürgündən mühacirətə üz tutmağa sövq etmişdir. Amma o, vətəndən nə qədər uzaqlaşsa da, millətinə olan sevgisi, eşqi birə on qat artır, yurdunun azadlığı mücadiləsindən dönməz edirdi. Əvvəlcə Sovet Rusiyasının göstərişi ilə Dağıstan və Türkmənistanda sürgün həyatı yaşayan, daha sonra çox zor şərtlər altında İran Pəhləvilərinə keçə bilən Almas İldırım, çox keçmədən buradan da köç edərək Türkiyəyə üz tutmuşdur. O, bu ucsuz-bucaqsız yollarda fiziki və mənəvi anlamda çox əzab-əziyyətlər çəkməsinə baxmayaraq, bütün bunlar onun vətəninə, millətinə və milli istiqlala olan sevgisini nəinki azaltmış, əksinə artırmışdı. Bu baxımdan 1930-cu illərin ortalarında İldırım Türkiyədə olarkən üzünü Azərbaycan türklərinə, soydaşlarına tutaraq bir tərəfdən onları rus bolşevizmi ilə mübarizəyə səsləyir, digər tərəfdən isə öz mücadiləsini anladırdı: "Ey Azəri Türk… Ey vətəndaşım… Sənin qarət olunmuş haqqından doğan daşqınlığına tərcüman olayım deyə hayqırdım… Nə yazıq ki, bu hayqırış sonunda qırıq-sökük çıxan hıçqırıqlarımdan ibarət boğuq bir səs oldu… Ah… Bu səsdə belə səni, həm sənin eşqini, həsrətini, qəribliyini azacıq da olsa yaşada bildimsə, nə mutlu bana!...".[1562]

Bütün varlığı ilə milli istiqlal uğrunda mübarizə aparan A.İldırım nə zamansa vətənin qurtuluşu üçün müqəddəs bir inqilabın gerçəkləşəcəyinə ümid bəsləyirdi. O inanırdı ki, müqəddəs bir inqilabla Azərbaycan yenidən istiqlalına qovuşacaq. Bu inamla da A.İldırım "Müqəddəs ixtilal" şeirində yazırdı:

---

[1561] Yenə orada, s.88
[1562] İldırım Almas. Seçilmiş əsərləri. Bakı, "Öndər nəş.", 2004, s.98

*Qaranlıqda gözlərim dikilmiş üfüqlərə,*
*Bir fırtına səsi var, buludlar göydə dal-dal*
*Açmış Doğu bağrını sökəcək şəfəqlərə,*
*Qop, ey dəli fırtına, rişəni könlümə sal,*
*İxtilal istəyirəm, müqəddəs bir ixtilal…*

*Doğan günəşlə qopsun bir axın vəlvələsi,*
*Görünsün qan köpüklü qasırğanın yeləsi,*
*Bitsin əsir türklüyün, bitsin artıq çiləsi,*
*Nə zəncirli bir Qafqas, nə qan qusan bir Ural,*
*İxtilal istəyirəm, müqəddəs bir ixtilal…*

*Sovursun ümmanlara gövdə, bacaq, bilək, baş,*
*Yerə girsin, Kremlin qalmasın daş üstdə daş,*
*Hürr insanlıq uğrunda başlasın qətli-savaş,*
*Vaxt gəlmişdir, ey zaman, bir ölüm şərqisi çal,*
*İxtilal istəyirəm, müqəddəs bir ixtilal…*[1563]

İldırımın arzuladığı "müqəddəs ixtilal", ya da milli inqilab bir də 1991-ci ildə baş verdi və Azərbaycan Cümhuriyyəti yenidən öz müstəqilliyinə qovuşdu. Ancaq çox təəssüf ki, bu müstəqillik uğrunda can qoyanlardan A.İldırımın adı yeni tariximizdə çox da anılmır, mətbuatda və teleekranlarda çox nadir hallarda xatırlanır. Görünür, bəziləri hesab edirlər ki, müstəqillik əldə etdikdən sonra Əhməd Cavadlar, Almas İldırımlar, Məhəmməd Əmin Rəsulzadələr, Əmin Abidlər, Mirzə Bala Məmmədzadələr, Hüseyn Bayqaralar və başqa mühacir ziyalılarımız bizlərə çox da lazım deyildir. Çünki belələrinə görə, artıq onlar tarixə qovuşmuşdur. Doğrudur, milli istiqlal şəhidlərimiz tarixə qovuşmuşdur, ancaq bu şərəfli və ləyaqətli bir tarixdir. Ən azı ona görə ki, bugünkü müstəqilliyimiz onların qanları, canları, fədakarlıqları ilə qazanılmış və yaşadılmışdır.

Onu da unutmaq lazım deyil ki, A.İldırım kimi minlərlə, on minlərlə milli istiqlal şəhidlərimiz Azərbaycanın istiqlalı yolunda

[1563] Yenə orada, s.133

təkcə özünü deyil, ailəsini və övladlarını da qurban vermişlər. Vətənə dönmək ümidi ilə əkiz övladlarına Eldəgəz və Yurdavar isimlərini verən şairin bu arzusu da ürəyində qalmış, hər iki övladı bir gündə dünyasını dəyişmişdir. Buna səbəb şübhəsiz ki, sürgün həyatında onun tapdığı xəstəlikləridi. Deməli, A.İldırım üçün Vətən-Azərbaycan, Milliyyət-Türk, İstiqlal-Azadlıq sevdası hər şeydən – ailədən də, övladlardan da, rahat yaşamaqdan da öndə dayanırdı. Çünki Almas İldırımın həyat devizi belə idi: öncə Vətən, öncə İstiqlal, Öncə Türklük.

A.İldırımın özünün də yazdığı kimi, XX əsrdə hürr bir aləmdə, bir millətin azadlığının əlindən alınması kimi faciəli bir vəziyyət ola bilməzdi. Bu baxımdan "hürr bir aləmdə insan hürriyyətinə məlun bir qüvvət kimi zəncir vurana lənət" deyən şair-mütəfəkkir qeyd edirdi ki, Tanrı ona keçmişdən bir anını versəydi, bir məşəl yandıraraq azad bir cəmiyyət qurardı:

*Qazardım könüllərdə yalnız tək bir ideal:*
*"İnsanlara hürriyyət, millətlərə istiqlal!".*
*Hardasan, ey xilaskar Bozqurdum, çıx yoluma,*
*Hardasan, ey Teymurun qüdrəti, gəl qoluma,*
*Şimşəklər kimi bir an mən çaxmaq istiyorum.*
*Hürr bir dünya, hürr bir din, hürr bir Tanrı, hürr bir yol,*
*Hürr bir həyat, hürr vicdan, hürr bir qafa, hürr bir qol,*
*Hürr bir şeir, hürr bir eşq, hürr bir məskən, hürr əmək.*
*İnsan oğlunun əsil hürr cənnəti bu demək!*
*İndi, böylə bir aləm, böylə bir dünya deyə,*
*Hər kirli bir bucağa, bir su kimi axmalı.*
*Küllərini rüzgara vermək üçün hədiyyə*
*Hürr insanlıq uğrunda Kremli yaxmalı.*[1564]

Milli ideoloq, tanınmış mütəfəkkir Məhəmməd Əmin Rəsulzadənin "İnsanlara hürriyyət, millətlərə istiqlal!" devizini bir ideal kimi qəbul edən A.İldırım üçün bu, yalnız milli fəlsəfi deyil, həm də ümumbəşəri bir yol idi. Çünki tanınmış Azərbaycan Türk mütəfəkkiri, ictimai-siyasi xadim Mirzə Bala Məmmədzadənin də

[1564] İldırım Almas. Seçilmiş əsərləri. Bakı, «Öndər nəş.», 2004, s.136

təbrincə desək, M.Ə.Rəsulzadənin insanlara azadlıq və millətlərə istiqlal fəlsəfəsi dar mahiyyət daşımamış, bütün bəşəriyyət üçün böyük əhəmiyyət kəsb etmişdir.[1565]

Bu baxımdan Almas İldırım şeirlərində Azərbaycanın milli istiqlalına son verən Sovet Rusiyasını və onun işğalçılıq siyasətini daim tənqid etmişdir. İldırım "Qızıl köləlik" kimi qiymətləndirdiyi Sovet Rusiyası haqqında yazırdı ki, bolşeviklər "kommunizm" pərdəsi altında millətləri kölə halına salmışdır. O, yazırdı:

*Hürr insanlıq hayqırdı: Qəhr olsun zülm, qorxu, kin.*
*Verdi milyonlar qurban... Bəs yenə bu qorxu nə?*
*Millətləri qızıl bir oraqla biçmək üçün,*
*Xortlayan barbarlığın əskisindən farkı nə?*

*Dünya yenə tərsinə dönər, sərxoşmu bilməm,*
*Qanlı badirələrlə əylənmək xoşmu bilməm,*
*Bunca çəkilmiş əmək bihudə, boşmu bilməm,*
*Müztərib dodaqlarda bu bitməyən şarkı nə?*

*Harda təhəkküm, zülüm, milyonluq əsir insan,*
*Harda təqiblər, sürgün, top-tüfəng, ölüm və qan?*
*Qaldır dəmir pərdəni, hökmünü versin cahan,*
*Lənət qızıl dünyanın kölələr cənnətinə!*

*Aç, göstər hər guşəni, hər kəsi var, kəsi yox,*
*Mən bilirəm ki, orda uçan quşun səsi yox,*
*Hürriyyətmi deyirsən? Yalan... Onun (H)si yox,*
*Milyonu beş paradır orda gəmigin, ətin...*[1566]

Bu anlamda hesab edirik ki, Azərbaycan türkçülüyünü, azərbaycançılığı şeirlərində yaşadan Almas İldırım şərəfli bir yol keçmiş, bu yolda birmənalı şəkildə şəhid olmuşdur. A.İldırımın Vətən, Millət uğrunda şəhid olmasını ifadə edən yüzlərlə şeirlərindən biri də "ƏsirA zərbaycanım"dır:

*Nerdə məni gül qoynunda doğuran,*

[1565] Mehmetzade M.B. M.E.Resulzade. "Azerbaycan", №12 (36). Ankara, 1955
[1566] Yıldırım Elmas. Seçilmiş Şiirleri. Ankara, Yeni Cezaevi Matbaası, 1953, s.73

*Xəmirimi göz yaşıyla yoğuran,*
*Beşiyimdə "layla balam" çağıran,*
*Azərbaycan, mənim baxtsız anam oy,*
*Neçə bir il həsrətinlə yanam, oy?..*

*Salam desəm, ruzgar alıb götürsə,*
*Ağrı dağdan Alagözə ötürsə,*
*Gur səsimi göy Xəzərə yetirsə,*
*Xəzər coşub zəncirini qırar oy!..*
*Hökm etsə, bu sərsəm gediş dursa oy!..*

*Xəbər alsam Muğanımdan, Milimdən,*
*Nazlı Bakım, o neft qoxan gülümdən,*
*Kim demiş ki, düşmüş adı dilimdən,*
*Azərbaycan, mənim eşsiz yurdum oy!..*

*Ölməz eşqim, içimdəki dərdim oy!*
*Gönlümə tək Kəbə yapdım səni mən,*
*Sənsiz nedəm qürbət eldə günü mən,*
*Sənsiz nedəm Allahı mən, dini mən,*
*Azərbaycan, mənim tacım, taxtım oy!*
*Oyanmazmı kor olası baxtım oy?!*[1567]

O zaman Millətlər Cəmiyyəti adıyla mövcud olan beynəlxalq təşkilatın rəhbərliyinə ünvanladığı açıq məktubunda A.İldırım açıq şəkildə deyirdi ki, əslində onlar əzilən millətlərin, o cümlədən Azərbaycan xalqının tapdalanmış milli hüquq və haqlarını qorumaq əvəzinə, Sovet Rusiyasının müstəmləkəçilik siyasətinə haqq qazandırırlar. A.İldırımın fikrincə, Millətlər Cəmiyyətinin Azərbaycan torpaqlarını "Rus torpağı" kimi qələmə verməsi də bu ədalətsizliyin ən bariz nümunəsidir. O, "Mənim protestom" şeirində yazırdı:

*Dinlə, sən ey haqq deyə zülmə eş olan yuva,*
*Bir millətin fərdiyim, mənim də bir səsim var.*
*Dağları al qanımla boyanmış bir ölkədə*

[1567] İldırım Almas. Seçilmiş əsərləri. Bakı, «Öndər nəş.», 2004, s.115

*Anlasan yaşamaqçın nə qədər həvəsim var...*

*Onun "rus" dediyi yer torpağımdır, daşımdır,*
*Onun başındakı tac mənim dövlət quşumdur.*
*Jenevdə sunduğu mey, o mənim göz yaşımdır,*
*Eh, bilsəydin başımda nə bəlam, nə yasım var...*[1568]

İldırım "İki nəhir" şeirində də Quzey Azərbaycanla Güney Azərbaycanın bir olmasını, sadəcə araya düşmənlərin girməsini ifadə etmişdir. Onun fikrincə, hər iki ölkənin yalnız xalqı deyil, eyni zamanda çayları, dağları, meşələri bir olduğu halda, onları heç bir qüvvə, güc ayıra bilməz. O, yazırdı:

*Hansı zalım, o mənim qollarımı bükəcək,*
*Hansı qüvvət o məni zəncirlərə çəkəcək?..*
*Tarix boyu axdığı yerdən alıb izini,*
*Qoşmuş dəli Quzğuna Kür çağlaya-çağlaya.*
*Görüncə baş ucunda dərdli Türkmən qızını,*
*Araz da dərdə gəlmiş yas bağlaya-bağlaya.*

*Qucaqlaşmış o yerdə, birləşmiş iki bacı,*
*Biri eşqim, varlığım, biri başımın tacı...*[1569]

Azərbaycan fəlsəfə tarixçisi, f.e.d. Arzu Hacıyeva hesab edir ki, A.İldırımın bu şeirində tanınmış mütəfəkkirimiz Abdulla Şaiqin turançılıq, türkçülüklə bağlı yaradıcılığının təsiri duyulur. Onun fikrincə, bu şeirdə təsvir edilən təbiət hadisəsi eyni olsa da, o ideyasına, rəmzlərinə, məna vurğusuna görə yenidir, orijinaldır, ruhu, ovqatının özəlliyi ilə də seçilir. A.Hacıyeva hesab edir ki, türkçülüklə yanaşı bu şeirində A.İldırım Bütöv Azərbaycandan da bəhs etmişdir. O, yazır: "Əgər Abdulla Şaiq Kür və Arazı ana Xəzərin oğulları, güclü, mübariz, düşmənindən intiqam alan qardaşlar obrazlarında canlandırırsa, Almas İldırımın şeirində Kür və Araz bir-birindən ayrı düşmüş dərdli bacılardır ki, paralanmış vətəni təcəssüm edir. Kür – Şimali Azərbaycan, Araz isə Cənubi

---

[1568]Yıldırım Elmas. Yigitlere Sesleniş. Ankara, Azerbaycan Kültür Derneği Yayınları, 1990, s.107
[1569] Yıldırım Elmas. Seçilmiş Şiirleri. Ankara, Yeni Cezaevi Matbaası, 1953, s.26

Azərbaycan torpağının və xalqının simvoludur. Simvolların mənası Kür və Arazın poetik müqayisəsində, "Biri qəlbimdəki qan, biri gözümün yaşı", "Biri toplar suyunu min dərədən, min göldən, Birinin bağrı yanıq, uzaqdan gələn seldən", "Biri mənim öz dilim, biri anlamaz dildən" kimi fərqli səciyyələrində təzahür edir. Burada Almas İldırımın poeziyasının canına və qanına hopmuş nostalji, həsrət ruhu hakimdir".[1570] Deməli, A.İldırımın yaradıcılığında yalnız Quzey Azərbaycanın milli istiqlalı deyil, Azərbaycanın bütövlüyü məsələsi də mühüm yer tutmuşdur. Hər halda şairin milli istiqlal fəlsəfəsi ilə yanaşı, Azərbaycanın bütövlüyünə də diqqət ayırması təsadüfi olmamışdır.

**Qafqazçılıq sevdası**. İldırımın yaradıcılığnda Qafqazçılıq ideyasının da izləri vardır. O, Qafqaz vətəninə, Qafqazın Türk-İslam xalqlarına eyni nəzərlə baxmışdır. İldırım "Qafqaz dağlarına" şeirində Qafqazı bir Vətən, doğma Yurd olaraq görmüşdür:

*Qanadım yox, uçub gəlsəm yaxana,*
*Sinəndəki şahinlərə eş olsam.*
*Ya da məğrur bir qartalın qonduğu*
*Köksündə bir əsirdidə daş olsam...*

*Göy bir bulud olub səndə gərilsəm,*
*Torpaq olub ayağına sərilsəm,*
*Bir gül olub sənin üçün dərilsəm,*
*Ya ovçunun şikarı bir quş olsam....*[1571]

O, Qafqaza olan sevigisinin ifadəsi kimi bir şeirində yazır:

*Aşiqəm, cismim əgər buzlu cəhənnəmdə yana,*
*Daşımaz qorxulu dağlar bu tükənməz yasımı...*
*Gör mələklər verələr cənnəti-əlayi mana,*
*Söylərəm: istəməm ol cənnəti, ver Qafqasımı!*

*Qafqasın eşqi bütün zər dolu dünyaya dəgər,*

---

[1570] Hacıyeva Arzu. Həyat və poeziya nostalji kimi: Almas İldırımın əzablı və mücadiləli yolu // Elmi əsərlər. Beynəlxalq elmi-nəzəri jurnal. №1 (28). Bakı, AMEA Fəlsəfə və Sosiologiya İnstitunun mətbəəsi, 2017, s.23

[1571] Yıldırım Elmas. Seçilmiş Şiirleri. Ankara, Yeni Cezaevi Matbaası, 1953, s.25

*Desələr yurdu unut, al "Yeni dünya"yı əgər,*
*Söylərəm, eşqimi ver, haqqımı ver, yurdumu ver,*
*Dinləsin qoy bütün aləm bu boğulmaz səsimi!*[1572]

"Yurd həsrəti" şeirində də Qafqaza olan sevgisini ifadə edən İldırıma görə Qafqaz diyarı ona ilham vermiş bir yurddur:

*Yurdum… O ilahi uca Qafqas,*
*Vermiş mənə ilhamı əzəldən.*
*Sundum onun eşqiylə yürəkdən*
*Atəş dolu bir camı əzəldən.*
*Mən ruh alamam başqa gözəldən,*
*Eşqim!.. O ilahi uca Qafqas…*

*Qafqas!.. O yaşıl sinəli dağlar,*
*Hicran duyaraq düşdüyü yasdan,*
*Qaç yüz sənəlik matəmi saxlar,*
*Bir rəmz olaraq Kürdən, Arazdan.*
*Quzğun onu həsrətlə qucaqlar,*
*Dərdiylə coşan dalğalar ağlar…*[1573]

İldırım "Qafqaz" şeirində isə Qafqaz xalqlarının bir vaxtlar azad olmasından, ancaq çar Rusiyasının işğalı nəticəsində onların müstəqillikdən məhrum olmasından bəhs etmişdir. Onun fikrincə, indi Qafqaz xalqlarına vacib olan birlik edərək Sovet Rusiyasının işğalından azad olmasıdır. İldırım yazırdı:

*Bir zamanlar Puşkinin dindirib ələmini,*
*Ona mənfa yerində gözəl bir cənnət oldun.*
*Sevincindən az qaldı qırsın da qələmini,*
*O bir hakim rus kimi coşdu, sən dərdə doldun.*

*Bir zamanlar söylədi, qürurla gəldi vəcdə,*
*"Qafqas altımdadır, mən üzərindəyəm" – dedi.*
*Kazbekin dik başından sana edərək səcdə,*
*Qopardığın ahları bir sevinclə dinlədi.*

---

[1572]İldırım Almas. Seçilmiş əsərləri. Bakı, "Öndər nəş.", 2004, s.89
[1573] Yıldırım Elmas. Seçilmiş Şiirleri. Ankara, Yeni Cezaevi Matbaası, 1953, s.56

*Mən nə bir Lermontovam, nə bir qadir Puşkinəm*
*Ki, bir rus qələmiylə mədh eləyəm ədanı.*
*Mən yalnız yaranmışam almaq üçün qadanı.*

*Qəlbimdə "vəhşi" deyə çeçenlərə yox kinim,*
*Azəri, gürcü, dağlı bir ruh deyə anmışam,*
*Mən yalnız sənin üçün ölməyə yaranmışam.*[1574]

**Türkçülük, ya da turançılıq sevdası.** A.İldırımın bir Azərbaycan türkçüsü qədər, turançı və türkçü olması da şübhəsizdir. Abdülvahab Yurdsevərə görə milli ruhlu kimliyi ilə Almas İldırım turançıdır, türkçüdür. O, yazırdı: "Elmas Yıldırım, Türk milli birliğine, Türkün tarihi büyüklüğüne, insanlık topluluğu içindeki seçkin mevkiine, Türk kültürünün özel kiymetine ve büyük ulusunun şanlı ve parlak istikbaline bütün varlığı ile inanmış ve ülküsünü Türkiyede çıkan bir çok dergilerde cesaret ve metanetle müdafaa etmiş bir şairdir".[1575] Doğrudan da, A.İldırım özünü hər daim Türklüyün bir parçası kimi hiss etmiş, Türk birliyi uğrunda mücadilə etmişdir. O, öz milli kimliyini hər daim Turan övladı, Altay oğlu kimi hiss etmişdir. Bu baxımdan onun "Mən mi" şeiri çox diqqətəlayiqdir. İldırım yazırdı:

*Sormayın kimlərdənəm, haralıyam, a dostlar,*
*Könüldən fırtınalı, boralıyam, a dostlar,*
*Qızıl bir qurşun aldım, yaralıyam a dostlar,*
*Cövrünə tab edərsəm, dağları dələcəyəm,*
*Qurban qəbul edərsə, yolunda öləcəyəm…*

*Dəyməyin, siz dəyməyin, ta qəlbimdən dağlıyam,*
*Mən dünyaya ün verən Altayların oğluyam,*
*O torpaqda doğmuşam, o torpağa bağlıyam.*
*İstəməm bir yabançı göz diksin bir daşına,*
*Yol ver, yol ver qonayım o dağların başına…*

---

[1574] Yıldırım Elmas. Yigitlere Sesleniş. Ankara, AKD Yayınları, 1990, s.48
[1575] Yurtsever Abdül Vahab. Elmas Yıldırım'ın Edebi Şahsiyeti ve Şiir Sanatı // Yıldırım Elmas. Seçilmiş Şiirleri. Ankara, Yeni Cezaevi Matbaası, 1953, s.11

*Ey yıllarla uzaqdan həsrətini çəkdiyim,*
*Uğrunda gizli-gizli göz yaşları tökdüyüm,*
*Nə bu, dinsiz taleyə böylə boyun bükdüyüm?*
*Gözümmü kor, qolumda qüvvətimmi yox mənim?*
*Hardasan, ey keçmişim, gəl, qəlbimə ax mənim!*

*Mənmiyəm Altaylarda başı göylərə dəyən?*
*Tarixi mənmi yazdım, tarixmi məni öyən?*
*Mənmiyəm indi böylə təvəkkülə baş əyən?*
*Hansı zalım, o mənim qollarımı bükəcək?*
*Hansı qüvvət, o məni zəncirlərə çəkəcək?*[1576]

Doğrudur, bəzən A.İldırım özü də etiraf etməli olurdu ki, Türkün düşmənləri də sakit oturmamışlar. Məhz türkün düşmənlərinin antitürk siyasəti nəticəsində yalnız fiziki-maddi anlamda deyil, hətta mənəvi baxımdan da Türk dünyasında müəyyən fikir ayrılıqları meydana çıxmaqdadır. Bizcə, bütün bunları nəzərə alaraq o, şeirlərindən birinə "Qara dastan" adını vermişdir. Şübhəsiz, "Qara dastan" anlayışı Türk dünyasının yetərli gücdə olmamasının, Türk ellərinin bir-birilə yadlanmasının ifadəsi idi:

*Türk elləri bir-birinə yadlanır,*
*Qazax, Qırğız, Türkmən, Özbək adlanır,*
*Azəri türk yanır, içdən odlanır,*
*Ana yurdun içdən halı duman hey...*
*Qoca Türkün düşdüyü dərd yaman hey...*

*Orğun çağlar, yatmış ellər ayılmaz,*
*Tarım çayı doğru yola qoyulmaz,*
*Hey səslənir Amudərya duyulmaz*
*Bu dəryada qalmamışdır dərman hey,*
*Qoca Türkün düşdüyü dərd yaman hey...*

*Xəzər coşar, xəbər salar Kürünə,*
*Axar gedər, Kür sürünə-sürünə,*
*İdil ağlar, Altun Ordu yerinə,*

---

[1576] Yıldırım Elmas. Seçilmiş Şiirleri. Ankara, Yeni Cezaevi Matbaası, 1953, s.53

*Aral kəndi varlığından peşman hey...*
*Qoca Türkün düşdüyü dərd yaman hey...*

*Azərbaycan dərd içində boğulmuş,*
*Sevənləri diyar-diyar qovulmuş,*
*Ağla, şair, ağla, yurdun dağılmış,*
*Nerdə qopuz, nerdə qırıq kaman hey?..*
*Nerdə böyük Vətən, nerdə Turan hey?*[1577]

Deməli, İldırım milli istiqlala yanaşı, Türk birliyini unutmamış, Turanın müxtəlif hissələrə parçalanmasına qarşı çıxmışdır. O, Türk xalqlarının parçalanmasına son verilib onları birliyə səsləyirdi. O, "İgidlərə çağırış" şeirində yazırdı:

*Yaralı bir bülbül, qırıq bir daldan,*
*Qoparsa bir fəryad, sən anla haldan*
*Söküb içimi qurtaran vəbaldan,*
*Elim, gülüm, halım yaman igidlər...*

*Fələk büsatını qurdu quralı,*
*Ömrüm keçdi fırtınalı, boralı,*
*Yaralıyam, dostlar, içdən yaralı,*
*İgidlər, igidlər, canım igidlər,*
*Qurumuş damarda qanım igidlər.*[1578]

A.İldırım Türk xalqlarınn birliyi yolunda ümidini ən çox gənclərə bağlamışdır. O yazırdı ki, yalnız Türk gəncliyi Turanın böyük keçmişini geri qaytarıb onu yüksəldəcəkdir:

*Mənim eşqim, a dostlar, əzəlidir, əzəli,*
*Kim salacaq könüldən o sevdalı gözəli?*
*Yox bir qüvvət ki, yaxsın qəlbimdəki əməli,*
*Mənim ki, o qurtuluş gününə imanım var.*

*Sən aldırma, içimdən yaralıyam, yaralı,*
*Burax, keçsin gənc ömrüm fırtınalı, boralı,*

---

[1577]Yıldırım Elmas. Yigitlere Sesleniş. Ankara, Azerbaycan Kültür Derneği Yayınları, 1990, s.104
[1578]Yenə orada, s.109

*Mən bilirəm, sonunda çıxmam üzü qaralı,*
*Yurdumun gənclərinə ümidim, inamım var!*[1579]

O, "Arximed və mən" kiçik şeirində də Türk birliyini yenidən ortaya çıxılması anlamında ümidini gənclərə bağladığını ifadə etmişdi. İldırım yazırdı:

*Arximed deyir: "Gözlərimə boşluqda*
*Bir nöqtə, bir istinadgah görülsə,*
*Bir dəmirlə çevirərdim dünyanı..."*
*Mən deyirəm: Bu gənclikdə, bu yaşlıqda*
*Od gəmirən gənclik mana verilsə*
*Bir vuruşda devirərdim dünyanı.*[1580]

Şübhəsiz, xəmiri türklüklə yoğrulmuş, Türk ruhunda böyümüş, ömrünü türkçülüyə həsr etmiş İldırım üçün bu vaz keçilməz bir dava idi. Onun yaradıcılığının mahiyyətindəki Vətən həsrəti və Türkçülük ülküsü bir bütündür. Əslində Türkiyə də onun üçün böyük Turanın bir hissəsi anlamda Vətəni idi. Sadəcə, doğulduğu, böyüdüğü Azərbaycanın həsrəti bir qədər fərqli olduğu üçün özünü daha qabarıq surətdə büruzə vermişdir. Ümumilikdə, İldırım üçün doğulduğu Quzey Azərbaycanın Qala köyü, böyüdüyü Çəmbərəkənd, sahilində dolaşdığı Xəzər dənizi qədər Elazığ, Malatya, Van da doğma idi. Onun dünyasında Elazığın Xəzər gölü ilə Xəzər dənizi bir idi. O, Elağızın Xəzər gölünə baxıb, Bakının Xəzər dənizini görürdü. İldırımın düşüncəsində Şərqi Anadolunun şəhərləri, kəndləri, dağları, meşələri, çayları, gölləri eyni zamanda, Azərbaycanın şəhərlərinin, kəndlərinin, dağlarının, meşələrinin, çaylarının, göllərinin əksi idi. Bu o anlama gəlir ki, Almasın dünyasında türklük yalnız mənəvi cəhətdən deyil, fiziki anlamda da vahid eyniliyə çevrilmişdi. O, artıq könülündə Türk dünyasının birliyini qurub, onun bir gün vahidliyə çevriləcəyini görürdü.

**Gördüyümüz kimi,** Almas İldırımın dünyagörüşündə azərbaycançılığa əsaslanan Azərbaycan türklərinin milli azadlığı, milli istiqlalı və türkçülük məfkurəsinə bağlı Türk birliyi özünü da-

---

[1579] Yenə orada, s.62
[1580] Yenə orada, s.65

ha çox büruzə vermişdir. Onun azərbaycançılıq düşüncələri ilk növbədə, milli və müstəqil Türk Azərbaycanla əlaqəli idi. İldırım heç bir halda milli və müstəqil Türk Azərbaycana daban dabana zidd olan müstəmləkəçiliklə, köləliklə razılaşmamışdır. Əslində onun milli ruhunda türkçü-turançı qəlbindəki Azad Azərbaycandan başqa istənilən ideya, o cümlədən "Sovet Azərbaycanı" qəbul-edilməz idi. Məhz milli ruhun daşıyıcsı olduğu üçün də İldırım onu gözləyən bütün mərhumiyyətləri, acıları, ağrıları gözə alaraq mənəvi-fiziki anlamda mücadilə verə bilmişdir. Başqa sözlə, gənc yaşlarından milli və müstəqil Türk Azərbaycan ideyası ruhuna hopan İldırımın alın yazısına, qismətinə Vətən, Millət, Azərbaycan, Türklük, Turan həsrətini çəkmək yazılmış, bütün bu nostalgiya, nisgil ömrü boyu onu izləmişdir.

Özəlliklə də, Türkiyəmizin Şərqi Anadolu bölgəsində, o cümlədən Elazığ, Van, Tunceli, Malatya, Bingöldə yaşayıb yaradan İldırım burada Vətən həsrətinə, Azərbaycan həsrətinə az da olsa, təsəlli tapmağa çalışmışdır. Elazığ, Van, Tunceli, Malatya, Bingöl və başqa Şərqi Anadolu torpaqları ona Bakı, Bakı kəndləri (Qalanı, Şüvəlanı və b.), Xəzər dənizi kimi, bütövlükdə Azərbaycan olaraq doğmalaşmışdır. Türkiyənin hər bir qarış torpağı ilə Azərbaycanın torpağı onun ruhuna bir bütün kimi hopmuşdur. Türkiyədən başlanğıcını alıb, ancaq Azərbaycanda birləşərək Xəzər dənizinə tökülən Araz və Kür, iki doğma qardaşın birləşməsindən başqa bir şey deyildi. Onun Araz çayına üz tutaraq dediyi şeirlərdəki Vətən həsrəti, Azərbaycan özləyişi əslində nə qədər kədər, acı dolu olsa da, gələcəyə doğru böyük ümidlər verirdi. Xüsusilə də, o, Türk dünyasına yönəlmiş şeirlərində yalnız Azərbaycan və Türkiyənin deyil, bütün Türk xalqlarının birliyinə çağırışlar etmişdir.

# CEYHUN HACIBƏYLİ

**Həyat və yaradıcılığı.** Azərbaycan Türk mütəfəkkiri Ceyhun Hacıbəyli (1891-1962) Şuşada anadan olub, Şuşa və Bakının realnı məktəblərində oxumuşdur. O, qardaşı Üzeyir Hacıbəyli ilə birlikdə yazmış olduğu, 1908-ci il yanvarın 12-də Hacı Zeynalabidin Tağıyev teatrında tamaşaya qoyulan "Leyli və Məcnun" əsəriylə yalnız Azərbaycanda deyil, bütün Şərq-İslam dünyasında opera sənətinin əsasını qoymuşdu.[1581] C.Hacıbəyli həmin ildə böyük mütəfəkkir-filosof Əli bəy Hüseynzadənin müdir olduğu "Səadət" məktəbində bir müddət müəllimlik də etmişdir.[1582]

1908-ci ilin payızında Sankt Peterburq Universitetinin hüquq fakültəsinə daxil olan Hacıbəyli bir il sonra (1909) Parisin Sorbonna Universitetinə üz tutmuş, burada Ali Texniki məktəbi bitirmişdir (1915).[1583] Cümhuriyyət dövründə "Azərbaycan" qəzetinin redaktoru olan Hacıbəyli 1919-cu ilin yanvarında Cümhuriyyət hökumətinin Versal Sülh Konfransında iştirak etmək üçün Fransaya göndərdiyi nümayəndə heyətinin tərkibində olmuşdur.[1584] Hacıbəylinin Parisdə "İlk Müsəlman Respublikası Azərbaycan" adlı əsəri işıq üzü görmüşdür. Cümhuriyyətin süqutundan sonra Azərbaycana dönə bilməyən Hacıbəyli bir müddət Parisdə (Fransa), yaşamış, burada fransız qəzet-jurnalları ilə əməkdaşlıq etmiş, "Kavkaz" jurnalının fransız nəşrinin redaktoru olmuşdur.

1943-cü ildə Almaniyada yaranmış Azərbaycan Milli Birlik Məclisinin idarə heyətinin aparıcı simalarından biri olan Hacıbəyli həmin təşkilatın Münhendəki "Azərbaycan" jurnalının bir müddət (1952-1954) redaktoru, həmçinin "Azadlıq" radiosunun yaradıcıla-

---

[1581] Hacıbəyli Ceyhun. İlk Azərbaycan operası necə yarandı? // Seçilmiş əsərləri. Bakı, Elm, 2017, s.353-359

[1582] Sultanlı Vaqif. Ceyhun Hacıbəyli // Fikir və əməl böyüklərimiz. Bakı, "Nurlar" NPM, 2014, s.335

[1583] Tahirli Abid. Ceyhun Hacıbəylinin həyat və yaradıcılıq yoluna bir nəzər // Hacıbəyli Ceyhun. Seçilmiş əsərləri. Bakı, Elm, 2017, s.7-8

[1584] Sultanlı Vaqif. Azərbaycan mühacirət ədəbiyyatı. Bakı, Şirvannəşr, 1998, s.68

rından, SSRİ-ni Öyrənmə İnstitutunun fəal üzvlərindən olmuşdur. Vəfatından üç gün əvvəl Mustafa Vəkiloğluna məktub ünvanlayaraq Azərbaycanın istiqlalı üçün mühacirlərin tək bayraq altında birləşmələrini və mübarizə aparmalarını arzulamışdır.[1585] o, 1962-ci ilin oktyabrında Parisdə vəfat etmişdir.

Onun əsas əsərləri aşağıdakılardır: 1) "İlk Müsəlman Respublikası Azərbaycan"; 2) "Azərbaycan mətbuat tarixi"; 3) "İslam əleyhinə təbliğat və onun Azərbaycandakı metodları"; 4) "XIX əsrin əvvəllərinin Azərbaycan tarixçisi A.A.Bakıxanov"; 5) "Qarabağ dialekti və folkloru (Qafqaz Azərbaycanı)" və b.

**İctimai-siyasi görüşləri.** Onun dünyagörüşündə türkçülük/azərbaycançılq və islamçılıq məsələləri mühüm yer tutmuşdur. Hacıbəylinin dünyagörüşündə başlıca yer tutan türkçülük/azərbaycançılıq ideyası üç mərhələdə - Cümhuriyyətəqədərki, Cümhuriyyət və mühacirət dövründə öz əksini tapıb.

**Milli maarifçilik.** O, Cümhuriyyətəqədərki dövrdə "Kaspi" qəzetində yazdığı "Həsən bəy Məlikovun xatirəsi", "Yeddi il" adlı məqaləlәriində Həsən bəy Zərdabinin timsalında Azərbaycan xalqının milli maarifçiliyini, milli oyanışını ifadə etməyə çalışmışdır. "Həsən bəy Məlikovun xatirəsi" məqaləsində Hacıbəyli yazırdı ki, Zərdabi qaranlıqlar üzərinə əsl ziyalı kimi getmişdir: "Onun məramı, məqsədi o qədər möhtəşəm, əzəmətli idi ki, hər cür şəxsi inciklik başlanan missiyanı yarımçıq qoya bilməzdi. Həsən bəy çörək qədər həyati məsələlərdə belə öz şəxsi mənafeyini ictimai maraqlara qurban verməyə özündə güc, qüdrət tapdı. Qəzada ona qəti təklif edildi: ya xidməti Yekaterinoqradda – yəni Qafqazdan kənarda davam etdirməli, ya istefa verməli! Həsən bəy ikincini seçdi. Çünki mənsub olduğu xalqdan kənarda ona həyat yox idi".[1586] O, məqaləsində Zərdabinin nə şəxsiyyəti və tərcümeyi-halını, nə də Türk-Müsəlman cəmiyyətinin onun əməyini necə qiymətləndirməsini deyil, Azərbaycan xalqı üçün müqəddəs bir insan olmasından bəhs edəcəyini yazmışdır: "Həsən bəyin unudulmuş xatirəsində

---

[1585] Xəzər H.Ceyhun bəyin vəsiyyəti. "Mücahid" yur.,Paris, 1963,№10(53-54),s.18-21
[1586] Hacıbəyli C.Həsən bəy Məlikovun xatirəsi."Kaspi" qəz., 28 noyabr 1912, №269

mən əksinə ucalığı, yüksəkliyi, təmiz Bibliya təzahürü görürəm ki, ondan bütün həyatını xalqına həsr edən, əvəzində nə sağlığında, nə də vəfatından sonra mükafat almayan insan haqqında gözəl əfsanə yaratmaq olar. Elə bil ki, Həsən bəyin həyatı da, ölümü də cəmiyyət üçün qurbanlıq idi. Bu vəziyyətdə hansısa bir sirr, müəmma var. Biz o xalqıq ki, xan və müstəbidlərin zorakılığından bizi xilas edən cəngavər igidlərin şərəfinə şeir qoşur, onları minnətdarlıq hissi ilə yad edirik”.[1587] Hacıbəyli “Yeddi il” adlı məqaləsində yazırdı ki, müsəlmanların mədəni-maarifçilik sahəsində pioneri sayılan Zərdabinin vəfatının 7 ili tamam olsa da, onun ortaya atdığı millət yolu yetərincə irəli getməmiş, üstəlik özü belə az qala unudulmağa başlamışdır. O, yazırdı ki, əslində bu belə olmamalı, xalq öz ziyalısına sahib çıxmalı, onun irsini lazımınca dəyərləndirməlidir.[1588]

Ümumiyyətlə, o ilk dövrlərdə milli maarifçilik məsələsinə çox diqqət yetirirdi. Hacıbəyli digər çağdaşları kimi inanırdı ki, müsəlman xalqların tənəzzüldən qurtarmağln tək yolu maarifçilik və yeniləşməkdir. Qələmi qələbənin və təntənının simvolu hesab edən mütəfəkkirimiz “Bizim sentimentalizmimiz” məqaləsində yazırdı ki, insanların halına ağlamaq əvəzinə əlindən tutmaq, yardım etmək lazımdır: “Bizim yalançı xeyirxahlığımıza lazımsız sentimentalizmi də əlavə etmək olar. Mən müsəlmanların sentimentalizmi haqqında düşünəndə yadıma çox yayılmış bir lətifə düşür. Bir varlı dərddən ağlayan kasıba yardım etmək, onun əlindən tutmaq əvəzinə, bu bədbəxtin halına ağlayır. Məsələ burasındadır ki, ağlayanın hər ikisi – kasıb da, varlı da bizim xalqın nümayəndəsidir. Hər ikisi kasıbıdr. Ağlamaq əvəzinə, hər ikisinin mübtəla olduqları kasıblıqdan xilas yolu var. Ağlamağa nə var ki... Çıxış yolu isə “mənəvi gümrahlıq, cəsarət, enerji tələb edir”.[1589] O, “Etinasızlığımız” adlı məqaləsində isə yazırdı ki, müsəlmanların əsasən cəmiyyətdə elmə, mədəniyyətə münasibəti qeyri-adi xarakter daşımaqdadır: “Ədəbiyyatımız varsa, oxuyarıq, yoxdursa,

---

[1587]Yenə orada
[1588] Hacıbəyli C. Yeddi il. “Kaspi” qəz.,28 noyabr 1914-cü il, №267
[1589]Hacıbəyli C. Bizim sentimentalizmimiz. “Kaspi” qəzeti. 7 aprel 1912, № 75

oxumarıq, rəsmimiz varsa, baxarıq, yoxdursa, baxmarıq. Musiqimiz varsa, qulaq asarıq, yoxdursa, asmarıq. Təhsilli adamlarımız varsa, lazımdır, yoxdursa, lazım deyil”. [1590]

O, məqalələrində milli dilə qarşı olan ögey münsibətdən də bəhs etmişdir. Məlum olur ki, bəzi ziyalı şəxslərin övladları ana dilində nəninki danışmaq istəmilər, hətta ona ikrah hissi ilə yanaşmaqdadırlar. Hacıbəyli ana dili və milli mədəniyyətə qarşı ögey münasibətin acı, ağır nəticələrini göz yaşı ilə qələmə almışdır.[1591] O, “Dil və məktəb” məqaləsində yazırdı ki, milli dilə qarşı ögey münasibətin əsasında isə çarizmin apardığı “müdrik siyasət” kimi ruslaşdırma dayanmışdır.[1592]

**Azərbaycan Milli İdeyası və Milli Birlik.** Cümhuriyyət dövründə nəşr olunan “İttihad” və “Azərbaycan” qəzetlərində redaktor işlədiyi dövrdə bu və ya digər formada Azərbaycan Milli ideyasını özündə əks etdirən məqalələr yazmışdır. Onun azərbaycançılıq istiqamətində gördüyü ən mühüm işlərdən biri isə Azərbaycan nümayəndə heyətinin tərkibində Versal sülh konfransında iştirak etdiyi zaman Parisdə “Azərbaycan ilk müsəlman Respublikası” kitabını çap etdirməsidir. O, bu əsərində Azərbayan Milli ideyasını geniş şəkildə açıqlayaraq dünya ictimaiyyətinə, o cümlədən Versal sülh konfransının iştirakçılarına çatdırmağa çalışmışdır. Burada başlıca məsələ Azərbaycanın müstəqillik yolunda mübarizəsi, ilk müsəlman və Türk ölkəsi kimi respublika yolunu seçməsi səbəbləri idi.

C.Hacıbəylinin və F.Düdənginskinin redaktorluğuyla Milli Birlik Məclisinin əsas mətbu orqanı kimi, 1950-ci illərdə Almaniyada-Münhendə yayımlanan “Azərbaycan” jurnalında əsas məqsədi SSRİ imperiyasına qarşı təbliğat işləri aparmaq, kommunizmin zərərli ideologiya kimi gec-tez məhvə məhkum olmasını göstərməklə yanaşı, Azərbaycan milli ideyasını yaşatmaq idi. Bunu,

[1590]Hacıbəyli C. Etinasızlığımız. “Kaspi” qəzeti. 28 aprel 1912, № 96
[1591] Tahirli Abid. Ceyhun Hacıbəylinin həyat və yaradıcılıq yolu. Bakı, “Elm və təhsil”, 2019, s.70-71
[1592]Hacıbəyli C. Dil və məktəb. “Kaspi” qəzeti. 28 aprel 1917, №11

Ceyhun Hacıbəylinin "Azərbaycan" juranlında yazdığı "Azərbaycan davam edir", "Visbadendən – Ştarnberqə", "Şamaxı məhkəməsi", "Koordinasyon Mərkəz", "İkinci mərhələ", "Hürr Dünya Türk xalqlarını sovetlərin zülmündən qurtarmalı", "Bir millətin namusu" və başqa məqalələrindən də görmək mümkündür.

Hacıbəyli "Azərbaycan" jurnalının ilk sayındaca "Azərbaycan davam edir" məqaləsində yazırdı ki, bundan 32 il əvvəl idarə etdiyi milli "Azərbaycan" qəzetini qardaşı Üzeyir Hacıbəyliyə həvalə edərək, yeni bir vəzifə ilə Avropaya gəlmişdi: "Yeni təşkil etdiyimiz Azərbaycan dövlətini, başqa mədəni millətlər və Sülh Konfransına toplanmış dövlətlər rəsmi surətdə tanımaqla misyonumuzun üç ay sonunda bitəcəyini zənn edirdik. Parisə gələr-gəlməz yenə "Azərbaycan" adında fransızca olaraq aylıq bir bülleten nəşr edərək, Avropa ictimaiyyətini məmləkət və millətimizə dair türlü məlumat verərək aydınlatdıq. Bu bülleteni 11 nüsxə çıxara bildik. Gərək biz və gərəksə vətəndə qalanlarımız üç ay müddətin uzanması sonucunda günləri çox uzun görürdük. Bilmirdik ki, bir çoxumuz gözəl vətənimizi bir daha görməyəcəyik". [1593] Hacıbəyli yazırdı ki, ümidlərinin, gözlədiklərinin əksinə olaraq Rusiyadan gələn qara dalğa torpağımızı silib süpürmüş, nəcib Azərbaycan Türk milləti yabançı bir düşmən əlinə keçmişdi: "27 nisan faciəsinin təfərrüatı gələcək Azərbaycan tarixində qara bir səhifə tutacaq. O faciənin təhlilinə vətəndə başlamaq üzrə indilik açıq yaramızı qurdalamağı özümüzə rəva görmədiyimizdən sükut edirik. Məqsədimiz milli birliyi qurmaqdır və birlik mühacirətdə başlamalıdır. Bütün azərbaycanlıları istisnasız olaraq bu birliyə dəvət edirik".[1594]

Şübhəsiz, burada əsas qayə də Azərbaycan Milli ideyasını bir an olsun unutmamaq və yeni nəsilə ötürmək idi. Bu anlamda Hacıbəylinin Azərbaycanın Milli İstiqlalını hədəfləyən bütün təşkilatların Milli Birlik ideyası ətrafında birləşmə məsələsi simvolik idi. Çünki Milli birlik ideyası mücərrəd mahiyyətlidir. Müxtəlif əqidəli insanların məhz özünəməxsus yolla Azərbaycanın müstəqil-

---

[1593]Hacıbəyli C. Azərbaycan davam edir. "Azərbaycan" dərgisi, Münhen, 1951, №1
[1594]Yenə orada.

liyinə çalışmaları başa düşüləndir. Burada əsas məsələ hansı ideyaya tapınmasından asılı olmayaraq Azərbaycan Milli ideyasına sadiq qalmaq idi. Bu anlamda Münhendə "Azərbaycan" adlı qəzetin nəşri Azərbaycanın bir rəmzinə çevrildi, bu qəzeti bütün azərbaycanlılar özünükü hesab etdilər. O, yazırdı: "Zatən Azərbaycan başlanğıcda həmin birliyin simvolu idi. "Azərbaycan" bir firqənin, bir sinfin və ya bir təşkilatın orqanı deyildi. "Azərbaycan" milli bir orqan idi və felən rəsmi hökumət mövqeyini rəy və mülahazatını izhar edəcəyinə, öz yolunu sərbəstcəsinə cızıb öz qənaətini bəyan edirdi. Bu xüsusda, vaxtında nəşriyyat işləri ilə məşğul olan nazirlərimizdən rəhmətlik Nəsib bəyin geniş nəzəriliyini, təbiətinin nazikliyini və ona məxsus xüsusiyyətini hörmətlə analım. Özü partiya üzvü olduğu halda hökumətin rəsmi orqanını partiyaçı olmayan bir şəxsə həvalə etməsi həddi-zatında bir simvolik jest idi. Onun üçün millət firqənin önündə gedirdi. Halbuki indiki firqəçilər bəzən firqə təəssübünü o qədər irəli götürdülər ki, milləti adəta unutdular".[1595]

Milli İstiqlal uğrunda mübarizə aparan təşkilatların əleyhinə olmayan Hacıbəyli yazırdı ki, həddi-buluğa yetmiş millət olan Azərbaycan türkləri arasında müxtəlif cərəyanlar ola bilər: "Biz bu cərəyanların gəlişməsini və vətənimizə faydalı olmasını yurdumuzun qurtuluşundan sonra ancaq düşünə bilirik. Mühacirətdə bizi düşündürməsi lazım gələn və bizi düşündürən ancaq və ancaq gözəl yurdumuzun qurtuluşu olmalıdır. Bu qurtuluşu qolaylaşdırmaq və bu məqsədlə uğraşmaq hər bir Azəri-Türk cocuğu və ya fərdi üçün müqəddəs bir vəzifədir. Bu yolda hər bir vəsilədən istifadə etməliyik, çünki millətimiz böyük bir təhlükə içində yaşayır".[1596]

Hacıbəyli hesab edirdi ki, Azərbaycanın istiqlalı uğrunda mücadilə verən Milli Birlik Məclisi isə heç bir partiya üçün çalışmır: "Onun yalnız bir hədəfi və və bir məfkurəsi var: Yurdumuzun qurtuluşu! Azəri Türklərini bu gün bir-birindən ayıran proqram məsələsi deyil, onları ayıran psixoloji bir amildir ki, təəssüf ki, əlaqəli zəvat o nöqtəni anlamırlar və anlamamazlıqla da Azəri-Türklərini

[1595] Yenə orada.
[1596] Yenə orada.

müxtəlif zümrələrə bölürlər. 27 nisan fəlakətinin amillərini unutmayaq. Gözəl vətənimizi firqəçiliyin hızlanması yıxdı, uçuruma sürüklədi. Firqə təəssübü bir millətin birliyini daima pozar. Təbii bir firqə daxilində namuslu, istedadlı ünsürlərin də mövcud olduğu inkar edilə bilməz. Biz bütün vətəndaşlarımıza hörmət və sevgi bağlarıyla bağlıyız. Onun üçün bu gün gərək firqəçi və gərəksə müstəqil və firqəsiz Azəri-Türklərinin hamısını üç rəngli bayrağımız altında toplanıb hamımız bərabər bir yerdə vətənimizin qurtarılması uğrunda çalışmağa dəvət edirik. Azərbaycan davam edir”.[1597]

1953-cü ildə “Azərbaycan” dərgisində yayımlanan “Bir millətin namusu” adlı məqaləsində isə C. Hacıbəyli yazırdı ki, 28 may həm milli istiqlalımızın anımı, həm də əzilən bir millətin haqq səsidir: “May ayı yalnız milli istiqlalımızın anım günü kimi deyil, eyni zamanda AzərbaycanTürk millətinin düşmən tərəfindən tapdalanan və əzilən haqqının qorunması və yüksəldilməsi ayı kimi də anılır. Məşum 27 aprel hadisəsinin nəcib millətimizi nə qədər rəzalətə düçar etdiyi hər kəsə bəllidir. Bəzi fitnəkarların etdiyi əməllərə rəğmən, əvvəlcə də söylədiyim kimi, bu tarixi faciəyə səbəb olan məqamları burada xatırlamaq istəmirəm. Çünki bizimlə ünsiyyətdə olan əcnəbilərə - istər dost, istərsə də düşmən olsun – öz zəif nöqtələrimizi açıb göstərməkdən çəkinirəm. Lakin bu faciənin nəticələrini hamılıqla bildiyimizdən, hər bir Azərbaycan türkü, hadisənin anılması qarşısında heyrət və nifrətini saxlamaqdan çəkinməz”.[1598]

C.Hacıbəyli o fikirlə razılşamırdı ki, Sovet Rusiyası Azərbaycanı müqavimətsiz işğal etmişdir. Yəni Azərbaycan türklərinin vətənlərini Sovet Rusiyasına asanlıqla, müqavimət göstərmədən, etirazlar etmədən buraxması fikri doğru deyildir. O, buna nümunə kimi Gəncə üsyanını göstərirdi: “Gəncə üsyanı millətimizin tapdanmasına qarşı olan bir qəhrəmanlıq dastanıdır. Eyni zamanda şəxsi mənfəətləri naminə şöhrət qazanmaq istəyən siyasilərlə Azərbaycan türkünün fərqini göstərən bir olaydır. Hər halda Gəncədə may aylarında axan türk qanı, - belə deyək - 27 aprel “hadisəsi” za-

[1597]Yenə orada.
[1598] Hacıbəyli C. Bir millətin namusu. “Azərbaycan” yurnalı, Münhen, 1953, №8

manı millətimizə atılan ləkəni silib götürdü. Doğrusu, verdiyimiz qurbanlar çox ağır oldu. Başqa şərtlər altında, başqa zamanda, ayrı-ayrı cəbhələrdə eyni vaxtda müqavimət göstərmiş olsaydıq, nəticə bu qədər ağır olmazdı. Lakin, nə etmək olar, "təqdiri qəza" belə imiş. Hər halda belə ağır qurbana amadə olan qəhrəmanlarımız tərəddüd etmədilər".[1599]

Deməli, 28 Mayda istiqlala qovuşan Azərbaycan türkləri iki il sonra Azərbaycanın istiqlalını qorumaq üçün də Sovet Rusiyası ilə savaşmışlar. Bu anlamda Azərbaycan türkləri üçün 28 may yalnız Milli İstiqlalımızın yaranması günü kimi yox, eyni zamanda Vətən uğrunda şəhid verdiyi gündür. Hacıbəyli yazırdı: "Cavad xanların istehkamı olan qoca və gözəl Gəncəmizdə Azərbaycan Türklərinə məxsus gələnəkləri qəhrəmancasına müdafiə edən Cahangir bəylər, Cavad bəylər, Məhəmməd Mirzələr, Hüsrəv Mirzələr, Mirzadələr, Sarı Ələkbərlər, Qaçaq Qənbərlər, Qara Mehdilər və onlar kimiləri millətimizin şərəfli əsgərləridir. Lakin bunların heç bir partiya ilə əlaqələri yoxdur. Bu qəhrəmanlar şeflik iddiasında deyillər. Bununla bərabər, onlar öz milli vəzifələrini fədakarlıqla yerinə yetirməkdən də çəkinmədilər. Milli namusumuz yolunda şəhid olan bu qəhrəman yurddaşlarımıza Ulu Tanrıdan min rəhmət diləyir, sağ qalanlara isə can sağlığı arzu edirik. Ey qəhrəman və əziz Şəhid övladlarımız, Azərbaycan milləti dünyada tək bir azərbaycanlı türkü qalana qədər sizləri unutmayacaq. Yatdığınız ana torpaqlarda rahat-rahat uyuyun!".[1600]

**Kommunizmin təniqidi və Sovet rejiminə qarşı birgə mücadilə.** O, "Hürr dünya Türk xalqlarını Sovetlərin imhasından qurtarmalı" məqaləsində yazırdı ki, bir milyondan artıq Kırım və Quzey Qafqaz Turk müsəlmanlarını məhv etmə planı bolşeviklərin vəhşətini və bügünkü Rusiyayı idarə edənlərin canavarlığını, bir kərə daha, artıqlamasıyla bütün dünyaya göstərmişdir. Onun fikrincə, ən müstəbid II Nikolay hökumətinin Türk-müsəlmanlara yapdığı zülmlər bolşevik rusların yapdıqları yanında sönük

[1599] Hacıbəyli C. Bir millətin namusu. "Azərbaycan" yur., Münhen, 1953, №8
[1600] Hacıbəyli C. Bir millətin namusu. "Azərbaycan" yur., Münhen, 1953, №8

qalmaqdadır: "O dövrdə türk-müsəlmanlar qardaş Türkiyəyə tərd olunurdu. İndi isə məsum vətəndaşlarımız qadınlı-çocuqlu topdan Sibiryaya sürülüyorlar ki, orada sovetlər üçün çalışa-çalışa ölsünlər. Yalnız Krım və Quzey Qafqaz qardaşlarımız deyil, digər türk-müsəlman xalqları da imha *(məhv)* ediliyorlar. Abxaziyanın müsəlman əhalisi haradadır? Keçən il "Ali Sovet" seçimlərində Abxaziyadan seçilmiş on bir müməssil *(nümayəndə)* arasında tək bir müsəlman ismi görünmədi. 16 osetin müməssillərindən biri də müsəlman deyil, halbuki bu millətin yarısı müsəlman idi. On bir acar müməssilləri arasında müsəlmanların sayı yalnız üçdür". [1601]

Hacıbəyli yazırdı ki, türk-musəlman məmləkətləri ilə müqayisədə Ermənistan numayəndələrinin hamısı erməni, gürcü nümayəndələri arasında isə yalnız bir rus vardır: "Son vaxtlara qədər türkləri kommunizm-internasyonalizm bayrağı altında tədricən imha edən Kreml indi marksları, engelsləri hətta leninləri belə buraxıb dəhşətli ivanların, dəli petroların, birinci nikolayların, yermolovların, sisyanovların bayrağı altında türk-müsəlmanları terroristik ruslaşdırma metodu ilə topdan imha etməkdədir. Bunun qarşısını buradan, vətəndaşlarımızı rus xalqına qarşı qışqırtmaqla, yüz milyonluq rus xalqına salonlarda meydan oxumaqla, qısası yalançı pəhlivanlıqla alamayız. Bizə düşən vəzifə qardaşlarımızın fəci halını, gündən-günə hürr dünyaya xatırlatmaqdır. Bu işi bütün Rus, Ukrayna, Belorus, Ermənistan, Gürcüstan demokratları bizimlə birlikdə yapmalıdırlar. Hürr dünya bilməlidir ki, Sovet-Rus imperializminə bütün varlıqları ilə müqavimət göstərən türk-müsəlmanlardır. Əski rus imperializmini ən vəhşətli, ən çirkin şəkildə canlandıran İosif Cuqaşvili-Stalin, türk-müsəlmanları yer üzündən qaldırmaq üçün əlindən gələni əsirgəməmiş və əsirgəməyəcək. Hürriyyət aşiqi bu əsl insanları yalnız hürr dünya qurtara bilir. Biz insanlıq adına hürr dünyanın şərəfinə müraciət edirik". [1602]

---

[1601] Hacıbəyli Ceyhun bəy. "Hürr dünya Türk xalqlarını Sovetlərin imhasından qurtarmalı". "Azərbaycan" dərgisi, Münhen, 1951, №1

[1602]Yenə orada.

1952-ci ildə "Visbadendən – Ştarnberqə" məqaləsində də o, yazırdı ki, SSRİ-yə qarşı mübarizədə önəmli bir neçə məsələ var. Onlardan biri "Rusiya millətləri" anlayışından imtina etməkdir. Çünki artıq Rusiya millətləri deyil, müstəqil dövlətlər var. Onlardan biri də milli və müstəqil Azərbaycandır. Hacıbəyli yazırdı: "Bu təklifi biz qəti surətdə etdik: vaxtilə biz öz istiqlalımızı elan etmişik, bizləri artıq "Rusiya" cildinə daxil etmək doğru olmaz".[1603]

Hacıbəyliyə görə ikinci önəmli məsələ SSRİ-yə qarşı mübarizədə vahid mərkəzin olmasıdır; vahid mərkəz məsələsində rus və qeyri-rus millətlərin, o cümlədən Azərbaycan. Gürcüstan və Türkistan millətlərinin bir araya gəlməsi mümkündür. Onun fikrincə, özünü SSRİ-yə müxalif sayan rusların bir çox hallarda qeyri-səmimlik göstərmələri onların problemidir. Ancaq buna baxmayaraq ABŞ-ın ruslarla işləmələrinə də Hacıbəyli normal baxırdı. O yazırdı: "Ruslarsız antibolşevik cəbhə düzəlməsini amerikalılar qeyri-mümkün sayırlar. Haqlımıdırlar və ya səhv edirlər, bu başqa məsələ. Hər halda yüz milyonluq bir kütləni ihmal etmək istəmirlər. Amerika ictimaiyyətinin dəstəklədiyi fikri dəyişdirmək üçün uzun illər lazımdır".[1604] O, "Rusiya demokratları hansı məqamlarda bolşeviklərlə qovuşurlar?" məqaləsində də rus müxalifətiylə bolşeviklər arasinda çox fərq olmadığını yazırdı.

Onun fransızca qələmə aldığı əsərləri içərisində sosializmin saxta və insanlığa zidd mahiyyətini göstərən bir neçə hekayəsi də diqqəti cəlb edir. "Müəzzinin lənəti" adlı kəskin süjetli hekayənin mövzusu Azərbaycanda sovet hakimiyyətinin ilk illərində müəzzin ata ilə ateist oğulun timsalında dindarlarla Allahsızların barışmaz, amansız qarşıdurmasından, mübarizəsindən götürülmüşdür. Burada cərəyan edən hadisələr yalnız ata ilə oğulun yox, bütün cəmiyyətin faciəsi kimi ümumiləşdirilmişdir. Kommunizm cəmiyyəti quruculuğu adı altında insanlar zorla milli-mənəvi dəyərlərindən uzaqlaşdırılır, adət-ənənələrə köklü zərbə vurlurdu. Hacıbəyli yazırdı: "Bundan belə uşaqlarla ataları arasında olan pərdə aradan

---

[1603]Hacıbəyli C. Visbadendən–Ştarnberqə . "Azərbaycan" dərgisi, Münhen,1952, №5

[1604] Hacıbəyli C. Visbadendən–Ştarnberqə. "Azərbaycan" dərgisi, Münhen, 1952,№5

götürüldü, hörmət və adət qaydaları yoxa çıxdı. Demək olar ki, hər gün molla onun patriarx ləyaqətini və müqəddəs dindar hisslərini şoka salan eyhamlar eşidirdi... Həyat öz ailəsinin içində molla Abdullaya dözülməz görünürdü. Evi məhəllənin bütün ateistlərinin yığışdığı karvansaraya dönmüşdü".[1605]

"Sovet əxlaqı" ilə, yəni "formaca milli, məzmunca sosialist ruh"da yetişən yeni nəsil milli-dini adət-ənənələri nəinki qəbul etmək istəmir, üstəlik bolşeviklərin təhriki ilə aşağılayıcı üsullara, hədə-qorxuya baş vururdular. Bunun ən bariz nümunələrindən biri də şəhər və kəndlərdə təşkil edilən "maarifləndirci iclaslar" idi. Həmin "maarifləndirci iclaslar"da əsas tənqid hədəfi əsasən milli-dini adət-ənənlər olurdu. Hacıbəyli yazırdı: "Hökumət nümayəndəsinin qısa giriş sözündən sonra məruzəçi söz aldı... Nəhayət, o, mövzunun ən canlı hissəsinə, İslama keçdi. O, çıxışına belə bir başlıq vermişdi: "İslam – merkantil və imperialist təbiətli kapitalizmin təcəssümüdür" (həm iclas, həm də adı çəkilən mövzu baş vermiş gerçək həqiqətdir). Onun yaranması, - deyə o, izah etdi, - iqtisadi və siyasi amillər kompleksi ilə təhrik olunmuşdur. Məruzəçi öz çıxışını davam etdirdikcə, dindarların əsəbiliyi getdikcə artırdı. Yoldaş Quliyev Peyğəmbərin şəxsiyyətindən danışmağa başlayarkən, onun adını heç bir fərqləndirici və hörmətli bir tutulsuz, qısaca "Məhəmməd" səsləndirəndə , qoca müəzzin hiddətli bir qışqırıq çıxarmaqdan özünü saxlaya bilmədi, bu qışqırıq da həmin anda ateistlərin alqış xorunda boğuldu".[1606]

Qoca müəzzin üçün isə yalnız dözülməz olan məruzəçinin Quranın "mövhumatçı ruhunu", onun "antidemokratik", "antifeminist" konsepsiyalarını damğalaması deyil, eyni zamanda oğlunun da bu antiislami, antimilli, bir sözlə antiinsani prosesdə iştirak etməsi idi. Hacıbəyli yazırdı: "Molla Abdulla bu səs gurultusu xaosunda oğlunun səsini eşitməyə bilmədi, bu, onu ağrıtdı və sözünü ağzında qoydu. Fərhad isə, əksinə, özünün ən yaxşı formasında idi. O söz aldı və yoldaşlarının aramsız alqışları

[1605] Hacıbəyli C. Müəzzizənin lənəti. // Seçilmiş əsərləri. Bakı, Elm, 2017, s.50
[1606]Yenə orada, s.53

altında bir çıxış improvizə etdi. Özünü "keçmiş molla oğlu" adlandıraraq o, bi "psevdo-dindarlar"ın hiylələrini, zahiri "ləyaqət" pərdəsi altında sadəlövh və avam adamları necə aldatdıqlarını ifşa etməyə başladı. Bu cür vədedici girişidən sonra gənc ateist öz sələflərinin dinini "bəşəriyyətə" qarşı olmazın cinayətlərində mühakimə edərək onlara qarşı kəskin tənqid hücumuna keçdi".[1607] Əsərin finalında minarənin uçması, mömin ata ilə ateist oğulun uçqunun altında qalaraq faciəli şəkildə can verməsi əslində Sovet rejiminin gələcək aqibətinə bir işarədir. Çünki rus kommunistləri "allahsızlaşdırma" adı altında cəmiyyəti yalnız zorla dinsizləşdirmir, eyni zamanda bütün milli-mənəvi dəyərləri yerlə-yeksan edirdi. [1608] Ümumiyyətlə, bu hekayə Sovet hakimiyyətinin ilk illərinin Azərbaycan ailəsinə, cəmiyyətinə gətirdiyi milli-mənəvi naqisliklərin parlaq bədii təcəssümüdür; allahsızların, ateistlərin bütövlükdə sovet din siyasətinin iç üzünü açan, ifşa edən nadir sənət nümunələrindəndir; insanları bataqlığa, çirkaba sürüyən, Moskva nökərlərinin – yerli partiya rəhbərlərinin dardüşüncəli, saxta və yalançı, eyni zamanda iddialı və təkəbbürlü simasını üzə çıxaran qiymətli sənət əsəridir.[1609]

Prof. Vaqif Sultanlı da hesab edir ki, "Müəzzinin lənəti" hekayəsində sovet siyasi rejiminin Azərbaycan xalqının başına gətirdiyi fəlakətin canlı bədii mənzərəsi yaradılmışdır: "Yazıçı öz qəhrəmanı olan Molla Abdulla və onun ailəsinin taleyi fonunda yaşanılan faciənin sosial-siyasi və mənəvi-əxlaqi tərəflərini əks etdirməyə çalışmışdır. Hekayənin sonunda təsvir olunan hadisələrin fəlakətlə bitməsi rəmzi-simvolik məna daşıyır və dolayısı ilə sovet cəmiyyətinin ideoloji tənəzzülünün qaçılmazlığı anlamında dərk olunur".[1610]

---

[1607]Yenə orada, s.53
[1608]Yenə oraada, s.58-59
[1609] Tahirli Abid. Ceyhun Hacıbəylinin həyat və yaradıcılıq yoluna bir nəzər // Hacıbəyli Ceyhun. Seçilmiş əsərləri. Bakı, Elm, 2017, s.21
[1610]Sultanlı Vaqif. Ceyhun Hacıbəyli // Fikir və əməl böyüklərimiz. Bakı, "Nurlar" NPM, 2014, s.335

O, "Nejdanovun işi" hekayəsində də sovet rejiminin totlaitar simasını, yəni insanları hansı üsullarla şərləyərək cəmiyyətdə xof yaratmasından bəhs etmişdir. Hər bir insanın sovet cəmiyyətində bolşevizm ittihamları ilə üz-üzə gəlməsi qaçınılmazdır və Nejdanovda bundan qurtula bilməmişdir.[1611]

Onun "Azərbaycan"da dərc etdirdiyi "Şamaxı məhkəməsi, yaxud bir xainin mükafatı" adlı əsərində ötən əsrin otuzuncu illərində, həmçinin İkinci Dünya müharibəsindən sonra Stalin repressiya rejimindən heç kimin sığorta olunmamasından, "casusların və xalq düşmənlərinin"ən ucqar əyalət məktəbləri, kolxoz və sovxozlarda göstərdiyi "təxribat işlərindən", "vətənpərvər və sayıq"sovet vətəndaşlarının onları "ifşa etməsindən"bəhs olunur, rejimin və kommunist ideologiyasının, Sovet məhkəmə sisteminin çürüklüyü və antihumanist mahiyyəti bütün çılpaqlığı ilə açılır.[1612]

Bütün bunları bolşevik Həmid Sultanovun başına gələnlərin timsalında qələmə alan Hacıbəyli yazırdı ki, o, Cümhuriyyətin süqutu ərəfəsində və 27 aprel işğalından sonrakı dövrdə rus bolşeviklərinə "sədaqət"lə xidmət göstərib onlarla birlikdə, əli milli ruhlu insanların qanına bulaşdığı halda, indi özü müttəhimlər kürsüsündə "millətçilik"lə damğalanmaqdadır: "Həmid Sultanovun şəxsiyyətinə gəlincə "fəziləti" vəsf edilən şu Moskva uşağına bu gün Sovet mətbuatı belə "koplimentlər" istifadə edir: "Alçaq faşist nökəri!" və yaxud: "Zəhmətkeşləri sevməyən şu "alicənab" bəyzadə!...", "azəri millətinə bəslədiyi kin-küdürü yaxşıca örtmək məqsədi ilə kəndisini firqə içərisinə soxan haydut" v.s.... Məhkəmə iclasında baş müttəhim Həmid Sultanov kolaycasına "ürəyini boşaltdı": 1934 sənəsindən bəri "Azərbaycan əksinqilabçı mərkəzində iştirak edirmiş. Müttəhim bütün "arkadaşlarının" isimlərini verir: hamısı onunla bərabər, öz vətənlərini Sovet

---

[1611] Hacıbəyli Ceyhun. Nejdanovun işi // Seçilmiş əsərləri. Bakı, Elm, 2017, s.74-85

[1612] Hacıbəyli C. Şamaxı məhkəməsi, yaxud bir xainin mükafatı. // Seçilmiş əsərləri. Bakı, Elm, 2017, s.306

Rusiyasına təslim edən həriflərdən ibarətdir. Dünənə qədər bunlar hamısı hökumət başında ən mühüm vəzifələri ifa edirlərdi”.[1613]

O, yazırdı ki, bolşevik ittihamçılarına görə H.Sultanovun “millətçiliy”ini ortaya qoyan dəlillərdən biri də onun “nərimançılıq”la bağlılığı imiş. Bu məsələyə aydınlıq gətirmək istəyən Hacıbəyliyə görə Nəriman Nərimanovun adı ilə bağlı olan “nərimançılığ”ın Stalin tərəfdaralarınca milliyyətçilik kimi izahı təsadüfi olmamışdır. Hər halda əvvəlcə Nərimanova böyük dəyər verən kommunistlərin sonradan onu “milliyyətçi” adlandırıb az qala “xalq düşməni” kimi qələmə verilməsinin bəlli səbəbləri vardı. Hacıbəyli yazırdı: “Nərimanovun külü belə Stalinin qəzəbindən qurtara bilmədi. Ölümündən 13 il sonra ona da “xalq düşməni” adı taxıldı. Nərimanov isminə olan bütün müəssisələrdən, sokaklardan, şəhər, qəsəbələrdən onun ismi qaldırıldı. Əqraba və dostları təqib edilərək cəzalandırıldı. Külü Qızıl meydandan çıxarılıb yellərə sovruldu. Nə üçün belə bir təzad, ölçü? Onu bir Tanrı bir də Kreml bilər. Hər halda “nərimançılıq” bu gün burjua milliyyətçiliyi” kimi tələqqi edilir. Milliyyətçilərə yazıq!”.[1614]

Deməli, Hacıbəyli üçün Nərimanovun dünyagörüşünün, siyasi xəttinin milliyyətçilik kimi yozulması, hətta bunun “nərimançılıq” adlandırılması qəbuledilməz idi. Onun fikrincə, nə Nərimanovun, nə də 27 aprel faciəsinə qədər onun rəhbərlik etdiyi “Hümmət”in milliyyətçiliklə heç bir əlaqəsi olmamışdır: “Bunu da qeyd edəlim ki, “Hümmət” partiyası “millətçi” bir partiya deyil, bəlkə də həmin partiya birinci kommunistpərvər ünsürlərdən ibarət idi. Həmin partiya birinci kommunist başçılarının pərvərdigahı idi. vaxtilə həmin partiya Stalinin kəndisinin şəxsən patronluğunu kamal-iftixarla anladırdı. Şimdi isə, “hümmət”çilər hamısı şübhəli və yaxud günahkar ünsürlərdən ibarət imişlər...”.[1615]

Hacıbəyli “SSRİ-də ziyalılar” məqaləsində Sovetlər Birliyində elm və elmi təmsil edən ziyalıların totalitarizmin

---

[1613]Yenə orada, s.312
[1614]Yenə orada, s.316
[1615]Yenə orada, s.322

qurbanına çevrilməsindən bəhs etmişdir. O yazırdı ki, kommunist doktrinasının prinsiplərinə uyğun olaraq insan fəaliyyətinin bütün sahələri kimi elm də sosialistləşdirilir, onu idarə edən, onun işini nəzarətdə saxlayan dövlətə tabe etdirilirdi: "Hakimiyyəti ələ keçirən kimi bolşeviklər elmi və alimləri özlərinə xidmət etməyə vadar etdilər. Xeyli alim "təxribatçı" və "əksinqilabçı" damğası ilə işdən qovuldu və proletar İnstitutlarında tələm-tələsik hazırlanmış qırmızı professorlarla əvəz olundu. Məktəb və universitetlər casusluq mərkəzinə çevrildi, şagird və tələbələr, onların fikrincə, özünü rejimə düşmən kimi aparan müəllimləri satmağa təhrik olunurdular. Satqınlıq ruhunu inkişaf etdirmək məqsədi ilə ÇK-nın, sonradan GPU-nun agentləri tələbələrin arasına yerləşdirlirdi".[1616]

O, yazırdı ki, Sovet rəhbərliyi marksizm-leninizm təliminə uymayan alimləri elmi adlardan məhrum edərək ya məhv edir, ya da sürgünə göndərirdi: "Elmi adlarından məhrum olmayan, həbs olunmayan deportasiyaya düçar qalmayan, güllələnməyənlər isə odioz rejimin, ən azı, olmazın təhqirlərə məruz qalırdılar. Onlara durmadan rejimə münasibətdə loyallıq göstərmək, sovet sistemini tərifləyən cürbəcür "qərarlara" imza atmaq lazım gəlirdi. Onlar həm də bu və ya digər alim və ziyalı qrupun etdiyi cinayət işlərindən sonra rəhbərlik tərəfindən təşkil olunmuş xüsusi "iclaslarda" iştirak etməli və uca əslə "fəhlə və kəndli hökumətinin" öz həmkarlarına qarşı qəbul etdiyi deportasiya və ya ölüm cəzası tədbirlərini bəyəndiklərini ifadə etməli idilər".[1617]

Ona görə bolşeviklər kommunist olmayan, onlara rəğbət bəsləməyən alimlərə nəinki təzyiq göstərir, onları qarabaqara izləyir, hətta dərhal nəticə verən praktiki elmlərdən savayı, ən qiymətli tətbiqi əhəmiyyət kəsb edən məhsuldar, böyük nəzəri kəşflərə belə fikir vermirdilər; bu azmış kimi, onlar sırf bolşevik elmi yaratmaq iddiasına qədər getmişdilər.[1618] Hacıbəyli yazırdı: "Daha irəli gedərək özünü əsl ortodoks kommunist hesab edən

---

[1616] Hacıbəyli C. SSRİ-də ziyalılar. // Seçilmiş əsərləri. Bakı, Elm, 2017, s.333
[1617]Yen orada, s.337
[1618]Yen orada, s.339

alimlərdən tələb edirlər ki, yeni marksist düşüncə metodu və forması tətbiq etsinlər, çünki marksist burjuy kimi düşünməli deyil; burada söhbət məşhur "diamat"dan və ya dialektik materializmdən gedirdi. Marksist düşüncəli hər bir alim ixtisasından asılı olmayaraq, bolşeviklərin marksizmin müjdəçilərindən biri hesab etdikləri Hegelin dialektikasından irəli gələn metod əsasında düşünməlidirlər, onlar öz elm sahələrinə aid olan fenomenləri Karl Marksdan əvvəlki filosofların göstərdikləri materialist sistemə, Marksın irəli sürdüyü iqtisadi və ictimai prinsiplərə və xüsusilə bu prinsiplərin arasında birinci sırada duransinfi mübarizə prinsipinə uyğunlaşdırmalıdırlar. Beləliklə, başıbəlalı rus alimləri mexanikanın, kimyəvi təcrübənin, mikrobların tədqiqatının heç bir probleminə onları sinfi mübarizə ilə əlaqələndirmədən yanaşa bilmirlər".[1619]

O, daha sonra yazırdı ki, elmləri bolşevikləşdirmək üçün əlindən gələni edən Sovetlər ədəbiyyatı da kölə vəziyyətinə gətirib çıxartmışdılar. Bu sahədə bolşeviklər yalnız marksist doktrinasının konsepsiyasına itaət etməklə kifayətlənmir, həm də ədəbiyyatın müxtəlif formalarında – güclü təbliğat vasitələrini təşkil edən fəlsəfi və sosioloji esselər, tarixi tədqiqatlar, romanlar, teatr, jurnal və qəzet məqalələri ilə praktiki məqsədli tədbirlər həyata keçiridilər. Hacıbəyli yazırdı: "Prinsip etibarilə yazıçılar azad idilər, lakin sovet hökuməti ya bütün nəşriyyatları öz inhisarına çevrir, ya da ən azı bütün qeyri-hökumət nəşriyyatlarında (məsələn, korporativ həmkarlar tərəfindən idarə olunan nəşriyyat kimi) öz senzorlarını yerləşdirirdi; yəni, müəlliflər nə istəsə yaza bilərdilər, ancaq yazdıqları Rusiyanın yeni sahiblərinin xoşuna gəlməsə, əsərləri nəşr etdirmək mümkün deyildi".[1620]

O, yazırdı ki, bolşeviklər digər sahələrdə olduğu kimi ədəbiyyatı ədəbiyyatlıqdan çıxarıb bolşevizmin siyasi maşası halına gətirib çıxarmışlar: "Xülasə, bolşeviklərin gözündə yaxşı görünmək üçün ədəbiyyat özünəməxus olmaqdan əl çəkməli idi: poeziya, lirika, psixologiya, keçmişin düzgün canlandırılması,

[1619]Yen orada, s.340
[1620]Yen orada, s.341

müasir adət və ənənələrin təsviri, bunlar hamısı burjuaziyanın qalıqlarından başqa bir şey deyil. Proletar yazıçı bolşevik ritmi üstündə eyni mövzularda, sinfi mübarizə, sosializm quruculuğu, beşillik plan, zavod və kolxozların həyatı barədə məhdud yazılarla kifayətlənməli idi. Ədəbiyyatın "sadələşdirilməsi" ilə öyünən bolşeviklər buna doğrudan da "nail olublar".[1621]

Hacıbəyliyə görə Sovetlər imperiyasında dözülməzlik ruhu, dar düşüncəli konsepsiya və tam mənada senzorların axmaqlığı tamamilə təssəvvürolunmaz idi: "Beləliklə, SSRİ-də elm ya kobud surətdə praktikaya tətbiq olunaraq, ya da qrotesk bir metodla dəyişdirilmişdir; ədəbiyyat, poeziya, roman, tarixi tədqiqatlar, fəlsəfi esselər senzuranın gülünc tələbləri nəticəsində iflic vəziyyətinə salınmış və məhv edilmişdir. Kremlin sahiblərinin ünvanına nəinki tənqid, leninizmin sərt konsepsiyaları ilə harmoniya təşkil etməyən, hər hansı bir fikir, çıxış, eyham, təsvir, bolşevik demaqogiyası və pafosuna istinad etməyən hər hansı ifadə tərzi qadağandır. Ümumiyyətlə, demək olar ki, SSRİ-də fikir və yazmaq azadlığı tamamilə aradan götürülmüş və ziyalılar əsl kölə vəziyyətinə salınmışdılar. Bu köləlik yaşamaq və acından ölməmək məcburiyyətindən irəli gəlir. Özlərinin və ailələrinin səfalətə məruz qalmasından qorxuya düşən bu bədbəxtlərin bəzilərinin hansı dərəcədə alçalmağını və deqeradasiyaya düçar olmasını görmək lazımdır".[1622]

Hacıbəylinin yazdığı digər bədii əsərlərdə də əsasən sovet cəmiyyətindəki həyat tərzi, rejimin eybəcərlikləri tənqid hədəfidir. Onun bu şəkildə diqqətçəkən publisistika nümunələrindən biri irihəcmli memuarı "Bir il xəyallarda və bütöv bir ömür" adlanır. Abid Tahirliyə görə C.Hacıbəylinin bu memuarı bir istiqlal aşiqinin gündəliyi, həyat dastanıdır: "Əsərin ruh, xəmiri, belə demək mümkünsə, "Azərbaycan davası"ndan yoğrulmuşdur. Bu, çoxşaxəli, çoxplanlı, ilk baxışda yüzlərlə mövzunun pərakəndə toplusu, lakin dərindən nüfuz etdikcə vahid süjeti, ideya istiqaməti, məramı olan

---

[1621] Yen orada, s.343
[1622] Yen orada, s.351

bitkin əsərdir".[1623] Tahirliyə görə Hacıbəyli bədii əsərlərində də tez-tez işlətdiyi özünəxas, doğma vasitədən – yuxulardan memuarında məharətlə istifadə etmişdir: Bu priyom müəllifə reallıqları, tarixi hadisələri obyektiv təqdim etməyə nəinki mane olur əksinə, olayların daha koloritli, daha canlı və təsirli çatdırılmasına yardım edir. Başqa sözlə desək, bu memuar Ceyhun Hacıbəylinin  yaddaşı ilə xəyallarının birgə məhsuludur, onlar bir-birini inkar etmir, bir-birini tamamlayır".[1624]

**Beləliklə,** Ceyhun Hacıbəylinin əsərləri bugünkü yeni nəsil tərəfindən bütövlükdə mənimsənilərsə, o zaman Azərbaycan xalqı türkçülüyün/azərbaycançılığın hansı mərhələlərdən keçməsini bilməklə yanaşı, eyni zamanda onun əməyini də sözün həqiqi mənasında dərk etmiş olacaqlar. Hər halda C.Hacıbəylinin istər Quzey Azərbaycanda, istərsə də mühacirətdə yaşadığı dövrdə Azərbaycan türkçülüyü, islamçılıq və milli fəlsəfi fikir tarixi baxımından verdiyi əmək danılmazdır. Xüsusilə də, onun Azərbaycan xalqının ictimai fikir tarixi baxımından apardığı araşdırmalar diqqəti çəkir. O, bu araşdırmaları ilə milli ictimai-fəlsəfi fikri tariximizə aid dəyərli əsərlər ortaya qoymuşdur.Digər tərəfdən Hacıbəyli Sovet Rusiyasının kommunizm, ya da marksizm-leninizm təliminin əsil mahiyyətinin ortaya çıxmasında da müstəsna zehni və fiziki əmək sərf etmişdir. O, kommunizmin rus bolşeviklərinin əlində əslində bir müstəmləkəçilik siyasəti olmasını və qeyri-rus xalqlara, xüsusilə də Türk-Müsəlman xalqlara qarşı yönəldilməsini ifadə etməyə çalışmışdır. Eyni zamanda, əsərlərində milli-mənəvi dəyərlərə qarşı mübarizədə bolşevizmin gec-tec məğlub olacağını da böyük ustalıqla göstərə bilmişdir.

---

[1623] Tahirli Abid. Ceyhun Hacıbəylinin həyat və yaradıcılıq yoluna bir nəzər // Hacıbəyli Ceyhun. Seçilmiş əsərləri. Bakı, Elm, 2017, s.25

[1624]Yenə orada, s.27

# HÜSEYN BAYKARA

**Həyat və yaradıcılığı.** Azərbaycan Türk mütəfəkkiri Hüseyn Baykara (1904-1984), ya da Qara Hüseynov gənc yaşlarından Azərbaycanın istiqlalı uğrunda mübarizəyə qoşulmuşdur. Sovet Rusiyasının Azərbaycanı işğal etməsi ilə barışmayan Baykaranın Bakı Dövlət Universitetinin Tarix fakültəsinə daxil olması təsadüfi deyildi. O, hələ gənc yaşlarından Azərbaycan türklərinin tarixini, mədəniyyətini və dövlətçilik ənənələrini öyrənməyi əsas məqsədlərdən biri kimi müəyyənləşdirmişdir. BDU-nun tələbəsi olduğu illərdə fəallığı ilə seçilən Baykara bir neçə dəfə həbs olunmuşdur. Daima DTK-nın nəzarətində olan Baykara təqiblərdən qurtulmaq üçün 1927-ci ildə "İran"a, az sonra isə Türkiyəyə üz tutmuşdur. O, 1927-ci ildən etibarən Türkiyədə mühacirət həyatı yaşamağa məcbur olmuşdur.[1625] Türkiyədə İstanbul universitetinin Hüquq fakültəsinə daxil olan Baykara bu ali təhsil ocağını bitirdikdən sonra Elazığ və İstanbulda uzun müddət prokuror vəzifəsində çalışmışdır.

Azərbaycan Milli İdeyasını siyasi-ideoloji və fəlsəfi yöndən araşdıran Baykara Azərbaycanın Milli İstiqlal tarixinə, Azərbaycan Milli ideyasının yaranmasına və formalaşmasına həsr etdiyi əsərləri ilə diqqəti daha çox cəlb etmişdir. O, bu dövrdə Türkiyədə nəşr olunan qəzət və jurnallarda fəal şəkildə iştirak etmişdir. Onun "Azəri-Türk", "Odlu Yurd" və başqa qəzet-jurnallarda Azəbaycan Türk xalqının mədəniyyəti, ədəbiyyati və onun ziyalıları ilə bağlı onlarla elmi-publisistik məqalələri dərc edilmişdir. Türkiyədə ailə həyatı quran Baykara 1984-cü ildə İstanbulda vəfat etmişdir.

Onun əsas əsərləri aşağıdakılardır: "Azərbaycanda yeniləşmə hərəkatları. XIX yüzil" (1966), "İran inqilabı və azadlıq hərəkatı", "Azərbaycan istiqlal mübarizəsi tarixi" (1975) və b.

**İctimai-siyasi görüşləri.** Baykaranın yaradıcılığında 19-cu əsrdən başlayaraq Azərbaycan xalqının yeni bir dövrə qədəm qoyması, çar Rusiyası tərəfindən qəsb edilmiş milli azadlığın yenidən

---

[1625] Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.4

qazanılması məsələləri xüsusi yer tutmuşdur. O, Azərbaycan xalqının hansı şərait və mühitdə yeniləşmənin zəruriliyini dərk etməsi ilə bağlı yazırdı: "Millətlərin həyatında hər dövr, hər çağ bir neçə yüz ili əhatə edir. Bu çağların dönüm illəri də olduqca uzun müddətdə inkişaf edir və yetkinləşir. Azərbaycan tarixində yeniləşmə hərəkatının əvvəlcə ziyalıların fikir dünyasında doğması və fikirlərin həqiqi xalq həyatına keçirilməsi, yəni Qərb anlamında renessans, reformasiya çağları ondan sonra bu çağların üstündə qurulan hürriyyət, azadlıq mübarizəsi dövrü bir əsrdən çox bir müddəti əhatə etmişdir. Millətlərin oyanış, renessans çağında o millətin içindən yetişən ziyalı rəhbər şəxslərə görə, əvvəlcə mənsub olduğu millətin kimliyi və keçmiş zamanlardakı vəziyyəti araşdırılır, incələnir sonra geri qalmış və bu geriliyin səbəbi ilə yabançı imperalist millətin əsarəti altına düşmüş olan xalqa onun kimliyi tanıdılır. Beləliklə, müstəmləkədə olan xalq öz mənliyini öyrənir, keçmiş zamanlarda atalarının əsarət altında yaşamadıqlarını və sözün əsil mənasında müstəqil, azad yaşadıqlarını, müstəqil dövlət qurduqlarını anlayır. Nəticədə millətin şüuru oyanır, azadlıq mübarizəsinə başlayır".[1626] Onun fikrincə, Quzey Azərbaycan xalqında da milli oyanış, yeniləşmə hərəkatı A.A.Bakıxanov və Mirzə Kazım bəylə başlamış,[1627] M.F.Axundzadə və H.B.Zərdabinin timsalında yüksələn xətlə davam etmişdir. Çünki ilk dəfə A.A.Bakıxanov və Mirzə Kazım bəy müsəlman xalqlarının tənəzzül etməsini daha aydın şəkildə görmüş,[1628] hər ikisi tarixi əsərlər yazmışlar. Baykaraya görə Mirzə Kazım bəy ilk olaraq "Dərbəndnamə", Bakıxanov daha sonra "Gülüstani-İrəm" tarixi əsəri ilə Azərbaycan və Qafqazda milli vətənpərvərliyi yenidən gündəmə gətirmişlər.[1629]

Qeyd edək ki, Mirzə Kazım bəy "Dərbəndnamə" əsərinin müəllifi deyil, sadəcə tərcüməçisi və naşiridir. Digər tərəfdən Bay-

---

[1626]Yenə orada, s.56-57

[1627] Baykara Hüseyin. Azerbaycanda yenileşmə hareketlerı. XIX yüzil.Ankara, Türk Kültürünü Araştırma Enstitüsü, 1966, s.57, 71

[1628] Yenə orada, s.75

[1629]Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.57

karanın Mirzə Kazım bəyi türk-tatar qrammatikasını yazmasını yüksək qiymətləndirərək ilk Azərbaycan Türk vətənsevəri kimi qiymətləndirməsi də əsasən, doğru deyil: "Mirzə Kazım bəyin bu incələmələri türk-tatar qrammatikasını yazması və o dövrdə rus çar hökumətinə verdiyi raportda rus idarəsi altında olan bütün türklərin başa düşə biləcəkləri türk dili yaradılması fikrini təklif etməsi ilə onu ilk Azərbaycan Türk vətənsevəri saysaq, elə bilirəm ki, yanılmarıq".[1630] Mirzə Kazımbəyin məqsədi "rus idarəsi altında olan bütün türklərin başa düşə biləcəkləri türk dili yaradılması" olmayıb, sadəcə Azərbaycan türklərinin dilini formalaşdırmağa çalışmış, "Azərbaycan ləhcəsi"ndən bəhs etmişdir. Bu işə isə Mirzə Kazım bəyi çar Rusiyasının ideoloqları cəlb etmişdilər: "Məsələn, Axundzadə "əlifba və din islahatları" uğrunda çalışdığı bir zamanda, M.Kazım bəy Türk dilinin ayrı-ayrı ləhcələri və ənənəvi İslam dininə aidiyyəti olmayan ayrı-ayrı təriqətlərlə bağlı əsərlər yazmışdır. Çar Rusiyası maraqlı idi ki, burada yaşayan türk-tatarların vahid millət (Türk: azərbaycanlı, başqurt, özbək, qazax, tatar və b.), vahid dil (Türk dili: Azərbaycan, tatar, qazax və s.), vahid din inancları (İslam dini: sünni, şiə, bəhai, vahabi, şeyxilik və b.) aradan qaldırılsın və parçalansın. Bu mənada, çar Rusiyasında sünni və şiə ayrımçılığı açıq şəkildə təbliğ olunurdu. Çar ideoloqları bu işə Axundzadə, M.Kazım bəy kimi yerli aydınları da cəlb etməyə çalışırdı".[1631]

Baykaraya görə özəlliklə, çar Rusiyasının A.A.Bakıxanovun tarixi əsərini çap etməməsi məhz onun milli ruhu ilə bağlı olmuşdur: "Çarlıq hər kültürəl, mədəni təşəbbüsdə olduğu kimi bu əsərin nəşr olunmasında da Qafqaz xalqlarının bəzən hüznlü və bəzən də öyündürücü şanlı keçmişlərini öyrənmələrini istəməmişdir".[1632] Bizcə də, Bakıxanov çağdaşları arasında ilk dəfə Qərb-Xristian mədəniyyəti ilə Türk-İslam-Şərq mədəniyyətini müqayisə edərək inanılmaz dərəcədə doğru nəticəyə gəlmişdi. O, əsarət altında yaşayan

---

[1630]Yenə orada, s.57

[1631] Ələkbərov F.Q. Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış (II hissə). Bakı, "Elm və Təhsil", 2014, s.84

[1632]Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.58

türklərin parlaq bir zəkası kimi, Rus-Qərb-Xristian mədəniyyətinin yüksəlişini də, bunun fonunda Türk-İslam-Şərq mədəniyyətinin tənəzzülünü də çox doğru görə bilmişdi. Bir mədəniyyətin yüksəlişi yalnız onun təmsilçilərinin ideyalarının məhsulu deyil, eyni zamanda tənəzzül edən mədəniyyətin durğunluq içində olması ilə bağlıdır. Başqa sözlə, birinin tərəqqisi o zaman məlum olur ki, o birisi tənəzzül edir. Özəlliklə, tənəzzül edənin tərəqqi edəni nə dərəcədə önəmsəməsindən çox şey asıldır. Burada iki yol, iki seçənək var: 1) tənəzzül edənin özünün çıxış yolu araması, yaxud da ən azından başqasından örnək almaqla yanaşı, sonucda öz yolunu milli yolunu seçməsidir. 2) tənəzzül edənin özünün çıxış yolu aramaq əvəzinə yalnız tərəqqi edəni təqib və təqlid etməsidir. Baykara yazırdı: "İlk dəfə Şirvan və Dağıstanın ümumi tarixini yazan Abbasqulu Ağanın yaşadığı çağ və mövzunun zorluğu düşünülürsə, ona XIX yüzyılın ən önəmli Türk tarixçisi yerini vermək lazımdır".[1633]

Onun fikrincə, Axundzadə isə müasirləri arasında Avropa mədəniyyətini daha dərindən başa düşmüş və onun dönməz təbliğatçısı olmuşdur: "Mirzə Fətəli və H.Zərdabinin o dövrdəki yazılarında, mübarizələrində Azərbaycan üçün istədikləri bunlardır: Azad siyasi bir həyat, xalq demokratiyası, məhsul vasitələrinin inkişaf etdirilməsi, təbii sərvətlərdən xalqın rifahı üçün geniş surətdə fayda təmin edilməsi… Bütün bu nemətlərin xalq üçün əldə edilməsi tezisinin başında, onların ən öndə gələn ideoloji arzuları "feodal monarxiya" rejimini zorla devirmək istəyi vardır. Bu iş yerinə yetirilmədən o biri işlərin həyata keçməyəcəyini daha çox Mirzə Fətəli başa düşmüş və anlamışdır".[1634] Axundzadə əsasən,dində yeniləşmənin aparılmasının vacibliyini doğru müəyyənləşdirmiş, millət və din anlayışlarını vaxtında ayırmağı bacarmış, dinin tənqidində xeyli dərəcədə haqlı olmuş, ancaq islamlığa və türklüyə münasibətdə ifrata varmış, İslam dünyasının bütün problemlərini yalnız Türk-İslam dövlətləri (Osmanlı, Qacarlar) ilə bağlamaqla ciddi yanlışlıqlara yol vermişdi.

---

[1633] Baykara Hüseyin. Azerbaycanda yenileşme hareketlerı. XIX yüzil.Ankara, Türk Kültürünü Araştırma Enstitüsü, 1966, s.73
[1634]Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.62-63

Baykara Azərbaycan milli mədəniyyəti və fəlsəfəsinin inkişafında milli aydınlarımızın rolunu göstərmək üçün, onların ana dillərində əsərlərinin sayının çoxalmasını göstərirdi. O yazırdı ki, XIX əsrədək nisbətən daha çox fars və ərəb dillərində yazmağa üstünlük verən Azərbaycan Türk mütəfəkkirləri, bu dövrdən etibarən əsasən Türk dilində əsərlər yazırdılar. Özəlliklə, Avropada baş qaldıran milliyyətçilik hissləri Türk ziyalıları arasında da baş qaldırmışdı. Bu anlamda Azəbaycan türklərinin ziyalı təbəqəsi arasında yaranan milliyyətçilik hissləri düzgün dəyərləndirlməlidir. Hər halda, bütövlükdə dünyada baş verən ideoloji-siyasi, elmi-fəlsəfi yeniliklər Azərbaycan Türk mədəniyyətinədə öz təsirini göstərirdi.

Quzey Azərbaycan aydınları arasında bu yeniliklərə ilk reaksiya verənlər Bakıxanov, Vazeh, Zakir, Axundzadə, Zərdabi kimi mütəfəkkirlərimiz olmuşdur ki, Baykara onları irsini Azərbaycan xalqı üçün bir fikir rəhbəri, ideya xəzinəsi saymışdır. Onun fikrincə, siyasi anlamda “millət” sözünü ilk dəfə M.F.Axundzadə işlətmiş, daha sonra H.Zərdabi “Əkinçi”də “millət” anlayışına dair öz fikirlərini irəli sürmüşdür. Azərbaycanda millətçilik ruhunun daha qabarıq şəkildə ortaya çıxması isə Ünsüzadə qardaşlarının nəşr etdirdiyi “Kəşkül” və “Ziya” qəzetləri ilə bağlı olmuşdur. Belə ki, həmin qəzetlərdə 1880-ci illərdə nəşr olunan məqalələrdə “Türk milləti”, “Azərbaycan türkləri” sözlərindən istifadə olunmuşdur.[1635]

Bütün bunları Azərbaycan türklərinin yenidən milli oyanışı baxımdan mühüm amillər hesab edən Baykaraya görə XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşamış H.Zərdabi, M.Ə.Sabir, N.Nərimanov, C.Məmmədquluzadə, H.Mahmudbəyli, S.M.Qənizadənin və başqalarının yorulmadan çalışmaları sayəsində Azərbaycanda 1880-ci ildən sonra “rus-tatar məktəbi” adlanan bir çox məktəblərin açılması yeni bir mərhələni təşkil etmişdir. Onun fikrincə, bu məktəblərin Azərbaycanın elmi həyatında oynadığı rolu inkar etmək olmaz: “XIX əsrin axırlarında Türk pedaqoqları xalqın və varlıların yardımı sayəsində öz milli məktəblərini açmağa başladılar. Həmin məktəblərdə ruslaşdırma yox idi… 1890-cı ildə Azərbaycanda on

---

[1635] Yenə orada, s.81

iki gimnaziya və realnı məktəb vardı. Bu məktəblərdə oxuyan 5700 tələbədən 91 nəfəri türk idi”.[1636]

Ümumilikdə, XIX əsrin ortalarından etibarən milli ictimai-fəlsəfi fikir əsasən, milli-dini (milli özünüdərk-millətləşmə və ilkin İslamı təbliğ etmək) və müasirləşmək (Qərb mədəniyyətini mənimsəmək) ideyaları ilə bağlı olmuşdur. Xüsusilə, 1830-1900-cu illərdə təməli qoyulan milli ideyanın, yəni milli-dini və yeniləşmək ideyalarının ilhamvericiləri isə məzhəpərəstlər, ruhanilər, saray şairləri deyil, mədəni millətçilər, mədəni inqilabçılar – A.A.Bakıxanov, M.F.Axundzadə, C.Əfqani, H.B.Zərdabi və b. olmuşlar. Məhz, ilk dəfə onlar millətin oyanması, birləşməsi və azadlığı üçün savaşa başlamış, milliyyətdən millətə keçməsi prosesində mühüm rol oynamışlar. Eyni zamanda, bu ziyalılar, “müsəlman” dini mənsubiyyəti içində itib-batan Azərbaycan türklərinin milli varlığını qoruması üçün yeni həyat və yeni ictimai münasibətlər tərzini yaratmağa çalışmışlar. İlk növbədə, köhnə ictimai münasibətləri, sxolastik dünyagörüşü yıxmaq üçün savaşa atılan mədəni inqilabçılar xalqına müasirləşmiş bir ədəbiyyat, mətbuat, sənət, teatr, dünyəvi məktəb və maarif verməyə başlamışlar. Baykara yazırdı: “Belə bir ağır zamanda, Azəri Türk cəmiyyəti bir millət olaraq meydana çıxma şüuruna çatmışdır. Çünki miladdan öncə min illərə varan dövrdən bəri ata və babalarının yaşadıqları bir torpaq parçası – “Vətən” vardı, bu torpaqda yaşayan və zamanın axarı ilə inkişaf edən bir Azəri Türk cəmiyyəti vardı. Üçüncü ünsür, bu cəmiyyətin haqqını, iradəsini, varlığını, malını, canını qoruyan, kültür və mədəniyyətini yaradan ziyalı liderləri idi. Onların rəhbərliyi altında tarixin səhnəsinə çıxmaq və üzərlərinə düşən “millət” rolunu oynamaq lazım gələcəkdi. Beləliklə, sözdə deyil, işdə azadlıq uğrunda mübarizə aparmaq lazım idi. Etnik birliyə malik Azərbaycan xalqı vardı, neçə əsrlərdən bəri coğrafi sərhədlərə malik Azərbaycan ölkəsi vardı, yalnız siyasi hakimiyyət, azadlıq yoxdu. Lakin nəyin bahasına olursa-olsun, bütün bunları əldə etmək lazımdı...”.[1637]

---

[1636] Yenə orada, s.53
[1637] Yenə orada, s.82

M.F.Axundzadə, H.Zərdabi, C.Əfqani və başqaları XIX əsrin ikinci yarısında mədəni inqilabın, mədəni türkçülüyün və islamçılığın əsasını qoymuşdur ki, onların davamçıları da XX əsrin əvvəllərində, həmin ideyalara əsaslanaraq azadlıq və milli istiqlal uğrunda mübarizə aparmalı idilər. Çünki müstəqillik üçün gərəkən bütün şərtlər Azərbaycan xalqında vardı. Baykara yazırdı: "Millətin etnik birliyə və kökə əsaslanması lazımdır. Bu sürətlə millət fərdləri arasında tarix birliyi, dil birliyi, ideya birliyi, mədəni və mənfəət birliyi kimi ünsürlər mövcud olmalıdır. Beləliklə, milləti təşkil edən xalqın vətəndaşları arasında bir-birlərinə bağlılıq və keçmiş, yüz illərdən əvvəl yaşamış ulularından və atalarından onlara qalan iftixaredici və kədərləndirici xatirələr ümumi anlayış yaratmaqdır".[1638]

XIX əsrdə yaranan mədəni islamçılıq, mədəni türkçülük və mədəni inqilabçılığı, XX əsrin əvvəllərində Azərbaycan Türk ziyalıları ideoloji şəkilə salmağa çalışaraq, əvvəlcə onu islamçılıq və türkçülük, daha sonra isə Azərbaycan Türk milliyyətçiliyi, ya da azərbaycançılıq (Azərbaycan milli ideyası) kimi formulə etmişlər.

**Milli İstiqlal mübarizəsinin siyasi-ideoloji təhlili.** XX əsrin əvvəllərində ictimai-siyasi və fəlsəfi fikrin milli-demokratik yönü birmənalı şəkildə millətçilik (Türk birliyi), islamçılıq (İslam birliyi), qərbçilik (Avropa mədəniyyəti əsasında müasirləşmək-yeniləşmək) və istiqlalçılıq (müstəqil Azərbaycan) ideyaları ilə bağlı olmuşdu. Burada başlıca məqsəd milli və dini məsələlərin əsas prinsiplərindən kənara çıxmamaq şərti ilə Qərbin müsbət demokratik dəyərlərini də təbliğ etmək idi. Deməli, bu dövrdə milli-demokratik cərəyan Azərbaycan Türk ictimai-fəlsəfi fikrində önəmli yer tutmuşdur. Bu dövrdə Azərbaycan Türk aydınlarının böyük əksəriyyəti (Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə, Ə.M.Topçubaşı, N.Yusifbəyli və b.) milli fəlsəfi dünyagörüşlərində əsas üstünlüyü milli-dini və liberal-demokratik dəyərlərə vermişlər. Onlar dövrün tələblərini də nəzərə almaqla milli və dini dəyərlərə sadiq qaldılar; Azərbaycan türklərinin fəlsəfi, mədəni və dini dünyagörüşü əsasında yeni ideyalar irəli sürdülər. Bu ideyalar idealist dünyagörüşdən əsasən kənara çıxmamış və milli fəlsəfi fikir

[1638] Yenə orada, s.79

zəminində təşəkkül tapmışdır. Məhz bu aydınların irəli sürdüyü ideyalar nəticəsində Azərbaycan çar Rusiyasının müstəmləkəsindən qurtularaq azad və müstəqil bir dövlətə çevrilmişdi. Belə ki, ilk rüşeymləri XIX əsrin ikinci yarısında qoyulan və XX əsrin əvvəllərində sistemləşən Milli azadlıq hərəkatı Azərbaycan Cümhuriyyətinin quruluşu (1918) ilə nəticələndi. Ölkənin siyasi-ideoloji mənzərəsinin dəyişməsində I (1905) və II (1917) Rusiya inqilabları çox mühüm rol oynadı. Şübhəsiz, bu inqilablar dövründə milli liderlərin, milli ideoloqların xalqı öz arxalarınca aparmaları müstəsna yerə malikdir. Məhz onların sayəsində yeni dövrdə Azərbaycanda milli ideyanın təməl prinsipləri müəyyənləşdirildi. Azərbaycanın siyasi azadlığı milli muxtariyyətdən milli istiqlala qədər çox mühüm bir mərhələ keçmiş oldu. Əsas odur ki, "tarixi-coğrafi Azərbaycan" deyimini, müstəqil və milli Azərbaycan anlayışı əvəz etdi. Milli istiqlalın birmənalı şəkildə ideoloqu olan M.Ə.Rəsulzadə Azərbaycan türkçülüyü ideyasını Azərbaycan milli ideologiyasına qədər yüksəldə bilmişdi.

Baykaraya görə XX əsrin əvvəllərində Quzey Azərbaycan türkləri yeni bir mərhələnin başlanğıcında olduğunu anlamış, artıq yenidən toparlanmaq gücünə çatmışdı. Bunun bariz örnəklərindən biri Azərbaycanda milli oyanışın açıq müstəviyə keçməsi idi. Milli oyanışın əsas dayağı milli ziyalılar və onların ərsəyə gətirdikləri əsərləri idi. Milli aydınlar bir tərəfdən xalqı maarifləndirir, digər tərəfdən milli-demokratik dövlət qurmaq üçün ideyalar irəli sürürdülər. Özəlliklə, Azərbaycan Türk aydınlarından Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ə.Topçubaşı və M.Ə.Rəsulzadə mətbuatda dərc olunan yazılarında xalqı oyanışa, birləşməyə, 1905-ci il inqilabının verdiyi haqq və azadlıqlardan maksimum istifadə etməyə çağırmışdı. Baykara yazırdı: "Dünənə kimi uşaqları üçün ana dilində məktəb açmaq imkanı olmayan, qəzet nəşr etdirə bilməyən, seçki hüququ məhdudlaşdırılan və daha bir sıra haqları əlindən alınan bir xalqın birdən-birə nailiyyətlər əldə etməsi çar hökuməti üçün gözlənilməz bir sürpriz oldu".[1639] Doğrudan da, itirilmiş müstəqilliyin yenidən qazanılması yolunda xeyli işlər görülmüşdü. Bu milli işdə Azər-

[1639] Yenə orada, s.111

baycan Türk aydınlarının əvəzsiz rol oynadığını dəfələrlə vurğulayan Baykara hesab edirdi ki, XX əsrin əvvəllərində əsas mübarizə ilk növbədə ruslaşdırma siyasətinə qarşı aparılmışdır. Burada söhbət Azərbaycan torpaqlarına rus kəndlilərin göçürülməsinə qarşı mübarizədən, Türk dilinin məktəblərdə keçirilməsinə nail olmaqdan, milli mətbuatın, milli kitabxanaların yaranmasından gedirdi. H.Baykara yazırdı: "Bu zaman ideologiya baxımından "avropalaşmaq, islamlaşmaq və türkləşmək" fikirləri ətrafında mübahisələr gedirdi. Bütün bu mübahisələrin ətrafında Azəri Türk xalqının milli azadlıq hərəkatı dururdu. Azərbaycan azadlıq hərəkatını azəri xalqının tərəqqipərvər və vətənsevər ruhundan gələn demokratik adət-ənənələrə bağlamaq istəyən ziyalılar çoxluq təşkil edirdilər".[1640]

XX əsrin əvvəllərində Azərbaycan milli aydınları əsasən, üç cəbhədə fəaliyyət göstəriblər: 1) Milli demokratik (İslamçılıq və türkçülük); 2) Liberal-demokratik; 3) Sosial-demokratik. Baykaranın fikrincə, ilk iki cərəyan milli müxalifətə aid olduğu halda, sonuncular beynəlmiləlçi olmuşlar. Ancaq sonralar, 1910-cu illərdən etibarən yerli sosial-demokratlardan bir çoxu, o cümlədən M.Ə.Rəsulzadə də milli-demokratik cəbhəyə keçmişdir. Onun fikrincə, bu üç siyasi-ideoloji cəbhə ilə yanaşı, Quzey Azərbaycanın istiqlalı uğrunda mübarizədə maarifçi-demokratik (realist və romantizm) ədəbi cərəyanı da mühüm rol oynamışdır.[1641] Baykara yazır ki, bu dövrdə Ə.Ağaoğlu geniş və dərin, teoretik şəkildə "islam millətçiliyi"ni, Ə.Hüseynzadə osmanlı türkçülüyünü təbliğ etdiyi bir zamanda, Ə.Topçubaşı "Rusiya müsəlmanlarının birliyi" devizi altında, daha çox Çarlıqdakı müsəman-türk, o cümlədən Azərbaycan Türk xalqının milli-mədəni muxtariyyəti üçün çalışmışdır. H.Baykara belə bir doğru qənaətə gəlir ki, bütövlükdə həmin dövrdə milli ideya baxımından mübahisələr "avropalaşmaq, türkləşmək və islamlaşmaq" ətrafında getmiş və bu mübahisələrin ətrafında Azərbaycan türklərinin milli azadlıq hərəkatı dayanmışdır.[1642]

---

[1640] Yenə orada, s.119
[1641] Yenə orada, s.163-164
[1642] Yenə orada, s.112, 119

Milli xəttin aparıcı daşıyıcıları Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu və Əlimərdan bəy Topçubaşı bir tərəfdən dini-əxlaqi keyfiyyətləri, milli mənsubiyyəti sinfi mübarizə adı altında inkar edən marksist-leninçi və qərbpərəst ifrat tərəqqiçilərə, digər tərəfdən isə hər cürə yeniləşmənin əleyhinə olan mühafizəkarlara qarşı idilər. Milli ideoloqlar cəmiyyətin həyatında milli, dini-əxlaqi keyfiyyətlərin qorunub saxlanılması ilə yanaşı, müsəlman-türk cəmiyyətini yeniləşməsinin zəruriliyindən də bəhs edirdilər. Baykaraya görə Azərbaycan Türk aydınları arasında ilk dəfə Ə.Ağaoğlu islamçılığa daha çox üstünlük verib geniş və dərin, nəzəri şəkildə "İslam millətçiliyi"ni təbliğ etmişdir. Onun fikrincə, Ağaoğlu bir müsəlman ziyalısı kimi əsasən, İslamda islahatlar aparmaqla müsəlman millətlərinin tənəzzüldən qurtarıb tərəqqisinə və yüksəlişinə çalışmışdır.[1643] Bununla da "panislamizm"in siyasiləşməsi, yəni "İslam millətçiliyi" nəzəriyyəsinin yaranması milli məsələnin gündəmə gəlməsi üçün təkanverici rol oynamış, həmin ideyanın əsasında siyasi türkçülük (türk birliyi) və daha sonra etnik-milli türkçülük (Azərbaycan türkçülüyü) təşəkkül tapmışdır. Şübhəsiz, islamçılıqdan türkçülüyə, türkçülükdən Azərbaycan türkçülüyünə gedən yol təkamül nəticəsində baş vermişdir.

Baykaraya görə Milli İstiqlal mübarizəsində Azərbaycanın milli partiyaları da mühüm rol oynayıblar. Azərbaycanın ilk milli partiyası olan "Hümmət"in əsas qurucularından biri Rəsulzadə olmuşdur. Azərbaycan xalqının tarixində ikinci siyasi partiya da 1905-ci ildə Qafqazda ermənilərin türk-müsəlman əhalisinə qarşı törətdikləri qırğın zamanı Ə. Ağaoğlu tərəfindən yaradılan "Difai" Partiyasıdır. Bu partiya yarandığı gündən Azərbaycan xalqı üçün çox böyük işlər görmüşdür. Ağaoğlu 1909-cu ilin əvvəllərində Türkiyəyə mühacirət edib və "Difai" sonralar "Müsavat"a birləşib.[1644] Baykaranın fikrincə, Azərbaycan xalqının siyasi tarixində yer alan üçüncü partiya "Rusiya Müsəlmanları İttifaqı" Partiyasıdır. Ona görə həmin dövrdə bu partiyanın lideri olan Ə.Topçubaşı Ağaoğludan fərqli olaraq liberal baxışları ilə tanınmışdır. O, Ağaoğlunun teosentrik

---

[1643] Yenə orada, s.112, 120-122
[1644] Yenə orada, s.120-122, 186

panislamizmindən çox, dövrün gerçəklərindən çıxış etməyə çalışmışdır: “Sanki o, belə bir ideyanın müvəffəqiyyətlə başa çatmayacağını qabaqcadan hiss etmiş və anlamışdı. Bu məqsədlə o, 1905-ci il inqilabının gətirdiyi azadlıq nemətlərindən Azərbaycan xalqı üçün əlindən gələn qədər daha çox pay qoparmaq istəyirdi”.[1645]

Baykaraya görə Qafqaz müsəlmanlarını “ümmətçilik”dən “millətçiliy”ə yönəldən, onları türkçülük-millətçilik, Azərbaycan milli ideyası ətrafında birləşdirən “Müsavat” Partiyası və onun lideri M.Ə.Rəsulzadə olmuşdur. 1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi münasibətilə çar tərəfindən elan edilən amnistiyadan istifadə edərək Bakıya dönən Rəsulzadə “Müsavat”a yeni milli ruh aşılamış, “Açıq söz” adlı qəzetində Ziya Göyalpın türkçülük, islamlıq və müasirlik üçlü düsturunu yaymağa başlamışdı.[1646] Əslində burada Baykaranın demək istədiyi odur ki, Rəsulzadə Gökalpdan bu üçlü düsturu mənimsəyərək Azərbaycanda davam etdirmişdir. Çünki xüsuslə də, türkçülük ideyası Türkiyədən Azərbaycana ixrac olunmamışdır. Bu baxımdan əvvəllər də, hazırda da xalqa bəzən yanlış bir fikir təlqin edilir ki, Azərbaycana millətçilik, türkçülük və bu kimi milli ideyalar xaricdən gətirilmişdir. Bu, qətiyyən doğru deyil. Milli ideyaların beşiyi Azərbaycan xalqı, Azərbaycan türkləri özü olmuşdur. Yuxarıda apardığımız araşdırmalar da göstərir ki, milli ideologiyanın başlıca qaynağı Azərbaycan türklərinə məxsus milli mənəvi dəyərlər olmuşdur. Milli mənəvi dəyərlərin ideyalar şəklində formalaşması isə birdən-birə baş verməmişdi, o təkamül nəticəsində, tarixi şəraitə uyğun olaraq ortaya çıxmışdır. Bunu, Baykara özü də görüb düzgün qiymətləndirərək yazmışdır: “Azərbaycana milliyyətçilik fikrini Əhməd Ağaoğlu Fransadan, Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə İstanbuldan gətirdiyi düşüncəsi yanlış və əsassızdır. Şəraitin yetişmədiyi bir zamanda kənardan heç kim, heç bir fikir gətirib toplum həyatına yerləşdirə bilməz”.[1647]

---

[1645] Yenə orada, s.112
[1646] Yenə orada, s.186
[1647] Yenə orada, s.76

Deməli, türkçülük məfkurəsi bütün Türk ölkələrində, o cümlədən Azərbaycan və Türkiyədə eyni zamanda yaranmış və inkişaf etmişdir. Yeni dövr tədqiqatçılarından Yaşar Qarayev, Aydın Balayev, Rasim Mirzə və başqaları qeyd edirlər ki, türkçülük şüuru öncə çar Rusiyasının Türk xalqları arasında yaranmış, siyasi türkçülüyün əsasların isə "Həyat" və "Füyuzat"da Azərbaycan türklərindən Ə.Hüseynzadə işləyib hazırlamışdır".[1648] Türkiyəli tədqiqatçı M.Ertuğrul Düzdağ da hesab edir ki, Osmanlı dönəmində türkçülük cərəyanının yaranmasında "çar Rusiyası idarəsindəki Türk diyarlarından gəlmiş fikir və hərəkat adamlarının təsiri olmuşdu".[1649]

1910-cu illərdə Osmanlıda mövcud olan milli cərəyanların kökünün eyni zamanda, çar Rusiyası, o cümlədən Azərbaycanla bağlı olmasını vaxtilə M.Ə.Rəsulzadə, Z.Gökalp, Y.Akçuraoğlu, M.B.Məmmədzadə, Ə.Cəfəroğlu və başqaları da dəfələrlə qeyd etmişlər. Məsələn, Y.Akçuraya görə Ə.Hüseynzadə müsəlman türkləri arasında ilk turançı, ilk panturançı hesab olunurdu.[1650] Rəsulzadə isə bu məsələni bir qədər də dəqiqləşdirərək yazırdı: "Füyuzat" jurnalı "Türk Yurdu"nda olduğu kimi aydın, ardıcıllıqla olmasa da türkçülük konusunu daha öncə işə salmış, hətta mərhum Ziya bəyin son çağlarda "Türk millətindənəm, İslam ümmətindənəm, Qərb mədəniyyətindənəm" çağırışı ilə göstərdiyi anlamı Əli bəy Hüseynzadə "Türk qanlı, İslam etiqadlı və firəng fikirli olaq" formulu ilə açıqlamışdı. Azərbaycan mətbuatının, eləcə sonrakı ədəbiyyatının şüurlu metodik bir biçimdə milli türk ideologiyasını işə salmaq düşüncəsi isə I Dünya savaşı öncəsində, illərində daha çox gəlişmişdir".[1651] Onun fikrincə, beləliklə, Balkan və Dünya müharibələri dövrü Türk milli ideyasının inkişafında dönüş nöqtəsi olmuşdu.[1652]

---

[1648] Balayev Aydın. Məmməd Əmin Rəsulzadə (1884-1955). Bakı, 2011, s.17-18;Mirzə R. Türkçülüyün babası (Əlibəy Hüseynzadənin fikir dünyası). Bakı: Elm 2000,s.33; Qarayev Y. Tarix: yaxından və uzaqdan. Bakı, "Sabah", 1996, s.276

[1649] Düzdağ Ertuğrul.Türkiyede islam ve irkçılık meselesi. İstanbul, Cihad, 1976, s.18

[1650] Akçura Yusif. Türkçülüyün tarixi. Bakı, Qanun, 2010, s.174, 205

[1651] Rəsulzadə M.Ə. Qafqaz türkləri. Bakı, Təknur, 2012, s.48

[1652] Rəsulzadə Məhəmməd Əmin. Panturanizm.Qafqaz sorunu.Bakı,Təknur,2012, s.49

Baykara yazır ki, ilk dövrlərdə sosial-demokratlarla eyni cəbhədə çalışmış Rəsulzadə 1911-1913-cü illərdə C.Əfqaninin yazılarının təsiri altında türkçülük hərəkatına qoşulmuş və Azərbaycanda milli ideyanın əsas ideoloqu olmuşdur: "M.Ə.Rəsulzadənin Azərbaycan istiqlalının elanında və Azərbaycan dövlətinin yaradılmasında xidmətləri əvəzsizdir".[1653] O, yazırdı ki, Əmin bəy yalnız Azərbaycan Türk xalqının qurtuluşu üçünçarpışan bir lider olmayıb, eyni zamanda İslam dünyasının siyasi oyanışı üçünçalışan bir Şərq inqilabçısı və Rus əsiri millətlərin din və irq fərqi göstərmədən xilası üçün uğraşan bir insandır. Bu səbəblə onun fəaliyyəti Azərbaycan və Qafqasiya hüdudlarını aşmışdır. [1654] Baykara yazır ki, Əmin bəy zamanında, ən sol və ən radikal siyasi hərəkatlara qatıldığı və bu konspirativ hərəkatları dəstəklədiyi halda, Türk və Türklük davasını əsla əldən buraxmamışdır. Bu dövrdə Əmin bəy əvvəlcə rəhmətlik Kərbalayi Vəli, A.Kazımzadə, M.Ə.Rəsuloğlu və arkadaşları tərəfindən qurulan radikal bir komitənin başına keçmiş, bu komitənin fəaliyyət sahəsini genişlətmişdir. Baykara yazırdı: "Əmin bəy haqqında yazı yazan bəzi dostlar Əmin bəyin ilk siyasi fəaliyyətə sosialist olaraq başladığını sükutla keçmək istərlər. Halbuki, bu durum Əmin bəyi kiçildəcək bir olay deyil, biləks onun böyüklüyünün başlıca dəlili sayılmaqdadır. Əmin bəy kimi görüş obyektivi geniş bir adam ilk siyasi həyata atılarkən başqa cür hərəkət edəməzdi. O zaman bir qisim Azərbaycan Türk münəvvərləri rusca qonuşmayı bir məziyyət sayıyorlardı, qüvvətli bir Türk inqilab təşəkkülü yox idi. Rus çarlığının istibdadı açıqca bir Türk təşəkkülü qurmaya və türkcə qəzetə çıxarmaya imkan vermiyordu. Digər tərəfdən qüvvətli və gizli bir Rus Sosyal-Demokrat partiyası vardı. Bu partiya Qafqasiya və Rusiya çapında fəaliyyət göstəriyor və kəndinə məxsus tarixi vardı. İştə, Əmin bəy bu hərəkata qatılıyor və bu hərəkat içindən kəndi Türk xalqı üçün nə qurtara biləcəyini

---

[1653]Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.192

[1654]Baykara H. "M.Ə.Rəsulzadə haqqında bir neçə söz". "Azərbaycan" aylıq kultur dərgisi, Ankara,mart 1957, il: 6, sayı: 12 (60).

düşünürdü. Sonra unutmamaq lazımdır ki, o zaman inqilabçılar üçün ilk yaxın hədəf Rus çarlıq istibdadının devrilməsi idi. Realist Əmin bəyin seçəcəyi ən doğru yol, bu böyük hərəkata qatılmaq, ona yardım etmək və əvvəla Rus çarlığının istibdadını yıxmaqdı. Çarlıq yıxıldıqdan sonra Əmin bəy yuxarıda qeyd etdiyimiz kəndi ifadəsiylə də bəlirtdiyi kimi, mənsub olduğu Azərbaycan milliyyətçiliyi və istiqlalı yollarını cızacaqdı. Rus inqilab tarixi, başlanğıcda Əmin bəyin bu görüşünün doğru olduğunu göstərmişdir. Birinci Dunya savaşı içində Çarlıq yıxılmış, Əmin bəy öncə rus əsiri türklər üçün milli-məhəlli muxtariyyət şüarıyla ortaya atılmış və sonra Cənubi Qafqasiya millətləri idarəsi "Seym" məclisi ilə Tiflisə intiqal edincə, orada Qafqasiyanın tamamilə Rusiyadan ayrılması, mütəaqibən hürr və müstəqil Azərbaycan idealını mənimsəmiş və nəticədə müvəffəq də olmuşdur".[1655]

O, yazırdı ki, Əmin bəyi şəxsən İstanbulda mühacirətdə tanıyıb: "O, bir Türk dövləti qurmuş olan adam, həyatın min bir cəfasını çəkdiyi və yarın əkmək bulub-bulamayacağı məşkuk *(şubhəli)* bir duruma düşdüyü zamanda dəxi iman və ideolojisindən zərrə qədər qaib etmiş deyildi. Rus imperializmi ilə mücadilə (rəngi nə olursa-olsun) onda təsəvvüfi bir inanc halına gəlmişdi. Onun mühacirətdə gördüyüm təvazöini və təvəkkülünü heç bir zaman unutamayacağım. Azərbaycan davasına yarar – deyə, ən kiçik və ən ümidsiz görülən hadisələr və şəxslər üzərində durur və böyük bir səbr və təhəmmüllə uğraşırdı. Heç bir haqlı səbəb yoxkən, müarizlərinin *(opponentlərinin)* kəndisinə aşırı təərrüzlərini acı təbəssümlərlə keçişdirirdi. Bu müarizlərin əksəriyyəti Azərbaycanda ikən burunları da qanamamış, milli davamız üçün ən ufaq bir risqə dəxi girməmiş, fəqət təsaduflərə borclu olaraq çox qolaylıqla hürr Ana Vətən – Türkiyəyə gəlincə, birər qəhrəman kəsilmişlərdir. Əmin bəyin göstərişdən uzaq və sadə yaşayışı özəniləcək qədər ideal dərəcədə idi. XX yüzilin birinci yarısında Qafqasiyada bu tarix yapan insan, şəxsi haqqında sensasyonal çıxışlardan və göstərişdən əsla xoşlanmazdı. Əmin bəy xatiratını bihaqqın yazsa

---

[1655] Yenə orada

idi, həyatının sonuna qədər Amerikan dərgilərindən alacağı dollarlar kəndisini rahatca bəslərdi. Fəqət, o, bəzən günlük əkməyi təhlükəyə düşdüyü zamanlarda belə, böylə bir şeyə yanaşmamışdır. Əmin bəy, şair Tofiq Fikrətin dediyi kimi:

*Qaldığım varsa da gah əkməksiz,*
*Qalmadım indiyədək məsləksiz...*

dediyi tipdən böyuk bir insandı. Azərbaycanda gizli yeraltı fəaliyyətində tanıdığım və bərabərcə çalışdığım və bu gün böyük əksəriyyəti həyatda olmayan və qurşuna düzülən güzidə şəhid arkadaşlarımız Əmin bəydən bəhs edərkən, daima "Böyuk kişi" – deyə, kəndisini anarlardı. Azərbaycan İstiqlal mücadiləsinin bu əziz şəhidlərini anarkən, xatirələri önündə əyilərək təkrar edirəm ki, Rəsulzadə Məhəmməd Əmin bəy Azərbaycanın və rus əsiri millətlərin qurtuluş mücadiləsi uğrunda bütün həyatını vəqf etmiş eşsiz "Böyuk bir Kişi" idi!".[1656]

Tarixçi Aydın Balayevin də qeyd etdiyi kimi, Rəsulzadə XX əsrin əvvəllərində azərbaycançılıq konsepsiyasının bitkin, bütöv sistemini işləyib hazırlamış və bu konsepsiya nəticəsində də dünyanın siyasi xəritəsində "Azərbaycan" adlı dövlətin yaranması mümkün olmuşdır.[1657] Balayevə görə Rəsulzadənin və "müsavatçılığ"ın ciddi opponentlərindən biri hesab olunan N.Nərimanov da etiraf edərək bildirmişdir ki, Azərbaycanın istiqlal ideyası M.Ə.Rəsulzadənin lideri olduğu "Müsavat" Partiyası ilə assosiasiya olunur.[1658]

Akademik Yaşar Qarayevin təbrincə desək, bu isə o deməkdir ki, Məhəmməd Əmin Atatürklə yanaşı, Türk xalqlarının XX əsrdə dünyaya verdiyi iki müdrik ərindən, iki türk dahisindən biridir: "İki türk xalqının iki xilaskarı bu adlar oldular. Türk adını millətlərin və xalqların demokratiya, hüquqi dövlət və istiqlal xəritəsinə hətta Atatürkdən də əvvəl Rəsulzadə həkk etdi… Məncə, indi Atatürkün əsil məqbərəsi heç də Türkiyədəki ən möhtəşəm daş-divar, bədii abidə kompleksi deyildir, yox: azad, münəvvər, suveren Türkiyənin özüdür.

---

[1656] Yenə orada
[1657] Balayev Aydın. Məmməd Əmin Rəsulzadə (1884-1955). Bakı, 2011, s.8-9
[1658] Balayev Aydın. Məmməd Əmin Rəsulzadə (1884-1955). Bakı, 2011, s.66

Və Məhəmməd Əmin Rəsulzadə də Azərbaycanda yalnız belə bir möhtəşəm abidəyə, mənəvi mehraba, milli məbədə köç edə, əbədi qayıda bilər”.[1659] Bütün bunları təsdiq etməklə yanaşı, biz isə hesab edirik ki, ümumilikdə XX əsrdə Azərbaycan ədəbiyyatına, tarixinə, mədəniyyətinə də M.Ə.Rəsulzadə qədər diqqət yetirən, bunları qələmə alan, qiymətləndirən ikinci bir azərbaycanlı mütəfəkkir yoxdur. Bu baxımdan Məhəmməd Əmin mədəniyyətimizin, adət-ənənələrimizin, milli dövlətçiliyimizin unudulmaması və yaşadılması üçün əlindən gələni etmiş, yeni nəslin yaddaşında əbədi bir iz buraxmışdır.[1660]

Baykaraya görə Rəsulzadənin lideri olduğu “Müsavat” öncə milli ərazi və milli muxtariyyət tərəfdarı olsalar da, 1-ci və 2-ci rus inqilablarının gedişi, Qafqaz hadisələri onları özlərinin öncədən “uzaq məqsəd” olaraq planlaşdırdıqları Azərbaycan istiqlalı yoluna sürükləmişdi: “Azərbaycan istiqlal mübarizəsi tarixində “Azərbaycan istiqlalına” nə rast gəlinmiş, nə də baş verən siyasi hadisə olmuşdur. Azərbaycan xalqının ruhundan doğan bu istiqlal hadisəsi tarixin axarı içində öz yerini tapmışdır”.[1661] Baykara yuxardakı sözləri ifadə edərkən əsas vurğunu “Azərbaycan” anlayışına salmış, bu mənada tarixən “Azərbaycan istiqlalına” rast gəlinmədyini iddia etmişdir. Məlum olduğu kimi, 1918-ci ilə qədər “Azərbaycan” anlayışı coğrafi ərazi mənasında işlədilmiş, bu ərazidə təşəkkül tapmış Türk dövlətləri isə müxtəlif adlarla (Kuti, Subar, Turukkum, Manna, İskit, Atropatena, Albaniya-Aran, Şirvanşahlar, İldənizlər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər və b.) tarixə düşmüşdür. Tarixdə “Azərbaycan” adlı ilk Türk dövləti isə 1918-ci ildə yaranmışdır ki, Baykara da məhz bu faktordan çıxış etmişdir.

Baykara Azərbaycan Milli İstiqlalının məğlubiyyətindən də geniş şəkildə bəhs etmişdir. Onun fikrincə, Azərbaycan Cümhuriyyətinin süqutunda əsas rolu xarici amillər oynamışdır. Bu baxımdan Baykara Sovet Rusiyasının Mustafa Kamal Atatürkün başçılıq

---

[1659] Qarayev Y. Tarix: yaxından və uzaqdan. Bakı, “Sabah”, 1996, s.126

[1660] Ələkbərov F.Q. Məhəmməd Əmin Rəsulzadənin dünyagörüşü. Bakı “Elm”, 2007, s.260

[1661] Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.233

etdiyi Milli Mücadilə hərəkatına hərbi yardım adı altında Azərbaycanı işğal etməsi məsələsini özəlliklə, vurğulamışdır. O zaman Osmanlının yerində qurulmağa başlayan yeni Türkiyənin rəhbərləri başda Mustafa Kamal olmaqla, hesab edirdilər ki, az qala bütün Qərb ölkələrinin Osmanlıya müharibə açdıqları bir vaxtda türklərin bolşeviklərlə, yəni Sovet Rusiyası ilə əməkdaşlıq etməsi məcburidir.[1662] Xüsusilə, Türkiyə və Azərbaycandakı bəzi kommunist düşüncəli qüvvələrin (Xəlil paşa, Kazım Qarabəkir paşa, N.Nərimanov, Ə.Qarayev və b.) Sovet Rusiyasına həddən artıq etimad göstərməsi, xüsusilə Azərbaycan Milli hökumətinin Sovet hökuməti ilə əvəz olunmasının zəruriliyi ilə bağlı mülahizələr Azərbaycanın faciəsi, yəni Milli hökumətin devrilməsi ilə nəticələnmişdir. Hər halda, bunu yalnız Azərbaycan tədqiqatçıları deyil, bir sıra Türkiyə alimləri – Tarık Zafer Tunaya, Doğan Avçıoğlu, Səlahəddin Tansel, Aclan Sayılqan və başqaları da etiraf ediblər.[1663]

Bu baxımdan Cümhuriyyətin süqutunda milli ideoloqların başarsızlığını önə çəkmək, çox da inandırıcı deyil. Bəzi tədqiqatçıların yazdığının əksinə olaraq Cümhuriyyətin lideri M.Ə.Rəsulzadə həmin dövrdə Sovet Rusiyasının Türkiyəyə yardım bəhanəsindən istifadə edərək Azərbaycanı işğal edəcəyini anladığı üçün, parlamentin son toplantısında hakimiyyətin yerli kommunistlərə təslim edilməsinin əleyhinə çıxmışdır. O, bəyan edirdi ki, Sovet-Rus ordusunun Türkiyəyə yardım etməsi naminə Azərbaycanın qapıları bolşeviklərin üzünə açıq olsa da, bu onun müstəqilliyi bahasına başa gəlməməlidir.[1664] Ancaq Rəsulzadənin də yazdığı kimi, həmin dövrdə türklərin Azərbaycan üzərində mənəvi nüfuzundan istifadə ilə bolşeviklər Yaxın Şərqdə özlərini o qədər sevdirə bildilər ki, onlar müsəlmanların könülünü fəth edərək, Azərbaycanın istila deyil, əksinə, İstanbulu belə qurtaracaqlarına inandırdılar.[1665]

---

[1662] Atatürkün Azərbaycan siyasəti (öz dili ilə). Bakı, Çaşıoğlu, 2008, s.12-13

[1663]Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.261-267

[1664] Yaqublu Nəsiman. Məmməd Əmin Rəsulzadə. Bakı: Gənclik, 1991, s.146-147

[1665] Rəsulzadə M.Ə. Əsrimizin Siyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı, Gənclik, 1991, s.50-51

Baykaranın da Azərbaycanın süqutu ilə bağlı gəldiyi qənaət, məhz bunun daxil problemlərdən çox, xarici amillərdən qaynaqlanmasıyla bağlı olmuşdur. Özəlliklə, Azərbaycanla Türkiyə arasında nifaq yaradılaraq, Azərbaycanın meydanda tək buraxılması Türk düşmənlərinin əsas vəzifəsi idi. O, yazırdı: "Bu uzun hərəkat və Azərbaycan hökumətinə qarşı yürüdülən xaincəsinə intriqanı açıqlamaq yönündən çox maraqlıdır. Burada deyilir ki, Azərbaycana axırıncı dəfə gedən türk zabitləri hökumətin yeni yaranmış ordusuna qəbul edilmir və vaqe olan müraciətlər bir-bir başdan edilirdi. Bu vəziyyətdə ingilislərin təsiri olduğu kimi, Azərbaycan hökuməti türk zabitlərinin ordunun nüfuzunu əllərinə almalarından qorxurdu".[1666] Bundan sui-istifadə edən türk düşmənləri, o cümlədən boşeviklər Azərbaycanı ələ keçirmək üçün bu oyundan məharətlə istifadə etdilər. Baykara yazırdı ki, Azərbaycana qarşı birləşmiş qüvvələrin oyunu nəticəsində 1920-ci ilin 23 aprelində yaradılmış Türkiyə Böyük Millər Məclisinin rəhbərliyi Azərbaycan Cümhuriyyətinə inanmamaq həddinə gəlmişdi: "Anadolu milli azadlıq hərəkatına heç bir vaxt laqeyd qalmayan və etmək istədiyi yardım Moskva agentlərinin ustalığı sayəsində türk paşa və zabitlərinin əllərilə sabotaj edilən, önlənən məsum, günahsız Azərbaycan xalqı haqqında qardaş bir millət tərəfindən qəti qərar verilmişdir".[1667]

Bu baxımdan reallıq odur ki, M.Ə.Rəsulzadə deyil, Türkiyənin və Azərbaycanın dövlət xadimlərindən bəziləri ilk dövrlərdə, doğrudan da Sovet Rusiyasına etimad göstərmiş, onun sovetləşmə ideyasının Azərbaycanda reallaşmasına ya əngəl olmamış (Mustafa Kamal, Xəlil paşa və b.), ya da bu prosesdə birbaşa şəkildə iştirak etmişlər (N.Nərimanov və b.). Ancaq sonralar onlar Sovet Rusiyasının "sovetləşmə" ideyası adı altında işğalçılıq siyasətini anlamışdılarsa da, artıq çox gec olmuşdur. Bunu, Türkiyə Cümhuriyyətinin qurucusu, ilk Cümhurbaşqanı Atatürk də, Sovet Azərbaycanının rəhbəri N.Nərimanov da etiraf etmişlər.[1668]

[1666]Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.273
[1667]Yenə orada, s.274
[1668] Nərimanov N. Seçilmiş əsərləri. Bakı, "Lider nəşriyyatı", 2004, s.466

**Milli romantizim və realizmə münasibət.** XX əsrin əvvəllərində Azərbaycanda mövcud olmuş ədəbi-fəlsəfi məktəblərdən romantizm və realizm məsələlərinə əsərlərində geniş yer ayıran Baykaraya görə onun nümayəndələri Azərbaycan türklərinin təkcə elmə yiyələnməsi, onu mənimsəməsi ilə kifayətlənməmişlər, eyni zamanda Azərbaycan xalqının hüquqları və istiqlaliyyəti uğrunda mübarizə aparmışlar. Başqa sözlə, onlar Azərbaycan türklərinin milli azadlıq, mədəniyyət mücadiləsində xalqın arzularını, ideyalarını və bu ideyaları gerçəkləşdirməyə çalışan millət qəhrəmanlarını tərənnüm etmişlər. Ümumiyyətlə, Azərbaycan romantizmində və realizmində inqilab və azadlıq, milli tarix və milli tale, vətən və milli dəyərlərə münasibət mühüm yer tutur. H.Baykaranın realistlər və romantiklər arasında apardığı müqayisə də maraqlıdır: "Romantiklər cəmiyyətin yaralarını sağaltmağa çalışırdılar. Realistlər isə cəmiyyətin yarasına doğrudan-doğruya neştəri batırır və axan irini təmizləyərək cəmiyyətin yaralarını sağaltmağa çalışırdlar".[1669]

Baykaranın fikrincə, Azərbaycanın milli azadlıq hərəkatında romantizim (H.Cavid, M.Hadi, A.Səhhət, A.Şaiq və b.) və realist (C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, M.Ə.Sabir, F.b.Köçərli və b.) ədəbi məktəbin nümayəndələri mühüm rol oynamışlar: "Azərbaycan türklərinin milli azadlıq, mütərəqqi mədəniyyət mücadiləsində bu romantik ədib və şairlər xalqın arzularını, ideyalarını və bu ideyaları gerçəkləşdirmək, həyata keçirmək üçün səy edən, hətta həyatlarını qurban verən millət qəhrəmanlarını bədii əsərlərində dilə gətirib, xalqı ruhlandıraraq onlara milli azadlıq mübarizələrini həyata keçirmək üçün rəhbərlik etmişdilər. Azərbaycanda romantizm cərəyanı ilə yanaşı çox qüvvəli, realist və Azərbaycan xalqının coğrafi çevrəsindən xarici aləmə köçmək həvəsi göstərmədən, öz kökü üzərində tarixi keçmişi və ənənələrilə qaynaşaraq öz milli azadlıq və mütərəqqi mədəniyyət məsələlərini həll etməkdə böyük səy göstərən, düha dərəcəsində enerji və qabiliyyətə sahib ədib, şair və yazarların təmsil etdikləri realist ədəbi məktəbi vardı".[1670]

---

[1669] Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.174
[1670] Yenə orada, s.164

Çox təəssüf ki, yanlış olaraq SSRİ dövründə bəzi tədqiqatçılar özəliklə, Azərbaycan Türk romantizminin nümyanədələrini mütərəqqi və mürtəce adı altında iki qrupa ayırmışlar. Guya, mürtəce romantiklərin əsas nümayəndəsi də Ə.Hüseynzadə olmuşdur. Şübhəsiz, bu cür bölgünün aparılmasında əsas məqsəd Azərbaycan Türk romantizminin nümayəndələrinin milli ideyaya münasibətlərini pərdələmək idi. Bu baxımdan hesab edirik ki, XX əsrin əvvəllərində Azərbaycanda milli əlamətləri özündə əks etdirən yalnız mütərəqqi Azərbaycan Türk romantizmi (Ə.Hüseynzadə, M.Hadi, H.Cavid, A.Səhhət, A.Şaiq və b.) olmuşdur. Şübhəsiz, bizi burada daha çox maraqlandıran milli romantizmin nümayəndələrinin milli ideyaya, o cümlədən islamlaşmaq, türkləşmək, qərbləşmək və Azərbaycan türkçülüyünə münasibətidir. Baykara yazırdı: "İrticaçı, mühafizəkar yazarlara və onları müdafiə edən irtica zümrəsinə qarşı Azərbaycan romantiklərinin etirazı və mübarizəsi o zaman azərbaycanlılar arasında böyük başarı qazanmışdır".[1671]

H.Baykaranın fikrincə, ancaq milli romantizmin nümayəndələri Azərbaycan türklərinin təkcə maariflənməsi ilə kifayətlənməmişlər: "Azərbaycan türklərinin hüquqlarına, hürriyyət və istiqlaliyyətlərinə qovuşması üçün mücadiləyə də səsləmişlər. Onların fikrincə, mütərəqqi cəmiyyət elmsiz, irfansız olmaz. Elmi-irfanı olan toplum isə irəliləyər, ucalar və başqa toplumlar arasında özünəlayiq yeri əldə etmək üçün öncə haqqını, hüriyyətini, istiqlalını almağa çalışır, ölür, öldürür, ən nəhayət də qurtuluşa çatır".[1672] Başqa sözlə, onlar Azərbaycan türklərinin milli azadlıq, milli mədəniyyət mücadiləsində xalqın arzularını, ideyalarını və bu ideyaları gerçəkləşdirməyə çalışanları tərənnüm etmişlər.

Onun fikrincə, Azərbaycan romantikləri əsərlərində sinfi məsələyə də geniş yer vermişdir. Bu mənada, fəhlə sinfi şüurunun bolşeviklər tərəfindən Azərbaycana gətirilməsi hekayəsi başdan-başa uydurmadır. Çünki Hüseyn Cavid və başqalarının əsərlərində istismar edənlərlə istismar olunanlar mövzusuna toxunulmuşdu. Ancaq

[1671] Yenə orada, s.165
[1672]Yenə orada, s.166

bu dövrdə türk işçiləri və kapitalistləri rus və ermənilərə qarşı birgə mübarizə aparmışlar. O yazırdı: "İşğalçı, millətçi kommunist rejimi azərbaycanlı işçiləri tətil hüququndan məhrum etmiş və yarım əsrdən çoxdur ki, onları bir qarın çörək pulu qazanmaq üçün işlədir. Kommunistlər guya çar təhkimçilik rejimini ləğv etmişlər, əvəzində isə sovet təhkimçilik-köləlik rejimini yaradaraq, "kolxoz" adı altında kəndliləri istismar edirlər".[1673]

Azərbaycan realistlərinə gəlincə, Baykaraya görə xalqın maariflənməsində böyük xidmətləri olan realist ədəbi məktəbinin səyləri Azərbaycan sərhədlərini aşaraq Orta Asiya ölkələrinə qədər yayılmışdır. Baykara yazırdı: "Mən bu məktəbin Azərbaycan mədəniyyətində oynadığı rolu, ensiklopedistlərin Fransada inqilabdan əvvəl oynadıqları rola bənzətmək istəyirəm. Həqiqətən, Azərbaycan realist məktəbinə mənsub olanlar ensiklopedistlərdən Didro və Dalamberin çap etdirdikləri kimi bir ensiklopediya nəşr etdirmişlər. Təkcə "Molla Nəsrəddin"in ətrafında toplaşan Azərbaycan yazarları xalq üçün ondan daha çox işlər görmüşdülər".[1674]

Bizcə, realistlərdən C.Məmmədquluzadə, Ə.Qəmküsar cəmiyyətin yarlarını sağaltmaq məsələsində daha real mövqe tutmaqla yanaşı, ancaq bəzi hallarda ifrata varmışlar. Xüsusilə, radikal mövqedən çıxış edən realistlər milli-dini dəyərlərə, o cümlədən bu dəyərləri müdafiə edən və onların əsasında birləşməyi vacib hesab edən islamçılara, türkçülərə münasibətdə ifrat varmışlar. Bu ifratçılıq isə, bəzi realistlərin sonralar marksizmə, hətta ruspərsətliyə meyil göstərməsi kimi səciyyələndirilmişdi. Doğrudur, C.Məmmədquluzadə və digər mollanəsrəddinçilər Azərbaycan xalqının, Azərbaycan türklərinin maariflənməsi və azadlığı uğrunda müəyyən işlər görmüşdür. Ancaq ümumilikdə, onların tutduğu yol türkçülük və islamçılıqdan yox, Rus-Avropa-Qərb mədəniyyəti ilə səsləşmişdir. Onlar hesab edirdilər ki, müsəlman ölkələrindəki bütün bəlaların əsas səbəbkarı İslam dinidir, bundan çıxış yolu isə İslam mədəniyyətindən imtina edib Rus-Avropa-Qərb mədəniyyətinə üz tutmaqla bağlıdır.

---

[1673] Yenə orada, s.171
[1674] Yenə orada, s.172

Həmin "mollanəsrəddinçi"lərin bu xətti vaxtilə eyni fikirlərdən çıxış etmiş M.F.Axundzadənin yolundan çox da fərqlənmirdi. Bu yolu tutan Axundzadə əvvəlcə İslam mədəniyyətindən, daha sonra Türk mədəniyyətindən imtina etmişdir. C.Məmmədquluzadə, Ə.Qəmküsar və onlarla həmfikir olanlar İslama münasibətdə birmənalı şəkildə Axundzadənin yolunu davam etdirdiyi halda, milli mədəniyyət məsələsində bir qədər ehtiyatlı mövqe tutmuşlar. Ancaq o da maraqlıdır ki, bu mütəfəkkirlər milli mədəniyyət məsələsində ümumtürk ruhunu deyil, daha çox Rus-Avropa-Qərb ideoloqlarına sərf edən xüsusiliyi qəbul etmişlər. Belə ki, milli mədəniyyət məsələsində ümumtürk ruhlu türk ədəbiyyatını, türk tarixini, türk dilini müdafiə etməmiş, daha çox lokanik tarix və dildən çıxış etmişlər.

**Beləliklə,** yeni dövrdə Azərbaycan xalqının mədəniyyətinin və tarixninin yazılmasında Hüseyn Baykaranın əməyi çox mühümdür. Əgər bir toplumun milli tarix, milli ədəbiyyat və milli fəlsəfə anlayışı yoxdursa, onun milli varlığı da təhlükə altındadır. Bu anlamda Baykara sələflərinin yolunu davam etdirərək XIX-XX əsrlər Azərbaycan mədəniyyətini və tarixini dərindən, sistemli şəkildə tədqiq etməyə çalışmışdır. Baykaraya görə Azərbaycanın milli istiqlalının təsadüfi olması fikrini aradan qaldırmaq üçün onun mədəniyyətini və fəlsəfi irsini öyrənmək lazımdır. Yəni, milli istiqlalın təsadüfdən ortaya çıxmadığını, sadəcə itirilmiş bağımsızlığın yenidən qazanıldığını ortaya qoymaq gərəkdir. Deməli, onun yaradıcılığında Azərbaycan Milli İdeyasının yaşadılması konteksində, Azərbaycan mədəniyyətinin, tarixinin tədqiqi və təbliği dayanmışdır. Baykara hər bir əsərində mədəniyyət və tarix problemlərini araşdırmaqla yanaşı, Sovet rejiminin Azərbaycana qarşı yürtüdyü "sovet beynəlmiləlçiliyi" ideyasını tənqid atəşinə tutmuşdur. O, bacardığı qədər bir tərəfdən "sovet beynəlmiləlçiliyi"nin iç üzünü açıb göstərməyə çalışmış, digər tərəfdən isə Azərbaycan mədəniyyətini və tarixinin obyektiv şəkildə dünya ictimaiyyətinin nəzərinə çatdırmağa çalışmışdır.

# ƏHMƏD CƏFƏROĞLU

**Həyat və yaradıcılığı.** Azərbaycan Türk mütəfəkkiri Əhməd Cəfəroğlu (1899-1975) Gəncədə anadan olmuş, 1909-1916-cı illərdə Gəncə gimnaziyasında təhsil almış, daha sonra Kiyev Ali Ticarət İnstitutunun iqtisad fakültəsinə daxil olmuşdur. Fevral burjua və oktyabr inqilablarından sonra həmin dövrün situasiya ilə bağlı 1918-ci ilin ortalarında yenidən Gəncəyə qayıdan Cəfəroğlu Nuru Paşanın Qafqaz İslam Ordusuna qatılmış və 1918-ci il sentyabrın 15-də Bakını Azərbaycanın paytaxtı elan edənlərin arasında kiçik topçu zabiti kimi iştirak etmişdir. O, daha sonra Bakı Dövlət Universitetinin tarix-filologiya fakültəsinin Şərq bölməsinə daxil olmuş, ancaq təhsilini yarımçıq qoyaraq Türkiyəyə köçmüşdür.

Cəfəroğlu İstanbul Universitetinin dil-ədəbiyyat fakültəsinə daxil olmuş, bu universiteti bitirdikdən (1925) az sonra Xarici İşlər Nazirliyinin təqaüdçüsü kimi Berlin və Breslan universitetlərinə göndərilmiş, tanınmış türkoloqların mühazirələrini dinləmişdir. 1929-cu ildə o, İstanbul Universitetinə filologiya doktoru kimi dönmüş və Türk dili tarixi kafedrasının professoru olmuş, həm də universitetin yanında fəaliyyət göstərən Türkiyyat İnstitutuna rəhbərlik etmişdir. Eyni zamanda, o, "Yeni Qafqasiya", "Azəri-Türk", "Odlu Yurd" jurnallarında elmi məqalələrinin bir çoxunu türkçülüyə, o cümlədən azərbaycançılığa və islamlığa həsr etmişdir. 1930-cu illərdə Türkiyədə işıq üzü görmüş "Azərbaycan Yurd Bilgisi" (1932-1934), "Türk amacı" dərgisinin (1942-1943), "Türk dili və ədəbiyyatı məcmuəsinin" redaktoları olan Cəfəroğlunun Azərbaycan mədəniyyəti ilə bağlı əsas diqqət yetirdiyi və tədqiqat obyektinə çevirdiyi sahələrdən biri Azərbaycan Türk dili və ədəbiyyatı olmuşdu.

Onun əsas əsərləri aşaıdakılardır: "Gəncə dialektində 75 Azərbaycan bayatı türküsü. Bir dil araşdırması ilə", "XVII əsr Azəri şairi Məlik bəy Avcı" (1933), "XIX əsr Azəri şairi Siraci" (1932), "Böyük azəri türkçüsü Mirzə Fətəli Axundzadə" (1936),

"Azəri ədəbiyyatında istiqlal mübarizəsi" (1932), "Şərqdə və Qərbdə Azəri ləhcəsi tədqiqləri" (1934) və b.

**Milli maarifçilik görüşləri.** Cəfəroğlunun irsində əsas yerlərdən birini milli maarifçiliklə bağlı türk dilnin, türk əlifbasının, türk ədəbiyyatının yaranması və inkişaf mərhələləri tutmuşdur.

**Türk dili məsələsi.**"Şərqdə və Qərbdə Azəri ləhcəsi tədqiqləri" əsərində Ə.Cəfəroğlu öncə göstərmişdir ki, "Azərbaycan Yurd Bilgisi" jurnalının məqsəd və məramı müştərək Türk mədəniyyətinin hələ aydınlaşmamış olan nöqtələrini nurlandırmağa çalışmaqdər.[1675] Bu məqsədlə o, bu əsərində ilk növbədə, qədim dövrlərdən başlayaraq XX əsrin 1930-cu illərinə qədər Azərbaycan türkcəsi ilə bağlı Şərq və Qərb alimlərinin əsas araşdırmalarının mahiyyətindən söhbət açmışdır.Onun fikrincə, Türkiyə və Azərbaycan türklərinin ədəbi dili Moğol istislasına qədər eyni olmuş, ancaq bu dövrdən başlayaraq azəri türkcəsi ortaq kökündən bir qədər ayrlımışdır. Azərbaycan türkcəsi (quzeyli və güneyli) İranın təsir dairəsində olduğu üçün ümumilikdə əsas ana oğuzcadan ayrılmasa da, tədricən Anadolu ədəbi türkcəsindən fərqli bir ədəbi dil mahiyyəti almağa başlamışdır: "Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi xənadanı və müstəqil Qafqaz xanlıqları kimi Türk idarəçiliyi altında mövcud olan, hətta dini və siyasi cəhətdən müxtəlif dövrlərdə osmanlılığa qarşı çıxan Azəri sahəsi məhəlli ləhcənin inkişafı baxımından daha müsaid şəraitə düşmüşdür. İran istilası və İran siyasətinin təəssübkeşliyi nəticəsində Azərbaycan və Anadolu dil və ləhcə etibarı ilə fərqli inkişaf yolu tutmuşlar".[1676]

Onun fikincə, XVIII əsrdə Səfəvilər hakimiyyətinin Güney Qafqazda zəfiləməsi və müstəqil Türk xanlıqlarının yaranması Azəri Türk ləhcəsinin yeni mərhləsinin yaranmasına səbəb olmuşdur. Azərbaycan türkcəsi ilə bağlı araşdırmaların mövcudluğu isə milli Azərbaycan ədəbiyyatı və mətbuatını XIX əsrdən etibarən daha geniş inkişafından irəli gəlmişdir.O, yazır ki, yalnız Türk ədə-

---

[1675] Caferoğlu A. Şarkta ve Garpta Azeri lehcesi Tedkikleri. Azerbaycan Yurd Bilgisi. №27-30, İstanbul, 1934.

[1676] Cəfəroğlu Əhməd. Seçilmiş əsərləri. Bakı, Mütərcim, 2008, s.266

biyyatının yaranması və inkişafından xəbərsiz olanlar Rusiya daxilində Azəri Türk ləhcəsinə dair meydana çıxan tədqiqatları rus idarəçiylinin xidmətləri sırasına daxil edə bilərlər.[1677] Yəni Azərbaycan türkcəsi XIX əsrə qədər də mövcud olmuş, sadəcə bu dövrdə Azərbaycan türkcəsi özünün yeni bir intibah dövrünü yaşamışdır (milli mətbuat, milli komediyalar və s.). Bu baxımdan, rusların iddia etmələri ki, "Azərbaycan ləhcəsi" onların sayəsində aşkar olunmuş və tədqiqat obyektinə çevrilmişdir, bununla razılaşmaq olmaz.

Hər halda, bu dövrdə Mirzə Kazımbəyin Türk-Tatar dilinin "Azərbaycan ləhcəsi"ni tədqiqat obyektinə çevirməsi diqqəti cəlb edir. Cəfəroğlu təəssüf edir ki, Kazım bəy tədqiqatlarını doğma ləhcəsindən daha çox "tatar" ləhcəsi əsasında qurmağa üstünlük vermişdir: "Bu səbədən də Azəri ləhcəsi tədqiqləri onun qrammatika kitabının araşdırdığı məsələlər içərisində görünməz olmuşdur".[1678] Bütün bunlarla yanaşı o hesab edir ki, "Türk dili tədqiqlərinin banşlanğıc dönəmində, xüsusən də Azəri ləhcəsi ilə bağlı hər hansı elmi dilçilik araşdırmalarının mövcud olmadığı şəraitdə Kazımbəyin bu ləhcəni dövrün çağdaş elmi üsulları ilə araşdırması öz elmi dəyərini heç zaman itirməyəcəkdir".[1679] Onun fikrincə, Kazımbəy ilk dəfə ortaq Türk dili ideyasını ortaya atmış, sonralar bu ideya İsmayıl bəy Qaspıralı tərəfindən mənimsənilmiş və ümumrusiya türkləri ilə bağlı belə bir təşəbbüs irəli sürülmüşdür: "Lakin təəssüflər olsun ki, arzu edilən bu fikir əməli işdə tətbiq olunmamış, tədricən məhəlli ləhcələrin ədəbi şəkil alması türk ləhcələrinin bir-birindən ayrılmasına gətirib çıxarmışdır".[1680]

Cəfəroğlu yazır ki, fransız, rus, gürcü, erməni və başqa xalqların dilçilərindən J.Berezin "Şərqə səyahət", İ.R.Tsilosani, L.Budaqov "Türk-tatar-azərbaycan ləhcəsi", müqayisəli türk-tatar ləhcələri lüğəti", M.A.Vəzirov-Zui "Tatar-azərbaycan ləhcəsi dərs kitabı", L.Lazerev "Osmanlı və Azərbaycan ləhcələrinin müqayisəli

[1677] Yenə orada, s.278
[1678] Yenə orada, s.280
[1679] Yenə orada, s.280
[1680] Yenə orada, s.318

türk dili müntəxabatı" və "Türk-tatar dili" əsərlərində Türk ədəbi dilinin osmanlı və azəri ləhcələrini bir-birlərindən fərqləndirməyə çalışsalar bir şey əldə edə biləmişlər.[1681]

Cəfəroğluna görə M.F.Axundzadə ilk dəfə Azəbaycan türkcəsində və xalq danşıq dilində pyeslər yazmış, dilin mövqeyini möhkəmləndirmişdir.[1682] Ən əsası, Axundzadə ilk dəfə Rusiya türkləri arasında yeni və ortaq bir əlifbanın qəbul edilməsinin zəruriliyini, həm də bu əlifba islahatı məsələsinin Osmanlı imperatorluğu ilə eyni vaxtda həyata keçirilməsinin vacibliyini anlayanlardan biri, bəlkə də birincisidir. O, yazırdı: "milliyyətçilik və türkçülük cərəyanlarının hələ baş qaldırmadığı, Rusiya əsarətindəki türklərin arasında hər hansı fikir və iş birliyinin qurulmadığı zamanlarda, nəhayət Osmanlı imperatorluğunun adının çəkilməsinin az qala yasaq olunduğu bir dövrdə Mirzə Fətəlinin milli oyanışa rəhbərlik etməsi və müsəlman millətlərin təəssübünü çəkən ideyalarla orta atılması Türk və İslam dünyasında hər şəxsiyyətə nəsib olmayan bir təşəbbüs kimi təqdirəlayiq görülməli və dəyərləndirilməlidir".[1683] Cəfəroğlu yazır ki, Azərbaycan mühitində ilk Azərbaycan qrammatikası adandırıla bilən əsər S.M.Qənizadənin "Türk dilinin Qafqaz-Azərbaycan ləhcəsini öyrənənlər üçün"dür. O, "Tatar-rus lüğəti"nin də müəllifdir. Cəfəroğluya görə bu kitablar elmi baxımdan zəifdirlər. Nəriman Nərimanovun "Tatar dilini öyrənən ruslar üçün" əsəri isə çox aşağı səviyyədədir. Onun fikrincə, bu kitab N.Nərimanovun milli mühitə xidmət arzusundan daha çox ruslara azəri türkcəsini öyrətmək niyyəti ilə yazılmışdır: "Müəllif əsəri üçün rus məktəblərinin qrammatika dərsliklərini əsas götürdüyündən, türk dili qaydalarına tam yabançı münasibət bəsləmişdir".[1684]

XIX əsrin sonlarından başlayaraq Azəbaycan Türk ləhcəsi Qərb tədqiqatçıları tərəfindən elmi-tədqiqat obyektinə çevrilmişdir. Əvvəlcə V.Radlov 1893-cü ildə Peterburqda nəşr etdirliyi 4 cildi-

---

[1681] Yenə orada, s.282-286
[1682] Yenə orada, s.287
[1683] Yenə orada, s.324
[1684] Yenə orada, s.290

likdə Türk ləhcələri arasında Azərbayacn ləhcəsinə də diqqət yetirmişdir. Cəfəroğlu yazırdı ki, V.Radlov daha çox Güney Azərbaycan türkcəsini tədqiq etmişdir: "Ustəlik də coğrafi baxımdan Azərbaycan anlayışının həmin dövrdə yalnız İranın bu əyalətinə aid edildiyini nəzərə alsaq, o zaman şübhələrimiz üçün heç bir yer qalmaz.[1685] Onun fikrincə, Radlovun lüğətindəki dil nümunələri istisna olunmaqla Vamberinin bir əsərinə Azərbaycan ləhcəsi ilə bağlı əlavə etdiyi mətn, bəzi nöqsanlarına baxmayaraq Avropada transkripsiya olunmuş ilk azəri ləhcəsi örnəklərindən sayıla bilər.[1686] Vamberinin ümumilikdə Azərbaycan ləhcəsi ilə səthi tanış olmasının nəticəsidir ki, o bu ləhcəni əski türkcədən ayırmışdır. [1687] Ancaq Radlov və Vamberidən fərqli olaraq alman türkoloqu Foy Qafqaz və İran Azərbaycanının ləhcəsini tədqiq edərək göstərmişdir ki, azəri türkcəsi göytürklərin ləhcəsi ilə sıx əlaqədə olmuşdur.[1688]

O, "Dil guşəsi" məqaləsində yazırdı ki, rus missionerləri yerli xalqların dilini öyrənməklə yanaşı, "o biri tərəfdən isə bizim yetərincə diqqət göstərə bilməməyimizdən faydalanaraq türk qardaşlarımızı ruslaşdırmış, hətta bəzilərinin dinlərini dəyişib onları xristianlaşdırmağa müvəffəq olmuşlar. Həmin missonerlər türk dillərini öyrənərək, türklərə onların öz dili ilə türklükdən və ana dilindən uzaqlaşmaq fikrini təlqin etmişdilər. Türk qardaşlarmızdan başqa dünyanın heç bir yerində heç bir millət və qövm öz doğma dili ilə aldadılaraq milli ruhundan və əqidəsindən uzaqlaşdırılmamışdır. Sərhədləri az qalaAğrı dağının ətəklərinə qədər uzanan, dünənə qədər torpaqlarında hürr və azad yaşayan Azərbaycanda rus istilasının təsiri altında, kim bilir, nə qədər sıravi türk və hətta türk ziyalısı ana dilində düzgün yazmağı-oxumağı bacarır?!".[1689]

Cəfəroğlunun o zaman yazdıqlarının bu gün nə dərəcədə aktual olması barədə geniş yazmağa ehtiyac yoxdur. Çox təəssüfki, ruslaşdırma siyaəsti nəticəsində bugünkü Azərbaycan insanlarının,

---

[1685] Yenə orada, s.291
[1686] Yenə orada, s.291
[1687] Yenə orada, s.292
[1688] Yenə orada, s.292
[1689] Yenə orada, s.296

xüsusilə onun ziyalısının xeyli bir qismi məhz rusca yazmağı-oxumağı bacırır. Bu isə əlbəttə, milli ruh baxımından çox zərərlidir. O, yazırdı ki, məhz çarlıqla sovet dövründə bu günü nəzərə alan anti-türk ideoloqları ruslaşdırma siyasətinin əsasını qoymuşdular: "Rusların oxudulmasını qadağan etdikləri türkcəmizin yerinə səxavətlə açdıqları rus məktəblərində oxuyan hər bir türk, təbii ki, onların dilini daha asan və yaxşı öyrənir, fikirlərini bu dildə izah edir, zövqlərini rus ədəbiyyatının mütailəsi ilə oxşayırlar. Belə şəraitdə hətta Türkiyə sərhədləri yaxınlığında, lakin əsarət altında yaşayan Azəri qardaşlarımzda inkişaf etmiş milli dil birliyi olmadığı halda həmin birlik və vəhdəti Türkiyədən çox uzaqlarda yerləşən qırğız, türkmən, tatar ellərində aramaq, sadəcə, imkansızdır".[1690]

O, yazır ki, Çarizmlə Sovetlərdə Rusiya türklərinin, o cümlədən Azərbaycan türklərinin dilinin tədqiqat obyektinə çevirilməsi heç də səmimi xaratker daşımayıb. Belə ki, ruslar bir əsrə yaxın əsarət altında saxladığı millətin dilində nəinki bəsit bir qrammatika kitabı, heç sadə bir lüğət  də hazırlamamışlar. O, yazırdı: "Bu hər şeydən əvvəl dili bir, qanı və tarixi bir iki qardaş türkü, yəni Azərbaycan və Türkiyəni bir-birindən ayırmaq siyasətinin nəticəsidir. Yoxsa, hətta ədəbi dilə malik olmayan hər hansı bir Türk qövmünün ləhcəsinə aid ortaya yüzlərlə əsər qoyan rus şərqşünaslarının daha inkişaf etmiş ədəbiyyata və dilə malik azərilərin üzərindən belə səssiz-səmirsiz keçmələri başqa cür izah edilə bilməz".[1691]

O, "Azərbaycanın öztürkcəçiliyi" məqaləsində də göstərirdi ki, rus bolşevikləri Türkiyə və Azərbaycan türklərinin ortaq Türk dilindən uzaqlaşmaları üçün əllərindən gələni etmişlər: "Belə ki, 1920-ci ildə Azərbaycanın sovetləşməsindən sonra ölkədə yeni dilçilər peyda olmuş və bunlar böyük bir iş kimi Azərbaycan türkcəsini proqramlarına daxil etmiş,Kommunust Partiyasının təzyiqi ilə Azərbaycanı dil baxımından Türkiyədən uzaqlaşdırmağa çalışmışlardır. Başlanğıcda bu amansız kommunist planının tətbiqinin yeni latın əlifbasının tətbiqi ilə baş tutacağı düşünülmüş-

[1690] Yenə orada, s.297
[1691] Yenə orada, s.297

dür. Leninə inanmış quzu Azərbaycan kommunistləri adından biət etməyə gedən heyət də bu işə müqəddəs bir don geyindirərək bu işin "Şərqin gerçək bir inqilabı olacağını" deyərək rəğbət göstərmişdilər. Türkiyənin də xətrini oxşamaq və reaksiyasını ölçmək məqsədilə 1925-ci ildə Bakıda toplanan Şərq Xalqları I Qurultayında Türkiyədən də nümayəndə çağırılmışdır və uzun müzakirələrdən sonra Rusiya məhkumu Türk ölkələrinin dilləri anlaşılmaz və hiyləgər fonetika sisteminə salınmışdır. Lakin latın hərflərinin milli bir yazı sistemi olaraq, Atatürk tərəfindən qəbul edilməsindən sonra, Leninçi Azərbaycan kommunistlərinin "gerçək Şərq inqilabı" puç olmuş və bu səfər də məsələ proqrama daxil edilən "Öz türkcəçilik"də həll yolunu tapmışdır. Dil ilə bağlı edilmək istənilən bu dəyişiklikləri xalqa müsbət bir iş kimi göstərmək üçün "Azərbaycan tədqiq və təşəbbüs cəmiyyəti" qurulmuşdur".[1692]

**Türk əlifbası məsələsi.** Cəfəroğluna görə ruslaşdırma siyasətinin tərkib hissələrindən biri də kiril-rus əlifbasına keçilməsi idi. Xristian litvalıların belə rus-kiril əlfibasından imtina etdiyi bir zamanda "türk qövmlərində yabançı rus əlifbasına, ruslaşdırma siyasətinə qarşı qəzəb və nifrət, kim bilir, necə böyük və dərin olmalıdır! Az qala hər bir Türk kəndinə ruslaşdırma siyasətinin incəliklərinə yiyələnmiş, məhəlli türk ləhcəsini yaxşı mənimsəmiş təəssübkeş rus keşişinin təyin olunması Türk dilinin aradan qaldırılmasına təsir göstərmiş, türkcəyə çoxsaylı rus dili ünsürlərinin yerləşdirilməsinə gətirib çıxarmışdır". Bir sözlə, rus şovinistləri ruslaşdırma siyasətinə uyğun olaraq müxtəlif Türk ləhcələrində (azəri, çuvaş, tatar, yakut və b.) rus-kiril əlifbası ilə yüzlərlə dini ("İncil", "Tövrat" və b.) və siyasi əsərlər nəşr etldirmişlər. Onun fikrincə, rus şovinizminin apardığı bu siyasət nəticəsiz qalmamışdır: "Nəticədə türklüyə qarşı həyasızcasına həyata keçirilən ruslaşdırma siyasəti Türk elləri arasında qüvvətli əks-hərəkat yaranmasına gətirib çıxarmışdır".[1693] Belə ki, türk ziyalıları (İ.Qaspıralı və b.) da kiril əlifbası ilə "İslam dini" (1906) və başqa kitablar yaymış, eyni zamanda

[1692]Cəfəroğlu Əhməd. Türkçülüyün məsələləri. İstanbul, Kutlu yayınevi, 2020,s.56-57
[1693] Cəfəroğlu Əhməd. Seçilmiş əsərləri. Bakı, Mütərcim, 2008, s.298

rus İlminskinin rus-türk ibtidai məktəblərinə qarşı Qaspirinski üsuli-cədid məktəblərini qoymuşdur. Bununla da, türklüyün və türk dilinin parçalanmasının qarşısını almaq üçün aparılan zəruri mübarizə rus münəvvərlərinin türklərdən üz döndərmələri ilə nəticələnmişdi”.[1694]

Bu siyasəti ruslar bütün sahələrdə, o cümlədən marksizm vasitəsilə də aparmışlar. Onların məqsədi bütün sahələrdə Rusiya türklərini, o cümlədən azəri türklərini yönəltmək niyyəti güdmüşdür. Çarizm və Sovet ideoloqları yaxşı başa düşürdülər ki, türklər milli kimliklərini, dilini, mədəniyyətini, ədəbiyyatını, tarixini daha dərindən anladıqca, onların şovinizm, bolşevizm və digər ideyaları türklər arasında geniş yaylımayacaqdır. Bu isə əlbəttə, rus şovinistlərinə əl vermirdi. Bu baxımdan rus millətçilərinin türklərin öz dillərini tədqiq etmələrinə, yeni ədəbiyyat yaratmalarına qısqanclıqla yanaşması təbii idi. Bir sözlə, rus millətçiləri türkləri dillərini öyrənməyə, məktəblərdə, universitetlərdə təhsil almağa şərait yaradır, ancaq bu zaman ruslaşdırma siyasətini, yəni türklərin türk kimi deyil, rus kimi (zahirən isə bolşevik kimi) düşünməyə vadar etməyi unutmurdular. Cəfəroğlu yazır: “Türk ziyalısına universitet kürsüsünü yalnız milli varlığından ayrılmaq və xristianlığı qəbul etmək şərti ilə vermək, türk müəllimlərini orta məktəbdə tarix dərslərini keçmək hüququndan məhrum etmək, Rusiyadakı türklərin Türkiyə mətbuatını izləmələrinin qarşısını almaq kimi şərtlər irəli sürən bu “mədəniyyət” əslində hər vasitə ilə türkləri geri çəkilməyə xidmət edirdi. Çox güman ki, elə bu səbəbdən də rus inqilabçısı Çadayev Rusiyanın keçmişini qaranlıq, dünənini məhcul, gələcəyini isə bərbad hesab etmişdi”.[1695]

Şübhəsiz, çar Rusiyasında türklərə qarşı yeridilən ruslaşdırma siyasəti Sovet Rusiyası dövründə daha zorakı şəkildə davam etdirilmişdir. Bolşevizm ideyası ilə ortaya atılan rus millətçiləri yenə də mili varlığa və milli özünüdərkə qarşı idilər. Sözdə milli dil və milli mədəniyyətdən bəhs açan bolşeviklər gerçəklikdə isə Türk

---

[1694] Yenə orada, s.298
[1695] Yenə orada, s.299

vəhdətinin və milli birliyinin parçalanması uğrunda çalışırdılar. Rusiya əsarətindəki Türk qövmlərinin az qala hər birinin dilini "müstəqil dil" və ölkələrini "cümhuriyyət" elan edən bolşeviklərin əsas məqsədi vahid Türk dilini və millətini parçalamaq idi.

O, yazır ki, Türk xalqları arasında latın əlifbasının tətbiqi də ruslaşdırma siyasətinin tərkib hissəsi olmuşdur. Onun fikrincə, latın qrafikasının tərəfdarı kimi çıxış edən D.Bünyadzadə, S.Ağamalıoğlu bolşevik əmri ilə hərəkət edən şüursuz türk düşmənlərindən başqa bir şey deyillər: "Ustadları Lenindən Latın əlifbasının tətbiqi üçün "Bu Şərqdə inqilab olacaq!" fitvasını alan və türklükləri yalnız adlarından ibarət olan bu rus əlaltıları bolşevik inqilabının qələbəsi naminə Türk dilinin birliyini və Türk vəhdətini parçalamaq üçün əllərindən gələni etdilər. Onlar Türk ölkələrini bir-birindən ayırmaq üçün bütün mümkün vasitələrə baş vurdular. Amma fikrində yanıldılar. Türk dili birliyi və türk vəhdəti yad, yabançı Leninlərin təlqini ilə həyata keçirilə bilməzdi. Bu birliyi, bu vəhdəti həqiqi Türk övladları, həqiqi Türk qaziləri gerçəkləşdirə bilərdilər. Və bu iş bolşeviklərdən soruşulmadan oldu. Həqiqi Türk birliyi yarandı və yaşamqadıdır".[1696] O, yazır ki, Azərbaycan Cümhuriyyəti ərəb əlifbasındakı nöqsanlarla bağlı latın əlifbasına keçmək istəyirdi, ancaq rus işğalı buna mane oldu.[1697]

27 apreldə Azərbaycanı işğal edən bolşeviklər bu dil və millət birliyini aradan qaldırmaq üçün ilk növbədə, Azərbaycanda latın əlibfasını həyata keçirməyə başladı. Guya, bununla türklərə xidmət etdiklərini iddia edən bolşeviklərin əslində məqsədləri vahid Türk toplumlarını bir-birindən ayrımaq idi. Bu baxımdan Azərbaycan Türk dövlətinin əsaslarını sarsıtmaq üçün ilk zərbə dil birliyinə vuruldu. Cəfəroğlu yazır: "Bolşeviklər bir tərəfdən iki qardaş və həmsərhəd ölkəarasındakı dil vəhdətini pozmağa çalışarkən, o biri tərəfdən də Rusiyada yaşayan türkləri bir-birlərindən və tarixlərindən ayırmaq üçün dərhal latın əlifbasının tətbiqinə girişdilər".[1698] Ona

---

[1696] Yenə orada, s.300
[1697] Yenə orada, s.300
[1698] Yenə orada, s.301

görə nəticədə bolşeviklər istədiklərinə çatıdlar: iki qardaş Türk xalqı bir-birlərinin yazılarını və kitablarını oxumayacaq duruma gətirildi. Türklər dil və siyasi birlik baxımından müxtəlif cərəyanlara ayrıldılar. Ancaq bolşeviklərin bu yolla Türk dilinin və Türk birliyinin süqutuna çalışarkən Türkiyə Cümhuriyyətinin də latın əlifbasına keçməsi vəziyyəti dəyişdi. Bununla da yenidən Türk birliyi ideyası gücləndi. Bolşeviklər güman edirdilər ki, Türkiyə bir çox səbəblərə görə (İslam dini və s.) heç bir zaman ərəb əlifbasından imtina etməyəcək. Bununla da Rusiya türkləri Türkiyə türklərindən bütün sahələrdə (mədəniyyət, dil, əlifba və s.) bir-birlərindən fərqli yol tutmuş olacaqlar. Ən əsası əsarət altındakı Rusiya türkləri heç vaxt Türkiyə türklərindən mənəvi qida ala bilməyəcəklər. Ancaq Türkiyənin latın əlifbasına keçməsi ilə bolşeviklər əvvəlcə Türkiyədə və Sovet Rusiyasında nəşr olunan qəzet və kitabların bir-birlərinə çatdırılmasının məhdudlaşdırılması ilə bağlı addımlar atsa da, bunun sonralar faydasız olduğunu anlayaraq rus-kiril əlifbasına keçməklə bağlı qərar qəbul etdi.

**Türk ədəbiyyatı məsələsi.** Cəfəroğlu Azərbaycan Türk ədəbiyyatını qısaca olaraq azəri ədəbiyyatı[1699] adlandırmışdır. Bu mənada "azəri türk teatrı", "azəri türk ədəbiyyatı", "azəri türk mədəniyyəti" ilə yanaşı, o, "azəri şeiri", "azəri ədəbi mühiti", "azəri mətbuatı" və bu kimi anlayışlardan da istifadə etmişdir. Halbuki istər o dövrdə, istərsə hazırda bu anlayışlar, məlum səbəblərə görə Azərbaycanda və ondan kənarda birmənalı qarşılanmır. Bu baxımdan, ən doğru seçim "Azərbaycan Türk ədəbiyyatı", "Azərbaycan Türk dili", "Azərbaycan Türk şeiri"dir. Hər halda Ə.Cəfəroğlu özü də yazırdı ki, Azərbaycan Cümhuriyyəti bolşeviklər tərəfindən işğal edildikdən sonra "dünyagörüşünün tam dəyişdirilməsi ilə bağlı tarix, dil və ədəbiyyat anlayışları da Moskvanın əmri ilə onun işinə yarayan bir şəklə salınmış, bu bölgə süni surətdə Türk dünyasından qoparılaraq "Azərbaycan xalqı", "Azərbaycan dili", "Azərbaycan ədəbiyyatı" kimi yanlış ifadələrin müasir dövrdə insanların düşün-

[1699] Yenə orada, s.116

cə tərzinə yerləşdirilməsinə səy göstərilmişdir”.[1700] Fikrimizcə, müstəqillik dövrümüzdə bu məsələ hələ də ciddi problem olaraq qalır və bu anlayışlardan istifadə edərkən “Türk” məfhumuna müraciət etmək zəruridir. Məsələn, ən azı “Azərbaycan ədəbiyyatı” ilə yanaşı, “Azərbaycan Türk ədəbiyyatı” anlayışı da işlədilməlidir.

Bu gün çarizmlə bolşevizmin bizə “miras” qoyub getdiyi bir çox “adət-ənənələr” var ki, xalqımız sözün həqiqi mənasında ondan qurtula bilmiş deyildir. Bu, ən çox özünü dilmizdə, mədəniyyətimizdə, ədəbiyyatmızda bir sözlə, həyatımızın bütün vacib sahələrində büruzə verir. Çox təəssüflər olsun ki, bu gün bəzi ziyalılar obyektiv və subyektiv səbəblərə görə bunu anlmaqda zorluq çəkir, çarizm və bolşevizmin əsl üzünü dərk etmək əvəzinə onlarda müsbət meyarlar axtarıb tapmağa çalşırlar. Əlbəttə, biz keçmişə aid bütün məsələlərə tənqidi yanaşmanın əleyhinəyik. Ancaq bütün bunlara baxmayaraq çarizm və bolşevizm dövründə xalq arasında yaranan “Rusiya və rus düşmənçiliyi”ni təsadüfi də hesab etmək mümkün deyildir. Azərbaycan türkləri onun istiqlaliyyətini (Azərbaycan Türk Xanlıqları və Azərbaycan Cümhuriyyəti) əlindən alan və bütün sahələrdə ona qarşı düşmən münasibət bəsləyən rus siyasətinə başqa cür yanaşa da bilməzdi. Bu baxımdan Cəfəroğlu doğru qeyd edir ki, hələ XIX əsrdə “Rusiya və rus düşmənçiliyi beləcə şüurlu şəkildə azəri-türk şairləri arasında geniş yayılmışdı”.[1701]

“Şəhidləri, dilləri, soyları bir olan bu qardaşların hər ikisi istiqlala qovuşmayana qədər türkün tam zəfərindən danışmaq mümkün deyil”,[1702] deyən Cəfəroğlu qeyd edir ki, Azərbaycan və Türkiyə türkləri eyni soyu və dili paylaşdıqları halda, bəzi tədqiqatçıların Azərbaycan Türk mütəfəkkirlərindən olan M.F.Axundzadəni əcnəbi kimi təqdim etməsi anlaşılan deyil: “Bu hər bir Azəri türkünü nə qədər mütəəssir eləyirsə, eyni dərəcədə də bir soydan olan, bir dili paylaşan iki qardaşın – Azəri və Anadolu türkünün ortaq ədəbiyyat, dil və mədəniyyətini parçalamağa rəvac verir və təbii ki, məhz bu

[1700] Yenə orada, s.116
[1701] Yenə orada, s.212
[1702] Yenə orada, s.366

səbəbdən də hər iki tərəfdən olan türkləri əsla məmnun etməyəcəkdir. Mirzə Fətəli əslən və nəslən bir türk olduğu halda onu Türkiyə mühitinə əcnəbi bir müəllif kimi tanıtmaqdan güdülən məqsəd nədir? Anlaşılması ən çətin olan məsələ də elə budur. Əgər məqsəd Azəri Türk müəlliflərini Anadolu mühərrirlərinə, Azəri türklərini isə Anadolu türklərinə əcnəbi kimi tanıtmaqdırsa, belə olan surətdə Füzuli və Nəsimi kimi böyük Türk şairlərini də sadəcə "əcnəbi" Azəri Türk mühitinə daxil edərək onları ümumtürk mədəniyyəti sahəsindən kənarda saxlamaq lazımdır. Halbuki elə dünən Ulu Qazinin göstərişi ilə Ankarada toplanan ilk Türk Tarix qurultayında Türk birliyinin ana vətəni, mənşəyi, mədəniyyətinin və ümumiyyətlə, bütün mövcudiyyətinin qətiyyən "ayrılıq və qeyrilik" güdülmədən bir küll halında araşdırılması ilə bağlı qərar verilmişdir. Bu gün isə İstanbulda Qurşunluzadələr "reklamçılar"ın təşviqi ilə Türk birliyini "əcnəbi" kimi bölücü kəlmələrlə təfriqəyə uğratmaqda davam etməkdədirlər".[1703]

Deməli, həmişə Türkiyə və Azərbaycan türklərini yalnız dışardan deyil, içəridən də bir-birindən ayrımağa xidmət edən qüvvələr olmuşdur və bu gün də var. Türkülüyn düşməni olan bu qüvvələr heç bir zaman Türk xalqlarının birliyinə sevinməmiş, daima onlar arasında nifaq salmağa çalışmışlar. Biz bunu keçmiş tarixdə Teymurlar və Bəyazidələr, Şah İsimayıl və Sultan Səlimlər, Şah Təhmasiblər və Sultan Süleymanların nümunəsində çox görmüşük. Biz bunun 20-ci əsrin əvvəllərində də, Cümhuriyyət dövründə və Cümhuriyyətin işğalından sonra da şahidi olmuşuq. Bu gün də Türkiyə və Azərbaycan birlyinin, ilk növbədə siyasi, iqtisadi, hərbi, daha sonra dil, soy, mədəniyyət və digər sahələrdə birliynin baş tutmaması üçün əlindən gələni edən daxili və xarici qüvvələr vardır.

Eyni zamanda, Cəfəroğlu 1960-1970-ci illərdə qələmə aldığı bir çox əsərlərində ("Azəri ədəbiyyatında spekulyasıyaçılıq", "Şair Şəhriyar", "Azərbaycan ədəbiyyatı", "Bilinməyən tərəfləri ilə usta Fuad Köprülü", "Sovetlər Birliyi türkoloji araştırmalarında rus kül-

[1703] Yenə orada, s.370

tür üstünlüyü davası" və b.) Azərbaycan mədəniyyətinə və fəlsəfəsinə aid çox dəyərləri mülahizələr irəli sürmüşdür.

**İctimai-siyasi görüşləri.** Cəfəroğlu hesab edirdi ki, dünya ictimaiyyəti qarşısında Azərbaycanın istiqlal davasının siyasi yönlə yanaşı, elmi istiqamətdə də aparılmasına, əsaslandırılmasına ciddi ehtiyac var. Bütün dünya bilməlidir ki, Azərbaycan Cümhuriyyətinin yaranması təsadüfdən baş verməmiş, bu bir millətin təbii haqqı şəklində meydana çıxmışdır. Bu anlamda Cəfəroğlu 1932-ci ildə nəşr olunan "Azəri ədəbiyyatında istiqlal mücadiləsi izləri" silsilə məqalələrində yazırdı ki, Qafqazın və Quzey Azərbaycanın Rusiya tərəfindən işğalı, həmin işğaldan dərhal sonra Azərbaycan türklərinin başladığı milli mücadiləsi qanla yazılmalıdır.[1704] O hesab edir ki, çar Rusiyası Qafqazı, o cümlədən Quzey Azərbaycanı işğal etdikdən sonra əski örf, adət və şəriət yerinə yeni rus "zakon"larını qoyması yerli-məhəlli Türk həyatı üçün böyük bir təzad təşkil edirdi.[1705] Bu anlamda da, Cəfəroğlunun fikrincə, çarizmə qarşı mücadilədə milli adət-ənənələrə bağlı istiqlal duyğusu ilə yanaşı İslam dini də çox ciddi, mühüm yerə malik idi: "Ruslara qarşı yeganə irəli atılacaq tahrikkar (ən mühüm) şüar İslam dini idi. Zira, ruslar məhəlli əhali nəzərində sırf istiqlal düşməni olaraq qalmamış, eyni zamanda İslam din və etiqadını baltalayan və təhqir edən bir ünsür olaraq tələqqi edilmişdir".[1706]

Ə.Cəfəroğlunun təbrincə desək, bu dövrdə Qasım bəy Zakir rusların milliyyətpərvər məhəlli (Quzey Azərbaycan) türk başçılarının ətrafında apardığı oyunların qurbanı olmuşdur.[1707] Cəfəroğlu yazır: "Azərbaycanın ən milliyyətpərvər şairlərindən biri olan Zakir düşməni Rusa qarşı qətiyyən boyun əymək istəməmişdir".[1708] Cəfəroğlunun fikrincə, XIX Azərbaycan maarifçilərindən milliyyətpərvər, istiq-

---

[1704] Caferoğlu Ahmet. Azeri edebiyatında istiklal mücadilesi izleri//Azərbaycan Yurt Bilgisi,Yıl: 1, sayı: 8-9, 1932, avqust-eylül, İstanbul, s.292

[1705] Caferoğlu Ahmet. Azeri edebiyatında istiklal mücadilesi izleri//Azərbaycan Yurt Bilgisi,Yıl: 1, sayı: 10, 1932, teşrin-1, İstanbul, s.346

[1706] Yenə orada, s.346

[1707] Yenə orada, s.340

[1708] Yenə orada, s.342

lalpərvər Həsən bəy Zərdabi isə azəri türkləri arasında birinci olaraq çarizmin Güney Qafqazda ruslaşdırma siyasətini sezmiş, "Əkinçi" də milləti hüquq və haqq davasına cəlb etməyə çalışmış və uzun illər ağır mücadilələr apararaq buna nail olmuşdur.[1709]

Ə.Cəfəroğluna görə 1. Rusiya inqilabı (1905) Azərbaycan türklərinin milli özünüdərk prosesində mühüm rol oynamışdır. Milli oyanışın inkişafında isə milli mətbuatın aparıcı qüvvəsi olan "Həyat", "İrşad" və "Füyuzat" kimi qəzet-jurnallarda milli, islami və bəşəri yazılarla çıxış edən Ə.Ağaoğlu və Ə.Hüseynzadə olmuşdur.[1710] Onun fikrincə, xüsusilə də Ə.Hüseynzadə türklük, avropalılıq və islamlıq kimi "üçlü" məramı ilə milli istiqlalın fikri mücadiləsinin "Ana Yasası"nı meydana qoymuşdur.[1711] O, hesab edirdi ki, onlar mətbuatda milli düşüncənin inkişafına xidmət etməklə yanaşı, işini ehtiyatlı tutaraq tədrici təkamül yolu ilə getməyə daha çox üstünlük vermişlər. Belə ki, milli ideya onlar tərəfindən mətbuatda müəyyən üsul və sistemə tabe tutulmadan daha çox rəmz və işarələrlə ifadə olunmuşdur: "Bu iki azəri-türk ziyalısı dövrün münəvvər və milliyyətpəvər zümrəsinin fikirlərini öz mətbuatları vasitəsilə yayarkən, cəhalət və təəssübkeşliyin milli inkişaf və istiqlal ideyası önündə böyük maneə olacağını açıq şəkildə görürdülər. Onlar milli varlığın təsdiqi yolundakı mübarizədə yeni bir cığır açdılar və milli mədəniyyət üçün yorulmadan çalışdılar".[1712]

Ə.Cəfəroğlu daha sonra qeyd edir ki, ümumilikdə 1-ci rus inqilabı (1905-ci il) quzey Azərbaycanın həm mədəni tərəqqisi və milli ədəbiyyatının inkişafı, həm də milli məfkurənin formalaşması baxımından böyük bir mərhələnin başlanğıcı olmuşdur: "Bu tarixdən etibarən nisbətən daha geniş nəfəs almaq imkanı qazanan Azərbaycan türkləri siyasi və məfkurəvi təşkilatlanma istiqamətin-

---

[1709] Cəfəroğlu Əhməd. Seçilmiş əsərləri. Bakı: Mütərcim, 2008, s.234
[1710] Füyuzat (1906-1907). Bakı: Çaşıoğlu,2006, s.XIII
[1711] Füyuzat (1906-1907). Bakı: Çaşıoğlu,2006, s.XIII
[1712]Cəfəroğlu Əhməd. Seçilmiş əsərləri. Bakı, Mütərcim, 2008, s.235

də olduğu kimi, milli ədəbiyyat, teatr, musiqi, mətbuat və maarif sahələrində də böyük addımlar atmaq imkanı əldə etmişdilər”.[1713]

Ə.Cəfəroğlunun fikrincə, milli istiqlal məfkurəsinin, milli ideologiyanın intişar tapmasında, “həqiqi milliyyətçiliyin geniş yayılmasında” milli ideoloq Məhəmməd Əmin Rəsulzadə və onun baş redaktoru olduğu “Açıq söz” qəzeti mühüm rol oynamışdır.[1714] Belə ki, Rəsulzadənin milli öndərliyi ilə ilk dəfə, həmin qəzetdə öz əksini tapan ideyalar get-gedə bütün Azərbaycan türklüyünü əhatə etmişdir. Cəfəroğlu yazır: “Onun “Açıq söz” qəzeti ilk dəfə milli cərəyanı ardıcıl və şüurlu sistem halına saldı, milli mövzunun geniş oxucu kütləsi arasında bir ilham mənbəyinə çevrilməsinə imkan yaratdı”.[1715]

Cəfəroğluna görə Azərbaycan Cümhuriyyətinin təməl prinsipləri olub, M.Ə.Rəsulzadə tərəfindən formulə edilən Azərbaycan türkçülüyü ideyasının əsasları C.Əfqani, Ə.Hüseynzadə və Z.Göyalpla bağlıdır. Belə ki, türkçülüyün milli-məhəlli forması olan Azərbaycan türkçülüyü ideyası C.Əfqani və Ə.Hüseynzadənin milli fikirləri əsasında təşəkkül tapsa da, Z.Göyalpın “türkləşmək, müasirləşmək və islamlaşmaq” düsturuna əsaslanmışdır. Onun fikrincə, burada Z.Göyalpın ön plana çıxmasına səbəb Əli bəy Hüseynzadənin böyük filosof-mütəfəkkir olmasına baxmayaraq, bu fikirlərini düstur halına salmaması olmuşdur.[1716]

Beləliklə, Rəsulzadə Əfqani və Hüseynzadənin milli-dini ideyalarından bəhrələnməklə yanaşı, ancaq Z.Göyalpın “türkləşmək, müasirləşmək və islamlaşmaq” düsturu İstanbulda olarkən onu daha çox təsirləndirmişdir. Bununla da Rəsulzadə məhz Göyalpın daha dəqiq ifadə etdiyi və sonralar “Türk millətindənəm, İslam ümmətindənəm, Qərb mədəniyyətindənəm” şəklində inkişaf etdirdiyi üçlü düsturu həm “Açıq söz” qəzetinin şüarına çevirmiş, həm də onu milli və müstəqil Azərbaycanı quran

[1713] Yenə orada, s.149
[1714] Yenə orada, s.151
[1715] Yenə orada, s.235
[1716] Cəfəroğlu Əhməd. Türkçülüyün məsələləri. İstanbul, Kutlu yayınevi, 2020, s.42

Müsavat Partiyasının proqramının ön sözünə yerləşdirmişdir. Cəfəroğlu yazırdı: "Milli və müstəqil Azərbaycanı quran və onu 23 ay idarə edən tarixi "Müsavat" Partiyası və eşi olan "Türk Ədəmi-Mərkəziyyət" Partiyası ilə birlikdə Azərbaycanın türkçülük və siyasi həyatında biri-biri ilə ən yaxşı anlaşan Nəsib bəy Yusifbəyli ilə Məhəmməd Əmin Rəsulzadənin rəhbərlik etdikləri siyasi istiqlal mübarizəsinin əsasını təşkil etmişdir. Beləliklə, Azərbaycanın mənəvi və mədəni toplum həyatını inşa edən və Türkçülüklə xalqçılığa xidmət etmək qayəsi ilə qurulmuş olan "Açıq söz" qəzeti ilə, Azərbaycanın istiqlalı işığını əlində tutan tarixi "Müsavat" Partiyası heç bir tərəddüdə məhəl vermədən Ziya Göyalpın fikirlərini milli şüar halına gətirmiş və onunla Milli Azərbaycan Cümhuriyyətini qurmuşlar. O Azərbaycan ki, "Türkçülüyün əsasları"nda hər zaman söhbət mövzusu olmuş, dalğın Göyalpın təfəkküründə olduqca sempatik bir yer tutmuşdur".[1717]

Cəfəroğlu hesab edirdi ki, Azərbaycan Türklüyünün toplum həyatı müxtəlif təzyiq, fikri inkişaf və müzakirələr nəticəsində bu mərhələni keçmiş olduğu üçün Ziya Göyalpın fikir cəbhəsinə də yad deyildi. Çünki Anadoluda olduğu qədər Azərbaycanda da ortaq bir Türk şüuru tam şəkildə yerləşmişdi. O, yazırdı: "Necə ki, yeni qurulan Milli Azərbaycan Cümhuriyyəti Ziya Göyalpın "türkləşmək, müasirləşmək və islamlaşmaq" fikrini öz milli və dövlət quruculuq xarakterinə uyğun görərək milli istiqlal bayrağında "mavi, al, yaşıl" rənglərlə ifadə etmişdir. Bununla da Azərbaycan türklərinin rənglərlə ifadə etdiyi tilsimli milli ruh bayraqları iki qardaş Oğuz eli arasında bütün rejim, istila və təzyiqlərə rəğmən Türkçülük körpüsünün qurulmasına vəsilə olmuşdur. Eyni zamanda, iki Türk məmləkəti arasında əməl və ruh bağlılığı heç şübhə yoxdur ki, ortaq bir Türklük ruhu ifadəsi idi. İfadə edəni isə mərhum Ziya Göyalp idi".[1718]

O, yazırdı ki, Göyalpın "Qızıl Alma" əsərində Türkçülük ideyasının əsas qalalarından biri kimi Bakını da salması təsadüfi

[1717] Yenə orada, s.45
[1718] Yenə orada, s.46

deyildi. Bu isə Oğuz ellərini təbii bir bütün içində görən Türkçülük törəsinin bir maddəsi idi. Cəfəroğlu yazır: "Nəhayət, Göyalpın əsas prinsiplərindən biri olan milli Türk hars davası Azərbaycan Türk mühitində Türkiyədəkindən daha sağlam bir kök salmış və milli Azərbaycan dövlətinin quruluşunda da əsas amil olmuşdur. Ziya Göyalpa görə "hars bir millətin ictimai həyatının cəmidir". Beləliklə, Azərbaycanda təşəkkül etmiş olan milli Azərbaycan cəmiyyəti Azərbaycan Türk xalqının bütününə sahib bir varlıq, bir müəssisədir. Ziya Göyalpın Azərbaycanda cəmiyyət həyatına bu qədər əhəmiyyət verməsi heç də boş deyildir. Çünki çökməkdə olan Osmanlı İmperiyası dağıntıları üzərində yüksələcək olan Azərbaycan, daima Türk və Türkçü olaraq qalmışdır".[1719]

Cəfəroğlu tək millət olan Azərbaycan və Türkiyə türklərinin ortaq milli birliyi məsələsində Ziya Göyalpla yanaşı Mustafa Kamal Atatürkün rolunu da dəfələrlə ifadə etmişdir. O, "Atatürk və Şərq millətçiliyi davası" məqaləsində yazırdı ki, Atatürkün Azərbaycan türkləri ilə təması Çanaqqala zəfərlərindən sonra cəbhədən İstanbula döndüyündə bir müddətliyinə yerləşdiyi bugünkü "Perapalas" otelində, eyni zamanda qonaq olaraq qalan Azərbaycan-Türkiyə sülh andlaşması heyəti ilə olmuşdur. Dostlarımdan aldığım məlumata görə, dövrün Mustafa Kamal paşası Azərbaycanla yaxından maraqlanmaqla bərabər eyni zamanda, dalğın bir halda Türkiyə xəritələri üzərində araşdırmalarla məşğul olmuşdur: "Daha sonra Milli Qurtuluş hərəkatına başlayınca, "Perepalas"dakı dostları Azərbaycan dövlət adamlarını xatırlayaraq, Azərbaycana sığınmış Türkiyə mühacirlərinin məsuliyyətsiz hərəkətlərinə qarşı diqqətləri yönəltmiş və ona bu məsələdə yardım edilməsini istəmişdirlər. Atatürkün xəbərdarlığı layiqincə tətbiq edilmədən qalmış, səbəbkarlar isə İstiqlal məhkəmələrində cəzalandırılmışdır. Atatürkün yardım istəyi isə böyük bir məmnuniyyətlə gerçəkləşdirilmişdir. Bu müqəddəs vəzifə Milli Azərbaycan hökumətinin baş naziri Nəsib bəy Yusifbəyliyə, Xəlil Xasməmmədə və Musa Rəfiyə həvalə edilmiş,

[1719] Yenə orada, s.48

ilk yardım da 1920-ci ilin may ayında mənimlə birlikdə İstanbula gələn Əhmədzadə tərəfindən Xarici işlər naziri Muxtar bəyə təslim edilmişdir. Bir çoban ərməğanı dəyərində bu ilk yardımı, Atatürk "Şərq milliyyətçiliyi"nin ilk həmləsi olması baxımından tarixi bir dəyər, hətta təməl daşı xarakterini daşımaqdadır, demişdir".[1720]

Cəfəroğlu iki ölkə arasındakı birliyin mahiyyətini göstərmək üçün yazırdı ki, Türkiyə və Azərbaycan tarixən iki qardaş, doğma ölkələr kimi bir-birinə bağlı olmuş, bu bağlılıq XX əsrin əvvəllərində özünü bir daha büruzə vermişdir. Belə ki, Anadolu türkləri dar ayaqda olanda Azərbaycan türkləri onların, Azərbaycan türkləri dar ayaqda olanda isə Anadolu türkləri onların dayağı olmuşdur. 1-ci Dünya müharibəsində ruslara əsir düşən Osmanlı Türk əsgərlərinə yardım edən, eyni zamanda Çanaqqalada onlarla bir yerdə Türk düşmənlərinə qarşı savaşan Azərbaycan türkləri olmuşdur: "Bir çox hərbi əsirlər rus zindanlarından qaçırılmış, onların təkrar vətənlərinə dönmələrinə yardım edilmişdir. Bu ağır vaxtda Azərbaycan sanki öz dərdini – rus istilasını unudaraq yalnız Anadolunu düşünmüş və bu istiqamətdə əməli işlər görmüşdü. Əvəzində 1918-ci ildə Azərbaycan Cümhuriyyəti qurulduğu zaman Anadoludan gələn Türkiyə ordusu istiqlal təməlinin qoyulmasında mühüm rol oynamışdı. Osmanlı imperatorluğunun süqutu ilə ana vətənin başı üzərindəki qara buludların sıxlaşmasına, əcnəbi müdaxilənin şiddətlənməsinə baxmayaraq Anadoludan olan qardaşlarımız Şərqdəki ilk Türk Cümhuriyyətinə sevgilərini qanları ilə ödədilər. Osmanlı isə bir imperatorluq və xilafət olsa da, ilk Türk Cümhuriyyətinə münasibətdə şərəfli mövqeyini sona qədər mühafizə etdi".[1721]

Bütün bunlarla yanaşı, o yazırdı ki, tarix iki doğma qardaşa tam zidd istiqlal yolları cızmışdır. Birinin səadət ili o birinin fəlakəti olmuşdu: "Azərbaycan doğmuş Osmanlı imperatorluğu qürub etmişdi, Türkiyə Cümhuriyyəti həyat səhnəsinə gəlmiş, Azərbaycan türkünün İstiqlaliyyəti əlindən alınmışdı. Ümid edək ki, milli şüuru oyanan və bu acı tarixi dadan yeni Türk nəsli çox yaxın za-

---

[1720] Yenə orada, s.131-132

[1721] Cəfəroğlu Əhməd. Seçilmiş əsərləri. Bakı, Mütərcim, 2008, s.366

manda bu iki qardaş ölkəni həqiqi Türk tarixi yoluna çıxaracaq və hələ də evlərdə gizli qalan milli Azərbaycan bayrağının aşkarda dalğanlanmasını təmin edəcəkdir”.[1722]

Ə.Cəfəroğlu 1960-cı ildə “Mücahit” dərgisində nəşr olunan “Azərbaycan Cümhuriyyəti” məqaləsində yazırdı ki, 1918-ci ilin 28 mayında qurulan Azərbaycan Türk Cümhuriyyəti tamamilə demokratik olub hakimiyyəti hüdudsuz və şərtsiz millətə vermişdir. Bu cümhuriyyətdə bütün dinlərə, millətlərə münasibətdə tolerantlıq nümayiş etdirilmiş və himayədarlıq göstərilmişdir. Cəfəroğlu yazırdı: “Azərbaycan onu sevən və onu qoruyan hər kəsin vətəni kimi idi. Qardaş Türkiyəyə qarşı irqən kültürcə və dilcə bağlı olduğu kimi, Qafqaz daxilində qurulan Gürcüstan, Şimali Qafqaz və Ermənistan cümhuriyyətləri ilə də yaxşı münasibətdə idi. İnsani və ülvi qayələri ilə qurulan bu Cümhuriyyətin ən böyük qayəsi istiqlalına sadiq tam bir varlıq olmaq idi. Türklük qayəsindən bir an üçün olsun belə ayrılmamışdır”.[1723]

Azərbaycan alimi hesab edirdi ki, 1920-ci ilin 27 aprelində böyük Türk dünyasının köksündə hürriyyət bayrağını qaldıran bir Türk ölkəsinin ocağı sönmüş, Azərbaycan qırmızı ruslar tərəfindən işğal edilmişdi. Bunun müqabilində isə milli bayrağı enilən, yerində azad Türk Cümhuriyyəti vətəndaşlarının qanuna boyanmış “oraq-çəkicli” bayrağın dalğalandığı bolşevik istilasına uğramış Azərbaycanda, rus əsarətini mədh edən nitqlər söylənilir və şənliklər keçirilir: “Böyük rus istibdadına satılmış kiçik bir Azəri tör-töküntüsü də bu rus şənliklərində ana yurdlarının istilaçıya təslim edilməsinin mükafatını alırlar. Milli prinsiplər və milli varlıq bunlar üçün başdan-başa saxta və riyakar bir yalandan ibarətdir. Bunların nəzərində həqiqi vicdan xalqların milli şərəf və namusunu tapdalamaq, müqəddəs və əziz ruhları təhqir etməkdir. Kiçik bir tör-töküntüdən ibarət olan və qırmızı rusların qanlı xəncərinin kölgəsində gizlənən bu qaraguruh, nəhayət ki, yaxın zamanlarda Türk öl-

[1722] Yenə orada, s.358

[1723] Caferoğlu Ahmed. Azerbaycan Cümhuriyeti// Ankara, “Mücahit” dergisi, №31-32, 1960, temmuz-agustos, s.8

kələrində öz inhisarlarına daha yer qalmadığını görərək, şərəfsiz ölümlərinin günbəgün yaxınlaşdığını özləri başa düşəcəklər. Çünki haqq və istiqlal eşqi, istiqbal və milliyyət davası könüllərdə yer tapdığı bir zamanda nə qırmızı xəncər, nə də boğazdan yuxarı şənliklər kimsəni qorxutmur”.[1724]

Cəfəroğlu yazırdı ki, Azərbaycan türklərinin izzəti-nəfsinə endirilən vicdansız zərbəni bir daha göz önünə gətirməklə yanaşı, bunun belə davam etməyəcəyi inamını da yaşatmaq lazımdır. Ona görə də, hər bir azərbaycanlı Azərbaycan Milli Məfkurəsinin nə qədər uca amal olduğunu bir daha təqdir edir və istiqlal şəfəqinin artıq dan yerindən sökülməkdə olduğunu sezir. Bu baxımdan istiqlal davası azəri türklərinin taleyi və yaşam prinsipidir. Cəfəroğlu yazırdı: “İstiqlalın mayası və mənbəyi uzun illərdən bəri Türk ellərini əsarət atına alaraq Türk ruhunu ağrı-acılarla inlədən ruslarda deyil, “Tanrım, məni istiqlala qovuşdur!” - deyən və onu milli dua kimi hər gün təkrarlayan türklərin əlində və dilindədir. Buna görə də düşmən caynağında qalan sevgili Türk Azərbaycanının qurtuluşu əsarətə boyun əyməyən və istiqlal üçün qan tökməyi şərəf bilən hər bir Türk ölkəsinin susmayan vicdan qaynağıdır”.[1725] O yazırdı ki, milli dil, milli mədəniyyət, milli mənlik, milli əxlaq etibari ilə türklüyə tam yad olan qüvvənin illərdən bəri vurduğu zərbələr yalnız bir məqsədə və bir hədəfə yönəldilmişdir: “Azərbaycanı türksüz qoymaq, istiqlal və milliyyət ruhunu kökündən qoparıb atmaq! Bu isə bir daha onu göstərir ki, Azəri türkləri istiqlala layiq, hürr yaşamağa hazır, yetişmiş bir millətdir. On üç ildən bəri rusların istismarına və təzyiqlərinə qarşı aparılan inadlı çarpışmalar, axıdılan qanlar, daxildə və xaricdə ucaldılan mübarizə sədaları məhz bu yetkin millətin istiqlaldan dönməyəcək əzmə və milli varlığa malik olmasının göstəricisidir”.[1726]

O qeyd edirdi ki, Türkiyəyə yardım göstərmək, milli istiqlalın tam şəkildə təmin olunmasına kömək etmək adı ilə maskalanan

---

[1724] Cəfəroğlu Əhməd. Seçilmiş əsərləri. Bakı, Mütərcim, 2008, s.351
[1725] Yenə orada, s.351
[1726] Yenə orada, s.351-352

bolşeviklər Azərbaycanın istiqlalına son qoyaraq, keçmiş çar Rusiyasının sərhədlərini bərpa etmək niyyəti güdmüşdü. Bu məqsədlə milli ordu buraxıldı, milli müəssisələr ləğv olundu, türk məmurlarının yerinə erməni və ruslar gətirildi: "Bir sözlə, əski milli Cümhuriyyətin istiqlal ruhu şər qüvvə kimi Azərbaycandan çıxarıldı. Bu ruhun daşıyıcıları olan milli Azəri Türk ziyalıları isə istisnasız şəkildə məhv edildi. Onlardan yalnız az bir qismi xarici mühacirətə yollanmaqla həyatlarını qoruya bildilər. Qısa zaman ərzində Azərbaycan Azərisiz qaldı, ölkənin həqiqi sahiblərinin yerinə isə kommuna adı ilə ruslar, internasionalistlər və bolşevik libasına bürünmüş "vahid Rusiya" ideyası tərəfdarları doluşdular".[1727]

Azərbaycanda bundan sonra azərbaycanlıların qonaq, rusların isə həqiqi "ev sahibi" olduğunu qeyd edən Cəfəroğlu yazır ki, artıq ruslara yad və yabançı görünən milli Türk istiqlalı yerinə rus qoxulu müjik ruhu Azərbaycanı işğal etmişdi: "Türkə ölkəsindən köçüb getmək, rusa isə gəlib burada yerləşmək və hər şeyə sahib olmaq çağırışı edildi. Azərbaycan başdan-başa qırmızı bayraqlarla bəzədildi, əhali isə qorxu və təhdidlə susdurularaq lallığa məhkum olundu. Oktyabr dili "zəfər dili" elan edildi. Hər şey dəyişdirildi. Milli istiqlal ruhu ilə yaşayan millət Azərbaycan uğrunda mübarizədən kənarlaşdırıldı".[1728] Beləliklə, "Türksüz Azərbaycan" yaradılması üçün Türk əhali yurd-yuvasından çıxarıldı. Cəfəroğlu yazır: "İstəklərindən uzaq düşmək istəməyənlər qürbət ellərə yayıldılar. Millətinin, milliyyətinin adı üzərindən götürüldü. Sən mənliksiz, sahibsiz, Türksüz buraxıldın".[1729] Onun fikrincə, lakin Türk yenilər, amma ölməz: "Onun varlığı başlanğıcsız və sonsuzdur. Bu böyük varlıq hər zaman müqəddəs olmuş və müqəddəs qalacaqdır. Türkün yurdu Türk tarixində bir çox 27 nisanlar yaşamış, lakin heç vaxt idealını qeyb etməmiş, istiqlaliyyətini unutmamışdır".[1730]

---

[1727] Yenə orada, s.352
[1728] Yenə orada, s.353
[1729] Yenə orada, s.355
[1730] Yenə orada, s.355

Yeri gəlmişkən, hələ də sıralarmızda Azərbaycanın quzeyinin çar Rusiyası tərəfindən işğalına haqq qazandıranlarla yanaşı, eyni aqibətə uğramış Azərbaycan Cümhuriyyətinin faciəvi taleyinə müsbət don geyindirmək istəyənlər də tapılır. Bəziləri iddia edirlər ki, Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalı mənfi hal olsa da, SSRİ dövründə Sovet Azərbaycanı hansısa böyük uğurlar əldə etmişdir. Hesab edirik ki, Azərbaycan Türk milləti hansı adla adlanmasından (çarizm, bolşevizm) aslı olmayaraq heç vaxt rus müstəmləkəçiliyi ilə razılaşmamış, onun adət-ənənələrini, mədəniyyətini, dilini və milli kimliyini assimilyasiya etməyə çalışan, var-dövlətini mənimsəyən müstəmləkəçilərə qarşı bütün sahələrdə daima mübarizə aparmışdır. Bu mübarizə çarizmin və bolşevizmin ən çox tüğyan etdiyi zamanlarda belə özünü büruzə vermişdir.

Cəfəroğlunun "Qafqaz birliyi" ideyasına qarşı olmadığı da hiss olunur. O yazır ki, belə birlik ideyası hələ 1919-1920-ci illərdə olmuş, hətta Gürcüstan, Azərbaycan və Dağıstan kimi milli cümhuriyyətlər Denikin təhlükəsinə qarşı siyasi-hərbi birlik yaratmışlar. Belə birliyin müacirlər arasında da olmasını rəğbətlə qarşılayan Cəfəroğlu qeyd edirdi ki, Azərbaycan Cümhuriyyətinin yenidən tarix səhnəsinə qayıtması üçün belə birliyin olması vacibdir.[1731]

**Ümumiyyətlə,** Cəfəroğlunun dünyagörüşü mühacir Azərbaycan Türk ədəbi-mədəni və fəlsəfi mühitini öyrənmək baxımından çox önəmlidir. Onun yaradıcılığında milli ədəbiyyat, milli istiqlal, dini-fəlsəfi məsələlər çox zəngindir. Cəfəroğlunun irsini tədqiq edərkən qarşılaşdığımız ən maraqlı məqamlardan biri də onun milli təəssübkeşliyidir. Bir qədər də dəqiqləşdirsək, Cəfəroğlu da milli mentalitetə aid xüsusiyyətlər onun bütün əsərlərində özünü büruzə verir. Hər halda, onun ədəbi-mədəni irsi çağımızda öyrənilməsi, daha dərin tədqiqatlara ehtiyac duyalan elmi məsələlərdən biridir. Xüsusilə, Azərbaycan Milli İdeyasının mühacirətdəki dövrünü öyrənmək baxımından Cəfəroğlu irsinə müraciət etmək zəruridir.

[1731] Yenə orada, s.380-381

## SÜLEYMAN TƏKİNƏR

**Həyat və yaradıcılığı.** Azərbaycan Türk mütəfəkkiri Süleyman Təkinər-Məmmədov (1917-2006) Bakının Mərdəkan qəsəbəsində anadan olub, 1940-cı ildə Azərbaycan Pedaqoji İnstitutunun tarix fakültəsini bitirib və Gəncə Pedaqoji İnstitutunda fəaliyyətə başlayıb. SSRİ-Almaniya müharibəsi dövründə, yəni 1942-ci ildə Sovet ordusuna çağırılan Təkinər 1943-cü ildə almanlara əsir düşüb. O, müharibə qurtaranda Avstriyada olmuş, oradan İtaliyaya, Qahirəyə, ən nəhayət, Türkiyə hökumətinin əsirlikdə olan bütün azərbaycanlılara köməyi nəticəsində 1949-cu il yanvarın 8-də Türkiyəyə gəlmiş və Türkiyə vətəndaşlığına qəbul etmişdir.[1732] Burada özünə Təkinər təxəllüsünü (mənası Əmin adam deməkdir) götürən Süleyman bəy 1956-cı ilə qədər İstanbul millət kitabxanasında işləyib. Bu müddət ərzində o zaman Türkiyədə mühacirətdə olan Cümhuriyyətin qurucusu, milli ideoloq M.Ə.Rəsulzadə ilə görüşə bilib və qısa zamanda onun ləyaqətli və etibarlı silahdaşlarından birinə çevrilib. Təsadüfi deyil ki, Rəsulzadənin dəfn mərasimində çıxış edən üç azərbaycanlıdan biri S.Təkinər olub.

1956-cı ildə Avropada Azadlıq radiosu təşkil ediləndə Azərbaycan Milli Mərkəzinin təklifi ilə Almaniyaya köçərək, həmin radioda fəaliyyət göstərib. Təkinər Azadlıq radiosunda çalışmaqla yanaşı, Sovet İttifaqını Öyrənmə-Araşdırma İnstitutunun baş mütəxəssisi olub. Bu dövrdə Süleyman bəy araşdırmalar apararaq yüzdən (100) çox elmi, publisist, siyasi-ictimai yazılar hazırlamış, Türkiyədə çap olunan Türk Kültür Dərgisində və adıçəkilən institutun toplularında nəşr etdirmişdir.

Süleyman Təkinər əlli iki (52) il mühacir həyatı keçirdikdən sonra 1992-ci ildə doğma vətəni Azərbaycana gələrək bir ay burada yaşamışdır. O, 2009-cu il dekabrın 15-də İstanbulda dünyasını dəyişmiş və burada da dəfn olunmuşdur.

---

[1732] Təkinər Süleyman. Əsərləri ("Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası" seriyası, VI cild). Bakı, Elm və təhsil, 2022, s.5-12

Onun əsas əsərləri aşağıdakılardır: “Sovet Azərbaycanı maarifinə toplu bir baxış və kommunist tərbiyə sisteminin hədəfi” (1955); “Azərbaycan tarixi və kültürü böylə təhrif edilir” (1956); “Sovet Azərbaycanında çıxan bir tarix əsəri münasibətilə” (1960); “Sosialist millət əfsanəsi üzərinə” (1976); “Sovet Cümhuriyyətlərində ideoloji çalışmalar” (1977); “Tarix boyunca kommunistvari fikir və hərəkatlar”, “Azərbaycanda fikir hərəkatları”, “Böyük siyasi orqanizator Rəsulzadə”, “Azərbaycan istiqlal mübarizəsində Rəsulzadəsiz keçən 30 il” və b.

**İctimai-siyasi görüşləri.** Təkinərin ictimai-siyasi görüşlərində kommunizmin əsil mahiyyətinin açılması və Azərbaycan Milli İstiqlal ideyası önəmli yer tutmuşdur. O, “Tarix boyunca kommunistvari fikir və hərəkatlar” məqaləsində yazırdı ki, kommunizm ideyası birdən-birə meydana çıxmamış, müəyyən bir təkamül mərhələsi keçmişdir. Onun fikrincə, kommunizmin yaranmasında əsas rol Karl Marks və Fridrix Engelsə məxsus olsa da, o, özünün daha yüksək mərhələsini Rusiyada tapmışdır. Ancaq Marksla Engelsin birgə irəli sürdüyü kommunizm ideyası ilə V.Leninlə İ.V.Stalinin uyğuladığı kommunizm xeyli dərəcədə fərqli olmuşdur: “Fərdlərini bir robot halına gətirməklə qəddar bir diktatorluq quran Rus kommunistləri, bu gün Rusiyada artıq sosializmin gerçəkləşmiş olduğunu iddia edirlər. Əcəba, bugünkü Sovetlər Birliyi deyilən fərdlər və millətlər həbsxanasında sosializmin gerçəkləmiş olduğunu iddia etmək mümkündürmü? Ən bəsit ticarət əlaqələri də daxil olmaqla ümumi iqtisadi həyatı mütləq nəzarət altında saxlamasına rəğmən, fərdlərinin ən zəruri ehtiyaclarının daha müntəzəm surətdə qarşılanmasında heç bir məsuliyyət görmədən sonsuz iqtisadi sıxıntılar, başqa sözlə, tam bir səfalətlə sabit olan bir rejimdə sosializmin gerçəkləşmiş olduğundan necə bəhs edilə bilər? Bütün xüsusiyyətlərlə bir dövlət kapitalizmini xatırladan, kəndlisindən ziyalısına qədər bütün xalq təbəqələrinin iş həyatları boyu məcburi xidmətə tabe edildiyi, fəqət çox ucuz qiyməti olan bu bol müstəhsil qüvvətə rəğmən daimi bir səfalətin də bir an belə əskik olmadığı

bir cəmiyyətə, insan əməyi istismarının nümunəsi demək olan sosializmin gerçəkləşmiş olduğu necə iddia edilə bilər”.[1733]

Təkinər yazırdı ki, bugünkü Sovetlər Birliyi bir zamanlar Lui Blankın yazdığı kimi əsasən bir ictimai emalatxana halına gəlmişdir. Fəqət bir fərqlə ki, burada işçi haqqını tələb etməyə cəsarət edə bilmədiyi bir müdir üçün qarnını doydurmadan eləcə çalışmaqla və əmsalına sığmaz bir şəkildə də istismar edilməkdədir. Onun fikrincə, bütün bu ağır çalışma şərtləri ilə birlikdə sovet işçisi siyasi hürriyyətlər bir tərəfə, üstəlik çalışma hüriyyəti kimi ən ibtidai insan haqlarından da məhrum buraxılmışdır: “Məsələn, heç bir sovet işçisi ümumiyyətlə, sovet fərdi çalışdığı müəssisədən ayrılmaq haqqına sahib deyildir. Bu kimi hallarda müəssisə müdirliyinin, yəni hökumətin razılığının alınması şərtdir. Bunun xaricində işindən ayrılanlar cəzaya məhkumdurlar”.[1734]

Ona görə Sovetlərdəki ictimai ədalətsizlik və sosial bərabərsizlik dünyanın heç bir mədəni məmləkətində yoxdur. Çünki Staxanovçuluq, Krivonosovçuluq, Vineqradovçuluq və sair buna bənzər adlar altında xalqın bütün təbəqələri arasında hasilə gətirilən aristokrat təbəqələrinin sahib olduqları geniş imtiyazlara dünyanın heç bir tərəfində rast gəlinmir. Yalnız bu Sovet aristokratiyası tərəfindən dəstəklənən kiçik tiranlar qrupu bu böyük məmləkətin idarəsini geniş xalq kütlələrinin arzuları xilafına olaraq, yalnız zülm sayəsində əllərində tuta bilərlər. Təkinər yazırdı: “Digər tərəfdən “Rus imperializminin qorxunc bir silahı” halına gəlməklə artıq bir ideologiya olmaqdan çoxdan çıxmış olan kommunizm bu gün marksist internasionalizmindən artıq Rus şovinizmini təmsil etməkdədir. Fəqət, insan cəmiyyətinin təbii əsaslarını yıxmaqla təbiət qanunlarına qarşı çıxan kommunizmin “İnsanlara hürriyyət, millətlərə istiqlal” parolunu mənimsəyərək, insanlıq mədəniyyətini də yaşatmağa əzm

---

[1733] Təkinər Süleyman. Tarix boyunca kommunistvari fikir və hərəkatlar// Ankara, “Birləşik Qafqasiya” məcmuəsi, 1963, №6 (23)

[1734] Yenə orada.

etmiş olan Hürr Millətlərin bu dərin iman və sarsılmaz iradələri qarşısında tez-gec yıxılacağından əsla şübhə edilməməlidir”.[1735]

O, Sovet Azərbaycanında tənqidlərə hədəf olan “Bəzi şeirlər üzərində incələmələr” məqaləsində 27 aprel işğalından sonra Rus bolşevizminin Azərbaycan türklüyü üzərində oynadığı müstəmləkəçilik siyasətini, yəni milli mədəniyyətin hansı şəkildə məhv edilməsini ifadə etməyə çalışmışdır. O, yazırdı: “27 nisan 1920-də vaqe istila nəticəsi olaraq Müstəqil Milli Azərbaycan Cümhuriyyətinin süqutu üzərinə təəssüs edən qızıl rejim, Azərbaycan türklüyünün əsrlərə dayanan həyat tərzinə və mədəniyyətinə, bu məyanda şeir sənətinə tamamilə başqa bir istiqamət verməyə qoyuluyor və bunun üçün qaba qüvvət ünsürü də daxil, bütün imkanları səfərbər ediyor. Sözün həqiqi mənasında ədəbiyyat və şeir sənəti deyə bir məfhum tanımayan qızıl rejim ədəbiyyatı kommunist ideologiyasını yaymaqda mükəlləf bir propoqanda vasitəsi tələqqi ediyor, yazarlardan da sadə qızıl rejimin məddahlığını yapmalarını istiyor. Fəqət qızıl rejim bu istəklərini qolay təhəqqüq etdirəmiyor. Hər halı ilə kəndi ədəbi mirasına bağlı bulunan Azəri Türk yazarları həqiqi bir kültür savaşı alanına atılıyorlar. Tərəflərdən heç birinə nihayi bir zəfər təmin edəməyən bu şiddətli mücadilə, nəhayət, 1937-də arxasında qorxunc bir ruslaşdırma kabusunun saklı bulunduğu topdan təvsiyəni intac ediyor. Milli həyat tərzini, milli kültürünü, bu məyanda şeir və sənət gələnəklərini qorumaq üçün ölüm-qalım savaşına atılan böyük bir aydınlar ordusu artıq bərtərəf edilmişdir. Başqa deyimlə, Azərbaycanda “sovetizm” şəklən “türkizm”ə qalib gəlmiş, rus bolşevizmi zahirən Azərbaycan millyyətçiliyi üzərində zəfər saxlamış və ya yabançı totaltarizm yerli demokrasini əzmişdir. Fəqət şübhə yoxdur ki, bu mücadilənin bitmiş olması demək deyildir”.[1736]

Sovetlərdə ən kiçik tənqidi şeirin belə qəbuledilməz olduğunu yazan Təkinər buna örnək kimi Rəsul Rzanın “İnsan”

---

[1735] Yenə orada.

[1736] Təkinər Süleyman. Əsərləri (“Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası” seriyası, VI cild). Bakı, Elm və təhsil, 2022, s.96

şeirini göstərmişdir. R.Rza bu şeirində repressiya dövründə ziyalıların səssiz-səmirsiz şəkildə güllələnməsini, sürgünə göndərilməsini təsvir etmişdi. Təkinər "İnsan" şeirindən sonra şairə qarşı yönlmiş ittihamlarla bağlı yazırdı: "Həssas bir şairin "çürük bir fəlsəfə təsisi" və ya insanlara qarşı iftiraçılıq" kimi töhmətlər altında buraxılması, hər şeydən öncə, sovet-kommunist cəmiyyətinin üzərinə qurulu bulunduğu sakat bir zehniyyətin məhsuludur. Şübhə yoxdur ki, şair "İnsan" şeiri ilə Sovet cəmiyyətində insanın həqiqi durumu qarşısında öz duyğu və sezgilərini ifadə etmişdir. Bu duyğu və sezgilər insanın cəmiyyət qarşısında mövqe və rolunu təsbit edən kommunizmin ikiüzlü fəlsəfəsinin tutumundan çox fərqlidir".[1737]

Abid Tahirli yazır ki, tarixi fakt və hadisələri mötəbər mənbələrə istinadən ağlın, məntiqin gücü ilə dərindən araşdırmaq, təhlil, müqayisə etmək, müvafiq nəticələr çıxarmaq Süleyman Təkinər publisistikasının səciyyəvi cəhətlərindəndir. "Kültürdə inqilab və Azərbaycan demokratiyası" adlı məqaləsində müəllif mədəniyyət tarixi, mədəni inqilablar, həmin faktorun milli şüura və hərəkata təsiri barədə yazır və sonra göstərir ki, milli Azərbaycan Cümhuriyyəti mədəni inqilabın məntiqi nəticəsidir. Həmin mövzuya bir qədər başqa prizmadan "İdeyalar, ideologiyalar, ideoloqlar" adlı məqalədə də toxunulur.[1738]

Təkinər "Stalinin ölümündən 10 il sonra Azərbaycan" adlı məqaləsində iqtisadi, siyasi və mədəni həyatda diqqətçəkən hadisələri göstərir, təhlil edir və onlara münasibət bildirirdi. Ona görə Stalinin ölümündən sonra Azərbaycanın həyatındakı ən böyük dəyişikliklərdən biri "Azərbaycan xalqının mərhəmətsiz cəlladı Mircəfər Bağırovun "cəhənnəmin yoluna boylanması" olmuşdur. Şəxsiyyətə pərəstişin nəticələrini aradan qaldırmaq üçün sovet rəhbərliyinin həyata keçirdiyi tədbirlər ədəbiyyat, incənət sahəsində müəyyən canlanmaya səbəb olmuşdu. Belə ki, bu

---

[1737] Yenə orada, s. 103

[1738] Tahirli Abid. Azərbaycan mühacirət mətbuatında publisistika (1921-1991). Bakı, "CBS", 2005, s.295

dövrdə yeni əsərlər yazılmış, repressiya uğramış sənətkarlara, o cümlədən Ə.Cavada, H.Cavidə M.Müşfiqə və başqalarına bəraətlər verilmiş, Azərbaycan dili dövlət dili elan olunmuşdu. Ancaq çox keçmədən sovet rejimi yenidən əsl simasına qayıdaraq Azərbaycan rəhbərliyini və milli ruhlu ziyalıları cəzalandırmışdır. Belə ki, İmam Mustafayev, Mirzə İbrahimov vəzifələrindən uzaqlaşdırıldığı bir zamanda Abbas Zamanov, Xəlil Rza, Qulu Xəlilov kimi ziyalılar isə təqib olunmağa başlanmışdı.[1739]

**Milli ictimai fikir tarixi.** Təkinərin milli maarifçiliyi milli mədəniyyət, milli tarix, milli ictimai fikri tarixini tədqiq və təbliğlə bağlı olmuşdur. O, "Azərbaycanda fikir hərəkatları" məqaləsində milli ictimai fikir tariximizdən bəhs edərək yazırdı ki, Azərbaycan türklərinin yeni bir dövrə qədəm qoyması 18-19-cu əsrlərlə bağlıdır. Belə ki, XVIII sonlarında baş vermiş fransız inqilabı ilə tarixdə yaxın çağın başlanğıcı olaraq qəbul edilən demokrasi rejimin başlanması, İnsan Haqları Bəyannaməsinin elanı gerçəkləşmiş, daha sonra da milliyyətçilik duyğusu bütün dünyaya yayılmışdır. Təkinər yazırdı: "Fransız ixtilalı, İngiltərədə filosof Con Lokk (1632-1704) tərəfindən formalaşdırılaraq sonraları amerikalılarca da qəbul olunmuş İnsan Haqları Nəzəriyyəsini praktik sahəyə qoymuşdu. 19-cu yüzyılda elmdə qeyd edilən irəliləmə və dövlətlərin demokrasi prinsiplərini qəbul etmələri, hər tərəfdə fəlsəfə və ədəbiyyat üzərinə böyük təsirlər icra etmişdi. Şübhəsiz ki, Rusiya kimi hər dürlü hürriyyət prinsipi və insan haqlarına düşmən kəsilmiş olan müstəmləkəçi bir məmləkətdəki fikir həyatı da bu təsirlərdən azadə qalamazdı, nitəkim qalmadı da".[1740]

Təkinər belə bir dövrdə Çar Rusiyanın sömürgəsi altında olan Quzey Azərbaycan türklərinin vəziyyətini belə dəyərləndirmişdir: "Azərbaycanın coğrafi mövqeyi və bir rus sömürgəsi olması hesabı ilə Qərb aləmində vüqu bulan hürriyyət alanı və fikir həyatındakı gəlişmələrin, buraya yalnız Rusiyadan sızıb keçə

[1739] Yenə orada, s. 296-297

[1740] Təkinər Süleyman. Əsərləri ("Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası" seriyası, VI cild). Bakı, Elm və təhsil, 2022, s.16

bilməsinə rəğmən, hürriyyət və istiqlaliyyətlərinə düşkün bulunan azəri türkü Qərbin bu irəli fikirlərini mənimsəmək və tətbiq mövqeyinə qoymaqda hər dürlü fədakarlıqlara qatlanmışdır. Azəri Türkünün hürriyyətsevərliyini, müqəddəs qanları ilə qəhrəmanlıq dastanları yazmış böyük vətən övladı Cavad xanların düşmənlə vaqe qırtlaq-qırtlağa savaşlarında olduğu kimi, böyük fikri adamlarının həyat və fəaliyyətlərində də müşahidə ediyoruz".[1741]

O, hesab edirdi ki, XIX əsrin başlanığıcında Azərbaycan türklərinin imkan daxilindəki milli müqavimət hərəkatına baxmayaraq, təcavüzkar Rusiya ordusu Vətənimizin müqəddəs torpaqlarının bir hissəsini işğal etməyi bacardı. Ancaq Rusiya işğalı ilə birlikdə, sonralar istiqlal mübarizəsi kimi şərəfli bir davanı ələ alaraq Azərbaycan türkünün gələcək istiqlalını hazırlayacaq mütəfəkkir, aydın bir təbəqə də meydana çıxmış oldu. O, yazırdı ki, bu aydın zümrə Azərbaycan türkünün mədəni səviyyəsini yüksəltmək, milli mətbuatı yaratmaq, milli dili qüvvətləndirmək və xalqı milli ruh və tərbiyə ilə yetişdirməklə mükəlləf bulunmuşdur: "Rus istilasına qarşı cəbhə alacaq olan bu zümrə, bir tərəfdən rus təzyiqi, digər tərəfdən də hələ geri İran harsının təsirində bulunan xalqın hər növ yeniliyə güvənsizliyi və cəhaləti üzündən böyük maneələrlə qarşılaşmışdır. Bunun üçündür ki, milliyyətpərvər mütəfəkkir azərbaycanlı zümrəsi müstəmləkəçiliyə qarşı mücadiləsində, hər şeydən əvvəl, xalq arasındakı cəhalətin qaldırılmasına böyük önəm verərək işə bundan başlamağı münasib görmüşdü. Nə İslam İranından, nə də istilasını möhkəmlətməyə çalışan Rusdan gələcək mədəniyyətlə hürriyyətə qovşulamayacağına qane bulunan bu zümrə, milli dillə xalqa xitab edərək, istilanın milli varlığı imhaya götürəcəyini ona anlatmaq yolunun tutmuşdu".[1742]

Ona görə Çarlığın işğalına qədər Azərbaycan türklərinin milli ictimai fikir həyatında başlanğıc rolunu bilgə Dədə Qorqud və onunla bağlı olan "Dədə Qorqud Kitabı" oynamışdır. O, yazırdı ki, hər hansı bir cəmiyyətdəki ədəbi və fikri hadisələrin formalaşma-

---

[1741] Yenə orada, s. 16

[1742] Yenə orada, s. 17

sında yazılı ədəbiyyatın mühüm bir amil olduğu keyfiyyətini göz önündə bulunduracaq olursaq, Azərbaycandakı fikri gəlişmələrin başlanğıcını Dədə Qorqud dövrünə qədər götürmək lazım gələcəkdir. Ona görə əsasən, Azərbaycanda yaşadığı təxmin edilən Dədə Qorquda aid kitabın türklər, o cmülədən Azərbaycan türkləri üçün əhəmiyyəti çox böyükdür: "Azəri türkcəsi ilə yazılmış olan bu kitab bütün Türk ədəbiyyatı tarixi baxımından qiymətli bir vəsiqə sayılır. Oğuz gələnəklərindən alınmış bir taqım masallardan ibarət olub, türkün hər işdə, hər yerdə bərabərlik və birlik duyğusu, eşsiz qəhrəmanlığı və dərin ailə sevgisi kimi üstünlüklərini təbarüz etdirən bu əsər, o zamankı cəmiyyətin milli, məfkurəvi xüsusiyyətlərini öyrənmək baxımından daha çox dəyərlidir".[1743]

Təkinər hesab edir ki, "Kitabi-Dədə Qorqud" və "Oğuznamə"lərdən sonra türklərin, o cümlədən Azərbaycan türklərinin həyatında və milli ictimai fikir tarixində mühüm yer tutan İslam dini olmuşdur. İslam mədəniyyətinin yaranması, inkişafında ərəb olmayan millətlərdən ən çox ön planda türklərlə farsların olmasını Qərb və Şərq müəllifləri də dəfələrlə ifadə etmişlər. O, yazırdı: "İştə, tarixi, geopolitik və etnik şərtlər, bundan sonrakı dövrlərdə Azərbaycandakı ictimai-ədəbi və fikri həyatını, sözükeçən Şərq-İslam mədəniyyəti qarşısında mütaliə etməmizi zəruri qılıyor. İslam camiəsinin fəal bir ünsürünü təşkil etmiş olan azərbaycanlıların, bu camiəyə mənsub millətlərin əsəri bulunan Şərq-İslam mədəniyyətinin gəlişməsindəki xətri sayılır xidmətlərini də qeyd etmək lazımdır. Memarlıq, çiniçilik, nəqqaşlıq, xəttatlıq, tibb və heyət kimi mücərrəd elm və sənətlərdən başqa, İslam camiəsinin fikir həyatında da bilxassə fəlsəfə, təsəvvüf, ədəbiyyat sahəsində də azərbaycanlı mütəfəkkir, ədib, şair, sənət və elm adamlarının saysız əsərləri birər abidə olaraq yüksəlməkdədir. Təsəvvvüf fəlsəfəsininn mürşidi bulunan Mövlana Cəlaləddin Ruminin mülhəm olduğu Şəmsi Təbrizi, sufiliyin mütəfəkkirlərindən "Gülşəni-Raz" müəllifi Şeyx Mahmud Şəbüstəri, hürufiliyin banisi olaraq tanınan Şeyx

[1743] Yenə orada, s. 17

Feyzullah Nəimi, tanınmış xəlvəti mürşidlərindən Seyid Yəhya Şirvani kimi böyük şəxsiyyətlər bu meyandadır”.[1744]

Təkinərə görə Şərq-İslam mədəniyyətinin əsas ünsürlərindən birini təşkil edən klassik “İran” ədəbiyyatında da Azərbaycan Türk mütəfəkkirlərinin mühüm yeri vardır. XI əsrdə yaşayaraq o zamankı azərbaycanlı hökmdarların həyat və əməllərini nəzm etmiş Təbrizli Qətrandan başqa, XII əsr, yaşatdığı Nizami Gəncəli, Xaqani Şirvani, Fələki Şirvani, Müciri Beyləqani və Əbülüla Gəncəvi kimi dahi sənətkar və mütəfəkkirlərlə adəta öyünməkdədir. Onun fikrincə, bu böyük elm və fikri adamlarının əsərlərini zamanın rəsmi dili olan farsca yazmaları mənsub bulunduqları mühit və və cəmiyyətə bağlı qala bilmələrinə bir əngəl təşkil edəməmişdi. Geniş görüşü, içli duyğu və mütərəqqi fikirləri ilə XII yüz ilin dəyərli siması, tanınmış mütəfəkkir-filosof Nizami Gəncəli bu dövrə öz damğasını vurmuşdu. Təkinər yazırdı: “İnsan ən yüksək qiymətini Nizamidə almışdır desək, mübaliğə yapmamış oluruz. Nizaminin təsvir etdiyi insan bütün zorluqları yenərək təbiətə hakim olmasını bilən, elm və sənət sahibi olan kamil bir insandır. “Öyrənməkdən sıxılmayan insandır ki, sudan inci, daşdan da bal çıxarır” (M.Ə.Rəsulzadə. Azərbaycan şairi Nizami, s.258). bağlı bulunduğu ideal üçün böyük məhrumiyyətlərə qatlanmasını bilmək, nəfsinə hakim olmaq, həyat sevmək – bütün bunlar, Nizaminin insanda gömək istədiyi vəsflərdir. “Xalqa qarışmaq, xalqa faydalı olmaq – iştə, insanlığın sifəti” (s.257)”.[1745]

Təkinərə görə sosial düzən və ədaləti cəmiyyətin təməli olaraq qəbul edən Nizami bu düzənin hər hansı bir şəkildə pozulmasından dövləti, birbaşa hökmdarı məsul tutmuşdur. Ədalət ünsürünü dövlətin təməli olaraq qəbul edən Nizami, bu ünsürü Türk dövləti üçün təbii bir hal olaraq qəbul etmişdir. O, yazırdı: “Uzun və verimli çalışmaların məhsulu olaraq M.Ə.Rəsulzadənin meydana qoymuş olduğu “Azərbaycan şairi Nizami” əsərində, böyük şair və mütəfəkkir üzərində yapılan dərin tədqiqlər nəticəsi

[1744] Yenə orada, s. 18
[1745] Yenə orada, s. 19-20

olaraq, şairin milliyyət, məfkurə və yaradıcılığına təəllüq edən məsələlərdə varılan beynəlmiləl mahiyyətdəki sonuclar, şübhəsiz ki, klassik ədəbiyyat və fəlsəfəni məşğul kimsələrin, Nizami bəhsindəki mövcud görüş və qənaətlərində əsaslı dəyişikliklər yapılmasını zəruri qılacaqdır".[1746]

Təkinər daha sonra yazırdı ki, XIII əsrdə milli ictimai fikir həyatında tanınmış şəxsiyyəti İzzəddin Həsənoğlu, Fəzlullah Nəimi, XIV əsrin tanınmış mütəfəkkirləri Qazi Bürhanəddin, İmadəddin Nəsimi olmuşdur. Ona görə XIV yüzyıl Azərbaycan Türk ədəbi və fikri həyatının ən qüdrətli şəxsiyyəti İmaddədin Nəsimidir. O, yazırdı: "Sürətlə gəlişən ədəbi yaradıcılığı və fəlsəfi fikirləri ilə İraq, Azərbycan, Şimali İran və Anadolu kimi geniş sahələri uzun bir müddət qüvvətli təsirləri altında bulunduran Nəsimi bütün Türk ədəbi və fikri həyatının da yüksək mümətsillərindəndir. Nəsimi sufi təriqətlərindən olan hürufiliyin müəssisi məşhur Fəzlullah Hürufinin xələflərindən olub, bu təriqəti intişar etdirənlərdəndir".[1747]

O, yazırdı ki, Azərbaycan və İraqda İlxanlılar hakimiyyəti dövründə yaşamış olan Nəsimi, hürufilik təriqətinin "İran" və Anadolu türkləri arasında yayılmasında böyük rol oynamış, bu məqsədlə Anadoluya səfər etmişdir. Hürufiliyin əsasları isə, bu təriqətin banisi Fəzlulah Nəiminin "Cavidannamə" əsərində öz əksini tapıb ki, onlar ayət və hədisi-şərifləri hərflər vasitəsilə izah etmişlər. Təkinər yazırdı Nəimi və Nəsiminin təsis etmiş olduğu Hürufilik məktəbi bir çoxları kimi Şah İsmayıl Xətaiyə də təsir göstərmişdir: "Xətai əsərlərinn ən önəmliləri şairin fəlsəfi fikrilərini tərənnüm edən parçalardır. Bu fikirlər başlıca olaraq, cəmiyyət üçün iman sahibi, yüksək mənəviyyata malik mətin şəxsiyyətlər yetişdirə bilməyə matufdur. Xətaiyə görə mənəviyyatca yüksək olan şəxsiyyətlər əzəli şəxsiyyətlərdir. Varlıq ilə başlamış olan bu şəxsiyyət, varlığın sirlərinə vaqif olaraq həyati vaqiələrin də şahidi

---

[1746] Yenə orada, s. 20-21
[1747] Yenə orada, s. 21

olmuşdur. Bundan başqa, biri digərinə çox yaxın bulunan "Haqq" ilə bu qüvvətli şəxsiyət ümumi sirlərə də vaqifdirlər".[1748]

Onun fikrincə, XVI əsrdə yalnız Azərbaycan Türk ədəbiyyat və fikriyyatının deyil, böyük sənət qüdrəti və təkmil təhsili ilə bütün Türk dünyasının ən məruf şəxsiyyəti, Türkün şeir dühası Füzulidir. Təkinər yazırdı: "Füzuli uzun zamanlar Türk ədəbiyyatı, sənəti və fikriyyatının müxtəlif sahələri üzərində müəssir olmuşdur. Nəsimi və Nəvaidən sonra yalnız Füzulidir ki, Türk dünyasının hər tərəfində əsərləri yayılmış, sevilərək oxunmuş və təqlid edilmişdir. Füzulinin yetişmiş olduğu yalnız azəri sahəsi deyil, Osmanlı və cağatay ədəbiyyatları da əsrlərcə onun qüvvətli nüfuzu altında qalmışdır. Nəsimi və Xətaidə olduğu kimi, Füzulidə də məslək propaqandaçılığı son həddini bulmamaqla bərabər, fəlsəfi-təsəvvüfi fikirlərin onun yaradıcılığı üçün bir ilham qaynağı təşkil etdiyi bariz bir şəkildə əsərlərində görülməkdədir. Məsələn, "Leyli və Məcnun" əsərində tərənnüm etdiyi eşq dini duyğulardan uzaq, ələladə maddi bir eşq olmayıb, ilahi və platonik bir eşqdir".[1749]

Təkinərə görə XIX əsrdə isə milli davanın ələmdarı M.F.Axundzadə milli ictimai fikri tarixində ən mühüm yerlərdən birini tumuş mütəfəkkirdir. O, yazırdı: "Yalnız milli-mədəni qalxınma yoluyla hürriyyətə qovuşmanın saxlanacağına qane bulunan bu böyük mütəfəkkir milli lisanla xalqa xitab edərək dövrün bütün geriliklərini şiddətlə tənqid etmək və xalqı mədəniləşməyə dəvət etməklə, imha edilmək təhlükəsi keçirən milli varlığı qorumanın da mümkün olacağaına qüvvətlə inanıyordu. Eyni zamanda, yeni azəri ədəbiyyatının da qurucu olaraq tanınan Mirzə Fətəli məşhur komediləri və "Yusif şah" hekayəsi ilə o zamankı azəri mühitində hakim zehniyyət, hüquq şəkilləri, din xurafatı, cəhalət, maarifsizlik, bir sözlə ictimai bünyənin bütün çürüklüklərini böyük məharətlə təşrih edərək şiddətli tənqidləri ilə bu gerilikləri yıxmağa çalışır və bunda da tamamən müvəffəq oluyordu. Milli qalxınmaya bir mane təşkil

[1748] Yenə orada, s. 22
[1749] Yenə orada, s. 23

edən quruluş və zehniyyəti iflas etdirmək üçün xalqı ondan uzaqlaşdıraraq, arzu edilən mədəniləşməyə - qərbləşməyə doğru istiqamətləndirmək gərəkiyordu ki, bu da cəmiyyətin cəhalət və təəssüb kimi ictimai xəstəliklərini tam çılpaqlığı iləxalqa təşrih etmək yolu ilə müasirləşməyə matuf bu fikir hərəkatına xalqın təvəccüh və iştirakını saxlamaqla mümkün oluyordu".[1750]

O, yazırdı ki, XIX əsrdə Azərbaycan Türk mətbuatının qurucusu, böyük milliyyətpərvər Həsən bəy Zərdabi milli ictimai fikir tariximizdə milli azadlıq inqilabının ələmdarlığını yapmışdır: "Zərdabi ilk olaraq, Rus çarizminin azəri türkünə tətbiq etdiyi ruslaşdırma siyasəti cihazlarını sezmiş və bu yolda çarizmin əldə edəcəyi müsbət nəticələri təxmin etmişdir. Milli harsdan uzaq, mədəniyyətə laqeyd və cəhalət pərdəsi altında qalmanın Rus siyasətinin ana xətlərini təşkil etdiyini böyük həssasiyyətlə sezən Zərdabi təsis etdiyi mətbuatla milləti haqq və hüquq davasına iştirak etdirməyə çalışmışdır".[1751]

Təkinərin milli ictimai fikir tarixində yer verdiyi mütəfəkkirlərdən biri də Cəlil Məmmədquluzadə olmuşdur. O, Cəlil bəyin 25-ci ölüm ildönümünə həsr etdiyi məqaləsindən yazırdı ki, Mirzə Fətəli Axundzadə ilə başlayan milli kültür inqilabınn XX əsrin əvvəllərində öz kamalını bulmasında C.Məmmədquluzadənin faydaları sonsuzdur. O, yazırdı: "Bu gün totalitar bir zehniyyəti təmsil edən Kommunist Partisinin basqısı ilə Cəlil Məmmədquluzadənin sovet anlamından büsbütün başqa bir məna ifadə edən həqiqi hürriyyət və demokrasi hərəkatlarına olan bağlılığı və bu sahədəki fikirlərinin təhrif edilməsinə rəğmən, onun bu böyük ədəbi xidmətlərinin elm və kültür çevrələrində minnətdarlıqla anılması, əlbəttə, bizləri də çox məmnun etməkdədir".[1752] Təkinərə görə Cəlil Məmmədquluzadə sömürgəçiliyə, onun hər növünə düşmən olan bir fikir adamı idi. Onun tək bir qayəsi vardı: ulusunu və yurdunu hürr və bağımsız görmək. Təkinər yazırdı:

---

[1750] Yenə orada, s. 26
[1751] Yenə orada, s. 27
[1752] Yenə orada, s. 36

"Mərhumun çox sevdiyi "Molla Nəsrəddin" məcmuəsi milli hakimiyyət dövründən sərfi-nəzər, Çarlıq rejimində dəxi sərbəst surətdə intişarına davam edərkən, 1932 sənəsində böyük mühərrir, tarixdə ün salmış olan dərgisini "Allahsız" adıyla nəşrə Sovet hökuməti tərəfindən zorlanınca, çox sevdiyi əsərini tərk etmək məcburiyyətində qalmışdı. Hətta mərhumun bu üzdən intihar etmiş olduğunu söyləyənlər belə az deyildi".[1753]

Milli ictimai fikir tarixi baxımından Təkinərin qələmə aldığı əsərlərdən biri də Hüseyn Cavidlə bağlı olmuşdu. O, yazırdı ki, Cavid Türk dünyasının önəmli fikri adamlarından İsmayıl bəy Qaspıralının çox yayğın "Dildə, fikirdə, işdə birlik" öyüdünə hər zaman böyük önəm verən, onu öz çalışmalarında rəhbər tutan bir mütəfəkkir idi: "Tarix Cavidin kəndi yaradıcı sənətində sıx-sıx baş vurduğu ən önəmli qaynaqdır. Ailə-cəmiyyət həyatında hər zaman etibar edilməsi gərəkən əxlaq, məişət kuralları, qadın haqlarına sayğı, cəhalətə, sosial bərabərsizliyə qarşı mücadilə, mədəniyyət-çilik, İslama, Türklüyə bağlılıq sənətkarın əsərlərində işlədiyi başlıca mövzulardır".[1754]

Təkinər Cavidin "Uçurum", "Səyavuş", "İblis", "Topal Teymur", "Peyğəmbər" və digər əsərlərini də təhlil etməyə çalımışdır. Ona görə Cavidin əsərlərində əsasən türkçülük, turançılıq duyğusu ön planda olmuşdur. Təknər yazırdı ki, "İblis" əsərində belə Cavid yeri gəldikcə, milliyyətçilik və türkçülük duyğularını ifadə etmişdir. O, yazırdı: "Bu əsərində (yəni "İblis"də - F.Ə.) Cavidin insan təbiətinin pək yabançısı sayılmayan bir taqım kötülüklərə savaş açmaq və hər türlü iyi xislətləri, bəşəri duyğuları savunmaq surətilə, bir inqilabçı tövrü takındığı bu parçada açıq görülməkdədir. Fəqət böylə bir ruh aləti içində dəxi sənətçinin kəndisinə hakim olan ana düşüncəsini ön planda tutduğunu görüyoruz. Nitəkim, pyesin bir səhnəsində iki türk subayı arasında keçən bir konuşmada "Turan"ın quruluşu üçün sadə qüvvətin,

---

[1753] Yenə orada, s. 38

[1754] Yenə orada, s. 45

qılıncın kafi gəlməyəcəyi, burada ən önəmli ünsürün mədəniyyət olacağı şu kəsin ifadə ilə bəlitiliyor:

*Turana qılıncdan daha kəskin, ulu qüvvət,*
*Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət!".*[1755]

Onun fikrincə, Cavid türkçülük ideyasını Sovetlər Birliyi dövründə də yaşatmağa çalımış, axırda da bu müqəddəs ideyanın qurbanı olmuşdur.

Təkinərə görə XX əsrdə milli ictimai fikir tariximizin ən böyük nümayəndələrindən birincisi Cümhuriyyətin qurucusu, filosof-mütəfəkkir Məhəmməd Əmin Rəsulzadədir. O, Rəsulzadənin doğumunun 70 illik yubileyi ilə bağlı qələmə aldığı məqaləsində yazırdı: "Dünyanın hər hansı bir hücrə köşəsində bulunursa bulunsun, hər türk, bilxassə hər rus məhkumu türk elinə mənsub bir türk üçün Məhəmməd Əmin Rəsulzadə isminin ifadə etdiyi məna çox böyük və çox dərindir. Bu mənanın böyüklüyünün və dərinliyinin səbəbini isə, istiqlala və hürriyyətə susamış bu mərd insanların hüdudsuz vətən sevgiləriylə əmsalsız mücadiləçi ruhunda aramaq icab edər. Zira bu böyük mücahid vətənpərvərlər, şan və şərəflə keçən mücadilə hərəkatlarında daima bu böyük insanın nafiz ismini yanıbaşlarında bulmuşvə bir qüvvət qaynağı olaraq da bu isimdən mülhəm olmuşlardır".[1756]

O, yazırdı ki, yeni dövrdə Azərbaycan istiqlal fikrini ilk olaraq nəşr edən Rəsulzadə, bu fikrin gerçəkləşməsinə də önayaq olmuşdur: "28 may 1918-ci il tarixində Azərbaycanın istiqlalını elan edən Azərbaycan Milli Şurasının başı olaraq yenə bu böyük istiqlalçı vətənpərvəri görməkdəyik. Bununla da Rəsulzadənin, yaxın Şərqin demokratik əsaslara müstənid ilk Cümhuriyyətinin müəssislərindən birisi vəsfini qazanması onun deyil, Azərbaycan dolasyısı ilə ümümtürk və hətta dünya demokrasisinə xidmət dövrünün məbdəini təşkil etməkdədir. Azərbaycan türklüyünün böyük qeyrət və fədakarlıqları bahasına doğmuş olan gənc Cümhuriyyətin süqutundan sonra da müstəmləkəçiliyə qarşı

[1755] Yenə orada, s. 47
[1756] Yenə orada, s. 206

təşkilatlanmış istiqlalçı azəri vətənpərvərlərinin başında yenə bu qoca mücahidi görüyoruz. Bu gün dəxi eyni əzm və imanla davasının haqqaniyyətinə inanmış bir öndər olaraq mücadiləsinə davam etməkdədir”.[1757]

O, “Azərbaycan istiqlalının böyük mücahidi” məqaləsində isə yazırdı ki, M.Ə.Rəsulzadə şan və şərəflə dolu Azərbaycan istiqlal hərəkatı tarixinin ən çox minnət və şükranla andığı, anacağı böyük, fədakar insandır: “Milli istiqlal ideolojisini hazırlamaqdan başqa, rus məhkumu türklərin istiqlal davasını da ilk olaraq nəşr etməklə milliyyətçilik hərəkatının siyasi bir məfkurə şəklində şüurlandırılmasına önayaq olan və bu surətlə milli demokratizm ilə milli istiqlal məfkurəçiliyi ələmdarlığını dərhudə etmiş bulunan böyük ideoloq... Hürr yaşamaq əzmində bulunan dünya millətləri qarşısında təntənə ilə elan edilmiş İnsan Haqları Bəyannaməsinin “İnsanlara hürriyyət, millətlərə istiqlal” vəd edən prinsiplərini bütün səmimiyyəti ilə mənimsəyərək Azərbaycan demokrasisini gəlişdirmək yolu ilə azəri türklüyünü müasir mədəni millətlər səviyyəsinə ulaşdırmaq üçün bütün bir ömür tükətmiş olan böyük demokrat və inqilabçı... Böyük iman və fədakarlıqlar bahasına başarılan mücadilə dolu mütəvaze həyatı milli istiqlal üzərində iləlləbət böyük həssasiyyətlə titrəyəcək olan müstəqbəl istiqlalçı azəri vətənpərvərləri üçün daima örnək və ilham qaynağı olacaq xalq xadimi... Fövqəladə cəsarət, mətanət və səbatlı mücadilə ruhi ilə dost təqdirlərini qazandığı kimi düşmən heyrətini də mucib olan beynəlmiləl şöhrəti haiz əzmkar siyasət adamı... Nəhayət, istiqlal və hürriyyət zövqünü daddıqdan sonra bu baha biçilməz nemətlərdən məhrum buraxılmanın acısını da duymuş, fəqət yenə bir gün bu nemətlərə qovuşmağa matuf mücadiləsində iman və mücadilə ruhu əsla sönmədən müstəbid bir müstəmləkəçi təhəkkümündə inləyən bir millətin hürriyyət və istiqlal simvolu...”.[1758]

Təkinər Rəsulzadənin vəfatı ilə əlaqədar Azərbaycan Kültür Dərnəyinin təşkil etdiyi mərasimdə çıxışı zamanı bildirmişdir ki,

[1757] Yenə orada, s. 208
[1758] Yenə orada, s. 210-211

millətlərin maddi və mənəvi olmaq üzrə iki yapısı vardır. Onun fikrincə, iqlim və coğrafi-iqtisadi amillər millətin maddi yapısını; din, dil, hars, örf və gələnəklər də onun mənəvi yapısını təşkil edirlər: "Gərək təbiət, gərəksə cəmiyyət hadisələrinin izahı, tədqiq və təhlilində, maddi-iqtisadi amilləri əsas qəbul edən bir düşünüş tərzi xilafına, mənəvi-məfkurəvi amillərə önəm verən bir düşünüş sistemi müəssisələri izində yürüyənlərdən olduğumuz üçün milli bünyəmizin tərəqqüb etdiyi mənəvi-məfkurəvi kurallar, bizlər üçün daimi olaraq bir tədqiq mövzusu təşkil etməkdədir.

Milli cəmiyyətin təşəkkül, inkişaf və təkamülü obyektiv bir taqım şərtlərlə qaimdir. Başqa deyimlə, bu inkişaf və təkamül zəruri bir taqım ictimai, siyasi və milli-məfkurəvi hərəkatların təbii və məntiqli nəticələridir. Bütün bu hərəkatların gəlişərək cəmiyyət ictimai münasibətlərinin radikal və mütərəqqi dəyişikiliklərə, inqilabi bəhsindəki müvəffəqiyyət xüsusi isə, bu hərəkatları sövq və idarə edənlərin real sezgi və yaxşı təşkilatçılıq kimi şəxsi məziyyətləriylə də çox ilgilidir. Təmsil etdikləri qrup, zümrə və ya cəmiyyətin psixolojisiylə ictimai, zəruri ehtiyaclarını təşxis və təsbit edərək onları dövrün mütərəqqi hakim zehniyyətiylə təlif etməsini bilən hərəkat liderləri ancaq mücadilələrində müvəffəq olurlar və bu kimsələrə müstəsna, nadir şəxsiyyətlər denir".[1759]

Milli Azərbaycan hərəkatının öndəri M.Ə.Rəsulzadəni bəşər tarixinin nadir, müstəsna şəxsiyyətlərindən hesab edən Təkinərə görə o, yalnız Azərbaycanın deyil Türk dünyasının istiqlalçı, vətənpərvər, inqilabçı, milliyyətçi, türkçü, demokrat bir şəxsiyyəti olmuşdu. O, yazırdı: "Rəsulzadə mərhum, hər şeydən əvvəl bir Azərbaycan istiqlalçısıdır, zira böyük tarixi həmlələr və hərəkətlərlə dolu olan Azərbaycan hərəkatının həmən hər səhifəsi onun şərəfli adıyla sıxı-sıxıya bağlıdır və o, bu hərəkatın bir nömrəli mücahidi idi. Rəsulzadə böyük vətənpərvərdi, zira əlli (50) sənəyi mütəvaze fəaliyyətinin ən çətin və sıxıntılı günlərində dəxi vətənini düşünməkdən, ona qovuşmaq üçün çalışıb-çabalamaqdan heç bur qüvvət onu mən edə bilməmişdir. Rəsulzadə namdar bir milliyyətçi

---

[1759] Yenə orada, s. 212

idi... Rəsulzadə böyük bir türkçü idi, zira o, kültürəl və siyasi bütün fəaliyyətlərində yalnız Azərbaycan türklüyünü deyil, bütün Rus məhkumu türkləri də bir an olsun, ihmal etməmişdir... Rəsulzadə mərhum böyük bir demokrat idi; zira o, dünya millətləri qarşısında mutantan bir surətdə elan edilmiş olan İnsan Haqları Bəyannaməsinin "İnsanlara hürriyyət, millətlərə istiqlal" vəd edən prinsiplərini bütün səmimiyyətiylə mənimsəmiş və gənc Azərbaycan demokrasisinin gəlişməsi üçün heç bir fədakarlıqdan çəkinməmişdir... Rəsulzadə mərhum böyük bir inqilabçı idi, zira onu daima dövrün hakim zehniyyətini təqdir və öndərlik etdiyi hərəkata tətbiq edən görüyoruz...".[1760]

Təkinər "Rəsulzadə sevgisi" məqaləsində isə Azərbaycan Cümhuriyyətinin quruluşunda, inkişafında M.Ə.Rəsulzadənin, onun lideri olduğu Müsavat Partiyasının yerini və rolunu ifadə etməyə çalışmışdır. Onun fikrincə, M.Ə.Rəsulzadə və "Müsavat" Partiyası qoşa qanad kimi Azərbaycan Milli istiqlalının, azərbaycançılığın memarıdır. O, yazırdı: "Həyatda bir şeylərim idrak etməyə, çevrəmdə, cəmiyyət həyatında olub-bitənlərlə ilgilənməyə başladıqdan sonra Rəsulzadə və "Müsavat" fikriyyatına içdənliklə bağlanmış bir gənc olaraq hər münasib fürsətdə əziz vətənimizin qurtuluşu üçün çalışdığını, didindiyini təsbit etdiyim mücahid Rəsulzadəni həp xəyalımda canlandırmağa səy etdim. Hələ yüksək təhsil illərimdə içimdə doğub gəlişən bu ilgi, eyilim, həyəcan və sevginin hədd səhfaya gəldiyini dilə gətirməklə sadə gerçəyi ifadə etmiş olurum. Əsasən böylə bir oluşumu sağlayan bir sıra mühüm səbəblər də vardı".[1761]

Gördüyümüz kimi, Təkinər milli ictimai fikri tariximizlə bağlı çox dəyərli bir irs ortaya qoymuşdur. Onun Azərbaycan Türk mütəfəkkirləri, o cümlədən M.Ə.Rəsulzadə ilə bağlı apardığı araşdırmalar milli fəlsəfə tariximizin öyrənilməsi baxımından çox əhəmiyyətli xarakter daşımaqdadır.

---

[1760] Yenə orada, s. 213-214
[1761] Yenə orada, s. 218

**Beləliklə,** deyə bilərik ki, Süleyman Təkinər mühacirət Azərbaycan ədəbiyyatı, mədəniyyəti, o cümlədən milli ictimai fikir tarixinin tanınmış nümayəndələrindən biri olmuşdur. Onun yaradıcılığında Azərbaycan Türk fikir hərəkatlarının ayrıca bir yer alması təsadüfi olmamışdır. Təkinər bununla da milli ictimai fikir tariximizin yazılmasında da böyük əmək payı sahibi olmuşdur. Hər halda Azərbaycan xalqına aid fikir hərəkatlarının və onların tanınmış nümayəndələrinin irsinin araşdırılması mühüm işlərdəndir.

Eyni zamanda, Təkinər Azərbaycan milli ideyasının, Milli istiqlalın təbliğində də çox mühüm işlər görmüşdür. Onun əsas məqsədi Azərbycan milli ideyasının fəlsəfi mahiyyətini göstərmək, bu işdə Rəsulzadənin misilsiz, əvəzsiz xidmətlərini təhlil etmək olmuşdur. O, xüsusilə də Azərbaycan Cümhuriyyətinin qurulmasında, onun ideoloji əsaslarının müəyyənləşməsində və inkişafında Rəsulzadəyə çox böyük dəyər vermişdir. Onun fikrincə, XX əsr Azərbaycan Türk dövlətçiliyində, tarixində, mədəniyyətində, fəlsəfəsində M.Ə. Rəsulzadə müstəsna rol oynamış böyük türkçü, azərbaycançı, qafqazçı, demokrat, inqilabçı, vətənpərvər olmuşdur.

Bu məsələlərlə paralel olaraq Təkinər Sovet rejiminin, kommunist cəmiyyətinin iç üzünün ifşasında da əlindən gələni etmiş, bununla bağlı bir çox dəyərli əsərlər ərsəyə gətirmişdir. Təkinər göstərməyə çalışırdı ki, Sovet-kommunist cəmiyyəti xüsusilə də, Türk-İslam xalqlarına münasibətdə amansız, qəddar olmuşdur. Onun əsas məqsədi Sovet-kommunist quruluşunun qəddarlığını, saxtakarlığını ifadə etməklə yanaşı, milli demokratiyanın bütün cəmiyyətlər üçün vaz keçilməz bir cərəyan olduğunu ortaya qoymaq idi.

# NƏTİCƏ

İkinci cildin birinci kitabında öz əksini tapan bütün ideyaların, bilgilərin, düşüncələrin yekunu olaraq öncə, onu deyə bilərik ki, Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi bütün dövrlərdə olduğu kimi, XX əsrdə də öz zənginliyi və mükəmməlliyi ilə fərqlənmişdir. Doğrudur, bu dövrdə də bir-birinə zidd müxtəlif ideyalar, təlimlər, baxışlar olmuşdur və bütün bunların olmasını da təbii qarşılamaq lazımdır. Hər dövrün öz ideya fəlsəfi toqquşmaları, ziddiyyətləri olub ki, bunu doğru istiqamətə yönəltməklə cəmiyyətin yalnız ictimai təfəkkkrünü deyil, bütövlükdə ümumi inkişafını təmin etmək mümkündür. Başqa sözlə, ideya müxtəlifliyi ifrata varılmadıqca və yanlış istiqamətlərə sürüklənmədikcə cəmiyyət üçün zərərli deyildir. Çünki cəmiyyət daxilində istər fəlsəfi, istərsə də qeyri-fəlsəfi ideyalar, təlimlər, cərəyanların mövcudluğu həmin toplumun fiziki və mənəvi varlığını nə dərəcədə ortaya qoyub qoymamasının da bir ifadəsidir. Ola bilər ki, ideyalar, mülahizələr, baxışlar, təlimlər müxtəlifdir, fərqlidir, ziddiyyətlidir, ancaq onların bir-birilə qarşılıqlı münasibətlər içərisində olmasının özü müsbət bir inkişaf yolu cıza bilər. Əlbəttə, meyarlar doğru müəyyənləşmədiyi təqdirdə bütün bunlar əksinə də ola bilər.

Burada demək istədiyimiz əsas məsələ odur ki, XX əsrdə Quzey Azərbaycan Türk fəlsəfəsi və ictimai fikri nə qədər fərqli və ziddiyyətli görünməyindən asılı olmayaraq, Azərbaycan xalqının yenidən özünüifadəsi yolunda mühüm bir milli özünüdərk tarixi vardır. Xüsusilə də, bu dövrün fəlsəfi və ictimai fikir tarixində Əli bəy Hüseynzadənin, Əhməd bəy Ağaoğlunun, Məhəmməd Əmin Rəsulzadənin, Mirzə Bala Məhəmmədzadənin, Firidun bəy Köçərlinin, Üzeyir bəy Hacıbəylinin, Nəsib bəy Yusifbəylinin, Haşım bəy Vəzirovun və başqalarının mühüm rol oynaması şübhəsizdir. Bizcə, ümumilikdə, kitabda tədqiq etdiyimiz mütəfəkkirlərimizin hər birisi bu və ya digər dərəcədə milli fəlsəfi

və ictimai fikir tariximizdə çox mühüm yer tutmuşdur. Çünki onların ictimai-fəlsəfi irsi bu və ya digər formada Azərbaycan Türk fəlsəfə tarixinin ayrılmaz parçalarıdır. Əlbəttə, aydınlarımızın dünyagörüşündə ziddiyyətli məqamlar da az olmamışdır. Ancaq bu ziddiyyətli məqamları ifratlaşdırmağı doğru hesab etməməklə yanaşı, əsasən cəmiyyətimiz və dövlətimiz üçün önəmli olan amilləri görüb inkişaf etdirməyi, sosial-fəlsəfi və siyasi-fəlsəfi təhlilləri genişləndirməyi daha doğru olacağını düşünürük.

XX əsr Quzey Azərbaycan Türk fəlsəfi və ictimai fikri öz-özlüyündə yalnız ictimai-siyasi və mədəni məsələləri deyil, eyni zamanda kifayət qədər fəlsəfi yükü də daşıyır. Çox yazıqlar olsun ki, biz bu günə qədər həmin fəlsəfi yükü yetərincə ortaya qoya bilməmişik. Əlbəttə, bunun özünün də obyektiv və subyektiv səbəbləri vardır. Birincisi, bu məsələdə naqislik ondan ibarətdir ki, Quzey Azərbaycan Türk fəlsəfi və ictimai fikri tarixi mühacirətdə təşəkkül tapmış fəlsəfi fikri tarixindən uzaq tutulmuşdur. İkincisi, biz bir müddət mütəfəkkirlərimizin fəlsəfi baxışlarına əsasən birtərəfli yanaşaraq əsas üstünlüyü Qərb, o cümlədən Rus mütəfəkkirlərinə yönəltmişik. Üçüncüsü, Sovetlər Birliyi dövrünün ideoloji şərtləri altında araşdırmalar aparmışıq və bundan əsasən qurtula bilmirik. Bu baxımdan Quzey Azərbaycan xalqı olaraq müstəqilliyimizi bərpa etsək də, hələ də sözün həqiqi mənasında ədəbiyyatda, tarixdə, dilçilikdə və s. olduğu kimi fəlsəfədə də milli fəlsəfi ruhu ortaya qoymaqda çətinlik çəkirik.

Ancaq bu bir gerçək ki, XX əsrdə yalnız dörd aydınımızın adını, yəni Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ə.Topçubaşı və M.Ə.Rəsulzadənin isimlərini çəkməklə milli fəlsəfi fikir tariximizin zənginliyini ifadə edə bilərik. Bu baxımdan kitabda tədqiq etdiyimiz hər bir mütəfəkkir öz miqyasında filosofdur, bilgədir, ziyalıdır, aydındır. Bir daha qeyd edirik ki, bunu deməkdə niyyətimiz nə kimisə zorla filosof etmək, nə də sözün həqiqi mənasında müdrik birini tutduğu mövqeyindən aşağı salmaqdır. Sadəcə, bir çox Quzey Azərbaycan Türk aydınlarının fəlsəfi irsinin mahiyyətinə varmaq üçün, Sovetlər Birliyi dövründə müşahidə

olunan bəzi neqativ amilləri bir kənara qoyub yeni prizmadan dəyərləndirilməsi çox vacibdir. Doğrudur, müstəqilliyimiz bərpa olunduqdan sonra bu istiqamətdə bəlli qədər işlər görülüb və görülməyə də davam edir. Ancaq burada əsas problem milli nüvə ətrafında fəlsəfi fikir taiximizi yazmaqda çətinlik çəkməyimizdir.

XX əsr Quzey Azərbaycan mütəfəkkirlərinin irsində dörd problem: 1) Türklük (Türk dünyagörüşü), 2) İslamlıq (İslam dini), 3) Sosial-demokratiya (marksizm) və liberal-demokratiya, 4) İnsanlıq (əsil İnsan problemi) ideyaları çox mühüm yer tutmuşdur. Onların hər birinin fəlsəfi, ən azından sosial-fəlsəfi və siyasi-fəlsəfi yük daşımaları şübhəsizdir.

Məsələn, Türklük, ya da Türk dünyagörüşü heç də bir çoxlarının indiyə qədər şüurlarımıza yanlış olaraq yeritdiyi kimi yalnız bir milliyyətçilik, ya da millətçilik məsələsi deyildir. Türklük özü fəlsəfi dünyagörüş olub ayrıca bir ideyadır, təlimdir, məfkurədir. Bizcə, bunu bir qədər dolğun formada M.Ə.Rəsulzadə "Azərbaycan şairi Nizami" əsərində ifadə edə bilmişdir. Yəni Nizami Gəncəlinin sözü ilə, Rəsulzadə də yazmışdır ki, əslində Türklük hər şeydən öncə bir Türk fəlsəfəsi və Türk dünyagörüşüdür. Əlbəttə, Rəsulzadədən öncə Əli bəy Hüseynzadənin Türk, ya da Turan fəlsəfəsinə aid çalışmalarını da qətiyyən gözardı edə bilmərik. Hüseynzadənin çox böyük ustalıqla islamlıq fəlsəfəsi ilə yanaşı Türklük/Turan fəlsəfəsini yenidən gündəmə gətirməsində rolu əvəzsizdir. Onlarla yanaşı, Türk fəlsəfəsini ifadə edənlər arasında Əhməd bəy Ağaoğlu, Mirzə Bala Məhəmmədzadə, Hüseyn Cavid və başqa bilgələrimizin də mühüm rolu olmuşdur. Məhz Hüseynzadələrin, Rəsulzadələrin, Ağaoğluların, Cavidlərin, Şaiqlərin və başqalarının verdikləri misilsiz əmək sayəsində son əsrlərdə unudulmuş Türk fəlsəfəsi, Tanrıçılıq fəlsəfəsi, Türk dünyagörüşü ortaya qoyulmuş, onun milliyyətçiliyin, millətçiliyin, islamçılığın və digər ideyaların kölgəsində qalmasına yol verilməmişdir.

Sadəcə, bu məsələ ilə bağlı təəssüf doğuran hal odur ki, onların sonrakı davamçıları Türk fəlsəfəsini, Türk dünyagörüşünü

yetərincə ortaya qoya bilmədilər. Türkçülüyün, Turançılığın davamçıları əsasən türklüyü milliyyətçilik, vətənçilik, ya da qan-gen anlamında başa düşüb (bilərəkdən, ya da bilməyərəkdən) yalnız bu yöndə inkişaf etdirdilər. Xüsusilə də, Türkiyədəki türkçülərin (Türk-İslam məfkurəsinin daşıyıcılarının) xeyli bir qisminin "türklük bədənimiz, islamlıq ruhumuzdur" kimi yanlış mülahizəsi, bugünkü Azərbaycan Türk aydınlarının xeyli bir qisminə də öz mənfi təsirini göstərmişdir. Halbuki Hüseynzadələr, Rəsulzadələr, Ağaoğlular, Topçubaşılar, Cavidlər, Şaiqlərin dünyagörüşündə türklük bir bədən, gen-qan məsələsindən daha çox fəlsəfədir, dünyagörüşdür, təlimdir.

Doğrudur, Türkiyədə Atatürklər, Ziya Gögalplar, Nihal Atsızlar və başqaları da Türklüyün yalnız bir bədən, ya da gen-qan deyil, eyni zamanda dünyagörüş, təlim, milli şüur olduğunu ortaya qoymağa çalışmışlar. Ancaq bu proses Türkiyədə əsasən yarımçıq qalmış, daha çox Türk-İslam məfkurəsi Türk milliyyətçilərinə hakim kəsilmişdir ki, nəticədə də bu günün Türkiyəsində də əsasən, Türklük bədən, İslam ruh olaraq başa düşülür. Ona görə də, Türkiyədə ümmətçilik ideyası nəinki islamçıların, eyni zamanda Türk milliyyətçilərinin əksəriyyətinin də hakim ideyası olaraq davam etməkdədir. Bu isə o deməkdir ki, ümmətçilik dünyagörüşündə Türk demək ən yaxşı halda ya bədəndir, ya da milli kimlikdir, milliyyətdir.

Türklüyün bir fəlsəfə, ideya, dünyagörüş olmasını ortaya qoymaq üçün ilk növbədə, onu dinlər, o cümlədən də İslam dini çərçivəsində məhdudlaşdırmaqdan vaz keçməliyik. Nə zamana qədər türklüyü, ancaq İslam dinindən, Xristian dinindən, Buddizim dinindən sonra, yəni ikinci, üçüncü olaraq görəcəyiksə, təbii olaraq onu ən yaxşı halda milliyyətçilik (yəni bədənin daşıdğı gen-qan), milli kimlik kimi başa düşüb, çox uzağa gedə bilməyəcəyik. Bir çoxları hesab edirlər ki, türklüyü bir ideya, fəlsəfi təlim, dünyagörüş kimi qəbul etməklə səmavi dinləri, xüsusilə də İslam dinini (çünki Türk xalqlarının əksər qismi istər inanclı, istərsə də formal olaraq müsəlmandırlar) inkar edib Allah ideyasına qarşı

çıxmış oluruq. Bu cür düşüncənin heç bir əsası yoxdur və ola da bilməz. Çünki türklüyü ancaq İslamlıqla, ya da Xristianlıqla bağlamaq əslində onun İslamlığa və Xristianlığa qədər bir bədəndən ibarət olub ruhsuz yaşaması anlamını qəbul etməkdir. Hesab edirik ki, bunun belə olmadığını anlamaq üçün XX əsr Azərbaycan Türk mütəfəkkirlərinin (Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, Ə.Topçubaşı, Ə.Ağaoğlu, M.B.Məhəmmədzadə və b.) fəlsəfi və ictimai fikir tarixmizə aid əsərlərini oxumaq yetərlidir.

İslamlıq məsləsinə gəlincə, İslam dininin dövrünün şərtlərinə görə dəyərləndirilib onda islahatlar aparılmasının zəruriliyi məsələsində də, XX əsrdə yaşamış Azərbaycan Türk aydınlarının əməyi danılmazdır. Hələ, XIX əsrdə bu işə başlamış Cəmaləddin Əfqaninin, Həsən bəy Zərdabinin və başqa bilgələrmizin ideyalarını çox doğru şəkildə davam etdirən və tamamlayan Hüseynzadələr, Ağaoğlular, Rəsulzadələr, Topçubaşılar, Məhəmmədzadələr, Köçərlilər, Cavidlər oldular. Onların əsas vəzifəsi müsəlman Türk xalqları, o cümlədən Azərbaycan türkləri arasında mövhumata, xurafata yuvarlanmış islamlığın yenidən nəzərdən keçirilib, öz ilkin çərçivəsinə və mahiyyətinə qayıdılması (yəni İslama olunmuş əlavələrdən arındırılması), eyni zamanda mövcud şərtlərə, indiki dövrün tələblərinə uyğunlaşdırılması olmuşdur. Bu o deməkdir ki, son əsrlərdə bütün İslam aləmində olduğu kimi, Türk dünyasında, o cümlədən Azərbaycan türklərinin yaşadığı coğrafiyada da daha radikal və təhrifə uğradılmış formada önə çıxan islamlıq ideyası (həm də ona bağlı müxtəlif məzhəblər) son nəticədə Osmanlı, Səfəvilər, Əfşarlar, Qacarlar, Kırım xanlığı, Qızıl Orda, Türküstan dövlətlərinin tənəzzüllü və süqutunda əhəmiyyətli dərəcədə rol oynamışdır.

İslamlıq ideyasının yenidən sərf-nəzərdən keçirilməsi, onda ciddi islahatların aparılması məsələsində ən doğru və mötədil yolu məhz Azərbaycan Türk aydınları və dövlət xadimləri tutmuşlar. Hər halda, bu məsələdə Nadir şah Əfşar, Ağa Məhəmməd şah Qacar, Abbas Mirzə, Mirzə Tağı xan, C.Əfqani, H.Zərdabi və başqaları ilə yanaşı, XX əsrdə də bu yolu daha çox uğurlu davam

etdirən Ə.Ağaoğlu, Ə.Hüseynzadə, Ə.Topçubaşı, M.Ə.Rəsulzadə, M.B.Məhəmmədzadə, N.Yusifbəyli, H.Cavid, A.Şaiq, A.Səhhət və başqaları olmuşdur. Məsələn, Əhməd bəy Ağaoğlu əvvəlcə bütün müsəlman xalqları (ərəb, fars, türk, urdu və b.) "islam millətçiliyi" ideyası ətrafında toparlamağa çalışsa da, daha sonra bir az da gerçəkçi yol tutaraq Türklüklə İslamlıq dünyagörüşləri arasındakı ziddiyyətlər arasında uzlaşdırıcı yol aramaqla, üzünü daha çox müsəlman türklərinin milli oyanışına çevirmişdir. XX əsrdə islamlıq fəlsəfəsini bütün müsəlman xalqlarının birliyi anlamında xarakterizə etməyə çalışan Əhməd bəy Ağaoğlunun çox keçmədən üzünü əsasən müsəlman Türk xalqlarına tutmasına əsas səbəb, islamlıq məsələsində əsasən farslarla ərəb aydınlarının onun bu mücadiləsinə rəğmən, birləşdiricilikdən daha çox ayrı-seçkilik mövqe tutmaları olmuşdur. Məhz bunu, zaman-zaman daha dərindən dərk etməsinin nəticəsi olaraq da ömrünün daha kamil çağlarında Ağaoğlu islamlıq ideyasını əvəllki qətiyyətlə müdafiə etməmişdir. Hər halda Ağaoğlu nə qədər İslam dininə bağlı və inanclı bir müsəlman türkü olsa da, islamlqla bağlı ayrı-ayrı xalqların dünyagörüşündə nə qədər zidiyyətlərin olduğunu görməmiş deyildir. Deməli, islamlıq nə qədər bir dini dünyagörüş, ya da fəlsəfi dünyagörüş olsa da, ancaq müsəlman xalqlarının istər islamaqədər, istərsə də İslam dini dövründə şüurlarında yaşatdıqları milli özünəməxsusluqlar bir gerçəklik idi. Zənnimizcə, Ağaoğlu Hüseynzadə, Rəsulzadə və Cavidlə müqayisədə bu məsələyə bir qədər gec varmış və vardıqdan sonra da, islamlıqdan çox türklük dünyagörüşünün üzərində dayanmışdır. Buna nümunə də, onun "Sərbəst insanlar ölkəsində" əsəridir.

Əhməd bəy Ağaoğlundan fərqli olaraq Əli bəy Hüseynzadə islamlıq ideyasını vaxtında real dəyərləndirmiş, onun Türk xalqlarının həyatında oynadığı rolun çərçivəsini daha doğru cızmağa çalışmışdır. Hər halda yazılarında islamlığa böyük dəyər verən Ə.Hüseynzadənin bütün bunlarla yanaşı, Türk dünyagörüşünü açıq-açığına təbliğ etməsi, türklüyün dinlərlə məhdudlaşdırılmasının əleyhinə çıxması təsadüfi deyildi. Deməli, Hüseynzadə

nə qədər mömin bir müsəlman olsa da, ancaq bir o qədər də inanclı bir Türk bilgəsi idi. Başqa sözlə, Hüseynzadə üçün İslam dini bir dünyagörüş olduğu qədər türklük, turançılıq ondan az olmayacaq qədər bir dünyagörüş, fəlsəfi təfəkkür idi. Bunu anlmaq üçün, Ə.Hüseynzadənin "Türklər kimdir və kimlərdən ibarətdir?" başlıqlı silsilə yazılarını oxumaq yetərlidir. Çünki Əli bəy Hüseynzadə bu əsərində çox incə şəkildə türklüyün yalnız bədən, gen-qan daşıyıcısı anlamındakı milliyyətçiliyi deyil, eyni zamanda tarixi daha qədim dövrlərə gedib çıxan bir dünyagörüş, bir fəlsəfi təlim olduğunu da ortaya qoymuşdur. Bir sözlə, Ağaoğlu islamlığın tarixini, mədəniyyətini, fəlsəfəsini ortaya qoyduğu bir zamanda Hüseynzadənin türklüyün tarixini, fəlsəfəsini, mədəniyyətini ortaya qoyması, bizcə çox şeyi ifadə edir.

Doğrudur, Əli bəy Hüseynzadə onu da yazırdı ki, bizim dirilişimiz "Türk qanlı, müsəlman etiqadlı, firəng fikirli, Avropa qiyafətli" prinsiplərinə əməl etməklə bağlı olmalıdır. Ancaq böyük bilgəmiz onu da yaxşı başa düşürdü ki, artıq türklüyü yalnız "qandan" ibarət görmək çox da doğru deyil. Ona görə də, o, çox keçmədən türklüyü qandan çox hissiyyatla bağlayırdı: ""Füyuzat"ın tutduğu yol türklük, müsəlmanlıq və avropalılıqdır. Türk hissiyyatı ilə mütəhəssis, İslam dini ilə mütədəyyin və Avropa mədəniyyəti-hazirəsilə mütəməddin olmaqdır".[1762] Deməli, Əli bəy Hüseynzadə türklüyün yalnız qan deyil bir hissiyyat (dünyagörüş) olduğunu da yaxşı bilir, bildiyi üçün də şeirlərinin birində yazırdı ki, dinlər belə müsəlman türkü ilə xristian türkünü ayıra bilməz. Burada da söhbət qandan daha çox Türk dünyagörüşünə, Türklük şüuruna bağlılıqdan gedirdi.

Əli bəy Hüseynzadənin "Türk hissiyyatı ilə mütəhəssis, İslam dini ilə mütədəyyin və Avropa mədəniyyəti-hazirəsilə mütəməddin olmaq" formulunu, zamanında ən yaxşı idrak edən və onu dövlətçilik fəlsəfəsi halına gətirən Məhəmməd Əmin Rəsulzadə olmuşdur. Məhz M.Ə.Rəsulzadənin sayəsində də hər üç ideya öz yerini yeni Türk dövlətində (Azərbaycan Cümhuriyyətində)

---

[1762] Hüseynzadə Ə. Qırmızı qaranlıqlar içində yaşıl işıqlar.Bakı, Azərnəşr,1996, s.180

doğru şəkildə tapmış, ən əsası o, Türklüyün bayrağımızda ilk sırada yerini tutmasına nail olmaqla, əslində bir daha keçmiş dövlətçilik (Midiya, Avar, Göktürk, Xəzər, Səlcuq və b.) ənənələrimizdə olduğu kimi, onun XX əsrdə milli nüvə rolunda çıxış edə biləcəyini rəsmən ortaya qoymuşdur. Beləliklə, türklüyün yalnız bir gen-qan deyil, eyni zamanda mavi-göy rəngi özündə əks etdirən bir fəlsəfi təlim, dünyagörüş olması öz təsbitini tapmışdır.

Çox təəssüf ki, müstəqilliyimizin bərpasından sonra da Türk fəlsəfəsi, ancaq milliyyətçilik kimi başa düşülüb onun bir dünyəvi dünyagörüşü mahiyyət daşıması yenidən arxa plana keçmişdir. Bir tərəfdən türklüyün yalnız milliyyətçilik, millətçilik kimi şüurlara yeridilib şovinizm damğası ilə damğalanması, digər tərəfdən ümmətçilər tərəfindən islamçılıq ideyasına zərbə kimi dəyərləndirilməsi Türk dünyagörüşünün öz əsil fəlsəfi mahiyyətini ortaya qoymasında ciddi problemlər yaratmışdır. Ancaq bizlər XX yüzil Azərbaycan Türk bilgələrinin əsərləri ilə yaxından tanış olmaqla bu problemin böyük ölçüdə ortadan qaldırılmasına inanırıq.

# QAYNAQLAR

## Türk dili (Azərbaycan)


1. Abid Əmin (Gültəkin). Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007
2. Abid Əmin (Gültəkin). Azərbaycan türklərinin ədəbiyyatı tarixi. Bakı, Elm və təhsil, 2016
3. Abidqızı Göyərçin. Seyid Hüseynin ədəbi-tənqidi fəaliyyəti. "Ədalət" qəz., 22 noyabr 2017-ci il
4. Ağayev Müstəqil. Azərbaycanın müasir fəlsəfə tədqiqatçıları. Bakı, "Elm və təhsil", 2021
5. Ağayev Müstəqil. Məhəmməd Əmin Rəsulzadə.Bakı,Nurlan,2006
6. Ağayev Müstəqil. XX əsr Azərbaycan ictimai və fəlsəfi fikrində din problem. Bakı: Nurlan, 2008
7. Ağayev İslam.Əlabbas Müznib // "Azərbaycan" jurnalı, №2, 1972
8. Ağayev İslam. Əlabbas Müznib: Həyatı, yaradıcılığı, əsərlərindən seçmələr. Bakı, Elm, 2003
9. Ağaoğlu Əhməd bəy. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007
10. Ağaoğlu Əhməd. Üç mədəniyyət. Bakı: "Mütərcim", 2006
11. Ağaoğlu Əhməd. Mən kiməm? Bakı, "Mütərcim", 2019
12. Ağaoğlu Əhməd. Qafqazda milli məsələ. Bakı, "Mütərcim", 2019
13. Ağaoğlu Əhməd. Bəs ziyalılarımız hardadır? Bakı, "Qanun", 2019
14. Ağaoğlu Əhməd. İslama görə və İslamda qadın. "Mədəniyyət dünyası" elmi-nəzəri məcmuə, 12 buraxılış, Bakı, 2006
15. Ağaoğlu Əhməd. Millət və millətçilik. "Tərəqqi" qəz., 1909, 22 yanvar №16, 26 yanvar №19, 29 yanvar №22, 5 fevral №28
16. Ağaoğlu Əhməd. Materializmin təntənəsi və əsassızlığı. "Kaspi" qəz., №3, 4 yanvar 1908-ci il
17. Ağaoğlu Əhməd. İttihadi-islam və panislamizm məsələsi // "İrşad" qəz., 10 aprel 1906-cı il, №86
18. "Açıq söz" qəzeti, 1917-ci il, 23 may
19. Axundova Məryəm.Yusif Vəzir Çəmənzəminli.Bakı, Yazıçı, 1981
20. Akçura Yusif. Türkçülüyün tarixi. Bakı, Qanun, 2010
21. Akalın G. Türk düşüncə və siyasi həyatında Əhməd Ağaoğlu. Bakı: AzAtaM, 2004

22. Araslı Həmid. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri. Bakı, Gənclik, 1998
23. ARPİİSSA, fond 276, siyahı 3, i. 87, vərəqələr 221-225
24. Atatürkün Azərbaycan siyasəti (öz dili ilə). Bakı, Çaşıoğlu, 2008
25. Ataş Hayri. Səlim Rəfiq Rəfioğlunun ədəbi-elmi irsi, Bakı: Nurlar nəşriyyatı, 2018
26. Atəşli Teymur. Əsərləri ("Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası" seriyası, IV cild). Bakı, Elm və təhsil, 2020
27. Aşırlı Akif. "Türk ocağı" Azərbaycanda.Bakı, Elm və Təhsil,2015
28. Aşırlı Akif. Həsən bəy Zərdabinin mücahid oğlu. Bakı, Elm və təhsil, 2016
29. Aşırlı Akif. Azərbaycan mətbuat tarixi (1875-1920). Təkmilləşdirilmiş təkrarnəşr. Bakı, Elm və təhsil, 2023
30. Azərbaycan tarixi. Üç cilddə. 3-cü cild. Bakı, "Elm", 1973
31. Azərbaycan tarixi: Ali məktəblər üçün dərslik // Z.M.Bünyadovun və Y.B.Yusifovun redaktəsi ilə. Bakı: Azərnəşr, 1994
32. Azərbaycan tarixi. Yeddi cilddə. IV, V, VI, VII cildlər. Bakı, "Elm", 2007, 2008
33. Azərbaycan Kommunist Partiyasının oçerkləri. I cild, Bakı: Azərnəşr, 1986
34. Azərbaycan Respublikası Dövlət Arxivi: f.894, s.10, iş. 12, v.1-2
35. Azərbaycan Respublikası Dövlət Arxivi: f.895, s.3, iş. 187, v.1-2
36. Azərbaycan Respublikası Dövlət Arxivi. f. 970, s.1, i. v.57.
37. Azərbaycan Respublikası DSPİHA. f.1, s.74,i.128, v.175
38. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I-II cildlər. Bakı, "Lider"nəşriyyatı, 2004, 2005
39. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). I-II cildlər. Bakı, "Azərbaycan", 1998
40. Azərbaycan mətbuat tarixi antologiyası. Üç cilddə - I, II, III cildlər. Bakı, "Elm və təhsil", 2010, 2011, 2013
41. Azərbaycan publisistikası antologiyası. Bakı, "Şərq-Qərb", 2007
42. Azərbaycan Xalq Cümhuriyyəti: Ədəbiyyat, dil, mədəni quruculuq. Bakı, "Qoliot Qkup" QSC nəşriyyatı, 2009
43. Azərbaycan multikulturalizminin elmi-fəlsəfi və ictimai-publisistik qaynaqları. 2-ci kitab. Bakı, BBMM, 2021
44. "Azərbaycan" qəzeti, 13 dekabr 1918-ci il, sayı 64

45. "Azərbaycan" dərgisi, Münhen, 1952, №17
46. Bakıxanov A.A. Gülüstani-İrəm. Bakı, Möminin, 2001
47. Balayev Aydın. Məmməd Əmin Rəsulzadə (1884-1955). Bakı, "Adiloğlu" nəşriyyatı, 2011
48. Balayev Aydın. Əhməd bəy Ağaoğlu. Bakı, Altun Kitab, 2021
49. Baykara Hüseyn. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992
50. Bayramoğlu Alxan. Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat. Bakı, "Elm", 2003
51. Baycan Alazan. Əsərləri ("Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası" seriyası, V cild). Bakı, Elm və təhsil, 2021
52. Bağırzadə Ə. Azərbaycan ziyalıları Böyük Vətən Müharibəsi illərində, Bakı, Azərnəşr, 1970
53. Bağırzadə Nəcibə.Vətən ayrısı Rəsulzadələr. Bakı, Ecoprint, 2018
54. Bağırov Abuzər. Y.E.Bertels və Azərbaycan ədəbiyyatı. Bakı, "Elm", 2007
55. Bünyadov Ziya. Qırmızı terror. Bakı, Azərnəşr, 1993
56. Cavad Əhməd. Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2005
57. Cavad Heyət. Dr. Turac Ətabəkinin "Azərbaycan" kitabı üzərinə bir dəyərləndirmə və təkmilləşədirmə. // "Mədəniyyət dünyası" yurnalı, 6-cı buraxılış. Bakı, ADMİU-nun mətbəəsi, 2003
58. Cavid Hüseyn. Əsərləri. 5 cilddə, I-V cildlər. Bakı, "Lider"., 2005
59. Cabbarlı Cəfər.Əsərləri. Dörd cilddə,I cild. Bakı, Şərq-Qərb, 2005
60. Cabbarov Fərhad (tərtib edəni). Müasirləri Hacı Zeynalabdin Tağıyev haqqında. Bakı, "Ziya" NPM, 2013
61. Cabbarlı Nikpur. XX əsr Azərbaycan mühacirət ədəbiyyatı (türkdilli örnəklər əsasında). Bakı, Elm və təhsil, 2017
62. Cabbarlı Nikpur. Abay Dağlının mühacirət dövrü yaradıcılığı. Bakı, "Elm" nəşriyyatı, 2009
63. Cabbarlı N.Azərbaycan mühacirət nəsri. Bakı, Elm və təhsil, 2011
64. Cəfər Məmməd. Seçilmiş əsərləri. I cild. Bakı, Azərnəşr, 1974
65. Cəfərli Məmməd Şəmsəddin. Azərbaycan legion ədəbiyyatı. Bakı, "QAPP-POLİQRAF", 2005
66. Cəfərov Nazim. Milli-ictimai fikir tariximizdən (1914 – fevral, 1917). Bakı, Azərnəşr, 1993
67. Cəfəroğlu Əhməd. Seçilmiş əsərləri. Bakı, Mütərcim, 2008

68. Cəfəroğlu Əhməd. Türkçülüyün məsələləri. İstanbul, Kutlu Yayınevi, 2020
69. Çəmənzəminli Yusif Vəzir. Əsərləri. Üç cilddə. I-III cildlər. Bakı, Avrasiya-Press, 2005
70. Çəmənzəminli Y.V. Müstəqilliyimizi istəyiriksə... Bakı, Gənclik, 1994
71. Çəmənzəminli Yusif Vəzir. Əsərləri (Məqalələr, oçerklər və xatirələr). III cild. Bakı: Az. SSR EA Nəşriyyatı, 1977
72. Çəmənzəminli Y.V. Biz kimik? "Sədayi-həqq" qəz.,12 mart 1913
73. Çobanzadə Bəkir. Nə kibi müəllimlərə möhtacız?, "Füyuzat" jurnalı, №6, 1906, 29 dekabr
74. Çobanzadə Bəkir. Türklər üçün şiveyi-ümumiyyənin düzumu, "Füyuzat" jurnalı, №9, 1907, 06 fevral
75. Çobanzadə Bəkir. Seçilmiş əsərləri. Beş cilldə, I-V cildlər. Bakı, "Şərq-Qərb", 2007
76. Dadaşzadə A.M. Seçilmiş əsərləri. 1-ci cild. Bakı, Azərnəşr, 1967
77. Daşdəmirov Ə.F. Millət və cəmiyyət tarixin sərt dönəmlərində. Bakı, Elm, 2008
78. Seyidzadə Dilarə. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar, Bakı, 1998
79. Dünyaminqızı Qərənfil. Abdulla Şaiqi ölənəcən yandıran dərd. Kaspi qəzeti. 22-24 oktyabr 2016, s. 7
80. Elçibəy Əbülfəz. Deyirdim ki, bu quruluş dağılacaq. Bakı, Gənclik, 1992
81. Elçibəy Əbülfəz. Bütöv Azərbaycan yolunda.Bakı, "Nurlar", 2004
82. Eynullayev Sənətullah. "Dığdığeyi vüqaat musiqisi...". "İqbal" qəzeti, 28 mart, 1914-cü il, №612
83. Eynullayev S. Nidayi-ruh. "İqbal" qəz., 28 mart, 1912-ci il, №19
84. Eynullayev S. İqbal. "İqbal" jurnalı, 6 mart, 1912-ci il, №1
85. Eynullayev S. "Qafqazda kooperasiya işləri". "Yeni İqbal" qəzeti, 6 noyabr, 1913-cü il, №498
86. Eynullayev S. "Mərakeşdə qiyam"."İqbal" qəz.,2 mart 1912, №28
87. Ələkbərov Faiq Qəzənfər oğlu. Məhəmməd Əmin Rəsulzadənin dünyagörüşü. Bakı "Elm", 2007
88. Ələkbərov F.Q. Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış. I-II hissə. Bakı, "Təknur", 2011, 2014

89. Ələkbərli F.Q. Turan sivilizasiyasına giriş: Turan məfkurəsi və Tanrıçılıq. Bakı, Xan nəşriyyatı, 2017
90. Ələkbərli F.Q. Turan sivilizasiyasına giriş: Turan məfkurəsi və Tanrıçılıq. Bakı, Elm və təhsil, 2021 (Tamamlanmış və əlavələrlə yenidən işlənilmiş ikinci nəşri)
91. Ələkbərli F.Q. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). I hissə. Bakı, "Elm və təhsil", 2018
92. Ələkbərli F.Q. Məhəmməd Əmin Rəsulzadənin sosial-fəlsəfi görüşləri:milli həmrəylik və azərbaycançılıq.Bakı,Elm və təhsil,2022
93. Əlimərdan bəy Topçubaşov Azərbaycan mətbuatı səhifələrində. Bakı, Elm, 2005
94. Əlizadə Soltan. Məhəmməd Əmin Rəsulzadə və islam (mülahizələr, şərhlər). Bakı, 2003
95. Əlabbas Müznibin arxivi. Qovluq 37 (52)
96. Əliyeva Aynurə. Azərbaycan Cümhuriyyətinin Dövlət Marşını yazan şəxsiyyət. "Türküstan" qəzeti, 15-20 iyun 2018-ci il (1. Yazı); 21-25 iyun 2018-ci il (2. Yazı).
97. Əfəndiyev Sultan Məcid. Seçilmiş əsərləri. İki cilddə, 2-ci cild. Bakı. Azərnəşr, 1990
98. Əfəndiyev Elçin. Məmməd Əmin Rəsulzadə (oçerk). Bakı: Şərq-Qərb, 1994
99. Əsədli Minəxanım. Yusif Ziya Talıbzadənin həyatı və mühiti. Bakı, "Nurlan", 2005,
100. Əsədli Minəxanım. Yusif Ziya Talıbzadənin ictimai baxışları və fəaliyyəti. Bakı, "Avropa", 2014,
101. Əhmədli Rafail. Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsi: türkçülük, müasirlik, islamçılıq. "Elm", Bakı, 2007
102. Əhmədli Rafail. Azərbaycan dövlətçilik fəlsəfəsi. Bakı, "Nurlan", 2008
103. Əhmədli Rafail. Mirzə Bala Məhəmmədzadənin ictimai-siyasi görüşləri. Bakı, Ozan, 2017
104. Əhmədli Bədirxan. Azərbaycan mühacirət ədəbiyyatı.. Bakı, Elm və təhsil, 2017
105. Əhməd Dilqəm. "Əsir düşərgəsində bir həkim-tərcüməçi – Alazan Baycan". infonews.az. 2021-09-07
106. Əhməd Dilqəm. Mühacirələrin dönüşü (yeni fotoloar və

sənədlər). I cild. Bakı, TEAS Press nəşriyyatı, 2017
107. Əziz Boran.Cümhuriyyətə gedən yol: milli azadlıq hərəkatının aktuallığı, mənbələri, dövrləri və cərəyanları. Bakı, Çapar, 2020
108. Əzizov Eldar. "Difai": XX əsrin əvvəllərində erməni-azərbaycanlı münaqişəsinin ilkin tarixi şərtləri və səbəbləri, Bakı, 2009
109. "Ədəbiyyat maraqlılarına müjdə". "Molla Nəsrəddin" jurnalı, Bakı, 14 dekabr 1908, № 50
110. "Ədəbiyyat-Osmaniyyə". "Tərcüman" qəzeti, Krım-Bağçasaray, 28 dekabr 1908, № 81
111. Fətəli Xan Xoyski. Həyat və fəaliyyəti (sənəd və materiallar), Bakı, "Azərbaycan", 1998
112. Fərəcova Zöhrə. "O, qəlblərdə yaşayır". "Azərbaycan" qəzeti, Bakı, 23 iyul 2017-ci il
113. Firidun Bəy Köçərlinin şəxsi arxivi. Bakı, Nurlan, 2006
114. Fikir və əməl böyüklərimiz. Bakı, "Nurlar" NPM, 2014
115. Füyuzat (1906-1907). Bakı: Çaşıoğlu,2006
116. Göyüşov Altay. Azərbaycanda ittihadçılıq. Bakı,"İrşad", 1997
117. Göygöl Çingiz. Mühafizəsi lazım gələn milli ruh// Ankara, "Mücahit" dərgisi, №9, 1957-ci il, iyun
118. Gökalp Ziya. Türkçülüyün əsasları. Bakı: Maarif, 1991
119. Gəncəvi Nizami. Sirlər xəzinəsi. Bakı: "Lider" nəşr., 2004
120. Gəncəvi Nizami. İskəndərnamə. Bakı: "Lider" nəşr., 2004
121. Gəncəvi Abdulla Məhəmmədzadə. "Ay müsəlman qardaşlar". "Şərq-i Rus" qəzeti, Bakı, 22 iyun1903, № 35
122. Hacıbəyli Üzeyir. Seçilmiş əsərləri. İki cilddə. I-II cildlər. Bakı, "Şərq-Qərb", 2005
123. Hacıbəyli Üzeyir. Nəşrlərdə kənara qoyulmuş, ixtisar və "redaktə" edilmiş əsərləri. Bakı, "Elm", 2010
124. Hacıbəyli Üzeyir. "Bir yaş", "Azərbaycan" qəz., 1919-cu il, 28 may, №190
125. Hacıbəyli Ceyhun. Seçilmiş əsərləri. Bakı, Elm, 2017
126. Hacıbəyli Ceyhun. Həsən bəy Məlikovun xatirəsi. "Kaspi" qəz., 28 noyabr 1912-ci il, №269
127. Hacıbəyli C. Yeddi il. "Kaspi" qəz., 28 noyabr 1914, №267
128. Hacıbəyli Ceyhun. Azərbaycan davam edir. "Azərbaycan" yurnalı, Münhen, 1951, №1

129. Hacıbəyli Ceyhun. Visbadendən – Ştarnberqə."Azərbaycan" jurnalı, Münhen, 1952, №5
130. Hacıbəyli Ceyhun. Bir millətin namusu. "Azərbaycan" yurnalı, Münhen, 1953, №8
131. Hacıbəyli C. Bizim sentimentalizmimiz. "Kaspi" qəzeti. 7 aprel 1912, № 75
132. Hacıbəyli C. Dil və məktəb. "Kaspi" qəz., 28 aprel 1917, №11
133. Hacıbəyli C. Etinasızlığımız."Kaspi" qəz.,28 aprel 1912, №96
134. Hacıyeva Arzu Əşrəf qızı. Nəriman Nərimanovun din haqqında fəlsəfi düşüncələri. Bakı: Az. Ensiklopediyası NPB,1998
135. Hacıyeva Arzu Əşrəf qızı. Həyat və poeziya nostalji kimi: Almas İldırımın əzablı və mücadiləli yolu // Elmi əsərlər. Beynəlxalq elmi-nəzəri jurnal. №1 (28). Bakı, AMEA Fəlsəfə və Sosiologiya İnstitunun mətbəəsi, 2017
136. Hacıyeva Arzu Əşrəf qızı. Xalqın musiqi dühası və ruhunun əbədi mənbəyi: Üzeyir Hacıbəyovun muğam hermenevtikası// "Elmi əsərlər" jur., 2012, №1 (18)
137. Hacıyev Fərhad. Ə.b.Topçubaşov. Bakı, Şərq-Qərb, 2018
138. Hacılı Asif. Şuşa ədəbi-mədəni mühiti. Bakı, CBS, 2022
139. Hadi Məhəmməd. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2005
140. Hadi Məhəmməd. Seçilmiş əsərləri. c.I. Bakı, "Elm", 1978
141. Hakim Qənbərli: yaddaşlarda yaşayan ömür. Bakı, "Elm və təhsil", 2020
142. Həbibbəyli İsa. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı, "Nurlan", 2007
143. Həbibbəyli İsa. "Ədəbiyyatşünaslıq elminin formalaşması prosesləri". "525-ci qəzet" qəzeti, Bakı, 21 may 2022
144. Həsənov Cəmil. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920). Bakı: Azərnəşr 1993
145. Həsənli Cəmil. Azərbaycanda milli məsələ: siyasi rəhbərlik və ziyalılar (1954-1959). Bakı, Adiloğlu, 2008
146. Həsənli Cəmil. Tarixi şəxsiyyətin tarixi: Əlimərdanbəy Topçubaşov. Azərbaycan Diplomatik Akademiyası, Bakı, 2013
147. Həsənov Həsən. Nəriman Nərimanov: milli ruh və siyasi təfəkkürün vəhdəti//"Fəlsəfə və sosial-siyasi elmlər". 2020, №2 (30)
148. Həşimova Aygün. XX əsrin birinci yarısında Azərbaycan

mühacirəti. Bakı, "Bilik", 1992
149. Hüseynzadə Əli bəy. Siyasəti-Fürusət. Bakı, Elm, 1994
150. Hüseynzadə Əli bəy. Qırımızı qaranlıqlar içində yaşıl işıqlar. Bakı: Azərnəşr, 1996
151. Hüseynzadə Əli bəy. "Türklər kimdir və kimlərdən ibarətdir?". Bakı, "Mütərcim", 1997
152. Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2007
153. Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Iki cilddə, I-II cildlər. Bakı, Çaşıoğlu, 2008
154. Hüseynzadə Aydın. Seyid Hüseynin pedaqoji fəaliyyəti və maarifçilik baxışları. Bakı, Maarif, 1991
155. Hüseynzadə Aydın. Seyid Hüseyn. Bakı, Az. SSR Bilik Cəmiyyəti, 1978
156. Hüseynzadə Aydın. Seyid Hüseyn və xalq maarifi. Bakı, Maarif, 1970
157. Hüseynzadə A. İstiqlal şairi Ümgülsüm. Bakı, Çaşıoğlu, 2005
158. Hüseyn Seyid. Yeni həyat yollarında, Bakı, Azərnəşr, 1928
159. Hüseyn Seyid. İki həyat arasında, Bakı, Azərnəşr, 1934
160. Hüseyn Seyid. Seçilmiş əsərləri, Bakı, "Şərq-Qərb", 2006
161. Hüseyn Seyid. Ağarılan dişlər. "Qardaş köməyi", №2, 1917
162. Hüseyn Seyid. Türk sözləri, "El həyatı" jurnalı" №2, 1918
163. Hüseyn Seyid. Əcəmlik dövrü və onunla mübarizə. "İqbal" qəzeti, 3 noyabr 1913-cü il, №489
164. Hüseyn Seyid. İzah. "İqbal" qəzeti, 3 sentyabr 1914, №725
165. Hüseyn Seyid. Bir mütaliə. "Son xəbər" qəzeti, 1 avqust 1915-ci il, №13
166. Hüseyn Seyid. Tənqid. "Qurtuluş" jur., 16 oktyabr 1915, №2
167. Hüseyn Seyid. "Ölülər" haqqında təəssürat. "Açıq söz" qəzeti, 1 may 1916-cı il, №173
168. Hüseyn Seyid. Taxsır kimdədir? "El həyatı" jurnalı, 14 yanvar 1918, №1
169. Hüseynov Heydər. Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən. Bakı, "Şərq-Qərb", 2007
170. Hüseynov Şahnəzər. Əhməd bəy Ağaoğlunun dünyagörüşü. Bakı, 1998
171. Hüseynov Şirməmməd. Mətbu irsimizdən səhifələr. Bakı,

"Çənlibel" NPM, 2007
172. Hüseynov Şirməmməd. Müstəqilliyin çətin yolu... Reallıqlar, düşüncələr (əlavələrlə ikinci nəşr). Bakı, "Elm", 2009
173. Hüseynov Rafael. Millətin zərrəsi. Bakı, "Azərbaycan", 2001
174. Xəzər H. Ceyhun bəyin vəsiyyəti. "Mücahid" yur., Paris, 1963, №10 (53-54)
175. Xəlilzadə, Flora. "Şərəfli ömür yolu". "Azərbaycan" qəzeti, 2011-ci il, 6 oktyabr.
176. İbrahimli Xaləddin., Zeynalov R. Müsavat Partiyasının 1920-ci 27 aprel istilasından sonra fəaliyyəti tarixindən // Müsavat, Bakı, 1993, №1(5)
177. İbrahimli Xaləddin. Azərbaycan mühacirət tarixi. Bakı, ADPU nəşriyyatı, 2012
178. İbrahimli Əli. Yusif Vəzir Çəmənzəminli və milli məsələ. Bakı, "Qartal", 2002
179. İbrahimov Sənətulla. "Bir məşəl yenə söndü". "İqbal" qəzeti. Bakı, 1912, №59
180. İldırım Almas. Seçilmiş əsərləri. Bakı, "Öndər", 2004
181. İldırım Almas. Qara dastan. Bakı, Azərnəşr, 1994
182. Kəngərli Məhəmməd. Xaincəsinə boğulan bir səs.// Azərbaycan mühacirət irsi. Bakı, "Elm və Təhsil", 2011
183. Kəlbizadə E., Hacıyev İ. Naxçıvanlı diplomatlar. Naxçıvan, "Əcəmi", 2017
184. Köçərli Firidun bəy. Azərbaycan türklərinin ədəbiyyatı. İki cilddə, I- II cildlər. Bakı, Avrasiya-Press, 2005
185. Köçərli Firidun bəy. Seçilmiş əsərləri.Bakı, AzSSR EA, 1963
186. Köçərli Firidun bəy. Əsərləri. Bakı, "Elm və Təhsil", 2013
187. Köçərli Firidun Qasım oğlu. Üzeyir Hacıbəyovun ictimai-siyasi görüşləri. Bakı, Azərb. SSR EA nəşriyyatı, 1965
188. Köçərli F.Q. Marksizm-leninizm və Azərbaycanda demokratik ictimai fikir. Bakı, Azərnşər, 1976
189. "Kaspi" qəzeti, 1917-ci il, 18 aprel
190. Qarayev Yaşar. Azərbaycan ədəbiyyatı XIX və XX yüzillər. Bakı, 2002
191. Qarayev Yaşar. Tarix: yaxından və uzaqdan.Bakı,Sabah, 1996
192. Qarayev Yaşar. Realizm: sənət və həqiqət. Bakı, "Elm", 1980

193. Qaspıralı İsmayıl bəy. Dildə, fikirdə, işdə birlik. İ.Qaspıralı 1851-1914. Bakı, Qartal, 2002
194. Qasımov Cəlal. Məhbus tərcümeyi-halı. Bakı, “Səda”, 2003
195. Qasımov Cəlal. Abdulla Surun həyat və yaradıcılığı. Bakı, “Təhsil”, 2004
196. Qasımlı Musa, Muradova Bahar, Qafarov Vasif. Azərbaycan parlamentarizmi tarixi. I-II cildlər. Bakı, Mütərcim, 2018
197. Qənizadə S.M. Seçilmiş əsərləri. Bakı, Avrasiya press, 2006
198. Quliyev C. Lenin və Azərbaycanda sovet hakimiyyətinin qələbəsi və möhkəmlənməsi uğrunda mübarizə. Bakı, Azərnəşr, 1957
199. Quliyev Vilayət.Tariximiz taleyimiz.Bakı,“Tural” NPM, 2002
200. Quliyev Vilayət. Ağaoğlular. Bakı, “Ozan”, 1997
201. Qurbanov Şamil.Məmməd Əmin Rəsulzadə.Bakı:Nurlan,2001
202. Mehdiyev Ramiz. Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında. Bakı, “Şərq-Qərb”, 2019
203. Mədətoğlu Aydın.Türklər.Bakı,“E.L.”NP şirrkəti MMC, 2012
204. Mədətoğlu Aydın. Türkçülər (tarixi-siyasi-ideoloji oçerklər). Bakı, “Orxan” NPM, 2015
205. Məmmədzadə Mirzə Bala. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992
206. Məmmədzadə M.B. Köylü hərəkatı. Lenin milli siyasəti. Bakı, 2007
207. Məmmədzadə M.B. Azərbaycan Türk mətbuatı. Bakı, Bakı Universiteti nəşriyyatı, 2004
208. Məmmədzadə M.B. Ermənilər və İran. Bakı, Azərnəşr, 1993
209. Məmmədzadə M.B. Qafqaz İslam Ordusu. // Azərbaycan mühacirət irsi. Bakı, “Elm və Təhsil”, 2011
210. Məmmədzadə M.B. Azərbaycanda azadlıq yoxdur. // Azərbaycan mühacirət irsi. Bakı, “Elm və Təhsil”, 2011
211. Məmmədzadə M.B. Mart günləri. “İstiqlal” qəz., 31 mart, 1920, №12
212. Məmmədzadə M.B. Azərbaycan çağırıyor, “Açıq söz” qəzeti, 04.01.1918
213. Məmmədzadə M. B. Azərbaycan Milli Xartiyası. 28 Mayıs İstiqlal bəyannaməsinin təhlili. “Azərbaycan” jur., №4, Bakı, 1991
214. Məhəmmədzadə Abdulla Tofiq. “Gəncədən”. “Tərəqqi”

qəzeti, Bakı, 16 mart 1909, № 55
215. Məmmədquluzadə Cəlil. Əsərləri. Dörd cilddə, I- IV cildlər. Bakı, "Öndər", 2004
216. Məmmədov Məmməd. Azərbaycan ədəbi tənqidi. Müntəxabat. Bakı,"Tural-Ə" NPM, 2002
217. Məmmədov İsmayıl. Azərbaycan tarixi. Bakı, Adiloğlu, 2005
218. Məmmədov Kamran. Yusif Vəzir Çəmənzəminli (həyatı və yaradıcılıq yolu). Bakı, Elm, 1981
219. Məmmədova Afaq. XX əsr Azərbaycan romantizminin fəlsəfəsi. Bakı, "İqtisad universiteti" nəşr., 2003
220. Məmmədova Fatimat. Azərbaycan mühacirətinin kulturoloji irsində dil problemi. Bakı, "Elm", 2009
221. Məmmədov Xeyrulla. Azərbaycan ədəbi tənqidi XIX-XX əsrlərin hüdudunda. Bakı, 1999
222. Məmmədli Hüseynqulu. Qafqazda İslam və Şeyxülislamlar. Bakı, MBM, 2005.
223. Mərdanov M.C; Quliyev Ə.Q. Azərbaycan Respublikasının dövlət rəmzləri. Bakı: Çaşıoğlu, 2001
224. Mərdanov M., Tahirzadə Ə. Məlik-Zərdabi (Məlikzadə, Məlikov) Səfvət bəy Həsən bəy oğlu // 1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar. C. 5 M. Bakı: Təhsil, 2021
225. Mikayılqızı (Muradova) Pərixanım. Firidun bəy Köçərli: "Ümmətdən millətə doğru". Bakı, "Elm və Təhsil", 2016
226. Min beş yüz ilin Oğuz şeiri. Antologiya. 1. Kitab. Bakı, "Azərbaycan" nəşriyyatı, 1999
227. Mirəhmədov Əziz. Əhməd bəy Ağaoğlu. Bakı, Ərgünəş, 2014
228. Mirzəcamalov Hüseyn. "Abdulla Tofiq kim idi?". "Təzə xəbər" qəzeti, Bakı, 22 iyun 1912, № 31
229. Mirzə Rasim. Türkçülüyün babası (Əlibəy Hüseynzadənin fikir dünyası). Bakı: Elm 2000
230. Mustafayev Qədim. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı, Maarif, 1973
231. Müznib Əlabbas. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2006
232. Müznib Əlabbas. Əsərləri. Bakı, "Elm və təhsil", 2012
233. Müznib Əlabbas. Azərbaycan ədəbiyyatından seçmələr. Bakı, "Elm və təhsil", 2011

234. Müşfiq Mikayıl. Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2004
235. Müşfiq Mikayıl. Əsərləri. Üç cilddə, IIIcild. Bakı, Səda, 2004
236. Mövlayi Adil. Qafqazda elm dünyasının ulduzları. Bakı, “Bahar”, 2013
237. Nemanzadə Ömər Faiq.Seçilmiş əsərləri.Bakı,Şərq-Qərb,2006
238. Nəbiyev Bəkir. Didərgin şair (Almas İldırımın yaradıcılıq yolu). İkinci nəşr. Bakı: “XXI – Yeni Nəşrlər Evi”, 2005
239. Nəsibzadə Nəsib. Azərbaycan Demokratik Respublikası. Bakı: Elm, 1990
240. Nəsibli Nəsib. Güneyli-Quzeyli məsələlərimiz. Bakı, “Aypara 3”, 2013;
241. Nərimanov Nəriman. Məqalələr və nitqlər. II cilddə, I cild, Bakı, Azərnəşr, 1971
242. Nərimanov Nəriman. Seçilmiş əsərləri. Bakı, “Lider”, 2004
243. Nəzmi Əli. Abdulla Tofiq (A.Sur)un ruhuna ithaf. “İqbal” qəzeti. Bakı, 1912, №93
244. Nəbi Ceyhun. Axund Molla Məhəmməd Pişnamazzadə Azərbaycan mübarizəsində. https://ganca.org/index.php? option=com_content&view=article&id=343:eyxuelislam-axund-mhmmd-pinamazzad-&catid=4:axsiyyatlar&Itemid=3
245. Nurullayev Fuad. Şeyxülislamlıq zirvəsi: Hacı Allahşükür Paşazadə. Bakı, “Nurlar” NPM, 2014
246. Odər Kərim. Milli Azərbaycan Cümhuriyyəti.// Azərbaycan mühacirət irsi. Bakı, “Elm və Təhsil”, 2011
247. Paşayev Mir Cəlal, Hüseynov Firidun.XX əsr Azərbaycan ədəbiyyatı. Ali məktəblər üçün dərslik. Bakı, “Maarif”, 1982
248. Paşayev Mir Cəlal. Azərbaycanda ədəbi məktəblər (1905-1917). Bakı, “Ziya-Nurlan” NPM, 2004
249. Pənah Gülxani, Əhmədli Salatın. Azərbaycan ədəbiyyatı məsələləri (müasir ədəbi mühitə ümumi baxış).Bakı,UniPrint,2014
250. Rəsulzadə M.Ə. Əsərləri. I cild (1903-1909). Bakı, Azərnəşr, 1992
251. Rəsulzadə M.Ə. Əsərləri. II cild (1909-1914). Bakı, Şirvannəşr, 2001
252. Rəsulzadə M.Ə. Əsərləri.III cild (1915-1916).Bakı, Elm, 2012
253. Rəsulzadə M.Ə. Əsərləri.IV cild (1916-1917).Bakı, “Qanun”,

2013
254. Rəsulzadə M.Ə. Əsərləri. Beş cilddə, I, II, III, IV, V cildlər. Bakı, “Təhsil”, 2014
255. Rəsulzadə M.Ə. Əsərləri (Mühacirət dövrü: Türkiyə, 1922-1929). ICild. Bakı, “OL” npkt, 2016
256. Rəsulzadə M.Ə. Əsərləri (Mühacirət dövrü: Türkiyə, 1923-1931). II cild, Bakı, “Qanun” nəşriyyatı, 2021
257. Rəsulzadə M.Ə. Mühacirət dövrü ədəbi-elmi irsindən seçmələr. I cild. Bakı, Elm, 2016
258. Rəsulzadə M.Ə. Əsrimizin Siyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı, Gənclik, 1991
259. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990
260. Rəsulzadə M.Ə. Azərbaycan şairi Nizami.Bakı:Azərnəşr,1991
261. Rəsulzadə M.Ə. Azərbaycan şairi Nizami. Bakı, Çıraq, 2008
262. Rəsulzadə M.Ə. Bolşeviklərin Şərq siyasəti.Bakı: Sabah, 1994
263. Rəsulzadə M.Ə. Stalinlə ixtilal xatirələri. Bakı, Elm və təhsil, 2011
264. Rəsulzadə M.Ə. Qafqaz türkləri. Bakı, “Təknur”, 2012
265. Rəsulzadə M.Ə. İran Türkləri. Bakı, “Təknur”, 2013
266. Rəsulzadə M.Ə. Azərbaycanda Milli Hərəkat.Bakı, Elm, 2009
267. Rəsulzadə M.Ə. Panturanizm. Qafqaz sorunu. Bakı, Təknur,2012
268. Rəsulzadə M.Ə. Milli birlik. Bakı, “Çıraq” nəşriyyatı, 2009
269. Rəsulzadə M.Ə. İstiqlal məfkurəsi və gənclik// “Azadlıq” qəz., 1990, 31 dekabr
270. Rəhman Salmanlı. Amu-Dərya sahillərində öldürülən azərbaycanlı. “Azərbaycan” qəzeti. 25 may 2011, s.10
271. Rəhimli Təranə Turan. Axund Yusif Ziya Talibzadə haqqinda bilmədiklərimiz// http:// bizimyazi.az/axund-yusif-ziya-talibzadə-haqqinda-bilmədiklərimiz/
272. Rəhimli Təranə. Ədəbiyyat və tənqidin yaradıcılıq problemləri. Bakı, Avropa, 2009
273. Rəfioğlu Səlim Rəfiq. Füzuli (“Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası” seriyası, III cild). Bakı, Elm və təhsil, 2019
274. Rüstəmov Yusif. Siyasi-Hüquqi təlimlər tarixi. Bakı: “Azərbaycan Universiteti” nəşriyyatı, 2000

275. Rüstəmov M.Ə., Tağıyev Ə.M. Karl Marks və müasir ideoloji mübarizə. Bakı, "Bilik", 1985
276. Rüstəmov İzzət. Azərbaycanda təbii-elmi biliyin inkişafının fəlsəfi problemləri(XIX əsr-XX əsrin əvvəli).Bakı, Diplomat,2001
277. Rüstəmli Asif. Zirədən başlanan yol (Mirzə Bala Məhəmmədzadənin həyatı, yaradıcılığı və mühiti).Bakı, ZMM-EkoPark, 2018
278. Rüfətov Ə.M. Fəlsəfeyi-müsbətə və əfkari-fənniyyədə yeni inqilablar."Şəlalə" jur., 1914, №7
279. Rüfətov Ə.M. Tarix və həqiqət. "Şəlalə" jurnalı, 22 fevral, 1914-cü il, №8
280. Rusiya Müsəlmanları İttifaqının birinci qurultayı. 15.08.1905 //TRMA, f.199, s.1, i.722
281. Sadıqzadə Ümgülsüm. Əsərləri. Bakı, "Letterpress", 2010
282. Sadıqzadə Ü.Gözümüz yaşlıdır, sinəmiz dağlı. Bakı,Elm,1992
283. Sadıqzadə Qumral.Son mənzili Xəzər oldu. "Xan" nəşr., 2017
284. Salamoğlu Təyyar. Faciəli talelər (Azərbaycan repressiya və mühacirət şeirinə dair portret oçerklər). Bakı, "Elm", 1998
285. Salamoğlu Təyyar. Müasir Azərbaycan ədəbiyyatı. Bakı, "E. L." nəşriyyat və poliqrafiya, 2012
286. Salamoğlu Təyyar. XIX əsrin sonu XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının aktual problemləri.Bakı, Elm və təhsil, 2021
287. Salamoğlu Təyyar. Seyid Hüseyn tənqidi XX əsrin əvvəllərində. "Kredo" qəzeti, 04,11,18 dekabr 2019 (1,2,3 yazılar)
288. Sarıahmetoğlu Nesrin. Milletleşme Sürecinde Azerbaycan Basının Oluşum ve Gelişimi //Azerbaycan Düşünce Tarihi. 1 cild. 2 cilddə. Ankara, YTB yayınları, 2021
289. Səfərov Rafiq.F.X.Xoyski."Şərq" qəz., 23 noyabr 2017,№214
290. Səhhət Abbas. Seçilmiş əsərləri. Bakı, "Lider", 2005
291. Sidqi Məmməd Tağı. Əsərləri. Bakı, Çaşıoğlu, 2004
292. Süleymanova Sevda. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX əsrin sonu, XX əsrin əvvəlləri). Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1999
293. Süleymanlı M.A. Ə.Ağaoğlunun "İslama görə və islamiyyətdə qadın" əsərinə elmi-tənqidi yanaşmalar. Bakı: "Litterpress", 2008
294. Süleymanlı M.A. Azərbaycan kulturoloji fikir tarixindən (XX əsrin əvvəlləri). Bakı: "Nafta-Press", 2011

295. Sultanlı Vaqif. Azərbaycan ədəbi tənqidi.Bakı, "Nurlar", 2019
296. Sultanlı Vaqif. Azərbaycan mühacirət ədəbiyyatı. Bakı, Şirvannəşr, 1998
297. Sur Abdulla. "Elm-i iqtisad". Azərbaycan Respublikası Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu, 3576[FR 544]
298. Sur Abdulla. "Türk ədəbiyyatına bir nəzər". Azərbaycan Respublikası MEA Əlyazmalar İnstitutu, 3577[FR 544]
299. Sur A."Füzuliyə bir nəzər". "Füyuzat" jur.,Bakı,1907,№30,31
300. Sur A. "Nəfiyə bir nəzər". "Həqiqət" qəz., Bakı, 1909, №2, 3
301. Sur A. "Sinan paşaya bir nəzər"."Füyuzat", Bakı, 1907, № 28
302. Sur A. "Şərqdə şəfəq sökülərkən"."Tərəqqi",Bakı,1909,№117
303. Sur A. "Xavər zəmin oyandı". "Günəş" qəz., Bakı,1910, №49
304. Sur A."Sərrnigün ümidlər"."Yeni İrşad" qəz, Bakı, 1911,№14
305. Sur A. "Tərcüməmi, təbdil və yaxud təhvilmi?"."Günəş" qəzeti, Bakı, 20 oktyabr 1910, № 102
306. Sur A. "Türk tarixi"."Həqiqət",Bakı, 5-6 iyun 1910,№152,153
307. Sur A. "İstanbulda tələbələr qərarı". "İrşad" qəzeti, Bakı, 1906, № 264
308. Sur A. "Nigar xanım"."Füyuzat" jur., Bakı, 1907, № 18
309. Sur A."Bir tövsiyyə"."İrşad" qəz.,Bakı,3 sentyabr 1906,№207
310. Sur A."Tövsiyyəyə dair izahat"."İrşad" qəz.,Bakı,1906, №215
311. Sur A. "Boğaz içində günəş doğarkən". "Tərəqqi" qəzeti, Bakı, 1909, № 85
312. Sur A."Günəş doğduqdan sonra". "Tərəqqi", Bakı, 1909, №97
313. Sur A. "Xoruzun quyruğu görünməyə başladı". "İrşad" qəzeti, Bakı, 1906, № 50
314. Sur A. "Əkinçilərə aid". "İrşad" qəzeti, Bakı, 19, 22 may 1906, №117, 119
315. Sur A. "İrana məxsus bir mülahizə". "İrşad" qəzeti, Bakı, 7 sentyabr 1906, № 210
316. Sur A. "Türkiyədə məktəblər məramnaməsi". "İrşad" qəzeti, Bakı, 15 may 1906, №114
317. Şaiq Abdulla. Əsərləri. 5 cilddə, 5-c cild. Bakı, "Yazıçı", 1978
318. Şaiq A. Sultana "Quran" aparılması (Kamal Talıbzadənin təqdimatında). "Elm" qəz., mart 1992, №6 (403)
319. Şahtaxtlı Məhəmmədağa.Seçilmiş əsərləri.Bakı,Çaşıoğlu,2006

320. Şeyxzamanlı Nağı. Azərbaycan istiqlal mücadiləsi xatirələri. Bakı, “Azərbaycan” nəşriyyatı, 1997
321. Şeyxzamanlı Nağı.Xatirələrim. Bakı, “Vətən”, 2004
322. Şeyxzamanlı-Keykurin Nağı. Nağıbəy Şeyxzamanlının xatirələri və istiqlaliyyət fədailəri. Bakı, Təknur, 2007
323. Şıxlınski Əliağa. Xatirələrim. Bakı, Azərnəşr, 1984
324. Şükürov Ağayar. Müstəqil dövrün fəlsəfəsi və filosofları. Bakı, “Səda”, 2007
325. Talıbzadə Yusif Ziya. “İzhari-bütlan”. Bakı, “Füyuzat”, №16, 1907, 29 aprel
326. Talıbzadə Y.Z.“Həqiqəti-İslam”,“İrşad”qəz.,№263,Bakı,1906
327. Talıbzadə Y.Z. “Əmirxanyansa cavab”, İrşad qəz., №263, Bakı, 1906, 14 noyabr
328. Talıbzadə Y.Z.“Həccə dair”,Bakı,“Füyuzat”,№6,1907,12 yan.
329. Talıbzadə Y.Z. “Müsəlmanlar və maarif”, “Tərəqqi”qəz., №201, 6 sentyabr, Bakı, 1909
330. Talıbzadə Y.Z. “Bakıda rusi-müsəlman məktəbləri”, “Tərəqqi”qəz., №202, 7 sentyabr, Bakı, 1909
331. Talıbzadə Y.Z. “Türkiyə məktubları”. Bakı, “İqbal” qəz., 1913-cü il, №253, 258, 268, 269, 271
332. Talıbzadə Y.Z. “Cəmiyyəti-əqvam”. Bakı, “Azərbaycan” qəzeti, 1919-cu il, №348
333. Talıbzadə Y.Z. “Müəllimlərimiz”. Bakı, “Yeni Füyuzat”, №8, 1911, 1 mart
334. Talıbzadə Y.Z. “Hürriyyəti-dəyanətə cavab” və yaxud “Axund Yusifzadə ilə müsahibə”, Abdulla Şaiqin Mənzil Muzeyinin arxivi, qovluq 4
335. Talıbzadə Kamal. Axund Yusif Talıbzadə.//“Mədəniyyət dünyası” yurnalı, 2-cı buraxılış. Bakı, ADMİU-nun mətbəəsi, 2001
336. Talıbzadə Kamal. Azərbaycan ədəbi tənqidinin tarixi (1800-1920-ci illər). Bakı, “Şərq-Qərb”, 2015
337. Talıbzadə Kamal. Azərbaycan ədəbi tənqidinin tarixi. Bakı, “Maarif”, 1984
338. Talıbzadə Kamal. Sənətkarın şəxsiyyəti. Bakı, “Yazıçı”, 1978
339. Talıbzadə Kamal. Seçilmiş əsərləri. Bakı, Elm, 2015
340. Tahirli Abid. “Abay Dağlının həyat və yaradıcılığı”. Ulduz

jurnalı, sayı 10, 2018-ci il oktyabr
341. Tahirli Abid. Azərbaycan mühacirət mətbuatında publisistika (1921-1991). Bakı, "CBS", 2005
342. Tahirli Abid. Azərbaycan mühacirət mətbuatı. 1-2-ci hissələr. Bakı, "Ozan", 2003
343. Tahirli Abid. Ceyhun Hacıbəylinin həyat və yaradıcılıq yolu. Bakı, "Elm və təhsil", 2019
344. Tahirzadə Ədalət. Nəsib Bəy Yusifbəyli. // Fikir və əməl böyüklərimiz. Bakı, "Nurlar" NPM, 2014
345. Tahirzadə Ədalət. Həsən bəy Ağayev // Fikir və əməl böyüklərimiz. Bakı, "Nurlar" NPM, 2014
346. Tağıyev Rasim. Döyünən ürək. "Azərbaycan qadını" jurnalı, №2, 1971
347. Teymur Maarif. Almas İldırımın həyatı, mühiti, şəxsiyyəti // İldırım Almas. Seçilmiş əsərləri. Bakı, "Öndər" nəşriyyatı, 2004
348. Təkinər Süleyman. Əsərləri ("Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası" seriyası, VI cild). Bakı, Elm və təhsil, 2022
349. Təbib-Ağayev Həsən bəy. Təəccüblü bir qətnamə. "İrşad" qəzeti, 26.02.1906, sayı 54.
350. Turan Azər. Əli bəy Hüseynzadə (həyatı, mübarizəsi, yaradıcılığı və şəcərəsi). Bakı, "Letterpress", 2014
351. Turan Anar. Seyid Hüseyn və Ümgülsüm Sadıqzadənin həyat dramı. Xalq qəzeti, 13 dekabr 2016
352. Topçubaşov Əlimərdan.Paris məktubları.Bakı, Azərnəşr, 1998
353. Topçubaşov Əlimərdan bəy. "Kaspi"dən seçmələr.. Bakı, "Zərdabi LTD" MMC, 2018
354. Topçubaşı Ə.M. Azərbaycan Cümhuriyyətinin yaradılması. Bakı, Təknur, 2013
355. Topçubaşı Ə.B.Rusiyada müsəlman qurultayları//Arcive d'Ali Mardan-bey Toptcibashi,carton n7. CERCEC, EHESS, Paris, p.17
356. Topçubaşının (Ə.B.) S.G.Ganturinə məktubu. 26.04.1908 // ARDA, f.3172, s.1, i.6, v.27, v.29-30
357. Topçubaşının Ceyhun Hacıbəyliyə məktubu. 15.07.1920. // S.Mümtaz adına ADƏİA, f.648, s.6, i.2.v.2
358. Topçubaşının ABŞ-ın Parisdəki səfirnə notası. 16.08.1920 // Arcive d'Ali Mardan-bey Toptcibashi, carton n 7. CERCEC,

EHESS, Paris, pp.1-4
359. Topçubaşov Əlimərdan bəy Azərbaycan mətbuatı səhifələrində. Bakı, Elm, 2005
360. Tofiq Abdulla. "Məktəblərdə xəyal-i fənər yaxud sinematoqraf". "Həqiqət" qəzeti, Bakı, 1 iyul 1910, № 149
361. Vəliyev (Baharlı) Məhəmməd Həsən. "Azərbaycan" (Fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk). Bakı, "Azərnəşr", 1993
362. Vəliyev Şamil. Naməlum məktublar. "Azərbaycan" jurnalı, №1-2, Bakı, 1993
363. Vəkilov Rəhim. Azərbaycan Respublikasının yaranma tarixi. Bakı, Elm, 1998
364. Vəzirov Haşım. Keyfim gələndə (Haşım bəy Vəzirovun jurnalistlik fəaliyyəti). Bakı, "Şuşa" nəşriyyatı, 2001
365. Vəzirov Orxan. Atam Yusif Vəzir Çəmənzəminli haqqında. Bakı, Azərnəşr, 1997
366. Yaqublu Nəsiman. Azərbaycan milli istiqlal mübarizəsi və M.Ə.Rəsulzadə. Bakı: 2001
367. Yaqublu Nəsiman. M.Ə.Rəsulzadə. Bakı: Gənclik, 1991
368. Yaqublu Nəsiman. Azərbaycan Milli Azadlıq Hərəkatı Ensiklopediyası, Bakı, Qanun nəşr. 2018
369. Yaqublu Nəsiman. Əbdürrəhman Fətəlibəyli-Düdənginski. Bakı. "Abşeron-Nəşr" 2009
370. Yaqublu Nəsiman. Şuşa ziyalıları: unudulmuş irs. Bakı, AVE Print, 2022
371. (Yusifbəyli) Nəsibbəy nümunəsi. Məktublar, məqalələr, çıxışlar və haqqında yazılar. Tərtibatçı və Ön sözün müəllifi: Qəhrəmanlı Nazif. Bakı, "Nurlan", 2008
372. Yusifbəyli Nəsib bəy – milli istiqlal və dövlətçilik mücahidi. Bakı, "Ziya", 2013
373. Yusifbəyli Nəsib bəy. Azərbaycan vətəndaşlarına hökumətin müraciəti. "Azərbaycan" qəzeti, №190, 28 may 1919-cu il
374. Yusifbəyli N. Bizim mətbuat. "Tərcüman" qəzeti, 1906, 12 aprel, № 37, 26 aprel, № 43
375. Yusif Vəzir Çəmənzəminli: biblioqrafiya. Bakı, 2017
376. Yusifli Vaqif. Ədəbi tənqiddə Seyid Hüseyn nümunəsi 525-ci qezet, (1-ci yazı)31 yanvar 2017; (2-ci yazı) 01 fevral 2017

377. “Yeni Füyuzat” jurnalı, 1910, №10
378. Zaqafqaziya Seyminin Müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları.1918-ci il. Bakı, 2006.

**Türk dili (Türkiyə)**

1. Ağaoğlu Ahmet bey. Türk alemi. İslamiyet ve türklük // İstanbul, “Türk yurdu”, 1912, №7
2. Ağaoğlu Ahmet. “Untermenshentum” - “Dünülbəşər”. “Akın”, sayı 33, 30 haziran 1933
3. Ağaoğlu Ahmet. Kamalizm ve Hitlerizm. “Akın”, sayı 51, 18 temmuz 1933
4. Aydemir Şevket Süreya. Makedonyadan Orta Asyaya Enver Paşa. 3 ciltte, 3 cilt. (1914-1922). İstanbul, 1978
5. Akçura Yusif. Gökalp Ziya bey Hakkında Hatıra ve Mulahazalar. İstanbul, “Türk yurdu” dergisi, 1924, II seri, C.I
6. Aküzüm Feyzi. Mehmet Emin Resulzadeye göre çeşitli cebheleriylə Azerbaycan istiklal mücadidlesi. Ankara, 1977
7. Aran Mehmet Sadık. Turan Yolunda (Hazırlayan və ön sözlərin müəllifləri: Sevil Abbasoğlu/İrevanlı, Atilla Jorma). İstanbul, Doğu Kütüphanesi, 2020
8. Aran Mehmet Sadık (Azer Senan). İran Türkleri. İstanbul, Cümhuriyet maatbası, 1942
9. Aşnin F.D., Alpatov V.M., Nasilov D.M., Mahvedilmiş Türkoloji. Ankara, Türk Tarih Kurumu, 2016
10. Azerbaycan Cumhuriyeti Osmanlı Arşiv Belgeleri, 1918-1920, Bakı, Teas Press, 2018
11. Bayar Celal. Atatürkün metodolojisi ve günümüz. İstanbul, Kervan, 1978
12. Baykara Hüseyin. Azerbaycanda Yenileşme Hareketlerı. XIX yüzil. Ankara, Türk Kültürünü Araştırma Enstitüsü, 1966
13. Baykara H. İran inkılabı ve Azatlık Hareketleri. İstanbul, 1978
14. Bağırova İrade. 20. Yüzyılın Başlarında Azerbaycanda Siyasi Partiler //Azerbaycan Düşünce Tarihi. 1 cild. 2 cilddə. Ankara, YTB yayınları, 2021
15. Betül Aslan. 1. Dünya Savaşı Esnasında Azerbaycan Türklerinin

Anadolu Türklerine Kardeş Kömeği (Yardımı) ve Bakü Müslüman Cemiyeti-Hayriyesi //Ankara, 2000, XII
16. Caferoğlu Ahmet. Şarkta ve Garpta Azeri lehcesi tedkikleri. Azerbaycan Yurt Bilgisi. №27-30, İstanbul, 1934.
17. Caferoğlu A.Azeri edebiyatında istiklal mücadilesi izleri//Azerbaycan Yurt Bilgisi,Yıl:1,№:8-9,1932,agustos-eylül,İstanbul
18. Caferoğlu A. Azeri edebiyatında istiklal mücadilesi izleri // Azerbaycan Yurt Bilgisi,Yıl:1,sayı:10, 1932, teşrin-1, İstanbul
19. Caferoğlu Ahmed. Azerbaycan Cümhuriyeti// Ankara, "Mücahit" dergisi, №31-32, 1960 yıl, temmuz-agustos
20. Caferoğlu Ahmed. XX Asr Azerbaycan Edebi Tankid (1905-1917). XVII cild. Türkiyyat mecmuesi. İstanbul, 1972
21. Dağlı Abay. "İnanmıyorum" "Birleşik Kafkasya" dergisi, Münhen, eylul 1953, 3-cu yıl, sayı: 9 (26).
22. Dağlı Abay. "Hüriyyet meleğine". "Azerbaycan" aylık kültür dergisi, Ankara, aralık 1957, yıl:6, sayı: 9 (69).
23. Dağlı Abay. "Türk öz türkceçiliyi ve Rus bölgeçiliyi". "Mücahid" mecmuesi, eylul, 1957, il: 3, sayı: 10.
24. Devlet Nadir. Rusya Türklerinin milli mücadile tarihi (1905-1917). Ankara, TTK yayınları, 2014
25. Düzdağ Ertuğrul. Türkiyede İslam ve İrkçılık Meselesi. İstanbul, "Cihad", 1976
26. Elekberov Faiq. Muhammed Emin Resulzadenin Dünya Görüşü. Konya, Buğra, 2014
27. Elekberli Faik. Azerbaycan Türk Felsefi və İçtimai Fikir Tarihi (XIX-XX yüzyıllar). 3 ciltte, I cilt. Ankara, Astana Yayınları, 2021
28. Keykurun Naki. Büyük Bir Hayirsever Hacı Zeynalabdin Takızade. "Azerbaycan", Ankara, mayıs 1957, sayı 14 (62),
29. Keykurun Naki. "Mekteb-i Ruhani". İstanbul. "Azerbaycan" dergisi, yıl 7, sayı 10 (70), ocak 1958
30. Gökalp Ziya. Türkleşmek, islamlaşmak, muasirleşmek. İstanbul, Akvaryum, 2005
31. Gökdemir Ayvaz. Düşüncə tarihimizden portreler. İstanbul, "Bayrak", 2005
32. Genceli Mehdi. Hür fikirli Abdullah Sur. İstanbul, Ötüken, 2021
33. Hayıt Baymirza. "Basmaçılar" Türkistan Milli Mücadile Tarihi

(1917-1934). Ankara, TDV Yayınları, 1997
34. İmanov Vügar. Ali Merdan Topçubaşi (1865-1934). Lider Bir Aydın ve Bağımsız Azerbaycan Cümhuriyetinin Temsili. İstanbul, Boğaziçi Universitesi Yayınevi, 2003
35. İhsan İ. Rusyada birinci müslüman Kongresi tutanakları. Ankara: 1990
36. Patrik Z.M. Camali Haç İle Kızıl Yıldız Arasında.Ankara: 1984
37. Masayuki Yamauchi. Hoşnut olmamış adam – Enver Paşa. (Türkiyeden Türkistana). Ankara, Bağlam Yayıncılık, 1995
38. Mehmetzade M.B. İstiklalın diplomatik cebhesi // Azerbaycan, Ankara, 1955, №12 (36)
39. Mehmetzade M.B. Mehmet Emin Resulzade. “Azerbaycan” dergisi, Ankara, 1955, sayı 12 (36)
40. Mehmetzade M.B. Resulzade Mehmet Emin. “Dergi”, yıl: 1 Ocak-Mart, Minih, 1956
41. Mehmetzade M.B. Türklük ve Komunizm. “Azerbaycan” dergisi, yıl:19, sayı 201, Ankara 1970
42. Mehmetzade M.B. “Maverayi – Kafkasya Federasiyonu neden dağıldı?”, “Kurtuluş” dergisi, yıl: 3, sayı: 21, Temmuz-Agustos, Berlin, 1936
43. Mehmetzade M.B. Sovyet Azerbaycanda Türk Dilinin Ruslaşdırma ve İmha Siyaseti Hakkında. Kurtuluş,Berlin,1936,№20
44. Mehmetzade M.B. Azerbaycan Tarihinde Türk Albanya. Ankara, Yeni Ceza Evi, 1951
45. Mehmetzade M. B. Azerbaycan Misaqi-Millisi. Ankara, 2002
46. Mehmetzade M.B. Kafkas İstiklal ilanının 40. yıldönümü münasibeti ile. “Dergi”, yıl: №12, Münih 1958
47. Münşi Hilal. “Büyük Azeri”. “Kurtuluş” dergisi, Berlin, aralık 1934, yıl:1, sayı: 4
48. Münşi Hilal. “Almanya matbuatında meselelerimiz”. “Kurtuluş” dergisi, Berlin, 1936, son kanun, yil: 3, sayı: 15
49. Mirzecamalbeyov Hüseyin. “Kafkasım”. “Turk İzi” dergisi, Ankara, ocaq (yanvar) 1953, yil: 2, say: 6.
50. Mirzecamalbeyov Hüseyin. “Türkün ülküsü”. “Turk İzi” dergisi, Ankara, şubat (fevral) 1953, yil: 2, say: 7.
51. Mirzecamalbeyov Hüseyin. “Yurddaşım Resulzadə M.Emin beyin

70. doğum yılı münasibetile" . "Azerbaycan" Türk kultur dergisi, Ankara, ocak-şubat 1954, il: 3, sayı: 10-11 (22-23).
52. Mirzecamalbeyov Hüseyin. "Neylerem". "Azerbaycan" Türk Kültür Dergisi, Ankara,1974, yil: 23, sayı 212.
53. Nesibli Nesib. Azerbaycan tarihi: Millet-Devlet-Siyaset. Ankara, Altınordu yayınları, 2019
54. Resulzade M.E. Nesib bey Yusifbeyli. "Odlu Yurt", 1929, № 3
55. Resulzade M.E. Şefibeycilik. İstanbul, 1934
56. Resulzade M.E. Azerbaycan Cümhuriyeti. İstanbul: 1990
57. Resulzade M.E. Kafkasya Türkleri. İstanbul, 1993
58. Resulzade M.E.Hatıralar ve Kafkasya. İstanbul, 2011
59. Resulzade M.E. Milli təsanüd. Ankara: Kardeş matbaası, 1978
60. Resuloğlu M.E. Müsavat Partisinin Kuruluşu // "Müsavat" dergisi, Münhen, 1962, №4
61. Svyatoçovski Tadeuş. Müslüman cemaetten ulusal kimliğe. Rus Azerbaycanı 1905-1920. İstanbul, Bağlam yayınları, 1998
62. Şimşir Sebaheddin. Azerbaycanlıların Türkiyede siyasi ve kültürel faaliyyetleri (1920-1991). Ankara, 2001
63. Tekiner Süleyman. Tarih Boyunca Kommunistvari Fikir ve Hareketler//Ankara,"Birleşik Kafkasiya"degisi,1963, №6 (23)
64. Tekiner Süleyman. Azerbaycanda Fikir Hareketleri // "Kafkasya", Münih, 1952, I) sayı 11-12, s.31-36; II) sayı 14, s.17-20; III) sayı 15, s.17-20
65. Toğan Zeki Velidi. Hatıralar (Türkistan ve Diger Müslüman Doğu Türklerinin Milli Varlık ve Kültür Mücadileleri). Ankara, Türk Diyanet Vakfi Yayınları, 1999
66. Ünal Cemil. Yeniden Doğuş// "Azerbaycan" Kültür Dergisi, №271, 1990 yıl, ocak-şübat
67. Ülken Hilmi Ziya. Türkiyede Çağdaş Düşünce Tarihi. İstanbul. Ülken. 2013
68. Veliyev Afgan. Azerbaycan Siyasi Düşünce Tarihi ve Mirza Bala Mehmetzade, İstanbul, "Doğu Kütüphanesi", 2006
69. Yurdsever Abdül Vahab. Azerbaycan İstiklal Savaşından Sahneler. Ankara, Gece Kitaplığı, 2020
70. Yurdsever Abdul Vahab. "43 Senelik arkadaşım Mirza Bala". "Azerbaycan" dergisi, yıl 7, sayı 12(84), Mart, Ankara, 1959

71. Yurdsever A. Sabirin Azerbaycan Edebiyatındakı Yeri. Ankara, 1951
72. Yurdsever A. Sovet İstismarcılığı // Ankara, “Azerbaycan” Dergisi, №10-11, 1956 yıl, ocak-şubat
73. Yurtsever Abdulvahab. Abdulla Şaik Vefat Etti // “Azerbaycan” dergisi (Ankara), 1959, sayı 4-5.
74. Yıldırım Elmas. Yigitlere Sesleniş. Ankara, Azerbaycan Kültür Derneği Yayınları, 1990
75. Yıldırım E. Seçilmiş Şiirleri.Ankara,Yeni Cezaevi Matbaası, 1953
76. Önal Hadi. Baküden Elazığa Bir Vatan Hikayesi: Elmas Yıldırım // Elazığ Kültür ve Tanıtma Vakfi dergisi. Yıl: 27. Sayı: 45 temmuz 2016

**Rus dilində**

1. Агайев Ахмед. Панисламизм, его характер и направление. “Каспий” газ., 1900 гг. 14 апрел №81, 22 апрел №87
2. Агайев А. Женщина по исламу и в исламе. Тифлис (Скоропеч. М. Мартиросянца, Михайловский пр. № 81.), 1901
3. Агайев А.Положенийе мусулманских народов// “Каспий”, 1903 гг. 14 нойабр №246, 21 нойабр №251, 29 нойабр №256, 10 декабр №264, 13 декабр №267, 17 декабр №27
4. Ахмедов Ахмед. Азербайджанские тюрки в революции 1905 г., Баку, “Елм”, 2002
5. Алиев Фаик.Азербайджанская философская мысль.Баку: 2014
6. Азербайджанская Демократическая Республика (1918-1920). Парламент (Стенографические отчеты). Баку, 1998
7. Азербайджанская Демократическая Республика (1918-1920) Законодательные акты (сборник документов) Баку: “Азербайджан”, 1998
8. Балаев А. Азербайджанское национальное-демократическое движение в 1917-1920 гг., Баку: “Элм”, 1990
9. Бартолд В.В. Мусульманский мир//Ислам. Энчиклопедия культуры и искусства. Москва, “Эксмо”, 2010
10. Большевики в борьбе за победу социалистической революции в Азербайджане.Документы и материалы 1917-1918 гг., Баку:

Азернешр, 1957
11. Геюшев З.Б. Философская мысль в советском Азербайджане. Баку, “Элм”, 1979
12. ГИА АР (Государственный Исторический Архив Азербайджанской Республики): ф.62. оп.1, д.59, лл. 79, 87
13. История азербайджанской философии, т.1. Баку: Элм, 2002
14. Кулизаде З. Концептуальные проблемы исследования социокультурного развития (конец XX – начало XXI вв.). ч.II. Баку: “Текнур”, 2009
15. Насиров Т. Борьба за власть в Азербайджане (1917-1920). Баку: “Азербайджан”, 1993
16. Топчибашев Е.М. Дипломатические беседы в Стамбуле. Баку: “Эргюн”, 1994
17. Топчибашев Е.М. Меморандум. Баку: “Азербайджан”, 1993
18. Маковельский А.О. Введение в философию. Часть II. Проблема бытия и Проблема оценки. Казань: Издание книжного магазина М.А.Голубева, 1916
19. Мамедов Ф.Т. Культурология и задачи социально-культурного развития Азербайджана // Культурологический журнал “Симург”. Вопросы истории и тероии мировой культуры и цивилизации. Баку: 2008, № 1, с. 11-28.
20. Рзакулизаде С. Дж. Из истории философской мысли Азербайджана. Баку, “Teкнур”, 2010
21. Нариманов Н. Избранные произведения. т.1-2, Баку,“Элм”, 1988, 1989
22. Очерк по истории Азербайджанской философии.I том. Баку, “Элм”,1966
23. Свйатоховский Т. Руский Азярбайджан 1905-1920 гг. “Хазар” жур., 1990,№1.
24. Шахтахтински М. Муслуманы и конституция //“Новое обозрение”, 1905, № 243
25. Заманова Э. Эстетическая мысль в Азербайджане в XIX – начале XX века. Баку, “Текнур”, 2011
26. Zarevand (Zaven Nalbandyan, Vartoui Nalbandyan). Türkiyə və Panturanizm. Paris, 1930 (rus dilində)

**FAİQ ƏLƏKBƏRLİ**

# AZƏRBAYCAN TÜRK FƏLSƏFİ VƏ İCTİMAİ FİKİR TARİXİ (XIX-XX ƏSRLƏR)

**II CILD**

**(Birinci kitab)**

“Elm və təhsil” nəşriyyatının direktoru:
**İnal MƏMMƏDLİ**

**Dizayner:** Zahid Məmmədov
**Tekniki redaktor:** Rövşanə Nizamiqızı

Çapa imzalanmış 30.09.2023
Şərti çap vərəqi 50. Sifariş № 139
Kağız formatı 60x84 1/16. Tiraj 300

Kitab “Elm və təhsil” nəşriyyat-poliqrafiya
müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Тел: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.